AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

“QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ”
festival-konqresin
M A T E R İ A L L A R I

Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 30 may 2024-cü il tarixli (Protokol № 11) qərarı ilə nəşrə tövsiyyə olunur.

Naxçıvan – 2024

ELMİ REDAKTOR: **Elbrus İSAYEV**
Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent

RƏYÇİLƏR: **İsmayıl HACIYEV**
AMEA Naxçıvan Bölməsinin sədri, AMEA-nın həqiqi üzvü
Mahirə HÜSEYNOVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor
Əziz ƏLƏKBƏRLİ
Qərbi Azərbaycan İcmasının Sədri, dosent

REDAKTOR: **Əli HƏŞİMOV** – *Naxçıvan Dövlət Universitetinin dosenti*

REDAKSİYA HEYƏTİ: **Hacıfəxrəddin SƏFƏRLİ**- *Naxçıvan Dövlət Universitetinin pofessoru, AMEA-nın müxbir üzvü*
Məmməd RZAYEV- *Naxçıvan Dövlət Universitetinin pofessoru*
Elsevər ƏSƏDOV - *Naxçıvan Dövlət Universitetinin dosenti*
Nicat YAQUBOV- *Naxçıvan Dövlət Universitetinin dosenti*
Emin ŞIXƏLİYEV - *Naxçıvan Dövlət Universitetinin dosenti*
İman CƏFƏRLİ - *Naxçıvan Dövlət Universitetinin dosenti*

"Qərbi Azərbaycana qayıdış" festival-konqresin materialları. 23-24 noyabr 2023-cü il. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2024, 620 səh.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresin materialları Qərbi Azərbaycanın tarixinə dair həqiqətlər və faktlar, mədəni sərvətlər, dil faktları və toponimika, elm və təhsil, Qərbi Azərbaycana qayıdışın hüquqi aspektlərini özündə əks etdirən məqalə və tezislər toplusudur.

Toplu geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

4700000000
053-2024

© "Əcəmi" 2024



"Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. XX əsrin sonu, XXI əsrin ilk illəri bunu sübut edir və göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Bəli, heç bir şey bir yerdə durmur. Heç bir şey olduğu kimi qalmır. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm".

HEYDƏR ƏLİYEV

Azərbaycan xalqının Ümummilli Lideri



"Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir..."

"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir...
Biz özümüz üçün dost saydığımız ölkələrdən alimləri, arxeoloqları, tarixçiləri dəvət edəcəyik ki, mötəbər bir beynəlxalq konfrans keçirək, bunu təqdim edək. Yəni bir çox addımlar atılmalıdır ki, bu mövzu gündəlikdən çıxmasın, əksinə, bu mövzu beynəlxalq gündəliyə daxil edilsin".

İLHAM ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

TƏŞKİLATÇI QURUMLAR

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Naxçıvan Dövlət Universiteti

Qərbi Azərbaycan İcması

İŞTİRAKÇI QURUMLAR

Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Bakı Dövlət Universiteti

Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycan Memarlıq və İnşaat Universiteti

Ankara Universiteti

Hacettepe Universiteti

Qazi Universiteti

Azərbaycan Texniki Universiteti

Bakı Ali Neft Məktəbi

Atatürk Universiteti

AMEA Naxçıvan Bölməsi

Qars Qafqaz Universiteti

İğdır Universiteti

AMEA Tarix İnstitutu

FESTİVAL-KONQRESİN HƏMSƏDRLƏRİ



Fuad NƏCƏFLİ
Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi



Emin ƏMRULLAYEV
Azərbaycan Respublikasının Elm və Təhsil naziri



Elbrus İSAYEV
Naxçıvan Dövlət Universitetinin rektoru



Əziz ƏLƏKBƏRLİ
Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı

"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"

Festival-konqres

FƏXRİ QONAQLAR

 **Əhliman Əmiraslanov** Milli Məclisin deputatı	 **Səbinə Əliyeva** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)	 **Səttar Möhbalıyev** Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri	 **Elçin Babayev** Bakı Dövlət Universitetinin rektoru	 **Mehmet Cahit Güran** Hacettepe Universitetinin rektoru
 **Cəfər Cəfərov** Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru	 **Necdet Ünüvar** Ankara Universitetinin rektoru	 **Ədalət MURADOV** Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru	 **Misir Mərdanov** Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri	 **Mahirə Hüseynova** ADPU Beynəlxaq əlaqələr üzrə prorektoru
 **Aygün Attar** TC Güvenlik ve Dış Politikalar Kurulu Üyesi	 **Musa Yıldız** Qazi Universitetinin rektoru	 **Gülçöhrə Məmmədova** Memarlıq və İnşaat Universitetinin rektoru	 **Ömer Çomaklı** Atatürk Universitetinin rektoru	 **Elmar Qasımov** Bakı Ali Neft Məktəbinin rektoru
 **İsmayıl Hacıyev** AMEA Naxçıvan Bölməsinin sədri	 **Nəcibə Nəsibova** Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyinin təhsil müşaviri	 **Hüsnü Kapu** Qars Qafqaz Universitetinin rektoru	 **Mehmet Hakkı Alma** İğdır Universitetinin rektoru	 **Vahid Novruzov** Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, Azərbaycan Auditorlar Palatasının sədri
 **Abel Məhərrəmov** Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü	 **Vilayət Vəliyev** Azərbaycan Texniki Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının üzvü	 **Anar Bağırov** Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri	 **İbrahim Ethem Atnur** Milli Savunma Universitetinin professoru	 **Kərim Şükürov** AMEA Tarix İnstitutunun direktoru


NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA
AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏLİYİ
AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN
DÖVLƏT UNİVERSİTETİ
QƏRBİ AZƏRBAYCAN
İCMASI
"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞA GEDƏN YOL"
KONQRES
"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL - KONQRES
NAXÇIVAN ŞƏHƏRİ
23-24 NOYABR 2023-CÜ İL
Şörəyel
Dağ Borçalısı
Dilican
Kərbibasar
Qırxbulaq
Göyçə
Sərdarabad
İrəvan
Zəngibasar
Dərələyəz
Zəngəzur


Azərbaycan Respublikasının
Türkiyə Respublikasındakı Səfirliyi
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Azərbaycan
TEXNİKİ
Universiteti

KONQRESİN İSTİQAMƏTLƏRİ

1. **QƏRBİ AZƏRBAYCAN: TARİX, HƏQİQƏTLƏR VƏ FAKTLAR**
   - Qərbi Azərbaycanda yerləşən arxeoloji abidələr, ilk insan məskənləri, tarixi abidələrin tədqiqinin vəziyyəti, bölgənin öyrənilməsinin tarixşünaslığı
   - Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsi, etnomədəni terror, azərbaycanlılara qarşı çarizmin müstəmləkəçilik siyasəti
   - 1905-1907, 1918-1920, 1948-1953, 1987-1991-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı və deportasiya siyasəti

2. **QƏRBİ AZƏRBAYCANIN MƏDƏNİ SƏRVƏTLƏRİ**

   - Qərbi Azərbaycanda orta əsrlərdə fəaliyyət göstərmiş məktəb və mədrəsələr
   - XIX əsr Azərbaycan təhsil sistemində Qərbi Azərbaycanda fəaliyyət göstərən tədris ocaqları
   - İrəvan quberniyasında təhsil və elm
   - Qərbi Azərbaycan torpaqlarında tarixən mövcud olan mədəni irs və onun bugünkü vəziyyəti
   - Qərbi Azərbaycanda yaşamış saz-söz ustalarının yaradıcılığı, görkəmli elm adamları, şairlər və incəsənət xadimləri

3. **QƏRBİ AZƏRBAYCAN DİL FAKTLARI VƏ TOPONİMİKASI**

   - Qərbi Azərbaycan şivələri
   - Qərbi Azərbaycan toponimikası

4. **QƏRBİ AZƏRBAYCANDA ELM VƏ TƏHSİL**

   - Qərbi Azərbaycandan olan elm xadimləri
   - Qərbi Azərbaycanda milli Azərbaycan məktəbləri

5. **QƏRBİ AZƏRBAYCANA QAYIDIŞIN HÜQUQİ ASPEKTLƏRİ**

   - Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlıların pozulmuş hüquq və azadlıqları
   - Qərbi Azərbaycanda törədilmiş beynəlxalq cinayətlər və Ermənistanın məsuliyyəti
   - Qərbi Azərbaycanda Azərbaycan xalqına məxsus mədəni irsin beynəlxalq hüquqi müdafiəsi

MÜNDƏRİCAT

TƏŞKİLATÇI QURUMLAR 5

FESTİVAL-KONQRESİN HƏMSƏDRLƏRİ 6

FƏXRİ QONAQLAR 7

KONQRESİN İSTİQAMƏTLƏRİ..... 9

PLENAR ÇIXIŞLAR 23

Fuad NƏCƏFLİ
NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİNİN ÇIXIŞI..... 23

Emin ƏMRULLAYEV
AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRİNİN ÇIXIŞI..... 26

Elbrus İSAYEV
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN REKTORUNUN ÇIXIŞI..... 29

Əziz ƏLƏKBƏRLİ
QƏRBİ AZƏRBAYCAN İCMASININ SƏDRİ, MİLLİ MƏCLİSİN DEPUTATININ ÇIXIŞI..... 33

Səbinə ƏLİYEVA
AZƏRBAYCAN RESPUBLIKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN (OMBUDSMAN) ÇIXIŞI..... 36

Mahirə HÜSEYNOVA
ADPU-NUN BEYNƏLXALQ ƏLAQƏLƏR ÜZRƏ PROREKTORUNUN ÇIXIŞI..... 39

Misir MƏRDANOV
AMEA-NIN MÜXBİR ÜZVÜ, QƏRBİ AZƏRBAYCAN İCMASI MÜŞAHİDƏ ŞURASI SƏDRİNİN ÇIXIŞI..... 44

Mehmet CAHİT GÜRAN
HACETTEPE UNİVERSİTETİ REKTORUNUN ÇIXIŞI..... 45

Əhliman ƏMİRASLANOV
QƏRBİ AZƏRBAYCAN İCMASININ AĞSAQQALLAR ŞURASININ SƏDRİ, MİLLİ MƏCLİSİN DEPUTATININ ÇIXIŞI..... 46

Musa YILDIZ
TÜRKİYƏNİN QAZİ UNİVERSİTETİ REKTORUNUN ÇIXIŞI..... 48

Gülçöhrə MƏMMƏDOVA
QƏRBİ AZƏRBAYCAN İCMASININ MÜŞAHİDƏ ŞURASININ ÜZVÜ, MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ REKTORUNUN ÇIXIŞI..... 49

Abel MƏHƏRRƏMOV
QƏRBİ AZƏRBAYCAN İCMASI AĞSAQQALLAR ŞURASI ÜZVÜNÜN ÇIXIŞI.....50

Cəfər CƏFƏROV
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ REKTORUNUN ÇIXIŞI..... 52

Vahid NOVRUZOV
QƏRBİ AZƏRBAYCAN İCMASININ NƏZARƏT-TƏFTİŞ KOMİSSİYASININ SƏDRİNİN ÇIXIŞI..... 55

I BÖLMƏ. QƏRBİ AZƏRBAYCAN: TARİX, HƏQİQƏTLƏR VƏ FAKTLAR

İsmayıl HACIYEV
Tarixi Azərbaycan: Qərbi Azərbaycana qayıdış missiyası 56

Arzu *ABDULLAYEV*
Qərbi Azərbaycana qayıdış: konseptual yanaşma 66

Emin ŞIXƏLİYEV
XX əsrin əvvəllərində türk birliyinə ağır zərbə kimi Ermənistan dövlətinin yaradılması və pərdəarxası məqamlar (Böyük Britaniyanın arxiv materialları əsasında) 72

Yaşar RƏHİMOV
XIX əsr rus mənbələrində Qərbi Azərbaycanda din xadimlərinin ailə və say tərkibinə dair bəzi qeydlər 85

Qadir ƏKBƏROV
Qərbi Azərbaycan və deportasiya edilmiş azərbaycanlılar (XX əsr) 90

Şamxal MƏMMƏDOV
Azərbaycan Xalq Cümhuriyyəti dövrü Zəngəzurda erməni terroru və deportasiyaları 99

Elçin ZAMANLI
Qərbi Azərbaycan bölgəsində Ermənistanın etnik təmizləmə və genosid siyasəti tarixin işığında..... 104

Şəfa MUSAYEVA
Cənubi Qafqazın Çar Rusiyası tərəfindən işğalından sonra inzibati-ərazi dəyişikliklərində Yelizavetpol quberniyasının yeri və rolu (1868-1900- cu illər) 118

Müşfiq RAMAZANOV
Vətən Müharibəsində Azərbaycanın zəfərini şərtləndirən faktorlar 125

Aytən ƏSƏDOVA
Qərbi Zəngəzurun tarixi abidələrində türk izləri 128

Mübariz AĞALARLI
XIX əsrin 30-cu illərində Naxçıvan əyalətinin Dərələyəz mahalının etno-demoqrafik və sosial-iqtisadi vəziyyəti (V.N.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" əsəri əsasında) 139

Rəsul BAĞIROV
Türk diyarı – Şərqi Dərələyəz 149

İsmayıl ZEYNALOV, İlqar KƏNGƏRLİ
Qədim oğuz-türk yurdu İrəvanın tarixi abidələri 154

İlhami ƏLİYEV
Səfəvilər dövründə Zəngəzurun tarixi coğrafiyası: sərhədləri və inzibati ərazi bölgüsü 161

Abdulla MUSTAFAYEV, Ruhiyyə RZAYEVA, Münəvvər SÜLEYMANOVA
Vedibasar 1918-1920-ci illərdə 168

Elnarə ALLAHVERDİYEVA
Azərbaycan tarixində 1905-1907-ci il hadisələri və reallıqlar 178

Elman CƏFƏRLİ
Zəngəzur dəhlizi: beynəlxalq və strateji aspektləri 185

Tahirə MƏMMƏD
İrəvan Azərbaycan ədəbi mühitinin repressiya və deportasiyası 196

II BÖLMƏ. QƏRBİ AZƏRBAYCANIN MƏDƏNİ SƏRVƏTLƏRİ

Hacıfəxrəddin SƏFƏRLİ
Qərbi Azərbaycanın orta əsr türk-islam mədəniyyəti abidələrinə qarşı erməni vəhşilikləri..... 206

Mahirə HÜSEYNOVA
"Qara" komponentli toponimlərin leksik-semantik xüsusiyyətləri..... 214

Əsgər QƏDİMOV
Qərbi Azərbaycanın ustad sənətkarı Aşıq Kamil Teymuroğlu..... 219

Dilqəm ƏHMƏD
Məhəmməd Ağaoğluna dair yeni faktlar..... 224

Elnur KƏLBİZADƏ
Ümummilli lider Heydər Əliyevin sovet dövründə qəbul etdiyi qərarlarda Qərbi Azərbaycan mədəniyyətinin qorunması və təbliği məsələləri..... 234

Toğrul XƏLİLOV
Qərbi Azərbaycanda məişət mədəniyyəti və Naxçıvanla Qərbi Azərbaycan qayaüstü təsvirlərində qədim türk mədəniyyətinin izləri..... 239

Bənövşə RZAYEVA
Zəngəzurlu el şairləri Dəllək və Ululu Kərim yaradıcılıqlarına aid reallıqlar..... 246

Hafiz HÜSEYNOV
Qərbi Azərbaycan ərazisində mədəni turizm potensialının tədqiqi..... 256

Gülnarə QƏNBƏROVA
Qərbi Azərbaycanın memarlıq abidələrinin üslub xüsusiyyətləri və mövcud vəziyyəti..... 263

Sədaqət NEMƏTOVA
Qərbi Azərbaycandan köç edənlərin əzabları, onların lirik poetik formada ifadəsi..... 282

Şərəbanı MƏMMƏDOVA
İrəvan şairləri Firidun bəy Köçərli və Mirzə Məhəmmədəli Tərbiyətin təqdimatında..... 291

Brilyant CƏFƏRLİ
Memarlıq ənənələrimizin izlərinin bir əsrlik əsarət həyatı yaşayan Zəngəzurdakı alban məbədlərində mövcudluğu..... 297

Məhəbbət BABAYEVA
Qərbi Azərbaycan folklorunda "Yallı" rəqsi..... 308

Taleh XƏLİLOV
İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarının maarifçilik fəaliyyəti..... 316

Aytəkin QƏHRƏMANOVA
Qərbi Azərbaycan qadın geyim mədəniyyəti (Aşıq Ələsgər yaradıcılığına əsasən)..... 323

Yusif SƏFƏROV
"Kitabi-Dədə Qorqud" boylarında Qərbi Azərbaycan..... 334

Gülnaz ABDULLAZADƏ, Nuridə İSMAYILZADƏ
Qərbi Azərbaycan yallılarının erməni plagiatına məruz qalmasının elmi araşdırması..... 340

Həqiqət YUSİFOVA
Qərbi azərbaycanlıların deportasiyasının mədəniyyətə təsiri və Üzeyir Hacıbəyli yaradıcılığında erməni plagiatı..... 346

İman CƏFƏROV
Cəlil Məmmədquluzadənin publisistik yaradıcılığında İrəvan və Zəngəzur mövzusu..... 351

Püstə ƏHMƏDOVA
Azərbaycan ədəbi mühitində Nəsimi obrazı..... 362

Əfqan VƏLİYEV
Qərbi Azərbaycanın mədəni abidələri..... 368

Zülfiyyə İSMAYIL
Böyük qayıdış missiyası: unutdurulmuş həqiqətlərdən reallığa..... 386

İnci ADİLZADƏ
Qərbi Azərbaycanda xalçaçılığın inkişafı..... 391

III BÖLMƏ. QƏRBİ AZƏRBAYCAN DİL FAKTLARI VƏ TOPONİMİKASI

Arif AĞALAROV
Dərələyəzin kimliyini təsdiq edən toponimlər 395

Firudin RZAYEV
Qərbi Azərbaycanda türk tayfa və məntəqə adları - oykonimlərin "ermənilaşdirilməsi" 399

Elxan YURDOĞLU-MƏMMƏDOV
Folklor toplayıcılığı zamanı qeydə alınan mənzum mətnlərdə
Qərbi Azərbaycanlıların vətən həsrəti 406

Sədaqət HƏSƏNOVA
Aşıq Bəhmən Göyçəlinin dil-üslub xüsusiyyətləri 416

Əbülfəz ƏZİMLİ
Mahirə Nağıqızının poetik icazında heyrətin Dərələyəz yanğıları 421

Xanəli KƏRİMLİ
Aşıq Ələsgər yaradıcılığında humanizm 437

İradə KƏRİMOVA
Qərbi Azərbaycan kontekstində türk mənşəli toponimlər 443

Qalibə HACIYEVA
1590-1728-ci il İrəvan əyalətinin müfəssəl və icmal dəftərlərində
Azərbaycanın tarixi onomastik mənzərəsi 450

Sevinc SADIQOVA
Qərbi Azərbaycanın Dərələyəz mahalının toponimləri 463

Şöhrət MƏMMƏDOVA
Dərələyəz elinin dilimizi, tariximizi yaşadan oğlu 469

Xuraman HACIZADƏ
Həsən Mirzə şeirlərində fonetik tarazlıq 474

Röya ƏLİYEVA
Aşıq Ələsgərin dili və söz-ifadə yaradıcılığı 479

Günay MƏHƏRRƏMOVA
Qərbi Azərbaycan etnotoponimləri: tarixi həqiqətlər, perspektivlər
Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri 483

IV BÖLMƏ. QƏRBİ AZƏRBAYCANA QAYIDIŞIN HÜQUQİ ASPEKTLƏRİ

Qəhrəman BEHBUDOV, Rövşən İSMAYILXANLI
Qərbi Azərbaycanda milli-mənəvi mirasımızın məhv edilməsi və ona siyasi-hüquqi baxış..... 487

İsmayıl QƏRİBLİ, Məryəm AZAD
Soydaşlarımızın Qərbi Azərbaycana qayıdışının beynəlxalq-hüquqi əsasları..... 493

Atilla ÖZTÜRK
Kars anlaşmasından Şuşa beyannamesine (hukuki ve politoloji olaylar ve onların bölge için önemi)..... 504

Fərəh CƏLİL
Oğuz mifoloji təfəkküründə öz əksini tapmış rəng simvolikasının Zəngəzurun geyim antropologiyasında təcəssümü..... 515

V BÖLMƏ. QƏRBİ AZƏRBAYCANDA ELM VƏ TƏHSİL

Əbülfəz QULİYEV
Qərbi Azərbaycanın yetirmələri: Əziz Əliyev..... 518

Səbuhi İBRAHİMOV
Qərbi Azərbaycanın görkəmli islam alimləri..... 526

Mətanət QULİYEVA
İrəvan Müəllimlər Seminariyası müəllim hazırlığında mühüm təhsil ocağı kimi 530

Ələkbər QASIMOV
Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı..... 535

TEZİSLƏR

I BÖLMƏ. QƏRBİ AZƏRBAYCAN: TARİX, HƏQİQƏTLƏR VƏ FAKTLAR

Əlövsət QULİYEV
Qərbi Azərbaycan və Naxçıvan: deportasiyadan qayıdışa..... 540

Esmira CƏFƏROVA
Qərbi Zəngəzur Azərbaycan milli doktrinası və türk dünyası kontekstində 543

Nadir HÜSEYİNBƏYLİ, Nuray MƏMMƏDLİ
Qərbi azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi etnik təmizləmə və soyqırım siyasəti.....545

Hicran MAHMUDOVA
Qərbi Azərbaycanın arxeoloji irsi: ənənələr və varislik..... 546

Əhməd MƏMMƏDOV
Qərbi Azərbaycana qayıdış prosesində tarixi şəxsiyyətlər amilindən istifadə..... 547

II BÖLMƏ. QƏRBİ AZƏRBAYCANIN MƏDƏNİ SƏRVƏTLƏRİ

Asəf ORUCOV
Qərbi Azərbaycanda məişət mədəniyyəti və Naxçıvanla qarşılıqlı əlaqələri 548

Fəxriyyə HƏVİLOVA
Etnoqrafik tədqiqatlarda aşıq yaradıcılığı və Göyçə aşıq məktəbi..... 549

Məleykə MƏMMƏDOVA
Naxçıvan və İrəvan çuxuru folkloru kontekstində toy mərasimləri..... 551

Elnarə SEYİDOVA
"itirilmiş torpaqlarımız" professor S.Y.Babayevin tədqiqatlarında
Qərbi Azərbaycan mövzusu..... 552

Almaz ŞABANOVA
Qərbi Azərbaycan xalçalarında rəng semantikası..... 553

Şəhla MƏCİDOVA
Məmməd Səid Ordubadi 1905-ci il Naxçıvan və Eçmiədzin hadisələri haqqında..... 554

Aysel İSMAYILOVA
Qərbi Azərbaycanın tarixi-memarlıq abidələrində erməni vandalizmin izləri..... 555

Könül BÜNYADZADƏ
Azərbaycan düşüncə tarixində Qərbi Azərbaycan fenomeni..... 556

Piralı ƏLİYEV
Aşıq Ələsgər şeirlərində Qərbi Azərbaycanın tərənnümü..... 557

Afaq MUSTAFAYEVA
Dərələyəzin böyük el sənətkarı: Aşıq Cəlil..... 558

Akif AĞBABALI, Qismət YUNUSOĞLU, Qoşqar MƏMMƏDOV
Qərbi Azərbaycanın torpaq örtüyü və onun coğrafiyası 561

Həbibə ALLAHVERDİYEVA
Qərbi Azərbaycan xarici ölkə rəssamlarının yaradıcılığında..... 562

Xumar MƏMMƏDOVA
Azərbaycan aşıq sənətinin inkişafında Aşıq Ələsgərin rolu..... 565

Sevda OCAQQULİYEVA
Qərbi Azərbaycan bölgələrində tarixi və mədəniyyət abidələrimiz..... 566

Şəbnəm MƏMMƏDOVA
Qərbi Azərbaycanda mədəniyyət abidələri..... 567

Tahir NƏSİB
Epik təhkiyədə və Sörəyel-Ağbaba oyun-mərasimlərində tarixi-mifoloji qatların təzahür xüsusiyyətləri..... 568

Leyla İBRAHİMOVA
İrəvan şəhərinin təbii şəraiti və təbii ekosistemləri..... 569

III BÖLMƏ. QƏRBİ AZƏRBAYCAN DİL FAKTLARI VƏ TOPONİMİKASI

Qənirə ƏSGƏROVA
Göyçəli şair Məhəmmədin yaradıcılığının linqvistik cəhətləri..... 571

Aytən CƏFƏROVA
Qərbi Azərbaycanın folklor aləminə ümum nəzəri baxış..... 573

Nəzakət İSMAYILOVA
"Zəngəzur" romanındakı hadisələrin bu günümüzlə paralelliyi..... 575

Ülviyyə İSGƏNDƏROVA, Nailə ƏLİYEVA
Qədim türk yurdu - Dərələyəz mahalının toponimləri..... 577

Süsənbər AĞAMALIYEVA
Qərbi Azərbaycan toponimlərinin dəyişdirilməsi siyasəti..... 578

Ləman SÜLEYMANOVA
Şəkidə məskunlaşmış Qərbi Azərbaycanlılar və onların folkloru..... 579

Akif AĞBABALI, Tahir İBRAHİMOV
Zəngəzur qəzasının (mahalının) toponimləri..... 580

Nüşabə MƏMMƏDOVA
Aşıq Ələsgər haqqında yaranmış rəvayətlər..... 581

Günel HÜMMƏTOVA (PƏNİYEVA)
Qərbi Azərbaycan folkloru (Dərələyəz mahalı)..... 583

IV BÖLMƏ. BEYNƏLXALQ HÜQUQ ÇƏRÇİVƏSİNDƏ QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASI

Bənövşə CƏLALZADƏ
Beynəlxalq hüquq çərçivəsində Qərbi Azərbaycana qayıdış konsepsiyası..... 585

V BÖLMƏ. QƏRBİ AZƏRBAYCANDA ELM VƏ TƏHSİL

Əfşan ŞƏFİYEVA
Uluxanlı məktəbinin Qərbi Azərbaycan maarifçilik hərəkatında rolu..... 586
Hacalı NƏCƏFOĞLU
Rusiya imparatorluğu Kafkas eğitim idaresi yayınlarında Batı Azerbaycan..... 587

Vaqif QURBANOV
"Böyük didaktika və Azərbaycan didaktikasını yaratmaq haqqında" tezislər..... 589

Sahilə ABBASOVA
Folklor materiallarının ümumiləşdirici dərslərdə eksperimental təhlilinə dair tezislər..... 591

Hüzürə HACIZADƏ
Qədim yurd Qərbi Azərbaycanın maarifpərvər müəllimi
Mirzə Məmmədvəli Qəmərlinskinin pedaqoji fəaliyyəti..... 593

FOTOQALEREYA 595

MEDİA DƏSTƏYİ 619

ÖN SÖZ

Naxçıvanda keçirilən festival-konqres Qərbi Azərbaycana qayıdış kosepsiyasına mühüm töhvədir

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 2022-ci ilin dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə müəyyənləşdirdiyi tapşırıqlar və qayıdış konsepsiyası əsasən ziyalılar qarşısında mühüm vəzifələr formalaşdırmışdır. Bu görüşdə dövlət başçımız tərəfindən səsləndirilən fikirlər xalqımızın tarixində yeni bir dövrün başlandığını xəbər verdi. Dövlətimizin başçısı soydaşlarımızın öz doğma torpaqlarına qayıtması ilə bağlı yeni milli strateji hədəfləri açıqladı. Tarixi ədalətin bərpasına, sülhə olan töhfəmizi məhz elmi faktlarla, dürüst mənbələrlə çatdırmaq üçün Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə 23-24 noyabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə ölkəmizin ali təhsil müəssisələri və Türkiyədən olan 20-dən çox qurumun tərəfdaşlığı ilə ilk dəfə olaraq "Qərbi Azərbaycana qayıdış" festival-konqresi keçirilmişdir.

Naxçıvan Dövlət Universitetində "Qərbi Azərbaycana qayıdış" festival-konqresin Əsasnaməsi hazırlanmış, 36 nəfərlik Elmi Komitə, 45 nəfərdən ibarət Təşkilat Komitəsi, rəsmi saytı və loqosu yaradılmışdır.

Festival-konqresdə əslən Qərbi Azərbaycandan olan vətəndaşlar, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələri, eyni zamanda Qərbi Azərbaycan İcmasının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Azərbaycan Texniki Universitetinin, Bakı Ali Neft Məktəbinin, AMEA Naxçıvan Bölməsinin, AMEA Tarix İnstitutunun, Vəkillər Kollegiyası Akademiyasının, eləcə də qardaş Türkiyədən Ankara Universitetinin, Hacettepe Universitetinin, Qazi Universitetinin, Atatürk Universitetinin, Qars Qafqaz Universitetinin və İğdır Universitetinin rektorları və geniş tərkibdə heyətləri təmsil olunmuşdur. Festival-konqresin təşkilində Naxçıvan Muxtar Respublikasının İcra Hakimiyyətləri, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və Rəssamlar Birliyi iştirak etmişdir.

Festival-konqresdə Azərbaycanın və Türkiyə Respublikasının bir sıra aparıcı universitetlərinin rektorları, millət vəkilləri, akademiklər, incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri iştirak etmişdir.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresində kulinariya, rəsm əsərləri, milli geyim, məişət avadanlıqlarının sərgiləri, Qərbi Azərbaycana həsr olunmuş film nümayişləri, kitab təqdimatları, ustad dərsləri, xalq oyunları, kompozisiyalar, konsert proqramları təşkil edilmiş və konqres keçirilmişdir.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresin rəsmi açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının Elm və Təhsil naziri Emin Əmrullayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynovanın çıxışları dinlənilmişdir.

Festival-konqresin açılış tədbirində Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının bakalavr və magistratura üzrə təhsil alan tələbələri tərəfindən tədbirin əsas qayəsini özündə əks etdirən "Sevin Azərbaycanı" adlı maraqlı tamaşa-kompozisiya təqdim olunmuşdur.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresin açılış tədbirinin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni

səsləndirilmişdir. Universitetin "Muğam üçlüyü"nün ifasında "Zəngəzurum" muğamı, rəqs qrupunun ifasında "Azərbaycan Suitası", Aşıqlar ansamblının ifasında "Baş müxəmməs", "Naxçıvanqala" ritm qrupunun ifasında "Qarabağ" kompozisiyası nümayiş olunmuş, Naxçıvan Dövlət Universitetinin yeni yaradılmış 56 nəfərdən ibarət "Xalq çalğı alətləri orkestri" və 17 nəfərdən ibarət "Buta" instrumental ansamblının ifalarında Qərbi Azərbaycana xas olan musiqi nömrələri təqdim olunmuşdur. Bədii hissədə ölkənin tanınmış musiqi xadimləri - xalq artistləri Ağaverdi Paşayev, Gülyanaq Məmmədova, Nurəddin Mehdixanlı, Əməkdar artistlər Elnur Zeynalov və Nuriyyə Hüseynova iştirak etmişdir.

Açılış tədbirindən sonra **"**Dövlət Qonaq Evi"ndə Universitetin Texnologiya Mərkəzi tərəfindən Qərbi Azərbaycan mətbəxinə məxsus olan kulinariya sərgisi keçirilmiş, sərgiyə 59 çeşid yemək, 44 çeşid meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitkilər, 94 növ mürəbbə, 12 adda bitki çayı, 13 növ şirniyyat çıxarılmışdır.

Heydər Əliyev Sarayında təşkil olunmuş sərgidə Qərbi Azərbaycan mədəniyyətinə aid milli geyim nümunələri, məişət əşyaları, quramalar, xalçalar, keçə sənəti nümunələri, bədii tikmələr, Qərbi Azərbaycan xəritəsini əks etdirən dekorativ sənət nümunələri, Qərbi Azərbaycanı təbliğ edən suvenirlər, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin müəllim və tələbələri tərəfindən hazırlanmış Qərbi Azərbaycana məxsus tarixi abidələrin maketləri təqdim edilmişdir.

Həmçinin festival-konqresdə universitetin İncəsənət fakültəsinin müəllim və tələbələri tərəfindən 100-dən çox rəngkarlıq, heykəltəraşlıq, dekorativ tətbiqi sənət nümunələri nümayiş olunmuşdur. Heydər Əliyev Sarayında festival-konqresin rəsmi qonaqları Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü Misir Mərdanovun, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı akademik Əhliman Əmiraslanovun, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü, Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovanın, Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, Azərbaycan Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü, akademik Abel Məhərrəmovun, Hacettepe Universitetinin rektoru, professor Mehmet Cahit Güranın, Qazi Universitetinin rektoru, professor Musa Yıldızın, Azərbaycan Dövlət Pedaoji Universitetinin rektoru, professor Cəfər Cəfərovun, Türkiyə Respublikası Güvenlik ve Dış Politikalar Kurulu Üyesi Aygün Attarın çıxışları dinlənilmişdir.

Festival-konqresin Heydər Əliyev Sarayında keçirilən bədii hissəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi və universitetin tabeliyində olan Musiqi Kollecinin müəllim və tələbələrinin eyni zamanda rayon, şəhər mədəniyyət qruplarının ifasında Qərbi Azərbaycana aid aşıq musiqiləri, yallılar, kompozisiyalar, musiqi nömrələri, xalq oyunları təqdim olunmuşdur.

"Qərbi Azərbaycana qayıdış" festival-konqres müddətində Naxçıvan Dövlət Universitetində Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynovanın "Qərbi Azərbaycan toponimləri" mövzusunda, Vəkillər Kollegiyası Akademiyasının rektoru, hüquq elmləri doktoru, professor Əmir Əliyevin "İnsan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri", Vəkillər Kollegiyasının üzvü, hüquq elmləri doktoru, professor Mayis Əliyevin "Əmək mübahisələrinə baxılmasının məhkəmə təcrübəsi", Vəkillər Kollegiyasının İxtisas Komissiyasının sədri, "Azərbaycan Hüquq Jurnalı"nın baş redaktoru, hüquq elmləri doktoru, professor Turqay Hüseynovun "Kommersiya mübahisələrinin həllinin aktual məsələləri", Vəkillər Kollegiyasının üzvü, hüquq elmləri doktoru, professor Sübhan Əliyevin "İnzibati məhkəmə icraatında iddialar və onların növləri" mövzularında mühazirələri və ustad dərsləri keçirilmişdir.

Festival-konqres çərçivəsində Naxçıvan Gənclik Mərkəzində "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyi (AJN) tərəfindən qərbi azərbaycanlıların doğma torpaqlarına qayıdışı mövzusuna həsr olunmuş "Nəsil ağacı" və "Yada Daşı" filmləri izləyicilərə təqdim olunmuşdur. Təqdimat mərasimində rəsmi qonaqlar, ziyalılar, ictimaiyyət nümayəndələri, tələbələr iştirak etmişdir.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili", filologiya üzrə fəlsəfə doktoru, dosent Könül Həsənova və pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nazilə Abdullazadənin müəllifi olduqları "Zəkanın və milli yaddaşın təntənəsi" kitablarının, Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutu kollektivinin Qərbi Azərbaycan tarixi üzrə hazırladığı "XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən", dörd dildə nəşr edilən "İrəvan xanlığı", "İrəvan əyalətinin icmal dəftəri", "İrəvan əyalətinin müfəssəl dəftəri", Naxçıvan Müəllimlər İnstitutunun professoru Yusif Səfərovun "Aşıq yaradıcılığında Qərbi Azərbaycan" kitablarının təqdimatı keçirilmişdir.

Festival-konqres çərçivəsində Universitetin İncəsənət fakültəsində Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Fəxriyə Xələfova ilə görüş keçirilmişdir. Görüşdə "Milli ornamentlərin harmoniyası" adlı kolleksiyadan geyim nümunələri sərgilənmiş və "Xan qızı Xurşidbanu Bəyim Natəvan" filminin təqdimatı keçirilmişdir.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı Konqres keçirilmişdir. Konqres 5 istiqamət üzrə keçirilmişdir: "Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar", "Qərbi Azərbaycanın mədəni sərvətləri", "Qərbi Azərbaycan dil faktları və toponimikası", "Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri", "Qərbi Azərbaycanda elm və təhsil".

Konqresə Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi, Qərbi Azərbaycan İcması, Sumqayıt Dövlət Universiteti, AMEA Folklor İnstitutu, Vəkillər Kollegiyası Akademiyası, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Mingəçevir Dövlət Universiteti, Qars Qafqaz Universiteti, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, AMEA Əlyazmalar İnstitutu, AMEA Tarix İnstitutu, AMEA Qafqazşünaslıq İnstitutu, Azərbaycan Dövlət Aqrar Universiteti, AMEA Şərqşünaslıq İnstitutu, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Slavyan Universiteti, Prezident Kitabxanası, DTX-nın Heydər Əliyev adına Akademiyası, Sosial Tədqiqatlar Mərkəzi, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Botanika İnstitutu, AQRA Elmin İnkişafına Dəstək İctimai Birliyi, Naxçıvan Musiqi Kolleci əməkdaşları məruzələrlə qatılmışdır. Ümumilikdə Konqresin elektron poçtuna məruzə üçün 30-dan artıq elm və təhsil müəssisəsindən 300-dək məqalə və tezis qəbul edilmişdir. Konqresin Elmi Komitəsi və rəyçiləri tərəfindən 173 alimin 157 məruzəsi seçilərək konqresin proqramına daxil edilmiş, həmin məruzələr 17 bölmə iclasında dinlənilmişdir.

Konqresin sonunda bağlanış tədbiri keçirilmiş, iştirakçılara sertifikatlar təqdim olunmuşdur. Konqresin hər il keçirilməsi qərara alınmışdır.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində iştirakçıların Ordubad rayonuna səfəri təşkil olunub. Səfər çərçivəsində rayonun Parağa kəndində yaşayan Qərbi azərbaycanlılarla görüş keçirilib. Görüşdə Qərbi Azərbaycana məxsus folklor nümunələri, mədəniyyət və mətbəx nümunələri nümayiş etdirilib. Görüşün keçirildiyi məkanda qonaqlar üçün konsert proqramı da təşkil olunub.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresin iştirakçıları Kəngərli rayonunun Çalxanqala kəndində deportasiyaya məruz qalmış soydaşlarımızla görüşüblər. Qonaqlar Çalxanqala kənd mərkəzində Qərbi azərbaycanlılara məxsus müxtəlif məişət əşyaları, mətbəx nümunələrindən ibarət sərgiyə baxıblar.

Festival-konqres ölkənin əsas aparıcı mediasında - AzTV, Xəzər TV, Naxçıvan TV, Baku TV, Qərbi Azərbaycan TV, 525-ci qəzet, Şərq qapısı qəzeti, AZƏRTAC, Nuhçıxan, Report, APA, Azərbaycan müəllimi qəzeti, İki sahil qəzeti, Xalq qəzeti və başqaları daxil olmaqla ümumilikdə 133 qəzet, jurnal, televiziya və xəbər saytlarında işıqlandırılmışdır. Festival-konqres haqqında məlumatlar 20-dən çox xarici ölkə mediasında yer almış və həmçinin bundan narahatçılıq keçirən Ermənistan mediasında təşvişə səbəb olmuşdur.

Konqres-festivalda aşağıdakı nəticələrə gəlinmişdir:

Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi: "Bizi Qərbi Azərbaycana böyük qayıdış gözləyir" hədəfi istiqamətində festival-konqresin bütün iştirakçıları tərəfindən birlik və əminlik ifadə edilmişdir;

Qərbi Azərbaycanda ermənilərin və onlara havadarlıq edənlərin xalqımıza qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti, milli faciə və vandalizm faktlarının geniş şəkildə ictimaiyyətə çatdırılması təmin edilmişdir;

Ermənilərin doğma torpaqlarımızda yerləşdirilmələri, azərbaycanlıların planlı surətdə doğma yurdlarından qovulması ilə bağlı tarixi faktlara söykənilmiş, yeni, dolğun məlumatlar təqdim olunmuşdur;

Qərbi Azərbaycana məxsus maddi mədəniyyət nümunələri təqdim olunmuşdur;

Qərbi Azərbaycandan olan, muxtar respublikada yaşayan sakinlər ilk dəfə olaraq bir araya gəlmiş və onlarla görüşlər keçirilmişdir;

Ermənistan Respublikasının dövlət səviyyəsində həyata keçirdiyi etnomədəni siyasətin qurbanı olmuş yer adlarımızın – toponimlərin, oykonimlərin, hidronimlərin dəyişikliyə məruz qalmasının tarixi faktlara söykənərək elmi əsaslarla təsdiqinə və dünya elmi ictimaiyyətinə çatdırılmasına çalışılmışdır;

Ölkəmizin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gəlmiş, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yeniliklər dinlənilmiş və fikir mübadiləsi aparılmışdır.

Ümumilikdə, "Qərbi Azərbaycana qayıdış" festival-konqresinə müxtəlif formatda 10 min nəfərdən çox iştirakçı qatılmışdır.

Konqresin materiallarına Naxçıvanda keçirilən festival konqresin məruzələri, bir sıra maddi-tarixi eksponatları və konqresin fotoqalereyası daxil edilmişdir. İnanırıq ki, konqresin materialları gələcəkdə bu sahədə tədqiqat aparanlar üçün mühüm istiqamət və mənbə rolunu oynaya biləcəkdir.

ELBRUS İSAYEV
Naxçıvan Dövlət Universitetinin rektoru,
tarix üzrə fəlsəfə doktoru, dosent

PLENAR ÇIXIŞLAR

Fuad NƏCƏFLİ
Naxçıvan Muxtar Respublikasında
Azərbaycan Respublikası Prezidentinin
səlahiyyətli nümayəndəsi

Hörmətli qonaqlar!

"Qərbi Azərbaycana qayıdış" festival-konqresinin açılışı münasibətilə hər birinizi salamlayıram!

Naxçıvana xoş gəlmişsiniz!

Bu gün xalqımız öz tarixinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etmişdir. Uzun illər gizli saxlanılan, zaman-zaman təhrif edilmiş hadisələr özünün əsl mahiyyətini və qiymətini alır.

Sözsüz ki, bunun ən mühüm səbəblərindən biri müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Azərbaycanın 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməsi oldu. 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri isə dövlətimizin suverenliyinin onun bütün ərazisində təmin olunması ilə nəticələndi. Tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı ilə yanaşı, həm də Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpasıdır. Daha dəqiq ifadə etsək, Qərbi Azərbaycana qayıdışdır.

2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq, ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı sistemli tədbirlərin keçirilməsinə başlanılmış, bu məqsədlə konsepsiya qəbul olunmuşdur. "Qərbi Azərbaycana qayıdış" festival-konqresi də cənab Prezidentin bu istiqamətdə müəyyənləşdirdiyi tapşırıqların icrası, xüsusilə də Qərbi Azərbaycanın tarixi, mədəni irsi və azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi deportasiyası ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Azərbaycanlıların deportasiyası tarixin tam açılmamış və beynəlxalq səviyyədə hüquqi-siyasi qiymətini almamış səhifələrindəndir. Hesab edirəm ki, bu mövzuda danışarkən tarixi faktlara diqqət yetirmək daha məqsədəuyğun olar.

Bildiyimiz kimi, XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan xalqı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə siyasətinə məruz qalmış, soydaşlarımız doğma torpaqlarından didərgin salınmış, azərbaycanlılara qarşı kütləvi qətl və qırğınlar törədilmişdir. 1813-cü və 1828-ci illərdə imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ermənilərin kütləvi sürətdə Azərbaycan torpaqlarına köçürülməsinə başlanılmış və bununla da azərbaycanlıların deportasiya siyasətinin əsası qoyulmuşdur.

Azərbaycan ərazilərinə ermənilərin köçürülməsi ilə vüsət alan deportasiya və soyqırımlar tarixin müxtəlif dövrlərində - 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə mərhələli şəkildə həyata keçirilmişdir.

Çar Rusiyasının və Sovetlər Birliyinin bu ədalətsizliyə göz yumması, bir çox məqam-

larda isə birbaşa dəstək verməsi nəticə etibarı ilə repressiya siyasətinin daha geniş vüsət almasına səbəb olmuş, proses xüsusilə İkinci Dünya Müharibəsindən sonra güclənmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları ilə 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi sürətdə və zorakılıqla sürgün olunmuş, minlərlə azərbaycanlı, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə və kəskin iqlim dəyişikliyinə dözməyərək həlak olmuşlar.

"Böyük Ermənistan" yaratmaq xülyası təkcə torpaqlarımızın işğalı, deportasiya və soyqırımları ilə müşahidə olunmamışdır. Bu məkrli siyasət xalqımızın həmin ərazilərdəki tarixi-mədəni irsinin məhvinə də səbəb olmuş, tarixi abidələrimiz – türbələr, karvansaraylar, qədim yaşayış məskənləri, məscidlər, körpülər, saraylar, qalalar dağıdılmış, qədim Azərbaycan toponimləri saxta və uydurma adlarla əvəzlənmiş, açıq şəkildə mono-etnik dövlətçilik və etnik təmizləmə siyasəti həyata keçirilmişdir.

Aydın məsələdir ki, Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə bu proseslərin qarşısı alınmışdır. 1970-1980-ci illərdə Ulu Öndərin yorulmaz fəaliyyəti, şəxsi nüfuzu və cəsarəti sayəsində xalqımız növbəti deportasiya və etnik təmizləməyə məruz qalmamışdır. Lakin 1987-ci ildə Ümummilli Liderin Sovetlər Birliyinin rəhbərliyindən getməsi Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın növbəti acı taleyinin başlanğıcı olmuş, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu və ən dəhşətli mərhələsi icra olunmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin də qeyd etdiyi kimi, *"Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm ovaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən ovaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi".*

Təəssüf ki, xalqımıza qarşı törədilmiş etnik təmizləmə və deportasiya siyasəti müstəqilliyin ilk illərində lazımınca araşdırılmamışdır. Yalnız Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ilk dəfə azərbaycanlıların deportasiyasına hüquqi-siyasi qiymət vermiş, 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında" Fərman imzalamışdır. Fərmanda hadisələrin mahiyyəti dəqiq analiz olunaraq göstərilir ki, *son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq*

kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

Xalqımıza qarşı 200 il müddətində törədilmiş kütləvi deportasiya və soyqırımı siyasətindən danışarkən bir məsələnin üzərində xüsusilə durmaq lazımdır. Bu da həmin dövrlərdə Azərbaycana rəhbərlik edən şəxslərin hadisələrə biganə mövqeyi ilə bağlıdır. Ulu Öndər bu məsələni belə dəyərləndirirdi ki, *bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə, onun vətəndaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakına zidd olan mövqeyi də az rol oynamamışdır.*

Hörmətli tədbir iştirakçıları!

Bu gün hər bir Azərbaycan vətəndaşı möhtəşəm tarixi hadisələrə şahidlik edir. Dünya birliyində söz sahibinə çevrilən güclü və qüdrətli Azərbaycan özlüyündə yeni reallıqlar formalaşdırır. Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ata vəsiyyətinə əməl edərək torpaqlarımızı işğaldan azad etdiyi kimi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da uğurla həyata keçirir. Artıq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük yol qət edilib. Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb.

Hazırda Qərbi Azərbaycana Qayıdış Konsepsiyası üç prinsipə - tarixi faktlara, beynəlxalq hüquqa və sülhə əsaslanır. Dövlət başçısı Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşü zamanı bu barədə demişdir ki, *Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır.*

Ölkə Prezidentinin müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı görülən sistemli tədbirlərin davamı kimi bu gün Naxçıvanda keçirilən festival-konqres də özlüyündə ciddi mövzulara hədəflənib. Məqsəd deportasiyaya məruz qalmış soydaşlarımızın hüquqlarının bərpası, Qərbi Azərbaycanda etnomədəni terrora məruz qalmış tarixi-mədəni irsimizlə bağlı faktların ortaya qoyulması və dünya elmi ictimaiyyətinə çatdırılmasından ibarətdir.

Bu işdə hər birinizə uğurlar arzulayır, "Qərbi Azərbaycana qayıdış" konqres-festivalının təşkilatçılarına, dəvəti qəbul edib tədbirdə iştirak edən hər kəsə təşəkkürümü bildirir, çıxışımı ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıram: *"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".*

Sağ olun!

Emin ƏMRULLAYEV
Azərbaycan Respublikası Elm və Təhsil Naziri

Hörmətli tədbir iştirakçıları, xanımlar və cənablar,

İlk növbədə hər birinizi xoş gördük və bu gün Naxçıvanda belə bir mühüm mövzu ətrafında toplaşmağımızdan məmnunluğumu ifadə etmək istərdim. Hər birinizi salamlayıram və bir daha Qərbi Azərbaycan mövzusunun bu qədər müxtəlif maraqları, müxtəlif tərəfləri, belə deyək, funksiyaları özündə birləşdirən insanları Azərbaycanın qədim torpağına, Naxçıvanda bir yerə toplandığınıza görə təşəkkürümü bildirmək istəyirəm.

Biz hamımız Azərbaycan tarixinin ən şanlı, ən bərəkətli dövrünü yaşayırıq. Rəşadətli ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala son qoyaraq torpaqlarımızı düşmən əsarətindən azad edib. Bu zəfər xalqımızın və dövlətimizin qüdrət rəmzi, hər bir azərbaycanlının milli özünüdərkinin, milli kimliyimizin, azərbaycançılıq məfkurəsinin təntənəsidir.

Hazırda ölkə başçısının rəhbərliyi altında Qarabağa və Şərqi Zəngəzura qayıdış davam edir. Dövlətimiz yeni şəhərlər, kəndlər salır, müasir məktəb binaları inşa olunur, yeni tədris ocaqları şagirdlərin istifadəsinə verilir. Bu ayın əvvəlində cənab Prezident və xanımı mədəniyyət paytaxtımız Şuşada bir nömrəli orta məktəbin binasının açılışını etmişlər. Məlumat üçün qeyd edim ki, artıq tədris ilinin ikinci yarısından həmin məktəbdə Şuşaya geri dönən həmvətənlərimiz tədris almağa başlayacaq. Bu gün biz sizinlə bu möhtəşəm zalda danışdığımız zaman ərzində artıq Laçında, Füzulidə, Zabuxda, Ağalı kəndində, o cümlədən Tərtər rayonunun Talış kəndində məktəblərimiz fəaliyyətini davam etdirir və bir çox məktəblərimizdə proses o qədər sürətlə gedir ki, yeni statistika hər gün dəyişir. Füzuli məktəbində artıq 250 yə yaxın, Laçın məktəbində 100-ə yaxın şagird təhsil alır. Ağalı məktəbində 100-dən artıq şagirdimiz tədrisə cəlb olunub və təbii ki, həmin məktəblərimizə həm yeni qayıdış prosesinin sürəti və xüsusilə də müəllimlərimizin, gənc müəllimlərimizin ora həvəslə geri dönmə motivasiyasını istərdim ki, xüsusi olaraq qeyd edim.

İkinci Qarabağ müharibəsində əldə edilmiş tarixi zəfər, eyni zamanda ölkəmiz üçün yeni geosiyasi imkanlar və reallıqlar yaradıb. Bu müstəvidə gündəlikdə duran strateji məsələlərdən biri də Qərbi Azərbaycana qayıdış məsələsidir. Qərbi Azərbaycan hər zaman milli kimliyimizin ayrılmaz hissəsi olub. Bu tarixi torpaqlarımızda mövcud olmuş maarif və təhsil Azərbaycan maarifinin, pedaqoji fikrinin inkişafında mühüm rol oynayıb.

Sovet hakimiyyətinin ilk illərində Qərbi Azərbaycanda 1922-1923-cü illərdə 36, 1924-cü ildə 62, 1929-1930-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərib. Həmin dövrdə 113 azərbaycandilli məktəbəqədər təhsil müəssisəsi də mövcud olub.

1981-1982-ci tədris ilində Qərbi Azərbaycanda 155 azərbaycandilli məktəb 1986-1987-ci tədris ilində isə 206 azərbaycandilli məktəb fəaliyyət göstərmişdir. İrəvan və Qərbi Azərbaycan pedaqoji mühitinin qabaqcıl nümayəndələri öz fəaliyyətini bir məkanla məhdudlaşdırmayıb, digər ərazilərdə yaşayan həmvətənlərinin məktəbə, elmə, təhsil alanların ehtiyaclarını ödəmək üçün səy göstəriblər. Bu mənada biz Qərbi Azərbaycanın

xalqımızın təhsil və maarifçilik tarixində özünəməxsus yeri, mövqeyini xüsusi olaraq qeyd edirik.

Bu gün biz həm də əzəli yurd yerlərimizdə, maarifin, mədəniyyətin, elmin dövlət quruculuğunun inkişaf etdirilməsi sahəsində xidmətlər göstərmiş böyük düha sahiblərinin xatirəsini dərin hörmət və ehtiramla yad edirik. 1980-ci illərin əvvəllərinin məlumatına görə, Qərbi Azərbaycandakı Azərbaycan məktəblərinin məzunları arasında elmin müxtəlif sahələrini əhatə edən 10 akademik, 9 akademiyanın müxbir üzvü, 140 elmlər doktoru, 740 fəlsəfə doktoru yetişmişdir.

Şübhəsiz ki, möhtərəm Prezidentimiz İlham Əliyevin Qərbi Azərbaycanda maarifin inkişafında özünəməxsus yeri olan İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd olunması barədə sərəncamı da Qərbi Azərbaycan və bu ərazilərimizdə maarifçilik irsimizin dəyərləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. İrəvan Müəllimlər Seminariyasının yaranma tarixinə nəzər salanda onun mədəni və maarifləndirici irsinin nə qədər dəyərli olduğunu öyrənirik. Bu maarif ocağı sonralar ölkəmizin siyasi, ideoloji, mədəni, mənəvi və elmi-pedaqoji inkişafında böyük rol oynamış, bir çox elm və təhsil, mədəniyyət xadimlərini yetişdirmişdir. Adıçəkilən təhsil ocağı fəaliyyət göstərdiyi müddətdə hazırladığı müasir fikirli, azad dünyagörüşə sahib, yüksək düşüncə tərzinə malik yüksək ixtisaslı milli müəllim kadrları ilə Azərbaycanın pedaqoji fikir salnaməsinə yaddaqalan səhifələr yazmışdır.

Böyük Zəfərin müstəvisində Qərbi Azərbaycan konsepsiyası ölkəmizin təhsil sistemi qarşısında da mühüm vəzifələr qoyur. Xüsusilə qeyd etmək istərdim ki, ölkəmizin dövlət ümumi təhsil müəssisələrində şagirdlərin istifadəsində olan dərsliklərdə Qərbi Azərbaycanın tarixi, coğrafiyası, toponimləri, tarixi şəxsiyyətləri ilə bağlı məlumatlar yer alır. Ümumi təhsil müəssisələrinin VII-XI sinif "Azərbaycan tarixi", X sinif "Azərbaycan dili" (tədris dili), X sinif "Azərbaycan dili" (dövlət dili kimi) dərsliklərində Qərbi Azərbaycan haqqında bədii və informativ mətnlər, sənədlər, illüstrasiyalar, həmin ərazilərin coğrafiyası barədə məlumatlar və xəritələr yerləşdirilmişdir. Qərbi Azərbaycanla bağlı tarixi-mədəni irsimiz növbəti mərhələdə yenilənəcək, dərsliklərdə də əks ediləcəkdir.

İctimaiyyətdə Qərbi Azərbaycan mövzusu və dərsliklər. Təbii ki, burada biz mənə görə iki məqamı fərqləndirməliyik. Dərsliklərdə Qərbi Azərbaycan konsepsiyası bir ideoloji məsələdir, milli kimlik məsələsidir. Yəni bu çox zəruri şərtdir ki, öz əksini tapsın. Amma bu zalda əyləşən, uzun müddət pedaqoji təcrübəsi olan insanlar da yəqin mənimlə razılaşarlar ki, dərsliklərdə məlumatların olması zəruri şərtdir. Amma kafi deyil. Yəni yalnız dərslikdə olan məlumatla öyrənmə prosesini tam təmin etmək olmur və burada mütləq qaydada inandığım bundan ibarətdir ki, alternativ, yəni qeyri-formal üsullarla da biz Qərbi Azərbaycan mövzusunu təhsilimizdə daha ön plana çəkməliyik.

İstərdim ki, bir neçə nümunəni elə bu günkü tədbirdən istifadə edərək sizinlə paylaşım. İlk növbədə artıq bu iş gedir. Biz Qərbi Azərbaycan icması ilə bir yerdə məktəblərimizdə müvafiq görüşlər edirik. Amma düşünürəm, bu görüşlərin sayı və intensivliyi belə artmalıdır. Çünki məktəbli uşaq üçün dərslikdən savayı, məktəbə gələn bir ziyalının danışması bir həyat boyu onun yadında qalır və daha dərin öyrənməyə səbəb olur. İkinci məsələ yəqin ki, bu təşəbbüs yerinə düşər və növbəti ildə bu tədris ilin

sonunda biz bunu reallaşdıra bilərik. Azərbaycanda belə bir təcrübə var ki, ayrı-ayrı mövzularla bağlı biz müxtəlif olimpiadalar, təqdimat müsabiqələri keçiririk. Bu mənada yuxarı sinif, hətta orta sinif şagirdləri arasında Qərbi Azərbaycan olimpiadasının keçirilməsini düşünürəm ki, biz Naxçıvan Dövlət Universiteti ilə birgə edə bilərik və bu tədris ilinin sonunda məhz Azərbaycanın müxtəlif bölgələrindən olan finalist şagirdlərimizi Naxçıvana dəvət edib burada mükafatlandırmanı edə bilərik. Çünki bu simvolik olaraq yeni uşaqlar hərəkət edəndə, nəsə yazanda daha çox öyrənir, nəinki biz onlara qalın cildlərdə, hansısa kitablar verəndə. Əlbəttə, bu da çox vacibdir. Yəni mən dərsliklərin zəruriliyini qətiyyən aşağı salmaq istəmirəm. Bir də inandığım ondan ibarətdir ki, bu istiqamətdə çox vacib məsələ təbii ki, tədqiqat mövzularıdır. Həm Azərbaycan ali təhsil müəssisələrində çalışan gənc doktorantlar, tədqiqatçılar, həm də müxtəlif ölkələrdən olan alimlərin də Azərbaycanda bu mövzunu tədqiq edib nüfuzlu jurnallarda çap olunması vacibdir, uzunmüddətli vədədə olduqca vacibdir. Çünki illər keçəcək və istinad mənbəyi yaratmaq lazımdır.

Bu gün bizim bu tədbirdə çox hörmətli qardaş Türkiyə Cümhuriyyətindən universitet rəhbərləri, ali təhsil, müəssisə rəhbərləri iştirak edir. İnanıram ki, bu bizim üçün çox vacib bir mövzu ola bilər. Ümumiyyətlə, həm Qərbi Azərbaycanın, həm Qarabağın, istər mədəni, istər tarixi irsinin öyrənilməsində müvafiq standartlara, yəni yalnız bizim daxili Azərbaycan auditoriyası üçün nəzərdə tutulmayan, yəni beynəlxalq səviyyədə də çap olunma standartına cavab verən məqalələrə düşünürəm ki, böyük ehtiyac var. Çünki bu məqalələrin sayı nə qədər çox olarsa, elmi dairələrdə, elmi müzakirələrdə yenə də qeyd etdiyim kimi, həm bizim istinad etmə mənbələrimiz, həm də digər alimlərin istinad mənbələri artır.

Yekun olaraq qeyd etmək istərdim ki, Qərbi Azərbaycan bizim tarixi mirasımız olmaqla yanaşı, həm də ümummilli məsələmizdir, hər bir azərbaycanlının məsələsidir. Yəni bu yalnız bir tarixi səhifə, keçid mövzusu deyil, məhz milli kimliyin bir hissəsidir. Bu gün Azərbaycan məktəbini bitirən hər bir məzun, istər Qarabağ, istər Qərbi Azərbaycan mövzusunu məhz özünün bir hissəsi kimi anlamalıdır və öz həyat fəaliyyətində öz peşəkar fəaliyyətində həmişə daim bu mövzunu bir şəkildə nəzərə almalıdır.

İnanıram ki, Azərbaycan məktəbi Qarabağ mövzusunda qarşıya qoyulmuş bu vəzifənin öhdəsindən uğurla gəldi. Çünki Azərbaycan məktəbinin son illərdə bitirən məzunları 44 günlük Vətən müharibəsində mühüm rol oynadı. Azərbaycan məktəbinin Qarabağ mövzusu ətrafında yaratdığı həmrəylik və həmfikirlik olduqca vacib bir məsələ idi. Bu nöqteyi nəzərdən Qərbi Azərbaycan mövzusunu da, hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq hər bir məzunumuz bir milli kimlik məsələsi kimi dərk etməlidir. Yəni məktəblilərin və gənclərin sadəcə olaraq hansısa bir mətni yadda saxlamaq, tarixi faktları yadda saxlamaq yox, həmin yaddaşı həm də fəaliyyətə köçürmək kimi bir təlim və tərbiyə almasına inanıram.

Son olaraq bu yolda və qarşımızda duran bu tarixi missiyanın, yəni Qərbi Azərbaycan prosesinin reallaşmasında hər birimizə uğurlar arzu edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

Elbrus İSAYEV
Naxçıvan Dövlət Universitetinin rektoru

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASI SÜLH VƏ ƏDALƏT KONSEPSİYASI KİMİ

Hörmətli festival konqresin iştirakçıları, əziz qonaqlar!

Azərbaycan xalqı son 200 illik tarixinin əlamətdar və yaddaqalan günlərini yaşayır. Belə bir tarixi anları yaşamaq, tarixi günlərdə ölkənin vətəndaşı olmaq qürurvericidir. Ona görə ki, Azərbaycan bu çətin regionda, dünyanın siyasi mənzərəsində baş verən mürəkkəb proseslər dövründə hər gün sürətlə inkişaf edir, öz dinamik sürəti ilə model formalaşdırır, region və bölgənin davamlı inkişafına töhvələr verir. 44 günlük vətən müharibəsində əldə etdiyimiz parlaq qələbədən sonra yaranmış yeni reallıq, soydaşlarımızın işğaldan azad edilmiş doğma torpaqlara və tarixi ərazilərimiz olan Qərbi Azərbaycana qayıdışı məsələsidir.

Bunun üçün Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə 23-24 noyabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə ölkəmizin ali təhsil müəssisələri və Türkiyədən olan 20-dən çox qurumun tərəfdaşlığı ilə ilk dəfə olaraq "Qərbi Azərbaycana qayıdış" festival-konqresi keçirilir.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresinin keçirilməsində əsas məqsəd tarixi ədalətin bərpa edilməsi yolunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yurd-yuvasından didərgin, qaçqın düşmüş azərbaycanlıların tarixi hüquqlarının bərpasına istiqamətlənmiş siyasətinin elmi əsaslarla həm yerli, həm də beynəlxalq səviyyədə işıqlandırılmasına nail olmaq, ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, eyni zamanda qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yenilikləri dinləmək, fikir mübadiləsi aparmaq, Ermənistan Respublikasının inzibati sərhədləri daxilindəki qədim yurd yerlərimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə yaratdığı mədəniyyəti təbliğ etmək, Qərbi Azərbaycana qayıdış prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etməkdən ibarətdir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 2022-ci ilin dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə müəyyənləşdirdiyi tapşırıqlar və qayıdış konsepsiyası əsasən ziyalılar qarşısında mühüm vəzifələr formalaşdırır. Bu görüşdə dövlət başçımız tərəfindən səsləndirilən fikirlər xalqımızın tarixində yeni bir dövrün başlandığını xəbər verdi. Dövlətimizin başçısı soydaşlarımızın öz doğma torpaqlarına qayıtması ilə bağlı yeni milli strateji hədəfləri açıqladı.

İnkaredilməz faktdır ki, 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşdür. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. Azərbaycanda məskunlaşdırılma siyasəti isə qabaqcadan müəyyən edilmiş münbit, strateji cəhətdən

əlverişli, bol təbii resurslara malik Azərbaycan torpaqlarında kompakt şəkildə ermənilərin məskunlaşdırılması kimi nəzərdə tutulurdu. Gizli erməni-rus razılaşmasına əsasən, hətta ən adi erməni millətindən olanların belə azərbaycanlıların əmlakını əlindən almaq, zor tətbiq edərək yaşadığı ərazidən qovmaq və öldürmək hüquqları var idi. Bu siyasət az sonra Cənubi Qafqazda erməni separatizminin və erməni terrorunun daha da güclənməsinə və inkişaf etdirilməsinə gətirib çıxardı.

Beləliklə də bu ərazilərin gerçək sahibi olan azərbaycanlılar zaman-zaman - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Daha sonra sovet hakimiyyəti dövründə azərbaycanlıların indiki Ermənistandan dövlət səviyyəsində, özü də SSRİ adlanan nəhəng imperiya tərəfindən deportasiyası köçürmə adı ilə həyata keçirilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı, 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarlarına əsasən 150 min azərbaycanlı tarixi-etnik torpaqlarından - Ermənistandan deportasiya edilmişdir. Əvəzində isə indiki Ermənistan ərazisinə sovet dövründə üzərinə "məxfi" qrifi qoyulmuş qərarla xaricdən 500 min erməni köçürüldü. Həmin 500 min erməni məhz Zəngəzur ərazisinə yerləşdirildi. 1921-ci ildən etibarən 1929-cu il fevralın 29-na qədər Qərbi Zəngəzur Azərbaycan xalqının iradəsi olmadan, heç bir referendum keçirilmədən hissə-hissə Ermənistana verildi. Bununla da Naxçıvan ilə Azərbaycan arasında əlaqə də kəsildi. Hadisələrin sonrakı gedişi göstərdi ki, bu, Naxçıvanı da işğal etmək niyyəti ilə bağlı idi.

Azərbaycanlıların Ermənistan ərazisində yerləşən qədim ata-baba yurdlarından sonuncu deportasiyasından artıq 35 il ötür. Belə ki, bu deportasiya zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən 300 minə yaxın soydaşımız zorla qovulub, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib, 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib. 1988-ci ildə Ermənistandan qovulan qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dollarından artıq təşkil edir ki, beynəlxalq qiymətləndirmə standartlarına görə 35 ildən sonra bu gün bu rəqəm 1 trilyon ABŞ dollarına çatmaqdadır. Soydaşlarımıza dəyən mənəvi ziyanın qədəri isə ölçüyə gəlməzdir.

Bu tarixi faciələrə vaxtında hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu tarixi ədalətsizliyə, faciələrə hüquqi-siyasi qiymət vermiş və bununla bağlı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır. Bu tarixlərdən başlayaraq hadisələrin elmi təhlili və obyektiv siyasi münasibətlərin formalaşdırılması təmin

edilmişdir. Araşdırmalar zamanı aydın olmuşdur ki, vandalizm həm də mədəniyyət abidələrini məhvinə səbəb olmuş, onun tarixini dəyişdirmək, restavrasiya adıyla qədimliyinə zərbə vurmaq kimi barbarlıq siyasəti yürüdülmüşdür. Ümumilikdə indiki Ermənistan ərazisində xalqımıza məxsus 3 min 500 tarix və mədəniyyət abidəsi, 500 qəbiristanlıq, 391 məscid qəddarlıqla dağıdılmış, tamamilə yox edilmişdir.

Tədqiqatlar göstərdi ki, hələ 1828-ci ildə rus çarı I Nikolayın fərmanı ilə Alban kilsəsi ermənilərə tabe etdirildikdən dərhal sonra, ermənilər albanlara məxsus mədəni irsi, erməni "mədəniyyətinə" aid olduğunu elan etdilər. Onlar, eyni zamanda, alban dövrü yazılı məlumatlarını da erməni dilinə tərcümə edərək materialların əslini məhv etməyə başladılar.

O dövrdə Şavrov Rusiyanın Cənubi Qafqazdakı müstəmləkəçilik siyasətində ermənilərdən istifadə edilməsinə etiraz olaraq yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan bir millətin yerləşdirilməsindən başladıq. Onları, həmçinin Tiflis quberniyasının Borçalı, Axıska və Axilkələk qəzalarında yerləşdirdik. Nəzərə almaq lazımdır ki, 124 min rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır". N.Şavrov daha sonra qeyd edirdi ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan bir milyon üç yüz min erməni əhalinin bir milyonu yerli əhali deyil, rusların vasitəsilə məskunlaşdırılanlardır. Bütün bu məskunlaşdırılma siyasəti keçən əsrin əvvəllərində Quba, Şamaxı, Şuşa, Gəncə şəhərlərində, Qarabağ və Zəngəzur regionlarında türklərə qarşı törədilən qırğınların kütləviləşməsinə səbəb oldu.

Daha dərin tarixi tədqiqatlar sübut etdi ki, əslində bütün rus çarları erməni köçünü xarici siyasətin bir aləti kimi istifadə etmiş, hər fürsətdə onların xeyrinə qərarlar qəbul edərək özləri üçün bir növ sosial dayaq yaratmaq niyyəti güdmüşlər. Belə ki, 1723-cü ildə Rusiya çarı I Pyotr 12 sentyabr tarixli müqavilə əsasında Bakı, Dərbənd və Quba ərazilərinə ermənilərin köçürülməsi üçün xüsusi yerlər ayrılması barədə fərman imzalayıb.

1726-cı ildə II Yekaterina ermənilərə xüsusi mərhəmət göstərməyin və onları himayə etməyin zəruriliyini ifadə edən fərman verib. 1729-cu ildə Rusiya çarının fərmanı ilə bir qrup erməni məliyi Rusiya təbəəliyinə qəbul olunub. 1799-cu ildə çar I Pavel ermənilərin Qazax ərazisində məskunlaşdırılmasına kömək üçün Kartli-Kaxetiya çarlığına xüsusi göstəriş verib.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nəinki ayrı-ayrı fərmanlarda və göstərişlərdə, hətta dövlətlərarası sazişlərdə belə öz əksini tapırdı. 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış Türkmənçay sülh müqaviləsində belə bir maddə də öz əksini tapmışdı ki, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiya ərazisinə keçmək hüququ verilir.

I Nikolay 21 mart 1828-ci il tarixli fərmanı ilə ermənilərin üstündən qul adını götürüb. Həmin vaxta kimi ermənilər yer üzündə rəsmən qul adlanan millət olaraq qalıb.

Bu hadisələrin böyük əksəriyyəti tarixi Azərbaycan torpaqlarında, xüsusilə Qərbi Azərbaycan ərazilərində gerçəkləşdirildiyini nəzərə alaraq konqresimizin əsas müzakirə və təqdimatları da məhz uzun illər araşdırılmasına məhdudiyyətlər qoyulmuş bu

problemlərə həsr olunacaqdır. Qərbi Azərbaycan toponomikası, mədəniyyəti, abidələri ilə bağlı, Qərbi Azərbaycan folkloru ilə bağlı kifayət qədər əlimizdə dəlillər, sübutlar var ki, bu konqresdə 200-ə yaxın məruzədə bu elmi dəlillərin, sübutların bir çoxu elmi dövriyyəyə maraqlı faktlar təqdim edəcəkdir. Qədim türk mədəniyyət hadisələrinin tarixi şahidi olan bu bölgənin mədəni irsi bütövlükdə ümumtürk və ümummüsəlman kontekstində də tədqiqata cəlb edilməsi üçün kifayət qədər maddi tarixi sübutlar mövcuddur. VII əsr ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının coğrafi mühiti həm də Qərbi Azərbaycanla bağlıdır. Dastanda adı çəkilən Şirökuvən, Altuntaxt, Göyçə gölü oğuz qəhrəmanlarının doğma yurdları olmuşdur və bu ərazilər indi Ermənistan adlanan Qərbi Azərbaycanın ərazisi daxilində yerləşir. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan bu türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək ermənileşdirilmiş və ya ruslaşdırılmışdır.

Konqres-festival adından göründüyü kimi iki hissədən ibarətdir, festivalımızda Naxçıvan Muxtar Respublikası ərazisində məskunlaşmış Qərbi azərbaycanlıların yaşatdığı ənənələri, mədəni dəyərləri, sənət əsərlərini, şəxsi kolleksiyalarında qoruduqları arxiv sənədlərini, eyni zamanda özləri ilə gətirdikləri müxtəlif maddi-mədəni sübutların sərgisi təşkil edilmişdir. Bu gün əslən Qərbi Azərbaycandan olan Naxçıvanda yaşayan insanlar könüllü olaraq bu festival konqresin ətrafında birləşib. Bizim əlimizdə alimlərimiz üçün kifayət qədər sübutlar var ki, samballı elmi əsərlər ortaya qoya bilək və Qərbi Azərbaycanı bütövlükdə ictimaiyyətimizə təqdim edə bilək. Bizim festivalın folklor bölümündə mədəniyyət xadimləri ilə bərabər, eyni zamanda Qərbi Azərbaycandan köçürülmüş Naxçıvanda yaşayan insanların iştirakı da nəzərdə tutulmuşdur. Bu təqdimatlar bir daha onu göstərir ki, Qərbi Azərbaycanda yaşayan insanlarımız öz yurd yuvalarına tarixən olduğu kimi, bu gün də qəlbən bağlıdırlar.

Əminik ki, Müzəffər Ali Baş Komandanın qətiyyət və iradəsi, Azərbaycan xalqının müdrikliyi və sülhsevərliyi Qərbi Azərbaycana qayıdış konsepsiyasının uğurlu həllini təmin edərək həm də beynəlxalq hüququn, ədalətin bərpasına da öz müsbət töhvəsini verəcəkdir.

Əziz ƏLƏKBƏRLİ
Qərbi Azərbaycan İcmasının sədri,
Milli Məclisin deputatı

Hörmətli Festival-Konqres iştirakçıları! Hörmətli təşkilatçı qurumların rəhbərləri olan həmsədr həmkarlarım, hökumət nümayəndələri, millət vəkillərimiz, ziyalılar, elm adamları, Əziz qonaqlar!

Festival-Konqresin təşkilatçılarından biri kimi, həm öz adımdan, həm də rəhbərlik etdiyim Qərbi Azərbaycan İcması adından Sizin hər birinizi salamlayıram.

Düz iki həftə əvvəl biz Zəfərimizin üçüncü ilini bayram etdik və bu möhtəşəm Bayram münasibətilə bir daha hər birinizi təbrik edirəm.

Mən bu gün çıxışımı ona görə Zəfər Gününü xatırlatmaqla başladım ki, artıq həmin tarixdən – 8 noyabr 2020-ci ildən başlayaraq bizim bütün uğurlarımızın təməlində həmin Zəfər dayanır. Dünya sivilizasiyasının beşiklərindən olan qədim Naxçıvanımızda keçirdiyimiz bugünkü bu möhtəşəm tədbir də bu sırada istisna təşkil etmir. Zəfərimizin təməlində isə istər hakimiyyətinin birinci, istərsə də ikinci dövründə Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinə verdiyi töhfələr dayanır. Və sizdi-bizdi hamımız bu Zəfəri Millətimizə və Dövlətimizə yaşatdığı üçün möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə minnətdarıq. Şəhidlərimizə, qazilərimizə, hərbçilərimizə, xalqımıza minnətdarıq.

Əziz tədbir iştirakçıları!

Vətən müharibəsi nəticəsində qazandığımız Zəfər bölgədə yeni reallıqlar yaratdı. Bu reallıqların ən önəmlilərindən biri də sonuncu Qarabağ münaqişəsinin ilk mərhələsində – 1987-1991-ci illərdə doğma ocaqlarından qovulmuş soydaşlarımızın – Qərbi Azərbaycan qaçqınlarının və son 100 ildə deportasiyalar, soyqırımları, etnik təmizləmələr nəticəsində doğma yurdlarını tərk etməyə məcbur olmuş azərbaycanlıların öz ata-baba yurdlarına qayıtmaq məsələsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu məsələdə daim nümayiş etdirdiyi prinsipial mövqe, xüsusilə 24 dekabr 2022-ci ildə, özünün ad günündə İcmanın inzibati binasına gəlib, burada proqram xarakterli çıxış etməsi, Qərbi azərbaycanlıların hüquqlarının bərpa olunmasına və onların öz doğma torpaqlarına qayıtmasına qəti və birmənalı dəstək ifadə etməsi, İcmanın fəaliyyətinin çərçivə sənədi kimi Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını hazırlamaqla bağlı tapşırıqları tarixi torpaqlarımıza qayıdış uğrunda mübarizəmizə yeni təkan verdi.

Cənab Prezident həmin görüşdə özünə xas olan qətiyyətlə: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar", – deyə Ermənistan rəhbərliyinə, dünya ermənilliyinə və onların havadarlarına öz qəti mesajını verdi.

Cənab Prezidentin tapşırığı ilə Qərbi Azərbaycan İcması qısa vaxtda Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını hazırladı və dərhal da onun icrasına başladı. Bu konsepsiyada bizim qayıdışımızın bütün detalları öz əksini tapmışdır. Beynəlxalq hüquqa və ölkədaxili hüquqa söykənən bu sənəddə biz ata-baba yurdlarımıza dinc yolla, ləyaqətli

şəkildə və təhlükəsizliyimizin tam təmin olunması şərtilə qayıtmaq istəyimizi elan etmişik.

Əziz tədbir iştirakçıları! Sevindiricidir ki, bu ümummilli məsələdə bütün Azərbaycan xalqı, dünya azərbaycanlıları tam bir həmrəylik nümayiş etdirirlər, Azərbaycandakı bütün rəsmi və qeyri-rəsmi qurumlar Qərbi Azərbaycana qayıdış ideyasına öz töhfələrini verirlər. Bu gün bu tədbir bunun ən parlaq nümunələrindən biridir və mən bu tədbiri belə yüksək səviyyədə təşkil etdikləri üçün ilk növbədə Naxçıvan rəhbərliyinə və Naxçıvan Dövlət Universitetinə İcmamızın adından öz təşəkkürümü bildirirəm.

Dəyərli tədbir iştirakçıları.

Bilirsiniz ki, ermənilərin Qərbi Azərbaycanda soydaşlarımıza qarşı fərdi və kollektiv cinayətləri 200 il əvvəldən başlasa da, bu cinayətlər son yüz il ərzində bütün hüdudları aşmışdır. Xüsusilə, 1918-1920-ci illərdə Azərbaycanın bütün bölgələrində ermənilər soydaşlarımıza qarşı saysız-hesabsız cinayətlər törətmişlər.

1948-1953-cü illər deportasiyasına isə hələ də hüquqi qiymət verilməmişdir. Yalnız 1997-ci il dekabrın 18-də Ulu Öndər Heydər Əliyevin imzaladığı azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında tarixi fərmanında bu deportasiyaya tarixi qiymət verilmiş və hüquqi-siyasi qiymət verilməsi zəruri hesab edilmişdir. Təəssüf ki, 1930-1940-cı illərdə keçmiş SSRİ məkanında repressiya və deportasiyaya məruz qalan bütün şəxslər və bütün xalqlar Stalinin ölümündən sonra respublika Ali Məhkəmələrinin qərarı ilə bəraət alsalar da, təkcə 1948-1953-cü illər deportasiyasından zərər çəkənlərə hələ də hüquqi müstəvidə bəraət verilməmiş, deportasiya olunanların və onların varislərinin ata-baba yurdlarına qayıtmaq hüququ tanınmamışdır.

1987-1991-ci illərdə baş vermiş sonuncu deportasiya isə öz amansızlığı və qəddarlığı ilə əvvəlkilərdən bir o qədər də fərqlənməmişdir. O vaxt indiki Ermənistan adlanan ərazidə, yəni Qərbi Azərbaycanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşamış, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil etmişdir. Bütövlükdə 300-ə yaxın yaşayış məntəqəsində azərbaycanlı soydaşlarımız yaşamışlar. Lakin təəssüf ki, onların hamısı ermənilərə xas üsul və metodlarla sonuncu nəfərinə qədər Qərbi Azərbaycandakı ata-baba yurdlarından qovulmuşlar.

Bu prosesdə 200 nəfərdən çox soydaşımız ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, 400-dən artıq insanımız bədən xəsarəti almışdır. 300-ə yaxın yaşayış məntəqəsindən qovulan azərbaycanlılara fərdi təsərrüfatlar üzrə 2,5 milyard, ictimai təsərrüfatlar üzrə 17,5 milyard ABŞ dolları həcmində maddi ziyan vurulmuşdur ki, beynəlxalq qiymətləndirmə standartlarına görə, bu gün həmin ziyanın məbləği 700 milyard ABŞ dolları həcmindədir. Yeraltı-yerüstü sərvətləri, tarixi-mədəni abidələrə vurulan ziyanı da bura əlavə etsək, yəqin ki, bu ziyan bir neçə dəfə artar. Mənəvi ziyanı isə heç bir məbləğlə əvəz etmək olmaz.

Qərbi Azərbaycan İcması qısa müddətdə Qərbi Azərbaycandan qovulmuş əhalinin adlı siyahısını tərtib etmiş və həmin siyahılar elektron daşıyıcılara köçürülmüşdür.

Qərbi Azərbaycan İcmasının müraciəti əsasında Azərbaycan Baş Prokurorluğunda Ermənistandan qovularkən ermənilər tərəfindən soydaşlarımıza qarşı törədilən cinayət faktları barədə istintaq işi başlanmışdır.

Qısa vaxtda İcmamız Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq müstəviyə çıxarılması istiqamətində uğurlu addımlar atmış, İcmamızın yeddi sənədi BMT-nin rəsmi sənədi kimi, BMT-nin bütün rəsmi dillərində BMT üzvü olan bütün dünya dövlətləri arasında yayılmışdır. Bu, Qərbi Azərbaycan həqiqətlərinin BMT tribunasından ilk dəfə etiraf edilməsidir. Bu sənədlər sırasında İcmamızın Qərbi Azərbaycana Qayıdış Konsepsiyası, beynəlxalq ictimaiyyətə müraciəti, UNESCO-nun Baş katibinə müraciəti kimi ciddi sənədlər də vardır.

Qərbi Azərbaycan İcması son 10 ay ərzində dünyanın bir çox nüfuzlu beynəlxalq təşkilatlarına, dövlət başçılarına, siyasətçilərə 140-a yaxın müraciət, bəyanat, məktub ünvanlamış və onların bəzilərindən rəsmi cavab almışdır. Bu cavablar sırasında Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin, UNESCO Baş katibinin cavabları da vardır.

Əziz tədbir iştirakçıları!

Bizim hədəfimiz Qarabağ münaqişəsinin ilk mərhələsində – 1987-1991-ci illərdə Ermənistan dövləti tərəfindən qovulduğumuz ata-baba yurdlarımıza dinc yolla qayıdışdır. Biz bu məsələnin müsbət həlli ilə bağlı Ermənistanın baş nazirinə da müraciət etmişik, onu İcmamızın nümayəndələri ilə danışıqlara dəvət etmişik. Və onlara izah etməyə çalışmışıq ki, bu yolun alternativi yoxdur. Hər bir insanın doğulub boya-başa çatdığı ərazidə yaşaması onun beynəlxalq hüquqa söykənən haqqıdır və biz bu haqqımızı heç kəsə qurban vermək fikrində deyilik.

Əziz tədbir iştirakçıları!

Əmin olun ki, o qədər də uzaq olmayan bir zamanda biz yenə də Qərbi Azərbaycandakı tarixi ata-baba yurdlarımızın əsl sahibi olacağıq. O torpaqlar bizə əcdadlarımızın mirasıdır, tezliklə yenə də bizə Vətən olacaq və bizdən də övladlarımıza miras qalacaqdır.

Sağ olun!

Səbinə ƏLİYEVA
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

Hörmətli tədbir iştirakçıları, xaricdən gələn çoxsaylı qonaqlar!

İlk növbədə "Qərbi Azərbaycana qayıdış" adlı festivalın və "Qərbi Azərbaycan: böyük qayıdışa gedən yol" adlı I Beynəlxalq konqresin açılış mərasimində hər birinizi səmimi-qəlbdən salamlayır, vaxtilə indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə bağlı çox aktual və olduqca əhəmiyyətli mövzuya həsr olunmuş tədbirin işinə uğurlar arzulayıram!

Hörmətli natiqlərin də qeyd etdiyi kimi, erməni millətçilərinin tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı həyata keçirdikləri kütləvi etnik təmizləmə, deportasiya və soyqırımları minlərlə soydaşımızın öz tarixi yurdlarından qovulması və didərgin salınması ilə nəticələnmişdir.

Beləliklə də son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus yaşayış məskənləri, tarixi-mədəni və dini abidələr dağıdılaraq məhv edilmişdir.

Ermənilər tərəfindən törədilən insanlıq əleyhinə cinayətlər - etnik təmizləmə və soyqırımlarının əsasında azərbaycanlılara qarşı əsrlər boyu davam edən etnik zəmində kəskin nifrət, ayrı-seçkiliyi aşılayan siyasət və tamamilə əsassız ərazi iddiaları dayanmışdır.

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" 1948-ci il 9 dekabr tarixli Konvensiyasına görə, soyqırımı sülh və insanlıq əleyhinə yönəlmiş əməl olmaqla ən ağır cinayət hesab edilir. Bu mənada ermənilər tərəfindən azərbaycanlılara qarşı kəskin milli, irqi, dini nifrət zəminində həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində minlərlə günahsız insanın qəsdən və məqsədli şəkildə məhv edilməsi həmin bəşəri cinayətin məhz soyqırımı aktı olmasını təsdiq edir.

Təəssüf ki, xalqımıza qarşı etnik təmizləmə siyasətinin zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə digər cinayətlər yolu ilə həyata keçirilməsi Qərbi Azərbaycanların bütün fundamentlal insan hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnmişdir.

Bir xalqın əzəli torpaqlarının, təbii resurslarının əlindən alınması və məcburən oradan qovulması, yəni kütləvi deportasiyaya məruz qalması elə həmin xalqın məhv edilməsinə bərabər bir cinayətdir.

Bu baxımdan, mülki əhalinin və ya hansısa kateqoriyaya aid edilən şəxslər qrupunun, məsələn, bizim ölkəyə münasibətdə milli, etnik və dini mənsubiyyətinə görə - azərbaycanlıların tarixən qanuni yaşayış yerlərindən zorla çıxarılması ilə müşayiət olunan

və insanların kütləvi şəkildə ev-eşiyindən, doğma torpağından qovulması ilə nəticələnən hərəkətlərə məruz qalması deportasiyanın nə dərəcədə ictimai təhlükəli bir əməl olduğunu təsdiqləyir. Belə əməllər müasir beynəlxalq cinayət hüququnda, o cümlədən ölkəmizin cinayət qanunvericiliyində başvermə şəraiti nəzərə alınmaqla, insanlıq əleyhinə və müharibə cinayətləri hesab olunur.

Deportasiya aktı Ermənistan dövlətinin Azərbaycana qarşı etnik nifrət zəminində həyata keçirdiyi cinayətkar siyasəti ilə bağlı olan düşünülmüş, məqsədli şəkildə törədilmiş və mahiyyət etibarı ilə soyqırımına bərabər ağır cinayətdir.

Təbii ki, əvvəldə də qeyd etdiyimiz kimi, beynəlxalq hüquqda bir xalqın öz tarixi torpağında soyqırımına məruz qalması və sağ qalanların vətənindən güc yolu ilə kütləvi surətdə qovulmaları cinayət məsuliyyəti yaradan əməl hesab olunur.

Bu baxımdan indiki Ermənistan ərazisində yaşamış azərbaycanlılara qarşı məqsədli şəkildə etnik təmizləmə, deportasiya və soyqırımı aktlarının törədilməsində təqsirli olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi, onlara dəymiş maddi və mənəvi zərərə görə kompensasiya ödənilməsi, soydaşlarımızın Qərbi Azərbaycandakı tarixi torpaqlarına təhlükəsiz qayıdışına şərait yaratmaq da daxil olmaqla onların pozulmuş hüquqlarının bərpası və qorunması təmin edilməlidir. Buna sülh yolu ilə nail olmaq üçün isə beynəlxalq müstəvidəki fəaliyyətimizi daha da gücləndirməli və digər mümkün diplomatik imkanlardan səmərəli istifadə etməliyik.

Çox sevindirici haldır ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfərdən və bu ilin sentyabrında antiterror əməliyyatı ilə öz ərazisində suvereniliyini tam bərpa etməsindən sonra yaranmış yeni reallıqlar kontekstində soydaşlarımızın öz tarixi torpaqlarına qayıdış üçün yeni imkanlar yaranmışdır və bu, onların hüququdur.

Bu məqsədlə Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının qərarı ilə "Qayıdış Konsepsiyası"nın təsdiq edilmə indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi istiqamətində zamanında atılmış müsbət addım kimi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, Azərbaycana qarşı uzun illər ərzində həyata keçirilmiş nifrət zəminində etnik təmizləmə, soyqırımı, terrorçuluq və işğal siyasətinin sonrakı illərdə də davam etdirilməsinin acı nəticəsi olaraq müasir dövrümüzdə də çoxsaylı soydaşlarımız Ermənistanın insanlıq əleyhinə və müharibə cinayətlərinin qurbanına çevrilərək amansızcasına qətlə yetirilmiş və ya əlilliyə səbəb olan müxtəlif ağır xəsarətlər almış, habelə əsir və itkin düşmüş, girov götürülmüşlər.

İşğaldan azad olunmuş ərazilərimizdə kütləvi məzarlıqların aşkar edilməsi də bir daha təsdiq edir ki, Birinci Qarabağ müharibəsi dövründə əsir və girov götürülmüş azərbaycanlılar beynəlxalq humanitar hüquq normalarına zidd olaraq amansız işgəncələrlə qətlə yetirilərək qeyri-insani formada dəfn olunmuşlar.

Ermənistan isə hələ də itkin düşmüş 4 minə yaxın soydaşımızın taleyi barədə məlumatı, eyni zamanda kütləvi məzarlıqların və minalanmış ərazilərin dəqiq xəritələrini ölkəmizə təhvil verməkdən müxtəlif bəhanələrlə boyun qaçırır.

Bir məsələni də vurğulamaq istərdim ki, çoxsaylı insan itkilərinə və xəsarətlərə səbəb olan mövcud mina problemi azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı tikinti-

quruculuq və bərpa işlərinə, eləcə də dayanıqlı sülhə ciddi maneə yaradır, təhlükəsiz qayıdışı ləngidir.

Məlumat üçün bildirirəm ki, ümumilikdə, Vətən müharibəsi zamanı və müharibədən sonrakı dövrdə tərəfimdən 18 hesabat, 29 bəyanat, 7-si videoformatda olmaqla, 60 müraciət, 300-dən çox mətbuat açıqlaması, habelə 4 videoçarx hazırlanaraq, beynəlxalq təşkilatlara, məhkəmələrə göndərilmiş, geniş şəkildə yayımlanmışdır. Bu istiqamətdəki fəaliyyət hazırda da uğurla davam etdirilir.

Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş çoxsaylı insanlıq əleyhinə və müharibə cinayətlərinə, habelə terror aktlarına dair kifayət qədər əsaslı sübut və dəlillər olsa da, Azərbaycana münasibətdə nümayiş etdirilən ikili standartlar səbəbindən sülh və insanlıq əleyhinə olan bu cinayətlərə beynəlxalq miqyasda hələ də adekvat reaksiya verilməmişdir.

Bir məsələni də xüsusi ilə qeyd etmək lazımdır ki, Azərbaycanın çox zəngin tarixə malik ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası 30 ildən çoxdur ki, Ermənistanın hərbi təcavüzü nəticəsində blokada şəraitində yaşamaq məcburiyyətindədir.

Bu gün böyük hörmət və minnətdarlıq hissi ilə əziz xatirəsini yad edərək bildirmək istərdim ki, Ümumilli Lider Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvan Muxtar Respublikasına gəlişi və Ali Məclisin sədri vəzifəsinə seçilməsi çox ağır sosial-iqtisadi çətinliklərlə üzləşən, mütəmadi olaraq Ermənistan silahlı qüvvələrinin hücumlarına məruz qalan qədim Naxçıvan torpağının işğal təhlükəsindən sovuşmasına, onun xilasına, əhalinin maddi rifah halının yaxşılaşmasına səbəb oldu.

Daha sonra Azərbaycan xalqının təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Bakıya qayıdaraq ikinci dəfə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi genişmiqyaslı islahatlar Naxçıvan Muxtar Respublikasının da inkişafına öz müsbət təsirini göstərmişdir.

Çox sevindirici haldır ki, bu siyasət hazırda onun layiqli davamçısı olan cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirlir.

Üçtərəfli Bəyanata müvafiq olaraq, ölkəmizin qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin yaradılması ilə bağlı üzərinə götürdüyü öhdəlik Ermənistan tərəfindən yerinə yetirilmədiyinə görə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili mümkün olmadığından blokada vəziyyətində qalmış əhalimiz bir sıra çətinliklərdən əziyyət çəkir.

Fürsətdən istifadə edib bir daha beynəlxalq təşkilatları ikili standartlara yol vermədən, Azərbaycanlılara qarşı törədilmiş bu ağır cinayətlərə münasibətdə beynəlxalq hüquq normaları əsasında qətiyyətli və ədalətli mövqe nümayiş etdirməyə, soyqırımı aktını tanımağa, Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmış soydaşlarımızın Qərbi Azərbaycana - öz tarixi ata-baba torpaqlarına təhlükəsiz qayıdışının təmin olunmasına və beləliklə də onların pozulmuş hüquqlarının tezliklə bərpasına, eyni zamanda Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətindən çıxarılmasına dəstək göstərməyə çağırıram.

Diqqətinizə görə təşəkkürümü bildirir və festival-konqresin işinə uğurlar arzulayıram!

Mahirə HÜSEYNOVA
ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru,
Filologiya elmləri doktoru, professor

O ənənələri yaşatmaq üçün qayıtmalıyıq!

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Qərbi Azərbaycan İcması, Kars Kafkas Universitesi, ADPU, AMEA Naxçıvan Bölməsi, İğdır Universitesi, AMEA Tarix İnstitutunun təşkilatçılığı ilə keçirilən "Qərbi Azərbaycan: Böyük qayıdışa gedən yol" elmi konfransın iştirakçılarını hərarətlə salamlayıram.

Hörmətli elmi konfrans nümayəndələri!

Böyük ürək ağrısı ilə min illərlə yaşadığı ərazilərdən- bu gün Ermənistan Respublikası adlandırılan o yerlərdən, Qərbi Azərbaycandan olan soydaşlarımızın ölüm təhdidi altında çıxarılmasının tarixçəsinə ekskurs edəcəyik. Hesab edirəm ki, elmi konfrans soydaşlarımızın min illərlə məskunlaşdığı, tarixi və təbii sərhədləri daxilində böyük maddi-mənəvi dəyərlərin nümunələrini yaratmış xalqımızın son 200 ildə keçdiyi yolun bütün spektrlərdə əsl mənzərəsini ortaya qoyacaq. Hər bir konfrans iştirakçısı elmi tədqiqatların təkzibolunmaz faktlarla ortaya qoyduğu məruzələrdə iki əsr müddətində geosiyasi vəziyyətlərin yaratdığı reallıqların ağrı-əzabları ilə yaşamış xalqımızın iradəsini görə biləcək.

İnsan ağlına gəlməyəcək, itkilər və mərhumiyyətlərlə dolu yolları keçən və öz haqlarına qovuşmaq üçün iynənin ucu boyda işığa tərəf gedən xalqın enerji mənbəyi heyrətamizdir. İbrətamiz olansa odur ki, xalqımızın məşəqqətli tarixi ya dövlətçiliyimizin müvəqqəti də olsa itirildiyi, ya da öləzidiyi məqamlara təsadüf edib.

Həmin tarixin Cənubi Qafqazda Ermənistan dövlətçiliyinin yaranması ilə başladığı mərhələsini Prezident İlham Əliyev 2022-ci il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanışlıq zamanı Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində belə ifadə edirdi: "1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi".

Olanları bundan mükəmməl ifadə etmək mümkün deyil.

Bütün bunlar ancaq salnaməçilərimizin yazdığı tarixi faktlarda, yaxud cünglərdə deyil, həmçinin istər yazılı, istərsə də şifahi ədəbiyyatımızda qalıb, xalqımızın təhtəlşüurunda yer tutub, nəsil-nəsil yaşayaraq hamımızı vahid hədəfə yönəldib. Bunu bütün şüurlu həyatı boyu Azərbaycan xalqı və azərbaycanlıların gələcək taleyi üçün fəaliyyətdə olmuş Ümummilli Liderin- ömrünün 45-ci ilindən sonra həm nominal dövlətçilik atributları olsa belə, istər sovet Azərbaycanınının siyasi rəhbəri olmuş, istərsə də nominal olaraq dövlət müstəqilliyni elan edən suveren Azərbaycan Respublikasında siyasi hakimiyyətə dəvət edilən, sonralar onun Prezidenti seçilən Heydər Əliyevin

ailəsində böyümüş Prezident İlham Əliyevin birmənalı qənaəti idi.

Hər birimiz təhtəlşürumuzda yer tutmaqda, bizi keçib gəldiyimiz o yollara aparmaqda xidməti olan hər kəsi minnətdarlıqla anırıq. Bunların sırasında "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair"in müəllifi Əhməd bəy Cavanşiri, "Qarabağnamə"ni irsimiz kimi qoyub gedən Mirzə Adıgözəl bəyi, "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" kimi etibarlı mənbəni yaradan Rzaqulu bəy Mirzə Camal oğlunu, "Kitabi-tarixi-Qarabağ"ı yazan Mirmehdi Xəzanini, həmçinin Məhəmmədəli bəy Məxfi, Mirzə Rəhim Fəna, Həsən İxfa Əlizadə və başqaları dayanır. 200 illik son faciələrimizi istər nəsr, istərsə də nəzmin, jurnalistikanın imkanları çərçivəsində ədəbiyyat və mətbuatın əsas mövzularından birinə çevirən Abbasqulu Ağa Bakıxanov, Mirzə Fərəli Axundov, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəminzəminli, Üzeyir bəy Hacıbəyov, Məmməd Səid Ordubadi və onlarla, yüzlərlə cəfakeş insanlarımızın qarşısında mənəvi borcumuzu xatırladıram.

Onlar hər bir məqamda, ideoloji və siyasi baxışların total basqılarına baxmayaraq tarixin xalqımız üçün unutmamalı olduğumuz məqamların yaddaşımızda qalması üçün əllərindən gələni ediblər.

Mən belələrindən biri, istedadlı yazıçı, şair, dramaturq Əyyub Abbasovun "Zəngəzur", XX əsrin əvvəllərində Qafqazda baş verən hadisələr fonunda tarixi Azərbaycan torpaqlarında- erməni millətindən olan, nizami silahlı birləşmələrdə birləşən qatı cinayətkarların azərbaycanlılara qarşı tutduqları divan barədə yazılan romanı xatırlatmaq istərdim. Zəngəzur qəzasının Şəki kəndində anadan olan, azərbaycanlıların qırğın və deportasiyanın canlı şahidi müəllif valideynlərini, qardaşlarını, dogma və əzizlərini itirir, amma yaşadığı faciənin verdiyi dərsləri, bir də ümidini itirmir. Onun iki cilddəki, 980 səhifəlik "Zəngəzur" tarixi romanı əslində bir salnamədər. Təsadüfdür, ya yox, onu demək çətindir, amma onu qeyd etməyi lazım bilirik ki, salnamə-romanın yazıldığı və nəşr olunduğu tarix təəssüf ki, hələ indi də ermənilər arasında "milli qəhrəman" kimi təsəvvür və təqdim olunan qatil Andronik Uzunyanın 100 illiyi ərəfəsinə düşür. Bu romanın yazılması və nəşri faktının ibrətamizliyi ondadır ki, "xalqlar arasında birlik və qardaşlığı", beynəlmiləlçilik dövlət ideologiyası səviyyəsinə qaldırılan SSRİ-nin subyektlərindən biri olan sovet Azərbaycanında anoloji addımın atılması ciddi qalmaqal yarada bilərdi və yaratdı da. "Zəngəzur" romanı ədəbiyyatımızda Andronik, Njde, Dro, Karo, Hamazasp kimi erməni "generallarının" necə var, o cür- türk-müsəlman əhalinin şəxsində insan qanına susamış canilər kimi düşünürdü.

Yeri gəlmişkən, mötəbər tədbirin mənə verdiyi tribunadan istifadə edərək təkcə Azərbaycan yazıçı və şairlərinə, rəssam və heykəltaraşlarına, bütün incəsənət nümayəndələrinə deyil, dünyanın bütün gələcək qarşısında məsuliyyətini dərk edən yaradıcı insanlarına çağırış edirəm: Müasiri olduğumuz, XX, XXI əsrin əvvəllərində qonşularımız olan erməni millətçilərinin başlatdığı, əsasında ərazi iddiaları dayanan müharibədə öldürülənlər, taleləri qırılan insanlar, dağıdılan, daşı-torpağı yandırılan şəhər və kəndlərin yaşadığı faciələri öz əsərlərinizin mövzusuna çevirin!".

Bu, həm də onunla xarakterikdir ki, Azərbaycanın nəinki tarixən mövcud

sərhədlərini parçalamaq, üstəlik onun mənəvi sərvətlərini, min illərlə yaranaraq onu ayaq üstündə saxlayan mənəvi köklərini budamaq üçün nominal olsa da, növbəti dövlətin proseslərə qoşulurdu. Sovet Ermənistanı yaranışına qədər digər dövlətlərin kölgəsində gizlənərək Türkiyə və Azərbaycana qarşı ağlagəlməz cinayətlər törədən erməni millətçiliyinin istehkamına çevrilməli idi. Buna görə idi ki, cəmi 28 ildən sonra daşnak Ermənistanının başladığı, sona çatdıra bilmədiyi məsələni bitirmək üçün "kommunist Ermənistanı" birdəfəlik yekunlaşdırmaq üçün hərəkətə keçdi. Atılan növbəti addım gələcəkdə daha çox məkrinin miqyasına görə diqqət çəkəcək. Bu isə qırğınlar və deportasiya ilə müşayiət olunan birinci mərhələdən və Cənubi Qafqazda imperialist maraqlarına görə ictimai-siyasi vəziyyətin yaratdığı şəraitdən bəhrələnmək istəyən dövlətlərə yarımçıq qalmış planların həyata keçirilməsi üçün imkan yaradırdı. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarları sovet Ermənistanına Qərbi Azərbaycanın azərbaycansızlaşdırılması və üstəlik buradakı izlərimizi silmək fürsəti verirdi. Ən peşəkar qatillər belə izləri tam silə bilmir. Bu, bütün cinayətlərə münasibətdə belə olur. Hər bir yerin istənilən rəsmi sənədlərdən fərqli olaraq pasportu adlandırılan toponimləri hədəf seçməsi onu göstərirdi ki, Ermənistan adlandırılan dövləti idarə edənlər də bu həqiqəti ağıllarına gətirmirdilər. XIX əsrin sonlarında Qafqaz Hərbi Dairəsinin hərbi-topoqrafik şöbəsində hazırlanan, 1903-cü ildə çap edilən Güney Qafqazın xəritəsi bu nöqteyi-nəzərdən dediklərimizə sübut ola bilər. Adını çəkdiyimiz rəsmi dövlət sənədi bu gün, elə sabah da oranın əsl sahiblərinin kimliyini təsdiq edən ən mötəbər sənəddir. Xəritədə əks olunan oronim, xoronim, oykonim, astionim, komonim, hidronim, drimonimlər keçmişə tutulan güzgü kimi onu əks etdirir.

Yeri gəlmişkən, dilçi olaraq bu günkü Beynəlxalq elmi konfransın mötəbər tribunasından nəinki Azərbaycan xalqına qarşı törədilən cinayətlərə görə məsuliyyət daşıyan Ermənistandakı siyasətçilərə və o siyasətin həyata keçirilməsində rol oynayan alimlərə bir detalı xatırlatmaq istərdim: "Toponimlər (xüsusən də hidronimlər) arxaizmləri və dialektizmləri ardıcıl olaraq qoruyur. Onlar tez-tez keçmişdə müəyyən bir ərazidə yaşamış xalqların substrat dillərinə qayıdır ki, bu prosesin qarşısını almaq mümkün deyil, azından, heç kimə müyəssər olmayıb. Bu həmin prosesdir ki, o, etnik icmaların məskunlaşma sərhədlərini müəyyən etmək üçün başlıca vasitələrdən biri hesab olunur.

Bu həqiqətlərin ortaya qoyulması üçün çox mühüm və əhəmiyyətli sənəd- "1948—1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı Fərman cənab Prezident İlham Əliyevin başlatdığı işin məntiqi sonluğu üçün siyasi, hüquqi və tarixi əsaslar verir. Bunlardan əlavə, Fərmanda Qərbi azərbaycanlıların doğal insan hüquqlarının başlıca prinsipindən-doğulduğu, boya-başa çatdığı mühitdən zorla ayrılması faktından söhbət gedir. Ümummilli Liderimizin imzaladığı Fərmanda o faktı gerçəkləşdirən amillərdən birinin-ideoloji əsaslarının qeyd edilməsi ancaq tarixçilər qarşısında deyil, yaradıcı insanlarımız qarşısında da aktual vəzifələr qoyur. Bu vəzifələr Fərmanda bu cür ehtiva olunur: "Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin

mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

... Təəssüf ki, 1948—1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir".

Fərmanda baş verən faciələrimizin ardıcıl olması üçün münbit şərait yaradan faktorlardan biri bu cür təqdim edilirdi və hesab edirik ki, bu cümlələr ölkənin keçmiş rəhbərliyini tənqiddən daha çox gələcək siyasi liderlər üçün mükəmməl yol xəritəsi hesab oluna bilər.

Buna görədir ki, 2022-ci il dekabrın 24-də, yeri gəlmişkən, özünün növbəti doğum günündə Qərbi Azərbaycan İcmasının bir qrup ziyalısı ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev erməni millətçiliyinin və həmin millətçiliyi qidalandıran ictimai-siyasi mühitin hansı şəraitdən qaynaqlandığını göstərməyi lazım bilirdi: "1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Bu dəfə Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm o vaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı".

O cinayət ancaq onunla qapanmırdı ki, azərbaycanlıların min illərlə məskunlaşaraq yaşadığı məntəqələr 170-dən çox kənd idi və orada təkcə azərbaycanlılar yaşayırdılar. Bunlardan əlavə, ovaxtkı Ermənistanda 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və ümumilikdə 300-dən çox şəhər və kənddə yaşayırdılar.

Azərbaycanlıların zorla, ölüm qorxusu altında qaçqına çevrilmələri yeni hadisə deyildi və o faktı xatırladaq ki, oxşar hadisələri yaşamış çoxlu insan həmin faciələri ikinci dəfə görür və yaşayırdı. Üstəlik, o faciələr ancaq soydaşlarımızın xatirəsində də deyil, 1918-ci ildə Ermənistandakı daşnak hökumətinin ilk baş naziri olmuş, sonralar Avropaya mühacirət etmiş Hovhannes Kaçaznuninin Ermənistan hökumətinin etdiyi səhvlər fonunda azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə əməliyyatları epizodlarının da yer aldığı "Daşnaksütyunluq bir şey qalmadı" kitabında yaşayırdı. Kaçaznuni əvvəl Türkiyədə başlayan və Azərbaycanda davam etdirilən hadisələrin son məqsədi barədə bunları yazırdı: "Biz qeyd-şərtsiz Rusiyaya istiqamətlənmişdik. Hər hansısa bir səbəb yox ikən, zəfərimizi qeyd edirdik. Sədaqətimizin, verilən tapşırıqları yerinə yetirməyimizin və köməklərimizin müqabilində çar hökumətinin Ermənistana müstəqillik bəxş edəcəyini düşünürdük. Öz işimizə başqalarını da qoşduq, heç bir səlahiyyəti olmayan şəxslərin sözlərinə əhəmiyyət verdik. Özümüzü hipnoz etdik və bunun təsiri ilə həqiqəti dərk etmədik, xəyallara qapıldıq".

Həmin xəyalların arxasında müttəfiq ölkələrin (Rusiya, Fransa və İngiltərə nəzərdə

tutulur- red.) ermənilərə vəd etdiyi "Böyük Ermənistan" xəyali dövləti dayanırdı. Onlar hələ xəyallarla yaşayırdılar və bu yaşantılar Kaçaznuninin kitabında bu cür təqdim olunurdu: "Qara dənizdən Aralıq dənizinə, Qarabağ dağlarından Ərəb çöllərinə qədər olan ərazidə dövlət yaratmaq istəyirdik. Axı bu xəyalı necə gerçəkləşdirə bilərdik? Səmimi olsaq, biz həmişə bacarıqsız daşnaklar idik. Rəhbər tuta biləcəyimiz bir məqsədimiz, bu məqsədə çatmaq üçün dəqiq hesablanmış strategiyamız yox idi. Bütün işlərimizi təsadüfi görürdük. Terrora əl atdıq. Türklərə qarşı qırğınlar törətdik".

Bu, erməni millətçiliyinin ideoloqlarından birinin etirafları idi.

Təəssüf ki, yaxın 3 ilə qədər həmin millətçilik bu ideologiya ilə yaşadı və geri çəkilmək fikrində də deyildi. Azərbaycan Respublikası hər dəfə insan haqlarından, BMT-nin Ermənistan silahlı qüvvələrinin işğalı altındakı ərazilərimizi boşaltmaq barədə qətnamələrin icrasından danışdığı zamanlar qarşı tərəf heç bir kompromisə gedilməyəcəyini bəyan edirdi. Hətta zorla cəlb olunduğumuz münaqişənin hərbi yolla həll olunacağı ilə bağlı Azərbaycan tərəfinin bəyanatlarına "Yeni müharibə, yeni ərazilər demək olacaq" cavabı verilirdi.

Hər şey Azərbaycan Respublikasının zorla cəlb edildiyi müharibədə 2020-ci il 27 sentyabr tarixindən başladı və 44 günlük müharibə 10 noyabr Bəyannaməsi ilə başa çatdı.

Xalqımızın birliyi, Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi Şanlı Azərbaycan Ordusunun şücaəti nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi işğaldan azad edildi.

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı Üçtərəfli Bəyanata uyğun olaraq isə Ermənistanın Kəlbəcər, Ağdam və Laçın rayonlarından silahlı qüvvələrini çıxarması ilə ərazi bütövlüyümüz təmin olundu.

2023-cü il noyabr ayının 8-də Xankəndində Azərbaycan Silahlı Qüvvələrinin hərbi Paradını qəbul edən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı ancaq Ermənistana deyil, bütün dünyaya üz tutaraq dedi: "Azərbaycan Respublikası ilə heç kim güc yolu ilə danışa bilməz!".

Hörmətli konfrans iştirakçıları, biz- "Qərbi Azərbaycan: Böyük qayıdışa gedən yol" I Beynəlxalq elmi konqres iştirakçıları bir daha Ermənistan Respublikasının siyasi rəhbərliyinə üz tuturuq: "Azərbaycanlılar ona görə öz tarixi vətənlərinə qayıtmaqda israrlıdırlar ki, min illərlə babalarının yurdu olmuş ərazilərdə yaşasınlar, quruculuq işləri görsünlər və xalqımızın ən gözəl ənənələrini doğma yurd yerlərində yaşatsınlar".

Hesab edirəm ki, bu arzu Ermənistan ictimaiyyəti tərəfindən də normal qarşılanmalıdır.

Sağ olun!

Misir MƏRDANOV
AMEA-nın müxbir üzvü,
Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri

Hörmətli tədbir iştirakçıları, Əvvəla, Sizi Qərbi Azərbaycan icmasının Müşahidəçi Şurası adından səmimi salamlayır, konqresə və festivala öz işində uğurlar arzulayıram. Bu gün səhərdən biz qədim Naxçıvan torpağındayıq. Xüsusi qeyd etmək istəyirəm ki, bu gün biz Azərbaycan tarixinin qürurlu, sevincli, gözəl illərini yaşayırıq. 44 günlük müharibə ərzində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün ərzində tam qələbə qazandı və sentyabr ayında bir sutkadan az bir müddətdə torpaqlarımızın tam ərazi bütövlüyü bərpa olundu. Bu möhtəşəm tədbir keçirilən Qərbi Azərbaycan icmasının və digər təşkilatçıların dəstəyi ilə bu formatda keçirilən ilk tədbirdir və belə bir tədbirin Naxçıvanda keçirilməsi təsadüfi deyil. Mənim fikrimcə naxçıvanlıların haqqı var ki, belə bir tədbirə ev sahibliyi etsin. Birincisi, ona görə ki, Naxçıvan Azərbaycanın tarixində çox böyük şəxsiyyət olan Heydər Əliyev kimi bir insan Azərbaycan xalqına bəxş edib. 90-cı illərdə Moskvadan çox çətinliklə Bakıya gələn ulu öndərə imkan vermədilər ki özünün 14 il ərzində qurub yaratdığı Bakı şəhərində bir neçə gecə qalsın. Bu çətin vəziyyətdə Naxçıvan camaatı Heydər Əliyevə qollarını açdı, onu müdafiə etdi. Əsas səbəblərdən biri budur. Mənim fikrimcə, növbəti bir səbəb ondan ibarətdir ki, son 100 ildən çox müddət ərzində qərbi azərbaycanlıların başına gətirilən oyunlar, onların öz dədə baba torpaqlarından qovulması zamanı İrəvan ətrafında yaşayan qərbi azərbaycanlıların böyük əksəriyyətinə Naxçıvan camaatı yenə öz qollarını açdı, qardaşları kimi qəbul etdi və əgər bu gün dəqiq hesablama aparsaq, mən heç şübhə etmirəm ki, Naxçıvanda yaşayan əhalinin çox böyük bir hissəsini Qərbi Azərbaycanla, İrəvan ətrafında yaşayan Azərbaycan türkləri ilə bağlıdır. Ona görə də böyük beynəlxalq tədbirin burada keçirilməsinin böyük əsası vardır və bu tədbir bir də ona görə xüsusi dəyərləndirilməlidir ki, bu gün bizim tədbirimizdə qardaş Türkiyənin bir neçə universitetinin rektoru da iştirak edir. Mən onları hamımızın adından ürəkdən salamlayıram.

Ötən ilin, yəni təxminən bir il bundan qabaq-dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qərbi Azərbaycan icmasının inzibati binasının açılışında bizə Qərbi Azərbaycana qayıdışın konsepsiyasının əsaslarını verdi. Biz hökmən Vətənimizə qayıtmalıyıq. Eyni zamanda, möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, biz savaşla qayıtmaq istəmirik. Biz sülh yolu ilə qayıtmaq istəyirik. Biz istəyirik ki, beynəlxalq təşkilatlar Ermənistan rəhbərliyinə təzyiq göstərsinlər. Onlara elə təzyiq göstərsinlər ki, biz sülh yolu ilə öz vətənimizə, öz evlərimizə qayıda bilək. Bu yolda hələ işimiz çoxdur, ancaq eyni zamanda onu da qeyd etməliyik artıq Qarabağ problemi olandan sonra bütün Azərbaycan vətəndaşları, Qərbi azərbaycanlılar, Qərbi azərbaycanlıların öz vətənlərinə qayıtması uğrunda mübarizəyə aparmalıdırlar və bu yolda hər birinizə uğurlar arzulayırıq.

Mehmet CAHİT GÜRAN
Hacettepe Universitetinin rektoru, professoru

Hörmətli Protokol, hörmətli akademiklər, hörmətli Azərbaycan və Naxçıvan xalqı, türk millətinin hörmətli üzvləri, hamınızı hörmət və sevgi ilə salamlayıram. Hacettepe Universiteti olaraq, bu gün burada olmaq şərəfinə görə məni bura dəvət edən hörmətli təşkilatçılara, universitetimizin bütün üzvləri adından təşəkkür edirəm. Çıxışıma Qərbi Azərbaycanlıların məcburi köçkün olduqları coğrafiyaya, torpaqlara, dədə-baba yurdlarına qayıtmalarını, ata-babalarının məzarlarını ziyarət etmələrini, torpaqlarını öpüb qoxuya bilmələrini arzulamaqla başlamaq istəyirəm. Qərbi Azərbaycan torpaqlarının yüz illər boyunca azərbaycanlıların yaşadığı ərazilər olub. Ermənistan tərəfindən zaman-zaman aparılan deportasiya siyasəti azərbaycanlıları öz torpaqlarından didərgin salıb, hüquqları tapdalanıb: Bildirilib ki, bu gün "iki dövlət, bir millət, tək yumruq" müstəvisində bölgədə yeni bir güc yaranıb. Bu güc Qarabağ zəfərinə qovuşdurdu. Əminik ki, yeni reallıqlar Qərbi azərbaycanlı soydaşlarımızın da hüququnu bərpa edəcək, onlar öz doğma yurdlarına dönəcəklər.

Əhliman ƏMİRASLANOV
Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri,
Milli Məclisin deputatı, akademik

Çox hörmətli Fuad müəllim, Emin müəllim, millət vəkilləri, həm qardaş Türkiyədən, həm Bakıdan gələn hörmətli rektorlarımız professor, müəllim heyəti salamlayıram. İlk növbədə belə möhtəşəm bir tədbirin reallaşdırılmasında əməyi keçən insanların hər birinə başda Fuad məlum olmaq şərtilə təşəkkürümü və səmimi minnətdarlığımı bildirirəm. Bu gün səhərdən başladığımız bu tədbir, doğrudan da əvvəlki tədbirlərə bənzəməyən bir tədbirdir. Qərbi Azərbaycanla bağlı elmi istiqamətlər üzrə, keçmişə qayıtmaq istiqaməti üzrə mədəniyyət, incəsənət sahəsi üzrə çox genişmiqyaslı bir tədbirin şahidi olduq. Burada deyildiyi kimi, mən də bu tədbirə Qərbi Azərbaycan icmasının Ağsaqqallar Şurası adından uğurlar arzu edirəm və təşkilatçılara bir daha özlərinin təşəkkürümü bildirirəm. Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasında təkcə Azərbaycanda yox, dünyada tanınmış dövlət, elm, təhsil, səhiyyə, mədəniyyət və incəsənət xadimləri təmsil olunublar. Biz bilirik ki, Naxçıvanda da belə insanların sayı azdır və mən əminəm ki, gələcəkdə də Naxçıvandan bizim Qərbi Azərbaycan icmasının Ağsaqqallar Şurasında təmsil olunanlar olacaq. Burada qeyd olundu, nəinki məhz Qərbi Azərbaycanla bağlı Son vaxtlar məsələni qaldırmışıq. Möhtərəm cənab Prezidentimiz, bu sahəyə diqqəti, qayğısı sayəsində belə bir icma yarandı. Bu, doğrudan da belədir. Qarabağ torpaqları azad olunmayınca, böyük qələbə çalınmayınca, ərazi bütövlüyümüz bərpa olunmayınca, bu barədə genişmiqyaslı tədbirlər həyata keçirmək çətin olardı. Məhz möhtərəm cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi, nəyi nə vaxt etməyi hamıdan yaxşı bilir. İstərdim qeyd edim ki, deportasiya ilə bağlı mən də bəzi məqamlar mənim yadımdadır. Mənim atam uzun illər Göyçə mahalında partiya rəhbəri işləyirdi və 1950-ci illərin əvvəllərində insanların guya könüllü adı ilə Ermənistandan Azərbaycana deportasiya olunması mənim gözümün önündədir. İnsanları zorla deportasiya edirlər. Çox təəssüflər olsun ki, Azərbaycanda da müxtəlif dövrlərdə Ermənistandan deportasiya olunmuş insanlara, hətta ən yüksək hökumət, dövlət səviyyəsində ögey münasibət oldu və insanlar onlar üçün uyğun olmayan iqlim şəraitinə köçürülüblər və bunun nəticəsində diqqətsizliyin və qayğının olmaması nəticəsində xeyli insanlar öz dünyasını dəyişiblər. Burada Misir müəllim qeyd elədi. Ancaq Naxçıvanda bu məsələyə bu deportasiya, münasibət tamamilə fərqli oldu və Naxçıvan camaatı qədim Naxçıvan, Qərbi Azərbaycandan deportasiya olunmuş dillərin düşmüş insanlara qucaq açıblar və onları öz qardaş bacıları kimi qəbul ediblər. Böyük ictimai siyasi xadim Əziz Əliyev, Bilirsiniz ki, İrəvan quberniyasının Amamlı kəndində dünyaya göz açıb və o, İrəvan gimnaziyasını bitirəndən sonra hərbi tibbi fakültədə təhsil almaq üçün Sankt Peterburqa gedib birinci kursu bitirib. Amamlıya qayıdanda gəlib görür. bütün azərbaycanlı kəndləri yandırılıb, daşnaklar tərəfindən yandırılıb. insanlar qətlə yetirilib. Çox çətinliklə öz ailəsini, böyük ailəsini götürüb Naxçıvana Şahtaxtı kəndinə gəlib və Naxçıvan Əziz Əliyevin ailəsinə o vaxtı

qucaq açdı, onu qəbul etdi. Məhz dünya şöhrətli oftalmoloq alim Zərifə Əliyeva da Şahtaxtı kəndində doğulub dünyaya göz açır. Bu bir nümunə kimi mən göstərdim. Ancaq Naxçıvanda bu gün mən hesab edirəm ki, Əziz Əliyev kimi minlərlə, 10 minlərlə insanlar olub ki, onlar Naxçıvana pənah gətiriblər. Naxçıvan onları qarşılayıb və məğlubiyyətlərə düçar olmasını qoymayıblar. Mən hesab edirəm ki, Qərbi Azərbaycandan deportasiya olmuş insanlara olan ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər həm kommunist dövründə, həm də ki, Azərbaycanın müstəqilliyi dövründə. yalnız ulu öndər 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra üç dəfə Qərbi Azərbaycandan deportasiya ilə bağlı sərəncam imzalayıb. əsasında bu insanların pozulmuş hüquqları bərpa olundu. Böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi, Heydər Əliyev siyasəti bu sahədə də möhtərəm cənab Prezidentimiz tərəfindən uğurla davam etdirilir. Məhz bu gün burada söylənilənlər Qərbi Azərbaycan icmasının yaranması və bu tədbirlərin həyata keçirilməsi məhz ölkə Prezidentinin bu sahəyə olan diqqətinin və qayğısının nəticəsidir. Mən hesab edirəm ki, belə tədbirləri biz Naxçıvanda ilk dəfədir keçiririk, gələcəkdə də keçirəcəyik. Mən hesab edirəm, təkcə Naxçıvanda yox, Naxçıvan rayonlarında da Qərbi Azərbaycan icmasının bölmələri yaranacaq və biz öz ata, baba yurdumuzda torpaqlarımıza qayıtmaq üçün bu istiqamətdə fəaliyyət göstərəcəyik.

Biz topla, tanklarla Qərbi Azərbaycana qayıtmayacağıq. Möhtərəm cənab Prezidentimizin dəmir iradəsi, sülh yolu ilə torpaqlarımıza qayıdacağıq. Bu sahədə sizin hər birinizə uğurlar arzu edirəm. Konfransın işinə müvəffəqiyyətlər arzulayıram

Musa YILDIZ
Türkiyənin Qazi Universitetinin rektoru, professoru

Mən də konqres iştirakçılarının hamısını salamlayıram. Əvvəla Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayeva bizi belə bir tarixi tədbirə dəvət etdiyi üçün təşəkkkür edirəm. Qeyd etmək istəyirəm ki, Qazi Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında çöx möhkəm əlaqələr mövcuddur. Arzu edirəm ki, Qərbi Azərbaycandan buraya gələn soydaşlar tez bir zamanda öz torpaqlarına dönərlər, Eyni zamanda həmin yerlərdə yaradılan universitetlərlə də qarşılıqlı əlaqələr qurarıq. Gələcəkdə həmin universitetlərdə də bu cür tədbirlərdə məmnuniyyətlə iştirak edərik. Hər kəsə xoş günlər arzu edərək, konqresin işinə uğurlar diləyirəm.

Gülçöhrə MƏMMƏDOVA
Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü,
Memarlıq və İnşaat Universiteti rektoru

Hörmətli tədbir iştirakçıları, xanımlar və cənablar !

Mən də öz növbəmdə bu konqresin işinə uğurlar arzulayıram. Konqresin təşkilatçılarına, festival təşkilatçılarına təşəkkür edirəm. Arzu edirəm ki, belə tədbirlər ölkəmizdə daha çox keçirilsin və biz Qərbi Azərbaycan barədə həqiqətləri həm özümüzə, həm xalqımıza, həm dünyaya çatdıra bilək. Hamımızın 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasında möhtərəm Prezidentimiz İlham Əliyevin etdiyi tarixi çıxış yadındadır. İlk dəfə olaraq bu cür geniş miqyasda Qərbi Azərbaycan qoyuldu. Bəzən deyilməyən, bəzən də susdurulan həqiqətlər barədə danışıldı, prinsipal mövqe ortaya qoyuldu və bizim hamımıza tək Qərbi Azərbaycan icmasına yox, bütün Azərbaycan xalqına bu istiqamətdə hərəkət etmək üçün tövsiyələr və tapşırıqlar verildi. Ondan sonra keçən zaman ərzində çox işlər görülüb. Mən hesab edirəm ki, bugünkü Konqres festival həyata keçirilən ən uğurlu işlərdən biridir. Cənab prezident öz çıxışında bu məsələni də vurğuladı. O dedi ki, bu torpaqlarımızda olan mədəni irs barədə məlumatları yaymaq üçün çox şey etməliyik. Biz ora qayıdacağıq. Biz dağıdılmış kəndlərimizi, şəhərlərimizi, abidələrimizi bərpa edəcəyik. Doğrudan da belədir. Müharibələr zamanı insanların həyatlarından sonra əlbəttə, ən çox təhlükəyə uğrayan mədəni irsdir. Mədəni irs daşınan və daşınmaz olur. Daşınan mədəni irs, deportasiyaya uğramış, qovulmuş insanlarla birlikdə başqa bir əraziyə köçür. Oradakı insanlar tərəfindən yaşadılır və inkişaf etdirilir. Amma daşınmaz mədəni irs, memarlıq irsi həmişə tikildiyi torpağa bağlıdır. O, heç yana gedə bilmir, orda qalır və onu tikən insanlar barədə əsrlər boyu neçə ki var məlumat verir. Memarlıq irsi çox ciddi tarixi sübutdur. Hansı xalqın burada yaşaması, hansı xalqın onu tikməsi barədə məlumat verir. Ona görə də müharibələr, münaqişələr zamanı memarlıq irsi dağıdılır, sökülür yer üzündən silinir. Biz bunu Qarabağda da gördük. İndi işğaldan azad edilmiş torpaqlarımızın, kəndlərimizin, şəhərlərimizin və mədəni irsimizin nə vəziyyətdə olduğu hamıya məlumdur. Bu barədə artıq danışmaq lazım deyil. Beləliklə, millətin izini və tarixini silmək həm Qarabağda, həm də Qərbi Azərbaycanda həyata keçirildi. Ona görə də bizim orada olan abidələrimiz sökülüb dağıdılıb. Bunun bir hissəsini sovet hakimiyyəti dövründə, digər hissəsini sonradan həyata keçiriblər. Nəyi mənimsəmək mümkün idisə, fassifikasiya etmək mümkünsə onu da fasifikasiya ediblər. Və bu gün biz acınacaqlı bir həqiqətin qarşısındayıq. Qərbi Azərbaycanda olan çox zəngin memarlıq irsimizdən çox az şey qalıb və biz vaxtında o irs barədə məlumat toplayıb, kitablarda cəmləşdirməmişik.

Hələ sovet dövründə, "Tarixi erməni abidələri", "Qarabağın tarixi", "erməni abidələri", "Azərbaycanın tarixi", "erməni abidələri" adı ilə çoxsaylı kitablar yazılıb, tərcümə olunub, bütün dünyaya çatdırılıb. Amma təəssüf ki, biz bunu edə bilməmişik və indi bizim qarşımızda çox çətin vəzifə dayanır. Bu informasiyaları yığıb mədəni irsimiz barədə həqiqəti bərpa etmək və üzə çıxarmaq. Biz həmişə deyirik, torpaqlarımızla bağlı beynəlxalq hüquq çərçivəsində mədəni irsin də öz hüquqi bazası var. Mən düşünürəm ki, bizim qarşımızda duran çoxsaylı məsələlərdən biri Qərbi Azərbaycana qayıdışla bağlı Qərbi Azərbaycan mədəni irsinin, xüsusilə də tarixi memarlıq irsinin heç olmasa virtual şəkildə tanınması, üzə çıxarılması, öyrənilməsi və təqdim edilməsidir. Bundan bağlı bu gün bir çox təşkilatlar, təhsil ocaqları məşğul olur və düşünürəm ki, bizim qüvvəmiz bu istiqamətdə bu böyük vəzifənin öhdəsindən gəlməyə imkan yaradacaq.

Abel MƏHƏRRƏMOV
Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurası üzvü

Hörmətli tədbir iştirakçıları, ilk növbədə hamınızı salamlayıram. Qonaqlarımıza Türkiyədən xoş gəlmisiniz deyirəm və təşkilatçılara öz təşəkkürümü bildirirəm. Universitetlər həmişə çox maraqlı konfranslar keçirir. Ancaq mən ilk dəfədir ki, festival-konqres vəhdətində keçirilən belə bir məhsuldar tədbirin şahidi oluram. Özü də burda uzlaşma çox yaxşı aparılıb həm festival, həm də konqres. Çünki festival davam edə-edə konqres panel çıxışları ilə universitetdə çox sahəli sessiyalarda aparılır. Sessiayalarda aparılan işlərə baxanda gördüm ki, bu prosesə çox elmi yanaşma var. Yəni sadə təşkil olunmuş tədbir deyil.

İstər Elm və Təhsil Nazirliyi, struktur rəhbərləri, universitet rektorları, hörmətli Fuad müəllimin rəhbərliyi ilə akademik mühitinin Naxçıvanda keçirilən tədbirdə iştirakı, Naxçıvan Dövlət Universitetinin iştirakı və Qərbi Azərbaycana qayıdış konsepsiyasının yol xəritəsinə ciddi nəzarət edən hörmətli Əziz müəllimin burada iştirakı onu göstərir ki, bu, çox ciddi bir məsələdir, əlbəttə, prezidentimizin belə bir məsləhəti olmasaydı, onun struktur rəhbərləri inzibati qaydada ərsəyə gətirməsəydi, bu tədbiri keçirmək o qədər də asan olmazdı. Deməli, həm rəhbərimiz, həm struktur rəhbərləri, həm yerli hakimiyyət, həm dövlətin digər ali strukturları bu məsələyə çox ürəklə yanaşırlar.

Qərbi Azərbaycana qayıdış konsepsiyası yol xəritəsi üzrə artıq neçə vaxtdır fəaliyyətdədir. Ancaq mən hesab edirəm ki, bu festival-konqres ən vaciblərindən biri oldu. Çünki belə bir tədbirin bu regionda keçirilməsinin böyük əhəmiyyəti var və tarixi bir hadisədir.

Dünyada 6000-ə qədər millət və xalq var. Buna etnos da demək olar. Ona görə ki, ermənilər o 6000-in içində olublar. Yeganə olaraq bu bədnam qonşular bizim Qərbi Azərbyacan torpaqları hesabına özlərinə dövlət qurublar. Hökuməti qurmaq üçün Ermənistan adlandırmaq üçün gərək əhalinin sayı, ermənilərin sayı azərbaycanlılardan çox olsun, torpaq olsun. Nə torpaq var, nə də erməni sayı dövlət qurmağa icazə verir. Əvvəl ilk yarananda 9000 kvadrat kilometr torpağı aldılar və başladılar deportasiyaya. Mən iki deportasiyanın iştirakçısı olmuşam, yəni bizim öz başımıza gəlib. 1905-1918-ci illərdə edilən deportasiyaları atam, anam, babam, nənəm mənə ətraflı danışıb ki, bu hadisələr necə olub və bizə çox zülm verdilər və beləliklə də bu deportasiya yoluyla azərbaycanlıları çıxartdılar.

İndi hər bir dövlətin inkişaf tarixində müəyyən ziqzaqlar olur. Enişli-yoxuşlu günləri olur. Azərbaycan xalqının tarixində də olub, torpaqlarımızın bir hissəsi sağa, bir hissəsi sola gedib. Əgər ümummilli liderimiz xalqın tələbi ilə Naxçıvana gəlməsəydi, bizim bugünkü günümüz yox idi. Xoşbəxt o xalqdır ki, onun ümummilli lideri var. Xalq o vaxt daha xoşbəxt olur ki, ümummilli liderin siyasi kursu ölkədə xalq-prezident birliyi ilə çox uğurla aparılır. Bu gün biz o təntənəyə yığışmışıq.

Prezident Xalq Birliyi imkan verir ki, Qarabağı alandan sonra, 44 günlük müharibədən sonra, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə digər istək arzularımızı da biz həyata keçirə bilərik.

Mən sistematik olaraq qulaq asıram ermənilərin çıxışlarına, onların ideoloji təbliğatlarına və görürəm ki, Qarabağ artıq onların yadından çıxıb. Deyirlər, yaxşı Qarabağ başa düşdük, istəyirik ki, suveren dövlət kimi sülh sazişinə gedək. Bəs bu Qərbi

Azərbaycan söhbəti hardan çıxdı? Gündə bunlar iclas aparır, silahlandırılırlar. Yəni çox narahatdırlar. Möhtərəm prezidentimiz demişkən, biz ora tankla, topla yox, öz maşınlarımızla, öz ayaqlarımızla gedəcəyik. Bəs necə gedəcəyik? Gələcəyik təbii ki, Naxçıvana. İlk addım burdan olacaq. Dərələyəzdən başlayaraq, Meğri, Yuxarı Sədərək belə rayonlarla yavaş yavaş Göyçə mahalı, İrəvan sonra da mənim doğulduğum Ağbaba mahalına gedəcəyik. Mən buna tam əminəm.

Şəxsən mən özümü deyirəm, iki dəfə deportasiyanı görmüşəm onu. Bir dəfə 1948-ci ildə köçmüşük və sonra atam müharibə iştirakçısı olduğu üçün sonra tələb ediblər və 10 ildən sonra yenidən qayıtmışıq Ermənistana müstəsnalıq halında. 1988-ci ildə bir daha köçmüşük. Bunu deməkdə məqsədim odur ki, biz o yerləri görmüşük. Bu nəsil görüb. Ancaq sual olunur ki, bizdən sonra gələn nəsil də bunu bilməlidir necə etmək olar? Necə etmək olar ki, onlar bizim bu strateji düşüncəmizi, Qayıdış konsepsiyasını uğurla yol xəritəsi üzrə aparıb axıra çatdıra bilsinlər?

Biz hökmən bu estopedanı çox məntiqli şəkildə o biri nəsilə ötürməliyik. Bunun üçün mərkəzlər yaratmaq lazımdır. Tədqiqat sektorları yaratmaq lazımdır ki, bu ədəbiyyata düşsün və gənclərimiz oxusun, bilsinlər. Televiziyalarda Qərbi Azərbaycanla bağlı maraqlı verilişlər hazırlanmalıdır.

Son olaraq onu demək istəyirəm ki, 44 günlük Vətən müharibəsində biz qələbə çaldıq. Hamının orduya, xalqa, millətə, Prezident xalq birliyinə inamı oldu,

İndiki kimi Azərbaycan dövlətçiliyi sərbəst inkişaf etmiş vəziyyətdə olmamışdı. Biz bundan çox səmərəli istifadə etməli, gənclərimizi də hazırlamalıyıq və necə deyirik ki, Qarabağ bizimdir, bir gün də gedək Qərbi Azərbaycana, deyək ki, Qərbi Azərbaycanda bizim olub, yenə də bizimdir. Bu yolda hamımıza uğurlar.

Cəfər CƏFƏROV
Azərbaycan Dövlət Pedaqoji Universiteti rektoru

Hörmətli millət vəkilləri, dəyərli həmkarlarımız, ziyalılarımız, hamınızı səmimiyyətlə salamlayıram. Uğurlu tədbir münasibətilə bütün təşkilatçıları təbrik etmək istəyirəm. Bu, bizim hamımızın, quru, uzaq hədəflərə gedən yolda atılan növbəti uğurlu addımlardan biridir. Naxçıvanda olduğumuz Ulu Öndərin 100 illiyini nəzərə alaraq Ulu öndərin bu məsələ ilə bağlı münasibəti, konseptual yanaşması barədə məlumat verəcəm. Ulu öndərin fərqli dövrlərində olan bu məsələ ilə bağlı bəzi epotları xatırladaraq fikirlərini ümumiləşdirmək istəyirəm. Müstəqil Azərbaycan Respublikası yeni mənzərəsi yaranmış zəfərdən sonra, Azərbaycan Prezident İlham Əliyevin təbirincə desək, başını dik tutur. Dövlətimizin yeni mövqeyi Ümummilli Liderimiz Heydər Əliyevin zamanında söylədiyi gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq həqiqəti gerçəkləşdirilir. Və belə bir sual verilsə ki, əgər Heydər Əliyev dövlətçilik siyasətinə Qərbi Azərbaycan mövzusunu təkcə siyasi cəhətdən yox, həm də həssas vətən eşqi və Vətən narahatçılığı gətirməsəydi, yalnız Qarabağ problemlərinin həlli ilə məşğul olsaydı, zəfərdən sonrakı mərhələdə atılan addımlarda Qərbi Azərbaycan ilə bağlı heç bir hazırlıq nəzərə çarpmasaydı, biz bu gün hansı əsasla başlayıb ədalətin bərqərar olmasına doğru addımlar atardıq?.

Çox vaxt Heydər Əliyevin sağlam qüvvələri səfərbər edərək güclü dövlət strukturları yaratmasında, müstəqilliyimizin daxili, ictimai, siyasi sabitliyinin real təminatçısı olan dövlət aparatı qurmasında görürlər. Bu, həqiqətən də böyük nailiyyətdir. Lakin Heydər Əliyevin bu sahədəki daha böyük xidməti dərin qatda olduğundan çox vaxt diqqətdən kənarda qalır. Azərbaycanda dövlət quruculuğu ilə yanaşı, dövlətçiliyin inkişafı sahəsindəki xidmətlərdir. Qərbi Azərbaycan məsələsində baxış Heydər Əliyevin saysız hesabsız tarixi xidmətlərindən biri olmaqla dövlətçilik ideologiyasının tərkib hissəsi kimi çıxış edir. Onun Qərbi Azərbaycan torpaqlarının tarixi vətənimiz olması, Qarabağda ədalətin bərpası ilə eyni vəziyyətdə görüb beynəlxalq səviyyədə qaldırılması dövlətçiliyimizin davamlı inkişafında qarşıya yeni hədəflər qoyur, istiqamətləri müəyyənləşdirir.

1998-ci il yanvarın 14-də Konstitusiya Komissiyasının iclasında Heydər Əliyev Zəngəzur dəhlizinin perspektivlərindən bəhs edərkən siyasi hakimiyyətinin birinci dövründə növbəti ermənilərə qarşı fəaliyyəti barədə tarixi həqiqətin bəzi məqamlarına toxunur. Məlum olur ki, 1968-1969-cu illərdə Ermənistan Azərbaycana qarşı növbəti torpaq iddiaları ilə çıxış edib. Ermənilər Zaqafqaziya Kartoqrafiya İdarəsinin 1932-ci ildə yaratdığı saxtalaşdırılmış xəritələri əsas götürməklə Azərbaycanın Ermənistanla sərhəd olan hissələrindən bir sıra torpaq sahələrinin iddiasına başlayır və Azərbaycan hakimiyyətini təmsil edən rəhbərlərin ayıq-sayıq olmamasından istifadə edərək protokol imzalamağa nail olub. Hətta 1969-cu ilin may ayında Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətində torpaqların verilməsi ilə bağlı fərman da imzalanır. İşin icrası 1969-cu il iyun ayında Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gətirilməsindən sonra ba. Verir.Heydər Əliyev bu barədə belə xatırlayır ki, "bir neçə gün idi ki, işləyirdim. Bu məsələni gətirib mənim qarşıma çıxardılar. Moskvadan da çox böyük təzyiq edirdilər ki, bu məsələ qərar qəbul olunub, tez icrasına baxın. Bilirsiniz, bu qərar mayda qəbul olunub. Əgər iyul ayına qədər icra edilməyibsə, imkan verin, mən onu bir araşdırım. Şübhəsiz ki, mən onu araşdırandan. Sonra gördüm ki, buna razılıq verə bilmərəm. Mən razılıq vermədim. Bu da

məlumdur. Nə qədər ki, mən Azərbaycanda idim, bu qərar həyata keçmədi. 1969-cu il iyul ayının 14-də hakimiyyətə gələn Heydər Əliyev avqust ayında Qazax və İrəvan rayonları sərhədində Ermənistan Kommunist Partiyasının birinci katibi Paşinyanla görüşərək kəskin mövqe tutdu və qüvvədən antimilli qərarın yerinə yetirilməsinə imkan vermədi. Həmin dövr tarixinin şahidi olan Həbib Həsənova məlum oldu ki, Paşinyan görüşdən qayıdan kimi İrəvanda Ermənistan Kommunist Partiyasının bürosunu toplayır, Heydər Əliyevlə görüşü barədə qısa məlumat verir və bir neçə nəfər Azərbaycan SSRİ Sovetinin Rəyasət Heyətinin qərarının icrasının nə vaxt başlanacağı haqqında sual verərkən Paşinyan bildirib ki Ermənistanı və erməniləri sevən hər birinizdən xahiş edirəm, nə qədər Heydər Əliyev adlı adam var, heç bir sərhəd məsələsi, torpaq, ərazi söhbəti qaldırmayı. Uzaqgörən rəhbər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə Qərbi Azərbaycanla bağlı yeritdiyi siyasət Ermənistanın qədim türk torpağı olmasını ittifaq səviyyəsində qəbul etdirməyə və bu torpaqlarda əsrlərin yaddaşını özündə saxlayan, tarixi mədəni dəyərlərə, prokuror qaynaqlarına, milli mənəvi sərvətlərə sahib çıxmaq yolu ilə milli mənlik duyğusunun düşüncəmizdə canlanmasında göstərdiyi qayə Ulu öndərin təşəbbüsü və sərəncamı ilə Aşıq Ələsgərin, Aşıq Alının yubileylərinin ümumittifaq səviyyədə keçirilməsi son dərəcə önəmli bir hadisəyə çevrildi. 1972-ci ildə onun qeyri-adi təşkilatçılıq bacarığı və şübhəsiz ki, həm də böyük siyasi nüfuzu sayəsində Aşıq Ələsgərin 150 illik yubiley tədbiri Bakı ilə yanaşı, Moskvada da keçirildi və bu da o deməkdir ki, bütün İttifaq Respublikalarından nümayəndələr iştirak edirlər. Hamısı artıq Aşıq Ələsgərin vətəninin bir türk ocağı olduğunu qəbul etmək məcburiyyətində qalırlar. Moskvada keçirilən yubiley tədbirində hər bir respublikanı təmsil edən yüksək nüfuzlu elm, mədəniyyət, incəsənət xadimlərinin iştirak etməsi və müxtəlif millətlərdən olan natiqlərin Aşıq Ələsgərin timsalında qədim saz, söz sənətimizin Ermənistanın azərbaycanlıların yurdu, qədim mədəniyyət mərkəzi olmasını nəzərə çatdırdı. Yubileyin ittifaq səviyyəsində geniş əks səda doğurması nəticəsində ermənilərin tədbiri keçirməyə məcbur qoymuş və Aşıq Ələsgərin doğma yurdunda qəbirüstü abidəsi ucaldılmışdır. Bu münasibətilə böyük bayram tədbiri təşkil olunmuşdu. Yenə də ora xeyli sayda İttifaq Respublikalarından nümayəndələr gəlmişdi. Əsərləri cildlik çap olundu, fərqli dillərə tərcümə olundu. Bu da Heydər Əliyevin qədim Dədə Baba yurdumuzla bağlı planlı, məqsədyönlü siyasətinin uğurlu nəticəsi idi. Məsələnin ikinci tərəfinə gəldikdə isə heç də az əhəmiyyətə malik deyildir. Ermənistanın qədim türk torpağı olaraq ittifaqda tanıdılması ilk görünən tərəfdirsə görünməyən tərəfi ulu öndərin tarixi yaddaşın həm də atdığı qətiyyətli addımlardır. O dövrdə bu siyasətin milli ruhun canlanmasına, xidmət göstərməklə özünüdərkə və soykökə qayıdışı təmin etməklə mühüm, əhəmiyyətli olmuşdur və təsadüfi deyil ki, ermənilərin Heydər Əliyevə dərin nifrətinin əsasında həm də Ümummilli Liderin ziyalılar arasında milli əhval ruhiyyənin gücləndirilməsi, gənclərin milli ruhda tərbiyə olunması, xalqın soy kökünə dönüşünü təmin etməsi durur. Heydər Əliyev SSRİ rəhbərlərindən biri kimi çalışdığı illərdə də Qərbi Azərbaycan problemini həmişə nəzarətdə saxlamışdır. Onun Kremldəki aparatının katibi Camal Camalovun xatirələrindən aydın olur ki, Heydər Əliyevin bu dövrdə Zəngəzur dəhlizi ilə bağlı planı olmuşdur. Belə ki, ulu öndər 1985-ci ildə Zəngilandan Ermənistan ərazisindən keçməklə Ordubada yol çəkilməsi ideyasını irəli sürür və bu layihəni SSRİ müdafiə naziri Dmitrisinovla müzakirə edir. Heydər Əliyev bu yolun çəkilməsini çox istəyirdi. Azərbaycan üçün həyata keçirdiyi başqa irimiqyaslı layihələr kimi bu yolda SSRİ-nin qoşunlarının cəld dislokasiyası üçün dörd cərgəli yol kimi

Usunovun vasitəsilə həyata keçirmək istəyirdi. Usunovun qəfil ölümündən sonra Heydər Əliyev öz sarsılmaz əqidəsi ilə yeni rəhbərliyinin vasitəsilə bu işləri həyata keçirməyə çalışır. Astaradan başlayan İran sərhədi boyunca Sədərəyə kimi uzanan hərbi Azərbaycan yolunun çəkilməsində Azərbaycan tərəfi icazə verir, sənədlər imzalanır. Ermənistan isə Mincivandan Ordubada kimi olan qısa yolun çəkilməsinə razılıq vermək istəmir. Səbəb kimi göstərirlər ki, bizim torpaqlardır, orda əkin-biçin var və s. Halbuki hamı bilir ki, orada dağ-dərədən başqa bir şey yoxdur. Camalovun xatirələrindən aydın olur ki, SSRİ Ali Sovetinin 1986-cı ilin yaz sessiyasında Ermənistandan nümayəndə heyəti Moskvaya gəlir. Dəmirçiyan, Abramyan yanında olurlar və bu yolun tikintisinə başlanılır. Mincivandan Nüvədiyə qədər yol çəkilir. Heydər Əliyevin istefası və sonra SSRİ- nin dağılmasına görə yenə də bu yolun tikintisi yarımçıq qalır. Müstəqillik dövründə olan Heydər Əliyevin fəaliyyətinə işıq saçan bir epizodu da diqqətinizə çatdırım. Ulu öndər son dərəcə çətin Azərbaycan üçün milyondan artıq qaçqın köçkünün olduğu bir dövrdə, Qarabağ kimi böyük dərdin olduğu dövrdə belə Qərbi Azərbaycan probleminə də xüsusi əhəmiyyət verir, onu digər məsələlərlə vəhdətdə götürərək milli dövlətçilik siyasətini əlavə edir, konkret məqsədlər müəyyənləşdirir. Bu baxımdan cəsarətlə demək olar ki, Qərbi Azərbaycan məsələsi Heydər Əliyevin işində konsepsiya, proqram xarakteri daşıyır. 1993-cü ildən başlayaraq bütün səfərlərində, döyüşlərində Qərbi Azərbaycan tarixi həqiqətlərini, Qarabağ həqiqətləri ilə paralel şəkildə, siyasi uzaqgörənlik və müdrikliklə dünya ictimaiyyətinə çatdırıb. Bu sırada 23 fevral 1994-cü ildə Böyük Britaniya Kralı Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı çox əlamətdardır. Böyük Britaniya səfəri müddətində burada Azərbaycan haqqında informasiyanın çox az olduğunu gördüyünü və görüşün verdiyi imkan dairəsində bu boşluğun doldurulacağına ümid məsləhətini xüsusi qeyd edən müdrik rəhbər ölkəmizin son 200 illik tarixinin mühüm məqamları Ermənistanın hərbi qruplaşması tərəfindən 108-ci ildən başlayaraq azərbaycanlılara qarşı təcavüzkar əməliyyatlarının ağır nəticələri, müstəqil dövlətin daxili və xarici siyasətindəki əsas məsələlər barədə görüş iştirakçılarına müfəssəl məlumat verir. 1993-cü ildən 1994-cü ildən Azərbaycanın mövcudluğun özünün belə sual altında qaldığı bir dövrdə əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, indiki Ermənistan ərazisinin bir hissəsi də vaxtilə Azərbaycan torpaqları Böyük Britaniya Beynəlxalq Münasibətlər İnstitutunda deyil. Mən həmin ərazini sizə göstərə bilərəm. O, Zəngəzur adlanır. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 18 100, 20-ci illərdə Ermənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. nümunələri gətirməklə. Təbii ki, bunlar barədə yəqin ki, iştirakçıların məlumatları. Ancaq güman edirəm ki, xaricdən qonaqlarımız nəticəsində portretinə əlavə siniflər əlavə edə bilərlər ki, o, son dərəcə qəliz, çətin bir vəziyyətdə Azərbaycanın strateji maraqlarına yönəlmiş işləri nə formada görürük, hansı böyük zərər dəyişiklikdə işlər aparır və onların nəticəsində biz hücumu səfərə gəlib çatmış və bundan sonrakı hədəflərimiz də artıq hüququnu yerinə yetirməkdə diqqət

Vahid NOVRUZOV
Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, professor

Dostlar, hamınızı ürəkdən salamlayıram. Artıq ikinci dəfədir bu salonda çıxış edirəm və mənim üçün çox böyük şərəfdir. Ona görə fevral ayının 21-də ulu öndərimizin 100 illiyinə həsr olunmuş "Heydər Əliyev və vətəndaş cəmiyyəti quruculuğu" adlı həqiqətən də çox uğurlu tədbir keçirildi və bir daha sübut olundu ki, ulu öndərimizin dövlət quruculuğu siyasətini uğurla həyata keçirən prezidentimizin rəhbərliyi altında ölkəmizdə çox dayanıqlı vətəndaş cəmiyyəti formalaşıb, məhz vətəndaş cəmiyyətinin formalaşması və bir yumruq ətrafında xalqımızın, gənclərimizin birləşməsi torpaqlarımızın azad olunmasında və Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsində çox mühüm rol oynayır. Mən tam əminəm ki, bu gün bizim konfransımız bütövlükdə Azərbaycan üçün tarixi önəm kəsb edir. Bizim bu gün iştirakçısı olduğumuz festival-konqres çox uğurlu alındı. Bu münasibətlə mən təşkilatçıları ürəkdən təbrik edirəm. Təşəkkürümü bildirirəm ki, belə festival təşkil olunub. Bütün torpaqlarımız azad olunacaq və bu mənada Mustafa Kamalın bu sözünü nəzərinizə çatdırmaq istərdim. "Ümidsiz vəziyətlər yoxdur, ümidsiz insanlar vardır. Mən heç vaxt ümidimi itirmədim". Məhz bizim də ümidimiz, ulu öndər, möhtərəm prezidentimizin Azərbaycan xalqını öz ətrafında birləşdirilməsi əsgərimizi həmin astanaya çatdırıb. Biz bu işin astanasındayıq və bu istiqamətdə hər birimiz təbii ki, öz işimizi həyata keçiririk.

Möhtərəm Prezidentimiz heç vaxt seçkiləri yox, Azərbaycan xalqının gələcəyini fikirləşmişir və ona görə də biz bu gün qonşularımızla münasibətdə çox yüksək nəticələrə nail oluruq və onlar bizim bütün sahələrdə uğurlarımıza həsəd aparırlar. Mən əminəm ki, vaxtı ikən bizim üçün xəyal kimi görünən torpaqlarımızın azad olunması ideyası necə reallaşdısa, biz Qərbi Azərbaycan torpaqlarının azad olunduğunun da şahidi olacağıq. Bizim Qərbi Azərbaycan vətəndaşlarımız öz Dədə baba yurdlarını ziyarət edəcək, orada yaşamaq hüquqlarını reallaşdıracaq. Təşəkkür edirəm.

TAM MƏTNLƏR

I BÖLMƏ. QƏRBİ AZƏRBAYCAN: TARİX, HƏQİQƏTLƏR VƏ FAKTLAR

TARİXİ AZƏRBAYCAN: QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ MİSSİYASI

İsmayıl HACIYEV
haciyev.i1951@gmail.com
AMEA Naxçıvan Bölməsi

Tarixi Azərbaycanın önəmli hissələrindən biri bu gün Qərbi Azərbaycan dediyimiz qərb torpaqlarıdır. XIX əsrin əvvəllərində Azərbaycanın şimalını işğal etmiş Rusiya imperiyası bir əsr sonra onun həmin qərb hissəsində oyuncaq Ermənistan dövləti yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir... XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb" [3, 2022, 25 dekabr].

Azərbaycan türkləri indiki Ermənistan ərazisində e.ə. II minillikdən yaşamağa başlamışlar. Bu faktı təsdiqləyən amillərdən biri həmin xalqın, tayfanın adını özündə yaşadan toponimlərdir [4, s.8]. Bu ərazidə qədim türk tayfalarından olan kimmerlər, quqarlar, qarqarlar, peçeneqlər, kəngərlər, sadılılar, oğuzlar, baharlılar, bayandurlar, əfşarlar, ustaclılar, şamlılar, qarapapaqlar, varsaqlar, barsillər, şiraqlar, arsaqlar və b. yaşamışlar.

Ermənilər Balkan yarımadasında yaşamış, sonra Dəclə və Fərat çaylarının yuxarı axınlarında məskən salmışlar. E.ə. II minilliyin sonlarında isə Kiçik Asiyaya, müasir Türkiyənin ərazisinə köçmüşlər [26, s.18]. 1080-1375-ci illərdə Kilikiya erməni çarlığı Türkiyə ərazisində olsa da, o müstəqil deyildi. Sasani imperiyası 428-ci ildə ermənilərin hakimiyyətinə son qoyduqdan sonra 1918-ci ilə qədər onların dövləti olmamışdır. Ermənilər tarix boyu heç bir vaxt davamlı və müstəqil dövlətə malik olmamışlar. "Erməni krallıqları" və bəylikləri ərazidəki böyük dövlətlərdən asılı və ya yarımasılı halında yaşamışdır. 15 vilayətdən ibarət olan bölgələr "Böyük Ermənistan", 3 vilayətdən olan bölgələr isə "Kiçik Ermənistan" adı ilə tanınmışdı. Bunlar siyasi ərazi yox, coğrafi ərazi

kimi məlum idi [35, s.8].

Amerikalı tədqiqatçı S.Vimz hesab edir ki, əslində heç vaxt müstəqil Ermənistan dövləti olmayıb. Tarixdə "Böyük Ermənistan", "Kiçik Ermənistan" adlı dövlət mövcud olmayıb. Ermənistan eramızın IV əsrinə kimi Roma, İran və Bizans arasında bölünüb və erməni hakimləri tərəfindən deyil, onlar tərəfindən idarə olunub. Ermənilər XV əsrin ortalarınadək Cənubi Qafqazda, demək olar ki, yaşamamışlar. 1441-ci ildə Qaraqoyunlu dövlətinin hökmdarı Cahan şah erməni katolikosluğunun mərkəzini Kilikiyanın Sis şəhərindən Eçmiədzinə (Üçkilsəyə) köçürdü. Buna qədər burada ermənilərə məxsus heç bir kənd və yaxud torpaq sahəsi olmayıb [19, s.18-19].

XVI-XVII əsrlərdə Səfəvilərlə Osmanlı Türkiyəsi arasında uzun sürən müharibələr ermənilərin öz müstəqil dövlətlərini yaratmaq arzusuna təkan verdi. 1605-ci ildə I Şah Abbasın fərmanı ilə Səfəvi dövlətinin ərazisində ermənilər üçün ərazilər ayrıldı. Ermənilər varlandıqca onların dövlət yaratmaq iştahları güclənirdi. Bunun üçün onlar özlərinə himayəçi axtarırdı. Ermənilərin bir sıra Avropa ölkələrinə etdikləri müraciətlər nəticəsiz qalmışdı. XVII əsrin ortalarında rus dövlətinin öz mövqelərini möhkəmləndirməsi erməni kilsəsinin diqqətini cəlb etməyə başladı. Ermənilər gələcəkdə Rusiyanın hərtərəfli himayəsini qazanmaqdan ötrü 1659-cu ildə çar Aleksey Mixayloviçə qızıldan işlənmiş taxt hədiyyə etdilər. Ermənilərin Rusiya ilə yaxınlaşması I Pyotrun dövründə daha sistemli şəkil aldı. Rusiya regionda başlıca rəqibləri olan Osmanlı və Səfəvi imperiyalarını daxildən zəiflətmək üçün erməni kartından istifadə etdi. İlk növbədə ermənilər Azərbaycan ərazilərində yerləşdirmək üçün göstəriş verdi. I Yekaterina ermənilərin yüksək mərhəmətə və himayəyə layiq görülmələri haqqında 1726-cı il fevralın 22-də fərman verdi [42, s.43]. II Yekaterina Eçmiədzin katolikosu H.Arqutinskinin hazırladığı "Ararat krallığı" ideya-layihəsini dəstəklədi. Rus məmurları və Dünyadakı rus qoşunlarının komandanı Q.Potyomkin ilə görüşən İ.Arqutinski təkliflərinin reallaşdırılması istiqamətində fəaliyyətə keçdi, "erməni dövləti" yaratmaq üçün əməli addımlar atdı [30, s.188-201]. Lakin müxtəlif səbəblərdən Azərbaycan ərazisində "erməni dövləti" yaratmaq mümkün olmadı.

Ermənilər öz məkrli niyyətlərindən əl çəkməmiş və XIX əsr boyu öz xidmətlərini çar Rusiyasına təqdim etmişlər. Onlar Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsində fəal rol oynamışlar. Ermənilərin bu xidmətləri müqabilində Rusiya imperatoru I Nikolay 1828-ci il martın 21-də İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində "Erməni vilayəti" yaratdı [18, 2022, 29 dekabr] və onu çar tituluna daxil etdi. Ermənilər erməni vilayəti kimi siyasi status aldı. Bu müstəqil dövlət qurumu olmasa da, ermənilərin gələcəkdə səfərbər olmalarına, təşkilatlanmalarına, iqtisadi-mədəni tərəqqiyə yetişmələrinə ciddi təsir etdi. İkinci bir tərəfdən, çar Rusiyası işğal etdiyi Şimali Azərbaycanın strateji bölgələrindən olan İrəvan və Zəngəzurda ermənilər yerləşdirməyə başladı. Rusiya-İran (1826-1828) və Rusiya-Türkiyə (1828-1829) müharibələri dövründə və müharibələrdən sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə bu yerlərə köçürülüb gətirilməsinə baxmayaraq, çar hakimiyyət orqanları Erməni vilayəti ərazisində demoqrafik vəziyyəti birdən-birə dəyişdirə bilmədi. İrəvan və Naxçıvan xanlıqlarının işğalını həyata keçirmiş rus generalı Paskeviç, hətta ermənilərin köçürülüb

gətirilməsindən sonra belə, İrəvan bölgəsi əhalisinin dörddə üç hissəsinin Azərbaycan türkləri olduğunu etiraf edirdi [40]. Fransız mənşəli rus tədqiqatçısı U.Şopen Paskeviçin tapşırığı ilə 1829-1832-ci illərdə Erməni vilayətində kameral siyahıyaalma keçirmişdir. Burada kəndlərin və əhalinin sayı göstərilmişdir. Erməni vilayətində olan 1125 kəndin 1111-də ancaq Azərbaycan türkləri yaşayırdı [19, s.26]. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində xaraba qalmış, əhalisi didərgin düşmüşdü [44, s.510].

U.Şopenin kameral təsvirinin nəticəsinə görə, burada 164450 nəfər əhali qeydə alınmışdı. Onlardan 81749 nəfər azərbaycanlılar, 25151 nəfər köçürülməyədək burada yaşayan ermənilərdir. Erməni vilayətinin əyalət və dairələrində gəlmə ermənilərin artımı və yerli azərbaycanlıların çar təzyiqinə davam gətirməyərək İran və Türkiyə ərazilərinə köçməsi nəticəsində əhalinin etnik tərkibindəki fərq ermənilərin xeyrinə dəyişirdi. Erməni vilayətində Türkmənçay müqaviləsinə qədər 25,2 min erməni yaşayırdısa, sonrakı il ərzində onların sayı az qala üç dəfə artdı və 64,5 min nəfərə çatdırıldı. İrəvan əyalətinin 119 kəndinə ermənilər köçürüldü [24, s.8]. Nəticədə çar Rusiyası Qacarlar İranı və Osmanlı dövlətinin sərhədləri boyunca "xristian kəməri" yaratdı. Bunlar Cənubi Qafqazın irimiqyaslı ermənileşdirilməsinə təkan verdi.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi haqqında amerikalı tarixçi C.Makkarti yazırdı: "1828 və 1920-ci illər arasında yerlərdə əhalinin demoqrafik tərkibinin ermənilərin xeyrinə dəyişmək siyasəti nəticəsində 2 milyondan çox müsəlman (azərbaycanlı) məcburi olaraq yaşadıqları ərazidən sürgün edildi. Əvəzinə 560 min erməni bu torpaqlarda məskunlaşdırıldı". İran ermənisi C.Burnatyan isə həmin dövrdə İrəvan ərazisindəki əhalinin demoqrafik tərkibi ilə bağlı bunları yazıb: "1826-cı ildə İrəvanda 117 mindən çox müsəlman, 25 minə yaxın erməni yaşayırdı. 1832-ci ildə isə bu say artıq bərabərləşmişdi".

Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb gətirmişik" [43, s.63].

Çar Rusiyasının siyasətini bolşevik Rusiyası davam etdirir. Cənubi Qafqazın bolşevikləşdirilməsi üçün V.Lenin S.Şaumyanı Qafqazın müvəqqəti fövqəladə komissarı təyin etdi. 1917-ci ilin 29 dekabrında V.Lenin 20 saylı dekret imzaladı. Proletar rəhbəri "Türkiyə Ermənistanı"nda erməni dövlətinin yaranması üçün hər cür tədbir və yardım barədə göstəriş verdi. Bu işi görməyi erməni bolşevik S.Şaumyana həvalə etdi. Bu o zaman idi ki, ermənilər Türkiyədə çox dəhşətli qırğınlar törətmişdilər və bu davam edirdi. Əsas məqsəd Osmanlı dövlətinin şərq ərazisində erməni dövləti yaratmaq idi. Qeyd etməliyik ki, imperialist dövlətlərin sultan Türkiyəsi ilə 1920-ci il avqustun 10-da bağladıqları Sevr müqaviləsində də eyni ilə həmin prinsip öz əksini tapmışdı.

Çar Rusiyasının süqutundan sonra Cənubi Qafqazda üç respublika öz müstəqilliyini elan etdi. Bu dövlətlər arasında Ararat Respublikası nə ərazisi, nə də paytaxtı olan yeganə respublika idi. Öz respublikalarını "Ararat" adlandıran ermənilər vaxtilə çar Rusiyası tərəfindən köçürüldükləri Azərbaycan torpaqlarına iddialarını ortaya qoymuşdular.

Ermənilər 1918-ci il mayın 28-də müstəqil dövlətin qurulmasını siyasi mərkəzləri olmadan bəyan etmişdilər. Azərbaycan Xalq Cümhuriyyəti böyük dövlətlərin təzyiqi altında qədim Azərbaycan şəhəri İrəvanı və ona bitişik təxminən 9,5 min kv. km ərazini ermənilərə güzəştə getməyə məcbur oldu. Azərbaycan Milli Şurasının 29 may 1918-ci il iclasında (Protokol №3) iştirak edən 28 nəfərdən 16 nəfərin səsverməsi ilə (1 nəfər əleyhinə, 3 nəfər bitərəf qalmışdı) İrəvan Ararat Respublikasına paytaxt şəhəri kimi verildi [1, v.51]. AXC Nazirlər Şurasının sədri Fətəli xan Xoyski güman edirdi ki, bununla ermənilərin ərazi iddiaları bitəcəkdir.

Qərbi Azərbaycan ərazisində yerləşən Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıb və bu zaman onun ərazisi 9,5 min kv. km idi. 29 noyabr 1920-ci ildə bolşeviklərin zor gücü ilə Ermənistan SSR yaradıldı. Qərbi Azərbaycan ərazisinə İrəvan və Gümrü şəhərləri, Vedibasar, Zəngibasar, Göyçə, Dərələyəz, Dərəçiçək, Qərbi Zəngəzur, Ağbaba bölgələri və başqa ərazilər daxildir. Tarixi qaynaqların məlumatlarına görə, Səfəvilər dövründə burada 15 minə qədər erməni yaşamışdır. Türkmənçay müqaviləsindən sonra İrandan 40 min, Türkiyədən 84600 nəfər erməni köçürülmüşdür. Əslində isə bu daha çox olmuşdur.

Bu ərazilərdə yaşayan aborigen azərbaycanlılar isə 1918-1920-ci illərdə soyqırıma məruz qalmış, 1948-1953-cü illərdə 144600, 1988-1991-ci illərdə isə 250 min nəfərə yaxın azərbaycanlı yaşadıqları doğma torpaqlardan qovulmuşdur.

Son 200 ildə Qərbi Azərbaycan ərazisində iki mindən artıq azərbaycanlı yaşayış məntəqəsi müxtəlif yollarla siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə İrəvan əyalətində 51.831 nəfər müsəlman (türk) yaşayırdı (67,5 faiz). 1728-ci il Müfəssəl dəftərə görə əyalətdə yaşayan 71.583 nəfərdən 43.784 nəfəri (61,2 faizi) türk-müsəlman, 27.799 nəfəri (38,8 faiz) isə xristianlar olmuşdu [23, s.13, 18].

İrəvan şəhərinin etnik tərkibinə gəldikdə burada yaşayan 3.369 nəfərdən 63,5 faizi türk-müsəlman, 36,5 faizi isə xristian idi [23, s.18].

1831-ci ildə İ.Şopenin rəhbərliyi ilə tərtib edilmiş "İrəvan şəhərinin Kameral təsviri"ndə qədim Azərbaycan şəhəri İrəvanın əhalisinin siyahısı, etnik və sosial tərkibi, sayı ilə yanaşı, şəhərdəki binalar, məhəllələr, meydanlar ətraflı təsvir edilmiş, İrəvan şəhəri tam inventarlaşdırılmışdır [20, s.5]. İrəvan şəhəri qədim dövrdə, erkən orta əsrlərdə və sonrakı dövrlərdə Azərbaycanın sərhədləri daxilində olmuşdur. Qaynaqların məlumatına görə, ermənilər İrəvan şəhəri əhalisinin 4/1-ni, azərbaycanlılar isə böyük əksəriyyətini təşkil edirdilər. Lakin sonrakı illərdə şəhər əhalisinin tərkibində ermənilərin sayı artmışdır. 1897-ci ildə azərbaycanlılar 43,15 faiz, ermənilər isə 43,19 faiz olmuşdur [27, s.35]. 1926-cı ildə 4.968 nəfər azərbaycanlı, 57.295 nəfər erməni yaşayırdı.

S.Sərdarinya "İrəvan müsəlman sakinli vilayət olmuşdur" əsərində yazır ki, "6 böyük məscidi, 50 savadlı ali müsəlman ruhanisi olan və 1807 azərbaycanlı ailəsinin yaşadığı İrəvan şəhəri XIX əsrin sonunda erməni şəhərinə çevrilmişdir" [32, s.6, 160]. Əsası 661-ci ildə qoyulan İrəvan XVI əsrin əvvəllərində şəhərə çevrilmiş, XX əsrin əvvəllərinə qədər azərbaycanlılar yaşayıblar [9, 2022, 8 iyul]. Lakin azərbaycanlılara qarşı

törədilən kütləvi qırğınlar, soyqırım və deportasiyalar İrəvan şəhərinin azərbaycanlı simasını ermənilərin xeyrinə dəyişdirmişdir. Azərbaycanın 102 nəfər tanınmış elm və ictimai xadimləri İrəvan şəhərində yerləşən Təpəbaşı məhəlləsi ərazisində Azərbaycan xalqının tarixi-mədəni irsinə qarşı həyata keçirilən soyqırımı ilə bağlı 2022-ci ilin iyul ayında UNESKO-nun direktoruna müraciət ünvanlayıblar. Müraciətdə deyilir: "İrəvan şəhəri qala istisna olmaqla Şəhər, Dəmirbulaq və Təpəbaşı hissələrinə bölünürdü. İrəvanın bu hissələrinin hər birində şəhər yaranandan XX əsrin əvvəllərinə qədər azərbaycanlılar yaşayıblar...

Tarixən azərbaycanlıların yaşadığı və hazırda 16 hektara qədər kiçildilən Təpəbaşı məhəlləsi günümüzdə məhv olmaq və Yer üzündən silinmək təhlükəsi ilə üz-üzədir. Ermənistanda azərbaycanlıların yaratdıqları maddi-mədəni irs haqqında məlumatlar gizlədilir və hissə-hissə dağıdılır" [18, 2022, 7 iyul].

"Mərhələ-mərhələ gerçəkləşdirilən qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi – etnik torpaqlarından – Qərbi Azərbaycandan didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir" (Heydər Əliyev). Ulu öndər Heydər Əliyevin müdrikliklə söylədiyi bu fikir Qərbi Azərbaycanın bütün ərazisinə, eləcə də Zəngəzur mahalına da aiddir. Zəngəzur XIV əsrdə coğrafi ərazi kimi mövcud olmuşdur. "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı ilə bağlıdır [35, s.30]. Zəngəzurda oğuzların müxtəlif tayfaları yaşayırdı. Ona görə də Zəngəzurda yer-yurd adlarının çoxu türk tayfaları ilə bağlıdır, yəni türk mənşəlidir.

Azərbaycan Rusiyaya ilhaq edilənə qədər Zəngəzur İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının tərkibində mahal kimi mövcud olmuşdur. 1832-1833-cü illərə aid Zəngəzur mahalının kameral təsvirində mahalın doqquz minbaşılığa, 1840-cı il islahatından sonra isə Zəngəzur və Meğri sahələrinə bölündüyü göstərilir. 1832-1833-cü illərdə Zəngəzur mahalında 14.571 nəfər müsəlman (64 faiz), 8.173 nəfər erməni (36 faiz) yaşayırdı [38, s.337]. Mahalın 83 kəndində yalnız müsəlmanlar, 43 kəndində yalnız ermənilər, 11 kənddə isə qarışıq yaşayırdılar. 1868-ci ildə Yelizavetpol quberniyası yaradıldı və bu quberniyanın ən böyük ərazi-inzibati vahidi Zəngəzur qəzası idi. 1897-ci ildə əhalinin siyahıya alınması üzrə məlumatlardan bəlli olur ki, o zaman Zəngəzurda 137871 nəfər yaşamışdır. Bunlardan 71206 nəfəri (51,6 faiz) azərbaycanlılar, 63622 nəfəri (46,1 faiz) ermənilər, 1807 nəfəri (1,3 faiz) kürdlər, 1236 nəfəri (0,8 faiz) isə digər millətlərdən olmuşdur [35, s.199].

1874-cü il Kameral təsvirdə göstərildiyi kimi, Zəngəzur qəzası 4 mahala – Meğri, Qafan, Zəngəzur və Sisyan mahallarına bölünmüşdü. 1908-ci ildə Zəngəzur qəzasında 333 kənd qeydə alınmışdır [39, s.9].

Azərbaycan Xalq Cümhuriyyəti Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, 1918-1920-ci illərdə Zəngəzur qəzasında 115 müsəlman kəndləri dağıdılmış, 50 mindən artıq müsəlman əhali öz yurdundan qaçqın düşmüş, 7.729 nəfər öldürülmüş, 2.339 nəfər şikəst olmuşdur [1, f. 894, siy. 4, s. v.65]. 1920-ci ilin dekabrında Zəngəzur qəzasının 45 kv. km qərb hissəsi (59,6 faizi) Rusiya tərəfindən Ermənistana verilmişdir [35, s.252; 39, s.6]. Ermənistana verilən ərazidə Sisyan, Meğri, Qafan və Gorus rayonları yaradıldı. Zəngəzurun

qərb hissəsi ilə yanaşı, Göyçə mahalı, Qazax qəzasının Dilican dərəsinin azərbaycanlılar yaşayan əraziləri Azərbaycandan qoparılıb Ermənistana ilhaq edildi.

1918-ci ildə Zəngəzur qəzasında mövcud olan 222 yaşayış məntəqəsindən 116-sı azərbaycanlılara məxsus idi. 1931-ci ildə 191 yaşayış məntəqəsindən 87-si, 1986-cı ildə isə 128 yaşayış məntəqəsindən 40-ı azərbaycanlılara məxsus idi.

Göstərilən dövrdə Zəngəzur qəzasında azərbaycanlıların tərkibində də ciddi dəyişiklik hiss olunur: 1916-cı ildə 52.612, 1926-cı ildə 5.634, 1931-ci ildə 12.507, 1959-cu ildə 21.510 və 1970-ci ildə 26.084 nəfər olur.

Zəngəzurun toponimik adları [36], Zəngəzur əhalisinin etnik mənsubluğunda Azərbaycan türklərinin üstünlük təşkil etməsi [5, s.54-95; 35, s.34-38] bu ərazinin azərbaycanlıların qədim və qanuni ata-baba yurdu olmasını sübut edir.

Azərbaycanlıların Qərbi Azərbaycan ərazisində məskunlaşdığı yerlərdən biri də Göyçə mahalıdır. Bu mahal Göyçə gölünün sahilləri boyu geniş bir ərazini əhatə edir. Göyçə azərbaycanlıların qədimdən yaşadığı yerlərdən biridir. Xalqımızın ulu kitabı olan "Kitabi-Dədə Qorqud"da bu müqəddəs yurdun və ona yaxın ərazilərin adı tez-tez hallanır. Bəzi tədqiqatçıların fikrincə, türk tayfaları Göyçədə və ona qonşu olan ərazilərdə eramızın 460-cı illərində məskunlaşmışlar [37, 2023, 01-28 fevral].

Göyçə mahalı müxtəlif dövlətlərin, Səfəvilər dövründə isə Çuxursəd bəylərbəyliyinin ərazi inzibati vahidlərindən biri olub. Göyçə mahalı İrəvan xanlığının həm ərazicə, həm də əhalisinin sayına görə ən böyük mahalı hesab edilirdi. Mahalın 59 kəndi olmuşdur ki, bunun 3-də 90-a qədər erməni yaşamışdır. Rusiya işğalına qədər qalan kəndlərdə 5607 nəfər azərbaycanlılar yaşamışdır [44, s.595-602]. İşğaldan sonra Türkiyədən buraya 8557 nəfər erməni köçürüldü [4, s.66]. Bu faktlar 1831-ci ilin Kameral siyahısında da təsdiq olunur. Bu da məlum olur ki, Göyçə mahalında 14.252 nəfər əhali yaşayırdı. Çar hökumətinin köçürmə siyasəti nəticəsində 1873-cü ildə Basarkeçərə 3145 erməni gətirildi. Bütövlükdə Türkiyədən Göyçə mahalına 8.557 nəfər erməni köçürüldü [15, s.129].

1948-1953-cü illərdə Qərbi Azərbaycandan, o cümlədən Basarkeçərdən azərbaycanlılar köçürmə siyasəti adı altında sürgün edildilər. 1969-cu ildə Basarkeçərin adı dəyişdirilərək Verdenis oldu. 1988-ci ildə Basarkeçərin 30 min azərbaycanlı əhalisi erməni xəyanəti sayəsində doğma ata-baba yurdlarını məcburən tərk etdi.

Azərbaycanlıların doğma torpaqlarından tərk etməyə məcbur olduğu yerlərdən biri də Dərələyəz mahalıdır. Qərbi Azərbaycanın ən böyük mahallarından biri olan Dərələyəz mahalının ümumi sahəsi 2308 kv. km olmuşdur [7, 2021, 22 oktyabr]. Bir sıra tədqiqatçılar Dərələyəz adının "dərə" və "ələyəz" sözlərinin birləşməsindən yarandığını düzgün hesab edirlər [6, s.3]. Tarixçilərin rəyinə görə, bu yerlərdə "ən qədim insanların müşahidə edilməsi e.ə. II minilliyə təsadüf edir" [10, s.17]. E.ə. Dərələyəz Albaniyanın tərkibində olmuşdur. Yerləşdiyi ərazi Naxçıvanla Göyçə arasındadır. İ.Şopen Dərələyəzi "Qafqazın İsveçrəsi" adlandırmışdır [44, s.350]. Dərələyəz mahalı əvvəlcə xilafətin, sonra səlcuqların, monqolların, Qaraqoyunluların, Ağqoyunluların, Səfəvilərin, Əfşarların, Qacarların, 1828-ci ildən isə Rusiya imperiyasının tərkibinə daxil olub.

Dərələyəz nahiyəsi XVIII əsrin əvvəllərində Naxçıvan sancağının 14 nahiyəsindən biri olmuşdur [23, s.57-60]. Nahiyənin tərkibində 102 kəndin adı qeyd olunub [29, s.46-51].

Dərələyəz mahalı 1728-ci ildə Naxçıvan sancağının tərkibində idi. Burada 99 kənd və 5 məzrəə qeydə alınmış və bu kəndlərin 68-də yaşayış var idi [6, s.8; 23, s.57-60].

İşğaldan qabaq Dərələyəz mahalında 1001 yerli müsəlman, cəmi 58 erməni ailəsi yaşayırdı, işğaldan sonra buraya İrandan 507, Türkiyədən 8 erməni ailəsi köçürülmüşdü. Köçürmələrə qədər bölgədəki ailələrin 94,2 faizini azərbaycanlılar, 5,8 faizini ermənilər təşkil edirdisə [3, 2023, 21 fevral; 7, 2021, 22 oktyabr], sonradan erməni ailələrin tərkibi 25,8 faizə çatmışdı.

Dərələyəz mahalında 1831 və 1842-ci illərdə tərtib olunmuş kameral təsvirlərdə əhalinin adbaad siyahısı, milli tərkibi, yaşı, sayı, əhalinin məşğuliyyəti təsvir olunmuşdur. 1831-ci il kameral təsvirə görə mahalda ermənilər 7736 nəfər, azərbaycanlılar isə 4583 nəfər idi [7, 2021, 22 oktyabr].

Dərələyəz mahalı 1828-ci ildəki rus işğalına qədər Naxçıvan xanlığının, işğaldan sonra yaradılan Naxçıvan əyalətinin, 1870-ci ilə qədər isə Naxçıvan qəzasının tərkibində olub. 1870-ci ildə həyata keçirilən yeni inzibati-ərazi bölgüsünə görə Şərur və Dərələyəz nahiyələri birləşdirilərək Şərur-Dərələyəz qəzası yaradılıb [3, 2023, 21 fevral]. Qəzanın ümumi sahəsi 2972,3 kv. km, əhalisi isə 76551 nəfər idi.

Zaqafqaziya MİK-in 1929-cu il 18 fevral tarixli qərarına əsasən, Azərbaycan SSR-in rayonlaşdırılması ilə əlaqədar Şərur-Dərələyəz qəzası ləğv edilmiş, Dərələyəz mahalının dağlıq hissəsi və Şərurun tərkibində olan Qurdqulaq, Xaçik, Horadiz kəndləri torpaqları ilə birlikdə Ermənistana verilmişdi. Beləliklə, Dərələyəz mahalının ərazisi 2972,3 kv. km-dən 2308 kv. km-ə enmişdir.

Qərbi Azərbaycanın başqa ərazilərində olduğu kimi, Dərələyəz bölgəsində də ermənilər azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. 1918-ci ilin iyun ayında quldur Andranik Ozanyanın ordusu tərəfindən xeyli insan öldürülmüş, sağ qalanlar qaçmaqla canlarını qurtara biliblər. Sovet hakimiyyəti qurulduqdan sonra mahal əhalisinin xeyli hissəsi geriyə, vətənlərinə qayıtsa da, onlar 1948-1953-cü illərdə Sovet hökumətinin qərarları ilə deportasiya edilərək Azərbaycanın Kür-Araz ovalığına köçürülüblər [2]. Stalinin ölümündən sonra dərələyəzlilərin müəyyən qismi Dərələyəzə qayıtsalar da, 1988-ci ildə erməni separatçılarının yaratdıqları Qarabağ münaqişəsi nəticəsində doğma yurdlarını birdəfəlik tərk etmək məcburiyyətində qaldılar.

İran və Türkiyədən köçürülən ermənilər erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında yerləşdirilirdi. Bunun üçün onlara 200 min desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıq torpaq satın alınmışdı [43, s.61].

Köçürülən ermənilərin yerləşdiyi ərazilərdən biri də Vedibasar mahalı idi. İrəvan xanlığının tərkibindəki 15 mahaldan biri olan Vedibasar Rusiya tərəfindən işğal olunduqdan sonra İrəvan quberniyasının İrəvan qəzasının nahiyəsi kimi saxlanılmış, 1930-1988-ci illərdə Ermənistan SSR-in Vedi (1968-ci ildən Ararat) və Qarabağlar (1937-1948) rayonları kimi mövcud olmuşdur. Ərazisi 1399,25 kv. km, rayon mərkəzi Böyük Vedi (1946-cı ildən Vedi) qəsəbəsi idi [11, s.28-29]. Rusiya İrəvan xanlığını işğal edərkən İrəvan əyalətində mövcud olan 521 kənddən 310-u, eləcə də Vedibasarın adı çəkilən 54 kəndindən 33-ü xarabalığa çevrilmişdir.

1931-ci ilin kameral təsvirində Vedibasar mahalında 574 müsəlman, cəmi 2 yerli və işğaldan sonra İrandan köçürülmüş 200 erməni ailəsi qeydə alınmışdır [21, s.5]. 1831-ci il siyahıya alınmaya görə Vedi mahalında 3394 azərbaycanlı, 1371 erməni yaşayırdı [4, s.40]. İ.Bayramov yazır ki, Vedibasar mahalının 21 kəndində 3449 azərbaycanlı, 1049 nəfər erməni olmuşdur [4, s, 56]. 1842-ci ilin kameral təsvirində Vedibasar Şərur nahiyəsinin tərkibində mahal statusunda idi. 1846-cı ildə hər ikisi Tiflis quberniyasının tərkibinə verilmişdir. 1870-ci ildə Vedibasar mahalında 70 kənd qeydə alınmışdır. 1873-cü ildə Vedi nahiyəsində artıq 16560 nəfər müsəlman, 4022 nəfər erməni yaşamışdır. 1897-ci ildə isə 29372 nəfər müsəlman və 8665 nəfər erməni şəklində dəyişilmişdir [11, s.124]. 1922-ci ildə müvafiq olaraq 8105 və 5774 nəfər olur. 1970-ci ildə rayonun 58,8 min nəfər əhalisindən ancaq 12 min nəfərə yaxın azərbaycanlı idi. 1988-1991-ci illərdə Ermənistan dövləti Qərbi Azərbaycandan 250 min azərbaycanlını deportasiya etmiş, 229 nəfər qətlə yetirilmişdir.

Beləliklə, tarixi faktlar, gətirilən nümunələr bir daha təsdiq edir ki, indiki Ermənistan Respublikasının ərazisi tarixi Azərbaycan torpaqlarıdır və bu Qərbi Azərbaycan hissəsidir. Burada yaşayanlar Azərbaycan türkləri olmuşdur və yer adlarının tam əksəriyyəti türk dilindədir. Müxtəlif mərhələlərdə Ermənistan hökuməti həmin adları dəyişdirərək ermənileşdirmişlər. Ermənilər bu yerlərə Çar Rusiyası tərəfindən tarixin müəyyən mərhələlrində xarici ölkələrdən köçürülmüşdür. Qərbi Azərbaycanın İrəvan əyalətində qədim dövrdə, erkən və orta əsrlərdə mövcud olmuş yer adlarının Azərbaycan dilində olması bir daha bu torpaqların əzəldən azərbaycanlılara məxsus olduğunu sübut edir. Xanlıqlar dövründə İrəvan xanlığının on beş mahalından hamısının adı, həmçinin həmin mahallarda olan yer adları Azərbaycan dilindədir. XIX əsrin 80-ci illərin məlumatına görə, İrəvan qəzasında 53 minə yaxın azərbaycanlı, 36 min erməni yaşayıb.

Vətən müharibəsində qazandığımız şanlı Qələbə və Qarabağda keçirilmiş antiterror tədbirlərinin nəticələri bizə öz ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etməklə yanaşı, xalqımızın əsrlər boyu üzləşdiyi fəlakətlərin, soyqırımı aktlarının hesabını çəkmək, tarixi ədaləti bərpa etmək imkanı yaradıb. Cənubi Qafqazın ən qüdrətli dövlətinə çevrilmiş Azərbaycanın bu gün növbəti hədəflərindən biri də Qərbi azərbaycanlıların pozulan hüquqlarının tanınmasına nail olmaqla onları əzəli yurdalarına qaytarmaqdır. Prezident İlham Əliyevin dediyi kimi, "Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb yaşayacaqlar".

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 970, siy.1, iş 1.
2. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Sənədlər toplusu // – Bakı: – 2013. – 784 s.
3. "Azərbaycan" qəzeti. Müxtəlif illər.
4. Bayramov, İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə

siyasəti //– Bakı: – 2011. – 288 s.
5. Budaqov, B., Qeybullayev, Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti // – Bakı: Oğuz eli, – 1998. – 452 s.
6. Dərələyəz mahalının kameral təsviri. (Tərcümə edən və ön sözün müəllifi N.Əhmədli) // – Bakı: Elm və təhsil, – 2017. – 300 s.
7. "Dərələyəz" qəzeti. Müxtəlif illər.
8. Dəmirli, M., Məmmədli, M. Azərbaycan Demokratik Respublikası dövründə ermənilərin ərazi iddiaları və Cənubi Qafqazda Sovet hakimiyyətinin qələbəsindən sonra onun daşnak-bolşevik sayağı həlli (1918-1991) // Azərbaycan XXI əsrin astanasında. İkinci Respublika elmi-praktiki konfransın materialları. – Bakı: – 1998, – 620 s.
9. "Elm" qəzeti. Müxtəlif illər.
10. Ələkbərli, Ə. Qədim türk-oğuz yurdu – "Ermənistan" // – Bakı: Sabah, – 1994. – 208 s.
11. Ələkbərli, Ə. Qərbi Azərbaycan. On cilddə. I cild. Vedibasar mahalı / – Bakı: Ağrıdağ, 2003. – 736 s.
12. Ələkbərli, Ə. Qərbi Azərbaycan abidələri // Bakı: 2006. 228 s.
13. Əmrahov, Z. İrəvan quberniyasının tarixi (1850-1917-ci illər) // – Bakı: – Nurlan NPB, – 2022. – 368 s.
14. Əsədov, S., Məmmədov, İ. Ermənistan azərbaycanlıları və onların acı taleyi (Tarixi oçerk) // – Bakı: – 1992. – 24 s.
15. Göyçə mahalının kameral təsviri. 1831 və 1842-ci illər. (Tərcümə və ön sözün müəllifi N.Əhmədli) // – Bakı: Elm və təhsil, – 2017, – 292 s.
16. Hacıyev, İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri // – Naxçıvan: Əcəmi NPB, – 2012. – 192 s.
17. Həsənli, C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920) // – Bakı: Qarisma MMC, – 2009. – 576 s.
18. "Xalq qəzeti". Müxtəlif illər.
19. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi // – Bakı: Azərbaycan, – 2009. – 576 s.
20. İrəvan əyalətinin kameral təsviri. (Tərcümə, tərtib və giriş mətninin müəllifi N.Əhmədli). I cild. İrəvan şəhərinin kameral təsviri / – Bakı: Turxan NPB, – 2018. – 328 s.
21. İrəvan əyalətinin kameral təsviri. (Tərcümə, tərtib və giriş mətninin müəllifi N.Əhmədli). II cild. Vedibasar mahalının kameral təsviri. Şərur mahalının kameral təsviri // – Bakı: Turxan NPB, – 2019. – 480 s.
22. "İki sahil" qəzeti. Müxtəlif illər.
23. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri Z.Bünyadov və H.Məmmədov // – Bakı: Elm, – 1996. – 184 s.
24. İsmayılov, İ. Yaddaşımızın yaralı səhifələri // – Bakı: Şirvannəşr, – 2000. – 105 s.
25. Qlinka, S.N. Ermənilərin Azərbaycana köçürülməsi. Rusiyanın Ərzurumdakı baş konsulu Mayevskinin qeydləri // – Bakı: Azərbaycan, – 1995. – 128 s.
26. Mahmudov, Y. Real tarix və "Böyük Ermənistan" uydurması // – Bakı: Turxan NPB, – 2014. – 144 s.

27. Mustafa, N. İrəvan şəhəri // – Bakı: – 2020. – 292 s.
28. Mustafa, N. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli-ərazi münaqişələri və qaçqınlıq problemi / Azərbaycan Xalq Cümhuriyyətinin milli siyasəti // – Bakı: Qartal, – 1998. – s. 152-156.
29. Mirzəyev, H. Qərbi Azərbaycanın Dərələyəz mahalı // – Bakı: Elm, – 2004. – 856 s.
30. Nəcəfli, G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri // – Bakı: Nurlan, – 2007. – 248 s.
31. "Olaylar" qəzeti. Müxtəlif illər.
32. Sardariniya, S. İrəvan müsəlman sakinli vilayət olmuşdur // – Bakı: Zərdabi, – 2014. – 224 s.
33. Səmyuel, A. Vimz. Ermənistan – terrorçu xristian ölkənin gizlinləri (ermənilərin böyük firildaq seriyaları). I cild // – Bakı: OKA, – 2004. – 385 s.
34. Koçaş, M. Sədi. Tarixdə ermənilər və türk-erməni münasibətləri // – Bakı: Azərbaycan Ensiklopediyası NPB, – 1998. – 160 s.
35. Urud, M. Zəngəzur // – Bakı: Nurlan NPB, – 2005. – 504 s.
36. Urud, M. Zəngəzur toponimləri // – Bakı: Nurlan NPB, – 2013. – 400 s.
37. "Vedibasar" qəzeti. Müxtəlif illər.
38. Zəngəzur mahalının kameral təsviri (1832-1833-cü illər) / Tərcümə və şərhlərin müəllifi N.Əhmədli, – Bakı: Elm və təhsil, – 2021. – 352 s.
39. Zəngəzur qəzasının kameral təsviri. 1874-cü il. / (Tərcümə və şərhlərin müəllifi N.Əhmədli). – Bakı: Elm və təhsil, – 2021. – 800 s.
40. Акты, собранные Кавказской Археологической Комиссией (АКАК) // – Тифлис, – 1874, т.VII, док. 888.
41. Качазнуни, Ов. Дашнакцутюн больше нечего делать! // – Баку: Элм, – 1990. – 92 с.
42. Собрания актов, относящихся к обозрению истории Армянского народа. Часть I, – Москва, – 833 s.
43. Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам // – СПб.: – 1911.
44. Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи //– СПб.: – 1852. 1218 с.

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ: KONSEPTUAL YANAŞMA

Arzu ABDULLAYEV
a.ordubadi@yahoo.com
Naxçıvan Dövlət Universiteti

Hələ XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalıb. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olublar. 1991-ci ilə kimi ərazinin toponimlərindən 90%-dən çoxunu türk mənşəli toponimlər təşkil edirdi. XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırıma məruz qalmışdır. Qərbi azərbaycanlıların qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qaldığını bildirən Prezident İlham Əliyev müasir dövrümüzdə onların hüquqlarının bərpa edilməli və əzəli torpaqlarına qayıtmalı olduqlarını bildirmişdir.

Açar sözlər: *Soyqırım, Zəngəzur, Zaqafqaziya, mülkədar, etnik, köç, deportasiya*

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və dəhşətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir. Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb. Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasəti tarixi əsrləri əhatə edir və hadisələri ardıcılıqla izləsək, görərik ki, hadisələr eyni ssenari əsasında baş verib. Hələ XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib. Ötən əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Azərbaycanın bir sıra torpaqlarını sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olublar. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni

millətçilərinin təkidi ilə bizim tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Ölkə Prezidenti cənab İlham Əliyev bunu xalqımıza qarşı növbəti cinayət kimi qiymətləndirib: *"Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi"* [4].

1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalıb. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olublar [1, s.5-6].

Ermənilərin İrandan Cənubi Qafqaza, indiki Ermənistan ərazisinə köçürülməsinin bilavasitə rəhbəri olmuş A.S.Qriboyedov yazır: *"Ermənilər gətirilib müsəlman mülkədarların torpaqlarında yerləşdirilmişlər... müsəlmanları sıxışdırırlar, onlar dahey əsaslı olaraq narazılıq edib şikayətlənirlər. Biz müsəlmanları indiki sıxışdırmalara qatlaşmaq, bu sıxışdırmalarm uzun sürməyəcəyinə inandırmaq, onların torpaqlarına ilk dəfə buraxılan ermənilərin bu torpaqlara həmişəlik yiyələnəcəkləri barədə nigrançılığı müsəlmanların beynindən çıxarmaq üçün onlara edilməli olan təlqinlər barədə çox düşündük…Ermənilər indiki Ermənistan ərazisində məskunlaşdırıldıqdan dərhal sonra öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından çıxarmağa, qırmağa, milli soyqırıma başladılar"* [5].

S.P.Zelinski isə yazır ki: *"Zəngəzur qəzasında Axlatian, Prnakot və Şinətaq adlı cəmi üç erməni kəndi yerlidir, qalan erməni kəndləri 1826–1828-ci illərdən sonra təşkil olmuşdur" [7].*

N.Şavrov özü də belə etiraf edir: *"XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan 1 milyon 300 min nəfər ermənin 1 milyonundan çoxu ərazinin yerli sakinləri olmayıb, bizim tərəfimizdən məskunlaşdırılmışdır" [7].*

Bəli, bütün bu faktlar onu deməyə əsas verir ki, Qərbi Azərbaycan tarixi türk torpaqları olmuş, köklü sakinləri isə Azərbaycan türkləri olmuş, ermənilər isə xaricdən bu ərazilərə köçürülmüşdür. Məhz bunun nəticəsidir ki, tarixən, yəni 1991-ci ilə kimi ərazinin toponimlərindən 90%-dən çoxunu türk mənşəli toponimlər təşkil edirdi. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək ermənileşdirilmiş və ya ruslaşdırılmışdır. 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşdür [2, s.133]. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. Burada yaşayan azərbaycanlılar isə zaman-zaman – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 1988-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırıma məruz qalmışdır. 27 may 1997-ci ildə "Müstəqillik Günü" münasibətilə təntənəli yığıncaqda nitq söyləyən Ümummilli lider Heydər Əliyev azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiya olunmalarından danışarkən demişdir: *"O vaxt yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistan çox gözəl iqlimə-yəni bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub. Malik olan yaşayış yerlərindən*

insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir. Beləliklə, o vaxt Ermənistandan azərbaycanlıların çıxarılması, etnik təmizləmə baş veribdir. Onları öz yerlərindən, yurdlarından, doğma torpaqlarından o vaxt didərgin salıblar. Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq açıq təcavüz edibdir. O, dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa müddətdə Ermənistandan zorla çıxarıldılar. Ermənistan deyəndə, o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O, ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyar olubdur. Onları öz dədə-baba yurdlarından tədricən çıxardıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır" [6].

Qərbi Azərbaycan ərazisindəki türk mənşəli adların dəyişdirilməsi siyasəti 1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsindən sonra, XIX əsrin 30-cu illərindən sistemli formada və məqsədli şəkildə həyata keçirilmiş və adların dəyişdirilməsi siyasəti inqilabdan sonra yeni vüsət almış, minlərlə kənd adı məhv edilmiş, rəsmi qərarlarla adların bir qismi ruslaşdırılmış, bir qismi isə qondarma erməni adları ilə əvəz edilmişdir. Bu gün Qərbi Azərbaycan ərazisindəki etnotoponimlərin öyrənilməsi xüsusi əhəmiyyət daşıyan məsələdir. Qərbi Azərbaycan ərazisində azərbaycanlıların etnogenezində müxtəlif qədim türk tayfaları iştirak etmişdir [3, s. 178]. Həmin tayfalar təbii ki, Şimali və Cənubi Azərbaycan ərazilərindəki toponimlərdə də iz qoymuşlar. Tarixi faktlar hələ eramızdan əvvəl VIII əsrdə türk etnoslarının Qərbi Azərbaycan ərazisində yaşamasını təsdiq edir. Qərbi Azərbaycan ərazisindəki toponimlər arasında etnotoponimlərin sayı az deyildir. Onların hər biri müxtəlif türk etnoslarının, xüsusilə oğuzların bu ərazilərin aborigen sakinləri olduğunu sübuta yetirir.

Sevindirici haldır ki, bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti və uğurlu diplomatiyası sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilib, azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb. Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin davamçısı Prezident İlham Əliyev dövlətimizin milli maraqlarına və azərbaycançılıq ruhuna sadiq qalaraq Azərbaycan torpaqlarının tarixinə və mədəniyyətinə sahib çıxılmasının önəmini hər zaman vurğulayıb, Zəngəzurun tarixi Azərbaycan torpağı olduğunu bütün beynəlxalq kürsülərdən bəyan edib.

2020-ci ildə Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərzində düşməndən azad edildi. 44 günlük Vətən müharibəsində Azərbaycan qazandığı Zəfər tariximizə yeni bir salnaməni həkk etdi. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, Ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən

möhtəşəm Qələbə yeni reallıqlar yaradıb. Azərbaycanın ağrılı problemlərindən olan Qarabağ məsələsi birdəfəlik həll edildi. Hazırda Azərbaycanın yeganə problemi öz əzəli və əbədi torpaqları olan Qərbi Azərbaycan torpaqlarının həqiqi sahiblərinə geri qaytarılması, vaxtilə bu torpaqlarda yaşamış Azərbaycan əhalisinin hüquqlarının bərpa olunmasıdır. İllərlə həsrətlə gözlədiyimiz böyük qayıdış tarixi hadisəsi rellığa çevirildi. Ölkə rəhbərinin də qeyd etdiyi kimi: *"Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir"* [8].

Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, qarşıda soydaşlarımızı Qərbi Azərbaycana böyük qayıdış gözləyir. Bu hədəfi Prezident cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində bəyan etdi. *"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar"*, - deyə dövlətimizin başçısı vurğulayıb. Prezident İlham Əliyev soydaşlarımızın Qərbi Azərbaycana qayıdacaqları ilə bağlı hədəfi bəyan edərkən azərbaycanlıların xarakterində olan çox mühüm bir amilə - xalqımızın tarixi yaddaşına istinad edib. Müqayisə aparan dövlətimizin başçısı bildirib: *"Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar"*. Görüşdə Möhtərəm Prezident tarixi faktlara nəzər salaraq Qərbi Azərbaycanın əzəli və əbədi tarixi torpaqlarımız olduğunu dünya ictimaiyyətinə bir daha bəyan etdi: *"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır"[4].*

Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə Qərbi azərbaycanlıların qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qaldığını bildirən Cənab Prezident müasir dövrümüzdə onların hüquqlarının bərpa edilməli və əzəli torpaqlarına qayıtmalı olduqlarını bildirdi: *"Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə*

bağlı olan faktlar öz əksini tapmalıdır"[5].

Qeyd edək ki, Prezident Qərbi azərbaycanlı ziyalılarla görüşdə Qərbi Azərbaycana qayıdış Konsepsiyasının hazırlanması vəzifəsini də qarşıya qoydu. Bir ay müddətində Konsepsiya hazırlandı. Sənəddə son 200 ildə Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın tarixi torpaqlarına qayıtması prosesində İcmanın fəaliyyətinin ümumi prinsipləri öz əksini tapdı. Konsepsiya Müşahidə Şurasında təsdiq edildi.

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi demək olacaq. Hər kəsin öz əzəli vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Bu gün artıq qeyd edilən istiqamətdə hərtərəfli işlərə başlanılıb. Bu istiqamətdə BMT-ə müraciət ünvanlandı.

Müraciət BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, Çin, ərəb və ispan) olmaqla adıçəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb. Müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur. Məsələnin BMT-nin ən mötəbər orqanlarının gündəliyinin qeyd edilən bəndləri ilə əlaqələndirilməsi azərbaycanlıların öz evlərinə qayıtmasının təməl insan hüquqlarının qorunması, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olması üçün zəruri olmasının beynəlxalq müstəvidə təsdiqidir. Beynəlxalq platformada bu məsələnin gündəmdə saxlanılması vacib əhəmiyyət daşıyır. BMT-də yayılan sənəd göstərir ki, artıq beynəlxalq müstəvidə də işlərə başlanılıb. Çünki qeyd etdiyimiz kimi, Azərbaycan dinc şəkildə, sülhlə soydaşlarımızın qayıdış məsləsini gündəmə gətirib [6].

Bu gün heç şüphəsiz ki, xalqımız Müzəffər Ali Baş Komandanın qüdrəti və apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaq olmadığına tam əmindir və öz liderinin ətrafında sıx birləşərək yeni qələbələrə zəmin yaradır.

ƏDƏBİYYAT

1. Ələkbərli, Ə. Qərbi Azərbaycanlıların 1988-ci il Soyqırımı (sənədlərin dili ilə). – Bakı: Nurlan, – 2008.
2. Bayramov, İ. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. – Bakı: – 2011. – 288 s.
3. Qərbi Azərbaycan: indiki Ermənistan: yazarlar: I kitab. – Bakı: Elm və təhsil, – 2016. – s. 512.
4. https://nuhcixan.az/news/siyaset/81811-qerbi-azerbaycana-qayidis-tarixi-heqiqet-prizmasinda
5. "Şərq Qapısı" qəzeti. 30 dekabr 2022-ci il. Sayı 249
6. "Şərq Qapısı" qəzeti. 11 aprel 2023-cü il. Sayı 63
7. https://respublika-news.az/news/tarixi-faktlara-esaslanan-qerbi-azerbaycan-heqiqetleri
8. https://www.sdu.edu.az/az/news_society/121

SUMMARY

Back in the 19th century, the process of repressing Azerbaijanis in their historical lands began with the mass transfer of Armenians from the Ottoman and Iranian territories to the South Caucasus by Tsarist Russia. In 1948-1953, our people were deported again. They achieved the special decision of the USSR Council of Ministers on December 23, 1947 and mass deportation of Azerbaijanis from their historical lands in 1948-1953 at the state level. By 1991, more than 90% of the toponyms of the area were of Turkish origin. In the 20th century, more than 2 million Azerbaijanis were subjected to genocide in present-day Armenia. President Ilham Aliyev stated that Western Azerbaijanis have been illegally deported many times and stated that in modern times their rights should be restored and they should return to their ancestral lands.

Key words: *Genocide, Zangezur, Transcaucasia, landlord, ethnic, migration, deportation*

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRK BİRLİYİNƏ AĞIR ZƏRBƏ KİMİ ERMƏNİSTAN DÖVLƏTİNİN YARADILMASI VƏ PƏRDƏARXASI MƏQAMLAR (BÖYÜK BRİTANİYANIN ARXİV MATERİALLARI ƏSASINDA)

Emin ŞIXƏLİYEV
Naxçıvan Dövlət Universiteti

Bu araşdırma başlıca olaraq Böyük Britaniyanın Milli Arxivlərində yer alan sənədlər əsasında hazırlanmışdır. İngiltərə arxivləri erməni məsələsi ilə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni amilinin, Ermənistan dövlətinin yaradılmasının Böyük Güclər, xüsusilə də İngiltərə üçün əhəmiyyətini ifadə edən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur. Bu materiallar Panturanizm ideologiyasının ortadan qaldırılmasında ermənilərdən baryer olaraq istifadə edildiyini, Türkiyə ilə Azərbaycan, dolayısı ilə Türk Dünyası arasındakı əlaqələrin kəsilməsi hesaba qatılaraq Ermənistan dövlətinin yaradılmasının Antanta dövlətlərinin birbaşa maraqları daxilində olduğunu, bu məqsədlə maliyyələşdirilən və hərbi baxımdan silahlandırılan erməni dəstələrinin 1917-1920-ci illər arasında Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yerli əhaliyə qarşı sistemli soyqırımı siyasəti yeritdiklərini sübut edir.

Açar sözlər: *Böyük Britaniya, pantürkizm, Ermənistan, Azərbaycan, Zəngəzur, Naxçıvan, soyqırım*

Bu araşdırma başlıca olaraq Böyük Britaniyanın Milli Arxivlərində yer alan sənədlər əsasında hazırlanmışdır. İngiltərə arxivləri ermənilərin törətdikləri cinayətlərlə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni faktorunun Böyük Britaniya üçün əhəmiyyətini ifadə edən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur.

Böyük Britaniya arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv kriteriyalar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Bu materiallar Panturanizm ideologiyasının ortadan qaldırılmasında ermənilərdən baryer olaraq istifadə edildiyini, bu yolda onların maliyyələşdirildiyini, hərbi baxımdan silahlandırıldığını, Türkiyə ilə Azərbaycan, dolayısı ilə Türk Dünyası arasındakı əlaqələrin kəsilməsi hesaba qatılaraq Ermənistan dövlətinin yaradılmasının Antanta dövlətlərinin birbaşa maraqları daxilində olduğunu sübut edir. Ortaya çıxan məqam isə budur ki, maliyyə və silah baxımından təmin edilən erməni dəstələri həmin yardımdan faydalanaraq öz məqsədlərinə çatmaq üçün 1917-1920-ci illər arasında Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yerli əhaliyə qarşı sistemli soyqırımı siyasəti yeritmiş, tarixi Azərbaycan torpaqlarını ələ keçirmişlər. Nəticə etibarilə, XX əsrin əvvəllərində geosiyasi planlara uyğun olaraq tarixi torpaqlarımızda yaradılan Ermənistan dövləti türk dünyasının bağrına bir xəncər kimi saplanmışdır.

Geosiyasi rəqabətlərin nəticəsi kimi "erməni məsələsi"nin ortaya çıxması

Məlum olduğu kimi, "erməni məsələsi" beynəlxalq rəqabətdə maraqları toqquşan iki böyük dövlətin – Rusiya ilə İngiltərənin təhrikləri nəticəsində ortaya çıxmışdır. Xüsusilə Rusiyanın erməni siyasəti İngiltərənin erməni məsələsinə yönəlik baxışına təsir edən amillərin başında gəlir. Rusiya tarixi məqsədlərinə çatmaq üçün Osmanlı ərazisində yaşayan ünsürlərin, xüsusilə ermənilərin problemlərini faydalı potensial amil kimi dəyərləndirdi. Ermənilər Rusiyanın cənuba enmək üçün Anadolunun şərqində yaşayan xalqın bir hissəsini təşkil edirdilər. Eyni zamanda kilsənin də təhriki və təşviqiylə radikal millətçilik duyğusuna sahib idilər. Bu səbəbdən Rusiyanın Osmanlı torpaqlarına göstərdiyi marağın özəyində ermənilər və onların problemləri yer alırdı [25, s.129]. Rusiyanın Yaxın Şərqdə güclənmək və isti dənizlərə çıxmaq strategiyasını özündə ehtiva edən bu siyasəti İngiltərənin ənənəvi siyasətinə tərs düşmüş, nəticədə erməni məsələsi beynəlxalq problemə çevrilmişdir.

İngiltərənin Şərq siyasətində ermənilərə geniş şəkildə yer verilməsi XIX əsrin sonlarına təsadüf edir. Çoxluq təşkil etməsələr də, ermənilərin Osmanlı dövləti ərazisində yaşadıqları torpaqların strateji dəyəri ingilis maraqları baxımından olduqca əhəmiyyətli idi. Osmanlı üzərində təzyiq qurmaq istəyən Rusiya kimi İngiltərə də erməni amilini bir vasitə kimi ortaya atdı. Halbuki Rusiyanın isti dənizlərə enməsinin və Yaxın Şərqdə güclənməsinin qarşısını almaq üçün XVIII əsrin sonlarından başlayaraq Osmanlı dövlətinin ərazi bütövlüyünü qorumaq siyasətini yeritməkdəydi, lakin XIX əsrin sonlarına doğru bu dövləti parçalamaq siyasətini mənimsəməyə başladı. Bunun da əsas səbəbi İngiltərənin siyasi dairələrinin əvvəllər Hindistan yolunun Osmanlı dövlətinin torpaq bütövlyü ilə təminat altına alınması düşüncəsindən qaynaqlanırdı [19, s.14; 22, s.22; 23, 98]. Qeyd etmək lazımdır ki, bu dövrdə getdikcə gücünü itirən Osmanlı dövləti digər müstəmləkəçilərin də diqqətini cəlb etməkdəydi. Əsas imperialist dövlətlər olan İngiltərə və Rusiya ilə yanaşı, Fransa və sonradan Almaniya ilə İtaliya üçün də ən başlıca məsələ Osmanlı torpaqlarında öz nüfuz dairəsini genişləndirmək, burada yaşayan qeyri-müsəlman əhalidən öz maraqları üçün faydalanmaq olmuşdur. Osmanlı torpaqlarında yaşayan xristianların himayə edilməsiylə ortaya atılan bəhanələr Avropanın böyük gücləri arasındakı qızğın rəqabəti başlatdı. 1895-ci ildən sonra getdikcə artan Almaniya qorxusu Rusiya ilə İngiltərəni bir-birinə yaxınlaşdıran ən önəmli amil oldu. Hər iki dövlət Yaxın Şərq, Orta Asiya və Uzaq Şərqdəki ixtilaflarını uzlaşdıraraq 1907-ci ildə imzaladıqları anlaşmalarla yeni münasibətlər içərisinə girdilər [bu barədə ətraflı bax: 13, s. 443-450; 16, s.128-136].

Böyük güclər arasındakı bu rəqabət öz növbəsində erməni məsələsini də beynəlxalq arenaya çıxardı. Ermənilər yaranmış vəziyyətdən cəsarətlənərək hərəkətə keçmiş, ölkə daxilində və xaricində partiyalar və dərnəklər qurmuşlar. Türk düşmənçiliyi üzərində qurulan bu hərəkətlər böyük güclərin geosiyasi məqsədli psixoloji fəaliyyətlərinin nəticəsi idi. Böyük Güclərin hər birinin erməni terror təşkilatları üzərində böyük təsiri var idi [bu barədə ətraflı bax: 13, s.571-580; 16, s.184-188; 24, s. CXLVI-CXLIX]. Məhz həmin təsirlərin nəticəsi idi ki, çox sayda türk-müsəlman əhali XIX əsrin sonlarından etibarən qurulmağa başlayan erməni terror təşkilatlarının qurbanına çevrildi. Bu terror təşkilatlarının silahlandırılması ilə Anadoluda və Qafqazda qanlı cinayətlərə imza atıldı. Bir məsələni də

xüsusilə qeyd etmək lazımdır ki, bu terror təşkilatlarından öz mənafeləri üçün yararlanmaq istəyən dövlətlər, xüsusilə Rusiya ilə İngiltərə aralarındakı geosiyasi rəqabətə baxmayaraq, 1895-ci ildən sonra getdikcə güclənən Almaniya qarşısında bir-birilərinə yaxınlaşmağa başladılar. Daha doğrusu, Almaniya qorxusu hər iki dövləti bir-birinə yaxınlaşdıran ən önəmli faktor oldu. Aralarındakı ixtilaflı məsələləri uzlaşma yolu ilə həll etməyi qarşılarına qoyan Rusiya və İngiltərə münasibətlərini 1907-ci ildə imzaladıqları bir müqavilə ilə yenidən qurdular və Antanta çərçivəsində birlikdə hərəkət etməyə başladılar. Hər iki dövləti maraqlandıran məsələ Almaniyanı "Şərq" məsələsindən uzaqlaşdıraraq, Osmanlı dövlətinin zəngin strateji torpaqlarına sahib olmaq idi [bax: 13, s. 443-450; 16, s. 128-136]. Lakin Birinci Dünya müharibəsinin sonlarına doğru dünyanın siyasi mənzərəsində önəmli dəyişikliklər baş verdi. 1917-ci ildə oktyabr çevrilişinin baş verməsi ilə Antantanın əsas üzvlərindən biri olan Rusiya müharibədən çəkilmək məcburiyyətində qaldı. Antanta ittifaqında Rusiya ilə boşalan yeri ABŞ əvəz etdi. Beləliklə, erməni təşkilatları üzərində tam nəzarət, belə demək mümkündürsə, İngiltərəyə keçdi. İngilislər Birinci Dünya müharibəsi illərində də erməni təşkilatlarına dəstək verərək, onları etnik-milli münaqişələrə və qırğınlara təşviq etmiş, öz siyasətinə uyğun olaraq ermənilərin siyasi gələcəyinə dair öhdəliklər götürmüş, "Müstəqil Ermənistan" üçün ciddi vədlər vermiş, sadəcə Şərqi Anadoluda deyil, Cənubi Qafqazda da onlardan yararlanmış, "erməni məsələsi"ni Azərbaycanda gündəmdə tutmuşdur.

Qafqazın İngiltərə baxımından əhəmiyyəti və Panturanizmə qarşı alınan tədbirlər

Geostrateji baxımdan Cənubi Qafqaz İngiltərə üçün böyük əhəmiyyətə malik idi. Xüsusilə Azərbaycan, onun iri sənaye-maliyyə mərkəzi olan Bakı üzərində nəzarətin ələ keçirilməsi və Xəzər limanının zəbt olunması cəhdləri ingilis siyasətinin ənənəvi və prioritet istiqamətlərindən idi, eyni zamanda onun ümumilikdə Avrasiya ilə bağlı əsas geosiyasi konsepsiyasına uyğun gəlirdi. Xəzər dənizinə sahib olmaq təkcə Qafqaza deyil, eyni zamanda Mərkəzi Asiyada nəzarət qazanmaq, Hindistana gedən yolu qorumaq demək idi [8, s.208]. Lakin 1917-ci ildə Rusiyada baş verən hadisələr nəticəsində Qafqaz Osmanlı dövləti üçün açıq dəhlizə çevrildi. Meydana gələn proseslər türklərə Qafqaz vasitəsilə İrana və Orta Asiyaya girmək üçün əlverişli imkan yaratmış, Hindistan təhlükə altına düşmüşdü. Çar Rusiyasında ortaya çıxan qarışıqlıqlar türklərə öz planlarını tətbiq etmək üçün bir fürsət yaratmışdı. Bununla yanaşı, Pantürkist (və ya Turançılıq) arzuların reallaşması üçün də bir yol açılmışdı.

Osmanlı dövlətinin son dövrlərində üç siyasi cərəyan – Türkçülük, İslamçılıq və Osmanlıçılıq – ortaya çıxmışdı. Hər üç cərəyanın tərəfdarları Osmanlı dövlətinin süqutunu önləməyə çalışsalar da, Balkan hərbi ilə Osmanlıçılığın, bunun ardından Birinci Dünya müharibəsində ərəblərin qaldırdığı üsyanlara görə İslamçılığın reallaşmasının mümkünsüzlüyünü görən rəhbərlik dövlətin rəsmi ideologiyası olaraq Türkçülük, daha doğrusu Turançılıq xəttini qəbul etdi [7, s.35; 10, s.58].

1917-ci ildə Rusiyada meydana gələn qarışıqlıqlar türklərə öz planlarını və Pantürkist ideyalarını tətbiq etmək üçün bir fürsət yaratmış, beləliklə, Qafqaza və Xəzər ətrafına, oradan da Orta Asiyaya doğru irəliləmə ehtimalı daha da güclənmişdi. Şərqdəki ingilis maraqları baxımından ciddi təhlükə kəsb edən bu proseslər, Türkiyə, Azərbaycan,

İran, Əfqanıstan və Orta Asiya türklərinin birliyi əsasında dünyanın siyasi sistemində çox güclü bir Türk-İslam ittifaqının meydana gəlməsi ehtimalı İngiltərəni müəyyən tədbirlər almaq məcburiyyəti qarşısında qoydu. Çünki belə bir ehtimalın reallaşması İngiltərənin maraqlarına həm Orta Asiyada, daha sonra isə Cənubi Asiyada zərbə vura bilərdi [23, s.320]. Panturanizm təhlükəsi ilə qarşılaşan İngiltərə Qafqazı strateji baxımdan İran, Əfqanıstan və daha da önəmlisi Hindistandakı iqtidarı üçün həyati dərəcədə əhəmiyyətli hesab edirdi. Yaxın gələcəkdə türk hegemonluğunun qurulması ehtimalı nəzərə alınaraq, İngiltərənin Asiyadakı mövqeyi baxımından real təhlükə mənbəyinin aradan qaldırılması üçün mütləq şəkildə Türkiyə ilə Türk Dünyası arasında bir sədd yaradılmalıydı. Digər tərəfdən Qafqazın türklər tərəfindən ələ keçirilməsi İngiltərənin yalnız regional deyil, ümumi maraqları baxımından da mənfi nəticələr doğura bilərdi. Azərbaycandakı neft rezervləri ilə Gürcüstandakı mədən və kömür yataqlarının da türk və alman güclərinin əlinə keçməsi İngiltərənin bütün planlarını alt-üst edə bilərdi [17, s.246]. Məhz bu baxımdan baş verən proseslər qarşısında lazımi tədbirlər alınmalıydı.

İngiltərənin prioritet məqsədi Qafqazdakı müxtəlif etnik və dini qruplar içərisində hansı millətin türklərə qarşı ciddi müqavimət göstərə biləcəyini müəyyənləşdirmək idi. Türksoylu olması baxımından Osmanlıya rəğbət göstərən Azərbaycan türklərinə etimad göstərilməyəcəyi bəlli idi. Öz növbəsində Azərbaycan türkləri də İngiltərənin ermənilərə göstərdiyi yardımlardan dolayı olduqca narahat idilər. Hətta bu yardım ermənilər tərəfindən azərbaycanlılara qarşı qıcıqlandırma metodu kimi də istifadə olunurdu. Ermənilərin bu davranışları xalqda ingilis hökumətinin açıq şəkildə antiislam siyasət yeritməsi yönündə fikirlər formalaşdırırdı [39]. İngiltərənin Tehrandakı səfiri cənab Marlin Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda Azərbaycanda yaşayan tatarların ***(türklərin – E.Ş.)*** getdikcə Türkiyə türklərinə daha çox meyil etdiklərini bildirirdi [38]. Xristian gürcülərin isə almanlarla XIX əsrdən bəri müəyyən əlaqələri vardı [ətraflı bax: 18, s.184, 195, 283]. Vəziyyəti nəzərə alaraq İngiltərənin Ali Baş Qərargah rəhbərliyi tərəfindən verilən memorandumda sadəcə ermənilərə etimad göstərilə biləcəyi bildirilirdi [37]. Bunun əsas səbəblərindən biri türklərdə ermənilərə qarşı xəyanətkar imicin formalaşması idi. Digər tərəfdənermənilər uzun illərdən bəri "Böyük Ermənistan" ideologiyası çərçivəsində fantastik, mifoloji iddialara aludə idilər və belə bir vəziyyəti nəzərə alan İngiltərə üçün daha gözəl fürsət və bəhanə ola bilməzdi. Bu baxımdan İngiltərə hökuməti Türkiyə ilə Türk Dünyası arasındakı əsas maneənin ermənilər olduğunu anlayırdı. Məşhur ingilis tarixçisi, Birinci Dünya müharibəsi dövründə Hərbi Nazirliyin nəzdində fəaliyyət göstərən Təbliğat Bürosunun tanınmış nümayəndələrindən olan Arnold Tonbi İngiltərənin Xarici İşlər Nazirliyinin nüfuzlu əməkdaşlarından cənab Kidstona, qarşıda duran əsas vəzifənin ermənləri türk boyunduruğundan xilas etmək və Turan hərəkatına mane olmaq üçün məhz bu amildən yararlanmanın vacib olduğunu yazırdı [41].

Bununla yanaşı, London İngilis-Erməni Komitəsinin sədri və İngiltərə Parlamentinin üzvü Anerin Uilyams da 4 dekabr 1917-ci ildə İngiltərənin məşhur diplomatlarından olan Xarici İşlər nazirinin müavini Lord Robert Sesilə göndərdiyi məktubda ermənilərə yardım göstərilməsinin zəruri olduğunu bildirir, eyni zamanda ermənilərin silahlandırılmasını və Andranik kimi silahlı dəstə liderlərindən istifadə edilməsini son dərəcə gərəkli hesab

edirdi [36]. Məktubda ingilis, fransız və amerikan hökumətlərinin də erməni ordusuna maddi dəstək vermələrinin vacib olduğu bildirilmiş, sərhədlərdən kənarda yaşayan ermənilərin pul yardımı ilə Şərqi Anadoluya və Qafqaza gətirilmələrinin qaçılmaz olduğu yazılmışdı [36].

İngiltərənin Xarici İşlər Nazirliyi də öz növbəsində erməni könüllü dəstələrinin Qafqaza fərqli yollardan gəlməsinə də köməklik göstərəcəkdi [34]. Hətta İngiltərənin Hərbi Kəşfiyyat fondlarından da ermənilərə pay ayrılmışdı [42, p. 101]. Rum mənşəli tarixçi Stefanos Yerasimos *"Millətlər və sərhədlər. Balkanlar, Qafqaz və Yaxın Şərq"* adlı məşhur əsərində İngiltərə tərəfindən ermənilərin dəstəklənməsi üçün ayrılan yardımın təxminən 20 milyon sterlinq olduğunu qeyd edir [25, s.293]. İngilis tarixçisi Peter Hopkirk isə *"İstanbulun şərqində bitməyən oyun"* adlı kitabında isə 1917-ci ilin sonları və 1918-ci ilin əvvəllərində ingilislər tərəfindən Tehrandan Bakıya, oradan da ermənilərə verilməsi üçün Tiflisə külli miqdarda qızıl və pul göndərildiyini detaylı şəkildə göstərir [20, s.329]. Qeyd etmək lazımdır ki, pul, qızıl, müxtəlif silah və sursatlar ermənilərə Panturanizm təhlükəsinə qarşı baryer təşkil etmək üçün verilirdi [35].

Bu dəstək sayəsində külli miqdarda silah və sursat təmin edən ermənilər Azərbaycanın bir çox bölgələrində ciddi etnik təmizlik siyasəti gerçəkləşdirdilər. Xüsusilə Naxçıvanda, Zəngəzurda, Qarabağda və s. bölgələrdə törədilən qırğınlar erməni silahlı dəstələrinin rəhbəri kimi, adı sonralar erməni milli qəhrəmanı kimi özdəşləşən Andranik Ozanyan və onun kimi radikal türk düşmənçiliyi ilə tanınan Nijde, Dro, Doluxanyan və s. rəhbərliyi altındakı erməni gücləri tərəfindən həyata keçirilmişdi. Bu komitəçilər Anadolu və Qafqazdakı qanlı hadisələrin əsas cavabdehləri kimi ilk sırada dayanırdılar. İngiltərənin arxiv materialları törədilən cinayətlərlə bağlı Andranikin silahların və hərbi sursatların ingilislərdən aldığını təsdiq edir. İngiltərənin Qafqazdakı Ali komissarı Oliver Uordrop İngiltərənin Xarici İşlər Nazirliyinə göndərdiyi bir raportda Andranikin Böyük Britaniya ordusunun mayoru Qibbondan aldığı bütün silahları erməni dəstələrinə payladığını bildirirdi [33].

Arxiv materiallarında yuxarıda adları çəkilən erməni komitəçilərinin, xüsusilə də Andranik Ozanyanın silahlı dəstələrinin İrəvan əyalətində 200-dən çox, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad nahiyələrində də 50-dən çox müsəlman kəndlərinə silahlı hücumlar təşkil etdiklərinə, kənd əhalisinin böyük əksəriyyətinin də qətlə yetirildiyinə dair önəmli məlumatlar yer almaqdadır [31, vv. 103-105]. Türkiyənin arxiv materiallarında ingilislərin bölgədə ermənilərin törətdikləri bu cinayətləri çox vaxt görməzdən gəldiklərinə dair kifayət qədər sənədlər mövcuddur [32, s.150-154].

Törətdiyi cinayətlərin miqyası o qədər böyük idi ki, Andranik bu hərəkətləri ilə Naxçıvanı öz idarəsinə tabe etdiyini düşünürdü. Onun məqsədi ələ keçirdiyi hər bir türk bölgəsində etnik, milli təmizlik siyasəti yeritmək, Qarabağ, Zəngəzur və Naxçıvanı Ermənistana birləşdirmək idi.Mənbələrdən əldə edilən məlumatlara görə, 1918-1921-ci illər arasında Naxçıvanda 73.727 nəfər ermənilər tərəfindən qətlə yetirilmişdir [2, s.29]. 1915-1921-ci illər arasında Cənubi Azərbaycanda isə ingilislərin və rusların təşviqi ilə təşkilatlanan və silahlanan erməni ordusunun qətlə yetirdiyi insanların sayı 90.000 nəfərin üzərində idi [15, s.248].

Bu acı gerçəklər ermənilərdə türklərə qarşı nifrət psixologiyasının, türkü öldürməkdən mənəvi zövq alma düşüncəsinin bariz nümunəsi və əlaməti olmaqla yanaşı, törədilən bu cinayətlərin arxasında böyük dövlətlərin dəstəyi olduğu, eləcə də İngiltərə tərəfindən verilən qızıl və sterlinqlərin, eyni zamanda silah və sursatların təsiri də xüsusilə qeyd edilməlidir. Düzdür, dinc əhaliyə qarşı törədilən bu cinayətlər ingilislərin planları daxilində yer almasa da, sırf Panturanizm təhlükəsinə qarşı silahlandırılan ermənilər həmin yardımdan faydalanaraq kütləvi qırğınlara baş vurmaqdan çəkinməmişdlər. Heç təsadüfi deyildir ki, Qafqazda erməni silahlı dəstələrinin törətdiyi bu cinayətlər ingilis hökumətinin narahatlığına səbəb olmuş, bu barədə Poqos Nubar paşa vasitəsilə ermənilərə ciddi xəbərdarlıq belə edilmişdir [44]. Çünki ermənilərin türkləri qətlə yetirmələri azərbaycanlılarda İngiltərə hökumətinə qarşı narazılıq yaratmış və xalqda ingilislərin qərəzli şəkildə antiislam siyasət yeritməsi fikri formalaşmışdı [36]. Belə bir hərəkət İngiltərənin bölgədəki nüfuzuna ciddi xələl gətirirdi. Lakin ortada bir dəyişməyən həqiqət vardı ki, bu da ingilislərin məqsədlərindən asılı olmayaraq, ermənilər maddi, hərbi baxımdan dəstəkləməsi və silahlandırması idi.

Dördlər qruplaşmasının Birinci Dünya müharibəsində məğlubiyyəti ilə türklərin Pantürkist ideyalarının reallaşması ehtimalı ortadan qalxınca, böyük bir çıxmazdan qurtulan İngiltərə 1918-ci ilin noyabr ayında Azərbaycana daxil oldu. Lakin ingilis qoşunları Bakıya daxil olduqdan üç ay sonra, 1919-cu ilin fevralında Lloyd Corc hökuməti ordunu Transqafqazdan mümkün qədər tez çıxarmağı qərara aldı [5, s.248]. İngilislərin Qafqazdan çıxmaq qərarı bu günə qədər dəqiqləşdirilməmiş ciddi problemlərdən biri olaraq qalır.

Mənbələrdə Birinci Dünya müharibəsinin sonunda İngiltərənin Qafqazı, xüsusilə neft bölgəsi olan Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq, Xəzər dənizinə sahib olmaq niyyətində olduğuna dair məlumatlar keçir. Tarix üzrə elmlər doktoru, professor Pərvin Darabadi qeyd edir ki, ingilislərin Qahirədən Kəlküttəyə qədər Böyük Britaniyanın nəzarəti altında birləşməsi yolu ilə bütöv ərazinin yaradılması ideyası mövcud idi. Bu ideya İngiltərənin Orta Şərqdəki siyasətinin yeni məzmununu – Xəzərə və Qafqazətrafı ərazilər, xüsusilə neft Bakısı üzərində nəzarətin yaradılmasını stimullaşdırırdı [3, s.26]. Bu geosiyasi plan eyni zamanda Hindistanın şimal sərhədlərindən Aralıq dənizinə doğru uzanmış bir neçə bufer dövlətdən ibarət zəncirin yaradılmasını da nəzərdə tuturdu. Bu zəncir Hindistana hücumlar zamanı qalxan, Böyük Britaniya, Avstraliya və Yeni Zelandiya arasında əsas əlaqələndirici vasitə rolunu oynamalı idi. Qafqaz-Xəzər regionu əsas əlaqələndirici həlqəyə çevrilirdi ki, bu həlqə İngiltərənin hərbi-siyasi planlarında həmin dövr üçün xüsusi yer tuturdu [3, s.26].

İngiltərənin məşhur dövlət xadimlərindən Lord Kerzon qeyd edirdi ki, Böyük Britaniyanın gələcəyi Avropada deyil, bizim immiqrantlarımızın gəldiyi, sonralar isə gələcək nəsillərin artıq istilaçı kimi geri qayıtdığı qitədə həll olunacaqdır. Türkistan, Əfqanıstan, Xəzər, Persiya dünya hökmranlığı uğrunda oyun gedən şahmat lövhəsinin bir hissəsidir [3, s.25].

İngiltərənin Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq, Xəzər dənizinə sahib olmaq niyyətində olduğuna dair məlumatlar N.K.Buzınina və K.V.Vinoqradovun [26, s.119], F.Volkovun]27, s.50], Cəmil Həsənlinin [5, s.249], Musa Qasımlının [8, s. 208] və s.

tanınmış tədqiqatçıların əsərlərində də mövcuddur, eyni zamanda bu tədqiqatların hər birində ingilis planlarına dair məsələlərlə bağlı haqlılıq payı da olduqca yüksəkdir. Lakin ingilislərin qısa bir müddət içərisində Qafqazı tərk etmələrinin səbəbi qaranlıq olaraq qalır. Qənaətimizcə, İngiltərə öz müstəmləkələrinin ərazilərini genişləndirməkdən daha çox, müharibə dövründə ələ keçirdiyi müstəmləkələri qoruyub saxlamaq üzərində düşünürdü. Xüsusilə İngiltərə baxımından daha çox əhəmiyyət kəsb edən bölgə Yaxın Şərq idi. Enerji resurslarının əsas hissəsinin Osmanlı sərhədləri içərisində yer alması Yaxın Şərqi İngiltərə üçün tam mənası ilə vaz keçilməz bir bölgəyə çevirmişdi. Sənaye inqilabını tamamlamış olan İngiltərə üçün Yaxın Şərq neftinə sahib olmaq ölkənin rifah və zənginliyi baxımından olduqca zəruri idi. Ancaq bütün bunlar o demək deyildi ki, zəngin təbii sərvətlərə malik olan Bakı neftinin İngiltərənin iqtisadi maraqlarında yeri yox idi. İngiltərə qədər neftin əhəmiyyətini dərindən idrak edən ikinci bir dövlət göstərmək mümkün deyil. Bunun üçün ingilislər hər şeylərini ortaya qoyaraq bu yağlı maddənin mütləq hakimi olmaq istəyirdilər [21, s.160]. Məlum olduğu kimi, XX əsrin ən güclü təbii qaynağı və dünyanı idarə edən əsas qüdrəti neft idi. Neft neçə-neçə dövlətləri oyuncağa və alətə çevirmiş, böyük, kiçik bir çox yeni yaranan dövlətlərə azadlıq verdiyi kimi, qocaman imperiyaları da tarix səhnəsindən silmişdir. Bu maye üçün insan deyilən varlığın zərrə qədər də olsun dəyəri yoxdur. Məşhur siyasətçi Uinston Çörçilin 1936-cı ildə İcmalar Palatasında neftin əhəmiyyəti barədə dediyi sözlər olduqca düşündürücüdür: *"Bir damla neft bir damla qandan daha qiymətlidir"* [21, s.13-14]. Bu baxımdan ingilislərin Azərbaycana gəlişinin, daha doğrusu bölgədə işğal siyasəti yeritməsinin səbəbi bilavasitə iqtisadi maraqlarla – neftlə xarakterizə oluna bilər. Məşhur türk tədqiqatçısı Raif Karadağ *"Petrol fırtınası"* adlı əsərində "Times" qəzetinin tanınmış əməkdaşlarından Artur Murun (Arthur Moore) 1 iyul 1922-ci il tarixli məqaləsinə istinadən, ingilislərin Bakı neftinə sahib olmaq üçün Qafqaza gəldiklərini, lakin bolşevik rus hökuməti ilə müharibəyə başlamağa hazır olmadıqlarından bölgəni tərk etmək məcburiyyətində qaldıqlarını qeyd edir [21, s.162]. Bu fikirlər doğru olsa da, ortada yenə bəzi müəyyən qaranlıq məqamlar mövcuddur. Hər şeydən əvvəl ona görə ki, dünyanın ən güclü ordusuna sahib olan İngiltərə üçün Rusiyada hakimiyyəti ələ keçirən və daxili çəkişmələrlə məşğul olan yeni rejimin rəqib olması imkansız idi. İngilislər gələcəkdə rus təhlükəsi ilə qarşılaşmaq istəməyə bilərdi. Təbii ki, bu da mövcud ehtimallar içərisində sayılmalıdır. Lakin qənaətimizcə, İngiltərənin bəhs olunan dövrdə zəngin təbii sərvətlərə sahib olan Yaxın Şərqə, xüsusilə Mosul neftinə daha çox fikir verməsi ehtimalı burada daha çox üstünlük təşkil edir. Bu ehtimalları sadalamaqla birlikdə, bu real faktı da gözdən qaçırmamaq lazımdır ki, İngiltərə Panturanizm amilini mütləq şəkildə nəzərə almaq məcburiyyətindəydi. Çünki Türkiyənin tamamilə yalnızlığa məhkum edilməsi hesaba qatılaraq, bu dövlət ilə Türk Dünyası arasındakı əlaqələrin qoparılması və Turancı ideyaların önünün kəsilməsi İngiltərə baxımından mühüm əhəmiyyət kəsb edirdi. Bu planın gerçəkləşməsi üçün ən uyğun vasitə isə ermənilər idi. Tanınmış siyasi xadim Lord Kerzonun ifadələri olduqca düşündürücüdür: *"Türkiyə ilə Türk xalqları arasında tampon bir dövlətin yaradılması qaçılmazdır. Problemin ortadan qalxması üçün yeni "Erməni Dövləti" təzahüründə xristian bir topluluğun meydana gətirilməsi vacibdir"* [28, s.427].

Lakin "Erməni dövləti" təzahüründə bu topluluq hansı bölgələrdə yaradılacaqdı? Bu dövlətin Şərqi Anadoluda qurulması mümkün deyildi, İngiltərə özü buna qətiyyən razı deyildi. Halbuki İngiltərə Şərqi Anadolu və Qafqazda türk təhdidinə qarşı baryer olaraq yararlanması müqabilində ermənilərə təminat vermiş, "Müstəqil Ermənistan"ın qurulması yönündə ciddi öhdəliklər götürmüş və vədlər vermişdi. Erməni dövlətinin Türkiyə ilə Azərbaycan arasında Zəngəzur və Naxçıvanı da əhatə edən bir bölgədə qurulması və sərhədlərinin müəyyənləşdirilməsi məsələsi İngiltərənin planları çərçivəsində idi. İngilislər Türkiyəyə meylli olan Azərbaycana inanmadıqlarından məhz Ermənistana etimad edir və Türkiyənin Transqafqaza olan qapısını əbədilik bağlamaq üçün bu bölgələri ermənilərə verməyə çalışırdılar [bu barədə ətraflı bax: 1, s.13-14; 13, s.74].

Naxçıvan 1919-cu ilin yanvarında ingilislər tərəfindən işğal edildi. Naxçıvan və Şərurun Ermənistan hökumətinin tabeliyinə verilməsini bildirən ingilislər ermənilərin öz işğalçılıq siyasətini həyata keçirmələrinə şərait yaratdılar. Daşnaklar ingilis zabitlərinin bilavasitə köməyi və iştirakı ilə 1919-cu ilin iyununda Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən kənara atdılar. Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər [1, s.14].

Bütün bunları ümumiləşdirərək belə bir nəticəyə gəlmək mümkündür ki, İngiltərə özünün ekspansionist siyasətini həyata keçirərkən Londonda tərtib olunmuş ssenari üzrə hərəkət edən daşnaklardan istifadə etmiş [11, s.256], hər vəchlə Ermənistanın Antantaya öz ərazisini, habelə hərbi və iqtisadi potensialını verməyə hazır olan daşnak rəhbərlərini dəstəkləmiş [3, s.33], faktiki olaraq Ermənistanı Naxçıvan və Zəngəzurla bağlı təcavüzkar hərəkətlərə təşviq etmişdir. Nəticədə Panturanizmə qarşı silahlandırılan ermənilər bu dəstəkdən faydalanaraq Şərqi Anadoluda olduğu kimi, Azərbaycanda və onun ayrılmaz parçası olan Zəngəzur və Naxçıvanda genişmiqyaslı cinayətlərə imza atmışlar [bu barədə ətraflı bax: 7; 9]. Böyük Britaniya Milli Arxivindən əldə edilən mənbələrdən məlum olur ki, həmin bölgələrdə qanlı cinayətlərə imza atan Andranik və onun dəstəsi Antanta tərəfindən maliyyələşdirilmişdir [(33; 35]. Həmin dəstəyin nəticəsi idi ki, Zəngəzur faktiki olaraq işğal altındaydı. Naxçıvan isə yerli əhalinin müqaviməti və Türk ordusunun yardımı sayəsində işğaldan azad olmuşdu. İngiltərənin bölgədən çıxması nəticəsində təşəbbüs Rusiyaya keçdi. Naxçıvan və Zəngəzur Sovet Rusiyasının ideoloji mübarizəsinin qurbanına çevrilmişdi. Heç təsadüfi deyildir ki, Rusiya Azərbaycan hökumətini dostluq və həmrəylik simvolu olaraq Naxçıvan və Zəngəzuru Ermənistan vermək barəsində razı salmağa məcbur edirdi. Rusiyanın məqsədi Ermənistanı bir an öncə sovetləşdirmək idi. Lakin hakimiyyət daşnakların əlindəydi və illədir bölgələrə tam şəkildə sahib ola bilməmişdi. Sovet Rusiyası planın necə reallaşacağını mükəmməl şəkildə hesablamışdı. Daşnakların illərdən bəri müharibə apararaq ala bilmədiyi Naxçıvan və Zəngəzuru Ermənistana hədiyyə edəcəkdi. Beləliklə, müharibə yolu ilə alına bilməyən bölgələr bir qələm və ya imza ilə hədiyyə edilərək daşnaklar gözdən düşürüləcək, əhalinin ruhu tətmin edilərək onların yeni sovet idarəsinə alışması təmin olunacaqdı [14, s.407].

26 və 28 dekabr 1920-ci il tarixli bəyannamələrlə Naxçıvan və Zəngəzur Ermənistana hədiyyə edildi [4]. Lakin türk dünyasını bir-birinə bağlayan "türk qapısı" Naxçıvanın

Ermənistana verilməsi ilə bağlı Sovet Rusiyasının planı Behbud Şahtaxtinski və Türk rəsmiləri tərəfindən pozulsa da, Zəngəzur Ermənistana peşkəş çəkildi. Naxçıvan Moskva və Qars müqavilələrinə əsasən, Azərbaycanın tərkibində qalsa da, Zəngəzurun işğal edilməsi ilə Azərbaycandan qoparıldı. Erməni dövlətinin yaradılması və Zəngəzurun Ermənistana verilməsi ilə sadəcə Naxçıvan deyil, bütün Türk Dünyası bir-birindən ayrı salındı.

Nəticə. Beləliklə, İngiltərə qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində vəd etdiyi "Böyük Ermənistan" dövlətini yaratmasa da, Türkiyə ilə Türk Dünyası arasında tampon dövlət olaraq müstəqil daşnak Ermənistan dövlətinin qurulmasında bilavasitə yaxından iştirak etmiş, ümumtürk birliyi arasına baryer kimi ermənilər yerləşdirərək öz milli və geosiyasi maraqlarına uyğun olaraq Panturanizmin qarşısına sədd çəkmiş, beləliklə, öz vəzifəsini tamamlamışdır. Digər bir ifadəylə, Ermənistan dövlətinin qurulması İngiltərənin, ümumilikdə Antantanın məqsədləri içərisində olub, Panturanizm təhlükəsinə qarşı baryer kimi "əsas maneə" rolunu oynamış və bu yolda milyonlarla sterlinqlər xərclənmişdir. 1918-ci ilin oktyabr ayında İngiltərənin Xarici İşlər naziri Artur Balfur tərəfindən erməni milli nümayəndəsinin rəhbəri Poqos Nubar paşaya ünvanlanan yazıda qeyd olunurdu ki, Ermənistan dövlətinin yaradılması Antantanın, xüsusilə İngiltərənin müharibə məqsədlərindən biridir [40]. Bu yazı açıq bir etirafdır.

Məsələnin mahiyyətinə endikcə aydın olur ki, Antantanın, xüsusilə də İngiltərənin iradəsi olmasaydı, erməni dövlətinin qurulmasından və mövcudiyyətindən söhbət gedə bilməzdi. Bu barədə fransız tədqiqatçısı Jorj de Malevil də *"1915-ci il erməni tragediyası"* adlı əsərində göstərir: *"İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində qurulub qısa bir ömür [1918-1920] sürən erməni respublikası, bütün tarixi boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi"* [30, s.15].

Göründüyü kimi, müstəqil daşnak Ermənistan dövləti məhz İngiltərənin geosiyasi maraqlarına uyğun olaraq onun iradəsi ilə yaradılmışdır. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, "Böyük Ermənistan" ideyası ilə yaşayan radikal erməni millətçilərinin düşüncəsinin əksinə olaraq, müstəqil Ermənistan dövləti Osmanlı İmperiyasının ərazilərində deyil, Cənubi Qafqazda qurulmuşdur. Bunun da müəyyən səbəbləri var idi. Əgər "Böyük Ermənistan" dövləti Şərqi Anadoluda yaradılsaydı, bu dövlət İngiltərənin deyil, Rusiyanın nəzarəti altına keçə bilərdi. Rusiyanın 1828-ci ildə "Erməni vilayəti"nin əsasını qoymaqla gələcəkdə ondan hücum mərkəzi olaraq düşünməsini, "erməni kartı"ndan yararlanaraq gələcəkdə Osmanlı dövlətini parçalamaq, Şərqi Anadoluda yaşayan ermənilər müstəqillik və "Böyük Ermənistan" vədləri ilə qızışdıraraq, onları öz himayəsi altında bir araya gətirərək Osmanlı ərazilərinə yiyələnmək arzusunda olması faktlarını xatırlatmaq kifayətdir. Bu ehtimalı nəzərə alan İngiltərə Osmanlı torpaqlarını öz nəzarətində saxlaya bilmək üçün Erməni dövlətinin qurulması məsələsini Cənubi Qafqaza ixrac etmişdir. Heç şübhəsiz ki, geosiyasi maraqların toqquşmasının nəticəsi olaraq Ermənistan dövlətinin yaradılması o tarixdən günümüzə qədər Azərbaycan üzərində ağır dərin izlər buraxmışdır.

Tarixi torpaqlarımız hesabına regionda süni olaraq böyük güclər tərəfindən yaradılan Ermənistan Sovet hakimiyyəti dövründə əldə etdikləri ilə kifayətlənməyərək hər

dəfə ərazilərimizə sahib olmuş, torpaqlarını genişləndirmişdir. Hətta daha da irəli gedərək, "Hai-Taht" doktrinası çərçivəsində xalqımıza qarşı soyqırım cinayətləri törətmiş, xalqımızı ata-baba yurdlarından qovmağa məcbur etmiş, ərazilərimizi işğal altında saxlamışdır. Strateji məqamın yetişməsi ilə Azərbaycan 2020-ci ilin sentyabrında Ermənistan qarşısında güc və qətiyyət nümayiş etdirərək özünün "dəmir yumruq" əməliyyatını reallaşdırıb, bu dövləti ağır məğlubiyyətə uğratdı və işğal altındakı torpaqlarını xilas etdi. Qeyd etmək lazımdır ki, Ermənistan həmişə geosiyasi şahmat taxtasında piyada statusuna malikdir, amma dünyanın böyük oyunçuları ilə münasibətlərdə özünü ağır fiqur kimi təsəvvür etmişdir. Heç təsadüfi deyildir ki, Azərbaycanın dünyanın böyük şahmat taxtasında Ermənistanın necə bir mövqeyə sahib olduğunu həm onun özünə, həm də bütün dünyaya sübut etdi. 44 günlük Vətən müharibəsindən ötən 3 il ərzində Azərbaycanın mövqeyi daha da möhkəmləndi. 2023-cü ilin sentyabrın 19-da isə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini tam təmin etdi. 24 saatdan da az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış erməni silahlı birləşmələri təslim olaraq bütün şərtləri qəbul etdilər. Cəsarətlə qeyd etmək mümkündür ki, hal-hazırda Azərbaycan beynəlxalq siyasətdə özünəməxsus nüfuz qazanmış, gedişata uyğun olaraq güclü strategiya müəyyənləşdirmişdir. Bu gün Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətçiliyimizin möhkəmləndirilməsinə, ölkənin beynəlxalq münasibətlər sistemində ciddi mövqe tutmasına, milli maraqlarının təmin olunmasına və ərazi bütövlüyünün bərpa edilməsinə hesablanmış Heydər Əliyev strategiyasını uğurla davam etdirir.

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev). - Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, – 2010. – 384 s.
2. Cəfərov F. Naxçıvan polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri. – Bakı: Nurlan, – 2011. – 388 s.
3. Darabadi P. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. – Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, – 2008, – s. 23-38.
4. Həbibbəyli, İ. Behbudağa Şahtaxtinskinin xidmətləri və aqıbəti // Azərbaycan qəzeti, – 2011. – 18-19 mart.
5. Həsənov, C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1993. – 362 s.
6. İsmayılov, K. Azərbaycanın Zəngəzur bölgəsi 1918-1920-ci illərdə. Bakı: Turxan nəşriyyatı, 2019, 144 s.
7. Qafarov, V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.
8. Qasımlı, M. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. – Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, – 2008. – s. 191-224.

9. Musayev, İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). – Bakı: Bakı Universiteti nəşriyyatı, – 1998. – 385 s.
10. Yılmaz, R. Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, – 2008. – s. 57-74.
11. Yusifzadə, S. Ermənistan-Azərbaycan münaqişəsi və İngiltərənin mövqeyi (1918-1920-ci illər) // Dirçəliş – XXI əsr, – 2004. №76-77, – s. 252-261.
12. Zamanov, E. Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər). – Bakı: Elm və təhsil, – 2011. – 176 s.

Türk dilində:

13. Armaoğlu, F. 19. yüzyıl siyasi tarihi (1789-1914). – Ankara: Türk Tarih Kurumu, – 1997. – 821 s.
14. Atnur, İbrahim Ethem. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçıvan (1918-1921). – Ankara: Türk Tarih Kurumu yayınları, – 2001. – 488 s.
15. Attar Aygün. Ermeni ulusalcılığının siyasal oluşumu / Ermeni Araştırmaları 2. Türkiye Kongresi Bildirileri. – Ankara: Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü yayınları, – 2007. I cilt, – s. 231-252.
16. Avcı Halil Ersin. İngiliz-ermeni ittifakı. – İstanbul: Paraf yayınları, – 2010. – 448 s.
17. Başak Tolga. İngiltere'nin ermeni politikası (1830-1923). – İstanbul: IQ Kültür Sanat yayıncılık, – 2008. – 672 s.
18. Çolak Mustafa. Alman imparatorluğu'nun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918). – Ankara: Türk Tarih Kurumu yayınları, – 2006. – 324 s.
19. Halaçoğlu Yusuf. Ermeni tehciri ve gerçekler. Ankara: Türk Tarih Kurumu yayınları, – 2001, – 106 s.
20. Hopkirk Peter. İstanbul'un doğusunda bitmeyen oyun. – İstanbul: Yeni Yüzyıl – Sabah yayınları, – 1995. – 516 s.
21. Karadağ Raif. Petrol fırtınası. – İstanbul: Truva yayınları, – 2014. – 328 s.
22. Mazıcı Nurşen. Belgelerle uluslararası rekabette ermeni sorunu'nun kökeni (1878-1918). – İstanbul: Gümüş basımevi, – 1987. – 292 s.
23. Öke Mim Kemal. Siyonizm'den uygarlıklar çatışmasına Filistin sorunu. – İzmir: Ufuk kitapları, – 2002. – 507 s.
24. Uras Esat. Tarihte ermeniler ve ermeni meselesi. – İstanbul: Belge yayınları, – 1987. – 798 s.
25. Yerasimos Stefanos. Milliyetler ve sınırlar. – Balkanlar, Kafkasya ve Orta Doğu. İstanbul: İletişim yayıncılık, – 2000. – 504 s.

Rus dilində:

26. Бузынина, Н.К., Виноградов К.В., Лорд Керзон (1859-1925. Докум. очерк) // Новая и Новейшая, История, – 1973. №6, – с. 116-127.
27. Волков, Ф.Д. Тайны Уайтхолла и Даунинг-стрит. – Москва: Мысль, – 1980. – 462 с.
28. Джордж Ллойд. Правда о мирных договорах. В 2-х томах: Перевод с английского. Т. 2 / Д.; Под ред.: Волков Ф.Д., Никонов А.Д., Москва: Иностр. Литературы, – 1957. – 556 с.

29. Лавров, С.В. Борьба в политических кругах Великобритании вокруг англо-советских переговоров 1920-1921 годов // Вопросы Истории, – 1977. №6, – с. 59-80.
30. Малевил, Жорж де. Армянская трагедия 1915 года. – Баку: Элм, – 1990. – 128 с.

Arxiv materialları və rəsmi sənədlər:

Azərbaycan:

31. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): f. 314, siy. 5, iş 71.

Türkiyə:

32. Osmanlı belgelerinde ermeni-ingiliz ilişkileri (1896-1922). T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı, yayın nu: 76, – Ankara: – 2006. 4 ciltte, cilt: 4, belge №76, – 460 s.

İngiltərə:

33. Oriental and India Office Collections (British Library): India Office Records IOR/L/P&S/11/166, Decypher. Mr. Wardrop (Tiflis), No: 209, 17th December 1919.
34. The National Archives of United Kingdom: Public Record Office Foreign Office Documents (PRO. FO): 371/3016/237541, J.A.Malcolm to Ronald Graham (Foreign Office), December 14th, 1917.
35. PRO. FO. 371/3018/245628, Foreign Office to Sir G.Buchanan, December 30th, 1917.
36. PRO. FO. 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office), December 4th, 1917.
37. PRO. FO. 371/3284/75611, "Memorandum Regarding the Support Afforded to the Armenians", Department of Military Intelligence to Foreign Office, April 29th, 1918.
38. PRO. FO. 371/3300/19679, Sir C.Marling (Tehran) to Foreign Office, no: 76, January 30th, 1918.
39. PRO. FO. 371/3301/131359, C-in-C. India to War Office, no: 56896, July 20th, 1918.
40. PRO. FO. 371/3404/162745, Arthur James Balfour to Boghos Nubar Pasha, (12, Avenue du Trocadero, Paris), October 12nd, 1918.
41. PRO. FO. 371/3448/178219, A.J.Toynbee to Mr. Kidston, October 26th, 1918.
42. PRO CAB (Cabinet Papers). 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7th, 1917, at 5:30 PM.
43. PRO. CAB. 25/120, S.W.C. 1, Secret, "Note on the Military Situation in Armenia" by Supreme War Council, British Section, Versailles, December 3th, 1917.
44. PRO. FO. 371/3301/131359, Foreign Office to Lord Derby (Paris), no: 1540, July 27th, 1918.

SUMMARY

Emin Shikhaliyev

THE CREATION OF THE STATE OF ARMENIA AS A HEAVY BLOW TO THE TURKISH UNITY PLACE IN THE EARLY 20th TH CENTURY AND BACKSTAGE REASONS (ON THE BASIS OF BRITISH ARCHIVAL DOCUMENTS)

This study was prepared mainly on the basis of documents of the National Archives of the United Kingdom. The UK archives contain precious materials that play a key role in revealing the truth about the Armenian question. These documents contain correspondence between British officials and top secret reports signed by senior officials, which shows the importance of the Armenian factor, creation of the Armenian state for major powers, particularly the United Kingdom. These materials prove that the Armenians were used as a barrier for the elimination of the ideology of Panturanism, and the creation of an independent Armenian state by cutting ties between Turkey and Azerbaijan and indirectly the Turkic world was in the interests of the Entente countries, and Armenian detachments funded and armed for this purpose carried out a systematic policy of genocide against the local population of the South Caucasus, particularly of Azerbaijan in 1917-1920.

Key words: *Great Britain, pan-turkism, Armenia, Azerbaijan, Zangezur, Nakhchivan, genocide.*

XIX ƏSR RUS MƏNBƏLƏRİNDƏ QƏRBİ AZƏRBAYCANDA DİN XADİMLƏRİNİN AİLƏ VƏ SAY TƏRKİBİNƏ DAİR BƏZİ QEYDLƏR

Yaşar RƏHİMOV
AMEA Naxçıvan Bölməsi

Qərbi Azərbaycan ərazisinin zəngin tarixi vardır. Qərbi Azərbaycan ərazisi ən qədim dövrlərdən Azərbaycan türklərinə (azərbaycanlılara) məxsus olmuşdur. Qədim türk-oğuz yurdu olan Qərbi Azərbaycanın aborigen əhalisinin Azərbaycan türkləri olması da təsdiqlənmiş tarixi faktdır. Qərbi Azərbaycan tarixinin tədqiqi müasir dövrdə mühüm siyasi və elmi əhəmiyyət kəsb edir. Məqalədə Qərbi Azərbaycanda yaşayan din xadimlərinin, dini zümrəyə daxil olan insanların ailə və say tərkibi rus mənbələri əsasında araşdırılmış, İrəvan şəhəri ilə yanaşı, Qərbi Azərbaycanın müxtəlif mahallarında sakin olan mirzə, seyid və dərviş ailələrinin say tərkibi haqqında məlumatlar təhlil edilib tədqiqata cəlb edilmişdir. Sonda belə bir nəticəyə gəlinmişdir ki, ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna edilməklə, rus mənbələri Qərbi Azərbaycanın tarixinə dair zəngin məlumatlar əks etdirməsi baxımından çox qiymətli və sanballı mənbələrdir. Bu mənbələr araşdırılarkən mütləq tənqid süzgəcindən keçirilməli, diqqətli və dəqiq şəkildə tədqiq olunmalıdırlar.

Açar sözlər: *Qərbi Azərbaycan, mənbə, dini, İrəvan əyaləti, bölgə, müəllif.*

Rusiya tarixşünaslığında Qərbi Azərbaycan tarixindən bəhs edilən əsərlərin əksəriyyətində Rusiyanın işğalçı siyasəti dəstəklənmiş və tarixi həqiqətlər olduğu kimi verilməmişdir. XIX əsr rus qafqazşünaslarının əksəriyyəti ən çox erməni müəlliflərinin və "tədqiqatçıları"nın əsərlərindən əldə etdikləri material və məlumatlar əsasında yazılar yazırdılar. Onlar hətta faktları saxtalaşdırmaqdan çəkinməyərək baş vermiş hadisələri hərtərəfli təhlil etməyə o qədər də can atmırdılar. Bu fikirləri Qərbi Azərbaycan və Naxçıvan bölgəsinin əhalisinə aid olan təsvirlər və tədqiqatlar haqqında da demək mümkündür. Rus qafqazşünasları hər iki regionun ərazisi və əhalisinin etnik tərkibi haqqında problemi ermənilərin xeyrinə təhrif etməyə çalışırdılar. Bu cəhətdən "daha irəli gedən" müəlliflərdən biri Qafqazda mülki xidmətdə olmuş İ.Şopendir. Qraf F.İ.Paskeviçin tapşırığı və göstərişi ilə 1832-ci ilin mayında tamamladığı əsərində Şopen "erməni vilayəti"nin adını çəksə də, bu kitab İrəvan və Naxçıvanın tarixinə həsr edilmişdir. O, bu bölgələrin əhalisinin torpaqlarının ermənilərə aid olmasını göstərməyə cəhd etməklə yanaşı, belə bir qeyri-real fikir irəli sürür ki, "erməni vilayəti"ndə yaşayan yerli sakinlər iki kökə: ermənilərə və kürdlərə bölünür [4, s.525]. Fikrimizcə, heç bir əsası olmayan bu yanlış fikirlər uydurma və cəfəngiyyatdan başqa bir şey deyildir. Ta qədim dövrlərdən türk diyarı olan Qərbi Azərbaycan və Naxçıvan əhalisinin etnik tərkibinin türklərdən (azərbaycanlılardan) ibarət olması sübut olunmuş və danılmaz faktdır. Həmin ərazilərin türk yurdu olması özünü bütün tarix dövrlərdə göstərmişdir. Həmin Şopen elmi cəhətdən çox yanlış olaraq, həmin bölgələrin yerli türk əhalisini gəlmə elan edir və onları keçmiş və gəlmə olmaqla iki yerə bölür [4, s.529]. Heç bir əsası olmayan bu cür qeyri-elmi müddəalar tarixi həqiqətdən və realıqdan çox uzaqdır.

Qərbi Azərbaycanın XIX əsr tarixinin tədqiqində rus mənbələri mühüm yer tutur. Bu

mənbələrdə əzəli və əbədi ərazilərimizin, o cümlədən Qərbi Azərbaycanın tarixinin bu və ya digər sahələri ilə yanaşı, sosial xarakterli faktlar haqqında da zəngin məlumatlara rast gəlirik. Xüsusilə İrəvan əyalətində və eyniadlı şəhərdə yaşayan dini zümrələr, onların ailə və say tərkibi haqqında verilən qeydlər diqqəti cəlb edir. Dolğun və zəngin məlumat verən İ.Şopenin əsəri bu mənbələr içərisində mühüm yer tutur. Onun qənaətinə görə, XIX yüzilliyin 30-cu illərinin əvvəllərində Qərbi Azərbaycanın İrəvan əyalətində - eyniadlı şəhərdə 4 xan ailəsi (41 nəfər; 22 nəfər kişi, 19 nəfər qadın), Şərurda 1 xan ailəsi (3 nəfər; 1 nəfər kişi, 2 nəfər qadın), Dərəkənd-Parçenisdə 1 xan ailəsi (6 nəfər; 3 nəfər kişi, 3 nəfər qadın) və Sərdarabadda 1 xan ailəsi (15 nəfər; 10 nəfər kişi, 5 nəfər qadın) yaşayırdı. İ.Şopenin tərtib etdiyi cədvəli araşdırarkən məlum olur ki, həmin illərdə İrəvan şəhərində 51 bəy və sultan ailəsi (304 nəfər; 167 nəfər kişi, 137 nəfər qadın), Qırxbulaqda 1 (7 nəfər; 3 kişi, 4 qadın), Zəngibasarda 8 (69 nəfər; 35 nəfər kişi, 34 nəfər qadın), Vedibasarda 16 (126 nəfər; 65 nəfər kişi, 61 nəfər qadın), Sürməlidə 1 (5 nəfər; 2 nəfər kişi, 3 nəfər qadın), Dərəçiçəkdə 1 (19 nəfər; 8 nəfər kişi, 11 nəfər qadın), Göyçədə 15 (114 nəfər; 59 nəfər kişi, 55 nəfər qadın) bəy və sultan ailəsi yaşayırdı [4, s.689-690].

Həmin vaxt Qərbi Azərbaycan bölgəsində müsəlman təbəqəsinə daxil olan axundlar və mollalar, mirzələr və dərvişlər də yaşayırdılar. İ.Şopenin məlumatlarına əsaslanıb demək olar ki, Rusiyaya birləşdirmə dövründə İrəvan şəhərində 50 axund və molla ailəsi (332 nəfər; 181 nəfər kişi 151 nəfər qadın), 19 mirzə ailəsi (105 nəfər; 64 nəfər kişi, 41 nəfər qadın) və 3 dərviş ailəsi (10 nəfər; 6 nəfər kişi, 4 nəfər qadın) yaşayırdı. Mahallarda da adı çəkilən sosial təbəqələr məskunlaşmışdılar. Belə ki, Qırxbulaq mahalında 1 axund və ya molla ailəsi (6 nəfər; 3 nəfər kişi, 3 nəfər qadın), Zəngibasar mahalında 28 axund və molla ailəsi (209 nəfər; 108 nəfər kişi, 101 nəfər qadın), Vedibasar mahalında 5 axund və molla ailəsi (52 nəfər; 28 nəfər kişi, 24 nəfər qadın), Sürməlidə 17 (124 nəfər; 59 nəfər kişi, 65 nəfər qadın), Seyidli-Axsaqlı mahalında 3 (18 nəfər; 9 nəfər kişi, 9 nəfər qadın), Sərdarabad mahalında 3 (27 nəfər; 17 nəfər kişi, 10 nəfər qadın), Dərəçiçək mahalında 2 (13 nəfər; 10 kişi, 3 qadın), Göyçə mahalında 10 axund və molla ailəsi (124 nəfər; 61nəfər kişi, 63 nəfər qadın) yaşayırdı.

Bəhs olunan dövrdə İrəvan şəhəri ilə yanaşı, Qərbi Azərbaycanın müxtəlif mahallarında sakin olan mirzə, seyid və dərviş ailələrinin say tərkibi haqqında məlumatlar günümüzədək gəlib çatmışdır. XIX yüzilliyin 30-cu illərinin əvvəllərində İrəvan şəhərində 19 mirzə ailəsi (105 nəfər; 64 nəfər kişi, 41 nəfər qadın) və 3 dərviş ailəsi (10 nəfər; 6 nəfər kişi, 4 nəfər qadın) yaşayırdı (4, s.699-700). Mahallarda yaşayan dini zümrəyə aid edilən əhalinin ailələrinin say tərkibi də maraq doğurur. Həmin dövrdə Qərbi Azərbaycanın Zəngibasar mahalında 1 mirzə ailəsi (4 nəfər; 2 nəfər kişi, 2 nəfər qadın), Vedibasar mahalında 2 mirzə ailəsi (10 nəfər; 5 nəfər kişi, 5 nəfər qadın), Şərurda 9 mirzə ailəsi (55 nəfər, 23 nəfər kişi, 32 nəfər qadın) və 3 dərviş ailəsi (10 nəfər; 5 nəfər kişi, 5 nəfər qadın), Sürməli mahalında 1 mirzə ailəsi (4 nəfər; 2 nəfər kişi, 2 nəfər qadın) və 1 dərviş ailəsi (7 nəfər; 5 nəfər kişi, 2 nəfər qadın), Sərdarabad mahalında 1 dərviş ailəsi (8 nəfər; 4 nəfər kişi, 4 nəfər qadın), Dərəçiçək mahalında 1 mirzə ailəsi (7 nəfər; 3 nəfər kişi, 4 nəfər qadın), Göyçə mahalında 1 mirzə ailəsi (8 nəfər; 6 nəfər kişi, 2 nəfər qadın) yaşayırdı.

XIX yüzilliyə aid olan rusdilli mənbələrin əksəriyyətində - İ.Şopenin, V.Qriqoryevin

əsərlərində, xülasə və toplularda bölgədə yaşayan sosial təbəqələr, o cümlədən dini zümrə və təbəqələr, həmçinin onların ailə və say tərkibi barədə xeyli məlumat vardır. Həmin məlumatların araşdırılması və qarşılıqlı tədqiqi nəticəsində aydın olur ki, birinci axund və ya Şeyxülislam birbaşa Abbas Mirzə tərəfindən təyin edilirdi. O, dini işlərlə bağlı əsas idarəçilikdən başqa, xanın tapşırığı ilə xüsusi müraciətlər əsasında cinayət işlərini də araşdırır və həll edirdi. Həm də bütün bu məsələlərin həllində Quranın aliliyi nəzərə alınır və onun diktə etdiyi formada işlərə baxılırdı. Xana tabe olmayan axundlar dini idarəetmə sistemində əsas rol oynayırdılar. Qazı və peşnamazları Müştəhid təyin edirdi. Müştəhid gündə üç dəfə ibadət üçün məscidə getməli idi. Qazı nikah, dəfn və boşanma məsələlərini həll edirdi. Mollalar axunda tabe idilər. Bu sinfə və ya təbəqəyə daxil olan sosial zümrələrdən biri də seyidlər idi [3, s.325]. XIX yüzilliyin 30-cu illərinin əvvəllərində İrəvan şəhərində 39 seyid ailəsi (188 nəfər; 92 nəfər kişi, 36 nəfər) yaşayırdı. Həmin dövrdə Qərbi Azərbaycanın Vedibasar mahalında 1 seyid ailəsi (5 nəfər, 3 nəfər kişi, 2 nəfər qadın), Şərurda 10 seyid ailəsi (43 nəfər, 23 nəfər kişi, 20 nəfər qadın), Sürməli mahalında 2 seyid ailəsi (6 nəfər; 3 nəfər kişi, 3 nəfər qadın-Şopen tərtib etdiyi cədvəldə bu rəqəm yanlış olaraq 8 nəfər göstərilir), Seyidli-Axsaxlı mahalında 2 seyid ailəsi (9 nəfər; 6 nəfər kişi, 3 nəfər qadın), Sərdarabad mahalında 4 seyid ailəsi (19 nəfər; 12 nəfər kişi, 7 nəfər qadın), Göyçə mahalında 4 seyid ailəsi (26 nəfər; 14 nəfər kişi, 12 nəfər qadın) yaşayırdı [4, s.700].

İ.Şopen öz əsərinin 659-cu səhifəsində Ramazan ayı, Novruz və Qurban bayramları haqqında məlumat verir. Məhərrəm ayı və Kərbəla hadisələrindən bəhs edən rus müəllifi yazır ki, cümə günləri müsəlmanlar məscidə toplaşaraq peşnamazın rəhbərliyilə cümə namazı qılırlar. Quran 114 surənin başlıqlarından ibarətdir [4, s.660]. Dərviş və mərsiyəxanlar (onlar Məhərrəm ayında-kədərli günlərdə xalqa faciəvi hadisələrdən danışan, imamlar - Həsən və Hüseynin ölümündən və Kərbəla müsibətindən söz açan şəxslər idi - Y.R.) haqqında məlumat verən rus müəllifi İ.Şopen vurğulayırdı ki, imami-cümə vəzifəsini daşıyan din xadimi məscidlərdə cümə namazlarının qılınmasına, dua və ibadətlərin edilməsinə bilavasitə rəhbərlik edirdi. Qeyd etmək lazımdır ki, dərvişlərin dini dünyagörüşü və fəaliyyəti, müsəlmanların müqəddəs hesab etdikləri Məkkə, Mədinə haqqında rus müəllifləri V.Qriqoryev və K.Nikitin az da olsa, bəhs etmişlər [1, s.56, 58-59; 2, s.141]. Yeri gəlmişkən, V.Qriqoryevin Qərbi Azərbaycanın Dərələyəz mahalı ilə bağlı verdiyi məlumatlar da xüsusi maraq doğurur [1, s.160-176].

XIX əsr rus mənbələrində İrəvan xanlığında və Rusiya tərəfindən ilhaqdan sonra ərazidə ruhani təbəqəsinə mənsub olan adamların sayı haqqında verilən məlumatlar bizə qədər gəlib çatmışdır. İ.Şopenin məlumatlarını araşdırarkən aydın olur ki, həmin dövrdə İrəvan şəhərində 13 ruhani ailəsi (90 nəfər; 55 nəfər kişi, 35 nəfər qadın), mahallarda: Qırxbulaq mahalında 10 (64 nəfər; 30 nəfər kişi, 34 nəfər qadın), Zəngibasarda 9 (52 nəfər; 24 nəfər kişi, 28 nəfər qadın), Gərnibasar və ya Məsimli mahalında (məhbədə Qarnibasar yazılıb - Y.R.) 11 (60 nəfər; 29 nəfər kişi, 31 nəfər qadın), Vedibasar mahalında 1 (7 nəfər; 4 nəfər kişi, 3 nəfər qadın), Şərurda 6 (37 nəfər; 23 nəfər kişi, 14 nəfər qadın), Sürməli mahalında 22 (182 nəfər; 98 nəfər kişi, 84 nəfər qadın), Talin mahalında 4 (27 nəfər; 17 nəfər kişi, 10 nəfər qadın), Sərdarabad mahalında 11 (112 nəfər; 59 nəfər kişi, 53 nəfər qadın), Karpi mahalında 29 (219 nəfər; 115 nəfər kişi, 104 nəfər qadın), Damcılı mahalında

(mənbədə Abaran adı ilə verilmişdir - Y.R.) 30 (204 nəfər; 109 nəfər kişi, 95 nəfər qadın), Dərəçiçək mahalında 24 (168 nəfər; 92 nəfər kişi, 76 nəfər qadın) və Göyçə mahalında 23 (232 nəfər; 124 nəfər kişi, 108 nəfər qadın) ruhani ailəsi yaşayırdı [4, s.691-692]. Göründüyü kimi, bu aillələrin ən çox yaşadığı mahallar Karpi, Sürməli, Damcılı və Dərəçiçək mahalları olmuşdur.

İ.Şopenin məlumatlarını araşdırarkən aydın olur ki, Qərbi Azərbaycan ərazisində-İrəvan şəhərində və mahallarda yaşayan hacı, məşədi və kərbəlayıların da sayı az olmamışdır. XIX yüzilliyin 30-cu illərinin əvvəllərində İrəvan şəhərində 85 hacı, 158 məşədi, 105 kərbəlayı yaşayırdı. Həmin dövrdə İrəvan əyalətində 25 hacı, 77 məşədi, 289 kərbəlayı yaşayırdı [4, s.704]. Təkcə İrəvan şəhərində yaşayan hacı və məşədilərin sayı bötüvlükdə İrəvan əyalətində yaşayan hacı və məşədilərin sayından çox idi.

Rus mənbələrinin müqayisəli təhlili göstərir ki, XIX əsrdə Qərbi Azərbaycan ərazisində əhalinin sosial tərkibinin formalaşması burada gedən ictimai-siyasi proseslərlə bağlı olmuşdur. İrəvan şəhəri ilə yanaşı, bölgənin mahallarında ali zümrənin nümayəndələri - axundlar, mollalar, dərvişlər, seyidlər, yüksək hərbi rütbəlilərlə yanaşı, sənətkar və tacir ailələri də yaşayırdılar.

XIX əsrin sonlarında bölgə əhalisinin sosial tərkibində, o cümlədən dini zümrələrin say tərkibində xeyli dəyişiklik olduğu müşahidə edilir. Rus mənbələrinin müqayisəli təhlili dediklərimizi sübut edir. Göründüyü kimi, Qərbi Azərbaycanın XIX əsr tarixinə aid olan rus mənbələrində verilən fikir və məlumatlar, dini işlərlə məşğul olan zümrə və təbəqələrin sayı, ailə tərkibi müxtəlifdir. Bölgə əhalisinin varlı təbəqəsi ilə kasıb təbəqəsi arasında olan fərqlər də bu dövrdə özünü qabarıq şəkildə göstərirdi.

Yeri gəlmişkən, bu dövr rus müəlliflərinin böyük əksəriyyəti öz əsər və məqalələrində əsas diqqəti təmsil etdikləri dövlətin – Rusiyanın siyasətinə yönəldirdilər. Müəyyən təhrif və yanlışlıqlara yol verən bu müəlliflər erməni və ermənipərəst adamların verdiyi məlumatlara söykənir və bu əsasda yazılar yazırdılar. Müəlliflərin öz şəxsi ictimai-siyasi maraqlarına xidmət edən bu əsər və məqalələrdə göstərilən fakt və rəqəmləri olduğu kimi qəbul etmək düzgün olmaz. Yerli xalqın dilini bilməyən rus araşdırıcıları, tədqiqatçıları, tarixçiləri, səyyahları və b. tarixi hadisə və proseslərin əsil mahiyyətini açmağa o qədər də can atmırdılar. Bu da reallıqdan uzaq olan və qeyri-obyektiv elmi əsərlərin yaranmasına gətirib çıxarırdı. Lakin ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna etməklə rus müəlliflərinin bu əsərləri XIX əsr Qərbi Azərbaycanın tarixi üçün əvəzsiz mənbələrdir.

Beləliklə, ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna edilməklə, rus mənbələri Qərbi Azərbaycanın tarixinə dair zəngin məlumatlar əks etdirməsi baxımından çox qiymətli və sanballı mənbələrdir.

ƏDƏBİYYAT

1. Григорев, В.Г. Статистическое описание Нахичеванской провинции // – СПб.: – 1833. – 263 с.
2. Никитин, К. Город Нахичеван и Нахичеванский уезд. СМОМПК, – вып.2, отдел 1. – Тифлис: Издание Управление Кавказского Учебного Округа, – 1882. – стр.109-142.

3. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. – СПб.: часть IV, – 1836. – 401 стр.
4. Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединение к Российском империи // – СПб.: 1852. – 1231 s.

SUMMARY

Yashar Rahimov

AZERBAIJAN RUSSIAN SOURCES OF THE SOME NOTES ON THE NUMBERS AND COMPOSITION OF FAMILIESRELIGIOUS WORKERS IN WESTERN XIX CENTURIES

The article examines the number of religious strata and the composition of families in Western Azerbaijan in the 19th century. based on Russian sources. Study of Western Azerbaijan Russian sources of the 19th century. occupy a significant place. In these sources, together with different aspects of the history of Western Azerbaijan, we also see social facts. The number and composition of families especially those who lived at that time in the city of Irəvan and in the mahals of the Irəvan province attracted the attention of different religious strata of the population.

Key words: *Western Azerbaijan, source, religious Irəvan province, region, author*

QƏRBİ AZƏRBAYCAN VƏ DEPORTASİYA EDİLMİŞ AZƏRBAYCANLILAR (XX ƏSR)

Qadir ƏKBƏROV
ekberovqadir4@gmail.com
Orcid İD: 0009-0005-8693-9338
Naxçıvan Dövlət Universiteti

Tarixi Azərbaycan torpaqlarına, istər orta əsrlərdə, istərsə də XIX əsrdə köçürülmüş xalqların nümayəndələri assimilyasiyaya uğrayaraq azərbaycanlılara məxsus adət-ənənələr çərçivəsində öz həyat şəraitlərini qurmuşlar. Lakin müxtəlif yollarla, ən əsası isə Rusiyanın vasitəsilə Cənubi Qafqazda yerləşdirilmiş ermənilər azərbaycanlılara məxsus olan maddi və mənəvi sərvətlərə sahib çıxmağa çalışmışdılar. Hələ XIX əsrin I yarısından Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdırılmış ermənilər İrəvan, Naxçıvan və Qarabağın bir çox kəndlərində və şəhərlərində Azərbaycan türklərinə qarşı qanlı cinayətlər və terrorçuluq əməlləri törətmişlər.

Ən əsası isə bölgənin yerli, Azərbaycan türklərinə qarşı deportasiya siyasəti aparmışılar. Bu kimi məsələlər haqqında məqalədə məlumat verilir. Araşdırmada xüsusi olaraq aydın olur ki, SSRİ adlanan dövlətin ərazisində birlikdə yaşadıqları vaxtlarda mərkəzi hakimiyyətin bu iki millətə münasibəti fərqli olmuşdur. SSRİ rəhbərliyi bütün hallarda ermənilərı dəstəkləmiş, onlara geniş hüquqlar verilməsini Azərbaycan rəhbərliyindən tələb etmişdir. Lakin Qərbi Azərbaycan torpaqlarında-Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların hüquqları tapdalanmış, sovet rəhbərliyi isə buna heç bir reaksiya verməmişdir. 1920-ci ildə və 1929-1931-ci illərdə Azərbaycan SSR-in inzabati sərhədlərində dəyişikliklər edilmiş, əhalisinin tam əksəriyyəti azərbaycanlılar olan ərazilər Ermənistana verilmişdir.

Bu ərazilərdən isə azərbaycanlı əhali sıxışdırılmış, hüquqları pozulmuşdur. 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindən azərbaycanlıların zorla çıxarılması, xaricdən gətirilmiş erməni ailələrinin Azərbaycan torpaqlarında yerləşdirilməsi məsələsi məqalədə öz əksini tapmışdır. 1988-ci ildən başlayaraq Ermənistan SSR-dən azərbaycanlıların deportasiya edilməsi, 200 mindən artıq soydaşımızın məcburi kökçün həyatı yaşaması faktları məqalədə yer almışdır. Məqalədə erməni millətçilərinin Qərbi Azərbaycan torpaqlarında təkcə insanlara deyil, həm də mədəni abidələrə qarşı vandalizm aktları, ermənilaşdırma siyasəti faktlar əsasında diqqətə çatdırılır.

Açar sözlər: *Qərbi Azərbaycan, deportasiya, soyqırım, azərbaycanlılar, separatçılıq*

Giriş

Çox da uzaq olmayan bir tarixdə ərazisi minlərlə kvadrat kilometrlərlə ölçülən qədim oğuz ölkəsi olan Azərbaycan bir neçə yüzildən sonra – XIX əsrdə iki hissəyə parçalanmış, hər iki hissəsində yaşayan azərbaycanlılar siyasi və iqtisadi cəhətdən asılılığına düşdüyü dövlətlərin sömürgə siyasətinin qurbanına çevrilmişdir. Bu siyasət özünü təkcə iqtisadi və sosial sahədə deyil, həm də etnik qarşıdurma, ikili yanaşma, din təəssübkeşliyi kontekstində də göstərmişdir. Xüsusilə çarizmin türk müsəlman əhaliyə qarşı qeyri-səmimi davranışı istər Azərbaycanda, istər Qafqazın digər bölgələrində, istərsə də Orta Asiyada daha acınacaqlı şəkildə həyata keçirilmişdir. XIX əsrin sonlarında çar

Rusiyası daxilində baş vermiş proseslər, xarici siyasətdə olan uğursuzluqlar "xalqlar həbsxanası"nda etnik zəmində baş verən qarşıdurmalarla pərdələndirilməyə çalışılmışdı. Bu çirkin, həm də imperialist qüvvələrin əlində olduqca daha tez fəaliyyət mexanizmi olan əməl çar ideoloqları tərəfindən məharətlə istifadə olunmaqla müşahidə edilirdi. Bir zamanlar Rusiyanın Cənubi Qafqazda möhkəmləndirilməsində mühüm rol oynayan ermənilər bəhs edilən dövrdə də baş verən fitnəkarlıqlarda çarizmin əlində alətə çevrilmişdilər

Vaxtilə tarixi Azərbaycan torpaqlarında məskunlaşdırılmış haylar, nə olursa-olsun, yerləşdikləri torpaqlarda kök salmaq üçün bütün vasitələrə, o cümlədən yerli xristian dininin mənsubları olan türk məbədlərinə sahiblənmək, onların kitabələrini dəyişdirməklə özününküləşdirmək, vəfat etmış hansısa bir ermənini kilsələrin yaxınlıqlarında dəfn etməklə həmin məbədin ruhanisi obrazı yaratmaq və bu kimi, çirkin əməllərə əl atmaqdan belə çəkinməmişlər. Bölgədə Rusiyanın ən sadiq adamları kimi özlərini qələmə verən ermənilər bütün vasitələrdən istifadə etməklə məskunlaşma siyasəti həyata keçirmişdilər. Ermənilər özlərinin olmayan torpaqlara sahiblənmək istiqamətindəki fəaliyyət planlarına yerli əhalini son nəfərinədək məhv etmək, yurd-yuvalarını dağıtmaq, onlardan qalan bütün izləri silməyi də daxil etmişdilər. Çox da uzaq olmayan XX yüzilliyin əvvəllərinə nəzər salmaqla onların necə qaniçən və vandal qövm olduğunu müşahidə edirik. 1917-ci ildə Rusiyada hakimiyyət çevrilişindən sonra yaranmış daxili siyasi vəziyyətdən istifadə edən ermənilər hələ XIX əsrdən köçürüldükləri torpaqlarda saylarının az olduqlarını görüb əlavə yerlərdən erməni millətindən olan soydaşlarını tarixi Azərbaycan torpaqlarına – Zəngəzura, Göyçəyə, Sürməliyə, Naxçıvana, İrəvana, Qarabağa köçürməyə sövq edirdilər. Lakin onlar köçürmə həyata keçirməmişdən əvvəl etnik təmizləmə siyasəti apararaq, azərbaycanlıların yaşadıqları kəndləri talan edir, əhalisini kütləvi şəkildə qırğınlara məruz qoyurdular. Bəzi faktlara nəzər salmaqla ermənilərin Cənubi Qafqazda, o cümlədən Azərbaycan torpaqlarında zaman-zaman artdığına diqqət yetirək. Aparılmış tədqiqatlar göstərir ki, XIX əsrin sonları, XX əsrin əvvəllərində Göyçə mahalında 88,718 min nəfər əhalinin 74,3%-i (66.653 min nəfəri), Sürməli qəzasının 99, 056 min nəfər əhalisinin 63,6 % müsəlmanlardan, yəni Azərbaycan türklərindən ibarət olmuşdur. 1896-cı ildə İrəvan şəhərində yaşayan 14,7 min nəfər əhalinin 7, 2 min nəfərini, yəni 49%-ni azərbaycanlılar, 7,1 min nəfərini, yəni 48 %-ni ermənilər təşkil etmişdir [9, s. 61].

Ermənilərin özgə torpaqlarında yerləşmələri və "yersiz gəldi, yerli qaç" prinsipini reallığa çevirmələri Azərbaycanın 1905-1907-ci illəri əhatə edən tarixinə də öz imzasını atmışdır. Bu dövrün tarixi faktlarını özündə əks etdirən onlarla sənədlər, arxiv materialları, dövrlə bağlı aparılmış tədqiqatlar, yazılmış dissertasiyalar mövcuddur ki, bu mənbələrdə erməni qəddarlığı öz əksini tapmışdır. Bəhs olunun dövrdə yaşamış M.S.Ordubadinin "Qanlı illər" əsəri və Mir Möhsün Hacı Mirəhməd oğlu Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərləri ermənilərin azərbaycanlılara qarşı aparmış olduqları qətliamların və onların yurd-yuvalarından didərgin salınmaları ilə bağlı faktların üzə çıxarılması baxımından son dərəcə əhəmiyyətlidir. M.S.Ordubadi öz əsərində 1905-ci ildə İrəvan ətrafında baş vermiş kəndlərdəki qırğınlar və azərbaycanlıların ev-eşiklərini tərk edərək başqa kəndlərə pənah aparmaları barədə yazmışdır: "İyun ayının 3-

də (1905-ci il) sübh zamanı Güllücə kəndinin şimal tərəfində yerləşən 14 para kənddən ki, hər biri dörd yüz evə yaxındır, 10 minə qədər könüllü erməni əsgəri cəm olub və cənub tərəfdə uca dağ dalındakı beş yüz evli Başkeni adlı erməni kəndindən hücum edib Güllücə kəndini nişana almaqla güllə yağdırırdılar. Güllücədə olan islam əhalisi silahsız olduqlarına görə qaçıb kəndi ermənilərin işğalına verirlər. Camaat artıq kənddən uzaqlaşandan sonra, sərvət və dövlət ilə məşhur olan Məşədi Qənbər, Mahmud, Hacı Hüseyn və başqaları - 15 nəfər mallarını mühafizə üçün kənddə qalıb silah götürməklə səkkiz ermənini qətl edirlər. Nəhayət, ermənilər Mahmudu öldürüb, kənd içində sahibsiz buraxılmış bir qadını da səkkiz güllə yarasıyla qətl və edam edirlər. Qalan müsəlmanlar qaçıb verst yarım məsafədə olan Tutya, Damagirməz, Kamal adlı islam kəndlərinə pənah aparırlar" [11, s.41]. M.S.Ordubadinin qələmə aldığı əsərdə bu kimi faktlar geniş əks olunmuşdur.

Dövrün digər şahidlərindən olan M.M.Nəvvab "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri" adlı əsərində Qərbi Azərbaycanda ermənilərin törətdiyi qırğınlar barədə yazırdı: "İrəvan şəhərinin müsəlmanlar yaşayan 80 evdən ibarət məhəlləsinin ermənilərlə iğtişaşı baş verib. Bu iğtişaşın başlanmasına səbəb olan ermənilər həmin məhəllədə müsəlmanların imarətlərini güllələbaran etməyə başladılar. Əhvalatdan xəbərdar olan ermənilər müsəlmanların evlərinə doluşub, onların mal-dövlətini qarət etməyə başladılar. Fürsət tapıb qaça bilməyən beş nəfər övrət və üç nəfər uşaq bir evin küncünə qısılaraq qorxudan titrəyə-titrəyə ağlayırdılar. Ermənilər əllərinə düşən kitablara və Qurani-Kərimə od vurub yandırdılar. Ermənilərin qoca qadın və kişilərə, eləcə də uşaqlara etdikləri zülmü qələmə almaq çox çətindir [8, s.15].

Göründüyü kimi, XX əsrin ilk onilliyində çar Rusiyası daxilində baş verən proseslər Rusiyanın ucqarlarında etnik zəmində qarşıdurmalara yol açmışdı.Rusiyada və eləcə də, Cənubi Qafqazda yaranmış hərbi siyasi vəziyyət bölgədə yeni geosiyasi reallıqların yaranmasına gətirib çıxarmışdı. 1917-ci il oktyabr çevrilişindən sonra Rusiyanın həm beynəlxalq müstəvidə, həm də ölkə daxilindəki ictimai-siyasi vəziyyəti regionlarda baş verən siyasi proseslərə ciddi yanaşılmasına imkan vermirdi. Cənubi Qafqazda baş qaldırmış milli dirçəliş prosesinin qarşısı alınmaz hala gəlmişdi. Belə ki, azərbaycanlılar, gürcülər və ermənilər əvvəlcə Cənubi Qafqaz Seymində birləşmiş, sonradan isə ayrılıb müstəqil dövlətlərini yaratmışdılar. Yalnız öz hüquqi sərhədləri daxilində yaşayan azərbaycanlılardan fərqli olaraq, ermənilər yenə çirkin niyyətlərini gizlətməmiş, azərbaycanlı əhalinin kompakt yaşadığı, lakin 1918-ci ildə yeni yaranmış Daşnak Ermənistanının əraziləri daxilində olan tarixi Azərbaycan torpaqlarında etnik təmizləmə siyasəti aparmışlar. Onlar Zəngəzurda, İrəvanda, Göyçə mahalında yüzlərlə müsəlman türklərin – azərbaycanlıların yaşadıqları kəndləri yandırmış, əhalisini yurd-yuvasından qovmuş, minlərlə günahsız mülki əhalini qətlə yetirmişlər. Onlarla faktlardan biri olan 1919-cu ilin yanvarın 23-dən aprelin 13-ə qədər olan dövrdəki erməni vəhşiliklərinə nəzər salanda görürük ki, Ermənistan silahlı qüvvələrinin həyata keçirdikləri qırğnlar nəticəsində yanvar ayında Göyçə mahalında 22 kənd, aprel ayının 12-13-də 21 kənd (əhali sayı 60 min nəfərdən artıq) darmadağın edilmişdir. Yeni Bəyaziddə aprel ayının 12-13-də 84 müsəlman kəndi dağıdılmış, əhalisi isə məhv edilmiş, didərgin salınmışdır [9, s.69].

Bu kimi faktlar sübut edir ki, azərbaycanlılar hələ XX əsrin əvvəllərində kütləvi şəkildə erməni terrorunun, Ermənistan siyasi rəhbərliyinin qurbanlarına çevrilmişlər. Azərbaycan və Ermənistan sovetləşdikdən sonra da erməni millətçiləri antiazəbaycan siyasətini davam etdirmiş, tarixi Azərbaycan torpaqlarından azərbaycanlıların deportasiyasını reallaşdırmışdılar. Ermənilərin xəstə təxəyyülünün istehsalı olan "Böyük Ermənistan" ideyasını daşnaklar bir vaxtlar çar Rusiyasının müstəmləkəçilik siyasəti daxilində reallaşdıra bilmədiklərindən, bolşeviklərin hakimiyyəti illərində "böyük sovetlər ailəsi" çərçivəsində "dövlət"qurmağa çalışmışdılar. Çünki ermənilər öz yaltaq və ikiüzlü hərəkətləri ilə sovet hakimiyyəti illərində də lazımi işlərlə təmin edilmiş, imperialist siyasətin ən təhlükəli aktyorları olmuşdular. Tarixi saxtalaşdırmaq, təhrif etmək və Ermənistanda Azərbaycan mənşəli toponimləri ermənileşdirmək, süni surətdə Ermənistanı monoetnik dövlətə çevirmək ermənilərin yeritdiyi siyasətin tərkib hissəsini təşkil etmişdi.

Əslində Azərbaycan ərazisi Sovet Rusiyası tərəfindən bir növ hərraca çıxarılmışdı. 1920-ci il avqustun 18-də Şuşada Zəngəzur qəza və sahə İnqilab Komitələrinin fəal iştirakı ilə Zəngəzur və Qarabağ nümayəndələrinin qurultayı keçirilmişdi. Bu qurultayda sovetlərin təkidi və təklifi ilə gələcəkdə ermənilərin bu torpaqları daha asan yolla ələ keçirə bilmələri üçün Zəngəzur iki hissəyə – Bərgüşad (Aşağı Zəngəzur) və Gorus (Yuxarı Zəngəzur) rayonlarına parçalanmışdı. Beləliklə, Yuxarı Zəngəzurun Azərbaycandan ayrılmasının əsası qoyulmuşdu. Bununla da Sovet Rusiyası Ermənistan və Azərbaycan arasında mübahisəli məsələlərin həllindən Azərbaycanı kənarlaşdırmış, onu təmsil etməyi öz üzərinə götürmüşdü. Sovet Rusiyası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsi layihəsi hazırlanarkən Azərbaycanın hüquqları pozulmuş, Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi planlaşdırılmışdı [4, s.310].

Ermənistanın hərbi təcavuzu nəticəsində hələ 1918-ci ildə Qərbi Azərbaycan torpaqlarının bir hissəsini əhatə edən kecmiş İrəvan quberniyası ərazisində, əvvəlcə "Antanta" dovlətlərinin birbaşa təzyiqi ilə yaradılan və sonra isə 1920-ci ilin noyabrında Sovet Rusiyası tərəfindən ələ keçirilən bu qondarma "dövlətin" ərazisindən və Azərbaycan Respublikasının işğal olunmuş 17004 kvadrat kilometr torpaqlarından 1010000 azərbaycanlı deportasiya və etnik təmizləməyə məruz qaldı, 30000 nəfər həlak oldu, 60000 nəfər şikəst və əlil oldu, 200000 nəfər yaralandı [3, s.157].

1921-ci ilin II yarısında Yuxarı Zəngəzur–Gorus Ermənistanın əlinə keçdi. Azərbaycanlılar buradan sıxışdırılaraq öz doğma torpaqlarından didərgin salındılar (4, s. 312).

1929-cu ildə yenidən 13 min hektar Azərbaycan ərazisi – Nüvədi, Tuğut və Ernazar kəndləri, habelə Naxçıvandan 9 kənd (582,9 des.), Qaymaqlı və Kürümüzlü arasında sahələr (228,9 ha) Ermənistana verildi. 1938-ci ildə Ermənistanla Azərbaycan arasında sərhəddi dəqiqləşdirmək bəhanəsi ilə "bərabərtərəfli" komissiya yaradıldı. Azərbaycan tərəfdən də komissiyaya torpaq komissarlığının sədri erməni İsaxanyan rəhbərlik edirdi. Martın 5-7-də imzalanmış protokola əsasən, Laçının Qaragöl yaylası, Qubadlının Çayzəmi adlanan sahəsi, Qazaxın Kəmərli kəndi və Kəlbəcərin Zod sahəsi Ermənistana verildi. Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 5-də bu protokolu təsdiq etdi. Lakin buna

baxmayaraq, azərbaycanlılar müqavimət göstərir, öz torpaqlarını əldən vermək istəmirdilər [4, s. 313].

Erməni millətçiləri, nə olursa-olsun, Ermənistanda etnik ermənilərin say üstünlüyünü artırmaq məqsədilə SSRİ hüdudlarından kənarda yaşayan ermənilərin köçürülməsi məsələsini daim diqqət mərkəzində saxlamışdılar. Bu işdə onlara əsas kömək Sovet rəhbərliyi tərəfindən edilirdi. Onlar İkinci Dünya müharibəsinin gedişində və sonunda köçürülmə məsələsini daha da aktiv şəkildə ortaya qoymuşdular. SSRİ rəhbəri İ.V.Stalinin bu məsələdə ermənilərə dəstək verməsi ermənilərin əl-qolunu daha da açmışdı.

22 fevral 1946-cı ildə Sov.İKP MK-nın Siyasi Bürosu SSRİ Xalq Komissarları Sovetinin hazırladığı "Ermənilərin xaricdən Sovet Ermənistanına köçürülməsinin praktiki tədbirləri haqqında" layihə təsdiq edilimiş, ermənilərin xaricdən Ermənistana axınına start verilmişdi. 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İraq, Bolqarıstan və Rumıniyadan 50 min 900 nəfər erməni immiqrasiya edilmişdi. 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35,4 min nəfər erməni qəbul edilərək Ermənistanda yerləşdirilmişdi. Ümumiyyətlə, 1946-1949-cu illərdə xarici ölkələrdən Ermənistana 96 min erməni köçürülmüşdü ki, onların da xeyli hissəsi İrəvanda və onun ətraf bölgələrində məskunlaşdırılmışdı [10]. Yaxın Şərqdə cərəyan edən siyasi proseslərdən də öz xeyirləri üçün istifadə edən ermənilər imkan tapdıqca Ermənistana pənah aparmış, qovulmuş azərbaycanlıların ev-eşiklərində məskən salmışlar. Bu istiqamətdə ermənilərin atdıqları addımlardan biri Fələstin-İsrail münaqişəsinə təsadüf etmişdir. Fələstin-İsrail müharibəsi zamanı və ondan sonrakı illərdə (1947-1948-ci illər ərzində) Fələstindən Ermənistana kütləvi köç etmişdilər. Təkcə 1947-ci ildə 1500 erməni Sovet Ermənistanına köç etmişdir [6, s. 21, 118]. Sovet İttifaqının, onun xüsusi xidmət orqanlarının və xaricdə fəaliyyət göstərən müxtəlif erməni təşkilatlarının yaxından köməyi və apardıqları təbliğat vasitəsi ilə xarici ölkələrdə yaşayan ermənilərin az qismini inandıra bilmiş və bunun nəticəsində 1947-ci ilə qədər 85.787 nəfər Ermənistan SSR-ə köçürülüb gətirilmişdir [7, s.74].

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. 10 mart 1948-ci il tarixdə SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il tarixli qərarına əlavə olaraq, İ. Stalinin imzası ilə 754 nömrəli ikinci qərar qəbul etmişdi. Bu qərarda isə köçürmə ilə əlaqədar olaraq SSRİ hökumətinin, habelə Azərbaycan və Ermənistan nazirlər sovetlərinin qarşısında konkret tədbirlərin həyata keçirilməsi vəzifəsi qoyulmuşdu. Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürmənin şərtləri və köçürülənlərə dövlət tərəfindən güzəştlər haqqında izahat işləri aparılsın [7, s. 82].

1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P Mərkəzi Komitəsi "Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1949-cu illərdə Ermənistan SSR-dən 4674 təsərrüfat (təqribən 20000 nəfər) köçürülmüşdür (10). Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevinin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR

ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında" və 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanları azərbaycanlıların öz ata-baba yurd yerindən didərgin salınmaları ilə bağlı çox qiymətli və tarixi addım olmuşdur.

Ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli imzaladağı fərmanda göstərilir ki, "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repreesiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələri və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az olmamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbacanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən əlli il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir"[1].

Deportasiya olunanların 30 faizə yaxını Stalinin ölümündən sonra viran qoyulmuş, xarabazara çevrilmiş yurdlarına qayıda bildilər. Amma geri qayıdan azərbaycanlılar Ermənistan SSR rəhbərliyinin xüsusi göstərişləri əsasında incidilir, öz ev-eşiklərində yenidən yaşamalarına süni əngəllər törədilirdi. Geri qayıdanları Ermənistan SSR-də qəbul etmək, qeydiyyata götürmək qadağan edilir, onların ev tikmək, təsərrüfat yaratmaq və s. hüquqları əllərindən alınırdı [7, s. 111]. Köçürülmə sonrakı illərdə də davam etdi. 1954-1956-cı illərdə etnik təmizləmənin növbəti mərhələsi keçirildi. 1316 təsərrüfat, 5876 nəfər azərbaycanlı Ermənistandan deportasiya edildi [5].

Bu da son mərhələ olmadı. Yerli əhalinin evini, torpaqlarını əlindən almaq niyyətlərini ermənilər sonralar daha amansızlıqla və qəddarlıqla başa çatdırdılar. 1988-ci il feralın 19-dan etibarən İrəvanda, 1987-ci ilin noyabrından etirazlar şəkilndə ortaya çıxmış kütləvi mitinqlərin yeni dalğası başlanır. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürürdülər. Mitinqlərin üçüncü günü İrəvanda salamat qalmış yeganə məscid binası (XX əsrin əvvələrində şəhərdə 8 məscid olmuşdur) və azərbaycanlı orta məktəbi, C.Cabbarlı adına İrəvan Azərbaycan Dram Teatrının ləvazimatı yandırıldı. İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vurdular. Münaqişəni daha da alovlandırmaq və onun doğurduğu dağıdıcı prosesləri qarşısıalınmaz hala çevirmək üçün 1988-ci il fevral ayının 28-də Mərkəzin və Ermənistanın xüsusi xidmət orqanlarının birgə işləyib hazırladığı Sumqayıt təxribatı törədildi. Sonralar

L.Ter-Petrosyan öz müsahibələrinin birində demişdi ki, Sumqayıt hadisələrindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü. Əgər ölkə rəhbərliyi bu məqamdan istifadə edib DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar çıxarsaydı, Azərbaycan xalqı buna etiraz edə bilməyəcəkdi. Bu sözlər aydın sübut edir ki, Sumqayıt faciəsi ermənilərə öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım olmuşdur. Lakin Moskvanın, onun Azərbaycana və Ermənistana göndərilmiş emissarlarının ikiüzlü mövqeləri (Y.Liqaçov Azərbaycanda, A.Yakovlev Ermənistanda) erməni millətçilərinin öz bədnam niyyətlərini həyata keçirmək ümidlərini artırırdı. Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan 200 mindən artıq azərbaycanlıları oradan çıxarmaq Qarabağ məsələsini həll etmək qədər vacib idi. 1988-ci ildə isə respublika rəhbərliyi azərbaycanlıların təhlükəsizliyinin qorunmasına təminat verməməklə, onlar arasında vahimə və qorxu yaradaraq Ermənistandan deportasiya edilməsinə başlayır [2, s. 59; 3, s. 110].

Nəticə

XIX yüzillikdən başlayaraq tarixi Azərbaycan torpaqlarında məskən salmış ermənilər zamanla özünün olmayan torpaqlarda erməni xislətini gizlətməmiş, yurdlarında məskən saldıqları azərbaycanlılara qarşı ləyaqətsiz davranmış, onların əmlakına, milli-mədəni irsinə göz dikmiş, insanlığ qarşı ən qatı cinayətlər törətmişlər. Qərbi Azərbaycanda 1918-1920-ci illərdə ermənilərin havadarları öz geosiyasi maraqları çərçivəsində "Ermənistan" adlanan dövlət yaratmaqla ikiüzlü erməni millətçilərinin dəyirmanına su tökmüşlər. Onlar XIX əsrin sonlarında, 1905-1907, 1918-1920, 1920-1930, 1947-1954, 1988-1992-ci illərdə azərbaycanlılara qarşı etnik təmizləmə və digər cinayətlər törətmişdilər. 1920-ci ildən yaradılan Ermənistan SSR və SSRİ-nin dağılmasından sonra yaradılmış Ermənistan Respublikasının siyasi rəhbərliyini təmsil edən şəxslər bütün beynəlxalq hüquq normalarını pozmalarına baxmayaraq cəzasızlıq mühitindən yararlanaraq azərbaycanlılara, Azərbaycan Respublikasına qarşı çirkin və məkrli məqsədləri üçün sülh və insanlıq əleyhinə, müharibə və terrorçuluq aktları törətmişdilər. "Ermənistan" adlanan Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların zorla çıxarılması ilə paralel olaraq onlara məxsus olan tarixi abidələr, qəbir daşları, qəbirüstü daş qoç abidələri, memarlıq abidələri, qədim tikililər, müsəlman memarlığını özündə əks etdirən bütün tikililər, o cümlədən məscidlər, xatirə abidələri, epiqrafik abidələr, epitafiyalar erməni vandalizminin qurbanı olmuşdur. Göründüyü kimi, Ermənistan Respublikasının 200 mindən çox azərbaycanlını öz el-obasından didərgin salması, onların tarixi irsinin məhv edilməsi beynəlxalq aləmdə qəbul edilmiş insan və vətəndaş hüquqları ilə bağlı qəbul edilmiş qərarların kobudcasına pozulmasının əsas göstəricisidir.

ƏDƏBİYYAT

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://e-qanun.az/framework/4099)
2. Arzumanlı, V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq.-– Bakı: Qartal, – 1998.– 280 s.

3. Azərbaycan Respublikasının tarixi (1991-2003). 1-cild. Heydər Əliyev dövrü. – Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, – 2016. – 704 s.
4. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli). – Bakı: "Bakı Universiteti" nəşriyyatı, – 2010, – 545 s.
5. Fərəcova Z. Ermənistanın Qərbi Azərbaycanda həyata keçirdiyi separatizmin faciələri. "Azərbaycan" qəz. – 2017-ci il. 19 dekabr
6. Qasımlı, M.C., Kəlbizadə, E.H., Baxçıyeva, Y.Ü. Ermənistan İsrail dövlətinin Cənubi Qafqaz siyasətində (1991-2021-ci illər). – Bakı: Mütərcim, – 2022. – 200 s.
7. Qurbanlı Ə.S. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər). – Bakı: – 2018. – 168 s.
8. Mir Möhsün Nəvvab. "1905—1906-cı illərdə erməni-müsəlman davası". – Bakı: Azərbaycan, – 1993, – 128 s.
9. Mustafayev A.N. Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan. Bakı:ADPU-nun nəşriyyatı, – 2013. – 194 s.
10. Nazim Mustafa. Azərbaycan xalqına qarşı böyük ədalətsizlik – 1948-1953-cü illər deportasiyası. Xalq qəz. 2022-ci il, 23 dekabr
11. Ordubadi, M.S. Qanlı illər. – Bakı: "Qafqaz" nəşriyyat evi, – 2007, – 184 s.

SUMMARY

Gadir Akbarov

WEST AZERBAIJAN AND DEPORTED AZERBAIJANS (XX CENTURY)

The representatives of the peoples who were transferred to the historical lands of Azerbaijan, either in the Middle Ages or in the 19th century, assimilated among the local community of the region and built their own living conditions within the framework of traditions belonging to Azerbaijanis. However, in various ways, most importantly, through Russia, the Armenians placed in the South Caucasus tried to take ownership of the material and spiritual resources belonging to the Azerbaijanis. Since the first half of the 19th century, Armenians, who have been massively settled in Azerbaijan, have committed bloody crimes and acts of terrorism against Azerbaijani Turks in many villages and cities of Iravan, Nakhchivan and Karabakh.

Most importantly, they carried out a policy of deportation against the local Azerbaijani Turks of the region. Such issues are reported in the article. In the research, it is particularly clear that the attitude of the central government towards these two nationalities was different when they lived together in the territory of the so-called USSR. The leadership of the USSR supported the Armenians in all cases and demanded from the leadership of Azerbaijan to grant them wide rights. However, the rights of Azerbaijanis living in the lands of West Azerbaijan - the territory of the Armenian SSR-were violated, and the Soviet leadership did not react to this. In 1920 and 1929-1931, changes were made in the administrative borders of the Azerbaijan SSR, and the territories where the majority of the population were Azerbaijanis were given to Armenia.

The Azerbaijani population was displaced from these areas and their rights were violated. In 1948-1953, the issue of forced removal of Azerbaijanis from the territory of the

Armenian SSR, settlement of Armenian families brought from abroad in the lands of Azerbaijan is reflected in the article. The facts of the deportation of Azerbaijanis from the Armenian SSR starting from 1988 and the fact that more than 200,000 of our compatriots lived a life of forced exile were included in the article. In the article, the acts of vandalism of Armenian nationalists against not only people, but also against cultural monuments, the policy of Armenianization in the lands of West Azerbaijan are brought to attention on the basis of facts.

Key words: *Western Azerbaijan, deportation, genocide, Azerbaijanis, separatism*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜ ZƏNGƏZURDA ERMƏNİ TERRORU VƏ DEPORTASİYALARI

Şamxal MƏMMƏDOV
shamkhal.mammadov@gmail.com
Naxçıvan Dövlət Universiteti

Məqalədə qeyd olunur ki, Rusiya imperiyasının dağıldığı və Cənubi Qafqazda böyük xaosun olduğu illərdə bir sıra səbəblər üzündən ermənilər regionda ən böyük hərbi qüvvələrə malik idilər. Bura AXC hökumətinin yol verdiyi səhvləri və çoxsaylı havadarlarının ermənilərə verdikləri hərbi-siyasi dəstəyi də əlavə etsək, erməni terroru və deportasiyaları üçün əlverişli şərait mövcud idi.

1917-ci ilin sonları - 1918-ci ilin əvvələrində Zaqafqaziya Komissarlığının və Qafqaz cəbhəsinin baş komandanı general E.Lebedinskinin ermənipərəst mövqeyi nəticəsində erməni əhalisi kütləvi surətdə silahlandırıldı və erməni könüllülərindən ibarət xüsusi korpus yaradıldı ki, onun da komissarı daşnak generalı Dro təyin olundu. Digər erməni generalları - Andranik, Njde, Hamazasp və başqalarının başçılıq etdikləri daşnak hərbi hissələri Cənubi Qafqazda, o cümlədən Zəngəzurda türk müsəlman əhalisinə qarşı terror və deportasiyalara start verdilər. Bunun da nəticəsində 1918-1920-ci illərdə Zəngəzurda 115 kənd dağıdılıb talan edildi. Cənubi Qafqazın sovetləşməsindən sonra da Zəngəzurda erməni terroru bitmədi. Əksinə, bolşevik-erməni iş birliyi nəticəsində 1920-ci ilin yayında Zəngəzur torpaqlarının böyük bir hissəsi Ermənistana verildi. Nəticədə Naxçıvan torpaqları eksklav vəziyyətinə düşməklə bərabər, Zəngəzurdan azərbaycanlı əhalinin qovulması üçün münbit şərait yarandı, gələcək erməni terroru və deportasiyalarının təməli qoyuldu.

Açar sözlər: *erməni terroru, deportasiya, Zəngəzur qaçqınları, Njde, Dro, Biçeraxov*

Zəngəzur-Cənubi Qafqazın mühüm strateji və təbii sərvətlərlə zəngin bölgələrindən biridir. Ona görə də tarixən Azərbaycan xalqına məxsus bu torpaqlar zaman-zaman erməni millətçi-ekspansionist dairələrinin hədəfində olmuşdur. AXC-nin mövcud olduğu 1918-1920-ci illər dövrü də bu baxımdan istisna deyildir.

Araşdırmalar göstərir ki, Rusiya imperiyasının dağıldığı və Cənubi Qafqazda böyük xaosun yaşandığı həmin illərdə bir sıra səbəblər üzündən ermənilər regionda ən böyük hərbi qüvvələrə malik idilər.

Məlum olduğu kimi, Çar Rusiyasının azərbaycanlı təbəələrindən fərqli olaraq, ermənilər imperiya ordusunda xidmət edirdilər. I Dünya müharibəsi illərində Qafqaz cəbhəsində on minlərlə təlim görmüş və silahlanmış erməni əsgər və zabiti döyüşürdü. Çarizmin devrilməsindən sonra 1917-ci ilin dekabrında bağlanmış Brest-Litovsk barışıq müqaviləsindən sonra Türkiyə cəbhəsindən qayıdan minlərlə təpədən-dırnağa qədər silahlanmış erməni və rus əsgərləri Cənubi Qafqaz regionunun dəmiryolları boyunca səpələnmişdilər. Bu qüvvələr aclıq, səfalət və xaosun hökm sürdüyü Rusiyaya getməyə tələsmirdilər. Daşnak liderləri öz maraqları naminə onlardan istifadə etməyi nəzərdə tuturdular. Erməni dini-siyasi liderləri Bakıda, eləcə də Azərbaycanın digər bölgələrdə milli qüvvələri əzmək, "Sovet hakimiyyəti qurmaq" adı altında regionda nəzarəti ələ keçirmək, "Böyük Ermənistan" xülyalarını reallaşdırmaq istəyirdilər. "Bu məqsədlə

təxminən 5 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. "Qırmızı qvardiya" adlandırılan 10-12 minlik ordunun da 70 faizi erməni idi" [1, s.326]. Bununla yanaşı, Zaqafqaziya Komissarlığı hökumətinin göstərişi ilə Cənubi Qafqazın bütün erməni əhalisi başdan-başa silahlandırılmışdı. Əli silah tuta bilən hər bir ermənіyə silah və külli miqdarda patron verilmişdi. Qafqaz cəbhəsinin baş komandanı general E.Lebedinski də eyni mövqe nümayiş etdirərək ermənilərdən ibarət könüllü korpus yaradılması barədə sərəncam vermişdi. Erməni Milli Şurasının təkidi ilə daşnak generalı Dro (Drastamat Kanayan) həmin korpusun komissarı təyin edilmişdi [5, s.11].

Nəticədə Azərbaycan türklərinə qarşı çevrilmiş və bütün regionu bürüyən kütləvi qırğınlar, talanlar, qəddarlıq və vandalizm halları özünü çox da gözlətmədi. Digər erməni generalları - Andranik, Njde, Hamazasp və başqalarının başçılıq etdikləri daşnak hərbi hissələri tərəfindən Cənubi Qafqazın digər yerləri kimi, Zəngəzurda da türk-müsəlman əhalisinə qarşı terror və deportasiyalara start verildi.

1918-ci ilin yazında və yayında Bakı quberniyasını "bolşevik" S.Şaumyanın birbaşa göstərişi ilə erməni terroru bürüdü. Türkiyə ordusundan fərarilik etmiş, Antanta və Rusiyanın silahlandırdığı general Andranik Ozanyanın quldur birləşmələri Cənubi Azərbaycanın Xoy, Salmas, Təbriz, Urmiya kimi əyalətlərində görünməmiş qırğınlar, talanlar və dağıntılar törətdi. Həmin ilin yayında və payızında Andranikin dəstələri Naxçıvan, Qarabağ və Zəngəzuru oddan və qılıncdan keçirdi. Bütün bunların nəticəsində isə az bir müddətdə yerli azərbaycanlı əhali demək olar ki, həmin ərazilərdən tamamilə və ya qismən köçməyə məcbur edildi. Xüsusilə Zəngəzurdan böyük köç dalğası başlandı və çoxminli qaçqınlar təbəqəsi meydana çıxdı.

Bura AXC hökumətinin yol verdiyi səhvləri və çoxsaylı havadarlarının ermənilərə verdikləri hərbi-siyasi dəstəyi də əlavə etsək, erməni terroru və azərbaycanlı əhalinin deportasiyaları üçün əlverişli şərait mövcud idi.

"Təkcə 1918-1920-ci ildərdə Zəngəzur qəzasında erməni terroru nəticəsində 115 kənd dağıdılıb talan edilmiş, yüz minlərlə baş mal-qara və qoyun sürüləri aparılmış, 10068 nəfər çoxusu qadın və uşaqlar olmaqla öldürülmüş, 50 mindən artıq azərbaycanlı Zəngəzurdan didərgin salınmışdı" [3, s.34-36].

Daşnak quldur dəstələri tərəfindən törədilən kütləvi qırğınlar və dağıntılar bir sıra bölgələrdə əhalinin hamılıqla öz doğma yurdlarını tərk etməsi ilə nəticələnirdi. Bölgənin Gorus, Qafan kimi bölgələrində deportasiyalar Njde tərəfindən xüsusi qəddarlıqla həyata keçirilirdi. Külli miqdarda arxiv sənədləri ermənilər tərəfindən öz yurd-yuvalarından qovulmuş azərbaycan əhalisinin açınacaqlı vəziyyətini özündə əks etdirir. 1919-cu ilin payızına aid olan həmin sənədlərdən birində deyilirdi: "Demək olar ki, bütün il ərzində Zəngəzur qəzalarının ərazilərində yerli bolşevik əhvali-ruhiyyəli silahlı erməni bandit dəstələri dolaşırlar. Bu dəstələr Azərbaycan hökumətini tanımaqdan imtina edərək, azərbaycan kəndlərinə hücum edib onları dağıdır, əhalini terror edir, var-yoxdan çıxarırlar. Öz ev-eşiklərini tərk etməyə məcbur olan əhali səfil-sərgərdan vəziyyətdə qonşu qəzalarda sığınacaq axtarırlar. 60 000-dən çox müsəlman qaçqınlar indi də açıq hava altında qalaraq soyuğun və aclığın dəhşətlərini yaşayırlar" [6, v.80]. Bir qədər sonra, 1919-cu il dekabrın 3-də Şuşadan Azərbaycan parlamentinə göndərilmiş bir teleqramda

bildirilirdi: "Zəngəzurda qanlı hadisələr yenidən təkrarlanır. Ermənilər tərəfindən Çayçı və Oxçu kəndlərində 900 müsəlman öldürülmüşdür. Məscid, içərisindəki şagirdlərlə bir yerdə mərmilərlə dağıdılmışdır. 400 qadın və uşaq tikə-tikə edilmişdir. Bu dəqiqə Zəngəzurda qanlı hadisələr baş verməkdədi [7, v.108].

1920-ci il yanvarın 23-də Azərbaycan Parlamentinin üzvü Cəlil Sultanovun Parlamentin sədrinə Cəbrayıldan göndərdiyi bir teleqramda deyilirdi: "Bu gün gecə qəza rəisi ilə birlikdə Cəbrayıla gəldik. Zəngəzurdan yenicə gəlmiş və açıq səma altında gecələyən onlarla çılpaq və arıq qadınları və uşaqları gördük. Zəngəzur Erivandan gəlmiş 10 top və pulemyotlarla silahlanmış qoşunlar tərəfindən tamamilə məhv edilmişdir: Döyüşən ermənilərin sayı on minə çatır" [8, v.32].

Adı erməni faşizminin sinoniminə çevrilən general Qaregin Njde "türklərsiz Zəngəzur", "türklərsiz Ermənistan" çağırışları ilə ermənіləri silahlandırıb Azərbaycan əhalisinə qarşı amansız terrora təhrik edir, "Ruhun enerjisi" adlı kitabında yazırdı: "Günəş altında torpaqlar əldə etmək üçün biz dünyanı dəyirman kimi türklərin başına fırlatmalıyıq" [4, s.4]. Rusiyanın və ermənilərin hərb tarixində heç bir ciddi uğurları olmayan bu "general" 1918-1921-ci illərdə Şərur-Dərələyəz torpaqlarında, Naxçıvanda, Zəngəzurun Qafan, Gorus kimi bölgələrində dinc əhaliyə divan tutulmasında, onların öz doğma torpaqlarından deportasiya edilməsində böyük "uğurlar" əldə etmişdi. Bir çox müəlliflər haqlı olaraq onu Zəngəzur, Dərələyəz və digər tarixi Azərbaycan torpaqlarının "ermənіləşdirilməsinin" nəzəriyyəçisi və əsas icraçısı hesab edirlər. Bunu erməni ideoloqları da gizlətmirlər. 1989-cu ilin martında Ermənistan KP Qafan Rayon Komitəsinin I katibi S.Mkırtıçyan rayon mərkəzində Njdenin abidəsini açarkən bütün "əsgəri şücaəti" terror və deportasiyalardan ibarət olan bu qatilə bəraət qazandırmışdı: "Siz çox çalışdınız, lakin respublikanı azərbaycanlılardan təmizləyə bilmədiniz. Sizin böyük arzunuzu sizin nəvələriniz həyata keçirdi" [4, s.65].

2004-cü ildə Ermənistanın hakim Respublika partiyası tərəfindən "Qaregin Njde və onun təlimi" adlı kitab nəşr olunmuşdu. Kitabın tərtibçiləri tərəfindən erməni xalqının müqəddəs qəhrəmanı kimi təqdim olunan Njde 1919-1921-ci illərdə Zəngəzur bölgəsində azərbaycanlı əhalinin cəlladı kimi tanınmış, on minlərlə günahsız insanın məhv edilməsi işinin təşkilatçısı olmuşdu. Njde nəinki Zəngəzuru tamamilə yerli azərbaycanlı əhalidən tamamilə təmizləməyə çalışır, bunu digər erməni qatillərindən də tələb edirdi.

I Dünya müharibəsi illərində Türkiyə torpaqlarında hədsiz vəhşilikləri ilə fərqlənmiş digər daşnak generalları da Cənubi Qafqazın dinc əhalisinə qarşı törədilən soyqırım əməllərində, onların deportasiyasında, ərazilərin ermənіləşdirilməsində fəal iştirak edirdilər. Məsələn, 1918-ci ildə general Andronik Ozanyan Türkiyədən Cənubi Qafqaza geri çəkilərkən, əsasən Muş və Bitlisdən olan 30 min nəfərdən artıq erməni qaçqını onunla birlikdə gələrək Zəngəzur ərazilərində məskunlaşmışdı. Onların bir qismi Zəngəzurda qalmış, çox hissəsi İrəvan və Dərələyəz bölgələrinə köç etmişdilər. Burada onlar Andronikin dəstələrinin iştirakı ilə qovulan müsəlmanların torpaqlarında yerləşmişdilər. Məqsəd yaradılmaqda olan erməni dövlətinin etnik dayaqları olan regionu formalaşdırmaq idi. Ağır vəziyyətdə olan Zəngəzur qaçqınlarından fərqli olaraq, ermənilərin regiona yerləşdirilmiş qaçqın əhalisi müxtəlif erməni terror təşkilatlarından,

habelə öz xarici havadarlarından külli miqdarda yardım alırdılar. Bu baxımdan Andranikin ağqvardiyaçı rus generalı Biçeraxova ünvanladığı 10 dekabr 191-ci il tarixli məktubundakı faktlar diqqəti çəkir: "Zəngəzur erməni milli şurasının üzvləri A.Şiniyan, N.Osipov Bakıdan gəlmiş və 1 milyon manat gətirmişlər ki, bu barədə bizdə iltizam qoymuşlar. Adları göstərilən şura üzvləri mənə məlumat vermişdir ki, bu pulları general Baqratuninin vəsadəti ilə siz vermisiniz. Mənim dəstəmi və bədbəxt qaçqınları unutmadığınız üçün sizə dərin və səmimi minnətdarlığımı bildirirəm" [2, s.111].

Erməni əhalisinin təşkil etdiyi təpədən-dırnağa silahlanmış quldur dəstələri Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə bölgələrdə təhlükəsizliyi və əmin-amanlığı təmin etməyə imkan vermirdi. Bütün baş verənlərin hamısının da arxasında rus generallarının və bolşevik Rusiyasının maddi yardımı, silah-sursat dəstəyi və göstərişləri dayanırdı.

Çoxsaylı arxiv sənədləri göstərir ki, AXC ilə eyni zamanda yaranan daşnak Ermənistanının (Ararat Respublikasının) daxili siyasətinin prioritet istiqamətini yerli müsəlman əhalisinin məhv edilməsi və qovulması təşkil edirdi. Nəinki guya hökumətə tabe olmayan Dro, Njde, Andranik kimilərinin başçılıq etdikləri quldur dəstələri, eləcə də daşnak hökumətinin nizami ordu hissələri Azərbaycan türklərinin məhv edilməsi siyasətini həyata keçirirdilər. Sənədlərdə deyilirdi: "Əhali Ermənistanın hərbi naziri general Silikovun hərbi hissələrinin təşkil etdiyi təzyiqə davam gətirməyərək öz ev-eşiklərini tərk etmişlər" [9, v.51-52].

Cənubi Qafqazın sovetləşməsindən sonra da Zəngəzurda erməni terroru bitmədi. Əksinə, bolşevik-erməni iş birliyi nəticəsində 1920-ci ilin yayında Zəngəzur torpaqlarının böyük bir hissəsi Ermənistana verildi. Yeni yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının sərhədləri 86,6 min kv. km müəyyən edildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin 27,7 min kv.km. Azərbaycan xalqının əlindən alındı. Nəticədə Naxçıvan torpaqları eksklav vəziyyətinə düşməklə bərabər, Zəngəzurdan azərbaycanlı əhalinin qovulması üçün münbit şərait yarandı, gələcək erməni terroru və deportasiyanın təməli qoyuldu.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər) – Bakı: Elm, – 2008.
2. Musayev, İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1918-1921-ci illər). – Bakı: BDU nəşriyyatı, – 1996.
3. Xəlilov, X.D. Qarabağın etnik tarixindən // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, – 1988. № 3, – s.41-42.
4. Асадов С. Дж. Терроризм: причина и следствие. – Баку: «Азербайджан», – 2001. – 248 с.
5. Неизвестные страницы истории: Беженцы-мусульмане (1918-1920гг). – Баку: «Есопринт», – 2018. – 216с.
6. Копия телеграммы из Шуши (26) на имя Парламента от 7 октября 1919 г. // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond №277, siyahı №2, iş № 40, vərəq-57.

7. Выписка из журнала постановлений Комитета Государственной Обороны Азербайд-жанской Республики от 16 ноября 1919 года // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond № 277, siyahı № 2, iş № 40, vərəq-92
8. Копия телеграммы В.И.Ленину//Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond №609, siyahı №.1, iş №71, vərəq-43-44
9. Положение Мусульман в Армении. Газета «Азербайджан» №134 29 июня.// Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond № 277, siyahı №2, iş №57, vərəq-49-52

SUMMARY

Shamkhal Mammadov

ARMENIAN TERROR AND DEPORTATIONS IN ZANGAZUR DURING THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

It is mentioned in the article that during the years of the collapse of the Russian Empire and great chaos in the South Caucasus, Armenians had the largest military forces in the region due to a number of reasons. If we add here the mistakes made by the ADR government and the military-political support given to Armenians by numerous supporters, there were convenient situation for Armenian terrorism and deportations.

In late 1917-early 1918, as a result of the pro-Armenian position of General E. Lebedinsky, the commander-in-chief of the Transcaucasian Commissariat and the Caucasian Front, the Armenian population was massively armed and a special corps of Armenian volunteers was created, whose commissioner was Dashnak General Dro. Dashnak military units led by other Armenian generals - Andranik, Njde, Hamazasp and others started terror and deportations against the Turkish Muslim population in the South Caucasus, including Zangazur. As a result, 115 villages in Zangazur were destroyed and looted in 1918-1920 years.

Armenian terrorism did not end in Zangazur even after the sovietization of the South Caucasus. On the contrary, as a result of Bolshevik-Armenian cooperation, a large part of Zangazur lands was given to Armenia in the summer of 1920. As a result, in parallel with Nakhchivan lands becoming an exclave, fertile conditions were created for the expulsion of the Azerbaijani population from Zangazur and the foundation of future Armenian terror and deportations was laid.

Key vords: *Armenian terrorism, deportation, Zangazur refugees, Njde, Dro, Bicherakhov*

QƏRBİ AZƏRBAYCAN BÖLGƏSİNDƏ ERMƏNİSTANIN ETNİK TƏMİZLƏMƏ VƏ GENOSİD SİYASƏTİ TARİXİN İŞIĞINDA

Elçin ZAMANLI
elcinzamanli70@gmail.com
Naxçıvan Dövlət Universiteti

Batum konfransının gedişində Osmanlılar Ermənistana Azərbaycana qarşı bundan sonra heç bir ərazi iddiasında bulunmayacaqları şərti ilə Yeni Bəyazid, İrəvan, Eçmiədzin və Gümrü tərəflərindən 10 min kvadrat kilometr civarında ərazi ayırdılar. Xatisyan isə 300-400 min civarında qaçqınları olan Ermənistana bu ərazilərin yetmədiyindən şikayətlənirdi. Azərbaycan Cümhuriyyəti Qafqaz Evi konsepsiyasına sadiq qalaraq yaxın xaric dövlətlərlə, xüsusilə də Ermənistanla normal münasibətlər yaratmağa çalışırdı. Lakin sərsəm "Böyük Ermənistan" ideyasına qapılmış Ermənistan AXC ilə danışıqları pozacaq qiyam və terror vasitəsilə Qərbi Azərbaycanın kəndlərini işğal etməyə, əhalisini isə öz doğma yurdlarından didərgin salmağa başladı. Təkcə 1919-cu il boyunca Ermənistandan 150 min azərbaycanlı mal-davarı və hər cür yaşayış vasitələrindən məhrum edilmiş halda qovulmuşdular. 1920-ci ilin başlanğıcında isə bu rəqəm 160 minə qalxmışdı. Daşnakların hakimiyyətdə olduğu dövrdə Qərbi Azərbaycanda yaşamış 575000 azərbaycanlı əhalidən qısa müddətdə 565000 nəfəri genosidə və deportasiyaya məruz qalmışdır. Mövcud olan gərgin situasiyanı nizamlamaq məqsədilə 1919-cu il noyabrın 23-də Tiflisdə və dekabr ayının 14-də Bakıda təşkili baş tutan və bir həftə davam edən Azərbaycan-Ermənistan konfransında əsasən ərazi-sərhəd və qaçqınlar məsələsi, eləcə də ticarət və dəmir yollarına dair müqavilələr bağlansa da, münaqişələrin nizamlanmasına dair konkret siyasi nəticələr əldə olunmur.

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan quberniyası, Ermənistan, etnik təmizləmə, soyqırım, Zəngəzur*

Giriş

Birinci Dünya müharibəsinin sonlarına doğru ermənilər Qərbi Azərbaycan bölgələrində türk-müsəlmanlara qarşı etnik təmizləmə və genosid siyasətini həyata keçirməyə başladılar. Əvvəlcədən hazırlanmış bu planların həyata keçirilməsinə həm Qərbin, həm də Rusiyanın daxilindəki maraqlı qüvvələr geniş dəstək verirdilər. Çar Rusiyasının yıxılmasından sonra yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsi də çarizmin erməni təəssübkeşliyi ənənəsinə sadiq qalaraq İrəvan quberniyasında ermənilərin mövqeyini möhkəmləndirməyə çalışırdı. Belə ki, Xüsusi Komitə Naxçıvan qəzası üzrə iki müvəkkil - B.Maqsudov və Mxitaryantsı təyin etmişdi. Naxçıvan bölgəsində ermənilərin azlığına baxmayaraq, burada onların nümayəndələrinin də müvəkkil təyin edildiyi halda İrəvan quberniyasının böyük əksəriyyətinin azərbaycanlılardan ibarət olduğu digər qəzalarında bu nəzərə alınmamış, hətta İrəvan quberniyasının komissarı vəzifəsinə erməni Xaçaturyan təyin edilmişdi. Bu hal regiondakı siyasi şəraitin hansı istiqamətdə formalaşdığını tam aydın göstərir [Musyaev, 1998: 51-52]. Versal konfransının gedişində yeni dünya nizamını yaratmağa çalışan ABŞ və qalib Avropa dövlətləri Qərbi Azərbaycanın xeyli hissəsini yeni yaradılmış Ermənistan

respublikasına birləşdirməyə çalışırdılar. Sülh konfransında ermənilərdən fərqli olaraq, heç bir beynəlxalq dəstəyi olmayan Azərbaycan nümayəndə heyəti tərəfindən 1919-cu il avqustun 16-19-da Konfransa və Müttəfiq Dövlətlərin (Alliees) Nümayəndələrinə Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi, habelə Naxçıvan, Şərur - Dərələyəz, Sürməli qəzalarının və İrəvan quberniyasının bir hissəsinin həmin respublikanın idarəçiliyinə verilməsi ilə əlaqədar etiraz notası təqdim edilmişdi. Nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşovun Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurasının sədrinə ünvanladığı məktubundan da görünür ki, İrəvan quberniyasının bir hissəsini Müttəfiqlər həmin ərazinin türk-müsəlman əhalisindən, eləcə də Azərbaycan hökumətindən heç bir rəy almadan Ermənistana birləşdirirdilər [Topçubaşov, 1998: 31]. XX yüzilliyin əvvəllərindəki milli-azadlıq hərəkatının görkəmli araşdırıcısı Aydın Balayev də ciddi tarixi materiallara dayanaraq Türkiyənin də Azərbaycan ərazisində erməni dövlətinin yaradılmasının əleyhinə olmadığını bildirir [Rizvan, 2022]. İndi İrəvanın verilməsində cümhuriyyət başçılarını ittiham edən araşdırmaçılar həmin dövrün beynəlxalq münasibətlərini dərindən təhlil etməlidirlər. Yeri gəlmişkən qeyd edim ki, indiki Azərbaycan Respublikası otuz ildən çoxdur ki, işğal altındakı torpaqlarını azad etməsi Yaxın Şərqdə, eləcə də müasir beynəlxalq siyasi müstəvidə ağırlığı olan Türkiyə, İsrail və s. dövlətlərin strateji tərəfdaşlığı ilə mümkün olmuşdur. Sonrakı tarixi reallıq heç də Azərbaycan dövlət başçılarının Qərbi Azərbaycanın məcburi güzəştə gedilməsi ilə barışmadıqlarını sübut edir. Andranikin erməni silahlı terrorçu dəstələrinin Zəngəzuru ələ keçirməsi Ermənistan hökumətinin Dağlıq Qarabağı mübahisəli ərazi hesab etməsi artıq məcburi razılaşmanı qüvvədən salmışdı. Bunu Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin Ermənistanın Gürcüstandakı diplomatik nümayəndəsinə göndərdiyi məktubda Azərbaycan tərəfinin də İrəvan şəhərinə, İrəvan quberniyasının Eçmiədzin, Novo-Bəyazid və İrəvan qəzalarının bir hissəsinə olan hüququnu özündə saxladığını bildirməsi Versal konfransındakı böyük güclərin, eləcə də Osmanlı xarici siyasət idarəsinin basqısı ilə reallaşan razılaşmanın artıq qüvvədə olmadığını təsdiq edirdi [Rəhimli, 2016]. Bunun üçün Azərbaycan hökuməti sonradan Versal konfransındakı Ə.Topçubaşovun timsalında geniş diplomatik fəaliyyətə başlayır. Ə.Topçubaşov 1919-cu il avqustun 19-da sülh konfransının sədri, Fransanın baş naziri J.Klemensoya göndərdiyi etiraz notasında Azərbaycan Xalq Cümhuriyyəti adından Qafqazda Antanta siyasətinə etiraz edir və İrəvan quberniyasına daxil olan rayonlarda yaşayan əhalinin demoqrafik tərkibini əks elətdirən məlumatda burada əhalinin 90%-nin müsəlman azərbaycanlılardan ibarət olduğunu yazır [Rizvan, 2022].

Türk-müsəlman tarixində ilk milli-demokratik dövlət olan gənc Azərbaycan Cümhuriyyəti bu dövrdə mövcud gərgin və ziddiyyətli daxili və xarici siyasi mühitdə yalnız özünün müstəqilliyini və ərazi bütövlüyünü qorumağa çalışırdı. Bu dövrədək ardıcıl olaraq Azərbaycana qarşı ərazi iddiasında bulunmuş ermənilər bir çox mühüm strateji əraziləri zəbt edə bilmişdilər. Batum konfransının gedişində Azərbaycan liderləri təəssüf ki, qədim türk-müsəlman şəhəri olan İrəvanı və çevrəsini özlərinə paytaxt eləmək üçün ermənilərə güzəştə getməyə məcbur qalmışdılar. Məhz bundan sonra bu bölgədə yaşayan azərbaycanlılar ermənilər tərəfindən kütləvi şəkildə deportasiya və genosidə

məruz qaldılar. Yeri gəlmişkən, İrəvanın ermənilərə güzəştə gedilməsi məsələsi indi həm elmi, həm də geniş ictimai müstəvidə tez-tez müzakirə obyekinə çevrilməkdədir. Həmin dövrün beynəlxalq situasiyasını, Paris Sülh Konfransında ermənilərə guya Vilson prinsiplərini dəstəvuz edərək Cənubi Qafqazda dövlət yaratmaları üçün geniş dəstək verən İngiltərə və Fransa kimi dövrün yeni dünya nizamını yaradan qüvvələrinin birbaşa müdaxiləsinə, Milli Şuranın türk-müsəlmanların yaşadığı bütün qərb bölgələrini də içinə alacaq bir dövlət yaratması için real hərbi gücə sahib olmadığını nəzərə almadan Azərbaycanın etatist liderlərini laqeydlikdə və ya xəyanətdə ittiham etmək düzgün deyil. Hətta Milli Şuranın bu qərarınadək, yəni 1918-ci ilin martında ermənilər İrəvan və ətraf bölgələrdə 200-dən çox kəndi işğal edərək qətliamlar yapdılar [Hasanzadeh, 2021]. Bunu erməni müəllifləri özləri də etiraf etmişlər. İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazmışdır. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin ingilislərin və Rusiyanın yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək təkcə Bakıda mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirmişdir. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, kəndlər isə yerləyeksan edilmişdir [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.35]. Azərbaycanın genişmiqyaslı xarici təsirlərə məruz qaldığını və bunun nəticəsində 10 min kvadrat kilometr torpağımızda erməni dövlətinin qurulduğunu xarici araşdırmaçılar da yazmışlar. Maykl A. Reynolds yazır ki, Osmanlılar yeni dövlətə (yəni Ermənistana) Yeni Bəyazid, İrəvan, Eçmiədzin və Gümrü tərəflərindən 10 min kvadrat kilometr civarında ərazi ayırdılar. Xatisyan isə 300-400 min civarında qaçqınları olan Ermənistana bu ərazilərin yetmədiyindən şikayətlənirdi [Reynolds, 2016: 223]. Bu dövrdə Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan xeyli iddiaçı var idi. Bu zaman baş nazir N.Yusifbəyli bəyan edirdi ki, düşmənlərimizin geniş iştahası, məkrli planlarına qarşı və aqressiv çağrışlarına qarşı öz gücümüzlə mübarizə aparmalıyıq [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.22]. Amerikalı tarixçi F.Kazemzadə yazır ki, ermənilər bu zaman Paris Sülh konfransından İrəvan quberniyasının da daxil olduğu, keçmiş Tiflis və Yelizavetpol quberniyalarının cənub hissəni, Ərdahanın şimalına doğru bölgə istisna olmaqla, Qarsın hamısını tələb edirdilər [Каземзаде, 2010: 242]. Ə.Topçubaşov Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi, habelə Naxçıvan, Şərur - Dərələyəz, Sürməli qəzalarının və Erivan quberniyasının bir hissəsinin həmin respublikanın idarəçiliyinə verilməsi ilə əlaqədar avqustun 16-19 Konfransa və Müttəfiq Dövlətlərin (Alliees) Nümayəndələrinə etiraz notası təqdim etmişdi [Topçubaşov, 1998: 31]. Ermənilər sülh konfransına təqdim etdikləri ərazi iddiaları tələblərində nəinki Anadolunun altı vilayətini və Kilikiyanı, hətta Cənubi Azərbaycanın bir hissəsini belə tələb edirdilər, halbuki İran müharibədə iştirak etməmişdi. Onların əsassız iddalarını Paris, London və xüsusilə Vaşinqton müdafiə edirdi. Ə.Topçubaşov Azərbaycan hökumətinə göndərdiyi məktublarda ermənilərin "Böyük Ermənistan" ideyasını Avropa ictimaiyyətinin beyninə yeridə biliblər [Həsənli, 2013: 382-385]. Araşdırmalar təsdiq edir ki, həmin dövrdə yeni dünya nizamını müəyyən edən

böyük dövlətlərin, xüsusilə Amerikanın güclü dəstəyinin sayəsində İrəvan quberniyasının xeyli hissəsini işğal edə bildilər. Bu gün də belə Vətən müharibəsindəki qələbəmiz nəticəsində işğaldan azad etdiyimiz ərazilərimizdə həyata keçirdiyimiz tədbirlərə qarşı Avropanın bir neçə dövləti və Amerika bizə qarşı ikili standartlarla çıxış edirlər.

Azərbaycan Cümhuriyyəti Qafqaz Evi konsepsiyasına sadiq qalaraq yaxın xarici dövlətlərlə, xüsusilə də Ermənistanla normal münasibətlər yaratmağa çalışırdı. Lakin sərsəm "Böyük Ermənistan" ideyasına qapılmış Ermənistan AXC ilə danışıqları pozacaq qiyam və terror vasitəsilə Qərbi Azərbaycanın kəndlərini işğal etməyə, əhalisini isə öz doğma yurdlarından didərgin salmağa başladı. Bu entik təmizləmə və genosid aktları hələ 1919-cu ilin yanvarından başlanmışdı. "Azərbaycan" qəzetinin 5 yanvar tarixli sayında yayınlanmış məlumatda qeyd olunur ki, İrəvan quberniyası müsəlmanlarının ictimai xadimlərinin yanvarın 2-dəki təcili toplantısında Azərbaycan parlamentinə ünvanladıqları həyəcanlı müraciətdə erməni bandalarının yerli müsəlmanlara qarşı ardıcıl olaraq törətdikləri vəhşiliklərin qarşısının alınması üçün müştərək bir komissiyanın göndərilməsini acizanə surətdə xahiş edirdilər. Azərbaycan xarici işlər naziri əvəzi A.Ziyadxanlı isə Ermənistan xarici işlər nazirliyinə göndərdiyi 7 yanvar tarixli təcili notada tələb olunurdu ki, İrəvan quberniyasının Azərbaycanın ayrılmaz tərkib hissəsinə aid ərazilərində yaşayan türk-müsəlmanlara qarşı erməni hərbi hissələrinin zorakılıq aktları dayandırılsın. Bu məsələ yanvarın 8-də Azərbaycan parlamentinin gündəliyinə salınmış və M.Ə.Rəsulzadə çıxış edərək demişdir ki, hökumət İrəvan quberniyasının İrəvan, Sürməli, Eçmiədzin, Şərur və Naxçıvan qəzalarında yaşayan 500 mindən artıq azərbaycanlı qardaşlarımızın bu fəlakətli vəziyyətinə səssiz qalmamalı və təcili yardım göstərməlidir [Азербайджанская Республика, 1998:135-136]. Arxiv sənədlərindən aydın olur ki, İrəvan müsəlmanlarına yardımların göndərilməsi müəyyən obyektiv səbəblərdən gecikirmiş. Buna görə də yanvarın 18-də İrəvan Müsəlmanları İcmasının İdarə Heyətinin sədri Teymur bəy Makinski Azərbaycan Hökumətinin başçısına və xarici işlər nazirinə yönləndirdiyi müraciətində müsəlmanlara göndəriləcək yardımların gecikdirilməməsini xahiş edirdi [Azerbaycan, 2001: 21]. Ermənistan silahlı dəstələri bu ərazilərdə etnik təmizləmə və genosid aktlarını hər keçən gün daha da şiddətləndirirdilər. Belə ki, Azərbaycan xarici işlər nazirinin köməkçisi A.Ziyadxanlı fevralın 24-də xüsusi məktubla ermənilərin Azərbaycanın Novo-Bəyazid bölgəsini ələ keçirərək azərbaycanlılara yapdığı vəhşilikləri Bakıdakı Müttəfiq Dövlətlərin Ordu Komandanı V.Tomsona da bidirir [Azerbaycan, 2001: 26]. Naxçıvan, Sürməli, İrəvan, Eçmiədzinin azərbaycanlı əhalisi erməni vəhşilikləri və qorxunc cinayətlərindən xilas olmaq üçün Naxçıvan Müsəlman Milli Şurası vasitəsilə Naxçıvan-Şərur bölgəsi Britaniya General Qubernatorluğuna Azərbaycana birləşmək tələbilə nota göndərdilər [Azerbaycan, 2001: 26]. Təkcə 1919-cu il boyunca Ermənistandan 150 min azərbaycanlı mal-davarı və hər cür yaşayış vasitələrindən məhrum edilmiş halda qovulmuşdular. 1920-ci ilin başlanğıcında isə bu rəqəm 160 minə qalxmışdı. Azərbaycanın Himayəçilik nazirinin xarici işlər nazirinə arxiv araşdırmalarından üzə çıxmış "Azərbaycanda qaçqın məsələsi" adlı 1919-cu il 11 dekabr tarixli məktubunda azərbaycanlıların Ermənistandan kütləvi deportasiyasının dövlət orqanizminə və ölkənin təsərrüfat həyatına qaçılmaz təsirindən bəhs etmişdir

[Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.73]. Məktubda eyni zamanda bəyan edilirdi ki, hökumət Ermənistanda tətbiq edilən genişmiqyaslı terrorçuluq aktlarının təsirindən həyacanlanaraq Azərbaycana köçməyə hazırlaşan müsəlmanların yeni axınının qarşısını almaq üçün onların mülki və həyati təhlükəsizliklərinin təminatı üçün təcili addımlar atmalıdır [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.73].

Azərbaycan hökuməti dəfələrlə əks tərəfə konstruktiv təkliflərlə müraciət edərək bildirirdi ki, Cənubi Qafqaz xalqlarının öz müstəqilliklərini qazanmasının ardından hər iki ölkədə faciəvi sonluqla nəticələnən qanlı hadisələr, kəndlərin yerləyeksan olunması və təsərrüfatların dağılması kimi məlum hadisələr baş verdi. Bu kontekstdə arzu olunan sülh və sabitliyin yaradılmasının qarantı, eləcə də baş vermiş qorxunc hadisələrin səbəblərinin qərəzsiz araşdırılıb üzə çıxarılması, bunların bir daha təkrar olunmaması və ən kəskin milli məsələlərin həll olunması üçün Azərbaycanın konstruktiv versiyası Avropa və Amerikanın sivil millətlərinin nümayəndələrinin də iştirakı ilə müştərək komissiyanın yaradılması idi [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.6].

1919-cu il iyunun 2-də İrəvandan Müttəfiqlərin nümayəndələrinin də qatılacağı ilə bağlı Azərbaycanın təklif etdiyi müştərək komissiyanın yaradılmasına razılıq bildirən Ermənistan hökumətinin teleqramı alındı. Hökumətlərarası kontekstdə yazışmaların aparıldığı sırada Ermənistan guya qanlı toqquşmalara xitam verən tərəf illüziyası yaratmağa çalışarkən, digər tərəfdən orada azərbaycanlı əhaliyə qarşı talan və zorakılıqların şiddətləndiyi haqqında xəbərlər gəlməkdə idi. Bu zaman "Azərbaycan" qəzetində "Ermənistanda müsəlmanların vəziyyəti" başlığı altında ermənilərin vəhşilikləri və yeni qaçqın axınları haqqında xəbərlər yayınlanmaqda idi [Азербайджан, 1919, 29 июня]. Azərbaycan Himayəçilik Nazirliyinin Ermənistandakı səlahiyyətli nümayəndəsi Makinskinin hesabatında qeyd olunurdu ki, quberniyanın təxminən yarım milyonadək azərbaycanlı əhalisi bütün daşınan və daşınmaz əmlakının hamısını itirərək tam yoxsulluq həddinə düşmüş, erməni terrorçu dəstələrindən qurtulan rayonlarda 200 minədək insan isə sadəcə heç bir əmək qabiliyyəti olmayan qadınlar, qocalar, xəstə və yetim qalan uşaqlardır. Makinski yazırdı ki, ölənlərin sayı 120 mini keçmiş, sağ qalan 50 min insan isə Azərbaycana köç etmiş, hal-hazırda isə 50 min insana yardım tələb olunurdu. İrəvan şəhərində də xeyli qaçqın və aclıq çəkən 8 mindən çox insan qeydə alınmışdır [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.10-11]. Arxiv sənədlərində Azərbaycana köç edən qaçqınlara qarşı ermənilər tərəfindən hər cür vəhşiliklər edilmişdir. Bununla bağlı xarici işlər naziri Fətəli Xan Xoyski Ermənistan xarici işlər nazirliyinə göndərdiyi teleqramda İrəvan-Tiflis qatarı ilə köç edən qaçqınlara qarşı Ermənistan hüdudlarında erməni rəsmiləri tərəfindən həyata keçirilən talan, basqı və qanunsuz yoxlamaların dayandırılması xahiş olunurdu [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.10-11]. Bu zaman Azərbaycan hökumətinin və parlamentinin ünvanına qaçqınlardan yüzlərlə məktub, bəyanat və teleqramlar gəlirdi. Gəncədə məskunlaşmış İrəvan quberniyasından olan qaçqınlar parlamentə ünvanladıqları bəyanatda azərbaycanlıların Ermənistandakı məşəqqətli həyatından, Ermənistan hökumətinin dinc müsəlman əhaliyə qarşı rəva gördüyü inanılmaz zülmlərdən, Vedibasarda erməni nizami hərbi hissələrinin əhali üzərinə yürüşündən, Naxçıvanda səbəbsiz yerə yerli müsəlman

ictimai xadimlərinin həbsindən, hər addımda müsəlmanlardan qanunsuz vergi və rüsumların alınmasından, eləcə də müxtəlif bəhanələrlə müsəlman əhalinin məhv edilməsinin millətlərarası toqquşmaya sürükləyəcəyindən bəhs edir və parlamentdən xahiş edirlər ki, əvvəla, Müttəfiqlərin Qafqazdakı Komandanlığından Ermənistandakı müsəlmanlara qarşı həyata keçirilən cinayətlər və etnik təmizləmələrə laqeyd qalınmasın, ikincisi, Ermənistan hökuməti ilə əlaqəyə girib müsəlmanlara qarşı həyata keçirilən zorakılığın, milli qırğının qarşısı alınsın, eləcə də oradakı müsəlman əhalinin bütün ictimai-siyasi hüquqları təmin edilsin, əks təqdirdə qaçqınlar özləri bütün vasitələrlə erməni cinayətkarlara qarşı bütün vasitələrlə mübarizəyə qalxacaqlar [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.18]. Müttəfiq Komandanlığının ermənilərə hərbi sahədə dəstək verməsi onları yeni ərazilər zəbt etməyə təhrik edirdi. 1919-cu ilin iyununda Naxçıvan çevrəsindəki kəndləri işğal edən erməni birliklərinə ingilis zabitlərinin komandirlik etdikləri məlum idi. İngilis xarici siyasət səlahiyyətliləri ermənilər guya "hücüm üçün deyil, türklərə, kürtlərə, tatarlara və azərilərə" qarşı müdafiə oluna bilmələri üçün silahlandırdıqlarını bildirmişdilər [Azer, 2011: 255]. Amma maraqlıdır ki, müasir erməni tarixşünaslığında ingilislərin Cənubi Qafqazda olan hərbi komandanlığı tərəfindən Ermənistana heç bir kömək göstərilmədiyi qeyd olunur. Erməni tarixçisi K.Ambartsumyan yazır ki, 1919-cu ilin noyabrında Ermənistan Respublikasındakı irland mənşəli kapitan Corc Qreysinin maddi durumu Tiflisdə və Bakıda geniş xidməti komanda, eləcə də katib və maşınla təmin olunmuş Ali Komissar Oliver Uordrop və Con Uoltondan tamamilə fərqli idi. Ermənistan xarici işlər naziri A.İ. Xatisov bildirirmiş ki, Ermənistanın mühüm ehtiyacları ingilislərə məlum olsa da, onlar heç bir kömək göstərməmişdilər [Амбарцумян, 2017: 6].

Əslində İrəvan quberniyasındakı müsəlmanların bu vəziyyəti haqqında Azərbaycanın Ermənistandakı və Gürcüstandakı diplomatik nümayəndəlikləri ardıcıl olaraq məlumat verirdilər. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin müavini Faris Vəkliovun 12 iyul 1919-cu ildə Britaniya qoşunlarının Cənubi Qafqazdakı Komandanına göndərdiyi məktubda bildirirdi ki, onun hökuməti İrəvan quberniyasında müsəlmanlara zülm edilməsi barədə hər gün məlumatlar alır. Ermənistan nizami ordusu müsəlman kəndlərinə hücumlar edir, qadınlar və uşaqlara belə rəhm etmir. Hər gün yüzlərlə qaçqınlar Tiflisdən keçərək Azərbaycanda sığınacaq axtarırlar. İrəvan quberniyasının müsəlmanları onların iradəsinin ziddinə olaraq, böyük dövlətlərin sayəsində müvəqqəti olaraq Ermənistan hökumətinin idarəçiliyinə vermişlər. Bu aktın dərc edilməsindən sonra ingilis komandanlığı bir sıra ictimai təşkilatlardan məsələnin bu cür həllinə qarşı etiraz almışdır. Bu etirazlarda bildirilir ki, onlar Ermənistan hökumətinin onlara olan düşmənçilik münasibətindən çox qorxurlar. Bu narahatçılığın əsaslı olduğu son hadisələrdə özünü göstərdi. Azərbaycan hökuməti adından Ermənistan hökumətinin dinc müsəlman əhalisinə qarşı zorakılıqlarına və repressiyasının son qoyulmasını tələb edir [Mustafa, 2017: 47]. Müttəfiqlərin Transqafqazdakı Komandanlığı Ermənistana qarşı heç bir hərbi-diplomatik ölçü götürmürdü. Amma yenə də Azərbaycanın istər Ermənistan, istərsə də Gürcüstandakı diplomatik nümayəndəliklərinin çoxsaylı diplomatik gedişləri və faliyyətləri çox zaman öz nəticəsini göstərirdi. Belə ki, M.X.Təkinskinin yuxarıdakı etirazlarının nəticəsi idi ki, o, iyulun 2-də Xarici İşlər nazirliyinə bildirirdi: "İngilis

missiyasının ciddi müdaxiləsi sayəsində, artıq ikinci gündür ki, müsəlmanlar üzərində zorakılıq halları yoxdur. Mən Gürcüstan konsulundan xahiş etdim ki, müsəlmanlara qarşı olan zorakılıqları Xatisiyana bildirsin. İngilis missiyası komendantdan qəti tələb etmişdir ki, qadınların öldürülməsi məsələsini araşdırsın. Ermənilər bu qətldə müsəlmanları günahkar çıxarmağa çalışırdılar'' [Zamanov, 2011: 77].

Əslində ingilislərin hərdən proseslərə obyektiv yanaşmaları heç də səbəbsiz deyildi. Bunu ingilislərin siyasi planlarının sonrakı koordinatlarında aramaq lazımdır. Onlar müəyyən mənada ermənipərəst mövqe tutmaqlarına baxmayaraq, özlərini Qafqazda müvəqqəti görmədiklərindən Transqafqazda ümumi qanunpərəst imiclərini də qorumağa çalışırdılar. Transqafqaz ingilislərin uzunmüddətli şərq planlarının tərkib hissəsi idi. Bunu hələ 1919-cu il sentyabrın 12-də İngiltərə nümayəndələri Foster, Nolan və Çerçillin Türkiyə nümayəndəsi Damad Fəridpaşa ilə bağladıqları gizli sazişin mahiyyətindən və məqsədlərindən də bilmək olar [''İrs'' jur, 2000, № 3, s. 26]. İngiltərə Transqafqazda Azərbaycanın nə qədər önəmli və strateji cəhətdən əlverişli olduğunu çox gözəl bilirdi.

Müttəfiq komandanlığının bu laqeydliyini görən Azərbaycan hökumətinin başçısı N.Yusifbəyli İrəvan quberniyasında azərbaycanlılara qarşı Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə və soyqırım aksiyalarının beynəlxalq sülh konfransının gündəminə çıxarılması üçün xarici işlər nazirinə göstəriş vermişdi ki, bu haqda geniş məlumatlar toplanılsın. Bunun üçün Ermənistandakı diplomatik nümayəndə M.X.Təkinskiyə xarici işlər nazirliyi tərəfindən göndərilən şifrəli teleqramda təlimat verilirdi ki, məxfi şəkildə İrəvan quberniyasında və Qars vilayətində yerli fəalların köməyi ilə müsəlmanlara qarşı həyata keçirilmiş bütün genosid aktları, mülklərə dəymiş ziyan və əsir götürülmüş adamlar haqqındakı bütün faktlar ən incə detallarına qədər toplanıb nazirliyə göndərilsin. M.Təkinskinin yardımı ilə İrəvan müsəlman Milli Şurası təcili şəkildə İrəvan quberniyasında yaşayan müsəlmanların dözülməz vəziyyəti haqqında Avropa və Amerikanın böyük dövlətlərinə göndərilmək üçün bütün məlumatları toplayıb Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdi. Azərbaycan Xarici İşlər Nazirliyi göndərilən bu məlumatda göstərirdi ki, mövcud olmayan erməni qırğını haqqında Avropa və Amerikanın məlumatı var, lakin İrəvan quberniyasının cənubunda yüzlərlə müsəlman kəndi dağıdılıb, Azərbaycana qovulmuş 150000 müsəlman qaçqın evsiz və yeməksiz qalmışdır [Həsənli, 2009: 262]. İrəvan quberniyasındakı qaçqınların problemini həll etmək üçün Cümhuriyyətin Nazirlər Şurası 1919-cu il iyunun 7-də Himayəçilik Nazirliyinin Müvəkkili vəzifəsini yaradır. 1919-cu il iyulun 8-dən etibarən vəkil Zülfüqar bəy Makinski Himayəçilik nazirliyinin İrəvanda müvəkkili kimi işə başlayır. Eyni zamanda Azərbaycan hökuməti və parlamenti Ermənistandakı müsəlman əhalinin vəziyyətini yaxşılaşdırmaq üçün bir sıra qanunlar qəbul etmişdi. "Ermənistanın aclıq çəkən əhalisinin ehtiyacları üçün rüsumsuz 5000 pud buğdanın buraxılmasına icazə verilməsi" [1919-cu il 30 aprel], "İrəvan quberniyasının müsəlman qaçqınlarının ehtiyacları üçün vəsaitlərin buraxılmasına dair" [1919-cu il 19 may], "Rüsumsuz olaraq 10 min pud un və buğdanın Ermənistandakı müsəlman qaçqınların ehtiyaclarını ödəmək üçün buraxılması" qanunu [1919-cu il iyunun 6-da] və s. qeyd etmək lazımdır ki, qaçqınlara köməyi yalnız hökumət deyil, parlament də öz üzərinə götürmüşdü. Cümhuriyyət parlamenti 1919-cu il iyulun 17-də "Ermənistanda yaşayan

müsəlman qaçqınların vəziyyətini yaxşılaşdırmaq məqsədilə Himayədarlıq Nazirliyinin smetadan əlavə 3000000 rubl vəsaitin ayrılması haqqında qanun layihəsi" qəbul etmişdi. Azərbaycan hökuməti müsəlman qaçqınların Ermənistanda kütləvi ölümünə biganə qalmamış, bu səbəbdən təcili 3 milyon rubl vəsaitin ayrılması və buğda ilə un alınıb Ermənistana göndərilməsi və müsəlman qaçqınların aclıqdan ölüb, qırılmasının qarşısını almaq qərara alınmışdı. 1919-cu ilin iyulunda 3 milyon manat vəsait ayrılır. Bu vəsait hesabına İrəvandakı azərbaycanlı əhaliyə 15 vaqon un, taxıl, arpa göndərilir (Xanməmmədova, 2019). Bu dövrdə Qərb dövlətləri və Amerikanın yardım təşkilatları türk-müsəlman əhaliyə heç bir yardım göstərməsələr də, Ermənistana geniş yardım kampaniyasına başlamışdılar. Belə ki, 1919-cu ilin son rübündə bəzi dövlətlərin və xüsusilə Amerikanın yardım təşkilatları tərəfindən Ermənistana 20 milyon dollar dəyərində ərzaq və içki məhsulları, eləcə də pul yardımı edildi. Ermənilər XX yüzil boyu amerikalıların yumşaq qəlbində özlərinə möhkəm yer etmişdilər ki, 1991-2001-ci illər arasında ABŞ hökuməti yenə də Ermənistana 1,4 milyard dollar yardım etdi [Wems, 2006: 161-163].

Tarix necə də bizləri heç də təəccübləndirməyəcək, lakin təəssüfləndirəcək miqyasda təkrar olunur. Halbuki Ermənistan azərbaycanlılara qarşı oxşar cinayətləri ötən əsrin 90-cı illərində də Qərbi Azərbaycanda və Qarabağda təkrarladı. Onda da Azərbaycan öz qüvvəsi ilə erməni silahlı birləşmələrinin həyata keçirdikləri deportasiya və soyqırımların qarşısını ala bilmədi və Birləşmiş Millətlər Təşkilatı, eləcə də Amerika və Avropa bu genosid və qətliamlara laqeyd qaldı. Ötən əsrin əvvəllərində də Müttəfiq Dövlətlər indiki kimi azərbaycanlıların soyqırımına biganə qalmışdılar.

Bu dövrdə Azərbaycan hökumətinin yaratdığı Mərkəzi Komissiyanın protokollarında müsəlmanların İrəvan quberniyasından zorla qovulması, məhv edilməsi və yurdlarının dağıdılması ilə bağlı geniş məlumatlar əks olunmuşdur. Bu protokollar Ermənistan dövlətinin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və genosid siyasətinin ən qiymətli tarixi bəlgələridir. Mərkəzi Komissiyanın 9 oktyabr 1919-cu il tarixli protokolunda İrəvan quberniyasının Eçmiədzin qəzasında ermənilər tərəfindən mülkləri dağıdılmış və soyqırıma məruz qalmış azərbaycanlı qaçqınların yeni dalğasının Qazax qəzasına sığındığı bildirilir. Həmçinin protokol sənədlərdə həmin ilin təkcə avqust və sentyabr aylarında İrəvan quberniyasının 70-dən artıq müsəlman kəndinin ermənilər tərəfindən yağmalandığı və məhv edildiyi, canını xilas edə bilən əhalinin isə Azərbaycan hüdudlarına keçməyə cəhd etdiyi bildirilir. Mərkəzi Komissiya həmin dövrdə çox həyacanlı motivlərlə Azərbaycan hökumətinə ünvanladığı müraciətində Ermənistanda azərbaycanlı əhalinin sistemli və məqsədyönlü şəkildə məhv edilməsinin və tarixdə analoqu olmayan bu erməni vəhşiliklərinin qarşısının alınması üçün təcili hərəkətə keçilməsini nəzərə çatdırırdı. Mərkəzi Komissiyanın qeydlərində artıq oktyabrın 1-də İrəvan quberniyasından gələn 50741 qaçqının Azərbaycanın Gəncə, Gədəbəy, Qazax, Şuşa, Cavanşir, Cəbrayıl və Şamaxı qəzalarında yerləşdirildiyi, xeyli sayda köçkünün isə daimi məskunlaşma yerlərinin olmadığı bildirilirdi. Deportasiya edilən azərbaycanlılar 5818 şəxsi evlərini tərk etmək məcburiyyətində qalmışdılar [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.19].

Tarixi sənədlər təsdiq edir ki, 1919-cu ilin noyabar-dekabr aylarında Eçmiədzin qəzasının 62, Sürməli qəzasının 34 kəndi, İrəvan qəzasının isə azərbaycanlı kəndlərinin

hamısı erməni silahlı birləşmələri tərəfindən bütünlüklə dağıdılmışdır. Himayədarlıq nazirliyinin hesabatına əsasən, nəticədə 1919-cu ilin sonunadək Novo-Bəyazid, İrəvan və Eçmiədzin qəzalarının yerləyeksan edilmiş azərbaycanlı kəndlərindən qaçan müsəlmanların xeyli hissəsi Naxçıvan, Şərur, Qazax və Şamaxıda məskunlaşmışdı. Azərbaycan SSR Xalq Təssərrüfatı Şurasının sədri N.İ.Solovyov 1920-ci ildə V.Leninə yazdığı "Çevrilişdən sonrakı iki ayda (may-iyun) bizim Azərbaycanda siyasətimiz" adlı hesabatında Ermənistanın azərbaycanlı əhalisinin çox ağır vəziyyətindən bəhs edərək bildirirdi ki, Ermənistan Respublikası yeni yaranan zaman onun hüdudları daxilində mövcud olmuş 250 müsəlman kəndinin hamısı ermənilər tərəfindən dağıdılmışdır və hazırda orada bir nəfər də olsun müsəlman yoxdur. Bu faktları erməni tarixçisi A.Lalayan özü də etiraf etmiş və yazmışdı ki, "Daşnaksütyun" partiyasının hakimiyyətdə olduğu 30 aylıq dövrdə Ermənistanın azərbaycanlı əhalisinin sayı 77% azalmışdı.
[https://story.karabakh.center/az/azerbaycanlilarin-muasir-ermenistan-erazisinden-deportasiyasi]. Daşnakların hakimiyyətdə olduğu dövrdə Qərbi Azərbaycanda yaşamış 575000 azərbaycanlı əhalidən qısa müddətdə 565000 nəfəri genosidə və deportasiyaya məruz qalmışdır [Arslan, 2016].

Qeyd etmək lazımdır ki, Azərbaycan Cümhuriyyəti dəfələrlə rəsmi diplomatik kanallarla Ermənistanın qonşularla münasibətdə ekspansionist siyasətinə qarşı notalar təqdim etsə də, heç bir konstruktiv nəticə hasil olmadı. Azərbaycan Xarici İşlər nazirliyinin Ermənistana göndərdiyi 1919-cu il 7 yanvar, 12 fevral, 16 iyul və 22 sentyabr tarixli notalarda Azərbaycanın aydın və prinsipial mövqeyi öz əksini tapmışdı [Азербайджан, 1919].

Uzun müddətli diplomatik danışıqlardan sonra 1919-cu ilin 23 noyabrında ABŞ nümayəndəsi D.Rey və Gürcüstanın Xarici İşlər naziri Gegeçkorinin vasitəçiliyi ilə Azərbaycanın və Ermənistanın hökumət başçıları olan N. Yusifbəyli ilə A. Xatisov arasında danışıqlar baş tutdu. Azərbaycanla Ermənistan arasında baş tutan bu çətin və burulğanlı danışıqlar hər iki tərəfin də hazırkı toqquşmalara son qoyması və münaqişələrin yenidən güc vasitəsilə həlli prinsiplərindən qaçmasını tövsiyə edən razılaşma ilə nəticələndi. Əldə olunan razılaşmada hər iki tərəf belə bir öhdəlik götürürdü ki, bundan sonra ərazi-sərhəd məsələləri də sülh danışıqları yolu ilə həll olunacaq, lakin bu danışıqlarda heç bir nəticə əldə olunmayacağı təqdirdə neytral tərəfin üzvlüyü ilə yaradılacaq üçtərəfli arbitraj məhkəməsinin çıxaracağı qərarla razılaşacaqlar [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s. 9]. Həmçinin nəzərdə tutulurdu ki, növbəti danışıqlar prosesi 1919-cu il dekabrın 4-də Tiflisdə, 14-də isə Bakıda davam etdirilsin.

Mövcud olan gərgin situasiyanı nizamlamaq məqsədilə 1919-cu il dekabr ayının 14-də Bakıda təşkili baş tutan və bir həftə davam edən Azərbaycan-Ermənistan konfransında əsasən ərazi-sərhəd və qaçqınlar məsələsi, eləcə də ticarət və dəmir yollarına dair müqavilələr bağlansa da, münaqişələrin nizamlanmasına dair konkret siyasi nəticələr əldə olunmur [Азербайджан, 1919]. Lakin konfransın önəmli siyasi nəticəsi mübahisəli məsələlərin sülh yolu ilə həllinə dair noyabr razılaşmasının müddəalarının təsdiqi oldu. Bu qərar konfransın ruhuna və məqsədinə uyğun idi, onun diqqətəlayiq cəhətlərindən biri Azərbaycan tərəfinin Cənubi Qafqazın konfederasiyası ideyasını müdafiə etməsi idi.

Təəccüblü deyil ki, Bakı konfransındakı siyasi müzakirələr erməni hərbi-siyasi

rəsmiləri üzərində heç də ciddi təsirlər buraxmadı. Belə ki, konfransdan heç bir ay keçməmiş Qərbi Azərbaycan bölgəsində hərbi eskalasiya güclənməyə başladı. 1920-ci il 19 yanvarda Ermənistan hərbi birləşmələri Zəngəzura daxil olaraq, qarşılarına çıxan Azərbaycan kəndlərini yerləyeksan edərək Şuşa qəzası istiqamətində irəlilədilər [Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, s.31].

O zaman xarici müşahidəçilərin də təsdiq etdiyi kimi bu faktiki olaraq Ermənistanın Azərbaycana qarşı elan olunmamış savaşının başlanğıcı idi. Həmin günlərdə Qafqazda olan ingilis jurnalisiti Skotland-Liddel bilavasitə bu erməni vandalizminin şahidi olaraq yazdığı "Müsəlmanlarla müharibə. Ermənilər yenə hücum edir" başlıqlı yazısında qeyd edirdi ki, "Cənubi Qafqazda yenə də vəziyyət sakitləşmir. Üç ay əvvəl Ermənistan və Azərbaycan qoşunları arasında döyüşlər olub. Bunun ardınca hər iki hökumət noyabrın 23-də Tiflisdə müqavilə imzalandı və bütün mübahisəli məsələlərdə Böyük dövlətlər tərəfindən qərar verilənədək hər iki tərəfin sülh içində yaşayacağına ümid var idi. Ancaq müqavilənin imzalanmasından dərhal sonra Azərbaycan qoşunlarının geri çəkilməsindən istifadə edən ermənilər Zəngəzurda müsəlmanlara xaincəsinə hücum etdilər və qırxa qədər müsəlman kəndini yerləyeksan etdilər. Azərbaycan hökuməti buna etiraz etdisə də, lakin qarşı tərəfdən bu faktları təkzib edən cavab aldı. Hal-hazırda Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan xarici işlər nazirinə rəsmi notasında yanvarın 19-da Ermənistan hökumət qoşunlarının erməni quldur dəstələri ilə birgə Qarabağın Şuşa rayonu istiqamətində hücuma keçdiyi bildirilir. Hücumçuların yolu üstündə olan bütün müsəlman kəndləri - cəmi doqquz kənd - məhv edildi və sakinlərin əksəriyyəti qeyri-insani şəkildə öldürüldü" [История Азербаиджана, 1990: 154].

Azərbaycan Milli Arxivlər İdarəsinin keçmiş müdiri, tarixçi alim A.Paşayev erməni quldur dəstələrinin Zəngəzura yanvardakı bu dəhşətli hücumları ilə bağlı üzə çıxardığı çox qiymətli sənədlərə istinadən yazırdı ki, erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşilikləri 1920-ci ilin əvvəllərində özünün kulminasiya nöqtəsinə çatır. Həmin il yanvarın ortalarında Paris sülh konfransı ölkələri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması ilə əlaqədar olaraq ermənilər Zəngəzurda daha da fəallaşırlar. Özü də əvvəllər Zəngəzurda baş verən hadisələrin bilavasitə təşkilatçısı olan Ararat Respublikası rəsmi yazışmalarda bu işlərdən qətiyyən xəbəri olmadığını iddia edir. Həmin hadisələrin günahını gah Andranikin, gah da Zəngəzurda yaradılmış digər erməni təşkilatlarının üzərinə atırdı. Lakin 1920-ci ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin bilavasitə təşkilatçısı məhz Ararat Respublikasının özü idi. Burada da əsas məqsəd Zəngəzur qəzasını tezliklə tamamilə müsəlmanlardan təmizləyərək sülh konfransı ölkələrini bu məsələnin Ermənistanın xeyrinə həllində həyata keçirilmiş fakt qarşısında qoymaq idi. Artıq bu təmizləmə siyasətində Zəngəzurdakı erməni quldur dəstələri ilə yanaşı, Ararat Respublikasının top və pulemyotlarla silahlanmış on mindən yuxarı nizami qoşun dəstələri də iştirak edirdi. Bu hücumla əlaqədar olaraq 1920-ci il yanvarın 20-dən Azərbaycan Respublikasının Parlamentinə, hökumətinə müxtəlif partiya fraksiyalarının rəhbərlərinə Zəngəzur, Cəbrayıl və Şuşadan çoxlu həyəcanlı xəbərlər daxil olur. İlk teleqram 1920-ci il yanvarın 21-də Azərbaycan Respublikası Parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Cəbrayıldan Azərbaycan Parlamentinə göndərilmişdir. Orada

deyilirdi: "Zəngəzur qəzasında dörd gündürki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında hücumları davam edir. Cəbhə xətti Qubadlıdan Xocahana qədər 50 verst məsafədə uzanır. İtkilər olduqca çoxdur. Əhali vahimə içərisində qaçır və kömək umur. Artıq dərəcədə xahiş edirəm, çox sayda ordu və patron göndərmək haqqında təcili tədbirlər görün. Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz türk xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz". Elə həmin gün Şuşadan da Azərbaycan Parlamentinin ünvanına Məmməd Həsən Xocahanlı, Fərrux bəy Sarmasbəyov, Abbas bəy Mirzəyev, Baqrat bəy Cavanşir, İsmayıl Muxtarov tərəfindən vurulmuş teleqramda deyilirdi: "Yanvarın 19-dan başlayaraq ermənilər nizami ordu və artilleriyanın köməyi ilə Zəngəzur müsəlmanlarını qırmağa başlayıblar. Artıq Əliqulu uşağı, Eyvazlı, Şamsız, Şurnux, Məzrə, Novla, Tarovlu kəndləri tamamilə dağıdılıb, hücum davam edir. Müsəlmanların vəziyyəti çıxılmazdır. Heç yandan kömək yoxdur. İranlı ermənilər tərəfindən də təhlükə gözlənilir. Yalvarırıq, təcili tədbirlər görün" [Paşayev, 200: 247-249].

Ermənistan yanvar ayında Zəngəzura 10 min civarında canlı qüvvə, 5 top və 20 pulemyotla hücuma keçmişdilər. Araşdırmaçı alim K.İsmayılov zəngin arxiv sənədlərinə dayanaraq haqlı olaraq təsdiq edir ki, Zəngəzurdakı Ermənistan silahlı birləşmələrinin əsas planı buradan irəliləyib Qarabağı və Şuşanı aldıqdan sonra Naxçıvan və Ordubadı mühasirəyə almaq idi. Müəllif qeyd edir ki, arxivdə Zəngəzur hadisələri ilə bağlı əsasən iki bilgi qaynağı var: biri Azərbaycan hökumətinin yerlərdən gələn məlumatlar əsasında tərtib etdiyi siyahılar, ikincisi isə Qarabağ General Qubernatorluğunun Daxili İşlər nazirliyinə göndərdiyi 51 dağıdılmış müsəlman kəndlərinin siyahısı idi. Həmin dövrdə Qarayagin bölgəsindən Azərbaycan parlamentinin üzvü Cəlil Sultanovun dərin həyəcan və yanğı ilə dolu notlarla göndərdiyi teleqramlar Zəngəzurun nə qədər mühüm geopolitik əhəmiyyətə malik olduğunu əks etdirir [İsmayılov, 2016:58-60].

Həmin vaxt Zəngəzurda baş verən soyqırımlar haqqında Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi F.Vəkilovun Xarici işlər nazirliyinə göndərdiyi məlumatlar təcili Müttəfiqlərin Ali Komissarı polkovnik Haskelə göndərilir. Bu məlumatlarla tanış olan Haskel Ermənistan hökumətinin ona daim yalan məlumatlar verməsindən təəssüfləndiyini bildirmiş, lakin tabeliyində müəyyən hərbi qüvvə olmadığından hər hansı bir tədbir görə bilməsə də, müəyyən iqtisadi embarqolar tətbiq edərək bu basqınları durduracağını bildirmişdi [Nərimanoğlu, 2014: 59]. Arxiv materiallarından da görünür ki, ingilislər bu dəhşətli hadisələrə laqeyd qalmışlar. Çünki Qarabağ General Qubernatorunun köməkçisi Mahmudbəyovun Bakıya göndərdiyi teleqrafda Andranikin də Gorusdan gələn quldur dəstələrinin qatıldığı erməni hərbi birləşmələrinin Zəngəzurun Kuşulu, Ağrılı, Arkazı, Aksarlı, Şəfərcik, Aşaquv, Okçular kəndlərini məhv edib, Qıratəh, Mololu Kövnü, Qaratağı, Gabarlı, Kiçik Vaşbakı, Mahmutlu, Keyddaşı, Kegaçatu, Quruyut, Qayçan, Kürə, Acıbacı kəndlərinin blokadasını davam etdirərkən ingilislərin missiyası Şuşanı tərk edib Gorusa keçmək üçün yol açmaq dərdində idilər [Nərimanoğlu, 2014: 63].

Əslində Ermənistanın həmin dövrdəki məqsədi Qarabağ ermənilərı ilə birləşmək, nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də, həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etmək idi. Zəngəzur koridoru məsələsinin gündəmdə olduğu indiki dövrdə bu tarixi materiallarla tanış olduqda görürük ki, Ermənistan daşnak respublikasının Azərbaycanı böyük türk dünyasından ayırmaq və gələcəkdə Naxçıvanı da ələ keçirmək üçün Zəngəzuru bütünlüklə işğal etmək ən mühüm məqsədi olmuşdur.

Nəticə

Zəngin arxiv sənədlərinə və araşdırma materiallarına dayanaraq qeyd etməliyik ki, qədim oğuz yurdu Qərbi Azərbaycanı etnik təmizləməyə məruz qoymuş ermənilər, perspektivdə Naxçıvanı və Şərqi Zəngəzuru da öz torpaqlarına qatmaq arzusu ilə "Böyük Ermənistan" xülyası ilə yaşamışlar. Ermənistanın davamlı olaraq yürütdüyü işğal siyasətinə baxmayaraq, Azərbaycan Cümhuriyyəti hər zaman Transqafqaz Konfederasiyasının yaradılması məqsədilə hətta müəyyən qədər ərazi güzəştlərinə gedərək sülhsevər siyasətindən heç vaxt əl çəkməmişdir. Amma ermənilər ta cümhuriyyətin süqutunadək Qərbi Azərbaycan türklərinə qarşı soyqırımlarını davam etdirmişlər. 1920-ci ilin aprel ayının əvvəllərində ermənilər tarixdə analoqu olmayan vandallıqlara imza atmış, İrəvandan qatarla Gəncəyə gedən beş yüz azərbaycanlını öldürmüş və həmin günlərdə Zəngəzur, Ordubad və Vedinin müsəlman kəndlərində dəhşətli qırğınlar həyata keçirmişlər [Ermeniler tarafından yapılan katliam belgeleri, 2001: 787]. Bütün bu zülmlər, soyqırımlar qarşısında Azərbaycan öz işğal olunmuş qərb torpaqlarında tarixi ədaləti bərpa edə bilməmiş və hətta sovet dövründə bu tarixi faktlar arxivlərdə gizli tutulmuşdur. Lakin 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş ərazilərini azad etmiş və Qərbi Azərbaycandan zorla deportasiya edilmiş əhalinin öz doğma yurdlarına qayıtması üçün beynəlxalq müstəvidə diplomatik fəaliyyətlərə başlamışdır.

ƏDƏBİYYAT

1. Reynolds A.Michael. (2016). İmparatorlukların çöküşü. Osmanlı-rus çatışması. 1908-1918 // – İstanbul: Kültür Yayınları, – 378 s.
2. Hasanzadeh, V. (2021). XX. Yüzyılda Güney Kafkasya, Güney Azerbaycan ve Türkistan'da Ermenilerin Türklere yaptığı katliamlar. https: //www. 21yyte.org /tr/merkezler/bolgesel-arastirma-merkezleri/guney-kafkasya-iran-pakistan-arastirmalari-merkezi/xx-yuzyilda-guney-kafkasya-guney-azerbaycan-ve-turkistan-da-ermenilerin-turklere.
3. Ermənistan-Azərbaycanmünaqişəsi: tarixə baxış.https://files.preslib.az/projects/ conflict/gl1.pdf
4. Topçubaşov, Ə. (1998). Paris məktubları // – Bakı: Azərnəşr, – 120 s.
5. Rəhimli, Ş. (2016). İrəvan ermənilərə necə verildi-sənədlər. https:// azvision.az/news/ 91427/ irevan-ermenilere-nece-verildi-%E2%80%93-senedler.html
6. Hüseynov, R. (2022). ADR və Azərbaycan şəhəri İrəvanın faciəli tarixi. https:// www. anspress.com/adr-v%C9%99-az%C9%99rbaycan-s%C9%99h%C9%99ri-ir%C9%99vanin faciy%C9%99li-tarixi.
7. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 166, v.22

8. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 150, v.73
9. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 165, v.6
10. Азербайджан, 1919, 29 июня
11. Азербайджанская Республика. Документы и материалы.1918-1920 гг. (1998). – Баку: Элм, – 615s.
12. Azerbaycan belgelerinde ermeni sorunu. (1918-1920).(2001). – Ankara: T.C.Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü, – 682 s.
13. Каземзаде, Ф. (2010). Борьба за Закавказье (1917-1921) // – Bakı: Şərq-Qərb, – 327 s.
14. Həsənli, C. (2013). Tarixi şəxsiyyətin tarixi. Bakı: Azərbaycan Diplomatik Akademiyası, – 588 s.
15. Topçubaşov, Ə. (1998). Paris məktubları // – Bakı: Azərnəşr, – 120 s.
16. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 114, v.10-11
17. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 150, v.18
18. Həsənli, C. (2009). Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). – Bakı: "Garisma" MMC, 576 s.
19. Xanməmmədova, N. (2019).Transkafkasya'da (Güney Kafkasya) Devletlerarası İlişkiler ve MülteciSorunları (1918-1920) ORCID:0000-0002-0106-0879.https://dergipark.org.tr/en/download/article-file/934352.
20. Mustafa, N. (2017). İrəvan quberniyasında Azərbaycanlıların soyqırımı (1918-1920). – Bakı: Elm, – 328 s.
21. Zamanov, E. (2011). Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan və Ermənistandakı diplomatik nümayəndəliklərinin fəaliyyəti (1918-1920-ci illər) // –Bakı: Elm və təhsil,–176 s.
22. "**İrs**" jur., 2000, № 3, s. 26
23. Azer C. (2011). Babadan oğula Güney Kafkasya. Türkiye-Güney Kafkasya ilişkileri // – İstanbul: Truva, – 647 s.
24. Wems S. A. (2006). Ermənistan: terörist "hıristiyan" devletin sırları // – İstanbul: İleri Yayınları, – 390 s.
25. Амбарцумян К.Р. (2017). Английское военное присутствие в пределах большого кавказа в 1918–1920 годах и его итоги. История: факты и символы. № 3 (12), – 2017. file:///C:/Users/ASUS/Downloads/angliyskoe-voennoe-prisutstvie-v-predelah-bolshogokavkaza-v-1918-1920-godah-i-ego-itogi%20(1).pdf.
26. Musayev İ. M.(1998). Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 358 s.
27. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 150, v.19
28. Azərbaycanlılarınmüasir Ermənistan ərazisindən deportasiyası. https://story. karabakh. Center/ az/azerbaycanlilarin-muasir-ermenistan-erazisinden-deportasiyasi.
29. Arslan İ. (2016). Геноцид армян против тюрко-мусульманского населения на Южном Кавказе (1917-1920).file:///C:/Users/ASUS/Downloads/the-genocide-of-the-armenians-against-the-turkish-muslim-population-in-the-south-caucasus-1917-1920-years.pdf.
30. Азербайджан, 1919, 7 январ, 12 феврал, 16 июля, 22 сентябр.

31. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 190, v.9
32. Азербайджан, – 1919, –26 декабр.
33. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 895, siy.1, iş 299, v.31
34. История Азербаиджана по документам и публикациям. (1990). – Баку: Элм, – 384 с.
35. Paşayev, A. (2001). Açılmamış səhifələrin izi ilə // – Bakı: Azərbaycan, – 536 s.
36. Nərimanoğlu, H. (2014). Zəngəzur və Qarabağda ermənilərin törətdikləri qətliamlar Osmanlı-Türkiyə mənbələrində // – Bakı: "Zəngəzur" Cəmiyyətləri Birliyi, – 86 s.
37. İsmayılov, K. (2016). Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). – Bakı: "Turxan" NPB, – 248 s.
38. Ermeniler tarafından yapılan katliam belgeleri. (2001). – Ankara: T.C. Başbakanlık devlet arşivleri genel müdürlügü. Osmanlı Arsivi Daire Baskanlığı. Yayın Nu: 50. – 1054 s.

SUMMARY

Elchin Zamanli

ETHNIC CLEANSING AND GENOCIDE POLICY OF ARMENIA IN THE WESTERN AZERBAIJAN REGION IN THE LIGHT OF HISTORY

During the Batumi Conference, the Ottomans allocated around 10,000 square kilometers of territory to Armenia from Yeni Beyazid, Yerevan, Etchmiadzin and Gyumri, under the condition that they would not make any territorial claims against Azerbaijan. Despite this allocation, the Armenian leadership, under Xatisyan, expressed dissatisfaction, citing the inadequacy of this land to accommodate the substantial number of Armenian refugees, estimated between 300,000 to 400,000. The Azerbaijan Democratic Republic, adhering to its vision of a united Caucasus, actively sought to foster amicable relations with its neighbors, particularly Armenia. However, these efforts were undermined by the Armenian pursuit of the concept of a "Greater Armenia," which led to a series of conflicts. The manifestation of these conflicts was evident in the disruption of diplomatic talks, insurgencies, and terror tactics employed by Armenia, leading to the forceful occupation of Western Azerbaijani villages and the resultant displacement of the Azerbaijani population. The year 1919 marked a significant exodus, with around 150,000 Azerbaijanis being expelled, losing not only their homes but also their livestock and other assets. By the beginning of 1920, this number had escalated to approximately 160,000. The period of Dashnak rule in Western Azerbaijan was particularly catastrophic for the Azerbaijani population, with nearly the entire Azerbaijani community of 575,000 facing either genocide or deportation, save for a meager 10,000. Despite efforts to resolve these conflicts through diplomatic engagements, such as the conferences held in Tiflis and Baku in late 1919, which discussed territorial boundaries, refugee issues, trade, and railway matters, these meetings did not yield substantial political resolutions to the ongoing disputes. This highlights a significant gap between diplomatic negotiations and the realization of peace and stability in the region.

Key words: *Western Azerbaijan,Iravan governorate, Armenia, ethnic cleansing, genocide, Zangezur*

CƏNUBİ QAFQAZIN ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALINDAN SONRA İNZİBATİ - ƏRAZİ DƏYİŞİKLİKLƏRİNDƏ YELİZAVETPOL QUBERNİYASININ YERİ VƏ ROLU (1868-1900-cu illər)

Şəfa MUSAYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti

Çar Rusiyasının regionda möhkəmlənmək üçün atdığı addımlardan biri də onun müstəmləkəçilik kursunun tərkib hissəsi olan inzibati-ərazi islahatları idi. Hazırda Azərbaycanın qərb rayonlarının, o cümlədən tarixi Gəncəbasar, Qazax, Qarabağ və Zəngəzur bölgələrinin ərazilərini əhatə edən keçmiş Yelizavetpol (Gəncə) quberniyasının yaradılması, quberniyanın ərazisində müxtəlif ərazi-vahidlərinin təşkili, bütövlükdə quberniyanın idarəçilik sistemi məhz həmin islahatların nəticəsi idi.

1867-ci ildə Rusiya imperiyasının tərkibində yaradılmış Yelizavetpol quberniyasının ərazisində mövcud olmuş kiçik dövlətlər – Qazax, Borçalı, Şəmşəddil sultanlıqları, Gəncə, Qarabağ və Şəki xanlıqları, eləcə də Car-Balakən camaatlığı çarizm işğalına məruz qalmış ilk Azərbaycan torpaqları oldular.

Adı çəkilən bölgələr arasında Gəncə xanlığının ələ keçirilməsi Rusiya üçün mühüm əhəmiyyət kəsb edirdi. Bununla bağlı Qafqazın baş komandanı general P.D.Sisianov qraf A.Vorontsova 3 yanvar 1804-cü il tarixli məktubunda yazırdı: "Гянджинская крепость, почитавшаяся между азиатцев неприступною, держит в страхе весь Адзербайджань и может способствовать торговле Грузинской по Каспийскому морю (Asiyalılar arasında alınmaz hesab olunan Gəncə qalası bütün Azərbaycanı qorxu içində saxlayır və o Xəzər dənizinə qədər gürcü ticarətinin inkişafına şərait yarada bilər) [4, c. 591-592, док. 1181]. Gəncə xanı Cavad xan işğalçılara qarşı inadlı müqavimət göstərsə də, müasir silahlara malik və canlı qüvvə sarıdan üstün olan rus qoşunları 3 yanvar 1804-cü ildə şəhəri ələ keçirə bildilər. Şəhərin müdafiəsi zamanı gəncəlilərdən 1500 nəfər həlak olmuş, ruslar 17.224 (8585 kişi və 8639 qadın) əsir götürmüşdülər [5, c.235]. Gəncənin süqutu ilə bağlı Qafqaz mülki qubernatoru Kasparova yazdığı 8 yanvar 1804-cü il tarixli məktubunda general Sisianov bütün Azərbaycanı qorxu içində saxlayan Gəncə qalasının mövqeyini nəzərə alaraq onun ələ keçirilməsini Rusiya üçün ən mühüm hadisə adlandırmış və Kasparovdan bu qələbə haqqında rəhbərlik etdiyi quberniyanın bütün yerlərinə məlumat verməyi xahiş etmişdi [4, c.592, док. 1182]. Rusların təqiblərindən qorunmaq üçün yerli sakinlər Cümə məscidində gizlənmişdilər. Lakin N.Dubrovin Sisianovun raportuna əsaslanaraq yazır ki, bir erməni bu haqda ruslara xəbər vermiş, nəticədə məsciddə gizlənmiş 500 dən artıq dinc insan qılıncdan keçirilmişdi [5, c.234]. Məscidin özü isə səhəri gün, yanvarın 4-də kilsəyə çevrilmişdi [5, c.231]. Sisianovun əmri ilə Gəncə şəhərinin adı dəyişdirilərək I Aleksandrın arvadının şərəfinə Yelizavetpol (bəzi rus mənbələrində Yelisavetpol – Ş.M.) adlandırıldı. Gəncə xanlığının ərazisi isə Yelizavetpol dairəsi adı ilə Rusiya imperiyasının ərazisinə birləşdirildi.

1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xanla general Sisianov arasında imzalanmış Kürəkçay müqaviləsinə görə mərkəzi Şuşa şəhəri olan Qarabağ xanlığı Rusiya

imperiyasının tərkibinə qatıldı. 1822-ci ildə Mehdiqulu xanın siyasi təzyiqlər üzündən Qarabağı tərk edərək İrana getməsindən sonra Qarabağ xanlığı ləğv edildi. 1806-cı ildə Şəki xanlığı da Rusiyanın himayəsi altına keçməli oldu.

1813-cü il oktyabrın 12-də Rusiya imperiyası ilə Qacarlar İranı arasında bağlanmış Gülüstan müqaviləsinə [18] əsasən, İran Şimali Azərbaycanın Gəncə, Qarabağ, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlıqlarının, eləcə də Dağıstan, Gürcüstan ərazilərinin Rusiya İmperiyasının mülkiyyəti olduğu təsdiq olundu. 1819-cu ildə Şəki xanlığı da ləğv olunaraq əyalətə (provinsiyaya) çevrildi. Şəki əyaləti 1840-cı ildə Kaspi vilayətinin tərkibində Şəki qəzasına çevrilmiş, 1859-cu ildə isə onun qəza Bakı quberniyasının tərkibinə çevrilmişdi. Gülüstan müqaviləsinin bağlanması ilə Şimali Azərbaycanın Rusiya tərəfindən istilasının birinci mərhələsi başa çatdı.

1826-1828-ci il II Rusiya-İran müharibəsinin nəticəsi olaraq bağlanmış Türkmənçay müqaviləsinin şərtlərinə [19; 20] əsasən, Şimal Azərbaycanın daha iki xanlığı – Naxçıvan və İrəvan xanlıqları da Rusiyanın tərkibinə keçdi.

Türkmənçay müqaviləsinin bağlanması ilə Rusiya imperiyası Cənubi Qafqaz regionunun işğalını başa çatdırdı. Rus işğalı nəticəsində Azərbaycan ərazisi iki imperiya (Rusiya çarizmi və Qacarlar İranı) arasında bölündü. Məhz bu hadisədən sonra Azərbaycan xalqının milli şüurunda, tarixi yaddaşında, eləcə də tarixi ədəbiyyatda Şimali Azərbaycan (Rusiya Azərbaycanı) və Cənubi Azərbaycan (İran Azərbaycanı) terminləri meydan gəldi. Vahid xalqın bölünməsindən sonra Azərbaycanın hər iki tərəfi fərqli siyasi, sosial-iqtisadi və mədəni şəraitdə yaşamağa məcbur oldular ki, bu həm də onların gələcək fərqli inkişafına təsir göstərən mühüm amil oldu. Eyni zamanda rus imperializmi cənub istiqamətində öz işğalçılıq planlarını həyata keçirmək, Yaxın və Orta Şərqi ələ keçirmək, "rus əsgərinin öz çəkmələrin Sakit okean sularında yuması" üçün Cənubi Qafqazdan bir plasdarm kimi istifadə etməyə çalışırdı. Sonrakı proseslər, xüsusən XX əsrin ikinci yarısında baş vermiş iki rus-türk müharibəsi bu tezisi tam təsdiq edir. Şimali Azərbaycanı, bütövlükdə Cənubi Qafqazı öz müstəmləkəsinə çevirdikdən sonra çarizm regionda möhkəmlənmək, onu özünün xammal bazasına və satış bazarına çevirmək üçün bir sıra sosial-iqtisadi və siyasi-inzibati islahatlar həyata keçirdi.

Çarizm Qafqaz regionunu işğal edərkən sırf müstəmləkə məqsədləri güdürdü: yeni torpaqların ələ keçirilməsi, yeni xammal mənbələrinə və satış bazalarına sahib olmaq və s. Lakin buna baxmayaraq, Azərbaycanın Rusiyanın tərkibinə qatılmasının müəyyən mütərəqqi nəticələri də oldu. Azərbaycan iri dövlətlərin rəqabət meydanı olmaqdan qurtuldu, köhnə feodal münasibətlərindən bazar münasibətləri sisteminə, daha mütərəqqi hüquq sisteminə keçmək imkanı qazandı. Azərbaycan xalqı Rusiya vasitəsilə qabaqcıl Avropa mədəniyyəti, ədəbiyyatı ilə qarşılıqlı əlaqələr yaratmaq, maarifi inkişaf etdirmək fürsəti qazandı. M.Ə. Rəsulzadə bununla bağlı göstərirdi ki, rus istilasının xeyri bu oldu ki, azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəniyyət toxumlarını daşıyan bir cəmiyyət, yəni ruslardan ayrı bir millət olduqlarını hiss etməyə başladılar. Rus süzgəcindən keçsə də, özlərinə keçən Avropa elm və texnikasının təsirilə Azərbaycan Şərqin qorxu və dedi-qodularından silkinərək yaxşı bir həyat tərzi göstərir, doğru yolu tapır, böyüyüb inkişaf edirdi [3, s. 34]. 1918-ci ildə Azərbaycanın görkəmli ziyalısı Üzeyir

Hacıbəyli rus işğalının Azərbaycanın gələcək taleyinə göstərdiyi təsiri nəzərdə tutaraq yazırdı: "Yüz-yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüquqları silinib-süpürülmüş müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyon mütəcavüz nüfus ilə Azərbaycan Cümhuriyyəti namını daşımağa kəsbi-ləyaqət etdi" [2].

XIX əsrin əvvəllərində Çar Rusiyası Şimali Azərbaycanı işğal etdikdən sonra onun zəngin dövlətçilik ənənələrini də unutdurmağa, Azərbaycan xalqının bütövlüyünü məhv etməyə çalışırdı. İşğalla barışmayan Azərbaycan xalqının müqavimət hərəkatı amansızcasına yatırıldı, xalqın şüurundan müstəqillik duyğularını itirmək üçün onun daşıyıcılarının sistemli şəkildə məhvinə başlandı. Bununla yanaşı, çarizm regionda mövqelərini möhkəmlətmək üçün özünə etibarlı sosial dayaq - məmur zümrəsi yaratmağa can atırdı. Müstəmləkəçilik və ruslaşdırma siyasətini həyata keçirmək məqsədilə Azərbaycanda müasir tipli məktəblər və mədəni-maarif müəssisələri sistemi yaradılırdı.

Lakin bir amili vurğulamaq lazımdır ki, Rusiya Şimali Azərbaycanı işğal etdikdən sonra burada inzibati dəyişikləri həyata keçirərkən bəzi şərtləri nəzərə almalı olmuşdu. Birincisi, Qafqaz regionunun Rusiya tərəfindən fəthi və mənimsənilməsi qısa zaman çərçivəsində baş verməmiş, təqribən XIX əsrin 80-ci illərinə qədərki böyük bir dövrü əhatə etmişdir. İkincisi, çar hakimiyyəti Qafqazda müstəmləkə idarəetmə sistemini yaradarkən hakim siniflərin narazılığının artmasının qarşısını almaq üçün, əvvəllər mövcud olmuş siyasi-inzibati idarəçilik sisteminin bir sıra institutlarını dərhal ləğv etməmiş, onların müəyyən elementlərini (şəriət məhkəmələri, ailə-nikah münasibətlərini, bəzi cinayət işləri kateqoriyasını tənzimləyən islam hüququ normalarını), hətta XX əsrin əvvəllərinə qədər qoruyub saxlamışdı.

Çar hakimiyyətinin Cənubi Qafqazda həyata keçirdiyi inzibati dəyişikliklər öz mahiyyətinə və məqsədinə görə imperiyanın digər ucqarları ilə eyniyyət təşkil etsə də, regionun özünəməxsus milli-etnik, tarixi, siyasi, sosial-iqtisadi xüsusiyyətlərinin nəzərə alınmaqla müəyyən fərqliliklərə də malik idi. Buna görə də Azərbaycanda, o cümlədən Yelizavetpol quberniyası ərazisində aparılmış inzibati və siyasi dəyişiklikləri bütövlükdə həmin dövrdə imperiyada aparılmış siyasi və idarəçilik islahatları ilə qarşılıqlı əlaqədə nəzərdən keçirmək lazımdır.

Cənubi Qafqazı işğal etdikdən sonra Rusiya hakimiyyəti burada öz müstəmləkə siyasətini həyata keçirmək üçün ilk gündən başlayaraq rus administrasiyasının ümümqafqaz orqanlarını yaratmağa başladı. Gəncə xanlığı ləğv edildikdən sonra o Gürcüstan quberniyasının Yelizavetpol qəzasına çevrildi. Qəzanın başında hərbi, mülki, məhkəmə və maliyyə hakimiyyətini əlində cəmləşdirmiş komendant dururdu [4, c. 1181]. 1806-cı ildə qəzada yeni inzibati orqanlar – qəza məhkəməsi və polis idarəsi yaradıldı [8, c.64]. Rusiya işğalına müqavimət göstərməmiş və bir müddət hətta xanlıqlar adını daşımaqda davam etmiş digər əyalətlərdə xanlar müəyyən müddət həmin əyalətlərin idarəçiliyinin başında saxlanılsalar da, onların xarici əlaqələr yaratmaq, qoşunlara komandanlıq etmək səlahiyyətləri tamamilə əllərindən alınmış, daxili idarəçilikdə isə müstəqillikləri məhdudlaşdırılmış, bir müddətdən sonra isə onlar bu səlahiyyətlərindən

də məhrum olunmuşdular. Xanlıqlar ləğv edildikdən sonra (Şəki xanlığı, Şəmşədil və Qazax sultanlıqları 1819-cu ilə qədər, Şirvan xanlığı 1820-ci il, Qarabağ 1822-ci ilə, Talış 1826-cı ilə qədər mövcud olmuşlar) köhnə idarəçilik də ləğv edilmiş, onların ərazisini idarə etmək üçün komendantlıqlar yaradılmışdı.

Şimali Azərbaycanda altı əyalət –Talış, Şirvan, Şəki, Qarabağ, Bakı və Quba əyalətləri, Yelizavetpol dairəsi, Car-Balakən vilayəti və Qazax, Şəmşədil distansiyaları yaradılmış, İrəvan və Naxçıvan isə 1828-ci ildə yaradılmış "Erməni vilayətinin" tərkibinə qatılmışdı. Çar qoşunlarına müqavimət göstərmiş Gəncə xanlığı (eləcə də, Bakı xanlığı) fəth edildikdən sonra ləğv edildilər. Çar hakimiyyəti xanlıq sistemini tamamilə ləğv edərək əslində hərbi-işğal rejimi yaratdı: keçmiş xanlığın ərazisinə qoşunlar yerləşdirilmişdi, dairənin (okruqun) başında hərbi, inzibati, mülki, məhkəmə, maliyyə hakimiyyətini birləşdirən və ali, yeganə instansiya olan komendant dururdu [4, док 118]. XIX əsrin 40-cı illərinə qədər Cənubi Qafqazda mövcud olmuş komendant sistemini dövrün rəsmi sənədlərində hətta "hərbi-xalq idarəçiliyi"! adlandırırdılar. Komendant hətta dini hakimiyyətə də malik idi. O əyalət məhkəmələrinə sədrlik edir, yerli müsəlman ruhani başçısı və şəriət məhkəməsinin sədrini (qazini), mahal naiblərini və digər vəzifəli şəxsləri təsdiq edirdi. İnzibati cəhətdən gələcək Yelizavetpol quberniyasının "müsəlman əyalətləri (provinsiyaları) – Qarabağ, Şəki, Şirvan və Talış xanlıqları qərargahı Şuşada yerləşən hərbi idarə başçısına, Bakı, Quba və Dərbənd əyalətləri isə Dağıstan hərbi qubernatoruna tabe idilər [7, c. 11-12].

Qazax və Şəmşədil sultanlıqlarının işğalından sonra onlar tatar distansiyalarına çevrildilər. Əyalətlərdə (provinsiyalarda) bir müddət hələ xanlıqlar dövründən qalma köhnə inzibati-ərazi bölgüsü - mahallar (uçastoklar) saxlanılmışdı. Mahallara naiblər başçılıq edirdilər.

XIX əsrin 30-cu illərinin əvvəllərində Cənubi Qafqazın ərazilərini tamamilə ələ keçirdikdən sonra çar hakimiyyətinin qarşısında daha bir mühüm vəzifə - müsəlman ali silki – bəylərlə və ağalarla münasibətlərin qurulması məsələsi ortaya çıxdı. Bir tərəfdən çarizm bölgədə özünə sosial dayaq yaratmaq üçün onları öz tərəfinə çəkməli idi. Digər tərəfdən rus hakimiyyəti xanlara və bəylərə etibar etmədiyindən onları idarəçiliyə buraxmaqda tərəddüd edirdi. Hətta həmin dövrdə Qafqazın hakimi olmuş A.P.Yermolov tərəfindən verilmiş fərman -"Ağalar haqqında Əsasnamə" əslində müsəlmanlar üçün təhqiramiz bir sənəd idi. O nəinki bəylərin və xanların mülkiyyət hüquqlarının məhdudlaşdırırdı, onlar üçün hətta bədən cəzaları tətbiq etməklə, S.S.Esadzenin təbirincə desək, "onları adi adamların, aşağı təbəqə insanların səviyyəsinə endirirdi" [7, c. 35].

Türkmənçay və Ədirnə müqavilələrinin bağlanması çarizmə Cənubi Qafqazda möhkəmlənməyə imkan verdi. İndi qarşıda əsas vəzifə bölgənin iqtisadi cəhətdən mənimsənilməsi dururdu. Bu həm də bölgənin imperiya üçün təsərrüfat-iqtisadi əhəmiyyətinin artması ilə bağlı idi. Məhz bu dövrdən Cənubi Qafqazın iqtisadi potensialını araşdırmaq üçün bölgəyə Rusiyada çoxsaylı tədqiqatçılar gəlməyə başladı. Təsadüfü deyil ki, Gəncəbasar və digər Azərbaycan bölgələrinin təsərrüfat-iqtisadi mənzərəsini özündə əks etdirən bir çox statistik materiallar, nəşrlər məhz 30-cu illərdə ortaya çıxır. Bu tədqiqatçıların əksəriyyəti Qafqaz administrasiyasının üzvləri idilər. Bu baxımdan 1936-cı ildə Tiflisdə nəşr

edilmiş "Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях" nəşri xüsusi əhəmiyyət kəsb edir.

İran və Türkiyə ilə sülh bağlandıqdan sonra çar hakimiyyətində və onun bölgədəki nümayəndələri arasında Cənubi Qafqazda idarəçilik sisteminin kökündən dəyişdirilməsi, imperiyanın digər mərkəzi ərazilərində olduğu kimi, burada da vahid idarəçiliyin yaradılmasını tələb edən çağırışların sayı artmağa başladı. Bu mövqeyinin tərəfdarları arasında Cənubi Qafqazın fəthində xüsusi rol oynamış İ.Paskeviç xüsusi yer tuturdu. O təkidlə bölgənin idarəçiliyində mövcud olan fərqliliyi ləğv etməyi, Rusiyadan məmurların bölgə idarəçiliyinə kütləvi cəlb etməyi və vahid, mərkəzləşdirilmiş idarəetmə sisteminin tətbiq edilməsini zəruri hesab edirdi. Əslində bu Cənubi Qafqazda idarəçilik sisteminin tam unifikasiyalaşdırılması və ruslaşdırılması demək idi. Bu təklifləri özündə əks etdirən "Zaqafqaziya diyarının təşkili haqqında mülahizələr ("Предположения об устройстве Закавказского края") Dövlət şurasında da tam dəstək aldı. Nəzərdə tutulmuş təklifləri əməli həyata keçirmək üçün "Zaqafqaziya diyarının təşkili haqqında Komitə yaradıldı [8, c.197]

1840-cı il aprelin 10-da çar I Nikolay Cənubi Qafqazda inzibati-məhkəmə islahatının aparılmasını nəzərdə tutan "Zaqafqaziya diyarının idarə edilməsi üzrə Müəssisə" layihəsini imzaladı [4, c.13369]. Sənəd Cənubi Qafqazın inzibati quruluşunu Rusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırırdı. Cənubi Qafqaz ərazisi mərkəzi Tiflis olmaqla Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölünürdü. Onlar isə öz növbəsində qəzalara (okruqlara), qəzalar isə nahiyələrə (uçastoklara) bölünürdü. Azərbaycanın ərazisinin bir hissəsi Xəzər vilayətinə daxil edilmiş və burada Şuşa (keçmiş Qarabağ), Nuxa (Şəki), Lənkəran (Talış), Bakı, Şamaxı qəzaları yaradılmışdı, digər hissəsi isə (Yelizavetpol qəzası, Qazax və Şəmşədil distansiyaları ilə birgə, Balakən qəzası və Naxçıvan qəzası) Gürcüstan-İmeretiya quberniyasına daxil edilmişdi. Yeni inzibati-ərazi bölgüsünü yaradarkən çar hakimiyyət orqanları öz müstəmləkəçilik ənənələrinə sadiq qalaraq "parçala və hökm sür" siyasətini əməli surətdə həyata keçirmək üçün bilərəkdən xalqların milli-etnik birliyi prinsipini pozmuşdular. Göründüyü kimi, gələcək Yelizavetpol quberniyasına daxil ediləcək ərazilər iki quberniya arasında bölüşdürülmüşdü.

Qəzalar (uyezdlər) öz növbəsində nahiyələrə (uçastok) bölünürdü, sonuncuların sərhədləri keçmiş mahalların sərhədlərinə uyğun gəlirdi. Quberniyalar kimi nahiyələrin sahələri də milli tərkib və iqtisadi özünəməxsusluq prinsipi nəzərə alınmadan, yalnız əhalinin sayı və "dövlət təhlükəsizliyinin təmin olunması mənafeləri" əsas götürülməklə müəyyənləşdirilirdi. Ümumilikdə Cənubi Qafqazda 72 nahiyə yaradılmışdı. Zaqafqaziyada (Cənubi Qafqazda) ali idarəçilik birbaşa imperator tərəfindən təyin olunan, ən yeni səlahiyyətlərə malik buradakı qoşunların baş rəisi (rusca: главноначальствующий) tərəfindən həyata keçirilirdi. Quberniyaya qubernator, qəzalara isə qəza rəisi rəhbərlik edirdilər [8, c.113-114; 1, s.113].

1840-cı il 10 aprel qanunu ilə Cənubi Qafqazda məhkəmə sistemində də dəyişiklik edildi. Qanunla cinayət işləri hərbi məhkəmələrdən alınaraq mülki məhkəmələrə verildi. Lakin qanun məhkəmə səlahiyyətlərin yenə də idarə orqanlarının əlində saxladı.

İnzibati-məhkəmə sistemində aparılmış dəyişikliklər regionda çarizmin milli-müstəmləkə sisteminin güclənməsinə xidmət edirdi. Azərbaycanda müsəlmanlar idarəçilikdən uzaqlaşdırılır, onların yerinə Rusiyadan gətirilmiş məmurlar təyin edilir, bütün kargüzarlıq işləri ancaq rus dilində aparılırdı.

Bununla yanaşı, çarizm müsəlmanların dini hisslərin tapdalanmasının kütləvi etirazlara səbəb olacağını göz önünə gətirərək ruhani (şəriət) məhkəmələrininin müəyyən funksiyalarını (müsəlmanlar arasında mülki, əmlak, ailə mübahisələri, nikah-boşanma məsələləri) onların əlində saxladı.

XIX əsrin qırxıncı illərində çar hakimiyyəti Qafqazda öz mövqeyini möhkəmləndirmək, regionun mənimsənilməsini sürətləndirmək üçün inzibati idarəçilikdə daha bir neçə dəyişiklik apardı. 1844-cü ildə diyarın Baş idarəsi əvəzinə Qafqaz canişinliyi təsis edildi. Canişinə müstəsna hüquqlar, hətta nazirlərə mənsub olan səlahiyyətlər verilmişdi. Onun əlində bütün mülki və hərbi hakimiyyət cəmləşmişdi [8, c.129-132]. Qafqazın ilik canişini I Nikolayın hədsiz etibar etdiyi S.M.Vorontsov təyin edildi.

Məhz Vorontsovun təqdimatı və çarın 1946-cı il 14 dekabr tarixli fərmanı ilə Cənubi Qafqazın inzibati ərazi quruluşunda dəyişiklik aparılaraq 4 quberniya – Tiflis, Kutaisi, Şamaxı, Dərbənd quberniyaları yaradıldı. 1849-cu ildə isə İrəvan quberniyası təşkil edildi. Lakin bu inzibati dəyişikliklər də regionun mili-etnik xüsusiyyətlərini əks etdirmirdi [8, c.133]. Azərbaycanın tarixi torpaqları Kutaisi quberniyasından başqa bütün quberniyalar arasında bölüşdürülmüşdü. Məsələn, Gəncə şəhərini və ətraf rayonları (Gəncəbasarı) özündə birləşdirən Yelizavetpol qəzası (uyezdi) Qazax və Şəmşədillə birgə yenə Tiflis quberniyasının tərkibində qalmışdı.

Çarizm Cənubi Qafqazda möhkəmlənmək üçün müxtəlif dəyişikliklər aparmaqla yanaşı, regionda özünə möhkəm etno-konfessional baza yaratmaq üçün buraya kütləvi şəkildə Rusiyanın mərkəzi quberniyalarından təfriqəçi əhalini (raskolnikləri) köçürürdü. Təkcə S.Vorontsovun dövründə buraya əsasən molokanlardan və duxoborlardan ibarət 3500 ailə köçürülmüşdü. Bununla yanaşı, çar hakimiyyət orqanları hələ 1817-1819-cu illərdə alman əhalini də Qafqaza köçürərək onları əsasən Gəncə yaxınlığındakı torpaqlarda yerləşdirmişdilər. Şimali Azərbaycanda yaradılmış alman məskənlərinin əksəriyyəti, Helenendorf, Annenfeld, Georgsfeld, Qrünfeld, Eichenfeld, Traubenfeld, Yelizavetinka kimi qəsəbə və kəndlər məhz bu ərazidə yaradılmşdı.

Nəticə

Çar hakimiyyəti Cənubi Qafqazı mənimsəmək, regionu vahid ümumrusiya iqtisadi-təsərrüfat sisteminə daha tez cəlb etmək, onun resurslarından və potensialından daha səmərəli istifadə etmək imperiyanın mərkəzi ərazilərində həyata keçirdiyi burjua xarakterli islahatları burada da tətbiq etməyə məcbur idi. Lakin regionda, o cümlədən Yelizavetpol (Gəncə) quberniyasında həyata keçirilmiş islahatlar yarımçıq səciyyə daşıyır və mövcud sosial-siyasi münasibətlərin kökündən dəyişdirmək məqsədi güdmürdü. XIX əsrdə, xüsusən həmin əsrin sonuncu onilliklərində çarizmin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda həyata keçirdiyi bütün islahatlar kimi, inzibati-idarə və məhkəmə islahatları da mütləqiyyətin müstəmləkəçi mahiyyətindən doğurdu, Azərbaycan xalqının milli hüquqlarını tapdalayırdı.

ƏDƏBİYYAT

1. Hacıbəyli, Ü. Tarixi günümüz // "Azərbaycan" qəzeti, – 1918-ci il. – 7 dekabr
2. Rəsulzadə, M.Ə. Əsrimizin Səyavuşu // – Bakı: Azərnəşr, –1991.
3. Акты, собранные Кавказской археографической комиссией (АКАК): В 13 томах, Том II, Тип. Главного Управления Наместника Кавказского. – Тифлис: – 1868.
4. Дубровин, Н. Ф. Закавказье от 1803—1806 года,– СПб.: – 1866
5. Колониальная Политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Феодальные отношения и колониальный режим (часть I. 1827 – 1843; часть II. 1843 – 1868), Сост. : Н.Г.Богданова; Е.М. Притыкин, Ред. : И.Р.Петрушевский, Изд-во: Академия Наук СССР, – Москва, – Ленинград: – 1936.
6. Мильман, А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков // – Баку: Азернешр, – 1966.
7. Национальные окраины Российской империи: становление и развитие системы управления, В.В. Трепавлов. М.: Славянский диалог, – 1998. Электронный вариант, https://rusneb.ru/catalog/000199_000009_000598088/
8. Azərbaycan tarixi / [7 cilddə]. – Bakı: Elm, – IV cild, – 2000.

VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCANIN ZƏFƏRİNİ ŞƏRTLƏNDİRƏN FAKTORLAR

Müşfiq RAMAZANOV
akademiya2009@gmail.com
Orcid İD: 0009-0001-2801-598X
DTX-nin Heydər Əliyev adına Akademiyası

Azərbaycan XX əsrin 90-cı illərində ikinci dəfə tarixi dövlət müstəqilliyini bərpa etmək şansı qazandı. Dövlət müstəqilliyimizin bərpa olunmasının ilk illərindən mənfur qonşumuz Ermənistan Respublikası xarici havadarlarından siyasi və hərbi dəstək alaraq beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazisi kimi tanınan torpaqlarımızın 20%-ni işğal etdi. Bundan başqa, münaqişə nəticəsində Qərbi Azərbaycandan 1988-ci ildə 250 minə yaxın soydaşımızın öz tarixi torpaqlarından qaçqın düşməsi, ümumilikdə Azərbaycanın bir milyonadək vətəndaşı öz doğma, tarixi yurdlarını tərk etdilər. Erməni işğalı ölkəmizin ərazi bütövlüyünü, suverenliyini pozmaqla bərabər iqtisadiyyatımıza, mədəniyyətimizə və milli maraqlarımıza çox böyük zərbələr vurdu və bu işğalçılıq siyasəti 30 il davam etdi. Bu müddətdə Azərbaycan xalqı səbrlə dünyanın aparıcı təşkilatlarının sülh yolu ilə bu işğala son qoymağını, münaqişənin dinc yolla ədalətli formada həll olunacağını gözlədi. Ancaq keçən zaman göstərdi ki, işğalçı Ermənistan dövlətinin niyyəti Azərbaycanın tarixi torpaqlarından çıxmaq deyil, əksinə, bu torpaqlarda qeyri-qanuni məskunlaşdırma aparmaq, status kvonu saxlamaq və daha yeni-yeni ərazilər işğal etməkdir. Bu istiqamətdə Ermənistanın hərbi-siyasi rəhbərliyi açıq şəkildə, heç bir beynəlxalq hüquq normalarına əməl etmədən məsuliyyətsiz bəyanatlar verirdi. Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə münaqişə ilə bağlı qəbul etdiyi bütün işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməyə baxmayaraq, Ermənistan işğalını davam etdirdi və bununla da beynəlxalq hüququn əsas prinsipini pozdu. 30 il müddətində beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in Minsk qrupunun münaqişənin həlli istiqamətindəki acizliyi sülh prosesini çıxılmaz vəziyyətə saldı [1]. Ermənistanın Baş Naziri 2020-ci ilin əvvəlində Madrid Prinsiplərini şübhə altına alan zaman Ermənistanla Azərbaycan arasındakı gərginlik daha da kəskinləşdi. Ermənistan tərəfindən ardıcıl təxribatlar, xüsusən də 2020-ci ilin iyulunda Azərbaycanın Tovuz rayonu istiqamətində dövlət sərhəddində baş verən toqquşmalar bölgədəki bütün sülh səylərinə zərbə vurdu. Eyni zamanda Ermənistan-Azərbaycan arasındakı münaqişənin həlli istiqamətində beynəlxalq təşkilatların Ermənistanın işğalçılıq siyasətinə son qoymaq, Cənubi Qafqazda dayanıqlı sülhə nail olmaq üçün əməli addım atmamaları müharibənin başlanmasını labüd etdi.

27 sentyabr 2020-ci ildə işğalçı Ermənistan dövlətinin qeyd etdiyimiz məkrli niyyətlə ölkəmizə yeni hücumu xalqımızın səbr kasasını daşdırdı və nəticədə Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə ordumuz tərəfindən əks hücum əməliyyatına başlanıldı. Düşmənin həmləsinə qarşı genişmiqyaslı əks hücum əməliyyatının başlanması qısa müddətdə otuz illik "təmas xəttini", eyni zamanda "yenilməz erməni ordusu" mifini

darmadağın etdi. 44 gün ərzində xalqımız II Qarabağ müharibəsini, 19 sentyabr 2023-cü ildə 24 saat çəkən antiterror əməliyyatını ordumuzun şücaəti, Prezident İlham Əliyevin komandanlığı və siyasi iradəsi ilə tam zəfərlə başa çatdırdı. Beləliklə, Azərbaycan ordusu və onun Ali Baş Komandanı İlham Əliyev Cənubi Qafqazda yeni geosiyasi və geoiqtisadi reallıqlar yaratdı. Vətən müharibəsindəki zəfərimizi şərtləndirən əsas faktorlar siyasi, iqtisadi, hərbi və s. sahələrdə əldə etdiyimiz uğurlar və bu sahələrdə əldə edilən uğurların əsasında isə səbrlə uzun illər həyata keçirilən dövlət siyasəti dururdu. Vətən müharibəsində Azərbaycanın zəfərini şərtləndirən faktorlardan ən əsası düzgün xarici siyasət kursunun aparılması oldu. Zəfərə aparan bu kursun siyasi aspektləri çoxşaxəli olduğundan onun əsas istiqamətlərini aşağıdakı kimi təşnifləşdirmək olar:

1. Azərbaycan dövləti aparıcı beynəlxalq təşkilatların tribunalardan Ermənistan-Azərbaycan münaqişəsi haqqında tarixi, siyasi gerçəklikləri tanıtdırmaq siyasətini yürütdü, yəni münaqişənin əsl mahiyyəti haqqında həqiqətləri dünya siyasi arenasına çıxara bildi;

2. Azərbaycan dövlətinin müsbət beynəlxalq imicinin formalaşdırılması məqsədilə, xalqımızın tarixinin, mədəniyyətinin, incəsənətinin tanıdılması sahəsində təbliğata xüsusi önəm verən ardıcıl siyasət yürüdüldü;

3. Xarici siyasət kursunda Ermənistanı beynəlxalq aləmdə izolyasiya etmək siyasəti yürüdüldü;

4. Ermənistana qarşı regional əməkdaşlıq formatlarının yaradılması (məs., Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Gürcüstan-Türkiyə, İran- Azərbaycan- Rusiya və s.);

5. Avropa ölkələri ilə yanaşı, Yaxın Şərq ölkələri ilə də siyasi, iqtisadi və hərbi əməkdaşlığın inkişaf etdirilməsi;

6. Hərbi sahədə diversifikasiya siyasətinin həyata keçirilməsi (NATO və təşkilata üzv ölkələrlə ayrı-ayrılqda, Pakistan, İsrail, Çin və s.);

7. Qardaş Türkiyə ilə münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldilməsi;

8. Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi və s. Qeyd edək ki, Vətən müharibəsindəki qələbəni şərtləndirən əsas amillərdən biri də iqtisadi sahədə dövlətimizin güclü olması idi. Məlum olduğu kimi, müstəqilliyimizin ilk illərindən Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dinamik iqtisadi islahatlar ölkəmizin dayanıqlı iqtisadi inkişafına, iqtisadi təhlükəsizliyin, milli maraqların təmin edilməsinə, o cümlədən hərbi gücün artırılmasına yönəldilmişdir. 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev birinci növbədə ölkədə siyasi sabitliyin bərpasına, erməni təcavüzünün qarşısını almaq üçün atəşkəsə nail oldu, eyni zamanda köklü iqtisadi islahatların əsasını qoydu. Bu istiqamətdə aparılan iqtisadi islahatlara xarici investisiyaların cəlb olunması, zəruri maliyyə ehtiyatlarına malik olmaq üçün ölkənin malik olduğu zəngin karbohidrogen ehtiyatlarının səmərəli istifadəsi və sair məsələlər daxil idi. Heydər Əliyevin siyasi uzaqgörənliyinin nəticəsində 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması və onun uğurla həyata keçirilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan verməklə bərabər, iqtisadi gücümüzün artmasına geniş imkanlar yaratdı.

Məlumdur ki, güclü ordu yaratmadan 30 il erməni işğalında olan torpaqlarımızı azad etmək qeyri-mümkün idi. Bu istiqamətdə dövlət siyasətinin əsas istiqamətini aşağıda qeyd olunan məsələlər təşkil edirdi:

1. Dayanıqlı iqtisadi inkişafı təmin etmək;
2. Vahid komandanlıq altında nizami ordunun yaradılması;
3. Ordunu müasir və yüksək texnologiyalarla təmin etmək;
4. Hərbi sahədə yüksək texnologiyaları idarə edə bilən peşəkar zabit kadrların hazırlanması;
5. Ölkənin müdafiə sənayesinin yaradılması və s.

Qarşıya qoyulan hədəflərə çatmaq üçün birinci növbədə ordunun maddi-texniki təminatı prioritet istiqamət kimi müəyyənləşdirilmişdir. Belə ki, dövlətin iqtisadi gücü və maliyyə ehtiyatları artdıqca ordu quruculuğuna ayrılan dövlət vəsaitinin həcmi də artmağa başladı. Bildiyimiz kimi, dünyada ordunun gücünün qiymətləndirilməsinin əsas meyarlarından biri onun maliyyələşmə həcmini əks etdirən göstəricidir. Belə ki, 2003-cü ildə müdafiə xərcləri 135,3 milyon manat, 2023-cü ildə isə bu göstərici 5,1 milyard manat təşkil etmişdir. Azərbaycanın müdafiə xərcləri Ermənistanla müqayisədə təxminən 6 dəfə çoxdur [3].

Qeyd edək ki, Azərbaycan Vətən müharibəsindəki qələbəsi və 19 sentyabr 2023-cü il tarixində keçirdiyi 24 saatlıq antiterror əməliyyatları nəticəsində ərazi bütövlüyünü, suverenliyini tam bərpa etməklə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaratdı. Münaqişə səbəbindən uzun illərdir dayandırılan kommunikasiyanın və iqtisadi əlaqələrin bərpası bölgənin geoiqtisadi xəritəsini əsaslı dəyişdirəcəkdir. Ümumiyyətlə, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanması nəticəsində regionda kommunikasiyaların tam açılması istər region ölkələrinin öz aralarında, istərsə də Qərb ölkələri ilə ticarət əlaqələrinin inkişafı istiqamətində böyük imkanlar açacaq. Azərbaycanın öz ərazi bütövlüyünü tam şəkildə bərpa etməsi ölkəmizi Cənubi Qafqazın aparıcı dövlətinə çevrilməsinə, strateji müttəfiqimiz – qardaş Türkiyənin regionda hərbi-siyasi maraqlarının daha da güclənməsinə, türk dünyasının geostrateji təsir imkanlarının genişlənməsinə səbəb olacaq. 19 sentyabr 2023-cü il tarixində keçirilən 24 saatlıq uğurlu lokal xarakterli antiterror əməliyyatı Ermənistanla demarkasiya və delimitasiya proseslərinin sürətlənməsinə, yekun sülh müqaviləsinin imzalanmasına və Zəngəzur dəhlizinin açılmasına təkan verəcək.

Qeyd edək ki, XXI əsrdə Azərbaycan xalqının əldə etdiyi böyük zəfər XX əsrin sonlarında Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımızın öz dədə-baba torpaqlarına qayıdışını tarixi zərurətə çevirib.

ƏDƏBİYYAT

1. 44 Günlük Qarabağ müharibəsi: Mülahizə və nəticələr // – Bakı: – 2021.
2. AR DSK "Azərbaycan sənayesi" (statistik məcmuə). Səda: – 2022.
3. AR DSK "Azərbaycanın statistik göstəriciləri" (statistik məcmuə). Səda: – 2022.

QƏRBİ ZƏNGƏZURUN TARİXİ ABİDƏLƏRİNDƏ TÜRK İZLƏRİ

Aytən ƏSƏDOVA
asadova_ayten@bk.ru
Orcid İD-0000-0002-5067-1393
Sumqayıt Dövlət Universiteti

Zəngəzur Araz çayı boyunca Mehridən başlamış Akaraya qədər,şimalda isə Qapışaq dağlarına, Bərgüşad dağlarınadək uzanan əraziləri əhatə edir. Mənbələrin, tarixi-arxeoloji abidələrin verdiyi məlumatlara görə, bu ərazilərin əsas sakini azərbaycanlılar (türklər) olmuşdurlar. 1920-ci ildə Zəngəzurun qərb torpaqlarının Ermənistana verilməsindən sonra bu ərazilərdə yerli əhalinin izini silmək üçün ermənilər Zəngəzurda XX əsrin əvvəllərində dəfələrlə soyqırımlar törətmiş, yerli əhaliyə məxsus yaşayış yerlərini, tarixi abidələri dağıtmışdır. Ermənilər bu ərazilərdə müsəlman qəbiristanlıqlarını, abidələrini məhv edir, Alban dövrü xristian abidələrini isə saxtalaşdırmaqla öz adlarına çıxırlar. Bu ərazilərdə İslamdan öncə bütün abidələrin ermənilərə aid olduğunu iddia edirlər. Əslində Qərbi Azərbaycanda (İndiki Ermənistanda) ermənilərə məxsus (üst təbəqədə) abidələrin 200-dən çox yaşı yoxdur. Bu isə Rus-İran müharibələri, Azərbaycanın işğal edilərək parçalanmasından sonra Türkiyə və İrandan ermənilərin kütləvi köçürülməsi ilə əlaqədardır. Lakin bir həqiqəti unutmaq olmaz ki,tarixi abidələr hər formasında, üslubunda, mənsub olduğu xüsusiyyəti ilə aid olduğu xalqın izini daşıyır.

Sovet dövründə Qərbi Zəngəzurun Qafan, Qarakilsə və sair ərazilərində azərbaycanlılara aid bir çox abidələr məhv edilib, hal-hazırda Qərbi Azərbaycanda olan abidələrimizin aqibəti məlum deyil. Lakin vaxtı ilə aparılan tədqiqatlar, foto-şəkillər, tarixi arxiv sənədləri, mənbələr, etnoqrafik-toponomik məlumatlar həmin ərazilərdə olan abidələrin türklərə məxsus olduğunu təsdiq edir. Araşdırdığımız mövzuda Zəngəzurun Urud, Nüvədi, Qoşundağ, Şəki və başqa tarixi abidələrində Qərbi Zəngəzurda türklərin qədim tarixinə işıq salan izləri görürük.

Açar sözlər: *Zəngəzur, türk-oğuz, Urud, kənd, abidə, qala, qəbir.*

Giriş

Tarixi, arxeoloji abidələrlə zəngin olan Zəngəzur Azərbaycanın ən qədim ərazilərindən biridir. Zəngəzur "Zəngi" etnonimidir, türk tayfa adıdır. M.Kaşkarlı, A.Bakıxanov, Rəşidəddin, Əbdülqazi əsərlərində və bir çox digər yazılı mənbələrdə 24 Oğuz tayfasından biri olan Zənginin adı çəkilir. Azərbaycanın hər yerində zəngi ilə başlayan yer adlarına rast gəlinir. Zəngəzurun daha bir leksik mənası ərəbcə "sur" dağ, daş deməkdir.

Sovet dövründə Azərbaycandan qoparılaraq ermənilərə verilən yurdumuzun tarixi keçmişini, həmin ərazilərdə izimizi təsdiq ən vacib mənbələrdən biri isə məhz **"tarixi-arxeoloji"** abidələrimizdir. Tarixi keçmişimizə işıq salan, lakin bizim əlimizin çata bilmədiyi, yalnız arxiv mənbələrində, sovet dövrü aparılan tədqiqatlarda, xarici alim və jurnalistlərin yazılarında (hətta ermənilər belə bu ərazilərdəki abidələrin azərbaycanlılara aid olduğunu təsdiq edir) rast gəldiyimiz Qərbi Zəngəzur abidələrini öyrənmək, məlumatları gələcək nəslə çatdırmaq hər birimizin borcu olmalıdır.

Sovet (1920-1991-ci illər) hakimiyyəti illərində azərbaycanlıların deportasiyası, Qərbi

Azərbaycanda yerli toponimlərin dəyişdirilməsi və abidələrin saxtalaşdırılması, məhvi Ermənistan SSR-nin siyasətinin əsas tərkib hissəsi idi. Bütün bu proseslər ermənilərə verilən bütün türk yurdlarında həyata keçirilirdi. 1924-cü ildə A.Tamanyanın layihəsi əsasında həyata keçirilən İrəvan şəhərinin rekonstruksiyası, əslində azərbaycanlıların izini silməyə xidmət edirdi. Göy məsciddə Tarix Muzeyi yerləşdirilmiş, Zal xan məscidində rəssamlar ittifaqının sərgi salonu yaradılmışdır. Azərbaycanlılara məxsus tarixi abidələrdə erməni muzeyi və sərgiləri yaradılmışdır, qalan bütün məscidlər dağıdılmışdır. Yeganə qalan Dəmirbulaq məscidi isə 1988-ci ildə yandırılmışdır.

Əsas mətn

Sovet hakimiyyətinin ilk illərindən (1920-ci il) başlayan bu ərazilərdə etnik təmizləmə siyasəti sürətlə həyata keçirilməyə başlandı. Zəngəzurun böyük bir hissəsinin Ermənistana verilməsi ilə Azərbaycana daha böyük bir zərbə vuruldu – Naxçıvan Azərbaycandan coğrafi cəhətdən ayrı düşdü. Azərbaycanlıların yaşadığı, tarixi yurd yeri olan Zəngəzurda silsilə şəklində dəfələrlə faciələr törədildi, deportasiyalar həyata keçirildi. Butün bunlarla kifayətlənməyən ermənilər bu ərazilərdə yerli xalqın izini itirmək üçün tarixi abidələri, qəbirləri məhv etməyə, toponimləri dəyişdirməyə başladılar. Çünki bu ərazilərdə olan abidələr, onların daşıdığı adlar belə hamısı yerli türklərə məxsus idi. Zəngəzurda olan qəbirlər, qalalar (memarlıq üslubuna görə) epiqrafiq abidələr, pirlər, məbədlər, məscidlər və s. burda olan yerli türk əhalinin kimliyi, tarixi, dini inancı, adəti barədə məlumat verir. Zəngəzurda olan bütün abidələr buranın türk-oğuz yurdu olduğunu təsdiq edirdi. Ermənilər bu abidələri məhv etmək və ya öz adlarına çıxmaqla əsas məsələni unudurlar ki, tarixi arxeoloji abidələr yeganə mənbədir ki, hər formada (hətta dağılmış olsa belə) mənsub olduğu xalqın izini saxlayır.

Qərbi Zəngəzurun tarixi-arxeoloji abidələrində türk izləri

Qərbi Zəngəzur tarixi türk yurdu, doğma vətənimizin mühüm tərkib hissəsi idi. Zəngəzurun qədim tarixi qədim daş dövründən başlayır. Bu qədim tarixi qədimdən günümüzədək daşıyan tarixi-arxeoloji abidələrimizdir. Qədim dövrlərin məlumatlarını bizə çatdıran Böyük İşıqlı, Dəvəboynu, Qarqadaşı dağlarında olan türk tayfalarına aid qayaüstü rəsmlər, kitabələr, Urud abidələri (qəbirüstü abidələr), yaşayış məskənləri, qoç heykəlləri, türklərə məxsus kurqanlar, Alban məbədləri və sair abidələrdir. Bu abidələrin hər izində türklərin bu ərazilərdə qədim tarixindən xəbər verir.

Zəngəzurun qədim abidələrlə zəngin olan Qarakilsə ərazisinin abidələri də bu yerlərin tarixi Azərbaycan torpağı olduğunu təsdiq edir. Qərbi Zəngəzurun bütün qədim abidələrində - həm memarlıq, həm qayaüstü, həm xristian, həm də müsəlman abidələrində türk izlərini görürük. Bu isə təsadüfü deyil, çünki bu torpaqların, bu abidələrin əsl sakinləri məhz türklər idi. Vaxtı ilə Qarakilsədə 295 tarixi abidə qeydə alınmışdır. Professor Mikayıl Heydərov da öz tədqiqatlarında bunu təsdiq edir [2, s.10]. Tarixi saxtalaşdıran ermənilər tarixi faktlar qarşısında aciz olduqlarını unudurlar. M.Kalankatlının "Alban tarixi" əsərində alanların-qarqarların, xəzərlərin, hunların və digər türk dilli etnosların, tayfaların adı çəkilir. Onu xüsusilə qeyd etməliyik ki, adlarını çəkdiyimiz türkdilli tayfalar Azərbaycan türklərinin xalq kimi formalaşmasında iştrak etmişdilər. Qərbi Azərbaycanın bütün ərazilərində, ən əsasda qarqarların izi olan abidələrə rast gəlinir.

Qərbi Zəngəzurda türklərin olduğunu təsdiq edən abidələrdən biri də Urud qəbirstanlığı idi. Qəbiristanlıq XV-XVl əsrlərə aid idi. Bu qədim qəbiristanlıq Bədir qayasının yanında Bazarçayın sol sahilində yerləşirdi. Burda 100-dən çox qədim qəbir, 13 sanduqə, 4 qoç heykəli var idi. Sovet hakimiyyəti illərində 1926-cı ildə Ə.Ələkbərov, 1959-cu ildə Z.Bünyadov tədqiqatlar aparmışdılar. 1961-ci ildə M.Nemətova bu ərazilərdə XV-XVll əsrlərə aid tarixi-epiqrafik abidələri öyrənmişdir [1, s.46-47]. Qəbirlər üzərində yazılar ərəb qrafikasının kufi, nəxş, süls, nəstəliq üslubunda yazılmışdır. Urud qəbirləri üzərində qoç, at fiqurlarına, fiqurlar üzərində isə yerli əhalinin mədəniyyətini əks etdirən naxışlara rast gəlinirdi. Qəbirlər üzərində şamanizmi əks etdirən oymalar bu ərazilərin köklü sakinləri haqqında tutarlı tarixi məlumatlar verir. Qeyd etmək lazımdır ki, qoç mənası qədim türklərdə erkəkliyin, ürəkliliyin, gücün, qoçaqlığın, vəfanın və fədakarlığın, at isə dostluğun, özgürlüyün rəmzi idi [21]. Qəbirlər üzərində təsvirlər türk dilli xalqların dini ayinləri ilə əlaqədardır. Eyni zamanda məzarüstü abidələrdə İslam dini ilə əlaqədar dualar da var. Hətta 1478-ci ilə aid qəbir üstü abidə olan sənduqədə "min evladı uğvan" yazılmışdır Burada uğvan –ağvan –alban deməkdir. Eyni sözlər 1578-1579- cu illərə aid Əmirəmin oğlu İftixarın qoç heykəli olan xatirə abidəsinin sağ tərəfində də yazılmışdır [13, s.77-78]. Qəbirlər üzərində maralın, öküzün, qoçun üzərinə qonmuş, qanadları açıq qartal rəsmlərinə rast gəlinir. Bu formada olan orqonlar türk xalqlarına məxsusdur və islamdan əvvəlki dövrə aid dini inanclardan xəbər verir. Eyni zamanda bəzi qəbirlərdə qarşı-qarşıya durmuş tibet öküzlərinin rəsmlərinə də rast gəlinir. Bütün bunlar bu ərazilərdə yerli türk xalqlarının tarixini əks etdirir. Urud qəbiristanlığında bəzi daşlar üzərində əllərini göyə qaldırmış insan rəsmlərinə də rast gəlinir. Urud qəbirləri yalnız bir tarixi abidə olaraq üzərindəki yazıları yox, həm də bir elin, yurdun tarixini özündə əks etdirir. Toponomik mənbə kimi epiqrafik abidələr xüsusi əhəmiyyət kəsb edir. Bu abidələr türk dünyasında XlV-XV əsrlər Qaraqoyunlu və Ağqoyunlu dövlətinin adı ilə bağlı olsa da, lakin bunun tarixi eradan əvvələ gedir. Bu formalı abidələr eyni zamanda İğdırda, Qarsda, Ərzurumda rast gəlinir, eyni zamanda Yenisey qırğızlarının yaşadığı Xakasya, Tuva və sair ərazilərdə də rast gəlinir [21.s.340]. Tarixi-epiqrafik Urud abidələri həm də dövrünün (həm İslamdan əvvəl, həm də sonrakı dövrlər) adət-ənənəsini, məişət tarixini günümüzə daşıyır. Bizim eranın ilk əsrlərinə qədər Qərbi Azərbaycan ərazisində yaşayan yerli xalqın dini inanclarında əsas yeri atəşpərəstlik və tanrıçılıq tutur. Burada olan dini abidələr, qəbirlər üzərində də bunu aydın görürük. Zəngəzurun epiqrafik abidələri Azərbaycanın qədim maddi və mənəvi abidələrinin xəzinəsidir. Bu abidələr Azərbaycanın daş üzərində oyma sənətinin Təbriz, Naxçıvan məktəbi nümunələrinə aiddir. Qəbirlər üzərindəki işarələrlə həm də həmin dövrün sənətkarlıq nümunələri - xalçaçılıq, zərgərlik və sair barədə məlumat verir. Təəssüflə bildirmək lazımdır ki, bu abidələrin əksəriyyəti ermənilər tərəfindən məhv edilib. Tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində xalqımıza məxsus minlərlə tarixi-arxeoloji, memarlıq abidələri vəhşicəsinə dağıdılıb, məhv edilmişdir. Bu abidələrdən yalnız 3 qəbirüstü abidə Naxçıvanda, digər 2-si isə Gəncədə muzeydə saxlanılmaqdadır. Bunlar həmin ərazilərdən azərbaycanlılar qovularkən vətənpərvər azərbaycanlılar tərəfindən gətirilmişdir.

Urud abidələrinin tədqiqi ilə həmin dövrdə Zəngəzurda yaşayan əhalinin tərkibi, dini inancı, şeyx, pir, ruhani və digər vəzifə sahibləri haqqında məlumat alırıq. Qəbirlər

üzərində pir, şeyx, baba, imam yazıları və sair burda erməni izi haqqında heç nə demir. Urud qəbiristanlığında olan qəbirüstü abidələr üzərindəki təsvirlər və kitabələr vaxtı ilə Qafqaz Albaniyasının ərazisi olan Sunikdə yaşamış albanların müsəlmanlığı qəbul etməsindən xəbər verir. Çox təəssüflər olsun ki, ərəb işğallarına qədər (Vll əsr) Qafqazda olan türk- müsəlman abidələri əsasən də Sovet dövründə erməni abidələri, bəzən isə gürcü abidələri adlandırılıb. Qeyd etmək lazımdır ki, müasir Azərbaycan xalqının formalaşmasında, təşəkkülündə alban tayfaları da iştirak etmişdi. Zəngəzurda öyrənilən abidələr üzərində təsvirlərdən, kitabələrdən M.Nemətova belə bir qənaətə gəlmişdir ki, alban tayfalarında hələ İslamdan çox-çox əvvəllərdən türkləşmə prosesi getmişdi [13]. Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisinin əsas əhalisi türklər olması ilə yanaşı, digər azsaylı xalqlar, etnik qruplar da olub və tarix boyu azərbaycanlılar tolerant olub. Lakin bunu xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın tarix boyu mənsub olduğu torpaqlarda etnik tərkibdən danışarkən orda ermənilərin izi tozu belə yoxdur. Bu gün də Azərbaycanın multikultural, tolerant ənənəsi dünyaya bir örnəkdir.

Zəngəzurun Cəfərabad kəndində (ermənilər adını dəyişib - Argavand edib) qırmızı daşdan tikilən səkkizguşəli türbə və onun üzərindəki kitabələr türklərin bu ərazilərdə izini təsdiq edən daha bir sübutdur. Türbə Qaraqoyunlu dövrünə aiddir. Türbənin üzərində 22 metrlik kitabə var. Yazılarda deyilir *"Hicri 816 cı ildə (1413 il) bu türbə tikilib.* Yazıda digər qeyd olunanlar Pir Hüseyn və onun atası Əmir Səəd Çuxur-Səəd vilayətinin əmirləri olub və Səədli oğuz türk tayfasına mənsub olublar [19.s.233]. Bu abidənin dam örtüyü 1918-ci ildə ermənilərin Zəngəzurda qırğınlar törətdiyi vaxtlarda dağıdılmışdır [17.s.29-30]. Bu abidələrin və həmin ərazilərdə olan bir çox müsəlman qəbiristanlıqların məzar daşları sökülərək ev tikintilərində istifadə edilmişdir.

Qərbi Azərbaycan abidələri içində xristianlığa qədər olan dövrü özündə yaşadan abidələrdən biri Qarakilsənin Qoşundağ abidəsidir. Qədim abidə Zəngəzur mahalının Qarakilsə rayonunun mərkəzindən 3 km. aralıda yerləşir. Abidə eradan əvvəl 2-ci minilliyə aiddir [4, s.13]. Abidə çoxlu sayda yerə basdırılmış, dik dayanmış nəhəng daşlardan ibarətdir. Daşlar dairəvi şəkildə düzülmüşdür. Şaquli-dik basdırılmış daşlara görə abidənin adı Qoşundağ adlandırılmışdır. Daşların üzərində dəliklərə də rast gəlinir. Bunu arxeoloq-tədqiqatçılar belə izah edirlər ki, daşlar çox böyük olduğundan onları qoşqu qüvvəsi ilə istənilən yerə daşınmaq üçün edilmişdir. Abidənin mərkəzində sərdabə (kurqan) olduğu bildirilir. Eyni zamanda bu ərazilərdə bir neçə yerdə qazma damların qalıqları da aşkar edilmişdir. Damların divarları iri sal daşlardan səliqə ilə hörülmüşdür, üstü isə iri sal daşlarla örtülmüşdür. Ermənilər bu abidənin adını səthi tərcümə edərək Zorakarer adlandırmışdılar. Əslində isə ermənilərin nə bu abidə ilə, nə də onun adı ilə əlaqəsi yoxdur. Zəngəzur azərbaycanlıları arasında yayılan rəvayətə görə bu ərazilərdə vaxtilə güclü insanlar yaşamışdılar. Bu insanlar oğuz türklərinin ulu babaları idilər. Bu abidənin kənarında düzülmüş cərgə ilə olan daşlar döyüşdə həlak olan əsgərlərə mərkəzdə olan kurqan isə əsgərlərin başçısı, türk sərkərdəsinə məxsusdur. Arxeoloji qazıntılar zamanı burada aşkar edilən döyüş ləvazimatları da, silahlar da bu qəbirlərin döyüşçülərə aid olduğunu təsdiq edir [1, s.33-34].

Ümumiyyətlə, Şəki sözü Azərbaycanda olan yer adları kimi eradan əvvələ, Vll

əsrlərə aiddir. Bu söz sakların (sakat) türk boyunun adı ilə bağlıdır [1, s.31]. Qədim türk dilində Sak termininin sinonimi – Ok, eyni zamanda Soy Vahidi terminidir. Türk tayfa ittifaqları da özlərini bu terminlə adlandırırdılar [6, s.367; 7, s.48]. Strabonda öz yazılarında Sakların (sakaların) bu bölgədə gerçəkdən yaşadıqlarını bildirmişdir [8, s.45]. Burada olan qayaüstü rəsmlər bu ərazilərin türk yurdu olmasını təsdiqləyir və tarixinə işıq salır. Bu abidələr Gəmiqaya və Qobustan abidəsi ilə oxşarlıq təşkil edir. Türklərin ən qədim inanclarından biri olan tibet öküzü rəsmləri Şəki qayaüstü rəsmlərində də rast gəlinir. Eyni rəsmlərin oxşarına Zəngəzurun digər yerlərində də rast gəlinmişdir. Bu rəsmlərin oxşarına Urud kəndində Ğığı dərə deyilən yerdə 4-5 iri sal daşlar üzərində rast gəlinir. Rəsmlər əsasən öküz və at rəsmləridir. Eyni zamanda bu qaya üzərindəki rəsmlərin oxşarına Qafan və Meğri rayonlarında da rast gəlinir. Lakin bunlar tədqiq edilməmişdir. Çox təəssüflər olsun ki, Sovet dövründə Azərbaycanın ermənistana verilən ərazilərində bir çox maddi-mədəniyyət abidələri, qayaüstü rəsmlər kortəbii öyrənilmiş, bəziləri tam, bəziləri heç öyrənilməmişdir. Ermənilər isə abidələrin çoxunu məhv etmiş, Alban məbədlərini isə bəzilərini mənimsəmiş və öz adlarına çıxmışdılar. Qərbi Azərbaycanda olan türklərə məxsus abidələrin əksəriyyətinin taleyi isə bu gün məlum deyil. Hətta nəinki Zəngəzurda, eyni zamanda yuxarı Qarabağdakı abidələrin taleyi də eynidir. Əsgəranın Daşbulaq kəndindəki böyük bir məzarlıq V.Griqoryanın (işğal dövründə bölgə valisi) əmri ilə şumlanaraq əkin yeri kimi istifadə edilmişdir [17, s.30]. Eyni aqibəti Xocalı, Xocavənd və digər işğal edilmiş Azərbaycan ərazilərində olan abidələrdə yaşamışdır.

Şəki kəndinin cənubunda kənddən 700-800 metr aralıda Darvazadöşü deyilən ərazi var. Mülahizələrə görə Şəki kəndinin ən qədim ərazisi (ilk yerləşdiyi yer) məhz bura olmuşdur. İndiki Şəki ərazisində isə məskunlaşma XVlll əsrdə olmuşdur [9]. Bu ərazidə olan təpəlikdə Şəki qalası yerləşirdi. Azərbaycanlıların bu ərazilərdə yaşadıqları son dövrlərə qədər bu qalanın qalıqları qalmaqda idi, indi isə məlum deyil.

Zəngəzurun tarixi abidələri içində Qarakilsə məbədini (müqəddəs Qriqori) göstərə bilərik. Məbəd hündür bir təpəlikdə salınmışdır. Abidə Vl-Vll əsrlərdə albanlara məxsus xristian abidəsidir. Abidə "qara" yonulmuş bazalt daşından tikildiyi üçün də "Qarakilsə" adlandırılmışdır. Buradan bir sual çıxır ki, bu abidə əgər ermənilərə məxsus idisə niyə bəs türklərin dili ilə "Qarakilsə" adlanırdı. Tarixi mənbələrə görə bu məbəd xristianlıqdan əvvəl bu bölgədə olan bütpərəst abidəsinin yerində tikilmişdir. Bu abidə də olan bir rəsmdə yerli əhalini antropoloji cəhətdən də müəyyən etmək olur. Kilsədə Kozaltın (Sunik knyazı) daş üzərində şəkli həkk edilmişdir. Kozaltın dar, badama bənzər qıpçaq gözü diqqəti cəlb edir. Məbəddə olan Sunik yepiskopunun da sifət və göz qruluşu qıpçaq tiplidir. Bu isə həm onların alban-türk mənşəli və ya memarın türk soylu olduğunu göstərən bir detaldır [1, s.52-53]. Abidənin səkkiz guşəli tikilməsi və damının qübbə şəklində olması diqqəti çəkir. Bu isə əsasən türklərin Tibetdən gətirdikləri "tanrıçılıq" adəti ilə bağlıdır.

Ermənilər Cənubi Qafqazda olan kilsələrin yalnız onlara aid olduğunu bildirirlər. Əslində Cənubi Qafqazda olan xristian kilsələri ilə yanaşı, İslama qədər bütün abidələrdə türklərin izini görürük. Bu məsələyə məqaləmizin digər hissəsində toxunduq (İslama qədər müxtəlif dini inanclar, etnik tərkib, toponimlər və sair). Cənubi Qafqazda türklər

(saklar, kimmerlər, hunlar, oğuzlar, qıpçaqlar) at belində şimşək kimi çaxanda ermənilərin bu ərazilərdə izi belə olmamışdır. Erməni tarixçisi Karen Yüzbaşyan etiraf edir ki, türklər Qafqazda Səlcukların gəlişindən (yəni bir çox saxta tarix yazanlar Qafqazda türklərin gəlişini Səlcuklarla əlaqələndirir, əslində, Səlcuklara qədər Qafqazda türklərin böyük dövlətləri belə vardı) xeyli əvvəl mövcud olmuşlar [15].

Zəngəzur mahalının Meğri rayonunun Nüvədi kəndində Qarqadaşı dağında daş kitabələrdəki yazılar Orxon-Yenisey abidələri ilə eynidir. Kitabələr 1985-ci ildə müəllim Həmzə Vəliyev tərəfindən aşkar edilmişdir. Kitabələrin dili türk dili-şumer mənşəlidir. Şumer sözlərinin işləndiyi kitabənin nə qədər qədim olduğunu ayırd etmək çətin deyil. Bu kitabələr Qafqazın ən qədim sakinləri olan Qarqar türklərinə aid kitabələrdir [4.s.34]. Kitabələr eradan əvvəl l minilliyə aiddir. Bu əvəzsiz kitabələrdəki yazılar Orxon-Yenisey abidələri ilə eynidir. Ancaq yazıların qruluşundan aydın olur ki, bu yazılar olduqca qədimdir, yəni Orxon-Yenisey abidələrinin "əcdadıdır" [2, s.13; 14, s.13-15]. Çox təəssüflər olsun ki, bu abidələrin yerləşdiyi kənd 1991-ci ildə 8 avqust tarixində ermənilər tərəfindən işğal edilmişdir. Məhz Qərbi Azərbaycandan 1988-ci ildə başlayan kütləvi qovulma (azərbaycanlıların qovulması) bu kəntdə ən sonuncu idi, yəni 1991-ci ilə qədər bu kənddə Azərbaycan türkləri yaşamışdılar. 1988-199-ci illərdə Qərbi Azərbaycanda 185 Azərbaycan kəndindən 250 mindən çox azərbaycanlı qovulmuşdur. Bu ərazilərdə 51 mindən çox azərbaycanlı evi, təsərrüfatı və sair ermənilər tərəfindən mənimsənilmişdir [5, s.111].

Nüvədi kitabələri Zəngəzurun qədim insan məskəni olmasını təsdiq edən qiymətli abidədir. Kitabələri vaxtı ilə aşkar edən bu ərazilərin sakinlərindən olan müəllim Həmzə Vəli tarixi torpağını tərk etmək məcburiyyətində qalan zaman Kitabəni də özü ilə Bakıya gətirmişdir. Nüvədi kitabələrində Qarqadaşı abidələri Azərbaycanın ən qədim əcdadlarının kimliyi haqqında bizə məlumat verir. Bu abidə ilə biz Cənubi Qafqazda və Orta Asiyada qədimdən məskunlaşmış qarqarların kimliyi haqqında məlumat alırıq. Qarqarları uzun müddət Qafqazdilli sayılmış və türk mənşəli olmasını K.Əliyev ilk dəfə irəli sürmüşdür. Q.Qeybullayev isə türk faktını onomastik faktlarla irəli sürmüşdür [11, s.144;17]. Əsas arqumentlər qarqar (karkar) kimi səslənən adlar, sözlər məhz türk dilləri xalqlarına mənsubdur. Qafqaz Albanyasında qarqar etnonimi ilə yer, çay adları vardır. Hətta bu Orta Asiyada qıpçaqlara məxsus yer adları var, hətta Cənubi Azərbaycanda bu adlarda yaşayış yerlərinə rast gəlinir. Manas dastanında bu adla şəxs adlarına rast gəlinir [12, s.5]. Qərbi Azərbaycanda (İndiki Ermənistanda) Qarqar adlı kəndlərin, yer adlarının olması da bunu təsdiq edir. Bu isə Qərbi Azərbaycan ərazilərinin bir türk yurdu olduğunu və əhalinin isə türkdilli olduğunu təsdiq edir. Zəngəzurun Nüvədi abidələri bu ərazilərdə türklərin qədim tarixi izlərinə işıq salır.

Zəngəzurda çox sayda pirlər, ocaqlar, ziyarətgahlar da var idi. Bura Qarakilsə rayonunun Salvartı, Qırxlar, Megri rayonunda Buğakar, Qafanda Prdavidan (Pir Davidan) və Çiləxana, Körpü qayası pirlərini göstərə bilərik. Bu pirlərin əksəriyyəti 1905-1906-cı illərdə Zəngəzurda ermənilər tərəfindən törədilən qırğınlar zamanı dağıdılmışdır. Bu haqda Məmməd Səid Ordubadi (Azəzbaycan ədibi) özünün" Qanlı illər"əsərində məlumat verərək Pir Davidən məqbərəsinin 1905-ci ildə dağıdıldığını bildirirdi.

Zəngəzurun İslam-türk maddi-mədəniyyət nümunələri içində ən əhəmiyyətli abidələrə Səlim, Sınıq karvansaralarını qeyd edə bilərik. Bu karvansaralar Boyük İpək yolu üzərində Göyçə yaylasından keçən yollar üzərində tikilmişdir. Bu karvansaralar Elxanı hökmdarı (Əbu Səid -1316-1335 ci illər) tərəfindən XlV əsrdə tikdirilmişdir. Azərbaycanın görkəmli alimi M.Nemətova bu abidələrdə tədqiqat aparmışdır. Karvansaranın girişində fars dilində daşa həkk olunmuş kitabə aşkar edilmişdir. Ermənilər utanmazcasına bu abidəni erməni abidəsi adlandırırlar. V.M.Arutyunyan Ermənistanda nəşr etdirdiyi yazıda bunu qeyd edir, lakin kitabə sırf islam-türk üslubunda idi. Ermənilər bunu abidənin şərq hissəsində tapılan erməni dilində olan mətnlə əlaqələndirirlər. Lakin erməni xislətinin nəyə qadir olduğunu hamı bilir. Bu onların abidələrə sonradan əlavələr etmək adəti ilə bağlı idi. Çünki mətnlər Araz boyu ərazilərdə olan digər abidələrdə, ən əsas Zəngilanda olan Məmmədbəyli kəndində olan Yəhyə ibn Məhəmməd türbəsinin portalındakı tikiliş üslubu və kitabənin xətti ilə eynilik təşkil edir [1, s.54]. Bu abidələr Xlll-XlV əsrlərdə yaşamış-yaratmış azərbaycanlı memar Əli Məcdəddinin məktəbinin əsəridir [10, s.31] .

Qərbi Zəngəzurun abidələrlə zəngin yaşayış məskənlərindən biri də Uluxanlıdır. Burda 1918-ci ilə qədər ancaq azərbaycanlılar yaşıyıb. 1921 ci ildən sonra (Zəngəzur ermənilərə verildikdən sonra) bu kənddə ermənilərdə yaşayıb. Uluxanlının hər daşında türklərin izi olmuşdu. Ermənilər bu ərazilərdə türk oykonimini itirmək üçün 1920-ci ildən 1988-ci ilə qədər dörd dəfə bu kəndin adını dəyişmişdilər [16, s.85]. Bu kənddə hər məhlənin öz məscidi olmuşdu. Məscidlərin əksəriyyəti dağıdılmış, qalanlar isə Ermənistan Sovet Respublikasında sovxoz anbarı, məktəb və sair kimi fəaliyyət göstərmişdir. Yalnız 1970-ci ildə Uluxanlıda yenidən məscid kimi fəaliyyət göstərən Küllükbaşı məscidi də 1988-ci ildə ermənilər tərəfindən yandırılmışdır. Son məlumatlara görə, məscidin qalıqlarını belə ermənilər yerləyeksan edib [16]. Uluxanlı kəndində azərbaycanlılara məxsus bir neçə qədim qəbiristanlıq da var idi. Professor Sadiq Şükürovun bildirdiyinə görə, Urud abidələrində olduğu kimi, Uluxanlı qəbirləri üzərində də at heykəlləri vardı. Heykəllərin üzərində isə günəş və at rəmzləri həkk edilmişdir.

Şəhərcik kəndində qəbiristanlıqda müqəddəs yer sayılan pir var idi. Bu pir Bəndər padşahın qəbiri sayılırdı. Qəbirin üzərində daşüstü mixi yazılarda vardı (Vll-Vlll əsr). Kənddə eyni zamanda 7 böyük Dağdağan ağacının (qeyd edək ki, bu ağaca qədim dövrdən azərbaycanlıların inancı olmuş və bəd qüvvələrdən qoruduğuna inanılmışdır) ətrafında pir var idi. Bütün bu sübutlar azərbaycanlıların atəşpərəstlik dövründən bu yerlərin əsas sakini olduğunu sübut edir.

Daha bir Ziyarətgah Qırxlar dağının zirvəsində salınan "Qırxlar piridir". Bu dağın ətrafında Murxuz və Sofulu kəntləri yerləşirdi. Bu adda kəndlər qeyd etmək lazımdır ki, Azərbaycanın bir çox rayonlarında var. Bu da özlüyündə hər şeyi təsdiq edir. Burada olan pir haqqında rəvayətdə var ki, dağda çiçək yığan qızlar qəflətən düşmən pusqusuna düşür və Allaha yalvarırlar ki, düşmən əlinə keçməmək üçün onları daşa döndürsün. Tanrı qızları daşa döndürür [9]. Pirin adı da buradan götürülmüşdür. Eyni zamanda burada qızların namusunu hər şeydən üstün tutması belə türk dasdanlarında rast gəldiyimiz məqamlardır.

Eyni zamanda kəndin yaxınlığında olan Alban kilsəsi üzərindəki yazılar, bu kilsənin məhz Alban kilsəsi olduğunu təsdiq edir.

Şəkərcik kəndində yerləşən qədim qəbirstanlığın üç min ilə yaxın tarixi vardı, eyni zamanda qəbiristanlıq arxeoloji cəhətdən üç təbəqəlidir. Hər təbəqəsində xalqımızın adət-ənənəsini izləmək olurdu. Bu qəbirlərdə türklərin qədim dəfn adətini izləmək olurdu [19, s.318]. 1988-ci ildə azərbaycanlılar bu kənddən kütləvi şəkildə qovulduqdan sonra bu abidələrin aqibətindən xəbər yoxdur.

Zəngəzurun Gərd və Yuxarı Gərd kəndlərində də qədim müsəlman qəbiristanlıqları aşkar edilmişdir. Müsəlman əhali kəndlərinin əksəriyyətində pirlər vardı. Bu pirlərdən biri də Gərd kəndində olan Pir Palıd adlı pir idi. Hətta bu piri 1935-ci ildə bir erməni yandırmışdır. 1988-ci ildə bu kəndlərdəndə azərbaycanlılar qovulmuşdurlar, Yuxarı Gərd kəndi isə çoxdan 1918-ci ildə (Zəngəzurda azərbaycanlıların soyqırımı) erməni daşnakları tərəfindən yandırılaraq xaraba qalmışdı.

Tarixi yurd yerimiz Qərbi Zəngəzurun tarixi-arxeoloji abidələri haqqında yalnız bir məqalədə və ya bir kitabda danışmaqla kifayətlənmək olmaz. Bu abidələr də bizim, vaxtı ilə Qərbi Azərbaycanda yaşamış 300 minə yaxın azərbaycanlının ruhu, izi var. Bu abidələrimizi tədqiq etməklə, yaddaşlarda saxlamaqla, biz tarixi torpaqlarımıza qayıtmaq eşqini qoruyub, saxlayırıq. Çox təəssüflər olsun ki, bu abidələrin əksəriyyəti 1921-ci ildən sonra, yəni Zəngəzurun böyük bir hissəsinin Ermənistana verilməsindən sonra dağıdılıb və ermənileşdirilib.

Ermənilər nəinki tarixi abidələri dağıdır, eyni zamanda vaxtı ilə həmin ərazilərdə yaşayan yerli əhaliyə qarşı toponimləri ermənileşdirmişdirlər. Təkcə 1935-1971-ci illərdə toponimlər dəyişdirilmişdir, daha dəqiq desək, 1978-ci ilə qədər 465 azərbaycanlı kəndi erməni adı ilə əvəz edilmişdir [2, s,68; 3,s.32-33]. Bu əraziləri üstünlük təşkil edən Azərbaycan mənşəli türk toponimləri diqqəti çəkir. Bu ərazilərdə olan coğrafi adların, tayfa-xalq adlarının etnotoponimi bu yerlərin əsl sakinləri haqqında məlumat verir. Burada rus toponimisti A.Nikonovun bir fikri yerinə düşür: "*Coğrafi adlar kim tərəfindən verildiyi göstərən ən yaxşı şahiddir*" [9, s.62]. Həqiqətən də, toponimlər, yer adları, abidələrə verilən adlar (yerləşdiyi əraziyə, müəyyən xüsusiyyətlərə görə və sair) həmin əraziləri, abidələrin kimə məxsus olduğunu açıq-aşkar bildirir. Əgər belə olmasaydı, ermənilər bu ərazilərdə XX əsrdə (xüsusi ilə Sovet dövründə) yer adlarını, abidələrin adlarını dəyişməzdilər. Türk mənşəli adların sonuncu toponiminin soyqırımı 1991-cü ildə ermənilər tərəfindən həyata keçirildi. Təsadüfü deyil ki, Zəngəzur ərazisində olan toponimlər "Kitabi-Dədəm Qorqud" dastanında da rast gəlinir. Vaxtı ilə bu ərazilərdə olan kəndlərin məhz Azərbaycan kəndləri olmasını erməni müəllifləri özləri də təsdiqləyir. Z.Kirkodyan 1932-ci ildə nəşr etdirdiyi "Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931)" kitabındakı statistik məlumatda bunu bir daha təsdiqləyir. Müəllif bu kitabda İrəvan şəhərində 1932-ci ildə erməni mənbələrinə əsaslanaraq yazır ki, qeydə alınan 2310 yaşayış məntəqəsinin 2000-i azərbaycanlılara aiddir [2,s.24]. Buradan da belə aydın olur ki, ermənilər özləri belə azərbaycanlıların yaşadıqları ərazilərə sonradan Rus-İran müharibələrindən sonra (1804-1813; 1826-1828) kütləvi şəkildə 1828-1830-cu illərdə (Türkmənçay sülh müqaviləsinin 15-ci maddəsinə əsasən, İran və Türkiyədən), Rus-Türk, Krım müharibələri və 1915-1918-ci illərdə Türkiyədən (50 min erməni) köçürülmüşdürlər.

Nəticə

Yuxarıda adlarını çəkdiyimiz, tarixini, adının mənasını belə araşdırdığımız Qərbi Zəngəzurun abidələri bütün elementlərində türk (azərbaycanlıların) izini açıq-aşkar göstərir. Ermənilər nəinki Qərbi Azərbaycanda (İndiki Ermənistanda) türk-müsəlman izlərini məhv etmiş, vaxtı ilə işğal altında saxladığı (30 ilə yaxın -1991-2020-ci il) Qarabağ və ətraf ərazilərdə azərbaycanlılara məxsus bütün maddi-mədəniyyət, tarixi-arxeoloji abidələri məhv etmişdilər. Ermənilərin Qarabağda məhv etdikləri məzar daşları, abidələr, mədəniyyət evlərinin bəzilərinin üzərində saxtalaşdırma aparmaqla öz adlarına çıxmağa çalışmışdılar. Qərbi Zəngəzurun Qarakilsə və digər ərazilərində olduğu kimi, Qarabağda da Alban məbədləri ermənileşdirilmiş, bu abidələrdən özlərinin Cənubi Qafqazda olmayan tarixlərini yazmaq üçün istifadə edilmişdir, öz adlarına mənimsənilmişdir. 30 ilə yaxın Qarabağı işğal altında saxlayan ermənilər İslam dövrü abidələri olan, məscidləri dağıdıb, hətta məscidləri təhqir edərək tövlə kimi (donuz saxlayaraq) istifadə edib.

Bu səbəbdən müasir Azərbaycan tarixşünaslığında itirilmiş torpaqlarımızın tarixinin tədqiqi ən aktual məsələdir. Bu abidələr haqqında biz arxiv materiallarından və Sovet dövründə kortəbii şəkildə öyrənilən materiallar əsasında məlumat alırıq. Bütün materiallar, abidələr Qərbi Azərbaycanın, bu ərazilərin vaxtı ilə türklərə məxsus olduğunu təsdiq edir. Bu ərazilərə qayıtmaq arzusu ordan didərgin düşənlərə nəsib olmasa da, onların evladları- biz tarixi torpaqlarımıza qayıdacayıq və abidələrimiz məhv edilsə də, torpaq köksündə gizlədib saxladığı izlərimizi yenidən araşdırıb öyrənəcəyik. Bu ərazilərə qayıtmaq bizim "**Varislik"** hüququmuzdur. Çünki Qərbi Zəngəzur bizim tarixi torpağımızdır!

ƏDƏBİYYAT

1. Urud, M. Zəngəzur // – Bakı: Nurlar, – 2005. – s.501
2. Əliyev, V. Zəngəzurda qalan izimiz // – Bakı: – 2004. – s.102
3. Rüstəmov, Ə. Qədim Oğuz yurdu Zəngəzurun türk mənşəli yer-yurd adları // Bakı: 1998.
4. Ələkbərli, Ə. Qərbi Azərbaycan abidələri // Bakı: Ağrıdağ, 2006. s. 228
5. Paşayev A. Ermenilerin Azerbaycan halkına karşı toprak iddiaları, Soykırımı ve Tehcirleri. XlX-XX yüzyıl.2011
6. Qədim Türk lüğəti. SSRİ Elmlər Akademiyası. – Leninqrad: 1969. s.390
7. İmanov, K. Qədim mətnlər və klassik mənbələr ermənişilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin sahibləri haqqında. – Bakı:– 2021. – s.81
8. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870 ci illərə qədər. red .S.Əliyarlı. – Bakı: "Azərbaycan" nəşriyyatı, – 1996. – s.869
9. Rüstəmli, Ə. Zəngəzurun toponimləri - Tarixin izi. – Bakı: – 2016, – s.444
10. Нейматт, М. Эпиграфических памятники Азербайджана эпохи Низами. – Баку: Элм, – 1991.

11. Əliyarlı, S. "Kitabi-Dədəm Qorqud": əlyazmaları üzərində çalışmalar. AFM, – Bakı: – 1991. – s.144
12. Qaraşarlı, Ç.M. Egey-Aralıq dənizləri regionunun və Qafqaz Albaniyasının onomastikasında ümumi elementlər. BDU-nun Xəbərləri, Humanitar elmlər seriyası. №1, – 2007. s.5-11.
13. Səfərli, F. Epiqrafika. – Bakı: MBM, – 2010. – s.144
14. Vəli, H. Nüvədi kitabələri. – Bakı: 1999.
15. Mustafa, N.Y. İrəvan şəhəri. – Bakı: Red N Line MMC-2020. s. 292
16. Ələkbərli, Ə. Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı (sənədlərin dili ilə). – Bakı: "Nurlan" nəşriyyatı, – 2008. – s.559
17. Aslanova, F. Ermeni tahribatına maruz kalan Azerbaycan mezar taşları. Sosyal bilimler enstütüsü dergisi.say-9, bahar-2012, – s.29-36
18. War against Azerbaijan Targeting Cultural Heritage. – Baku: – 2007, – s.277
19. Quliyeva, V. Azərbaycan memarlığının şah əsərinin durumu.Uluslararası Türkçe Edebiyyat Eğitim Dergisi. Say-1,4-2012. – s.227-236
20. Egilmez, Ş. Ermenistanda Kara Koyunlu hanedanına ait tarihi miras. Atatürk Üniversitesi, Fen-Edebiyar Fakultesi, Tarih bölümü, Öyretim üyesi. – s.105-115
21. Ayrılmaz, C., Ayrılmaz, S. İğdır ve çevresinde koç heykelleri mezar taşlarının üzürindeki arap harfli yazıtlar. Türk dünyası-Dil Edebiyyat Dergisi. Ankara: – 2017, – s. 305-344.
22. Ayrılmaz, C. Prof.DR.Meşedihanım Sadullahgızı Nimet-(Nimetova).bilig-5. Bahar-97.s. – s.216-223
23. Özdaşlı, E. Alban kültür mirası üzerine inşa edilmiş tarih: ermenilerin hristiyanlığı kabul etmiş ilk devlet oldukları miti üzerine bir araştırma. Süleyman Demirel Universitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi. – 2016. c-21.s-2. – s.557-566

SUMMARY

Aytan ASADOVA

DEPORTATION OF AZERBAIJANS FROM WEST AZERBAIJAN AND Nakhchivan (1948-1953)

Zangezur covers the territories starting from Mehri to Akara along the Araz River, and extending to Kapishak Mountains and Bargushad Mountains in the north. According to the sources and historical-archaeological monuments, the main inhabitants of these territories were Azerbaijanis (Turks). After the western lands of Zangezur were given to Armenia in 1920, these territories In order to wipe out the traces of the local population, Armenians committed genocides in Zangezur many times in the beginning of the 20th century, destroyed the residences and historical monuments of the local population. they claim to belong to Armenians. In fact, the monuments belonging to Armenians (in the upper layer) in Western Azerbaijan (modern Armenia) are not more than 200 years old. This is the mass exodus of Armenians from Turkey and Iran after the Russo-Iranian wars and the occupation and division of Azerbaijan. related to the deletion. However, we must not forget the fact that historical monuments in every form, style, and characteristic bear

the traces of the people they belong to. unknown. However, researches, photographs, historical archival documents, sources, ethnographic-toponomic data confirm that the monuments in those areas belong to the Turks. In the topic we are researching, we see traces of the ancient history of the Turks in Western Zangezur in Urud, Nuvedi, Goshundag, Sheki and other historical monuments of Zangezur.

Key words: *Zangezur, Turkish-Oghuz, Urud, village, monument, castle, grave.*

XIX ƏSRİN 30-CU İLLƏRİNDƏ NAXÇIVAN ƏYALƏTİNİN DƏRƏLƏYƏZ MAHALININ ETNO-DEMOQRAFİK VƏ SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ (V.N.QRİQORYEVİN "NAXÇIVAN ƏYALƏTİNİN STATİSTİK TƏSVİRİ" ƏSƏRİ ƏSASINDA)

Mübariz AĞALARLI
mubariz.aqalar@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XIX əsrin 20-ci illərində Azərbaycanın şimal ərazilərinin çar Rusiyası tərəfindən işğal edilməsi (1828) nəticəsində ikiyə bölünmüş Azərbaycan xalqı biri bir-birindən fərqli etno-demoqrafik, sosial-iqtisadi və mədəni inkişaf prosesi keçmək məcburiyyətində qaldı.

1828-ci ildə Qacarlar dövləti ilə çar Rusiyası arasında imzalanmış Türkmançay sazişi İrəvan və Naxçıvan bölgəsində ermənilərin məskunlaşdırılma prosesi üçün hüquqi baza rolunu oynadı. Bu dövrdən etibarən ermənilərin Şimali Azərbaycana, xüsusilə İrəvan, Naxçıvan və Qarabağa köçürülmə prosesi geniş vüsət aldı.

XIX əsrin 30-cu illərində etno-demoqrafik durumunda ciddi dəyişiklik baş verən bölgələrdən biri də, işğaldan sonra çar Rusiyasının əyalətlərindən birinə çevrilən Naxçıvan əyalətinin Dərələyəz mahalı idi. Ermənilərin kütləvi şəkildə köçürülməsindən sonra, artıq 1830-cu ilin əvvəllərində Dərələyəz mahalında ermənilərin sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Rus qaynaqlarının verdiyi məlumatlara görə, bu dövrdə bölgədə yaşayan erməni əhalisinin böyük əksəriyyəti gəlmə idi.

XIX əsrdə Qərbi Azərbaycan və Naxçıvan bölgəsinin sosial-iqtisadi tarixini öyrənmək üçün əhəmiyyətli kitablardan biri də Vasili Nikiforoviç Qriqoryevin (1803-1876) qələmə aldığı "Naxçıvan əyalətinin statistik təsviri"("Статистическое описание Нахичеванской провинции") əsəridir. Bu əsər XIX əsrin 30-cu illərində Naxçıvan əyalətinin və mahallarının etno-demoqrafik durumunu öyrənmək üçün qiymətli mənbələrdən biridir.

Məqalədə, rus qaynaqlarına və digər mövcud elmi əsərlərə istinadən XIX əsrin 30-cu illərində Naxçıvan əyalətinin, xüsusilə də bu əyalətin Dərələyəz mahalının etno-demoqrafik vəziyyəti araşdırılaraq müqayisəli şəkildə təhlil edilmişdir.

Açar sözlər: *Şimali Azərbaycan, XIX əsrin 30-cu illəri, Naxçıvan əyaləti, Dərələyəz mahalı, etno-demoqrafik vəziyyət.*

Giriş

XIX əsrin 20-ci illərində baş verən II Rus-Qacar müharibəsi Azərbaycanın tarixi ərazisi olan İrəvan bölgəsi və Naxçıvan ərazilərinin çar Rusiyasının işğalı ilə nəticələndi. 1828-ci ilin fevral ayının 10-da çar Rusiyası ilə Qacarlar dövləti arasında inzalanmış Türkmançay sazişinin III maddəsinə əsasən, "İran şahı (Qacar Şahı) həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Araz çayının o tayı və bu tayı üzrə İrəvan xanlığının və Naxçıvan xanlığının Rusiya imperiyasının tam mülkiyyətinə güzəşt edir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırkı müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə ediiməsinə aid oian bütün arxivləri və ictimai sənədləri Rusiya rəisiiyinə verməyi vəd edir"di [10, s. 80].

1828-ci il Türkmançay sazişi, İrəvan, Naxçıvan və digər Azərbaycan ərazilərində ermənilərin məskunlaşdırılma prosesi üçün hüquqi baza rolunu oynadı. On beşinci maddə ilə ermənilərin köçürülməsi (müqavilədə ermənilərin adı konkret çəkilməsə də onlar nəzərdə tutulmuşdur) həyata keçirildi. Qriboyedov yazırdı ki, müqavilə onlara (ermənilərə) bunun üçün tam hüquq verirdi. Ermənilərin Şimali Azərbaycana, xüsusilə İrəvana, Naxçıvana və Qarabağa köçürülməsi geniş vüsət aldı [10, s. 85-86].

Qeyd edək ki, Rusiya işğalı ərəfəsində İrəvan və Naxçıvan bölgəsində bütün xristian əhalisinin ümumi sayı 20%-dən çox olmamışdır. İ.Şopenin məlumatlarına görə, Rusiya işğalının ilk illərində İrəvan və Naxçıvan əyalətlərinin, Ordubad dairəsinin əhalisi aşağıdakı kimi idi: İrəvan əyaləti üzrə, 20.927 ailə və yaxud 115 min 155 nəfər, Naxçıvan əyaləti üzrə, 6538 ailə və yaxud 30.507 nəfər, Ordubad dairəsi üzrə, 2.325 ailə və yaxud 10.975 ailə [13, s. 68; 3, s. 77].

Eyni zamanda Naxçıvan vilayətində köçmə əhali (ermənilər) də (1.411 ailə və ya 7.813 nəfər, onlardan 4.063 kişi, 3748 qadın) var idi.

Çar Rusiyası tərəfindən Qacar və Osmanlı dövlətləri ərazisindən ermənilərin kütləvi surətdə İrəvan bölgəsinə köçürülməsindən əvvəl, İrəvan şəhərində 7331 nəfər (1807 ailə) azərbaycanlı (75,6 %), 2369 nəfər (567 ailə) erməni (24,4 %), ümumilikdə İrəvan xanlığı ərazisində isə 49875 nəfər (9196 ailə) azərbaycanlı, 20073 nəfər (3498 ailə) erməni yaşayırdı. Bütövlükdə, sonradan "Erməni vilayəti" adlandırılan ərazidə (İrəvan və Naxçıvan xanlıqları ərazisində) isə 81749 nəfər (16078 ailə) müsəlman, 25151 nəfər (4428 ailə) erməni və 324 nəfər (67 ailə) yezdi kürdü yaşayırdı. Deməli, köçürmədən əvvəl bölgənin 107224 nəfər ümumi əhalisinin 76,24 %-ni azərbaycanlılar, 23,45 %-ni ermənilər təşkil edirdi [4, s. 112].

Rusiya işğalından sonra Qacarlar dövləti və Osmanlı imperiyasından Şimali Azərbaycana köçürülən ermənilər bölgənin demoqrafik vəziyyətini köklü şəkildə dəyişdi. Rəsmi statistik rəqəmlərə görə, Qacar dövlətindən Cənubi Qafqaza köçürülən 8249 erməni ailəsindən 6946 ailə və yaxud 35560 nəfəri "Erməni vilayəti"ndə məskunlaşdırıldı. Bu əhalinin 4559 ailə (23.568 nəfər) İrəvan əyalətində, 2137 ailə (10.652 nəfər) Naxçıvan əyalətində, 250 ailə (1.340 nəfər) Ordubad dairəsində yerləşdirilmişdi [13, c. 635-642].

Eyni zamanda Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən 14044 ailə və yaxud 90.000 nəfər olan ermənilərdən 3682 ailə və yaxud 21666 nəfər "Erməni vilayəti"ndə məskunlaşdırılmışdı. Köçürülən 3674 ailə və yaxud 21639 nəfər İrəvan əyalətində, 8 ailə və yaxud 27 nəfər isə Naxçıvan əyalətində yerləşdirildi [13, s. 635-642]

Qeyd edildiyi kimi, Naxçıvan əyalətinin yerli əhalisini əsasən azərbaycanlılar (türklər) təşkil edirdi. Naxçıvan bölgəsi əhalisinin tərkibindəki ermənilər gəlmə idi. Gəlmə ermənilərini də iki yerə bölmək olar: 1) Rusiya işğalınadək bu bölgəyə gələnlər (rus qafqazşünaslığında onlar səhvən "yerlilər", yaxud "köhnədən yaşayanlar" adlandırılır); 2) işğal zamanı və sonra gələnlər. Adətən müəlliflər Naxçıvan bölgəsi əhalisində ermənilərin sayından bəhs edərkən Naxçıvan vilayəti üzrə məlumata müraciət edirlər. İ.Şopenə görə, Naxçıvan əyaləti üzrə Rusiya işğalınadək gəlmə ermənilər 530 ailə (2.690 nəfər), Ordubad dairəsi üzrə 400 ailə (2.388 nəfər) idi. Müqayisə üçün qeyd edək ki, bu dövrdə azərbaycanlılar müvafiq olaraq 3.863 ailə (17.138 nəfər) və 1.675 (7.247 nəfər) təşkil

etmişdi. Yalnız köçürmə hesabına çar hökuməti əhalinin etnik tərkibində xeyli dəyişiklik yaratmışdı. Gəlmə ermənilərin sayı Naxçıvan əyalətində 2.145 ailə (10.589 nəfər), Ordubad dairəsində isə 250 ailə (1.340 nəfər) olmuşdu [9, s. 72].

Ümumiyyətlə, dövrün statistik məlumatlarına, istinadən qeyd etmək lazımdır ki, Türkmançay sazişinə qədər İrəvan və Naxçıvan bölgəsinsə az sayda erməni əhalisi yaşasa da, lakin ermənilərin köçürülmə prosesi nəticəsində, işğaldan bir neçə il sonra bölgədə etno-demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişmiş, yerli azərbaycanlı əhalinin demoqrafik durumunda mənfi tendensiyalar müşahidə olunmağa başlanmışdır.

1. XIX əsrin 30-cu illərində Naxçıvan əyalətinin Dərələyəz mahalının etno-demoqrafik vəziyyəti.

XIX əsrin 30-cu illərində etno-demoqrafik durumu ciddi şəkildə dəyişən bölgələrdən biri də Naxçıvan əyalətinin Dərələyəz mahalı idi. Ermənilərin kütləvi şəkildə köçürülməsindən sonra, artıq 1830-cu ilin əvvəllərində Dərələyəz mahalında ermənilərin sayı nəzərəçarpacaq dərəcədə artmışdır.

Qeyd edək ki, çar Rusiyası Şimali Azərbaycanı işğal etdikdən sonra, ilk dövrlərdə əhalinin say tərkibini, etnik durumunu və sosial-iqtisadi vəziyyətini müəyyən etmək üçün Azərbaycan bölgələrinə öz nümayəndələrini göndərmiş və bu şəxslər bölgə haqqında olduqca əhəmiyyətli məlumatlar vermişlər. Belə şəxslərdən biri də Vasili Nikiforoviç Qriqoryevdir (1803-1876).

XIX əsrdə Qərbi Azərbaycan və Naxçıvan bölgəsinin sosial-iqtisadi tarixini öyrənmək üçün çox orijinal kitablardan biri olan Vasili Nikiforoviç Qriqoryevin (1803-1876) qələmə aldığı "Naxçıvan əyalətinin statistik təsviri") ("Статистическое описание Нахичеванской провинции") əsəri, həmçinin Naxçıvan əyalətinin və mahallarının etno-demoqrafik durumunu öyrənmək üçün qiymətli mənbə hesab oluna bilər.

1828-ci ildə Qafqaza xəzinə məmuru kimi təyin olunan Vasili Nikiforoviç Qriqoryev bir müddət Naxçıvanda yaşamış və Naxşıvanda olduğu müddətdə bölgənin sosial-iqtisadi və demoqrafik vəziyyəti ilə yaxından tanış olan V.Qriqoryev öz əsərində Naxçıvan əyalətinin statistik və sosial-iqtisadı həyatını dolğun şəkildə təsvir edə bilmişdir. Vasili Qriqoryevin yazdığı bu kitab – "Naxçıvan əyalətinin statistik təsviri" 1833-cü ildə Sankt-Peterburq şəhərində nəşr edilmişdir.

Müəllif bu əsərdə XIX əsrin 30-cu illərində çar Rusiyasının əyalətlərindən biri olan Naxçıvan və ona tabe olan mahallar haqqında olduqca maraqlı məlumatlar vermişdir. Tarixi və etnoqrafik mahiyyət daşıyan bu əsərdə həmin dövrdə Naxçıvan əyalətinin mahallarından biri olan Dərələyəz mahalının etno-demoqrafik vəziyyəti, sosial-iqtisadi həyatı haqqında əhəmiyyətli məlumatlara rast gəlinir. Məhz bu baxımdan XIX əsr dövrü Qərbi Azərbaycan tarixinin öyrənilməsi baxımından bu əsər mühüm mənbə rolunu oynayır. Müəllifin bu kitabında bəzi siyasi və etno-demoqrafik yanlışlıqlara yol verilsə də, ümumilikdə bölgənin statistik, tarixi-etnoqrafik və sosial-iqtisadi həyatının öyrənilməsində əsərin əhəmiyyəti təqdirəlayiqdir.

V.N.Qriqoryev öz əsərində, ilk növbədə Naxçıvan əyalətinin coğrafi mövqeyi, digər əyalətlərlə sərhədləri, dağları, çayları, təbiəti, flora və faunası haqqında məlumatlar verərək, Naxçıvan əyalətində Saçanlıdağ, Kotanlı, Qısırdağ, Keşbək, Salvartı dağlarının

adını çəkir, ümumilikdə əyalətdə Araz, Arpaçay, Naxçıvançay və Əlincəçayın adlarını qeyd edir. Müəllif həmçinin Dərələyəz mahalında zəngin meşə ortüyü olduğunu yazır və bu meşələrdən yanacaq və zərurət olarsa tikinti materealı kimi istifadə olunduğunu qeyd edir [6, s.3-6].

Qeyd edək ki, 1828 ci il mart ayının 21-də Rus çarı I Nikolay İrəvan və Naxçıvan xanlıqlarının Erməni vilayəti adlandırılması haqqında fərman verdi. Fərmanda deyilirdi: "İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra Erməni vilayəti adlandırmağı hökm edir və öz titulumuza daxil edirik" [8, c. 272-273].

Bununla da, 1827-ci il oktyabrın 6-da general İ.Paskeviçin əmri ilə İrəvan bölgəsini idarə etmək üçün yaradılmış Müvəqqəti idarə ləğv edildi, İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" adlı müvəqqəti inzibati-idarə yaradıldı. Vilayət idarəsi vilayət rəisindən, biri polis, digəri maliyyə üzrə olmaqla iki rus müşavirindən və iki asessordan ibarət idi. Asessorlardan biri azərbaycanlı, digəri erməni icmasından idi. "Erməni vilayəti" iki əyalətdən – İrəvan və Naxçıvan əyalətlərindən ibarət idi. "Erməni vilayəti"nin rəisi vəzifəsinə yerli qoşunların komandanı, Müvəqqəti idarənin rəisi, general-mayor A.Çavçavadze təyin edildi. Yaradılan yeni inzibati vahidin mərkəzi İrəvan şəhəri oldu [4, s. 66].

Qeyd edək ki, Naxçıvan və İrəvan bölgəsində "Erməni vilayəti"nin yaradılması Azərbaycanın tarixi torpaqlarında erməni dövləti yaradılması üçün ciddi zəmin yaratdı.

İrəvan və Naxçıvan bölgəsində "Erməni vilayəti" yaradıldıqdan sonra bir müddət mahal və kəndlərin idarə sistemi rus işğalına qədərki dövrdə olduğu kimi saxlanıldı. Hələ də yerli bəylər və məliklər mahalları, kənd ağsaqqalları isə kəndləri idarə edirdilər. Vergi sistemində isə dəyişikliklər edilmişdi [5, s. 281].

İrəvan əyalətinin 15, Naxçıvan əyalətinin 5, Ordubad dairəsinin 5 mahalı var idi. Vilayətdə 752 kənd var idi. Bunlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52 kənd isə Ordubad dairəsində idi [7, s. 164).

1833-cü il iyunun 23-də Rusiya Dövlət Şurasının qəbul etdiyi qanuna görə "Erməni vilayəti"ndə yeni inzibati-ərazi dəyişikliyi həyata keçirildi. Qanuna görə, "Erməni vilayəti"nin adı olduğu kimi saxlanıldı, lakin onun kollegial idarə sistemi ləğv edilərək vilayət rəisinə böyük səlahiyyətlər verildi. İrəvan bölgəsi dörd dairəyə - İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Dairələr rus hərbçiləri tərəfindən idarə olunurdu. Hər bir dairə rəisliyində biri azərbaycanlı, digəri isə erməni olmaqla iki köməkçi var idi. Bundan başqa, dairələrdə vergi işlərinə baxan komissarlar və onları müşaiyət edən mirzələr də var 54 idi. Yeni qanuna əsasən mahallar olduğu kimi qalırdı. Hər bir dairəyə bir neçə mahal düşürdü. İrəvan dairəsi Göyçə, Dərəçiçək və Qırxbulaq mahallarını; Şərur dairəsi Şərur, Vedibasar, Gərnibasar, Zəngibasar mahallarını; Sürməli dairəsi Sürməli mahalını, Dərəkənd-Parçenis darəsini və Araz çayının sağ tərəfində yerləşən Gərnibasar və Vedibasar mahallarının qalan hissəsini; Sərdarabad mahalı isə Saatlı, Talın, Seyidli-Ağsaqqallı, Abaran, Gərni və Sərdarabad mahallarını əhatə edirdi [4, s. 68-69].

V.N. Qriqoryev qey edir ki, XIX əsrin 30-cu ilin əvvəllərində Naxçıvan əyaləti iki dairəyə bölünürdü. Naxçıvan və Ordubad [6, s. 2].

Müəllifin yazdığına görə, keçən əsrin sonlarında (1790-cı ilə qədər) Naxçıvan bölgəsi, Naxçıvan, Ordubad, Megri, və Kopan (Qafan) əyalətlərindən ibarət müstəqil xanlıq idi. Xanlıq irsi xarakter daşıyan xanlar tərəfindən idarə olunurdu. Onların sonuncusu gürcü kralı İraklinin dostu, ağıllı və cəsur Kəlbəlı xan idi. Sonralar Megri və Kopanın (Qafan-M.A.) Qarabağ xanlığının nəzarətinə keçməsi nəticəsində xanlıq üç ayrı mahala - Naxçıvan, Ordubad və Dərələyəzə bölünmüşdü [6. s. 49].

"Erməni Vilayəti"nin idarəsinə tabe olan Naxçıvan əyaləti idarəsinin indiki tərkibi 1828-ci ilin martında təşkil olunmuşdur. Naxçıvan şəhərində Şəhər İdarəsi yerləşir və iki hissəyə bölünürdü. Polis İdarəsi və Məhkəmə və cəza bölməsi. Naxçıvan dairəsi üzrə Polis İdarəsi Naxçıvan Naibinə - Kəlbəli xanın oğlu polkovnik Ehsan Xana tapşırılmışdı. Ona kömək etmək üçün Rus Qərərgahından bir rus zabiti – pristav təyin edilmişdi [6, s. 63].

Şəhər Məhkəməsi isə bir naib, bir məhkəmə icraçısı, bir xəzinədar və biri ermənilərdən, digəri isə müsəlmanlardan ibarət sərbəst şəkildə seçilmiş iki üzvdən ibarət idi. Bu dövrdə Naxçıvan dairəsi dörd mahala bölünürdü: Naxçıvan, Əlincə, Xoy, Dərələyəz [6, s. 79].

Naxçıvan əyalətində əhalinin ümumi demoqrafik vəziyyəti haqqında müəllif qeyd edir ki, "Statistik məlumatlara çox laqeyd yanaşan pers hakimiyyəti dövründə xalqın xüsusi siyahıyaalınması aparılmırdı: onlar yalnız vergi ödəməli olan sakinlərin sayını hesablayırdılar. Ona görə də müxtəlif dövrlərdə əhalinin vəziyyəti haqqında müqayisəli şəkildə məlumat vermək mümkün deyil. Yalnız hal-hazırkı demoqrafik vəziyyəti əks etdirən məlumatlarla kifayətlənməliyik" [6, s. 29].

Müəllif qeyd edir ki, Naxçıvan şəhəri və onun ətraf ərazilərində əhalinin yaşadığı ümumi tüstülərin (evlərin) sayı indi 5500-dir. Hər tüstüdə 5 nəfər götürsək 21 min 500 nəfər əhalinin mövcudluğundan danışmaq olar. Burada hər kv.mil-ə 8 nəfər əhali düşür [6, s.29]. Ordubad dairəsində isə ümumilikdə 1777 ailə - 1135 tatar (azərbaycanlı-M.A.) ailəsi, 642 erməni ailəsi (266 erməni ailəsi gəlmə idi) yaşayırdı.

Əsərdə əyalət əhalisinin sosial təbəqəsi də əks olunmuşdur. Qeyd olunur ki, pers hökuməti dövründə mövcud olmuş Naxçıvan əyaləti sakinlərinin hüquq və vəzifələri ilə əlaqədar olaraq onları iki əsas təbəqəyə bölmək olar: birinciyə vergidən azad olanlar daxildir: zadəgan ailəsi (yəni xanlar, bəylər), məmurlar və ruhanilər; ikincisi, vergiyə cəlb olunan insanlar: tacirlər, sənayeçilər, sənətkarlar və əkinçilər [6, s.29].

Müəllif yazır ki, etnik mənşəyinə görə Naxçıvan əyalətinin Naxçıvan dairəsinin sakinləri iki dərəcəyə bölünür: 1) müsəlmanlar və 2) ermənilər; Müsəlmanlar 2791 ev, yerli ermənilər 434 ev, Persiyadan köçürülmüş ermənilər isə 2285 evdən ibarətdir [6, s.31].

V.N.Qriqoryevin verdiyi məlumatlarda, Persiyadan Naxçıvan əyalətinə köçürülən cəmi 2551 ailənin (2285 ailə Naxçıvan dairəsi, 266 ailə Ordubad dairəsi) hansı şəhər və kəndlərdə yerləşdirilməsi, köçürülən əhalinin ümumi sayı, qadın, kişi, azyaşlılar qeyd edilmişdir [6, s.125-127].

Verilən məlumatlara inansaq, bu dövrdə Naxçıvan əyalətində - Naxçıvan dairəsi (434 ailə) və Ordubad dairəsində (376 ailə) cəmi 810 yerli erməni ailəsi yaşayırdı. 2551 erməni ailəsi isə gəlmə idi. Tatarlar (azərbaycanlılar - M.A.) isə ümumilikdə 3926 ailə idi. Yerli və gəlmə ermənilər isə artıq toplam 3361 ailə idi.

Verilən statistik rəqəmlərdən görünür ki, artıq 1830-cu illərin ortalarına qədər Naxçıvan əyalətinə yerli erməni ailələrinin sayından üç dəfə çox erməni ailəsi köçürülmüşdür.

Müəllif qeyd edir ki, Naxçıvan şəhəri və onun ətraf ərazilərində (Naxçıvan dairəsi) əhalinin yaşadığı ümumi tüstülərin (evlərin) sayı indi 5500-dir. Hər tüstüdə 5 nəfər götürsək 21 min 500 nəfər əhalinin mövcudluğundan danışmaq olar. Burada hər kv.mil-ə 8 nəfər düşür [6, s.29].

Əsərdə qeyd olunur ki, eramızın VI-VII əsrlərindən, yəni xəlifələrin hakimiyyəti dövründən burada məskunlaşan müsəlmanlar bir çox tayfalara bölünürlər ki, onlardan ikisi xüsusi diqqətə layiqdir: Kəngərlilər və Qaracalar (Qalacalar/Kələclər) Kurtinləri. Kəngərli tayfası döyüşkən xarakteri ilə digərlərindən fərqlənir. Müxtəlif tayfa və ya nəsillərə bölünmüş 920 ailə vardır.

Müəllif Kəngərli tayfalarına daxi olan boyları və yaşadığı əraziləri qeyd edir: Yurtçi, Gümüşlü (Cəhri, Köyarx, Xoy, Şaxtaxtı, Gildasar, Vayxır), Xalxalı (Xalxal), Qaraxanbəyli (Qaraxanbəyli), Ağabəyli, Cığataylı, Qaracalı, Belici, Qaratulaqi, Qəcələr, Sarvanlar, Şahbanlu, Əlixanlı (Naxçıvan şəhəri), Aravonlu (Dizacı-Kərimbəy), Saleyqə (yarısı Naxçıvan şəhəri, digər yarısı Naxacir, Külüs, Mahmudova), Qızıllı (Kültəpə), Pirxaxanlu (Qahab), Qızıl Qışlaqi (Bulqan), Qıyalfir (Tırkeş, Sələsüz, Qarabağlar (Qarabağlar) (6, s.32).

V.N.Qriqoryev yazır ki, "Digər tayfalar isə 660 təsərrüfatdan ibarət Kələc Kurtinləridir ki, Dərələyəz mahalının yarısında məskunlaşmış və yarımköçəri həyat tərzi keçirirlər. Onlar tatar dilinin xüsusi ləhcəsində danışır, və Məhəmməd dinini qaydalarına ciddi əməl etmirlər [6, s. 32].

Müəllif qeyd edir ki. ermənilər Naxçıvan dairəsində 434 ev yerli, 2285 ev isə gəlmə olmaqla, 1828-ci ildə Persiyadan buraya köçənlərdən ibarətdir. Erməni ruhanilərinin sayı isə 54 nəfərdir [6, s. 33].

Burada tatarlar, əsasən, Ələvi (Məhəmməd Ələviliyi) təriqətinə, ermənilər qriqoriyan, azsayda rus hərbi və dövlət məmurları isə yunan-rus və yunan-rus (provaslav) təriqətinə mənsubdurlar [6, s. 33].

Əsərdə qeyd edilir ki, Naxçıvan dairəsində ortaq dil olaraq ümumi istifadə olunan türkcənin tatar ləhcəsidir. Lakin ermənilər bir-birləri ilə öz dillərində ünsiyyət qururlar. Kurtinlər tatar dilinin xüsusi ləhcəsində danışır. Onların yuxarı təbəqəsi fars dilini də bilir [6, s. 34].

Tatarlar, əsasən iri boylu, enlikürək, tünd dərili, müntəzəm cizgiləri olan uzunsov sifətləri, uzun boyunları, hündür və bir qədər qabarıq alınları, qara gözləri və qaşları, qartal burunları vardır. Ümumiyyətlə, tatarlar güclüdür, işdə səbirlidir və uzun müddət aclığa dözə bilirlər, döyüşkəndirlər. Ermənilərin üz cizgilərində tatarlar qədər mütənasiblik yoxdur. Onlar, əsasən, qısaboylu və orta boyludurlar, lakin sağlam görünürlər [6, s. 34].

V.N.Qriqoryev Dərələyəz mahalı haqqında geniş məlumat verərək, həmçinin bu mahalın əhalisi, etno-demoqrafik mənzərəsini də təsvir etmişdir. Müəllifin verdiyi məlumatlardan aydın olur ki, Dərələyəz mahalı 2 hissəyə bölünür: Şərq və Qərb. Qərb

hissə Səlim aşırımından və Arpa kəndindən başlayır və Arpaçaya çayının çox yuxarı axınına qədər uzanır. Qərb hissəsinin əhalisi 362 tüstüdən (ev) ibarətdir. Bunlardan:

1. Müsəlman sahibkarlar və bəylər - 16 tüstü;
2. Vergi verən müsəlman əhali - 252 tüstü;
3. Yerli ermənilər - 57 tüstü;
4. Gəlmə ermənilər - 37 tüstü. [6, s. 79].

Dərələyəz mahalının indiki əhalisi, əsasən, Qarabağdan olan Qaracalar Kurtinlərindən (Kərəc Kurtinləri-M.A.) ibarətdir. Onları 20 il əvvəl bura keçmiş Qarabağ sahibi Mehdi xanla ədavəti olan Nəbi bəy köçürüb. Qacar şahzadəsi Abbas Mirzə Nəbi bəyi öz himayəsinə götürərək, bu tərəfdəki sərhədi mühafizə etməyi ona tapşırmış və 6 kənd onların ixtiyarına verilərək onlardan vergi tələb olunmamışdır [6, s. 79-80].

Dərələyəz mahalının şərq hissəsində isə 910 tüstüsü olan 44 kənd var. Bunlardan:

1. Kurtinlər - 660 tüstü;
2. Kurtin Bəyləri - 3 tüstü;
3. Gəlmə ermənilər - 247 tüstü [s.80].

Yerli kürtinlər öz aralarında 9 şəcərə və ya nəsillərə bölünürlər: 1.) Hacı-Samlı, 2.) Şad-Manlı, 3.) Kyaloqçı, 4.) Kudyakanglu, 5. Həsənanlı, 6.) Bozdlu, T.) Ferkyanlı. , 8.) Psiyan və 9.) Milli.

Dərələyəz mahalının torpağı gilli-qaratorpaqdır. Arpaçay boyu düzənliklər çox münbitdir. Burada çoxlu miqdarda çəltik, pambıq, dağlıq ərazilərdə buğda, arpa, kətan, küncüt əkilir və bol məhsul verir.

Dərələyəzin qərb hissəsində sakinlər əsasən əkinçiliklə, meyvə-tərəvəzçiliklə, qismən də maldarlıqla məşğul olurlar. Şərq hissəsində yaşayan kurtinlər isə yalnız maldarlıqla məşğul olurlar və yalnız məişət ehtiyacları üçün (650 holvara qədər) xırda əkinçiliklə məşğul olurlar [6, s. 80-81].

Müəllif əsərində bölgənin memarlıq abidələrinə toxunarkən "erməni kilsələri" (Alban kilsələri-M.A.) haqqında məlumat versədə müsəlmanlara məxsus arxitektura haqqında demək olar ki məlumat verməmişdir.

Əsərdə Dərələyəz mahalına 1828-1933-cü illərdə köçürülən ermənilərin sayı, cinsi, sosial təbəqəyə mənsubluğu, haradan köçürüldüyü haqında olduqca əhəmiyyətli statistik məlumatlar vardır. Müəllif Dərələyəz mahalına ermənilərin köçürülmə statistikasını bu şəkildə sıralamışdır:

1. Keşişkənd - 37 ailə, - 37 əkinçi ailəsi (60 kişi, 40 azyaşlı, 102 qadın), Salmas;
2. Elpin - 20 ailə, 20 əkinçi ailəsi (33 kişi, 19azyaşlı, 51 qadın), Salmas
3. Alagöz - 42 ailə, 2 sənətkar ailəsi, 40 əkinçi ailəsi (74 kişi, 43 azyaşlı, 98 qadın), Xoy [6, s. 125-126].

Müəllif həmçinin Dərələyəz mahalının şərq hissəsində yerləşən ərazilərə ermənilərin köçürülərək yerləşdirilməsini qeyd edərək yazır ki, Arul-Heşin 17 ailə, Qoytul 33 ailə, Məlik Uşağı (Şöklü Məlik) 37 ailə, Ağyarı 36 ailə, Azadyak 22 ailə, Mərdürük 42 ailə - cəmi 247 ailə Dərələyəz mahalının şərq hissəsində məkunlaşdırılmışdır [6, s.126-127].

Bu əsərdə Persiyadan Naxçıvan əyalətinə köçürülən 2551 ailənin (2285 ailə Naxçıvan dairəsi, 266 ailə Ordubad dairəsi) hansı şəhər və kəndlərdə yerləşdirilməsi, köçürülən əhalinin ümumi sayı, qadın, kişi, azyaşlılar qeyd edilmişdir [6, s. 125-127].

Bu statistik məlumatlara görə Naxçıvan əyalətinin Naxçıvan dairəsinə 3970 kişi, 2202 azyaşlı, 5479 qadın, toplam 11651 nəfər, Ordubad dairəsinə isə 489 kişi, 293 azyaşlı, 727 qadın, toplam 1509 nəfər , Naxçıvan əyaləti üzrə isə 4459 kişi, 2495 azyaşlı, 6206 qadın köçürülmüşdür. Ümumilikdə Naxçıvan əyalətinə 1833-cü ilə qədər 13.160 nəfər əhali köçürülmüşdür [6, s. 125-128].

V.N.Qriqoryev öz əsərində bölgə əhalisinin mənəvi keyfiyyətlərini də təsvir etmişdir. Müəllif bu haqda yazır: "Mənəvi keyfiyyətlər baxımından tatarlarla ermənilər arasında böyük fərq var. Sadə tatarlar (azərbaycanlılar-M.A.) o qədər də qonaqpərvər və nəzakətli olmasalar da, düzgünlükləri ilə seçilirlər, bu səbəbdən onların sözlərinə daha çox etibar etmək olar. Onlar həyat tərzində çalışqan və səliqəli və son dərəcə ehtiyatlıdırlar. Ödədikləri vergilərin ağırlığına baxmayaraq, onların arasında ehtiyacı olanlar çox deyil. Ümumiyyətlə, bütün tatarlar xolerik temperamentə malik olduqlarından tez əsbləşirlər və onlara edilən təhqirləri uzun müddət xatırlayırlar [34-35].

Ermənilər haqqında isə rus müəllif bunları qeyd edir: "Bir neçə əsrdir ki, xalq olaraq özünəməxsusluğu ilə seçilməyən və perslərin hakimiyyəti altında yaşayan ermənilər, əxlaq təmizliyini itirmiş, ağalarının bütün pis keyfiyyətlərini qəbul edərək onlara digərlərini də əlavə etmişlər və bu keyfiyyətləri alçaldılmış vəziyyətin zəruri nəticəsi adlandıraraq özlərinə haqq qazandırmışlar. Onların indiki anlayışına görə, hiyləgərlik, aldatma və tədbirlilik mahiyyətcə - sinonimdir. Onlar hiyləgərlik etməyi, aldatmağı bacarmayanlara axmaq deyirlər. Bütün hərəkətləri, niyyətləri buna əsaslanır. Onlar oturuşmuş həyata, ticarət məşğuliyyətinə aludədirlər. Onların arasında sahibkarlar çox azdır. Xırda işlərlə məşğul olan ermənilər acgözcəsinə hədsiz qazanc əldə edir, natamam davranışları ilə əhalinin onlara olan inamını və tacirlərin rifahının əsasını təşkil edən etimadı sarsıdırlar. Ermənilərin təqvası (Allah qorxusu) mövhumata əsaslanır və bu davranış dinin müqəddəsliyinə mənəvi hörmətdən deyil, bir növ qorxudan, daha doğrusu, ləkələnmiş vicdanlarını təmizləmə inancından irəli gəlir [s.37-38].

Nəticə

Vasili Nikiforoviç Qriqoryevin qələmə aldığı "Naxçıvan əyalətinin statistik təsviri" (1833) ("Статистическое описание Нахичеванской провинции", 1833) əsərinə və digər rus qaynaqlarına istinad etdikdə bu qənaətə gəlmək olar ki, çar Rusiyası Türkmançay müqaviləsindən başlayaraq XX əsrin əvvəllərinə qədər sistemli şəkildə və ardıcıl olaraq İrəvan və Naxçıvan bölgələrinin əhalisinin etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirmək siyasəti həyata keçirmişdir. İrəvan və Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalı nəticəsindədə bölgə əhalisinin etnik tərkibində azərbaycanlıların sayı azalmış, ermənilərin sayı isə 2,5 dəfə artmışdır. Yüz ilə yaxın bir müddətdə ermənilərin sistemli şəkildə köçürülərək İrəvan və Naxçıvan bölgəsində yerləşdirilməsi, onlara dövlət tərəfindən iqtisadi, siyasi, inzibati və digər sahələrdə hər cür dəstək göstərilməsi, bütün bunların bölgənin aborigen sakinləri olan azərbaycanlılara qarşı irqi, milli və dini

diskriminasiya siyasəti ilə paralel və əlaqəli şəkildə aparılmasına baxmayaraq, bölgədə azərbaycanlı əhalinin xüsusi çəkisi həmişə yüksək olmuşdur.

ƏDƏBİYYAT

1. Əhmədli, N. İrəvan əyalətinin kameral təsviri. I cild. İrəvan şəhərinin Kameral təsviri. – Bakı: "Turxan" NPB, – 2018.
2. Əhmədli, N. İrəvan əyalətinin kameral təsviri II cild. Vedibasar mahalının kameral təsviri 1831 və 1842-ci illər. Şərur mahallarının kameral təsviri. 1831-ci il // – Bakı: Turxan, – 2019.
3. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi // – Bakı: Turxan, – 2010.
4. Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi. Sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri) // – Bakı: Turxan, – 2017.
5. Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVI yüzilliyin sonu - XIX yüzilliyin ortalarında) // – Bakı: Mütərcim, – 2016.
6. Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. Составленное Василием Григорьевым. – Санкт-Петербург: – 1833.
7. Məmmədov İ.S. Tariximiz, torpağımız, taleyimiz //– Bakı: Adiloğlu, – 2003.
8. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. III, 1828. – СПб.: – 1830.
9. Şahverdiyev. Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində // – Bakı: Elm, – 2008.
10. Şükürov K. Türkmənçay-1828 // Tarixi xronika. – Bakı: – 2006.
11. Şükürov K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək) // – Bakı: – 2004.
12. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам // – Баку: Элм, – 1990.
13. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи // СПб.: Типография Императорской Академии наук, – 1852.

SUMMARY

Mubariz Agalarli

THE ETHNO-DEMOGRAPHIC SITUATION OF DERALEYAZ COUNTY IN THE 30S OF THE 19TH CENTURY (BASED ON V.N. GRIGORIEV'S WORK "STATISTICAL DESCRIPTION OF NAKHCHIVAN PROVINCE")

As a result of the occupation of the northern territories of Azerbaijan by Russian Empire (1828) in the 20s of the 19th century, the Azerbaijani people, divided into two, had to go through different ethno-demographic, socio-economic and cultural development processes.

The Treaty of Turkmenchay, signed in 1828 between the Gajar state and Russian Empire, served as a legal basis for the settlement process of Armenians in the lrevan and Nakhchivan regions. From this period, the process of moving Armenians to North Azerbaijan, especially to Irevan, Nakhchivan and Karabakh, became widespread.

Darelayaz county of Nakhchivan governorate, which became one of the governorates of the Russian Empire after the occupation, was one of the regions that underwent serious changes in its ethno-demographic situation in the 1930s. After the mass resettlement of Armenians, already in the early 1830s, the number of Armenians in Darelayaz increased significantly. According to the information provided by Russian sources, during this period, the majority of the Armenian population living in the region moved here later.

One of the most important books for studying the socio-economic history of Western Azerbaijan and Nakhchivan region in the 19th century is the work "Statistical Description of Nakhchivan Province") ("Статистическое описание Нахичеванской провинции") written by Vasili Nikiforovich Grigoriev (1803-1876). This work is one of the valuable sources for studying the ethno-demographic situation of Nakhchivan province and districts in the 1930s.

In the article, referring to Russian sources and other available scientific works, the ethno-demographic situation of the Nakhchivan province, especially Darelayaz county of this province, in the 30s of the 19th century was investigated and analyzed in a comparative manner.

Key words: *Northern Azerbaijan, 30s of the XIX century, Nakhchivan province, Deraleyaz county, ethno-demographic situation.*

TÜRK DİYARI – ŞƏRQİ DƏRƏLƏYƏZ

Rəsul BAĞIROV
bagirovresul11@gmail.com
Naxçıvan Dövlət Universiteti

Qədim türk-oğuz yurdu olan Dərələyəz mahalı Qərbi Azərbaycan ərazisindəki ən qədim yaşayış məskənlərindən biridir. Dərələyəz nahiyəsində də tarixin ən qədim dövrlərindən burada türk tayfaları yaşamışdır. Xalq bölgüsünə görə, Dərələyəz nahiyəsi üç hissəyə ayrılır: Şərqi Dərələyəz, Qərbi Dərələyəz və Şərurun Dağlıq hissəsi. Müqayisəli araşdırmalar göstərir ki, buranın əhalisinin etnik tərkibində əsaslı dəyişikliklər olmuşdur. Uzun müddət İran-Osmanlı münasibətlərindəki düşmənçilik Qərbi Azərbaycanda olduğu kimi, Naxçıvanda onun tarixi bölgəsi olan Dərələyəzdə də əhalinin yerdəyişməsinə səbəb olmuşdur. Şərqi Dərələyəzdə yaşamış türk tayfaları öz adlarını bir sıra etnotoponimlərdə əbədiləşdirmişdilər. Dərələyəz mahalının oykonim, oronim və hidronimlərinin hamısı türk mənşəli olmuşdur. Tarixi qaynaqlarda Qərbi Azərbaycanın türk etnoslarının vətəni olduğu göstərilmişdir.

Açar sözlər: *Türk yurdu, Şərqi Dərələyəz, Cul, Qaraçorlu, Əlincə qalası, Keşişkənd*

Dərələyəz mahalı Qərbi Azərbaycanda min illər boyu türklərin yaşadıqları ərazilərdəndir. Şərur-Dərələyəz tarixi vilayətinin dağlıq hissəsini təşkil edir. Dərələyəz coğrafi baxımdan elə yerləşmişdir ki, buranı təbii qala adlandırmaq olar. Bölgə şimalda Basarkeçər yaylası, şərqdə Zəngəzur dağ silsiləsi, Cənubda Ələyəz dağları, qərbdə Səlimin gədiyi yerləşən hündür dağlarla əhatə olunmuşdur.

Dərələyəz toponimi Azərbaycan dilində "İri dağ və ya təpə arasında çuxur" mənasında işlənən dərə sözü ilə alagöz türk etnonimi əsasında yaranmışdır.

Tarixi mənbələrə əsaslanıb demək olar ki, bu bölgə əski çağlardan Naxçıvanla bağlı olmuşdur. Tarixi qaynaqlarda Naxçıvanın eyni zamanda Qərbi Azərbaycanın türk etnoslarının vətəni olduğu göstərilmişdir. Görkəmli türk tarixçisi M.F.Kırzıoğlu bölgədə türk etnoslarının Miladdan çox öncə formalaşdığını göstərir [M.F.Kırzıoğlu, 1992, s. 207]. Müəllif sonrakı dövrdə Qars Arpaçay, Ələyəz hövzələrində Kuman-Kıpçaq-Peçeneq türklərinin güclü hakimiyyətə malik olmaqla ətraf əraziləri də özlərinə tabe etdiklərini xəbər verir.

Qədim zamanlarda tək tanrıcı olan türklər islamdan əvvəlki dokren və onun Azərbaycanda yayılması və möhkəmləndirilməsi uğrunda mübarizə aparmışdır. M.F.Kırzıoğlunun məlumatından aydın olur ki, Uzun Həsənin Qıpçaq türklərindən olan 29-cu babası İləkən bəy Həzrəti İsanın dinində (Qriqoryan Xristian) olmuşdur. İləkən Bəyin nəticəsi Togan bəy xristian olmaqla Sasani hökmdarları III Şapurun, Bəhram Gurun zamanında Göyçə gölü civarında yaşamış və hakim olmuşdur. Bu nəsildən olan Sonqur bəy Həzrət Məhəmməd zamanı yaşamışdır. Qərbi Azərbaycandan başlamış Naxçıvanın Əlincə qalası da daxil olmaqla böyük bir ərazi onun hakimiyyəti altında olmuşdur. Çingiz xan dönəminə qədər bu bölgədə yuxarıda adı çəkilən türk tayfaları hakim olmuşdur [M.F.Kırzıoğlu, s. 207]. Toplanmış çöl materiallardan və qaynaqlardan aydın olur ki,

yuxarıda adı çəkilən bölgəyə aid olan Dərələyəzdə də, xüsusən Arpaçayın yuxarı və orta hövzəsində daha çox Kəngərlilər məskunlaşmışdır. Hətta VIII yüzilliyinin sonlarına yaxın Əlincə qalasının Qıpçaq türklərinin əlində olmasına dair məlumatlar vardır [H.Q.Qədirzadə, 1999, s. 91].

Ən qədim dövrlərdə Azərbaycanlılar yaşadığı bir ərazidə V əsrdən yaşayış məskəni olmuşdur. Arxeoloji qazıntılardan əldə olunmuş maddi-mədəniyyət qalıqları yaşayış məskənləri bunu sübut edir. Dərələyəzdə tədqiqat nəticəsində zəngin qəbirüstü abidələrə (daş qoç, səndugələrə) rast gəlinir.

Şərqi Dərələyəz ərazisində tanınmış arxeoloq Vəli Əliyev, prof. H.Q.Qədirzadə bu bölgə haqqında tədqiqat aparmış, ətraflı məlumat vermişlər. Bölgənin Atto, Gömür və Çobud kəndlərindən material toplanmışdır. Matəm ağacı, Qəbirli adlanan yerdə çoxlu daş qoç fiqurlar, üzərlərində ərəb qrafikası ilə yazılar olan səndugələr qeydə alınmışdır. Bu yaşayış yeri haqqında tanınmış arxeoloq Vəli Əliyev məlumat vermişdir. Hətta bu daşlardan birinin üzərində Bulqar Bahadır yazısının olduğunu bildirmişdir.

Sonradan məlum olmuşdur ki, ermənilər həmin daşların bir hissəsini aparmış, bir qismini məhv etmişlər. Abidələrin məhv edilməsinin başlıca səbəbi ondan ibarət olmuşdur ki, burada qədim Bulqar-Vənənd türklərinin bölgədə uzun müddət yaşadıqları təsdiq olunur [H.Q.Qədirzadə, 1999, s. 95].

Dərələyəzin siyasi tarixinə gəldikdə bölgənin XIII əsrə aid etniq tərkibinin başlıca olaraq türklərdən ibarət olduğunu görürük. Bununla bağlı "Naxçıvan sancağının müfəssəl dəftəri"nin girişində yazılıb. Müfəssəl dəftərdə antroponimlərlə də bağlı xeyli materiallar vardır. Ermənilərdə müsəlman adları ilə bərabər türk adlarının da geniş yayıldığını görürük ["Naxçıvan sancağının müfəssəl dəftəri", 1997, s. 21].

Dərələyəz bölgəsində əhalinin yerdəyişməsinin səbəbi uzun müddət İran-Osmanlı münasibətlərindəki düşmənçilik aparması olmuşdur. Yüzlərlə ailə öz doğma yurdlarını tərk etmiş, kəndlər boşalmışdır. Ən acınacaqlı bu idi ki, insanlar məzhəb baxımından təqib olunurdular.

Osmanlılar 1724-cü ildə Naxçıvan sancağını ələ keçirərkən bəzi kəndlərin əhalisi şiə olduqları üçün qaçmışlar. Bu məsələ ilə bağlı adətən belə yazılır: "Bu Məzrə əvvəllər kənd imiş (kəndin əhalisi pis əməlli qızılbaş (şiə) olduğu üçün qaçıb getmişdilər və bir daha qayıtmayacaqlarına görə, dəftərdə bu kənd Məzrə olaraq qeydə alınmışdır ("Naxçıvan sancağının müfəssəl dəftəri", s. 290-291). Deməli, yüzlərlə ailə didərgin düşmüş kənd boş qalmışdır. V.Qriqoryevin məlumatından aydın olur ki, Nadir şah zamanı Dərələyəzdən yüzlərcə ailə Türkiyəyə qaçmışdır [Григорев В.Н.спр. 1833, ст. 167]. Beləcə, türk-türkün, müsəlman-müsəlmanın qəniminə çevrilmişdir. Naxçıvan xanlığının yaranmasına qədər bu vəziyyət davam etmişdir.

Rusiyanın Güney Qafqaz siyasəti bölgədə müxtəlif tipli miqrasiyalara etnik yerdəyişmələrə gətirib çıxardı. 1813-cü il Gülüstan sülh müqaviləsi ilə Şərqi Azərbaycan Rusiya tərəfindən işğal edildi. Bu dövrdə Qərbi Azərbaycan xanlıqları öz müstəqilliklərini qoruyub saxlayırdılar. 1827-ci ildə hər iki xanlıq Rusiya tərəfindən işğal olundu. Bu dövrdə etnik cəhətdən ciddi dəyişikliyə məruz qalan bölgələrdən biri də Dərələyəz idi. V.Qriqoryevin məlumatına görə, Şərqi Dərələyəzdə yaşayış olan 47 kənddə yaşayan 907

ailədən 660-ı yerli Azərbaycan türkü, 247-si İrandan köçürmə erməni ailəsi idi. Beləliklə, mahalda yaşayış olan 56 kəndin ancaq üçündə - Arpa, Xaciq və Aynozorda 1828-ci ildən əvvəl cəmi 57 erməni ailəsi yaşamışdır. Köçürmə nəticəsində mahalın 9 kəndinə İrandan 284 erməni gətirilmişdir. Həmin vaxt Qərbi Dərələyəzə aid edilən 9 kənddə 346 ailə olmuşdur ki, bundan 252-si buranın əzəli sakinləri olan Azərbaycan türkləri, 57 istilaya qədər burada yaşayan erməni, 37-si isə İrandan köçürmə erməni ailəsi idi [Григорев В.Н.спр. 1833, ст. 161-176[. Etnik tərkibin ermənilərin xeyrinə Dərələyəz mahalında ciddi şəkildə dəyişdirmişdir.

Naxçıvanda olduğu kimi, bu dövrdə İrəvan xanlığı ərazisində vəziyyət acınacaqlı idi. İstiladan əvvəl burada 2400 türk müsəlman ailəsi yaşayırdı. Bu dövrdə rus əsarətində yaşamaq istəməyən türk-müsəlman ailəsi Türkiyəyə və İrana qaçmışdır. Bunun əvəzində burada İran və Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir.

Bunun nəticəsində türk-müsəlman ailələri artmaq əvəzinə 593 ailə azalaraq 1828-ci ildə 1807-ə enmişdir. Bu ailələrdə əhalinin ümumi sayı 7331 nəfər olmuşdur. Azərbaycan türklərinin azalması müqabilində ermənilərin sayı nəzərə çarpacaq dərəcədə artmışdır. Belə ki, köçürmələrlə birlikdə şəhərdəki 567 erməni ailəsində 2379 nəfər erməni yaşayırdı [Əziz Ələkbərli, 1994, s.186].

Dərələyəz mahalının kameral təsvirində (1831-ci və 1842-ci illər) Şərqi Dərələyəzdə yaşayan Qaracor türkmənləri haqqında məlumat verilmişdir. Burada bəzən mübahisə obyekti olan qaracorluların milli mədəniyyətli yaşayış arealı, etnik mənşəyi ətraflı şəkildə verilmişdir. "Corlu", "qaracorlu" türk sözü olmaqla, onlar monqol mənşəli Kerait tayfalarının törəmələridir. "Cor" yer adı kimi, habelə türk hökmdarlarında titul kimi işlənmiş, "Cor" Dərbənd şəhərinin Alban tarixindəki keçmiş adıdır. "Cor", "cur" qədim türk sözüdür. Mənası "igid" qəhrəman deməkdir. "Cor" Kəngər peçeneqlərin bir tayfasının adıdır. Bütün bunları yekunlaşdıraraq belə nəticəyə gələ bilərik ki, Qaraqoyunlu, Qarapapaq, Qaraçöplu, Qaracanlı, Qarabayramlı, Qaracalı və s. kimi Qaracorlular türk tayfasıdır [Dərələyəz mahalının Kameral təsviri (1831-ci və 1842-ci illər) 2017, s. 9-10].

Şərqi Dərələyəzin yaşayış məskənlərindən biri də Cul kəndidir. Cul kəndinə tarixi mənbələrdə XIII əsrdə rast gəlinir. Cul kəndi Arpaçayın qolu olan Culçayının sahilində yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə, Qafqazın 5 verslik xəritəsində qeyd edilmişdir. Toponim cul türk etnonimi əsasında yaranmışdır.

Naxçıvan sancağının müfəssəl dəftərində Dərələyəz nahiyəsinin kəndlərindən alınan gəlir vergilərinin sıyahısında Cul kəndinin adı çəkilir. Cul kəndinin əhalisindən 3988 axça gəlir vergisi alınmışdır.

Cul kəndinin əhalisi 1831-ci ildə 117 nəfər, 1873-cü ildə 708 nəfər, 1886-cı ildə 866 nəfər, 1897-ci ildə 1214 nəfər,1904-cü ildə 1344 nəfər, 1916-cı ildə 1607 nəfər olmuşdur. Orada yalnız azərbaycanlılar yaşamışdır.

1918-ci il iyun ayında Dərələyəz ermənilər tərəfindən dəhşətli dağıntılara məruz qalıb, xeyli insan həlak olub. Sağ qalanlar qaçmaqla canlarını qurtara biliblər. Sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan Cul kəndinin sakinləri tarixi etnik torpaqlarına dönmüşdülər.

1920-ci il avqustun 10-da Rusiya K(b)P-nın Qafqaz bürosu Azərbaycan SSR-in rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxarıb. Zaqafqaziya MİK-in 1929-cu il 18 fevral tarixli qərarına əsasən, Azərbaycan SSR-in rayonlaşdırılması ilə əlaqədar, Şərur-Dərələyəz qəzası ləğv edilmiş, tərkibindəki Qurdqulaq, Xacik, Horadiz kəndləri torpaqları ilə birlikdə Ermənistana qatılmışdır.

Ermənistan SSR rayonlaşdırılan zaman Dərələyəz mahalı Keşişkənd və Soylan rayonlarına bölünmüşdü.

Cul kəndində 1922-ci ildə 717 nəfər, 1926-cı ildə 431 nəfər, 1931-ci ildə 950 nəfər azərbaycanlı yaşamışdır. Cul kəndinin sakinləri 1948-1949-cu illərdə Azərbaycanın Kür-Araz ovalığına köçürülmüşdür. 1950-ci ildən Cul kəndində ermənilər yaşayır. Kəndin adını dəyişərək Artavan qoyublar.

Qədim türk yurdu Dərələyəz mahalında əhalinin deportasiya edilməsi, yaşayış məntəqələrinin dağılması və ləğv olunması 1988-ci ilə qədər mərhələlərlə davam etmiş 48 kənd bir dəfə, 49 kənd iki dəfə, 16 kənd 3 dəfə, 4 kənd 4 dəfə, 1 kənd 5 dəfə deportasiyaya məruz qalmış və ləğv olunmuş, əhalisi zorakılıqla qovulmuşdur.

Qətiyyətlə demək olar ki, qırx dörd günlük Vətən müharibəsində qazandığımız tarixi zəfər nəticəsində Qarabağa və Şərqi Zəngəzura qayıtdığımız kimi, Qərbi Azərbaycana, eləcə də Dərələyəz mahalına da qayıdacağıq.

ƏDƏBİYYAT

1. Kırzıoğlu, M.F.. Yuxarı-Kür və Çoruq boylarında kıpçaklar // – Ankara: – 1992. Yenə onun "Milli dastanlarımızda Dədə Qorqud oğuznamələrinin tarix bəlgəsi baxımından dəyərləri", Armeniya (Yuxarı-Əllər tarixinin içüzü. Bülleten, Ayrı Basım, – Ankara: – 1987.
2. Kitabi-Dədə Qorqud. Uşun qoca oğlu Səkrək boyu. – Bakı: – 1988, – s. 110.
3. Qədirzadə, H.Q. Naxçıvanin tarixi türk diyar Dərələyəz. Elmi əsərlər. NDU, – Naxçıvan: – 1999.
4. Naxçıvan sancağının müfəssəl dəftəri. 9 məhərrəm II 40 (27 avqust 1727), giriş və tərcümə müəllifləri akad. Ziya Bünyadov və t.e.n. Hüsaməddin Məmmədov (Qaramanlı), – Bakı: – 1997.
5. Ələkbərli, Ə. Qədim-türk oğuz yurdu – "Ermənistan", – Bakı: – 1994, – s. 186
6. Nax. MR. Mərkəzi Dövlət Arxivi. Fond 314, qeyd 5.a, iş 73, – s. 186
7. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər). (tərcümə edən, çapa hazırlayan və ön sözün müəllifi Nazir Əhmədli). – Bakı: Elm və təhsil, – 2017.
8. Григорев, В.Н. Статистическое описание Нахичеванской превинусии. Спр 1833. С. 167. ст. 161-176.

SUMMARY

Rasul Bagirov

TURKISH LAND - EASTERN VALLEY

Deraleyaz district, an ancient Turkic-Oghuz homeland, is one of the oldest settlements in the territory of Western Azerbaijan. The oldest Turkish tribes lived here in the Darelayaz region. According to population, Darelayaz district is divided into three parts: Eastern Darelayaz, Western Darelayaz and the mountainous part of Sharur. Comparative studies show that there have been fundamental changes in the ethnic composition of the population here. Enmity in Iran-Ottoman relations for a long time caused the displacement of the population in Nakhchivan, Daraleaz, its historical region, as well as in all of Western Azerbaijan. The Turkish tribes who lived in Darelayaz immortalized their names in a number of ethnotoponyms. All oikonyms, oronyms and hydronyms of Darelaez district are of Turkish origin. Historical sources indicate that Western Azerbaijan is the homeland of Turkic ethnic groups.

Key words: *Turkish homeland, Darelaez, Jul, Karachorlu.*

QƏDİM OĞUZ-TÜRK YURDU İRƏVANIN TARİXİ ABİDƏLƏRİ

İsmayıl ZEYNALOV
İlqar KƏNGƏRLİ
Naxçıvan Dövlət Universiteti

Tarixi qaynaqların verdiyi məlumata görə, hicri tarixi ilə 810-cu miladi tarixi ilə 1407-1408-ci illərdə tacir Xocacan Lahicani tərəfindən İrəvan şəhərinin əsası qoyulmuşdur və İsmayıl şahın tapşırığı ilə isə 1509-1510-cu illərdə onun vəziri Rəvanqulu xan həmin yerdə, Zəngi çayının sahilində xarici düşmənlərdən şəhəri qorumaq məqsədilə kərpic və daşdan ibarət möhtəşəm bir qala tikdirmişdir. Qala bir müddət Rəvan xanın adı ilə Rəvan qalası adlandırılmışdır. Sonralar saxtakar ermənilər öz himayədarlarına arxalanaraq Rəvan sözünün əvvəlinə "İ" hərfi artırmaqla bu qalanın İrəvan qalası adlandırmışlar.

Qədim Azərbaycan torpağı olan İrəvanda xanlıq yaradılandan sonra öz qüdrətli, alınmaz qalası, coğrafi mövqeyi, müxtəlif dövrlərdə hətta öz müstəqilliyi ilə fərqlənən Azərbaycan xanlıqlarından biri olmuşdur.

Azərbaycanın 1828-ci ildə Türkmənçay sülh müqaviləsindən sonra Rusiyanın tabeliyinə keçməsindən sonra, Türkiyə və İrandan 40 min nəfərdən çox ermənilərin İrəvan və Naxçıvan Qarabağa köçürməklə, azərbaycanlıların inşa etdikləri dünyaşöhrətli abidələri dəhşətli faciələrlə ilə üzləşməli oldular. Bununla yanaşı, aboregen əhali olan azərbaycanlıları öz dədə-baba yurdundan çıxarmaq yolu ilə erməni dövləti yaratmaq xəyalına düşdülər.

Beləliklə, 1828-1989-cu illər ərzində 2,5 milyondan çox azərbaycanlı soydaşlarımız mərhələ-mərhələ deportasiya olunmuş, həmçinin milli-mənəvi dəyərlərimiz olan abidələrimiz dağıdılmışdır.

Etnik təmizləmə və türksüz Ermənistan uğrunda ermənilərin əsrlər boyu apardıqları gizli mübarizə və açıq-aşkar müharibələr tarixinə 1991-ci il avqust ayının 8-də son qoyuldu. Ermənistandan azərbaycanlılar tamam təmizləndi, onların yaşadıqları kəndlər dağıdıldı, hətta belə çox qədimdən daşıdığı türk mənşəli adları, "Demokratiya" bayrağı adı altında hakimiyyətə gəlmiş Levon-Ter-Petrosiyan 1991-ci il aprelin 9-da imzaladığı bir fərmanla düz 97 kəndin adı dəyişdirilib ermənileşdirilmişdi [1-57].

Əslində azərbaycanlıların yaşadığı kəndlərin adlarının yaddaşlardan silinməsi siyasətinə rəsmən 1935-ci ildən başlamış və 1978-ci ilə qədər 465 kəndə erməni adı verilmişdi. Halbuki miladdan əvvəl VIII-VII əsrlərdə Urartu çarlığına daxil olan indiki Ermənistan ərazisi onlara yox, yalnız türkdilli kimmerlərə, skiflərə, saklara, şiraklara məxsus idi. XI-XII əsrlərdə isə buraya oğuzlar gəlmişlər. Buradan aydın olur ki, indiyədək erməni tarixçilərinin gəlmə kimi verdiyi azərbaycanlılar Ermənistan ərazisinə gəlmə yox, lap qədim aboregen əhalisi olmuşlar.

Əhalinin milli tərkibi isə 1828-ci ildə ruslar Azərbaycanı işğal edəndən sonra dəyişilmişdir. 1827-ci ildə ruslar İrəvan qalasını alanda şəhərdə əhalinin 70 %-indən çoxu azərbaycanlılar olmuşdur.

"İrəvan quberniyası Qafqazda yaşayan azərbaycanlıların sayına görə Bakı və Gəncə quberniyalarından sonra üçüncü yeri tuturdu"[1,9].

"Parçala ağalıq et" qayəsini milli ədavət siyasəti pərdəsi altında həyata keçirmək məqsədini güdən böyük dövlətlərin hakim dairələri hakimiyyət başına gəlmək meylində olan dairələrə bir silah olaraq verdilər. Bəli, bu silah əsl ölüm saçan, milləti inkişaf yolundan qoyan, diqqəti gizli məqsədlərdən yayındıran silahdır. Bu milli-ədavət silahı ilə 1905-1907, 1918-1920, 1948-1953,1988-1992-ci illər ərzində dəhşətli qanlı toqquşmalar olmuş, günahsız xalqlar qətlə yetirilmiş, deportasiyaya məruz qalmış, milli-mənəvi dəyərləri dağıdılmış və bir sözlə desək, Ermənistanda yaşayan azərbaycanlılar soyqırıma məruz qalmışlar. Tarixi abidələrimiz isə dağıntılara məruz qalmışdır. Ermənistanda aborogen əhali olan azərbaycanlıların saysız-hesabsız tarixi abidələri olmuşdur. Bu abidələr sırasında İrəvanda olan abidələr daha çox dağıntıya məruz qalmışdır. Tarixi mənbələrin göstərdiyinə görə 1877-1878-ci illərdə İrəvan şəhərində 8, İrəvan mahalında 18 məscid olmuşdur.









"Qafqazın epiqrafik abidələrini öyrənən tarix elmləri doktoru, görkəmli tədqiqatçı alim Məşədixanım Nemətova İrəvanın epiqrafik abidələri haqqında məqalələrlə çıxış etmiş və "Əsrlərin daş yaddaşı" adlı kitabında bu bölgənin epiqrafik abidələrindən söhbət açmışdır"[1,447], [3,41].

Məhz bu mənada da, İrəvan şəhərinin aborogen əhalisinin azərbaycanlılar olduğu və bu ərazinin epiqrafik abidələrinin Azərbaycan dövlətinə məxsus olması fikrini bir daha təsdiq edir. Belə abidələrdən İrəvan məscidləri olan Şah İsmayıl məscidi, Göy məscid, Şah Abbas məscidini və başqalarını misal göstərə bilərik.

Allah evi adlandırdığımız məscidlər tarix boyu qədirbilən xalqımızın and yeri, inanc beşiyi olub. Lakin son 30 ildə Qərbi Azərbaycanın digər ərazilərində olduğu kimi, İrəvanda da inşa olunan qədim məbədgahlarımız erməni vandalizminə məruz qalmışdır.

Hal-hazırda İrəvanda olan səkkiz möhtəşəm məscidlərdən yalnız 1988-ci ildə yandırılan iki məscidin qalıqları qalır.

İrəvanda ilk məscid Şah İsmayılın əmri ilə 1510-cu ildə ucaldılmışdır (Şah İsmayılın hakimiyyətə gəldiyi tarix 1501-ci, ölüm tarixi isə 1524-cü illərə aiddir).

Məscidin geniş həyəti, çarhovuzu göydələn minarəsi olmuşdur. 1918-ci ildə ermənilər azərbaycanlıları bura doldurub, qapısına kilid vurub, sonra neft töküb yandırmışlar. Bununla yanaşı, erməni vandalizminə məruz qalan məscidlərdən biri də Xudabəndə məscidi olmuşdur. Bu məscid İrəvanda Səfəvi Məhəmməd Xudabəndə tərəfindən 1578-1587-ci illərdə tikilib istifadəyə verilmişdir. Bu ibadət və "inanc evinin uzunluğu 9 metr, eni 6 metr, hündürlüyü isə 12 metr olmuşdur" [1,449].

Məscid bişmiş qırmızı kərpiclə tikilmiş və giriş qapısının üstündəki kitabədə onun təmir olunma tarixi hicri tarixi ilə 1099-cı ildə, Miladi tarixi ilə 1685-ci ildə Səfəvi dövlətinin hökmdarı Şah Süleyman tərəfindən aparıldığı qeyd olunmuşdur.

Amma XX əsrin əvvəllərində, xüsusən 1918-ci ildən etibarən Azərbaycan torpaqları hesabına erməni dövləti yaradıldıqdan sonra, azərbaycanlıların mövcudluluğuna dəlalət edən tarixi-memarlıq abidələrini yer üzündən silinməsinin qurbanına çevrildi.

Erməni vandalizminə məruz qalan məscidlərdən biri də ermənilərin Kond adlandırdıqları məşhur Təpəbaşı məhəlləsində inşa olunan məscid olmuşdur. Bu məscidi İrəvan şəhər hökumətinin üzvü, xan nəslinin nümayəndəsi, İrəvan xanı Abbasqulu xan tikdirmişdir. Onun yaşayış evi də elə bu məhəllədə yerləşirmiş. Hazırda xaraba vəziyyətdə qalan bu evi ermənilər "Xan evi" adlandırırlar. Onun tikdirdiyi Təpəbaşı məscidi bərbad vəziyyətə düşdüyündən yoxsul bir erməni ailəsi tərəfindən müəyyən təmir işləri apararaq, ailəsi ilə birlikdə yaşayış mənzili kimi istifadə olunur. Erməni vandalizminin daha bir qurbanı XVII-XVIII əsrlərdə tikilmiş və İrəvanın eyniadlı məhəlləsində yerləşən "Dəmirbulaq" məscidinin dağıdılması olmuşdur. Bu məscid 1988-ci il hadisələri zamanı yandırılıb, 1990-cı ildə isə yerləyeksan olunub. Hazırda burada "Rossiya" ticarət mərkəzi yerləşir.



İrəvan qalasında, Sərdar (xan) sarayının yaxınlığında yerləşən "Abbas Mirzə" və Şah Abbas kimi də tanınan "Sərdar" məscidinin taleyi də digər məscidlərin taleyi kimi acı, kədərli olmuşdur. Mənbələrdə müxtəlif adlarla adlanmasına baxmayaraq, söhbət XVI əsrdə inşa edilmiş memarlıq abidələrindən olan "Sərdar" sarayından gedir. İrəvanın digər maddi-mədəniyyət Azərbaycan abidələri kimi, bu saray da Ermənistan hakimiyyəti tərəfindən hissə-hissə dağıdılmışdır. Bunun yerində isə yaşayış binaları tikilmişdir. Hazırda orada ancaq məscid divarının qalıqları qalmaqdadır.

İrəvan məscidləri arasında monumental sənət əsəri kimi tanınan Şah Abbas məscidi xüsusi yer tutur. Xalq arasında ona "Came" məscidi də deyilir.



"Bu məscid 1587-1629-cu illər arasında yaşamış Səfəvi şahı I Şah Abbas tərəfindən inşa etdirilib. Məscidin tikintisi Gəncəli memar Şeyx Bənayinin layihəsi ilə həyata keçirilmişdir. Bu məscid Şah Abbas məscidi, Abbas Mirzə məscidi, Sərdar məscidi və ya Xan məscidi də adlanır. Məscidin tikintisi ilk dəfə 1606-cı ildə həyata keçirilmişdir"[1,449]. "Onun ikinci dəfə müəyyən düzəlişlərlə 1810-cu ildə Abbas Mirzə Qovanlı Qacar

tərəfindən İrəvan qalasında inşa etdirilmişdir." Qala məscidi və ya köhnə məscid adlanan bu məscid İrəvandakı məscidlərin ən qədimi olmuşdur.

Sərdar sarayının şərq yanına yaxın inşa edilən məscidin yanında mədrəsə, kitabxana və mehmanxana tikilməklə elm mərkəzi vəzifəsini də həyata keçirmişdir.

İrəvan xanlığı zamanında məscidin yeməkxana evində kasıblara gündə 3 dəfə yemək də verilirmiş. Dini bir məkandan başqa ictimai bir quruluş olan bu məscid fürsət düşdükcə ermənilər tərəfindən dağıntıya məruz qalmışdır. Rusların İrəvan qalasını 1827-ci ildə işğalından sonra isə məscid cəbəxana və müxtəlif məqsədlər üçün istifadə edilmiş və "məscidin böyük həyəti ehsanlıq tut bağı olub ki, bu bağdan yetimlər, əlsiz-ayaqsızlar istifadə edərmişlər"[1-450].

1864-cü ildə İrəvan qalasından rus qoşunlarının hərbi-istehkam məqsədilə istifadəsinə son qoyulduqdan sonra, qaladakı tarixi-memarlıq abidələri, o cümlədən Sərdar və yaxud Abbas Mirzə məscidi ciddi dağıntılara məruz qalmışdır.

Sovet dövründə isə məscid hissə-hissə dağıdılmışdı. 1918-ci ildə ermənilər İrəvanın müsəlman əhalisini məscidə doldurараq məscidlə birgə yandırmışlar.

1923-cü ildən 1945-ci ilə qədər məsciddə dini mərasim keçirilməyib, oradan başqa məqsədlər üçün istifadə edilmişdir. Məscid 2008-ci ildə tamamilə sökülmüş, onun yerinə yaşayış yerləri tikilmişdir.

İrəvanda memarlıq biçimlərinin aydınlığı ilə seçilən məscidlərdən biri də "Göy məscid" olmuşdur. Bu məscid Göy rənglə rəngləndiyinə görə Göy məscid adlandırılmışdır.



Tikinti verilən məlumatlara görə, İrəvan hakimi Hacı Hüseynəli xan tərəfindən 1764-cü ildə inşa edilmişdir. Onun ustaları abidələr şəhəri olan Təbrizdən dəvət olunmuşdular. Əvəzsiz sənət möcüzəsi sayılan Göy məscidin bərpasında və kitabəsinin yazılmasında və onun divarlarının bəzədilməsində tanınmış Azərbaycan rəssamı memar Mirzə Qədim

İrəvaninin böyük rolu olmuşdur. Sonralar İran şahı Fətəli şahın zamanında məscid əsaslı sürətdə bərpa olunmuşdur. Məscid şəhərin mərkəzi bağının kənarında Azərbaycan məhəlləsində yerləşirdi.

"XIX əsrdə buraya gəlmiş ingilis səyyahı Linc 1910-cu ildə Tiblisdə çap edilən ikicildlik "Ermənistan" əsərində yazır ki, mən İrəvanda olanda məscidin qülləsinin biri xarabalığa çevrilmişdi. Məscidin özünə isə külli miqdarda erməni ailələri köçürülmüşdü ki, onlar da türklərə məxsus abidələri vəhşicəsinə dağıdırdılar" [1,451].

Məscidin kitabxanasından elmi mübahisələr aparmaqla yanaşı, həm də işgüzar söhbətlər aparmaq üçün istifadə edilirdi. Təəssüflər olsun ki, 1917-ci ildə bu məscidi hərbi müxbir, fotoqraf Teryan fotosunu çəkib, "Van məbədi" kimi qələmə almışdır. 1918-ci ildən üzübəri Ermənistanda olan bütün müsəlman abidələri gizli və bəzən də açıqcasına ermənilər tərəfindən məhv edilməyə başlanmışdır. 1988-ci ildə isə İrəvanda Göy məscidi 3-cü dəfə yandırdılar. "Onun yandırılması 1-ci dəfə 1918-ci ildə olmuş, 2-ci dəfə isə 1955-ci ilin mart ayında türk din xadimi Mahmud Aruz, oğlu və həyat yoldaşı, bir də 22 nəfər üləma ilə namaz qılarkən məscid yandırılmışdır" [1-452] [İncəsənət qəzeti, 1991-ci il].

Göy məscidlə yanaşı, tarixi bəlli olmayan, amma əsrimizin əvvəllərində mövcud olan Təpəbaşı, Əsəd ağa, Çətirli, Körpü bulağı, Qala, Şəhər, Sərdar, Hacı Novruzəli məscidləri də olmuşlar ki, onlar da erməni vandalizmi ilə bağlı dağıntıya məruz qalmışdılar.

İrəvanda azərbaycanlılar tərəfindən bir çox karvansaralar, körpülər və qalalar da inşa olunmuşdur ki, onların əksəriyyəti də erməni vandalizminə məruz qalmışdır.

ƏDƏBİYYAT

1. Əsədov, S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası // – Bakı: Gənclik, –1995.
2. Qeybullayev, Q.Ə. Qədim türklər və Ermənistan // – Bakı: – 1992.
3. Nemətova, M. Əsirlərin daş yaddaşı // – Bakı: Elm, – 1987.
4. Zeynalov, Ə. İrəvanda nə qaldı // "Açıq söz" jurnalı. –1990. №9, –s.19-20.
5. Vikipediya

SUMMARY

Ismayil Zeynalov, Ilgar Kangarli

ANCIENT OGUZ-TURK PLACE-IREVAN MONUMENTS

The article deals with the monuments, mosques and their consequences which are considered the national values of the Turks and their ancient ancestors and historical memories in Irevan which has been an eternal land of Azerbaijan where Turks have settled for millenniea.

The main aim of the article is to recommend every Azerbaijani son not to be an observer to the genocide committed to our people and national-moral values and to restore the justice of returning of the Western Azerbaijan to Azerbaijan again and to be ready for the fight for the war.

Because Western Azerbaijan lands as well as national moral values founded thousands of ago are ours and even if they are under occupation, they are waiting for us.

Key words: *Western Azerbaijan, monuments, motherland, partition, genocide.*

SƏFƏVİLƏR DÖVRÜNDƏ ZƏNGƏZURUN TARİXİ COĞRAFİYASI: SƏRHƏDLƏRİ VƏ İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ

İlhami ALİYEV
ilhamialiyev@yahoo.com.tr
AMEA Naxçıvan Bölməsi

Məqalədə XVI-XVIII əsrin əvvəllərində Azərbaycanın qədim bölgələrindən biri olan Zəngəzurun yerləşdiyi tarixi coğrafiyadan bəhs olunur. Qeyd edilir ki, bu gün Azərbaycan torpaqlarının bir hissəsi olan Şərqi Zəngəzur və indiki Ermənistan Respublikası ərazisində qalan Qərbi Zəngəzur Səfəvilər dövründə Azərbaycanın o zamankı ən iri inzibati ərazi vahidləri sayılan bir sıra bəylərbəyiliklərin tərkibində olmuşdur.

Aparılan araşdırmalardan aydın olmuşdur ki, bəhs edilən dövrdə Zəngəzur bölgəsinin ərazisi Səfəvilər dövlətinin yalnız bir inzibati ərazi vahidində deyil, bir neçəsinin tabeçiliyində idarə edilmişdir. Bir sıra tarixi qaynaqlara, xüsusilə də XVI əsrin sonlarında Osmanlı hakim dairələri tərəfindən hazırlanmış "İrəvan əyalətinin icmal dəftəri"nə, "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"nə, XVIII əsrin əvvəllərinə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərinə" və Təzkirət əl-Müluk əsərinə görə bəhs edilən dövrdə Zəngəzurun ərazisi Azərbaycan Səfəvilər dövlətinin tərkibində ayrı-ayrı vaxtlarda Gəncə-Qarabağ, Çuxursəd və Azərbaycan bəylərbəyiliklərinin tərkibində olmuşdur ki, bu bəylərbəyiliklər mahallara, mahallar nahiyələrə, nahiyələr kəndlərə, məzrəələrə (sakinləri olmayan kəndlərin əkin sahələri) və s. inzibati ərazi vahidlərinə bölünmüşdür.

Açar sözlər: *Səfəvilər, Zəngəzur, Osmanlı mənbələri, ərazi, sərhəd, tarixi coğrafiya*

Azərbaycanın qədim və zəngin tarixi bölgələrindən biri də Zəngəzurdur. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, indiki Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, Ermənistan ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır. Zəngəzur 7824 kv.km ərazisi ilə Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan və indiki Ermənistan Respublikasının Gorus, Sisyan (Qarakilsə), Qafan və Mehri rayonlarını əhatə edir.

Səfəvilər dövründə də Azərbaycanın tarixi torpaqlarının bir hissəsi indiki Zəngəzurun sərhədləri daxilində yerləşirdi. Belə ki, bu zaman Zəngəzurun böyük bir hissəsi Qapanat (Qafan) o zamankı Azərbaycan bəylərbəyiliyinin (bu bəylərbəyilik mərkəzi Təbriz olmaqla Cənubi Azərbaycan torpaqlarının əksər hissəsini özündə birləşdirirdi), bir hissəsi Sisyan isə Naxçıvanın tərkibində olmuşdur. Qapanat Zəngəzurun Bərgüşad silsiləsinə qədər olan cənub hissəsini əhatə edirdi. Sisyan isə o zaman Naxçıvan ölkəsinin şimal-şərq tərəfində sərhəd nahiyələrindən biri idi [7]. Zəngəzurun Kaştaq (Laçın), Arasbar və Həkəri mahalları isə Gəncə-Qarabağ bəylərbəyiliyinin bir hissəsi idi.

Qapanat haqqında erməni tarixçisi A.Papazyan 1972-ci ildə nəşr etdirdiyi əsərində qeyd etmişdir ki, Qapanat Səfəvilər dövründə Azərbaycan bəylərbəyiliyinin tərkibində idi. O, Zəngəzur və Qarabağ silsilələri arasındakı dağlıq ölkəni əhatə edirdi ki, bura

Mehri, Mincivan, Bərguşat, Kığı və s. inzibati vahidlər daxil idilər. Həmin əsərində, həmçinin Sisyanın Naxçıvan ölkəsinin tərkibində olduğunu da göstərmişdir [11, s. 50-51].

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibələri zamanı Azərbaycanın böyük bir hissəsini ələ keçirən osmanlılar Naxçıvan ölkəsini Sisyan və Qapanat mahalları ilə birlikdə Azərbaycan bəylərbəyiliyinin tərkibindən çıxarıb, Çuxursəd bəylərbəyiliyinin, yəni İrəvan əyalətinin tərkibinə keçirdilər [8]. XVI əsrin sonlarında Osmanlı hakim dairələri tərəfindən hazırlanmış "İrəvan əyalətinin müfəssəl dəftəri"nə və "İrəvan əyalətinin icmal dəftəri"nə görə Zəngəzur torpaqlarının bir hissəsi Naxçıvan sancağına tabe idi. Bunlardan Bazarçayı, Zar, Zəbil və Sisyan nahiyələri həmin vaxt Naxçıvan sancağının bölündüyü ən iri inzibati ərazi vahidlərindən bir neçəsini təşkil edirdi [4, s. 167, 180-181, 182-183]. 1593-cü il tarixli "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"nə görə keçmiş Qarabağ bəyləribəyiliyinin ərazisi 36 nahiyəyə bölünən 7 sancaqdan ibarət olmuşdu. Bunlar 12 nahiyəli (Gəncə, Gəncə Aranı, Dağlıq Gəncə, Şəmkir Aranı, Dağlıq Sunqur, Kürəkbasan Aranı, Şutur, Danqı, Zəyəm Aranı, Yevlaq, Tavus, Dəmirçihəsən) Gəncə sancağı, 4 nahiyəli (Bərdə, Sir, Pətəklik və İncərud) Bərdə sancağı, 7 nahiyəli (Xaçın, Qaraağac, Ağcabədi, Dağlıq Çalaberd, Çalaberd, Qarqar və Məğaviz) Xaçın sancağı, 5 nahiyəli (Axıstabad - başqa adı Böyükçay, Quzey, Güney, Dağlıq İncə və İncə) Axıstabad sancağı, 3 nahiyəli (Arasbar, Dağlıq Dizaq və Dizaq) Dizaq sancağı, 4 nahiyəli (Keştasf, Həkəri, Zarıs və Alpaut) Həkəri sancağı və bir nahiyəli (Vərəndə) Vərəndə sancağı idi [2, s.7-8]. Bunlardan Xaçın, Axıstabad, Dizaq, Həkəri və Vərəndə sancaqlıqlarının ərazilərinin xeyli hissəsi Zəngəzur bölgəsinin o dövrdəki torpaqlarını əhatə edirdi. Adı çəkilən sancaqlıqlardan əlavə XVI əsrin sonunda Zəngəzur bölgəsi ərazisi olan Çuləndər və Bərgüşad nahiyələri isə İsgəndər qalası adlı 13 nahiyəli sancağın tərkibinə daxil idi [3, s. 6].

Səfəvi hökmdarı I Şah Abbas XVII əsrin əvvəllərində Azərbaycan torpaqlarını Osmanlı hakimiyyətindən geri aldıqdan sonra Naxçıvan, Qapanat və Bərgüşadı yenidən Azərbaycan bəylərbəyiliyinin tərkibinə daxil etdi. Bazarçayı nahiyəsi Sisyan nahiyəsinə birləşdirildi [8]. I Şah Abbasın ölümündən sonra Çuxursəd bəylərbəyinin inzibati ərazi quruluşuna I Şah Səfi (1629-1642) tərəfindən dəyişiklik edildi. O, 1629-1634-cü illər arasında bir sıra vilayətlərin sərhədlərinə etdiyi dəyişikliklər zamanı Sisyan daxil olmaqla Naxçıvan ölkəsini Çuxursəd bəylərbəyiliyinin tərkibinə keçirdi [5, s. 42].

Osmanlılar XVIII əsrin 20-ci illərində yenidən Səfəvilər dövləti ərazisinin çox hissəsini ələ keçirdilər. 20-30-cu illərdə burada Osmanlı idarəçiliyi yenidən qurulduqdan sonra, Zəngəzur torpaqlarının bir hissəsi - Sisyan və Mehri Çuxursəd vilayətinin, Bərgüşad, Həkəri, Keştaq, Çuləndər nahiyələri isə Gəncə-Qarabağ əyalətinin tərkibində idi [8]. Bu zaman Qapanat (Qafan) isə Azərbaycan vilayətinin tabeçiliyində idi [12, s. 101]. Gəncə-Qarabağ əyalətinin 1727-ci il tarixli müfəssəl dəftərinə görə, osmanlıların apardığı bölgüyə əsasən, əyalət 37 nahiyəni birləşdirən 5 sancaq və iki qəzadan ibarət olmuşdur. Gəncə qəzasına Gəncəbasan, Sunqurabad, Şəmkürbasan, Kürəkbasan, Yevlaq, Qaramanlı, Danqı nahiyələri, Lori qəzasına Quzey və Güney nahiyələri, Xılxına sancağına Xılxına, Həsənsuyu, Tavus, Axıncı, Əsrik, Qaraqaya, Türkənlər, Yuxarı Zəyəm, Aşağı Zəyəm nahiyələri, Bərdə sancağına Bərdə, İncərud, Sir, Bayat nahiyələri, Arasbar sancağına Arasbar və Həkəri nahiyələri, Bərgüşad sancağına Bərgüşad, Zarıs, Dizaq və Keştasf

nahiyələri daxil edilmişdir. Bunlardan əlavə, dəftərdə nahiyəsiz Çuləndər sancağı, hansı sancağa tabe olduğu göstərilməyən Xaçın Sığnaq, Çalaberd, Keştək, Vərəndə Sığnaq və Köçəz nahiyələri də qeyd edilmişdir ki, [3, s. 6] onlardan Xılxına, Bərdə, Arasbar, Bərgüşad və Çuləndər sancaqlıqları Zəngəzur torpaqlarının müəyyən hissəsini əhatə etmişdir. Bu dövrdə adları çəkilən sancaqlıqlarla, onların bölündüyü inzibati ərazi vahidləri olmuş nahiyələr, kəndlər, məzrəələr, dizələr və s. yaşayış yerləri ilə bağlı qısa araşdırmalar apardıqda fərqli durumla qarşılaşırıq.

Belə ki, Gəncə-Qarabağ əyalətinin 1727-ci il tarixli müfəssəl dəftərinə görə bəhs edilən dövrdə Bərgüşad sancağının tərkibində olan Bərgüşad nahiyəsində Ağalı, Qılıcan, Qazıyan, Balabasan, Aşağı Tiryəkçi, Qarışlı, Mamır, Dəmirçi, Gümüş, Qazi, Kütləşam Subasar, Əyənük, Qarışdıq, Taciyətli, Kəhran, Əbülhüccə, Qaralı, Möhtəsib, Mumiyan, Əğiq, Güləbürd, Ələddin, Durdəxan, Zəbani İbrahim, Şərifan, Didəban, Xəlifan, Xəlac, Salur, Məlik Yunis, Gavşud, Zəbani-Hacı, Yuxarı Şərifxan, Gedərcuni, Ağakişi, İrəsvəng, Əyədin, İncəabad, Əyərək, Nüvədin, İydəli, Kəbudtərincə, Berdik, Dirəkli, Qazı Binicə, Qalacıq, Kamalabad, Biruzə, Sirkədaş, Ağaud, Məlikxan, Zaviyə, Yeni (Cədid) Xaçtab, Milatşin, Qubadlı, Yeməzli, Bəyixan, Əyin, Qəribxan, Hal, Zinkan, Zavik, Tors, Rəşid, Marul, Yuxarı Tiriyacı, Curlu, Qızoğlu, Hindberd, Kamazki, Canik, Şeyx vəqfi, Gömcük, Utanus, Keşişan, Ağıntas Qəriban, Üləkçə, Ağçeşmə, Taxun, Xanəgah, Hacı Bürhan, Keşişqovan, Üdgün, Xalçaəranə, Sevakar, Qazanlı, Bildik, Altıncı, Arıqsevən Naxçıvani, Qarayataq, Qədim Kaştan, Mamaq, Gilavar, Bunikər, Səhih, Desvəng, Vəng kəndləri, Sisyan, Kələəsrək, Kakı, Hacı, Bəyür, Cinli, Görcə, Poladlı, Hacı Məlikyunis, Mnasqa, Yaydaqlı, Qudayi Xatunan, Bəhmənən, Daşnaud, Siyah Mirili, Mirxanlı, Kirəqusan, Pəricanə, Dinəcur, Novruz, Qıratlı, Sisyek, Ağaud, Xudadan, Surabad, Qara Həmzə, Halvaçı, Sənək, Şikəkar, Kərəhad, Yasavul, Hanki məzrəələri [3, s. 487-529] olmuşdur ki, ümumilikdə onların sayı 129-a çatmışdır. Bu yaşayış yerlərinin 97-i kənd, 32-i məzrəə idi. Bunlardan 33 kənddə heç kim yaşamır, 49 kənddə müsəlmanlar, 15 kənddə isə qeyri-müsəlmanlar yaşayırdı. Bu 15 kəndin cəmi vergi verənlərinin sayı 154 nəfər olmuşdur. Yerli müsəlman əhalisinin sayına görə təkcə Kəbudtərincə kəndinin vergi verən əhalinin sayı 80-i keçmişdir. Bu nahiyənin ən böyük yaşayış yeri olan Ağalı kəndinin əhalisi isə 100-ə çatırdı. O zaman bu qədər adamın yaşadığı kənd böyük sayılırdı. Bir də qeyd etdiyimiz kimi, bu siyahıda ancaq vergi yaşı düşən kişilər qeydiyyata alınırdı.

Bərgüşad sancağının Dizaq nahiyəsinə Tuğ, Tağan, Kütülparaq, Cəbrayıllı, Daşkəsən, Haderud, Sur, Məhəmmədzur, Benazur, Ədilşah, Köndələn, Atayurd, Həkəki, Köşbək, Azuq, Sələkətün, Hoğa, Siyavuşan, Düdükçü, Susalıq, Süleymanlı, Tomu, Hetas, Həknud, Kamallı, Zamzur, Qaç, Əydilli, Kəmərəköç, Ağcakənd, Cərağuş, Seyidli, Təğasir, Metucahan, Tumaqlı, Əhmədli, Mingülab Tərəsu, Şeyxlər, Qarğabazarı, Horadis, Cuvarlı, Xoşvaxt, Murğuzlu, Maralyan, Qaraxatunabad, Bayram, Rabat, Rəfdinli, Xanəhmədli, Pasuban, Şahpiril, Biləqan, Ləbgünəş, Sirikli, Deyrhətik, Ərcəğur, Əyri, Konan, Kürzanlı, Dövlətyar, Xəlifəşahlı, Bulataq, Məzrəə, Oxçu, Xırdaxaç, Namxoş, Həkərim, Xırmancıq, Maklədərə, Nurkişi, Zimmi Çoğay, Vəng, Manik, Nureşin, Məlikcan kəndləri, Doqquzpərçim, Gərşimli, Qızoğlan, Qaradağlı məzrəələri, Qarabulaq, Qorğan, Ziyad qışlaqları daxil idlər [3, s. 401-428]. Cəmi 83 yaşayış yerindən 15 kənddə müsəlmanlar, 29

kənddə qeyri-müsəlmanlar yaşayırdı. 4 məzrəəsi, 3 qışlağı olan bu nahiyədə heç kim yaşamayan kəndlərin sayı isə 32 idi.

Bərgüşad sancağının Zarıs nahiyəsinə Keşişkənd, Xoramurd, Məlikqışlaq, Tarxanlı, Vəlican, Qaladərəsi, Yük, Xanəhməd, Curəli, Şahımqulu, Allahqulu, Sabitşah kəndləri və Başmaqçı, Xordxor məzrəələri [3, s. 433-434] tabe idi ki, bu sancağın 12 kəndinin hamısı boş, əhalisiz idi.

Bərgüşad sancağının tərkibində olan Keştasv nahiyəsinə Əlifdar, Hacılar, Şeyx Əhmədli, Qarıqışlaq, Kərdivan, Muğlabəy, Şeyx Kosalı kəndləri, Yük və Sus məzrəələri [3, s. 435] tabe idi. Bu sancaqda da heç kim yaşamırdı.

Bu zaman Arasbar qəzasının (sancağının) Arasbar nahiyəsinin tərkibinə Larican, Piyan, Nurpaşa, Sultanlı, Qızılqələm, Aşağı Balağay, Davudan, Çaxırlı, Babı, Göyşatlı, Yuxarı Yalıncaq, Aşağı Yalıncaq, Balağay, Xanarxı, Seyidabad, Taşqa, Kələçi Keşli, Köhərli, Köyük, Amadili, Aslandüz, Qasımabad, Qutuşan, Qaraqovaq, Alaqarğı, Xatunabad, Xərəlan Kəbirli, Şəkərabad, Ərişə, Qadılı, Yenili, Yenicə, Dərvişbulaq, Dəlmə, Cırğın, Cərgəlan, Mahmudabad, Firdovsabad, Dürrəxanlı, Nehrəbaz, Çatı, Dəstəcu, Tərkibalı, Nəsriyyə çayları, Kələdan, Kərmədan, Diri, Yuxarı Yaylaq, Qırmızıçay, Siyasər, Abdulla, Kavdar, Cəcirli, Arığlı, Daniyal, Balçaq Əmir Seyid, Kəli Kamalabad, Yuxarı Kəlincə, Fəthabad, Aşağı Bala Hürkü, Məmmədcəllil, Əbülfətan, Qaraxanlı, Mədətli, Cünan, Soyuqaş, Sarıxan, Cəyirli, Qaşqa, İncili, Gəlinci, Çobanbəyli, Sarısu, Yazılmərə kəndləri, Əmirməhəmməd qışlağı [3, s. 472-484], yəni 73 kənd və 1 qışlaq daxil idi ki, kəndlərdən çox azında, 11 kənddə yaşayış var idi.

Bu zaman Arasbar sancağının Həkəri nahiyəsinin tərkibinə Həkəri, Burxud, Bədri, Hat, Nevşəhər, Mizməzək, Güləbürd, Ağdərə, Şirinsu, Yuxarı Şeyxabad, Arteşin, Üştaha, Cuvaruğud, Qucan, Cibək, Ağcakənd, Cəğadiz, Andon, Mənkəran, Hərküran, Bəşarətli, Xurtə, Dərətüm, Bəzəyüz, Həsənkənd, Hərəki kəndləri, Şeyxabad, Balaban, Qarlanqac, Zayiq, Yemişli, Qaraağac, Dəmirçili, Qələmdərəsi məzrəələri, Qaragöl yaylağı [3, s. 485-488], yəni 26 kənd, 8 məzrəə, 1 yaylaq daxil idi. 35 yaşayış yerindən yalnız birində - Həkəri kəndində yaşayış var idi.

Bəhs edilən dövrdə Xılxına sancağının tərkibində olan Xılxına nahiyəsinə Xılxına qəsəbəsi, 21 kənd, 1 məzrəə (kəndlərdən 20-i məskun, 2-i boş), Həsənsuyu nahiyəsinə 43 kənd (onlardan 20-i məskun, 23-ü boş), Tavus nahiyəsinə 25 kənd, 2 məzrəə (kəndlərdən 15-i məskun, 10-u boş), Axıncı nahiyəsinə 15 kənd (kəndlərdən 5-i məskun, 10-u boş), Əsrik nahiyəsinə 15 kənd (onlardan 5-i məskun, 10-u boş), Qaraqaya nahiyəsinə 25 kənd (onlardan 10-u məskun, 15-i boş), Türkənlər nahiyəsinə 17 kənd 1 qışlaq (kəndlərdən 6-sı məskun, 11-i boş), Yuxarı Zəyəm nahiyəsinə heç bir yaşayış yeri daxil deyildi, Aşağı Zəyəm nahiyəsinə 14 kənd (kəndlərdən 8-i məskun, 6-ı boş), daxil idi [3, s. 8].

Bəhs edilən dövrdə Bərdə sancağının tərkibində olan Bərdə nahiyəsinə 44 kənd, 1 məzrəə (kəndlərdən 37-i məskun, 7-i boş), İncərud nahiyəsinə 15 kənd (kəndlərdən 10-u məskun, 5-i boş), Sir nahiyəsinə 35 kənd (kəndlərdən 23-ü məskun, 12-si boş), Bayat nahiyəsinə 10 kənd, 6 məzrəə (kəndlərdən 2-si məskun, 8-i boş) daxil idi [3, s. 8].

Müfəssəl dəftərə (Gəncə-Qarabağ əyaləti, 1727-ci il) görə, Çuləndər nahiyəsinə Piri, Pirqalan, Carkan, Aşağı Curcavan, Kavkan, Yuxarı Pircahan, Sufilər, Yaltaq, Duday,

Quyucaq, Xəlac, Sabunxor, Şahabbəyli, Qazili, Şuturuz, Muşlan, Kilsəyan, Kirin, Pirkini, Sobu, Genlik, Karəkan, Razıdərə, Rudanə, Şeşkərd, Teğazirək, Koman, Çenav, Südxor, Hənd, Qızılbayır, Top, Xunuverd, Kotanlar, Gödəkli, Seyidli, Kaçkan, Somtu, Ləmkühən, Xəstəbiruz, Cirin, Qızılağac, Rücud, Qayabaşı, Nurabad, Altunxamırcısı, Müqəddəm, Cəmşidlikənd, Kocakan, Piradizək, Haşımlı, Əlinək Qurualça kəndləri, Şüşə Maşalı, Qara Mirili, Qıçuğa, Güney, Seyidyar Xanəgahı, Mehdili, Əxili, Dərvişli, Göylük məzrəələri daxil idi [3, s. 530-541]. Cəmi 52 kənd, 9 məzrəədən, yəni 61 yaşayış yerindən ibarət olan Çuləndər nahiyəsinin 20 kəndində (16 kənd müsəlman, 4 kənd isə qeyri-müsəlman) yaşayış var idi. 32 kənd isə əhalisiz, boş idi.

Müfəssəl dəftərə (Gəncə-Qarabağ əyaləti, 1727-ci il) görə, hansı sancağa tabe olduğu göstərilməyən Xaçın Sığnaq nahiyəsinə 79 kənd, 10 məzrəə (kəndlərdən 39-u məskun, 40-ı boş), Çalaberd nahiyəsinə 28 kənd, (onlardan 26-ı məskun, 2-i boş), Keştək nahiyəsinə 28 kənd, (onlardan 7-si məskun, 21-i boş), Vərəndə nahiyəsinə 77 kənd, 55 məzrəə (kəndlərdən 41-i məskun, 36-sı boş), Köçəz nahiyəsinə 19 kənd, 2 yaylaq (kəndlərdən 5-i məskun, 14-ü boş) daxil idi [3, s. 8].

Naxçıvan sancağının 1727-ci il tarixli müfəssəl dəftərinə görə, Zəngəzurun bir hissəsi olan Sisyan (Qarakilsə) nahiyəsi o zaman Naxçıvan sancağının tərkibində olmuşdur. Bu nahiyəyə Sisyan, Zəbazədur, Əlili, Pexin, Ərəfsa, Əxlatiyan, digər Ərəfsa, Şeyxlər, Qıvraq, Köçəri, Püsyak, Mahrus, Pirnağut, Sisyan, Əskəmor, Bələk, Ortagir, Benis, Haksi, Dəsdgird, Dulus, Uz, Qızılca, Şəki, Kivas, Əyləgüd, Şələt, Talibabad, Ərikli, Sənkar, Pul, Berdi, Qalacıq, Ağayi, Ağcakənd, Kömür, Kamiyab, Horenduz, Keşiş, Kələdək, Bazarçayı kəndləri və Salbartob yaylağı, yəni cəmi 41 kənd 1 yaylaq tabe idi [6, s. 243-287]. Kəndlərdən 16-sı müsəlman, 17-si qeyri-müsəlman, 8-i isə boş idi.

Bəhs edilən dövrdə Zəngəzur bölgəsinə daxil olan yaşayış yerlərinin boş, əhalisiz qalması və qeyri-müsəlmanların bu yerlərdə məskunlaşması bölgənin tarixinin araşdırılmasını aktuallaşdıran məsələlərdən biridir. Bu yaşayış yerlərinin əhalisiz, boş qalması və onun məntiqi nəticəsi olan qeyri-müsəlmanların bu torpaqlarda məskunlaşmasının əsas səbəbi müharibələr olmuşdur. Belə ki, boş qalmış yaşayış yerində qeyri-müsəlmanların məskunlaşmasının bir səbəbi Səfəvi şahlarının istəyi idisə, digəri osmanlılarla Səfəvilər arasında gedən müharibələrdə ən çox müsəlmanların ziyan çəkməsi və öz yurdlarından didərgin salınması, əvəzində qeyri-müsəlmanlara toxunulmaması idi. Tarixi faktlar bunu aydın şəkildə sübut edir. Məsələn, 1578-ci il yanvarın 1-də Osmanlı ordusunda sərdar təyin edilən Mustafa Lələ Paşaya Səfəvilərlə döyüşdə necə davranacağını bildirən, qızılbaşlarla döyüş haqqında, şeyxülislam tərəfindən verilən 5 maddədən ibarət fitvanın (dini əmrin) I və II maddələrində göstərilirdi ki, şəriətə görə, qızılbaşların qətli halal olduğundan onları öldürən qazi, onların əllərində ölənlər isə şəhid olurlar. Həmçinin göstərilirdi ki, qızılbaşların öldürülməsi ona görə halaldır ki, onlar İslam padşahına asi olmuşlar və kafirdirlər [9, s. 281]. 1603-cü ildə Naxçıvan şəhərini osmanlılardan geri alan Qaramanlı Zülfüqar xanın şəhərin sünni məhəlləsində yaşayan insanları kütləvi şəkildə qırması [10, s. 263] faktı və bu kimi bir çox hallar hər iki tərəf arasında dini məzhəb mübarizələrinin getdiyini sübut edir. Deməli, iki böyük türk imperiyasının Avropanın xristian ölkələri tərəfindən müharibələrə sövq edilməsindən yararlanan qeyri-müsəlmanlar,

xüsusilə də ermənilər digər Azərbaycan torpaqlarında olduğu kimi, Zəngəzur bölgəsində də məskunlaşmağa imkan qazanmışlar. Bu isə sonrakı yüzilliklərdə onların yerli türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımların, deportasiyaların və s. təməlini qoymuşdur.

Bu gün indiki Ermənistanın ərazisi hesab edilən tarixi Azərbaycan torpağı olan Qərbi Zəngəzurun Mehri mahalı bəhs edilən dövrdə qərbdə Alagöz dağ silsiləsi, cənubda və cənub-şərqdə Araz çayı, şimalda və şimal-şərqdə isə Baybuğan dağlarının zirvəsinə qədər Ciband və Ustupi dağ silsilələri, oradan sonra isə Araz çayına tökülənə qədər Basut çayı ilə həmsərhəd idi. Qafan mahalı Zəngəzur (***Gorus***) mahalından şimal və şərq tərəfdə Bərgüşad çayının orta axarı ilə ayrılmaqla, cənubda Mehri mahalı, qərbdə isə Sisyan mahalı ilə həmsərhəd idi. Sisyan mahalından isə Ltsen çayının əmələ gətirdiyi dərə, Məcidli və Gozbel dağ silsilələri və Almeran dağları ilə ayrılırdı. Bu mahal yerli əhali tərəfindən 6 dairəyə bölünmüşdü: Bacıdağ və Ciband dağ silsilələri arasında yerləşən və eyniadlı çayın axdığı Oxçu dərəsini əhatə edən Oxçu dairəsi; Gığı çayın əmələ gətirdiyi Gığı dərəsini əhatə edən Gığı dairəsi; Əcanan çay hövzəsini əhatə edən Əcanan-türk dairəsi; Qafanın bütün şimal hissəsini və Bərgüşad çayının orta və aşağı axarlarına bitişən əraziləri əhatə edən Kəpəz dairəsi; Çavundurçay və Basutçay dairələri. Sonuncu iki dairə adları çəkilən çayların əmələ gətirdiyi dərələri əhatə edirdi. ***Bu dövrdə Zəngəzur mahalı, yəni Gorus*** cənub və cənub-qərb tərəfdə Qafan mahalından Bərgüşad çayının aşağı və orta axarı, Sisyan mahalından isə Ltsen çayının mənsəbi, İşıxlı və Qızıltəpə çaylarının bu mahalın şimal sərhəddini təşkil edən Mıxtökən dağ silsiləsinə qədər olan hissəsinin əmələ gətirdiyi xətlə ayrılırdı. ***Zəngəzur mahalı dörd dairəyə - Hacısamlı, Əliyanlı, Bərgüşad və Həkəri dairələrinə bölünürdü. Qərbi Zəngəzurun*** Sisyan mahalı Zəngəzurun şimal-qərb hissəsində Zəngəzur və Bərgüşad dağ silsilələrinin arasında yerləşməklə, şimal-qərbdən Dərələyəz, qərbdən və cənub qərbdən Naxçıvan, cənubdan Qafan mahalı, cənub-şərqdən Gorus mahalı ilə sərhədlənirdi. O, ərazisinin xarakterinə görə Zəngəzurun yaylaqlarının olduğu şimal-şərq və yaşayış məntəqələrinin yerləşdiyi cənub-qərb hissələrinə bölünürdü [1, s. 4-6].

Beləliklə, Azərbaycan Səfəvilər dövlətinin tərkibində Zəngəzur bölgəsinin ərazisi vahid bir inzibati ərazi bölgüsünə tabe olmamışdır. Bir sıra tarixi qaynaqlara, xüsusilə də XVI əsrin sonlarında Osmanlı hakim dairələri tərəfindən hazırlanmış "İrəvan əyalətinin icmal dəftəri"nə, "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"nə, Gəncə-Qarabağ əyalətinin 1727-ci il tarixli müfəssəl dəftərinə və Təzkirət əl-Müluk əsərinə görə bəhs edilən dövrdə Zəngəzurun ərazisi ayrı-ayrı vaxtlarda Gəncə-Qarabağ, Çuxursəd və Azərbaycan bəylərbəyiliklərinin tərkibində mahallara, mahallar nahiyələrə, nahiyələr kəndlərə və s. inzibati ərazi vahidlərinə bölünmüşdür.

ƏDƏBİYYAT

1. Əhmədli, N. Zəngəzur qəzasının kameral təsviri // 1874-cü il. – Bakı: Elm və təhsil, – 2021. – 800 s.
2. Gəncə-Qarabağ əyalətinin icmal dəftəri. – Bakı: Çaşıoğlu, – 2010. – 508 s.
3. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi t.e.n. H.Məmmədov. – Bakı: – Şuşa, – 2010. – 576 s.

4. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Bünyadov Z. və t.e.n. Məmmədov H. – Bakı: Elm, – 1996. – 184 s.
5. Mahmudov Y.M., Mustafazadə T.T., Məmmədov S.A. və b. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. – Bakı: CBS, – 2010. – 620 s.
6. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi t.e.n. H.Məmmədov. Tərcümə edənlər akademik Z. Bünyadov və t.e.n. H. Məmmədov. – Bakı: Elm, –2001. – 376 s.
7. Urud M. Zəngəzurun tarixi-coğrafiyası. "Yeni Azərbaycan" qəz., – Bakı: – 2022, 30 avqust S.4.// http://anl.az/down/meqale/yeni_az/2022/avqust/811025.htm
8. Zəngəzurun tarixi coğrafiyası. httpsfiles.preslib.azprojectszangazuraza1.pdf
9. Kırzıoğlu F. Osmanlıların Kafkaz ellerini fethi (1451-1590). – Ankara: Türk Tarih Kurumu Basımevi, – 1993. – 550 s.
10. Kütükoğlu B. Osmanlı-İran siyasi münasebetleri (1578-1612). – İstanbul: İstanbul Fetih Cemiyeti, – 1993. – 340 s.
11. Папазян А.Д. Аграрные отношения в Восточной Армении в XVI–XVII вв. – Ереван: Изд-во АН Армянской ССР, – 1972. – 303 с.
12. Tadhkirat al-Muluk. A manual of Safavid administration (circa 1137/1725), Persian text in facsimile (B.M. Or. 9496). Translated and explaned by V.Minorsky. – London: Luzac and Co., 46 Great Russelt street, – 1943. – 218 p.

SUMMARY

Ilhami Aliyev

THE HISTORICAL GEOGRAPHY OF ZANGAZUR DURING THE SAFAVIDS PERIOD: BORDERS AND ADMINISTRATIVE TERRITORY DIVISION

In the article it is dealt with the historical geography of Zangezur, one of the ancient regions of Azerbaijan, at the beginning of the XVI-XVIII centuries. It is noted that Eastern Zangezur, which today is a part of the lands of Azerbaijan, and Western Zangezur, which remains in the territory of the present Republic of Armenia, were part of a number of beylarbeyliks, which were the administrative territorial units of Azerbaijan during the Safavids period.

It became clear from the researches that during the mentioned period, the territory of the Zangezur region was part of not only one administrative territorial unit of the Safavids state, but several. According to a number of historical sources, especially the Tazkirat al-Muluk work of the beginning of the 18th century, its territory was part of the Safavids state of Azerbaijan at different times in the Ganja-Karabagh, Chukhursad and Azerbaijan beylarbeys. These beylarbeys were divided into administrative territorial units - mahals, mahals into districts, districts into villages, etc.

Key words: *Safavids, Zangezur, Ottoman sources, territory, border, historical geography*

VEDİBASAR 1918-1920-Cİ İLLƏRDƏ

Abdulla MUSTAFAYEV
abdullamustafayev406@gmail.com

Ruhiyyə RZAYEVA
rzayeva.ruhiyye.0011@gmail.com

Münəvvər SÜLEYMANOVA
alexandra.tarverdiyeva@mail.ru
Naxçıvan Dövlət Universiteti

Təqdim olunan elmi məqalədə bu gün "Ermənistan" adlandırılan, lakin 1918-1920-ci illərdə ermənilər tərəfindən işğala məruz qalan Qərbi Azərbaycanın hər bir qəzasının, mahalının, kəndinin tarixinin araşdırılmasının aktuallığı əsaslandırılmışdır. Göstərilmişdir ki, bu mövzuya müraciət olunmaqda əsas məqsəd arxiv sənədlərinə, mövcud ədəbiyyatlara, dövrü mətbuata və s. istinad edərək qədim Azərbaycan torpağı olan, lakin ermənilər tərəfindən işğala məruz qalan Vedibasar mahalının 1918-1920-ci illər tarixinin araşdırılmasıdır.

Məqalədə Vedibasar mahalının tarixi keçmişinə qısa şəkildə nəzər yetirilmiş, Türkmənçay sülh müqaviləsindən sonra çar Rusiyası tərəfindən Qacarlar dövləti, həmçinin Osmanlı ərazisindən erməniləri köçürərək Azərbaycanın digər bölgələri ilə yanaşı, Vedibasar mahalına da yerləşdirməsindən bəhs olunmuş və qeyd edilmişdir ki, bu yerləşdirmə nəticəsində Vedibasar mahalında əhalinin etnik tərkibində dəyişiklik baş vermişdir.

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il iyulun 15-də təsis etdiyi Fövqəladə İstintaq Komissiyasının topladığı sənədlər ermənilərin azarbaycanlılara qarşı törətdikləri vəhşilikləri tam şəkildə üzə çıxarmış, Zəngəzurda, Şərur-Dərələyəzdə, Sürməlidə, Vedibasarda, Zəngibasarda və s. ərazilərdə daşnak ordusunun azərbaycanlılara qarşı törətdikləri soyqırım öz əksini tapmışdır.

Məqalədə Andranik, Dro, Njde və s. kimi erməni cəlladlarının Vedibasarın əksər kəndlərində törətdikləri qırğınlar arxiv sənədlərinə, ayrı-ayrı tarixçilərin əsərlərinə istinad edilməklə sübut olunmuşdur.

Açar sözlər: *Qərbi Azərbaycan, Vedibasar mahalı, Oğuz-türk yurdu, etnik tərkib, Abbasqulu ağa Şadlınski, Balobəy Vəkilov, Andranik, Dro, Soyqırımı, Cənubi Qafqaz.*

Məqalənin yazılmasında əsas məqsəd: Vedibasar Azərbaycanın ən qədim guşələrindən olub, qərbdən Türkiyə Cümhuriyyəti, cənub-şərqdən Naxçıvan və Keşişkənd (Yexeqnadzor), şərqdən Aşağı Qaranlıq (Martuni), şimaldan Ellər (Abovyan), şimal-qərbdən Qəmərli (Artaşat) rayonu ilə həmsərhəddir. Bu ərazidə olan tarixi abidələr, yer adları, arxiv materialları və s. Vedibasar mahalının tarixən aborigen əhalisinin azərbaycanlılar olduğunu sübut edir.

Bu gün "Ermənistan" adlandırılan, lakin 1918-1920-ci illərdə ermənilər tərəfindən işğala məruz qalan Qərbi Azərbaycanın hər bir qəzasının, mahalının, kəndinin tarixinin

araşdırılması bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Bu baxımdan təqdim olunan elmi məqalədə arxiv sənədlərinə, mövcud ədəbiyyatlara, dövrü mətbuata və s. istinad edərək qədim Azərbaycan torpağı olan Vedibasar mahalında ermənilərin törətdikləri vəhşiliklərin araşdırılması qarşımıza qoyduğumuz əsas məqsədlərdəndir.

Problemin öyrənilməsi: Ümumiyyətlə, sovetlər birliyi dövründə ermənilərin istər Azərbaycan, istərsə də bu gün "Ermənistan" adlandırılan Qərbi Azərbaycan ərazisində azərbaycanlıların başına gətirdikləri soyqırımı və deportasiya siyasəti nəinki öyrənilməmiş, bu barədə bircə kəlmə də yazmağa qoymamışlar, daha dəqiq desək, Azərbaycan ərazisində bu mövzuya toxunmaq qəti şəkildə qadağan edilmişdir.

XX əsrin sonlarında Azərbaycan ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra tariximizin bütün qaranlıq səhifələrini, o cümlədən Qərbi Azərbaycan ərazisində ermənilər tərəfindən xalqımızın başına gətirilən müsibətləri, soyqırımı, deportasiya hadisələrini araşdırmaq üçün geniş imkanlar yarandı. Xüsusilə də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən 18 dekabr 1997-ci il tarixdə imzalanmış "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da imzalanmış "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlardan sonra azərbaycanlıların soyqırımı və deportasiya tarixinə bir sıra samballı tədqiqat işləri həsr edildi. Belə ki, mövzumuz ilə bağlı A. Paşayevin "Köçürülmə" [Bakı, 1995], V.Arzumanlı, N.Mustafanın "Tarixin qara səhifələri. Deportasiya, soyqırım, qaçqınlıq" [Bakı, 1998], B. Ə. Budaqov, Q. Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" [Bakı, 1998], "Deportasiya: Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası" [Bakı, 1998], "Ermənistan azərbaycanlılarının soyqırımı" [Bakı, 1996], "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Tərtib edən S. Əsədov [Bakı, 1995], Ə. Ələkbərlinin "Qədim türk-oğuz yurdu: "Ermənistan" [Bakı, 1994], "Qərbi Azərbaycan, 10 cilddə. I cild, Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları) [Bakı, 2000] əsərləri, Ə. Əliyevin "Vedinin "dəmir axını" [Bakı, 1984], bu məqalənin müəlliflərindən A. Mustafayevin "Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan" [Bakı, 2013] və s. yüzlərlə əsərlər, elmi məqalələr yazılmışdır.

Ümumiyyətlə, Ermənistan azərbaycanlılarının tarixi, onların soyqırımı və tarixi torpqalarından deportasiyası XX əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq bir çox tədqiqatların araşdırma obyekti olmuş, bu məsələyə dair xeyli sayda ümumiləşdirilmiş əsərlər həsr edilmişdir. Bütövlükdə götürdükdə isə, problemin tarixşünaslıq cəhətdən təhlili bizə belə qənaətə gəlməyə imkan verir ki, azərbaycanlıların Ermənistan deyilən ərazidən deportasiyası müəyyən qədər araşdırılsa da, Qərbi Azərbaycan mahallarının, o cümlədən də Vedibasar mahalının 1918-1920-ci illər tarixi geniş tədqiqat obyekti olmamışdır. Yuxarıda da qeyd etdiyimiz kimi, bu mövzuya məqalə şəklində müraciət etməyimizdə məqsəd ermənilərin "Türksüz Ermənistan" yaratmaq uğrundakı məqsədlərinə çatmaq üçün İrəvan quberniyasının bütün ərazisində, o cümlədən Vedibasarda istifadə etdikləri metodların-terror, soyqırım, deportasiyanın əsl mahiyyətini açıb göstərməkdir.

Giriş

Adını Vedi çayından götürən, ərəbcə "vadi" mənaını verən (Qərbi Azərbaycan ilə Türkiyə Cümhuriyyəti arasında dağarası düzənlik olan Ağrı vadisində yerləşdiyinə görə), bugünkü "Ermənistan" ərazisində əhalisinin tamamını azərbaycanlıların təşkil etdiyi, lakin XX əsrin əvvəllərində və ondan sonrakı dövrdə baş verən hadisələrdən sonra bir nəfər də olsun azərbaycanlı əhalisinin qalmadığı böyük bir mahal olan Vedibasar mahalı XX əsrdə digər ərazilərimiz kimi, ən çox mənfur ermənilər tərəfindən soyqırıma, dağıntılara məruz qalmış bölgələrimizdən biridir.

Vedibasar mahalı istər 1905-1907-ci illəri əhatə edən I Rusiya burjua-demokratik inqilabı dövründə, istərsə də 1914-1918-ci illəri əhatə edən I Dünya müharibəsi və ondan sonrakı dövrlərdə ermənilər tərəfindən ən çox deportasiyaya, qırğınlara, dağıntılara məruz qalan mahallarımızdan biridir. Təkcə bu faktı demək kifayətdir ki, Zaqafqaziya respublikaları öz müstəqilliklərini elan etdikdən sonra, yəni 1919-1920-ci illərdə Vedi rayonundan 8933 nəfər azərbaycanlı əhali deportasiyaya məruz qalaraq öz doğma yurd-yuvalarındn didərgin salınmışlar [5, s. 6].

Məlum olduğu kimi, 1905-ildə olduğu kimi, 1918-ci ildə də erməni daşnaklarının ərazi iddiaları Cənubi Qafqaz xalqları arasında qanlı qırğınlara, qaçqınlığa gətirib çıxarmışdı. Bəhs edilən dövrdə Vedibasar da soyqırıma, dağıntılara, talanlara məruz qalmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il iyulun 15-də təsis etdiyi Fövqəladə İstintaq Komissiyasının topladığı sənədlərdə 1918-1920-ci illərdə digər bölgələrimizlə yanaşı, Vedibasardan da AXC hakimiyyət orqanlarına daşnakların törətdikləri qırğınlar barədə yüzlərlə məktub və teleqramlar göndərilmişdir.

1918-ci il may ayının 29-da İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi onların iştahalarını daha da artırmış, bir növü onlarda tam yəqinlik yaranmışdır ki, Azərbaycan torpaqları hesabına özlərinin arzularında olduqları "Ermənistan" dövlətini qura biləcəklər. Bu məqsədlə də bütün İrəvan quberniyasında yaşayan azərbaycanlıları sıxışdırmağa, yurd-yuvalarından qovmağa başlamış və nəticədə 1918-ci il mart ayına qədər İrəvan qəzasında 199 kənd dağıdılmışdı. Belə ki, İrəvan qəzasının 1-ci milis sahəsində 10, 2-ci milis sahəsində 8, 3-cü milis sahəsində 13 kənd; Sürməli qəzasının 1-ci milis sahəsində 36, 2-ci milis sahəsində 12, 3-cü milis sahəsində 19, 4-cü milis sahəsində 30 kənd; Yeni Bəyazid qəzasının 1-ci milis sahəsində 1, 2-ci milis sahəsində 6 kənd dağıdılmışdır. Bu kəndlər üzrə 53581 kişi, 47045 qadın-cəmi 100626 nəfəri təmsil edən 15.155 təsərrüfat dağıdılmışdı [2, f.897, siy. 1, iş. 78, v. 44-47]. 1919-cu ilin son iki ayı ərzində isə Eçmiədzin qəzasında 62, Sürməli qəzasında 34 azərbaycanlılar yaşayan kənd ermənilər tərəfindən darmadağın edilərək əhalisi didərgin salındı [2, f.970, siy. 1, iş. 240, v. 6].

1918-ci il yanvarın 20-də ermənilər tərəfindən Vedi rayonunun Dəvəli kəndində qırğınlar törədilmiş, ermənilərdən qaçan əhali yaxınlıqda yerləşən Avşar kəndinə sığınmışdılar. Yanvarın 23-də isə Qaralar kəndinə hücum edən ermənilərdən 3 erməni və batalyon komandiri öldürülmüşdür.

Türk əhalisinin qırğınlarının qarşısını almaq məqsədilə 1918-ci il fevralın 12-də əks-

hücuma keçən türk ordusunun qarşısında müqavimət göstərə bilməyərək Cənubi Qafqaza geri çəkilən ermənilər Azərbaycanın bütün bölgələrində, o cümlədən İrəvan quberniyasında yerli əhalini qırmağa başlayır. Ermənilər tərəfindən həyata keçirilən qırğınların miqyası barədə o dövrdə Tiflisdə nəşr edilən "Asxatavor" qəzetinin ("Əkinçi") 2 dekabr 1917-ci il tarixli nömrəsində Qafqaz cəbhəsinin dağılması nəticəsində tərxis edilən rus ordusunun adamyeyənlər bandasına çevrilərək Sarıqamışdan Gümrüyədək keçdikləri əraziləri dağıdıb xarabaya çevirdikləri göstərilirdi [11].

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, həmin dövrdə özlərinin milli hərbi hissələrinin yaradılmasına başlayan erməni liderlərinin Müvəqqəti hökumətə müraciəti əsasında Rusiyanın vuruşduğu digər cəbhələrdən 35 min erməni əsgəri də Qafqaz cəbhəsinə türklərə qarşı vuruşmaq üçün göndərilmiş və nəticədə Dronun (Drastamak Konayan) komissar olduğu və tərkibinə üç diviziyanın daxil olduğu erməni korpusu yaradılmışdır ki, bu diviziyalar da azərbaycanlıların yaşadıqları kəndlərə hücumlar edərək əhalini qırır və boşaldılmış ərazilərə Türkiyədən gələn erməniləri yerləşdirirdilər. Ermənilərin bu cür vəhşiliklərinə məruz qalan bölgələrdən biri də əhalisinin sırf azərbaycanlılardan ibarət olduğu Vedibasar mahalı idi.

Vedibasar 1918-1920-ci illərdə ermənilərin Qərbi Azərbaycan ərazisində azərbaycanlı əhaliyə qarşı ən ağır formada tətbiq etdikləri soyqırımı siyasətinin məruz qaldığı bölgələrdən biridir. Belə ki, 1918-ci ilin iyul ayında ermənilərin Aydoğmaz, Dəvəli və Şəfəqli kəndlərində elədikləri vəhşiliklərə cavab olaraq 17 daşnak öldürülür. Bundan sonra ermənilər Vedi əhalisinə ultimatum verərək öldürülən 17 erməninin hər birinin qarşılığında 17 min manat bac və 17 azərbaycanlının təhvil verilməsini tələb edirlər. Bu tələb rədd edildikdən sonra daşnaklar Dronun, Dəli Kazonun başçılığı altında Vediyə hücum təşkil edirlər. Ermənilərin qəflətlən basqın etmələrini görən A. Şadlinski "...hərgah biz qabağa çıxmasaq, bütöv kənd məhv olacaq" deyə əhaliyə müraciət edir [8, s.13]. Gecə qəti döyüşə girən vedililərin təzyiqlərinə davam gətirə bilməyən ermənilər döyüş meydanında bir neçə top, 8 pulemyot, xeyli sayda silah-sursatı ataraq geri çəkilirlər [8, s.14]. Bu məsələ N. Mustafanın "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı [1918-1920]" adlı əsərində də işıqlandırılmışdır [12, s.48].

1918-ci ilin payızında ermənilər Yaycı kəndini ələ keçirmək üçün hücuma keçmiş, kəndə 18 top mərmisi atmışlar. Lakin Şərurdan gələn kömək sayəsində məğlub olaraq geri çəkilməyə məcbur olmuşlar [8, s.15].

1918-ci ilin sonunda türk qoşunları İrəvan quberniyasını tərk edtikdən sonra hərbi nazir Ənvər paşanın göstərişi ilə IX ordunun komandanı olan Yaqub Şevki paşa yerli milli şuralara lazımi qədər silah-sursatın verilməsi və azərbaycanlı əhaliyə təlimlər keçmək üçün türk zabitlərindən bir qisminin bölgədə qalması barədə tapşırıq vermişdir. Məhz bu göstərişə əsasən Naxçıvan və İgdir əhalisi ilə yanaşı, 3000 rus silahı da 1918-ci il noyabrın 15-də Vedibasarı müdafiə etmək məqsədilə Qəmərliyə göndərilmişdir [11].

Bəhs edilən dövrdə İrəvan qəzasının komissarı, milliyyətcə erməni olan Əmirxanov 4-cü sahənin komissarı A.Şadlinskini yanına çağıraraq "müstəqil daşnak dövlətinin təhlükəsizliyi naminə" bir sıra tədbirlərin həyata keçirilməsinin zəruriliyindən bəhs etmiş, Türkiyə ilə sərhəddə yerləşən və əhalisi sırf azərbaycanlılardan ibarət olan kəndlərin

boşaldılması, silahların təhvil verilməsi barədə göstəriş vermişdir. Bu tapşırıqları vaxtında yerinə yetirəcəyi təqdirdə A.Şadlinskiyə sahə komissarı kimi xüsusi mükafatın veriləcəyi vəd edilirdi. Lakin təbii ki, A.Şadlinski bu təklifləri qəbul etməyərək rədd edir və ona görə də 1918-ci il 3 iyul tarixli 1 nömrəli əmr ilə tutduğu sahə komissarı vəzifəsindən azad edilir [13, f. 314, siy. 5, iş 3, v. 35].

Ermənilərin Vediyə silahlı basqınları aramsız davam edirdi. Daşnaklar A. Şadlinskinin və Cüvə kəndinin müdafiəsinə başçılıq edən Balobəy Vəkilovun öldürülməsi üçün külli miqdarda pul təyin etmişdilər. Haşiyədən kənara çıxaraq eyd etmək lazımdır ki, Balo bəy Vəkilov Şərur-Dərələyəz qəzasında yerləşən Çivə taborunun komandanı olmuş, 1918-1920-ci illərdə ermənilərə qarşı mərdliklə vuruşmuş, 1982-ci ildə Naxçıvan şəhərində dünyasını dəyişmişdir [4].

Daşnakların hazırladıqları plana əsasən ingilis komandanlığı mübahisəli məsələlərin müzakirə edilməsi adı altında A.Şadlinskini danışıqlara dəvət etmiş və onu aldadaraq Ermənistana aparıb ermənilərə təhvil vermişlər. Ermənilər əhali arasında çox böyük nüfuza malik olan A.Şadlinskinin qarşısında belə bir tələb qoyurlar ki, "Vedi silahı yerə qoymalıdır, əks halda onları ölüm gözləyir" [9, s.72]. Erməni əhatəsində olan və İrəvanın o dövrdə nüfuzlu adamlarından hesab olunan Əli Abbasovun, Hüseyn bəyin və Cavanşir bəyin zəmanəti əsasında buraxılan A.Şadlinski üzdə ermənilərlə razılaşsa da, təbii ki, Vediyə qayıtdıqdan sonra onların bu tələbini rədd edir və müqavimət hərəkatına rəhbərliyini davam etdirir.

1919-cu ildən Vedibasar mahalında azərbaycanlı əhalinin vəziyyəti daha da ağırlaşır. 1919-cu ilin yanvar ayında ingilis generalı Gibbon Vedibasara gələrək burada neytral zona müəyyən etmiş, ermənilərə və azərbaycanlı əhaliyə bildirmişdir ki, yenidən düşmənçilik hərəkətlərinin başlanması müttəfiq dövlətlərə qarşı düşmənçilik aktı kimi qiymətləndiriləcək. Lakin Gibbonun verdiyi xəbərdarlıqdan 8-10 gün keçməmiş ermənilər Dəvəlidən bir qədər aralıda yerləşən Avşar kəndinə hücum edərək oradakı əhalini evlərə doldurarq yandırmışdılar. Avşar hadisələrindən sonra ermənilər Vedibasar mahalına hücum edərək Kərkab, Ataşbəyli, Keşişdağ, Dəgənzə, Qaraarxaç, Qədili, Şahablı və Çəmənkənd kəndlərinin 20 mindən artıq əhalisini soyqırıma məruz qoydular [10,s.105-106].

Polkovnik Doluxanovun rəhbərliyi altında erməni quldur dəstələri Vedibasar və Milistan rayonları üzərinə hücuma keçirlər. Polkovnik Doluxanov azərbaycanlı əhaliyə müraciət edərək erməni qoşunlarını kəndlərə buraxmaları müqabilində bu yerlərdə əmin-amanlıq yaradacaqlarına, heç kimə toxunmayacaqlarına söz versələr də, sonradan verdikləri sözə əməl etməyərək yuxarıda adları çəkilən kəndlərin əhalisini rəhm etmədən öldürmüş, evlərini yandırmış, qadınları əsir götürmüşdülər. İrəvan quberniyasının Vedibasar və Milistan rayonları üzrə səlahiyyətli nümayəndəsi Məhərrəm Əliyevin 1919-cu il martın 10-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin sədrinə göndərdiyi məlumatda bu barədə geniş bəhs edilmişdir [1, s.370-371].

Vedibasarın Qədili, Qaraarxaç, Dəhnəz, Ağasıbəyli, Şahablı kəndlərinin əli silah tuta bilən əhalisindən ibarət xalq döyüşçü dəstələri təşkil edilərək ermənilərə qarşı müqavimət göstərilirdi. Bu dəstələri əlaqələndirmək məqsədilə Böyük Vedi kəndinin Şadlı küçəsində

qərargah da yaradılmışdır [6, s. 259]. Lakin təbii ki, Ermənistan dövləti tərəfindən maliyyələşdirilən, eyni zamanda xarici dövlətlər, xüsusilə də İngiltərə, Fransa və Amerika tərəfindən ən müasir silahlarla təmin edilən bu nizami erməni silahlı dəstələrinə qarşı yalnız ov silahları ilə silahlanmış azərbaycanlıların müqavimət göstərməsi heç də asan deyildi.

Daşnak hökuməti hakimiyyətlərini əllərində saxlamaq üçün ingilislərin hərbi qüvvələrinə bel bağlayırdılar. İngilis hökuməti daşnaklara hərtərəfli yardım edir, onlara hərbi sursat verir, hətta, "asayişi bərpa etmək üçün" hərbi qüvvələr göndərirdi. Qəmərlidə mərkəzləşmiş daşnakların hərbi qüvvələri 1200 əsgərdən, 1 süvari alayından, 2 pulemyot dəstəsindən, 2 top tağımından, 1 zirehli qatardan ibarət idi [6, s. 262].

1919-cu il martın 21-də Xarici İşlər naziri əvəzi Ziyadxan Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsi M.Y.Cəfərova və Ermənistandakı diplomatik nümayəndəsi Təkinskiyə yazdığı məktubda ermənilər tərəfindən Vedibasarın kəndlərindən əsir alınmış qadınların azad edilməsi barədə Tiflisdəki müttəfiqlərin Ali Baş komandanlığından və Ermənistan hökumətindən mühüm addımlar atmalarını tələb etmələrini bildirmişdi (2, f. 970, siy.1, iş 41, səh. 18). Mart ayının 28-də M.Y.Cəfərov general Biçeraxov ilə görüşərək Azərbaycan Xarici İşlər Nazirliyinin məktubunu ona verərək təcili tədbirlərin görülməsini xahiş etsə də nəticəsi olmamışdır (2, f. 970, siy. 1, iş 41, s. 27).1919-cu il iyul ayının 2-də diplomatik nümayəndə Təkinski tərəfindən Xarici İşlər Nazirliyinə göndərilən 250 saylı teleqramda da bu barədə bəhs edilmişdir [13, f. 314, siy. 5, iş 74, vərəq 182].

1919-cu il iyulun 4-də erməni silahlı dəstələri polkovnik Aprosimovun komandanlığı altında Böyük Vediyə doğru irəliləyir [7,s. 215]. Aprosimov müdafiə mövqeyi tutduqdan sonra danışıqlar aparmaq üçün azərbaycanlı əhalidən nümayəndə heyəti göndərməyi tələb edir. Lakin Aprosimov ilə danışıqların gedişi zamanı erməni süvari hissələri tədricən, gizlin şəkildə Vedi kəndinə yaxınlaşaraq əlverişli mövqelərituturlar. Ermənilərin bu hiylələrini başa düşən vedililər erməni süvari hissələrinin özlərinin əvvəlki mövqelərinə qayıtmalarını tələb etdilər. Ermənilərin rədd cavabına qarşı vedililər atəş açdılar. Bundan istifadə edən ermənilər danışıqlar aparmaq məqsədilə gələn həmin 2 nəfər nümayəndə heyətini-kəndxuda Zeynalabdin Şıxəli oğlunu və Nəsirullah bəy Bəşirbəy oğlunu öldürürlər. Nümayəndələrin öldürülməsindən sonra Sasun polku Ağdağ istiqamətindən Böyük Vedi kəndini top və pulemyotlardan atəşə tuturlar. Ermənilərin Van polku isə Qəmərli istiqamətindən hücuma keçirlər. Lakin axşam saat 9-da zabitləri ilə birlikdə demək olar ki, dəstənin hamısı məhv edilir. Polkun dəftərxanası, 1 topu, 6 pulemyotu, xeyli hərbi-sursat, çadır, 2 öküz yükü tüfəng və s. qənimət kimi ələ keçirilir [10, s.121-128]. Yenidən baş verən qanlı döyüşlərdə azərbaycanlı əhalidən 11 nəfər həlak oldu, 7 nəfər isə yaralandı. Ermənilərin yenidən Vedi üzərinə keçməsi ilə bütün Vedibasar əhalisi Abbasqulu bəy Şadlınskinin rəhbərliyi altında müdafiəyə qalxır. Bu dəfə ermənilər daha böyük - 8 zabit, 4000 əsgər itgi verərək geriyə çəkilmək məcburiyyətində qalırlar.

1919-cu il iyulun 5-də 10 top, 15 pulemyot və böyük sayda hərbi dəstə ilə Vedibasar üzərinə yenidən hücuma keçən ermənilər əhalidən silahlarını təslim etmələrini tələb edirlər. Rədd cavabı alan erməni hərbi dəstələri bir neçə istiqamətdən kəndi atəşə tuturlar. Erməni daşnakları bu dəfə daha ağır-min nəfərdən artıq itgi verərək döyüş meydanında 6

pulemyot, 8 araba ərzaq, cəmi 400 olmaqla 4 araba silah və xeyli hərbi-sursat qoyaraq geri çəkildilər [10, s.127-128].

İyulun 5-də Əli xan Makinski Britaniyanın İrəvandakı hərbi nümayəndəsi polkovnik Plautona Vedibasar əhalisinin Ermənistan ordusu tərəfindən onlara qarşı zorakılıq hərəkətlərindən bəhs edən şikayət ərizəsini təqdim edir. Lakin polkovnik Plauton nəinki şikayət ərizəsində yazılanların düzgünlüyünə inanmadığını bildirmiş, hətta onun Təkinskiyə göndərdiyi məktubda Ermənistanın daxili işlərinə qarışmamağı bildirmişdir. Hətta polkovnik Plauton Təkinskiyə açıq şəkildə yazmışdır ki, "...yerli müsəlmanların öz hökumətləri var və onlar bu hökumət vasitəsilə şikayətlərini bildirə bilərlər" [2, f.970, siy. 1, iş 54, v. 27].

Bu ağır məğlubiyyətdən sonra hərbi nazirin köməkçisi Arampaşa Dro (Drastamat Kanayan) özünün məşhur mauzerçilərinin də daxil olduğu nizami qoşunlardan ibarət böyük bir qüvvə ilə Vedi üzərinə hücuma keçir. Təxminən 3 saata qədər davam edən atışma nəticəsində döyüş meydanında 1500 meyid, xeyli miqdarda silah-sursat qoyan ermənilər geriyə çəkilmək məcburiyyətində qalırlar. Ermənilərin ağır itgi verdiklərini görən ingilis komandanlığı müdaxilə edərək döyüşün dayandırılması barədə göstəriş verir [2,f. 897, siy. 1, iş 78, s. 39].

1919-cu il iyul ayının 9-da Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsinin müavini Vəkilov tərəfindən xarici İşlər Nazirliyinə göndərilən 2785 saylı teleqramda Ermənistan hökumətinin Vedibasar rayonundan silahları yığmaq üçün ordu göndərməsi, Böyük Vedinin 3 gün müddətində atəşə məruz qalması barədə məlumat vermişdir [13,f. 314, siy. 5, iş 74, v. 190]. İyul ayının 10-da ermənilər Böyük Vedi, Çaykənd, Qaşlı, Giləvan və digər kəndləri güclü artilleriya atəşinə tutmuş, lakin ətraf kəndlərin əhalisinin köməkliyi ilə geri oturdulmuşlar. Ermənilər 10 nəfər meyid, 2 top və 8 pulemyotu döyüş meydanında qoyaraq geri çəkilirlər [13,f. 314, siy. 5, iş 74, v. 191].

Ermənilərin ingilis missiyasına yazdıqları məlumatlarda guya Sasun polkunun vedililərin razılığı ilə kəndə daxil olmaları, lakin atəş ilə qarşılaşmaları göstərilsə də, bu növbəti erməni uydurmasından başqa bir şey deyildi. Ermənilər, hətta bu yalan və böhtanlarla kifayətlənməyərək türk əsgərlərinin azərbaycanlılara köməklik etmələri barədə saxta məlumatları ingilis missiyasına bildirirdilər. Bu məsələ ilə əlaqədar Britaniya hərbi nümayəndəsi iyulun 11-də Azərbaycanın diplomatik nümayəndəsi M. x. Təkinskiyə nota vermişdi (13,f. 314, siy. 5, iş 74, v. 192). Bu notadan da açıq-aydın görünür ki, ingilis missiyası bütün vasitələrlə Böyük Vedinin Ermənistana tabe edilməsinə çalışırdılar. 1919-cu il iyulun əvvəllərində daşnak ordusunun baş komandanlığı hökumətə xəbər verirdi ki, "İngilis ordularının burada olmasına baxmayaraq, azərbaycanlılar, xüsusilə də Vedibasar, Şərur və Naxçıvan əhalisi müqavimət göstərməyi dayandırmırlar. Naxçıvan və Şərur rayonlarının əhalisi daşnak hökumətinə tabe olmaq istəmir [13, f. 314, siy. 5, iş 78, v. 35].

1919-cu il iyulun 12-də Azərbaycanın Gürcüstan Respublikasındakı diplomatik nümayəndəsinin müavini Faris bəy Vəkilovun general Koriyə etiraz məktubunda ermənilərin İrəvan quberniyasında yaşayan müsəlmanlara qarşı təqibləri artırmalarından bəhs edirdi [1, s. 552-553]. 1919-cu il iyulun 18-də Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Bekzadyanın Azərbaycan Respublikasının xarici İşlər

Nazirliyinə göndərdiyi məktubda isə Vedibasar əhalisi Ermənilərə hökumətinə tabe olmamaqda günahlandırılırdı [13,f. 314, siy. 5, iş 74, v. 200-203] .1919-cu il iyulun 21-də ingilis komandanlığının müdaxiləsi nəticəsində Ermənistan hökuməti öz ordularına Böyük Vedidə hərbi əməliyyatları dayandırmaq barədə əmr verdi [13, f.314, siy.5, arxiv 33, v. 22].

Ermənistan silahlı dəstələrinin müsəlmanlar üzərində tətbiq etdikləri misli görülməmiş zorakılıq hadisələri Böyük Vedi əhalisində tam əminik yaratmışdır ki, heç bir halda Ermənistan hökumətinə tabe olmaq olmaz. Onların tabe olacaqları təqdirdə nə ilə üzləşəcəkləri artıq bəlli idi. Çünki hələ Böyük Britaniyanın missiyasının gözləri qarşısında azərbaycanlı əhaliyə qarşı törədilən vəhşiliklər, gecələr milis formasında İrəvan küçələrində, Zəngibasarda, Gərnibasarda, Vedibasarda əhalinin soyulması, azərbaycanlı əhaliyə məxsus ağacların kəsilməsi, bağların, bostanların zəbt edilməsi və s. vəhşiliklər heç bir yaxşı şey vəd etmirdi. İngilislər isə ermənilərin bu hərəkətlərinin nəinki qarşısını alır, əksinə onlara köməklik göstərirdilər. 1919-cu il iyul ayının sonlarında Britaniyanın İrəvandakı hərbi nümayəndəsi tərəfindən tərəfindən Məhəmməd xan Təkinskiyə göndərilən bir məktubda Ermənistanın daxili işlərinə qarışmamaq tələb olunur və bildirilirdi ki, "...Yerli müsəlmanların öz nümayəndələri var və əgər onların erməni hökumətindən şikayətləri varsa, bu nümayəndələr vasitəsilə çatdıra bilərlər... Sizin hökumətin Ermənistanın daxili həyati məsələlərinə bitərəf qalması tələb olunur" [13, f. 314, siy. 5, iş 74, v. 208]. Azərbaycan hökuməti Ermənistanda azərbaycanlı əhaliyə qarşı tətbiq edilən vəhşiliklər barədə ingilisləri inandırmaq məqsədilə müttəfiq dövlətlərin, həmçinin Azərbaycan və Ermənistanın nümayəndələrindən ibarət komissiyanın yaradılması barədə təklif versə də, bu kağız üzərində qaldı [13, f. 314, siy. 5, iş 74, v. 215-220].

Ermənistan hökuməti ingilis polkovniki Plautonun və Amerika missiyasının onları müdafiə etmələrindən məharətlə istifadə edərək azərbaycanlılara qarşı zorakılıq hərəkətlərini genişləndirmək məqsədilə hərbi səfərbərlik keçirirlər. İyulun 16-da M. x. Təkinski tərəfindən Azərbaycan Respublikası XİN-ə göndərilən 428 saylı teleqramda bu barədə məlumat verilmişdir [13, f. 314, siy. 5, iş 74, v. 209].

Vedibasar hadisələrindən sonra Dro Eçmiədzin və Sürməli qəzalarının rəisi təyin edilir. Məhz xüsusi qəddarlığı, qaniçənliyi ilə seçilən Dronun komandanlığı altında erməni quldur dəstələri 60-dan çox azərbaycanlılar yaşayan kəndləri dağıtmış, talan etmiş, yandırmışdı. İstər Vedibasarda, istərsə də Zəngəzurda olan bütün erməni qüvvələrinin komandanı Dro, onun köməkçisi isə Bakı hadisələrinin "qəhrəmanı" Kazarov idi. Kazarovdan sonra isə polkovnik Samolehko köməkçi təyin edilmişdir [2, f. 897, siy. 1, iş 78, v. 22]. Bunlardan başqa, Artaş, Yapon, Qazar kimi başkəsənlər də öz qəddarlıqları ilə "fərqlənirdilər".

Bu dövrdə İrəvan quberniyasının azərbaycanlılar yaşayan bütün qəzalarında erməni vəhşiliklərinə məruz qalan əhali canlarını qurtararaq müxtəlif yerlərə, o cümlədən də Vedibasara pənah gətirirdilər. Belə ki, erməni təcavüzünə məruz qalmış Gərnibasar mahalının əhalisi də Vedibasara gəlməklə canlarını xilas edirlər.

Vedibasar əhalisi ətraf kəndlərdə ermənilərin törətdikləri vəhşiliklər barədə bura

pənah gətirən azərbaycanlılardan məlumat aldıqca müqavimətlərini daha da gücləndirirdilər.

Polkovnik Doluxanov Böyük Vediyə etdiyi hücumu müvəqqəti olaraq dayandırıb Şərur-Dərələyəz, Naxçıvan istiqamətində hücuma keçsə də, bu istiqamətdə məğlubiyyətə uğramış, Dəvəliyə gələrək burada qırğınlarını daha amansız şəkildə davam etdirmişdir.

Ermənilər Xalisə, Cadqıran, Şiqazlı, Qaralar kəndlərini toplar vasitəsilə bombardman etdikdən bir gün sonra yenidən Böyük Vedi üzərinə hücuma keçmiş, kəndi toplarla dağıtmışdılar. Ermənilərin Böyük Vediyə hücumu ilə əlaqədar Naxçıvana Kəlbalı xana müraciət edilmiş, Kalbalı xanın verdiyi ultimatuma əsasən ermənilər hücumlarını dayandırmağa məcbur olmuşlar [1, s.370-371]. Vedibasar ilə Şərur sərhəddində yerləşən "Qurd qapısı" adlanan yerdə Araz-Türk hökumətinin özünümüdafiə dəstələri ilə polkovnik Doluxanovun hərbi dəstələri arasında baş verən döyüşdə ermənilər ağır itki verərək geri çəkilmişlər. Sonra ermənilər Dəvəli istiqamətindən Böyük Vedi üzərinə hücuma keçmişlər. Qaralar, Cadqıran, Şirazlı, Reyhanlı, Avşar kəndləri istiqamətində də ağır məğlubiyyətə uğrayan ermənilər geri çəkilmişlər.

Beləliklə, 1919-cu ilin son iki ayı ərzində İrəvan quberniyasının Üçkilsə (Eçmiədzin) qəzasında 62, Sürməli qəzasında 4 kənd istisna olmaqla 39, Zəngibasardan 60-dan çox müsəlman kəndləri darmadağın edilmişdir [2, f. 897, siy.1, iş 78, v. 43]. Vedi rayonunun ərazisində olan 87 azərbaycanlıların yaşadıqları kəndlərin əhalisinin böyük bir hissəsi qırılmış, sağ qalanlar İrana, Türkiyəyə və Azərbaycanın Ermənistana yaxın olan rayon və şəhərlərinə pənah gətirmişlər.

1920-ci ilin iyununda erməni hərbi birləşmələrininVedibasar, Şərur və Naxçıvan istiqamətlərində güclü hücumları həyata keçirilir. Lakin yerli əhali A.Şadlınskinin başçılığı ilə müqavimətlərini davam etdirirdilər.

1920-ci il iyulun 2-də Azərbaycan xarici İşlər naziri M.D.Hüseynov RSFSR-in Tiflisdəki səlahiyyətli nümayəndəsi S. M. Kirova 2447 saylı teleqram göndərərək münaqişələrin həll edilməsi üçün Tiflisdə Ermənistan-Azərbaycan konfransının çağırılmasını təklif edir [3, f. 276, siy. 9, iş 62, v. 4-5]. Lakin ermənilərin Zəngibasarda hərbi əməliyyatları davam etdirməsi sülh danışıqlarının baş tutmamasına səbəb oldu. İngiltərə, Fransa və Amerikanın Ermənistana silah-sursat göndərməsindən və müdafiə etməsindən istifadə edən daşnaklar 1920-ci ilin iyul ayının 10-da Vedibasar və Şərur-Dərələyəz istiqamətində hücuma keçirlər [2, f. 314, siy. 5, iş 78, v. 9-11].

Nəticə

Nəhayət, noyabr ayının 25-də türk ordusu qarşısında məğlub olan ermənilər Gümrüdə sülh danışıqlarına başlayırlar. Lakin Gümrü müqaviləsi imzalanmamış Qızıl Ordu İrəvana daxil olur və 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hökuməti qurulur. Beləliklə, 1918-ci ildə Batum sülh müqaviləsinə əsasən cəmi 9 min kvadrat kilometr əraziyə malik olan Ermənistan sovetləşdikdən sonra Zəhgəzur, Göyçə, Dərələyəz, Vedibasar, Zəngibarar və s. ərazilərimizi öz tərkibinə qataraq 29,8 min kvadrat kilometrlik bir dövlət oldu.

Elmi yeniliyi. Təqdim olunan məqalənin elmi yeniliyi ondadır ki, ilk dəfə olaraq kiçik bir zaman kəsiyində (1918-1920-ci illərdə) Azərbaycanın ən qədim torpaqlarından

biri olan Vedibasar rayonunda ermənilərin azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri soyqırımı siyasəti arxiv materiallarına istinad edilməklə araşdırılmışdır. Arxiv materiallarına istinad olunaraq sübut olunmuşdur ki, özlərini dünyanın demokratik dövlətləri kimi göstərən Amerika, Fransa, Rusiya və s. bu gün olduğu kimi, 1918-1920-ci illərdə də erməni daşnaklarını bütün vasitələrlə müdafiə etmiş, onları geyimlə, hərbi sursatla təmin etmiş, bütün vasitələrlə, cidd-cəhdlə torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsinə çalışmış, buna nail olmuş, hətta beynəlxalq səviyyəli Qars müqaviləsinin maddələrinin kobud şəkildə pozularaq Naxçıvan MR-in bir sıra kəndlərinin Ermənistana birləşdirilməsinə göz yummuşlar.

ƏDƏBİYYAT

1. Azərbaycan belgelerinde erməni sorunu (1918-1920). TC Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü Cümhuriyyet Arşivi Daire Başkanlığı Yayın Nu 28, – Ankara, – 2001. – 360 s.
2. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f.897, f. 970
3. Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 276
4. Andranikə qarşı vuruşan Balo bəy Vəkilov. https://wikipedia.org
5. Bayramov İbrahim. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. – Bakı: Elm, – 2002. – 346 s.
6. Didərginlər. – Bakı: Gənclik, – 1990. – 384 s.
7. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Tərtib edən. Əsədov S. – Bakı: Gənclik, – 1995. – 464 s.
8. Əliyev Ə. Qırmızı tabor. – Bakı: Gənclik, – 1990. – 45 s.
9. Əliyev Ə. Əlincə yaddaşı. Naxçıvan 1914-1922. – Bakı: Gənclik, – 1997. – 304 s.
10. Əliyev M. B. Qanlı günlərimiz (1918-1920 Naxçıvan). Azərbaycan Dövlət Nəşriyyatı, – Bakı: – 1993. – 162 s.
11. Mustafa N. 1918-1920-ci illərdə İrəvan quberniyasında erməni işğalına qarşı azərbaycanlıların mübarizəsi tarixindən. https://1905.az
12. Mustafa N. İrəvan quberniyasında Azərbaycanlıların soyqırımı (1918-1920). – Bakı: – 2017. – 328 s.
13. Naxçıvan MR Dövlət Arxivi, f. 314

AZƏRBAYCAN TARİXİNDƏ 1905-1907-Cİ İL HADİSƏLƏRİ VƏ REALLIQLAR

Elnarə ALLAHVERDİYEVA
Naxçıvan Dövlət Universiteti

XX əsr Azərbaycan xalqının ermənilərlə ağır şərtlər altında birgə yaşamağa məhkum edildiyi, soyqırımlara məruz qaldığı, milli və beynəlxalq müstəvidə hüquqlarının dəfələrlə pozulduğu, həm ərazi bütövlüyünü, həm də xalqının rifahını qorumaq naminə erməni təcavüzünə qarşı mübarizə aparmaq məcburiyyətində qaldığı ən ağrılı dövrlərdən biri kimi tarixin səhifələrinə həkk olunmuşdur. 1905-1907-ci illər ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi dəhşətli soyqırımlar "Dənizdən dənizə böyük Ermənistan dövləti" yaratma planının başlanğıc mərhələsi idi. Bununla belə, Azərbaycanda, xüsusən də Naxçıvanda 1905-ci ildə baş vermiş hadisələr zamanı azərbaycanlılar xeyli zərər çəksələr də, ermənilər planlaşdırdıqları etnik üstünlüyə nail ola bilmədilər. "Müharibə tələbi" ilə müsəlmanlara amansız divan tutan ermənilər, nəhayət, büsbütün məğlub olaraq "milli səhifələrinə" qara bir xətt çəkdilər.

Açar sözlər: *soyqırım, erməni zülmü, vəhşilik, Azərbaycan, Naxçıvan.*

Giriş

Qafqaz regionu tarix boyu dünya üçün əhəmiyyətli tranzit yollarından biri olmuşdur. Böyük İpək Yolunun bir hissəsi məhz bu bölgədən keçərək Avropa ölkələri ilə birləşirdi. Aralıq dənizi, Qara dəniz və Azov dənizindən gələn nəqliyyat gəmiləri Volqa çayı üzərindən Xəzər dənizi vasitəsilə Türkmənistana və Şərq ölkələrinə, eyni yolla geri qayıdan gəmilər Avropa ölkələrinə daha asan və ucuz yolla çata bilirdilər. Bu qədər əlverişli bir məkanda nüfuz sahibi olmaq istəyən Rusiya Şimali Azərbaycanı işğal etdikdən sonra bölgənin etnik tərkibinin dəyişdirilməsi üçün ədalətsiz demoqrafik siyasət yeritməyə başlamışdı.

Tarixdən məlumdur ki, Azərbaycan torpaqlarında uzun əsrlər azərbaycanlılarla yanaşı, müxtəlif milli azlıqlar məskunlaşmış və onlar vahid dövlətin ətrafında birləşərək "millət" anlayışının bariz nümunəsini nümayiş etdirmişdilər. Azərbaycana "Ana vətən"in sakini prinsipi ilə yanaşan yerli əhali dövlətin suverenliyini, ərazi bütövlüyünü, milli-mənəvi dəyərlərini qorumaq naminə yadellilərlə mübarizə apararaq canından keçməyə hazır olan "Azərbaycan xalqı" anlayışının formalaşmasına zəmin yaratmışdılar. Lakin XIX əsrin əvvəllərindən İraq və Osmanlı imperiyasında məskunlaşmış ermənilərin məqsədli şəkildə Azərbaycana köçürülməsi əsrlərdir bu bölgədəki milli azlıqlar arasındakı dostluğu və etnik balansı tamamilə dəyişdirdi. İdeyası hələ I Pyotrun zamanında irəli sürülən, tətbiqi çar I Nikolay tərəfindən həyata keçirilən "köçürülmə" prosesi Azərbaycan ərazisində "Erməni bölgəsi"ni yaratmış, o cümlədən, Qafqaz regionunda dinc yaşayışı kökündən sarsıtmış, Azərbaycan millətinə qarşı son əsrədək davam edən müxtəlif qırğınlarla nəticələnmişdir. Türkmənçay müqaviləsindən (1828) sonra, xüsusən, İrəvan və Naxçıvan xanlıqlarında yerləşdirilmiş köçkün ermənilər dini və milli ayrı-seçkiliyi ön plana keçirərək azərbaycanlı nüfuzun azaldılmasını və ermənilərin sayca artırılmasını əsas məqsəd kimi görən Rusiya imperiyasının Qafqazda yeritdiyi demoqrafik siyasətin ən

qanlı vasitəçisinə çevrilmişdilər. Bu özünü XX əsrin əvvəllərində daha kəskin şəkildə göstərməyə başladı. Kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına, xüsusilə Naxçıvan, İrəvan və Qarabağ zonasına köçürülən ermənilər müstəmləçilik alətinə çevrilərək ərazi iddialarını reallaşdırmağa başladılar. Naxçıvan bölgəsi Azərbaycanda 1905-1906-cı illər "erməni-müsəlman davasının" əsas mərkəzlərindən birinə çevrilmişdi. Naxçıvan bölgəsi həm də erməni iddialarının və onun aşkar şəkildə yerli əhaliyə qarşı çevrilmiş soyqırımı siyasətinin qarşısının alınmasında tarixi rol oynamışdı.

Qanlı hadisələrlə bağlı ilk mənbələr

XIX əsrin sonu və XX əsr Şimali Azərbaycanda, Qərbi Azərbaycanda (indiki Ermənistan), Cənubi Azərbaycanda (indiki İran) və Şərqi Anadolu ərazisində müsəlmanların ermənilər tərəfindən soyqırıma məruz qaldığı dövrlər kimi tarixə düşdü. Təəssüf ki, nə Avropa ölkələrinin, nə də Sovet dönəminin tarixçiləri bu soyqırımlar üzərində dayanmamış, hətta sosializm rejiminin siyasi gücü və elm adamlarının istəyi nəticəsində 70 ildən artıq bir zaman kəsiyində sovet tarixçiləri tərəfindən birtərəfli şəkildə tədqiq olunmuşdur. Vəziyyəti belə görən ermənilər bütün istiqamətlərdə, xüsusən də siyasi arenada sistemli şəkildə propaqanda fəaliyyəti göstərərək illər boyu dünya ictimaiyyətinin rəyini öz məqsədlərinə uyğun yönləndirməyə çalışmışdılar.

1905-1906-cı il hadisələri böyüyərək bütün Qafqaza yayılmışdı. Nəticədə, "Böyük Ermənistan" planının işə düşməsi Qafqazda qanlı faciələrin baş verməsinə gətirib çıxarmışdı. Məmməd səid Ordubadinin "Qanlı illər" və Mir Möhsün Nəvvabın 1905-1906-cı illər erməni müsəlman davası adlı əsərlərində hadisələr barədə əhatəli məlumatlar yer almaqdadır. Lakin "Qanlı illər" əsəri 80 ildən artıq bir dövr ərzində xalqdan gizlədilmişdi. Əsər 1908-ci ildə yazılsa da, ilk dəfə 1911-ci ildə Bakı milyonçusu Murtuza Muxtarovun maddi köməkliyi ilə Haşim bəy Vəzirovun "Səda" adlı mətbəəsində çap edilmiş, lakin daha sonra nəşr olunmasına və gənc nəsillərə çatmasına bir daha icazə verilməmişdi. Bundan başqa, 1895-ci ildən etibarən Türkiyənin müxtəlif bölgələrindəki rus səfirliklərində 6 il fəaliyyət göstərmiş Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi general-leytenant Mayevski həmin bölgələrdə, o cümlədən Qafqaz regionunda erməni daşnaklarının həyata keçirdiyi hadisələrin şahidi olmuş və müşahidələrini hesabat formatında Rus Silahlı Qüvvələri Baş Qərargahına təqdim etmişdi. Sözügedən hesabat siyasi və hərbi səbəblərə görə "gizli" adlandırılaraq yalnız rəhbərliyə təqdim edilmək məqsədilə Peterburq Hərbi Mətbəəsində kitab formatında bir neçə nüsxə olaraq çap edilmişdi. 1914-cü ildə kəşfiyyat şöbəsində çalışan mayor Mehmet Sadık bəy tərəfindən türk dilinə tərcümə edilmiş əsər, İstanbulda hərbi mətbəədə nəşr olunmuşdu. Osmanlı türkcəsində 395 səhifədən və 4 fəsildən ibarət olan əsər bütövlükdə Van və Bitlis vilayətlərinin coğrafiyası, əhalisi, inzibati, sosial, iqtisadi, etnik və dini quruluşu ilə bağlı mühüm məlumatlarla yanaşı, Şərqi Anadolu və xüsusilə də erməni problemi ilə bağlı mühüm, obyektiv məlumatları özündə ehtiva edirdi. Bu əsərin Rusiya Baş Qərargahına təqdim edilən rəsmi hesabatdan ibarət olması təsvir etdiyi hadisələrin gerçəkliyə uyğunluğunu və etibarlılığını daha da artırırdı. Lakin əsər çox gizli şəkildə saxlanılırdı. Mayevskinin 1906-cı ildə "Qafqazda erməni-tatar iğtişaşları" mövzusunda yazdığı məqalənin də nəşrinə uzun illər icazə verilməmişdi. Bu səbəbdən 1940-1950-ci illərdən

sonrakı nəsillərin böyük əksəriyyəti 1905-ci il hadisələri haqqında tam məlumatsız olmuşdular. Qərb mətbuatında ən böyük itkilərin ermənilərə məxsus olduğunu göstərən yazılar çap olunurdu. Bu dövrün hadisələrinə o qədər də maraq göstərilmirdi. Halbuki, "Böyük Ermənistan" yaratmaq ideyasının ilk mərhələsi elə bu dövrdən başlamışdır. Lakin sovet hakimiyyəti illərində ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi bütün zorakılıqlar "beynəlmiləlçilik" pərdəsi altında ört-basdır edilmiş və tarixçilər tərəfindən tədqiqinə icazə verilməmişdi. Məsələ ilə bağlı əsas arxiv materialları isə Çar Rusiyası dövrünün arxiv sənədləri, Azərbaycan Respublikası Tarix Arxivinin fondlarında saxlanılan sənədlər və ayrı-ayrı müəlliflərin yazdığı əsərlərdən ibarət idi.

Rusiya və Osmanlı dövrünə aid, o cümlədən Azərbaycan arxivlərindən əldə olunmuş sənədlər göstərirdi ki, ruslar və kazaklarla ittifaqa girən Daşnaksütyun, Ramgavar və Hınçak kimi erməni təşkilatları yalnız çarlıq dönəmində deyil, eyni zamanda I Dünya müharibəsi zamanı da Azərbaycanda və Anadolunun müxtəlif bölgələrində müsəlman türklərini məhvetmə planını həyata keçirmişdilər [7, s. 279].

Tarixi reallıqlar və Naxçıvan hadisələri

Naxçıvanda 1905-ci il hadisələrinin başlanması və gedişi ermənilərin bölgəyə köçürülməsindən sonrakı dövrün ümumi mənzərəsini görməyə şərait yaradırdı. "*1850-ci ildə Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək Naxçıvan, Gümrü, Yeni Bəyazit, Şərur-Dərələyəz qəzaları və Ordubad nahiyəsi daxil olmaqla İrəvan qubernatorluğu (valiliyi) yaradılmışdı*" [3. s.17]. Rusiyada yüksək vergi sisteminin tətbiqi və torpaq sahəsindəki ədalətsizliklər bölgədə narazılıqlara səbəb olmuşdu. XX əsrin əvvəllərində Rus – Yapon müharibəsi zamanı məğlub olmuş Rusiya İmperiyasında milli azadlıq hərəkatları baş qaldırmış, qiyamlar, üsyanlar, daxili çəkişmələr güclənmişdi. Sabitliyin pozulması Qafqazda öz təsirini daha çox göstərirdi. Ayrı-ayrı xalq çıxışlarının qarşısını almaq istəyən imperiya rəhbərliyi xalqları bir – birinə qırdırmaq siyasətini həyata keçirirdi. "Böyük Ermənistan" xəyalı ilə yaşayan ermənilər bu şəraitdən yararlanmaq üçün fürsəti əldən vermədi. Çar Rusiyası tərəfindən gizli şəkildə silahlandırılan erməni daşnakları hərtərəfli hazırlıqlardan sonra 1905-ci ilin əvvəllərindən etibarən Bakı şəhərindən başlayaraq Şuşa, Zəngəzur, İrəvan, Naxçıvan, Qazax, Quba və digər zonalarda kütləvi qırğınlar törədir, kəndləri dağıdır, yandırır, günahsız yerli sakinləri qılıncdan keçirirdilər.

5 may 1905-ci ildə ermənilər tərəfindən 3 cəhrilinin yaralanması, 7 mayda isə tumbullu bir şəxsin öldürülməsi Naxçıvanda ermənilərin azərbaycanlılara qarşı düşmənçilik mövqeyini açıq olaraq nümayiş etdirirdi. Hadisə ilə əlaqədar İrəvan valisi Baranovski, İrəvan bələdiyyə rəisi Ağamalov və İrəvanda olan Naxçıvan bələdiyyə rəisi Cəfərqulu xan mayın 8-də Naxçıvana gəlsələr də hadisələrin qarşısını almaq mümkün olmamışdı. Ermənilər hücumlarını artıraraq Naxçıvandakı müsəlman məhəllələrini atəşə tuturdular [3, s.18].

M.S.Ordubadinin o dövrün müxbirlərinin toplayaraq ona göndərdikləri 254 məktub əsasında yazdığı "Qanlı illər" əsərinin "Kədərli Naxçıvan hadisələri" bölməsində bu mətləblərə belə aydınlıq gətirilir. O yazır ki, "*1905-ci ilin may ayının əvvəllərində Bakı erməni-müsəlman toqquşmasından sonra Naxçıvan erməni-müsəlman camaatı artıq həyəcanda idilər. Buna nisbət ermənilər əsla qorxmayıb həmişə müsəlmanlara əziyyət verməkdə idilər. Bir tərəfdən şəhərə*

belə səs salmışdılar ki, ermənilərdə cürbəcür odlu silahlar olduğundan müsəlmanlara birdən-birə hücum edəcəklər. Ermənilərdən də belə hallar hər dəqiqə gözlənilirdi. Hər vəziyyətdə, erməni siyasətini götür-qoy edəndə elə belə də olmalı idi. Zira, ermənilərin rəyincə, bizim əlimizin üstündə Qafqazda gərək əl olmasın – deyib hər tərəfə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar..." [5, s.18].

Uzun müddət canlı qüvvə formalaşdırmış ermənilərin təcavüzkar hərəkətləri geniş miqyas almış və onların əsl simasını ortaya çıxarmışdı. Bu barədə müsəlmanlar tərəfindən hakimiyyət orqanlarına ünvanlanmış şikayətlərə baxılmır, cavabsız qoyulurdu. Mayın 9-da naxçıvanlı Əli Hacı Bayramzadə qətlə yetirildi. Mayın 11-də isə daşnaklar tərəfindən onlara yardım etmədiyi üçün cəzalandırılaraq öldürülən erməni ailəsinin qətlinin müsəlmanların üzərinə atılmasına cəhd edildi. Bu yolla həm ermənilərə xəbərdarlıq verilmiş, həm də azərbyacanlılara qarşı təxribatları genişləndirməyə çalışmışdılar. Hakim dairələrin baş vermiş hadisələrə laqeyidliyi və bir çox məqamda ermənilər müdafiə etməsi onların müsəlmanlara qarşı yeni təxribatlar törətməsinə şərait yaradırdı. Noyabrın 27-30 tarixləri arası 85 dükan, 75 anbar yandırılmış, aclıq baş vermişdir. Noyabrın 30-da ermənilər və kazaklar tərəfindən Cəhri kəndi yandırıldı. Faciə ilə əlaqədar yerli əhali Naxçıvana gələn İrəvan general-qubernatoru Paskeviçə şikayət etsələr də qubernator boş sözlər vəd edərək heç bir tədbir görməmişdi. Əksinə, o, Naxçıvanda olduğu zaman kazaklar şəhərin ikinci hissəsinə də od vurub yandırmışdılar. M.S.Ordubadi həmin hadisələri belə təsvir edirdi: "*Noyabrın 26-cı gecəsi müsəlmanlara böyük bir müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi. Həmin gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırmışlar....*" [2, s.22]

Müəllif erməni silahlı dəstələrinin törətdiyi kütləvi qırğınların miqyasını təqdim edərkən "eməni-müsəlman davasının" baş vermə səbəblərini aşağıdakı şəkildə təqdim edirdi:

1. Daşnaksütyun partiyasının qanlı əməlləri (müəllif bununla bağlı 400-dən artıq yazılı məlumata malik olduğunu bildirirdi);
2. Yerli hökumət məmurlarının özbaşınalığı;
3. Müsəlmanların savadsızlığı, silahsızlığı və cari yeniliklərdən xəbərsiz olması;
4. Ermənilərin muxtariyyət iddiasında olmaları, dənizdən dənizə "Erməni səltənəti"ni qurmaq istəyi.

Qeyd edək ki, müəllifin əsərində baş vermiş hadisələrin xronoloji ardıcıllığında uyğunsuzluqlar və natamamlıqlara rast gəlinir. Məsələn, "Hınçak" partiyasının qanunsuz əməlləri yaxud Şərur-Dərələyəz və Sürməli qəzalarında ermənilərin törətdikləri qırğınlar barədə əsərdə heç bir məlumat verilməyib. Yaxud, müəllif göstərir ki, Bakı şəhərində 1905-ci il fevral qırğınlarından sonra, may ayında Naxçıvanda daha sonra isə İrəvanda qırğınlar törədilib. Halbuki, başqa mənbələrdə fevral ayında Bakıda baş vermiş hadisələrdən 2 həftə sonra İrəvan şəhərində erməni silahlı dəstərlərinin törətdikləri ağır cinayətlər barədə məlumatlar var [8].

Hərtərəfli hazırlığa və çar hakimiyyət orqanları ilə əlbir olmasına baxmayaraq, ermənilərin Azərbaycanda o cümlədən, Naxçıvanda hakim mövqe tutub, etnik üstünlüyə malik olub, ərazi iddialarını həyata keçirmək strategiyası iflasa uğradı. Nəticədə çarizmin

ermənilər vasitəsilə reallaşdırmaq istədiyi müstəmləkəçilik siyasətinə də ciddi zərbə vuruldu [4, s.138].

Naxçıvanda baş verən hadisələr haqqında erməni nümayəndələri müxtəlif mətbuat orqanlarına, hakimiyyət instansiyalarına göndərdikləri teleqram və məlumatlarda dezinformasiya və böhtanlar yayır, hadisələrin əsl mahiyyətini təhrif edərək, bütün günahları azərbaycanlıların üzərinə atmağa çalışırdılar. Bu istiqamətdə "Baku", "Novoe obozrenie", "Tiflisskiy Listok", "Russkoe slovo", "Kavkaz" qəzetləri, xüsusilə, fərqlənirdilər. Həmin qəzetlərdə may ayında Naxçıvanda baş vermiş hadisələr haqqında yalnız ermənilərin mövqeyini əks etdirən materiallar verilir, erməni əhalisinin kütləvi qırğına məruz qaldığını əks etdirən rəqəmlər, faktlar göstərilir və bütün bunların hamısını "müsəlmanların törətdiyini" ictimaiyyətə təlqin edirdi. Bu təsadüfi deyildi, çünki adı çəkilən qəzetlər Daşnaksütyun partiyası, erməni ticarət dairələri ilə sıx əlaqədə idi.

Ağır nəticələr.

Naxçıvan hadisələri də, Cənubi Qafqazın bir sıra yerlərində baş vermiş bütün digər münaqişələr də ermənilərin bais olduqları Bakı hadisələrinin bilavasitə nəticəsi idi. Mayevskinin qeyd etdiyi kimi, "bu hadisələr qeyri-tipik hadisə idi və sübut etdi ki, çox hallarda heç bir günahı olmayan kənd əhalisi zərər çəkmişdir".

Arxiv sənədlərində ermənilərin 1905-1918-ci illər ərzində həyata keçirdikləri qətl və soyqırımlar aşağıdakı kimi sıralanmışdır [6, s.113]:

- Bakıda 30 minə yaxın azərbaycanlı qətlə yetirilmişdir.
- Şamaxı qəzasında 58 kənd viran edilmiş, 1653-ü qadın, 965-i uşaq olmaqla 7 min nəfər öldürülmüşdür.
- Quba qəzasında 122 müsəlman kəndi talan edilərək yandırılmışdır.
- Qarabağda 150-dən çox kənd dağıdılmışdır.
- Zəngəzur qəzasında 115 kənd viran edilmişdir.
- İrəvan Quberniyasında 211 kənd dağıdılmışdır. Bu qədim Azərbaycan şəhərində və onun ətrafında 88 kənd viran edilmiş, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni daşnaklarının apardığı "Türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan Quberniyasında 1916-cı ildə 375 min nəfər olan türk nüfuzu 1922-ci ildə 70 minə yenmişdir.
- Türkiyənin Qars vilayətində Azərbaycan və Anadolu Türklərinin məskunlaşdığı 92 kənd dağıdılaraq yandırılmışdır.
- 1918-ci ilin fevral-mart aylarında Cənubi Azərbaycanın Xoy, Səlmas, Urmiyə və başqa şəhərlərində 150 min azərbaycanlı qətlə yetirilmişdir.

1905-1907-ci illərdə ermənilərin törətdiyi qırğınlar Naxçıvanın etno-demoqrafik vəziyyətinə təsir göstərmişdir. Bu təsirin miqyası barədə dəqiq statistika göstərmək çətin olsa da, qırğınlar nəticəsində İrəvan quberniyasından, eləcə də Zəngəzur qəzasından Naxçıvana çoxlu sayda qaçqınların gəlməsi, eləcə də Naxçıvan qəzasının özündə erməni talanlarından xilas olmaq üçün azərbaycanlıların kütləvi şəkildə Arazın cənubuna köçmələri barədə mətbuat səhifələrində, memuar ədəbiyyatda və hadisələrin şahidi olmuş insanların xatirələrində çoxlu məlumatlar yer almaqdadır. Çar hakimiyyətinin demoqrafik göstəricilərlə bağlı rəsmi sənədləri sübut edir ki, erməni ideoloqlarının iddialarının əksinə

olaraq Naxçıvanda azərbaycanlıların planlı və tədricən sıxışdırılması prosesi gedirdi [1, s.122]. Bununla belə, çarizmin ermənilərı Naxçıvana kütləvi şəkildə köçürməsinə baxmayaraq, bölgədə azərbaycanlılar ermənilərdən iki dəfə çox olmuşdur. Faktlar göstərir ki, 1897-1917-illər ərzində Naxçıvan əhalisinin tərkibində yeni ciddi dəyişikliklər baş vermişdi.

1917-ci ilin Qafqaz təqviminə əsaslanan başqa sənədlərdə isə Naxçıvan və Şərur-Dərələyəz qəzalarında birlikdə 161.991 azərbaycanlının yaşadığı göstərilirdi [9, s.8]. Azərbaycanlılarda təbii artımın hər zaman ermənilərdən çox olmasına baxmayaraq, ermənilərin belə sürətlə artması həm onların buraya kütləvi köçürülmə siyasətinin davam etdirilməsi, həm də bölgədə müşahidə olunan etnosiyasi proseslərin, xüsusən 1905-1907-ci illərdə, eləcə də I Dünya müharibəsi dövründə baş vermiş hadisələrin nəticəsi hesab olunurdu. Qeyd olunmalıdır ki, erməni nüfuzunun say etibarilə qeyri-təbii amillər hesabına artırılması belə, Naxçıvan bölgəsinin etnik cəhətdən türk diyarı kimi qalmasına mane ola bilmədi.

ƏDƏBİYYAT

1. Naxçıvan: Tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). – Bakı: Təhsil, – 2006. – 504 s.
2. Ordubadi M. S. "Həyatım və mühitim" (Tərtib edən: İsa Həbibbəyli). – Naxçıvan "Əcəmi" Nəşriyyat - Poliqrafiya Birliyi, – 2012. – 336 s.
3. Atnur İ.E. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). (Tərcümə edən: Qənirə Əsgərova) Naxçıvan: "Əcəmi" Nəşriyyat - Poliqrafiya Birliyi, – 2023. – 496 s.
4. Hacıyev İ. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində. – Bakı: Elm, – 2018. – 372 s.
5. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi (çapa hazırlayan: Ə. D. Bağırov). – Naxçıvan: "Əcəmi" NPB, – 2001, – 189 s.
6. Mustafayev B. Arşiv belgeleri işığında Kubada ermeni zulmü (1905-1920). Karadeniz Araştırmaları Dergisi, Sayı 26, Yaz Dönemi, – Ankara – 2010. – s. 109-127.
7. Mustafayev B. Nahçivan Olayları ve general Andranik Ozanyanın Nahçivandaki katliamı (Arşiv Belgelerinin İzinden). A.Ü.Türkiyat Araştırmaları Enstitüsü Dergisi [TAED] 47, – Erzurum. – 2012. – s. 277-302.
8. Mustafa N. Mənbələr azərbaycanlıların 1905-1906-cı illər soyqırımı haqqında. Xalq qəzeti, – 2023.
9. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan (Tərtib edən İ.Hacıyev). – Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, – 2010. – 384 s.

SUMMARY

Elnara Allahverdiyeva

EVENTS AND FACTS OF 1905-1907 IN THE HISTORY OF AZERBAIJAN

The 20th century, one of the most painful periods, went down in history in which the Azerbaijani people were condemned to live together with the Armenians, were subjected to genocide by the Armenians, and their rights were repeatedly violated on a national and international scale. The Azerbaijani people had to fight against Armenian aggression to protect their territorial integrity and the well-being of their people at the international level. The brutal genocides were the first stage of the plan to create "a great Armenian state from sea to sea" committed by Armenians against Azerbaijanis in 1905-1907 . However, the Armenians could not achieve the ethnic superiority they wanted, although the Azerbaijanis suffered greatly during the events that took place in Azerbaijan, especially in Nakhchivan, in 1905. After being completely defeated, the Armenians, who oppressed the Muslims with their "war demands", finally drew a black line on their "national pages".

Key words: *genocide, Armenian oppression, atrocity, Azerbaijan, Nakhchivan*

ZƏNGƏZUR DƏHLİZİ: BEYNƏLXALQ VƏ STRATEJİ ASPEKTLƏRİ

Elman Cəfərli
Naxçıvan Dövlət Universiteti

Azərbaycan 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində Ermənistanı məğlub edərək, 30 illik işğala son qoydu. Bu müharibə yalnız Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə nəticələnmədi. Eyni zamanda, Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqlar yaratdı. Müharibəni sonlandıran 10 noyabr 2020-ci il Üçtərəfli Bəyanatında bir sıra məsələlərlə yanaşı, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən nəqliyyat dəhlizinin açılması da əks olundu. Başqa sözlə, Zəngəzur dəhlizinin açılması Azərbaycan üçün tarixi ədalətin bərpası kimi strateji əhəmiyyətə malikdir. Siyasi leksikonda Zəngəzur dəhlizi adını almış nəqliyyat dəhlizi gələcəkdə yalnız Azərbaycan ərazilərini birləşdirici kommunikasiya rolunu oynamayacaq, həm də mühüm iqtisadi əhəmiyyət daşıyacaq. Bu əhəmiyyət özünü milli, regional və qlobal səviyyələrdə göstərəcək. Zəngəzur dəhlizi bölgə dövlətləri arasında iqtisadi-ticari, nəqliyyat-kommunikativ əlaqələri bərpa edəcək. Dəhliz türk dövlətlərinin vahid coğrafi, siyasi və iqtisadi məkana çevrilməsini sürətləndirəcək. Nəhayət, Cənubi Qafqazdan keçən beynəlxalq nəqliyyat yollarının mühüm qovşağına çevriləcək. Asiya ilə Avropa arasındakı nəqliyyat kommunikasiyasının mühüm həlqəsini təşkil edəcək dəhlizin imkanlarından gələcəkdə Yaxın Şərq və hətta Afrikanın xüsusilə şimal dövlətləri də faydalana bilərlər. Türk dövlətlərinin ərazisindən keçəcək nəqliyyat kommunikasiyaları təhlükəsizlik baxımından dünyada alternativi olmayan yollar olacaq. Bu mənada Zəngəzur dəhlizi həmin kommunikasiyanın tamamlanmasında vacib yer tutacaq. Hava, dəmir və avtomobil yolu kimi nəzərdə tutulan dəhlizin yaşıl enerji ixracı üçün də böyük coğrafi, iqtisadi və strateji əhəmiyyəti olacaqdır.

Açar sözlər: *Azərbaycan, Vətən müharibəsi, Zəngəzur dəhlizi, türk dövlətləri, nəqliyyat kommunikasiyaları*

XX əsrin sonlarında SSRİ-nin və sosializm sisteminin tənəzzülü və süqutundan sonra beynəlxalq aləmdə baş verən ictimai-siyasi, diplomatik və hərbi proseslər son dərəcə dinamik və mütəhərrik xarakter alıb. Xüsusən XXI əsrin ötən dövrü ilbəil bu dinamikliyin sürətinin daha çox artması ilə səciyyələnir. Nəzərə alsaq ki, müxtəlif səpkili (hərbi, siyasi, iqtisadi və s.) beynəlxalq miqyaslı proseslər yalnız dövlətlərarası, regional və qlobal münasibətlər sistemində baş verən siyasi dəyişkənliklərlə məhdudlaşmır, eyni zamanda, həm iqtisadi, həm də xüsusən texnoloji yeniliklər bu proseslərin hərəkətverici qüvvəsi kimi çıxış edir, o zaman aydındır ki, baş verənləri proqnozlaşdırmaq xeyli çətinləşir.

Son dövrlərdə ölkəmizin də yerləşdiyi Cənubi Qafqaz regionunda cərəyan edən hadisələr də bu qəbildəndir. Təsadüfi deyil ki, SSRİ-nin süqutu ərəfəsində Azərbaycana "qara miras" kimi buraxılmış keçmiş "Dağlıq Qarabağ problemi" – torpaqlarımızın ermənilər tərəfindən işğalı məsələsinin 30 ildən çox sürməsi bu problemin az qala həllolunmazlığı təsəvvürünü formalaşdırmışdı. 27 il ATƏT-in Minsk qrupunun vasitəçilik mandatı altında Ermənistan-Azərbaycan münaqişəsinin tamamilə səmərəsiz və yorucu danışıqlar prosesi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrin

(822 (30 aprel), 853 (29 iyul), 874 (14 oktyabr) və 884 (11 noyabr) saylı) icrasının təmin edilməməsi, digər beynəlxalq təşkilatların qəbul etdikləri müvafiq qərarlara, dövlətlərin ərazi bütövlüyü kimi beynəlxalq hüququn dəyişilməz və hamılıqla qəbul edilmiş prinsipinə məhəl qoyulmaması əslində işğalçı dövlətin müdafiəsinə, beləliklə də, faktiki olaraq regionda yaranmış status-kvonun – Ermənistanın Azərbaycan torpaqlarının 20 faizinin işğalı faktını ölkəmizə qəbul etdirilməsinə xidmət edirdi.

Lakin bu proses uzun sürsə də, əbədi davam edə bilməzdi, çünki tarixi və beynəlxalq təcrübə işğal faktı ilə bağlı hadisələrin yalnız sülh yolu ilə həlli nümunələrindən ibarət deyildir və saysız-hesabsız münaqişələr məhz hərbi yolla – işğalın həyata keçirilmə vasitəsinə tamamilə adekvat şəkildə həllini tapmışdır. Bu baxımdan 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan torpaqlarının işğalı faktının hərbi yolla aradan qaldırlması da tamamilə qanunauyğun və müvafiq beynəlxalq hüquq normalarının tətbiqi nəticəsində mümkün oldu. Beynəlxalq təşkilatların formal olaraq daha çox ədalətin tərəfində dayanan Azərbaycanın mənafeyini müdafiə edən çoxsaylı sənədlərinə baxmayaraq, pərdəarxası və bir çox hallarda da açıq şəkildə dəstəklənən, müdafiə olunan Ermənistanın 2020-ci il sentyabrın 27-də məhz yenidən Azərbaycana qarşı hərbi təxribatı saatlar ərzində müharibəyə çevrildi və bu dəfə ölkəmiz yaranmış tarixi şansdan uğurla istifadə edərək düşmən üzərində parlaq qələbə qazandı. Nəticədə, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, münaqişənin həlli məsələsi beynəlxalq müstəvidən, beynəlxalq təşkilatların, xüsusən ATƏT-in monopoliyasından çıxarıldı. Bu dəfə məsələ artıq münaqişə tərəfi olan iki dövlət arasında müzakirə müstəvisinə də qaytarılmadı, belə ki, Azərbaycan tamamilə düzgün addım ataraq, Qarabağın erməni hərbi birləşmələrinin (10 noyabr Üçtərəfli Bəyanatına uyğun olaraq, hüquqi baxımdan Rusiya sülhməramlı qüvvələrinin) müvəqqəti nəzarəti altında olan ərazilərindəki separatizmin ləğvi məsələsini özünün daxili işi elan etdi. 2023-cü il sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunda separatizmin ləğvi məqsədi ilə keçirilən bir günlük lokal antiterror əməliyyatı ilə ölkənin bütün ərazisi üzərində Azərbaycan dövlətinin suverenliyi və konstitusiya quruluşu bərpa olundu.

2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı (Üçtərəfli Bəyanat, 10.11.2020) ilə müharibəyə son qoyuldu. Bəyanat işğal zonasında 44 günlük müharibənin yaratdığı yeni status-kvonu onun gələcək dəyişikliklər perspektivi ilə birlikdə rəsmiləşdirdi: Ağdam, Kəlbəcər və Laçın rayonları sonrakı bir ay ərzində Azərbaycana qaytarıldı və bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası kontekstində Ermənistanın vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət öhdəliyi müəyyən olundu, tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi qərarlaşdırıldı.

Əvvəlcə qısa müddətdə şərti olaraq lakonik şəkildə "Naxçıvan dəhlizi" adlandırılan "Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni

nəqliyyat kommunikasiyaları" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən siyasi leksikona yeni anlayışla – "Zəngəzur dəhlizi" adı ilə daxil edildi. Əlbəttə, "Zəngəzur dəhlizi" ifadəsi – regionun bütün real faktoloji tarixi keçmişini, hazırkı siyasi və strateji reallıqları nəzərə alan daha düzgün, sərrast yanaşmadır və məhz buna görə də artıq beynəlxalq miqyasda da qəbul olunur və işlədilir (Müsahibə, 22.07.2021). Azərbaycanın dövlət başçısının sözləri ilə desək, "Zəngəzur dəhlizi layihəsi bizim üçün təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, strateji bir layihədir. Tam əminik ki, bu layihənin reallaşması bizim təbii hüququmuzdur" [Müsahibə, 10.01.2023].

Yeri gəlmişkən, Zəngəzur dəhlizi, beynəlxalq nəqliyyat dəhlizi kimi, özündə üç istiqaməti ehtiva edir: hava yolu, dəmir yolu və avtomobil yolu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində keçmiş SSRİ dövründə mövcud olan və son illərədək işlək olan hava dəhlizinin Vətən müharibəsindən sonra yenidən necə açıldığına diqqəti çəlb edərək deyib: "Hava məkanından istifadə etmək məsələsinə gəldikdə, onu da bildirməliyəm ki, biz bu dəhlizdən Ermənistandan icazə almadan istifadə etdik. Bunu hər kəs bilsin, biz onlardan icazə almamışıq. Bu, bizim hüququmuzdur, bu, beynəlxalq dəhlizdir. Dünya aviasiya sistemində qaydalar var, yəni, mövcud olan dəhlizdən istifadə etmək olar. Biz qərara gəldik ki, bundan da istifadə edək, Zəngəzur dəhlizinin hava versiyasını həyata keçirək. Naxçıvana uçan təyyarələr həm vaxta, həm də yanacağa qənaət edirlər. Amma əsas məsələ, əlbəttə ki, bu deyil. Əsas məsələ artıq bu dəhlizi açmaq idi" [Müsahibə, 12.01.2022].

Lakin əlbəttə, Zəngəzur dəhlizi dedikdə, söhbət ilk növbədə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasındakı nəqliyyat kommunikasiyalarının – avtomobil və dəmir yolunun açılmasından gedir. Xatırladaq ki, qeyd olunan ərazidə 41 kilometrlik dəmiryolu hələ 1941-ci ildə çəkilərək istismara verilmiş, ötən əsrin 70-ci illərində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyinin ilk dövründə isə 48 kilometrlik avtomobil yolunun çəkilişi istiqamətində səy göstərilmiş [Cəfərli, 2023], daha sonra bu səylər 1980-ci illərdə Heydər Əliyevin keçmiş SSRİ rəhbərliyində işlədiyi dövrdə də davam etdirilmişdi. SSRİ rəhbərliyi tərəfindən həmişə ciddi dəstək görən ermənilərin bütün müqavimətlərinə rəğmən 1986-cı ildə Zəngəzur dəhlizində avtomobil yolunun tikintisinə başlanılmış, hətta Zəngilan rayonunun Mincivan qəsəbəsindən Mehri rayonunun azərbaycanlılar yaşayan Nüvədi kəndinə qədər asfalt yol salınmışdı [Xüsusi reportaj, 10.05.2023]. Lakin sonrakı hadisələr, xüsusilə 1987-ci ilin sonlarında Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP Siyasi Bürosunun üzvlüyündən uzaqlaşdırılması ilə yolun sonadək, yəni Ordubada qədər çəkilməsi işi dayandırıldı.

Beləliklə, Vətən müharibəsindəki qələbədən sonra imzalanan 10 noyabr Üçtərəfli Bəyanatının 9-cu bəndində əks olunan və sonrakı dövrdə Azərbaycan tərəfinin üzərində təkidlə dayanıb açılmasını tələb etdiyi Zəngəzur dəhlizi özünün tarixi keçmişinə malikdir. Sovet hakimiyyəti illərində buradan keçən dəmir yolu Azərbaycanın Naxçıvan Muxtar Respublikasına sərnişin və yük daşımalarını daha səmərəli və sürətli həyata keçirilməsində müstəsna əhəmiyyətə malik olmaqla yanaşı, SSRİ iqtisadiyyatının "qan

damarı" adlandırılan dəmir yollarının mühüm bir arteriyasını təşkil edirdi. Belə ki, məhz bu yol vasitəsilə Naxçıvandan keçməklə, Culfa rayonunda 1908-ci ildə istifadəyə verilmiş Araz çayı üzərindəki dəmir körpüdən keçən Moskva-Tehran qatarı fəaliyyət göstərirdi. Bu dəmir yolunun əhəmiyyəti o qədər böyük idi ki, 1989-cu ilin sentyabrında ermənilərin Mehri rayonunda yaratdıqları təhlükəyə görə tətil edən Culfa dəmiryolçularının etiraz aksiyası bütün SSRİ-nin dəmir yolu nəqliyyatını iflic vəziyyətinə salmışdı.

Hazırda da dəmir yolları müasir dünya iqtisadiyyatı üçün əsas nəqliyyat kommunikasiyası sayılır. Belə ki, dəmir yolu nəqliyyatı bir sistem olaraq özünəməxsus xarakterik cəhətlərə, texniki-iqtisadi göstəricilərə və fəaliyyət prinsiplərinə malikdir. Dəmir yollarının yüksək daşınma və buraxılış qabiliyyətliliyi, daşınmaların nisbətən aşağı qiyməti ilə kütləvi həyata keçirilməsi imkanlığı, yüklərin və sərnişinlərin daha qısa yolla çatdırılması, çatdırılma müddətləri və hərəkətin daha optimal yüksək sürəti, ilin bütün fəsillərində və günün istənilən vaxtında daşınmaların fasiləsiz və bərabər həyata keçirilməsi mümkünlüyü, nisbətən yüksək iqtisadi göstəricilər və kifayət qədər mükəmməl daşınma texnologiyaları, sənaye və kənd təsərrüfatı müəssisələri, tikinti, ticarət bazaları, anbarlar və s. ilə qırılmaz əlaqə, dəmir yollarının praktiki olaraq ölkənin istənilən quru ərazilərində tikintisinin mümkünlüyü və rayonlar arasında dayanıqlı əlaqələrin təmin edilməsi kimi xüsusiyyətləri bu nəqliyyat növünün əhəmiyyətini və səmərəliliyini xeyli yüksəldir [Hacızadə, 2013].

Bu baxımdan, hələ 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın təşəbbüsü ilə irəli sürülmüş Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi kimi də tanınan Orta Dəhliz layihəsi sonradan daha da genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına artıb. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur. Onun tərkib hissəsinə çevrilmiş, 2017-ci il oktyabrın 30-dan fəaliyyət göstərən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir, Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır (Abdullayev, 2022; Bayramov, 2023). BTQ-nin ümumi uzunluğu 846 kilometrdir ki, onun da 504 kilometrlik hissəsi Azərbaycan, 263 kilometrlik hissəsi Gürcüstan, 79 kilometrlik hissəsi isə Türkiyə ərazisindədir.

Hazırda isə, Zəngəzur dəhlizinin açılması məsələsində qəti və aydın mövqeyi olan Azərbaycan bu dəhlizə yalnız iqtisadi və nəqliyyat layihəsi kimi yox, daha çox strateji layihə kimi çıxış edir. Eyni zamanda, milli strateji hədəf kimi bütün özünəməxsus cəhətləri ilə yanaşı, Zəngəzur dəhlizi özünün beynəlxalq cəhətlərinə də malikdir. Dəhlizin istifadəyə verilməsi ilə BTQ ilə müqayisədə məsafə dəmiryolu üzrə cəmi 6 kilometr azalsa da, avtomobil yolu üzrə bu azalma 284 kilometr təşkil edəcəkdir [Zəngəzur dəhlizi Türkiyə və Azərbaycana nə verəcək?]. Zəngəzur dəhlizinin əsas strateji cəhətlərindən biri Orta Dəhliz layihəsi üzrə daşıma imkanlarının diversifikasiyasında göstərəcəkdir. Belə ki,

yeni nəqliyyat bağlantısı Şimal-Cənub, Şərq-Qərb dəhlizlərinə, eləcə də Orta Dəhlizə inteqrasiya ediləcək, Azərbaycanın Orta Dəhliz vasitəsilə gələn yükləri aşırmaq imkanları daha da genişlənəcəkdir. Məhz buna görədir ki, Azərbaycan Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olsa da, 2018-ci il mayın 14-də açılış mərasimi keçirilən, Xəzər dənizi sahilində ən böyük liman olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının 15 milyon ton olan ilkin yükaşırma qabiliyyətinin 25 milyon tona çatdırılması işləri aparılır. Paralel olaraq, Bakıdakı Gəmiqayırma Zavodunun gücünün ildə 6-8 gəminin inşasından 10-20 gəmi inşasınadək artırılması prosesi həyata keçirilir.

Bu artıq faktdır ki, son 20 ildə Azərbaycan regionda bütün aparıcı nəqliyyat, enerji və kommunikasiya infrastrukturu üzrə layihələrin həyata keçirilməsində aparıcı ölkə olub və məhz öz tarixi torpaqlarının işğalı faktoruna görə Ermənistanı bütün bu layihələrdən kənarda saxlayıb. Zəngəzur dəhlizi bu baxımdan Ermənistanın region ölkələri ilə iqtisadi inteqrasiyasında mühüm rol oynaya bilər. Digər tərəfdən Ermənistan Zəngəzur dəhlizinin açılmasını sürətləndirməklə, 30 ildən çox sürən düşmənçilik tarixini qapatmaqda maraqlı olduğunu göstərə, özünə inam və etimad yarada bilər. Bundan başqa, dəhliz Cənubi Qafqaz regionunda onu özünün də maraqlı olduğu müxtəlif fitnəkar əməllərə təhrik edən dövlətlərin təsirindən qurtara, Ermənistan üçün iqtisadi baxımdan olduğu kimi, siyasi baxımdan da həyati əhəmiyyət kəsb edə bilər. Dəhlizin açılması Ermənistanı 30 illik nəqliyyat və iqtisadi blokadadan çıxaracaq, bu ölkəyə xarici investisiya axını sürətləndirəcək.

Bilavasitə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvanı birləşdirəcək nəqliyyat kommunikasiyalarının açılması həm milli, həm regional, həm də beynəlxalq nəqliyyat əlaqələrinin inkişafında mühüm rol oynayacaq. Bizim ölkəmiz üçün bu dəhliz, ilk növbədə, Azərbaycan torpaqlarını nəqliyyat kommunikasiyaları ilə birbaşa birləşdirmək baxımından çox əhəmiyyətlidir ki, bu da Naxçıvanda sosial-iqtisadi inkişaf tempinin bütövlükdə ölkə ilə həmahəng olmasına, Azərbaycan vətəndaşlarının rahat hərəkətinə imkan verəcəkdir. Bu dəhliz Naxçıvanın bütövlükdə ölkəmizin iqtisadi sisteminə daha sürətli inteqrasiyasını, muxtariyyətin iqtisadiyyatının Azərbaycan iqtisadiyyatına dekvat inkişaf tempinə nail olunmasına gətirib çıxaracaqdır. Bundan başqa, dəhlizin açılması ilə Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat qovşaqlarının əsas tranzit ölkələrindən birinə, Naxçıvan ərazisi isə mühüm beynəlxalq logistika mərkəzinə çevrilə bilər.

Digər tərəfdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: "...Biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu keçəcək, həm avtomobil yolu keçəcək. Bizim planımızda var, gələcəkdə oradan Naxçıvana elektrik xətləri çəkilsin. Çünki bizim elektrik enerjisi ilə bağlı çox böyük ixrac planlarımız var" [Müsahibə, 12.01.2022]. 2022-ci il iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula von der Lyayenin Bakıda imzaladıqları "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı (Aİ) ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nu və dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Avropa Komissiyası Prezidentinin iştirakı ilə

imzalanan yaşıl enerji sahəsində tərəfdaşlığa dair Buxarest Sazişi bu planların çox da uzaq perspektivdə olmadığını təsdiqləyir.

Regional baxımdan da Zəngəzur dəhlizi böyük əhəmiyyətə malikdir. Təbii ki, bu əhəmiyyət, bütün digər səviyyələr (beynəlxalq, yerli) üzrə olduğu kimi, regional səviyyədə də, ilk növbədə, özünü iqtisadi sahədə büruzə verir. Dəhliz çox böyük turizm potensialına malik Cənubi Qafqaz regionunda bu sahənin (məsələn, region əcnəbi ölkələrdən olan turistlər üçün daha əlçatan olacaq və səfərlər ucuz başa gələcək) də inkişafında mühüm rol oynayacaq. Həmçinin, uzun illər ərzində region dövlətləri arasında normal əlaqələr olmadığından mümkünsüz hala gəlmiş Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya, Ermənistan və İran arasında insanların və yüklərin qarşılıqlı rahat daşınmasını təmin edəcəkdir.

Bundan başqa, şübhəsiz ki, region ölkələrinin ikitərəfli əlaqələrində də dəhliz çox mühüm yer alacaq. Məsələn, Türkiyə ilə Rusiya arasında ticarət dövriyyəsinin 2021-ci ildə 35 milyard olduğunu, 2022-ci ilin sonunda isə 50 milyard dolları ötdüyünü, yaxın perspektivdə tərəflərin bu göstəricini 100 milyard dollara çatdırmaq niyyətlərinin olduğunu nəzərə alsaq, o zaman bu dövlətlərin öz məqsədlərinə nail olması üçün də Zəngəzur dəhlizi çox böyük əhəmiyyət kəsb edir. Bu cür məsələlər digər region ölkələrinin ikitərəfli iqtisadi münasibətləri üçün də aktualdır.

Bu baxımdan, dövlət başçımızın Zəngəzur dəhlizinin açılması istiqamətində göstərdiyi qətiyyət Ermənistanın səylərinin son nəticədə iflasa uğrayacağına əminlik yaradır: "Ermənistan bundan boyun qaçırmaq istəyir, faktiki olaraq, üzərinə götürdüyü öhdəlikləri iki ildən çoxdur ki, yerinə yetirmir. Ancaq bu, bizi dayandırmayacaq. Yəni bizim üçün bu, strateji layihədir və təkcə bizim üçün yox, bir neçə qonşu ölkə üçün və böyük coğrafiya üçün" [Müsahibə, 10.01.2023].

Dəhlizdən perspektivdə İran vasitəsilə Yaxın Şərq ölkələri də istifadə edə bilərlər. Söhbət burada həm də Fars körfəzi ölkələri və hətta Afrika ölkələrindən, ilk növbədə, Misirdən gedir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən 32 il sonra ilk dəfə Misir prezidentinin 2023-cü ilin yanvar ayında Azərbaycana baş tutmuş səfəri Şimali Afrika ölkəsinin Azərbaycan dövlətinin getdikcə artan nüfuzuna, bir sıra sahələrdə (enerji, nəqliyyat, beynəlxalq terrorizmə qarşı mübarizə və s.) regional və qlobal aktor kimi oynadığı rola verdiyi qiymətin göstəricisi sayılmalıdır. Misirin gələcəkdə Zəngəzur dəhlizinə qoşulması ilə bu strateji dəhlizin coğrafi sərhədləri daha da genişlənərək, qlobal nəqliyyat xarakteri simasını daha da gücləndirəcəkdir.

Lakin Afrikasız belə Zəngəzur dəhlizi Avropa ilə Asiyanı birləşdirən ən optimal istiqamətlərdən biri kimi beynəlxalq əhəmiyyətə malik olacaqdır. Hələ 2021-ci il aprelin 26-da BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda təqdim edilən çıxışında cənab İlham Əliyev Zəngəzur dəhlizi məsələsində şərq ölkələrinin diqqətini cəlb edərək deyirdi: "Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi

mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm".

Dəhlizin daha bir beynəlxalq əhəmiyyəti, şübhəsiz ki, ümummilli amillə bağlılığı – türk dövlətləri coğrafiyasının kəsintisiz nəqliyyatla birləşməsi olacaqdır. Bu hadisə bir tərəfdən türk dövlətləri arasında iqtisadi əməkdaşlıq məsələlərinin, sosial-mədəni inteqrasiyanın sürətlənməsinə səbəb olacaq, digər tərəfdən, böyük türk dünyasının məhz Azərbaycan vasitəsilə vahid coğrafi məkanda birləşməsinə və bundan sonrakı dövr üçün bütöv coğrafiya şəklində daimi mövcudluğuna gətirib çıxaracaqdır. Bu amili yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2021-ci il martın 31-də videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşündə demişdir: "Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli bəyanatda, xüsusilə bu məsələnin əks olunması bizim eyni zamanda böyük siyasi qələbəmizdir... Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq".

Türk dövlətlərinin ümumi xarici ticarət dövriyyəsinin həcmi təxminən 900 milyard dollara bərabərdir. Bunun təxminən 5 faizi, yəni 45 milyard dolları Türk dövlətlərinin öz aralarında apardığı ticarət əməliyyatlarının payıdır. Türk dövlətlərinin ümumi ticarətinin coğrafiyası isə Rusiya, MDB ölkələri, Türkiyə, Çin, Koreya, Yaxın və Orta Şərq ölkələri və Avropa dövlətlərini əhatə edir. Həmin coğrafiyanın əsas kəsişmələri isə hazırda formalaşan Yeni İpək Yolu dövlətlərinin əhatə etdiyi ərazilərdir ki, burada da əsas tranzitlər birbaşa türk dövlətlərini əhatə edir. Yəni, bu o deməkdir ki, azad gömrük və ticarət platformasının qurulması sayəsində Türk dövlətləri Asiya və Avropa regionundakı bütün tranzit-magistral yolların kəsişməsində dominant mövqe tutmaqla böyük bir ticarət xəritəsi qurmaq imkanındadır. Daha da sadələşdirsək, türk dövlətlərinin 900 milyard dollar həcmindəki dövriyyəsinin ən azı 10-15 faizi, yəni 100 milyard dolları öz aralarında bölüşdürülə bilər [Preferensial Saziş, 10.07.2023].

Qeyd edək ki, Türkiyə istisna olmaqla, Türk Dövlətləri Təşkilatının (TDT) üzvü olan bütün türk dövlətləri öz aralarında azad ticarət sazişləri imzalayıblar. Azərbaycanla Türkiyə arasında isə 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" – 2021-ci il martın 1-də qüvvəyə minib (Preferensial Ticarət Sazişi). Nəticədə 2022-ci ildə Azərbaycanla Türkiyə arasında əmtəə dövriyyəsinin həcmi artaraq, 5 milyard 842 milyon dollara bərabər olub (Xarici Ticarətin Gömrük Statistikası, 01.01.2022-31.12.2022). Gözlənilən dir ki, Türkiyə yaxın gələcəkdə digər türk dövlətləri analoji preferensial ticarət sazişləri imzlayacaq və ümumiyyətlə, perspektivdə prefernsial sazişlər azad ticarət haqqında sazişlərlə əvəz olunacaq. Yeri gəlmişkən, özünü türk dövlətləri ailəsinin üzvü hesab edən Pakistanın bu ticarət zəncirinə qoşulması isə dövriyyəni daha da böyüdəcək. Belə ki, Pakistan preferensial saziş imzalamaq üçün Azərbaycanın təşəbbüsünü tam dəstəkləyib.

2022-ci il noyabrın 11-də "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Səmərqənd Bəyannaməsi imzalanıb. Türk dövlətləri çoxtərəfli çərçivədə əməkdaşlığı daha da genişləndirmək məqsədilə ticari-tranzit şəbəkələrini birləşdirmək niyyətindədir. Bu çoxşəbəkəli tranzit

ailəsinə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılması, Avropa və Asiya arasında daha yaxşı nəqliyyat bağlantılarının genişləndirilməsi, Orta və Mərkəzi Asiya arasından yeni magistralların birləşdirilməsi və nəhayət, Zəngəzur dəhlizinin tezliklə açılması daxildir. Xüsusilə də daşınmalarda açar qapılardan hesab edilən Zəngəzur dəhlizi həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərinin kəsişdiyi qovşaq olmaqla türk dövlətləri arasında nəqliyyat arteriyası kimi hər bir ölkənin orta maraq və prinsiplərinə xidmət edir [Preferensial Saziş, 10.07.2023].

Ərazisi 4,8 milyon kvadratkilometrə, əhalisi 175 milyon nəfərə çatan türk dövlətləri artıq Çin sərhədlərindən Balkan yarımadasında Aİ sərhədlərinədək yalnız vahid siyasi coğrafiyaya deyil, eyni zamanda, nəhəng bir vahid iqtisadi məkana çevrilməkdədir. Bu məkanın təbii sərvətləri və iqtisadi resursları böyük və zəngindir. Şübhəsiz, Türkiyə iqtisadi potensialına, müasir sənaye inkişafına görə TDT-də lider mövqeyə malikdir: bu ölkənin 2022-ci ildə illik ÜDM-i 905 milyard dollar təşkil etmişdir. Qazaxıstanda bu rəqəm 220, Azərbaycanda 80, Özbəkistanda 80, Türkmənistanda 46 milyard və Qırğızıstanda 11 milyard dollar nominal ÜDM istehsal olunub. Ümumilikdə, Türkdilli ölkələr 1 trilyon 350 milyard nominal ÜDM-ə malikdir [Preferensial Saziş, 10.07.2023]. TDT-nin üzv dövlətlərin ümumi ticarət dövriyyəsi 1,2 trilyon ABŞ dolları olmaqla, dünya üzrə müvafiq göstəricinin 2,4 faizini təşkil edir.

Beləliklə, Azərbaycanın təşəbbüskarı olduğu bir çox layihələrin, xüsusilə, Orta Dəhliz layihəsinin mühüm həlqəsinə çevriləcək Zəngəzur dəhlizi Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsinin mühüm strateji hissəsinə çevriləcək. Artıq "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çinin iştirakı ilə Yaxın və Orta Şərq regionlarında iri infrastruktur layihələri həyata keçirilməkdədir. Başqa sözlə, Zəngəzur dəhlizi lokal, milli, regional və qlobal səviyyələrdə rentabelli nəqliyyat kommunikasiyası kimi bütün istifadəçi ölkələr üçün yalnız fayda gətirəcəkdir.

Lakin bir tərəfdən digər ölkələr də öz ərazilərinin beynəlxalq nəqliyyat qovşağına çevrilməsinə çalışır, digər tərəfdən isə böyük dövlətlər bir-biri ilə beynəlxalq rəqabət müstəvisində yeni nəqliyyat dəhlizləri axtarışındadırlar. 2023-cü ilin mayında ABŞ, Səudiyyə Ərəbistanı, Hindistan və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) yüksək səviyyəli nümayəndələri Yaxın Şərq və Hindistan arasında multimodal nəqliyyat dəhlizinin yaradılması imkanlarını müzakirə ediblər. Bu iddialı infrastruktur layihəsinin məqsədi Şərqi Aralıq dənizi və Fars körfəzi ölkələrini Hindistanla birləşdirəcək dəmir yolu-dəniz yolu dəhlizinin yaradılmasıdır. Bu layihənin ideyası Çinin "Bir kəmər və yol" təşəbbüsünə alternativ olaraq ABŞ, BƏƏ, Hindistan və İsrailin daxil olduğu I2U2 qrupu tərəfindən irəli sürülüb. Plan Yaxın Şərqdə Fars körfəzindəki limanlara çıxışı olan dəmir yollarının tikintisini və Hindistana dəniz nəqliyyatı dəhlizinin yaradılmasını nəzərdə tutur.

2023-cü il sentyabrın 9-da G-20 ölkələrinin Hindistanın Yeni Delhi şəhərində keçirilən növbəti sammiti çərçivəsində ABŞ, Səudiyyə Ərəbistanı, Aİ, BƏƏ və digərləri dəmir yolları, limanlar, enerji və məlumat şəbəkələri, hidrogen boru kəmərlərinin birləşdirilməsi təşəbbüsü ilə çıxış ediblər. Bu çərçivədə Avropanı, Yaxın Şərqi və Hindistanı birləşdirən, potensial geniş geosiyasi təsirlərlə ticarət əlaqələrini gücləndirən müasir ədviyyat marşrutunun yaradılması üzrə iddialı planlar açıqlanıb. Təşəbbüs

müəllifləri ümid edirlər ki, bu, Hindistanın timsalında 1,4 milyardlıq nəhəng bazarı Qərb ölkələri ilə inteqrasiya etməyə, Çinin dəbdəbəli infrastruktur xərclərinə qarşı tarazlıq təklif etməyə, Yaxın Şərq iqtisadiyyatını gücləndirməyə və İsrail ilə Körfəz ərəb ölkələri arasında münasibətləri normallaşdırmağa kömək edəcək. Təklif olunan layihələrdən birinin BƏƏ, Səudiyyə Ərəbistanı, İordaniya və İsrail də daxil olmaqla, Yaxın Şərqdəki dəmir yolu və liman qurğularını birləşdirəcəyi və Hindistan və Avropa arasında ticarəti 40 faizə qədər sürətləndirəcəyi gözlənilir.

Lakin bu il oktyabrın 7-dən İsraillə Fələstin arasındakı onsuz da müsbət və sabit olmayan münasibətlərin yeni fəal hərbi qarşıdurma fazasına keçməsi və bununla da bir sıra müsəlman ölkələri ilə İsrail və onun müttəfiqi olan ABŞ arasındakı münasibətlərdə yaranan gərginlik I2U2 qrupunun dəhliz təşəbbüsünün perspektivini şübhə altına alır. Bu baxımdan nəqliyyat kommunikasiyaları üçün çox əlverişli coğrafiyada yerləşməsindən əlavə, Azərbaycan hər hansı digər beynəlxalq layihə müəllifi olan ölkədən daha cəlbedici təkliflərlə çıxış edir: uzunmüddətli siyasi sabitlik, mükəmməl qanunvericilik bazası, təhlükəsizliyə verilən zəmanətlər, optimal qiymətlər, keçid prosedurlarının sadəliyi, məsafənin qısalığı, relyefin əsasən düzən olması və s. [Abdalov, 2023]. Buraya, əlbəttə, TDT-nin əhatə etdiyi nəhəng coğrafi məkanda hər hansı etnik, siyasi və s. münaqişə ehtimalının olmadığı, davamlı sabitliyin hökm sürəcəyi barədə əminliyi də əlavə etsək, Zəngəzur dəhlizinin perspektivdə ən yaxşı nəqliyyat alternativlərindən biri kimi çıxış edəcəyi, şübhəsizdir. Nəzərə alsaq ki, Azərbaycan Zəngəzur dəhlizi ilə bağlı əhəmiyyətli enerji ixracı planlarına malikdir, o zaman dəhlizin həm iqtisadi, həm strateji əhəmiyyəti onu alternativsiz layihəyə çevirir.

Günümüzün reallıqlarından çıxış edərək, qeyd edək ki, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşən Azərbaycan nəqliyyat kommunikasiyaları baxımından özünün bütün qonşuları ilə güclü münasibətlər qura bilib. Əlbəttə, məlum təcavüzkar mövqeyinə görə Ermənistan istisnadır. Lakin 2020-ci ildə baş vermiş Vətən müharibəsindən sonra Ermənistan üçün də Azərbaycanla qarşılıqlı səmərəli münasibətlər qurmaq, başqa sözlə, regional və beynəlxalq iqtisadi əməkdaşlığa ölkəmizin müəllifi olduğu layihələr üzrə inteqrasiya olunmaq perspektivi yaranıb. Bu perspektivin necə qiymətləndirilməsi isə, bu ölkənin yaxın gələcəkdə atacağı addımlardan asılı olacaq.

Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibəsində (2023, 24 iyul) dediyi fikirlər əlamətdardır: "Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir. Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi. Prioritet qonşu ölkələrlə qarşılıqlı maraq üzərində daha güclü münasibətlər qurmaq idi".

ƏDƏBİYYAT

1. Abdalov, N. (2023). Orta Dəhliz – qlobal nəqliyyat layihəsi, 24 avqust 2023-cü il, https://respublika-news.az/news/orta-dehliz-qlobal-neqliyyat-layihesi, baxılıb: 11.11.2023

2. Abdullayev, M. (2022). Orta Dəhlizdə ortaq maraqlar, 4 avqust 2022-ci il, https://www.yeniazerbaycan.com/Gundem_e72595_az.html, baxılıb: 11.11.2023
3. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi, (Preferensial Ticarət Sazişi), https://e-qanun.az/framework/45319, baxılıb: 25.10.2023
4. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası, Hesabat dövrü: 01.01.2022-31.12.2022, www.customs.gov.az, baxılıb: 25.10.2023
5. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı, (Üçtərəfli Bəyanat), 10 noyabr 2020-ci il, https://president.az/az/articles/view/45923, baxılıb: 11.10.2023
6. Bayramov V. (2023). Bakı–Tbilisi–Qars: Şərqlə Qərb arasında "Dəmir İpək yolu", 12 avqust 2023-cü il, https://xalqqazeti.az/az/iqtisadiyyat/135151-bakitbilisiqars-serqle-qerb-arasinda-demir, baxılıb: 11.11.2023
7. Cəfərli E. (2023). Zəngəzur dəhlizi Naxçıvanı beynəlxalq logistika mərkəzinə çevirəcək, 10 fevral 2023-cü il, https://serqqapisi.gov.az/xeberler/zengezur-dehlizi-naxcivani-beynelxalq-logistika-merkezine-cevirecek-1, baxılıb: 11.11.2023
8. Hacızadə E.M. (2013). Azərbaycanın dəmir yolu nəqliyyat sistemi: infrastruktur təminatlar və tranzit potensialı, 27 avqust 2013-cü il, http://hajizada.com/az/article-view/7/1065/, baxılıb: 11.11.2023
9. İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib (Müsahibə), 24 iyul 2023-cü il, https://president.az/az/articles/view/60572, baxılıb: 11.11.2023
10. İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib, (Müsahibə), 12 yanvar 2022-ci il, https://president.az/az/articles/view/55243, baxılıb: 11.11.2023
11. İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib, (Müsahibə), 10 yanvar 2023-cü il, https://president.az/az/articles/view/58555, baxılıb: 11.11.2023
12. Kreml. Heydər Əliyevin kölgəsində qalan Qorbaçovla Rıjkov, şəxsi həkimin etirafları, "Zəngəzur dəhlizi" planı – Xüsusi Reportaj, 10 may 2023-cü il, https://apa.az/az/domestic-policy/kreml-heyder-eliyevin-kolgesinde-qalan-qorbacovla-rijkov-sexsi-hekimin-etiraflari-zengezur-dehlizi-plani-xususi-reportaj-764039, baxılıb: 11.11.2023
13. Preferensial Saziş – Türk dövlətlərinin yeni azad gömrük ittifaqının təməlidir, (Preferensial saziş), 10.07.2023, https://faktyoxla.az/az/news/view/2489/ preferensial-sazis-tuerk-doevletlerinin-yeni-azad-goemruek-ittifaqinin-temelidir, baxılıb, 10.11.2023
14. Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi, (Müsahibə), 22 iyul 2021-ci il, https://president.az/az/articles/view/52522, baxılıb: 11.11.2023
15. Zəngəzur dəhlizi Türkiyə və Azərbaycana nə verəcək? https://zengezur.com/index.php/kh-b-rl-r/311-z-nzh-zur-d-hlizi-turkiy-v-az-rbaydzana-n-ver-dz-k, baxılıb: 11.11.2023
16. Макроэкономическая статистика по странам, https://take-profit.org/statistics/, baxılıb: 12.11.2023

SUMMARY

Elman Jafarli

ZANGAZUR CORRIDOR: INTERNATIONAL AND STRATEGIC ASPECTS

In the autumn of 2020, Azerbaijan defeated Armenia in the 44-day Patriotic War and ended the 30-year occupation. This war did not result only in ensuring the territorial integrity of Azerbaijan. At the same time, it created new geopolitical realities in the South Caucasus region. In addition to a number of issues, the opening of the transport corridor connecting the western regions of Azerbaijan and the Nakhchivan Autonomous Republic was reflected in the November 10, 2020 Tripartite Declaration that ended the war. In other words, the opening of the Zangezur corridor is of strategic importance for Azerbaijan as the restoration of historical justice. In the political lexicon, the transport corridor, named Zangezur corridor, will not only play the role of communication uniting the territories of Azerbaijan in the future, but will also have an important economic importance. This importance will manifest itself at the national, regional and global levels. The Zangezur corridor will restore economic-commercial, transport-communication relations between the states of the region. The corridor will accelerate the transformation of the Turkish states into a single geographical, political and economic space. Finally, it will become an important junction of international transport routes passing through the South Caucasus. The possibilities of the corridor, which will form an important link of transport communication between Asia and Europe, can benefit from the opportunities of the Middle East and even the northern countries of Africa in the future. Transport communications that will pass through the territory of the Turkish states will be roads that have no alternative in the world in terms of security. In this sense, the Zangezur corridor will occupy an important place in the completion of that communication. The corridor, which is envisaged as air, rail and road, will also have great geographical, economic and strategic importance for the export of green energy.

Key words: *Azerbaijan, Patriotic war, Zangezur corridor, Turkish states, transport communications*

İRƏVAN AZƏRBAYCAN ƏDƏBİ MÜHİTİNİN REPRESSİYA VƏ DEPORTASİYASI

Tahirə MƏMMƏD
tahire.mammed@yahoo.com
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

İrəvan Azərbaycanın tarixi, coğrafi və ənənəvi mədəniyyətinin yaranıb inkişaf etdiyi məkanlardan biridir. Onu digər ərazilərimizdən fərqləndirən başlıca cəhət odur ki, əsrlərcə orada hakim olan Azərbaycan milli kimliyi mənfur düşmənlər tərəfindən fiziki olaraq məhvə uğradılmışdır. Məruzədə XIX əsrdən başlayaraq azərbaycanlıların tarixi vətənlərindən deportasiyasının sovet dövründə də davam etməsi və bunun ədəbi mühitin get-gedə zəifləməsinə səbəb olması və sonlandırılması araşdırılır. İrəvanda Azərbaycan ziyalıları müxtəlif mərkəzlərdə bir araya gəlir, yaradıcılıqla məşğul olur, xalqın digər təbəqələri və Azərbaycan Respublikası ilə əlaqələr saxlayırdılar. Yaradıcı şəxslərin birlikdə fəaliyyət göstərdiyi yerlər əsasən 1924-cü ildən yaranan Pedaqoji texnikum, "Qızıl şəfəq", sonralar "Sovet Ermənistanı" qəzeti, Azərbaycan teatrı və Ermənistan Yazıçılar İttifaqının Azərbaycan bölməsi idi. Tədqiqatda Azərbaycan ziyalılarının, xüsusən də xalqa təsir gücü daha artıq olan söz sahibi şair və yazıçıların İrəvanda məruz qaldığı təqiblər və onların çətin şəraitdəki yaradıcılıqları araşdırılıb. Ermənistan Yazıçılar İttifaqının Azərbaycan bölməsinə yaranandan sonadək ona kimlərin rəhbərlik etdiyi göstərilmiş və onların bədii, ictimai fəaliyyəti haqda məruzədə məlumat verilmişdir; bölməyə uzun müddət rəhbərlik edən Əkbər Yerevanlı və Hidayət Orucovun yaradıcılığı üzərində ayrıca dayanılmışdır.

Məruzədə belə bir fikir diqqət mərkəzində saxlanılır ki, İrəvanda yaradıcı Azərbaycan ziyalıları daima siyasi təqiblərə məruz qalıblar. "Türksüz Ermənistan" yaratmaq istəyən və bunu planlı şəkildə həyata keçirən hakimiyyət ilk növbədə ziyalıları hədəf alırdı. Dəyişilən hər mərhələdən öz xeyrinə faydalanan erməni şovinistləri SSRİ-nin dağıldığı dövrdəki xaosdan istifadə edərək azərbaycanlıların zaman-zaman davam edən deportasiyasını yekunlaşdırdı və bu həm də İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin deportasiyası oldu.

Açar sözlər: *ədəbi mühit, İrəvan, Qərbi Azərbaycan, kütləvi deportasiya, sovet hakimiyyəti*

Giriş

Qərbi Azərbaycanla bağlı aparılan hər bir tədqiqat elmi-strateji əhəmiyyət kəsb edir. Beynəlxalq aləmdə azərbaycanlıların zaman-zaman öz tarixi vətənlərindən məcburən çıxarılması, sürgün olunması faktlarına göz yumulur. Bizim ərazilərimizdə qurulan Ermənistan dövləti azərbaycanlıların izlərini silmək üçün hər cür vandallığa əl atır, belə bir rəy formalaşdırmağa çalışırlar ki, onlar öz tarixi vətənlərində yaşayırlar. İrəvanda, bir vaxtlar xanlıqlarımızdan birinin mərkəzi olan, indi isə heç bir azərbaycanlının yaşamadığı şəhərdə Azərbaycan ədəbi mühitinin keçdiyi tarixi mərhələlər və onun mövcudluğunun necə sonlandırılması xalqımızın tarixi vətənindəki taleyi ilə paralellik təşkil edir. XIX əsrdən başlayaraq Qərbi Azərbaycan vətəndaşlarının deportasiyası sovet dövründə də davam etmiş və bu ədəbi mühitin get-gedə zəifləməsinə səbəb olmuşdur. 80-ci illərin sonunda azərbaycanlıların kütləvi deportasiyası nəticəsində ermənilərin məkrli planları

gerçəkləşdi. Qərbi Azərbaycan torpaqlarından təkcə xalqımız yox, ədəbiyyatımız, mədəniyyətimiz də deportasiya olunub çıxarıldı. Arzuladıqları nəticəyə nail olana qədər ermənilər, onların beynəlxalq səviyyədə şəbəkələşmiş havadarları ardıcıl, sistemli və insanlığa yaraşmayan əməllər gerçəkləşdirdilər. Bu prosesin öyrənilməsi, Azərbaycanda və beynəlxalq səviyyədə təbliği, yayılması mühüm aktuallıq kəsb edir.

İrəvanda Azərbaycan ədəbi mühitinin tədqiqi çox təəsüf ki, arzuolunan səviyyədə deyil. Bu sahədə tarixçi professor İsrafil Məmmədov, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa, flologiya elmləri doktoru Ziyəddin Məhərrəmov, ədəbiyyatşünas alim Cəlal Allahverdiyev ardıcıl tədqiqatlar aparsalar da, bu azlıq təşkil edir. Yerevan ədəbi mühitinin təmsilçilərinin qarşılaşdıqları çətinliklər, onların həyat və yaradıcılıqları, çətin şəraitdə apardıqları mübarizə haqda məlumatlar çox azdır. Onlara Azərbaycan ədəbiyyat tarixlərində, demək olar ki, yer ayrılmır. Azərbaycanın görkəmli ziyalıları, eyni zamanda ədəbiyyat xadimləri–Sabir Rzayev, Əkbər Yerevanlının yaradıcılıqlarının çiçəkləndiyi bir dövrdə gözlənilməz ölümləri, Cabbar Bağçaban, Teymur Əhmədov, Mirali Seyidov, İsrafil Abbasov, Hidayət Orucov və başqalarının məruz qaldıqları təqiblər, İrəvandan uzaqlaşma səbəbləri araşdırılmalı və nəticələr ictimaiyyətə çatdırılmalıdır.

Əsas hissə. XX əsrin ilk iki on ili ərzində baş verən iki erməni-türk qarşıdurması Qərbi Azərbaycan əhalisinin kütləvi qırğını və çox sayda soydaşımızın torpaqlarını tərk etməsi ilə nəticələnmişdir. 1918-1920-ci il hərbi münaqişəsindən sonra sovet hakimiyyətinin ilk illərində azərbaycanlıların İrəvanda yaşayıb fəaliyyət göstərməsi üçün nisbi sakitlik yarandı. Şəhərdən köç edənlərin bir qismi geri döndü və müxtəlif qurumlarda təşkilatlanıb fəaliyyətə başladılar. Azərbaycan mətbuatının (Zəngi qəzeti - 1924), Pedaqoji texnikumun (1924) yaranması İrəvan ziyalı mühitində birlik yaratmağa yardım etdi. 1927-ci ildə "Ermənistan Proletar yazıçıları" cəmiyyətinin nəzdində yaradılan Azərbaycan bölməsi ədəbi fəaliyyətin inkişafı istiqamətində atılan uğurlu bir addım idi. "Bölmə Əsgər Əsgərzadənin rəhbərliyi altında fəaliyyətə başlamışdı" (3,105). Əsgər Əsgərzadə həm də Pedaqoji texnikumda ana dili müəllimi idi. "Texnikumun direktoru Mehdi Kazımov, ictimaiyyət müəllimi Bala Əfəndiyev, ana dili müəllimi Əsgər Əsgərzadə, təbiət müəllimi Cəmil Əliyev olmuşdur" [2].

"1927-ci ildən başlayaraq Nəriman Fəxri, Abbas Tahir, Abbas Azəri, Əbülfət Rəhimov, Əşrəf Bayramov, Adil Axundov, Telman Nəzərli, Teymur Əhmədli, Yusif Rizayi, Əkbər Həsənov, Bəhlul Mamedov, Əbülfət İbrahim, Cəlal Sərdar, Əli Şahin, Əli Əliyev, İslam Süleymanov, Sona Bağırova, Foqiyə Kəngərli və başqaları İrəvanda Azərbaycan poeziyasının aparıcı qüvvələri idilər. Bu işdə onlara Bala Əfəndiyev, Mehdi Kazımov, Mustafa Hüseynov və digər azərbaycanlı ziyalılar yaxından kömək edirdilər" [4].

Başqa yerlərdə olduğu kimi, İrəvanda da yazıçıların qarşısına qoyulan əsas vəzifə öz yaradıcılıqları ilə Sovet quruluşuna xidmət etmək idi. İrəvandakı Azərbaycan yazıçıları həm bolşevizmin, həm də erməni şovinizminin təqibi ilə üz-üzə qalmışdı. Çoxmillətli dövlət olan Sovet hakimiyyəti üçün xalqlararası açıq münaqişələr arzuedilən deyildi. Bu mənada artıq İrəvanda etnik azlığa çevrilmiş azərbaycanlıların öz yaşayışlarını davam etdirməsi baxımından yeni quruluşun faydası da var idi. Lakin onu da unutmaq olmaz ki,

İrəvandan azərbaycanlıların etnik təmizlənməsi, erməni əhalinin sayının artırılması, hakim xalqa çevrilməsi də o vaxtkı siyasi rejimin maraq dairəsində idi; bu mənada SSRİ MK çarizmin varisi idi. İrəvanda azərbaycanlı əhalinin sayı azaldılsa da, bir çox rayonlarda hələ ki, onların üstünlüyü davam edirdi. Azərbaycan ziyalılarının mütəşəkkil fəaliyyəti nə ermənilərin, nə də onların havadarlarının gələcək planlarına uyğun deyildi. Ona görə də mümkün qədər maneələr yaratmağa çalışırdılar. Yeri gəldi-gəlmədi Azərbaycan yazıçılarının əsərlərinin zəifliyindən bəhs edir, mühüm tədbirlərdə onlara ögey münasibət bəslənilir, əsərlərinin çapına, xalqla əlaqələrinin inkişafına əngəllər törədirdilər. Azərbaycan bölməsinin normal fəaliyyət göstərməsi üçün onlara yer belə ayrılmamışdı.

Yarandığı vaxtdan, 1927-ci ildən 1934-ə qədər bölmənin məsul katibliyi vəzifəsi bir neçə dəfə dəyişdirilmişdi. "Türk bölməsinin ilk məsul katibi Əsgər Əsgərzadə olmuş, sonra isə bu işə Rza Vəlibəyov, Əhməd Əhmədov, Əbülfət Rəhimov, Mehdi Kazımov, Nəsib Əfəndiyev rəhbərlik etmişlər" [3,109]. Bəzi mənbələrdə ilk məsul katibin Nəsib Əfəndiyev olduğu qeyd edilir. Lakin 1927-ci ildən yaranan bölmənin, sözsüz ki, 1934-cü ilə qədər də katibi və ya katibləri olmuşdur. Nəsib Əfəndiyevdən sonra isə Əkbər Yerevanlı, Hidayət Orucov uzun müddət həmin vəzifəni tutublar.

Azərbaycan Yazıçılar bölməsində olduğu kimi İrəvan teatrının da rəhbərləri tez-tez dəyişdirilir, kollektiv daxilində intriqalar salınır, teatr üçün bina ayrılmırdı. Bundan əlavə, 20-ci illərdə yaradılan İrəvan Türk Pedaqoji və Kənd Təsərrüfatı Texnikumlarının da fəaliyyətinə, normal iş rejiminə hər cür maneələr törədilirdi.Bütün bunlar hamısı İrəvanda Azərbaycan ziyalı mühitinin qarşısını almağa yönəldilmişdi.

"1945-ci ildə EŞYC-nin nəzdində yaradılmış azərbaycanlı yazarlar bölməsinin fəaliyyəti EK (b) P MK tərəfindən dayandırılmışdır. Azərbaycanlı ziyalıların Moskvaya etdikləri kəskin müraciətdən sonra 1946-cı ildə yenidən bərpa olunaraq fəaliyyətə başlamışdır" [3,115].

İrəvan-Azərbaycan şairlərinin repressiya ərəfəsi və repressiya illərində sovet hakimiyyətini tərənnüm və təbliğ edən yaradıcılıq nümunələrinə üstünlük verməsi bir tərəfdən ölkə üzrə yaşanan siyasi proseslərdən qaynaqlanırdısa, digər tərəfdən onların dövlətə erməni şovinizminə qarşı duran qüvvə kimi baxmalarından irəli gəlirdi. Doğrudur, həmin dövlət onların təhlükəsizliyini təmin etmədi, vətənlərini hissə-hissə əllərindən alıb istədiyi məskunlaşmanı gerçəkləşdirdi. Ancaq repressiya və təqiblərin qızğın vaxtında bu ikiqat təzyiqə baş qaldırmaq o qədər də asan deyildi. Repressiyanın türk xalqlarına qarşı daha kəskin şəkildə həyata keçirilməsi üçün xüsusi planlar həyata keçirən A.Mikoyanın dəstəyilə Azərbaycan ziyalıları İrəvanda xüsusi nəzarətdə saxlanılır, onların fərqlənənləri haqda danoslar və ideoloji mövqeyinə şübhələr oyadan məqalələr yazılırdı.

Azərbaycanlı şair və yazıçıların yaradıcılıq fəaliyyətinə törədilən maneələrdən biri kimi onların çap işinin qarşısının alınmasını göstərə bilərik. İrəvanda 1920-1950 –ci illər arasında çap olunan kitablara nəzər salsaq, onlar arasında kollektiv almanaxlar və az səhifəli kitabçalar aparıcı yer tutur. Almanaxlar da bir o qədər iri həcmli deyildi. Ədəbi mühitin təmsilçilərinin yaradıcılığı ilə müqayisədə çap olunan kitabların sayı (13 kitab)

çox az idi. Kitab çap etdirmək üçün azərbaycanlı müəlliflər illərlə gözləməli olurdular. Onların fəaliyyətsizliyi haqda rəy oyatmaq, Azərbaycan bölməsinin işinə xitam vermək, sosial varlıqlarının qarşısını almaq üçün düşünülmüş maneələrdən biri də kitab çapına imkan verməmək idi. Repressiya və Böyük Vətən Müharibəsi illərində Azərbaycan yazıçılarına aid heç bir kitab işıq üzü görməmişdir. Həmin illər yazıçılarımız yaradıcılıqlarını dayandırmamışdılar, yazıb yaradırdılar, sadəcə əsərləri çap edilmirdi. "Türk bölməsi tərəfindən hazırlanmış "Göyçə aşıqları", Nəsib Əfəndiyevin "Üçlər" romanı, Abbas Tahirin "Sona", Əbülfət İbrahimin "Bədii ədəbiyyat uğrunda", Abbas Azərin "Gülümsəyən şəfəqlər" və digər çapa verilmiş kitablar nəşr olunmamış, onların sonrakı taleyi isə məlum deyil" [3, 121].

İrəvanda, öz tarixi torpaqlarında Azərbaycan yazıçıları, ziyalıları təqiblərə məruz qalmalarına, Sovet dövlətinin mərkəzi hakimiyyəti də maraqlı idi və burada razılaşdırılmış siyasət yürüdülürdü. Ziyalılarımızın, xalqımızın Ermənistanda təzyiqlərə məruz qaldığı vaxtdaAzərbaycanda onlara hər cür şərait yaradılırdı, mütəfəkkir, mübariz şairlərimiz təqib və repressiya olunur, erməni əsilli Aleksandr Şirvanzadəyə Xalq yazıçısı adı verilirdi. "Nəriman Nərimanov Moskvaya təyinat aldığı 1922-ci ildən Mir Cəfər Bağırovun hakimiyyətə gəldiyi 1933-cü ilə qədər Azərbaycan SSR-ni qısamüddətə də olsa, milliyyətcə azərbaycanlı olmayan şəxslər idarə edib. 1929-cu il avqustun 5-dən 1930-cu ilin avqustuna qədər isə Azərbaycan KP (b) MK-nın I katibi vəzifəsində Nikolay Gikalo, 1930-1933-cü illərdə isə milliyyətcə yəhudi olan Vladimir Polonski çalışıb. Bu səbəbdən A.Şirvanzadəyə Xalq yazıçısı adının hansı katibin zamanında verildiyini müəyyənləşdirmək çox çətin məsələdir.

Çünki Azərbaycan ədəbiyyatında adı belə qalmayan Şirvanzadəyə "Xalq yazıçısı" adı veriləndə Azərbaycan nəsrinin böyük ustadı Cəlil Məmmədquluzadə həyatda idi. Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli də sağ idi, ancaq onlara fəxri ad vermək heç kimin yadına düşməyib" [12].

Sovet dövründə xalqlar dostluğu ideologiyasını əsas tutub Azərbaycan-erməni ədəbi əlaqələrini tədqiq edərkən özü Ermənistanda hər cür çətinliklə qarşılaşan ziyalımız Aleksandar Şirvanzadə haqda yazır "öz həyat və yaradıcılığı ilə nə qədər ermənidirsə, bir o qədər də azərbaycanlıdır" [1]. Lakin son vaxtlar aydın olur ki, Aleksandr Şirvanzadə də şəraiti öz xeyrinə çevirməkdə, dəyişən mühitə uyğunlaşmaqda heç də öz soydaşlarından geri qalmamışdır. "A.Şirvanzadə XIX əsrin sonunda Türkiyədə yaranmış antimüsəlman, antitürk mövqeli məşhur "Qnçak" partiyasının üzvü olub və 1894-1896-cı illərdə guya Osmanlı ərazisində ermənilərə qarşı törədilən qırğınları pisləmiş, ermənilərə kömək çağırışıyla mətbuatda çıxış edib. Sonradan sovet hakimiyyətini alqışlayaraq Azərbaycana da sadiq bir yazıçı kimi qəbul edilmiş"dir [1].

Sovet hakimiyyətinin yeni qurulduğu Ermənistan ərazisində, o cümlədən İrəvanda yaxın zamanda azərbaycanlılar soyqırımına məruz qaldığından və gizli şəkildə erməni düşmənçiliyi yenə də davam etdiyindən soydaşlarımızın repressiya və təqibi 20-ci illərdən başlayır. Bu səbəbdən onlar son dərəcə ehtiyatlılıq göstərir, sosializmin tərifi, dini fanatizmin, köhnəlmiş hesab etdikləri ənənələrin tənqidi yaradıcılıqlarının əsas mövzusu olurdu. Aşağıda istinad kimi verdiyimiz nümunə də bu mənzərəni göstərir. "Ermənistan

türk proletar yazıçılarının şeir və hekayələrinin "Zərbə" məcmuəsi adı ilə 1931-ci ildə İrəvanda Dövlət nəşriyyatı tərəfindən buraxılmışdır. Məcmuədə Rza Vəlibəyovun müqəddiməsi ilə T.Abbasın, Ə.Bayramovun, Ə.Rəhimovun, S.Rəhimovanın, S.Bağırovanın, 8 Mart, kolxozçu qız, ölkəni, çar zamanı millətçilik, azadlıq, mövcud quruluşun özəlliklərini tərənnüm edən şeirləri, C.Kazımovanın "Pionerka Günəş". Əsgər Əsgərzadənin "Namus qurbanı", N.İsmayılovun "Muzdur Həmid", T.Nəzərlinin "Kolxozçu qızı Əminə", M.Muradovun "Xalqa" hekayələri nəşr edilmiş, şair və nasirlərin yaradıcılığının bədii istiqamətləri barədə söhbət açılmışdır. 1930-cu illərdə Ə.Əliyevin "Dəmir axın" adı ilə "Lagerə gedərkən", "Yeniliklər", "Yoxlanış", "Sabah", "Qadın", "Qoşma", "Biz kimlərik", "Komsomol Dilarə", "Qadın", "Zərbəçi qız", "İki şəkil" və sair şeirləri, firqə nəşriyyatı "Gənc səslər"toplusunda mədəniyyət və ədəbiyyat məsələlərinə dair dövlət rəhbərlərinin fikirlərini əks etdirən məqalələr, gənclərlə müsahibə, N.Əfəndiyevin, A.Azərinin, H.Həsənovun və başqalarının məqalə və digər janrlarda ədəbi-bədii yazılarını, Ermənistan Dövlət Nəşriyyatı A.Tahirin "İlham mənbəyi" şeirlər kitabını nəşr etmişdir" [13, 93].

Dövrü mətbuatda, almanaxlarda əsərləri çap olunan Abbas Tahir, Nəsib Əfəndiyev, Cəlal Sərdar, İnsaf Ağayeva, Teymur Əhmədov, Mirəli Seyidov, Abbas Azər, Əkbər Yerevanlı, Lətif Hüseynzadə, Adil Məmmədov, Əli Əliyev, Yusif Rizayi, Nəriman Fəxri, Ələşrəf Babayev, Mehdi Kazımov, M.Mübariz, M.R.Qafqaz, Ş.Qəmər, Z.Rüfət 30-50-ci illərdə imzaları tanınmış müəlliflər idi. Adı çəkilən müəlliflərdən bəziləri sonralar İrəvandan uzaqlaşıb fəaliyyətini Azərbaycanda davam etdirmişdi. İrəvan paytaxt şəhəri olsa da, orada Azərbaycanlılar arzuedilməyən insanlar durumuna düşmüşdülər, yaradıcılıqlarını inkişaf etdirməyə çətinlik çəkirdilər.

Qərbi Azərbaycan, Göyçə aşıq mühiti Azərbaycan mədəniyyətində müstəsna yerə malikdir. Aşıq yaradıcılığı ənənələri öz təsirini yazılı ədəbiyyata da göstərməkdə idi. İrəvan-Azərbaycan sovet dövrü şairlərinin yaradıcılığına nəzər saldıqda onların əsasən heca vəznində və aşıq şeiri tərzində yazdıqlarının şahidi oluruq.

İrəvan-Azərbaycan ədəbi mühitində XIX əsrdə və XX əsrin ilk oniliklərində şeir yaradıcılığı aparıcı yer tutsa da, sovet dövründə nəsr və dramaturgiya da inkişaf etməkdə idi.

Sovet dövründə Zaqafqaziya səviyyəsində İrəvanda keçirilən tədbirlərə, qurultay və toplantılara Azərbaycan nümayəndə heyəti tərkibində təmsil olunan şair və yazıçıların iştirakı, yerli müəlliflərlə görüşüb fikir mübadiləsi aparmaları yeni ədəbi mühitin inkişafında əhəmiyyətli rol oynayırdı. Bu şair və yazıçılara, ziyalılara misal olaraq "...Cəlil Məmmədquluzadə, H.Cavid, Ə.Haqverdiyev, C.Əfəndizadə, S.S. Axundov, İ.Əminbəyli, H.K.Sanılı, X.İbrahim, C.Cabbarlı, S.Rüstəm, S.Hüseyn, M.Müşfiq, A.Şaiq, Ə.Cavad, M.Rahim" [3,107] Əli Nazim, "Y.Çəmənzəminli, M.S.Ordubadi, Mehdi Hüseyn, M.Müşfiq, Sabit Rəhman, S.Vurğun, Mir Cəlal, S.Rüstəm, M.Rəfili" [3, 112] və başqalarının ayrı-ayrı tədbirlərlə əlaqədar iştirakı haqda məlumatlar var.

"SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında göstərilən illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan

ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur" [14, 91].

Bu, bütün xalqa, eyni zamanda, İrəvan ədəbi-ziyalı mühitinə vurulan yeni ağır zərbə idi. Şair və yazıçılarımız hər nə qədər təqiblərə məruz qalsalar da, onlar mətbuat orqanlarında və təhsil müəssisələrində görüşür, yaradıcılıq əlaqələri saxlayırdılar. Azərbaycan ziyalı mühitini dağıtmaq üçün 1948-1954-cü illərdə İrəvan Pedaqoji İnstitutunda Azərbaycan bölməsinin fəaliyyətinin dayandırılması [9, 7] ədəbi mühitə də öz zərərli təsirini göstərdi. Bölmənin yenidən fəaliyyəti şair və yazıçıların, ədəbiyyatşünasların yaradıcılıq əlaqələrinin güclənməsi üçün faydalı oldu.

Stalin rejiminin süqutu, sovet ədəbiyyatının 60-cılar mərhələsinin başlaması İrəvan-Azərbaycan ədəbi mühitində də müəyyən canlanma yaratdı. "Ədəbi Ermənistan" jurnalı Azərbaycanlı şairlərin əsərlərini, başqa dillərdən olan tərcümələrini çap edir, "Sovet Ermənistanı" qəzeti öz səhhifələrində ədəbiyyata xüsusi yer ayırırdı. Bu illərdə kitab çapı da əvvəlki illərə nisbətən xeyli artmışdı. "Sovet Ermənistanının Azərbaycan kitabında 1960-1985-ci illərdə İrəvanda Ermənistan Yazıçılar Birliyi tərəfindən Azərbaycan şair və yazıçılarının 50-yə yaxın kitabının çap olunması haqda məlumat verilmişdir" [8, 163].

Bu illərdə İrəvanda Yazıçılar Birliyinin Azərbaycan Bölməsinə ardıcıllıqla Əkbər Yerevanlı və Hidayət Orucov rəhbərlik etmişdir. Onların hər ikisi fəaliyyətləri dövründə əvvəlki illərdə ziyalılarımızın qarşılaşdığı çətinlikləri yaşamalı olmuşlar.

Yazıçılıqdan başqa həm də ədəbi əlaqələr sahəsində tanınmış alim olan Əkbər Yerevanlının Azərbaycan Bölməsi ilə bərabər 1956-cı ildən X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri də işləməsi gənc ədəbi qüvvələrin yaradıcılıq fəaliyyətinə cəlb olunmasına yol açırdı.

Əkbər Yerevanlı (1921-1981) İrəvanda doğulub, böyüyüb, fəaliyyət göstərmiş və orada dünyasını dəyişib şəhər qəbiristanlığında ata-anasının məzarı yanında dəfn olunmuşdur. "Qeyd edilməlidir ki, Əkbər Yerevanlının atası Yunis Nuri İrəvanda Azərbaycan teatrının banisi olmuş, 18 yaşından etibarən təqribən 50 il ərzində teatr kollektivinə rəhbərlik etmişdir. Yunis Nurinin oğlu Əziz Süleymanov 1967–1968-ci illərdə teatrın direktoru işləmişdir. 1984-cü ildən teatr bağlananadək Əkbər Yerevanlının oğlu Yunis Süleymanov İrəvan Azərbaycan Dövlət Dram Teatrının direktoru olmuşdur" [7]. Əziz Süleymanovdan sonra və Yunis Süleymanovdan əvvəl İrəvan teatrına Hidayət Orucov rəhbərlik etmişdir. Erməni şovinizminin ən kəskin vaxtlarında təqiblər üzündən 1984-cü ildə İrəvanı tərk etmək məcburiyyətində qalan Hidayət Orucovdan sonra da teatr, göründüyü kimi, bu ailənin təmsilçisinin rəhbərliyi ilə fəaliyyət göstərmişdir.

Əkbər Yerevanlının İrəvanda çap olunan son əsəri "Yunis Nuri" (Sabir Rzayevin həmmüəllifliyi ilə) atasının ömür yolu ilə bərabər, həm də İrəvan teatr tarixinin keçdiyi yolun mühüm bir dövrünü əks etdirmək baxımından maraqlı mənbədir.

Çox da uzun ömür yaşamayan Əkbər Yerevanlı Azərbaycan-erməni ədəbi əlaqələrinin tanınmış tədqiqatçısı idi. "Əmək fəaliyyətinə 1938-ci ildə İrəvanda Azəbaycan dilində nəşr edilən "Kommunist" (1939-cu ildən "Sovet Ermənistanı") qəzetinin redaksiyasında başlamış, ədəbi işçi, məsul katib, tərcüməçi vəzifəsində işləmişdir. 1951-ci ildə Ermənistan Elmlər Akademiyasının M.Abeğyan adına Ədəbiyyat İnstitutunun

aspiranturasına daxil olmuş, 1954-cü ildə "Erməni və Azərbaycan xalqlarının dostluq ideyasının ədəbiyyatda inikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1950-1965-ci illərdə İrəvan Dövlət Universitetində Azərbaycan ədəbiyyatı müəllimi olmuş, 1956-cı ildən X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri işləmişdir. Erməni və Azərbaycan qarşılıqlı ədəbi əlaqələri sahəsində ardıcıl tədqiqat aparmış, bir sıra erməni yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Onun erməni dilində "Erməni və Azərbaycan xalqlarının dostluğunun ədəbiyyatda inikası" (1955), "Cəlil Məmmədquluzadə və erməni xalqı" (1966), "Nəsimi" (1973), "Xatabala" həftəlik qəzeti və "Azərbaycan" (1974) kitabları çap olunmuşdur.

Əkbər Yerevanlının "Azəri–erməni ədəbi əlaqələri. Qədim dövrdən XVIII əsrin sonuna qədər" mövzusunda doktorluq dissertasiyası 554 səhifə həcmində monoqrafiya şəklində 1968-ci ildə İrəvanda "Hayastan" nəşriyyatında çap olunsa da, ömrünün sonuna kimi onu müdafiə etməyə qoymamışdılar" [7]. Əkbər Yerevanlının müdafiəsinə qarşı sədd yaradılmasının gerçək səbəbi, heç şübhəsiz ki, tədqiqatında yer verdiyi həqiqətlər idi. Əsrlər boyu türk-Azərbaycan mədəniyyətinin təsirində olub, ondan faydalananlar həqiqəti etiraf etməkdə və gerçəkləri üzə çıxaran ziyalıya haqqı olduğu adı verməkdə çətinlik çəkirdilər.

Əkbər Yerevanlı ilə "Yunis Nuri" kitabının müəllifi olan Sabir Rzayev də İrəvanın tanınmış ziyalılarından olmuşdur. "Sabir ziyalı ailəsində böyümüşdü. Atası görkəmli jurnalist və ictimai xadim kimi tanınmışdı. Qərbi Azərbaycanda milli professional Azərbaycan teatrı və maarif ocaqlarının yaradılmasında böyük işlər görmüş Əkbər Rzayev İrəvanda "Sovet Ermənistanı" və "Kommunist" (rusca) respublika qəzetlərinin redaktoru, müharibə illərində isə Moskvada "İnostrannaya literature" nəşriyyatının türk ədəbiyyatı redaksiyasının müdiri və başqa məsul vəzifələrdə çalışmışdı.

Anası Firəngiz xanım İrəvandakı Azərbaycan Teatrının ilk "qaranquşlarından" biri kimi, hələ 1922-ci ildə səhnəyə çıxıb" [5]. Ermənistan kinoşünaslığının əsasını qoyan S.Rzayev həm də ssenarist, dramaturq, tənqidçi, kimi fəaliyyət göstərmişdir. "O, 1954-cü ildə Leninqradda (Sankt-Peterburq) Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun aspiranturasını bitirdikdən sonra "Armenfilm" kinostudiyasında ssenari şöbəsinə rəhbərlik etmiş, Ermənistan Dövlət Kinematoqrafiya Komitəsində baş redaktor işləmişdir. 1965-ci ildən ömrünün sonunadək Ermənistan Elmlər Akademiyasının İncəsənət İnstitutunun direktor müavini və Ermənistan Kinematoqrafçılar İttifaqının idarə heyətinin katibi vəzifəsində işləmişdir" [11].

Əkbər Yerevanlıdan sonra Yazıçılar Birliyinin Azərbaycan bölməsinə rəhbərlik edən Hidayət Orucovun İrəvan-Azərbaycan mühitinin canlanmasında mühüm rolu olub. Özü fəal yaradıcılıqla məşğul olmaqla bərabər İrəvanda yazıb-yaradan azərbaycanlıların əsərlərinin çapına, teatrda tamaşaya qoyulmasına yaxından kömək edirdi. Hidayət Orucov Azərbaycan ədəbiyyatında 60-cılar nəslinə mənsubdur. O da əksər 60-cılar kimi həm şeir, həm nəsr, həm dramaturgiya sahəsində yaradıcılıqla məşğul olmuşdur. 60-cıların narahat dünyası İrəvanın siyasi-ideoloji mühitində qarşılaşdıqlarının təsirilə onda bir qədər niskilli və qayğılı şəkildə nümayiş olunur. Onun İrəvanda yaşayıb, yaratdığı, milli mövcudluğu qorumaq üçün çoxsahəli yaradıcılıq və ictimai fəaliyyətlə məşğul

olduğu illər tələtümlü bir mərhələyə təsadüf edir. Başlanan hər yeni mərhələni öz faydalarına çevirib, ondan bir şey mənimsəməyə çalışan ermənilər istər sovet hakimiyyətinin təməllərinin yavaş-yavaş laxladığı ərəfədə fürsətçilik edib milli münaqişəni qızışdırmaq, azərbaycanlıları tarixi vətənlərindən çıxarmaq üçün ziyalılar və onları birləşdirən təşkilatlar, qurumlar üzərində təzyiqi artırırdılar. Bunu o dövrdə İrəvanda yaşayıb hadisələrin şahidi olan və daha sonra doğma şəhərlərini tərk edən yazıçılarımızın xatirələrindən, bədii yaradıcılıqlarında ifadə etdikləri ağrılarından görmək olur. O cümlədən Hidayət Orucovun yaradıcılığında.

Hidayət Orucovun İrəvanın çətin şəraitində göstərdiyi fəaliyyəti Nizami Cəfərov belə qiymətləndirir. "Hidayətin istedadlı, qeyrətli bir insan olduğunu Ermənistanda Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin qorunub inkişaf etdirilməsində, gənc olmasına baxmayaraq, çox böyük işlər gördüyünü hələ o zaman yetmişinci illərdə və səksəninci illərin əvvəllərində onu az-çox tanıyanların hamısı etiraf edirdi. ... Hidayətin təbii, səmimi, yaradıcılığı arxasında dayanan möhkəm, qüdrətli şəxsiyyəti yalnız bədii deyil, eyni zamanda, ictimai-siyasi "mən"i hələ Ermənistanda yaşayıb fəaliyyət göstərdiyi illərdən özünü aydın göstərirdi. Onun şair, dramaturq, publisist, İrəvan Dövlət Azərbaycan Dram Teatrının rəhbəri kimi geniş mədəni-ictimai fəaliyyəti (və bir daha xatırladaq ki, olduqca mürəkkəb bir şəraitdəki fəaliyyəti) hələ o zaman Hidayəti bir Azərbaycan ziyalısı kimi qiymətləndirməyə hər cür əsas verirdi" [10, 4].

Yaşadığı mühitin çətinliklərini, məkrli sosial-siyasi problemlərin təsiri altında ziyalı kimi təkləndiklərini, əbədi qalmalı olduqları yerdən köçürülmə cəhdlərini müşahidə edən 1975-ci ildə yazdığı "Qara çaylaq daşıyam" adlı şeirində yazırdı:

Qara çaylaq daşıyam,
amma haçansa
bir gün
Məbəd divarına qoyulacağam.
Ümidim, məsləkim, eşqim yolunda
Böyük Nəsimitək "Ənəl –Həqq" deyib,
təpədən dırnağacan soyulacağam.
Məbəd divarına ya təməl daşı,
ya da zirvə daşı olasıyam mən. [6, s.23]

Şair burada zaman gələcək İrəvanda, Qərbi Azərbaycanda ya tarixə çevriləcəyimizə, ya da əzəli torpaqlarımıza, yurd yerinə "zirvə daşı" olub qürurlanacağımıza eyham edir. Hazırkı qələbə və uğurlarımız Qərbi Azərbaycan sakinlərinin və bütün azərbaycanlıların həmin arzularına da çatacağına yollar açıldığını göstərir. Elə həmin ildə yazdığı başqa bir şeirində yen də özü və daş arasında doğmalıq arayır, özünü daş hesab edir:

Bilirsiniz, mən kiməm?
Babamın atamdan sonrakı yaşı,
Çiçəkli, meşəli, qayalı Zəngəzur torpağı,
bir aran çeşməsinin su daşı. [6, 53]

Bu daş paralelizmi XIX əsrdən başlayaraq, sovet dövründə müntəzəmləşən deportasiya hərəkatının şair ruhuna çökdürdüyü nisgildir. İnsanlar köçür,

daşlar, daşlara hopmuş ruhlar, xatirələr qalır. Bu mənada, daşlar insanlardan daha şanslıdır. Onlar axan çeşmələrin (başqa bir deyimlə tarixin) daimi sakinidir... yerindən, yurdundan köçürülmə təhlükəsi daha azdır. Doğma vətənindən, yurdundan ayrı düşən şair, dağlardan, "halal ömrünü" yaşayacağı "ömür payından" ayrılığa dözə bilmir:

Məmməd Araz, dağlar məndən gen düşdü .
Kim eşidər harayımı, hayımı ?
Bu nə möhnət, nə amansız gərdişdi –
Yaşamıram halal ömür payımı [6, 121].

Qərbi Azərbaycandan azərbaycanların vəhşicəsinə köçürüldüyü sonuncu proseslərdə şair vətənindən, yurdundan ayrılmaq məcburyətində qalan "didərgin" soydaşlarına üz tutub sınmamağa, ümidlərini itirməməyə, adət-ənənələrdən uzaqlaşmamağa çağırır:

Doğma ocağından didərgin düşdün,
Barı sən özündən didərgin düşmə.
Hər kimdən incidin,
hər kəsdən küsdün
Ağsaqqal sözündən didərgin düşmə.

Çinarlar titrəyir-
boz yellər əsir,
Udur milyonları bu zalım əsr.
Qaranlıq işığın səbrini kəsir ...
İnamın dizindən didərgin düşmə ...

Düşmən qamçısıdır atını sürən,
Bəs haqq havaxtacan susacaq görən?
Gözünü yumantək yuxuna girən,
Yurdunun düzündən didərgin düşmə!

Bir gün o ellərə qayıdacaqsan,
Sükutun zülmdür,
vuruşun asan!
Təmkinlə ağlayan,
təmkinlə susan.
Qəlbinin közündən didərgin düşmə [6,179].

80-ci illərin faciəvi hadisələrindən sonra da əzəli yurdlarını tərk edən Qərbi azərbaycanlıların hər biri şairin vurğuladığı kimi "Bir gün o ellərə qayıdacaq"larına ümidlərini itirməyiblər. Mərhum professor Teymur Əhmədovun təşəbbüs və təşkilatçılığı ilə işıq üzü görən və bir neçə sayı çap olunan "Ədəbi İrəvan" almanaxında Qərbi Azərbaycandan olan şair və yazıçılar yurd sevgisini, nisgilini bölüşməklə yanaşı, ədəbi birliyi də qoruyub saxlamağa çalışıblar.

Nəticə

Ədəbiyyatın iereararxik qatlarında tarix öz dərin izlərini qoyur. İrəvan ədəbi mühiti acınacaqlı ömür yoluna və faciəli taleyə məruz qalan Qərbi Azərbaycan sakinlərinin ədəbiyyat, mədəniyyət və tarixini izləmək baxımından əhəmiyyətli mənbədir. İrəvan Azərbaycan yazıçıları tarixi vətənimizin ermənilşdirmə prosesi başladığı vaxtdan–XIX əsrdən deportasiya, repressiya və soyqırımı kimi ağır faciələrin şahidi və zərərçəkənləri olublar. Bu proses sovet dövründə sürətlənib və ermənilərin xeyrinə başa çatıb. Haqlı mübarizəmizi beynəlxalq aləmdə aparmağın bir istiqaməti də İrəvan ədəbi mühitinin taleyinin öyrənilməsi və təbliği ilə gerçəkləşə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycanın bu Xalq yazıçısının adına Xankəndində və .Teref.az http://teref.az › gundem › 10.
2. Xəlilov, B. Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi. Xalq qəzeti.- 25.08.2017
3. Allahverdiyev, C. İrəvan ədəbi mühiti (1920-1950-ci illər). – Bakı: Elm, – 2010.
4. Allahverdiyev, C. İrəvanda Azərbaycan ədəbi-mədəni mühiti. Xalq qəzeti. 25.02.2023
5. Orucov, H. Sabir Rzayev və ya yarımçıq qalmış dialoq. Ədəbiyyat qəzeti. 08.08.2023
6. Orucov, H. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, – 2007.
7. Mustafa, N. Əkbər Yerevanlı.Tarixi şəxsiyyətlər Virtual Qərbi Azərbaycan https://qerbiazerbaycan.com ›
8. Mustafa, N. İrevan şehri (Türk-İslam varlığı nasıl yok edildi). – Ankara: Berikan Yayınevi, – 2015.
9. Nəcəfov, N. İrəvan Pedaqoji İnstitutu Azərbaycan bölməsinin acı taleyi. Azərbaycan müəllimi. – 2013. – 1 mart
10. Cəfərov N. Ön söz. Hidayət Orucov. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, – 2007.
11. Rzayev S. schrijver Biography, Facts, Information, Career, PeoplePill https://peoplepill.com › people
12. Yazıçılar Birliyi ilk Xalq yazıçısından da imtina etdi. Modern.az https://modern.az › yazicilar
13. Məhərrəmov, Z. İrəvanda kitab nəşri ədəbi-mədəni həyatın vacib tələbi idi. Bakı Avrasiya Unversiteti. Sivilizasiya elmi-nəzəri jurnal. – Bakı: – 2014. №5,
14. Məhərrəmov, Z. İrəvanda məktəbdarlıq və maarifçilik. (1800-1920-ci illərdə ədəbi-mədəni mühit). – Bakı: Nurlan, – 2010.

II BÖLMƏ. QƏRBİ AZƏRBAYCANIN MƏDƏNİ SƏRVƏTLƏRİ

QƏRBİ AZƏRBAYCANIN ORTA ƏSR TÜRK-İSLAM MƏDƏNİYYƏTİ ABİDƏLƏRİNƏ QARŞI ERMƏNİ VƏHŞİLİKLƏRİ

Hacıfəxrəddin SƏFƏRLİ
seferli949@mail.ru
AMEA Naxçıvan Bölməsi

Məqalədə Azərbaycanın qərb torpaqlarında, XX yüzillikdə sovet hakimiyyəti illərində yaradılan indiki Ermənistan Respublikası ərazisində orta əsrlər zamanı Azərbaycan sənətkarları tərəfindən yaradılmış müxtəlif təyinatlı türk-islam mədəniyyəti abidələrinə ermənilərin vandal münasibətindən, onların sistemli şəkildə vəhşicəsinə məhv edilməsindən bəhs olunur. Qeyd edilir ki, bu proses ermənilərin XIX əsr boyu Azərbaycan torpaqlarına, o cümlədən İrəvan xanlığı ərazisinə kütləvi surətdə köçürülməsindən sonra başlanmış, XX yüzillik boyu davam etdirilmişdir. 1988-ci ildə ortaya atılan qondarma Dağlıq Qarabağ problemindən sonra yerli müsəlman-türk əhalisinin Qərbi Azərbaycandakı tarixi torpaqlarından qovulmasından sonra bu iş daha kütləvi xarakter aldı. Qərbi Azərbaycan ərazisində Azərbaycan xalq sənətkarlarının orta əsrlər zamanı yaratdıqları türk-islam mdəniyyəti abidələri müxtəlif vasitələrlə məhv edildi, yaxud da başqa xalqların mədəni irsi kimi qələmə verildi.

Açar sözlər: *Qərbi Azərbaycan, Ermənistan, epiqrafik abidə, kitabə, Pir Hüseyn türbəsi, Əxi Təvəkkül zaviyəsi, Urud qəbiristanlığı, Səlim karvansarası, vandalizm.*

Birinci Pyotrun vəsiyyətlərinə və Rusiya çarizminin köçürmə siyasətinə uyğun olaraq, XIX yüzilliyin II rübündən başlayaraq ermənilərin məqsədli şəkildə işğal ounmuş Cənubi Qafqazda, əsasən də Azərbaycan ərazisində məskunlaşdırılmasına başlandı. Bu işdə XIX yüzilliyin əvvəllərində, xüsusilə 1826-1828-ci illərdə baş verən Rusiya-Qacarlar və 1828-1829-cu illərdə baş verən Rusiya-Osmanlı müharibələrinin yekunu olan Türkmənçay və Ədirnə müqavilələrinə daxil edilən şərtlər mühüm rol oynadı. Bu müqavilələrin şərtlərinə uyğun olaraq İrandan və Osmanlı imperiyasından Azərbaycana çoxlu erməni əhalisi köçürüldü. Həmin vaxt İrandan köçürülən ermənilərin çoxu Qarabağ və Naxçıvan xanlıqlarının ərazisində məskunlaşdırıldı. Ədirnə müqaviləsinin şərtlərinə əsasən Osmanlı imperiyasından Azərbaycana köçürülən 80 mindən artıq erməni isə əsasən İrəvan xanlığı ərazisində yerləşdirildi. Sonralar, XIX əsr boyu davam etdirilən köçürmə siyasəti nəticəsində bütün Azərbaycanda olduğu kimi Qərbi Azərbaycan torpaqlarında da erməni əhalisinin sayı süni surətdə artırıldı. Bu torpaqlarda məskunlaşan və yerlərini möhkəmləndirən ermənilər "Böyük Ermənistan" xülyasını reallaşdırmaq və öz dövlətlərini yaratmaq üçün Azərbaycana və Osmanlı imperiyasına qarşı ərazi iddialarına başladılar. Onlar bu sərsəm iddialarını gerçəkləşdirmək üçün xalqımıza qarşı sistemli şəkildə soyqırımlar və deportasiyalar törətməkdən belə çəkinmədilər.

Birinci Dünya müharibəsinin gedişi zamanı, 1917-ci ildə Rusiya imperiyasının dağılması ilə əlaqədar yaranmış əlverişli şəraitdən istifadə edərək ermənilər 1918-ci ilin

mayında özlərinin qondarma dövlətlərinin–Ararat Respublikasının elan edilməsinə nail oldular. Bundan sonra öz dövlətlərinə paytaxt etmək üçün İrəvan şəhərinin onlara verilməsi üçün Azərbaycan Xalq Cümhuriyyəti hökumətindən xahiş etdilər. 29 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycana qarşı ərazi iddialarına son qoyacaqlarına ümid edərək İrəvan şəhərini və ətrafındakı əraziləri ermənilərə güzəştə getdilər. Bunun ardınca Tiflisdə Rusiyanın təzyiqi ilə İrəvan quberniyasının böyük bir hissəsinin, 9 min kvadrat kilometrdən artıq ərazinin ermənilərə verilməsi haqqında qərar qəbul edildi. Beləliklə, Cənubi Qafqazda paytaxtı İrəvan şəhəri, ərazisi 9,8 min kvadrat kilometr olan Ermənistan daşnak dövləti yaradıldı.

1917-ci il Oktyabr çevrilişi ilə Rusiyada hakimiyyəti ələ alan bolşeviklərin işğalı nəticəsində 28 aprel 1920-ci ildə Azərbaycanda, onun ardınca, 29 noyabr 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti quruldu. Bundan sonra sovet Rusiyasının təzyiqi və himayəsi ilə Azərbaycanın qərb torpaqlarından Göyçə mahalı, Dərələyəz mahalı, Dilican ərazisi, Zəngəzur mahalının bir hissəsi, o cümlədən Gorus, Sisyan, Qafan və Mehri və s. qeyri-qanuni olaraq Ermənistana verildi. Bununla da, qədim Azərbaycan diyarı Naxçıvan ərazisi həmin vaxtdan süni surətdə Azərbaycanın əsas hissəsindən ayrı düşdü və əslində blokadaya salındı. Ancaq Azərbaycan torpaqlarının sovet hökuməti tərəfindən ermənilərə verilməsi prosesi bununla bitmədi, sonralar da davam etdirildi. Zaqafqaziya Federasiyası Mərkəzi İcraiyyə Komitəsinin 18 fevral 1929-cu ildə qəbul etdiyi qərarla beynəlxalq hüquq normaları, xüsusilə 1921-ci ilin martında və oktyabrında sovet Rusiyası nümayəndələri tərəfindən də Moskva və Qars müqavilələrinin şərtləri kobud şəkildə pozularaq Naxçıvanın 657 kvadrat kilometr ərazini əhatə edən bir neçə kəndi Ermənistana hədiyyə edildi. Beləliklə, XX yüzilliyin əvvəllərinədək heç bir ərazisi və dövlətçiliyi olmayan ermənilər sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in timsalında öz dövlətlərini yaratmağa nail oldular. Sovet hakimiyyətinin ilk illərində bu dövlətin ərazisi adları yuxarıda sadalanan tarixi Azərbaycan torpaqları hesabına 29,9 min kvadrat kilometrə çatdırıldı.

Bundan sonra ermənilər Rusiya çarizmi tərəfindən məskunlaşdırıldıqları bu torpaqların aborigen sakinlərini–müsəlman türkləri XX yüzillik boyu ata-baba yurdlarından sıxışdırmağa və tədricən deportasiya etməyə başladılar. Azərbaycanlıları tarixi torpaqlarından tamamilə didərgin salan vəhşiləşmiş ermənilər tarixən bu ərazidə yaşayan Azərbaycan türklərinin izlərini də yer üzündən silmək üçün onların minilliklər boyu yaratdıqları mədəni irsi–türk-islam mədəniyyəti abidələrini də dağıtmağa və məhv etməyə başladılar. Beləliklə, xalqımızın bu torpaqlarda minilliklər boyu yaratdığı və torpağa möhür kimi vurduğu izləri itirmək üçün çoxlu miqdarda maddi-mədəniyyət nümunələri məhv edildi, qəbiristanlıqlar şumlanaraq əkin sahələrinə çevrildi, yer adları kütləvi surətdə dəyişdirilərək ermənileşdirildi. Ermənilər sovet hakimiyyəti illərində, 1988-ci ildə ortaya atılan Dağlıq Qarabağ problemi ilə əlaqədar başlayan hadisələrə qədər Azərbaycan türklərinə aid olan maddi-mədəniyyət nümunələrinə qarşı olan mənfur niyyətlərini əsasən gizli şəkildə həyata keçirirdilər. Dağlıq Qarabağda baş verən hadisələr ilə əlaqədar Azərbaycanlılar öz ata-baba, tarixi torpaqlarından son nəfərinədək qovulduqdan sonra isə bu iş açıq və kütləvi hal aldı. Ermənilərin vandalizm hərəkətləri

pik mərhələsinə çatdı, Ermənistan türksüz respublikaya çevrildi. Beləliklə, minlərlə günahsız soydaşımız kimi tarixi abidələrimiz də şəhid və şikəst oldu, düşmən əlində əsir qaldı, məhv edildi. Bəzi abidələr üzərində əməliyyatlar aparıldı, ermənileşdirildi.

Saxtakar erməni alimləri vandal hərəkətlərini gizlətmək, pərdələmək üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Bu vasitələrdən biri Azərbaycan xalqına məxsus türk-islam mədəniyyəti abidələri üzərində həkk edilmiş, mənsub olduğu abidə haqqında dəqiq məlumat verən kitabələrin təhrif edilməsi oldu. Məsələn, Qarakilsə rayonunun Urud kənd qəbiristanlığındakı qəbirüstü xatirə abidələri üzərində həkk edilən kitabələr Zəngəzur mahalında ən qədim zamanlardan Alban tayfalarının yaşamasını, onların türkləşməsini, yaxud türk olmalarını, islam dininə etiqad etdiklərini sübut etdiyindən erməni alimləri ciddi cəhdlə həmin kitabələrin mətnlərini təhrif edir, istədikləri şəkildə oxuyur, onların ermənilərə məxsus olduğunu əsaslandırmağa çalışırlar. Həmin alimlər qəbiristanlıqdakı iki xatirə abidəsi üzərində həkk edilən "min avladi Ağvan" ("Ağvan övladlarından") sözlərindən təşvişə düşərək onunla razılaşmır, kitabəni yazan xəttatın və həkkakın savadsız olduğunu iddia edirlər. Kitabəni isə özlərinə sərf edən şəkildə oxumaq üçün həmin sözlərə hərflər (k, m) əlavə edərək mətni "Avlakum Vağudulu" şəklində oxuyaraq [5, s. 124] məzar daşlarının ermənilərə aid olduğunu sübut etməyə çalışırlar.

Burada xüsusi vurğulamaq lazımdır ki, "Ağvan övladlarından" sözləri yazılmış hər iki kitabənin əvvəlində müsəlman, xüsusilə şiə dünyasında ən çox işlənən "Allah, Məhəmməd, Əli" sözləri həkk olunmuşdur. Həmçinin qəbiristanlıqdakı digər abidələr üzərində bu sözlərlə yanaşı,"Allah", "Allahdan başqa Allah yoxdur! Məhəmməd Allahın elçisidir. Əli Allahın dostudur!" kimi dini ifadələr həkk edilmişdir. Heç şübhəsiz ki, əgər həmin qəbirlərdə dəfn olunan şəxs erməni alimlərinin iddia etdiyi kimi erməni olsaydı onların məzarüstü abidəsində islam dininə aid bu sözlər yazılmazdı. Bu ifadələr həm də Urud əhalisinin islamın şiə məzhəbinə etiqad etdiklərini təsdiq edir. Bu abidələrdən birinin üzərində Azərbaycan türk dilində həkk edilmiş "Di gəl ki, yarı gördüm gözü yaşlı, sözü qanlı. Yoxdur bu dərdimə çarə" sözləri ilə ifadə olunan mənzum parça da fikrimizi möhkəmləndirir [4, s.73] və erməni alimlərinin saxtakarlığını ifşa edir.

Ona görə də, bütün bu tutarlı faktlar qarşısında aciz qalan erməni alimlərinin fitvası ilə qəbiristanlıqda mövcud olan yüzə yaxın sənduqə və qoç heykəli tipli qəbirüstü xatirə abidəsi, o cümlədən görkəmli epiqraf alim M.Nemətin 1961-ci ildə Urudda tədqiq etdiyi üzərində kitabə olan 17 qəbir daşı (13 sənduqə, 4 qoç heykəli) 3 ədədi istisna olmaqla (həmin daşlar dağıdılmaqdan xilas etmək üçün vətənpərvər insanlar tərəfindən gizli şəkildə Naxçıvana gətirilmişdir) tamamilə məhv edilmiş, qəbiristanlıq isə dağıdılmışdır. Təəccüblüdür ki, ermənilər özlərinə aid etdiyi üzərində kitabə olan iki abidəni də məzarlıqdakı digər abidələrlə birlikdə məhv etmişlər. Görünür, onlar bir atalar sözündə deyildiyi kimi "Cidanı çuvalda gizlətməyin mümkün olmadığını" anlayaraq həmin abidələri məhv etməyə üstünlük vermişlər. Hazırda Urudda türk-islam mədəniyyətinə aid heç bir abidə qalmamışdır. Ona görə də M.Nemətin keçən yüzillikdə Urud qəbiristanlığında apardığı epiqrafik tədqiqatların nəşr olunduğu əsərlər Urud abidələri haqqında məlumat verən yeganə mənbələr kimi çox qiymətlidirlər.

Digər tərəfdən qeyd etmək lazımdır ki, kitabələrin yazıldığı vaxt, yəni XVI əsrdə

Urud kəndində erməni əsilli əhali yaşamamışdır. Əgər həqiqətən XVI əsrdə kənddə ermənilər yaşasaydı, onların orada hər hansı bir abidəsi və ya qəbiristanlığı olardı. Əslində ermənilər bu kənddə yerli əhali buradan deportasiya edildikləri 1988-ci ildən sonra məskunlaşmışlar [1, s. 172].

Erməni alimləri Azərbaycan memarlığının gözəl nümunəsi olan və indiyədək yaxşı vəziyyətdə gəlib çatan Zəngəzurun Səlim aşırımındakı "Şah Abbas karvansarası" və onun kitabəsi üzərində də buna bənzər əməliyyatlar aparmışlar. Onlar abidənin inşası haqqında əsil həqiqəti özündə əks etdirən və onun Elxani (Hülakü) hökmdarlarından Əbu Səid Bahadur xan zamanında Şahnurun oğlu Ləvəndin oğlu Çuşkayb tərəfindən hicri-qəməri təqvimi ilə 729-cu ildə (miladi ilə 1328-ci ildə) inşa etdirilməsi [4, s. 58] haqqında dəqiq məlumatlar verən kitabəni məhv etmiş, oxunmaz hala salmışlar. Erməni alimləri yerləşdiyi aşırımın adı ilə bəzən "Səlim karvansarası" adlandırılan Şah Abbas karvansarası haqqında belə bir iddia irəli sürmüşlər ki, tatarlar (yəni Azərbaycan türkləri-H.S.) bu karvansaraya sonradan Səlim adı vermiş, kitabəni də sonradan qapının başına qoymuşlar. Ancaq tikintiyə baxan hər bir şəxs aydın şəkildə görür ki, kitabə karvansara inşa edilərkən oraya hörülüb və burada qondarma heç bir iz yoxdur.

Ermənilər karvansaranın divarına erməni dilində yazılmış qondarma bir kitabə də qoymuşlar. Hazırda həmin saxta kitabənin məlumatına əsasən karvansaranın hicri-qəməri təqvimilə 781-ci ildə (miladi ilə 1379-cu il) Orbeliyan nəslindən olan Çesar tərəfindən inşa edilməsi iddia edilir və abidə beynəlxalq elmi ictimaiyyətə erməni memarlığının nümunəsi kimi təqdim olunur.

Qeyd etmək yerinə düşər ki, bu ərazilərdə, o cümlədən karvansaranın yaxınlığında yerləşən Ağkənd kəndində tarixin heç bir mərhələsində erməni əsilli insan yaşamamışdır. Bu kənddə qədim zamanlardan ancaq Azərbaycan türkləri yaşamışlar. Buraya ilk ermənilər (cəmi 172 nəfər) 1923-1925-ci illərdə sovet hakimiyyəti orqanları tərəfindən köçürülüb gətirilmişlər [1, s. 150].

Bütün bu tutarlı və təkzibolunmaz faktlara baxmayaraq, yerli müsəlman-türk əhali tərəfindən "Şah Abbas karvansarası" və yaxud da "Səlim karvansarası" kimi tanınan bu möhtəşəm tikilini erməni alimləri hələ də inadla ermənilərə məxsus memarlıq abidəsi kimi qələmə verməkdə davam edirlər. Bununla da, beynəlxalq elmi ictimaiyyəti və abidəni seyr edən xarici turist və qonaqları çaşdırmağa çalışırlar.

Qərbi Azərbaycanın aborigen sakinləri olan müsəlman-türklərin içərisindən yetişmiş sənətkarlar tərəfindən yaradılmış türk-islam mədəniyyəti abidələrinin məhv edilməsi və yaxud da, "ermənileşdirilməsi" istiqamətində tətbiq edilən vandal üsullardan biri də tarix-mədəniyyət abidələri üzərində həkk edilmiş xalqımıza məxsus təsvirlərin məhv edilərək yerinə özlərinə məxsus təsvirlər həkk edilməsidir. Erməni vandallar bir sıra abidələrin üzərində əməliyyatlar aparmış, onlara xaçlar və erməni kitabələri əlavə etmiş, "ermənileşdirmişlər". Məsələn, Zəngəzur mahalının Ələyəz kəndindəki Əxi Təvəkkül zaviyəsi ermənilər tərəfindən dağıdılmış, yerləyeksan edilmişdir. Abidəni dağıdarkən vaxtilə AMEA-nın müxbir üzvü M.Nemətin orada tədqiq etdiyi başdaşı üzərində yazılmış "Bu məzar mərhum, günahları bağışlanmış, şəhid, uca Allahın rəhmətinə möhtac Əxi Təvəkkülündür–Allah onun günahlarını bağışlasın! Məhərrəm ayı, 950-ci il tarixdə" [4,

s.75] məzmunlu kitabə də məhv edilmişdir.

Bununla kifayətlənməyərək abidədən qalan bütöv bir daş lövhənin üzərində xaç şəkli həkk edilərək "ermənileşdirilmişdir". Əslində isə zaviyənin girişində olan, ölçüsü 2,5x1,4 metr olan bu daşın üzərində 3 varlığın–yerin, ayın və günəşin rəmzi olan 3 dairə, hər dairədə şiələrin 12 imamının rəmzi kimi 12 xətt və Dərələyəz mahalında yaşayan türk tayfalarının sayını bildirən səkkizguşəli ulduzlar həkk olunmuşdu [1, s. 120]. Ona görə də ermənilər Azərbaycan xalqına məxsus bu izləri məhv etmiş və onu xaçlaşdıraraq "ermənileşdirməyə" çalışmışlar.

Erməni alimlərinin Qərbi Azərbaycan ərazisindəki türk-islam mədəniyyəti abidələrini Azərbaycan türklərinin əlindən almaq üçün həyata keçirdikləri üsullardan biri də bu abidələrin ciddi-cəhdlə digər xalqlara aid edilməsidir. İrəvan şəhərindən 8 km məsafədə, Çuxur-Səd bölgəsindəki Zəngibasar rayonunun Cəfərabad kəndində tuf daşdan tikilmiş Pir Hüseyn məqbərəsi vardır. Abidənin 22 metr uzunluğunda olan kitabəsinin əvvəlində Qurani-Kərimin II ("Bəqərə") surəsindən 255-ci ayə ("Ayət əl-Kürsü") həkk olunmuşdur. Kitabənin qalan hissəsindən aydın olur ki, bu mübarək günbəzin inşa olunmasını böyük sultan, mərhəmətli xaqan, Şərqin və Qərbin sultanlar sultanı, dövlətin və dinin himayəçisi, Pir Budaq xan və Yusif noyonun zamanında mərhum, günahları bağışlanmış, bağışlanmaya möhtac əmir Səədin oğlu, hökmdarların və sultanların dayağı, zəiflərin və miskinlərin pənahı, alimlərin və tələbələrin (elm öyrənənlərin) tərbiyəçisi, fəqirlərin və təriqət mənsublarının (dərvişlərin-H.S.) himayəçisi, dövlətin və dinin cəlalı əmir Pir Hüseyn 15 rəcəb 816-cı il tarixdə (11.10.1413-cü ildə) əmr etmişdir [4, s. 66-67].

Kitabədə qeyd olunan tarixdən və hökmdarların adından da aydın şəkildə görünür ki, türbə Qaraqoyunlu hökmdarları Yusif noyon (Qara Yusif-H.S.) və Pir Budaq xan zamanında əmir Səədin oğlu Pir Hüseyn tərəfindən inşa etdirilmişdir. Buna baxmayaraq, bir neçə il bundan əvvəl erməni katalikosunun təşəbbüsü, erməni və türkmən alimlərinin iştirakı ilə məqsədli şəkildə Pir Hüseyn türbəsinin bünövrəsində arxeoloji qazıntılar aparılmışdır. Guya qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələrinə əsasən onlar belə bir "nəticəyə" gəlmişlər ki, türbə erməni sənətkarları tərəfindən inşa olunmuşdur və abidə erməni tarix-memarlıq abidəsidir. Bununla da kifayətlənməyərək Qaraqoyunlu dövlətini İran dövləti, Qaraqoyunlu türk tayfalarını və kitabədə adları keçən Qaraqoyunlu əmirlərini türkmən (müasir Türkmənistan əhalisi nəzərdə tutulur) hesab edirlər. Əlbəttə, kitabədə adı çəkilən və Səədli oğuz-türk tayfasına məxsus olan Əmir Səədin və oğlu Pir Hüseynin müasir türkmənlərlə əlaqələndirilməsi cəfəngiyatdan başqa bir şey deyildir. Buna baxmayaraq, Azərbaycan Qaraqoyunlu dövlətinin yadigarı olan bu abidə "Türkmən əmirləri ailəsinə məxsus məqbərə kimi" Ermənistanda dövlət tərəfindən qorunan abidələr siyahısına salınmışdır [7].

Bu istiqamətdə işlərini davam etdirən erməni alimləri 2001-ci ildə İrəvan şəhərinin Abovyan küçəsində (əvvəllər "Qala küçəsi" adlanan küçənin adı 1868-ci ildə dəyişdirilərək İrəvanın qubernatoru olmuş Astafyevin soyadı ilə "Astafyev küçəsi" adlandırılmışdır. 1920-ci ildə isə küçəyə Xaçatur Abovyanın adı verilmişdir) aparılan qazıntı işləri zamanı aşkar olunan müsəlman-türklərə aid abidəni də "Türkmən abidəsi" adlandırmışlar. Azərbaycan memarlıq üslubunda inşa edilmiş, divarları kaşı ilə

bəzədilmiş abidənin 1319-cu ildə inşa edildiyi bəlli olmuşdur. Abidəni "Türkmən abidəsi" kimi təqdim edən erməni alimləri sonradan fikirlərini dəyişmiş və onu "Monqol abidəsi" kimi qələmə verməyə başlamışlar. Hətta onu Ermənistan dövləti tərəfindən qorunan tarixi abidələrin siyahısına daxil etmişlər [7].

Ermənilər tərəfindən dəfələrlə dağıntıya məruz qalan İrəvan şəhərindəki möhtəşəm Göy məscid də belə saxtakarlığa məruz qalmışdır. Azərbaycan memarlığının İrəvan şəhərində ən gözəl nümunələrindən olan və 1776-cı ildə İrəvan xanı Hüseynəli xanın əmri ilə inşa edilən, eni 66 metr, uzunluğu 97.2 metr olan, şəhərin mərkəzi məscidi sayılan Göy məscid XX yüzillikdə ermənilər tərəfindən iki dəfə, 1918-ci və 1955-ci ildə yandırılmışdır. Həmin yanğınlar zamanı məscidin özü kimi məscid kompleksinə daxil olan mədrəsə də məhv olmuşdur. Göy məscid 1995-2005-ci illərdə ermənilər tərəfindən dəvət olunan İran İslam Respublikasının tikinti şirkətlərinin köməyi ilə bərpa olunaraq farslaşdırılmışdır. Hazırda türk-islam mədəniyyətinin möhtəşəm nümunələrindən olan Göy məscid İrəvan şəhərinə səfər edlən müxtəlif səviyyəli dövlət xadimlərinə, turistlərə, insanlara "Fars məscidi" kimi təqdim olunmaqdadır.

Qeyd olunan nümunələrdən göründüyü kimi, erməni alimləri bu abidələrin mənşəyini tamamilə saxtalaşdırırlar. Onların fikrincə, bu abidələr kimə məxsus olursa olsun, təki həqiqi sahibləri olan Azərbaycan türklərinə aid edilməsin. Bu məntiq ilə hərəkət edən erməni tədqiqatçıları bu gün də belə saxtakarlıqlarla məşğul olmaqda davam edirlər.

Ermənilər qərb torpaqlarımızdakı qəbiristanlıqlarda orta əsr Azərbaycan ustaları-bədii daşyonma sənətkarları tərəfindən yaradılmış orta əsr heykəltəraşlığının gözəl nümunələri olan daş qoç və qoyun heykəllərini daşıyaraq İrəvan şəhərinə və digər şəhərlərə aparmış, onların üstündə həkk edilmiş Azərbaycan xalqına məxsus kitabə, ornament və təsvirləri məhv etmiş, yerinə özlərinə məxsus kitabə və təsvirlər həkk edərək "ermənileşdirmişlər". Bu abidələrdən Qarakilsə rayonunun Urud kəndindən, Solyan rayonunun Axta, Köçbəy və s. kəndlərindən aparılmış qoç heykəllərini misal göstərmək olar. Hazırda həmin abidələr XX yüzilliyin ortalarında Naxçıvan bölgəsindən gizli şəkildə oğurlanaraq aparılmış qoç və qoyun heykəlləri ilə birlikdə İrəvanın, Üçmüəzzinin və digər şəhərlərin küçə və meydanlarına, muzeylərinə, parklarına düzülərək əcnəbi turist və qonaqlara erməni mədəniyyəti nümunələri kimi təqdim edilirlər.

İrəvan şəhərində türk-islam mədəniyyəti abidələrinin vəziyyəti tədqiqatçıların da diqqətini cəlb etmişdir. 1911-ci ildə professor N.Marr İrəvan Xan Sarayına baxış keçirərkən saray kompleksinə daxil olan məscidin vəziyyətini təsvir etmişdir. O, İmperator Arxeoloji Komissiyasının 17 may 1912-ci il tarixli iclasında bu haqda məruzə edərkən demişdir ki, "Məscid indi də yaxşı vəziyyətdədir, lakin onun qorunması üçün heç bir tədbir görülmür və hər şey Sərdar sarayının vəziyyətinə düşməsinə xidmət edir. Bununla belə, o yerli müsəlman mədəniyyətinin qiymətli irsidir" [8]. Ancaq İrəvanda olan azərbaycanlılara məxsus digər tarix-mədəniyyət abidələri kimi bu məscid də erməni vandalları tərəfindən XX əsr ərzində tədricən dağıdılmış və məhv edilmişdir.

İrəvan şəhərinin Dəmirbulaq massivində inşa olunmuş və yerləşdiyi ərazinin adına uyğun olaraq "Dəmirbulaq məscidi" adlandırılan ibadət yeri də erməni vandalları

tərəfindən 23 fevral 1988-ci ildə bu yandırılmış və məhv edilmişdir [8]. Məscidə qarşı vandalizm hərəkətləri bununla qurtarmamış, onun qalıqları 1990-cı ildə tamamilə yer üzündən silinmiş və yerində çoxmərtəbəli yaşayış binası inşa olunmuşdur.

İlhaqdan sonra Qərbi Azərbaycan ərazisində olmuş rus tədqiqatçıları təsdiq edirlər ki, Rusiya işğalı zamanı İrəvan şəhərində 8 məscid, onların hər birinin yanında mədrəsə, həmçinin şəhərdə yarım dağılmış vəziyyətdə olan bir neçə ibadət yeri olmuşdur [6, s. 468]. 1912-ci ildə İrəvan qəzasında 42, Üçmüəzzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid fəaliyyət göstərmişdir. Ancaq bu abidələrin hamısı ermənilər tərəfindən vəhşicəsinə məhv edilmişdir.

Azərbaycan türklərinə qarşı nifrət ruhunda tərbiyə olunan vəhşiləşmiş ermənilər Azərbaycan türklərinə məxsus qəbiristanlıqları demək olar ki, tamamilə məhv etmiş, onları əkin yerinə çevirmişlər. Əslən Dərələyəz mahalının Cul kəndindən olan B.Fərzəliyevin "Yurd göynərtisi" məqaləsindən götürülmüş aşağıdakı sətirlər dediklərimizə əyani sübutdur. Məqalə müəllifi yazır: "1972-ci ildə o vaxtlar Ümumittifaq sanatoriyası olan Cermuka istirahətə getmişdim. Cermuk şəhəri bizim kəndin (Cul kəndi nəzərdə tutulur-H.S.) 15-20 kilometrliyində yerləşir. Atam xahiş etdi ki, doğma kəndimiz Cula gedib məzarımın üstünə səpməyə torpaq götürərsən. Həm də baban Fərzəlinin aramgahını ziyarət edərsən. Mən evimizə gəldim. Bizim evdə kolxoz sədrinin ailəsi yaşayırdı. Onlar məni görən kimi tanıdılar. Məqsədimi biləndə qəbiristanlığa getməyi məsləhət görmədilər, o tərəflərdə quduz itlər var, sənə xətər yetirərlər-deyib fikrimdən daşındırmaq istədilər. Lakin mən inadımdan dönmədim. Əlimə bir dəyənək götürüb yola düzəldim. Gördüklərimə təəccüb qaldım, gözlərim qaraldı, nitqim tutuldu. Məzarıstan darmadağın edilmiş, insan kəllələri, insan sümükləri hər yana səpələnmişdi. Nə vaxt ayıldığımı, özümə gəldiyimi bilmirəm. Oradan birbaşa sanatoriyaya gəldim və tutiyə kimi götürdüyüm torpağı Salyana qayıdanda atama verdim. Atasının məzarının dağıldığını eşidəndə kişi çox mütəəssir oldu, cavan oğlunu itirəndə ağlamayan atam körpə uşaq kimi hönkürdü" [2, s.224].

Qeyd olunan faktlar göstərir ki, xalqımızın Qərbi Azərbaycan ərazisində minilliklər ərzində yaratdığı maddi-mədəni irs, o cümlədən türk-islam mədəniyyəti abidələri ermənilər tərəfindən XX yüzillik boyu planlı və sistemli şəkildə tamamilə məhv edilərək yer üzündən silinmişdir.

ƏDƏBİYYAT

1. Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. – Bakı: "Ağrıdağ" nəşriyyatı, – 2006, – 228 s.
2. Fərzəliyev B. Yurd göynərtisi. Deportasiya. Toplu. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, – 1998, – s. 220-224.
3. Səfərli H. Qondarma erməni soyqırımı və tarixi həqiqətlər. – Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, – 2018, – 208 s.
4. Неймат М.Корпус эпиграфических памятников Азербайджана. Том III. – Баку: YeniNəşrlərEvi, – 2001, – 216 с.
5. Папазян А. Новые эпиграфические данные о последних отпрысках армянской

феодальной знати в Сюнике. Историко-филологический журнал. АН Арм. ССР, – 1983, № 4/103.
6. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург. Типография императорской АН, 1852, 1231 с.
7. Mustafa N. İrəvan şəhəri. http://www.iravan.info/.
8. iravan.info/meschidler.html

SUMMARY

Hajıfakhraddin Safarli

ARMENIAN BRUTALITY AGAINST THE MEDIEVAL TURKISH-ISLAMIC CULTURE MONUMENTS OF WESTERN AZERBAIJAN

The article deals with the vandalism and systematic brutal destruction committed by the Armenians to the Turkish-Islamic cultural monuments of various purposes created by the Azerbaijani artisans during the Middle Ages in the western lands of Azerbaijan, in the territory of the present Republic of Armenia, which were established during the Soviet rule in the 20th century. It is noted that this process started after the massive resettlement of Armenians to the lands of Azerbaijan including the territory of the Iravan Khanate, during the XIX century and had been continued throughout the XX century. After the so-called Nagorno-Karabakh problem, which arose in 1988, and the expulsion of the local Muslim-Turkish population from their historical lands in Western Azerbaijan, this case became more massive. In the territory of Western Azerbaijan,t he Turkish-Islamic cultural monuments created by Azerbaijani folk artists during the Middle Ages were destroyed by various means, or they were pretend as the cultural heritage of other nations.

Key words: *Western Azerbaijan, Armenia, epigraphic monument, inscription, Pir Huseyn tomb, Akhi Tawakkul zaviya, Urud cemetery, Selim caravansary, vandalism.*

"QARA" KOMPONENTLİ TOPONİMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Mahirə HÜSEYNOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Azərbaycan xalqının soykökünü, etnogenezisini və yaxud da təşəkkül tarixini araşdırarkən indiki Ermənistan ərazisində mövcud olmuş türkmənşəli "qara" tərkibli yer-yurd adlarından da yan keçmək olmaz. Bu nöqteyi-nəzərdən xalqımızın qədim zamanlardan yaşadığı bütün regionlarda, o cümlədən də indiki Ermənistanda eramızdan əvvəl VIII-V əsrlərdən və ilkin orta ərslərdən yayılmış zəngin və rəngarəng məna çalarına malik olan türk-Azərbaycan mənşəli "qara" tərkibli toponimlərin öyrənilməsinin tarixi-siyasi əhəmiyyəti olduqca böyükdür. "Qara" komponentli toponimlər Qərbi Azərbaycanın xüsusi ad sistemində xüsusi lay təşkil edir və onlar xalqımızın etnik tarixinin, xüsusilə etnogenezisi probleminin araşdırılması üçün ən zəngin və dəyərli mənəvi sərvətlərdən və mənbələrdəndir. Tarixi mənbə rolunu oynayan "qara" tərkibli toponimlər xalqımızın mənşəyi, etnosları, tayfaları, qəbilələri, tipləri, nəsillər onların yayılma mənzərəsi, etnonim, oronim, hidronim yaradıcılığındakı mövcud qanunauyğunluqları, coğrafi adların yayılma arealları və paralelləri ekstralinqvistik təsirlərə məruz qalmaları, qədim türk elementlərini qoruyub saxlaması haqqında zəngin məlumatlar mənbəyidir

Açar sözlər: *türk-Azərbaycan mənşəli toponimlər, erməni barbarlığı, türkdilli xalq, etnonim.*

Giriş

İndiki Ermənistan ərazisində Azərbaycan mənşəli toponimlər sistemində "qara" komponentli yer-yurd adları da çoxluq təşkil edir və onların tarixi-etimoloji, leksik-semantik ehtiyatlarının dərindən analizi xüsusi araşdırma mövzusu ola bilər. Oykonimik, oronimik, hidronimik sistemdə "qara" sözü müxtəlif məna çalarları ifadə edir. Bu onu göstərir ki, toponimik sistemdə "qara" sözü "qaranlıq", "zülmət", "tutqun", "sərt", "qəmli", "kədərli", "mal-qara", "yığın", "bədbəxt", "dəstə", "camaat", "qoşun", "xalq", "quru", "torpaq", "təpə" və s. mənalarında işlənir. Qərbi Azərbaycanın "qara" komponentli küllü miqdarda yer-yurd adlarının tərkibində onun ən çox mühafizə olunmuş məna çaları zəng anlamı bildirmişdir. İndiki Ermənistan ərazisində mövcud olmuş "qara" komponentli toponimlərin riyazi hesablama üsulu ilə mənzərəsini təxmini olaraq aşağıdakı kimi vermək olar: *Qara Abdal (1), Qaraağıl (1), Qarabağ// Qarabağlar (8), Qarabaşlar(1), Qarabayram (1), Qarabəkir (1), Qaraboya (1), Qarabörk (1), Qarabulaq (11), Qaraburan (5), Qaravəli (4), Qaravəng (3), Qaraviran (4), Qaraqaya (8), Qaraqala (2), Qarağac (2), Qaraqaş (1), Qaraqışlaq (8), Qaraqovmaz (2), Qaraqoqlu göl (1), Qaraqoyunlu (9), Qaraqubad (2), Qaraquzey (1), Qaraqulu (2), Qaraqarqan (2), Qaradağlı (1), Qaradaş (4), Qaradəli (1), Qaradərə (1), Qaradığa (1), Qaraəhmədli (1), Qarakeşiş (1), Qarakəndi (1), Qarakilis// Qarakilsə (18), Qarakollu (1), Qarakoy (1), Qaraköynək (1), Qarakil (1), Qaragöl (4), Qaragüney (1), Qaral (1), Qaraltəpə (6), Qaramahmud (1), Qaraməmməd (1), Qaraməcid (1), Qaramurad (1), Qaranamaz (1), Qaranəbi (1), Qaralıq// Qaralıx (6), Qaralıqtəpə (1), Qaralıqdərə (1), Qaranta (1), Qarança (2), Qaraözən (3), Qaraüzən (1), Qarapapax (1), Qarasaqqal (2), Qarasu (2), Qarasur (1),*

Qarataq (1), Qaratap (1), Qaratəpə (9), Qaratorpaq (2), Qaraürək (2), Qaraxanlı (1), Qaraxaç (7), Qaraxədim (1), Qaraxud (1), Qarahasar (2), Qarahaçalı (2), Qarahəmzəli (1), Qarahəsənli (2), Qarahüseynli (1), Qaraçay (1), Qaraçala (1), Qaraçanlu (1), Qaraçantu (1), Qaraçim (1), Qaraçimən (1), Qaraçılı (2), Qaraçınqılı (2), Qaraçoran (1), Qaraçoban (1), Qaraçubuq (1), Qaraçumax (1), Qaraçurax (1), Qaracaabdal (2), Qaracaviran (5) və s. [1,178-190].

Tarixin müxtəlif dönəmlərində "qara" komponentli bu tip yer-yurd adlarının bəziləri yaşayış məntəqə adına bəziləri isə oronimik, hidronimik vahidlərə transformasiya edilmişdir və bunlar aşağıdakılardan ibarətdir: Qaraboya kənd adı 1946-cı ildə dəyişdirilərək ermənicə Xakoyan, Qarabulaq oykonimi (Abaran rayonu) 1946-cı ildə ermənicə Yepincə - Tup, Qaraburun oykonimi 1950-ci ildə ermənicə Karmrasen, 1965-ci ildə Karakert, Qaraqala (Qırxbulaq mahalı) kəndi adı 1948-ci ildə ermənicə Sevabert, Qaraqışlaq oykonimi 1991-ci ildə ermənicə Hayanik, Qaraqovmaz kənd adı 1978-ci ildə Ferik, Qaraqala oykonimi 1946-cı ildə Qetup, Qaradağlı kənd adı 1995-ci ildə Tsaxkaşen, 1967-ci ildə Mrqvan, Qaradaş toponimi 1946-cı ildə Sevkar, Qarakilsə oykonimi 1940-cı ildə Sisivan, Qarakilsə oykonimi 1978-ci ildə Lerntovit, Qarakilsə türk oykonimi 1995-ci ildə Axarik, Qaragöl hidronimi Kariliç, Qaral oykonimi 1946-cı ildə Katinaxpur, Qaralar 1978-ci ildə Aralas, 1935-ci ildə Şevkar, Qaraməmməd oykonimi 1946-cı ildə Meğraşen, Qaranamaz 1990-cı ildə Aqorovik, Qaranlıq oykonimi 1968-ci ildə Qexovit, Qaranlıq oykonimi 1948-ci ildə Lyusaryaq, Qaranlıqdərə oronimi əvvəlcə Xurovadzor, 1990-cı ildə Areknadam, Qarasu hidronimi 1935-ci ildə Seveur, Qaraxaç oykonimi 1978-ci ildə Lyusazoğ, Qarahəmzəli oykonimi 1950-ci ildə Barustan, Qaraçanta oykonimi 1990-cı ildə Areknadam, Qaraçoran yaşayış məntəqə adı 1946-cı ildə Araqyaq adlandırılmışdır [1, 178-180].

İstər müasir Azərbaycan ədəbi dilində, istərsə də dialektal arealında "qara" sözü yalnız rəng anlamında işlədilmir. Müasir türk dillərində, o sıradan Azərbaycan türkcəsinin ədəbi dilində "qara" sözü rəng mənası ilə bərabər digər mənaları da bildirir. Həmin sözün arxaik məna çalarları türk dillərinin lüğət tərkibinin digər yaruslarından fərqli olaraq toponimlərdə daha çox mühafizə olunmuşdur. "Qara" sözünün dialekt arealındakı məna çalarlarını aşağıdakı kimi sistemləşdirmək olar: 1) böyük, nəhəng, güclü, qüvvətli; 2) yas; 3) sadə, adi; 4) pis ruh, qatı, bədbəxt; 5) torpaq, təpəlik, dağlıq yer; 6) kütlə, camaat, əhali; 7) iri, yoğun. Bu məna çalarlarından bəziləri yazıdan əvvəlki, bəziləri isə yazıdan sonrakı dövrləri əhatə edir. Yazıdan əvvəlki dövrlərə daha çox oronimik vahidləri – dağ, dərə, təpə adlarını aid etmək daha düzgün olardı.

Qərbi Azərbaycanın "qara" komponentli toponimlərinin ikinci hissəsini, əsasən, türkmənşəli coğrafi terminlər təşkil edir və bunlar oronimləri, və eyni zamanda oykonimləri əhatə edir. Bunlara nümunə olaraq Qarağıl, Qaraarxal, Qaraboya, Qarabulaq, Qaraburun, Qaraqaya, Qaraqala, Qaravəng, Qaraqaş, Qaraqışlaq, Qaraquzey, Qaradağ, Qaradaş, Qaradərə, Qarakənd, Qaragüney, Qaraörən, Qaraüzən, Qaratop, Qaratəpə, Qaratəp, Qaratorpaq, Qarahasar və s. orooykonimlərini göstərmək olar. Tarixin müxtəlif dönəmlərində belə strukturdan olan yer-yurd adlarının oronimlərə və bu xüsusda orooykonimlərə transformasiyası güclü olmuşdur.

"Qara" tərkibli toponimlərin ikinci tərəfinin tayfa adı ilə ifadə olunması halları da

Qərbi Azərbaycanın toponimik sistemində müəyyən bir təbəqə təşkil edir: Qara Abdal, Qarabörk, Qarakilsə türk, Qarahacılı, Qaracaabdallı və s. İkinci komponenti antroponim, birinci tərəfi "qara" tərəfli etnooykonimlər də Qərbi Azərbaycanın toponimik sistemində xüsusi lay təşkil edir: Qaraməmməd, Qaraməcid, Qaramurad, Qaranamnə, Qaranəbi, Qarahəsənli, Qarahüseynli və s. "Qara" sözünə qoşularaq metaforik termin səciyyəsi kəsb edən və toponim yaradıcılığında aktiv çıxış edən "qaş", "burun", "baş" sözlərinin maraqlı yozmaları vardır. Gorus rayonu ərazisindəki Qarabaşlar kənd adı tarixən qara+baş+lar (kök+kök+şəkilçi modeli) tərkibləri əsasında formalaşmışdır. Bəzi türkoloqlar şumerləri xarici görkəmlərinə görə "Qarabaşlar" kimi də adlandırmışlar. Qarabaşlar yer adı oykonim kimi işləndikdə "qara" sözü rəng mənasını, oronim kimi çıxış etdikdə "böyük" anlamını ifadə edir. Qarabaşlar oykonimində tarixən həmin ərazidə yaşayan etnosun başındakı saçın rəngi əsas götürülərək adlandırma bunun üzərində qurulmuşdur. Çağdaş türkcələrdə insanın bədən üzvlərindən birinin adını bildirən "baş" sözü qohum dillərdə tarixən "dış" şəklində işlənmişdir və B.Əhmədov həmin sözün yozmasını belə təqdim edir: "*Süfrənin başına yığılan" deyirik, amma süfrədə baş olmur. Buradakı "baş" kəliməsi "daş" (dış) sözünün təhrif formasıdır, "kənar, ətraf" deməkdir. "Başına dolanım" (dışına), cümləsindəki "baş" da belədir. Deməli, tarixən "dış" kimi olmuş söz sonradan təhrif edilərək "baş" formasına düşüb* (2,39). Qərbi Azərbaycan ərazisində "qara" və "burun" komponentli 3 toponim olmuşdur. Metaforik termin səciyyəli "burun" sözünün mənası "ön, qabaq" deməkdir və dağ "burun" formalı qurtaracağına, ön hissəyə, irəliyə çıxmış şəklinə görə belə adlandırılmışdır. Etimoloji lüğətlərdə də "burun" sözünün mənası "qabaq" kimi açıqlanmışdır. Fikrimizcə, "burun" sözü qabağa doğru çıxmış deməkdir. "Qara" və "qaş" metaforik termin səciyyəli Qərbi Azərbaycanın Qırxbulaq nahiyəsində Qarağaş oykonimi mövcud olmuşdur. "Qaş" sözü insanın bədən üzvlərindən birinin adıdır, toponim yaradıcılığında fəal çıxış edir. Fikrimizcə, "qaş" sözü "hündür, yuxarı" anlamlarındadır. "Qaş qaralanda", "üzük qaşı", "dağın qaşı", birləşməsində də "qaş" sözü "hündür, yuxarı" anlamlarında işlənmişdir. "Qaş" bədənin, dağın, səmanın, göyün yuxarı hissəsində olduğuna görə belə ad almışdır. Qaraqaş oykonimində "qara" rəng anlamında "qaş" sözü isə "hündür, yuxarı" anlamlarında işlənir, yəni dağın yuxarı, hündür hissəsinin qara rəngdə olmasına işarə edilir.

İndiki Ermənistan ərazisində birinci tərəfi "qara", ikinci komponenti "ağac" sözündən ibarət "Qarağac" fitooykonim qeydə alınmışdır. Fitooykonimin mənasını, "qüvvətli", "möhkəm" anlamlarında izah etmək daha ağlabatan görünür, çünki həmin ərazinin coğrafi relyefi bərk, möhkəm ağac növü ilə çox olduğundan oykonim belə adlandırılmışdır.

Qaraçı toponimində "qara" sözünün digər bir mənası "insan qrupu" deməkdir. Xəyanətkar ermənilərə azərbaycanlılar tərəfindən verilən digər bir ad "qaraçı" sözüdür. Vandal ermənilərin xarakter və xasiyyətində qaraçılıq sindromu güclü olduğundan bu topluma belə ad verilmişdir. El arasında deyilir ki, "filankəs qaraçıdır", "qaraçılıq eləmə" və s. qaraçı toponiminin mənası "boş yerə hay-küy, haray-qışqırıq salan, kölgəsindən hürkən, qorxan" deməkdir. "Qara, kara" sözü türkcədən hind dilinə keçmiş, haylar Hindistandan köç edərkən bu sözü özləri ilə gətirmişlər. Haylar Hindistanın Karçi

əyalətindən bu yerlərə gəldiklərinə görə oykonim belə adlandırılmışdır. Toponimin hər iki komponenti kök və şəkilçi hissələri türk dillərinə məxsusdur və -çı şəkilçisi mənsubluq, aidlik bildirir. Türk xalqlarında qaraçı haylar "nankor, kölgəsindən hürkən" kimi də səciyyələndirilmişdir.

İndiki Ermənistan ərazisində "qara" və "xaç" sözləri əsasında formalaşmış 8-ə qədər oykonim mövcud olmuşdur. Qaraxaç təkrarlanan oykonimlərində qara sözü rəng mənasını ifadə edir. Belə ki, IV-V əsrlərdə albanlar qara rəngli daşların üzərinə xaçvari şəkillər çəkdiklərinə görə orooykonimlər, hidrooykonimlər belə adlandırılmışdır.

Qaraabdallı etnoyokoniminin tərkibindəki "qara" sözü arxaik məna çalarına görə "igid, qoçaq, cəsur" anlamını bildirir. Abdallar qədim hunların törəmələrindən olub, Qərbi Azərbaycan ərazisində eradan əvvəl VI əsrdə məskunlaşmışlar. əksər toponimik lüğətlərdə göstərilir ki, *"VI əsrdə Şimali Qafqazın Hun əyalətində digər türkdilli etnoslarla bərabər abdal tayfaları da yaşamışlar. Qazaxıstanda, Türkmənistanda, Türkiyədə, Tatarıstanda, Əfqanıstanda, Gürcüstanda abdal komponentli toponimlər geniş yayılmışdır. Bu tayfa V-VI əsrlərdə Orta Asiyanı, Əfqanıstanı, Çin Türküstanını əhatə etmişdir"* (3,6;4,8). *Abdal etnotoponiminin paralellərinə Ağdam, Ordubad, Tovuz, Oğuz tayfaları ərazisində də rast gəlinir"* [4,8-9].

İndiki Ermənistan ərazisi "qara" komponentli 8-ə qədər "Qarabağ" adlı etnotoponimlər qeydə alınmışdır. Qarabağ etnosları eramızdan əvvəl türkdilli xalqlar yaşayan ərazilərdə mövcud idi və onların Qafqaza gəlişi Kəngər-peçeneqlərin tərkibində yeni eranın ilk illərinə təsadüf edir. Qarabağ, Qarabağlar, Qarabağlı, Qarabağ Kəbir və s. etnotoponimlər göstərir ki, "qara" və "bağ" komponentləri türkcələrdə müstəqil sözlər kimi ta qədimdən fəaliyyət göstərmişdir. "Qara" sözü arxaik məna çalarına görə "Qarabağ" etnotoponimində "böyük" anlamını ifadə edir. Bu sözün kökü "bağlamaq" feili ilə çox yaxındır, qohumdur. Qarabağ tayfaları tarixən meyvə və digər bağ və bağat sahələrini hasara alıb, çəpərləyib qoruyurdular ki, həmin etnotoponim peşə və məşğuliyyətlə əlaqədar yaranmışdır. Belə də ehtimal etmək olar ki, həmin etnotoponimin tərkibindəki "qara" sözü "torpaq" mənasını da ifadə edə bilər. Belə olduqda həmin etnotoponimin mənasını "çəpərlənmiş yer-yurd, hasarlanmış ərazi" anlamında dərk etmək də mümkün olan haldır.

Qaradağlı tayfası tarixən qızılbaşlar etnosundan törəmişlər və onlar nəinki indiki Ermənistan ərazisində, eyni anlamda türkdilli xalqlar yaşayan ərazilərdə geniş yayılmışdır. "Qara" sözü bu toponimlərdə də böyük anlamını, dağ sözü isə relyef bildirən coğrafi termin kimi işlənmiş və buradan tayfa adına transformasiya olunmuşdur.

Nəticə

Digər toponimik qruplar kimi, "qara" komponentli yer-yurd adları da Azərbaycan xalqının mənəvi sərvətidir. Onları heç vaxt, heç yerdə dəyişdirmək, təhrif etmək olmaz. Təəssüf ki, vandal erməni xalqı bu sistemə daxil olan oykonimləri, hidronimləri, oronimləri dəyişdirərək, öz dillərinə tərcümə edərək tanınmaz hala salmışlar. Halbuki, araşdırmalar göstərir ki, bu forma və quruluşdan olan toponimlər xalqımızın bu yerlərdə formalaşmış, təşəkkül tapmış ünvanı rolunu oynayır.

ƏDƏBİYYAT

1. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. – Bakı: "Nasta-Press", – 1998, – 452 s.
2. Əhmədov B. Etimologiya lüğəti (araşdırmalar, mülahizələr). – Bakı: Altun kitab, – 2015, – 288 s.
3. Əhmədova E. Azərbaycan dilinin etnonimlər lüğəti. Bakı: Elm və təhsil, 2017
4. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. "Azərbaycan ensiklopediyası" NPB. – Bakı: – 2000, – 588 s.
5. Məmmədli Ş. Parçalanmış Borçalım. – Bakı: Azərnəşr, – 1992.

QƏRBİ AZƏRBAYCANIN USTAD SƏNƏTKARI – AŞIQ KAMİL TEYMUROĞLU

Əsgər QƏDİMOV
asker_qadimov@mail.ru
Naxçıvan Dövlət Universiteti

Açar sözlər: *Aşıq Kamil, Çağdaş Naxçıvan aşıqları, vətən mövzusu, vətən həsrəti, didərgin düşən aşıq Kamil, Çalxanqala*

Çağdaş Naxçıvan aşıqları içərisində Aşıq Kamil xüsusi yer tutur. O, 1948-ci il yanvar ayının 4-də Qərbi Azərbaycanın Əzizbəyov (əvvəlki Paşalı) rayonunun Gomür kəndində anadan olmuş, ilk təhsilini bu kənddə almışdır. O, aşıqlıq sənətini əmisi Sərxan Alxan oğlundan öyrənmişdir.

1988-ci ildə Qarabağ hadisələri zamanı digər qaçqınlar kimi, Aşıq Kamil də öz doğma ata-baba yurdunu tərk etmək məcburiyyətində qalmış və Naxçıvan MR Kəngərli rayonunun Çalxanqala kəndində məskunlaşmışdır. O, 1993-cü ildən etibarən Çalxanqala kənd uşaq musiqi məktəbində saz sənətindən dərs demiş, bu məktəbdə ayrıca "Sazçı qızlar" ansamblı da yaratmışdır.

Aşıq Kamil Azərbaycan aşıqlar qurultayının iştirakçısı da olmuşdur. O, 29-30 avqust 2008-ci il tarixlərdə Azərbaycan aşıqlarının Bakı şəhərində keçirilən beşinci qurultayında iştirak etmiş və bu qurultayda Naxçıban MR aşıqlarını təmsil etmişdir.

Aşıq Kamilin yaradıcılıq yolu zəngin və əhatəlidir. O, öz şeirlərində vətənpərvərlik mövzusuna üstünlük vermiş, vətən taleyi problemini aşıq sənətinin əsas leytmotivinə çevirmişdir. Vətən mövzusu və vətənə bağlılıq aşığın öz doğma yurdundan didərgin düşməsindən, nə vaxtsa öz doğma el-obasına qayıtmaq ümidi ilə yaşamasından irəli gəlir. O, bu mövzuda yazdığı şeirlərinin birində vətən torpağına olan sonsuz məhəbbətini ifadə edərək yazır:

Vətən müqəddəsdir, vətən gözəldir,
Çiçəyin çəmənə naxışı kimi.
Ürəyim sıxılır, gözüm ağlayır,
Bahar buludunun yağışı kimi.

Vətənə bağlılıq, vətən həsrəti, bu yolda çəkdiyi qəm-qüssə və kədər Aşıq Kamilin vətən mündəricəli şeirlərinə dərin pessimist ruh verir. Aşığın bu mövzuda qələmə aldığı şeirlərində nikbinlik yoxdur:

Həmişə ağladım, bir yol gülmədim,
Dağınıq xəyalla rahat olmadım,
Qürbətin baharın sevə bilmədim,
Vətənin şaxtalı bir qışı kimi.

Kamil qan ağlayır telli sazıyla,
Bülbül güllə, el sevinər sazıyla.
Baxıram vətənə həsrət gözüylə,
Kərəmin Əsliyə baxışı kimi.

Bu yanıqlı misralar Oğuz igidlərinə yalvaran Dədə Qorqud xislətli bir ozanın, bir dədənin vətən üçün fəryadı, onun ah-naləsidir. Aşıq ayrı düşdüyü vətəninin Gömür, Köçbəy, Cul kimi bölgələrinin didərgin qaçqınlarını xatırlayır:

Ayrılmaq çətindir vətəndən, eldən,
Bülbül ayrı düşüb çəməndən, güldən.
Gömürdən, Köçbəydən, səfalı Culdan
Didərgin düşənlər gəlsin, ağlasın!

Məlumdur ki, azərbaycanlılar öz dədə-baba yurdları olan Qərbi Azərbaycan torpaqlarından zorla didərgin salındıqdan sonra ermənilər Azərbaycan ərazilərinin adlarını tarixdən silmək məqsədilə bütün yer adlarımızı dəyişdirmiş, həmin ərazilərdəki Azərbaycan toponimlərinin hamısını kütləvi şəkildə ermənileşdirmişlər. Qəmərlini–Artaşat, Dəvəlini–Ararat, Xankəndini–Stepanakert, Almalını–Xınzorut, Basarkeçəri–Vardanes, Paşalını–Zaritap, Culu–Ardavan, Sultanbəyi–Barcirun, Arazdəyəni Eraxs edən ermənilər bu yolla türk torpaqlarını süni yolla özəlləşdirmək məqsədini güdmüşlər. Ermənilərin bu məkrli siyasətləri, tarixi saxtakarlıq və özbaşınalıqları Aşıq Kamilin yaralı qəlbini dağlatmış və o, bu tarixi təcavüzə aşağıdakı şeiri ilə cavab vermişdir:

Qəmərlini Artaşat eylədi Aşot,
Dəvəli nə üçün oldu Ararat?
Gözəl Qarabağa oldu xəyanat,
Xankənd Stepanakert olandan bəri.

Xınzorut qoyuldu Almalı adı,
Basarkeçər vardı, Vardanis nədi?
Paşalı kəndinin qopdu fəryadı,
Zaritap adını alandan bəri.

Cul adı silindi, Ardavan oldu,
Terpin də ləqəbi Saravan qaldı.
Sultanbəy dəyişdi, Barçirun oldu,
Karen İrəvana gələndən bəri.

Arazdəyən birdən Eraxsa döndü,
Marmraşen oldu Həmzəli kəndi.
Adları dəyişmək çox asan oldu,
Silva Moskvada olandan bəri.

Şeirdə Rusiya ilə Ermənistanın Azərbaycana qarşı yönəlmiş mürtəce siyasəti, Aqambekyan, Balayan, Gevorkov və Vazqen kimi hiyləgər şovinistlərin Qorbaçovla əlbirliyi, Arpaçaydan Göyçə gölünə (Ermənilər bu gölün adını dəyişib Sevan etmişlər)

tunel çəkmələri faktları bir-bir açıqlanır, rus və erməni riyakarlığı üzə çıxarılır:

Aqambekyan yaman hiylələr qurdu,
Balayan fikrini irəli sürdü.
Vazqen də milləti bir-birə vurdu,
Qorbaçov arxayın salandan bəri.

Tərsinə çəkildi Arpaçay kəndi,
Dərələyəz dağıldı, virana qaldı.
Gümüşlü, Mərətüş, Dəmirçi kəndi
Qəm çəkir xaraba qalandan bəri.

Aşıq Kamil şeirdə Qarabağ probleminə, ermənilərin Rusiya tərəfindən başqa dövlətlərin ərazilərindən çıxarılıb Azərbaycan ərazilərində yerləşdirilməsi və Azərbaycan torpağında saxta erməni dövləti yaradılması və Rusiyanın bu yolla özünün Qafqaz siyasətini həyata keçirməsi faktına da toxunur:

Daşnaklar qovulub özgə diyardan,
Bilmirəm tarixə düşüblər hardan?
Qarabağ xəstədir, çıxmır azardan,
Gevorkov avkomda olandan bəri.

Rus və erməni şovinistlərinə qarşı tarixi yaddaşımızı bir daha təzələyən Aşıq Kamil şeirin sonunda öz doğma el-obasından – Qayalı, Novlar, Göyərçin, Qaralar, Arınc, Bulaqlar, Daşaltı, Daylaqlı, Ağkənd və Çıraqlar kimi ata-baba kəndlərindən ayrı düşməsinə acıyır və öz dərdini, kədərini bu misralarla ifadə edir:

Kamilin gördüyü Qayalı, Novlar,
Göyərçin, Qaralar, Arınc, Bulaqlar,
Daşaltı, Daylaqlı, Ağkənd, Çıraqlar,
Yoxdurlar, adların siləndən bəri.

Aşıq Kamil siyasi hadisələrin kəskin tüğyan etdiyi bir zamanda Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlib Vətəni mürtəce qüvvələrin caynağından qurtarmasını böyük sevinclə qarşılayır. Aşığın "Bəri" rədifli qoşmasında Heydər Əliyev Azərbaycan xalqının milli xilaskarı kimi vəsf edilir:

Çəkib dırnaqlardan Vətəni aldı,
Əsrinə görkəmli bir dahi oldu.
Xalqını azadlıq yoluna saldı,
Ölkəyə prezident gələndən bəri.

Şeirdə Ulu öndərin dünyasını dəyişməsi böyük milli matəm kimi səciyyələndirilir. Aşıq bu milli matəmə ictimai məzmun verir, bütün təbiətin, vüqarlı dağların, ağbirçək anaların qara geyib Ulu öndərə yas saxlamasını Azərbaycanın böyük rəhbərə olan tükənməz sevgisi kimi mənalandırır:

Dağlar çənə düşdü, göylər ağladı,
Əliyev Vətəndən gedəndən bəri.
Ağbirçək analar qara bağladı,
Sərkərdə məzara enəndən bəri.

Şeirdə Aşıq Kamil Ulu öndərdən sonra hakimiyyətə gələn və öz daxili və xarici siyasəti ilə Azərbaycanı bütün dünyada tanıdan cənab İlham Əliyevin ictimai-sosial və siyasi fəaliyyətini də böyük fərəhlə tərənnüm edir:

Çoxları meydanda atını çapdı,
Getmədi düz yola, yolunu sapdı.
Kamil də özünə təsəlli tapdı,
İlham prezident olandan bəri.

Aşıq Kamilin yaradıcılığında onun qaçqınlıq həyatının sonrakı mərhələsini əks etdirən dəyərli şeirləri də vardır. Doğma ana yurdu Dərələyəzdən ayrı düşən Aşıq Kamil pənah gətirib məskunlaşdığı Naxçıvan torpağına da Azərbaycanın döğma bir guşəsi kimi baxır. O, Naxcıvanı qaçqınlara qucaq açıb onları azad bir həyata qovuşduran bir vətən yurdu kimi qiymətləndirir:

Azadlıq şirin nemətdir,
Oldu payı Naxçıvanın.
Toy-bayramdır, bir büsatdır
İli, ayı Naxçıvanın.

Aşıq Kamil şeirdə Naxçıvanın qədim soykökünə də yüksək qiymət verir, onu türkə qardaş olan türk yurdu kimi səciyyələndirir:

Əyilməzdir, saf poladdır,
Türkə qardaş, türkdən sərtdir.
Düşməninə ağır dərddir,
Əsli, soyu Naxçıvanın.

Aşıq Kamilin yaradıcılığında ictimai-siyasi mövzularla yanaşı, lirik mövzular da müəyyən qədər yer tutur. Təbiət mövzusu, peyzaj lirikası aşığın lirik yaradıcılığına xüsusi təravət gətirir. Xüsusilə Aşıq Ələsgər yaradıcılığından gələn təbiət mövzusu Aşıq Kamilin peyzaj lirikasında ayrıca yer tutur. Aşıq Kamil də Aşıq Ələsgər kimi vətən dağlarının təbii gözəlliklərini nəzmə çəkir və peyzaj lirikasının xüsusiyyətlərini el dilində tərənnüm edir. O, əvvəlki "Dağlar" şeirində vətənindən didərgin düşdüyü üçün dağlarsız darıxdığını izhar edirdisə, aşağıdakı şeirində vətən təbiətinin dağlarını peyzaj lirikasının təsviri fonunda canlandırır.

Şeirin sonunda aşıq öz vətəninə, ürəkdən bağlandığı ata-baba yurdu Dərələyəzə olan sevgisini lirik dildə ümumiləşdirir:

Kamil, sev Dərələyəzi,
Yer üzündə yox əvəzi.
Göy çəməni, gül-nərgizi,
Loğman imiş çayın, dağlar.

Aşıq Kamilin yaradıcılığında klassik poeziyadan və aşıq şeirindən gələn tərbiyəvi, didaktik mövzular da müəyyən qədər yer tutur. Bəzi şeirlərində aşıq nəsihət verən el ağsaqqalı kimi çıxış edərək insanları müxənnətlə dostluq etməməyə çağırır:

Gözünlə gör, yaxşı düşün,
Hər cür insan var dünyada.
Müxənnətlə dostluq etmə,
Yerin olar dar dünyada.

Deyilənlər təsdiq edir ki, Aşıq Kamil çağdaş Naxçıvan aşıqları içərisində özünün yaradıcılıq qəst-xətti ilə sayılıb seçilən aşıq-şairlərdəndir.

ƏDƏBİYYAT

1. Qədimov Ə. XVII-XX əsrlər və çağdaş Naxçıvan aşıqları. İki cilddə. II cild, – Naxçıvan: "Əcəmi" nəşriyyatı, – 2017.
2. Qədimov Ə. Vətən həsrətli aşıq-şair. NDU-nun "Elmi əsərlər" i (humanitar elmlər seriyası), – 2013, №2 (54).
3. Əsgərli S. Aşıq Kamil və onun yetirmələri. "Şərq qapısı" qəzeti, – 13 mart 2009.

SUMMARY

Asger Gadimov

MASTER ARTIST OF WESTERN AZERBAIJAN– ASHIQ KAMIL TEYMUROGLU

The article deals with the life and creativity way of Ashug Kamil, one of the contemporary Nakhchivan ashugs, as well as his political- lyrical poems on the theme of native land, Karabagh and nature are analyzed and appreciated.

Key words: *Ashug Kamil, Contenporary Nakhchivan ashugs, theme of native land, homeland thinkness, nomadic ashug Kamil, Chalhangala*

MƏHƏMMƏD AĞAOĞLUNA DAİR YENİ FAKTLAR

Dilqəm ƏHMƏD
dilgamahmad@gmail.com

1920-ci ildə Azərbaycan Cümhuriyyətinin işğalından sonra İrəvan bölgəsindən olan ictimai-siyasi xadimlərin, ziyalıların, tacirlərin bir qismi başda Türkiyə olmaqla müxtəlif ölkələrə mühacirətə getdilər. Həmin şəxslər arasında Əkbər ağa Şeyxülislamzadə, Məhəmməd Məhərrəmov kimi dövlət xadimləri ilə yanaşı, Əli Aran, Qafar Güney, Tahir Mehmandarlı, Nağı Odoğlu və s. kimi müxtəlif ixtisasa malik insanlar da vardı.

İrəvanda doğulan, mühacir həyatı yaşayan elm xadimlərimizdən biri də Məhəmməd Ağaoğlu idi. O, Azərbaycanda ilk İstiqlal Muzeyinin qurucularından olub, bir müddət Türkiyədə yaşayıb. 1929-cu ildə ABŞ-yə gedərək Detroyt İncəsənət İnstitunun Yaxın Şərq şöbəsini qurub. 1938-ci ilədək bu institutda çalışıb. Ağaoğlu 1933-1938-ci illərdə Miçiqan Universitetində də işləyib, İslam İncəsənəti Tarixi kafedrasını qurub, eyni zamanda "Ars İslamica" jurnalını təsis edib. 1935-ci ildə onun "XV əsr İran kitab cildləri" adlı monoqrafiyası çap edilib. Məhəmməd Ağaoğlu 1949-cu ildə Detroytda vəfat edib. Onun haqqında professor Ədalət Tahirzadə, professor Vilayət Quliyev, Mövsüm Əliyev, Zeynep Simavi, Ömər Özcan geniş məqalələr yazıblar.

Bu məqaləmizdə Məhəmməd Ağaoğlu haqqında Türkiyə arxivlərində və mətbuat səhifələrində yer alan yeni faktlardan istifadə edilərək bioqrafiyası zənginləşdirilib.

Açar sözlər: *İrəvan, Məhəmməd Ağaoğlu, "Ars İslamica", İstiqlal Muzeyi, Azərbaycan*

Giriş

Məhəmməd Ağayev. Təhsili və fəaliyyəti

Məhəmməd Ağayev (Türkiyə və Amerikada Ağaoğlu) 6 sentyabr 1895-ci ildə İrəvanda doğulub. Atası Həsən bəy, anası Ümmülbanı xanım Hacı Rəhim qızı olub. 1904-1912-ci illərdə Moskvada orta təhsil alıb. 1914-1916-cı illərdə Moskva Universiteti nəzdindəki Lazarev Şərq Dilləri İnstitutunda oxuyub, daha sonra İrəvana qayıdıb. 18 mart 1918-ci ildə Osmanlı İmperatorluğunun 1-ci dərəcəli hərbi ordeni ilə təltif edilib. Həmin il ailəsi ilə birgə Bakıya köçən Məhəmməd bəy Azərbaycan Cümhuriyyəti dövründə məmur kimi çalışıb. 22 aprel 1919-cu ildə daxiliyyə nazirinin katibi təyin edilib. Cümhuriyyət dövründə gördüyü ən mühüm işlərdən biri İstiqlal Muzeyinin qurucularından olmasıdır. 1919-cu il dekabrın 7-də Məhəmməd Ağayevin və *Hüseyn bəy Mirzəcamalzadə*nin təşəbbüsü ilə Azərbaycanın ilk rəsmi muzeyi – İstiqlal Muzeyi təsis edilib. Cümhuriyyətin işğalından sonra Xalq Maarif Komissarlığının əmri ilə o, *Arslan Kriçinski* və Hüseyn bəy Mirzəcamalzadə ilə birgə 24 may 1920-ci ildən XMK nəzdindəki abidələrin qorunması altbölümü kollegiyasının üzvləri təyin ediliblər. 1921-ci ildə ali təhsilini tamamlamaq üçün dövlət təqaüdçüsü olaraq Almaniyaya getməsinə qərar verilib.

Bir müddət İstanbulda qalan Ağaoğlu 1923-1924-cü illərdə Berlində Yena Universitetində klassik arxeologiya, erkən xristian və Qərbi Avropa sənəti oxuyub. 1924-1927-ci ildə Vyana Universitetində təhsil alıb. 1927-ci ildə İstanbula qayıdan Məhəmməd bəy burada dövlət muzeyində "Çinili köşk"də islam mədəniyyəti şöbəsinə rəhbərlik edib.

Eyni zamanda İstanbul Universitetinin İncəsənət kafedrasının müdiri olub. Həmin il *Türküstan və Azərbaycanı Öyrənmə Dərnəyi*nin də qurucu üzvü kimi fəaliyyət göstərib. 1928-ci ildə isə Türk və İslam Əsərləri Muzeyinin müdir müavini vəzifəsini icra edib.[1]

1929-cu ildə Məhəmməd bəy ABŞ-yə gedərək Detroyt İncəsənət İnstitutunun Yaxın Şərq şöbəsini qurub. Bununla bağlı İstanbulda nəşr edilən *"Odlu Yurt"* jurnalında aşağıdakı məlumat verilib: *"Gənc Azərbaycan alimlərindən İstanbul Darülfünunu islam sanayi-I nəfisəsi müəllimi və evqaf müzəsi müdiri, Vyana Darülfünunu İslam sanayi-i tarixi şöbəsindən məzun Ağaoğlu Məhəmməd bəyə Amerikada kain Miçiqan Darülfünunu tərəfindən Şərq sanayi-i nəfisəsi professorluğu təklif edilmişdir. Məhəmməd bəy vüqu bulan bu təklifi qəbul eyləmiş və haziranda maaaile*[2] *Amerikaya əzimət edəcəkdir".*[3]

Ağaoğlu 1938-ci ilədək Detroyt İncəsənət İnstitutunda, eyni zamanda 1933-1938-ci illərdə Miçiqan Universitetində çalışıb, İslam İncəsənəti Tarixi kafedrasını qurub, həmçinin "Ars İslamica" jurnalını təsis edib. 1935-ci il də onun *"XV əsr İran kitab cildləri"* adlı monoqrafiyası çap edilib. Məhəmməd Ağaoğlu 1949-cu ildə Detroytda vəfat edib. O, Talıbxan bəy Talıbxanbəylinin qızı Qəmər xanımla ailə qurub, *Gültəkin A. Ludden* adında qızları olub. Daha sonra onlar ayrılıblar. Qəmər xanım da həyat yoldaşı kimi ABŞ-da professor ünvanı qazanıb, xalçaçılıq üzrə mütəxəssis olub.

Məhəmməd Ağoğlunun fəaliyyətinə dair yeni bilgilər

Məhəmməd bəyin Türkiyədəki fəaliyyətinə dair bir sıra yeni bilgilər əldə etmişik. Onlardan ən mühümü Ağaoğlunun 15 iyul 1927-ci ildə İstanbulda yaradılan *Türküstanı və Azərbaycanı Öyrənmə Dərnəyi*nin qurucu üzvü olmasıdır. Bu cəmiyyəti Türküstandan və Azərbaycandan olan mühacir alimlər yaradıblar. Cəmiyyətin qurucuları bu şəxslərdi: İstanbul Universitetinin Türk tarixi müəllimlərindən *Əhməd Zəki Vəlidi Toqan*, Türkiyə Dövlət Muzeyinin İslam sənəti şöbəsinin müdir müavini *Məhəmməd Ağaoğlu* (azərbaycanlı), Halqalı Ziraət Məktəbinin Nəbatət istasyonu müdiri *Mirzə Hacızadə* (azərbaycanlı), *Əbdüməhəmməd* (Ədəbiyyat fakültəsi müdavimi) və *Əbdülqədir İnan* (İstanbul Universiteti Türkiyyat İnstitutu assistantı).

Dərnəyin qurulmasındakı məqsəd bu şəkildə olub: Türküstan və Azərbaycanın mədəni və iqtisadi həyatına, coğrafiyasına aid tədqiqatla məşğul olan Türküstan, Azərbaycan, Türkiyə və Avropa elmi dairələri arasında rabitə yaratmaq, Avropada bu mövzulara aid yeni nəşrləri, tədqiqatları təqib etmək.

"Yeni Türküstan" jurnalındakı məlumata görə 9 mart 1928-ci ildə Ağaoğlu dərnəyin yığıncağında *"Türk sanaye-i-nəfisəsinin tədqiq üsulu"* mövzusunda mühazirə oxuyub. 7 iyul 1928-ci il tarixli iclasda isə *"İslam sənətində Budda təsviri"* adlı məruzə söyləyib. Dərnəyin yaz tətilindən sonrakı Feyzi-Ati liseyində baş tutan ilk iclasında Məhəmməd bəy Rusiyada türk və İslam sənət tarixinə aid son illərdə nəşr olunan əsərlərdən bəhs edib.[4]

[1] Mərdanov Misir, Tahirzadə Ədalət. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. (Ensiklopedik- sorğu kitabı). Birinci cild. Bakı: "Təhsil", 2018, ss. 144-150

[2] Ailəliklə

[3] *"Azeri Mühacirler",* "Odlu Yurt", No 1, mart 1929, s. 32

[4] *"Yeni Türkistan"*, il: 2, noyabr 1928, No. 4 (16), ss. 45-48

Ağaoğlunun Türk və İslam Əsərləri Muzeyində işləməsi ilə bağlı Türkiyə dövlət arxivində bir sıra sənəd mövcuddur.

16 may 1929-cu il tarixli *"Akşam"* qəzetindəki məlumata görə, tələbələr universitetin arxeologiya üzrə müdərris (professor) müavini Məhəmməd Ağaoğlunun rəhbərliyində Bursaya tədqiqata gedəcəklər. Bu, onun Türkiyədəki son vəzifəsi idi.[5]

M. Ağaoğlu Türkiyədə yaşadığı müddətdə azərbaycanlı mühacirlərlə də əlaqələri olub. M. Rəsulzadənin çap etdiyi *"Yeni Kafkasya"* jurnalında onunla bağlı maraqlı xəbər dərc edilib:

"Vyana Darülfünunu Birinci Sanaatı-Nəfisə Tarixi İnstitutunu müvəffəqiyyətlə ikmal edən azəri türk gənclərindən Ağaoğlu Məhəmməd bəy İstanbula gəlmişdir. Ağaoğlu Məhəmməd bəy doktora tezi olaraq "Türk memarisində Memar Sinanın mövqeyi" mövzusunda 400 səhifəyə qərib mühüm bir əsər vücuda gətirmişdir. Əsər Vyana Darülfünunu heyəti-elmiyyəsi tərəfindən təqdir olunaraq sahibi məzkur darülfünunun ənənəvi mükafatına layiq görüldüyü kimi əsərin də institut tərəfindən təb və nəşrinə qərar verilmişdir. Eyni zamanda Məhəmməd bəy salifüzzikr institutun həqiqi azalığına intixab olunmuşdur. Müvəffəqiyyətli tələbəsini Vyana institutu asistan sifətiylə alıqoymaq istəmişsə də, Məhəmməd bəy Türkiyədə çalışmağı tərcihlə buraya gəlmişdir.

Ağaoğlu Məhəmməd bəyin Vyanada Türk saanatı-nəfisəsinin Bizans təsirindən azadə kəndisinə məxsus müstəqil və üzvi bir təkamülü olduğuna aid nəşr etdiyi məqalə mütəxəssis Avropa üləmasının nəzəri-diqqətini cəlb eyləmişdir.

Eşitdiyimizə görə gənc müvərrix Azərbaycan coğrafyayı-tarixisi" mövzusunda mühüm bir əsər təsnifi ilə dəxi məşğuldur".[6]

Onun Məhəmməd Əmin Rəsulzadənin çap etdiyi *"Odlu Yurt"* məcmuəsində *"Azərbaycan paytaxtı Bakı ismi haqqında qeydlər"* ("Odlu Yurt", mart 1929, sayı 1) və "*Azərbaycan ismi haqqında qeydlər"* ("Odlu Yurt", aprel 1929, sayı 2) adlı iki məqaləsi dərc olunub.

Ağaoğlunun Türkiyə həyatına dair əldə etdiyimiz sənədlərdən biri də İrəvandakı evi ilə bağlıdır. Məhəmməd Ağaoğlu öz əli ilə doldurduğu *"Azərbaycan Cümhuriyyəti daxiliyyə naziri şəxsi katibinin şəxsi, ailə və əmlak durumu haqqında bilgilər"*də həm İrəvanda, həm də Tehranda evlərinin olduğunu qeyd edib. Tehranda atasına məxsus evin ünvanı bu şəkildə qeyd olunub: İran, Tehran, Mərizxana xiyabanı, ev № 28, Həsən bəy Ağayev.

Türkiyə arxivlərində Məhəmməd Ağaoğlu ilə bağlı sənədlərdən aydın olur ki, o, İrəvanda qalan evinin aqibəti ilə bağlı 31 oktyabr 1928-ci ildə Türkiyə hökumətindən yardım istəyib. Demək ki, Ağaoğlu artıq Türkiyə vətəndaşıdır. Türkiyənin İrəvan konsulluğunun Xariciyyə Vəkalətinə göndərdiyi 23 fevral 1929-cu il tarixli bəlgədə yazılıb: *"Dr. Ağaoğlu Məhəmməd bəyin İrəvanda tərk eyləmiş olduğu xanəsi haqqında Xariciyyə müraxxəsliyindən vaqi olan istilama mövcud cavabdır: Məzkur xanənin Ermənistan Komissarları*

[5] "Akşam", il: 11, No: 3805, 16.05.1929, s. 4

[6] "Yeni Kafkasya", il: 4, No. 85, 15.05.1927

Məclisinin 29 mart 1922-ci il tarixli qərarnaməsi mucibincə hökumət tərəfindən zəbt edilmiş olduğu bildirilmişdir".[7]

Konsulluğun bildirdiyinə görə, Ağaoğlunun evinin qiyməti 10 min rubl dəyərindədir, erməni hökuməti ev sahibi olmadığına görə 1922-ci ildə xanəni mənimsəyib. Xariciyyə Vəkaləti konsulluqdan aldığı bu məlumatı bir az geniş şəkildə Ağaoğluna bildirib. Eyni zamanda Ağaoğlunun məruz qaldığı zərərin təsbit edilməsi barədə Maliyyə Vəkalətinə də bilgi verildiyi qeyd olunub. 10 iyul 1929-cu ildə Ağaoğluna verilən növbəti cavabda komissiyanın bu tələbi yerinə yetirməsinə imkan olmadığı bildirilib. Beləliklə, çar Rusiyası dövründə mülk sahibi olan minlərlə ailədən biri kimi Ağaoğlu ailəsinin evini də bolşevik hökuməti ələ keçirib.[8]

Məhəmməd Ağaoğlunun vəfatı ilə bağlı Türkiyə mətbuatında xəbər dərc olunub. *"Ulus"* qəzetinin 7 iyul 1949-cu il tarixli sayında *"Məhəmməd Ağaoğlunun şəxsiyyəti"* başlıqlı qısa material dərc edilib. Bu materialda Ağaoğlunun həyatı barədə bəzi yeni məlumatlar öyrənirik: *"Dörd həftədən bəri müalicə aldığı "Corc Vaşinqton" xəstəxanasında ölən Dr. Məhəmməd Ağaoğlu Yaxın Şərq sənətinin ən tanınmış nümayəndələrindən biri və İslam sənətinin ən təcrübəli, seçilmiş təmsilçisi idi. Dr. Ağaoğlu Vaşinqton Toxuculuq Muzeyində Yaxın Şərq sənəti müşaviri vəzifəsində idi. M.Ağaoğlu Qafqazda bir türk ailəsində doğulub, Moskva, İstanbul, Berlin, Vyana və Yena universitetlərində milli kültür mövzusunda çalışıb. Məhəmməd Ağaoğlu fəlsəfə doktoru dərəcəsini Vyana Universitetində alıb. İstanbuldakı Vəqflər Muzeyinin və Detroyt Sənət İnstitutunun Yaxın Şərq şöbəsinin müdiri olub. Başqa universitetlərdə də dərs deyib. Yaxın Şərq sənəti haqqında 50 əsər yazmışdır. İldə iki dəfə çıxan "Ars İslamica" məcmuəsinin qurucusu və müəllifi idi. Öz sahəsində böyük xidmətlər göstərib. San-Fransisko tarix muzeyində İslam sənətinə dair bir sərgi açmışdır. Firdovsinin mininci ildönümü tədbirlərində Detroyt Sənət İnstitutu ilə Miçiqan Universitetini təmsil etmişdir. Tehrandakı Şərqlilər Qurultayında, Yaxın Şərq mədəniyyəti haqqındakı konfranslarda məruzəçi olaraq iştirak edib. Doktor Məhəmməd Ağaoğlu Dorothy Pece ilə evli idi və yoldaşı da məqalələr yazırdı".*[9]

Nəticə

İrəvanda doğulan, Amerikada vəfat edən azərbaycanlı sənətşünas alim Məhəmməd Ağaoğlu ömrünün müəyyən qismini Türkiyə Cümhuriyyətində keçirib. İstanbul Universitetində müdərris müavini kimi çalışan Ağaoğlu həm bu ölkənin elmi ictimaiyyətində, həm də mühacir azərbaycanlılar arasında tanınıb. Türkiyədə yaşadığı müddətdə İrəvandakı evinin taleyi ilə maraqlanıb, lakin didərgin salınan bütün Azərbaycan türkləri kimi onun da evinin Sovet Ermənistanı hökuməti tərəfindən zəbt edildiyini öyrənib. Türkiyə arxivlərində İrəvandakı evi ilə bağlı olan sənədlər Ağaoğlunun timsalında mühacir irəvanlılara məxsus mülklərin dövlətləşdirilməsinə dair əhəmiyyətli sübutdur.

[7] Doktor Ağa oğlu Mehmet Beyin Erivan`da Ruslar tarafından zapt edilen emlakı. BCA, 571-34465-133589-4. Belge Tarihi: 1929-02-23

[8] Doktor Ağa oğlu Mehmet Beyin Erivan`da Ruslar tarafından zapt edilen emlakı. BCA, 571-34465-133589-4. Belge Tarihi: 1929-07-24

[9] *"Mehmet Ağaoğlu'nun Şahsiyeti".* "Ulus", No. İl: 29, No: 10061, s. 3

Əlavələr:



rapt numarası 62319

Kaytettim

Türk-Rus şirkeyedir

269

Hariciye Vekâleti D3 S1 Müdiriyeti

Evrakın umumî nümerosu	müstenit olduğu evrakın nümerosu	şubenin kayt nümerosu	mübeyyiz	müsevvit	mümeyyiz	müdir	umumî müdir
69968	Tesbiti Zarar K. Tezkeresi 674/52	1451	[illegible] 27.7.929		Mehmet Ekrem 20/7/29	F.	[illegible] 21/7

Evrakın hususî nümerosu 787

Evrakın tarihi 24/7/1929

Hulasa

Istanbul Darülfünunu Edebiyat Fakultesi Nefis San'atler tarihi Muderris Muavini Doktor Ağa Oğlu Mehmet Beyfendiye

8 Nisan 1929 tarihli ve 62320/318 numaralı tahrirata zeyldir.

Erivan'da Hükûmeti mahalliyece zaptedilen haneniz için ~~[illegible]~~ muayyen müddet zarfında müracaat etmediğinizden bu baptaki talebinizin tetkikine imkân görülmediği bu kerre Tesbiti Zarar Komisyonundan alınan 10 Temmuz 1929 tarihli cevabî Tezkerede bildirilmiştir Efendim.

15.03.2021 tarih ve 32363030 sayılı Karar ile gizliliği kaldırılmıştır.



Dosya rabt Numorolarının işaretine mahsus mahal

69968 54400

Dosyası

Hariciye Vekâleti D3 S1 Müdürlügü

Evrakın umumî numorosu	müstenit olduğu evrakın numorosu	şubenin kayt numorosu	mübeyyiz	müsevvit	mümeyyiz	müdür	umumî müdür
62319-317	Erivan Konsolosluğu tahriratı. 10	661	3.4.929	Maşlum 2-IV-1929			
Evrakın hususî numorosu 62320-318	723 27-III-1929						
Evrakın tarihi 8-4-929							

Hulasa

İstanbul Darülfununu Müderris muavinlerinden Doktor Ağa oğlu Mehmet Beyin Erivanda kâin olup Buslar tarafından zaptedilen evi hakkında.

İstida ile Erivan Konsolosluğu tahriratının birer sureti çıkarılacaktır.

XI

Lef/2

Maliye Vekaletinde münakit ~~Tespit~~ Tespiti zarar Komisyonuna

İstanbul Darülfununu Edebiyat Fakültesi Müderris muavinlerinden Doktor Ağa oğlu Mehmet Beyin 31 teşrinievel 1928 tarihli istidanamesinin bir sureti ile bu baptaki istilâmımıza cevaben Erivan Konsolosluğundan alınan 23 şubat 1929 tarihli ve 32/11 numaralı tahriratın bir sureti leffen ~~takdim~~ gönderilmiştir ~~[illegible]~~. Bu ~~husus~~ hususta lâzımgelen muamelenin ifasiyle neticenin doğrudan doğruya müstediye tebliği rica olunur efendim.

XII

İstanbul Darülfununu
Edebiyat Fakültesi Sanayii
Nefise Tarihi Müderris muavini
Doktor Ağa oglu Mehmet Beyfendiye

31 teşrini evel 1928 tarihli istidanameniz cevabıdır:

Erivan Konsolosluğumuzdan alınan 23 şubat 1929 tarihli ve 33/11 numaralı tahriratta Erivandaki evinizin Ermenistan Komiserleri Meclisinin 29 mart 1922 tarihli

./.

15.03.2021 tarih ve 32363030 sayılı Karar ile gizliliği kaldırılmıştır.

kararnamesi mucibince hükûmet tarafından zaptedildiği Konsolosluk tarafından Hariciye Murahaslığı nezdinde yapılan teşebbusata atfen iş'ar olunmaktadır.

Keyfiyeti zaptin ise eşhası mütegayyibeden addedilmenizden münbeis bulunduğu ve Konsolosumuzun tahkikatına nazaran evinizin onbin ruble kıymetinde ~~bulunduğu~~ olduğu aynı tahriratta bildirilmektedir.

İstidanamenizin ve Erivan Konsolosluğu tahriratının birer sureti 8-4-1923 tarih ve 62319-217 numara ile (Maliye Vekâletinde münakıt Tespiti Zarar Komisyonu)na gönderilmiştir. Meselenin bundan sonraki safahatını oradan takip etmeniz ~~lâzımgelmektedir~~ lâzım gelmektedir efendim.

15.03.2021 tarih ve 32363030 sayılı Karar ile gizliliği kaldırılmıştır.



TÜRKİYE CUMHURİYETİ ERİVAN KONSOLOSLUĞU

Haricie Vekâleti Celilesine

23 Şubat 1929

N° 32 – 11

3nci Umûmi Müdüriyeti 1nci Şu'besi ifadesile muharrer 11/12/1928 tarih ve 54400/47 numerdı tahriratı Vekâletpenahileri cevabıdır:

Dr Aga oglu Mehmet beyin Erivanda terk eylemiş oldugu hanesi hakkında Haricie murahhaslıgından vâkı olan istilama mevrüd cevabda: mezkür hanenin Ermenistan Komiserleri meclisinin 29 Mart 1922 tarihli kararnamesi mucibince Hükümet tarafından zapt edilmiş oldugu bildirilmetedir.

Keyfiyeti zaptın mumaileyhin eşhası mutegayibeden at idilmesinden mubais bulundugunun aşikâr oldugu ve tahkikati acizaneme nazaran mezkur hanenin on bin rubla kiymetinde bulundugu maruzdur. (Ayevm burada iki rubla bir Türk lirası kiymetindedir) Efendim

Erivan Konsolosu

M. Fuat

Dosya D 3 Ş 1 27/III/29

D 3 Ş 1
661
31-III-1929.

54400
47

H. V:
Evrak [illegible] müdürlüğü
Tarih 27.III.929
K. No. 10
S: No: 723

15.03.2021 tarih ve 32363030 sayılı Karar ile gizliliği kaldırılmıştır.



269 دوسیه‌سی

دوسیه ربط نومرولرینك اشارتنه مخصوص محل

62319

Sürayya Abdullah

خارجیه وکالتی مدیریتی

مدیر عمومی	مدیر	ممیز	مسود	مبیض	شعبه‌نك قید نومروسی	مستند اولدیغی اوراقك نومروسی	
29/4	Kadri 25/11/928		Mazrum 25/11/1928		2202		54400

اوراقك عمومی نومروسی 54400

اوراقك خصوصی نومروسی 47

اوراقك تاریخی 11-XII-928

Lef 1

خلاصه

Erivan ~~Şehbenderliğine~~ Konsolosluğuna

İstambul Darülfünunu müderris muavinlerinden (Doktor Aga oğlu ~~Al~~ Mehmet) beyimzasiyle vekâlete verilen istidanamenin sureti leffen ~~takdim~~ irsal kılınmıştır. Münderecatına nazaran tahkikat icrasiyle neticenin inbasi ~~mercudur~~ reca olunur efendim.

(استدعانك صورتی چیقاریلیجقدر)

ƏDƏBİYYAT

1. Doktor Ağa oğlu Mehmet Beyin Erivan`da Ruslar tarafından zapt edilen emlakı. BCA, 571-34465-133589-4.
2. Mərdanov Misir, Tahirzadə Ədalət. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. (Ensiklopedik- sorğu kitabı). Birinci cild. – Bakı: Təhsil, – 2018.
3. "Odlu Yurt"
4. "Yeni Kafkasya"
5. "Yeni Türkistan"
6. "Akşam"
7. "Ulus"

SUMMARY

Dilgam AHMAD

NEW PIECES OF EVIDENCE ABOUT MUHAMMED AGAOGLU

After the occupation of the Republic of Azerbaijan in 1920 some public and political figures, intellectuals, and merchants in the Irevan region immigrated to different countries, especially Türkiye. Among those people, there were statesmen such as Ekber Aga Sheikhulislamzade, and Muhammad Maharramov, as well as people with various qualifications such as Ali Aran, Gafar Guney, Tahir Mehmandarli, Nagi Odoglu, and others.

Muhammed Agaoglu was one of the scientists who was born in Irevan and lived as an immigrant. He was the founder of the first independence museum and lived in Türkiye for a while. Agaoglu went to the United States of America and founded the Middle East Department of the Detroit Institute of Arts and worked at that institute until 1938. Furthermore, Agaoglu worked at Michigan University between 1933-1938, and founded the Department of History of Islamic Art as well as "The Journal of Ars Islamica". His monograph titled "15th-century Persian book bindings" was published in 1935. Muhammad Agaoglu passed away in 1949 in Detroit. Prof. Adalat Tahirzade, Prof. Vilayat Guliyev, Movsum Aliyev, Zeynep Simavi and Omer Ozcan wrote extensive articles about him.

In this article, the biography of Muhammad Agaoglu has been enriched by using new facts found in Turkish archives and press pages.

Key Words: Irevan, Muhammed Agaoglu, Ars Islamica, Independence Museum, Azerbaijan

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN SOVET DÖVRÜNDƏ QƏBUL ETDİYİ QƏRARLARDA QƏRBİ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN QORUNMASI VƏ TƏBLİĞİ MƏSƏLƏLƏRİ

Elnur KƏLBİZADƏ
kelbizadeh@gmail.com
Orcid İD: 0000-0001-5870-034X

1969-1982-ci illərdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ümumən Azərbaycan mədəniyyətinin qorunması, yaşadılması və təbliği istiqamətində məqsədyönlü işlər görmüşdür. Araşdırmalar göstərir ki, Heydər Əliyev həmin illərdə Qərbi Azərbaycan mədəniyyətinin qorunub saxlanılması ilə bağlı da bir çox qərarlar qəbul etmişdir. Bununla o, Ermənistan SSR-də yaşayan azərbaycanlıların milli kimliyinin və mədəniyyətinin qoruyub saxlanılmasına çalışmışdır.

Aparılan təhlillər və o dövrdə Ümummilli lider Heydər Əliyevin imzaladığı sənədlərin təhlili göstərir ki, o, Qərbi Azərbaycanın mədəniyyətini, tarixi şəxsiyyətlərini unudulmaması üçün böyük siyasi məharətlə çalışırdı. Bunun üçün Azərbaycan SSR-də yüksək səviyyəli qərarlar qəbul edilmişdi.

Açar sözlər: *Heydər Əliyev, Qərbi Azərbaycan, mədəniyyət, Sovet dövrü, teatr, kino, aşıq, Yazıçılar Birliyi*

Ümummilli lider Heydər Əliyev üçün bütün siyasi və dövlətçilik fəaliyyəti dövründə Qərbi Azərbaycan mövzusunun çox mühüm əhəmiyyət kəsb etdiyi şəksizdir. Bunu Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə qəbul etdiyi çoxsaylı qərarlar, imzaladığı fərman və sərəncamlar, nitqlərində səsləndirdiyi fikirlər də sübut edir. Maraqlı məsələlərdən biri Heydər Əliyevin Sovet dövründə bu istiqamətdə fəaliyyətidir. Onun Azərbaycan xüsusi xidmət orqanlarında çalışdığı və bu orqana rəhbərlik etdiyi dövrdə, Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə, eləcə də Kremldə SSRİ Nazirlər Soveti Sədrinin birincü mavini kimi yüksək vəzifə tutduğu dövrdə Qərbi Azərbaycan və azərbaycanlılar məsələsinə münasibətdə tutduğu mövqeyin öyrənilməsi çoxillik tədqiqatlar tələb edir. Təbii ki, böyük imperiya siyasətinin mövcud olduğu həmin illərdə Qərbi Azərbaycan məsələsinin açıq şəkildə ifadə edilməsi mümkünsüz idi. Belə olan halda mövzunun tədqiqi üçün Heydər Əliyev tərəfindən qəbul edilən qərarların məzmun təhlilinin dərindən aparılması vacibdir. Yalnız bu cür yanaşma mövzunun açılmasına imkan verə bilərd. Bəlli olduğu kimi, Sovet İttifaqı rəhbərliyi Ermənistan SSR-dən azərbaycanlıların izinin və irsinin silinməsi üçün məqsədyönlü siyasət yürüdürdü. Bu proses xüsusən II Dünya müharibəsindən sonrakı dövrdə güclənmişdi. Bu səbəbsiz deyildi. SSRİ-Türkiyə münasibətlərində yaşanan gərginliklər, Türkiyə Cümhuriyyətinin tədricən ABŞ və ümumilikdə Qərb bloku ilə yaxınlaşması Sovet rəhbərliyini narahat edirdi. Belə vəziyyətdə Anadolu və Qafqaz türklüyü arasında əlaqələrin məhdudlaşdırılması məqsədi ilə yaradılmış Ermənistan ən vacib həlqələrdən birinə çevrilmişdi. Ermənistanın qurulduğu Qərbi Azərbaycan ərazilərindən azərbaycanlıları

təmizləmək, türksüz–azərbaycanlılarsız Ermənistan yaratmaq, eyni zamanda azərbaycanlıların bu ərazidə yaratdıqları maddi-mədəni irs nümunələrini ermənilərin adına çıxarmaq məkrli şəkildə yürüdülən bu siyasətin vacib tərkib hissəsi olmuşdu. Ulu öndər Heydər Əliyev isə həmin illərdə bu irsin qorunması və təbliği üçün bir sıra addımlar atır və bunu Sovet İttifaqında yürüdülən siyasətin kəskin qaydalarından yayınmaqla, böyük ustalıqla edirdi.

Həmin illərdə qəbul edilmiş bir qərar xüsusən diqqəti cəlb edir və günümüz üçün əhəmiyyətlidir. Bu Aşıq Ələsgərin adının əbədiləşdirilməsi ilə bağlı atılan addımlar, qəbul edilən qərarlardır. 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi barədə qərar qəbul edilmişdi *[О проведении 150-летия со дня рождения ашуга Алескера, vər. 51].* Əslində bu istiqamətdə qəbul olunan qərarlar böyük gələcək məqsədlərə hesablanmışdı. Aşıq Ələsgər irsinin öyrənilməsi həm də tarixi yurd yerimiz olan Qərbi Azərbaycanda mədəni irsimizin öyrənilməsi, unudulmaması demək idi. Bu dolayı yolla həm də Qərbi Azərbaycanın ulu Göyçə mahalının Azərbaycana aidliyinin təsdiqi demək idi. Maraqlı məsələlərdən biri isə ondan ibarətdir ki, həmin dövrdə tədbirlərin keçirilməsi ilə bağlı komissiyanın tərkibinə Azərbaycanın Süleyman Rüstəm, Fikrət Əmirov, Osman Sarıvəlli, Məhəmmədhüseyn Təhmasib, Bəxtiyar Vahabzadə, Mirzə İbrahimov, Aşıq Şəmşir kimi görkəmli şair, yazıçı və mədəniyyət xadimləri ilə yanaşı, C.Qriqoryan adlı erməni də daxil edilmişdi *[Культура и исскуство в Азербайджане постановления бюро и секретариата ЦК КП Азербайджана, 2021, s. 189].* Bu həm də Qərbi Azərbaycanın, Göyçənin azərbaycanlıların tarixi yurdu olmasına dair sənədlərə bir ermənin də təsdiq imzası atması demək idi. Qəbul olunmuş tədbirlər planında Aşıq Ələsgərin Moskva, Leninqrad və ittifaq respublikalarından dəvət olunmuş qonaqların iştirakı ilə yaradıcılıq gecəsinin keçirilməsi, Azərbaycan nümayəndələrinin iştirakı ilə Moskvada ədəbi-bədii gecənin, ölkənin böyük şəhərlərində - Bakıda, Gəncədə, Sumqayıtda, Naxçıvanda, Xankəndində, Qazaxda, Şəkidə Salyandə tədbirlərin təşkili nəzərdə tutulurdu. Sənədə əsasən, respublikanın bütün şəhər və rayonlarında Aşıq Ələsgərin yaradıcılığı ilə bağlı mühazirələr oxunmalı, jurnallarda və dövri nəşrlərdə bu barədə məqalələr dərc etdirilməli, Aşıq Ələsgər yaradıcılığı ilə bağlı tele və radio verilişlər hazırlanmalı, onun yaradıcılığının təhlilinə həsr olunmuş monoqrafiyalar, əsərlərinin Azərbaycan dilində tam külliyatı nəşr edilməli idi. Bundan əlavə, göyçəli aşığın şeirlərinin rus dilində çap etdirilməsi, ingilis, fransız, alman, ərəb, fars dillərində suvenir kitablarının hazırlanması da nəzərdə tutulurdu *[Культура и исскуство в Азербайджане постановления бюро и секретариата ЦК КП Азербайджана, 2021, s. 190-191].*

Bəllidir ki, o dövrdə protokol naminə yaradıcılıq təşkilatlarının bu barədə dövlət orqanlarına rəsmi müraciətlərinin olması vacib idi və adətən arxivlərdə saxlanılacaq bu cür müraciətlərin mətnləri siyasi rəhbərliklə razılaşdırılırdı. 1971-ci ilin yanvarında Azərbaycan Yazıçılar Birliyindən ölkənin rəhbəri olan Heydər Əliyevə ünvanlanmış müraciətin mətni də təbii ki, Ulu öndərlə razılaşdırılmışdı. Həmin müraciətin mətnində maraqlı bir cümlə xüsusən diqqəti cəlb edirdi. Yazılırdı ki, Aşıq Ələsgər bütün ömrü boyu xalqın arasında olmuş, sazı çiynində Azərbaycanın, Ermənistanın və Gürcüstanın kəndlərini gəzmiş, xalqın sevincini və kədərini paylaşmışdır *[Союз советских писателей*

Азербайджана первому секретарю ЦК КП Азербайджана, 1971, vər. 192]. Aşıq Ələsgərin dili Azərbaycanca idi, bu cümlə həm də o anlama gəlirdi ki, adıçəkilən ölkələrin kəndlərində Aşıq Ələsgəri dinləyə və anlaya bilən çoxsaylı insanlar məskun olmuşdur və o ərazilər onların vətənidir.

1980-ci ildə Ümummilli lider Heydər Əliyev digər bir aşığın – Qərbi Azərbaycanın Göyçə mahalının Qızılvəng kəndində doğulmuş Aşıq Alının 180 illiyinin qeyd olunması ilə bağlı qərar qəbul etmişdi *[О 180 летии со дня рождения ашуга Алы, 1980, vər. 221-222].*

Bəlli olduğu ki, XX əsrin 70-ci illərində Azərbaycanda göstərilən mühüm təşəbbüslərdən biri xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin gücləndirilməsi, antisovet təbliğatının qarşısının alınması məqsədi ilə "Vətən səsi" radiostansiyasının yaradılması ilə bağlı olmuşdu. Bu barədə qərar 1971-ci ilin avqust ayının 31-də Heydər Əliyev tərəfindən imzalanmışdı *[О создании радиоредакции «Ветен сеси» («Голос Родины»), 1971, vər. 69].* Həmin dövrdə bu radiostansiyanın dalğalarının Sovet İttifaqı sərhədlərindən kənara yayılması üçün müxtəlif ərazilərdə qısadalğalı ötürücülərin quraşdırılması gündəmə gəlmişdi. Həmin dövrdə Heydər Əliyev belə qısadalğalı ötürücülərdən ikisinin İrəvan Radiomərkəzində quraşdırılmasına nail olmuşdu *[Культура и исскуство в Азербайджане постановления бюро и секретариата ЦК КП Азербайджана, 2021, s. 219].* Burada ilkin məqsəd kimi dalğaların Türkiyə ərazisinə ötürülməsi hədəflənsə də, başqa bir məqsəd də var idi. Tarixi Qərbi Azərbaycan ərazilərində qurulmuş Ermənistan SSR-də yaşayan azərbaycanlıların da öz ana dillərində radio dinləmək imkanlarını əldə etmələri və dilin varlığının qorunub saxlanılması.

Diqqət çəkən məqamlardan biri Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərdə çəkilən ən müxtəlif bədii filmlərdə Qərbi Azərbaycan, onun tarixi və mədəniyyəti ilə bağlı məqamların əksini tapmasıdır. Heydər Əliyev bu cür filmlərin çəkilməsini ən müxtəlif vasitələrlə dəstəkləyirdi. Bu filmlər həm də gələcək üçün bir yaddaş idi. Belə maraqlı filmlərdən biri 1971-ci ildə ekranlaşdırılmış "Axırıncı aşırım" bədii filmi olmuşdur. Filmin ümumi təqdimatında sadəcə olaraq hadisələrin Azərbaycanın ucqar dağ kəndlərindən birində baş verdiyi göstərilsə də, sonrakı proseslərdə aydın olur ki, əslində hadisələr Qərbi Azərbaycanın Vedibasar mahalının Qarabağlar adlanan hissəsində cərəyan etmişdir. Filmin qəhrəmanları olan Abbasqulu bəy Şadlınski, Kərbəlayi İsmayıl, Qəmlo əslində Qərbi Azərbaycandan olan qəhrəmanlardır. Bu obrazlar müxtəlif mövqelərdən təqdim olunsa da, onların adlarının yaddaşlardan silinməməsində bu filmlər əvəzsiz rol oynamışdı.

Məlum olduğu kimi, XX əsrin 70-ci illərinin sonlarına doğru Ermənistanda tədricən millətçi meyillər güclənir, azərbaycanlılarla yanaşı, onlara aid mədəniyyət müəssisələrinin fəaliyyətinə də ciddi maneələrin yaradılmasına çalışılırdı. Belə bir şəraitdə İrəvanda nə qədər çətin şərtlər altında da olsa, fəaliyyət göstərən Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının fəaliyyəti Ulu öndər tərəfindən diqqətdə saxlanılırdı. 1978-ci ildə İrəvan Dövlət Dram Teatrının Bakıya qastrol səfəri olmuşdu. Bu səfərdən sonra teatr Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüşdü *[О награждении Ереванского государственного драматического театра..., 1978, vər. 100-103].* Bundan əlavə, Ali Sovet Rəyasət Heyətinin qərarı ilə teatrının yaradıcı kollektivinin

üzvlərinə - direktor Hidayət Xuduş oğlu Orucova, aktrisalardan Raya Talıb qızı Qafarovaya, Elmira Məhərrəm qızı İsmayılovaya Ali Sovetin Rəyasət Heyətinin Fəxri Fərmanları verilmişdi. Bundan əlavə, teatrın rejissoru Tofiq Ağarəfi oğlu Ağayevə Azərbaycan SSRİ-nin əməkdar mədəniyyət işçisi, aktrisalardan Tamilla İslam qızı Abdullayevaya, Marette Məhərrəm qızı Kərimovaya, aktyor Vidadi Hüseyn oğlu Əliyevə Azərbaycan SSR-in əməkdar artisti adı verilmişdi *[Культура и исскуство в Азербайджане постановления бюро и секретариата ЦК КП Азербайджана, 2021, s. 292-293].* Qeyd etmək lazımdır ki, həmin illərdə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Qərbi Azərbaycandakı tamaşaçılara öz repertuarında daha çox azərbaycanlı yazıçı və dramaturqların əsərlərini təqdim etməklə milli ruhu qorumağa çalışırdı. Təhlillər göstərir ki, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının səhnəsində M.F.Axundov ("Sərgüzəşti-vəziri-xani-Lənkəran"), Nəcəf bəy Vəzirov ("Hacı qəmbər"), Üzeyir Hacıbəyov ("O olmasın, bu olsun", "Arşın mal alan"), Cəfər Cabbarlı, İlyas Əfəndiyev, Sabit Rəhman və başqa Azərbaycanlı müəlliflərin əsərləri böyük maraqla qarşılanmışdı.

Beləliklə, aparılan təhlillər sübut edir ki, Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə Qərbi Azərbaycanda – o zamankı Ermənistan SSR-də dilimizin, ədəbiyyatımızın, tariximizin, mədəniyyətimizin qorunması, yaşadılması üçün qərarlar qəbul etmiş, Qərbi Azərbaycandan olan soydaşlarımızın kimliyinin unudulmaması, onların mədəni irsinin yaşadılması üçün bir çox tədbirlərin həyata keçirilməsinə nail olmuşdu.

ƏDƏBİYYAT

1. Государственный Комитет Совета Министров Азербайджанской ССР по радиовещанию и телевидению. ЦК КП Азербайджана. 26 июля 1971 г. // Культура и исскуство в Азербайджане постановления бюро и секретариата ЦК КП Азербайджана (июль 1969 – ноябрь 1988 г.)[В 2 томах] / Том 1. –Баку: Элм вэ тахсил, –2021. –683 с.
2. Культура и исскуство в Азербайджане постановления бюро и секретариата ЦК КП Азербайджана (июлб 1969 – ноябрь 1988 г.) [В 2 томах] / Том 1. –Баку: Элм вэ тахсил, -2021. – с. 190-191.
3. О 180 летии со дня рождения ашуга Алы // Azərbaycan Respublikası Prezidenti Yanında İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond 1, Siyahı 68, iş 103.
4. О награждении Ереванского государственного драматического театра им. Дж.Джаббарлы и его творческих работников Почетной грамотой Президиума Верховного Совета Азербайджанской ССР // Azərbaycan Respublikası Prezidenti Yanında İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond 1, Siyahı 65, iş 122.
5. О присвоении почетных званий Азербайджанской ССР артистам Ереванского государственного драматического театра им. Дж.Джаббарлы // Культура и исскуство в Азербайджане постановления бюро и секретариата ЦК КП Азербайджана (июль 1969 – ноябрь 1982 г.)[В 2 томах] / Том 2. –Баку: Элм вэ тахсил, –2021. –с.292-293.

6. О проведении 150-летия со дня рождения ашуга Алескера // Azərbaycan Respublikası Prezidenti Yanında İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond 1, Siyahı 58, iş 73.
7. О создании радиоредакции «Ветен сеси» («Голос Родины») // Azərbaycan Respublikası Prezidenti Yanında İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond 1, Siyahı 58, iş 170.
8. Союз советских пистелей Азербайджана первому секретарю ЦК КП Азербайджана // Культура и исскуство в Азербайджане постановления бюро и секретариата ЦК КП Азербайджана (июлб 1969 – ноябрь 1988 г.) [В 2 томах] / Том 1. –Баку: Элм вэ тахсил, –2021. –с. 192.

SUMMARY

Elnur Kalbizada

ISSUES OF PRESERVATION AND PROMOTION OF WEST AZERBAIJANI CULTURE IN THE DECISIONS MADE BY NATIONAL LEADER HEYDAR ALIYEV DURING THE SOVIET PERIOD

In 1969–1982, the national leader of the Azerbaijani people, Heydar Aliyev, did purposeful work for the protection, preservation, and promotion of Azerbaijani culture in general. Research shows that Heydar Aliyev also made many decisions regarding the preservation of West Azerbaijani culture in those years. Thus, he worked to preserve the national identity and culture of the Azerbaijanis living in the Armenian SSR.

The conducted analyses and the analysis of the documents signed by the national leader Heydar Aliyev at that time show that, at that time, he tried with great political mastery not to forget the culture and historical personalities of Western Azerbaijan. For this, high-level decisions were made in the Azerbaijan SSR.

Key words: *Haydar Aliyev, Western Azerbaijan, culture, Sovet period, theatre, cinema, ashig, Writers Union*

QƏRBİ AZƏRBAYCANDA MƏİŞƏT MƏDƏNİYYƏTİ VƏ NAXÇIVANLA QƏRBİ AZƏRBAYCAN QAYAÜSTÜ TƏSVİRLƏRİNDƏ QƏDİM TÜRK MƏDƏNİYYƏTİNİN İZLƏRİ

Toğrul XƏLİLOV
x.toqrul@gmail.com
AMEA Naxçıvan Bölməsi

Qayaüstü təsvirlər qədim maddi-mədəniyyət nümunələrimiz içərisində çox maraqlı və elmi əhəmiyyət daşıyan artefaktlardandır. Onlar ibtidai incəsənət nümunələri olmaqla yanaşı, ulu əcdadlarımızın məişət və təsərrüfatını, dini-ideoloji görüşlərini, maddi və mənəvi mədəniyyətini əks etdirir. Qayaüstü rəsmlərə yer kürəsinin müxtəlif yerlərində rast gəlmək olur. Məqalədə Qərbi Azərbaycanda və Qarabağda olan bir qrup qayaüstü təsvirlərin Naxçıvandakı Gəmiqaya təsvirləri ilə müqayisəsi aparılaraq öyrənilmişdir. Müəyyən olunmuşdur ki, hər üç bölgədəki qayaüstü təsvirlər mövzu rəngarəngliyi, süjetləri və böyük bədii dəyəri ilə elmi əhəmiyyət daşıyır. Naxçıvanda olduğu kimi, Qərbi Azərbaycandakı və Qarabağdakı qayaüstü təsvirlərin yaxın bənzərlərinin prototürk mədəniyyətində geniş yayılması bu torpaqların tarixən türklərə məxsus olduğunu, onların prototürk mədəniyyətinin şah əsərləri olduğunu sübut edir.

Açar sözlər: *Qərbi Azərbaycan, Qarabağ, Naxçıvan, Gəmiqaya qayaüstü təsvir*

Qayaüstü təsvirlər qədim maddi-mədəniyyət nümunələrimiz içərisində çox maraqlı və elmi əhəmiyyət daşıyan artefaktalardandır. Onlar ibtidai incəsənət nümunələri olmaqla yanaşı, ulu əcdadlarımızın məişət və təsərrüfatını, dini-ideoloji görüşlərini, maddi və mənəvi mədəniyyətini əks etdirir. Qayaüstü rəsmlərə yer kürəsinin müxtəlif yerlərində rast gəlmək olur. Pamir va Tyan-Şan dağlarında, İspaniya və Skandinaviyada, Kareliyada, Sibirdə, Orta Asiyada, Altayda, Saxara səhrasında və digər yerlərdə qayaüstü təsvirlər var. Cənubi Qafqaz ərazisində qədim qayaüstü rəsmlərin ilk nümunələri hələ müharibədən əvvəlki illərdə respublikamızın ərazisində - Qobustanda tapılmışdı. 1939-cu ilin baharında İ.M.Cəfərzadə Bakı şəhərinin cənub-qərbində yerləşən Cingirdağın ətəyindəki Yazılıtəpə adlı yerdəki qayaların üzərində keçi, ceyran, maral, at, it və s. rəsmləri qeydə almışdır [3, s. 7]. İ.M.Cəfərzadənin rəhbərliyi ilə 1940-1941-ci illərdə də bu ərazidəki abidələrin tədqiq edilməsi məqsədilə ekspedisiyalar təşkil etmişdir. Ekspedisiyalar dövründə hər dəfə bir çox yeni təsvirlər qeydə alınmışdır. Böyük Vətən müharibəsi illərində tədqiqat işləri dayandırılsa da, müharibədən sonra davam etdirilmişdir. İ.M.Cəfərzadə Qobustan arxeoloji abidələrinin tədqiqi ilə məşğul olmuşdur. Qobustan qayaüstü rəsmlərinin tədqiqi ilə C.Rüstəmov da məşğul olmuşdur. O, 1965-ci ildən 1968-ci ilədək bu sahədə aparılan arxeoloji ekspedisiyaya rəhbərlik etmişdir. Tədqiqatlar nəticəsində üzərində 2500 təsvir olan 300-dək daş qeydə alınmışdır. Bu dövrdə - 1948-ci ildə İ.M.Cəfərzadə ilk dəfə olaraq Abşeronda Zirə qəsəbəsi yaxınlığında üzərində keçi təsvirləri olan daşlar aşkar etmişdir [3, s. 8-9].

Qarabağ torpağındakı Kəlbəcər yaylaqlarında 1970-ci ildə arxeoloq Q.İsmayılzadə tədqiqat apararaq bu ərazidəki Alagöl, Zalxagöl və Qaragöl sahillərində, həmçinin

Pəriçınqıl, Ayıçınqıl, Lülpər, Gəlinqaya, Yazyurdu, Taxta, Sarımsaqdağ sahələrində 4000-dən artıq müxtəlif süjetli qayaüstü rəsmlər aşkar etmişdir [15, s. 91-96.]. 1976-cı ildə Kəlbəcərdə aparılan arxeoloji tədqiqatlar zamanı bir çox yeni qayaüstü təsvirlər qeydə alınaraq tədqiqata cəlb edilmişdir [14, s. 550-551]. Yeni rəsmlərin çoxu dəniz səviyyəsindən iki-üç min metrdən artıq yüksəklikdə yerləşən Zalxagölün və Qaragölün sahillərində tapılmışdır. İlk tədqiqatlarda belə rəsmlərin Ayıçınqılı, Pəriçınqılı və Taxta adlanan yerlərdə də olması aydınlaşdırılmışdır. Təkcə Qaragöl yaxındığındakı çınqıllıqda 800-a yaxın təsvir qeydə alınmışdır [4, s. 58]. Kəlbəcərin əsas hissəsi dördüncü dövrün vulkanik dağlıqlarından ibarətdir. Qayaüstü təsvirlər əsasən sönmüş vulkanların kraterləri təşkil edən dağ gölləri sahillərində qeydə alınmışdır. Bu göllərin sahilyanı rayonları obsidian, çaxmaqdaşı, mərmər yataqları və müxtəklif süxurlarla zəngindir. Bu süxurların mövcud olması qədim zamanlardan insanların burada məskunlaşmasının başlıca səbəblərindən biri olmuşdur.

Qərbi Azərbaycandakı Qarakilsə rayonu ərazisində qeydə alınmış qayaüstü təsvirlər xronoloji cəhətdən iki qrupa ayrılır. Birinci qrup təsvirlər e.ə. V-IV minilliklərə, ikinci qrup təsvirlər isə e. ə. III-II minilliklərə aiddir. Soyuqbulaq qayaüstü təsvirləri eyniadlı kəndin yaxınlığında, Armudlu və Qaçaqqırılan dərələrindədi [2, s. 13-14]. Kəlbəcərdəki qayaüstü təsvirlər kimi, onlar da bu bölgənin o vaxtkı heyvanat aləmini (maral, tur, at, pələng, it, canavar, ayı və s.) məişət və təsərrüfat həyatını, bədii estetik düşüncə tərzini, dini ideoloji görüşlərini əks etdirir.

Gəmiqaya abidəsi Ordubad rayonunun Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, dəniz səviyyəsindən 3906 metr yüksəklikdə yerləşir. İlk dəfə 1967-ci ildə geoloqlar tərəfindən aşkar olunmuşdur. 1968-ci ildə abidəni tədqiqatçı alim V.H.Əliyev qeydə almış, onun haqqında ilk elmi məqaləni yazmışdır [153]. Abidənin sistemli tədqiqinə 70-ci illərdə, Ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə başlanılmışdır. 1971-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Rəyasət Heyəti Gəmiqayada tədqiqat işlərinin aparılmasını, elmi albomun nəşr edilməsini, elmi-kütləvi filmin çəkilməsini qərara almışdır. 1970-1987-ci illərdə Gəmiqayada aparılan tədqiqatlar zamanı e.ə. IV-I minilliklərə aid bir çox qayaüstü təsvir aşkar edilmişdir. Gəmiqayada aparılan tədqiqatlar 2002-2003-cü illərdə və sonrakı dövrlərdə də davam etdirilmişdir. Tədqiqatlar zamanı Gəmiqayada 136, 58 hektar ərazidə 2040 vulkanik mənşəli bazalt daşların üzərində 7432 təsvirin olduğu müəyyən edilmişdir [1, s. 11].

Qərbi Azərbaycan qayaüstü təsvirlərini Naxçıvandakı Gəmiqaya təsvirləri ilə müqayisəli şəkildə öyrənərkən məlum olur ki, hər iki bölgədəki təsvirlər mövzu rəngarəngliyi, zəngin süjetləri və böyük bədii dəyəri ilə diqqəti cəlb edirlər. Bu yerlərin qədim sakinləri ibtidai daş alətlərdən istifadə etməklə möhkəm qayalar üzərində məişət və təsərrüfat səhnələrini, müxtəlif vəhşi heyvanları təsvir edən gözəl rəsmlər çəkə bilmişdilər. Onlar heyvan, insan, araba təsvirlərindən, sxematik formada çəkilmiş simvolik işarələrdən, astral rəsmlərdən və s. ibarətdir.

Gəmiqayada qırxdan çox araba rəsmi var. Onlar dördtəkərli və ikitəkərli çəkilmişdir (tab. I, daş № 30; tab. III, daş № 4) [5, s.18]. Onların yaxın bənzəri Azərbaycanın digər yerlərində, o cümlədən Qərbi Azərbaycan ərazisində də qeydə alınmışdır. Belə qayaüstü

təsvirlərdən birini dördtəkərli araba rəsmi təşkil edir. Aparılan müqayisəli araşdırma zamanı məlum olur ki, Qərbi Azərbaycan ərazisindəki Qarakilsə qayaüstü təsvirləri ilə Gəmiqaya abidəsindəki qayaüstü təsvir arasında yaxın bənzərlik hər iki abidədə dördtəkərli arabanın və insanın eyni formada qoşqu qüvvəsi ilə birgə çəkilməsi təşkil edir (Şəkil 1).



Şəkil 1. 1-Qarakilsə qayaüstü təsvirləri (Ələkbərli, 2007); 2, 3-Gəmiqaya qayaüstü təsvirləri (Müseyibli, 2005).

Bu təsvir insanların həyat tərzini əks etdirməklə yanaşı, həm də arabadan istifadə edilmə mədəniyyətinin tarixinin, bu mədəniyyətin harada və necə formalaşması məsələsini öyrənmək baxımından mühüm elmi əhəmiyyət daşıyır. Qeyd olunan məsələ ilə bağlı araşdırma apararkən məlum olur ki, bunun "Bir heyvan qoşma mədəniyyəti" [9, s. 395], "Atlı araba mədəniyyəti" [13, s. 166] ilə bağlı olması haqqında mənbələrdə müxtəlif məlumatlar var. Bu məsələ ilə bağlı B.Tuncay, F.Ağasıoğlu, N.Müseyibli, V.G.Childe, T.S.Piggott, Y.A.Şervda, A.Speiser ve J.Qavrada, L.Volley və digər tədqiqatçılar araşdırma apararaq müxtəlif fikir irəli sürmüşlər. N.Müseyibli Azərbaycanın Eneolit dövrü abidələrindən (Leylatəpə, Böyük Kəsik, Qalayeri, II Poylu, Polutəpə) aşkar edilmiş gil təkər modellərinə əsaslanaraq arabadan istifadə edilmə mədəniyyətinin hind-avropa arealından Qafqaza yayılması haqqında fikirlərin heç bir elmi əsasının olmadığını qeyd etmişdir [6, s. 84-85]. A.Spenser ve J.Qavrada apardıqları tədqiqatlar zamanı əldə olunmuş arxeoloji materiallara istinad edərək, təkərin, arabanın ilk dəfə e.ə. 5000-ci ildə Mesopotomiyada (İkiçayarasında) icad edildiyini qeyd etmişlər. A.Speiser ve J.Qavradanla yanaşı, L.Volley də bu istiqamətdə tədqiqat aparmışdır. A.Speiser ve J.Qavrada, L.Volley apardıqları tədqiqatlar nəticəsində qeyd etmişlər ki, arabalar əvvəlcə ikitəkərli, sonra isə dördtəkərli düzəldilmişdir. Şumerlər arabanı "kağnı" adlandırmışlar. Ondan e.ə. 3500-cü ildə əsasən yük daşımaq üçün istifadə etmişlər. E.ə.2800-cü ildə onlar ikitəkərli arabadan döyüş arabası kimi istifadə etmişlər. E.ə. 2500-cü ildə isə ikitəkərli araba dördtəkərli araba ilə əvəz olunmuşdur. Araba təkərləri əvvəlcə barmaqsız, düz formada düzəldilmişdir. E.ə. 2000-ci ildə onları barmaqlı formada hazırlamışlar [18]. Çinli tarixçi Sui Beihayi Tanrı, Altay dağlarında, Monqolustanda, Şərqi və Qərbi Türküstandakı abidələrdən aşkar olunmuş arabaların hun

mədəniyyətinə aid olduğunu, e.ə. 2000-800-cü illərdə arabanın türklər tərəfindən geniş istifadə edildiyini qeyd etmişdir [8, s. 524]. Sui Beihayinin fikri ilə bağlılıq təşkil edən məlumat F.Rəşidəddinin "Oğuznamə"sində, Göytürk kitabələrində də vardır. F.Rəşidəddinin "Oğuznamə"sində qeyd olunan məlumat belə əks olunmuşdur: *"... digər bir qövmdə, düşmənləri yağma edib qənimət (olcay) yığdıqlarından, heyvanlar bunları daşımaq üçün gəlib çatmadığından "qanqlı"lar düzəltdilər. Bundan əvvəl təkərlər yox idi. Arabanı ilk dəfə bunlar düzəltdilər. Əşyaları, yükləri və qənimətləri bunun üzərinə qoyaraq daşıdılar, getdilər. Oğuz bu səbəbdən onlara "qanqlı", "yəni arabaçılar" adını verdi"* [10, s.19]. Göytürk kitabələrində qeyd edilmişdir ki, "hunlarla yanaşı, Şərqi Türküstandakı Tanrı Dağları ilə Altay Dağları arasındakı ərazilərdə yaşamış qədim türk tayfalarından olan kaocilər də ikitəkərli, ətrafları örtülü olan arabalardan geniş istifadə etmişlər" [7, s. 174]. E.Emel qeyd etmişdir ki, hunlar təkərli arabalar düzəltmişlər. Bu təkərli, çadırlı arabalardan istifadə onlar üçün əlverişli olmuşdur [9, s. 210]. Mənbələrdə olan məlumatları və tədqiqatçıların fikirlərini müqayisəli şəkildə araşdırdıqda məlum olur ki, istər Qərbi Azərbaycanda, istərsə də Naxçıvanda qeydə alınmış qayaüstü təsvirlərdəki araba təsvirləri təsadüfən çəkilməmişdir. Onlar qədim türklərə aid olan "Araba mədəniyyəti" ilə bağlılıq təşkil edərək, bu mədəniyyətin Qərbi Azərbaycanı və Naxçıvanı da əhatə etdiyini sübut edir.

Araba təsvirləri ilə yanaşı, insan, heyvan təsvirləri arasında da yaxın bənzərliyin olduğunu müşahidə etmək mümkündür. Onlar insanların həyat tərzi, dini-ideoloji görüşləri ilə bağlılıq təşkil edən müxtəlif süjetləri əks etdirmişdir (Şəkil 2).



Şəkil 2. 1-4-Gəmiqaya qayaüstü təsvirləri (Müseyibli, 2005), 6-Soyuqbulaq (Ələkbərli, 2007); 5, 7-Qarakilsə
(https://www.holamon.cat/az/qarakils-petroqliflri#nanogallery/nanogallery)

Qərbi Azərbaycan ərazisində olduğu kimi Qarabağ torpağındakı qayaüstü təsvirlərin arasında da, Naxçıvandakı Gəmiqaya petroqlifləri ilə oxşarlıq təşkil edən təsvirlərin olduğunu müşahidə etmək mümkündür. Belə maraqlı qayaüstü təsvirlərdən birini it təsviri təşkil edir (Şəkil 3). Digər qayaüstü təsvirlər kimi onlar da müxtəlif süjetdə çəkilmişdir. Qulaqsız it təsvirlərindən bir qismi sadə çəkilərək bu heyvanın adi hərəkətini (hürməsini) əks etdirmişdir. Bəzi rəsmlər isə bir qədər mürəkkəb kompozisiyada təsvir

edilmişdir. Bu təsvirlərdə maraq doğuran cəhətlərdən biri onların qulaqsız şəkildə verilməsi təşkil edir. İtlərin qulaqsız verilməsi faktı onların əhliləşdirilmiş, çoban iti olduğunu, onun insanların həyatında necə yer tutduğunu öyrənmək baxımından əhəmiyyət daşıyır. Qeyd olunan məsələ ilə bağlı araşdırma apararkən məlum olur ki, itin insanların təsərrüfat həyatında geniş yer tutması onların dini-ideoloji görüşlərinə də təsir etmişdir. Buna görə də bir çox arxeoloji abidələrdə itin insanla birlikdə dəfn edilməsi faktı qeydə alınmışdır. Naxçıvanda I Kültəpə Eneolit dövrü təbəqəsində [12, s. 46, 49], Son Tunc-Erkən Dəmir dövrünə aid Sarıdərə nekropolunda [25, s. 23], Şərqi Anadoludakı Yoncatəpə [16, 154-155] nekropollarında və digər abidələrdə də qeydə alınmışdır.



Şəkil 3. 1-Kəlbəcər (İsmayılzadə, 2009); 2, 3-Gəmiqaya qayaüstü təsvirləri (Müseyibli, 2005)

Qərbi Azərbaycan, Kəlbəcər qayaüstü təsvirləri ilə Gəmiqaya təsvirləri arasında yaxın bənzərlik təşkil edən rəsmlər içərisində keçi təsviri də özünəməxsus yer tutur. Onların bir qrupu arasında yaxın bənzərlik ondan ibarətdir ki, təsvirlərdə keçinin buynuzları yarımdairəvi şəkildə, arxaya qatlanmış formada verilmişdir. Bu tip təsvirlər Xocalı-Gədəbəy mədəniyyətində geniş yayılmışdır (Quseynov, 1989, 99). Digər qayaüstü təsvirlər kimi, onlar da qədim dövr maddi və mənəvi mədəniyyətimizi öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. Aparılan müqayisəli araşdırma zamanı məlum olur ki, it təsvirləri kimi, keçi təsvirləri də təsadüfən çəkilməmişdir. Onlar insanların təsərrüfat həyatı ilə yanaşı, dini-ideoloji görüşlərini öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. Keçi təsvirlərinin yayılma areali ilə bağlı araşdırma apararkən məlum olur ki, bu heyvan türklərin maddi və mənəvi mədəniyyətində mühüm yer tutmuşdur. Keçinin Türk mədəniyyətində özünəməxsus yer tutması əfsanə və rəvayətlərlə yanaşı, oğuz tayfalarının damğa işarələrində ("elik" damğası) özünü göstərmişdir. Dağ keçisi damğasının Orxan-Yenisey abidələrində, Asiya və Avropanın kitabələrində, qayaüstü təsvirlərdə aşkar edilməsinə əsaslanaraq bəzi tədqiqatçılar qeyd etmişlər ki, türk etnosları keçi motivini Monqolustandan və Sibirdən başlayaraq Qərbə doğru yaymışlar. Türklərin getdikləri hər yerə keçi ilə əlaqədar inanclarını və adət-ənənələrini aparması nəticəsində Asiya ilə yanaşı, Avropada da keçi kultu yayılmışdır. Azərbaycanla yanaşı, Qazaxıstan, Çin, Altay, Qırğızıstan, Türkmənistan, İran, Türkiyə və digər yerlərdəki qayaüstü təsvirlərin çoxunu dağ keçisi rəsmi təşkil edir.

Naxçıvanda olduğu kimi, Qərbi Azərbaycandakı və Qarabağdakı qayaüstü təsvirlərin yaxın bənzərlərinin prototürk mədəniyyətində geniş yayılması bu torpaqların tarixən türklərə məxsus olduğunu, onların prototürk mədəniyyətinin şah əsərləri olduğunu sübut edir.

ƏDƏBİYYAT

1. Alıyev, N. Gəmiqaya rəsmləri. – Naxçıvan: Əcəmi, – 2020. – 576 s.
2. Ələkbərli, Ə.Y. Qərbi Azərbaycan abidələri. – Bakı: "Nurlan" nəşriyyatı, – 2007. – 272 s.
3. Fərəcova, M. Azərbaycan qayaüstü incəsənəti. – Bakı: Aspoliqraf, – 2009. – 384 s.
4. İsmayılzadə, Q. Ulu dağların daş salnaməsi //Arxeoloqun çöl gündəliyindən. – Bakı: Xəzər Universitetinin Nəşriyyatı, – 2009. s. 55-63.
5. Müseyibli, N.Ə. Gəmiqaya. – Bakı: Çaşıoğlu, – 2004, – 320 s.
6. Müseyibli, N. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. – Bakı: Nafta-Press, – 2014. – 140 s.
7. Исмаилов Г. Кисторико-культурной интерпретации древнихнаскальных изображений на территории Азербайджана. Интситут Археол.АН.СССР /Проблемы изучения наскапьных изображений в СССР. М., – 1990 г., – с. 91- 96
8. Исмаилов Г. Исследование петроглифов на Кельбаджарском высокогорье/ Археологические открытия 1985г., – М., – 1987г., Изд. "Наука", – с.550-551.
9. Baheddin, Ö. Türk Kültür Tarihine Giriş, c.1., Baskı 2, – Ankara: Kültür Bakanlığı yayınları, – 2000, – 452 s.
10. Behayi, S, Xinjiang Yanhua (Doğu Türkistan Kaya Resimleri), – Urumchi: Doğu Türkistan Güzel Sanatlar ve Fotoğrafçılık Yayın evi, – 1994. – 613 p.
11. Emel E. Türk Sanatında At // Türkler., c. 4. – Ankara: Yeni Türkiye yayınları, – 2002, – s. 210-245.
12. Rəşidəddin, F. Oğuznamə (tərtibçi İ.M.Osmanlı). – Bakı: Azərbaycan Milli Ensiklopediyası, – 2003, – 108 s.
13. Şayan U.Ş. Türk Kültüründe At Arabası (At Arabalarının Dili) // Bilig, kış, sayı 32, Ahmet Yesevi Üniversitesi Mütevelli Heyet Başkanlığı, – 2005, – s. 165-178.
14. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. – Баку: Элм, – 1982. – 314 с,
15. Алиев В. Гемигая-сокровищница тайн. Баку: "Вышка", № 228, 28 сентября 1968 года.
16. Belli O., Konyar E. Excavations of Van Yondatepe Fortress and Necropolis (1997-1999) // -Istanbul: Istanbul University's Contributions to Archaeology in Turkey (1932-2000), – 2001, – p.151-156.
17. Tekerlek. [Elektron resurs] URL: https://www.tarihiolaylar.com/tarihi-olaylar/tekerlek-156.
18. Qarakilsə qayaüstü təsvirləri. [Elektron resurs] URL. https:// www.holamon. cat/az/qarakils-petroqliflri#nanogallery/nanogallery

SUMMARY

Togrul Khalilov

TRACES OF ANCIENT TURKISH CULTURE IN THE ROCK PICTURES OF WESTERN AZERBAIJANI

Rock paintings are among the most interesting and scientifically significant archaeological materials among our ancient material culture samples. Besides being examples of primitive art, they reflect the household and economy, religious-ideological views, material and spiritual culture of our ancestors. Rock paintings can be found in different parts of the world. In the article, a comparison of a group of rock carvings in Western Azerbaijan and Karabakh with the Gamigaya carvings in Nakhchivan is analyzed and studied. It has been determined that rock paintings in all three regions are of scientific importance due to their variety of subjects, plots and great artistic value. As in Nakhchivan, the widespread distribution of rock paintings in West Azerbaijan and Karabakh in Proto-Turkic culture proves that these lands historically belong to the Turks and that they are masterpieces of Proto-Turkic culture.

Key words: *Western Azerbaijan, Karabakh, Nakhchivan, petroglyphs*

ZƏNGƏZURLU EL ŞAİRLƏRİ DƏLLƏK VƏ ULULU KƏRİM YARADICILIQLARINA AİD REALLIQLAR

Bənövşə RZAYEVA
rzayeva.benovse62 @ gmail.com
Naxçıvan Dövlət Universiteti

Aşıq şeiri xalq arasında nə qədər geniş yayılsa da, kütləviliyi ilə seçilsə də, yazıya alınmasında bir o qədər məhdudiyyət olmuşdur. Orta əsrlərdə şairlər məclisi katiblər tərəfindən köçürüldüyü halda aşıqlara müstəsna zamanları çıxmaqla xor baxılmışdır.

Aşıqların şeirləri yazıya alınmadığı üçün it bata düşmüş və az şəkildə yaddaşlarda qorunub saxlanılmışdır. Bu səbəbdən də aşıq sənətini araşdıran tədqiqatçılar çətinliklərlə üzləşmişlər.

Zəngəzurdan Naxçıvana pənah gətirmiş el aşığı Ululu Kərimin də yaradıcılığına məxsus şeirləri yazıya alınmamış, it-bata düşmüş, bir qismi də digər aşıqların adına verilmişdir. Eləcə də Dəllək Muradın Matenadarandakı əlyazmalarına rast gələn Əkbər Yerevanlı bu aşığı elmi irsinə biganə qalaraq, Dəllək Muradın şeirlərini yazıya alıb məqalə şəklində dərc etdirməmişdir. Aşıq şeirlərinin toplanmasına etinasız yanaşan, tədiqatçının səhvi üzündən bizə Dəllək Muradın az sayda şeirləri qalmışdır.

1935-ci ildə Salman Mümtazın nəşr etdirdiyi "El şairləri" kitablarında U.Kərimin "Dul arvad", "Darayı bağlar" şeirləri, yanlış olaraq Vardanlı Mücrüm Kərimin şeiri kimi verilmişdir.

Əli Şamilov 1986-cı ildə Naxçıvanda çalışarkən, "Ululu Kərimi axtaran tapar", "Ululu Kərim haralıdır?" məqalələrində bu el aşığının yaradıcılığına aydınlıq gətirməyə çalışmışdır.

Ululu Kərimin yaradıcılığı ilə bağlı axtarışlarımda onun atasının Dəllək Muradın olması ilə məlumat aldıqdan sonra bu sahədə tədqiqatlar aparmağa başladım. Tədqiqatlarımda el şairi Dəllək Muradın yaradıcılığı ilə bağlı məlumatları dəqiqləşdirməyə nail olmağa çalışdım.

Açar sözlər: *Zəngəzur, Dəllək Murad, Ululu Kərim, el aşığı, şeir, Şahbuz, söyləyicilər.*

Ululu Kərim yaradıcılığına aid axtarışlarımda el şairi Dəllək Muradın həyat və yaradıcılığına aid reallıqlar.

Naxçıvan Dövlət Universitetində keçirilən növbəti tədbirlərin birində AMEA-nın müxbir üzvü,tarix elmləri doktoru Hacı Fəxrəddin Səfərli mənə bildirdi ki, araşdırmalarınız zamanı Şahbuz rayon ərazisində yaşamış el şairi Ululu Kərimin həyat və yaradıcılığı ilə də maraqlanın. O, söhbət zamanı bildirdi ki, bu el aşığının həyat və yaradıcılığı ilə bağlı mükəmməl məlumat verilməmişdir. Əli Şamil "Sovet Naxçıvanı"qəzetində çalışarkən, onunla bağlı məlumat toplayaraq məqalə dərc etdirmişdir.

1996-cı ildə Əli Şamilovun "Sovet Naxçıvanı"qəzetində dərc etdirdiyi "Ululu Kərimi axtaran tapar" və Şahbuz rayon "Qabaqcıl" qəzetində Ululu Kərim haralıdır?" adlı məqalələrini tapıb oxudum.

Gözəl tədqiqatçı Əli Şamil, məqalədə Ululu Kərimin XVIII əsrin sonu XIX əsrin əvvəllərində keçmiş Qarabağ xanlığının ərazisindəki "Ulu" kəndində doğulmasını bildirir. O, verdiyi məlumatlarda Ululu Kərimin ailəsi ilə birlikdə Şahbuz rayonunun keçmiş

"Qızıl-qışlaq" kəndinə köçməsi, ya da ola bilsin ki, Ululu Kərim elə Qızıl Qışlaq kəndində anadan olmuş və ömrünün sonuna kimi elə bu kənddə yaşadığını qeyd etmişdir. O, aşıqların yaradıcılıqlarının vaxtında yazıya alınmadığı üçün, bir aşığın şeirlərinin yanlış olaraq digər aşıqların adına verilməsi halının, Ululu Kərim yaradıcılığına da aid edidiyini qeyd edərək bu məsələyə aydınlıq gətirməyə çalışmışdır.

O, Hümmət Əlizadənin 1929- cu ildə nəşr etdirdiyi " Azərbaycan aşıqları" kitabının 1-ci cildində Ululu Kərimin "Darayı bağlar" rədifli bir bağlamasının verildiyini göstərmişdir. Gözəl tədqiqatçı daha sonra 1935-ci ildə görkəmli ədəbiyyatşünas Salman Mümtazın "El şairləri" kitabında U.Kərimin "Dul arvad", "Darayı bağlar" şeirlərinin, yanlış olaraq Vardanlı Mücrüm Kərimin şeirləri kimi təqdim olunmasına aydınlıq gətirərək bu şeirlərin Ululu Kərimin yaradıcılığına məxsus olduğunu qeyd etmişdir. Göründüyü kimi, ilk dəfə olaraq Əli Şamil Ululu Kərimin həyat və yaradıcılığına aydınlıq gətirməyə çalışaraq, onun şeirlərinin yanlış olaraq, digər aşıqlara verilməsi haqqında məlumat vermişdir [1, s.4].

Türk dünyasının ən gözəl araşdırıcılarından biri sayılan Əli Şamilin Ululu Kərimin həyat və yaradıcılığ ilə verdiyi məlumata əsasən 1998-ci ildə onun sadaladığı ədəbiyyatları yenidən araşdırmağa başladım.

Xalq yazıçısı Əzizə Cəfərzadənin 1978-ci ildə çap etdirdiyi Vardanlı Mücrüm Kərimin "Sünbülüstan" kitabında, Kərim təxəllüslü bir çox şeirlərin yanlış olaraq Vardanlı Mücrüm Kərimin yaradıcılığına aid ediliməsinin şahidi oldum. Qeyd edim ki, belə bir yanlışlığı Əli Şamil el aşığı haqqında dərc etdirdiyi məqaləsində də göstərmişdir [2, s.52].

Bu el aşığının şeirlərinin Mücrüm Kərimin adına verilməsi halına 1983- cü ildə "Elm" nəşriyyatı tərəfindən nəşr edilən "Azərbaycan aşıqları və el şairləri" kitabının 1-ci cildində də rast gəlinir. Belə bir sanballı nəşrin özündə də Ululu Kərimin "Dul arvad", "Olmaz" şeirləri yenə də yanlış olaraq Mücrüm Kərimin şeirləri kimi verilmişdir [3, s.67].

Bu el aşığının həyat və yaradıcılığı ilə bağlı araşdırmalarımda Naxçıvan Dövlət Universitetinin yaşlı müəllimlərindən, Ululu Kərimin haralı olması və erməni keşişiylə U.Kərimin əhvalatını qeydə aldım. Xain erməni keşişi bu el şairinin xalq içərisində böyük hörmətə sahib olmasına dözə bilməyib, onu el gözündə ələ salmaq istəyir. O, bu məqsədlə pul göndərir və mümkün olmayan bir bağlama deyir ki, Ululu Kərim onu açıb göndərsin. Gözəl el aşığı Ululu Kərim onu bağlamasında gülünc vəziyyətə salaraq sifariş göndərir ki, gəlib apara bilərsən. Keşiş bunun mümkün olmadığını görüncə, el içində gülünc vəziyyətə düşür.

Araşdırmalarımda, təkcə Naxçıvanda deyil, əslən Göyçə mahalından olan yaxılarım mənə Göyçə mahalının Aşağı-Şorcalı kəndində yaşamış aşıq İslamla da əlaqə saxlamağıma şərait yaratdılar. Aşıq İsalmdan Ululu Kərimin şeirlərindən bir neçəsini və böyük bir bağlamasını əldə etdim.

Ədəbi irsinin araşdırılmasında son dərəcə maraqlı olduğum bu el aşığının sorağıyla, Şahbuz rayonunun Yuxarı-Qışlaq, Aşağı-Qışlaq, Kükü, Qızıl-Qışlaq, Quzey-qışlaq, Daylaqlı, Vayxır və Badamlı kəndlərində neçə-neçə yaşlı nəslin nümayəndəri ilə söhbətlər apardım. Əvvəldə qeyd etdiyim kimi o vaxta qədər bu el aşığının iki yarımçıq ustadnaməsi bir kiçik bağlaması bir neçə şeirləri məlum idi. Zəngəzur mahalının aşıqlığına söykənən bu sənətkarın yaradıcılığına mənsub olan şeirlərdə, gözəl insanlığı,

qonşu malına əmanəti, gənclərə məclislərdə davranış qaydasını, dünya malına alüdə olmamağı, kasıba əl tutulması, fürsət əldə ikən yaxşılıq edilməsi və özünün həmişə kasıbın yanında olmağını da hər şeydən üstün tutması, məndə bu el aşığının yaradıcılığına aid şeirləri toplamağa marağımı daha da artırdı. Xalq içərisindən yaddaşlardan çözələdiyim şeirlərini topladıqca onun dərin elmi biliyə yiyələnmiş, mükəmməl bir el aşığı olduğunun şahidi oldum.

Araşdırmalarım zamanı yaşlı söyləyicilər arasında Ululu Kərimin həyat və yaradıcılığı ilə bağlı aldığım məlumatlarda onun atasının Dəllək Murad olması haqqındakı fikirlər məni heyrətləndirməyə bilməzdi. Bu fikrin nə dərəcədə doğru olmasını sonrakı araşdırmalarım zamanı dəqiqləşdirməyə çalışırdım. Verilən məlumatda Ululu Kərim ailəsilə birlikdə əvvəlcə Şahbuz rayonunun Yuxarı Qışlaq kəndində, daha sonra isə Şahbuz rayonunun Qızıl Qışlaq kəndində məskunlaşmaları haqqında məlumat verilirdi.

1996-cı ildə Qızıl Qışlaq kəndində bu el şairinin həyat və yaradıcılığı ilə bağlı ahıl qocaların vaxtilə ata-babalarından eşitdiklərini yazıya aldığım vaxt, həmin kəndin orta məktəbində dil-ədəbiyyat müəllimi işləyən 65 yaşlı Dilbər xanımın söylədiklərindən məlum oldu ki, Zəngəzur mahalından təkcə Dəllək Muradın övladları deyil, oradan Naxçıvana digər qaçqınlar üz tutub, burada məskunlaşmışlar. Dilbər müəllimə söyləyirdi ki, yüz yaşa qədər yaşamış nənəm onların Dəllək Muradın tayfasından olduğunu deyərdi. O, söyləyirdi ki, nənəm Dəllək Muradın övladlarının erməni qırğını zamanı min bir əziyyətlə buraya pənah gətirmələrini, atasının dediklərindən eşitmişdir.

O, deyirdi ki, mən kiçik olanda və sonralar nənəmin bu el aşıqlarının adlarını çəkərək həmişə kövrəlməyi indiki kimi yadımdadır. İndi sizin sorğunuz zamanı Ululu Kərim və onun atası Dəllək Muradla bağlı yaşanan faciələri o vaxt nənəmdən eşitmişəm.

Ululu Kərim yaradıcılığı ilə bağlı araşdırmalarımda məqsədim verilən məlumatlarda bu el şairinin atasının kim olması fikrini bir daha dəqiqləşdirmək idi. 1997-cı ildə vaxtilə Şahbuz rayonunun Badamlı kəndində yaşayan, 89 yaşlı tanınmış el şairi Surxay Quliyevlə görüşdüm. O, söhbətində bildirdi ki, hələ kiçik yaşlarımda atamın qış gecələrində saz-söz həvəskarı ilə keçirdiyi kiçik məclislərdəki söhbətləri şirin xatirə kimi xatırlayıram. Mən uşaq ikən atamın, dayımın başına saz-söz həvəskarları yığılardı və onlar Ululu Kərimin şeirlərindən deyər və söhbətlərində onun Dəllək Muradın oğlu olmasından danışardılar. Onun özünün Zəngəzur mahalından olmasını və atasının da aşıq olması haqda söhbətləri eşitmişəm. Çox heyif ki, uşaq idik bizə maraqlı gəlmirdi. Dəllək Muradın oğlu Ululu Kərim olmasını və ermənilərin törətdikləri qırğından qaçaraq Şahbuz rayonunun Qızıl Qışlaq kəndinə pənah gətirmələrini dəfələrlə eşitmişəm [4, s.11].

Ululu Kərimin atası Dəllək Murad təxminən XVIII əsrin ortalarından, XIX əsrin ortalarına yaxın yaşamışdır. Xalq içərisindən aldığımız məlumatdan və onun şeirlərinə əsaslanıb bu fikri bildiririk. Əvvəldə qeyd etdiyim kimi, yazılı ədəbiyyatda bu haqda dəqiq tarix göstərmək çətindir.

Böyük mətnşünas alim Salman Mümtaz 1927-1928-ci illərdə ərəb əlifbası ilə iki cildlik "El şairləri" kitabını nəşr etdirdi. Onların arasında Dəllək Muradın "Gör nədir", "Eyləmə" şeirlərini daxil etsə də, təəssüf ki, onları haradan aldığını və Dəllək Muradın Şirvanlı olması və onun XIX əsrdə yaşaması haqda məlumat versə də, mənbə göstərməmişdir.

Salman Mümtaz 1927-1928-ci illərdə ərəb əlifbası ilə iki cildlik "El şairləri" kitablarını 1934-1935-ci illərdə yenidən latın əlifbası ilə "El şairləri" adında nəşr etdirdi. Hər iki nəşrə də Dəllək Muradın "Gör nədir", "Eyləmə" şeirlərini daxil etmişdir. Sonrakı 24 il ərzində Salman Mümtazın Dəllək Murad haqqında heç bir yazısına və ya bir şeirinin nəşrinə rast gəlmirik [5, s.67].

Əkbər Yerevanlı filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün yazdığı dissertasiya əsasında nəşr etdirdiyi "Erməni-Azərbaycanlı şifahi xalq dəbiyyatı əlaqələri" kitabında, erməni dilində yazıb-yaratmış 129 aşığın siyahısını verib. Bu aşıqlar haqqında məlumat versə də, heç bir mənbə göstərməyib. O, Dəllək Murad haqqında yazısında ancaq Salman Mümtazın məlumatlarına əsaslanıb. Ə.Yerevanlı Qərbi Azərbaycanda folklorla bağlı uzun müddət araşdırmalar aparmışdır. Tədqiqatçılar tərəfindən az da olsa, Dəllək Muradın bir qisim şeirləri "Azərbaycan şairləri" və "Azərbaycan aşıqları və el şairləri" kitablarında verilmişdir.

Ə.Yerevanlı Dəllək Muradın şirvanlı olduğunu qeyd etməklə yanaşı, onun şeirlərinin Azərbaycanın ən ucqar kəndlərində belə yayılması haqqında məlumatı, Salman Mümtazın yazılarına əsaslanaraq qeyd edir [6, s.35].

Tanınmış tədqiqatçı Əhliman Axundov 1964-cü ildə nəşr etdirdiyi "Telli saz ustadları" kitabında Dəllək Muradın "Var nədi", "Eyləmə", "Olmaz", "Yaxşıdır" adlı şeirlərini verməklə yanaşı, onun XVII əsrdə yaşadığını göstərir. Ə.Axundov D.Muradın harada doğulduğu və yaşadığı haqqında məlumat vermir, ancaq onun şifahi xalq yaradıcılığının nəzm formalarına müraciət edərək qoşmalar, ustadnamələr, qıfılbəndlər yazmasını göstərir. O, Dəllək Muradın şeirlərinin sonrakı illərdə Azərbaycan aşıq şeir növlərinin formalaşmasına, eləcə də dastan janrının inkişafına təkan verməsini xüsusi olaraq vurğulayır [7, s. 20].

Əkbər Yerevanlı 1968-ci ildə çap etdirdiyi "Azərbaycan erməni ədəbi əlaqələri qədim dövrdən XVIII əsrin sonuna qədər" kitabında folklorşünas Əhliman Axundovun fikirlərinə əsaslanaraq növbəti dəfə qeyd edir ki, Dəllək Murad XVII əsrdə yaşamış ustad aşıqlardan olmuş, öz ustadnamələri və şeirləri ilə xalq arasında şöhrət qazanmışdır. Necə ola bilər ki, ata XVII əsrdə yaşasın, oğlu Ululu Kərim isə XIX əsrdən XX əsrin əvvəllərinə kimi ömür sürsün? O qeyd edir ki, Dəllək Murad azərbaycan dilinə və xalq şeiri sənətkarlığına dərindən yiyələnmiş bir aşıqdır. Lakin Ə.Yerevanlı öz yazılarında Azərbaycan ədəbi dil normalarına riayət etmədən üslub və qrammatik xətalara yol vermişdir.

O, Dəllək Murad yaradıcılığı haqqında söhbət açsa da, onun doğum yeri ilə bağlı məlumat vermir. Onun fikirlərindən aydın olur ki, bu el aşığı ermənilərin zəbt etdikləri Azərbaycan torpağında yaşamışdır. O, digər tədqiqatçı alimlərin fikrinə əsaslanaraq qeyd edir ki, D.Muradın şeirləri Azərbaycanın ən ucqar kəndlərində yaşayan aşıqların dillərində əzbər olmuşdur. O, el şairinin erməni aşıq məcmuələrində hər hansı bir şeirinin daxil edilməməsini vurğulayır. Əkbər Yerevanlı onu da qeyd edir ki, Dəllək Muradın Azərbaycan dilindəki qoşmaları erməni xalqları arasında uzun müddətdən bəri sevilərək qorunub saxlanılır. O, dəqiq mənbə göstərməsə də, Dəllək Muradın ermənilərin zəbt etdikləri Azərbaycan torpağında onlarla birlikdə yaşamasından xəbər verir [8, s.330].

Təəssüf hissilə bildirirəm ki, Ə.Yerevanlı Qərbi Azərbaycanda folklorla bağlı uzun müddət araşdırmalar apardığı zaman Dəllək Muradın çoxlu sayda əlyazmalarını görür və onları toplayıb məqalə şəklində dərc etdirmir. O, Azəri-erməni ədəbi əlaqələri" dissertasiya işi mövzusunda yazdığı kitabında bildirir ki, Matenadaranın XIX əsrə aid əlyazmaları kitablarında Dəllək Muradın çoxlu sayda əlyazmaları saxlanılır. Maraqlıdır o zaman ustadnamələri sənət qüdrətinin göstəricisi olan Dəllək Murad kimi bir el aşığının əlyazmalarını nədən məqalə şəklində dərc etdirməyib. Təəccüblü orasıdır ki, bu sahədə özünün böyük imkanı olduğu halda, bunu özünə vəzifə borcu hesab etməyən Ə.Yerevanlı yenə də fikirlərində qeyd edir ki, el aşığının yaradıcılığı tədqiqatçıların nəzərindən qaçmışdır.

Təəssüf hissilə bildirirəm ki, Əkbər Yerevanlı Dəllək Muradın əlyazma şəklində Matenadaranda saxlanılan müxtəlif mövzulara aid şeirlərini və onun bir aşıqla görüşünə dünyanın yaranışı haqqında dini əfsanəyə həsr olunmuş divanisini, qıfılbənd və qoşmalarının toplamasına biganə qalmışdır [9, s.8].

2013-cü ildə Qara Namazovun "Ozan aşıq sənətinin tarixi" adlı kitabında Dəllək Muradın Göyçay mahalının Xəlilli kəndindən olması haqqında məlumatla rastlaşırıq. Onun verdiyi məlumatda guya el aşığı Dəllək Murad kəndin bəyi ilə aralarında olan ixtilafa görə onu öldürmüş, özü isə yaxınlıqdakı Ləkçılpaq kəndinə köçərək orada yaşamışdır [10, s.172].

Belə bir yanlış fikir yaradıcılığı boyu xeyirxahlıq, ədəb-ərkan, böyüklərə hörmət kimi fikirlər söyləyən, xalq nəsihətlərinə, zərbi-məsəllərə toxunan bir el şairinin şəxsiyyətinə ləkədir. Buna necə inanmaq olar ki, o XVIII əsrdə bəyi öldürsün, özü də sağ-salamat qalsın və qonşu kəndə köçüb yaşasın? Burada da müəllif heç bir mənbə göstərməmişdir. Bu da el aşığı haqqında verdiyi məlumatın doğruluğunu təsdiqləmir. İstər Dəllək Murad, istərsə də Ululu Kərim xalqa zülm edən hökmdarları və acgöz mollaları, bir sözlə, "mənəm" deyənləri öz şeirlərində lənətləmişlər.

Tədqiqatım zamanı Dəllək Muradın tayfası və övladlarının vaxtilə erməni vəhşətinə məruz qalaraq, Şahbuz rayonuna pənah gətirmələri ilə bağlı çoxlu sayda məlumat aldım. Apardığım araşdırmalarıma əsasən və onların tayfasından olan yaşlı sakinlərin söhbətlərini dinlədikdən sonra "Milli irsimizin daşıyıcılarının izi - Dəllək Murad" adlı elmi məqalə dərc etdirdim.

Xalq arasında aldığım məlumata əsasən, dəlləklik Dəllək Muradgilin ata-baba peşələri olub. Onların şəcərələri haqqında aldığım məlumat belə bir sırayla göstərilir.

Dəllək Murad, oğlu Ululu Kərim, Ululu Kərimin oğlu Dəllək Heydər, Dəllək Heydərin oğlu Dəllək Kərimqulu, onun da oğlu Dəllək Heydərdir.

Ululu Kərim və Dəllək Murad yaradıcılığındakı üslub, fikir, ideya yaxınlığı onların bir ata-oğul olmasını təsdiqləyir. El aşığı Ululu Kərimin şeirlərindən bəlli olur ki, o, Dəllək Murad yaradıcılığından bəhrələnən bir haqq aşığıdır.

Ululu Kərim yaradıcılığında mənbəyi Dəllək Muradın elmi irsindən bəhrələnir. Ululu Kərimin "Üzənməz" rədifli ustadnaməsindən heyif ki, bir bənd əldə etmişik. Həmin ustadnamədə deyilir:

Bir dərin dəryayam coşa gəlmişəm
Heç gəmi işləməz, qəvvas üzənməz
Bir kamil ustadın dərsin almışam.
Nakamil mollalar bunları bilməz.

Dəllək Muradın "Yaxşıdır" ustadnaməsi el şairinin sənət qüdrətinin göstəricisidir.

Sən nüdrətən bir məclisə varanda
Yaxşı əyləş, yaxşı otur, yaxşı dur.
Dindirəndə mərifətdən cavab ver,
Görən desin bərəkallah, yaxşıdır.

Ululu Kərimin "Yaxşıdır" ustadnaməsindən bir beytə nəzər salaq. Burada Dəllək Muradın öyüd-nəsihəti, xalq hikməti bu ustadnamənin qanına-canına hopmuşdur.

Salam verib bir məclisə varanda,
Yaxşı əyləş, yaxşı otur, yaxşı dur,
Dindirəndə kəlmə-kəlmə cavab ver,
Görən desin bərəkallah yaxşıdır.

Göründüyü kimi, ustadnamələr arasında bu qədər yaxın səsləşmə, üslub və ideya yaxınlığı, əlbəttə, təsadüfi sayıla bilməz. Ululu Kərimin ustadnamələrində atalar sözü, məsəl, nağıl, rəvayət, dastan və s. maraqlı şəkildə özünü göstərir və hamısı da eyni məzmunu aşılamaq funksiyasını yerinə yetirir. El aşığının "Olmaz" rədifli ustadnaməsində də bu xüsusiyyət bir bütöv olaraq nəzərə çarpır.

Fürsət əlindəykən yaxşılıq elə,
Həmişə əlində ixtiyar olmaz.
Gəl güvənmə dövlətinə, malına,
Dövləti-malına etibar olmaz.

Ustadnamənin maraqlı tərəfi odur ki, bu şeirdə Dəllək Muradın eyniadlı "Olmaz" ustadnaməsi ilə paralellik təşkil edir.

Adəm oğlu, yol-ərkanı tanı, bil
Yol-ərkan bilənin yeri dar olmaz.
Sirrini söyləmə qamu aləmə,
Bivəfa dilbərdən sənə yar olmaz.

Burada da Ululu Kərimin şeirindən də göründüyü kimi, ideya, mövzu yaxınlığı lazımi diqqət çəkir, bunların bütöv araşdırılmasını zərurətə çevirir. Bu ustadların yaradıcılığından gələn didaktik ənənənin Ululu Kərim tərəfindən yaşadıldığını göstərməkdədir. Dəllək Murad və Ululu Kərim xəttində isə başqa bir mənzərəni (sənət və sənətkar ocağında yaşananları) sərgiləyir. Ululu Kərim şeirləri də ustad sözü, ustad nəsihəti olaraq öz qaynağını həyatdan alır.

Beləliklə, hər iki sənətkarın ata-oğul olması, onların şeirlərindəki fikir yaxınlığından, eləcə də bir ustad və şagird münasibətindən yaranan şeirlərin olduğu çox aydın şəkildə özünü göstərir.

Ululu Kərim öz taleyində erməni vəhşiliklərin canlı şahidi olmuş, dədə-baba torpağı Zəngəzurdan əhalinin hansı dəhşətlərlə didərgin düşməsini yaşamışdır. O, məkrli erməni obrazının portretini ("Başdan ayağa küfürlə dolu olan", "üzü çillərlə və çopurla örtülü",

"burnu badımcan", "beli əyri", "qotur qurbağa" təsvirləri ilə şeirlərində yaratmışdır.

O, ermənin çox hiyləgər olduğunu, onun Qurandan, kitabdan söz açmasını, əlinə saz alıb məclis aparmağa getməsini xüsusi bədii boyalarla təqdim edir.

Aşıqlıq donuna, aman, bürünmə,
Saz alıb əlinə eldə görünmə.
Düşüb qapı-qapı, gədə, sürünmə,
Min bir yalan yazıb bükmə varağa.

Ululu Kərimi sən tanımadın,
Salmandı, bilirəm, müsəlman adın.
Dur get buralardan, əyridi zatın,
Yabanı mal kimi girmə qoruğa.

Obrazını yaratdığı bu namərd adamın Salman olduğunu deyərək, riyakar, yalançı, abırsızlığını diqqət önünə gətirir. Əyriliklərlə, mənfiliklərlə dolu simasını bütün çılpaqlığı ilə göstərir.

Ümumiyyətlə, el şairinin yaradıcılığında dövrün ictimai-siyasi vəziyyətindən qaynaqlanan və sırf reallıqlara bağlanan poetik nümunələr kifayət qədərdir. "Erməni", "Qurandan, kitabdan", "Bilmərsən" şeirləri də bu sıradadır. Bu nümunələr həmin dövrdə baş verən hadisələrin, tarixi reallığın əks-sədasıdır.

"Erməni" şeirindən verdiyimiz bu nümunə baş verən hadisələr timsalında yaranıb ortaya çıxmışdır:

Sən asvası çağırırsan yalandan,
Boylanırsan xəlvət-xəlvət dalandan.
Şad olursan müsəlmana olandan,
Xınzır oğlu, geri dur,
Sənin yerin geridir;
Odum səni əridir.

Ədəbi irsindən bizə çox az sayda şeirləri olan Dəllək Muradın "Eyləmə" şeirindəki fikirlər ancaq erməni namərdliyinin əks etdirə bilər:

Namərd körpüsündən ölsəm keçmərəm.
Karvan olsam mənzilinə düşmərəm,
Əlindən camını alıb içmərəm,
Sağ əli sol ələ möhtac eyləmə.

El şairi Allahdan namərdə möhtac olmamasını diləyərək, "karvan olsam mənzilinə düşmərəm", deməklə əlindən camını alıb içmərəm sözlərilə ermənin iyrənc obrazına işarə edir.

Ululu Kərim öz ata-baba yurdu olan Zəngəzur mahalından erməni vəhşəti nəticəsində didərgin düşərkən o qanlı mənzərəni "Ay fələk" qoşmasında belə təsvir edir:

Qadın, arvad-uşaq qırıldı getdi,
Körpələrin bağrı yarıldı getdi.
Ərşə nalə qalxdı, zarıltı getdi,
Suru ermənіyə verdin, ay fələk?!
Elə qan ağlatdın durduğu yerdə,
Şeytanın qıçını qırdığı yerdə,
Qoymadın yaşaya durduğu yerdə,
Kərimin belini, qırdın, ay fələk.

Naxçıvana ailəsi ilə pənah gətirən Ululu Kərim bu qədim diyarı özünə ikinci bir vətən hesab edir. Şeirlərində Naxçıvanın, Şahbuzun gözəl təbiətini, gözəllərini öz yaradıcılığına xas bir bənzətmə ilə belə vəsf edir [11, s.108].

Yeri, yeri Naxçıvan təhri,
Səni sevənin olarmı qəhri.
Ordubad, Şərur, ordanda Cəhri,
Onlar sənə qurban, ay dağlar qızı.

Sən geydiyin o başmaqlar narıncıdı,
Üzündəki o xalların turuncudu.
Qoşa Qışlaq, Kolanı Ayrıncıdı,
Onlar sənə qurban, ay dağlı qızı.

Quyunların yaylaqlarda dolanı,
Yeyib-içib bulaqlardan sulanı.
Biçənək, Gecəzur, ordan da Badamlı,
Onlar sənə qurban, ay dağlı qızı.

Nəticə

Zəngəzur mahalında və ermənilərin digər bölgələrdə törətdikləri amansız qırğın nəticəsində Naxçıvana pənah gətirən minlərlə müsəlman min bir əzaba, işgəncəyə məruz qalmışlar. Bu qırğınlarda minlərlə uşaq ata-anasız qalmışdır. XX əsrin əvvəllərindən başlayaraq sonralarda sovetlər imperiyasının basqısı altında dədə-baba yurdlarını tərk edənlərin taleyi buna nümunədir. Zəngəzur mahalından düşünülmüş şəkildə aparılan deportasiyalar xalqın yaddaş hadisəsi olaraq düşüncələrdə, kitab və qəzet səhifələrində, müxtəlif toplularda özünə geniş yer almışdır. Ululu Kərimin, Aşıq Cəlilin, Dərəçiçəkli Aşıq Alının və başqalarının yurd-yuvalarını tərk etməsi də müxtəlif səbəblər üzündən baş vermişdir. AMEA-nın müxbir üzvü V.Əliyev qeyd etmişdir ki, "Ə. Əliyevin təşəbbüsü ilə Naxçıvanda, Əbrəqunusda və Şərurun Baş Noraşen kəndində sahibsiz uşaqlar üçün (əksəriyyəti Ermənistandan idi) uşaq evləri açılmışdı [12, s.26].

Bütün bunlar müxtəlif səbəblər üzündən baş vermiş köçlərin, aşıq ocaqlarının tarixi-mədəni axarı haqqında dolğun təsəvvür formalaşdırır. Dərələyəz, Dərəçiçək, İrəvan və s. aşıq mühitlərinin tarixi, taleyi bunun bariz nümunəsidir.

Dəllək Murad, Ululu Kərim də bir el şairi kimi bu müstəvidə dayanan söz, sənət adamlarındandır. Onların həyatı ilə bağlı reallıqların, avtobioqrafik bilgilərin bir araya gətirilib dəqiqləşməsinə bu gün daha çox ehtiyac vardır. Çünki bu ustadlar etnosun mənəvi dayaqları, düşüncə, fikir sahibləri olub, böyük və müqəddəs missiyaya köklənmişlər.

Ululu Kərimin Haqq aşığı olması yaddaşlarda təsadüfi özünə yer almamışdır. Söyləyicilərlə təmasda da, el şairinin yaradıcılığında da, həm də onunla bağlı el-oba arasında bu günlərimizə qədər gəlib çıxan rəvayətlərdə də Ululu Kərimin Haqq aşığı olması təsəvvürü ana xətt kimi keçir.

Beləliklə, yazımda apardığım təhlillərə əsasən, demək olar ki, Dəllək Muradın oğlu Ululu Kərim ailəsilə birlikdə Şahbuz rayonuna pənah gətirdiyi vaxt o artıq müəyyən qədər yaş yaşamışdır.

Buna baxmayaraq, Naxçıvan aşıq mühitinin zənginliyində Ululu Kərimin el şairi kimi mühüm rolu olmuşdur. Onun sənətkarlıq etibarı ilə bir-birindən mükəmməl poetik örnəkləri, çeşidli ustadnamələri buna nümunədir. Onun 120-125 yaş yaşaması haqqında el şairinin şeirlərində də rast gəlinir. Bunu Ululu Kərim "Eylərəm" şeirində belə dilə gətirir.

Yaşın çoxdan keçib, Ululu Kərim,
Tayın-tuşun köçüb, Ululu Kərim.
Qəm şərbətin içib, Ululu Kərim,
Bu gələn əcələ nəzər eylərəm.

Ululu Kərim çox zəngin yaradıcılığa mənsub olan bir el aşığıdır. Onun Naxçıvan bölgəsində və imkan qədər kənar bölgələrdən ədəbi irsinə mənsub olan şeirlərini əldə etməyə çalışdım. Ululu Kərimin XX əsrin əvvəllərinə kimi ömür sürməsini sübuta yetirən "Deyim" qoşmasından bir bəndə nəzər salaq.

Dil başa bəladı, bilirəm bunu,
Haqqı görə-görə yalanmı deyim?!
Halı yox hərlənə yazıq kasıbın,
Biçarə insana kalanmı deyim?!

Yaxşı yesin-içsin erməni-əyri,
Bunun haradan dəyir Sovetə xeyri?
Mundarlığı çoxdu insafdan qeyri,
Geydiyi paltara palanmı deyim?!

Nəyimiz var idi, itirdik gəldik,
Hərdən köksümüzü ötürdük gəldik.
Demə nələr gördük, öldük-dirildik,
Kərim, dərdli-dərdli dolanmı deyim?!

Göründüyü kimi, sovetlər birliyi deyilən bir ikiüzlü qurumun ilkin çağlarından millətlər arasında fərqin qoyulmasını el şairi açıq şəkildə öz şeirində dilə gətirir.

Müxtəlif səpkili söyləmələrdə və folklorşünas mülahizələrində yer alan məsələlərdən biri ustadın nəsil şəcərəsi ilə bağlı dolğun təsəvvürün formalaşdırılmasıdır.

Məqsədim Ululu Kərimin həyat və yaradıcılığına mənsub olan məlumatları, xalqın dilindən 25 il ərzində zərrə-zərrə toplayaraq ustad sənətkarların həyat və yaradıcılığına mükəmməl bir aydınlıq gətirməkdən ibarət idi. Bu araşdırmada el aşığı Dəllək Muradla bağlı məlumatlar, sözsüz ki, yeni bir tapıntı idi. İndiyə kimi nə aşıq ədəbiyyatında, nə də el şairlərinin kitablarında Dəllək Muradın haralı olması ilə bağlı dəqiq məlumat yox idi. Bəzi fərziyyə şəklindəki məlumatlarda da mənbə göstərilməmişdir.

Zəngin yaradıcılığa malik olan Ululu Kərimin elmi irsi xalq tərəfindən sevilərək günümüzə kimi qorunub saxlanılmışdır. Apardığım araşdırmalarda el aşığının (6 bayatısı, 5 gəraylısı, 33 qoşması, 3 qıfılbəndi, 3 divanisi, bir vücudnaməsini, 10-dan artıq rəvayətini toplayaraq monoqrafiya şəklində oxuculara təqdim etdim.

ƏDƏBİYYAT

1. Azərbaycan aşıqları el şairləri. – Bakı: Elm, – 1983, – 312 s.
2. Axundov Ə. Telli saz ustaları. – Bakı: Azərnəşr, – 1964, – s.2
3. Əlizadə H. Azərbaycan aşıqları. – Bakı: II cilddə, I cild, – 1929.
4. Əliyev V. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı: Yeni nəşrlər evi, – 2002, – s. 26.
5. Cəfərzadə Ə. Vardanlı mücrüm Kərim " Sünbülstan". – Bakı: – 1978.
6. Namazov Q. Ozan aşıq sənətinin tarixi. – Bakı: Elm və təhsil, – 480 s., s.172,
7. Mümtaz Salman. El şairləri, 1-ci cild, – Bakı: Azərnəşr, – 1927, – s.67.
8. Rzayeva B. Ululu Kərimin həyat və yaradıcılığı. – Bakı: Elm və təhsil, – 2020, – s. 27, – 261 s.
9. Şamilov Ə. (1985). Ululu Kərimi axtaran tapar. Sovet Naxçıvanı qəzeti, 29 iyun, sayı 152.
10. Rzayeva B. Ululu Kərimin həyat və yaradıcılığı. – Bakı: Elm və təhsil, – 2020, – s.27 , – 108 s.
11. Yerevanlı Ə. Erməni-azərbaycanlı şifahi xalq ədəbiyyatı əlaqələri. – Hayastan Yerevan: – – 1958.

QƏRBİ AZƏRBAYCAN ƏRAZİSİNDƏ MƏDƏNİ TURİZM POTENSİALININ TƏDQİQİ

Hafiz HÜSEYNOV
h.huseynov@atmu.edu.az
Azərbaycan Turizm və Menecment Universiteti

Məqalədə Qərbi Azərbaycan ərazisinin turizm potensialı qiymətləndirilmiş, mövcud turizm imkanları qısaca təhlil edilmişdir. Qərbi Azərbaycan əraziləri araşdırılarkən, mədəni, dini və rekreasiya turizminin inkişaf imkanları qeyd edilmişdir. Mədəni turizmin resurs bazası məqalədə xüsusilə qeyd olunmuş, həmin məkanların xarakterik xüsusiyyətləri, mövcud vəziyyəti təhlil edilmiş, bu məkanlara qarşı aparılan saxtalaşdırma siyasəti, laqeyd münasibət tədqiq edilmişdir.

***Açar sözlər**: Qərbi Azərbaycan, turizm, resurslar, maddi-mənəvi dəyərlər*

Giriş

Müasir dövrdə Azərbaycan torpaqlarının erməni separatçılarından təmizlənməsi, ölkəmizin hərbi, diplomatik və iqtisadi uğuru olan Qarabağ torpaqlarının düşməndən azad edilməsi tarixi torpaqlarımıza, o cümlədən Qərbi Azərbaycan ərazisinə soydaşlarımızın qayıtması məsələsinin təmin edilməsini dövlətin əsas vəzifələrindən birinə çevirmişdir. Qısa müddət ərzində görülən işlər bu problemin həllinin ölkə rəhbəri Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunun bariz nümunəsidir. Belə ki, Prezident İlham Əliyev 2022-ci il 24 dekabr tarixində Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olmuş və öz çıxış nitqində Qərbi Azərbaycanla bağlı məsələnin ölkəmiz üçün zəruriliyini vurğulamışdı: *"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin" [6].*

Qərbi Azərbaycan torpaqlarında aparılan vandalizm siyasəti yalnız ərazinin yerli əhalisi olan azərbaycanlıların bu torpaqdan köçürülməsi deyil, eyni zamanda milli irsin, milli mədəni dəyərlərin məhv edilməsi istiqamətində hal-hazırda da davam etdirilir. 1988-ci ildə etnik təmizləmədən sonra, erməni siyasətinin növbəti hədəfi tarixi-mədəni irsi məhv etmək, əraziləri özünküləşdirməkdən ibarət oldu. Ümumilikdə, mənbələr göstərir ki, Qərbi Azərbaycan torpaqlarında 3 min 500 tarix və mədəniyyət abidəsi, 500 qəbiristanlıq, 391 məscid qəddarlıqla dağıdılmış, 900-dən çox tarix və mədəniyyət abidəsi - yaşayış evləri, məscidlər, alban dövrü tikililəri, bədii daş nümunələri, qəbir daşları, at-qoç fiqurları dağıdılaraq yararsız hala salınmışdır [7].

Qərbi Azərbaycan ərazilərinin tarixi irsinin qorunması və müdafiəsi istiqamətində təbliğat işi müasir dövrdə diqqət mərkəzində saxlanılan əsas məsələdir. Uzun tarixi dövr ərzində beynəlxalq hüquq və təşkilatların göz yumduğu Qarabağ həqiqətləri kimi, Qərbi Azərbaycan torpaqları gerçəkliyi də hələki beynəlxalq baxımdan lazımi diqqət və qayğını görmür. Ancaq Azərbaycan xalqının qələbəsi, bu gün Qarabağ torpaqlarında həyata keçirilən "Böyük Qayıdış" planı bir daha sübut etdi ki, bizim xalqımız və dövlətimiz öz həqiqətlərini, öz ərazi bütövlüyünü bərpa etmək gücünə malik bir ölkədir. Təbii ki, Qarabağın azad olunması, tarixi ədalətin bərpası üçün illər ərzində hər gün xeyli sayda müəyyən işlər görülürdü, milli maraqlar diqqət mərkəzində saxlanılırdı. Prezident İlham Əliyev ötən illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü siyasi və hüquqi zəmin yaratmışdır. Dünyanın aparıcı beynəlxalq təşkilatlarının illik toplantılarında, zirvə görüşlərində, sammitlərdə yekun sənəd olaraq qəbul edilən hər bir protokolda Ermənistanın işğalçı dövlət olması xüsusi olaraq yer aldı. Fərqli beynəlxalq təşkilatların verdikləri bəyanatlar, imzaladıqları qətnamələr Azərbaycanın siyasi üstünlüyünü daha da artırdı – artıq bütün dünya Azərbaycanın haqlı mövqeyini açıq kontekstdə dəstəklədi [8]. Siyasi və iqtisadi vəziyyətin təhlili göstərir ki, Qərbi Azərbaycan torpaqlarında tarixi ədalətin bərpası üçün, lazımi iqtisadi və tarixi zəminin formalaşması üçün başlanan yeni istiqamət üzrə hər bir sahədə araşdırılmaların aparılması, təbliğat işinin gücləndirilməsi zəruridir.

Beynəlxalq sülhün təmini, tarixi-mədəni irsin bərpası, qorunması və təbliği bir sıra sosial və iqtisadi faydaları baxımından turizm sektoru iqtisadi sahələr arasında xüsusi çəkiyə malikdir. Həm yaranmış tarixi zərurət, həm ölkədə turizm sektorunun inkişafının ölkənin prioritet istiqamətlərindən biri kimi qiymətləndirilməsini nəzərə alaraq Qərbi Azərbaycan torpaqlarının turizm potensialının araşdırılması mühüm elmi əhəmiyyətə malikdir. Artıq Qərbi Azərbaycan haqqında məlumatların, bölgənin tarixi-mədəni irsini, turizm resurslarının turizm sektoru vasitəsilə təbliği yolları müzakirə olunur, Qərbi Azərbaycan İcması ilə Dövlət Turizm Agentliyinin tərkibindəki müvafiq qurumlar arasında dəyirmi masalar təşkil olunur. Digər tərəfdən Qərbi Azərbaycan İcması ilə UNESCO arasında mədəni irsin qorunması, mədəniyyət abidələrinin reyestrinin aparılması və müasir vəziyyətinin qiymətləndirilməsi istiqamətində əməkdaşlığın qurulması nəzərdə tutulmuşdur ki, turizm baxımdan bu amili müsbət qiymətləndirmək olar.

Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz və Ön Asiya dünyanın diqqətini cəlb edən ərazilərdən biri olmuş, böyük ticarət yollarının, səyyahların, tacirlərin səfər etdiyi əsas məkanlardan biri olmaqla yanaşı, coğrafi mövqeyi və zəngin resurs ehtiyatına görə tez-tez hərbi toqquşmalara, hücumlara məruz qalmış və elə bu səbəbdən çoxsaylı istehkamlar, qalalar və müdafiə sədləri qurulmuşdur.

Qərbi Azərbaycan torpaqlarında turizm baxımından, xüsusilə mədəni turizm baxımından əhəmiyyətli qalaları, müdafiə sədləri cədvəl 1-də qeydə alınmış, xarakterik xüsusiyyətləri, yerləşdiyi məkan, tikilmə tarixləri və hal-hazırkı vəziyyəti təhlil edilmişdir. Cədvəl məlumatlarına əsasən, qeyd edə bilərik ki, Kolagirən qalasının xarabalıqları, Erebuni xarabalıqları, Sivəng, Oxçu, Urud və digər qalaların yenidən bərpası, onların turizm baxımından qiymətləndirilməsi mümkündür.

Qərbi Azərbaycanın müsəlman abidələrinin təhlilinə nəzər yetirdikdə məlum olur ki, Cənubi Qafqaz ərazisində ən qədim zamanlardan türklər məskunlaşmışdır və bu dini baxımdan 3 böyük mərhələni əhatə edirdi. I mərhələ – bütpərəstlik dövrünü əhatə edir, azərbaycanlı əhalinin əksəriyyəti atəşpərəstlik dininə sitayiş edirdi. II mərhələ xristianlıq dövrünü əhatə edirdi, xüsusilə IV əsrin əvvəllərindən başlayırdı. III dövr İslamla bağlı olub günümüzə qədər davam edir [3, s. 29].

Qərbi Azərbaycan ərazisində abidələrin əksəriyyəti Azərbaycana məxsus dini abidələrdir və dini turizm baxımından qiymətli resurslar idi. Təəssüf ki, erməni vəhşiliyi bu abidələrdən də yan keçməmişdir. Belə ki, vaxtilə sayı yüzlərlə olan məscidləri, ziyarətgahları, müsəlman qəbiristanlıqlarını, türbələrini indi barmaqla saymaq olar. XX əsrdə İrəvanda Göy Məscid, Sərdar məcidi və ya Şah Abbas Məscidi, Dəmirbulaq məscidi, Rəcəb paşa məscidi, Şəhər məscidi və ya Zalxana Məscidi, Təpəbaşı məscidi kimi çoxsaylı məscidlər var idi və onların əksəriyyəti haqqında məlumatlara burada olmuş səyyahların əsərlərində, qeydlərində rast gəlmək olur.

Nümunə olaraq qeyd edə bilərik ki, fransız geoloqu, arxeoloq və naturaçı Fredrik Dyubua 1839-1843-cü illərdə Parisdə çap etdirdiyi "Qafqaz ətrafına səyahət"adlı əsərində İrəvan qalasını və Göy məscidi, onun memarlığını ətraflı şəkildə təsvir etmişdir. 1995-ci ildə İran hökuməti aralarında bağlanan müqaviləyə görə məscidi bərpa etdirir və gələn qonaqlara məscid ermənilər tərəfindən "Fars məscidi" kimi təqdim edilir.

Həmçinin, alman səyyahı Avqust Haksthauzen 1843-cü ildə İrəvanda olmuş və məlumatlarında qeyd edir ki, burada yerləşən iki məsciddən biri (Rəcəb Paşa məscidi) rus-yunan kilsəsinə, digəri (Sərdar məscidi) silah anbarına çevrilmişdir. XX əsrin əvvəllərində bu məscidə Türkiyədən gələn erməni qaçqınları köçürülmüş, 1918-ci ildə ermənilər şəhərin müsəlman əhalisini bu məscidin içinə doldurараq əhali və məscidi yandırmışlar, sonrakı dövrlərdə isə məscidin qalan hissələri də sökülərək yerində yaşayış evləri tikilmişdir.

Cədvəl 1. Qərbi Azərbaycan torpaqlarının maddi-mədəni turizm resursları

Abidənin adı	Tarixi	Yerləşdiyi məkan	Xarakterik xüsusiyyətləri
Kolagirən qalası	e.ə.VIII əsrin II yarısı	Göyçə mahalı, Qaranlıq rayonu. Kolagirən kəndi	Qədim türk qalasıdır, Urartu çarı Sardur oğlu Russa tərəfindən tikdirilmişdir. Qalanın xarabalıqlarından çoxsaylı gil qablar və bəzək əşyaları tapılmışdır. Kolagirən kəndində tarix boyu Türk- Oğuz tayfaları yaşamış, ermənilər bura 1830-cu ildən sonra köçürülmüşdür.
Teyşebaini qalası	e.ə.VIII əsr	İrəvan şəhəri yaxınlığı, Zəngi çayı sahili	Qırmızıtəpə yüksəkliyində qədim türk qalası e.ə. VI əsrin əvvəllərində Sak, Qamar və s. tayfalarla mübarizə zamanı dağıdılmışdır.
Erebuni xarabalığı	e.ə.VIII əsr	İrəvan ərazisi	Urartu hökmdarı tərəfindən inşa edilib.
Sivəng qalası	e.ə. 782-ci il	Göyçə gölü ətrafında	874-cü ildə yerində təzə xristian məbədi tikilmişdir. Qala və daxilindəki alban məbədi də forma və məzmun cəhətdən dəyişdirilməsi son yüzilliklərdə həyata keçirilmişdir

Gərni qalası	e.ə III-II əsrlər	Gərnibasar mahalı, Baş Gərni kəndi	1827-ci ildə II Rus-İran müharibəsi zamanı qala dağıdılmış, ermənilər əraziyə köçürülmüşdu.
Oxçu qalası	VI-VII əsrlər	Zəngəzur mahalı, Qafan rayonu, Oxçu çayın sahili	Zəngəzurdakı beş Babək qalasından biri hesab olunur. Onun çoxsayılı bürclərindən 17-si dövrümüzə gəlib çatmışdır. Qala ilə üzbəüz digər qalanın da qalıqları var.
Qəsr türk qalası	XI əsr	Əştərək rayonu ərazisi, Alagöz dağının cənub ətəyi	VII əsrdən mövcud olmuş, XI əsrdə yenidən qurulmuşdur. XIII əsrdə qəsrdə güclü yanğın olmuşdur. Qəsr məbədi XI əsrdə tikilmişdir.
Axtala qalası	X əsr	Allahverdi rayon ərazisi	Türksoylu Baqratilər sülaləsiin mühüm məntəqəsi olmuş, XX əsrə qədər ərazidə ancaq Azərbaycan türkləri yaşamışdır.
Mığrı qalası	İlk məlumat 1083-cü ilə aiddir.	Zəngəzur mahalı, Mığrı rayonu	XVIII əsrdə qala yenidən qurulub, Müdafiə-istehkam xarakterli tikili olmuşdur.
Becni qalası	X-XI əsr	Dərəçiçək mahalı, Zəngi çayın sıldırım qayalıqları	Türklərə məxsus qalada məbəd də yerləşmişdir. Qalanın qalıqları və məbəd günümüzə qədər gəlib çatmışdır.
Qıpçaq qalası	XII əsr	Şörəyel mahalı, Qıpçaq kəndi	Qala ərazisinəki qədim məbəd 1201-ci ildə tikilib, kəndin və məbədin ətrafında qalanın qalıqları qalıb. İlkin orta əsrlərdə məskunlaşmış Qıpçaq türklərinə aiddir.
İrəvan qalası	1504	İndiki İrəvan şəhərinin yerində, Zəngi çayın sahili	XVII əsrin II yarısında buraya gəlmiş fransız səyyahı Jan Şardenin məlumatına görə yalnız azərbaycanlıların yaşadığı bu qalada 8 məcsid, 800 yaşayış evi var idi. 1930-cu ildə tamamilə dağıdılmışdır.
Sərdar sarayı - Xan Sarayı	1510	İrəvan ərazisi, Zəngi dərəsi	Sarayın böyük qəbul otağını bəzəyən Sərdar Hüseyn xan, Farəməzin, Abbas Mirzə və s.-in portretləri saray 1913-1918-ci illərdə ermənilər tərəfindən dağıdılarkən Tiflisə aparılmış, bəziləri Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır.
Sərdarabad qalası,		Sərdarabad rayonu	Türk-müsəlman qalası İrəvan sərdarı tərəfindən tikildiyi üçün sərdarın şərəfinə Sərdarabad qalası adlandırılmışdır. 1935-ci ildə rayonun adı dəyişdirilərək Oktemberyan rayonu adlandırılmışdı.
Urud qalası		Zəngəzur mahalının Qarakilsə rayonu Urud kəndi	Hündür sıldırım qayanın zirvəsində yerləşən qala üç tərəfdən Bazarçay çayının dərin dərəsi, bir tərəfdən isə divarla əhatələnmişdi. Deyilənə görə qaladan çaya gizli yol olmuşdur. Çayın ətrafında isə mövcud olmuş kəndin qalıqları qalmaqdadır.

Salsal qalası		Dərələyəz mahalının Keşişkənd rayonu	Tikilmə tarixi dəqiq deyildir. Qala iki giriş qapısına və Həsənkənd istiqamətdə divarın özülündən gizli bir çıxış qapısına malik olmuşdur.
Şəki qalası		Qarakilsə rayonu, Bazarçayın sahili, Darvaztəpə dağı	Qala e.ə VII-V əsrlərdə məskunlaşan saka adlı türk tayfasının adını qoruyub saxlayır. Qala tarixdə Qızıl Arslanla Nizami Gəncəvinin görüşdüyü yer kimi tanınır.

Mənbə: Cədvəl mövcud mənbələr əsasında tərtib edilmişdir [3, s.18-28].

Qərbi Azərbaycanda hələ də mövcud olan dini abidələrdən biri də Zəngibasar mahalında İrəvan şəhəri yaxınlığında, Cəfərabad kəndində yerləşən qırmızı tuf daşdan tikilmiş Pir Hüseyn türbəsidir ki, türbə Qaraqoyunlu dövlətinə məxsus olsa da, turistlərə "Türkmən məqbərəsi" kimi təqdim edilir [10].

Qərbi Azərbaycanın dini turizm baxımından potensialı qiymətləndirilərkən burada yerləşən qədim xristian abidələrini nümunə göstərmək zəruridir. Həmin abidələrin bir hissəsi müasir dövrümüzə gəlib çıxsa da, təssüf ki əksəriyyəti onların da ermənilər tərəfindən saxtalaşdırılmış, alban türklərinə məxsus abidələrin erməni-qriqoryan kilsəsi kimi gələn qonaqlara nümayiş etdirmişdir. Tarixi faktlar göstərir ki, ermənilərə məxsus kilsələrin əksəriyyəri XIX ərin ikinci yarısı - XX əsrdə tikilmiş, orta əsrlərdə ərazidə erməni məbədlərin olması qeyri-mümkün idi. IV-V əsrlərdə xristian dini dövlət dini olduğu üçün Qərbi Azərbaycanda xalqımıza aid kifayət qədər xristian dövrünə aid abidələr tikilmişdir. Üçkilsə, Göyçə mahalında Sivəng, Zəngəzur mahalında Tatev, Talın mahalında Uzunlar, Vedibasar mahalında Xorvirab, Qırxbulaq mahalında Avan, Əştərək rayonunda Pirəgən, Qırmızıvəng, Qaravəng və s. dövrün tarixi xristian-türk abidələridir [3, s.47].

Qərbi Azərbaycan torpaqlarında mədəni turizmin inkişafı baxımından qədim qayaüstü təsvirlər xüsusilə maraqlıdır. Belə ki, Zəngəzur mahalında Qarakilsə rayonu, Soyuqbulaq kəndi Armudlu və Qaçaqqırılan dərələrində və Zəngəzur mahalının Nüvədi kəndində Qaradaşı dağında olan daş kitabələrdəki qədim qayaüstü rəsimlər yerli əhalinin-qədim türklərin yaşayış tərzini, bədii təfəkkür və düşüncələrini əks etdirir [1, 16-18, 26].

Qərbi Azərbaycan torpaqları, xüsusilə İrəvanda toxuculuq, dulusçuuq, papaqçılıq, zərgərlik, dəmirçilik, misgərlik, xalçaçılıq və s. kimi sənətkarlıq sahələri inkişaf etmiş və çoxsaylı emalatxanalar mövcud olmuşdu. Belə ki, İrəvan xalçaları al-əlvan rəngləri, üzərində türk mifologiyasından gələn damğalar və müxtəlif atributlar, rəng kompozisiyalara görə digər xalça qruplarından fərqlənirdi. Xalçaların naxış kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuşdu.

İrəvan şəhərində yaradılan və bu günədək gəlib çatan xeyli miqdarda tətbiqi sənət nümunələri, daş və ağac üzərində bədii oyma, döymə metal məmulatları, xalçalar, saxsı qablar və naxış tikmələr mövcud olmuşdur. Təəssüf ki, bu cür sənət nümunələrinin böyük əksəriyyəti hazırda Ermənistan ərazisindəki və xarici ölkələrdəki muzeylərdə, digər saxlanc yerlərində ermənilərə məxsus nümunələr kimi nümayiş etdirilir.

XIX əsrin 30-cu illərində İrəvan şəhərində sənətkarlıqla 2318 nəfər məşğul olmuşdur. Onlardan 1436 nəfərini azərbaycanlılar, 468 nəfərini yerli ermənilər, 386 nəfərini isə İrəvandan köçürülüb gətirilən ermənilər təşkil edirdilər [4, s. 248].

Ümumilikdə Qərbi Azərbaycan torpaqlarında turizm potensialının təhlili göstərir ki, ölkənin hər bir bölgəsində olduğu kimi, burada da qədim tarixi köklərə, mədəniyyətə malik Azərbaycan xalqının qurub yaratdığı memarlıq və incəsənət nümunələrinə rast gəlinir. Müxtəlif dövlərə aid tikililər tarixi-mədəni turizmin, dini turizmin inkişafı baxımından zəngin resurs sayılır. Eyni zamanda Qərbi Azərbaycanın rekreasiya ehtiyatları, Dərələyəz mahalı, Ağrı dağın ətrafı, Göyçə gölü və s. ərazilərdəki əsrarəngiz təbiəti turizmin təşkili baxımından qiymətlidir. Təəssüflər olsun ki, tarixi məkanlara, təbiətə laqeyd münasibət bu məkanların turizm ehtiyatlarına ciddi ziyan vurur. Ümid edirik ki, Qarabağda başlanan Dirçəliş və Böyük Qayıdış dövrü yaxın gələcəkdə Qərbi Azərbaycan torpaqlarında da yaşanacaq.

ƏDƏBİYYAT

1. Ələkbərli, Ə. Qərbi Azərbaycan abidələri. – Bakı: – 2007. – 271 s.
2. İsmayıl, F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər, – Bakı: – 2016, – 89 s
3. Əliyev, İ. Qərbi Azərbaycanın tarixi və mədəni irsi. Bakı: – 2023. – 99s.
4. Mustafa, N. İrəvan şəhəri. – Bakı: – 2020, – 293 s.
5. V. Əliyev. Zəngəzurda qalan izimiz. – Bakı: – 2005, – 295 s.
6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: [Elektron resurs]/ Tədbirlər, İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub/ -Bakı: -24 dekabr 2022. URL:https://president.az/az/articles/view/58330
7. Azərbaycan Milli Elmlər Akademiyası: [Elektron resurs] / Qərbi Azərbaycanda mədəni irs soyqırımı/ Xalq qəzeti,-Bakı, -13 yanvar 2023, URL:https://science.gov.az/az/news/open/23498
8. Azərbaycan Dövlət İnformasiya Agentliyi, AZƏRTAC: [Elektron resurs] / Prezident İlham Əliyev 100 il davam etmiş tarixi ədalətsizliyə son qoydu, – Bakı, – 17 oktyabr 2023, URL:https://azertag.az/xeber/prezident_ilham_eliyev_100_il_davam_etmis_tarixi_edaletsizliye_son_qoydu____serh-2790370
9. Prezident Kitabxanası. Erməni vandalizmi: Əsirlikdə olan Azərbaycan abidələri: [Elektron resurs]/-Bakı: 2015, URL:https://armenianvandalism.preslib.az/az_armenia.html
10. Prezident Kitabxanası. E-Layihə. İrəvan şəhəri: [Elektron resurs], Nazim Mustafa, -Bakı: 2013, URL:https://iravan.preslib.az/
11. Prezident kitabxanası. E- Layihə. Zəngəzur: tarixi-memarlıq abidələri, [Elektron resurs],- Bakı: URL:https://files.preslib.az/projects/zangazur/az/a8.pdf

SUMMARY

Hafiz Huseynov

ULTURE IN THE TERRITORY OF WEST AZERBAIJAN STUDY OF TOURISM POTENTIAL

In the article, the tourism potential of the Western Azerbaijan territoryis evaluated, and the existing tourism opportunities are briefly analyzed. While examining the territories of Western Azerbaijan, the development opportunities of cultural, religious and recreational tourism are noted. The resource base of cultural tourism is especially mentioned in the article, the characteristic features of places, the current situation are analyzed, the policy of falsification against these places, the indifferent attitude is studied.

Key words: *Western Azerbaijan, tourism, resources, material and moral values*

QƏRBİ AZƏRBAYCANIN MEMARLIQ ABİDƏLƏRİNİN ÜSLUB XÜSUSİYYƏTLƏRİ VƏ MÖVCUD VƏZİYYƏTİ

Gülnarə QƏNBƏROVA
gulnare_qenberova65@yahoo.com
Naxçıvan Dövlət Universiteti

Azərbaycan sivilizasiyanın ən qədim mərkəzlərindən biri omaqla zəngin və qədim tarixə malikdir. Min illər ərzində onun ərazisində dünyanın mədəniyyət xəzinəsinə daxil olmuş zəngin mədəni irs yaranmışdır.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində İran, Türkiyə və Rusiya arasındakı ziddiyyətlərin güclənməsi, Azərbaycanın torpaqlarının parçalanması, cənub və qərb bölgələrinin isə tamamilə itirilməsi ilə nəticələndi. Oğuz-türk yurdu olan Qərbi Azərbaycan torpaqları isə zamanla ermənilər tərəfindən azərbaycanlıların deportasiyası (1828-1988) ilə mənimsənildi.

İki əsrə yaxın bir müddətdə erməni vandalları tərəfindən azərbaycanlıların yaşadıqları kənd, şəhər və rayon adları tədricən dəyişdirildi, ərazidə yerləşən qədim yurd yerləri, qəbiristanlıqlar, həmçinin Qıpçaq, Alban abidələri və İslam-Türk abidələri dağıdılaraq yox edildi.

Bütün bunlara baxmayaraq, Qərbi Azərbaycan torpaqları oğuz-Türk adları, toponimləri, adət-ənənələri və abidələrinin zənginliyi ilə yadda qalıb. Bu abidələr Qafan, Mehri, Qarakilsə, Gorus rayonları ərazisində daha çoxluq təşkil edir. Bununla yanaşı, qəbirlər üzərində qoyulmuş daş fiqurlar, onların üzərində oyma sənətilə yonulmuş sujet xarakterli təsvirlər buranın Türk yurdu olduğunu bir daha təsdiqləyir.

Qərbi Azərbaycan torpaqlarında türklər tərəfindən inşa edilən abidələri öz üslub xüsusiyyətlərinə görə iki qrupa ayırmaq olar. Birinci qrupa daxil olanlar islamadək olan abidələrdir ki, bu abidələr qıpçaq abidələri, Alban dövrü abidələri kimidə tanınır. Bunlara kilsə, monastr, ibadət yerləri və s. daxildir. İkinci qrup abidələr İslam dövrü inşa edilmiş abidələrdir ki, bunlara məscid və mədrəsələr, türbələr, karvansaraylar, saray və qalalar, körpülər və s. göstərə bilərik. Qıpçaq və Alban dövrü abidələri tikinti texnikasına və materiallarına görə İslam dövrü abidələrindən fərqlənir. Qırmızı tuf daşı adlanan yerli materialdan tikilmiş abidələrin xarici divarları sadə inşa edilsə də, həmin abidələrin giriş qapıları və daxili divarlarında öz dövrünə xas üslubda qabarıq formada yonulmuş simvolik məna daşıyan daşdan fiqurlar çoxluq təşkil edir. İslam dövrü dağlıq ərazilərdə tikilmiş abidələrin bir hissəsi tuf daşından inşa edilsədə, bişmiş kərpicdən tikilmiş abidələr öz incəliyi, dekor zənginliyi ilə seçilməklə yanaşı, Türk-İslam memarlığının nadir incilərdir.

XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq ermənilər öz havadarları vasitəsilə Qərbi Azərbaycan torpaqlarına yerləşdikcə 1000 illik tarixi olan Alban dövlətinə məxsus abidələri saxtalaşdıraraq erməni kilsələri, monastrları və s. kimi qələmə verdi. Həmin abidələrin üzərində qurulmuş qabarıq təsvirlər sökülərək ermənilərə xas olan xaçlar ilə əvəz edilirdi. Alban dövrü abidələrindən fərqli olaraq, ən çox dağıdılmış abidələr İslam dövrü abidələridir. İrəvan şəhərində Qala ərazisində yerləşən bir sıra tikililər (Xan Sarayı, məscid, qala divarları və b.) Sovetlər dövrü sökülərək yerində park salındı. Məhəllələr yeni binaların inşası ilə sökülmüş, məhəllələrdə yerləşən məscidlər ya tamamilə dağıdılmış, bəzi məscid və mədrəsələrdə xaricdən köçürülmüş ermənilər məskunlaşmışlar. Bunu ermənilərin Azərbaycanın mədəni irsinə qarşı törətdikləri mədəniyyətin

soyqırımı faktı kimi də adlandırmaq olar.

Məqalədə zamanla itirilmiş Qərbi Azərbaycan torpaqlarından, orada yerləşən memarlıq abidələrinin üslub xüsusiyyətlərindən bəhs edilir və mövcud vəziyyəti haqqında məlumat verilir.

Açar sözlər: *Deportasiya, Türk-Oğuz yurdu, tarixi abidələr, Alban abidələri, Türk-İslam abidələri, üslub xüsusiyyətləri, tikinti materialı.*

Giriş

Azərbaycan sivilizasiyanın ən qədim mərkəzlərindən biri olmaqla zəngin və qədim tarixə malikdir. Min illər ərzində onun ərazisində dünyanın mədəniyyət xəzinəsinə daxil olmuş zəngin mədəni irs yaranmışdır.

Azərbaycan torpaqları və ya mədəniyyəti deyəndə həmişə gözümüzün önünə şimali və cənubi Azərbaycan torpaqları gəlir. 1988-ci ildə azərbaycanlıların Ermənistan-tarix-etnik torpaqlarından deportasiyasından sonra Qərbi Azərbaycan coğrafi məfhumu sıx-sıx işlənməyə başlandı ki, bu da hazırda Ermənistan adı altında formalaşan qədim Azərbaycan torpaqlarıdır. Qərbi Azərbaycan deyəndə İrəvan və Gümrü şəhərləri, Vedibasar, Zəngibasar, Göyçə, Dərələyəz, Dərəçiçək, Zəngəzurun Meğri, Gorus, Sisyan, Qafan bölgəsi, Ağbaba gözlərimiz önündə canlanır [2, s.8].

XVIII əsrin sonu XIX əsrin əvvəllərində İran, Türkiyə və Rusiya arasındakı ziddiyyətlərin güclənməsi, Azərbaycanın torpaqlarının itirilməsinə gətirib çıxardı. Rusiya, İran və Türkiyə arasında bağlanmış Kürəkçay, Gülüstan, Ədirnə və Türkmənçay müqavilələrindən sonra Qərbi Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçü başlayıb. Bölgənin ermənləşdirilməsi siyasətinin əsas tutulması ilə buna paralel şəkildə tarixi Azərbaycan torpaqları olan İrəvan, Göyçə, Zəngəzur və Zəngibasar bölgəsində yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyası başladı [6, s.227-239].



Azərbaycan xəritəsi XVIII-XX əsrin əvvəlləri

Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsindən sonra, 1920-ci ildə Azərbaycanın tarixi torpaqları olan İrəvan quberniyasında və Zəngəzur ərazisində bu rejim tərəfindən Ermənistan Sovet Sosialist Respublikası yaradıldı. Azərbaycanlıların sıx yaşadığı bu ərazilər ermənilər və rəhbərlikdə çalışan havadarlarının dəstəyi ilə zamanla boşaldılaraq

xarici ölkələrdən gətirilmiş erməni əhali ilə əvəz edilirdi. Belə ki, mərkəz (Moskva) ermənilərin maraqlarına uyğun olaraq 1948-1953-cü illərdə Qərbi Azərbaycandan (Ermənistan SSR) 150 mindən artıq azərbaycanlını, o cümlədən 1988-1994-cü illərdə bir milyondan artıq azərbaycanlını öz doğma dədə-baba yurtlarından zorla çıxarmış, onlar qaçqın və məcburi köçkün halında Azərbaycada məskunlaşmalı olmuşlar.

Ermənilərin Cənubi Qafqaza XIX əsrin 1-ci yarısından etibarən kütləvi şəkildə köçürülmələrini əks etdirən tarixi sənədlər arxivlərdə bu günə qədər qorunub saxlanılır. Burada Rusiya ilə İran arasında 1828-ci ildə başlanmış Türkmənçay müqaviləsininin 15-ci maddəsini, ermənilərin Qərbi Azərbaycan, Naxçıvan, Gəncə və Qarabağa köçürülməsinin əsas təşkilatçılarından olan, o zaman İranda rus səfiri, tanınmış yazıçı Qriboyedovun tərtib etdiyi sənədləri yada salmaq kifayətdir. Təkcə 1828-1830-cu illərdə Azərbaycanın Yelizavetpol (Gəncə) və İrəvan quberniya larının ərazisinə İrandan 40 mindən artıq, Türkiyədən isə 84 min kibitka (yəni araba) erməni köçürülmüşdür [6, s.227-239].

1854-1856-cı ildə Krım müharibəsindən sonra çoxlu sayda erməni, şimali-şərqi Anadolunu tərk edən rus qoşunları ilə birgə, Cənubi Qafqaza gəlmişdir. 1877-1878-ci illər, rus-türk müharibəsi gedişində ən azı 25.000 erməni Anadoludan Cənubi Qafqaza köçmüşdür. Eyni zamanda Rusiya tabeçiliyinə keçən Anadolu torpaqlarından 60.000 müsəlman qovulmuşdur. Qeyri-rəsmi köçənlər isə daha çox idi. Ermənilər buraya köçüb gəlmə olduqlarını özləri də etiraf edirlər və bunu mühüm tarixi hadisə kimi qiymətləndirirlər [6, s. 227-239].

XIX əsrdə Rusiyada əhalinin siyahıya alma sənədləri, o zaman tərtib olunan rus hərbi topoqrafik xəritələr, bu xəritədəki yaşayış yerlərinin adları, həmin ərazidə yaşayanların əsasən azərbaycanlılardan ibarət olduğunu göstərir. O zaman Ermənləri Azərbaycan ərazisinə yerləşdirərkən yerli əhalinin aldadaraq deyirdilər ki, ermənilər burada qaçqın kimi müvəqqəti olaraq yerləşdirilir. Şavrov yazırdı: "Zaqafqaziyada yaşayan 1 mln. 300 min. Ermənidən 1 mln-dən artığı köklü əhali deyil və bizim tərəfimizdən köçürülənlərdir" [11, s. 55].

I Nikolayın fərmanı ilə İrəvan xanlığının ərazisində "Erməni vilayəti" yaradılmışdır. Bundan sonra İ.Paskeviçin bilavasitə göstərişi ilə 1829-cu ilin aprelindən 1832-ci ilin mayına qədər (3 il) İrəvan xanlığı ərazisində əhalinin kameral siyahıya alınması keçirilmiş və bu iş İ.Paskeviçin əmri ilə mülki müşavir İ.Şopenə tapşırılmışdır. İ.Şopen İrəvan xanlığı ərazisini gəzir və əsasən erməni mənbələrinə istinad edərək «Историческая памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи» adlı kitab yazaraq 1852-ci ildə Sankt-Peterburqda nəşr etdirmişdir. I.Şopen öz kitabında ermənilərin mövqeyini müdafiə etsə də, bu torpaqları (İndiki Ermənistan ərazisi-İ.B.) erməni torpaqları hesab etsə də, tarixi həqiqətlərdən qaça bilməmiş, toponimləri olduğu kimi vermiş, ərazinin etnik tərkibini göstərmişdir. Ərazinin etnik tərkibi və toponimlər aydın şəkildə göstərir ki, ərazidə tarixən azərbaycanlı türkləri yaşamışdır. Çünki hər bir xalq yaşadığı əraziyə öz ana dilində ad verir. Məhz bunun nəticəsidir ki, indiki Ermənistan ərazisində XIX əsrdə, eləcə də XX əsrin 30-cu illərinə kimi yaşayış məntəqələrinin adlarının 90%-i türk mənşəli olmuşdur. İ.Şopen kitabında İrəvan xanlığının ərazisindəki ermənləri iki yerə bölür: birinci, yerli ermənilər, ikincisi, İran və Türkiyədən köçürülən ermənilər. O, qeyd

edir ki, köçürülmə əməliyyatına qədər İrəvan əyalətində 2.690 nəfər erməni yaşamışdır. 1828-1829-cu illərdə İrandan "Erməni vilayəti"nə 35.500 nəfər, 1830-cu ildə Türkiyədən 21.666 nəfər erməni köçürülmüşdür. İran və Türkiyədən 1828-1830-cu illərdə 57.226 nəfər erməni köçürülüb "Erməni vilayəti"ndə məskunlaşdırılmışdır. İ.Şopenin məlumatına görə, 1828-ci ilə qədər İrəvanda 2.400 ailə yaşamışdır. İrəvan xanlığı ərazisində isə 11.000 kəndli ailəsi olmuşdur [12, s.544].

Erməni tarixçisi M.G.Nersesiyan belə yazırdı: "...XIX yüz ilin 20-ci illərində bu bölgələrdə, Şərqi Ermənistana 40000-dən çox İran, Türkiyədən isə 90000 erməni köçürülmüşdü". 1830-cu ildə Türkiyənin Ərzurum və Bəyazid ərazisindən 45 min nəfər erməni köçüb gəlmiş və Göyçə mahalında məskunlaşmışlar. 1915-ci ildə Rus ordusu ilə Türkiyədən gələn 200 min nəfər erməni Cənubi Qafqazın müxtəlif ərazilərində, o cümlədən İrəvan qüberniyasında yerləşmişdir. Arxiv materiallarından aydın olur ki, 1831-ci ildə İrəvan əyalətində 50 min azərbaycanlı, 45.2 min nəfər isə gəlmə erməni vardı. Qərbi Azərbaycan kəndlərində ermənilərin sayı artsa da, XIX əsrin ikinci yarısında 2310 kəndin 1500-dən çoxu azərbaycanlılara aid idi. 1918-ci ildə Ermənistanda əhali 1.510.000 nəfərə çatırdı ki, bunun da 795.000 nəfəri erməni, 575.000 nəfəri müsəlman, 140.000 nəfəri isə digər millətlərdən idi. Keçmiş SSRİ dövründə 1946-cı ildə Suriya, Yunanıstan, Lübnan, İran, Bolqarıstan və Rusiyadan 50.9 min, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABD, Yunanıstan, Misir, İran və Lübnandan 35.4 min erməni qəbul edilərək Ermənistana yerləşdirilmişdir [13].

Ermənilərin Qərbi Azərbaycan ərazisinə köçürülməsindən sonra burada azərbaycanlı türklərinin izlərini məhv etmək məqsədilə onların yaşadıqları yer-yurt adları zamanla dəyişdirilərək erməni adları ilə əvəz edilmişdir. Bu proses Sovetlər dövrü daha da geniş miqyas almışdı. Türk dilində bir məna kəsb edən bu toponimlər erməni dilində heç bir mənası yoxdur. Basarkeçər (Vardanes), Qaranlıq (Martuni), Hamamlı (Spitak), Cəlaloğlu (Stepanavan), Qarakilsə (Sisyan), Qarakilsə (Vanadzor), Keşişkənd (Yexeqnadzor), Uluxanlı və ya Zəngibasar (Masis), İstibulaq və ya Karvansara (İcevan), Dəvəli (Ararat qəsəbəsi), Gözlü Kəmərli (Metsamor), Üç Müədzin (Eçmiədzin), Alagöz (Araqats), Göyçə (Sevan), Arpaçay (Axuryan) və yüzlərlə başqa keçmiş Azərbaycan toponimləri üçün minlərlə yeni "vararakn"lar icad edəcəklər [8, s.36-37].





Qərbi Azərbaycan torpaqları İrəvan qalası

Azərbaycanlıların sıx yaşadığı bu ərazilərdən azərbaycanlılar ermənilər və havadarlarının dəstəyi ilə zamanla (1828-1918, 1948-1953, 1988) boşaldılaraq xarici ölkələrdən gətirilmiş ermənilərlə əvəz edilirdi. Burada məskunlaşan əhalinin köçürülməsi ilə onların yaşadıqları dədə-baba yurtlarının adları dəyişdirilirdi. İndiki Ermənistanda Türk toponimlərinin dəyişdirilməsi aşağıdakı dövrlərdə baş vermişdir: 1. XIX əsrin əvvəllərindən 1918-ci ilə qədər; 2. 1918-1920-ci illərdə; 3. 1920-1930-cu illər; 4. 1930-1960-cı illərdə; 5. 1960-1980-ci illərdə; 1991-ci ildən sonra [2, s.214].

İrəvan ərazisinə ermənilərin gəlmə xalq olduqları barədə tarixçi-etnoqraf, tanınmış toponimist Q.Ə.Qeybullayev "Qədim türklər və Ermənistan" adlı kitabında belə yazırdı: "...Ermənistan ərazisində azərbaycanlıların ulu əcdadları hələ eradan əvvəl VIII-VII əsrlərdə yaşayırdılar. O zaman ermənilər Kiçik Asiyada məskun idilər. Ermənilər indiki Ermənistan ərazisinə gəlmə olduqlarına görə erməni dilində Ermənistanda qədim toponimlər yoxdur. Buna görə də XIX əsrdə bütün əhalisi ermənilərdən ibarət olan kəndlərin və ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları kəndlərin adları da azərbaycanca idi"[13].



İrəvan qalasının rus əsgərləri tərəfindən işğalı

Erməni dövlətinin Qafqazlarda yaradılması Çar Rusiyasının XIX əsrdə burada apardığı xristianlaşdırma siyasətindən irəli gəlirdi. Lakin rusların bu səylərinə baxmayaraq, Qafqazı xristianlaşdırmaq mümkün olmadı, ona görə ki, burada islam faktoru çox güclü idi. Ermənilərin XIX əsr ərzində Qafqaza zaman-zaman köçürülməsi və İrəvan quberniyasının, Zəngəzur, indiki Dağlıq Qarabağ ərazisində yerləşdirilməsi, bu ərazilərdə yerləşən came, məscid və mədrəsələrin bağlanması, bu dini binaların anbarlara çevrilməsi və ya dağıdılması, din adamlarının təqib edilməsi və ya repressiyalar, sürgün edilməsi və s. islamçılığında aradan qaldırılmasına xidmət edirdi. Bu proseslər Sovetlər dövrü də bir başqa şəkildə davam etdirilmişdir. Ruslar tərəfindən ermənilərin qarşısında qoyulan bu misiyanı məharətlə yerinə yetirirdilər. Müsəlman əhalinin repressiyası ilə yanaşı, əsrlər boyu azərbaycanlıların məskunlaşdıqları ərazilərdə yaratdıqları mədəniyyət abidələrini özününküləşdirməklə yanaşı, yox etməklə də məşğul olmuşlar.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Qərbi Azərbaycandan azərbaycanlıların deportasisı ilə əlaqədar öz fikirlərini belə bildirmişdir. "Son iki əsrdə

Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən-min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir" [2, s.8].

Böyük Ermənistan yaratmaq xülyasilə yaşayan ermənilər zamanla azərbaycanlıların dədə-babalarının yaşadıqları ərazilərində yerləşdiyi kimi, bu ərazidə yaşayan azərbaycanlılara məxsus 656-dan çox yaşayış məskənlərinin adlarını dəyişməklə kifayətlənməyərək [2, s.8], onlara məxsus evləri də dağıtmış, yer üzündən silmişlər. Yurd yerlərilə yanaşı, bir sıra tarixi abidələri özününküləşdirmiş, qəbiristanlıqları və İslam dövrü abidələri isə tamamilə yox etmişlər.

Qərbi Azərbaycanın memarlıq abidələrinin üslub xüsusiyyətləri. Qərbi Azərbaycan torpaqları oğuz-türk abidələrinin zənginliyi ilə yadda qalıb. Bu abidələr Qafan, Mehri, Qarakilsə, Gorus rayonları ərazisində daha çoxluq təşkil edir. Qayalar üzərində cızılmış təsvirlər, qəbirlər üzərində qoyulmuş sənduqələr və daş fiqurlar, onların üzərində oyma sənətilə yonulmuş süjet xarakterli təsvirlər buranın türk yurdu olduğunu bir daha təsdiqləyir [5, s.6].

Qərbi Azərbaycanın memarlıq abidələri müəyyən dövrlərin və yerli xarakterik xüsusiyyətləri, funksional, konstruktiv və incəsənət tərəflərinin fərqliliyi ilə Naxçıvan, Qarabağ və Türkiyənin Şərqi Anadolu, Gürcüstanın Borçalı mahalının memarlığı ilə yaxınlıq təşkil edir. Bu ərazidə inşa edilən memarlıq abidələrinin inkişafı iqlim, dini və mədəni amillərdən asılı olaraq, zamanla formalaşmışdır.



Qədim yaşayış yerləri



Alban dövrü kilsə kompleksi Şörələ Qıpçaq məbədi

Qərbi Azərbaycan torpaqlarında azərbaycanlı türkləri tərəfindən inşa edilən abidələr öz üslub xüsusiyyətlərinə görə iki qrupa ayırmaq olar. Birinci qrupa daxil olanlar islamadək olan abidələrdir ki, bu abidələrə qayaüstü təsvirlər, təbii mağaralar, qədim yaşayış evləri, qəbirüstü abidələr və Qıpçaq, Alban abidələri - kilsə, monastr, ibadət yerləri və körpülər daxildir. İkinci qrup abidələr İslam dövrü inşa edilmiş abidələrdir ki, bunlara məscid və mədrəsələr, türbələr, karvansaraylar, saraylar, körpülər, qalalar və s. daxildir.



Qədim qəbiristanlıq Qəbirüstü sənduqə

Qıpçaq və Alban abidələri tikinti texnikasına və materiallarına görə İslam dövrü abidələrindən fərqlənir. Yerli material olan qırmızı tuf daşından tikilmiş abidələrinin xarici divarları sadə inşa edilsədə, onların giriş qapıları və daxili divarlarında dövrünə xas üslubda daşdan qabarıq yonulmuş simvoluk məna daşıyan fiqurlar çoxluq təşkil edir. İslam dövrü dağlıq ərazilərdə tikilmiş abidələrin bir hissəsi tuf daşından inşa edilsə də, bişmiş kərpicdən tikilmiş abidələr öz incəliyi, dekor zənginliyi ilə Türk-İslam memarlığının nadir abidələridir.

Zamanından asılı olaraq Qərbi Azərbaycan abidələrinin memarlığında üslublar ardıcıllıqla dəyişmir. Müəyyən dövrlərdə fərqli üslubların mövcudliğu tarixdə müşahidə olunur. Bu üslublar özünü tikililərin fasadlarının, planlarının, memarlıq formalarının, strukturlarının dzaynında ümumi xüsusiyyətləri əks etdirir. Abidələrdə memarlıq üslublarının dəyişməsi cəmiyyətin iqtisadi və sosial inkişafının müəyyən şəraitində dinin, dövlət quruluşunun, ideologiyanın, memarlıq ənənələrinin və milli xüsusiyyətlərin, iqlim şəraitinin, landşaftın təsiri altında formalaşmışdır. Bölgədə yeni tipli memarlıq üslublarının yaranması dini ideologiyanın dəyişməsi ilə yanaşı, texniki tərəqqi və cəmiyyətin geosiyasi strukturları ilə bağlı olmuşdur [15, 16 s].

Qərbi Azərbaycan memarlığında müxtəlif dövrlərdə müxtəlif istiqamətləri üçün əsas kimi xidmət edən bəzi memarlıq üslub növlərini nəzərdən keçirək.

Qərbi Azərbaycan ərazisində yerləşən abidələrin inşasında yerli materiallara müraciət, onların tərtibatında işlənmiş motivlər və xalq yaradıcılığı üstünlük təşkil edir. İstər İslamdan əvvəl, istərsədə İslam dövrü memarlığında həndəsi formalardan geniş istifadə edilmişdir. Tikililərin dayanıqlılığının uzun müddətli olması üçün onların kompozisiya məkan həllində işlənmiş müxtəlif formalı tağ konstruksiyaları, müxtəlif quruluşlu dam örtükləri, xarici məkanlarında qabarıq formalı daşdan işlənmiş heyvan fiqurları və ya motivlər, daxili və xarici divarların tərtibatında işlədilmiş həndəsi, təbiətinə xas və ustaların xülyasından yaranmış nəbati naxışlar və s. Qərbi Azərbaycan memarlığına xas xüsusiyyətlərdəndir.



İrəvan qalasının Zəngi çayı tərəfdən görünüşü


Sərdar (Abbas Mirzə) məscidi. 1896. Foto Lord Kerzon.

IX əsrin ortalarından Azərbaycan ərazisində islamın tam yayılmadığı bölgələrdə Alban-xristianları yayılmağa və yarımmüstəqil knyazlıqların tərkibində birləşməyə başladılar. Alban-müsəlmanlar alban xristianlarla birgə yaşamağa başlamalarını şəhərlərdəki həm məscidlərin, həm də kilsələrin olmasından aydın şəkildə görmək olar. Erkən orta əsrlər memarlığında geniş yayılmış Alban abidələri, əsasən də kilsələr bədii ifadəliyi proporsiyalarla, divarların hörgüsü ilə memarlıq formaların və konstruksiyaların vəhdəti, Alban dövrü memarlığını özündə əks etdirir. Dövrünün memarlıq nümunələrinin bədii-memarlıq həlli üsullarından biridə müxtəlif işlənmə rəngə və keyfiyyətinə malik materialların, kərpicin, kobud və təmiz yonulmuş tuf daşı, dağ daşlarının birgə istifadə

edilməsidir. Tikililərin təkrarsız bədii obrazının yonulmuş tuf daşı ilə üzlənmiş divarlarında açılmış qapı açırımlarının açıq rəngli əhəngdaşı ilə və interyerin kərpic və ya daş konstruksiyaları ilə uyğunlaşması nəticəsində yaranmışdır. İstifadə edilən tikinti materialının xüsusiyyətləri və onun işlənmə üsulu Qafqaz Albaniyası memarlığında daha bir xüsusiyyətin yaranmasına və özünə möhkəm yer tutmasına imkan yaratmışdır.



3. Yerevan, the citadel above the river, view looking South. Citadel building at the left identified as a part of the palace. Note the large dome to the right of it. Engraving after a photograph. After Chantré 1891: 285.



Göy məscid. XIX əsrin sonu



İrəvanda Bazar meydanı. 1914-cü il.



Fig. 48. Erivan: Interior of the Kiosque of the Sirdars.

Xan sarayının interyeri. Foto H. Linç.

Bu dini tikililərin özünəməxsus dekor həlli vardır. Bu dekorativ bəzəklər günümüzə kimi tam formada olmasada, bəzi hissələri gəlib çatmışdır. Bir sıra tədqiqatçı alimlərin fikrincə "Bunlar Alban xaçlarıdır". Bu xaçlar öz quruluşuna və işləmə texnikasına görə erməni xaçlarından fərqlənirlər. Ermənilər bu xaçları və kilsənin divarlarında işlənmiş motivləri, Alban əlifbası ilə yazılmış sözləri söküb atmaqla və ya özününküləşdirməyə çalışsalarda, buna tam şəkildə nail ola bilməmişlər. Bu dövrə aid və günümüzə qədər qismən də olsa, gəlib çatmış Alban abidələrdə daş bəzəkləri qalmamışdır. Daş üzərində oyma, əsasən, profillər şəklində rast gəlinir. Pəncərə haşiyələri, karnizlər, tağların impostları profillərə malikdir. Ən zəngin dekor bəzəkləri isə qapı aşırımlarında işlənmişdir. Qərbi Azərbaycanın Alban dövrü memarlıq abidələrinin inşasında əhəngdaşı və tuf kimi möhkəm süxurlu daşlardan istifadə edilmişdir. Daş bəzəyinin kasadlığı və sadəliyi Qafqaz Albaniyyasının erkən orta əsr abidələrini qonşu dövlətlərin memarlığından fərqləndirən əsas xüsusiyyətlərdəndir". Dövrümüzə çatmış çoxsaylı

monumental memarlıq nümunələri Alban memarlarının ustalığından xəbər verir. Erkən orta əsrlər Alban memarlığı haqqında daha geniş və çoxşaxəli məlumatı Alban memarlığının ən yaxşı inşaat təcrübəsinin istifadə etdiyi dini tikililərdən almaq mümkündür. Erkən xristian memarlığı yalnız inşaat ənənələri baxımından deyil, həm də mövcud dini tikililərin memarlıq-planlaşma strukturunun mənimsənilməsinə görə daha əvvəlki dövrlərə aid yerli memarlıqla əlaqədardır [10].

Ümumiyyətlə, erkən dövr Qərbi Azərbaycan memarlığında bədii tərəfdən demək olar ki, çox az abidə qalsa da, üslub xüsusiyyətlərinə görə Alban dövrü memarlığını özündə əks etdirir və bu abidələrin günümüzə qədər çox az hüssəsi gəlib çatmışdır. Bu dövrün memarlığında ciddilik ön planda idi. Günümüzə qalmış abidələrdə də bunu görməmək mümkün deyil.

Qərbi Azərbaycan memarlığının erkən dövrə aid abidələri arasında müdafiə xarakterli qalalar və dini tikililərlə yanaşı, yaşayış yerləridə üstünlük təşkil edir. Dağın ətəklərində, çətin landşafda tikilmiş, müdafiə xarakterli yaşayış evləri, ərazidə qalan qəbiristanlıqlar və qəbirlər üzərində qoyulmuş sənduqələr, at və qoç fiqurları, üzərlərində yonulmuş motivlər, süjetli təsvirlər burada yaşayan türk boylarının adət-ənənələri ilə yanaşı, zəngin mədəniyyət irsini özündə əks etdirən tarixə çevrilmiş incəsənət əsərləridir.

Tədqiqatçı-alim M.S.Nemət 1961-ci ildə Zəngəzurun Urud (Oront) kəndində orta əsrlərə aid qəbiristanlıqda tədqiqat işləri aparmış və apardığı tədqiqatlar zamanı maraqlı abidələr aşkarlamışdır. Bunlar XIV-XVII əsrlərə aid sənduqə və qoç heykəlli məzar daşları idi. Onların ikisinin üzərində"Avladi ağvan" yəni "alban övladları" sözlərinin həkk olunması Zəngəzurda yaşamış alban tayfalarının islamı qəbul etməsini təsdiq edir. Bu abidələrin üzərində qədim türk tayfalarına məxsus tamqalar, onqonlar (tanrılar) var idi. Bu nadir tapıntı bir daha türk elementlərinin Qafqaza gəlmə olduğu konsepsiyasını alt-üst etdi və azərbaycanlıların Qafqazın avtoxton əhalisi olduğunu sübuta yetirdi. Buna cavab olaraq Ermənilər bu orta əsr nekropolunu məhv etdilər [6, s.227-239].

Qərbi Azərbaycan ərazisində yerləşən orta əsr memarlıq abidələri öz inkişaf xüsusiyyətlərinə görə üç mərhələyə bölünür: Erkən İslam, orta əsrlər və Qafqaz Albaniyası. Erkən İslam dövrü memarlığının əsas hissəsini dini tikililər təşkil edir. Bunlara misal olaraq məscidlər, xanəgah kompleksləri, kilsələr, sövməələr və başqalarını misal göstərə bilərik. İslamın yayılması ilə əlaqədar məscidlərin inşasına böyük üstünlük verilsə də, dağlıq ərazilərdə yaşayanlar hələ də xristianlığı qoruyub saxlayırdılar və məbədlər inşa edirdilər ki, sonradan ermənilər tərəfindən bu kilsələr də özününküləşdirildi.




Pir Hüseyn türbəsi. Səlim karvansarası

Erkən orta əsrlər dövrünün dini tikililərində olan konstruktiv fəndlər daha sonradan islamlaşma dövründəki məscid və türbələrin konstruksiyasında öz əksini tapdı. Buna misal olaraq: xaçlı-günbəzli konstruksiyaya malik olan göstərişli zalların dördsütunlu konstruksiyaları, üç, iki və ya birnefli örtmələr, həyətlər-eyvanlar və s.

Bu dövrdə inşaa edilmiş dini tikililərlə yanaşı, karvansaralar və onlarla bağlı olan ticarət tikililər də əhəmiyyətli yer tutur. Ərazinin karvan yolları üzərində yerləşməsi tarix boyu tacirlərin və sənətkarların diqqət mərkəzində olmuşdur. Dağlıq və şəhər ərazisində tikilmiş karvansaralar üslub xüsusiyyətlərinə görə ərəblər tərəfindən karvan yollarının keçilməz nöqtələrində tikilmiş rabatların və Səlcuqlu karvansaralarının memarlığına çox oxşardır. Səlcuqlu memarlığında tez-tez rast gəldiyimiz təntənəli giriş Baştağları və onları bəzəyən daşdan girintili-çıxıntılı yonulmuş stalaktitlər, tağ formalı giriş qapısı yanlarında qabarıq işlənmiş heyvan və əfsanəvi heyvan təsvirləri, "Səlcuq zənciri" adı ilə yer alan haşiyyə şəklində işlənmiş naxışlar, ərəb əlifbası ilə qeyd edilmiş yazılar və s. türk memarlığı abidələri ilə eynilik təşkil edir.





Göy məscid. Fasad və planı. 1764-1768.

Qərbi Azərbaycanın digər bir memarlıq irsi körpülərdir ki, onlarda günümüzə az sayda qalıb. Onları araşdırarkən həmin dövrün memarlıq siması və konstruktiv həlləri haqqında müəyyən dərəcədə məlumat əldə edilir. Bu tikililərin bir hissəsi ermənilər tərəfindən tamamilə dağıdılıb, bəzilərinin qalıqları qalıb, çox az saydakından isə günümüzdə də istifadə olunur. Azərbaycan memarlığının tikinti sənətini özündə əks etdirən digər tikililər vaxtilə İrəvan qalası ərazisində yerləşən saray və məscid və s. tikililərdir. Azərbaycanın XVIII əsr saray memarlığının üslub xüsusiyyətlərini özündə əks etdirən Sərdar sarayı vaxtilə Zəngi çayının sahilində inşaa edilmişdir. Kərpic materialından tikilmiş sarayın tərtibatında dekor kimi boya, şüşə, kaşı mozaikalardan istifadə edilmişdir. Sarayın miniatür təsvirləri və portretlər də boya ilə işlənmişdir.

Qala ərazisində yerləşən digər tarixi abidələrdən biri də Sərdar məscididir. Məscid bəzi mənbələrdə Abbas Mirzə məscidi kimidə tanınır. Məscidin plan-məkan həlli Səlcuqlu memarlığında olduğu kimi mərkəzi ibadət zalından və köməkçi yerləşkələrdən ibarət olmuşdur. Qoşa minarəli həll edilmiş giriş Baştağı və mərkəzi ibadət zalını qapayan hündür baraban üzərinə qaldırılmış sivri formalı günbəzi, XIV əsrdə Orta Asiyadan Anadoluyadək yayılmış türk memarlığını özündə əks etdirir. Tikilinin fasadlarında işıq-kölgə effekti yaradan tağşəkilli tağçaları və haşiyyələri zəngin naxışlarla bəzədilmişdir. Qərbi Azərbaycanın erkən dövr memarlıq abidələrindən fərqli olaraq, caminin inşası kərpic materialı ilə aparılmışdır. Zamanla bu abidə də ermənilər tərəfindən sökülərək yox edilmişdir.

İrəvan ərazisində saray binası, yaşayış evlərilə yanaşı, mərkəzi və məhəllə məscidləri, yay köşkləri və başqa tikililərdə burada müsəlman türklərinin yaşadığını təsdiq edən amillərdir. İrəvan məscidlərinin ən böyüyü sayılan və mərkəzi məscid kimi inşa edilən Göy məscid (1764-1768 ci il) 28 hücrə, kitabxana, ibadətgah və daxili həyətdən

ibarətdir. Sovet hakimiyyəti dövründə məscidin 4 minarəsindən 3-ü sökülmüş, bir hissəsi isə məktəb olaraq istifadəyə verilmişdir. Məscid müəyyəd dövrlərdə ermənilər tərəfindən yandırılmışdır. 2010-ci ildə məscid binasında yenidən bərpa işləri aparılaraq məscid ilkin variantına qaytarılmağa çalışılmış və hazırda "Fars məscidi" kimi təbliğ edilir. Məscidin daxili və xarici divarları vaxtilə rəngli və zəngin materiallarla bəzədilmiş, islam dövrü memarlığına xas olan rənglər üstünlük təşkil etməklə, haşiyə naxışlarla və şəbəkələrlə yüksək səviyyədə işlənmişdir.

İrəvan şəhərinin digər müsəlman abidələri orta əsrlərə aid məhəllə məscidləri və yaşayış evləridir. Yalnız dövrümüzə fotoları qalmış yaşayış evlərinin memarlıq məkan həllindən aydın olur ki, bu yaşayış evləri də orta əsrlər Azərbaycan memarlığında öz həllini tapmış yaşayış evlərinin memarlıq məkan kompozisiya həlli ilə eynilik təşkil edir. Memarlıq konstruksiyasında tağ kompozisiyalarından istifadə, kərpic materialı ilə inşası, otaqlarının həllində mətbəxt, qonaq otağı, iç-içə tikilmiş otaqların yerləşmə həllinə, Azərbaycanın bölgələrindən asılı olmayaraq, orta əsrlər yaşayış evlərinin memarlığında tez-tez rast gəldiyimiz "Balaxana" adlanan otaqlar, ağac materialından qurulmuş böyük ölçülü eyvanlar və s. Azərbaycan memarlığına xas olan xüsusiyyətlərdəndir. Ermənilər tərəfindən zamanla bu evlərdə planlaşma adı altında sökülərək yerində binalar inşa edilmişdir. Vaxtilə İrəvanın mərkəzində yerləşən "Müsəlman" məhəlləsi, şəhərin yüksək yerində, Zəngi çayının sahilində yerləşən "İrəvan qalası" və onun ərazisində yerləşən tikililər də Sovetlər dövrü sökülərək, yerində park salınmışdır.

Qərbi Azərbaycan ərazisində ermənilər tərəfindən 200 il ərzində deprosiyalara məruz qalmış azərbaycanlıların dədə-baba yurdlarının adları dəyişdirilmiş və dağıdılmış, yaşadıqları evlər, qəbiristanlıqlar, bu ərazilərdə tikilmiş bir sıra tarixi memarlıq abidələri yox edilmişdir.

Qərbi Azərbaycanın memarlıq abidələrinin mövcud vəziyyəti. Uzun illərdir Azərbaycanlı alimlərin bütün sahələrdə apardıqları araşdırmaların sonucu olaraq, Azərbaycanın qərb bölgələrində Azərbaycanlı türklərinin ta qədim dövrlərdən yaşadığı istər bu ərazidəki toponimlərilə, istər tarixi memarlıq abidələrilə, istərsə də tarixi keçmişilə təsdiqlənir. Bu da Qərbi Azərbaycan (indiki Ermənistan) türklərinin bu yerlərin köklü, aborigen xalqı olduğunu təsdiqləyir. 1828-cu il 10 fevralda Təbriz yaxınlığında Türkmənçay kəndində bağlanmış Türkmənçay müqaviləsindən sonra Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycan ərazisində Çar Rusiyası müxtəlif illərdə kameral siyahıyaalmalar aparmışdır. Qərbi Azərbaycanda ilkin siyahıyaalma 1831-ci ildə keçirilmişdir. Bu siyahıyaalmadan aydın olur ki, 1830-cu ilə kimi 54857 nəfər azərbaycanlı türkü, 14469 erməni yaşamışdır. Ermənilər kütləvi sürətdə bu ərazilərə 1828-ci ildən sonra İran və Türkiyədən köcürülmüşdür. Bunun nəticəsində indiki Ermənistan adlanan ərazidə XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə kimi yaşayan əhalinin say və etnik tərkibini özündə əks etdirən Z.Qorqodyanın "1831-1931-ci illərdə Sovet Ermənistanının əhalisi" (İrəvan 1932, erməni dilində) kitabında qeydə alınan 2310 okyonimin (yaşayış məntəqəsinin) 2000-dən çoxu türk mənşəli, 300-ə yaxını isə ərəb və fars mənşəli adlardır. Erməni toponimləri indiki Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarında 1935-ci ildən sonra kütləvi sürətdə dəyişdirilməsindən sonra yaranmağa başlamışdır. Ermənistan

adlanan ərazidə hun, sak, şirak, kimmer (qəmər), qarqar, gencek, peçeneq, abar, qazan, abdal, quşçu, kapan, qıpçaq, oğuz, avşar, bayat, bayandur, yayçı, iva, qayı, çəpni, kəngər, qaşqay, ayrım, qaraqoyunlu, sarıçalı, barani, baharlı və s. türk tayfaları yaşamışdır. Bunu yazılı qaynaqlar, daş kitabələrlə yanaşı, ərazinin türk etnonimləri əsasında formalaşan toponimlərdə-Hunud, Şəki, Gümrü, Ozanlar, Qəmərli, Qarqar, Şirak, Abaran, Qafan, Bayat, Şəpni, Qıpçaq, Afşar, Abdalağalı, Bcni, Polad Ayrım, Qaraqoyunlu, Barana, Yaycı, Baharlı və təsdiq edir [4, 272s.; 9, 855s.; 2,s.8].



Ermənilərin İrandan Azərbaycan torpaqlarına (Naxçıvan, İrəvan, Qarabağ) köçürülməsi (Rus rəssamı V. Maşkovun çəkdiyi şəkil).1828-ci il.

Qərbi Azərbaycan ərazisində yaşayan yerli sakinlər Azərbaycan türkləri olduğunu və oradakı toponimlərin türk mənşəli olduğunu təsdiq edən sənədlər Rus çarı II Nikolayın hakimiyyəti (1896-1917) dövründə 1903-cü ildə tərtib olunmuş və 1914-cü ildə çapdan çıxmış Qafqaz hərbi dairəsinin hərbi topoqrafik xəritəsidir ki, bu xəritə ermənicə deyil, Azərbaycan türkcəsində olmasıdır. Məsələn: Alagöz dağı, Göyçə gölü, Bazar çayı, Gözəldərə dağı, Qəmərli, Dəvəli, Çardaxlı, Qarabulaq, Karvansara, Dilican, Dərəçiçək, Qabıqlı, Mədinə, Çubuqlu və s. Qeyd olunan xəritədə Qarabağın mərkəzi Xankəndi adı ilə göstərilib. Hərbi xəritədə yer adlarının Azərbaycan adları ilə göstərilməsi bu yerlərin azərbaycanlılara məxsus olduğunu bir daha sübut edir və tarixi əhəmiyyətli bir sənətdir [13].

Göstərilən adı çəkilən faktlarla yanaşı, 1928-ci ildə Moskvada çapdan çıxmış, "SSRİ xalqlarının inzibati ərazisi və etnoqrafik atlası"nda da Zaqafqaziyanın tərkib hissəsi olan İrəvan ərazisindəki qədim yer adlarının (toponimlərin) türk mənşəli olması faktı göstərilərək həmin ərazilərin ilk və yerli sakinlərinin Azərbaycan-türkləri olması dolayisi ilə də olsa təsdiqlənir. Misal: Qazançı, Uzunlar, Karvansara, Dilican, Dərəçiçək, Göycə gölü, Bazar çayı, Basar-keçər, Qəmərli, Alagöz və s. [13].

Qərbi Azərbaycanın yerli sakinlərinin Azərbaycan türklərindən ibarət olmasını təsdiqləyən digər tarixi faktlardan biri də ərazidə inşa edilmiş Azərbaycan-türk tarixi abidələrnin olmasıdır. Qayaüstü abidələrdən başlayaraq qədim, ilkin orta əsrlər, orta əsrlərə aid yaşayış yerlərilə yanaşı, mədəniyyət abidələrilə zəngin olan ərazi ermənilərin buraya yerləşdirilməsindən sonra yox olmaq təhlükəsilə üzləşdi. Belə ki, əsrlərlə yerli sənətkarlar tərəfindən yaradılan abidələr erməni vandalları tərəfindən dağıdılaraq məhv edildi, qalan Alban dövrü abidələri isə bir qrup erməni alimləri tərəfindən araşdırıldıqdan sonra saxtalaşdırılaraq erməni abidələri altında kitab, məqalə şəklində dünya ictimaiyyətinə çatdırıldı.



İrəvan şəhərində məscid tikililərinin son halı

Vaxtilə bu ərazidə yerləşən və tədqiqatçılar tərəfindən araşdırılan saysız-hesabsız yeraltı və yerüstü maddi-mədəniyyət nümunələri-qədim yaşayış məskənləri, nekropollar, kurqanlar, qəbirüstü səndüqələr, at-qoç heykəlləri, xaçdaşlar, məbəd və monastrlar, qalalar, saray və istehkam qalalar, məscid və türbələr, pir və ocaqlar Azərbaycanlı türklərinin bu yerlərin qədim sakinlərinin olduğunu və bu yerlərin tarixini təsdiqləyən dəyərli əsərlərdir. Bu abidələrə, A.Qurbanovun Kalinino rayonunun Cücəkənd kəndində tapdığı yazılı abidələri, Həmzə Vəlinin Meğri rayonunun Nüvədi kəndinin Qarqadaş dağından tapdığı, Orxan-Yenisey yazılı abidələrinin eyni olan daş kitabələr təsdiqedici faktlardır. Eyni zamanda İrəvan şəhərinin yaxınlığında yerləşən Zəngibasar (Masis) rayonunun Cəfərəbad (Arqavand) kəndində Əmir Səidin (bəsi mənbələrdə Əmir Səəd) və onun oğlu Pir Hüseynin (1413; 1410-1420) atasının qəbri üzərində ailəvi türbə kimi tikdirdiyi türbə, Sisian rayonun Urud kəndində dövrümüzə qədər qalan iki orta əsr xatirə abidəsi-sənduqə formalı qəbir daşları üzərində ərəb dilində yazılmış: - Allah, Məhəmməd, Əli Üğvan (ağvan) nəslindən olan kəndxuda oğlu Əmrusəl, ramazan ayı, 883-cü il (m.t. 26.11.25, 12.1478-ci il), bundan yüz il sonra düzəldilmiş qoç heykəllər və daş üzərində ərəb əlifbası ilə yazılmış: "Di gəl ki, yan gördüm gözü yaşıl, sözü qanlı....Allah Məhəmməd, Əli Uğvan (ağvan) nəslindən iftixar...986-cı il (miladi tarixi ilə 1578-79-cu illər), yoxdur bu dərdimə çarə". Burada daş kitabədə qeyd olunan "üğvan" tarixən Zəngəzur mahalında, Dağlıq Qarabağda yaşamış türk tayfalarından birinin adıdır. Sisian rayonunun Urid kəndində XVI əsrə aid tapılmış abidənin üstündə Azərbaycan dilində yazılmış şeir parçası: " Bir cavani nazənin məskənidir bu məzar, Eyləmiş nazik tənin xakiylə yeksan ruzigar". Qərbi azərbaycan abidələri sırasında Zəngəzur mahalının Qarakilsə rayonu ərazisində e.ə. II minilliyə aid Qoşundaş tikili qalıqları, e.ə. VIII əsrdə İrəvan şəhəri yaxınlığında Qırmızıtəpə adlı yüksəklikdə ucaldılmış Teyşebaini, İrəvan şəhərinin yerində Qanlıtəpə adlı yüksəklikdə salınmış Erebuni, Güyçə mahalının Qaranlıq (indiki Martuni) rayonunun Kolagirən kəndinin kənarındakı Teyşeba qalaları, Zəngəzur mahalının Meğri rayonunun Nüvədi kəndində aşkar edilmiş e.ə. minilliklərə aid Qarqadaş kitabələri,

Gəmibasar mahalında e.ə. III-II əsrlərdə inşa edilmiş Gəmi qalası və həmin qalada eramızın I əsrində Arman hökmdarı I Tridat tərəfindən tikilmiş "Təxti-Turadat" adı ilə tarixə düşən saray və s. göstərə bilərik ki, bu abidələr Azərbaycan türklərinin tarxi keçmişindən xəbər verən dəyərli maddi- mədəniyyət nümunələridir [4, 272 s.; 9,855 s.]. Bu abidələrin taleyi burada yaşayan yerli əhalinin taleyi kimi XIX əsrin I yarısında Türkmənçay müqaviləsindən sonra Qərbi Azərbaycan ərazisinə ermənilərin köçürülməsi nəticəsində dağıdılmış, viran edilmiş və ya erməni, fars mədəniyyəti abidələri kimi xarici ictimayyətə təqdim olunmağa çalışılmışdır. Qərbi Azərbaycan ərazisində ən çox dağıntılara məruz qalmış abidələr isə İslam dövrü abidələri-məscidlərdir.

Təkcə bu faktı qeyd etmək lazımdır ki, XIX əsrdə İrəvan quberniyasında 310 məscid olmuşdur. Bununla yanaşı, İrəvan quberniyasının ayrı-ayrı qəzalarında da məscidlər olmuşdur ki, onlarda dövrümüzə gəlib çatmamış, ermənilər tərəfindən dağıdılmışdır [3,c. 119-121].

1915-ci ilə kimi İrəvan quberniyasında 382 şiə, 9 sünni, Zəngəzur qəzasında 38 şiə məscidi, Şərur-Dərələyəz qəzasında 40 şiə məscidi fəaliyyət göstərib. XX əsrin əvvəllərində İrəvan şəhərində Qədim şəhər məscidi, Came, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzəsəfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. Hal-hazırda İrəvan şəhərində bircə Came qalmışdır (Göy məscid, 1760-1765) ki, o da İranın səfirliyi tərəfindən 1995-2006-cı illərdə bərpa edilərək, fars məscidi kimi fəaliyyət göstərir. Digər bərpa olunmuş abidə isə Əmir Səid türbəsidir ki, bərpadan sonra "Türkmən məqbərəsi" (1995-2006) kimi təqdim edilir [6,s. 227-239].

Azərbaycanın orta əsrlər memarlıq tarixində çox əhəmiyyətli yer tutan İrəvan qalası və qala ərazisində yerləşən saray, məscid və bir sıra tikililər ermənilər tərəfindən sökülərək tamamilə yox edildi. 1968-ci ildə Moskvada nəşr olunmuş, Ermənistanın tarixindən bəhs edən "Erevan" adlı tarixi kitabdan bəzi sətirlərə diqqət edək:.... "İrəvan qalası 1582-1583-cü illərdə Fərhad paşa tərəfindən inşa edilmişdi. 1760-cı ildə inşasına başlanmış və Hüseynəli xanın hakimiyyəti illərində (1764-1768) başa çatmış, Azərbaycan memarlığının ən yüksək incəsənət abidəsi sayılan, öz görkəmi ilə səyyahları heyran edən, İrəvan məscidləri arasında ən böyük məscid olan əzəmətli Göy-məscid, 1687-ci ildə tikilmiş Novrüzəli xanın məscidi, 1725-ci ildə inşa edilmiş Rəcəb paşa məscidi, XVIII əsrin əvvəllərində inşa edilmiş Abbas Mirzə Camesi, Paqos-Petros kilsəsinin yanında yerləşən Zal-xanın məscidi, XVIII əsrin sonlarında Mahmud xanın dövründə inşa edilmiş Sərdar sarayı" və s. [1,s.18-55)]. Qərbi Azərbaycan ərazisində erməni mənbələrinə dayanan və məhv edilən, onlarca memarlıq abidələrini misal göstərmək olar.

Əlbəttə, bu ad dəyişmələrin miqyası ildən-ilə genişlənmiş, nəhayət, ötən əsrin 80-ci illərində tamamilə başa çatmışdır. Məsələn, Urud kəndi ərazisindəki qoç heykəlləri bütün dünyaya "ermənilərin daş dövrü abidələri" kimi təqdim edilib. Ermənilər Qarakilsənin Urud kənd qəbiristanlığında orta əsr Azərbaycan ustaları, sənətkarları tərəfindən bədii daşyonma üsulu ilə yaradılan daş qoç və qoyun heykəllərini daşıyaraq İrəvan şəhərinə aparıb, onların üstündə həkk edilmiş Azərbaycan xalqına məxsus kitabə və təsvirləri məhv edərək ermənilərin abidələri kimi qələmə verirlər.

Eramızdan əvvəl V-II minilliklərə aid Soyuqbulaq və Qarakilsə qayaüstü təsvirləri,

Nüvədi-Qarqadaşı yazıları, Zəngəzur mahalının Qarakilsə rayonu ərazisindəki eramızdan əvvəl II minilliyə aid Qoşundaş tikili qalıqları, Zəngəzurun Səlim keçidi adlanan yerdə tikilmiş karvansara, Qaraqoyunlu dövlətində Çuxur-Səid əmrinə aid Cəfərəbad türbəsi, 8-ci İmam Rzanın nəvəsi Mir Davudun və Qara Vəli kəndində Seyid Əhmədin məqbərəsi də tamamilə ermənileşdirilmiş, ya da türkmən türbəsi adı ilə təbliğ edilmişdir. Hələ Sovetlər dövründə ərazidə aparılan arxeoloji-tarixi tədqiqatların nəticələrindən də görürük ki, Cənubi Qafqaz regionunda heç vaxt erməni dövləti olmayıb. Hətta açılan qədim qəbirlərdəki insanların kəllə sümükləri də bu ərazidəki etnosların yalnız türk-oğuz tayfaları olduğunu sübut edir. Aparılan arxeoloji qazıntılar zamanı Qafqaz ərazisində ermənilərə aid heç bir mədəniyyət abidəsi tapılmayıb [14, s.6.].

Təkcə İrəvan şəhəri ərazisində: Erebuni qalası (e.ə.VIII əsr), İrəvan qalası (XVI əsr), Sərdar məscidi (XVI əsr), Sərdar sarayı (XVIII əsr), Şah Abbas məscidi (XVII əsr), Dəmirbulaq məscidi (XVII-XVIII əsr), Dəmirbulaq körpüsü (XVIII əsr), Göy məscid (XVIII əsr), Hacı Novruzəli məscidi (XVIII əsr), Təpəbaşı məscidi (XVIII əsr), Əsədağa məscidi (XVIII əsr), Şəhər məscidi (XIX əsr), Keçi qalası (XVII əsr), Div Sultan məscidi (XVII əsr), Çətirli məscidi (XVIII əsr), Xudabəndi məscidi (XVI əsr) bu abidələrin adları ilə yanaşı, Qərbi Azərbaycan ərazisində yüzlərlə belə abidələr olmuşdur ki, onların da çox hissəsi tamamilə dağıdılmış, az hissəsi isə erməni abidəsi kimi təbliğ edilmişdir [4, 272s.; 9, 855s.].

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən (STM) ərsəyə gətirilmiş və təqdimatı 4 iyun 2022-ci ildə keçirilən "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəniyyət irsimiz: İrəvandan Zəngəzuradək" adlı kitabının təqdimatı olmuşdur. Kitabda təkcə Ermənistanda azərbaycanlılara məxsus irsin məhv edilməsi göstərilmir, eyni zamanda Cənubi Qafqazın ermənileşdirilməsi və ermənilərin tarixi torpaqlarımızda maddi-mədəni irsi işğal siyasətinə, 1988-1989-cu il deportasiyalarına həsr edilmişdir. Kitabda 244 abidənin tarixi hərtərəfli araşdırılmış və düzgün elmi təsnifata uyğun onların reyestri verilmişdir. Əsərdə 49 pir (ocaq) ziyarətgah, 40 məscid, 38 qəbirüstü abidə, 15 məbəd, 13 qala, 19 alban kilsəsi, 13 karvansara, 8 türbə, 6 etnoqrafik arxeoloji abidə, 6 günbəz, 5 qəbirüstü heykəl, 5 körpü, 3 məqbərə, 3 arxeoloji abidə, 3 daşüstü yazı, 2 mədrəsə, 2 məhəllə, 2 imarət, 9 qayaüstü təsvir, qədim yaşayış məskənləri haqqında yerli və xarici mənbələrdən toplanan məlumatlar ilk dəfə aşkar edilərək mövcud siyahıya əlavə edilmiş, yüzlərlə xarici və mötəbər ədəbiyyat sənədlərinə, etibarlı, nüfuzlu mərkəzlər tərəfindən qəbul olunan müəlliflərə istinad edilmişdir [14].

Tədqiq edilən 244 abidədən dağıdılan abidə sayı 133, xaraba qalan-ermənileşdirilən abidələrin sayı 51, yararlı olan- ermənileşdirilən abidə sayı 58, yararlı olan-erməni kilsəsinə çevrilən 1, yararlı olan fars məscidi kimi təqdim olunan 1 abidə vardır [14]. Kitabda təqdim olunan abidələrin siyahısından aydın olur ki, ermənilər tərəfindən aparılan vandalizm nəinki yerli əhalinin məhv edilməsi və ya köçürülməsinə, eləcə də onların bu ərazidə yaratdıqları maddi-mədəniyyət abidələrinin məhv edilməsinə də yönəldilmişdir.

Bütün sahələr üzrə çalışan tədqiqatçı alimlərimiz tərəfindən Azərbaycanın, eləcə də Qərbi Azərbaycan ərazisi, onun tarixi, memarlığının araşdırılması tarixən türklərlə düşmənlik siyasəti yeridən erməni vandallıqlarına qarşı yönəlmiş bir elmi silahdır. Erməni

vandallarının bu ərazilərdə yaşayan əhaliyə, maddi-mədəniyyət abidələrinə, yer adlarına qarşı törətdikləri siyasətə cavab olaraq, bu araşdırmaların bütün dünya ictimaiyyətinə çatdırılması yolunda yeni axtarışların aparılması və soydaşlarımızın öz dədə-baba yurdlarına qaytarılması uğrunda mədəni mübarizəmizin davam etdirilməsi üçün var gücümüzlə birlikdə çalışmalıyıq.

ƏDƏBİYYAT

1. Арутюнян, В. М., Асратян М. М., Меликян А. А. – Москва: – 1968. – 304 с.
2. Bayramov, İ. Qərbi Azərbaycan tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. – Bakı:"Çıraq" nəşriyyatı, – 2012. – 288 s.
3. Эдельсон, Р.К. Памятная книжка Эриванской губернии на 1902 года, – Эривань: Типография, – 1902, – с. 119-121.
4. Ələkbərli, Ə. Qərbi Azərbaycan abidələri. – Bakı: Nurlan, – 2007. – 272 s.
5. Ələkbərli, Ə. Qədim Türk-Oğuz yurdu "Ermənistan", – Bakı: "Sabah" nəşriyyatı, – 1994. – 203 s.
6. Quliyeva, V. Azərbaycan memarlığının şah əsərlərinin durumu. Teke Uluslararası Türkçe Edebiyat Kültür Eğitim dergisi sayı: ¼ 2012 s. 227-239.Türkiye.
7. Lələdağ, M.Ə. Sumqayıt Dövlət Universiteti. Xalq qəzeti, 15 yanvar 2023-cü il.s.6.
8. Mehdiyev, R. Ə. Gorus-2010: Absurd teatrı mövsümü, – Bakı: Şərq-Qərb, – 2010. – 96 s.
9. Mirzəyev, H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. – Bakı: Elm, – 2004. – 855s.
10. Мамедова, Г. Г. Заргарли Э. А. К проблеме генезиса христианского зодчества Кавказской Албании. Краткое содержание докладов межд. конф. «Арх. и исскуство Ближнего Востока. Элм. – 1992.
11. Шавров Н. И. Новая угроза русскому делу в Закавказье. Предстоящая распродажа Мугани инородцам. Изв. АН Аз.ССР. Серия истории, философии и права. – 1988, №3, – с. 55
12. Шопен, И.И. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, – 1852, – 1231 стр.
13. Tağıyev, M. Qərbi Azərbaycan ərazisinin (indiki Ermənistan) əzəli sakinləri. "Şərq qapısı" qəzeti, – 4 avqust, – 2023.
14. www.google.com.Azərbaycan Dövlət İnformasiya Agentliyi. AzərTAC, – Bakı: 04.07.2022-ci il.
15. www.google.com. Xronoloji ardıcıllıqla memarlıq üslubları. Dünya memarlığında üslub və meyllər .28.07.2019,16 s.

SUMMARY

Gulnara Ganbarova

ARCHITECTURAL MONUMENTS OF WEST AZERBAIJAN STYLE CHARACTERISTICS AND EXISTING CONDITION

Azerbaijan has a rich and ancient history, being one of the oldest centers of civilization. For thousands of years, a rich cultural heritage has been created in its territory, which has entered the cultural treasury of the world.

The end of the 18th century and the beginning of the 19th century resulted in the strengthening of the contradictions between Iran, Turkey and Russia, the division of the lands of Azerbaijan, and the complete loss of the southern and western regions. The lands of Western Azerbaijan, which was the home of the Oghuz-Turks, were eventually appropriated by the Armenians with the deportation of the Azerbaijanis (1828-1988).

For nearly two centuries, Armenian vandals gradually changed the names of the villages, towns, and districts inhabited by Azerbaijanis, destroyed the ancient homelands, cemeteries, as well as Kipchak, Albanian monuments, and Islamic-Turkish monuments.

Despite all this, the lands of Western Azerbaijan are remembered by Oghuz-Turkish names, toponyms, traditions and the wealth of Oghuz-Turkish monuments.These monuments are more numerous in Gafan, Mehri, Garakilsa, Gorus regions. At the same time, the stone figures placed on the graves, the subject images carved on them with the art of carving, once again confirm that this is a Turkish homeland.

The monuments built by the Turks in the lands of Western Azerbaijan can be divided into two groups according to their stylistic features. The first group includes the pre-Islamic monuments, which are known as Kipchak monumentsand monuments of the Albanian period. These include churches, monasteries, places of worship, etc. The second group of monuments were built during the Islamic era, which include mosques and madrasas, tombs, caravanserais, palaces and castles, bridges, etc. The monuments of theKipchak and Albanian period differ from the monuments of the Islamic period in terms of construction techniques and materials. Although the external walls of the monuments built from the local material called red tuff stone are simple, the entrance doors and inner walls of those monuments have a lot of stone figures with symbolic meaning carved in a convex shape in a style specific to their period. Although some of the monuments were built in mountainous areas from tuff stone during the Islamic era, the monuments built from baked bricks are distinguished by their delicacy and richness of decor, and are rare pearls of Turkish-Islamic architecture.

At the end of the 19th century and the beginning of the 20th century, Armenians, through their patrons, settled in the lands of Western Azerbaijan, falsifying the monuments belonging to the Albanian state with a 1000-year history and announcing them as Armenian churches and monasteries.The prominent images on those monuments were removed and replaced with crosses typical of Armenians.Unlike the monuments of the Albanian era, the most destroyed monuments are the monuments of the Islamic era.A number of buildings (Khan's Palace, mosque, castle walls and other buildings) located in the so-called Gala area of the city of Yerevan were demolished during the Soviet era and a park was built in their place.Neighborhoods were demolished with the construction of new buildings, mosques located in neighborhoods were either completely destroyed, some mosques and madrassas were inhabited by Armenians relocated from abroad. This can be called as the fact of cultural genocide committed by Armenians against the cultural heritage of Azerbaijan.

The article talks about the lost lands of Western Azerbaijan, the styles and characteristics of the architectural monuments located in those lands, and provides information about their current condition.

Key words: *Deportation, Turkish-Oghuz homeland, historical monuments, Albanian monuments, Turkish-Islamic monuments, style features, building material.*

QƏRBİ AZƏRBAYCANDAN KÖÇ EDƏNLƏRİN ƏZABLARI, ONLARIN LİRİK POETİK FORMADA İFADƏSİ

Sədaqət NEMƏTOVA
sedaqetnemet@gmail.com
Naxçıvan Dövlət Universiteti

Qərbi Azərbaycandan köç edənlərin çəkdiyi məşəqqətlər lirik poeziya misralarında öz təsirli ifadəsini tapır. Bu poetik kompozisiyalar köç edənlərin mübarizələrinin dərin emosional və təcrübi aspektlərini çatdırmaq, onların səyahətlərinin, yerdəyişmələrinin və yeni şəraitə uyğunlaşmaqda üzləşdikləri çətinliklərin mahiyyətini əks etdirən vasitə rolunu oynayır.

Qərbi Azərbaycandan köç edənlərin üzləşdiyi çətinliklər lirik şeir, bayatı, ağı misraları vasitəsi ilə təsirli və təsirli ifadəsini tapmışdır. Bu misralarda köç edənlərin məşəqqətlərinin emosional və təcrübi ölçüləri qabarıq şəkildə əks etdirilərək, oxucularla dərin səviyyədə rezonans doğuran güclü bir hekayə yaradır. Üstəlik, lirik poeziya köç edənlərin öz daxili hisslərini ifadə etmək və köçkün emosional relyefi ilə hərəkət etmək üçün kataral çıxış imkanı yaradır. Diqqətlə seçilmiş sözlər və təlqinedici obrazlar vasitəsilə şairlər tanışlıq həsrətini, ayrılıq ağrısını, çətinliklər qarşısında yaranan möhkəmliyi çatdırırlar. Bu misralar dərin transformasiyaya uğramış bir cəmiyyətin paylaşılan təcrübələrini ifadə edən kollektiv səsə çevrilir. Mahiyyət etibarı ilə lirik poeziya misraları Qərbi Azərbaycandan olan köç edənlərin məşəqqətlərinin güclü və davamlı sübutu kimi xidmət edir, onların təcrübələrini əbədiləşdirir və insan hekayələrinin daha geniş qobeleninə töhfə verir.

Məqalədə qaçqın həyatı yaşamaq, köçəri məsələlər, vətənə baxışlar xüsusi təsvir edilmiş, Azərbaycan folkloru Azərbaycan türk taleyinin poetik tərcüməçisi olmuşdur. Təqdim olunan məqalədə bu kimi məsələlər təhlil edilmiş və maraqlı nəticələr araşdırılmışdır.

Açar sözlər: *Qərbi Azərbaycan, Göyçə, qaçqın, köçkünlük, Vətən, el-oba*

Giriş

Böyük türk şairi Yavuz Bülənd Bakilər "Bizim türkümüz" adlı şeirində yazır:

Bizim türkümüzdə qürbət var artıq,
Həsrət var, ürək var, torpaq var, balam. [12, s. 179]

Taleyin hökmü ilə dünyanın dörd bir tərəfinə səpələnmiş türk ellərinin bayatılarında, ağılarında, xoyrat ve manilərində, eləcə də şairlərinin şeirlərində qürbət ağrısı, qürbət acısı yaşamaqdadır.

"Türklərin tarix və mədəniyyətinə bir baxış" adlı kitabında Cavad Heyət yazır: "Bu gün türkdilli ellər Balkanlardan Sakit okeana qədər, Quzeydə Şimal dənizindən Güneydə Tibetə qədər geniş bir məntəqədə yaşayırlar. Xalqın əksəriyyətini təşkil edən türklər Türkiyə, Qərbi ve Şərqi Türküstan, Azərbaycan, Başqırdıstan, Çuvaşıstan,Yakutistan və Altay dağları - Baykal dəryaçası arasındakı Altay, Xakes ve Tuva əyalətlərində və xalqın daha azını təşkil etmək üzrə Yuqoslaviyada, Polşada, Rumıniyada, Bolqarıstanda, İraqda, Suriyada,

Əfqanıstanda, Kıbrısda və İranın müxtəlif əyalətlərində toplu halda yaşayırlar" [3, s. 9]

Torpaqlarımız nə qədər böyük, ucsuz-bucaqsızdırsa, dərdlərimiz, ağrı-acılarımız, həsrətlərimiz də bir o qədər böyükdür. Qədim dövrlərdən bu günə zamanın sərt rüzgarları türk ellərinin başı üstünden əsib, torpaqlarımız yağmalanıb, qız-gəlinlərimiz əsir-yesir olub, eldən-ele, diyardan-diyara sürüklənərək qaçqın, köçkün taleyi yaşamışıq. Tarix yazmaqdan çox tarix yaradan ulu babalarımız, ulu nənələrimiz dərdlərini sözə, ağıya, bayatıya çevirərək yaddaşlara yazıblar. Hər bayatı, hər ağı öz məna yükünə görə böyük-böyük kitablardan, dastanlardan daha artıq xalqın taleyi haqda gələcək nəsillərə məlumat verib.

Dərd, qəm şələlərinin ağırlığına mərdliklə sinə gələn babalarımız, nənələrimiz sözlə öz dərdlərini yüngülləşdirməyə çalışıblar:

Lələ mənəm, Lələ mən,
Yük altdayam hələ mən.
Dərddən, qəmdən, hicrandan
Bağlamışam şələ mən. [1, s. 98]

Tarix boyu xalqımız çox məşəqqətlərə sinə gərib. Qaçqın, köçkün, sürgünlük taleyi yaşayıb. Təbiidir ki, bütün bu proseslər xalqın həm şifahi, həm də yazılı ədəbiyyatında izsiz qalmayıb. Filologiya elmləri doktoru Bəhlul Abdullanın dili ilə desək:

"Tarixi hadisələri özündə yaşatmaq baxımından dastanlara sığmayan bir həsrət, bir yanğı hissi ifadə edən bayatılar xüsusi səciyyə daşıyır". Burada istismarçılara nifrət, qürbət diyara düşənlərin vətən həsrəti, dostluq, sədaqət, sevgi motivləri azad, xoşbəxt həyat uğrunda mübarizə, qəhrəmanlıq hissləri və s. ilə birlikdə tarixdə doğrudan-doğruya baş vermiş hadisələr də bədii biçimdə əks olunur. Bayatıların qorunub saxlanması ərəblərin, monqolların Azərbaycanda törətdiklərinə bədii də olsa, sənəd tək şahidlik edir:

Ərəb gəldi, hay verin,
Nə istəsə pay verin.
Aza duran deyillər,
Gətirin tay-tay verin.
Apardı tatar məni,
Qul kimi satar məni.
Yarım vəfalı olsa,
Axtarıb tapar məni.
Apardı batı məni,
Qul edib satı məni.
Yollar uzun, mən yorğun
Doğrayır çatı məni [1, s. 4]

Misal gətirdiyimiz bayatıların hər üçündə bir elin dərdi, nisgili, arzusu yaşayır. Uzun yolların yorğun yolçularına çevrilən, bağlı qollarını çatılar doğrayan, qul kimi bazarlara

çıxarılan, varı-dövləti talan olan ulu yurddaşlarımızın, nənə-babalarımızın ürək ağrıları, qəlb göynərtiləri bu gün də ürəyimizi sızım-sızım sızıldadır:

Ərəb qapdı fəsimi,
Su kəsdi nəfəsimi.
Gedin anama deyin
Yaxşı tutsun yasımı [1, s. 96]

Göründüyü kimi, bu ağı-bayatıda da ərəb işğalı, ərəb zülmü köz kimi ürəyi yandırır.

Qürbət ağrı-acısı bayatılarımızda daha çox işlənib. Qürbət diyarda çəkilən Vətən dərdi elə bayatıların, ağıların yaranmasına səbəb olur ki, bu yazılarda da müəyyən bir tarixi dövr, zaman yaşayır.

Aşıq itkin diyara,
Xalın itkindir yara.
Səni məndən edəni
Düşsün itkin diyara [1, s. 95]

Sürgünə göndərilən, əsir aparılan, qaçqına, köçkünə çevrilən, könülsüz olaraq başqa yerlərə ərə verilən qızların qəlb ağrıları, könül fəryadları şeirlərə, bayatılara, ağılara çevrilib.

XVII əsrdə beş Azərbaycan qızını tatar xanına əsir aparıblar. Onların içərisində Gülşad adlı bir şairə də olub. Bu barədə Əzizə Cəfərzadə belə yazır: "Bu beş qəlbin əzabları-üç əsrin sarsıntıları, qeylü - qalı arasında çoxdan itib, əriyib, unudulub. İtib? Əriyib? Unudulub? Yox, bu beş "yesir qızın" biri - Gülşad–şairə imiş, özünün və rəfiqələrinin qüssələrini qələmə alıb və beş qəlbin harayı itməyib. Didilib tökülmüş cüng səhifələrindən gül ləçəyi kimi bir "ah", bir giley, bir həsrət nəğməsi üç əsrin başı üstdən gəlib bu günə çatıb".

Beş qız idik bir aranda, bir yerdə,
Ya ilahi, dərman elə bu dərdə.
Canım durna, hər vətəndə, hər eldə,
Bizdən salam olsun əcəm elinə.

XVII əsrdən, İstanbul şəhərindən gələn bu qəmli sədaya XIX əsrin əvvəllərində Tehrandan başqa bir şairənin yanıqlı səsi səs verir:

Mən aşiqəm, qara bağ,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Bu şeir Ağabəyim ağanındır. İbrahim Xəlil xanın qızı, İran hökmdarı Fətəli şaha ərə verilmiş Azərbaycan qızının "qızıl qəfəsdə" yazdığı şeir" [2. s. 11]

Zaman yel qanadlı atlarını çapıb keçir. İllər, əsrlər dəyişir. Ancaq yenə də öz elinden, obasından ayrı düşənlər, qaçqın, köçkün həyatı yaşayanlar olur. Bu ağrı-acılar isə yenə yeni-yeni şeirlərin, bayatıların yaranmasına səbəb olur.

XX əsrdə Azərbaycan xalqı dəfələrlə öz doğma yurdundan qaçqın, köçkün olub. 1905-1907-ci illər, 1918-1920-ci illərdə erməni daşnakları Azərbaycan ellərini xarabazara çevrilib. 1948-1953-cü illərdə yüz minlərlə soydaşımız ata-baba yurdları olan Qərbi Azərbaycandan qovulub. Soydaşlarımızın son köçləri də 1988-ci ildə başlandı. 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıları öz dədə-baba torpaqlarından qovdular. Sonra isə Dağlıq Qarabağda yaşayan soydaşlarımız doğma ev-eşiklərindən didərgin düşdülər. Min bir əzaba, dərdə düçar olan soydaşlarımız Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Qubadlı və s. rayonlarımızın, şəhərlərimizin, kəndlərimizin itkisi ilə üz-üzə dayandı. Bu ağrı-acılar Azərbaycan ədəbiyyatında, folklorunda öz bədii əksini tapdığı kimi, Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan şairlərin yaradıçılığında da izsiz qalmadı. Eyni zamanda yaranan folklor nümunələrimizdə də biz bu ağrı-acılarla üz-üzə gəldik :

Gülləri solan dağlar,
Oxlanıb duran dağlar.
O sərin yaylaqların
Olubdur viran dağlar [7, s. 32]

Əsir, əsir ağlaram,
Çox kəm, kəsir ağlaram.
Düşdüm qürbət ellərə
Oldum yesir ağlaram [7, s. 35]

Elindən, obasından ayrı düşən insanların yurd, Vətən sevgisi son illər yaranan bayatıların əsas mövzusunu təşkil edir. Vətənin yağı tapdağında qalması, yurd-yuvanın dağılması ağır, sağalmaz yara kimi hər bir insanı narahat edir, düşündürür:

Mən aşiq budağından,
Budağın yarpağından,
Gedəydim Vətənimə
Öpəydim torpağından.

Aşıq, çağırım səni,
Qəmdən yoğurum səni.
Yurdum, yuvam dağılıb
Hara çağırım səni? [7, s. 37]

Göründüyü kimi, bayatıda böyük bir ağrı yaşamaqdadır. Aşıq həmişə el-obadan deyər, gülər, söz açar, dastan söyləyər. Ancaq lirik qəhrəmanın ürəyi o qədər dərd-qəmlə yüklənib ki, o aşığı çağırmağa yer tapmır. Çünki Vətəndən didərgin düşən, qaçqına,

köçkünə dönən "hara çağırım səni?", –deyərək ah–nalə çəkir.

Bəzən bayatılarımızda dərdin, qəmin tüğyan etməsinə səbəb olan amillər qabarıq verilir. Bayatını yaradan insanlar konkret bir ünvanın adını çəkməklə öz dərdinin də ünvanını göstərir:

Ay mənim, Şuşam mənim,
Taxtımdan düşən mənim.
Qoy ellerim qayıtsın
Səcdənə düşəm sənin [7, s. 32]

Vətənə, doğma od-ocağa uzaqdan qaçqın, köçkün kimi baxmaq sağalmaz, çəkilməz dərddir. Səni ev-eşiyindən didərgin salalar, taxtında əyləşələr, bu sənin ürəyini göynətməzmi? Səni yandırmazmı?

Əzizim xan oturub,
Xan düşüb, xan oturub
İndi gözəl Şuşada
Yağı düşmən oturub [7, s. 30]

Nə böyük dərddir, əzabdır Vətənində Vətənsiz olmaq. Bu dərdi çəkən ürək gərək daşdan ola ki, bu böyüklükdə dərd ona təsir etməsin:

Əzizim eliharay,
Bağlanıb yolum haray.
Əsir düşdüm vətəndə
Çağırram elim haray [7, s. 31]

İnsan sanki dünyaya əzab çəkmək üçün gəlib. Eli-obası dağılan insan bəzən quşa da həsəd aparır. Özünü bir quş qədər bəxtiyar hesab edə bilməyəndə onun könül dünyası dağılır, viran qalır :

Laçının ab-havası,
Laçın qartal yuvası
Dağıtdılar yuvamı
Qartalın var yuvası [7, s. 32]

Digər bir bayatıda da eyni dərd, eyni nisgil, eyni həsəd var.

Əzizim havası var,
Hər dərdin dəvası var.
Yaman düşdüm çöllərə
Quşun da yuvası var [7, s. 52]

Qaçqın, köçkün taleyi yaşayan insan bir də ona görə özünə qayıda bilmir ki, onun təkcə evini, könül dünyasını deyil, bağlandığı, könül verdiyi hər bir şeyini əlindən alıblar. Ona görə də qoyub gəldiyi gül-içəkli dərələri, dağları yadına düşən şair qəlbi köçkünün, qaçqının dilindən qopan hər bir bayatı da qəm, nisgil, dərd, ələm yaşayır:

Mən aşiq gül-çiçəyim,
Qalxmasın mil çiçəyim.
Ellərin əsir olub
Sən də sol gül-çiçəyim [7, s. 90]

Ancaq insan nə qədər ağrı-acı ilə üzləşsə də, inamını, sabaha olan ümidini itirmir. İnanır ki, yenə də öz evinə-eşiyinə, doğma ocağına, Vətəninə qayıdacaq:

Aşıq, vəfalım Şuşam,
Xan tək vəfalı Şuşam.
Qoynunda bir gəzəydim,
Yanı səfalı Şuşam [7, s. 92]

İnsan üçün ən ağır dərd Vətənin əsir düşməsidir. Vətən yağı tapdağında qalanda, onun övladları qaçqına, köçkünə, əsirə çevriləndə bu dərd daha dözülməz, daha çəkilməz olur:

Əzizim kəsir oldu,
Qəm qəmdən kəsir oldu.
Düşdü ayaqlar altda
Vətənim əsir oldu [11, s. 105]

Bölünən, parcalanan Vətənin hər bir əzabı onun hər bir vətəndaşının könül ahı, könül yarasıdır:

Günəşimin sarısı,
Yox vətənin yarısı.
Millətim qaçqın olub,
Çəkir Vətən ağrısı [11, s. 105]

Erməni vəhşiliyi, insanlığa yaraşmayan hərəkətlər, körpələrə, qocalara belə zülm edənlər insanlıq simasını itirəndə hər bir cinayətə qol qoyurlar.

Erməni qan eylədi,
Necə fəğan eylədi.
Girdi güllü bağımı,
Necə viran eylədi

Aşıq balam ağlaram,
Solub qalam ağlaram.

Yurdum,yuvam dağılıb,
Ölüb balam ağlaram. [11, s.105]

"Azərbaycan folkloru antologiyası" silsiləsində yenicə nəşr olunan "Naxçıvan folkloru" kitabında yazılan"Naxçıvanın söz xəzinəsi" adlı ön sözdə deyildiyi kimi, "Ulu türk yurdu, qədim intibah mərkəzlərindən olan Naxçıvan zaman-zaman tarixin yaddaşına möhtəşəm bir Naxçıvannamə yazıb.

Burada yurdun söz xəzinəsi, öz xəzinəsi yaranıb: kəlməsi, cümləsi, ilməsi, cilvəsi sehrdi, möcüzədi…" [8. s.15]

Hər bir dərdin, əzabın başlanğıc nöqtəsi var. Azərbaycanda qaçqın, köçkün taleyi yaşayan insanların dərdinin kökündə ermənilərin əsrlər boyu xalqımıza qarşı yeritdikləri məkrli siyasət dayanıb. Eldə gözəl bir məsəl var: Arxalı köpək qurd basar. Ermənilər də böyük dövlətlərin məkrli siyasətindən güc alaraq xalqımızın başına müsibətlər gətiriblər:

Əzizim arxasızdı,
Su axıb arxa sızdı.
Neyləsin bu yazıq el
Əzəldən arxasızdır [10, s.94]

Bilmirəm nə dəmdəyəm,
Talesiz bir bəndəyəm.
Yuvasız bayquş kimi
Gündə bir vətəndəyəm [8, s.319]

Naxçıvanda yaranan bayatıların bir qismində də Arazın o tayında yaşayan qardaş-bacılarımızdan aralı düşməyin ağrısı, nisgili var:

Yaralı bir quşam mən,
Çətin daha uçam mən.
Qonmuşam Araz üstə
Qəm sarıdan başam mən [8, s. 372]

Görünən Savalandı,
Sultandı, sav alandı
Nə dərdimə dərman var,
Nə yaram sağalandı [95, s.281]

Əsrlərdən bəri bölüm-bölüm bölünən Vətənimizin o qədər ağrıları, nisgilləri var ki, "meşələr qələm, dəryalar mürəkkəb" olsa belə, yenə də yazdıqca tükənən, qurtaran deyil:

Çalıdı,
Nə tikan, nə çalıdı.

Qürbətdə qalan elin
Biri də Borçalıdı [5, s.162]

Və yaxud:

Göyçədi,
Köksü göyçə - göyçədi.
Viran qalan elimin
Birisi de Göyçədi [50, s.166]

Yad əlində haray çəkən torpaqlarımız, ağı, bayatı deyən dillərimiz var. Bir Kərkük xoyratında deyildiyi kimi:

Yad əlində
Qalmasın yad əlində.
Bir ölkə viran olub
Qalmasın yad əlində [6, s.194]

Biz də bir həqiqətə inanırıq ki, bizim torpaqlarımız da yad əlində qalmayacaq.

Qaçqın və köçkünlərimiz öz ev-eşiklərinə, doğma yurdlarına qayıdacaq. Onda nisgil dolu bayatılarımız, şeirlərimiz də tarixin arxivlərində bu günlərimizin canlı şahidləri kimi yaşayacaq. Bu sözləri dediyim anda belə yenə də gözlərim yol çəkir. Xəyalım uzaq-uzaq elləri, obaları dolaşır. Ulu Şəhriyar demişkən:

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı? [4, s. 97]

Biz də bir ümidin işığında yaşamaqla, işıqlı bir sabaha yol gedirik. Bu yolumuzun sonu işıqlı olsun. Qaçqınsız, köçkünsüz, bütöv bir el görək, məmləkət görək.

Nəticə

Məqalədə qaçqın həyatı yaşamaq, köçəri məsələlər, vətənə baxışlar xüsusi təsvir edilmiş, Azərbaycan folkloru Azərbaycan türk taleyinin poetik tərcüməçisi olmuşdur. Təqdim olunan məqalədə bu kimi məsələlər təhlil edilmiş və maraqlı nəticələr araşdırılmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Şifahi Xalq Ədəbiyyatı Antologiyası (Tərtib edən Abdulla Bəhlul), – Bakı: Çaşıoğlu, – 2004.
2. Azərbaycanın aşıq ve şair qadınları. – Bakı: Gənclik, – 1991.
3. Heyət, C. Türklərin tarix və mədəniyyətinə bir baxış. – Bakı: Azərnəşr, – 1993.
4. Hüseynəliyeva, L. Kişilər ağlayanda. – Bakı: Yurd, – 2000.
5. İraq-Kərkük bayatıları. – Bakı: Yazıçı, – 1984.

6. Kərimli, X. Mənə elə gəlir ki. – Bakı: Nurlan,– 2008. Quliyev Elman. Heydərbabaya Salam Necə Varsa. – Bakı: Elm, – 2001.
7. Naxçıvan folkloru, I cild. Bakı: "Sabah" nəşriyyatı, 1994.
8. Naxçıvan folkloru, I cild. – Naxçıvan: – 2010.
9. Naxçıvan folkloru. – Bakı: Nurlan, – 2007.
10. Nemətova, S. Poetik Yaddaşımızda Ağılar. – Naxçıvan: Qızıl dağ, – 2007.
11. Nemətova, S. Ağı janrı:funksiya və poetik imkanlar. – Naxçıvan:"Əcəmi"Nəşriyyat-Poliqrafiya Birliyi , – 2019.

SUMMARY

Sadaqat Nematova

SUFFERINGS OF IMMIGRANTS FROM WEST AZERBAIJAN, THEIR LYRICAL POETIC EXPRESSION

The hardships suffered by those who migrated from Western Azerbaijan find their effective expression in the verses of lyrical poetry. These poetic compositions serve as a means of conveying the deep emotional and experiential aspects of the migrants' struggles, reflecting the essence of their journeys, displacements, and the difficulties they face in adapting to new circumstances.

The difficulties faced by those who migrated from Western Azerbaijan found an effective and effective expression through lyric poetry, bayati and lament verses. The emotional and experiential dimensions of the migrants' hardships are vividly reflected in these verses, creating a powerful story that resonates with readers on a deep level.

Moreover, lyric poetry provides a cathartic outlet for migrants to express their inner feelings and move through the emotional terrain of displacement. Through carefully chosen words and evocative images, poets convey the longing for familiarity, the pain of separation, and the resilience in the face of difficulties. These verses become a collective voice that articulates the shared experiences of a profoundly transformed society. Essentially, the lines of lyric poetry serve as a powerful and enduring testament to the hardships of migrants from West Azerbaijan, immortalizing their experiences and contributing to the larger tapestry of human stories.

Living life as a refugee, nomadic issues, views of the motherland are specially described in the article, Azerbaijani folklore has become a poetic translator of Azerbaijani Turkish destiny. In the presented article, such issues were analyzed and interesting results were investigated.

Key words: *Western Azerbaijan, Goyche, refugee, displacement, homeland, village*

İRƏVAN ŞAİRLƏRİ FİRİDUN BƏY KÖÇƏRLİ VƏ MİRZƏ MƏHƏMMƏDƏLİ TƏRBİYƏTİN TƏQDİMATINDA

Şərəbanı MƏMMƏDOVA
sherebani@gmail.com
Orcid İD: org/ 0000-0002-8425-5080
Naxçıvan Dövlət Universiteti

Məqalədə ədəiyyat tariximizin tədqiqatçılarından olan görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" və böyük təzkiräçi alim Mirzə Məhəmmədəli Tərbiyyətin "Danişməndani Azərbaycan "əsərlərində İrəvan şairlərinin fəaliyyətindən, onların yaradıcılığının qiymətləndirilməsi və bu sənətkarların ədəbiyyat tariximizdəki rolundan bəhs olunur. Hacı Mirzə Məhəmməd Əfəndi Nigari, "Bəzmi təxəllüslü məşhədi İsmayıl Hacı Kazımzadə, Mütəlle imzasıyla yazan Mirzə Kazım qazi Əsgərzadə Axund Əhmədov, Sabir təxəllüslü Hacı Seyid Rza Əmirzadə, "Ləli" imzasıyla tanınan Mirzə Əlixan Şəmsül Hükəma, və başqalarının yaradıcılığına nəzər salınmış hər iki əsərdə sənətkarların tərcümeyi- halı və yaradıcılığı haqqında mübahisəli məsələlərə aydınlıq gətirilmişdir.

ƏSAS. Tədqiqatçılar çoxəsrlik tarixə sahib Azərbaycan ədəbiyyatının inkişaf yolundan bəhs edərkən müxtəlif bölgələrin ədəbi mühitinə bölünürlər. Naxçıvan ədəbi mühiti, Qarabağ ədəbi mühiti, Şirvan şairləri, Gəncə şairləri və s. xüsusilə də Firidun bəy Köçərli və təzkirələr təzkirəsi (biblioqrafiyanın biblioqrafiyası) hesab olunan "Danşməndani Azərbaycan" əsərinin müəllifi Mirzə Məhmmədəli Tərbiyət İrəvan şairlərinin həyat və fəaliyyətindən bəhs etmiş, onların ədəbiyyat tariximizdəki yeri və roluna diqqət çəkmişlər.

İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya – Qayıdış Konsepsiyasının yaradılması və bu sahədə aparılan işlər mövzunun bir daha araşdırılma və tədqiq etmə zəruriliyini etiva edir. İki əsr ərzində qərbi azərbaycanlılara qarşı törədilmiş ədalətsizliyi onun nəticələrini rədd etməklə indiki Ermənistan ərazisindən azərbaycanlıların qovulması məsələsini presedentsiz ədalətsizlik kimi beynəlxalq ictimaiyyətin gündəliyinə gətirmək, bu vəziyyətin davam etməsinin beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi qəbul etdirməyə nail olmaq və davamlı sülh və ədalətin bərqərar olması üçün azərbaycanlıların geriyə qayıtma hüququnu təmin edən, hüquqi baxımdan məcburi olan, müvafiq verfikasiya və zəmanət mexanizmini ehtiva edən qərar və razılaşmaların əldə edilməsi konsepsiyada ilk vəzifə kimi qəbul edilmişdir. Ermənistan adlanan ərazidən azərbaycanlıların qovulması ilə onlara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib. Bu torpaqların azərbaycanlılara mənsub olmasını beynəlxalq ictmaiyyətə çatdırmaq məqsədilə elmi araşdırmaların aparılması və nəşr edilməsi vacibdir. Qərbi Azərbaycan, xüsusilə İrəvan ərazisində yaşayıb yaradan yazarların həyat və fəaliyyəti bu torpaqların

əsas sakinlərinin kimliyini sübut edən vasitələrdən biridir.

İrəvan şəhərinin yerləşdiyi ərazi tarixin müxtəlif dövrlərində Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, İlxanilər, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar dövlətlərinin tərkibində olmuş, şəhərin bir mərkəz kimi sosial-iqtisadi inkişafı Çuxur-Səəd bəylərbəyliyi və İrəvan xanlığı dövrlərinə aid edilmişdir. Orta əsrlər tarixi mənbələrində şəhərin adı Rəvan və İrəvan kimi çəkilir. Azərbaycan xanlıqlarından biri, Nadir şah Əfşarın vəfatı və Əfşarlar dövlətinin süqutundan sonra Çuxursəəd bəylərbəyliyinin əsasında yaranmış və 1747-1828-ci illərdə mövcud olmuş İrəvan xanlığının əsası XVIII əsrin ortalarında Mirmehdi xan tərəfindən qoyulmuşdur. Bu baxımdan tədqiq etdiyimiz dövr XVIII - XIX əsrləri əhatə edir.

XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı, İrəvan da Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Elm və mədəniyyət tariximizə "İrəvani" təxəllüsü ilə daxil olmuş bir çox alim, ədəbiyyat və mədəniyyət xadimi bu xəzinəyə önəmli töhfələrini vermişdir. Əslən İrəvandan olan, xarici ölkələrdə "İrəvani" soyadı və təxəllüsü ilə yazıb-yaradan onlarla elm və mədəniyyət xadimləri haqqında məlumatlar mövcuddur.

Mirzə Məhəmmədəli Tərbiyət öz əsərində Dəlil İrəvani, Daniş Mirzə Rzaxan, Əbülqasim İrəvani, Mollabaşı Hacı Mirzə Əbdülkərim İrəvani - Təbrizi, Bəzmi, Ləli, Müttəlle, Sabir Haçi Rza Dilmani, Fəzləli Təbrizi, Hərif, Höccət adlı sənətkar və alimlərdən bəhs etmişdir. Bu ziyalıların bəzisi haqqında Firidun bəy Köçərli də "Azərbaycan ədəbiyyatı" adlı fundamental əsərində daha geniş məlumat vermişdir. Görkəmli Azərbaycan ədəbiyyatşünası və pedaqoqu Firidun bəy Köçərli 1885-1895-ci illərdə İrəvan gimnaziyasında müəllim işləyərkən İrəvan ədəbi mühitinin nümayəndələrinin əsərlərini toplamışdır. Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində İrəvan şairlərinə ayrıca bölmə həsr etmişdir. Bu bölmədə qədim İrəvan şəhərinin tarixi və coğrafi mövqeyi haqqında məlumat verməklə yanaşı, müəllif bir zamanlar "mərkəzi-üləma, füzəla və şüəra" şəhəri olan İrəvanın böyük alimlər və müctəhidlər yetirdiyini, son zamanlar isə tənəzzülə uğradığını yazır. Buna səbəb XIX əsrin əvvəllərində İrəvanın rus qoşunları tərəfindən işğalı idi.

Firidun bəy Köçərlinin şəxsi arxivində İrəvan şairlərinin şeirlərindən ibarət əlyazmalar mövcud olmuşdur. Firidun bəyin şəxsi arxivində saxlanılan Bəzminin (Məşədi İsmayıl Hacı Kazımzadə), Mütəllenin (Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov), Sabirin (Hacı Seyid Rza Əmirzadə) şeirlərinin əlyazmalarından ibarət 36 səhifə həcmində bir dəftər, Lələnin (Mirzə Ağa Əli İrəvani) şeirlərinin əlyazmalarından ibarət 8 səhifə həcmində digər bir dəftər 1937-ci ildə "NKVD" tərəfindən məhv edilmişdir.

Mirzə Məhəmmədəli Tərbiyyət əsl adı Kəlbəhüseynbəy olan **Aşüftə (İrəvani imzasını qeyd etmir.) təxəllüslü şair haqqında danışarkən onun İrəvan əyanları ailəsinə mənsubluğu, əmisi** Hacı Molla Məhəmmədin şəhərin şeyxülislamı olması haqqında məlumat vermişdir. Tehranda Zilli Sultan Əlişah yanında qulluq etməsi, şeirlərinin də söhbəti kimi məlahətli və cazibədar olması haqqından məlumat verir.

Qılıncın altındayam istərəm bir baxasan,
Qiyamətdə qorxuram məndən utanasan

Yalvardım mən dilbərə öpüş verib al canı,
Dedi Məcnun olmusan buna zaminin hanı?

Əsl adı Mirzə İsmayıl olan **Aşub İrəvani** haqqında Məhəmmədəli Tərbiyət çox qısa məlumat vermişdir. Müəllif şairi Fətəli şah Qacarın məddahlarından hesab edir. O, İrəvan xanı Hüseynqulu xan və qardaşı Həsən xan tərəfindən Müslümün oğlanlarının məzarı üzərində ucaldılmış günbəz binasının inşa edilməsi tarixini nəzmə çəkmişdir. Vaxtilə İrəvanda müsəlman qəbirlərinin üzərində tikilmiş günbəzlər, o cümlədən bu abidə də yerləyeksan edilmişdir.

Dəlil İrəvani Fətəli şah Qacarın müasirlərindən olmuşdur. Şahı mədh edən qəsidəsinin axırında İrəvan xanı Hüseynqulu xanın bünövrəsini qoyduğu İrəvan məscidinin binasının tikilməsi tarixinə işarə etmişdir.

Bina tarixini Dəlil rəqəmə saldı
Ondan tarixi bir məscid binası qaldı
(Əz işan məscidi nikust bərpa:
Hicri qəməri 1238/ 1822)

Firidun bəy Köçərlinin, həm də Tərbiyətin **"Mütəlle"** təxəllüslü şair kimi təqdim etdiyi 1832-ci ildə (hicri qəməri 1248) Bərağuş qəsəbəsində doğulan Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədovun gənc yaşlarında Təbriz mahalından İrəvana gəldiyini, sonra ömrü boyu İrəvanda yaşadığını və 1894 (hicri qəməri 1312)-ci ildə orada vəfat etdiyini yazır. Firidun bəy isə vəfat tarixini 1892-ci il (hicri 1310) göstərmişdir. Mütəllenin ərəb əlifbasının islah edilməsi və dəyişdirilməsi haqqında risalə yazması hər iki müəllif tərəfindən qeyd olunmuşdur. Xüsusilə "əlif", "vav", "ye" hərflərinin islah edilməsi və təkmilləşdirilməsi fikrini irəli sürən Mirzə Kazım Mirzə Fətəli Axundzadə kimi geriliyin səbəbini bununla izah edirdi. "İslam millətinin xətti və kitabəti və yazı aləti o qədər dolaşıq və çətindir ki, tifl üşün onu öyrənməkdən ağır şey bulunmaz" [F.Köcərli, s. 225]. F.Köçərli bu risalənin "Kəşkül" qəzetinə göndərildiyini, lakin çap olunmadığını, orijinalının onun əlində olmasını da qeyd etmiş, risalədən hissələr də vermşdir. İrəvan ziyalısı Mirzə Kazım kimi Mirzə Abbas Məhəmmədov da İrəvanda məktəb açmışdı. Mirzə Abbas Məhəmmədova istinadən Firidun bəy Köçərli qeyd edir ki, Mütəlle bütün şeirlərini farsca yazmışdır. Buna baxmayaraq, Firidun bəy Köçərli Mirzə Kazımın həm farsca, həm də azəbaycanca yazdığı şeirlərdən nümunə gətir. O, ibtidai məktəb şagirdləri üçün kitab tərtib etmiş, kiçik hekayə, nağıllar və düzgülərdən ibarət həmin kitab uşaqları oxuyub-yazmağa həvəsləndirmək məqsədilə yazılmışdı.

Ay afərin gül oğlum
Gül oğlum, bülbül oğlum.
Dərsi oxu rəvanla
Sonra danış, gül, oğlum!
Oğlum, oğlum, naz oğlum
Dərsindən qalmaz oğlum.

Bülbül kimi dərs oxur
İstər çox, ya az oğlum!
Dəftəri var tərtəmiz
Kitabı ondan əziz
Kağızları rənbərəng
Oğlum, gətir, yaz görək!

Firidun bəy Köçərli İrəvan şairləri arasında **"Bəzmi"** təxəllüsü ilə şeirlər yazan Məşədi İsmayıl Hacı Kazımzadənin məşhur olduğunu yazır. 1846-cı ildə [hicri 1262] İrəvan şəhərində anadan olan İsmayıl Kazımzadə XIX əsr Azərbaycan şairi, jurnalisti və maarif xadimi Mirzə Məhəmmədtağı Sidqi Naxçıvaninin məktəbində təlim almış, öz fitri istedadı sayəsində qısa müddətdə fars və türk dilini mükəmməl öyrənmişdir. İsmayıl Kazımzadə İrəvanın sərvət sahibi tacirlərindən olsa da, gözəl təbi, şirin danışığı ilə şəhərin əyanları arasında, xüsusən də şairlər içərisində əziz və hörmətli olmuşdur. Firidun bəy Köçərlinin yazdığına görə, Bəzminin farsca və türkcə bir kitablıq şeirləri olsa da, toplayan olmamışdır. Bəzminin şeirlərinin çoxu qəzəl, rübai və müxəmməs janrında olmuşdur. Bunlarla yanaşı, Bəzminin həcvləri və satirik məzmunlu şeirləri də olmuşdur. Firidun bəy Köçərli Məşədi İsmayıl Kazımzadənin həm də "Əndəlib" ("Bülbül") təxəllüsü ilə yazıb-yaratdığı nümunələr vermişdir. İsmayıl Kazımzadə həmçinin ömrünün son 20 ilini maarifə həsr etmiş, İrəvanda məktəb açmışdır. "Bizim məktəblərdə babadan bəri işlənən köhnə qayda ilə dərs keçməyin qüsurunu anlayıb, yeni əlifba tərtib edən ədib gülünc hədəfinə çevrilmişdi. Məhəmmədəli Tərbiyət isə öz təzkirəsində Bəzmi təxəllüslü iki şairin adını çəksə də, onların heç biri İrəvanlı Məşədi İsmayıl Hacı Kazımzadə deyil.

XIX əsrdə yaşayıb-yaratmış digər İrəvanlı şair **"Sabir"** təxəllüsü ilə şeirlər yazan Hacı Seyid Rza Əmirzadədir. Məhəmmədəli Tərbiyət şairi Sabir Hacı Rza Dilmani adı ilə anmışdır. Seyid Rza 1846-cı ildə Xoy şəhərində anadan olsa da, 27 yaşından ömrünün sonunadək İrəvan şəhərində yaşamışdır. Firidun bəy Köçərli Seyid Rzanı xoşsöhbət, rəvan təbə malik zərif bir şair kimi xarakterizə edir. Firidun bəy şairin mədh, həcv və qəsidə janrındakı yazmasını bəyənmədiyini də ifadə etmişdir. Şairin İrəvana gəlməsi vaxtı Həsən bəy Zərdabinin "Əkinçi" qəzetini çap etdirdiyi vaxta təsadüf etmişdir. Seyid Rza Əmirzadə imzası ilə "Əkinçi" qəzetində şairin nəsrlə və nəzmlə yazılmış yaradıcılıq nümunələri dərc olunmuşdur. XIX əsrin sonlarında Hüseyn Əfəndi Qayıbov "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı topluya Azərbaycan şairinin şeirlərindən nümunələr daxil etmişdir. Hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan həmin "Məcmuə"də Seyid Rza Əmirzadənin müxəmməs, müstəzad, tərkibbənd və tərcibəndlərindən nümunələr də öz əksini tapmışdır. Seyid Rza 1896-cı ildə (hicri 1312) İrəvan şəhərində təqribən 60 yaşında vəfat etmişdir. Firidun bəy isə vəfat tarixini 1322-ci il olaraq qeyd etmişdir. "Zari" təxəllüsü ilə şeirlər yazan Mirzə Abbas Seyid Rza Sabirin doğum və vəfatı tarixini məzar daşı üstünə həkk etmək üçün qitə (iki beytdən ibarət şeir) yazmışdır. Bu qitədə Tərbiyətin dediyi kimi, şairin ölüm tarixi şairi-şirinməqal sözləri ilə qeyd edilmişdir.

İrəvanlı şairlərdən biri də **"Ləli"** təxəllüsü ilə şeirlər yazan Mirzə Ağa Əli İrəvani (Mirzə Əlixan) Hacı Ağa Mirzə İrəvaninin oğludur. Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı"nda

Ləli Mirzə Ağa Əli İrəvanini Mirzə Əlixan Şəmsül-Hükəma ("Ləli") kimi təqdim edərək [F.Köçərli. s. 232] onun şeirlərindən iki nümunə vermişdir. O, 1845-cı ildə (hicri 1325) Təbrizdə anadan olmuşdur. İbtidai təhsilini mollaxanada almışdır. Kiçik yaşlarından atası Hacı Ağa Mirzə ilə bərabər Təbrizə getmiş, ədviyyat ticarəti ilə məşğul olmuş, sonra isə nüsxəbəndlik *(qədim tibb kitablarına baxıb dərman yazan ara həkimi)* etmişdir. Daha sonra Mirzə Ağa Əli İstanbulda tibb fakültəsini bitirmişdir. Təbrizə qayıtdıqdan sonra həkim kimi şöhrət qazanmış, nəhayət, Tehranda Nəsrəddin şahın saray həkimi olmuşdur. Şərq və Qərb ölkələrini şahla bərabər gəzmiş, fransız dilini bildiyi üçün həm də şahın tərcüməçisi olmuşdur. Şeirlərini fars və Azərbaycan dillərində yazmışdır. Firidun bəy şeirlərinin əksəriyyətinin türkcə olması haqqında məlumat vermişdir [F.Köçərli, s. 232]. Onun şeirləri, hikmətli kəlamları zərbi-məsəl kimi istifadə olunmuşdur. Sadə və aydın, hər cür mürəkkəblikdən uzaq, eyni zamanda dil şirinliyinə və gözəl məzmuna malik qəzəl, qəsidə, mərsiyə, mədhiyyə və həcvlərdən ibarət divanı 1882, 1898, və 1907-ci illərdə kütləvi tirajla çap edilmişdir. Ləli Mirzə Ağa Əli İrəvaninin təkmilləşdirilmiş "Divan"ı 1944-cü ildə iki cilddə Təbrizdə kütləvi tirajla çap edilmişdir. Ləli Mirzə Ağa Əli İrəvani 1907-ci ildə Tiflisdə vəfat etmişdir. Məhəmmədəli Tərbiyət aşağıdakı qəzəlin müəllifi Lələni hesab edir:

Sənin fərağında mən əl çəkdim varlığımdan
Ölüm mənə yaxşıdır sənin ayrılığından. [Məhəmmədəli Tərbiət. s.190]

"Danişməndani- Azərbaycan" əsərinin müəllifi Fəzləli İrəvani (Təbrizi), Hərif İrəvani, Höccət İrəvani, Daniş Mirzə Rza xan kimi ziyalılar haqqında da məlumat vermişdir.

Daniş Mirzə Rza xan - Daniş Hacı Hüseyn İrəvaninin oğludur. 1853-cü ildə (hicri 1270) Təbrizdə anadan olmuş, Tiflis, Peterburq və İstanbulda İran dövlətinin konsulu və səfiri olmuşdur. Dünyada ümumi sülhün bərpa edilməsi, insan ömrünün uzadılması fars əlifbasının izahı haqqında nəzm və nəsrlə əsərlər yazması haqqında məlumat vardır. Müntəxəbati-Daniş əsəri 1888-ci il (hicri 1306) çap edilmişdir [Məhəmmədəli Tərbiət s. 74].

Dövrünün görkəmli alimi, fəqihi, müctəhidi Ayətullah əl-Üzma Mirzə Fəzləli Müctəhid İrəvani 1861-ci ildə Təbrizdə anadan olub. O, Mollabaşı adı ilə məşhur olan din xadimi Molla Əbdül Kərim İrəvaninin oğludur.

Mirzə Fəzləli İrəvani, həmçinin şair olub. Onu tanıyan şairlər ona "Səfa" ləqəbi vermişdilər. Danişməndani - Azərbaycan təzkirəsində onun Hədaiqul - arifin" (Ariflərin bağları) adlı əsərinin mövcudluğu haqqında məlumat verilir. Alimin üç cilddə "Riyazül-Əzhar" və "Səfərnameyi Avropa" əsərlərin yazmışdır. Onun "Divani-Əşar" əsəri ərəb və fars dilində çap edilib. Mirzə Fəzləli Müctəhid İrəvani 1909-cu ildə vəfat edib və Təbrizdə dəfn olunub.

Hərif İrəvani haqqında məlumat verən Tərbiyət onun İrəvandan olması, Abbas Mirzə Naibülsəltənəyə qəsidə yazdığını bildirir və ondan iki misra nümunə verir:

Əcəm Novruzu gəldi, isfənd gülləri getdi
Azər ayı da ötdü, bahar günləri yetdi [Məhəmmədəli Tərbiət, s. 387]

Höccət İrəvanin İrəvandan olması, Fətəli xan Səbanın qəsidəsinə cavab olaraq İrəvan sərkərdəsinin dilindən qəsidə yazdığı haqqında məlumata rast gəlirik [Tərbiyət s. 392].

Əslən İrəvandan olan Mollabaşı Hacı Mirzə Əbdülkərim İrəvani-Təbrizi 1877-ci ildə (hicri 1294) vəfat etdiyi göstərilir. Onun əruz elmi və fars dililnin qrammatikası haqqında risalə yazması və 1845-ci ildə (hicri 1262) Təbrizdə çap etdirməsi, Qafiyə haqqında əsər yazması, lakin əlyazma şəklində olması haqqında məlumat da vardır [Məhəmmədəli Tərbiət. s.226].

Bu şairlərin əsərlərindən verdiyi nümunələr əsasında F.Köçərli və Mirzə Məhəmmədəli Tərbiyət sübut etmişdi ki, İrəvan şairləri əruz vəznində türkcə gözəl şeirlər yazmış, quberniyanın mədəniyyət mərkəzinə çevrilmiş İrəvan şəhərində ana dilində orijinal bədii əsərlər yazmağa, demokratik maarifçilik ideyalarını təbliğ edən, sosial həyat mövzusundan söhbət açan kitablar çap etdirməyə başlamışdılar.

Yuxarıda nəzər saldığımız məsələlər onu deməyə əsas verir ki, İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində, ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun təsiri bu gün də ədəbi-mədəni prosesdə duyulmaqdadır. Bu proses XX əsrdə də davam etmiş 1918-1920-ci illərdə ermənilərin Qərbi Azərbaycanda (indiki Ermənistan) apardıqları soyqırımı siyasəti nəticəsində əvvəllər ədəbi-estetik fikrimizin inkişafında böyük rolu olan İrəvan ədəbi mühiti də dərin tənəzzülə uğramış, onun bir sıra nümayəndələri soyqırıma və deportasiyaya məruz qalmışlar.

ƏDƏBİYYAT

1. Məhəmmədəli Tərbiyət. Danişməndani- Azərbaycan. – Bakı: Azərnəşr, – 1987. 464 s.
2. Köçərli Firidun bəy. Azərbaycan ədəbiyyatı. İki cilddə. II cild. – Bakı: Avrasiya Press, – 2005. – 464 s.
3. Əliyev F., Həsənov U. İrəvan xanlığı. – Bakı: Şərq-Qərb, – 2007. – 144 s
4. Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. – Bakı: Maarif, – 1974. 486 s.
5. https://qerbiazerbaycan.com/q%C9%99rbi-az%C9%99rbaycanda-elm-v%C9%99-t%C9%99hsil/
6. https://az.wikipedia.org/wiki/%C4%B0r%C9%99van_xanl%C4%B1%C4%9F%C4%B1

SUMMARY

Sharabani Mammadova

IRAVAN POETS AT THE PRESENTATION OF THE EDUCATION OF FIRIDUN BEY KOKHERLI AND MIRZA MOHAMMADALI

The article talks about the activities of Yerevan poets, the assessment of their creativity and the role of these artists in our literary history in the works of "Azerbaijani literature" by Firidun Bey Kocherli, a prominent literary critic who is one of the researchers of our literary history, and "Danishmandani Azerbaijan" by Mirza Mahammadali Tarbiyet, a great tazkire scholar. Haji Mirza Muhammad Efendi Nigari, Mirza Kazim Ghazi Asgarzade Akhund Ahmadov, who wrote under the pseudonym "Bazmi Mashhadi Ismayil Haji Kazimzadeh Mutelle", Hachi Seyyed Rza Amirzadeh, known as Sabir, Mirza Alikhan Shamsul Hukema, known as "Lali" and others, are biographies of artists in both works. - controversial issues about his status and creativity have been clarified.

MEMARLIQ ƏNƏNƏLƏRİMİZİN İZLƏRİNİN ZƏNGƏZURDAKI ALBAN MƏBƏDLƏRİNDƏ MÖVCUDLUĞU

Brilyant CƏFƏRLİ
brilliant1cefer@hotmail.com
AMEA Naxçıvan Bölməsi

Məqalə Azərbaycanın qədim torpağı Zəngəzur mahalında olan alban tayfalarına məxsus memarlıq abidələri üzərində qədim tariximizin memarlıq ənənələrinin buraxdığı izlərə həsr olunmuşdur. Tarixən qədim tayfa birliklərinə aid alban və türk xalqları minillər boyu Azərbaycan torpaqlarında birgə yaşamış, dostluq, birlik, bərabərlik əlaqələri qurmuş, öz həyat tərzləri, mədəniyyətləri ilə bir-birinə təsir göstərərək daha da inkişaf etmişlər. Zəngəzurdakı Alban məbədlərinin varlığı da bu birliyin bariz nümunəsidir. Necə ki, türklər albanların qədim inanclarından, dünya görüşlərindən təsirlənmişlər, albanlar da türklərin qədim mədəniyyətindən, memarlığından bəhrələnərək gələcək nəsillərə alban-türk memarlıq abidələrini miras qoymuşlar. Bu mirasın varisləri isə azərbaycanlılardır. Alban məbədləri üzərində milli-mədəni irsimizin izləri həkk olunmaqdadır. Bir əsrdən çox müddətdə işğal altında olan Azərbaycanın qədim diyarı Zəngəzurdakı Alban memarlığına aid abidələr erməni vandalizminə məruz qalsa da, ermənilər bu abidələri saxtalaşdırmağa cəhd etsələr də, tarixi faktlar, mənbələr bu abidələrin ermənilərə deyil, albanlara məxsus memarlıq abidələri olduğunu sübut edir.

Açar sözlər: *Alban, memarlıq, abidə, məbəd, Zəngəzur*

Giriş

Qədim Azərbaycan torpağı tarix boyu coğrafi mövqeyinə görə müxtəlif sivilizasiyaların və mədəniyyətlərin mövcud olduğu bir diyar olmuşdur. Bu səbəbdən də Azərbaycan müxtəlif etnik qrupların məskunlaşdığı bir ölkədir. Azərbaycan bir çox etnik qrupların sülh şəraitində birgə yaşadığı ölkədir. Tarix boyu ölkədəki etnik müxtəliflik mədəni müxtəlifliyə və zəngin mədəni irsə səbəb olmuşdur.Azərbaycanda müxtəlif etnik qruplar öz adət-ənənələrini və dillərini qoruyub saxlamaqla Azərbaycan mədəniyyətinə töhfələr vermişlər. Azərbaycan hökuməti etnik qrupların hüquqlarını qorumaq və mədəni müxtəlifliyi dəstəkləmək üçün müxtəlif siyasi addımlar atır və bir çox tədbirlər həyata keçirir. Bu, ölkədə ictimai harmoniya və əmin-amanlığ qorunub saxlanır. Burada məskən salmış müxtəlif xalqların azsaylı nümayəndələri yerli xalq ilə birlik və bərabərlik, sülh içində yaşamışdır. Azərbaycan hər zaman multikulturalizm ənənələrini özündə əks etdirərək bütün dünyaya çox böyük örnək olmuşdur. Bir çox millətlər kimi, alban tayfalarının nümayəndələri də əsrlər boyu türk xalqları ilə birgə türk torpaqlarında məskunlaşmış, öz qədim adət-ənənələrini bu torpaqlarda həyata keçirmişlər. Alban və türk tayfalarının qədim adət və ənənələri qarşılıqlı şəkildə inkişaf etmiş və bunun nəticəsində yaranan əsərlər gələcək nəsillərə miras buraxılmışdır. Hər iki xalq bir-birinin mədəniyyətindən bəhrələnərək və ilham alaraq öz mədəniyyətlərini daha da yüksək şəkildə inkişaf etdirmişlər. Əsrlərlə qarşılıqlı hörmət və məhəbbətlə dinc, yanaşı yaşayan bu xalqların öz bədii yaradıcıqlarında da birinin digərinin mədəni irsinə müraciət etməsi

bu xalqların bir-birinə olan böyük etiramından irəli gəlmişdir. Bu da qədim Azərbaycan torpaqlarında multikulturalizmin və tolerantlıq ənənələrinin ən qədim zamanlardan mövcudluğunu bariz şəkildə göstərir. Azərbaycan etnik və dini tolerantlığın nümunəvi modeli olmuşdur və bu gələcəkdə belə də davam edəcəkdir. Bunun nəticəsidir ki, Azərbaycan ərazisində olan Qafqaz Albaniyası dövrünün memarlıq abidələrini alban-türk memarlıq abidələri kimi adlandırırıq. Türk xalqlarının mədəniyyətinin və memarlığının Alban abidələrinin inşasında böyük rolu olmuşdur. Ona görə də bu abidələrin varisliyi Türk dünyasına – Azərbaycan əhalisinə məxsusdur. Azərbaycan ərazisində yerləşən bir çox Alban məbədləri həm dövlətimiz, həm də cəmiyyətimiz tərəfindən hər zaman qorunub saxlanmışdır.

Alban memarlıq abidələrini araşdırarkən bu xalqlara məxsus maraqlı memarlıq xüsusiyyətlərinə və strukturlarına rast gəlinir. Alban memarlığının tarixi e.ə I minilliyin birinci yarısına (İlk dəmir dövrünə) dayanır. Bu dövr Qafqaz regionunda mühüm mədəni və memarlıq inkişaflarının baş verdiyi bir dövrü əks etdirir. İlkin Alban memarlığına dair abidələrə o dövrə aid yaşayış yerləri, qəbir abidələri, arxeoloji materiallar daxildir. Albaniyanın yaşayış yerlərinin arxeoloji qazıntıları başlıca olaraq şəhər tipli yaşayış yerləri əsasında tədqiq edilmişdir. Albaniyanın bəzi şəhər abidələrində aparılan qazıntı işləri bu şəhərlərin daha da erkən tarixi mərhələyə aid yaşayış yerlərinin inkişafının davamı olaraq yarandığını göstərir. Sırf ilkin Alban məbədləri xristianlıqdan əvvəlki dövrə aid edilir və bu memarlıq abidələri e.ə II əsrə aid olan məbədlərdir. Qafqaz Albaniyasının memarlığı e.ə II əsrdən başlamış, bizim eranın VIII əsrinə qədər olan dövrü əhatə edir [6, s. 22]. Alban memarlığında məbəd tikililərinin inşasına, daşyonma, daşişləmə, bədii oyma sənətinə xüsusi fikir verilirdi. Xüsusi statusa malik olan şəxslərin, xüsusilə din xadimlərinin qəbirləri üzərinə səthində xaç və müxtəlif simvollardan, həndəsi və nəbati motivli bəzək ünsürlərindən ibarət dekorativ-bədii kompozisiyalarla tərtibata salınmış daşlar – xatirə abidələri yerləşdirilirdi. Bu abidələrin özünəməxsus xüsusiyyətləri var idi. Onlar həm memarlıq kompozisiyası, həm kontruktiv xüsusiyyətləri, həm də dekorativ tərtibatı cəhətdən bir-birini tamamlayırdılar. Bu memarlıq abidələrində xristianlıqdan əvvəlki dünyagörüşlər, simvolik təsəvvürlər əks olunmuşdur. Alban abidələri üzərində işlənən dekorasiyalar əsasən cızma, bədii oyma, yəni kəsmə üsulu ilə aparılmışdır. Daşların üzərində tovuz quşları, müqəddəs xaç təsvirləri və alban yazıları mövcud olmuşdur. Qədim alban bəzək motivlərindən çevrə içərisində həndəsi fiqurlar - rozetkalar, üzüm salxımı, altıguşəli xonça, günəş, xaç, dolama və buruq şəkilli xətlər, ov, ziyafət səhnələri, süvarinin görüşü və s. səhnələr istifadə edilirdi. Abidələrin üzərini həmçinin səkkizguşəli rozetka (yəni planetlər təsvirləri), adi və ya çevrilmiş aypara formalı ay simvolu bəzəyirdi. Qafqaz Albaniyası abidələrinin interyer və eksteryerində həyat ağacı, insan, heyvan, quş və s. simvollarına rast gəlinir. Bu da Qafqaz Albaniyası əhalisinin xristianlıqdan əvvəl atəşpərəstlik və bütpərəstliyə etiqad etməsindən qaynaqlanır [3, s.85-87]. Abidələr üzərində həkk olunan Alban xaçlarının da özünəməxsus xüsusiyyəti vardır. Bu xaç simvollarına xas xarakterik xüsusiyyətlər onların xristianlığa qədərki elementlər və dini ayinlərlə birbaşa bağlı olmasıdır. Alban xaçı bir-birinə aidiyyəti olmayan müxtəlif dekorativ tərtibatları bir simvolda qovuşduran və xristianlığa qədərki inamların və kainatı

dərketmənin əlamətlərini özündə cəmləşdirən işarələrdən ibarətdir. Bu kompozisiyada göylə yerin əlaqəsi, günəş, işıq, nur və məhsuldarlıq simvolları əks olunmuşdur. Alban memarlığında xaç təsvirləri daha çox həndəsi ornamentlərlə əhatələnmiş formada işlənirdi. Alban xaçı ümumi kompozisiyanın daxilində bir neçə xaça bölünərək digər növ ornamentlərə qarışırdı. Xaç obrazı, adətən, dərinlik və hündürlük üzrə ümumi, çoxpilləli bədii traktovkada (şərhdə, izahda) əriyib itən iki, dörd, altı kiçik xaça xırdalanaraq sanki bəzək tərtibatına qarışır. Belə xaçlar öz həllin görə xristianlıqdan əvvəlki həyat ağaclarının təsvirlərinə yaxınlaşır. Xaçdaşlarda xaç əsas deyildir, əksinə stelanın (şaquli şəkildə dikinə qoyulan daş plitələr) tam bitkin bədii həll olunmuş obrazıdır. Bu xaçlara qanadlı, çatma tağlı, taxçalı, aşağısı nazik və yuxarıya doğru genişlənən, yuxarısı yarımdairə ilə tamamlanan formada olan xaçlar daxildir. Xaç işarəsinin özü də ən qədim tarixə nəzər salsaq, Şərq ornamenti hesab olunur. Bu simvol ilkin sivilizasiyanın beşiyi, qədim Şərq ölkəsi olan Misirdə anx xaçının simvoludur. Xaçların müxtəlif formalarının yaranmasında hələ xristianlıqdan çox-çox öncə qədim türk tayfalarının böyük rolu olmuşdur. Xaç xristianlıqdan öncə həyat, məhsuldarlıq, günəş rəmzi hesab olunmuşdur. Ermənilər isə mənimsədiyi xaç simvolunu yenə də dəyişərək saxtalaşdırmışdır. Belə ki, onların saxtalaşdırdığı xaç simvolunda bədii kompozisiyanın mərkəzindəki xaç hakim mövqedə dayanır [8, s.238]. Alban abidələri üzərində həkk olunan ornamentlərdən biri də toxuma və ya hörmə formasında işlənən haşiyələrdir. Alban məbədləri hələ xristianlıqdan əvvəlki dövrlərdə inşa edilirdi. İlkin alban memarlıq abidələri üzərində xristianlığaqədərki dövrdə astral aləmə sitayiş edən simvollar mövcuddur. Albanlar səmaya, günəşə, aya ibadət etmişlər [7, s.69]. Səma cisimlərinə etiqad ən qədim türklərin inancları ilə bağlıdır. Ümumilikdə qədim türklər islamaqədərki dövrlərdə təbiət qüvvələrinə-günəşə, oda, torpağa, suya, aya etiqad etmişlər. Qədim Azərbaycan ərazisində mövcud olmuş ilkin etno-siyasi türk tayfa birliklərindən biri olan lullubi tayfaları yaşadıqları dövrdə səma, bərəkət, məhəbbət, ay, günəş və s. tanrılarına sitayiş etmişlər [4, s.45]. Alban məbədlərinin səthi üzərində təbiət ünsürləri işarələri, inanclarla bağlı işarələr hələ də qalmaqdadır. Azərbaycan ərazilərindəki Alban dövrü memarlıq abidələrinin daş və divar rəsmlərində, eləcə də süjet xarakterli oymalarında daha çox türkdilli xalqlara məxsus elementlərdən istifadə edilməsi onu göstərir ki, o dövrdə yerli xalqlar içərisində türkdilli tayfalar çoxluq təşkil etmişdir. Tarixən mövcud olan və hələ də böyük bir məsuliyyətlə qorunub saxlanan bu abidələrdə dini inancların izləri öz əksini tapır. Hərçənd ki, erməni vandalizmi bu işarələri abidələr üzərindən silməyə, alban abidələrini saxtalaşdırmağa cəhd göstərirlər. Lakin tarixi faktlar müvəffəqiyyətlə bu cəhdin qarşısını alır.

Qafqazın mühüm mədəni və dini mərkəzlərindən biri olan Zəngəzur Azərbaycanın ən qədim torpaqlarından hesab edilir. Zəngəzur tarixi əhəmiyyətli bölgə olmuş və bu bölgədəki etnik, mədəni və siyasi dinamika zamanla müxtəlif dəyişikliklərə məruz qalmışdır. Burada Qafqazın qədim tarixi boyunda çoxlu müxtəlif etnik qrupların və dinlərin izləri vardır. Azərbaycanın qədim torpağı olan Zəngəzurda müxtəlif xalqlardan olan və bu ərazilərdə məskunlaşmış əhali tekallahlığı qəbul etməzdən öncə müxtəlif dinlərə-bütpərəstliyə, atəşpərəstliyə və zərdüştlüyə sitayiş etmişlər. Bir çox Şərq ölkələrində də islamaqədərki ilkin inanclar təbiət ünsürləri ilə bağlı olmuşdur. Qafqaz

Albaniyasında bütpərəstlik tikililəri ilə bağlı Alban dövrü memarlığı üzrə görkəmli tədqiqatçı, professor Gülçöhrə Məmmədova yazır: "Tarixi mənbələrin və arxeoloji qazıntıların nəticəsində antik dövrdə Qafqaz Albaniyasında atəşgahların, Mitra və Selenaya həsr olunmuş məbədlərin mövcud olduğu müəyyən olunmuşdur" [10, s.202]. Atəşpərəstliklə əlaqəli dini etiqadlar Zəngəzurda yaşayan müxtəlif xalqların adət-ənənələrində özünü bu gün də bariz şəkildə büruzə verməkdədir. Necə ki, alban xalqları bizim torpaqlarda öz izlərini qoymuşlar, bununla yanaşı, Azərbaycan torpaqlarında olan alban abidələri üzərində də bizim memarlıq ənənələrimizin izləri vardır. Bu adət-ənənələr də elə alban memarlıq abidələri olan məbədlərdə, kilsələrdə, monatırlarda yaşayır. Zəngəzurda xeyli sayda albanların dini-mədəni abidələri olan alban məbədləri mövcuddur. Alban məbədləri Azərbaycanın dini və mədəni irsinin mühüm bir hissəsinin təmsil edir. Bu abidələr üzərində həm Azərbaycan ərazilərində yaşamış albanların, həm də qədim türklərin dini irsini əks etdirən izlər vardır.Alban məbədlərinin həm dini, həm də memarlıq baxımından böyük əhəmiyyəti vardır. Bu memarlıq abidələri Azərbaycan mədəniyyətində mühüm rol oynayan memarlıq abidələrindəndir. Alban məbədləri Azərbaycanın mədəni və dini kimliyinin mühüm tərkib hissəsidir. Hərçənd ki, mənfur erməni vandalları bu abidələri özününküləşdirmək, erməni abidələri kimi göstərməyə cəhd edirlər. Bütün bu cəhdlərə baxmayaraq, Azərbaycan qədim torpağı olan Zəngəzuru geri almaq və oradakı tarixi-mədəni irsi qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq uğrunda genişmiqyaslı tədbirlər görməkdədir.Azərbaycan xalqı və dövlət başçısı Cənab İlham Əliyev hər zaman öz qədim və şanlı tarixini nümayiş etdirməklə Zəngəzurun ermənilərə məxsus olması yalanını dünyaya canlı şəkildə sübut edir.Zəngəzur Azərbaycanın mədəni zənginliyi və tarixi irsi baxımından mühüm əhəmiyyət kəsb edir. Tarixi araşdırarkən ermənilərin özlərinin özlərini yalanlaması faktlarına tez-tez rast gəlirik. Bu faktlar arasında ermənilərin öz dini titula malik şəxsinin belə albanlarla ermənləri müqayisə etməsi də vardır. Həmin müqayisədə belə deyilir: "Albaniya arxiyepiskopluq, Ermənistan isə katolikosluqdur". Arxiyepiskop yepiskopdan, yəni kilsə rəhbərindən böyük rütbədir. Katolikos isə kilsə başçısının (patriarxın) tituludur. Əslində albanlarla ermənilərin müqayisəsi belə absurddur. Çünki ermənilərin heç bir zaman köklü tarixi olmamışdır. Albanların tarixi isə eradan əvvələ dayanır. Başqa bir faktda erməni tarixçi Qafqaz Albaniyası ərazisində ən qədim monastırlardan birinin assuriyalılar tərəfindən inşa edilməsi faktını qeyd etmişdir. Görüldüyü kimi, burada da Şərq xalqlarının qədim tarixindən bəhs edilmə faktoru vardır. Ermənilər özləri belə tarixən qədim olan Şərq xalqlarının varlığını inkar edə bilməzlər. Tarixdən də bilinir ki, albanlar diofizit cərəyanına mənsub olmuşlar. Bu cərəyanda bildirilir ki, İsa peyğəmbərdə həm insani, həm də ilahi xüsusiyyətlər olmuşdur. Beləliklə, bu iki təbiət İsada cəmlənmişdir. Heç də qədim tarixə malik olmayan ermənilər isə monofizit cərəyanına mənsub olduqlarını iddia edirlər. Bu cərəyan isə İsa peyğəmbərin təkcə ilahi qüvvə olduğu fikrini söyləmişdir [2, s. 171]. Lakin mən bir insan, erməni vəhşiliyinə məruz qalmış bir xalqın nümayəndəsi olaraq ermənilərin insani dinlərdən heç birinə aid olmadığını düşünürəm. Onların hər hansı bir din, yaxud hər hansı bir peyğəmbər haqqında nəsə demək, iddia etmək kimi bir haqqları yoxdur. Çünki dünyadakı bütün dinlər humanizmi təbliğ edir.

Hətta İsa peyğəmbər öz ruhu ilə insanı diriltmək gücündə olmuşdur. Ermənilər isə İsa peyğəmbərin adını belə o murdar dillərinə gətirməməlidirlər. Çünki əgər onlar İsa peyğəmbəri özlərinin müqəddəsi bilsəydi, onun yolu ilə getsəydi, insanlığa xeyir əməllə xidmət edərdi. Onların isə xislətində sadəcə və sadəcə dağıtmaq, məhv etmək, öldürmək kimi insani olmayan xüsusiyyətlər vardır. Onlar insanlığı məhv etmək aşiqi olan bir xümrədir. Ermənilər insanlığa düşmən və qənim kəsilmiş bir xilqətdən, insani xarakteri olmayan bir vücuddan ibarətdirlər. Onlarda insanlıq adına heç bir xüsusiyyət mövcud olmayıb və olmayacaqdır. Ermənilərin dini mənsubluğu da böyük bir saxtakarlıqdan başqa bir şey deyil. Bu səbəbdən də, mənim fikrimcə, ermənilər hər hansısa bir dinlə əlaqələndirmək mümkün deyildir.

Azərbaycanın tarixi torpaqları Alban memarlığının bir çox mühüm abidələrinə ev sahibliyi etmişdir. Bu abidələr xüsusilə erkən orta əsrlər dövrünə aiddir və onlar arxeoloji qazıntılar zamanı aşkar edilmişdir. Həmin dövrdə inşa edilən tikililərin çoxu taxtadan inşa edilmiş, əhəng məhlulu ilə suvanmışdır ki, bu məhlula da gil və ya saman qarışdırılmışdır. Taxta tikililər zamanla məhv olduğundan onlar haqqında məlumat sadəcə tarixi mənbələrdədir. Sonrakı dövrlərdə taxta tikililər daş və kərpicdən inşa olunan kilsələrlə əvəz edilmişdir. Qafqaz Albaniyası memarlığında tağtavanlı zal kilsələri arasında bir və iki apsidalı, yarımdairəvi və düzbucaqlı formaya malik apsidalı, bütöv tağtavan və ya dayaq tağı ilə iki hissəyə bölünmüş tağtavanla örtülmüş müxtəlif tikililərə rast gəlinir. Ümumiyyətlə, düzbucaqlı altar apsidaları Qafqaz Albaniyası memarlığı üçün geniş yayılmış xarakterik xüsusiyyətlərdən biridir. Düzbucaqlı altar apsidalardan əlavə, yarımdairəvi, çoxşaxəli altar apsidalarına da rast gəlinir. Qafqaz Albaniyasının memarlığında isə inkişaf etmiş orta əsrlər dövründə düzbucaqlı altar apsidaları, demək olar ki, yarımdairəvi apsidalarla paralel istifadə olunmuş və dini memarlıqda kanon (qayda, qanun) kimi qəbul edilmişdir. Onu da qeyd etmək lazımdır ki, düzbucaqlı altar apsidalarına ermənilərin işğal etdikləri Azərbaycanın qədim ərazilərindən olan Cənubi Zəngəzurda-Sünikdə də rast gəlinir. Sünik (Syunik) də tarixi Qafqaz Albaniyası ərazisinə daxil olmuşdur [1, s. 43, 44].

Zəngəzur bölgəsində daş işləmə sənəti xristianlığın bu bölgəyə yayılmasından sonra da inkişafını davam etdirmişdir. İnşa olunan memarlıq abidələri də dini xarakter daşıyırdı. Bu ərazidə mövcud olan alban dövrünə aid maddi-mədəniyyət abidələri hesab olunan alban məbədləri üzərində işlənən elementlərin təsvirləri, dekorativ kompozisiyalar tariximizin qədimliyini, inkişaf mərhələlərini özündə əks etdirir. Xristianlığın dövlət dini kimi qəbul olunmasından sonra köhnə alban məbədləri də xristian kilsələrinə uyğunlaşdırılır və ya tamamilə xristian kilsələrinə çevrilirdi. Lakin yeni tikilən məbədlərdə hələ də əvvəlki politeist üslub əsas götürülürdü. Politeist üslub (çoxallahlılıq) Qədim dünyada Misirdə də mövcud olmuşdur. İlkin Alban xristianlığının dövrü üçün tikililərdən ən xarakterik olanı kilsələr idi. Bu kilsələrin ibadət zalı uzunsov formada olurdu və birnefli məbədlər adlanırdı. Bu məbədlərin üzəri ikiqatlı sadə (yonulmamış) daşlarla örtülürdü. Birnefli zal məbədlərinin konstruktiv həlləri sadə və aydın işlənirdi, ornamental cəhətdən şərq-qərb sintezi mövcud idi və ibadətə gələnlərin nəzərini qurbangaha (altara) yönləndirmək üçün kompozisiya strukturu yaradılırdı. Qurbangahlar,

ümumiyyətlə, torpaqdan və ya işlənməmiş daşdan düzəldilmişdir. Birnefli kilsələr də iki yerə bölünürdü: böyük birnefli bazilikalar və çox da böyük olmayan tağlı zal kilsələri. Böyük birnefli bazilikalar düzbucaqlı zal və altarlardan ibarət olurdu. Ümumiyyətlə, kilsələr ibadət məqsədli tikilirdi, lakin bazilikaların dini əhəmiyyəti yox idi, onlar sadəcə toplaşma funksiyası daşıyan dini tikililər üçün istifadə olunan memarlıq planı idilər. Bundan başqa, üçnefli zal məbədləri də inşa olunurdu [9, s. 13]. Sonrakı dövrlərdə inşaat texnikasının inkişafı divarların qalınlığının azaldılmasına imkan verirdi, tağ və tavanların dözümlüyünün artırılması üçün isə pilyastrlara söykənən əlavə tağlar tikilirdi. Divarların pilyastrlar vasitəsilə dərinləşdirilmiş hissələri də tağ şəklində həll edilirdi. Məbədlərin plan quruluşunda heç bir dəyişiklik baş verməsə də, daxili məkanlar genişlik, divarlar isə daha da plastik görünüş qazanmışdır. İlkin mərhələdə tağlı tavanlarla yanaşı, qədim düz tavanlardan da istifadə olunmasına baxmayaraq, sonradan tədricən düz taxta tavanlara rast gəlinmir. Erkən xristian məbədləri nümunə olaraq istinad etdikləri qədim politeist məbədləri kimi şərq fasadında çıxış əmələ gətirən tikiliyə bitişik çıxıntıya (apsidaya) malik olmuşdur. Sonradan qurbangah (altar) hissəsi də məbədin ümumi düzbucaqlı çərçivəsinə daxil edilmişdir. Erkən orta əsrlər memarlığının ən mühüm nailiyyətlərindən biri Qafqaz Albaniyası memarlığında müxtəlif formalarda ortaya çıxan altarın yanında yerləşdirilən əlavə məkanlardır.

Alban memarlıq üslubuna xas şəkildə inşa olunan dairəvi məbədlər dünya memarlığında xüsusilə yayılmışdır. Planda dairəvi formada işlənən bu məbədlər günəşə ibadət edən ilk alban tayfalarının yaşadığı xristanlıqdan öncəki dövrlərdə inşa edilən məbədlərdir. Xristianlıqdan sonrakı dövrlərdə alban memarlığında sovmə (ibadətgah, ibadətxana, hücrə) adlanan memorial abidələr tikildi. Bu tikililər karvan yollarının kənarlarında həm ibadət, həm də ibadət edən insanların istirahəti üçün nəzərdə tutulurdu. Sovməələrin divarları zərif naxışlı nişan daşları ilə bəzədilirdi. Onlar həm mehrablı, həm də mehrabsız inşa edilirdilər. Ən mürəkkəb alban dövrü memarlıq abidələri isə monastırlar və bazilikalar daxil idi. Monastır və bazillikalar, kilsə və sovməələrdən fərqli olaraq, iki, üç, hətta dördnefli əzəmətli memarlıq quruluşlarına malik olurdular. Xristianlıqdan sonrakı dövrlərdə Azərbaycanda yaşayan alban tayfalarının bir qismi xristianlığı qəbul etsə də, böyük bir qismi də islamı qəbul etmişdir. Buna görə də Zəngəzur ərazisində olan alban abidələri üzərində, əsasən eksteryerdə digər dinlərin qədim simvolları ilə yanaşı, islam dininə məxsus ornamental kompozisiyalar da həkk olunmuşdur. Azərbaycanda İslam dininin geniş şəkildə yayılmasından sonra günbəzli kilsələr üstünlük təşkil etməyə başladı. Mərkəzi günbəzli və uzun bazilikaya malik məbədlərdə şərq-qərb memarlıq elementlərinin və formalarının sintezi nəticəsində məkan kompozisiyası daha da mürəkkəbləşdi. Bu dövrdə ən çox yayılmış məbədlər tağbənd zallı kilsələr idilər. Dini qayda-qanuna görə monatır tipli kilsələrdə künc otaqları və dyakon (ibadət zamanı keşişə kömək edən kilsə xadimi) otağının olması tələb olunurdu. Nəticədə tağbənd zallı kilsələrdə yan otaqların inşasına başlanılır. Bu köməkçi tikililər altar apsidasının yanında inşa olunurdu [1, s. 2-4].

Nəticə. 1920-ci ildə Qərbin məkrli siyasəti nəticəsində müxtəlif qüvvələrin birləşməsi ilə Zəngəzur mahalı Azərbaycanın o vaxtkı rəhbərliyinin razılığı olmadan mənfur

ermənilərə verilmişdir. Bu hadisələrdən sonra həmin ərazilərdəki alban məbədləri də erməni vandalizminə məruz qalmışdır. Ermənilər tarixi saxtalaşdırmağa cəhd göstərərək alban məbədlərini erməni-qriqorian kilsələrinə çevirdilər. Hal-hazırda bu abidələr dünyaya erməni kilsələri kimi təqdim edilsə də, tarixi dəlillər onların alban məbədləri olduğunu sübut edir. Ermənilərin işğalçılıq siyasətinə məruz qalan Zəngəzur mahalında erməni kilsələri kimi göstərilən IV-V əsrlərə aid Tanaat məbədi (Qızılkilsə məbədi, Qırmızı kilsə), Comərdli məbədi, Ağvank məbədi, V-VI əsrlərə aid Ağoğlan monastırı (Sisərnəvəng), VI-VII əsrlərə aid Qarakilsə məbədi (Müqəddəs Qriqori məbədi), Sisavəng məbədi, Xudadəng məbədi, VIII-IX əsrlərə aid Tatev məbədi, Xudavəng monastırı (Dadivəng, Xutavəng, Xotavəng monastırı), Arzu Xatın məbədi, IX – XII əsrlərə aid Varazuğun məbədi, Qoşavəng məbədi, Çahartağ məbədi, XI əsrə aid Vağudi (Vağədi monastırı) məbədi, Vahanvəng (Vaanvəng) monastırı, Vağazin məbədi, Piçənis məbədi, Şəlvə sövməəsi (məbədi), Qorçu məbədi, Müqəddəs (Həzrət) Məryəm kilsəsi, Gavurdərə məbədi, Dəmirovlu pir məbədi, XIII əsrə aid Yenivəng monastırı, Gəncəsər (Qandzasar) monastırı, Xatırvəng məbədi, XVII əsrə aid Qarasaqqal və Araxış sovməələri əslində alban məbədlərindəndir. Zəngəzur mahalının Qarakilsə (Sisian) nahiyəsindəki Ərəfsə kəndi ilə Təzəkənd kəndləri arasında yerləşən IV-V əsrlərə aid alban-türk məbədi olan Qızılkilsə məbədi (Tanaat məbədi) qırmızı daşdan tikildiyi üçün yerli əhali tərəfindən Qırmızı kilsə də adlandırılmışdır. Məbədin divarları qaramtıl bazalt daşlardan hörüldüyündən camaat onu Qaravəng adlandırmışdır. Bütün tarixi mənbələrdə isə onu adı Tanaqatı, Tanaat kimi yazıya alınmışdır. Tədqiqatçıların fikrinə görə, bölgədə xristianlığın yayılmasına qədər abidə atəşpərəstlik məbədi olmuşdur. Məbədin girəcəyinin üst hissəsində qartal fiquru, qartaldan bir metr yuxarıda isə at fiquru həkk olunmuşdur ki, bu da məbədin Tanaat adının yerli camaat arasında "Tənha at" kimi yozulmasına haqq verir. Bu kilsəni böyük tağlı zal kilsələrinə misal göstərmək olar.

Zəngəzurun Qarakilsə rayonunun mərkəzində hündür bir təpəlikdə salınmış VI-VII əsrlərə aid Qarakilsə məbədi xristianlığın diofizit məzhəbinə ibadət edən albanların yaratdığı ən gözəl dini abidələrdən sayılır. Bu memarlıq abidəsi boz tuf daşından tikildiyinə görə yağıntılı havada islandığı zaman eksteryeri qara rəngdə görünür, buna görə də bu abidə Qarakilsə adlandırılmışdır. Maraqlıdır ki, son vaxtlara qədər Qarakilsədə (Sisianda) yaşayan ermənilər də bu məbədə azəri türklərinin dili ilə "Qarakilsə" deyirdilər. Tarixi mənbələrə görə Qarakilsə məbədi xristianlıqdan əvvəl bu bölgədə mövcud olmuş, bütpərəst məbədinin yerində tikilmişdir.Məbədin interyerində-iç divarlarında çox güman ki, Zəngəzurun qıpçaq türk soyundan olan hakimi Göysoylu xanın təsviri və "İncil"dən çoxlu təsvirlər öz əksini tapmışdır. Kilsənin o vaxtki Sünik knyazı Kaozatın (Kayozad, Kaxozad) sifarişi və vəsaiti ilə tikildiyi söylənilir. Binanın içərisində divarda Kaozatın şəkili həkk olunmuşdur. Kaozatın dar, badama bənzər qıpçaq gözü adamın diqqətini cəlb edir. Maraqlıdır ki, Müqəddəs Teodorosun və onun yanında o vaxtki Sünik yepiskopu Hovsepin şəkillərindəki sifət və göz quruluşu da qıpçaq tiplidir. Bu ya, doğrudan da, onların alban-türk mənşəli olduğunu, ya da memarın türk soylu olduğunu göstərən güclü bir detaldır. Məlumdur ki, o dövrdə Sünik kilsələri diofizit alban kilsələri qrupuna daxil idi. Qarakilsənin səkkizguşə şəklində tikilməsi və dam örtüyünün gübbə şəkilli olması isə çox güman ki, qədim türklərin Tibetdən gətirdikləri

tanrıçılıq kultu ilə bağlıdır. Qarakilsə məbədinin cənubdan və qərbdən olmaqla iki qapısı, hər divarda üç pəncərəsi vardır. Yan divarlardakı pəncərələr üçbucaq formasındadır. Günbəzin altındakı boşluq tam kvadrat formadadır, bütün absislər bir-birinə bərabərdir. Xarici fasadlar strukturun məkan inkişafının diqqətəlayiq elementləri olan enli, üçbucaq kəsikli, nazik taxçalarla işlənmişdir. Quruluşun bütün dekorativ elementləri (daxili, sütunların burulmuş başlıqları, pəncərələrin yuxarı hissələri və taxçalar) VII əsrin ikinci yarısında ümumiləşdirilmiş ornamentasiya formalarına uyğunlaşdırılmışdır. Qarakilsə monastır kompleksi divarlarına yerləşdirilən insan heykəlləri ilə digər monastırlardan seçilir. Məbədin daxili interyerindəki, günbəz yarımkürəsinin aşağı hissəsi nəfis bəzəklərlə bəzədilmişdir. Burada 39 oyma işarəsi indiyədək qorunub saxlanılmışdır. Qarakilsə monastır kompleksinin bazilikası üçnefli, divarları taxçalı, xaç formalı, mərkəzi günbəzli, dörd küncündə dördbucaqlı tağları olan kompozisiyaya malikdir. Günbəzin on ikinci novu tağlarla, xüsusi işlənmiş karnizlərlə bəzədilmişdir, günbəzi daşıyan tağlar əyri dayaqlar üzərində dayanır.

Zəngəzur mahalının Qarakilsə rayonunun Qarakilsə qəsəbəsində yerləşən Sisavəng məbədi bazalt daşından VI-VII əsrlərdə inşa edilmişdir. Məbəd Sünik (Siyuni) alban knyazı Kaozat (Kaxozad) tərəfindən tikdirilmişdir. Bu məbəddə günbəzaltı məkan kvadrat şəklindədir. Günbəzin özü isə səkkizguşəlidir.

Qarakilsə nahiyəsinin Gorus ərazisində Tatev kəndi yaxınlığında yerləşən alban-türk məbədi olan Tatev məbədi qara daşdan inşa edilmişdir. İnsanlar Tatev yaylağında hələ xristianlıqdan əvvəl məskunlaşmışdır və burada bütpərəst məbədi mövcud olmuşdur. Məbədin adı türkcə olmaqla "Tat" və "ev" sözlərindən yaranmışdır. Tat sözü Qərbi Azərbaycanda qədimdən oturaq həyat keçirən türklərə aid edilməklə yanaşı, həm də el arasında "tat ev" ifadəsi "böyük ev" anlamında da işlədilmişdir. Monastırın qala divarlarından kənarda, şimal-şərqdə zeytun istehsalı üçün yer vardır. Həmin məkan dörd istehsal otağından ibarətdir ki, onların da ikisi qübbəli saxlama kamerası, ikisi isə tağlı tavanlı istehsal otaqlarıdır. Bu dəyirman bütün Cənubi Qafqazda dövrümüzə çatmış ən yaxşı dəyirmanlardan biridir ki, orta əsrlərin zeytun istehsalı haqqında ətraflı təəssürat yaradır. Tatev monastırındakı məktəb binaları memarlıq baxımından orta əsrlərin monastır məktəblərinin memarlıq quruluşuna uyğundur. Bu abidələrin erkən orijinal formalarının alban elementlərini özündə daşıması aydın şəkildə görünür.

Zəngəzur mahalının Qarakilsə rayonunun Vağudi kəndindən 2 km cənubda yerləşən alban-türk məbədi olan Vağudi məbəd kompleksinin iki kilsə və yardımçı tikililərdən ibarət ilk kilsəsini 1000-ci ildə Sünik alban knyazı Smbatın köməkliyi ilə Alban xanı Sevadın qızı Şahanduxt ucaltmış, 1007-ci ildə isə II Sevad (Seveda, Sevada) buradakı ikinci-günbəzli kilsəni tikdirmişdir.

Laçın rayonundakı Kosalar kəndinin yaxınlığında Ağoğlan çayı üzərindəki Ağoğlan monastırı qədim politeist məbədinin yerində inşa edilmişdir. Məbədin memarlıq xüsusiyyətlərinə əsasən üç əsas inşaat mərhələsi keçdiyi güman edilir. Monastır ilkin mərhələdə sadə düzbucaqlı formaya malik apsidasız bazilika olmuşdur. Cənub divarındakı qapıların formasına uyğun olaraq birinci inşaat mərhələsi V-VI əsrlərə aid edilir. Lakin alternativ fikirə görə məbəd ilkin mərhələdə paqan məbədi kimi fəaliyyət göstərmiş və bu mərhələ III əsrə aid olmuşdur.İkinci inşaat mərhələsində bazilikaya

pəncərəsiz apsida əlavə edilmiş (düzbucaqlı interyerin şərq tərəfində içəridən inşa edilmiş), həmçinin xarici divarların üst tərəfinə əlavə edilmişdir. Bu inşaat mərhələsi VI əsri əhatə edir. Bu mərhələdə nefləri giriş hissədən ayıran arkada etimal ki, taxta sütunlar vasitəsiylə inşa edilmişdi. Üçüncü inşaat mərhələsinə aid olan daş tağlar və sütunlar taxta sələflərini əvəz etmişdir. Kapitellərin stilinə əsasən bu inşaat mərhələsi VI əsrin sonları - X əsrin əvvəllərinə aid edilir. Monastırın uzunluğu 25, eni isə 12,5 metrdir. Möhkəm bazalt daşdan tikilmiş məbədin Müqəddəs Georgi bazilikasının uzunsov daxili həcmi dörd cüt sütun vasitəsilə üç nefə bölünmüşdür. Orta nef altar hissədə nalvari apsida ilə tamamlanır. Binanın kənarları boyunca uzanan yan neflər isə altar kənarlarında yan otaqlar ilə tamamlanır. Neflər tağvari örtüyə malikdir: yan neflərin örtüyü yarımdairəvi, mərkəzi nefin örtüyü isə oxvari formaya malikdir. Altar yaxşı ifadə edilmiş tağlar və konxa ilə örtülmüşdür. Altar apsidası altında mərkəzi nefə açılan, tağvari formaya mülik üç xor yeri vardır. Altar və apsidaya yaxın tikili hissələrinin aşağı tərəfi yaxşı kəsilmiş bazaltdan, divarların yuxarı hissəsi, müstəqil dayanan pilonlar, həmçinin tağvari örtüklər tufdan inşa edilmişdir. Ağır dam örtüyü daşlardan hörülmüşdür. Bu dam örtüyünü saxlayan hündür daş sütunlar silindirik formalı tağbəndlərlə tamamlanır. Bazilikanın dekorativ urbanlığı yalnız fraqmentlər formasında dövrümüzə çatmışdır. Sütun kapitelləri erkən xristianlıq dövrü Qafqaz memarlığı üçün xarakterik olan həndəsi naxışlarla bəzənmiş nazik daş plitələrdən ibarətdir. Yan fasadlardakı nazik pəncərələr də islamdan öncəki dövr Qafqaz memarlığında tez-tez rast gəlinən elementlərdən biridir. Şimal divarda fresko qalıqları ilə üzlük materialın hissələri saxlanmışdır. Məbədin daxili sahəsini işıqlandırmaq üçün divarlarda ensiz və uzunsov pəncərələr qoyulmuşdur. Üçnefli binanın daxili sahəsi sütunlarla üç hissəyə bölünmüş düzbucaqlı bazilikanın-kilsəsinin ölçüləri xeyli böyükdür. İki sıralanan kvadratşəkilli səkkiz dayaq sütunları binanın içərisini üç nefə bölür. Mərkəzi dördmetrlik nef yan neflərdən iki dəfə enlidir. Bütün neflər silindrik tağbəndlə örtülmüşdür. Tağbəndlər yonulmuş daşlardan hörülmüşdür. Laçın rayonu işğal olunduqdan sonra ermənilər qeyri-qanuni olaraq Ağoğlan monastırının memarlıq quruluşunda və interyerində dəyişikliklər edib, abidənin divarları üzərində olan bir neçə daş yazıları, eləcə də alban dövrünə məxsus xeyli sayda ornament və simvolları tamamilə silib, onlardan bir çoxunun isə formalarını dəyişdirərək tanınmaz hala salmışlar. 2020-ci il 44 günlük qələbə ilə bitən müharibəmizin naticəsində Laçın rayonu işğaldan azad edildi. Bundan sonra Azərbaycanın alban-udi xristian icmasının nümayəndələri "Ağoğlan" məbədini ziyarət etmiş və erməni vəhşiliyinin bir daha şahidi olmuşlar [5, s. 52, 162]. Adını sadaladığımız abidələrin hər biri Zərgəzur ərazisində olduğuna görə onları hələ ki, yaxından tədqiq etmək mümkün deyil. Bu memarlıq abidələrindən sadəcə Laçın və Kəlbəcər rayonlarında yerləşən alban məbədləri ermənilərin əsarətindən azad olunduqdan sonra yenidən araşdırılmağa başlamışdır. Beləliklə, bu nəticəyə gəlirik ki, Azərbaycanın qədim tarixini araşdırmaq, memarlıq ənənələrimizin izlərinin var olduğu alban memarlıq abidələrini tədqiq etmək üçün Azərbaycanın qədim diyarı olan Zəngərur mahalının Azərbaycana qaytarılması zəruridir. Çünki Azərbaycan əraziləri olan Zərgəzuru işğal edən ermənilər bu ərazinin alban memarlıq nümunələrini tarixdən silməyə, orada olan Alban memarlığına dair abidələri məhv etməyə cəhd göstərirlər.

Ermənilər qədim Azərbaycan torpaqları olan Zəngəzurda yerləşən alban memarlıq abidələrinə qarşı amansızca mədəniyyət soyqırımı törədirlər. Bu torpaqlar tarix boyu bizə məxsus olmuşdur. Qafqaz Albaniyası memarlığının varisləri azərbaycanlılar olmuşlar.

ƏDƏBİYYAT

1. Abdullayeva, A. Alban və Qriqoryan kilsələrində memarlıq fərqləri // Dövlət və Din. – 2021. № 01 (68), – s. 36-48
2. Alışov, N. Müstəqillik illərində Qafqaz Albaniyasının xristian abidələrinin öyrənilməsinin Azərbaycan tarixi üçün əhəmiyyəti / Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun "Azərbaycan arxeologiya və etnoqrafiya elmləri müstəqillik illərində" beynəlxalq elmi konfrans materialları. – Bakı: – 10-14 noyabr 2013, – s. 171-172
3. Hacıyev, İ. Qafqaz Albaniyasının maddi-mədəniyyət abidələri: daş plastikası // Dövlət və Din. Mart-aprel 2018, №2 (55), – s. 82-90.
4. Qasımlı, A. M. Türklər (Tarixi oçerklər). – Bakı: – 2012. – 545 s.
5. Məmmədova, Z. Qarabağ bölgəsinin monastır kompleksləri // Qafqaz Albaniyasının etno-mədəni irsi (məqalələr toplusu), № 3. – Bakı: – 2022. – 168 s.
6. Müseyibli, N., Axundova G. Albaniya dövlətinin tarixi kökləri məsələsinə dair // Qafqaz Albaniyasının etno-mədəni irsi (məqalələr toplusu), № 3. – Bakı: – 2022. – 168 s.
7. Rəcəbli, Q. Ə. Azərbaycan tarixi. – Bakı: Elm və təhsil, – 2013. – 544 s.
8. Ахундов, Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. – Баку: Азернешр, – 1986. – 311 с., ил.
9. Мамедова, Г. Культовое зодчество Кавказской Албании (IV-XIV вв.). – Баку: Элм, – 1997.
10. Мамедова, Г.Г. Зодчество Кавказской Албании. – Баку: «Чашыоглы», – 2004. – 224 с. илл.

SUMMARY

Briliant Parsley

THE PRESENCE OF TRACKES OF OUR ARCHITECTURAL TRADITIONS AT THE ALBANIAN TEMPLES IN ZANGEZUR, WHICH LIVING A LIFE OF SLAVERY FOR A CENTURY

The article is dedicated to the traces left by the architectural traditions of our ancient history on the architectural monuments belonging to the Albanian tribes in Zangezur district, the ancient land of Azerbaijan. Historically, the Albanian and Turkish peoples, belonging to ancient tribal associations, lived together in the lands of Azerbaijan for thousands of years, established friendship, unity, and equality relations, influenced each other with their lifestyles and cultures, and developed further. The presence of Albanian temples in Zargezur is a clear example of this unity. Just as the Turks were influenced by the ancient beliefs and worldviews of the Albanians, the Albanians benefited from the ancient culture and architecture of the Turks and left a legacy the Albanian-Turkish architectural monuments to the future generations. The heirs of this legacy are Azerbaijanis. Traces of our national-cultural heritage is tobeing engraved

on Albanian temples. Although the monuments of Albanian architecture in Zargezur, the ancient land of Azerbaijan, which has been under occupation for more than a century, were subjected to Armenian vandalism, and Armenians tried to falsify these monuments, historical facts, sources prove to be architectural monuments, which belonging to Albanians, not Armenians of these monuments.

Key words: *Albanian, architecture, monument, temple, Zangezur*

QƏRBİ AZƏRBAYCAN FOLKLORUNDA "YALLI" RƏQSİ

Məhəbbət BABAYEVA
mehebbetteacher@gmail.com
Naxçıvan Musiqi Kolleci

Məqalədə Qərbi Azərbaycan folklorunda "Yallı" rəqsi araşdırılmışdır. Azərbaycan folkloru, həqiqətən də, xalq müdrikliyini ifadə edən zəngin mədəni irsdir. Milli folklor şifahi ənənələr əsasında min illərlə inkişaf edərək tarixin dolanbac yollarının müxtəlif zaman kəsiyində assimilyasiyaya da məruz qalmış, lakin özünün milli ruhu, mahiyyətindən heç bir şey əsirgəməyərək, müasir Azərbaycan xalqına əzəmətli miras olaraq çatmışdır.

Açar sözlər: *Azərbaycan folkloru, yallı, rəqs, musiqi, dastan*

Azərbaycan folkloru janr rəngarəngliyi ilə seçilən minlərlə sənət nümunəsini özündə ehtiva edir. Milli folklor müxtəlif xarakter və məzmunlu şeirlər, dastanlar, xalq mahnıları, aşıq havaları, muğam sənəti, maddi və mənəvi dəyəri olduqca yüksək olan yüzlərlə başqa sənət əsəri ilə əzəmətli məbəddir. Milli folklor böyük coğrafiyanı əhatə edən Azərbaycanın müxtəlif ərazilərində özünəməxsus məkan şərtləri əsasında təşəkkül tapmış, formalaşmış, inkişaf etmiş, onun ayrı-ayrı janrlarının səciyyəvi xüsusiyyətləri bir bölgədən digər bölgəyə nüfuz etmiş, bir-biri ilə üzvi şəkildə qovuşan mədəni nailiyyətlər tarixi təkamül nəticəsində qocaman bir xalqın vahid mədəni irsinə çevrilmişdir. Məhz buna görə də bir yaşayış məskəninin məişətinə xas xarakterik cəhətlər digərinin folklor nümunələrində ifadə olunmuş, xüsusilə aşıq, ozan kimi xalq sənətkarlarının simasında bir coğrafi məkanın mədəni nailiyyətləri başqa bölgələrə daşınmışdır. Buna görə də müxtəlif ərazilərin folklor nümunələrində ümumi oxşarlıq olduqca böyükdür. Hətta folklor nümunələri Azərbaycana yaxın qonşu olan ölkələrdə ayrı-ayrı sahələrə nüfuz etmiş və bunun da nəticəsində mədəniyyətlərin qovuşması baş vermişdir.

Milli folklorun şaxələnərək inkişafında Qarabağ, Qərbi Azərbaycan-Zəngəzur mahallarında məskunlaşmış vətən övladlarının məişətinin əsasını təşkil edən rəngli səhnələr olduqca böyük rol oynamışdır. Təsadüfi deyil ki, ayrı-ayrı mərasimlər, kollektiv əməyi özündə canlandıran şifahi ənənəli sənət nümunələri bu bölgənin mədəni nailiyyəti olaraq uzun inkişaf yolu qət etmişdir. "Göyçə gölü", "Mincivan bulağı və Tərtər çayı," "Pəri bulağı" həmin yurd yerləri ilə bağlı əfsanələrdir.

Aşıq sənəti və bu sahədə fəaliyyət göstərən ustad aşıqların yaradıcılığının ən gözəl nailiyyətlərinin daşıyıcısı olan Qərbi Azərbaycan uzun illər aşıq mədəniyyətini ətraf ölkələrdə layiqincə təmsil edən sənətkarlar nəslinin yurd yeridir. Təsadüfi deyil ki, Göyçə mahalında aşıq sənəti bir məktəb olaraq formalaşmış, bu məktəbin nümayəndələri aşıq yaradıcılığının inkişafında xüsusi fəaliyyət göstərmişlər. Professor Ramil Əliyev bir çox sənətkarı Göyçə aşıq məktəbinin nümayəndəsi kimi təqdim edir. Bunlar Ozan Heydər, Ozan Cəlil, Ozan İbrahim, Miskin Abdal, Aşıq Ömər, Aşıq Qərip, Aşıq Allahverdi, Ağ Aşıq, Aşıq Alı, Dərdli Nəsib,Qul Mahmud, Şımşırlı Sevgili, Şair Məmmədhüseyin, Şair Almməmməd, Şair Aydın, Aşıq Allahverdi, Aşıq Valeh, Aşıq Bəşir, Aşıq Qurban, Şair

Əbdüləzim, Aşıq Ələsgər, Aşıq Pəri, Aşıq Zərnigar, Aşıq Nəcəf, Aşıq Talıb, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Hüseyn Şəmkirli, Aşıq Şəmşir və başqalarıdır [6, s. 277]. Göründüyü kimi, bu sənətkarların bir çoxunun soyadlarında doğulduğu məkan ifadə olunub. Göyçə aşıq məktəbi ilə sıx bağlılığı olan həmin aşıqların yaradıcılıq fəaliyyəti digər məktəblərlə də əlaqəli olmuşdur.

Zəngin ənənəli milli mədəniyyətdə özünün parlaqlığı ilə diqqət çəkən janrlardan biri də rəqslərdir. Rəqslər çoxşaxəli Azərbaycan folklorunun ən qədim, zəngin janrlarından biridir. Vətənimizin müxtəlif bölgələrində mövcud olan qədim abidələr, qəbirüstü rəsmlər milli rəqslərin tarixinin ən az Azərbaycan xalqının formalaşdığı tarix qədər qədim və ulu olduğunu sübut edir. Bu baxımdan təbii ki, ilk başda diqqət cəlb edən "Qobustan" qayaüstü rəsmləridir. Məlum olduğu kimi, Mezolit dövründən orta əsrlərə qədər yaradıldığı hesab edilən və canlı tarix danışan bu daş muzeydə 6000 qayaüstü rəsm mövcuddur. Qobustanın Böyükdaş, Kiçikdaş, Çınqırdaq, Sıxqaya dağlarında divarlara həkk olunmuş rəsm səhnələri bu qədim məkanı özünə yurd yeri olaraq seçmiş insanların həyatı, məişəti haqqında danışır. Qayaüstü rəsmlərdə xüsusilə "Yallı" rəqsinə bənzər fiqurlar milli ənənəvi rəqslərimizin ibtidai forma və şəkli haqqında müasir insanı məlumatlandırır. Burada qayalara söykənərək məğrur görkəmi ilə insanı valeh edən "Qavaldaş" da milli musiqi alətlərimizdən zərblilərin ibtidai nümunəsi kimi qiymətlidir. Həmin daşda müşayiət olunan zəngin ritmlər rəqslərimizin metro-ritmik əsasını müəyyən edən ilk musiqili zənginliklərdir. "Qavadaş"ın bu kimi məqsədlərlə istifadə olunması haqqında Salehə Əliyeva yazır: "Belə bir fikir mövcuddur ki, keçmiş tayfalarda keşikçilər vəhşi heyvanların hücumları zamanı, yaxud başqa təhlükəli hallarda bu alətlərdən istifadə edirlərmiş. Belə hesab edilir ki, ritual rəqslər və mərasimlər bu səslərlə müşayiət olunurmuş. Qavaldaş həm də birlik rəmzi olmuşdur, qədim insanlar onun ətrafında dini mərasimlər və bayram mərasimləri, yığıncaqlar keçirmişlər" [1]. Göründüyü kimi, bir çox mənada dini məzmunlu ayinlərdə öz təşəkkülünün başlanğıcını götürmüş rəqslər ən az bu yerlər qədər qədim tarixi ənənələrə malikdir.

Milli rəqslər sonrakı dövrlərdə yazılı ədəbiyyatın ayrı-ayrı nümunələrində ortaya çıxaraq, dahi sənətkarların söz çələngini daha gözəl səhifələrlə dolğunlaşdırmışlar. Məlum olduğu kimi, "rəqs" sözünü ədəbiyyatda ilk dəfə N.Gəncəvi işlətmişdir. O, əsərlərində, daha çox "Xosrov və Şirin" poemasında saray mühitində geniş yer almış rəqslər, hətta kütləvi oynanılan "yallı"lardan bəhs etmişdir.

Milli yallılar xarakter, temp, janr xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Lakin ayrı-ayrı bölgələrə məxsus yallılarda ümumi oxşar cəhətlər olduqca çoxdur. Bu onunla əlaqədardır ki, yaxın əlaqələri olan kəndlər və şəhərlərdə fərqli bölgələrin rəqs nümunələri qısa zamanda geniş yayılmış və insanlar müxtəlif mərasimlərdə, toy, bayram, şənliklərdə rəqsləri ifa etməklə onları mənimsəmiş, rəqsin xoreoqrafik fiqurları, onu müşayiət edən melodiyalar ümumi oxşar cəhətlər qazanaraq, bütün bölgələrin ortaq nailiyyəti olmuşdur. Buna misal olaraq, xoreoqraf Kamal Həsənov tərəfindən "Azərbaycan qədim xalq rəqsləri" adlı araşdırmada Naxçıvan, Qarabağ, Şəki rəqslərinin xoreoqrafik hərəkətlərində oxşar cəhətlərin bolluğunun qeyd edildiyini diqqətə çatdırmaq olar.

Milli mədəniyyətin nadir sənət nümunələrinin qorunması sahəsində aparılan işlər

tədqiqatçı alimlərin fəaliyyətinin genişlənməsinə səbəb olaraq, onların maddi və mənəvi dəyərlərimizlə bağlı olduqca dolğun məlumatları özündə birləşdirən elmi-tədqiqat işlərinin meydana gəlməsi ilə nəticələnib. Sevindirici haldır ki, "Yallı" rəqsinin mənşəyi, onun ifa tərzi və sayı, müxtəlif növləri ilə əlaqədar elmi-tədqiqat işləri aparılmış və bu sahədə olduqca maraqlı faktlar əldə olunmuşdur. Bu baxımdan Bayram Hüseynli, Məmməd Ələkbərov, Əqidə Ələkbərova, S.Əlizadə, Əkrəm Məmmədli və Kənan Məmmədli, Rauf Bəhmənlinin rolu xüsusi vurğulanmalıdır.

Rauf Bəhmənlinin Qərbi Azərbaycan bölgəsində yayılmış yallı və onun növləri haqqında apardığı elmi-tədqiqat işləri bu qədim türk torpağının mədəni nailiyyətlərinin ermənilər tərəfindən ənənəvi hal almış "özününküləşdirmə" siyasətinə tutarlı cavabdır. O, "Azərbaycan xalq rəqsləri", "Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları" adlı qiymətli tədqiqat işlərində digərləri ilə yanaşı, yallı rəqsi haqqında da maraqlı mülahizələr irəli sürür, Qərbi Azərbaycan bölgəsindən 43 yallı nümunəsinin şərhini verir və bu haqda deyir: "İrəvanlılar qovulduqdan sonra bölgələrimizdə pərakəndə vəziyyətdə yaşadıqları üçün bu rəqsimiz qismən unuduldu. Ancaq mən vaxtilə yallı oynamış ifaçıları tapıb onlardan Qərbi Azərbaycan yallı rəqslərinin melodik intonasiyalarını topladım. Kitabın önəmi odur ki, burada 43 yallının notları əks olunub, eyni zamanda, 10-dan çox yallının ermənilər tərəfindən nə cür saxtalaşdırılması tutarlı faktlarla sübuta yetirilib" [4].

Qərbi Azərbaycanda xalq məişətində əhəmiyyətli yeri olan yallılar coğrafi məkan, təbiət elementləri, gül-çiçək, insan adlarına və ya başqa bu kimi xüsusiyyətlərə bağlı olaraq müxtəlif adlarla adlandırılmışlar. Qərbi Azərbaycan əhalisinin məişəti ifa olunan yallılarda öz təcəssümünü tapmış, bu bölgənin insanının xarakterinə xas cəhətlər rəqsin temperamenti, emosionallığı ilə ifadə olunmuşdur. Tədqiqatlar göstərir ki, qadın və kişilər tərəfindən ifa edilən Qərbi Azərbaycan yallıları özünəməxsusdur. Onların metro-ritmik əsasında məğrurluq, çevik hərəkətlərlə təcəssüm olunan obraz var. Bu yallılarda temp əhəmiyyətli dərəcədə inkişaflıdır və getdikcə sürətlənir. Sürət artdıqca qadınlar aramla rəqsi tərk edir. Xalq təfəkküründə olduqca zərif məxluq kimi qiymətləndirilən qadınların hərəkəti də daim zərif olaraq qiymətləndirilir və belə bir sürətdə həmin zərafətin kobud xarakter almağının qarşısını almaq məqsədi ilə nizamlanır. Qərbi Azərbaycanda yallılar birlik, həmrəyliyi ifadə edən rəqslər kimi hər zaman xalq məişətinin ayrılmaz parçası olmuşdur. Bu bölgənin demək olar ki, bütün kənd, mahallarında əhali kütləvi şəkildə başqa ad ilə "halay" olan yallı havaları oynayardılar. "Yallıbaşı"nın hərəkətə gətirdiyi halaylara bütün el-oba qoşular, gənc qız və oğlanlar bu rəqsdə fəallıqları ilə seçilərdi. Halaylar kənd və mahallarda xüsusi olaraq qurulur və xalq məişətinin əsas tərkib hissəsi kimi bir nəsildən digərinə ötürülürdü. Ümumiyyətlə, əsl adı "Ağbulaq" olan "Hahısta", ilkin variantlarda "Babacan" kimi tanınan "Teymur ağa", Çəmənkənd", "Tamaşa" (başqa adı ilə "Dəsmalı yallısı") Qərbi Azərbaycanda geniş yayılmış yallılara nümunədir.

"Çəmənkənd" və ya "Çimənkənd" (Aşağı Qarabağlar) İrəvan quberniyasının İrəvan qəzasının Vedibasar mahalında bir kənddir. Toponimlərin uyğunluğu bu kəndin Naxçıvanın Şərur mahalının Qarabağlar kəndi ilə yaxın əlaqəsini gözlər önünə sərir və həmin yaşayış məskəninin adı ilə adlandırılmış yallı rəqsinin Naxçıvanda da geniş ifa olunmağı təbii haldır. Maraqlıdır ki, Şərur mahalında ifa olunan "Çəmənli" yallısının

(Misal:1) not nümunəsi nəfis tərtibatlı "Naxçıvanın el yallıları" kitabında verilmişdir. Yallını İsgəndər Əliyevin ifasında Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev nota köçürmüşdür. Rauf Bəhmənlinin müəllifi olduğu "Azərbaycan xalq rəqsləri" adlı kitabında isə Qərbi Azərbaycanda xalq şənliklərində xalqın şən əhvali-ruhiyyəsini ifadə edərək qadın və kişilər tərəfindən oynanılan "Çəməni" yallısının (Misal: 2) not nümunəsi verilmişdir. Hər iki nümunə və sosial şəbəkələrdə "Çəmənkənd" olaraq təqdim edilən, tərəfimizdən notu hazırlanan (Misal: 3) yallı [9] nümunələrinə nəzər salaq. Elman Əliyevin nota aldığı nümunə 2/4 metrik ölçüsü və allegretto tempi ilə yadda qalır. Yallı xarakter etibarilə şən əhvali- ruhiyyəli olub, melodiyanın inkişafı isə mövzunun təkrar keçidlərinə əsaslanır. Bir hissədən ibarət olan yallıda orta bölmədə temp dəyişərək allegroya keçid alır. Yallı zurna, çombaq və çilik alətinin müşayiəti ilə səslənir.

Misal: 1



Rauf Bəhmənlinin not nümunəsi Azərbaycan xalq rəqsləri üçün xarakterik olan 6/8 metrik ölçüsü, Moderato tempi ilə diqqət cəlb edir. Melodiyada punktir ritm özünü nümayiş etdirir. Hər iki nümunə eyni tonallıqla təqdim olunur.

Misal: 2



Tərəfimizdən nota alınan variant daha əvvəlki iki variant kimi xalq musiqisi üçün səciyyəvi olan melizmlərlə dolğundur. Burada melodik inkişaf çərək, səkkizlik, onaltılıq notlarla verilir. Melodiyanın diapazonu o qədər də böyük deyil. Belə ki, diapazon birinci oktavanın re notu ilə eyni oktavanın lya notu arasında dəyişir. Səslər arasındakı kvarta-kvinta münasibəti milli musiqiyə xas olan xüsusiyyətlərdəndir.



Misal:3

Göründüyü kimi, Elman Əliyev və tərəfimizdən nota alınan nümunələr demək olar ki, eynidir. Onlar bir-biri ilə qismən fərqlənir. Lakin Misal: 3 olaraq təqdim olunan nümunə sosial şəbəkələrdə "Çəmənli" deyil, "Çəmənkənd" olaraq qeyd olunur. Rauf Bəhmənlinin nota aldığı nümunə isə digər iki nümunə ilə tonallıq baxımından üst-üstə düşür. "Çəməni" olaraq təqdim olunan yallı melodiya və ritmik cəhətdən digər iki nümunədən bir qədər seçilsə də, hər üç nümunə vahid kompozisiya xüsusiyyətlərinə malikdir və onlar arasında fərq demək olar ki, yoxdur. Bu onu söyləməyə imkan verir ki, hər üç nümunə eyni yallının variantlarıdır. Bu da onu göstərir ki, hər bir ifaçı və ya ifaçı qrupu özünün üslubu ilə milli rəqslərə zəngin çalarlar bəxş etmiş və bir mahaldan digərinə keçərək, onun məişətində əsaslı yer alan xalq yaradıcılığı nümunələri həmin mahal üçün səciyyəvi olan ifaçılıq xüsusiyyətləri qazanmışdır. Nümunələrin birində yallının "Çəmənkənd" adlandırılması da onun qədim Vedibasar kəndi ilə bağlılığını və

rəqsin bir-birinə yaxın olan bölgələrin ortaq mədəni nailiyyəti olduğunu sübut edir.

"İrəvani" yallısının Qədim Naxçıvanda yarandığı qeyd olunur. Eyni zamanda yallının ismində məkan adının ifadə olması bunu söyləməyə əsas verir ki, o, Qərbi Azərbaycanın İrəvan mahalı ilə bağlı olaraq da xalq məişətində köklü yer alan milli yallılardan biridir. Şərur "Yallı" ansamblının ifasında E.Əliyev tərəfindən nota köçürülən "İrəvani" yallısı "Naxçıvan el yallıları" kitabında təqdim olunub.

Misal: 4



"İrəvani" dördayaqdır. Bu, ənənəvi olaraq rəqsin başlanğıcında addımların sayı ilə müəyyən olunan bir cəhətdir. Yallının əvvəlində ifaçılar yırğalanaraq dörd addım götürürlər. Olduqca qədim olan dördayaq yallılar əsasən Naxçıvanın Şərur mahalında yaranmış sonra digər bölgələrə də yayılmışdır.

"İrəvani" yallısı iki hissədən ibarətdir. Onun I hissəsi 12/8 kimi xarakterik metrik ölçü və Andante tempində ifa olunur. II hissədə ölçü 12/16 ilə əvəz olunur və temp Allegro olaraq dəyişir. Bu milli yallılar üçün səciyyəvi olan cəhətdir. Belə ki, milli yallıların demək olar ki, hamısı bir-birindən fərqli tempi olan hissələrdən ibarət olub, iştirakçıların məharətli ifası ilə yadda qalır. "İrəvani" yallısı qadın və kişilərdən ibarət yallı qrupu tərəfindən, ifaçı və dəmkeş olaraq iki zurna və çubuqla çalınan nağaranın müşayiəti ilə ifa olunur. Burada da melizmlər melodik inkişafda zəngin çalarlar yaradır. Digər tərəfdən isə sinkopalı inkişaf musiqi materialının əsasını təşkil edir.

Onu da qeyd etmək lazımdır ki, "İrəvani" yallısının təsnifatı sənətşünaslardan Bayram Hüseynli və Əqidə Ələkbərova tərəfindən verilmişdir. Bayram Hüseynlinin təsnifatında yallı "re" mayəli "Segah" ladına əsaslanır. O, iki hissədən ibarət olub 6/8 ölçüsündədir. Hissələrdən birincisi Moderato, digəri isə Allegro tempində ifa olunur. Əqidə Ələkbərova isə sadəcə "İrəvani" deyil, "Köçəri", Tənzərə" və başqa yallıları da araşdıraraq, onlar haqqında qiymətli məlumatlar vermişdir. O, "Köçəri"nin 10, "Tənzərə"nin isə 11 variantı barədə özünün elmi-tədqiqat işlərində danışır. Məlum olduğu kimi, ermənilər tərəfindən mənimsənilməyə çalışılan bu yallılar 26 noyabr-1 dekabr 2018-ci il tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Yallıların beynəlxalq ictimaiyyət tərəfindən bu cür dəyərləndirilməsində sənətşünas alimlərin fədakar əməyinin rolu şübhəsizdir. "Tənzərə" və "Köçəri" yallıları Qərbi Azərbaycanda da geniş yayılan rəqslərdəndir.

Ə.Ələkbərovanın şərhində "İrəvani" adlandırılan yallı üç hissədən ibarət olaraq təqdim edilir. O, yenə 6/8 ölçüsündə, lakin sol mayəli Şur məqamına əsaslanır. Bu, belə bir ehtimal yaradır ki, B.Hüseynli və Ə.Ələkbərova "İrəvani" yallısının iki fərqli təsnifatını vermişdirlər.

Ermənilər tərəfindən mənimsənilərək, "Tamur aqha" adlandırılan "Teymur ağa" yallısı Qərbi Azərbaycanın qədim sakinləri olan azərbaycanlıların ən gözəl mənəvi dəyərlərindən biridir. Bəzi ehtimallara görə yallının adı türk ulusunun böyük sərkərdələrindən biri Əmir Teymurla bağlı olaraq belə adlandırılıb. Yallının melodiyasında və ifa tərzində ənənəvi olaraq məğrur nidalar var. Səciyyəvi xarakter, hərəkətlərdəki səlistlik yallının milli rəqslərlə əlaqəsini birmənalı şəkildə sübut edən mühüm cəhətdir. Bu da onu söyləməyə əsas verir ki, digər xalqlar tərəfindən mənimsənilən bu yallı nümunəsi özündə azərbaycançılıqla bağlı dərin köklər daşıyır.

"Teymur ağa" əsasən mülayim templə ifa olunan yallılardandır. "Yallıbaşı" əlində yaylıq və ya dəsmalla ifaçıları müxtəlif xoreoqrafik hərəkətlər, xüsusilə ayaq hərəkətləri ilə dövrə şəklində rəqsi icra etməyə yönləndirir. Yallı bu qayda ilə axıra qədər demək olar ki, eyni templə gedir, temp sona doğru bir az sürətlənir və rəqsi yekunlaşdırır.

Misal: 5



Beləliklə, Qərbi Azərbaycan və bu qədim torpaqları özünə yurd yeri seçən insanlar yalnız özlərinə xas maddi və mənəvi dəyərləri yaşadaraq, öz milli kimlikləri olan azərbaycançılığı bir mənalı olaraq bəyan etmişlər. Böyük coğrafi məkanın mədəni nailiyyətlərini təmsil edən bu maddi və mənəvi dəyərlər bir xalqın ululuğunu, qədimliyini ifadə etmiş, yalnız ona xas milli xüsusiyyətləri daşımış və uzun inkişaf yolu qət edərək bu

günün Azərbaycanına miras olaraq qalmışdır. Mənəvi dəyərlər toplusunun ilk sıralarında yer alan yallılar milli mədəniyyətimizin ən gözəl sərvətidir. Bu mirasın tarixin əzab-əziyyətli səhifələrindən keçərək, müasir günümüzə qədər milli ruhunun qorunub saxlanmasında Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın da rolu şübhəsizdir.

ƏDƏBİYYAT

1. Ana yurdum, Azərbaycan! Qobustan Qafqazın beşiyidir mədəniyyət. https://azertag.az/xeber/ana_yurdum_azerbaycanqobustan_qafqazin_besiyidir-205475
2. Bəhmənli, R. Azərbaycan xalq rəqsləri. – Bakı: Adiloğlu, – 2002.
3. Bəhmənli, R. Azərbaycan yallıları. – Bakı: Mürtəcim, – 2018. – 140 s.
4. Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları kitabının təqdimatı olub. AzərtacMədəniyyət21.06.2022https://azertag.az/xeber/ermeni_plagiatina_meruz_ qalmis_qerbi_azerbaycan_yallilari_ kitabinin_teqdimati_olub-2186774
5. Ələkbərova, Ə. M. Yallı sənəti və onun Gəmiqaya rəsmləri ilə bağlılığı. Qobustan, jurnalı. № 2, 1999. – s. 42-44
6. Əliyev, R. Azərbaycan folkloru (janr sistemi və teoretik açıqlamalar). – Bakı: İqsad, – 2021, – 277 s.
7. Həsənov, K. Qədim Azərbaycan xalq rəqsləri. – Bakı: İşıq, – 1983. – 59 s.
8. Kərimli, Ə. K. Yallı, Bakı: Şirvannəşr, – 2004. – 115 s.
9. https://www.youtube.com/watch?v=MGHtbVtzt1c
10. Алекперова, А.М. Хороводные танцы: Яллы Нахичеванской зоны, Дисандит.искусств. – Баку: – 1994. – с 124

SUMMARY

Mahabat Babayeva

"YALLI" DANCE IN WEST AZERBAIJAN FOLKLORE

The article examines the "Yalli" dance in West Azerbaijani folklore. Azerbaijani folklore is truly a rich cultural heritage that expresses folk wisdom. National folklore developed over thousands of years on the basis of oral traditions and underwent assimilation in different periods of the winding paths of history, but its national spirit and its essence have not been spared and reached the modern Azerbaijani people as a glorious heritage.

Key words: *Azerbaijani folklore, yalli, dance, music, epic*

İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ NAXÇIVANLI MƏZUNLARININ MAARİFÇİLİK FƏALİYYƏTİ

Taleh XƏLİLOV
x.taleh@gmail.com
Naxçıvan Dövlət Universiteti

Məqalədə İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarının maarifçilik fəaliyyəti öyrənilmişdir. Müəyyən edilmişdir ki, İrəvan Müəllimlər Seminariyasında təhsil almış naxçıvanlı ziyalılar Naxçıvanda yeni məktəblərin açılmasında, müəllim kadrlarının hazırlanmasında böyük xidmətlər göstərmişlər. Onlar ana dilində təlimin aparılması, ana dilində dərsliklərin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi və yeni tədris metodlarının tətbiqi sahəsində mühüm işlər görmüşlər.

Açar sözlər: *Naxçıvan, İrəvan, təhsil, məktəb, sinif, şagird, müəllim*

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda marifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının böyük rolu olmuşdur. İrəvan şəhərində 1881-ci il noyabr ayının 3-də əsası qoyulmuş bu tədris müəssəsi 1885-ci ildə ilk buraxılışını vermişdir [Məhərrəmov, 2010: 59]. Akademik Hüseyn Əhmədovun "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" kitabının yeni nəşrində isə seminariyanın 1880-cı il noyabr ayının 25-də açıldığı göstərilmişdir [Əhmədov, 2014: 127]. Qeyd edək ki, həmin ildə (1885-ci il) seminariyanı bitirmiş məzunların 25 nəfəri azərbaycanlı, 2 nəfəri isə dağıstanlı olmuşdu. Bu məzunlar Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan bölgəsində də fəaliyyət göstərən bir çox məkəblərdə dərs demişlər.

Mənbələrin məlumatlarından aydın olur ki, İrəvan Müəllim Seminariyasının direktoru Stepan Suşevskiy olmuşdur. Seminariyada Qasım Qənbərov Azərərbaycan dilini, Məmmədbağır Qazızadə ədəbiyyatı, Mixail Klopov isə rus dili fənnini tədris etmişdir [İrəvan əyalətinin icmal dəftəri, 1996: 28].

Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanılan sənədlərin araşdırılmasından məlum olur ki, İrəvan Müəllimlər Seminariyasının ən çox azərbaycanlı məzunu 1890-cı ildə olmuşdur. Belə ki, həmin ildə bu seminariyanı 69 azərbaycanlı gənc bitirmişdi. Bu məzunlar İrəvan və Yelizavetpol quberniyalarında, Bakıda, Dağıstanda, Kutaisidə və Stavropolda pedaqoji fəaliyyətlə məşğul olmuşlar [Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, 18].

İrəvan Müəllimlər Seminariyasının məzunlarından bir çoxları təyinatlarına uyğun işlə təmin oluna bilmədikləri üçün müəllimlik sənətini ataraq qeyri-pedaqoji peşələrdə də işləmişlər. Bu haqda görkəmli pedaqoq Firidun bəy Köçərli yazırdı: "1888-ci ildə qızıl medal ilə institut kursunu tamam edən cavanlarımızdan cənab Hacı Rəhimbəy Qayıbova şəhərdə yer verilməyib, İrəvan uyezdində Uluxanlı qəryəsinə müəllim təyin olundu. O da bir-iki sənə kənd müəllimliyi edib özü üçün tərəqqi yolu görməyib, okrujnoy sud (dairə məhkəməsi-T.X) məhkəməsində qulluğa girdi" [Köçərli, 1981: c.2, 195-196].

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənəddən məlum olur ki,

1902-ci ildə İrəvan Müəllimlər Seminariyasının tərkibində xəzinə hesabına 6 ibtidai məktəb də fəaliyyət göstərmişdir [Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, 9]. Həmin məktəblərin 2-si şəhər, 4-ü isə kənd məktəbi olmuşdur.

Tədqiqatçı Cəlal Allahverdiyev yazır: "1882-ci ildə İrəvanda 64 nəfər şagirdi olan daha bir Müəllimlər Seminariyası da fəaliyyət göstərmişdir" [Allahverdiyev, 2008: 22].

Qeyd edək ki, İrəvan şəhərində 1920-ci ildən sonra elmin və mədəniyyətin inkişafı üçün Pedaqoji texnikum da yaradılmışdır. Məktəbin tanınmış müəllimlərindən Əsəd Məmmədov, Əjdər Kazımov, Qadir Məmmədov, Məmmədəli Məhərrəmov, Əli Həsənov, Tağı Məhərrəmov, İsmayıl İsmayılov, Qulam Namazov və başqaları məhz İrəvan Pedaqoji Texnikumun məzunları olmuşdur [Zeynalov, 1999: 104].

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının məzunlarından Məmmədqulubəy Kəngərlinin, Rəhim Xəlilovun, Axund Məmmədbağır Kazımzadənin, Məmməd Axundovun, Hacı Məmmədəli oğlunun, Məmmədbəy Qazıyevin, Tağı bəy Səfiyevin, Sadıq Xəlilovun, Mirzə Cəlil Şürbinin, Qasım bəy Camalbəyovun, Eynəli bəy Sultanovun və başqalarının adlarını qürur hissi ilə çəkə bilərik.

Bu dövrdə Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə Məmmədqulubəy Kəngərlinin misilsiz xidmətləri olmuşdur. O, 1864-cü ildə Naxçıvan şəhərində anadan olmuş, 1905-ci il avqust ayının 29-da Batumi şəhərində erməni komitəsi tərəfində 41 yaşında faciəvi şəkildə qətlə yetirilmişdir ["Həyat" qəzeti, 23 sentyabr 1905, № 71].

Məmmədqulubəy Kəngərli ilk təhsilini atası mayor Şəfiağa Kəngərlidən almışdı. Daha sonra təhsilini atasının onun üçün tutduğu xüsusi müəllim yanında evdə fərdi şəkildə davam etdirmişdir.Akademik İsa Həbibbəyli Məmmədqulubəy Kəngərlinin maarifçilik fəaliyyəti haqında yazır: "Məmmədqulubəy Kəngərli birbaşa mənsub olduğu xalqa xidmət göstərmək niyyəti ilə hərbi işi buraxıb maarifçilik cəbhəsinə keçmək qərarına gəlmişdi" [Həbibbəyli, 1985: 37].

Məmmədqulubəy Kəngərli 1893-cü ildə istefaya çıxdıqdan sonra aşağıdakı iki istiqamətdə maarifçilik fəaliyyətini davam etdirmək qərarına gəlmişdi:

1. Vəkil-hüquqşünas
2. Məktəbdarlıq

Məhz onun nə üçün vəkil peşəsini seçdiyi "Həyat" qəzetində çap olunmuş məqalədə daha açıq şəkildə ifadə edilirdi: "Candan əziz sevdiyi millətinin ən ziyadə nəyə möhtac olduğunu təhqiq etdi. Bildi ki, İrəvan quberniyasının müsəlmanları əməlsizlikdən, dövlətin qanunu, məmurların ixtiyarını bilməmələrindən hər an bir müsibətdən digər bir bəlaya düçar olurlar. Bildi ki, ən əvvəl müqtədir bir vəkil olub millətə xidmətə buradan başlamaq lazımdı" ["Həyat" qəzeti, 23 sentyabr 1905, № 71].

Qeyd edək ki, Məmmədqulubəy Kəngərli müəllimlik fəaliyyəti ilə də məşğul olmuşdur. O, Qafqazda ilk dəfə olaraq "Leyli" qız məktəbini açmışdır. "Həyat" qəzetində Məmmədqulubəy Kəngərlinin müəllimlik fəaliyyəti haqqında deyilirdi: "Şəhi-ali-məqam belə ciddi, əhəmiyyətli bir xidmət ilə məşğul ola-ola, övladi-millətin tərbiyə və təhsilini əsla yaddan çıxarmazdı. Millətin səlamət və tərəqqisi üçün ən birinci qapı, ən birinci vasitə zəmanənin təqazasına görə açılacaq məktəb olduğunu çox yaxşı bilirdi. Axırda vəkilliyin

ağırlığına baxmayaraq, Qafqazda birinci müsəlman "milli" məktəbi açdı. Ömürlərini müəllimlikdə çürüdüb, Qafqazda bu qədər böyük şəhərlərində bir müsəlman məktəbi açа bilməyən müəllimlərə ən ibrət bəxş bir nümunə, bir müəllim oldu. Məktəbi az vaxtda dərəceyi-tərəqqinin ən üst mərtəbəsinə çıxardı" ["Həyat" qəzeti, 23 sentyabr 1905, № 71].

İrəvan Müəllimlər Seminariyasının məzunlarından Məmmədbəy Qazıyevin də Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə böyük rolu olmuşdur. O, 1897-ci il yanvar ayının 18-də Naxçıvan şəhərində anadan olmuş, 1909-cu il mart ayının 30-da Uluxanlı stansiyasında sərnişin qatarının altına düşərək faciəli şəkildə vəfat etmişdir [Zeynalov, 1999: 175].

Məmmədbəy Qazıyev İrəvan Müəllimlər Seminariyasındakı təhsilini başa vurduqdan sonra (1886-cı ildə-T.X) elə həmin ilin avqust ayının 1-də təyinatla Uluxanlı normal məktəbinə ikinci müəllim vəzifəsinə göndərilmişdir (Adıgözəlov, 2003: 51). O, bu məktəbdə cəmi bir il işləyə bilmişdir. Buna səbəb onun 1887-ci il avqust ayının 7-də qəflətən ağır xəstələnməsi idi. Bir müddət müalicə aldıqdan sonra yenidən pedaqoji fəaliyyətə başlamış, 1888-ci il iyun ayının 1-də Xalq Məktəbləri Direktorluğunun (XTD) 895 №-li əmri ilə Baş Noraşen ikisinifli məktəbinə müdir əvəzi vəzifəsinə təyin olunmuşdur [Adıgözəlov, 2003: 36-37]. O, Baş Noraşen məktəbindən sonra Uluxanlı məktəbinə getmiş, 1896-1909-cu illərdə bu məktəbdə nəzarətçi müəllim vəzifəsində çalışmışdır. Onun məktəbdarlıq sahəsindəki uğurlu fəaliyyətini Xalq Məktəbləri Direktorluğu daima diqqət mərkəzində saxlamışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan bir sənəddə Məmmədbəy Qazıyevin III dərəcəli Müqəddəs Anna ordeni ilə təltif olunduğu da göstərilmişdir [Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, 11].

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarif nurunun yayılmasında İrəvan Müəllimlər Seminariyasında 1889-1893-cü illərdə təhsil almış naxçıvanlı maarifpərvər ziyalı Tağı bəy Səfiyevin də çox böyük rolu olmuşdur. O, bu seminariyadakı təhsilini başa vurduqdan sonra təyinatı üzrə Baş Noraşen məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. "Molla Nəsrəddin" jurnalında dərc olunmuş məqalədən aydın olur ki, Tağı bəy Səfiyev 1895-1896-cı illərdə Nehrəm kənd məktəbində ikinci müəllim vəzifəsində də işləmişdir ["Molla Nəsrəddin" jurnalı, 17 noyabr 1908, № 46]. Onun Nehrəm kəndində fəaliyyət göstərən məktəbdə ikinci müəllim vəzifəsinə təyin olunmasında böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin böyük rolu olmuşdur.

Qeyd edək ki, Tağı bəy Səfiyev Nehrəm məktəbində rus dili fənnindən dərs demişdir. O, bu fənnin məktəblərdə tədrisinin təkmilləşdirilməsinin yeni metod və yolları haqqında Rusiya Maarif Komissarlığına (RMK) özünün hazırladığı xüsusi bir layihə də təqdim etmişdir. Onun bu layihəsi Rusiya Maarif Komissarlığı (RMK) tərəfindən bəyənilmişdir. Bu münasibətlə Tağı bəy Səfiyevi Rusiya Maarif Komissarlığı "Maarif zərbəçisi" döş nişanı ilə təltif etmişdir [Azərbaycanda xalq maarifinin inkişafı, 1928: 86].

Tağı bəy Səfiyev eyni zamanda bir ictimai xadim kimi də fəaliyyət göstərmişdir. O, Türkiyə-Rusiya və Azərbaycan arasında bağlanmış Qars müqaviləsinin imzalanma mərasimində Naxçıvan nümayəndəliyinin tərkibində iştirak etmişdir [Hacıyev, Quliyev,1998: 32].

Tağı bəy Səfiyevin o, dövrdə bir ictimai xadim kimi tanınması, mövcud hakimiyyət orqanlarının bir çox məmurlarını narahat etməsi, onun 1937-ci il repressiya qurbanlarının siyahısına daxil olmasına səbəb olmuşdur [Məmmədov, 2003: 97]. O, 1937-ci ildə həbsdə olmuş, 1939-cu ildə Baş Noraşendə ürək tutmasından qəflətən vəfat etmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının inkişafında seminariyanın qabiliyyətli məzunlarından Sadıq Xəlilovun da danılmaz xidmətləri olmuşdur. O, 1864-cü il dekabr ayının 20-də Naxçıvan şəhərində dünyaya göz açmış, 1905-ci il noyabr ayının 3-də isə Naxçıvan şəhərində faciəli şəkildə qətlə yetirilmişdi [Zeynalov, 1999: 108].

Sadıq Xəlilov ilk təhsilini 1877-1882-ci illərdə Naxçıvan şəhər ibtidai məktəbində almış, 1882-ci ildə İrəvan Müəllimlər Seminariyasına qəbul olmuş, 1886-cı ildə isə seminariya təhsilini başa vurmuşdur. Xalq Məktəbləri Direktorluğu (XMD) 1886-cı il 01 iyul tarixli 284 saylı sərəncamı ilə Sadıq Xəlilovu Yengicə məktəbinə ikinci müəllim vəzifəsinə təyin etmişdir [Qafqaz Təhsil Dairəsinin sərəncamları, 1892: 78].

Sadıq Xəlilov bir il Yengicə məktəbində müəllim işlədikdən sonra 1888-ci il iyul ayının 14-də Nehrəm kənd məktəbinə eyni vəzifəyə (ikinci müəllim vəzifəsinə-T.X) dəyişdirilmişdir. O, bu məktəbdə də uzun müddət qalmamış, Xalq Məktəbləri Direktorluğunun (XMD) 1892-ci il 14 sentyabrında imzaladığı 1666 №-li əmri ilə yenidən Yengicə məktəbinə qaytarılmışdır [Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, 4].

Akademik İsa Həbibbəyli "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı tədqiqat əsərində yazır: "Sadıq Xəlilov 1901-ci ildən etibarən Naxçıvan şəhər məktəbində ana dili və şəriət müəllimi işləmişdir. 22 aprel 1902-ci ildə isə Azərbaycan və rus dillərini mükəmməl bilən savadlı ziyalı kimi Naxçıvan şəhər rəisi Cəfərqulu Naxçıvanskinin köməkçisi vəzifəsinə dəyişdirilmişdir" [Həbibbəyli, (1997: 141].

XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan Müəllimlər Seminariyasının tanınmış naxçıvanlı məzunlarından Mirzə Cəlil Şürbi (Mirzəyev) Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə öndə gedənlərdən biri olmuşdur. O, 1874-cü il fevral ayının 12-də Naxçıvan şəhərində anadan olmuş, 1915-ci il sentyabr ayının 4-də isə Naxçıvan şəhərində dünyasını dəyişmişdir [Zeynalov, 1999: 84]. Başqa bir mənbədə isə onun 1865-ci ildə doğulduğu göstərilmişdi [Şərif, 1957: 197].

Əli Şamilovun "Sovet Naxçıvanı" qəzetində dərc olunmuş "İkinci Mirzə Cəlil" başlıqlı məqaləsində deyilirdi: "M.C.Şürbi (Mirzəyev) Naxçıvan şəhər məktəbini bitirdikdən sonra 1888-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1892-ci ildə seminariyadan məzun olmuşdur" [Şamilov Ə. H. İkinci Mirzə Cəlil. "Sovet Naxçıvanı" qəz., 27 dekabr 1986, № 297].

Mirzə Cəlil Şürbi (Mirzəyev) seminariyadakı təhsilini başa vurduqdan sonra (1892-ci ildə) təyinatı üzrə Şərur-Dərələyəz qəzasının Aralıq ibtidai məktəbində müəllimlik fəaliyyətinə başlamışdı. İki il burada işlədikdən sonra 1894-cü ildə Nehrəm kənd məktəbinə dəyişdirilmişdir. Lakin onun Nehrəm kənd məktəbindəki müəllimlik fəaliyyəti çox çəkmədi. Çünki o yenidən Naxçıvan şəhər məktəbinə göndərildi. Yazıçı Məmməd Səid Ordubadi xatirələrində Mirzə Cəlil Şürbi (Mirzəyev) ilə ilk tanışlığından yazırdı: "Yay aylarının birində... Naxçıvana gəlmişdi... Şair bala Əşrəf məni Şürbi Mirzə Cəlil ilə tanış etdi. Bu tanışlıq mənim Mirzə Cəlil Məmmədquluzadə ilə birinci kərə görüşməyim

üçün zəman yaratdı" [Ordubadi, 2012: 168].

Mənbələrdə Mirzə Cəlil Şürbinin (Mirzəyevin) 1903-1908-ci illərdə Ordubad qəzasının Vənənd kənd ibtidai məktəbində nəzarətçi vəzifəsində işlədiyi də göstərilmişdir ["Həyat" qəzeti, 23 sentyabr 1905, № 71]. Mirzə Cəlil Şürbi (Mirzəyev) bir müddət Vənənd kənd ibtidai məktəbində nəzarətçi işlədikdən sonra geri çağırılmış, Naxçıvan şəhər rus-tatar məktəbinə müdir vəzifəsinə təyin edilmişdir. O, bu vəzifədə 1913-cü ilin əvvəllərinə-dək çalışmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan bir sənəddə Mirzə Cəlil Şürbinin (Mirzəyevin) pedaqoji fəaliyyətinə görə 1909-cu ildə "Kollec reqis-tratoru" rütbəsi verildiyi göstərilmişdir [Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, 4].

Qeyd edək ki, Mirzə Cəlil Şürbi (Mirzəyev) 1914-cü il avqust ayının 27-də Xalq Məktəbləri Direktorluğunun xüsusi bir sərəncamı ilə Şahbuz məktəbinə dəyişdirilmişdir [Həbibbəyli, 1997: 28]. Bunun əsas səbəbi onun Naxçıvan mühitindən uzaqlaşdırılması idi. Bu dəyişiklik heç də Mirzə Cəlil Şürbinin (Mirzəyevin) razılığı ilə olmamışdı. Ona görə də o, bir müddət Şahbuz məktəbinə getmək istəməmişdir. Lakin maddi vəziyyəti ilə əlaqədar olaraq getməyə məcbur olmuşdur.

XX əsrin əvvəllərində İrəvan Müəllimlər Seminariyasının bacarıqlı naxçıvınlı məzunlarından Qasım bəy Camalbəyovun da adını çəkə bilərik. Siyasi və diplomatiya tarixində özünəməxsus xidmətləri olan Qasım bəy Camalbəyov 1881-ci ildə Naxçıvan şəhərində dünyaya göz açmış, 1938-ci ildə isə Bakı şəhərində qətlə yetirilmişdir [Hacıyev, 1980: 91].

Qasım bəy Camalbəyovun atası Abbasqulu bəy 7 yaşında olarkən oğlunu mədrəsəyə oxumağa göndərmişdir. Mədrəsə təhsilini yarıda kəsən Qasım bəy Camalbəyov daha sonra təhsilini "Məktəbi-tərbiyə" ("Tərbiyə") məktəbində davam etdirmişdir. O, iki il bu məktəbdə təhsil aldıqdan sonra şəhər dördillik məktəbinə daxil olmuşdur. Pedaqogika üzrə elmlər doktoru, professor Rüfət Hüseynzadə yazır: "Qasım bəy Camalbəyov 1901-ci ildə İrəvan Müəllimlər Seminariyasında imtahan vermiş, xalq müəllimi rütbəsi almış, 1901-ci ildən, 1911-ci ilədək İrəvan quberniyasının müxtəlif kəndlərində müəllimlik etmiş, 1912-ci ildən isə tərcüməçi işləməyə başlamışdır" [Hüseynzadə, 2012: 248].

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının tanınmış naxçıvanlı məzunlarından biri də Eynəli bəy Sultanov olmuşdu. O, Naxçıvan qəza məktəbində ibtidai təhsilini 1879-cu ildə başa vurmuş, bir il sonra, yəni 1880-cı ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur [Eynəli bəy Sultanov, 2011: 4-5].

Eynəli bəy Sultanovun yüksək hazırlığına, mənəvi yetkinliyinə, ədəbi istedadına görə İrəvan Müəllimlər Seminariyasında axıradək oxuyub tam kursu bitirməsinə ehtiyac qalmamışdı. O, 1886-cı il iyun ayının 5-də seminariyanın yeddinci sinfindən çıxmışdır. Elə həmin ildə (1886-cı il) İrəvan Müəllimlər Seminariyasının Pedaqoji Şurasının qərarı ilə 538 №-li müəllimlik şahadətnaməsinə əsasən, ona şəhər ibtidai məktəblərində müəllimlik etmək hüququ verilmişdir [Eynəli bəy Sultanov, 2011: 17]. Eynəli bəy Sultanov İrəvan Müəllimlər Seminariyasında oxuduğu müddətdə mükəmməl təhsil almış, xüsusən Avropa dövlətlərini və Qərb maarifçiliyini dərindən öyrənə bilmişdir. O, xarici dillərdən rus, latın, yunan və fransız dillərini, fənlərdən isə riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat və hüsnxət kimi fənləri öyrənməyə həvəs göstərmişdir. Onu da qeyd edək ki,

mənbələrdə Eynəli bəy Sultanovun 1881-1882-ci tədris ilinin imtahanlarında yunan dili və ədəbiyyatı, latın dili və tarixi fənlərindən "əla" qiymətlər aldığı, tərcümə məşğələləri zamanı xüsusi qabiliyyət nümayiş etdirdiyi göstərilmişdir [Məhərrəmov, 2010: 165].

Pedaqogika üzrə elmlər doktoru, professor Rüfət Hüseynzadənin araşdırmalarına nəzər saldıqda İrəvan Müəllimlər Seminariyasının daha bir naxçıvanlı məzunu Axund Məmmədbağır Kazımzadənin adının çəkildiyini görərik (Hüseynzadə, 2012: 248). Naxçıvan şəhər ibtidai məktəbində tatar dili (Azərbaycan dili-T.X) müəllimi işləmiş Axund Məmmədbağır

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarından Məmməd Axundovun, Hacı Məmmədəli oğlunun və Rəhim Xəlilovun da unudulmaz xidmətləri olmuşdur. "Kavkazskiy kalendar"ın 1900-cü il məcmuəsinin 235-ci səhifəsində Rəhim Xəlilovun Uluxanlı məktəbinə, daha sonar isə İrəvan Müəllimlər Seminariyasına dəvət olunduğu göstərilmişdir [Кавказский календарь на 1917 г. Типография канцелярии Е.И.В. наместника на Кавказе, 1916: 235-236].

Təəssüf hissi ilə bir məsələni də vurğulamaq lazımdır ki, 37 ilə qədər fəaliyyət göstərən bu təhsil ocağı (İrəvan Müəllimlər Seminariyası) 1918-ci ilin avqust ayının 6-da İrəvan gimnaziyası isə Uluxanlı məktəbi ilə eyni vaxtda fəaliyyətini dayandırmışdır. Uluxanlı məktəbi 1920-ci ildə yenidən açılsa da İrəvan Müəllimlər Seminariyası və İrəvan gimnaziyası bir daha fəaliyyət göstərməmişdir.

Beləliklə, XIX sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının böyük rolu olmuşdur. Burada dərs deyən müəllimlər təkcə tədrislə məşğul olmamış, həmdə böyük ictimai-siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişlər. İrəvan Müəllimlər Seminariyasının məzunları Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvan bölgəsində uğurla pedaqoji işlə məşğul olmuş, xalqın, millətin tərəqqisində və irəli getməsində mühüm işlər görmüşlər.

ƏDƏBİYYAT

1. Məhərrəmov, Z.H. (2010). İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi mədəni mühit). – Bakı: Nurlan, – 320 s.
2. Qafqaz Təhsil Dairəsinin sərəncamları. (1892). – Tiflis, № 12
3. Köçərli, F. Ə. (1981). Azərbaycan ədəbiyyatı. 2 cilddə. II c., – Bakı: Elm, – 460 s.
4. İrəvan əyalətinin icmal dəftəri: (1996). Araşdırma, tərcümə və qeydlər akad. Z.Bünyadov. – Bakı: Elm, – 184 s.
5. Hüseynzadə, R.L. (2012). Pedaqoji kadr hazırlığında İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti və onun azərbaycanlı məzunları / "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda keçirilmiş konfransın materialları. – Bakı: Mütərcim, – s. 247-248
6. "Həyat" qəzeti, 23 sentyabr 1905, № 71
7. Həbibbəyli, İ.Ə. (1997). Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. – Bakı: Azərnəşr, – 682 s.

8. Həbibbəyli, İ.Ə. (1985). Ədəbi yüksəliş. – Bakı: Bilik cəmiyyəti, – 63 s.
9. Hacıyev, A. M. (1980). Tiflis ədəbi mühiti. – Bakı: Yazıçı, – 183 s.
10. Əhmədov, H. M. (2014). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələr üçün dərslik. – Bakı: Elm və təhsil, – 432 s.
11. Eynəli bəy Sultanov: Taleyi və sənəti. (2011). – Bakı: Elm və təhsil, – 240 s.
12. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: F.797, siy1, iş 11, v.15-20.
13. Azərbaycanda xalq maarifinin inkişafı (1920-1927). (1928). – Bakı: Azərnəşr, – 128 s.
14. Allahverdiyev, C. V. (2008). İrəvanda Azərbaycan ədəbi mühiti (1920-1950): Filol. elm. nam. ... dis. – Bakı: – 159 s.
15. Adıgözəlov, Ə. M. (2003). Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. – Bakı: Təhsil, – 92 s.
16. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.314, siy.6, iş 13, v.8-15.
17. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.24, siy.1, iş 1662, v.10-16.
18. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.19, siy.2, iş 1197, v.3-11.
19. Кавказский календарь на 1917 г. Типография канцелярии Е.И.В. наместника на Кавказе. (1916). Казенный дом. Тифлис, – 310 с.
20. Hacıyev, İ. M., Quliyev Ə. A. (1998). Tarihte ve günümüzde Nahçıvan. – Ankara: Ankara Universitesi Basım evi, – 92 s.
21. Zeynalov, Ə. M. (1999). İrəvan ziyalıları. – Bakı: Oğuz eli, – 368 s.
22. Şərif Ə. Q. (1957). Cəlil Məmmədquluzadənin mühiti (1894-1903). "Azərbaycan" jurnalı, № 2, – s. 25-29
23. Şamilov, Ə. H. (1986). İkinci Mirzə Cəlil. "Sovet Naxçıvanı" qəz., 27 dekabr 1986, № 297
24. Ordubadi M. S. (2012). "Həyatım və mühitim" (Toplayanı, tərtib edəni, çapa hazırlayanı və ön sözün müəllifi İ.Ə.Həbibbəyli). – Naxçıvan: Əcəmi, – 336 s.
25. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.1, siy.4, iş 312, v.2-23.
26. "Molla Nəsrəddin" jurnalı, 17 noyabr 1908, № 46
27. Məmmədov, İ. S. (2003). Tariximiz, torpağımız, taleyimiz. – Bakı: Adiloğlu, – 700 s.

SUMMARY

Taleh Khalılov

EDUCATIONAL ACTIVITY OF NAKCHIVANI GRADUATES OF IRAVAN TEACHERS' SEMINARY

In the article, the educational activity of Nakhchivan graduates of the Yerevan Teachers' Seminary was studied. It was determined that the intellectuals from Nakhchivan, who were educated at the Yerevan Teachers' Seminary, rendered great services in the opening of new schools in Nakhchivan and the training of teachers. They have done important work in the field of conducting training in the mother tongue, preparing textbooks in the mother tongue, nationalizing the content of education and applying new teaching methods.

Key words: *Nakhchivan, Yerevan, education, school, class, pupil, teacher*

QƏRBİ AZƏRBAYCAN QADIN GEYİM MƏDƏNİYYƏTİ
(Aşıq Ələsgər yaradıcılığına əsasən)

Aytəkin QƏHRƏMANOVA
aytekin1962@mail.ru
Naxçıvan Müəllimlər İnstitutu

Məqalədə Aşıq Ələsgər yaradıcılığında XIX-XX əsrin əvvəllərinə dair təsvir edilən Qərbi Azərbaycan qadın milli geyim növləri tədqiq edilmiş və bölgənin geyim mədəniyyəti haqqında müəyyən fikirlər söylənilmişdir.

Tədqiqat zamanı Aşıq Ələsgər yaradıcılığında təsvir edilən Qərbi Azərbaycan qadınlarının atlas, şal, alaca, qumaş, ipək, darayı, mahud, tirmə, xara və s. parça növlərindən istifadə etdikləri haqqında məlumat verilmişdir. Məqalədə qadın geyimlərindən olan alt və üst, həmçinin baş və ayaq geyimləri tədqiqata cəlb edilmişdir. Milli geyim növlərindən olan köynək, dizlik, arxalıq, çuxa, çəpkən, nimtənə, don və digərləri təhlil edilmiş, müqayisələr aparılmışdır.

Aşıq Ələsgərin yaradıcılığının təhlilindən belə bir nəticəyə gəlinmişdir ki, incə zövqə, yüksək bədii duyuma, çevik həyat tərzinə malik olan Qərbi Azərbaycan qadınları XIX-XX əsrin əvvəllərində də geyimlərində istifadə etdikləri materialın gözəlliyinə, keyfiyyətinə və rahatlığına xüsusi diqqət yetirmişlər. Sonda belə bir qənaətə gəlinmişdir ki, ölkəmizin ayrı-ayrı bölgələrində geyim növlərində müəyyən lokal-məhəlli xüsusiyyətlər olmasına baxmayaraq, ümumazərbaycan xarakteri daşımışdır.

Açar sözlər: *Qərbi Azərbaycan, Göyçə, Aşıq Ələsgər, milli qadın geyimləri, alaca, atlas, ipək, çəpkən, çuxa, dizlik, don, kəlağayı.*

Xalqın tarixi ilə möhkəm bağlı olan geyimlər, onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdən biridir. Geyimlər, maddi-mədəniyyətin bütün başqa ünsürlərindən daha çox xalqın milli xüsusiyyətlərini əks etdirməklə yanaşı, sabit etnik əlamətlər sırasına daxildir. Məhz bu nöqteyi-nəzərdən Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş edən, xalqımıza öz sazı və sözü ilə 80 ildən artıq ləyaqətlə xidmət edən Dədə Ələsgərin yaradıcılığını Qərbi Azərbaycanın qadın geyim mədəniyyəti nöqteyi-nəzərindən zəngin etnoqrafik mənbə hesab etmək olar.

Geyimlər etnogenez məsələlərini aydınlaşdırmaq, xalqlar arasında mədəni-tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini müəyyənləşdirmək işində müəyyən rol oynamaqla, xalqın həm təsərrüfat sahələrinin səviyyəsindən, həm də coğrafi şəraitindən asılıdır.

Öncə qeyd edək ki, Azərbaycanın Qərb zonasında da XIX yüzil və XX yüzilin əvvəllərində əhalinin geyim materialı kimi, əsasən yerli ustalar tərəfindən kustar üsulla üfiqi toxuculuq dəzgahlarında-kərəkdə toxunmuş qılıcı şaldan, müxtəlif növlü və müxtəlif rəngli ipəkdən, nazik yun və pambıq parçalardan, həmçinin aşılanmış gön və dəridən istifadə edirdilər [6, s.152]. Lakin bölgədə əhalinin varlı təbəqəsinin geyimi əsas etibarilə ipək tafta, darayı, qanovuz, atlas, alaca, xara və s. parçalardan ibarət idi ki, bunların da çoxu satınalma yolu ilə əldə edilirdi.

Aşığın yaradıcılığının böyük bir qismi doğulub boya-başa çatdığı Göyçə mahalının

gözəllərinin tərifindən ibarətdir. Onun qəhrəmanları xəyalında yaratdığı obraz deyil, real həyatda-aşıq məclislərində və xalqın toy-düyünlərində, bulaq başında gördüyü sadə kəndli qızlarıdır. Aşıq Ələsgər tərifladiyi qız-gəlinin zahiri gözəlliklərini, milli geyim və bəzəklərini elə məharətlə təsvir edir ki, gözlərimiz önündə XIX-XX əsrin əvvəlləri Qərbi Azərbaycan qadınlarının milli geyimləri, həmçinin geyimlərin rəngləri və geyimlərə vurulan dekorativ bəzəklər, onların timsalında bütün Azərbaycan qadınlarının geyimləri haqqında mükəmməl, aydın təsəvvür yaranır.

Dədə Ələsgərin yaradıcılığında təsvir edilən Qərbi Azərbaycan qadınlarının geyim növlərinin əksəriyyəti atlaz, ipək, qanovuz, darayı, xara, alaca, mahud, zərxara parçalardan ibarətdir. Rəng çalarlarına gəldikdə isə Qərbi Azərbaycan qadınlarının geyimlərində rəngarəng olaraq al, yaşıl, sarı rəng çalarları üstünlük təşkil edirdi. Aşıq deyir:

Mənim yarım **yaşıl** geyib incidir [4, s.104].

Yaxud:

Xub yaraşır əndamına
Geyinibdir **sarı** gözəl [4, s.137].

Yaxud da

Geyinib əndamına
Əbru **ətlaz, alı** gözəl [4, s.147].

Qərbi Azərbaycan qadınlarının geyimlərində al, yaşıl, sarı rəng çalarları üstünlük təşkil etdiyi halda, Bakı geyimlərinin rəng seçimində ən çox bənövşəyi rəng çalarlarından, həmçinin açıq qəhvəyi, solğun xardal rəngi, ağ, tünd mavi rənglər üstünlük təşkil etmişdir. Qarabağ geyimlərində üst tuman və üst çiyin geyimi ya eyni ya da uyğun rənglərdə, köynək isə tuman və arxalığın rənginə nisbətən açıq və parlaq rənglər seçilirdi. Naxçıvan geyimlərində innabı, yaşıl, gümüşü rənglərdən istifadə edirdilər [6, s.113]. Ümumiyyətlə, bölgələr üzrə müqayisə apardıqda belə qənaətə gəlmək olur ki, geyimlər bölgənin təbiəti və iqlim xüsusiyyətlərinə uyğun gəlirdi. Bununla yanaşı, XIX-XX əsrin əvvəllərində Azərbaycanın ayrı-ayrı tarixi etnoqrafik bölgələrində geyimlərdə lokal-məhəlli xüsusiyyətlər, bölgəyə məxsus detallar müəyyən dərəcədə özünü göstərsə də, tipoloji cəhətdən ümumazərbaycan səciyyəsi daşıyırdı.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qərbi Azərbaycanda da geyim dəsti **alt** və **üst** geyimlərinə bölünürdü. Qadın alt paltarları alt köynəyi (müxtəlif bölgələrdə ona "can köynəyi" və "ət köynəyi" də deyirdilər), cütbalaq (enli şalvar) və darbalaqdan (dizlikdən) ibarət olmuşdur [2, s.93]. Aid olduğu dövrdə Qərbi Azərbaycan qadınlarının alt köynəyi əldə toxunma ilə yanaşı, daha çox fabrik istehsalı olan pambıq və ipək parçalardan biçilib-tikilirdi. Qadın alt paltarı geyiminə aid edilən istər dizliklər, istərsə də can və üst köynəkləri sahibinin iqtisadi durumundan asılı olaraq, bahalı parçalardan - ipək, qanovuz, darayı, atlas, xara, həmçinin ucuz başa gələn bezdən, midqal, şilə, qədək və humayın ağından tikilirdi. Can köynəyi uzunətəkli, xişdəkli və peşli tuniki biçim üsulunda hazırlanırdı [8, s.141]. Kasıb qadınların alt köynəkləri bəzəksiz olub, açılıb-bağlanması üçün boyunduruğu iki ədəd ilgək-düymə ilə bağlanır, varlı qadınların alt

köynəklərinin yaxa kəsiyi və qollarının ağzına bəzən başqa parçadan köbə qoyulur, bəzən də bəxyə salınır və qızıl düymə ilə düymələnirdi. Qərbi Azərbaycan qadınlarının alt köynəyi isə dizdən bir qədər yuxarı, qolu uzun, düz və qolunun altı xişdəkli tikilərmiş. Yaxasına öndə "bir qarış, dörd barmaq", arxada "bir qarış" olmaqla ikinci qat tikilərmiş. Bəzən xişdək elə kəsilərmiş ki, qol altından başlayaraq ətəyə də genişlik verilsin [5, s.114].

Aşığının yaradıcılığında Qərbi Azərbaycan qadın alt geyimlərindən olan dizlik və köynəyin qiymətli paçalardan tikildiyini müşahidə edirik. Onun əsərlərinin təhlili zamanı yalnız bir təcnisində qadının ağdan paltar geyindiyi təsvir edilir. Aşıq "Nəs ağa belə" təcnisində deyir:

Zər-ziba xələti pünhan eylədin,
Biçdirdin qəddinə **nəs ağı** belə [4, s.98]

Aşığın bu təcnisində vəsf etdiyi gözəlin geyindiyi "nəs ağ" yüksək keyfiyyətli ağ parçadır. Bu barədə Azərbaycan milli geyimlərinin tədqiqatçısı S.Dünyamalıyeva yazır: "XIX yüzildə parça istehsalı kəskin şəkildə azalır, geyimlər əsasən idxal parçalardan tikilirdi. Yüksək keyfiyyətli ağ parça istehsalı artırdı" [5, s.152].

Aşıq "Dal-dala" cığalı təcnisində tərif etdiyi gözəlin köynəyinin düymələrindən bəhs edir:

Açılıb yaxan bəndi,
Çək, truncun daldala [4, s.94]

Yaxud: "buxaq düymələnib kağızdan bəyaz",-deməklə aşıq Azərbaycan gözəlinin geyindiyi köynəyinin düymələrindən bəhs edir.

Müqayisəli təhlil apardıqda məlum olur ki, Qərbi Azərbaycan qadınlarının köynəkləri ilə Qarabağ qadınlarının köynəkləri eynilik təşkil edir. Bu haqda F.Vəliyevin və G.Abdulovanın "Qarabağ geyimləri" kitabında maraqlı məlumatlar öz əksini tapıb [13, s.33].

Aşıq Ələsgərin əsərlərinin təhlilindən aydın olur ki, XIX-XX əsrin əvvəllərində Göyçə mahalının qadınları alt geyim dəsti olan dizlikdən daha çox istifadə etmişlər. Aşığın "Qırmızı" qoşmasında darbalaq-dizlik belə təsvir edilir:

Mərnuz d**izlik** geyib, çəpgəni **ətlaz** [4, s.62]

Yaxud: "Həcər" müxəmməsində deyir:

Ağ ipəkdən dizliyi var, köynəyini geyib **sarı** [4, s.140]

Onu da qeyd edək ki, Qərbi Azərbaycanın, xüsusən Göyçə mahalının qadınlarının dizlikləri ilə Naxçıvan qadınlarının dizlikləri eynilik təşkil edirdi. Hər iki mahalın qadınlarının geydikləri dizliklər topuğa qədər uzun olub, topuqda büzülürdü. Naxçıvan qadınları kimi Göyçə mahalının qadınları da dizliyə çox vaxt "topuqluq" deyirdilər. Bakı ərazisinin qadınları da darbalaq-dizlik geyim növündən istifadə edirdilər. Azərbaycan etnoqrafiyasında Abşeron qadınlarının darbalaq-dizlik geydiklərini vaxtilə buraya səyahət edən S.Q. Omerlinin də müşahidə etdiyi yazılır [2, s.94].

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qərbi Azərbaycan bölgəsində də

qadın üst geyimlərinə üst köynəyi, çəpkən, çərkəzi, ləbbadə, nimtənə, küləcə, arxalıq; baş geyimlərinə çalma, ləçək, örpək, şal, kəlağayı; ayaq geyimlərinə isə başmaq, corab; bellərinə kəmər və müxtəlif bəzək növləri daxil idi. Bu üst geyim tiplərinin əsas elementlərindən biri **üst köynəyi** idi. Qadın üst köynəkləri bölgələr üzrə müəyyən fərqli xüsusiyyətlərə malik olsa da, ümumazərbaycan səciyyəsi daşıyırdı. Alt köynəklərində olduğu kimi, üst köynəkləri də sahibinin iqtisadi durumundan asılı olaraq, kasıblar ucuz parçalardan, varlılar isə bahalı parçalardan olan qanovuz, darayı, atlas, xara və s.-dən tikilirdi. Adətən, üst köynəyin tikilişində qoltuğunun altına fərqlənən parçadan xişdək qoyulurdu. Onu da qeyd edək ki, Azərbaycan qadınları bütün bölgələrdə geyimin estetik gözəlliyinə xüsusi diqqət verirdilər. Onlar üst köynəkləri ilə yanaşı, digər üst geyimlərinin sinəsini, tikişlərin kənarlarını, yaxa və qolçaqlarını, ətəklərini xüsusi bəzək elementlərindən olan tikmələr, çaxma və asma metal bəzəklər, cürbəcür baftalar, şahpəsəndlər, zəncirələr, muncuqlar, piləklərlə və s. ilə bəzəyirdilər. Bu cür bəzək elementləri A.Ələsgər yaradıcılığında da özünü göstərir:

Güləbətin qıyı tər sinə üstə,
Nə gözəl yaraşır qız köynəyinə [4 s.137]
Yaxud:
Əynində **zər güləcə**
Ətəyində **zər baftası** [4 s.140]

Aşıq Səhnəbanunun geydiyi üst köynəyini tərif edərkən köynəyin yaxasının "güləbətin" tikmələrlə bəzədildiyini göz önünə gətirir. Güləbətin tikmə Azərbaycanda ən qədim tikmə növlərindən biri olaraq Şəki, Şamaxı, Şuşa və Naxçıvanla yanaşı, Göyçə mahalında da inkişaf etmişdir [1, s.497].

Aşıq "zərbafta" deyərkən küləcənin ətəklərinin gülabətinli-zərli saplarla ipək parçadan toxunmuş zər baftası-qaytanı təsvir edilir. Bafta-güləbətin ipək sapla toxunmuş qaytandır [3, s.198].

Aşıq Ələsgər Səhnabanunu tərif edərkən deyir:
Zərgər gül doğrasın **zərin tiladan**,
Əlindən gəldikcə düz köynəyinə [4, s. 197]

Bu beytdə aşıq pilək tikmə növünü təsvir edir. Pilək tikmə növündən Azərbaycanın əksər bölgələrində, o cümlədən Qərbi Azərbaycan bölgəsində də qadınlar istifadə edirdilər. Onu da qeyd edək ki, pilək və pərək zəranduz tikmə növü zərgərlik sənəti ilə üzvi surətdə bağlı olmuşdur. Bəzən tikmə bilavasitə məmulat üzərinə müəyyən qayda ilə tikilib bəndlənir, bəzən isə ayrıca ensiz parça zolağının üzərinə bəndləndikdən sonra üst geyimlərin qollarına və ya ətəklərinə bəndlənirdi. Pilək tikmə həmişə başqa növ tikmələrlə-güləbətin, təkəlduz, qondarma, məxmərtel və s. ilə uyğunlaşdırılırdı.

Aşıq gözəlləri tərif edərkən onların geyindikləri qadın üst geyimlərindən olan, **"küləcə","nimtənə", "çəpkən", "don", "alaca", "alı"** və digərlərinin də adlarını sadalayır. Aşıq "Mələk" müxəmməsində deyir:

Geyinib əndamına
Əbru ətlaz, alı gözəl;
Xara **don**, zərin **nimtənə**,
Başındakı şalı gözəl [4, s.147].

Aşığın tərif etdiyi gözəlin geyindiyi paltar atlasdandır və al rənglidir. Bu da təbiidir, çünki ipək parça toxuculuğu olan şərbaflıq XIX əsrdə Azərbaycanda ən yüksək inkişaf mərhələsinə çatmışdır. Onu da qeyd edək ki, 1861-ci ildə Nuxada fəaliyyətə başlayan fabrikdə 1200-1400 pud ipək məhsulu istehsal olunurdu. Bundan əlavə, Nuxa qəzasında 33, Qarabağda 19, Ordubadda 2 fabrik xarakterli ipəkçilik müəssisəsi vardı [9, s.289]. Bu dövrdə ipək parça növlərindən olan "məni aldatdı", "alışdım-yandım", "gecə-gündüz", "şəmsi-qəmər", "darayı, "xara" və s. qadınlar tərəfindən daha çox bəyənilirdi.

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda kapitalist münasibətlərinin inkişafı nəticəsində Avropa biçimli qadın geyim elementlərindən biri olan **"don"** xalqın məişətinə daxil olmağa başladı. Bu dövrdən etibarən Bakıda arxalıq və küləcə tipli qadın və kişi geyimlərini əhali "don" adlandırmağa başladılar. Don bütövbədənli olur, gövdə və qollardan ibarət biçilib-tikilirdi və onun üç forması (gövdəli, kəmərçin, büzməli) var idi [2, s.98]. Varlı qadınlar donlarının ətəklərinə sərmə, güləbətin, yaxasına isə qızıl kəsmələr tikərdilər. Aşıq Ələsgərin "Mələk" müxəmməsində tərif etdiyi gözəlin əynində özündən naxışları olan xara ipək don var. Aşıq həmin müxəmməsində qadın geyimlərinin ən bəzəklisi və zəngini olan **nimtənə** haqqında da danışır. Nimtənə qızıl sapla toxunan zərbaftan hazırlanırdı. Zərbaft isə qızıl və ya güləbətinlə qarışıq hazırlanan qiymətli parça idi. Qadın üst paltarı olan nimtənə gündəlik geyim kimi yun və pambıq parçadan, boğçalıq, toy-düyün paltarı kimi məxmər darayı, tirmə və başqa parçalardan hazırlanırdı. Nimtənənin ətəyinə, qollarının ağzına, yaxa və yan kəsiklərinə qızıl-gümüş düymələr bəndlənir, müxtəlif tikmələrlə bəzədilirdi. Aşıq Ələsgərin adı qeyd olunan müxəmməsində qadının tikmələrlə bəzədilən zərli nimtənə geyindiyi təsvir edilir.

Onu da qeyd edək ki, təkcə Aşıq Ələsgər yaradıcılığında deyil, aşıqlardan Dirili Qurbani, Xəstə Qasım, Aşıq Abbas Tufarqanlının şeirlərində də nimtənə (mintənə) qadın üst geyimi kimi tərənnüm olunur [11, s.39; 12, s.41]. Nimtənə XX əsrin ortalarına qədər sevilə-sevilə geyinilir [14, s.167-168].

Tipoloji cəhətdən çəpkənlə eynilik təşkil edən nimtənə haqqında məlumata Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərində də təsadüf edilir. Həmin əsərdə şair yazır: "Onların donu (nimtənəsi) başdan dizə qədərdir" [7, s.186]. Buradan aydın olur ki, nimtənə haqqında yazılı məlumatlar XII əsrə qədər gedib çıxır.

Aşıq Ələsgər "Qırmızı" qoşmasında tərifləyiri qız-gəlinin geyindikləri qadın üst geyimlərindən olan **çəpkəni** belə təsvir edir:

Qüdrətdən çəkilib qaməti-şahbaz,
Mərnus dizlik geyib, **çəpgəni** ətlaz [4, s.62].

Aşığın tərif etdiyi gözəllərin üst geyimlərinin təhlilindən aydın olur ki, nimtənə ilə çəpkən eyni mahiyyətə malik olan qadın üst geyimidir. Etnoqrafik və sənətşünaslıq

ədəbiyyatında da çox vaxt qadın üst geyim tiplərindən olan nimtənə (mintənə) ilə çəpkən tipoloji oxşarlıq təşkil etdiyinə görə eyni bir geyim tipi kimi qəbul olunur. F.Vəliyev yazır ki, Azərbaycanın Şəki, Bakı, Şamaxı, Naxçıvan, İrəvan, Lənkəran, Gəncə, Qərb, Şuşa və b. bölgələrində geyilən qadın üst geyimləri birbaşa çəpkənin sələfləridir [15, s.33].

Çəpkən qadın üst geyim növü olub, köynəyin üstündən geyilir və astarlı tikilir, bəzən isə yüngül sırınır və bədənə kip biçilirdi. Çəpkən ona görə astarla tikilirdi ki, o həm paltarın davamlılığını artırır, həm də onun istifadə müddətini uzadırdı, bununla yanaşı, əl tikişlərinin üstünü örtməklə, paltarı səliqəli göstərirdi. Çəpkən iqtisadi durumdan asılı olaraq, ipək parçalardan məsələn, məxmər, tirmə, zərxara, tafta, qumaş, atlas, həmçinin pambıq, yun və adi parçalardan hazırlanırdı. Etnoqrafik ədəbiyyatda uzunqol və sallama qol olmaqla çəpkənin iki növü olduğu qeyd olunur. Uzunqol çəpkən dirsəyə qədər dar olur, sonra isə enlənir. Çəpkənin yaxasının hər iki tərəfində cərgə ilə qızıl və gümüş pullar tikilirdi. Aşıq Ələsgər "Görürsənmi oğrun baxan gözəli" qoşmasında deyir:

Yaxası qızıldan düymələnibdi [4 s.52]

Çəpkənin bədənə kip oturması üçün çəpkənin yuxarı hissələri ətəyə yaxın yerdə bir metr uzunluğunda gümüş və ya qızıl zəncirlə çal-çarpaz bağlanırdı [8, s.146]. Çəpkənin ucu əlcəklə bitən qondarma qolları olurdu. Bu qolun kənar tikiş xətləri boyunca bəzəkli düymələr və ilgəklər tikilirdi.

Qadın üst geyimlərindən biri də **arxalıq** olmuşdur. Lakin bölgələr üzrə onu müxtəlif adlarla adlandırmışlar. Abşeron bölgəsində **"don",** Azərbaycanın Qərb bölgəsində isə **"küləcə"** adlandırılmışdır. Aşıq Ələsgərin "Şahpəri" müxəmməsində küləcə qadın üst geyimi belə tərənnüm edilir:

Əynində xas **güləcə** (küləcə-A.Q.) [4, s.155].

Küləcənin yaxa kəsiyi oval formada biçilir, yaxası boyhaboy açıq olur və qolları düzdəmə tikilərək ensiz bilərziklə tamamlanırdı. Küləcə qurşaq yerində xırda düymə və ya çarpaz vasitəsilə tamamlanırdı. Bəzək elementləri ilə olduqca zəngin olan küləcənin yaxası, bel ətəkləri, qollarının ağzı, gülabətin, muncuqlu pilək, məlilə tikmə, zəncirə, bafta, piləkli doldurma və s. ilə işlənirdi. Qeyd olunmalıdır ki, küləcə Gəncəbasar, Borçalı, Naxçıvan, Şirvan, İrəvanda qadınların bayramlıq geyim növü olmuşdur. Bu məqsədlə də qadınlar digər üst geyimlərindən fərqli olaraq, küləcəyə daha çox bəzək elementləri vurmuşlar. İqtisadi durumundan asılı olaraq, varlılar küləcəni daryı, qanovuz, atlas, məxmər və s.-dən, kasıblar isə ucuz pambıq parçalardan astarlı tikirdilər. Küləcə çəpkənlə tipoloji oxşarlıq təşkil etsə də, qolunun biçiminə və ətəyinin uzunluğuna görə çəpkəndən fərqlənir.

Aşığın əsərlərinin təhlili zamanı xalq arasında "al", "ala", "alışan" adı ilə tanınan **"alaca**" parça növündən hazırlanan qadın üst geyim növünə də rast gəlinir. Aşıq "Ay ana, ana" müxəmməsində deyir:

Geyibdir qəddinə yar **alacanı**
At müjgan oxunu, yarala canı [4, s.90].

Alaca parça növü əsasən yundan və ipəkdən hasil olmuş, kətan hörgülü, sıx toxunuşlu möhkəm və davamlı qədim toxunma parçadır. İpəkdən hazırlanan alaca

şərbaflıq sənətininin istehsal forması olan xam ipək toxuculuğu nəticəsində əldə edilir. Arif Mustafayev yazır: "Şərbaflıq sənətində texnologiyası və inkişaf səviyyəsi etibarilə bir-birindən fərqlənən iki başlıca istehsal forması: keci və xam ipək toxuculuğu təşkil edir". Müəllif qeyd edir ki, kecidən toxunan ipək məmulatları arasında cecim, tətinlik, xas qırmızı, alyoşa, alaca, çuxa, şalvar, köynək və s. mühüm yer tuturdu [1, s.485-486].

Aşıq Ələsgər "Həcər" müxəmməsində Həcəri tərənnüm edərkən onun paltarının **darayı** parçadan olduğunu söyləyir:

Hər paltarı **darayıdır** [4, s.140]

Darayı xam ipəkdən hazırlanan məmulat növünə aiddir [1, s.492]. Sıx toxunuşlu, sapı tovlu, bişmiş baramadan (gəci) toxunan, üzü qeyri-şəffaf qədim xalq toxumasıdır. Darayı toxumalar zolaqlı, həm də dama-dama naxışlı olur. XIX-XX əsrin əvvəllərində Azərbaycan qadınlarının geyimlərinin çox qismi darayı parçalardan hazırlanırdı. XIX əsrdə darayı toxuculuğu Şamaxı, Gəncə və Şirvanda geniş yayılmışdır [16].

Azərbaycanın bütün bölgələrində ənənəvi qadın geyimlərinin kompleksi içərisində **baş geyimləri** xüsusi yer tutmuşdur. XIX-XX yüzilliyin əvvəllərində Azərbaycan qadınlarının baş geyimləri **geymə** (qoyma) və **bağlama** (örtmə) olmaqla iki qrupa bölünür [2, s.107]. Azərbaycanın Qərb zonasında da geymə qadın baş geyimlərinə araçqın, təsək, dingə və s.; bağlama-örtmə baş geyimlərinə ləçək, çarqat (qəşbənd), kəlağayı, şal, örpək, niqab, rübənd, çadra və s. daxildir.

Aşığın əsərlərinin təhlili zamanı qadın baş geyimlərindən olan kəlağayı, şal, rübənd adlarına təsadüf olunur. Qeyd edək ki, Azərbaycan qadınlarının örtmə (bağlama) baş geyimlərinin böyük bir qismini kəlağayı təşkil edir. Yaşa və zövqə uyğun olaraq, qırmızı, qara, ağ, palıdı yerli və s. kəlağayılar geniş yayılmışdır. Həm yerli kustar istehsala məxsus Gəncə, Şəki, Şamaxı, Basqal kəlağayıları, həm də gətirmə kəlağayılar ("kolxana" və ya"korxana", "qonşuçatladan", "bağdatı", "heratı", "hələbi" və s.) varlı qadınların gündəlik geyim dəstində, yoxsulların isə bayramlıq (boxçalıq) paltarları içərisində əsas yer tuturdu [13, s.49]. Aşıq "Giləyə" müxəmməsində deyir:

Başında **herat** kəlağay,
Bənzər göllər sonasına [4, s.136].

Kəlağayı ipək parçadan tikilmiş dördkünc formalı baş örtüyüdür. Bu örtük gözəllik, ismət, ləyaqət, ehtiram, sədaqət rəmzi olmaqla yanaşı, Azərbaycanda qədimdən məlumdur. Kəlağayı Azərbaycanın Təbriz, Gəncə, Şamaxı, Şəki və Naxçıvan şəhərlərində yüksək keyfiyyətlə hazırlanırdı.

Aşıq Ələsgər müxəmməsində "heratı" kəlağayıdan bəhs edir. Çox güman ki, bu kəlağayı gətirmə kəlağayı olduğu üçün, yəni Herat şəhərindən gətirildiyinə görə, şəhərin adı ilə adlanmışdır. Qadınlar kəlağayını başa bağlamaq üçün onu diaqonal boyunca qıyqacı edir, uclarından birini sinə üstünə sərbəst atır, digər ucunu sərbəst qalan qanadın üstündən kürəyə atırdılar. Bəzən, kəlağayının kürəyə atılan qanadından yaşmaq kimi də istifadə edirdilər. Bəzən isə, kəlağayının hər iki ucu arxaya atılaraq boyunun ardında düyünlənirdi.

Aşığın yaradıcılığında təsvir edilən XIX əsr Qərbi Azərbaycan qadın baş geyimlərindən biri olan və mövsümdən asılı olaraq, istifadə edilən **baş şalıdır**. Aşıq "Mələk" müxəmməsində Mələyin geyindiyi gözəl geyimləri ilə yanaşı, başına örtdüyü şalı da nəzərdən qaçırmır:

Geyinib əndamına
Əbrü, ətlaz, alı gözəl,
Xara don zərin nimtənə,
Başındakı **şalı** gözəl [4, s.147]

Aid olduğu dövrdə baş şalı kustar üsulla yerli karxanalarda toxunmaqla yanaşı, qadınların özləri də ağ yun ipdən kvadratşəkilli dördbucaq formada toxuyur və qıraqlarında toxunan ipdən saçaqlar qoyurdular. Bu baş şalı, Göyçə mahalı ilə yanaşı, Naxçıvan və Qazax bölgəsində də toxunurdu və XX əsrin 70-ci illərinə qədər qadınlar şalı başa örtməklə yanaşı, çiyin örtüyü kimi də istifadə edirdilər. Bu şalı toxuculuğu mükəmməl bilən qadınlar ağ güzəm yunu yumşaq olduğu üçün ondan hazırlanmış ipdən toxuyurdular. Mənbələrdə XIX yüzilliyin 80-ci illərində Qazax qəzasında 500 ədədə qədər yun şal toxunduğu yazılır [2, s.112]. Onu da qeyd edək ki, Qazağın bəzi dağ kəndlərində yun şalı dəvə yunundan da toxuyurmuşlar.

Etnoqrafik ədəbiyyatda qadın baş geyimlərindən birinin rübənd olduğu qeyd olunur. Aşıq Ələsgər rübənd haqqında "Dolanır" qoşmasında deyir:

Məni qoca gördü, **ürbəndin** açdı,
Ala gözlərinə gözüm sataşdı [4, s.41]

Rübənd üzü kənar adamlardan gizlətmək üçün bir vasitə idi. Lakin aşığın təsvirindən aydın olur ki, qız-gəlinlər yaşlı adamlardan çəkinmədiklərinə görə onların yanında üzlərindən rübəndlərini açırlar. Onu da qeyd edək ki, Naxçıvanda da yayılmış baş geyimləri içərisində rübəndlər xüsusi yer tuturdu. Bu, əsasən İslam dinin tələbləri ilə bağlı olmuşdur [10, s.52-53]**.**

XIX yüzillikdə qadın geyimlərinin bir qismini də **ayaq** geyimləri təşkil edir. Bu dövrdə ayaq geyimlərinin əsas növü başmaq olmuşdur. Azərbaycanın bütün bölgələrində XIX əsrə aid qadın ayaqqabıları arxası açıq, hündür dabanlı, pəncə üstü müxtəlif rəngli müşkü və tumacdan, altlığı isə aşılanmış göndən hazırlanaraq "zənanə", "miyanə" və "qız başmağı" olmaqla üç ölçüdə tikilir, sifarişindən asılı olaraq, yüksək zövqlə bəzədildiyi qeyd olunur [2, s. 115]. Ayaqqabılar ayaqda gözəl görünsün deyə, əlvan saplarla və ya qızılı simlərlə tikilir, daban oturacağına isə əlvan parçalardan "döşəmə"qoyulardı.

Aşığın "Baxın" müxəmməsində qadınların geyindiyi "sarğı başmaq" haqqında belə deyir:

Yaraşır əndamına
Yaşılı, alı gözəlin;
Ayağına **sarğı başmaq**,
Başına şalı gözəlin [4, s.125]

Sarğı başmağı keçmişdə atın sağrı gönündən hazırlayırdılar. Heyvanın quyruq tərəfindəki sağ və sol yanlarına, eləcə də həmin yanların dərisinə sarğı deyilir. Sarğı dərisindən keyfiyyətli ayaqqabı hazırlanır [17]. Mənbələrdə Qarabağ və Ordubadda da imkanlı ailələrin "sarğı başmağ"a daha çox üstünlük verildiyi haqda məlumatlar öz əksini tapıb [13, s.52; 2, s.116]. Aşıq Ələsgərin əsərinin təhlilindən aydın olur ki, XIX-XX əsrin əvvəllərində Qərbi Azərbaycan bölgəsində də qadınlarının ayaq geyimləri içərisində sarğı başmaqların xüsusi yeri olmuşdur. Təbii ki, bu cür başmaq növləri varlı zümrələrə məxsus olmuşdur.

Aşıq Ələsgər yaradıcılığında qadın ayaq geyimlərindən olan **məst** "Bu dala bax, bax" təcnisində belə təsvir edilir:

Əylən məclisində, gəlməsini gör,
Sarğı başmaq geyib, gəl, **məsini** gör
Bimürvət gözəlin gəlməsini gör ,
Qəsd edir, canımı bu da ala, bax, bax! [4, s.93]

Aşığın təsvir etdiyi gözəlin sarğı başmağı ilə yanaşı, onun məsi (məstini (ayaqqabısını)-A.Q) olmasını da təsvir edilir. Məsti qadınlar, adətən, ev şəraitində geyinirdilər. Bu ayaqqabı nisbətən yumşaq dəridən hazırlanır, başlıca olaraq qara, qırmızı, tünd-göy, yaşıl rəngli olub, altı aşılanmış göndən, üstü isə müşkü və tumacdan hazırlanırdı [14, s.53].

İncə zövqə malik olan Azərbaycan qadınları, adətən, geyim tərzlərini tamamlamaq üçün bellərinə kəmər bağlayardılar. Azərbaycanda kişi və qadın bel kəmər və toqqalarının "ətəkli", "təkbənd", "gülbelbağı", "saltoqqa", "çilik toqqa", "gümüş kəmər", "zərli kəmər", "sikkə" kəmər və s. növləri olmuşdur [2, s.153]. Aşıq Ələsgər yaradıcılığında qadınların bellərinə bağladıqları gümüş kəmərlərdən bəhs olunur. Aşıq "Ay yağa məni" təcnisində deyir:

Mənim yarım yaşıl geyib incidir,
İncə beldə **gümüş kəmər**, inci dürr [4, s.104]

Təcnisdə tərənnüm olunan qadının belinə gümüş kəmər bağlandığı və qiymətli daş-qaşla bəzədildiyi təsvir edilir. Qadınların kəmərləri içərisində yayılma arealına görə üstün yeri "sallama" (ətəkli) kəmərlər tuturdu. Bu kəmərin ətəyinə kəmərdən aşağıya doğru 10-15-20 qəpiklik qulplu gümüş pullar gümüş zəncirlər vasitəsi ilə aypara formasında bir-birinə bənd edilirdi. Bir qayda olaraq, kəməri qızlar deyil, gəlinlər gəzdirirdi və gəlin köçən qızların toy-nişan paltar dəstlərinin içərisinə gümüş və bəzən də qızıl kəmər qoyardılar.

XIX-XX əsrlərdə qadın geyimlərində əvvəllər olduğu kimi, çox sayda bəzəklərdən istifadə olunurdu. Bu bəzəklər baş bəzəyi, boyun bəzəkləri, sinə bəzəkləri və s.-dən ibarət idi. Aid olduğu dövrdə İrəvanda, həmçinin Göyçə mahalında geniş yayılmış bəzəklər boğazaltından, sərmədən, arxalığın çiyninə bənd edilən gərdənlikdən, həmayil, çəçik, mirvari düzümü, həmçinin boğazaltı elementlərindən düzəldilmiş alınlıqdan ibarət olmuşdur [5, s.132-133]. Aşıq Ələsgər yaradıcılığında qadın üst geyimini tamamlayan sinə bəzəklərindən olan həmayil və mirvari düzümünü belə tərənnüm edir:

Gərdənə **həmayil** salıb
Ətəyə düzüb **mirvari** [4 s.140].

Aşıq Ələsgərin əsərlərinin təhlili zamanı qadın ayaq geyimlərindən olan **coraba** da rast gəlinir: "Corab nə corab! Süd kimi ağ toxunub, üstündəki burma naxışları adamı valeh edir" [4, s.378]. Ölkəmizdə qış aylarında ayaq geyimləri içərisində yundan toxunan corablar xüsusi yer tuturdu. Yun corabları qadınlarla yanaşı, kişilər də geyinirdilər. Corabların iki növü vardı: rezinli və saya. Rezinli corab toxunarkən əvvəlcə dörd sülüyə (corab milləri) ilmələr düzülür və beşinci sülünün köməyi ilə hörmə işləri aparılırdı. Bundan sonra ilmənin biri tərsinə, digəri isə düzünə götürülməklə 7-8 sm hörüldükdən sonra, daha ilmə tərsinə deyil, düzünə, saya üsulla toxunurdu. Bəzəkli corablara rezin toxunmur, hörmə işi rəngli iplər vasitəsi ilə aparılırdı. Əhali arasında həndəsi, bitki və xalça ornamentləri olan corablar daha çox yayılmışdı. Ən çox işlədilən naxışlar "göl", "qarğa ağzı", "alamuncuq" və s. idi.

Nəticə etibarı ilə demək olar ki, XIX-XX əsrin əvvəllərində Azərbaycanın ayrı-ayrı tarixi etnoqrafik bölgələrində olduğu kimi, Qərbi Azərbaycan bölgəsində də qadınlar incə zövqə, yüksək bədii duyuma, çevik həyat tərzinə malik olmuş, geyimlərində istifadə etdikləri materialın gözəlliyinə, keyfiyyətinə və rahatlığına xüsusi diqqət yetirmişlər. Onların geyimlərində lokal-məhəlli xüsusiyyətlər, bölgəyə məxsus detallar müəyyən dərəcədə özünü göstərsə də, tipoloji cəhətdən ümumazərbaycan səciyyəsi daşıyırdı. Bütün bu xüsusiyyətlər isə Aşıq Ələsgər yaradıcılığında öz əksini tapmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. Üç cilddə, I c. – Bakı: Şərq-Qərb, – 2007. – 544 s.
2. Azərbaycan etnoqrafiyası. Üç cilddə, II c. – Bakı: Şərq-Qərb, – 2007. – 384 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, I c. Bakı: Bakı: Şərq-Qərb, 2006. 744 s.
4. Aşıq Ələsgər. Əsərləri. – Bakı: Şərq-Qərb, – 2004. – 400 s.
5. Dünyamalıyeva, S. Azərbaycan geyimlərinin bədii-dekorativ xüsusiyyətləri. – Bakı: Elm, – 2013. – 448 s.
6. Dünyamalıyeva S. Azərbaycan geyim mədəniyyəti tarixi. (bədii-etnoqrafik tədqiqat). – Bakı: Nağıl evi, – 2003. – 214 s.
7. Gəncəvi, N. Sirlər xəzinəsi. – Bakı: Elm, – 1981. – 154 s.
8. Həvilov, H. Azərbaycan etnoqrafiyası. – Bakı: Elm. – 1991, – 256 s.
9. Qəniyev, H. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək.) Ali məktəblər üçün dərslik. – Bakı: Elm və təhsil, – 499 s.
10. Naxçıvan milli geyimləri. – Naxçıvan: Əcəmi, – 2010. – 91 s.
11. Ustad aşıqlar: Qurbani. 55 şeir. – Bakı: – 1972. – s. 39
12. Ustad aşıqlar: Xəstə Qasım. 46 şer. – Bakı: 1972. – s.41
13. Vəliyev, F., Abdulova, G. Qarabağ geyimləri. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf fondu, – 2016. – 352 s.
14. Vəliyev, F. Milli qadın geyimlərimiz aşıq yaradıcılığında // "Musiqi dünyası" jurnalı, –

Bakı: – 2006. № 3-4, – s.167-168
15. Vəliyev, V. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi-mədəniyyəti. Geyimlər, bəzəklər. – Bakı: Elm, – 2006. – s.33
16. https://medeniyyet az>page>nevs
17. https:// obastan.com

SUMMARY

Aytekin Gahramanova

WOMEN'S CLOTHING OF WESTERN AZERBAIJAN IN THE 19TH-20TH CENTURIES (BASED ON THE WORK OF ASHIQ ALASGAR)

In the article, the types of Western Azerbaijan women's national costumes described in the works of Ashiq Alasgar of the beginning of the 19th-20th centuries were studied and certain ideas were expressed about the clothing culture of the region.

During the research, it was reported that the women of West Azerbaijan used satin, shawl, alaja, cloth, silk, darayi, mahud, tirma, khara and other fabrics described in the works of Ashiq Alasgar.In the article, underwear and outerwear, as well as headdresses and shoes were included in the research.Shirts, underpants, arakhalig, chukha, chafkan, nimtana, dress and others were analyzed and comparisons were made.

From the analysis of Ashig Alasgar's works, it was concluded that Western Azerbaijani women with fine taste, high artistic sense and flexible lifestyle paid special attention to the beauty, quality and comfort of the material used in their clothes at the beginning of 19th-20th centuries.In the end, it was concluded that, despite the fact that the types of clothing in different regions of our country had certain local characteristics, they had a general Azerbaijani character.

Key words: *Western Azerbaijan, Goyche, Ashiq Alasgar, traditional women's clothing, alaja, satin, silk, chepken, chukha, underpants, dress, kalaghayi*

"KİTABİ-DƏDƏ QORQUD" BOYLARINDA QƏRBİ AZƏRBAYCAN

Yusif SƏFƏROV
Naxçıvan Müəllimlər İnstitutu

Məqalədə İndiki Ermənistanın Azərbaycanın tarixi bölgəsi olduğunu "Kitabi-Dədə Qorqud" boylarının da təsdiq etdiyi göstərilir. Deyilir ki, dastanın tarixi-coğrafiyasında indiki Ermənistan ərazisi mərkəzi yerlərdən birini tutur. İrəvan çuxuru, Göyçə, Vedibasar, Dərələyəz, Zəngəzur və ona qonşu olan ərazilər qədimdən yerli Oğuz-türk soylarının məskunlaşdığı ərazilərdir. Qorqudşünas alimlər də Qafqaz və Şərqi Anadolu torpaqlarının "Dədə Qorqud" boylarının əsas coğrafiyasına aid olduğunu təsdiq edirlər. Dastan boyları göstərir ki, oğuzların qışlaq yerləri Mil-Muğan düzü, yaylaq yerləri Göyçə, Alagöz, Sisian bölgəsindəki yaylaqlar olub.

Dastandakı oğuzçuluğun real tarixi belədir ki, Oğuz eli Qafqazın şimalını cənubu ilə, şərqini qərbi ilə birləşdirən türk torpaqlarıdır. Eləcə də Şərqi Anadolu, Güney Azərbaycan da Oğuz-türk elidir. "Dədə Qorqud" boyları və Azərbaycanın türk-oğuz əhalisi bir xalq kimi əski dövrdən bu coğrafiyada formalaşıblar.

Açar sözlər: *Qərbi Azərbaycan, oğuz-türk soyları, epos, dastan, boy*

Ozan-aşıq mədəniyyətinin, poeziyasının tarixi-coğrafi qaynaqlarından biri "Kitabi-Dədə Qorqud" boylarıdır. Bu qəhrəmanlıq eposunun tarixi-coğrafiyasında Qərbi Azərbaycan, indiki Ermənistan ərazisi də əsas yer tutur. Sovet Rusiyası Qərbi Azərbaycan ərazisində 1920-ci ildə Ermənistan adlı bir respublika yaratmışdır.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ermənilər rus havadarlarının köməyilə Azərbaycan ərazisinin 20 faizini işğal edərək 30 ilə yaxın işğal altında saxlamışdı. İşğal olunmuş Qarabağ ərazisindən Ermənistanla birlikdə 1 milyon 300 min soydaşımız el-obasından didərgin salınmışdır. Lakin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qısa müddətli müharibə və əməliyyat nəticəsində Azərbaycan ordusunun qəhrəman əsgərləri erməni-daşnakların işğal etdikləri ərazilərimizi geri almışdır.

İndiki Ermənistan qədim dövrlərdən Azərbaycanın tarixi torpaqları olmuşdur. Bunu xalqımızın qəhrəmanlıq eposu "Kitabi-Dədə Qorqud" boyları da təsdiq edir.

Dastanın coğrafiyasında Qərbi Azərbaycan ərazisi mərkəzi yerlərdən birini tutur. Göyçə, Dərələyəz, Vedibasar, İrəvan çuxuru və onlara qonşu ərazilər Oğuz türklərinin məskunlaşdığı qədim ərazilərdir. Xəzər dənizindən Qara dənizə, Dəmirqapı Dərbənddən, Trabzona, cənubda Suriya sərhədlərinə qədər böyük bir coğrafiya Oğuz məkanıdır. "Kitabi-Dədə Qorqud"un görkəmli araşdırıcılarından biri akad. V.Bartold vaxtı ilə Qorqudun adı ilə bağlı bu epik silsilənin Qafqaz mühiti və Azərbaycan türkləri ilə bağlı olduğunu yazmışdır. Eposun "Qanlı qoca oğlu Qanturalı boy"unda oğuzların Ağqoyunlu boyundan olan Qanturalı Trabzonlu qızı Selcan xatunla ailə qurur. Ağqoyunluların sonralar mərkəzi Diyarbəkir olan müstəqil Oğuz dövlətini idarə edən də Bayandurlar sülaləsi idi. Qərbi Azərbaycanda onlarla kənd və yer-yurd adları bu sülalə ilə, eləcə də "Dədə Qorqud" boylarındakı adlarla səsləşir. Bunlar Qərbi Azərbaycanın türk yurdu olduğunu təsdiqləyir. "Dədə Qorqud" boylarından göründüyü kimi, oğuzların

Azərbaycanda qışlaq yerləri Mil-Muğan düzü, yaylaq yerləri isə daha çox Qarabağ və Göyçə ətrafı yaylaqlar idi. Bu yaylaqlardan biri də eposda adı çəkilən Şirokuz, indiki Şirak yaylasıdır.

Prof. S.Məmmədov yazır ki, "tədqiqatlardan məlumdur ki, hələ V əsrdə Muğanda sakin olmuş hunlar ərəblərin "balasaqun" adlandırdığı Ağ-hun (Böyük hun) şəhərini salmışlar. Beləliklə "Dədə Qorqud" oğuzları ilə XI əsr oğuzlarının yaxınlığını göstərən belə mövcud dəlillər, onların eyni coğrafi koordinatda fəaliyyət göstərdiyi barədə fikir söyləməyə imkan verir. Çünki "Kitabi-Dədə Qorqud" boylarında XI əsrə qədərki Şimali və Qərbi Azərbaycan mühitinin inikası vardır.

Qərbi Azərbaycanda soydaşlarımızın "Dədə Qorqud" boylarında Oğuz yurdu kimi adı çəkilən yerlərindən biri də Göyçə mahalıdır. 1747-1828-ci illərdə İrəvan xanlığında mahal olmuş Göyçə cənubda Ağlağan təpəsi, Çənlibel dağları, Səlimgədiyi, şimalda Murğuz, Şahdağ silsiləsi ilə əhatə olunub.



Göyçə gölü

Bu mahal türk mənşəli Sacilərin, Salari və Rəvvadilərin, Səlcuq imperiyasının, sonra Atabəylər, Hülakü, XV əsrdə Qaraqoyunlu, sonra Ağqoyunlu dövlətlərinin tərkibində olub. Dastandakı Oğuz eli-Oğuz dövləti deməkdir. Ölkədəki siyasi idarəçilik Bayandur xana məxsusdur. Oğuzlardakı iki hakimiyyət qanununa görə, ölkəni əsasən xaqanın müavini Qazan xan idarə etmişdi. Oğuz eli İç Oğuzla Dış Oğuzun birliyindən ibarətdir. İç Oğuz siyasi mərkəz olmaqla Kürlə-Araz çaylarının arasını və ətrafını tutan Aran, Mil-Muğan, Qarabağ torpaqlarını, Dış Oğuz isə Azərbaycanın qalan bölgələrini, o sıradan Dərbənd, Göyçə, Vedibasar, Dərələyəz, Diyarbəkir, Bayburd, Naxçıvan, Cənubi Azərbaycanın bir neçə bölgələrini əhatə etmişdi [11, s.199].

Görkəmli qorqudşünas alim M.Təhmasibin dediyi kimi, "Dədə Qorqud" boylarında oğuzların Orta Asiya dövrlərilə dumanlı bir şəkildə səsləşmələri olsa da, dastan tam, bitkin bədii əsər olaraq burada, yəni Azərbaycanda yaranmışdır [13, s.32]. Təbii ki, bu qəhrəmanlıq eposu Qafqaz və Ön Asiyada yaşayan türklərin etnik mədəniyyəti və tarixinin öyrənilməsində əvəzsiz bir mənbədir. Ona görə bu ədəbi abidəyə tez-tez

müraciət olunmuş, dəyərli elmi fikirlər söylənmişdir. Təbii ki, tarix elmində bu qiymətli mənbənin yarandığı tarixi məkan barədə araşdırmalar aparılmışdır [7, s.19]. Bu sətrlərin müəllifi tarixçi alim Y.Mahmudov yazır ki, "Kitabi-Dədə Qorqud"dakı oğuzçuluğun real tarixi belədir ki, Azərbaycan əski dövrlərdən ümumtürk məkanının tərkib hissəsi olub, böyük türk dünyasının şimalını cənubu ilə, şərqini qərbi ilə birləşdirən körpü rolunu oynayıb [7, s.19,20].

"Kitabi-Dədə Qorqud" dastanının əsas coğrafi arealı Qafqaz və Ön Asiya ərazisidir. Türkiyə alimləri də bu barədə dəyərli fikirlər söyləmişlər. Bunlardan Kilisli Rüfət, O.Ş.Kökyay, M.Ergin, M.Uraz və digərlərinin adlarını göstərmək olar. M.Ergin göstərir ki, Oğuz ölkəsi Qafqazdan Mərdinə, Trabzon və Baydurtdan Araz və Kür çaylarının aşağısına qədər bölgəni içinə almışdır. Burada Həsənqala, Qars, Gümrü, Göyçə gölü, Ağrı dağı, Qaraköse arasında qalan bölgələrdə vardır [2, s.51, 52]. Məlum olduğu kimi, sovet dönəmində "Kitabi-Dədə Qorqud" eposun nəşri və tədqiqi sahəsində Stalinin ölümündən sonrakı dövrlərdə H.Araslı, M.Təhmasib, Ə.Dəmirçizadə, Ş.Cəmşidov xeyli səmərəli işlər görmüşlər. M.Təhmasib "Şimali Qafqaz dastançıları miladdan əvvəlki XIII-VII əsrlərdə oğuzları yaxşı tanıyırmışlar" qənaətinə gəlməklə oğuzçuluq tarixinin Qafqazda çox qədim olduğunu göstərmişdir [12, s.14]. Belə elmi fikirlərin davamı və təsdiqi olaraq görkəmli dilçi alim Ə.Dəmirçizadə də yazırdı ki, bizim eradan sonrakı əsrlərdə Orta Asiyadan gələn Oğuz tayfaları Azərbaycanda eramızdan əvvəlki minilliklərdə yaşamış yerli oğuzların nəsillərilə rastlaşmış, onlarla qaynayıb-qarışmışlar.

Qeyd edək ki, qədim türk-oğuz soylarının ən qədim və aramsız oturaq məkanı gözəl iqlimi, səfalı yaylaqları və qışlaqları olan Qafqaz (şimallı-cənublu) regionunda ümumtürk mədəniyyəti daha erkən formalaşmışdı. Azərbaycan türklərinin vahid xalqa çevrilməsi, o sıradan "Kitabi-Dədə Qorqud" boylarının vahid dastan halında yaranması prosesi də bu regionda baş vermişdir [7, s.21]. Mənbələrdən birində deyildiyi kimi, Oğuz xanı İnal Yavqu xan taxta çıxdıqdan sonra Dədə Qorqudu Məhəmməd peyğəmbərin yanına elçi göndərmiş, o da orada islam dinini qəbul etmişdir [9, s.638; 6, s.22].



Dərəşam yaxınlığında Araz çayı

Ümumiyyətlə, elmi ədəbiyyatlarda oğuzların qədim Azərbaycanın İrəvan çuxuru, Göyçə, Dərələyəz, Araz hövzəsi, Naxçıvan, Zəngəzur bölgələrilə bağlılığı haqqında az danışılmayıb. Xüsusən qorqudşünaslardan Ş.Cəmşidov, M.Təhmasib, S.Əliyarov, B.Abdullayev, sonralar coğrafiyaşünas S.Babayev və bu sətrlərin müəllifi əsərlərində fikirlər söyləyiblər.

Eposda Şirokuz, Dərəşam, Dərəşam suyu, Əlincə qalası, Qara dərə, Köksü gözəl, Qazangöl dağı və b. coğrafi obyektlərin olduğu göstərilib. Eposdakı "Köksü gözəl böyük dağa ova çıxdı" [5, s.136] cümləsi ilə bağlı S.Babayev yazır: "Naxçıvan diyarında, Salvartı dağında



Əlincə qalası

"Köksü gözəl" adlanan sahə və göl vardır" [1, s.115]. Bu fikrə onu əlavə edək ki, "Köksü gözəl" eyni zamanda Zəngəzur silsiləsində "Dəmirli" və "Çadırdaş" yaylaqları arasındakı dağların sinəsində güllü-çiçəkli böyük bir sahədir. Buradan göründüyü kimi, Zəngəzur bölgəsinin bu hissələri də "Dədə Qorqud" boylarında əksini tapmışdır.

Türkiyədəki Ağrıdağı eposda Arqubeli, orta Araz ovası, Sürməli eli (Həsənqala, Kağızman, Düzluca, İqdir, Aralıq əraziləri) şəklində xatırlanır. Sürməli ovasının İqdir şəhəri Oğuz xanın 21-ci nəvəsinin adını daşıyır. XIX yüzilliklərdə Sürməli mahalı adlanan bu bölgə İrəvan xanlığının cənub qurtaracağında Araz çayının sağ sahili boyunca uzanırdı. Həmin vaxt bu mahal şimal və şimal-şərq və şərqdən Araz çayı, cənubdan onu Bəyazid paşalığından ayıran Ağrı dağ silsiləsi və Maku xanlığı ilə, qərbdən isə Dərəkənd-Parçeniş mahalı ilə həmsərhəd idi.

Onu da qeyd edək ki, oğuzlar Göyçə gölü və Qərbi Arpaçay arasındakı dağları "Alagöz" yaylaqları adlandırırdılar. Araz çayının cənubunda Ərdəbil yaxınlığında yerləşən Savalan dağının adını da oğuzlar vermişdir. Belə yer-yurd, dağ, qala, çay adları oğuzların bu tarixi-coğrafi məkanda məskunlaşdığını göstərən dəlillərdir.

Qərbi Azərbaycanın Sürməli, Göyçə, Zəngəzur, Dərəşam, Əlincə qalası əraziləri eposda, o cümlədən "Uşun Qoca oğlu Səgrək boyu"nda təsvir edilən hadisələrin əsas məkanıdır.

Adı çəkilən boyda verilən məlumata görə, Uşun Qocanın Əgrək adlı oğlu Qazan xanın iznilə 300 nəfərlik dəstə ilə Şirokuz kənarından Göyçə dənizədək yürüşə çıxdı. Əgrək Əlincə qalasına və onun yanındakı qoruğa düşdükdən sonra qara təkurun altı yüz nəfərlik dəstəsi hücum edib onları qırdı və Əgrəyi Əlincə qalasında dustaq etdi. Xəbər Səgrəyə çatdıqda izin alıb qardaşını əsirlikdən qurtarmaq üçün yola çıxdı. Bu yerdə Səgrəyin dilindən aşağıdakı şeir söylənir:

Qalxıbanı, ana, yerimdən durdum.
Yelisi qara qazlıq atıma bütün mindim,
Ərquru yatan Ala dağ ətəyinə vardım [4, s.135].
Şeirdəki Ala dağ da oğuzların yaylaq yeri olmuşdu.

"Dədə Qorqud" boylarında adı "Arqubeli" şəklində işlənən Ağrı dağı və İqdir ətrafı yer-yurd adlarından başqa əsərlərdə də söz açmışıq. Bu barədə türk alimi dosent-doktor Zeynalabdin Makas da məlumat vermişdir. Bu məqalə də Sürməli, Ağrı dağı, İrəvan bölgələrinin qədim oğuz-türk yurdunun mərkəz ərazilərindən olduğunu təsdiqləyən nəticələrdən biridir [8, s.189-201].

Beləliklə, "Uşun Qoca oğlu Səgrək boyu"na görə, Səgrək Göyçə dənizi ətrafından çıxaraq Şirokuz (Şirak yaylası-Y.S.), Ağrı və Ala dağların ətəklərindən keçərək Dərəşam məntəqəsində Araz çayını keçib Əlincə qalasına çatır və qardaşı Əgrəyi dustaqlıqdan azad edir [3, s.284-292]. Bu boyda tarixlə səsləşən məqamlar çoxdur. Bunlardan birincisi Səgrəyin səfərə başladığı Göyçədən Əlincə qalasına qədər adı çəkilən yerlər, göl, çay, dağ və yaşayış məntəqələri Oğuz elinə aiddir. Onuncu boydakı Uşun Qoca da tarixi şəxsiyyətdir. O, Uşun tayfasındandır. Uşun miladdan öncəki yüzillikdə yaşamış Usun adlı türk etnosunun adıdır [10, s.202]. Digər tərəfdən boyda Əlincə qalasında oğuz türklərinin "kafir" adlandırdığı "qaradonlular" kimlərdir?

Dədə Qorqud Məhəmməd peyğəmbərlə görüşdükdən sonra oğuzlar islam dinini qəbul etmişlər. Əlincə qalası ilə bağlı bu boyda əks olunmuş hadisə Məhəmməd peyğəmbərdən sonrakı dövrlə səsləşir. Tarixi məlumata görə, Ağqoyunlu dövlətinin banisi Qara Yülük Osman bəyin nəsil şəcərəsinin 14-cü babası Şəktur xan ərəb xəlifəsi Məmunun müasiri olmuş və Əlincə qalasını öz tabeliyinə almışdır. Bundan başqa, Əlincə qalası xəlifə Harun ər-Rəşidin müasiri olmuş Oğuzun nəsil şəcərəsinə daxil olan Qıpçaq xanın da tabeliyində olmuşdur [10, s.196]. Bu məlumatlar göstərir ki, Harun ər-Rəşidin (786-809) müasiri olmuş Qıpçaq xan Əlincə qalasını aldıqdan sonra bu bölgə xristian qıpçaqların əlində idi. Görünür ki, Əlincə qalası Qıpçaq xanın tabeliyində təxminən Harun ər-Rəşidin hakimiyyətdə olduğu 786-809-cu illər arasında, xəlifə Məmunun müasiri Şəktur xanın öhdəsində isə 833-cü ildən sonra olmuşdur. Deməli, Əgrəyin Əlincə qalasında dustaq olduğu və qardaşı Səgrək tərəfindən azad edildiyi təxminən VII əsrin sonlarına, yaxud VIII əsrin 30-cu illərindən sonraya təsadüf edir. Boyda "kafir" adlandırılanlar o vaxt müsəlmançılığı hələ qəbul etməmiş qıpçaq türkləridir.

ƏDƏBİYYAT

1. Babayev, S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, – Bakı: – 1999.
2. Ergin, M. "Dede Korkud"un coğrafiyası- Dede Korkud kitabı, 3 baskı, – Ankara: – 1994. – s. 51-54
3. "Kitabi-Dədə Qorqud", – Bakı: – 1939.
4. "Kitabi-Dədə Qorqud", - Bakı: – 1962.
5. "Kitabi-Dədə Qorqud", – Bakı: – 1988.
6. Köprülü, F. Türk edebiyatında ilk mütesevvifler. – Ankara: 1966.
7. Mahmudov, Y. "Dədə Qorqud kitabı"-Xalqın yaratdığı və yaşatdığı tarix. Dədə Qorqud Dünyası (məqalələr). – Bakı: – 2004, – s.18-35
8. Makaş, Z. "Dede Korkut"da İğdır ve Çevresi toponimləri, Uluslararası türk kültüründe Ağrı dağı sempozyumu. – Ankara: – 2009, – s. 189-201
9. Öztelli, C. Yeni bilgilerlə Koroğlu, Türk folklor araştırmaları. – Ankara: – 1969, № 238
10. Səfərov, Y. Azərbaycan folklorunda tarixilik. – Bakı: – 2005.
11. Səfərov, Y. Azərbaycan folklorunda "Nuh tufanı" və Ağrı dağı əfsanələri, I Uluslararası
Türk kültüründə Ağrı dağı simpoziumu. – Ankara: – 2009, – s. 87-96
12. Təhmasib, M. Bir tarixi həqiqətin eposdakı izləri. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, VI k. – Bakı: – 1981, – s. 3-19
13.Təhmasib, M. "Dədə Qorqud" boyları haqqında, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, I k. – Bakı: – 1961, – s. 4-51

SUMMARY

Yusif SAFAROV

WESTERN AZERBAIJAN IN THE SIGHTS OF "KITABI-DADE GORGUD"

In the article, it is shown that the "Kitabi-Dade Gorgud" figures confirm that the present-day Armenia is the historical region of Azerbaijan. It is said that in the history-geography of the epic, the present territory of Armenia occupies one of the central places. Irevan chukhuru, Goycha, Vedibasar, Darelayaz, Zangezur and the neighboring areas are the areas inhabited by local Oghuz-Turkic tribes since ancient times. Gorgud scholars also confirm that the lands of the Caucasus and Eastern Anatolia belong to the main geography of the "Dade Gorgud" tribe. The legends of the epic show that the Oguz's winter quarters were the Mil-Mugan plain, and the grasslands were the Goycha, Alagoz, and Sisian regions.

The real history of Oghuz culture in the epic is that the Oghuz tribe is the Turkic lands connecting the north and south of the Caucasus, and the east and west. Likewise, Eastern Anatolia and Southern Azerbaijan are Oghuz-Turkic. The "Dade Gorgud" tribes and the Turkic-Oghuz population of Azerbaijan have been formed in this geography since ancient times as a people.

Key words: *Western Azerbaijan, Oghuz-Turk lineages, epos, epic, story*

QƏRBİ AZƏRBAYCAN YALLILARININ ERMƏNİ PLAGİATINA MƏRUZ QALMASININ ELMİ ARAŞDIRMASI

Gülnaz ABDULLAZADƏ
Nuridə İSMAYILZADƏ
ismayilzade.nuride@mail.ru
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası

Məqalədə, tarixi faktlara istinad olunaraq Qərbi Azərbaycan tarixindən bəzi faktlar yer almışdır. Qərbi Azərbaycanın avtoxton əhalisi olan azərbaycanlıların olduqca zəngin musiqi folkloru vardır. Ələlxüsus da bu rəqs janrına aid yallılardır. Tədqiqatçı-alim R.Bəhmənlinin son zamanlarda nəşr etdiyi kitablarda Qərbi Azərbaycana məxsus 43 yallı haqqında ətraflı məlumat və not nümunələri yerləşdirilmişdir. Bu yallıların hər biri erməni plagiatına məruz qalmışdır və zaman keçdikcə gənc nəslimiz tərəfindən unudulmağa başlamışdır. Ancaq kitabların nəşr olunması və orada rəqslərin əsl melodiyalarının olduğu kimi göstərilməsi rəqslərin tez zamanda yenidən xoreoqrafik baxımdan qurulmasına səbəb olacaqdır.

***Açar sözlər**: yallı, Qərbi Azərbaycan, rəqs, plagiat, not nümunəsi, lad-məqam, musiqi alətləri.*

Azərbaycan musiqi mədəniyyətinin qədim tarixi kökləri vardır. Melodik zənginliyi və rəngarəngliyi ilə seçilən musiqimiz insan ürəyinə yatır, ən ülvi, lazım olanda isə qəhrəmanlıq hissləri oyada biləcək xüsusiyyətlərə malikdir. Musiqimizin bu və digər keyfiyyətləri haqqında məşhur şairlərimiz Nizami, Nəsimi, Füzuli və başqaları öz poeziyalarında gözəl təsvir ediblər. XX əsrin əvvəllərində dahi bəstəkarımız Üzeyir Hacıbəyli yaradıcılığının elə ilk günlərindən muğamlarımıza və folklorumuza əsaslanıb, əsərləri müxtəlif xalqların diqqətini çəkib və sevə-sevə ifa olunmaqda idi. Üzeyir bəy həmişə peşəkar musiqiçilərə tövsiyə edirdi ki, istər Avropa, istər Şərq xalqlarının musiqi sənətinin ən məqbul və qabaqcıl ənənələrinin öyrənsinlər və öz yaradıcılıq fəaliyyətlərində tətbiq etsinlər. Azərbaycan klassik musiqisinin sürətli inkişafı bu tövsiyələrin nə qədər doğru olduğunu bir daha təsdiqlədi. Ancaq xalqımızın uğurlarını gözü götürməyənlər, özgənin musiqi sənətini mənimsəyənlər də oldu. Təbii ki, söhbət əzəli torpaqlarımızda məskunlaşan ermənilərdən gedir. Hazırkı məqalədə erməni plagiatına məruz qalmış və tədqiqatçılar tərəfindən sübuta yetirilmiş bəzi maraqlı faktlar işıqlandırılır.

Möhtərəm cənab Prezident İlham Əliyevin 3 avqust 2022-ci ildə verilmiş sərəncamına əsasən Qərbi Azərbaycan İcmasının ayrıca rəsmi qurum kimi yaradılması olduqca vaxtında və lazımi qərarlardan biri oldu. 44 günlük II Qarabağ müharibəsindəki qələbəmizin davamı kimi ölkə başçımızın hücum diplomatiyasının və uzaqgörən strategiyasının nəticəsidir ki, belə qərarların verilməsi bütün xalqımız tərəfindən bəyənilir və dəstəklənir.

Qərbi Azərbaycan dedikdə bir qədər tarixi keçmişimizə nəzər salmaq məqsədəuyğun olardı, çünki uzun illər boyu Azərbaycan xalqı böyük coğrafi ərazidə yaşamışdır. Bunu bizə söyləməyə mühüm tarixi faktlar imkan verir. Hələ VII əsrə qədər dəfələrlə ozanlar

tərəfindən söylənilən və müxtəlif türk əlifbalarında, daha doğrusu, Alban əlifbasında yazıya köçürülən "Dədə Qorqud dastanı" əlimizə gəlib çatmasa da, VII əsrin ikinci yarısında yazıya köçürülərək kitaba çevrilən dastan bu günümüzə qədər gəlib çatmışdır.

Bu işdə görkəmli filoloq-alim, professor Tərlan Quliyevin böyük zəhməti var, çünki o, "Dədə Qorqud kitabının" Vatikanda uzun illər ərzində qorunub saxlanılmış nüsxəsini əldə etmiş və Azərbaycan dilinə tərcümə edə bilmişdir. Onun əldə etdiyi nüsxənin üzərində "Oğuzlar tayfasının dilində Dədəm Qorqudun kitabı" yazısı vardır ki, bu da həmin kitabda məhz oğuzlardan bəhs edəcəyini bildirir. Tərlan Quliyev yazır: *"Elmi ədəbiyyatın verdiyi məlumata görə, Oğuzlar eramızın VI-VIII əsrlərində mövcud olmuş Göytürk Xaqanlığı dövründə yaranmış Orxon-Yenisey abidələrində adları ilk dəfə çəkilən türk tayfalarından biridir. Sonralar IX-X əsrlərdə bu tayfalara Sırdərya hövzəsi ətrafında təsadüf olunur ki, XI əsrdən sonrakı dövrlərdə də bu tayfalar Səlcuq dövlətinin tərkibində daha geniş yer tutaraq, bütün Yaxın Şərqə yürüşlər edirlər"[4,s.6].* Həmin kitabda verilmiş xəritədən məlum olur ki, oğuz türk tayfaların məskunlaşdıqları ərazi olduqca böyük olmuşdur. Bu, Şimalda – Dərbəndə, Şimal-Qərbdə – Tiflisə, Qərbdə – Trabzon, Ərzurum, Mardin və Cənubda Təbrizə qədər ərazini əhatə edirdi. Xəritədən aydın görünür ki, bu ərazilər Taş Oğuz, Ala Dağ və İç oğuz kimi bölünməklə, Göyçə gölü və onun ətrafındakı böyük ərazilər dağlıq yerlər olduqlarına görə Ala Dağ ərazisinə düşürlər, digər hazırki Ermənistana məxsus ərazilər – Zəngəzur, Meğri, Göyçə, Basarkeçər, Zəngibasar və s. İç oğuz adlanan ərazinin daxilində olmuşlar. Deməli, uzun əsrlər ərzində mövcud olmuş bu xəritədən (digər tarixi mənbələrdə göstərildiyi kimi), bütün müasir Ermənistan ərazisinin məhz oğuz türklərinə məxsus olduğu və burada ermənilərin heç vaxt yaşamadıqları bir daha sübut olunur. Belə faktlar, əlbəttəki, tarixçilərin elmi-tədqiqat işlərində araşdırılaraq öz əksini tapmışdır.

İndi isə keçək XX əsrdə geniş vüsət almış musiqi mədəniyyətimizdəki saysız-hesabsız erməni plagiatına məruz qalmış faktlara. Tarixi və əzəli torpaqlarımızda XIX əsrin 20-ci illərində məskunlaşmış qonşu xalqın nümayəndələri (yan-yana yaşadıqlarına görə) musiqi sənətimizin bütün özəl xüsusiyyətlərini, ifa tərzini, musiqi alətlərin texniki imkanlarını öyrənmiş, zaman keçdikcə isə özünküləşdirməyə başlamışlar. Bu, bizim xalq çalğı alətlərinə, aşıq havalarına, xalq mahnılarına, rəqslərimizə və hətta xalqımızın ən qiymətli sərvəti olan muğamlarımıza da aiddir. Belə mənimsəmə faktlarına biz gündəlik həyatımızda çox rast gəlirik. Yeri gəlmişkən qeyd etməliyəm ki, 1975-ci ildəki K.Vertkovun redaktorluğu ilə nəşr olunmuş "SSRİ xalqlarının musiqi alətləri" atlasında 25 xalq çalğı aləti ermənilərə, 8 musiqi aləti isə azərbaycanlılara məxsus olduğu göstərilir. Bu faktı Fərhad müəllim eşidəndə çox qəzəbləndi ki, neçə olur həmin zamanlarda bizim musiqi xadimlərimiz öz etirazlarını bildirməyiblər? Bunun yəqin obyektiv və subyektiv səbəbləri var idi...

İlk dəfə erməni plagiatı məsələsini BMA-nın elmi-tədqiqat laboratoriyasında fəaliyyət göstərmiş aparıcı elmi işçi, dəyərli musiqişünasımız, mərhum Ariz Abduləliyev qaldırmışdır və o, "Erməni bəstəkar Komitasın fortepiano üçün "Rəqslər" məcmuəsinə dair mülahizələr" məqaləsindən sonra Bakı Musiqi Akademiyasında bu mövzuda olduqca maraqlı elmi seminar keçirmişdir. Qeyd etməliyik ki, Ü.Hacıbəyli Azərbaycan klassik musiqisinin banisi olduğu kimi, Ermənistanda isə Komitas (əsl adı Soqomon Qevorqoviç

Saqomonyan) ilk klassik bəstəkar sayılır və bugün də onların Dövlət Konservatoriyası Komitasın adını daşıyır. Komitas erməni kilsəsində xidmət edən musiqiçi olsa da, Qərbi Azərbaycan ərazisində yaşayan – azərbaycan, erməni və kürd xalqlarının musiqi folklorunu, xalq-mərasim musiqisini toplamış, notlaşdırmış və sonradan kapella, fortepiano, xor ilə fortepiano üçün işləmişdir. O, öz əsərlərində folklorumuzdan xeyli yararlanaraq, hətta fortepiano üçün "6 rəqs" məcmuəsi də yaratmışdır. Biz məcmuədəki musiqini təhlil edəndə gördük ki, burada 4 Azərbaycan, ikisi isə Türk xalq rəqsindən istifadə olunmuşdur. Moskvadakı məşhur "Sovetskiy kompozitor" nəşriyatında 1939-cu ildə çap olunmuş bu toplu bütün respublikalara paylanılmış və erməni rəqsləri kimi pianoçuların konsert proqramlarına daxil olunmuşdur. *"Araşdırmalar nəticəsində məlum olur ki, məsələn, "Erangi Erevanskiy" (bu ad dilimizdə "İrəvan rəngi" deməkdir) adlanan rəqsin musiqisini hələ bəstəkar Müslüm Maqomayev XX əsrin əvvəllərində topladığı və nota aldığı məcmuəsində yer almışdır və o, öz növbəsində bu rəqsi ilk dəfə Azərbaycanın ustad muğam sənətkarı Meşədi Məlik Mansurovun tarda ifasında dinləmişdir. Eləcə də məcmuədəki digər rəqslərin musiqisi Üzeyir Hacıbəylinin məşhur "O olmasın, bu olsun" musiqi komediyasının ("Deyirlər ki, toy olacaq") parçasından istifadə olunmuşdur"[1,s.24].* Ariz məllimin bir fikrini xatırlatmaq istərdik. O deyirdi: *"Azərbaycanın əsl ərazisini müəyyən etmək üçün təkçə xəritə deyil, xalq mahnılarımızın mətninə də baxmaq lazımdır, çünki onların bir çoxunda əzəli torpaqlarımızın adları çəkilir".*

Bildiyiniz kimi, Üzeyir Hacıbəyli "Arşın mal alan" məşhur musiqi komediyasını 1913-cü ildə Sankt-Peterburq konservatoriyasında təhsil aldığı illərdə bəstələmiş, sonradan bu əsər böyük uğur qazanaraq müxtəlif dillərə tərcümə olunaraq – Rusiya, Gürcüstan, İran, Türkiyə və yaxın Şərq ölkələrində böyük müvəffəqiyyətlə səhnəyə qoyulmuşdur. 1916-cı ildə erməni işbazlar Üzeyir bəyə müraciət edərək bu musiqi komediyanı erməni dilinə tərcümə edilməsi üçün icazə alırlar. Bir müddət keçdikdən sonra Amerikada "Əyri güzgü" («Кривое зеркало») adı altında bir film də çəkirlər. 1943-cu ildə bir qrup ziyalılarımızın Tehran konfransına səfəri zamanı orada həmin filmi görüb tez Azərbaycan rəhbərliyinə çatdırırlar və o öz növbəsində SSRİ-nin rəhbəri olmuş İ.Stalinə bu xəbəri çatdırır. Qısa zamanda Stalinin göstərişi ilə Rəşid Behbudov və Leyla Bədirbəylinin baş rolda çəkilməsilə 1945-ci ildə Bakı Kinostudiyasında məşhur "Arşın mal alan" filmi istehsal olunur.

Digər bir faktı nəzərinizə çatdıraq. Ermənilərin sevə-sevə ifa edib fərəhləndikləri tanınmış Sovet bəstəkarı Aram Xaçaturyanın yazdığı "Yerevan haqqında mahnı" («Песня о Ереване») musiqisinin əsas mövzusu Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Gülçöhrənin məşhur "Gülçöhrənin naləsi" adlı ariyası ilə eyni melodiyadır. Bu da məlumdur ki, Üzeyir bəylə A.Xaçaturyanın yaşadığı illər arasında böyük fərq olmuşdur.

Bu kimi faktları aşkar etməklə biz, 2018-ci ildən respublikada baza "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: Orqanologiya və Akustika" elmi-tədqiqat laboratoriyasının əməkdaşları olaraq elm və yaradıcılıq işləri üzrə prorektor, professor G.Abdullazadənin rəhbərliyi ilə erməni plagiatı ilə çox ciddi şəkildə məşğul olmağa başladıq və bugünə kimi bu işi davam etdiririk. Bu illər ərzində əməkdaşlarımız tərəfindən bir neçə kitab nəşr olunub, bir çox elmi jurnallarda məqalələr

dərc olunub, müxtəlif ali təhsil ocaqlarında elmi seminarlar təşkil olunub, hətta pandemiya vaxtı ZOOM proqramı vasitəsilə Amerika, İsrail, Rusiya, Almaniya, Qazaxıstan, Türkiyə, Kanada alimlərin iştirakı ilə gecə saat 1-ə qədər beynəlxalq konfrans keçirdik. Yeri gəlmişkən qeyd edək ki, dövlət dəstəyinin alınması üçün biz, 2018-ci ilin fevral ayında ilk öncə Əqli Mülkiyyət Agentliyinin sədri cənab Kamran İmanova müraciət etdik. O bizim heyəti qəbul etdi və BMA ilə ƏMA arasında şifahi razılaşma əldə olundu ki, bundan sonra erməni plagiatı məsələsi ilə bağlı birgə çalışacayıq və bu illər ərzində biz onların tədbirlərində, onlar isə bizim tədbirlərimizdə iştirak edir, hətta dediyim pandemiyadakı konfransın işində Əqli Mülkiyyət Agentliyinin aparat rəhbəri olmuş Natiq İsayev konfransın sonuna qədər bütün çıxışları maraqla izləmiş və maraqlandığı məsələlərlə bağlı diskussiyalarda da iştirak etmişdir.

Bir faktı da xüsusilə qeyd etmək istəyirəm. 2023-cü ilin 19-20 sentyabr tarixində Azərbaycan ordusunun keçirdiyi anti-terror əməliyyatı nəticəsində qondarma "Arsaxın" darmadağın olması ilə Azərbaycan Respublikasının ərazi bütövlüyü tamamilə bərpa olundu. Ancaq illər öncə Qarabağda yaşayan erməni sənətçiləri tərəfindən xarici ölkələrdə təşkil olunan festivallarda qürurla ifa etdikləri və hətta bizim TV kanallarında da Fikrət Əmirovun "Ana torpaq" kompozisiyası kimi səsləndirilən (ancaq oğlu tərəfindən təqzib edilən) musiqini "Arsax" kompozisiyası kimi təqdim ediblər. Biz, əsərin musiqisini təhlil edərkən F.Əmirovun 1953-cü ildə "Şeyx Sənan" dramına yazdığı musiqisinin 23-cü dəqiqəsində olduqca oxşar melodiyanı tapdıq. Bizim əməkdaşımız Rauf Bəhmənli isə bu melodiyanı təhlil etdikdə onun Bayatı-Şiraz təsnifinin tam oxşarı olduğunu göstərmişdir.

İndi isə keçək Qərbi Azərbaycan ərazisində yaranmış və ermənilər tərəfindən saxtalaşdırılaraq ermənileşdirilmiş rəqslərimizə. Rəqslər mətnsiz ifa olduqlarına görə bəlkə də plagiata ən rahat məruz qalan janrdır. Qərbi Azərbaycanın yerli avtoxton əhalisi olan azərbaycanlılarla yanaşı yaşayan ermənilər daima el bayramlarına və toy şənliklərinə birgə qatılmış və xalqımızın humanist və qonaqpərvər xüsussiyətlərindən faydalanmışdılar. Beləcə, bayram və toy şənliklərində xalq musiqimizin təsiri altında böyüyən və tərbiyə alan nəsilbənəsil dəyişən ermənilər bu gün utanmadan rəqs qruplarının vasitəsilə xarici ölkələrin konsertlərində bizim rəqsləri ifa etməklə erməni folkloruna aid olduqlarını sübut etməyə çalışırlar. Bunun üçün onlar ilk növbədə rəqslərimizin, xüsusilə də yallıların adlarını dəyişdirmiş, xalq musiqimizin melodik məzmununa yad intonasiyalar daxil etmiş, xalqımızın oyun qaydalarına uyğun olmayan hərəkətlərin üzərinə dəyişkən metr və ritm əlavə etməklə guya başqa bir yallılar yaratmağa çalışmışlar.

Qeyd olunmalıdır ki, xalq rəqslərimizin ermənilər tərəfindən mənimsənilməsində ən zərər çəkmiş janrlardan biri – "Yallılar" olmuşdur. Bunu öz tədqiqat işlərində elmi-tədqiqat laboratoriyasının aparıçı elmi işçisi, dosent Rauf Bəhmənli 2022-ci ildə nəşr etdiyi "Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları" kitabında qeyd etmişdir. Həmin kitabın Qərbi Azərbaycan İcmasının maliyyə dəstəyi ilə rus və ingilis dillərində çap olunmuş nüsxəsində bu bölgədən olan qocaman musiqiçilərdən toplamış 43 rəqs nümunələrində ermənilərin plagiatını sübut edilmişdir. R.Bəhmənli rəqs adlarının etimologiyası, yaranma tarixi, lad-məqam əsası, ifaçılar haqqında məlumatları bu

kitablarda yerləşdirmişdir. Müəllif, ermənilərin Qərbi Azərbaycan yallılarına qoyduqları saxta adları, hansı nəşrdə, hansı müəllif tərəfindən notlaşdırılması kimi dəyərli məlumatları həmin kitabda işıqlandırmışdır.

Ümumiyyətlə, yallı janrına Azərbaycan musiqişünaslığında həmişə kifayət qədər böyük maraq olmuşdur. Hələ 50-60-cı illərdə Azərbaycanın ilk rəqs tədqiqatçısı, görkəmli musiqişünasımız Bayram Hüseynli Naxçıvanın Şərur bölgəsində əldə etdiyi bəzi xalq rəqslərimizi özünün "Azərbaycan xalq rəqs melodiyaları" adlı məcmuəsində ilk dəfə işıqlandırmışdır. Bundan əlavə, Naxçıvan yallılarını araşdıran alim-musiqişünas Əqidə Ələkbərovanın yazdığı "Naxçıvan zonasının yallı rəqsləri" adlı dissertasiyasında təkcə Naxçıvanda əldə etdiyi 10 "Köçəri", 11 "Tənzərə" yallısının variantlarının müqayisəli təhlili verilmişdir. Həmin rəqslər bəlkədə ən çox erməni plagiatına məruz qalmış rəqslərdir ki, ermənilər onları öz adlarına çıxarılması üçün dəfələrlə UNESCO-nun musiqi mədəniyyəti komissiyasına müraciət ediblər. Lakin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə 2018-ci ildə UNESCO-nun Qeyri-Maddi Mədəni irs üzrə Reprezentativ siyahısına "Yallı (Köçəri və Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" Təcili Qorunma siyahısına daxil edildi və bununla da ermənilər bir daha ağır zərbə almış oldular.

Ə.Ələkbərovadan əlavə Naxçıvanın görkəmli musiqiçisi, gözəl tarzən Əkrəm və oğlu Kənan Məmmədlilər 2015-ci ildə notlaşdırdıqları "Naxçıvan-Şərur el yallıları"ndan ibarət məcmuə tərtib edilmişdir. Musiqişünas Amil Əsgərovun fikrinə görə: *"Bu topluda rəqslərin nota yazılması və nəşr olunması xüsusi əhəmiyyətə malikdir. Məcmuəyə 92 adda yallı nümunəsi daxildir. Onların proqramlı adı, musiqi məzmunu özünəməxsuz keyfiyyətə malik olub, əksəriyyəti əvvəlki illərdə nota alınmış yallı adlarından fəqlidir"[3, s.36].* Beləliklə, göründüyü kimi, Naxçıvan Qərbi Azərbaycan bölgələri ilə həmsərhəd olduğuna görə məhz Naxçıvanın bir çox yallıları ermənilər tərəfindən mənimsənərək falsifikasiyaya məruz qalmışlar.

Məsələn, "Köçəri" yallısının adı qədim tərəkəmə tayfalarının yaşam tərzinə həsr olunaraq "köçəri" adlandırılmışdır. Elə sözün etimologiyasından onun mənası aydın olur. Ermənilər həmin yallını "Koçari" adlandıraraq rəqsin quruluşunda tamamilə başqa süjet xətti götürərək qoyun sürüsündə "İki qoçun döyüşməsi" olduğunu qeyd edirlər. Onlar da "Köçəri" yallısının bir neçə variantda və müxtəlif adda olduğunu göstərməyə çalışırlar. Lakin araşdırmalar göstərir ki, həm oyun tərzi, həm də musiqinin melodik məzmunu tamamilə başqa rəqslərə aiddir və "Köçəri" yallısı ilə heç bir əlaqəsi yoxdur. Eləcə də digər Azərbaycanda çox tanınmış olan "Tənzərə" yallısı da plagiata məruz qalmışdır. Rəqsin adının mənası iki sözdən yaranmışdır: "tən" – "yarı", "zər" – "bahalı daş-qaş, bəzək"deməkdir. Ermənilər özlərinin kobud dilinə çevirib "Tamzara" etməklə, təbii ki, ermənilərə məxsusluğu sübut edə bilməzlər. Həm də Türkiyədə Tamzara adlı bir kənd var və bu yallı təkcə Türkiyədə olduqca populyar deyil, eyni zamanda Yunanıstanda, Suriyada, Gürcüstanda çox tanınan və oynanılan rəqsdir. R.Bəhmənli qeyd edir: *"Bədnam qonşularımız yallını ermənilaşdırmək məqsədilə rəqsin quruluşuna əlavə say artırmış eləcə də onun melodik məzmununa qondarma şeir mətni daxil edərək mahnı kimi ifa etmişdirlər" [2, s.16]*. Qərbi Azərbaycanın avxtoxton əhalisi olan azərbaycanlılara qədimdən məxsus və təəssüf ki, bəzilərinin unudulmaqda olan yallıları ermənlərin özünküləşdirməsinə şərait yaratmış və

bütün qastrol konsertlərində rəqs qrupları bunları erməni rəqsləri kimi təqdim etməyə bəzən müvəffəq olurlar. Bu, "Ağbulaq", "Babacan / Teymur ağa", "Çəmənkənd", "Tamaşa / Dəsmal yallısı", "Mərcanlar / Cüt yallı", "Gümrü","İrəvan / Dördayaq" və digərlərinə aiddir. Gördüyünüz kimi, bəzi yallıların iki adı vardır: bu da ya yer (kənd-şəhər), ya da tanınmış şəxslərin adı və ya rəqsin məzmunu ilə bağlıdır.

Beləliklə, sonda qeyd etməliyik ki, uzun illər boyu ermənilər musiqi mədəniyyətimizi daim hədəf alaraq, özlərinəməxsus orijinal folklorun azlığına görə bizim musiqi sənətinin müxtəlif janrlarını öyrənərək özlərininki kimi təqdim etməklə məşğul olublar. Və çox təəssüf ki, vaxtında musiqi xadimləri və musiqişünaslarımız tərəfindən layiqli, tutarlı və əsaslı cavablarını almamışdılar. İndi isə vəziyyət xeyli dəyişib. Azərbaycanın II Qarabağ müharibəsində qazandığı möhtəşəm Qələbəsi bütün sahələrdə canlandırma yaratmışdır. Biz, musiqişünaslar da çalışırıq ki, nəşr etdiyimiz elmi kitablarla, həm ölkəmizdə, həm xarici ölkələrdə keçirilən beynəlxalq konfranslardakı çıxışlarımızla əsl həqiqəti üzə çıxaraq və, nəhayət ki, erməni plagiatına el birliyi ilə son qoyaq.

ƏDƏBİYYAT

1. Abdulәliyev, A. Müasir musiqişünaslığın aktual məsələləri. – Bakı: Elm və Təhsil, – 2017, – s.24.
2. Bəhmənli, R. Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları. – Bakı: İMZA, – 2022, – s.16.
3. Əsgərov, A. Naxçıvan musiqimədəniyyətində yallı rəqsi. Musiqi dünyası jurnalı. 1 /74, – 2018, – s.36
4. Quliyev, T. Dədə Qorqud kitabı (Vatikan nüsxəsi). – Bakı: Xan, – 2018, – s.6.

SUMMARY

Gulnaz Abdullazade
Nurida Ismailzade

SCIENTIFIC RESEARCH OF YALLI OF WEST AZERBAIJAN, SUBJECT TO ARMENIAN PLAGIARISM

The article presents facts from the history of Western Azerbaijan with reference to historical facts. The Azerbaijanis, who were the autochthonous population of Western Azerbaijan, had a rich musical folklore. This especially applies to the dance genre of yalla. Researcher-scientist R. Bakhmanli in his recently published books published detailed information and musical examples of recordings of 43 yallas belonging to the musical culture of Western Azerbaijan. Each of these yalli was subjected to Armenian plagiarism and over time began to be forgotten by our younger generation. However, publishing books and showing their true melodies will lead to choreographed dances.

Key words: *yalli, Western Azerbaijan, dance, plagiarism, musical example, lad-mugam, musical instruments*.

QƏRBİ AZƏRBAYCANLILARIN DEPORTASİYASININ MƏDƏNİYYƏTƏ TƏSİRİ VƏ ÜZEYİR HACIBƏYLİ YARADICILIĞINDA ERMƏNİ PLAGİATI

Həqiqət YUSİFOVA
hagigat67@mail.ru
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası

Təqdim olunan məqalədə Qərbi azərbaycanlıların deportasiyasının mədəniyyətə təsirindən və Üzeyir Hacıbəyli yaradıcılığının erməni plagiatına məruz qalmasından bəhs olunur. Məqalədə Qərbi azərbaycanlıların yaşadıqları qədim torpaqlardan deportasiyası, ermənilərin qədim tarixi abidələrimizi məhv etməsi işıqlandırılır. Həmçinin Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının, "Çırpınırdı Qara dəniz" mahnısının ermənilər tərəfindən plagiat olunması nəzərə çatdırılır.

Açar sözlər: *Qərbi Azərbaycan, musiqi mədəniyyəti, plagiat, mahnı, tarixi abidələr, mədəni dəyərlər*

Son iki əsr ərzində xalqımıza qarşı yönələn məqsədyönlü etnik təmizləmə və köçürülmə siyasəti, soyqırım nəticəsində Qərbi Azərbaycan ərazisində yaşayan əhali milli faciə və məşəqqətlərlə üzləşməyə məruz qalmışdır. Bədxah qonşularımızın həyata keçirdikləri qeyri-insani, humanizm prinsiplərindən uzaq olan niyyətlərindən irəli gələrək Qərbi azərbaycanlılar əsrlərdən bəri yaşadıqları öz doğma tarixi torpaqlarından didərgin salınaraq, kütləvi qətl və qırğınlara, insanlığa sığmayan vəhşiliklərə məruz qalmışlar.

Tarixə nəzər saldıqda, İrəvan xanlığında yaşayan əhalinin əksəriyyətinin azərbaycanlılardan ibarət olması faktları ilə rastlaşırıq. Qədim Azərbaycan torpağı olan Zəngəzurun süni şəkildə Ermənistana verilməsi ilə Qərbi azərbaycanlıların tarix boyu yaşadıqları ən çətin və məşəqqətli dövrün, tarixi ədalətsizliyin başlanğıcı qoyulmuşdur. Çox hissəsi Azərbaycan toponimlərindən ibarət olan Ermənistan xalqımızın tarixi izlərini, mədəniyyətini, torpaqlarımızın hər qarışına hopan milli dəyərlərimizi silmək üçün bütün saxta və uydurulmuş məlumatlarını səfərbər etmişlər. Lakin bu bir həqiqətdir ki, tarixi saxtalaşdırmaq mümkün deyildir və Qərbi Azərbaycanın hər qarış torpağı Azərbaycanın milli-mədəni və tarixi dəyərləri ilə zəngindir.

Nəzərə çatdıraq ki, Qərbi Azərbaycan termini coğrafi məfhum kimi yaranmışdır. Bu barədə filologiya elmləri doktoru, professor İbrahim Bayramov yazır: *"Qərbi Azərbaycan indi Ermənistan adlanan ərazi məfhumu mənasında işlənir. Azərbaycanşünaslıqda onu ilk dəfə bir termin kimi tarix elmləri doktoru, professor Süleyman Əliyarov işlətmişdir"* [4, s.4]. 1988-ci ildə Qərbi azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edildikdən sonra Qərbi Azərbaycan coğrafi məfhumu daha çox işlədilməyə başladı. Qərbi Azərbaycan tariximizin öz torpaqlarından güc hesabına qopardılan ən ağrılı yeridir. Bu torpaqlarda Dədə Qorqud qopuz çalmış, igid ərənləri at oynatmışdır, Koroğlu azğın düşmənə qarşı mübarizə aparmış, Aşıq Alı, Aşıq Ələsgər saz çalıb söz qoşaraq güllü-çiçəkli torpaqlarımızı vəsf edərək oxşamış, uca dağlarımızı tərənnüm etmişlər. Sazlı-sözlü Qərbi Azərbaycan xalqımızın mədəni tarixinə özünəməxsus dəyərləri olan saysız-hesabsız şəxsiyyətlər bəxş

edərək, ictimai-siyasi, mədəniyyət, ədəbiyyat və incəsənət aləmində zənginliklər yaratmağa nail olmuşdur.

Deportasiyaya məruz qalan Qərbi Azərbaycan torpaqlarında xalqımıza məxsus olan çoxsaylı tarixi-mədəni abidə və yaşayış məskənləri işğala məruz qalmış və əsl sahiblərindən uzaq salınmışdır. Bəşəriyyətin humanizm qanunlarından kənar bir haldır ki, işğala Qərbi azərbaycanlılarla yanaşı, onların mədəniyyəti, əsrlərə söykənən xalq yaradıcılığı, folkloru və digər mədəni dəyərləri də məruz qalmışdır.

Xalqımızın qədim yaşayış məskəni olan Qərbi Azərbaycanda tarixi dəyərlərimizin kökləri ən uzaq dövrlərə əsaslanır. Təsadüfi deyildir ki, VII əsr ədəbi abidəsi olan "Kitabi Dədə Qorqud" dastanının coğrafi mühiti həm də Qərbi Azərbaycanla bağlıdır. Professor İ.Bayramov bununla bağlı apardığı araşdırmada qeyd edir: *"Dastanda adı çəkilən Şirökuvən, Altuntaxt, Göyçə gölü oğuz qəhrəmanlarının doğma yurdları olmuşdur və bu ərazilər indi Ermənistan adlanan Qərbi Azərbaycanın ərazisi daxilində yerləşir"* [4, s.5].

Hazırda Ermənistan adlanan Qərbi Azərbaycan ərazisinin, köklü tarixi əhalisinin mədəni dəyərlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. İrəvan şəhəri təkcə Azərbaycanın deyil, həm də bütün Şərqin elm, təhsil və mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Əfsuslar ki, Qərbi Azərbaycanda xalqımızın milli mədəni irsi nümunələrinin silinməyə doğru apardıqları işlərə baxmayaraq, yüzlərlə unikal Azərbaycan mədəni irs nümunələri mövcuddur. Buna görə də, xalqımıza qarşı yönəldilən bədxah niyyətlərə baxmayaraq, əcdadlarımızın yaratdığı mədəni irsə sahib çıxmağa doğru addımlar atılmaqdadır.

Doğma Azərbaycanımızın bir parçası olan qədim İrəvan, Göyçə, Zəngəzur və Ağbaba torpaqlarına tarixi qayıdışın baş verməsi eyni zamanda milli mədəniyyətin və xalq yaradıcılığı nümunələrinin yenidən dirçəldilməsi deməkdir.

Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın XX əsrdə mərhələlərlə davam edən deportasiyası bu ərazidəki tarixi abidələrimizin mənimsənilməsi və yaxud dağıdılması, yer adlarının isə dəyişdirilməsi ilə müşayiət olunmuşdur. 30 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, xalqımızın Ermənistan ərazisindəki etnik nişanələri də tamşəkildə mədəni irs soyqırımına məruz qalmışdır. Alban dövrü tikililəri, bədii daş nümunələri, at-qoç fiqurları dağılaraq yararsız hala salınmışdır. Qərbi Azərbaycanın mədəni irs nümunələrinin kütləvi vandalizmə məruz qalması yalnız bir məqsədə xidmət etmişdir: xalqımızın mədəni və tarixi izlərini mənsub olduqları torpaqlardan silmək.

Erməni bədxahların Azərbaycana qarşı məqsədli siyasəti musiqimizə də yönəldilmişdir. Erməni plagiatına məruz qalmış musiqilər xüsusilə milli mədəniyyətimizin ən ağrılı və ən çox araşdırmasını tələb edən bir sahəsidir. Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin əsərləri saxta erməni musiqiçiləri tərəfindən mənimsənilməyə və ermənilşdirilməyə daha çox məruz qalmışdır. Daha konkret şəkildə ifadə etsək, Ü.Hacıbəylinin təkrarolunmaz əsərləri, yaratdığı melodiyaları yazıldığı ilk vaxtlardan başlayaraq müxtəlif texnologiyalar ilə plagiatlıq edilmiş və ən kəskin şəkildə ifadə etsək, bir növ "oğurlanmışdır". Plagiatlıq üzərində fəaliyyətlərini quran erməni musiqiçiləri, bəstəkarları, ifaçıları, musiqi

kollektivləri, musiqişünasları, folklorşünasları bu işdə xüsusilə fəallıq göstərmişlər. Onlar heç bir professional və dünya üzrə qəbul olunmuş etik qaydalara riayət etməyərək, qeyri-humanist davranışları ilə beynəlxalq müəllif hüquq qaydaları normalarını pozaraq, Ü.Hacıbəyli başda olmaqla bir çox Azərbaycan bəstəkarlarının əsərlərini, eləcə də xalq yaradıcılığı nümunələrini mənimsəməyə xidmət edirlər. Onların "Sarı gəlin"dən başlayaraq, bir çox Azərbaycan xalq mahnılarına və rəqslərinə, rəng və təsniflərə, şikəstələrə, aşıqhavalarına yönələn haqsız iradları, milli musiqi alətlərimizi mənimsəmə cəhdləri məkrli və qərəzli məqsədin, çirkli məramlarının göstəricisidir.

Uzun illərdir ki, davam etdirilən bu siyasət Ü.Hacıbəylinin "O olmasın, bu olsun", "Arşın mal alan" kimi musiqi komediyalarına yiyələnmək cəhdləri ilə yadda qalmışdır. Bu barədə araşdırmaçı-jurnalist Dilqəm Əhməd yazır: *"Üzeyir bəyin əsərlərinin ermənilər tərəfindən səhnələşdirilməsi hələ Çar Rusiyası dönəmindən etibarən başlayıb. Bu tamaşaların bəzilərində Üzeyir bəyin özü də iştirak edib. Məsələn, "Yeni iqbal" qəzetinin 21 sentyabr 1915-ci il sayında Üzeyir bəyin özü "Musiqiçi" imzası ilə "Arşın mal alan" erməni dilində" adlı məqalə yazıb. Yazıdan aydın olur ki, Mayılov qardaşlarının teatrında ermənilər əsəri səhnələşdiriblər, mətni tamamilə erməni dilinə çeviriblər, amma notları olmadığına görə Osmanlı və erməni havalarından istifadə ediblər. Sultan bəy rolunu Torosyan oynayıb, amma Üzeyir bəy yerli komik Əliəkbər Hüseynzadənin yerini vermədiyini bildirib"* [7]. Təbii ki, Ü.Hacıbəyli bütün bunlara qarşı öz müəllif hüquqlarını qorumağa çalışırdı və əsərlərini erməni musiqiçilərinin saxtakarlığından qorumaq yolunda müəyyən addımlar atırdı. Ü.Hacıbəyli qardaşı Ceyhun Hacıbəyliyə göndərdiyi məktubda ermənilərin "Arşın mal alan" əsərinə olan iddialarından belə bəhs etmişdir: *"Bir neçə gün əvvəl İstanbul səfirimiz Yusif Vəzirovdan bir məktub aldım. Yazır ki, ermənilərin fransızca "Renesans" qəzetəsi iddia edir ki, "Arşan mal alan"ı yazan ermənidir. Yusif bu işdən çox mütəəssir olduğunu yazır və israr eləyir ki, mən əsərlərimin notlarını çap etdirib onlara göndərim ki, səfarət xərcinə olaraq Yevropada, həmən Amerikaya böylə intişarına səy etsin. Mən əhvalatı Nəsib bəyə söylədim. Dedi ki, bu iddia ermənilərin Zəngəzur iddiasından daha betərdir"* [7].

Ü.Hacıbəyli ilə yanaşı, Müslüm Maqomayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov, Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov, Tofiq Quliyev, Süleyman Ələsgərov, Cahangir Cahangirov, Rauf Hacıyev, Arif Məlikov, Aqşin Əlizadə, Şəfiqə Axundova, Emin Sabitoğlu, Ramiz Mirişli, Telman Hacıyev, Elza İbrahimova, Oqtay Kazımi, Ələkbər Tağıyev və başqa bəstəkarlarımızın əsərləri saxta erməni musiqiçilərin plagiatlığı ilə qarşılamışlar. Azərbaycan xalq mahnıları, milli rəqsləri ilə yanaşı, bəstəkarların mahnıları, əsərləri və yaxud əsərlərindən melodik parçalar ermənilər tərəfindən aşkar şəkildə oğurlanaraq istifadə olunur və yaxud ermənileşdirilir. Hazırda internet resurslarında, audio və video yayım vasitələrində, müxtəlif saytlarda bu əsərlər erməni dilində oxunaraq, müəllif hüquqlarının kəskin şəkildə pozulmasına səbəb olur.

Ü.Hacıbəyliyə qarşı yönələn ədalətsiz, haqsız, qeyri-humanist və heç bir etikaya sığmayan hərəkətlər hazırda da davam etdirilir. Belə ki, Ü.Hacıbəylinin ölməz şair Əhməd Cavadın şeiri əsasında bəstələdiyi və çox tanınmış "Çırpınırdı Qara dəniz" mahnısı 2019-cu ildə internet resurslarında Abraam Russo adlı erməni müğənninin ifasında "Kamança" adı ilə verilmişdir. Hətta erməni musiqiçiləri bununla kifayətlənməmiş və heç bir məntiqə sığmayan yalanlarını daha da genişləndirməyə başlamışlar. Belə ki, onlar Ü.Hacıbəylinin

"Çırpınırdı Qara dəniz" mahnısını heç bir tarixi mənbəyə əsaslanmadan uydurma yalanları ilə saxtalaşdıraraq XVIII əsrin erməni şairi olmuş Sayat Novaya aid etmiş və "Kamança" mahnısının ona məxsusluğu iddiasında olmuşlar. Əslində, bu mahnının Sayat Novaya məxsus olmadığını sübut etmək üçün hər hansı bir nəzəri təhlil lazım deyildir. Belə ki, mahnının Azərbaycan musiqisinin məqam xüsusiyyətlərinə əsaslanması, melodik quruluşu və inkişafı, mürəkkəb ritmik fiqurasiyalı instrumental girişi və eləcə də sadalanacaq çoxsaylı nəzəri təhlillər qəti şəkildə erməni musiqisinə, XVIII əsr musiqi mühitinə və bu dövrdə yaşamış Sayat Novaya xas deyildir. Bu baxımdan dahi Üzeyir Hacıbəylinin əsərlərinin Sayat Novanın yaradıcılığına aid etmək eyni zamanda ermənilərin özlərinə qarşı saxtakarlığıdır. Lakin ermənilərin riyakarlığı bununla tamamlanmır. 2018-ci ildə Ü.Hacıbəylinin "Çırpınırdı Qara dəniz" mahnısı ermənilər tərəfindən "İlin mahnısı" olaraq seçilmişdir. Bu da onu göstərir ki, plagiatlıq ermənilərin əsl xislətini nümayiş etdirir və onların Azərbaycan xalqının mədəniyyətinə olan daha bir bədxah niyyətini nümayiş etdirir.

Bu gün Ü.Hacıbəylinin milli qürur və vətənpərvərliklə yazdığı "Çırpınırdı Qara dəniz" mahnısı ürəyi vətən eşqi ilə döyünən hər bir azərbaycanlının qəlbində özünə yer tapmışdır. Bu baxımdan hesab edirik ki, Qarabağ torpaqlarımızın erməni işğalından azad olunması məsələsi eyni zamanda Qərbi Azərbaycana böyük qayıdışın reallaşacağı ümidini yaradır.

Qərbi Azərbaycan torpaqları, erməni plagiatına məruz qalan Azərbaycan musiqiləri və digər tarixi-mədəni abidələrimiz erməni işğalından azad olunacaqdır və böyük qayıdış çərçivəsində milli mədəniyyətimiz, xalq yaradıcılığımız, folklorumuz əsrlərə söykənən bədii dəyərləri ilə bütün dünyada daha da tanınacaqdır.

ƏDƏBİYYAT

1. Abdullazadə, G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti. Şərq və Qərb kontekstində / G.A.Abdullazadə. – Bakı: Şərq-Qərb, – 2009. – 272 s.
2. Azərbaycan milli musiqisinin tədqiqi problemləri. Məqalələr toplusu. / – Bakı: Elm və həyat, – c.2. – 1996. – 77 s.
3. Azərbaycan musiqi tarixi (qədim dövrdən XX əsrə qədər). / tərt. ed. Z.Y.Səfərova. – Bakı: Şərq-Qərb, – c.1. – 2012. – 591 s.
4. Bayramov, İ. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti / İ.Bayramov. – Bakı: Şərq-Qərb, – 2011. – 288 s.
5. Azərbaycanlıların Ermənistandan deportasiyası [Elektron resurs] / URL: RL: https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n_Erm%C9%99nistandan_deportasiyas%C4%B1
6. Çırpınırdı Qara dəniz [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/%C3%87%C4%B1rp%C4%B1n%C4%B1rd%C4%B1_Qara_d%C9%99niz
7. Əhməd, D. "Arşın mal alan" erməni riyası ilə üz-üzə [Elektron resurs] URL:https://oxu.az/culture/381697

SUMMARY

Haqiqat Yusifova

THE IMPACT OF THE DEPORTATION OF WESTERN AZERBAIJANIS ON CULTURE AND ARMENIAN PLAGIARISM IN THE WORKS OF UZEYIR HAJIBEYLI

The presented article examines the impact of the deportation of Western Azerbaijanis on culture and the subordination of Uzeyir Hajibeyli's creativity to Armenian plagiarism. The article highlights the deportation of Western Azerbaijanis from their ancient lands and the destruction of our ancient historical monuments by the Armenians. It is also reported that the Armenians plagiarized U. Hajibeyli's musical comedy "Arshin mal alan" and the song "Chyrpynyrdy Kara deniz".

Key words: *Western Azerbaijan, musical culture, plagiarism, song, historical monuments, cultural values*

CƏLİL MƏMMƏDQULUZADƏNİN PUBLİSİSTİK YARADICILIĞINDA İRƏVAN VƏ ZƏNGƏZUR MÖVZUSU

İman CƏFƏROV
altay1999@yahoo.com
Naxçıvan Dövlət Universiteti

İrəvan və Zəngəzurun qədim Azərbaycan torpaqları olmasını təsdiqləyən sənədlər sırasında XX əsrin əvvəllərinə dair dövrü mətbuat materialları xüsusi yer tutur. Bu mənada Cəlil Məmmədquluzadənin publisistikası mühüm əhəmiyyətə malikdir. Məqalədə faktik materiallar əsasında təsdiqlənir ki, İrəvan və Zəngəzurda azərbaycanlıların ermənilər və ruslar tərəfindən təzyiqlərə məruz qalmasını gündəmə gətirən ilk müəllif Cəlil Məmmədquluzadədir.

Cəlil Məmmədquluzadə " Məmmədqulu bəy Kəngərlinin tərcümeyi-halı" adlı nekroloqda İrəvanda azərbaycanlıların hüquqlarını müdafiə edən soydaşlarımızın tarixi taleyinin faciə ilə bitəcəyini daha aydın şəkildə yazırdı. Bu nekroloq Azərbaycan mətbuatında erməni terrorunun qurbanı olmuş azərbaycanlı şəhid haqqında ilk araşdırma sayıla bilər.

Məlumdur ki, Qərbi Azərbaycanın tarixi faciələrlə qarşılaşmış bölgələrindən biri də Zəngəzur olmuşdur. Cəlil Məmmədquluzadənin publisistikasında Zəngəzurda azərbaycanlıların məruz qaldıqları aclıqlardan dönə-dönə söz açıldığını görürük. Mirzə Cəlil Zəngəzurda yaşayan azərbaycanlıların xilası naminə imkanlı vətən qardaşlarını milli birliyə, köməyə çağırmışdır. O, eyni mövzuda "Molla Nəsrəddin" jurnalında silsilə felyetonlar çap etdirmişdir.

Mirzə Cəlil hətta 20-ci əsrin 20-ci illərindən sonra Ermənistanda rəsmi qeydiyyata alınan azərbaycanlıların problemlərini gündəmə gətirib.

***Açar sözlər**: Molla Nəsrəddin, publisistik, faciə, ilk müəllif, məskunlaşma*

Akademik İsa Həbibbəyli fenomenal ədib, qeyri-adi publisist və dramaturq Cəlil Məmmədquluzadə yaradıcılığını qüdrətli Azərbaycan idealı ilə bağlılıq baxımından belə dəyərləndirmişdir: "Cəlil Məmmədquluzadə bədii-ictimai fikirdə azərbaycançılıq ideologiyasının əsas yaradıcılarından biri hesab olunur. Mirzə Cəlil özü isə böyük Azərbaycan idealının Məcnunu və mücahididir. Böyük demokrat ədibin yaradıcılığı dərin, mənalı və həyəcanlandırıcı bir Azərbaycannamədir. Mirzə Cəlilin publisistikasının şah əsəri sayılmağa layiq olan məşhur "Azərbaycan" məqaləsi (1917) milli oyanış və siyasi intibah dövrünün həqiqi bədii manifestidir. "Azərbaycan" məqaləsi-Azərbaycan məmləkəti coğrafiyasının vətəndaş ədib Cəlil Məmmədquluzadənin mahir qələmi ilə çəkilmiş nadir publisist xəritəsidir" [4, s. 23].

Son dərəcədə maraqlı və düşündürücüdür ki, Cəlil Məmmədquluzadə publisistikasında "Azərbaycan" məqaləsinə gedən yol İrəvan mövzulu məqalədən başlayır. Sanki böyük Mirzə Cəlilə İrəvan mövzusundan, daha doğrusu, Azərbaycanın tarixi taleyindən söz açmağı Tanrı özü diktə edir. Bir qədər də dəqiqləşdirsək, milli mətbuatımızda Qərbi Azərbaycanlıların ermənilər və ruslar tərəfindən təzyiqlərə məruz qalmasını gündəmə gətirən ilk müəllif məhz Cəlil Məmmədquluzadədir.

Məlum faktdır ki, Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra 10 il müəllimlik sahəsində çalışan Cəlil Məmmədquluzadə 1897-1898-ci illərdə İrəvanda yaşayan

azərbaycanlıların taleyi ilə daha artıq maraqlanmış, bu marağın nəticəsi kimi İrəvan qəza polis idarəsində dəftərxana xidmətçisi və tərcüməçi kimi fəaliyyət göstərmiş, hətta məhkəmələrdə vətən qardaşlarının hüquqlarını müdafiə etmək məqsədilə 1902-ci ildə İrəvana köçmüşdür. Qərbi Azərbaycanda erməni və ruslar tərəfindən azərbaycanlılara qarşı başlanan şovinist münasibət Cəlil Məmmədquluzadənin haqlı etirazına səbəb olmuş, nəticədə vətənpərvər ziyalı "Kaspi" qəzetinin 7 mart 1902-ci il tarixli 53-cü sayında "İrəvan müxbirimizdən" başlığı ilə məqalə çap etdirmiş, müəyyən mənada Azərbaycan cəmiyyətini bu problemlə bağlı səfərbər olmağa səsləmişdir.

Cəlil Məmmədquluzadənin "İrəvan müxbirimizdən" başlığı ilə çap olunmuş məqaləsi deməyə əsas verir ki, artıq 1902-ci ildən İrəvanda çalışan hökumət rəsmiləri düşünülmüş şəkildə azərbaycanlılara məxsus torpaq sahələrini ələ keçirməyə, yurdun əzəli sakinlərini ata-baba torpaqlarından çıxarmağa, onlara müxtəlif yollarla təzyiq göstərməyə başlamışlar. Məqalədə müəllif açıq şəkildə bildirir ki, İrəvan şəhəri ətrafında yaşayan azərbaycanlıların yaşadıqları ərazilərin zəbt edilməsi prosesinə dövlət qurumları səviyyəsində başlanılmışdır.

Doğrudur, "İrəvan müxbirimizdən" məqaləsində yalnız bir məsələdən, yəni İrəvan şəhəri yaxınlığında Dəlmə adlı ərazidə azərbaycanlıların min bir əziyyətlə saldıqları bağların bələdiyyə idarəsi tərəfindən zəbt edilməsindən danışılır. Bununla belə, aydınlıq naminə müəllif prosesləri incəliklərinə qədər oxucunun gözü qarşısında canlandırır və məlum olur ki, Qərbi Azərbaycanda yerli əhaliyə zülm edərək onları qədim yurdlarından çıxarmaq siyasəti XIX əsrin 90-cı illərindən xüsusi amansızlıqla həyata keçirilmiş, həm də müstəmləkəçi hökumət tərəfindən dəstəklənmişdir. Cəlil Məmmədquluzadə proseslərə aydınlıq gətirmək məqsədilə yazırdı: "1891-ci ildən başlayaraq şəhər (ermənilər və ruslardan ibarət şəhər bələdiyyəsi – İ.C.) başqa cür hərəkət etməyi qət etdi. Həmin il şəhər duması şəhərin nəfinə Dəlmə bağlarına vergi təyin etməkdən ötrü onların gəlirini hesablayan xüsusi bir komissiya düzəltdi. Şəhər qanunnaməsinin 129-cu maddəsinə görə, vergi əmlakdan götürülən xalis gəlirin on faizindən, yaxud həmin əmlakın dəyərinin bir faizindən artıq olmamalıdır. Lakin 1891-ci il komissiyası Dəlmə bağlarına o qədər yüksək qiymət qoydu ki, illik verginin ölçüsü bağların illik gəlirindən xeyli artıq çıxırdı. Beləliklə, 1891-ci ilə qədər verilməyib üst-üstə yığılan vergi qalıqları elə bir ölçü aldı ki, bağ sahibləri bağlarından da, qalan vergiləri ödəməkdən də boyun qaçırmalı oldular. Lakin nədənsə şəhər pulları yığmaq işini ləngidirdi" [7, s. 105-106].

Q.Məmmədlinin "Molla Nəsrəddin" salnaməsində yer tutan məlumatlar deməyə əsas verir ki, Cəlil Məmmədquluzadə yalnız İrəvan şəhəri yaxınlığındakı Dəlmə bağları ilə əlaqədar hadisələri yazmaqla vəzifəsini bitmiş hesah etməyib, həm də çalışıb ki, Qərbi Azərbaycanda yaşayan bütün həmvətənlərimiz ermənilərin həyata keçirdikləri planlardan xəbərdar olsunlar [8, s. 42].

Bəli, "İrəvan müxbirimizdən" məqaləsində Cəlil Məmmədquluzadə aydın şəkildə vurğulayır ki, Qərbi Azərbaycan ərazilərini ermənileşdirmək vəzifəsi bütöv bir sistem halında həyata keçirilməkdədir və lakin bu proses hələlik sirr olaraq saxlanılır. Məqalənin sonunda müəllif məhz həmin sirrin nədən ibarət olmasını aydınlaşdıracağına söz versə də, artıq problem bəllidir, məqsəd İrəvan ətrafında azərbaycanlılara məxsus torpaqların zor

gücünə onlardan alınmasıdır. Bu isə "İrəvan müxbirimizdən" məqaləsinə görkəmli ədəbiyyatşünas Əziz Şərifin münasibətidir: "Haqqında danışdığımız məqalə yazıcının İrəvanda yaşayaraq hüquq elmlərindən imtahana hazırlaşdığı zaman ictimai məsələlərlə məşğul olduğunu, İrəvanda yaşayan azərbaycanlıların gündəlik həyatı ilə maraqlanaraq, onların arzu və ehtiyaclarından xəbər tutduğunu və lazım olan yerdə onlara əl uzatmağa, kömək etməyə çalışdığını göstərir" [3, s. 221].

Cəlil Məmmədquluzadənin 1902-ci ildə "Kaspi" qəzetində çap etdirdiyi ikinci məqalədə yenə də Qərbi Azərbaycanda müsəlmanlar üçün yaşayışın son dərəcə çətinliyindən danışılır. Qəzetin 28 mart 1902-ci il tarixli 82-ci sayında getmiş "İrəvandan (xəbər)" başlıqlı yazıda bir daha vurğulanır ki, İrəvanın yerli sakinləri olan azərbaycanlılar öz yaşayış vəziyyətlərini yaxşılaşdırmağa çalışsalar da, onların bu istiqamətli cəhdlərinə hökumət səviyyəsində izn verilmir, ermənilərdən təşkil olunmuş şəhər dumasında heç bir azərbaycanlının sözü dinlənilmir. Hətta azərbaycanlıların nə deyəcəklər, yaxud nə edəcəkləri artıq şəhərdə hakimiyyəti mənimsəmiş ermənilər maraqlandırmır. Bəli, hələ 1902-ci ildən Cəlil Məmmədquluzadə Qərbi Azərbaycanda həyata keçirilən ermənileşdirmə siyasətinin iş üzünü açır, proseslərə obyektiv jurnalist mövqeyindən yanaşaraq yazırdı: "Bu iclasda (söhbət İrəvan şəhər dumasının iclasından gedir – İ.C.) irəvanlı Məşədi Abbasın Xararatovun boş qalmış şəhər torpağının ona icarəyə verilməsi barədə ərizəsinə də baxıldı. Duma bu ərizəni yekdilliklə rədd etdi. Yerli müsəlmanlardan bir başqasının eyni məzmunda ərizəsinin də başına o işi gətirdilər. Lakin bu cür məsələləri həll etmə üsulu olduqca maraqlıdır. Sədr məlumat verir: "Məşədi Abbas ərizə vermişdir ki,...", sədr sözünü qurtarmamış duma üzvlərinin səsi eşidilir: "olmaz". Yaxud da belə olur: Sədr məlumat verir: "İrəvan şəhərinin sakini Kərbəlayı Cəfər Əli oğlu uprava idarəsinə ərizəsində xahiş edir ki,.." Qlasnılar içərisindən "olmaz", "olmaz" sözləri eşidilir. Bu surətlə duma məzmunu ilə tanış olmadığı ərizələr haqqında qərar çıxarır" [7, s. 107].

Faktlar deməyə əsas verir ki, İrəvan və Zəngəzur mövzusu Mirzə Cəlil Məmmədquluzadəni daim məşğul etmiş, böyük ədib Rusiya imperiyasının və ermənilərin bölgə üçün müəyyənləşdirdikləri planları daha aydın gördüyündən İrəvan quberniyasında baş verən hadisələrə xüsusi həssaslıqla yanaşmış, İrəvan məsələsində həmvətənlərini diqqətli olmağa, qətiyyətlə mübarizəyə səsləmişdir.

Qərbi Azərbaycanda yaşayan həmvətənlərimizin tarixi taleyinin con dərəcədə faciə ilə nəticələnəcəyi Cəlil Məmmədquluzadənin 22 sentyabr 1905-ci il tarixdə "Həyat" qəzetində çap etdirdiyi "Məmmədqulu bəy Kəngərlinin tərcümeyi-halı" adlı nekroloq məqaləsində daha kəskin və aydın şəkildə qələmə alınmışdır. Hətta belə demək mümkündür ki, həmin nekroloq-məqaləni Azərbaycan mətbuatında erməni terrorizmindən və həmin terrora qurban gedən Azərbaycan şəhidindən bəhs edən ilk əsər də adlandırmaq olar. Haqqında danışılan məqalə bir neçə cəhətdən əhəmiyyətlidir. İsa Həbibbəyli tərəfindən "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" kitabının "Əlavələr" bölməsində [Bakı: Azərnəşr, 1997] çağdaş elmi ictimaiyyətə təqdim olunan "Məmmədqulu bəy Kəngərlinin tərcümeyi-halı" məqaləsi [Bax: 5, 511-616] bu gün belə bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi, müstəmləkəçilik şəraitində bütün gücü ilə doğma

xalqının hüquqları uğrunda mübarizə aparmış Məmmədqulu bəy Kəngərlinin qətlindən bəhs edən məqalədə müəllif qəti şəkildə bildirir ki, azərbaycanlıları özlərinin əbədi düşməni hesab edən terrorçu ermənilərlə mübarizədə şəhid olmaq hər bir vətən övladı üçün şərəfdir. Bu mənada "Məmmədqulu bəy Kəngərlinin tərcümeyi-halı" məqaləsi XX əsrin sonları və XXI əsrin əvvəllərində Azərbaycan mətbuatında bütöv bir silsilə təşkil edən "Şəhidnamə"nin hələ 100 il əvvəl yazılmış nizamnaməsidir.

İkincisi, "Məmmədqulu bəy Kəngərlinin tərcümeyi-halı" məqaləsinin ideyası erməni terrorizminə qarşı mübarizədə milli birliyə çağırışdan ibarətdir. Mirzə Cəlil qəzəblə elan edir ki, Qərbi Azərbaycanda yaşayan vətən qardaşları terrorist qruplar, komitələr səviyyəsində təşkilatlanmış ermənilərin amansıq qəddarlıqları ilə üz-üzə qalmışlar və bütöv bir terror təşkilatına qarşı təkbaşına mübarizə aparan hər hansı azərbaycanlının cismani ölümü labüddür. Cəlil Məmmədquluzadənin fikrincə, Məmmədqulu bəy Kəngərlinin ölümü milli təfəkkürümüzdə şəhidlik alovunun şölələnməsi deməkdir, vətən övladının həyatı bahasına məmləkəti uğrunda mübarizə aparması deməkdir, vətənsevərliyin ən ali məqama yüksəlmiş nümunəsi deməkdir. Nekroloq-məqalənin "Bir kiçik xütbə" hissəsi aşağıdakı sözlərlə tamamlanır: "Ey nuri-çeşmi-millət, sən məhzun olma ki, sənin ali niyyətlərin, müqəddəs xahişlərin, həyatbəxş ümidlərin əmələ gəlməyib qalacaqdır. Pəs zənn etmə ki, ermənilər səni şəhid etməklə niyyətlərinə, xahişlərinə mane oldular. Əsla, rahat yat ki, sənin hər damcıqanın yerinə sənin camaatın, sənin millətin yüz-yüz xahişini əmələ gətirəcəkdir. ... Sənin bihudə tökülmüş pak məsum qanlarından bu məmləkətdə, bu vətəni-ümumidə ixvət və məhəbbət, sülh, tərəqqi və təkamül gülləri bitəcəkdir!

Arxayın ol, arxayın ol ki, sən həqiqətdə ölmədin. Sən dünyadaki sağlığından daha artıq sağsan, dirisən. … Get, get qərargahın olan ərvahi-şühədaya qavuş! Onlara de ki, "millətimin təqsirini bağışlayın. Çoxdan sizi yalnız qoymuşdular. Neçə illərdir sizə yoldaş heç kəs göndərmədilər. İndi millətim oyanıbdır, mərhəmətə gəlibdir, öz haqlarını, insan olduqlarını qanmağa başlayıbdır. Məni sizin yanınıza göndərdilər ki, millətimin bu fərəhbəxş xəbərini sizə müjdə edəm".

Ruhum Məmmədqulu bəy! Xatircəm ol ki, sənin xahişlərinin hamısını yerinə gətirəcəyiz.

Aşağılarda qalma, qalx yuxarılara, qalx!
Yüksəl ki, yerin bu yer deyildir,
Dünyaya gəliş hünər deyildir.
Yüksəl ki, bunun da fövqü vardır,
İnsanlığın özgə zövqü vardır" [8, s. 317].

Mirzə Cəlil 7 aprel 1906-cı il tarixdən başlayaraq nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalında səhifələrində də müntəzəm surətdə İrəvan və Zəngəzur mövzusunda qələmə aldığı əsərlərə yer vermişdir. Bu məqam İ.Cəfərlinin "Cəlil Məmmədquluzadənin yaradıcılığında milli münaqişə və azərbaycanlıların soyqırımı məsələsi" adlı məqaləsində belə mənalandırılmışdır: "1906-cı ildən başlayaraq yüzilliyin dörddə biri ərzində müsəlman şərqinin ədəbi-bədii, tarixi, publisist salnaməsinə çevrilən "Molla Nəsrəddin"

jurnalının baş redaktoru Cəlil Məmmədquluzadənin ədəbi irsi, sənət örnəkləri Qafqazda milli münaqişə və azərbaycanlı soyqırımının bütün cəhətləri ilə açıqlanmasında, təsdiqlənməsində qiymətli mənbədir" [2, s. 74].

Böyük Mirzə Cəlil dühasının məhsulu olan "Molla Nəsrəddin" jurnalında İrəvan mövzusundakı materiallar formaca müxtəlif olduğu kimi, məzmun etibarilə də rəngarəngdir, o torpaqların qədim sakinləri olmalarına baxmayaraq, bölgədə ermənilərin amansız təzyiqləri ilə qarşılaşan azərbaycanlıların taleyinə vətənpərvər ziyalının ciddi narahatlığını ifadə etməkdədir. Böyük qələm mücahidinin bu narahatlığı dərgi səhifələrində bəzən bir cümləlik xəbərdə, bəzən də irihəcmli felyetonlarda öz əksini tapmışdır. Öncədən vurğulamaq istərdik ki, həyatda olduğu kimi "Molla Nəsrəddin" səhifələrində də dünya tarixinin bütün dövrlərində öz insanpərvərlikləri ilə seçilən azərbaycanlıların bəşəri humanizmi terorizmə hesablanmış erməni xisləti ilə qarşı-qarşıyadır. Məsələn, məcmuənin 14 aprel 1906-cı il tarixli 2-ci sayındakı teleqraf xəbərlərindən oxuyuruq: "Varşava - aprel 13. Polyaklar dövlət dumasını "baykot" edib intixaba qarışmırlar.

Tiflis - aprel 4. Ermənilərin "Daşnaksütyun" firqəsi Rusiya idarəsinin hazırdakı övzaından narazı olub və rus padşahının fevralın iyirmisində sadir olan manifestini nəzərə alıb dövlət dumasını baykot etmələrini qəzetlərdə elan etdilər.

…İrəvan - aprel 8. Danabaş, İtqapan və Qurbağalı mahalının müsəlmanları fevralın iyirmisində elan olunan manifesti xoşlamayıb dövlət dumasına qarışmaq istəmirlər" [10, s. 36].

Əslində bu teleqraf xəbərləri oxucunu diqqətli olmağa çağırışdır. Çünki bütün varlıqları ilə daşnaksütyun partiyasına bağlı ermənilər öz xain niyyətlərini gerçəkləşdirmək prosesində daim Rusiya dövlətindən dəstək almış, bununla belə, zahirən özlərini imperiyadan narazı tərəf kimi göstərməyə çalışmışlar. Bu sırada mollanəsrəddinçiləri hiddətləndirən isə tarix boyu İrəvan quberniyasında yaşayan müsəlmanların dünya işlərinə, o cümlədən bölgədə aparılan ermənileşmə siyasətinə laqeydliyidir. Bu laqeydlik isə bölgədə azərbaycanlıların mütəmadi olaraq sığışdırılması, idarəetmə orqanlarında çalışan müsəlmanların vəzifələrindən uzaqlaşdırılması, beləliklə, İrəvan quberniyasında yaşayan həmvətənlərimizin ruslardan və ermənilərədən asılılığı ilə nəticələnmişdir. Şübhəsiz ki, o dövrdə xüsusən də mövhumat və xurafatla ətalətə sürüklənən azərbaycanlılar cəmiyyətdə baş verən proseslərin əsl mahiyyətindən xəbərsiz olmuşlar. Məhz bu səbəbdən də Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalı vasitəsilə ruslaşdırma və ermənileşdirmə siyasətinin iç üzünü açmağa məxsusi önəm vermişdir. Budur, məcmuənin 23 iyun 1906-cı il tarixli 12-ci sayında oxuculara təqdim olunan "Təzə təlim kitabı" başlıqlı materialdakı satirik hesab məsələlərindən biri məhz haqqında söz açdığımız prosesləri ifşa etməkdədir: "İrəvan qubernatoru on dörd ildir ki, bu mənsəbdədir, hər il on dörd müsəlmanı qulluğundan kənar edir. Bu müddətdə qubernator neçə müsəlman çıxardıb?" [10, s. 120].

Göründüyü kimi, Cəlil Məmmədquluzadə fərqində idi ki, İrəvan quberniyasını ermənileşdirmək üçün Rusiya imperiyası cəmiyyət həyatının bütün sahələrində azərbaycanlılara qarşı cəza tədbirləri həyata keçirir.

XIX əsrin əvvəllərinə qədər, yəni Şimali Azərbaycan Rusiyaya birləşdirilənə qədər böyük əksəriyyətlə əhalisi azərbaycanlılardan ibarət İrəvən quberniyasında birbaşa ruslarınssenarisinə uyğun hazırlanan və hissə-hissə ermənilərin xeyirinə gerçəkləşdirilən proseslər Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalı səhifələrində bütün aydınlığı ilə nəzər nöqtəsinə çəkilmişdir. Dərgidəki belə materialladan biri də "Çətin məsələyə cavab" felyetonudur ("Molla Nəsrəddin", 8 sentyabr 1906, №23). Felyetonda bir dahatəsdiqlənir ki, Rusiya dövləti Qərbi Azərbaycan torpaqlarının əsl sahibləri olan azərbaycanlıları bölgədən uzaqlaşdırmaq planını mükəmməl bir sisten halında və həm də bütün cəhətlər nəzərə alınmaqla həyata keçirmişlər. Maraqlıdır ki, "Çətin məsələyə cavab"ın ilk cümləsi Azərbaycanda ruslaşdırma siyasətinin iç üzünü açan aşağıdakı sualdan ibarətdir. "Bir darülmüəllimində altmış dörd müsəlman uşağı ola və bunların ikisi müsəlman dili bilməyə (yəni nə eybi var?), bunlara şəriət dərsini nə dildə demək lazımdır, rus dilində, ya müsəlman dilində?" [10, s. 205].

Bu suala "Molla Nəsrəddin"in əməkdaşlarından "Hərdəmxəyal", "Mozalan", "Hop-hop", "Qızdırmalı" öz kəskin mənfi mühasibətlərini zahiri biganəliklə bildirirlər. "Lağlağı" isə çıxışına belə başlayır: "Başağrısı olmasın, bir gün var idi, bir gün yox idi, bir İrəvan şəhəri var idi, orada bir darülmüəllimin var idi, o darülmüəlliminin bir rəisi var idi ki, adına Miropyev deyirdilər. Haman Miropyev indi Qori darülmüəlliminin rəisidir.

Cənab Miropyev, başağrısı olmasın on iki il bundlan irəli bir kitab yazıb və haman kitabında deyir ki, "Mən müsəlman millətini çox, çox, çox dost tuturam, amma bircə işləri xoşuma gəlmir. "Namazı müsəlman dilində qılırlar, rus dilində qılmırlar" [10, s. 205].

Diqqət edilərsə, Miropyevin əməlləri qorxunc rus milli şovinizminin yüksək səviyyədə tətbiq edilməsindən xəbər verməkdədir. Məhz Miropyev kimilərin idarəçiliyi nəticəsində İrəvan quberniyasının kənd məktəblərində Azərbaycan dilinin tədrisi "yaddan çıxır", şagirdlər rus dilini öyrənmək zorunda qalır, bu yolla da xalqdan ayrı düşürlər.

Əlbəttə, "Molla Nəsrəddin" ədəbi cəbhəsinin başçısı Cəlil Məmmədquluzadə ruslaşdırma siyasətinin amansızlığını, eləcə də Qafqazda azərbaycanlılara münasibətdə qeyri-insaniliyi görür, öz vətən qardaşlarını laqeydlik xəstəliyindən xilas olmağa səsləyirdi. Məcmuədə eyni xarakterli anti-azərbaycanlı xislətinin tənqidini "İrəvan seminariyası və qazının nitqi" felyetonunda da izləyirik ["Molla Nəsrəddin", 17 fevral 1907, № 7]. Felyeton İrəvan quberniyasında əhalinin kontingenti haqqında da dolğun təəssürat yaratmaqdadır. Belə ki, yazıda "Molla Nəsrəddin"in İrəvan müxbiri "Anaş qurbağa" İrəvan qazısı Axund Molla Məhəmməd Bağır ağanın Qafqaz canişininə söylədiyi nitqdən bəhs edir. Daha doğrusu, "Anaş qurbağa"nın məlumatına görə, Axund Molla Məhəmməd Bağır ağa şikayətlənir ki, İrəvan seminariyasında müsəlman uşaqlarının təhsil almasına imkan yaradılmır və bu səbəbdən müsəlman kəndlərində məktəblər açmaq mümkün deyil. Rus çinovniklərinin yaratdığı şəraitin nəticəsidir ki, azərbaycanlıların yaşadıqları kəndlərdə müəllim adına əsasən dünyəvi elmlərdən xəbərsiz insanlar çalışırlar. Düşündürücüdür ki, C.Məmmədquluzadəyə görə, hətta 10 illərlə rus məmurları ilə birgə fəaliyyət göstərən dini liderlərimiz belə İrəvanda azərbaycanlılara göstərilən ögey münasibətdən bezmişlər. Budur, "İrəvan seminariyası və qazının nitqi"

felyetonunnda güya İrəvan qazisi Axund Molla Məhəmməd Bağır ağanın Qafqaz canişininə söylədiyi nitq: " "Ey qraf ağa, sən allah bir insaf elə, axır bu seminariya ki, İrəvanda var, axır buyur görək bunu kimdən ötrü hökumət açıb? Əgər buyursanız ki, İrəvan camaatından ötrü açıb, elədə bəs di buyur gedək seminariyaya və dəftəri tökək qabağımıza, baxaq görək ildə müsəlmanlardan neçə uşaq müəllimliyə çıxır. Di buyur zəhmət çək, gedək bax. Mən özüm bu seminariyada qırx səkkiz ildir şəriət dərsi deyirəm və nə zəhmətlər çəkmişəm. Mən gündə seminariyada iyirmi-otuz kafir və murdar uçtellər ilə əl-ələ vermişəm! Vallah, belə bilsəydim ki, axırı belə olacaq, heç vaxt bu zəhmətlərə qatlaşmazdım. İndi gör işin axırı nə yerə çatıb. Bir yerdə ki, müsəlman istəyir məktəb açsın – müəllim yox. Odur "Quylarda" mədrəsə müəllimi dərs əvəzinə uşaqlara əfsun yazıb paylayır ki, ilan sancmasın.

Ay qraf ağa, axı belə olmaz, bizim camaat yazıqdır, niyə seminariyanı doldurublar rus uşaqları ilə? Axır mənim qeyrətim qəbul eləmir ki, bu işlər belə olsun! Axır yazıq camaatın ümidi və göz dikəcəyi mənim kimi rəislərdi!" [10, s. 205].

Bəli, Cəlil Məmmədquluzadənin "İrəvan seminariyası və qazının nitqi" felyetonu oxucunun diqqətinə belə bir obyektiv həqiqəti bir daha çatdırır ki, Rusiya imperiyası İrəvan seminariyasında azərbaycanlı tələbələrin təhsil almasında, yəni bölgədə yaşayan həmvətənlərimiz üçün yeni üsullu məktəblərin fəaliyyətində maraqlı deyil. İşin ən acınacaqlı tərəfi isə elmsizlik, mövhumat girdabında məhvə sürüklənən din qardaşlarımızın dünya işlərindən bixəbərliyi, erməni qəddarlığı və rus müstəmləkəçilik şərtləri ilə barışmalarıdır.

Məlumdur ki, Qərbi Azərbaycanın tarixi faciələrlə qarşılaşmış bölgələrindən biri də Zəngəzur olmuşdur. N.Mustafa "Zəngəzur 1905-1906-cı illərdə" məqaləsində bölgədə ermənilərin qanlı cinayətlərini ən yığcam, həm də təsəvvürdə canlandırmağa imkan yaradacaq şəkildə nəzər nöqtəsinə çəkərək yazmışdır: "Ümumiyyətlə, ermənilər 1905-1906-cı illərdə Cənubi Qafqazın 14 qəzasında (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin, Aleksandropol, Sürməli, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Gəncə, Qazax, Ərəş, Borçalı) və 8 şəhərində (Bakı, İrəvan, Naxçıvan, Gümrü, Şuşa, Gəncə, Qazax, Tiflis) kütləvi qırğınlar törətmişlər. Rəsmi qaynaqlara görə, 1905-1906-cı illər qırğınları zamanı Cənubi Qafqazda 286 kənd viran edilmiş və 8 şəhər dağıntılara məruz qalmışdır. Hesablamalarımıza görə, dağıdılan kənd və şəhərlərin təqribən 200-ü azərbaycanlı yaşayış məntəqələrinin payına düşür. Həmin illərdə ermənilərin yeni ərazilər əldə etmək niyyətlərini silahlı müdaxilə yolu ilə həyata keçirmələri nəticəsində Cənubi Qafqazın 14 qəzasında 1,3 milyon nəfər bir-birinə düşmən kəsilərək iki cəbhəyə bölünmüşdü. 15 mindən artıq ailə (təqribən 100 min nəfər) ev-eşiyindən didərgin düşmüşdür. İnsan tələfatı 10 min nəfərdən artıq olmuşdur. Dağıntılara məruz qoyulan azərbaycanlı yaşayış məntəqələrinin bir qismi həmin vaxtdan etibarən xarabalığa çevrilmişdir.

Ermənilərin Zəngəzur qəzasında 1905-1906-cı illərdə törətdikləri kütləvi qırğınlar XX əsrdə soydaşlarımızın məruz qoyulduqları soyqırımı və deportasiyalar silsiləsinin ilk mərhələsidir" [11].

Şübhəsiz ki, 1905-ci ildən başlayaraq ermənilər tərəfindən amansıqlıqla törədilən qırğınlar Zəngəzurda qıtlıq və aclıqlarla nəticələnmiş və bu problem xalqın tarixi taleyinə

münasibətdə milli ideologiya mövqeyində dayanan ziyalıları ciddi şəkildə düşündürmüşdür. Cəlil Məmmədquluzadənin publisistikasında da Zəngəzurda azərbaycanlıların məruz qaldıqları aclıqlardan dönə-dönə söz açıldığını görürük. Digər tərəfdən Mirzə Cəlilə tamamilə aydın idi ki, Rusiya imperiyası Qafqazda milli qırğınların törədilməsində, həmçinin bölgədə ermənilərin üstün mövqelər qazanmasında maraqlıdır və Zəngəzurda aclıqdan korluq çəkən azərbaycanlılara kömək etmək baxımından hökumətdən yardım gözləməyə ehtiyac yoxdur. Bu səbəbdən Cəlil Məmmədquluzadə Zəngəzurda yaşayan azərbaycanlıların xilası naminə imkanlı vətən qardaşlarını milli birliyə, köməyə çağırır, eyni mövzuda "Molla Nəsrəddin" jurnalında silsilə felyetonlar çap etdirirdi. Əlbəttə, qoca Molla Nəsrəddin öz sözünü bir qayda olaraq tənqid edərək söyləyir, bu zəmində aclıq səbəbindən məhvə sürüklənən Zəngəzurun ayaqda qalmasına çalışırdı. Haqqında danışılan problemin nəzər nöqtəsinə çəkilməsi baxımından "Molla Nəsrəddin" məcmuəsinin 3 mart 1907-ci il tarixli 9-cu sayında getmiş "Xoşbəxtlər" felyetonu olduqca düşündürücüdür. Cəmi 5 cümlədən ibarət kiçikhəcmli felyetonda təkcə Zəngəzurdakı aclıq probleminin deyil, eyni zamanda dünya azərbaycanlılarının birliyi ideyasının da gündəmə gətirildiyini görürük: "Dünyada Təbrizdə olan qafqazlı müsəlmanlardan xoşbəxt adam yoxdur. Kişilər yaxalarını çəkib oturublar evlərində və hərçənd ki, "qarın"dan bir az kasıbdırlar, amma bununla belə, nə Zəngəzur və Qarabağ acları ilə işləri var, nə də Təbriz acları ilə. Səbəbi də budur ki, Zəngəzur və Qarabağ söhbəti ortalığa gələndə bunlar deyirlər ki, "pəh, biz ki, İranda qalırıq, biz İranlıyıq, bizə nə dəxli var qafqazlıların işinə qarışaq?" İran aclarına da ianə eləmək məclisi olanda bunlar genə yavıq düşmürlər və cavab verirlər ki, "bizə nə dəxli var, biz qafqazlıyıq" Vaqeən dünyada bunlardan xoşbəxt adam yoxdur, İrəvan dövlətlilərindən savayı" [10, s. 405].

Göründüyü kimi, Cəlil Məmmədquluzadə hələ XX əsrin əvvəllərində oxucularına belə bir ideya təlqin etmişdir ki, dünyanın hansı qütbündə yaşamasından asılı olmayaraq, çətin məqamlarda vətən qardaşlarına yardım göstərmək hər bir azərbaycanlının borcudur. Mirzə Cəlil Zəngəzurda aclıqdan əziyyət çəkən azərbaycanlıların vəziyyətini qələmə almaqla, daha doğrusu eyni bölgədə eyni problemi yaşayan ermənilərə ərzaq göndərildiyi halda, müsəlmanların unudulmasından söz açmaqla prinsipcə həmvətənlərini regionun sonrakı taleyi haqqında düşünməyə səsləmişdir. Zəngəzurdakı aclıqdan bəhs edən əsərlərində Cəlil Məmmədquluzadə qəti surətdə belə bir mövqedən çıxış etmişdir ki, Qafqazda qədim Azərbaycan torpaqlarında ermənilərin müxtəlif güclər tərəfindən dəstəkləndiyi bir dövrdə imkanlı azərbaycanlıların yalnız özlərini düşünməyə, vətən qardaşlarının qıtlıq və aclıq işərisində əziyyət çəkmələrinə biganə qalmağa haqları yoxdur. Budur, "Molla Nəsrəddin" jurnalının 24 mart 1907-ci il tarixli 12-ci sayında getmiş "Quli-biyabanlar", 19 may 1907-ci il tarixli 24-cü sayında yer tutan "Hanı qırx beş min manat?", 27 yanvar 1908-ci il tarixli 4-cü yayında oxuculara təqdim olunmuş "Ot" felyetonlarında Zəngəzurda aclıq probleminə dair müxtəlif məsələlərin gündəmə gətirildiyini görürük. Bütün felyetonlarda isə probelmin qoyuluşu və həlli belədir ki, Zəngəzur məsələsinə münasibətdə cəmiyyətdə tutduğu mövqe və vəzifədən asılı olmayaraq, hər bir kəs Azərbaycan naminə vahid amal uğrunda birləşməli, Zəngəzur mahalının qədim sakinləri

olan azərbaycanlıların öz ata-baba yurdlarında yaşamaları təmin edilməlidir.

Faktlar deməyə əsas verir ki, Qərbi Azərbaycan mövzusu böyük Mirzə Cəlilin təfəkküründə daim məşğul etmiş, Cəlil Məmmədquluzadə tamamilə başqa bir məsələdən bəhs edən felyeton daxilində də Zəngəzurdan söz açmışdır. Məsələn, "Molla Nəsrəddin" məcmuəsinin 8 iyul 1907-ci il tarixli 25-ci sayında çap olunmuş "Dəbistan" başlıqlı felyetonda bütünlüklə milli mətbuata ögey münasibətdən, o cümlədən abunəçinin yoxluğu səbəbindən milli mətbuat tariximizdə uşaqların təlim-tərbiyəsi üçün nəzərdə tutulan ilk jurnalın bağlanmaq təhlükəsində qalmasından danışılır. Bununla belə, müəllif felyeton daxilində bir cümlə ilə yenə də Zəngəzurda azərbaycanlıların ağır şəraitdə yaşamalarını, yoxsulluq içərisində əziyyət çəkmələrini, başqa sözlə, "olum və ya ölüm" dilemması qarşısında qalmalarını da nəzər nöqtəsinə çəkmişdir.

Cəlil Məmmədquluzadə Qərbi Azərbaycan məsələsinə münasibətdə öz mövqeyini qəti şəkildə belə ifadə etmişdir ki, min illər boyu xalqımıza məxsus torpaqlardan vətən qardaşlarının çıxarılmasına hesablanmış siyasətin həyata keçirildiyi bir zamanda hər hansı din qardaşı öz mənafeyini düşünərsə, qədim torpaqlarımızda ermənilərin məskunlaşması labüddür.

Cəlil Məmmədquluzadə yaradıcılığında İrəvan və Zəngəzur mövzulu yazıların 1917-ci il hadisələrindən sonra da yer tutması müşahidə edilməkdədir. Bu baxımdan "Molla Nəsrəddin" jurnalının 14 iyun 1917-ci il tarixli sayında getmiş "Arvadbazlıq", 01 oktyabr 1917-ci il tarixli sayında oxuculara təqdim olunmuş "Ehsan", həmçinin Mirzə Cəlilin 04 noyabr 1922-ci il tarixdə "Yeni yol" qəzetində çap etdirdiyi "Hədər" felyetonlarında Qərbi Azərbaycanla bağlı bir sıra ciddi problemlərin gündəmə gətirildiyini görürük. Şübhəsiz ki, ermənilərin Qərbi Azərbaycanda törətdikləri qırğınlar azərbaycanlılar üçün yeni-yeni problemlərin yaranması ilə nəticələnmişdir. Cəlil Məmmədquluzadə vətən qardaşlarının heç bir probleminə biganə qalmadan İrəvan və Zəngəzur azərbaycanlılarının köməksiz yaşamalarından, onlar üçün nəşr olunan mətbuatın günün tələblərinə uyğunsuzluğundan, Qərbi Azərbaycanın doğma sakinlərinin hələ də mövhumat və cəhalət girdabında ömür sürmələrindən ürək ağrısı ilə söz açmışdır.

Məlumdur ki, 1920-ci illərdə İrəvanda yaşayan azərbaycanlılar daha ağır təzyiqlərə məruz qalsalar da, milli mövcudluq uğrunda ciddi şəkildə mübarizə aparmışlar. Fikrimizcə, həmin proseslərdə bolşevik rəhbərlər bir qədər də aldadıcı gedişlər etmiş, hətta 1921-ci ilin yanvar ayında İrəvanda Azərbaycan dilində "Kommunist" qəzetinin nəşrinə nail olunmuş, bir ay sonra isə qəzetin redaksiyası ermənilər tərəfindən yandırılmışdır.

İrəvan şəhərində "Kommunist"dən sonra Azərbaycan dilində çap olunan mətbu orqan kimi "Rəcbər" qəzetindən danışılmaqdadır. C.Allahverdiyev "Rəcbər"-İrəvanda çıxan qəzet" məqaləsində yazır: "1921-ci il iyul ayının 22-də "Rəncbər" qəzetinin ilk nömrəsi işıq üzü görmüşdür. …Qəzetin Azərbaycandakı arxivlərdə nümunə üçün heç bir nüsxəsi qorunub saxlanmamışdır. Moskvadakı Mərkəzi kitabxanada bütün nömrələri olmasa da, 1-3, 46-55 və 78-ci nömrələri dövrü mətbuat fondunda mühafizə olunur.

…Qəzetin ilk nömrəsi 1921-ci il 22 iyul tarixində çap olunmuşdu. Ermənistan Kommunist firqəsi mərkəzi və İrəvan komitələrinin nəşr əfkarı olan "Rəncbər" qəzeti ilk

vaxtlar bir sıra problemlər və kağız qıtlığı ilə əlaqədar olaraq kiçik həcmdə – 2 səhifədən ibarət ərəb əlifbası ilə nəşr olunmuşdur. Həftəlik çıxan "Rəncbər" qəzeti 1922-ci il 30 sentyabr 47-ci nömrəsinə kimi 2 səhifədən ibarət 500 tirajla çıxmışdır. 8 oktyabr 1922-ci il tarixli 48-ci nömrəsindən etibarən 4 səhifədən ibarət çap olunmuşdur" [1].

"Yeni yol" qəzetinin 4 noyabr 1922-ci il tarixli 7-ci sayında çap edilmiş "Hədər" felyetonuna əsaslansaq, böyük Mirzə Cəlil bu qənaətdə olmuşdur ki, min bir əziyyət və məhrumiyyətlərə sinə gərərək bolşeviklərin hakimiyyətindən sonra da həyatlarının qalan hissəsini Qərbi Azərbaycanda keçirən soydaşlarımızın maddi və mənəvi ehtiyaclarının ödənilməsi daha vacibdir. Əlbəttə ki, 20 ildən artıq bir zaman içərisində qələmi ilə doğma xalqının xoşbəxtliyi naminə mücadilə aparan fədakar ziyalı yenə də cəmiyyətin inkişafı üçün mətbuatın gücündən faydalanmağı zəruri saymış, "Hədər" felyetonunda "Rəcbər" qəzetini nəşr edənləri daha məsuliyyətli olmağa səsləyərək yazmışdır: "İnqilabdan sonra Azərbaycanda, Türküstanda, Tatarıstanda və Gürcüstan ilə Ermənistanın bəzi şəhərlərində müsəlman kəndlilərinin oxumağı üçün çox-çox qəzet və jurnallar çıxmaqdadır.

Bu qəzet və jurnalların cəmini nəzərə alanda və onlara diqqət edəndə, baxıb görürük ki, bu cəridələri çıxardanlar, bu işə xərc və səy qoyanlar bunu heç bilmək istəmirlər ki, aya bu qəzetləri oxuyan var, ya yoxdur.

Nümunə üçün götürək İrəvanda çıxan "Rəncbər" qəzetinin 6-cı nömrəsini . Nədir bu? Kim bunu oxuya biləcək? İnsafdırmı bir böyük vərəqə kağızı cızma-qaralayıb, adını qəzet qoyub kəndlinin əlinə vermək? Məgər qəzetin müdiri o qədər savadsızdır ki, qəzetin bu qədər qələt-qülətini görmür? Hansı kəndli bu "soğan kərdisindən" bir mətləb çıxarda biləcək?" [6, s. 81]

Göründüyü kimi, "Hədər" felyetonunun əvvəlində Türküstan, Tatarıstan, Gürcüstan və Ermənistanda azərbaycanlıların mətbuatla təminatı məsələsi gündəmə gətirilsə də, müəllif təkcə "Rəncbər" qəzetindən söz açmış, bununla da Qərbi Azərbaycanda yaşayan vətən qardaşlarının taleyini daim diqqətdə saxladığını bir daha nəzər nöqtəsinə çəkmişdir.

"Molla Nəsrəddin" jurnalının 01 may 1926-cı il tarixli 18-ci sayında "Lağlağı" imzası ilə getmiş "Ammalar" başlıqlı felyetonda isə İrəvanda Azərbaycan dilində çap olunan "Zəngi" qəzetinin yada salındığını görürük. Ümumiyyətlə, Cəlil Məmmədquluzadə hətta XX əsrin 20-ci illərindən sonra artıq rəsmi surətdə Ermənistan qeydiyyatında olmalarına baxmayaraq, soydaşlarının həyatları ilə bağlı problemləri gündəmə gətirməklə hətta sovet Rusiyasının ağır şərtləri altında milli təfəkkürdə Azərbaycançılıq ideologiyasının təntənəsinə səy göstərmişdir.

ƏDƏBİYYAT

1. Allahverdiyev, C. "Rəcbər" – İrəvanda çıxan qəzet / "Xalq qəzeti", 01 oktyabr, – 2023 // https://xalqqazeti.az/az/sosial-heyat/141884-rencber-irevanda-cixan-anadilli-qezet)
2. Cəfərli, İ. Cəlil Məmmədquluzadənin yaradıcılığında milli münaqişə və azərbaycanlıların soyqırımı məsələsi / Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri (xüsusi buraxılış). Deportasiya və Naxçıvan. – Naxçıvan: Qeyrət, – 2001.

3. Şərif, Ə. "Molla Nəsrəddin" necə yarandı? – Naxçıvan: Əcəmi, – 2009.
4. Həbibbəyli, İ. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə / Məmmədquluzadə C. Seçilmiş əsərləri. 2 cilddə, I cild. – Əcəmi, – 2009.
5. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. – Bakı: Azərnəşr, – 1997
6. Məmmədquluzadə, C. Əsərləri. 4 cilddə, III cild. – Bakı: Öndər, – 2004.
7. Məmmədquluzadə, C. Əsərləri. 4 cilddə, IV cild. – Bakı: Öndər, – 2004.
8. Məmmədquluzadə, C. Seçilmiş əsərləri. 2 cilddə, II cild. – Naxçıvan: Əcəmi, – 2009. – s. 317.
9. Məmmədli, Q. Molla Nəsrəddin (Salnamə). – Bakı: Əcəmi, – 2009.
10. Molla Nəsrəddin. 10 cilddə, I cild. – Bakı: Şərq-Qərb, – 2017.
11. Mustafa, N. Zəngəzur 1905-1906-cı illərdə / "Respublika" qəzeti, – 21 avqust, –2021.

SUMMARY

Iman Jafarov

IN THE PUBLISHER'S CREATIVITY OF CELIL MEMMEDGULUZADE THE SUBJECT OF YEREVAN AND ZANGAZUR

Periodical press articles from the early 20th century have a special place among the documents confirming that Yerevan and Zangezur are former Azerbaijani lands. In this sense, Celil Memmedguluzade's journalism is important. The article confirms, based on real materials, that Jalil Mammadguluzade was the first writer to raise the issue of the persecution of Azerbaijanis by Armenians and Russians in Yerevan and Zangezur.

Celil Memmedguluzade's obituary titled "Biography of Memmedgulu Bey Kangarlı" wrote more clearly that the historical fate of our compatriots who defended the rights of Azerbaijanis in Yerevan would end in tragedy. This obituary can be considered the first study in the Azerbaijani press about an Azerbaijani martyr who fell victim to Armenian terrorism.

It is known that Zangezur is one of the regions of Western Azerbaijan that has faced historical tragedies. We see that the famine experienced by Azerbaijanis in Zangezur is mentioned many times in the writings of Celil Mammedguluzade. Mirza Celil called for national unity and assistance to his fellow citizens in order to save the Azerbaijanis living in Zangezur. A series of columns on the same subject were published in the magazine "Molla Nasreddin".

Mirza Celil even brought up the problems of Azerbaijanis who were officially registered in Armenia after the 20s of the 20th century.

Key words: *Molla Nasreddin, publicist, tragedy, first author, settlement*

AZƏRBAYCAN ƏDƏBİ MÜHİTİNDƏ NƏSİMİ OBRAZI

Püstə ƏHMƏDOVA
pusteehmedova@yahoo.com
Naxçıvan Dövlət Universiteti

Məqalədə XIV-XV əsrlərin tanınmış şəxsiyyəti, Azərbaycan mədəniyyətinə, ədəbiyyatına ölməz, əbədiyaşar və mübariz bir şair və insan olaraq düşmüş İmadəddin Nəsimi haqqında bəhs olunur. İmadəddin Nəsimi XIII-XV əsrlər Azərbaycan ədəbiyyatının ana dilində yazıb-yaradan ən qüdrətli söz sənətkarlarından biridir. Maraqlıdır ki, bu qədər söz və yaşam qüdrətindən ağızdolusu danışılan İmadəddin Nəsimi haqqında avtobioqrafik məlumatlar çox deyil. Onun haqqında real tarixi, avtobioqrafik məlumatları mənbələr çox xəsisliklə təqdim edir. Bədii ədəbiyyatda Nəsimi obrazına çox tez-tez müraciət edilmişdir.

Nəsimi ədəbi nümunələrdə qorxmazlıq, əyilməzlik, dönməzlik simvolu yer almış, hər cür cəhalətə, mütləqiyyətçiliyə və zülmə qarşı mübarizə vasitəsi olaraq obrazlaşmışdır. Nəsimini bu baxımdan ədəbiyyat üçün daha da ölməzləşdirən həm də onun ideya və idealları olmuşdur. İnsanmərkəzli düşüncəyə malik olan Nəsiminin yaradıcılığında insana hədsiz bir qiymət və məhəbbət yer almışdır. İnsan Nəsimi ideyalarına görə, Tanrının bir surəti, yer üzündəki ən ali əksidir. Azərbaycan ədəbi mənbələrində İ.Nəsimi obrazı haqqında geniş şəkildə bəhs olunur.

Açar sözlər: *Azərbaycan ədəbiyyatı, obraz, İmadəddin Nəsimi, mənbə*

Azərbaycan ədəbiyyatına ölməz, əbədiyaşar və mübariz bir şair və insan olaraq düşmüş İmadəddin Nəsimi XIV-XV əsrlərin Azərbaycan ədəbiyyatının ana dilində yazıb-yaradan ən qüdrətli söz sənətkarlarından biridir. Maraqlıdır ki, bu qədər söz və yaşam qüdrətindən ağızdolusu danışılan İmadəddin Nəsimi haqqında avtobioqrafik məlumatlar çox deyil. Onun haqqında real tarixi, avtobioqrafik məlumatları mənbələr çox xəsisliklə təqdim edir. "*Əqidə fədaisi kimi şərq bədii-fəlsəfi və ictimai fikrində simvollaşan Nəsiminin həyat və şəxsiyyəti yarıməfsanəvi tülə büründüyündən onun haqqında yaranan rəvayətlər bəlli olan həqiqətlərdən çoxdur*" [2, s.217].

Şairin əsl adı Seyyid Əlidir. İmadəddin Nəsimi şairin ədəbi imzası, təxəllüsüdür. *"Müxtəlif mənbələr onun adını İmadəddin, Nəsimi, Nəsiməddin, Əli, Müslihəddin, Ömər və b. kimi qeyd edirlər"* [2, s.217]. Ərəbcədə "sütun, dirək" mənasını ifadə edən [ərəb fars sözləri lüğəti, s.240] "imad" sözü ilə "dinin dirəyi" adını almış, ustadı Fəzlullah Nəiminin adına müvafiq olaraq "Nəsimi", "səhər yeli" təxəllüsünü qəbul etmişdir. F.Nəiminin "Vəsiyyətnamə" əsərində adı çəkilən və qızlarından biri ilə evlənməsini tövsiyə etdiyi müridlərindən biri olan Seyid Əlinin İmadəddin Nəsimi olduğu deyilmişdir. Lakin sonrakı tədqiqatçıların bir çoxu *"Vəsiyyətnamə"də adı çəkilən və qızı ilə evlənməsi məsləhət bilinən Seyid Əlinin Nəsimi deyil, "hürufi şeyxinin xas müridlərindən və birinci xəlifəsi olan Əbülhəsən Əliyyül Əla"* [2, s.217] olduğunu diqqətə çatdırmışlar. Y.Babayevin fikrinə görə, şairin "əsl adı İmad və ya İmaddəddindir. Ümumi və daha düzgün qənaət belədir ki, şairin əsl adı İmad və ya İmadəddin ("dinin dirəyi"), təxəllüsü isə Nəsimidir" [2, s.217-218]. Ustadı F.Nəiminin "Növmnamə" ("Yuxu kitabı") əsərində onun adını "Seyid İmad"

olaraq göstərdiyi qeyd edilmişdir. İlk şeirlərini "Seyid, Hüseyni" təxəllüsləri ilə yazdığı bəllidir. Bu fikirlər kontekstində onu əlavə edə bilərəm ki, alimlərin bir qismi Nəsimi şəxsiyyəti ilə başqa fikirdədirlər. Akademik T.Kərimli və S.Şıxıyeva "Azərbaycan ədəbiyyatı tarixi. III c." kitabında "İmadəddin Nəsimi" oçerkində Nəsiminin ustadı Nəimiyə dərin rəğbətin ifadəsi olaraq Naxçıvanda Xanəgahda olduğu, ustadı Fəzlullah Nəiminin qızı ilə ailə qurduğu, Suriyanın Hələb şəhərində Nəsimi soyadı daşıyan varislərinin olduğu göstərilmişdir.

Müzakirə kontekstində maraqlı iddialardan biri İmadəddin Nəsiminin bəzi rəvayətlərdə bəhs edilən kimi edam olunmaması, Nəsiminin həyatını davam etdirərək oğul-qız sahibi olması, nəslini davam etdirməsi məsələsidir. Azərbaycan alimi M.Quluzadə də müxtəlif mənbələrə istinadən "Böyük ideallar şairi" adlı monoqrafiyasında bu fikrə gələrək qeyd etmişdir ki, Nəsimini mühakimə edən məhkəmədə olan bəzi qazı və şəriət adamları Nəsimiyə rəğbət bəsləmiş və onun edamına razı olmamışlar [5, s.22]. Bunu da qeyd edək ki, son illərdə uğurlu və gərgin araşdırmaların nəticəsində Nəsimi ilə bağlı qəti olmasa da, yeni fikirlər səsləndirilmiş, faktlar əldə edilmişdir. Uzun zaman Azərbaycanı İraqda diplomatik nümayəndə olaraq təmsil etmiş, Azərbaycanın başqa ölkələrdə yaşamış görkəmli şəxsiyyətlərini araşdırmış, Nəsiminin həyatı, yaradıcılığı və divanının öyrənilməsində xüsusi xidmətlər göstərmiş görkəmli azərbaycanlı alim Qəzənfər Paşayev Nəsimiyə həsr etdiyi "Nəsimi. Edamdan sonrakı həyat" əsərində göstərmişdir ki, uzun illər sonra olmasına baxmayaraq, Nəsiminin ölümünə səbəb olmuş məhkəmə qərarına yenidən qayıtmaq ehtiyacı yaranmış, "Hələb şəhərinin Ədalət Məhkəməsi işə yenidən baxıb əvvəlki ədalətsiz hökmü ləğv etmiş, ...şairə gec də olsa, bəraət verilmişdir" [7, s.20-22].

Fikirlərə görə, İmadəddin Nəsiminin qəbul etdiyi künyələrdən biri Əbülfəzl olmuşdur. "Çün Nəsiminin Əbülfəzl oldu həqdən künyəsi" misrasına istinad edən tədqiqatçılar bu fikrə qarşı çıxmışlar ki, Əbülfəzl ya birbaşa, yaxud da Fəzl adlı oğlunun olması ehtimalı ilə Nəsimi "Əbülfəzl" künyəsilə çağırılmışdır.

Bu qüdrətli söz azmanı haqqında həm müasirləri, həm də ondan sonra türk, ərəb və digər mənbələr az və ya çox dərəcədə məlumat vermişlər. Nəsiminin həyat və yaradıcılığının tədqiqi və nəşri barədə araşdırmalar aparmış müxtəlif alimlərin, o cümlədən Y.Babayev, S.Şıxıyeva və başqalarının tadqiqatlarına əsasən demək olar ki, Nəsimi haqqında ilk məlumat verən türk mənbələrindən biri Qəstimonlu Lətifidir. Q.Lətifi, Aşıq Çələbi, Həsən Çələbi bu böyük sənətkar haqqında bəhs edənlərdən olmuş, lakin A.Çələbi və H.Çələbi özərindən əvvəlki Lətifi məlumatlarından artıq bir şey deməmişlər. Bu baxımdan Lətifinin XVI əsrə aid olan "Məşairüş-şüəra" adlı təzkirəsində haqqında məlumat verilərək "eşq meydanının sərbazi-bibimi və məhəbbət Kəbəsinin fədayi-əzimi" adlandırılmışdır. Hətta tədqiq edilən mənbələrdən məlum olur ki, Lətifinin "Məşairüş-şüəra" və Alinin "Künhül-əxbar" əsərlərində verdikləri məlumatda diqqəti cəlb edir ki, Nəsiminin, həm də mürşidi olan Şah Xəndan adlı qardaşı olmuş və onunla mütəmadi məktublaşmışdır. Həmin mənbələrə əsasən, Şah Xəndan 1426-cı ildə Şamaxıda vəfat etmiş və orada da dəfn edilmiş, Nəsimi isə Hələbdə faciəli şəkildə qətlə yetirilmişdir. Nəsimi haqqındakı bu məlumatlar, əsasən, onun Şamaxıdan olması, Şah Xəndan adlı

qardaşının varlığı və orada dəfn edilməsi kimi məlumatlar Salman Mümtaz tərəfindən də tədqiqatlarında davam etdirilmişdir. Bundan başqa, türk ədəbi-elmi fikrində Əmir Kəmaləddin Hüseyni özünün "Məcalisül-üşşaq" əsərində, o cümlədən Bursalı Məhəmməd Tahir, Faiq Rəşad, Fuad Köprülüzadə, Əbdülbaqi Kölpınarlı, İbrahim Olğun, Hüseyn Ayan və başqaları şəhid şairimiz İmadəddin Nəsimi barəsində maraqlı fikirlər səsləndirmiş, hətta maraqlı təhlil və tədqiqlər də ortaya qoymuşlar. Əhməd ibn İbrahimin "Künuz-uz zəhəb, tarixi Hələb" adlı əsərində Nəsiminin edamı haqqında səbəb və məhkəmə qərarı barədə məlumat verilmiş, bu barədəki məlumatlar da türk alimi Olğun tərəfindən ictimaiyyətə çatdırılmışdır.

Hətta avropa və rus alimləri də bu qüdrətli Azərbaycan şairi haqqında çıxış etmişlər. Hammer Purquştal, Gibb, Frans Babinger, Allesio Bombaci, V.Smirnov, A.Krımski, Y.E.Bertels, İ.Braginski və b. Nəsiminin həyatı, yaradıclığı haqda tədqiqatlar aparmış, fikirlər səsləndirmiş, dünya xalqları arasında təbliğ eməyə çalışmışlar.

Qeyd edək ki, bu görkəmli Azərbaycan şairi haqqında XX əsrin əvvəlləri Azərbaycan ictimai-elmi və bədii mühitində tanınmış ziyalılar olan Firudin bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz bəhs etmişlər. Azərbaycanda, Bakıda müəllim olaraq fəaliyyət göstərən İsmayıl Hikmət də "Azərbaycan ədəbiyyatı tarixi" adlı kitabında Nəsimi haqda məlumat vermiş, onu təriqət şairi, eşq yolunun fədakarı, eşqi-ilahinin tərənnümçüsü kimi səciyyələndirmişdir.

Azərbaycan ədəbiyyatında qüdrətli sənətkarın həyatı və irsini H.Araslı, Z.Quluzadə, C.Qəhrəmanov, Ə.Səidzadə, H.Məmmədzadə, Ə.Cəfər, M.Quluzadə, Ə.Səfərli, X.Yusifli, Y.Seyidov, S.Xavəri, Y.Babayev, S.Şıxıyeva, F.Qurbansoy və b. bir sıra alimlər araşdırmaqla məşğul olmuşlar.

Böyük sənətkar İmadəddin Nəsiminin doğum yeri və ili haqqında mübahisəli fikirlər mövcuddur. Şairin "Bağdad yaxınlığındakı Nəsim kəndində, Nissibində, Diyarbəkirdə, Şirazda, Hələbdə, Bakıda, Şamaxıda, Təbrizdə və b. yerdə doğulduğunu" [2, s.218] iddia edən fikirlər də vardır. Azərbaycan alimlərinin bir çox qismi şairin "1369-cu ildə Şirvanşahlar dövlətinin paytaxtı olan Şamaxı şəhərində" anadan olması haqda fikrə gəlmiş, şairin əvvəllər "Hüseyn" təxəllüsü ilə şeirlər yazdığını, təsəvvüf-sufi şeirinin davamçılarından olduğunu, dövrün mühüm fəlsəfi fikir cərəyanlarından olan Hürufizmin ən layiqli və şöhrətli nümayəndələrindən olduğunu, İmadəddin Nəsimi adı ilə daha çox şöhrət qazandığını, Hələbdə məhz bu kimi xidmətlərinə görə edam edilərkən qətiyyətlilik və qorxmazlıq nümayiş etdirdiyini diqqətə çatdırmışlar və s.

Nəsiminin məzhəbi və edamı barədə daha çox məlumatları ərəb mənbələri vermişdir. Xüsusilə, Şəmsəddin Səxavinin "Əd-Da əllami liəhl əl qərn ət-tasi" ("Doqquzuncu hicri əsrin əhli üzərinə parıldayan işıq"), İbn əl İmad əl Hənbəlinin "Şəzərət əz zəhəb fi əxbar mən zəhəb" ("Ölüb gedənlər haqqında xəbərlərdən qızıl dənəciklər") kimi əsərlərində Hələbdə Şeyx Nəsiməddin Təbrizi kimi hürufilik məzhəbinin tanınmış şeyxinin öldürülməsi, başının kəsilib, dərisinin soyulub, cəsədinin çarmıxa çəkilməsi haqda məlumatlar əks etdirilmişdir. Mənbələrdə şairin hürufilikdən əvvəl hüseyniyyə, həllaciyyə kimi fəlsəfi cərəyanlarda olması, o cümlədən Təbriz, Şamaxı, Bakı, Şiraz, Bursa, Mərəş, Bağdad, Şam, Misir, Hələb və başqa bu kimi yerlərdə olduğu,

hətta özünün şeirlərindən birində dediyi kimi, məkansız olması haqda fikirlər səsləndirilmişdir.

Mənbələrdə məlumat verilən, Nəsimi obrazını özünün şücaəti, qorxmazlığı, mübarizliyi və cəsarəti ilə tamamlayan bir neçə rəvayət də səsləndirilir ki, ümumiyyətlə, Nəsimi haqda danışılarkən daha çox bu rəvayətlər kontekstində Nəsimi şəxsiyyətinə baxılmış, bədii əsərlərdəki obrazı məhz bu rəvayətlərdəki məlumatlar kontekstində yaradılmışdır. Bu böyük şair haqqında ən çox istinad olunan rəvayət isə bundan ibarətdir ki: "Şair bir müddət Hələbdə yaşamışdır. Bir dəfə onun müridlərindən olan bir gənc şairin belə bir beytini ucadan oxuyurmuş:

Həqbin nəzəri bayəd ta ruye-məra binəd,
Çeşme ki, bovəd xodbin key ruye-xoda binəd.
(Həqiqəti görən göz lazımdır ki, mənim üzümü görsün,
Xudbin göz Allahın üzünü görə bilməz).

Şeir ruhanilərin diqqətini cəlb edir və onu küfrdə günahlandırıb tutur, şeirin müəllifini soruşurlar. Gənc isə şeirin özü tərəfindən yazıldığını söyləyir. Belə olduqda onu dardan asmaqla cəzalandırmaq istəyirlər. Lakin Nəsimi bundan xəbər tutur. Məsələdən xəbər tutduqda cəza meydanına gəlir. Şeirin gənc yox, özü tərəfindən yazıldığını söyləyir. Gənci azad edib Nəsiminin ölümü barədə fitva verirlər. Edam zamanı qan itirdikcə rəngi saralan şairə ruhanilər istehza etmək məqsədilə deyirlər:

- Sən ki deyirdin həqqəm, bəs nə üçün rəngin saralır?

- Şair isə qürurla cavab verir:

- Mən əbədiyyət üfiqlərində doğan eşq günəşiyəm. Günəş batanda rəngi saralar. Məşhur bir rəvayətdə isə deyilir ki, Nəsiminin ölümünə fitva verən zahidlərdən biri deyir:

- Bu adam o qədər məlundur ki, onun qanından hara düşsə, kəsib atmaq lazımdır.

Təsadüfən şairin qanından bir damla sıçrayıb həmin zahidin barmağına düşür. Camaat onun barmağının kəsilməsini tələb etdikdə zahid cəzadan boyun qaçırır və cavab verir ki:

- Mən bunu elə-belə, sözməsəli demişəm.

- Onda al-qan içində olan Nəsimi deyir:

- Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,

- Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz".

Şairin haqqında sıx-sıx bəhs edilən bu rəvayətlər onun haqqında məlumatları əks etdirən təzkirələrdə və müxtəlif mənbələrdə yer almışdır. Bu rəvayətlər və orda müəyyənləşmiş Nəsimi taleyi ümumən ədəbi-bədii fikirdə mövcud olan Nəsimi obrazını tamalamış və onu qətiləşdirmişdir. Azərbaycan ədəbiyyatında Nəsiminin həyatı, dövrü və mühitini obrazlaşdıran əsərlərin, demək olar, hamısında məhz bu rəvayətlərdəki məlumatlara istinad edilərək mübariz və qətiyyətli Nəsimi surəti yaradılmış, həyat və ideya yolunda örnək bir insan olaraq təqdim edilmişdir. Böyük şairin "Ağrımaz", "Sığmazam" və bir sıra ölüm-əzab duyğularını bədiiləşdirən əsərləri hər zaman marağa səbəb olmuş, şairin bədii obrazına meyil göstərən sənətkarlar da bu məsələni diqqətdə saxlamışlar. Akademik H.Araslı və onun fikirlərini müdafiə edən alimlər bu tipli şeirləri Xaqaninin, Fələki Şirvaninin "Həbsiyyə" məzmunlu şeirlərilə müqayisə etmiş, Nəsiminin

zindanda olarkən qələmə aldığı əsərlər kimi səciyyələndirmişlər. Lakin bəzi müəlliflər bunu Nəsiminin ardıcıllarının və Nəsimi ilə qarışdırılan müəlliflərin əsərlərinin İmadəddin Nəsimi yaradıcılığı ilə qarışdırılması səbəbi ilə izah edirlər. Müasir günümüzdə də bəzi mənbələrdə Nəsimini "dinin əmrlərini saya saymayan", "islamın bəzi inancları və təməl ibadətlərini heç bir dil və şərh qaydalarını diqqətə almadan izah etmişdir", [6] - deyə tanıdan fikirlərə rast gəlmək mümkündür. Nəsiminin məhkəməsi və ölümü ilə bağlı fikirlər birmənalı deyildir. Qeyd edilən fikirlərdən biri bundan ibarətdir ki, Nəsimi dinsizlikdə və dini hökmlərə yetirdiyi xətərdə mühakimə edilərkən islam hüququna uyğun olaraq Nəsimi kəlmeyi-şəhadət gətirmiş, bununla da, öz möminliyi və qeyd edilən ittihamlara cavabını bildirmişdir. Nəsiminin dərisinin üzüldüyü fikri də elmdə birmənalı qarşılanmamışdır. Həm bu kimi cəza vasitəsi islam hüququna uyğun göstərilməmiş, həm də Nəsiminin dinsiz, zındıq olduğu isbat edilməmiş, Nəsiminin öldürülməsinin siyasi səbəbi olduğu deyilmişdir [6]. Şairin ölümü bir çox halda ictimaiyyət arasında geniş, təsirli nüfuza sahib olması və ətrafına çoxsaylı adamlar toplaması ilə əlaqələndirilmiş, təsirli nüfuzundan, ideyalarının geniş yayılması və kütləviləşməsindən doğan narahatlıq və qorxu nəticəsində "siyasi bir tədbir" [6] olaraq öldürüldüyü qeyd edilmişdir. Bütün bunların fonunda demək lazımdır ki, bədii ədəbiyyatda müxtəlif məzmunlu Nəsimi obrazının yaradılması – gah islam hökmlərini dinə və elmə uyğun şəkildə öyrədən şair, gah insanı Allahın nuru, ali varlığı kimi təbliğ edən humanist, gah da radikal, mütləqiyyətçi, ehkamçı dini hökmlərə qarşı çıxıb insanları maarifləndirmək istəyən bilikçi kimi obrazlaşması məhz bu böyük şəxsiyyəti və onun ideyalarını, şəxsiyyətini hansı yazıçının necə qavraması, tanıması və bədii məqsədindən asılı olmuşdur.

Bədii ədəbiyyatda Nəsimi obrazına çox tez-tez müraciət edilmişdir. Nəsimi ədəbi nümunələrdə qorxmazlıq, əyilməzlik, dönməzlik simvolu yer almış, hər cür cəhalətə, mütləqiyyətçiliyə və zülmə qarşı mübarizə vasitəsi olaraq obrazlaşmışdır. Nəsimini bu baxımdan ədəbiyyat üçün daha da ölməzləşdirən həm də onun ideya və idealları olmuşdur. İnsanmərkəzli düşüncəyə malik olan Nəsiminin yaradıcılığında insana hədsiz bir qiymət və məhəbbət yer almışdır. İnsan Nəsimi ideyalarına görə, Tanrının bir surəti, yer üzündəki ən ali əksidir. Şairin:

Səni bu hüsnü camal ilə, bu lütf ilə görən
Qorxdular haqq deməyə, döndülər insan dedilər –

misrası və bu kimi bədii örnəklərlə təzahür edən fəlsəfi fikirləri insanı varlığın fövqünə qaldırdığı kimi, dövründə ciddi narahatlıqlar və şairə qarşı amansız təqiblər ortaya çıxarmışdır. Şair insanı bütün gözəllikləri ilə mədh edir, onun faili-muxtar iradəsinə böyük ümid bəsləyirdi. *Nəsimi yaradıcılığında bədii pafosla ortaya qoyulan "mən" obrazı kamil insanın bədii əksi olaraq dünyanı, həyatı, gözəllikləri, qüdrəti və s. təzahür etdirirdi. Bu mənada onun yaradıcılığındakı "mən" "həyatdır, gözəllikdir, kainatdır, bəşəriyyətin taleyidir* [1, s.261]. Bu baxımdan görkəmli akademik İsa Həbibbəyli çox doğru ümumiləşdirirdi ki, "İnsanın qüdrətini tərənnüm edən Nəsiminin poeziyasında mübarizə ruhu vardır. O, üsyankar şeirlərilə haqqa qovuşan kamil insan olmaq uğrunda inadla mübarizə aparmışdır" [İsa Həbibbəyli. Cahana sığmayan şair, s.7-8]. Bu baxımdan ölməz sənətkar

olan Nəsiminin humanist, həm də tolerant və multikultural düşüncələri ədəbiyyat tariximiz üçün mühüm rol oynamışdır. Ədiblər Nəsimi yaradıcılığındakı tam, qorxmaz, kamil insan konsepsiyasından çıxış edərək onun müəllifi Nəsiminin özünə yanaşmış, insan və cəmiyyət haqda düşüncələrini Nəsiminin öz obrazı, dili ilə təqdim etməyə üstünlük vermişlər. Hətta "qorxulu" zamanlarda belə özlərinin etiraz və üsyan dolu fikirlərini ifadə etmək baxımından ədiblər Nəsiminin cəsarətli obrazından, açıqfikirliliyindən, qətiyyət və humanist ideyalarından istifadə etmişlər.

ƏDƏBİYYAT

1. Araslı, H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri / H.Araslı. – Bakı: Gənclik, – 1998.
2. Babayev, Y.M. Azərbaycan ədəbiyyatı tarixi [XIII-XVIII əsrlər]: [dərslik] / Y.Babayev. – Bakı: Elm və təhsil, – 2014. – 760 s.
3. Ərəb-fars sözləri lüğəti, – s. 240.
4. Həbibbəyli, İ. Cahana sığmayan Azərbaycan şairi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2019. – 108 s.
5. Quluzadə, M. Böyük ideallar şairi / M.Quluzadə. – Bakı: Azərnəşr, – 1973. – 138 s.
6. Nesiminin dine aykırı görüşleri ve idam edilmesinin islam hukuku: [Elektron resurs] / https://9lib.net/article/deslam-hukuku.6zke3gmz
7. Paşayev, Q. Nəsimi: edamdan sonrakı həyat / Q.Paşayev. – Bakı: Şərq-Qərb, – 2019. – 386 s.

QƏRBİ AZƏRBAYCANIN MƏDƏNİ ABİDƏLƏRİ

Əfqan VƏLİYEV
afgan.valiyev@stm.az
afqanveli@gmail.com
Sosiologiya üzrə fəlsəfə doktoru, Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri,
Qərbi Azərbaycan Ziyalılar Şurasının üzvü

Maddi-mədəni abidələr və toponimlər konkret etnosun konkret coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər əraziləri azərbaycanlılardan təmizlədikcə ilk növbədə yer adlarını dəyişdirirlər. Demək olar ki, son dövrdə maddi-mədəniyyət abidələri ermənilər tərəfindən şüurlu, planlı şəkildə məhv olunub, mənimsənilib, bütün toponimlər ermənilaşdirilib. Bu da azərbaycanlıların həmin torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədi güdür.

Bu proses XX əsrdə qlobal şəkil alıb və o yerə çatıb ki, bu gün Ermənistanın yerləşdiyi Azərbaycanın tarixi torpağı olan Qərbi Azəbaycanda son siyahıya alınma və pasportlaşma prosesində bir dənə də olsun müsəlman abidəsinin qeydə alınmaması bu tarixi torpaqlarındakı azərbaycanlı izinin silinməsi uğrunda aparılan mübarizə tezisini dəstəkləyir. Çünki tarixi torpaqlardakı tarixi yaddaş əsrlərdən bəri qorunub saxlanmış memarlıq abidələrində yaşayır, xalqın, millətin mənəviyyatını özündə əks etdirir. Yüzilliklər ötdükcə, zaman keçdikcə xalqın yaratdığı və nəsillərə qoyduğu mədəni miras daha da əzəmətli, möhtəşəm görünür. O, xalqın keçmiş qüdrətinin, əzəmətinin tarixi yaddaşı kimi bu mədəniyyətin varislərinin varlığını qürur hissi ilə doldurur.

Maddi-mədəniyyət, memarlıq abidələri, toponimlər bir millətin müəyyən coğrafi məkanda formalaşmasını təsdiqləyən ən tutarlı sənədlərdir. Ona görə də, zaman keçdikcə bu mədəni miras zəngin xəzinəyə çevrilir. Son 200 ildə ermənilər tərəfindən zəbt edilərək məskunlaşdırılmış Qərbi Azərbaycanın dini-ruhsal ocaqlarının (məscid, pir, ziyarətgah, qəbirüstü abidələr) məhz müsəlman-türk dünyasının maddi-mədəni irsi kimi təqdir edilməsi, coğrafi məkan üzrə paylanmasının sistemləşdirilməsinin (yazılı və təsviri formada) böyük əhəmiyyəti vardır. Ermənistan Respublikasının yerləşdiyi ərazi Azərbaycanın tarixi ərazisidir. Tarixi reallıq uğrunda apardığı mübarizəni bu gün Azərbaycan özünün iqtisadi, siyasi gücü ilə yanaşı, Qərbi Azərbaycandakı tarixi irsi, mədəniyyəti, incəsənəti və zəngin mirası ilə elmi, siyasi-ideoloji cəbhədə mənbələrə söykənərək, dəlillərlə və sübutlarla daha da gücləndirmə imkanı əldə edə bilər.

Açar sözlər: *Qərbi Azərbaycan, dağıdılmış, mənimsənilmiş, maddi-mədəni irs, tarixi Azərbaycan abidələri*

"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Bunu bir çox tarixi sənədlər, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan

xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

(Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqindən, 24 dekabr 2022-ci il).

Giriş: Ölkə rəhbərinin səsləndirdiyi bu çağırış xüsusi önəm kəsb edir. Prezidentin vurğuladığı, xüsusi diqqət ayırdığı, çağırış etdiyi bu məsələ İrəvan, Göyçə, Zəngəzur kimi tarixi Azərbaycan torpaqlarını tərk etməyə məcbur edilmiş, hazırda Azərbaycanın indiki ərazisində yaşayan azərbaycanlıların tarixi və mədəni irsidir. Azərbaycan dövlətçiliyinin varislərindən olan İrəvan xanlığı çox da uzaq tarix deyil. Buna görə də, hazırda taleyi və tarixi elmi dövriyyədən kənarda saxlanmadan Qərbi Azərbaycan məsələsinin tədqiq və təbliğ edilməsi zərurəti yaranıb. Milli, mədəni, elmi və tarixi baxımdan bu tarixi məsələnin tədqiq və təbliğ edilməsi soykökünə bağlılıq, milli özünüdərk, milli tarixi şüur habelə milli kimlik və milli mədəni irs məsələləri ilə bağlı tarixşünaslığımızda çoxdan bəri kök salmış böyük bir boşluğu doldurmağa, həmçinin bir çox cavabı dəqiq olmayan müzakirəli məsələləri aradan qaldırmağa təsir göstərə bilər. Bu baxımdan Vətən müharibəsində əldə edilən tarixi qələbə xalqımızın müqəddəratının yeni mərhələsi zəminində geniş üfüqlər açdı. 44 günlük tarixi savaşda qazanılan qələbə və nailiyyətlər soykökünə bağlılıq və milli özünüdərk, habelə milli dirçəliş və milli intibah tarixşünaslığımızda çoxdan kök salmış böyük bir boşluğu aradan qaldırmağa ciddi təkan verdi. Tarixi qələbə müqəddəratımızın təyini haqda yeni strategiyalar və hədəflər müəyyən etməklə yanaşı, həm də keçmişimizə həssas münasibət, onu yenidən qiymətləndirmə fürsətləri və çoxəsrlik tarixi maddi-mədəni-mənəvi irsimizi yenidən və daha dərindən tədqiq etmək öhdəliyini qoydu.

Tədqiqat məqaləsi indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus maddi-mədəni irsin məhv edilməsi və yer üzündən silinməsi prosesinin bugünkü cari vəziyyəti haqqında təsəvvür yaratmağa imkan verir və məsələnin nə qədər mühüm və ciddi əhəmiyyətə malik olduğunu bir daha əyani şəkildə ictimaiyyətə çatdırır. İndiki Ermənistan ərazisində qalan, xüsusi milli-mənəvi dəyər kəsb edən yararlı vəziyyətdə olan və ya xarabalığa çevrilən bu tarixi, unikal abidələr bəzi hallarda ermənilər tərəfindən mənimsənilərək, bütün dünyaya "erməni abidəsi" kimi təqdim olunur. Tədqiqat yalnız dövlət rəsmiləri və diplomatik-siyasi heyət üçün deyil, eyni zamanda xalqımızın taleyi ilə eyni aqibəti yaşayan, yüz illərlə dağıdılmaya məruz qalsa da, yazılı mənbələrdə, bir-birini əvəzləyən nəsillərin yaddaşında "diri" və "canlı" qalan maddi-mədəni irs nümunələrini bir araya gətirmək vəzifəsi daşıyaraq, ümumxalq ensiklopediyası yaratmağa cəhd kimi cəmiyyətimiz üçün faydalı olacaq. Tədqiqatda indiki Ermənistan ərazilərində məhv edilən, dağıdılan, konstruktiv dəyişikliklərə məruz qoyularaq ermənləşdirlən və ya farslaşdırlan mədəni irsin yalnız kiçik bir hissəsinə dair qısa məlumatlar əks olunub. Bununla belə kataloq ermənçiliyin xalqımıza qarşı nifrətini, erməni dövlətinin irqçi siyasətinin və vandalizminin ifşa olunması baxımından əhəmiyyətlidir.

Qərbi Azərbaycanın qısa tarixi

Azərbaycan dövlətçiliyinin varislərindən olan İrəvan xanlığı çox da uzaq tarix deyil. Buna görə də hazırda taleyi və tarixi elmi dövriyyədən kənarda saxlanmadan Qərbi Azərbaycan məsələsinin tədqiq və təbliğ edilməsi zərurəti yaranıb.

XIX əsrin əvvəllərində Qarabağ xanlığı ilə Rusiya arasında imzalanan Kürəkçay müqaviləsi, Rusiya və İran dövlətləri arasında bağlanan Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi siyasəti həyata keçirilib. Eyni zamanda Qərbi Azərbaycanın ermənləşdirilməsi məqsədilə İrəvan, Göyçə, Zəngəzur və digər bölgələrdə yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasına və soyqırımına start verilib. Erməni köçkünlərin sayının mexaniki şəkildə artırılması nəticəsində regionda marağı olan böyük dövlətlərin dəstəyi ilə 1918-ci il mayın 28-də ermənilərin milliyətçi "Daşnak" partiyası və onların tərəfdarları tərəfindən qədim Azərbaycan torpaqları olan keçmiş İrəvan xanlığı ərazisində tarixdə ilk dəfə olaraq erməni dövləti elan edilib. Sonradan Zəngəzur qəzasının bir hissəsi bolşeviklərin xidməti sayəsində yaradılan Ermənistan SSR-ə verilməklə Naxçıvan Azərbaycandan ayrı salınıb.

Azərbaycanlılar indiki Ermənistan ərazisində e.ə. II yüzillikdən yaşamağa başlayıblar. Kimmer, sak, quqar, şirak, qarqar, şadılı, kəngərli, cinli, oğuz, sabunçu, baharlı, bayandur, əfqan, qacar, qazax, əfşar, xalac, şamlı, ustaclı, türkmən, ayrım, qarapapaq, zəngi, muğanlı, bayat, ilxıçı, kolanı, qacar, kürəkənli (körakanlı) və b. türk qövmləri bölgədə yaşayan köklü tayfalar olublar. Qərbi Azərbaycan ərazisində, həmçinin Azərbaycan türklərinin soykökündə iştirak etmiş varsaq, barsil, şiraq (siraq), qaşqay, saq, arsaq, bulqar kimi türk tayfaları da çox qədim zamanlardan bu ərazilərdə başlayıblar. Tarixi Azərbaycan torpaqları olan Qərbi Azərbaycanın ərazisi e.ə.IV əsrə qədər qədim Azərbaycan dövləti Albaniyanın tərkib hissəsi olub. Albaniyanın hakimiyyəti dövründə ərazidə məbədlər, qalalar, saraylar və müxtəlif mənşəli maddi-mədəni irs nümunəsi inşa edilib. VIII-IX əsrlərdə Ərəb xilafəti dövründə Qərbi Azərbaycanda məscidlər tikilib, İslam dini və mədəniyyəti yayılıb. Bu əhalinin adət-ənənəsinə və həyat şəraitinə də təsir edib. XI-XIII əsrlərdə Səlcuqlu dövləti dövründə bölgə siyasi və strateji mərkəz kimi daha çox əhəmiyyət qazanıb. XIII-XIV əsrlərdə Böyük Monqol imperiyasının dövründə ərazi daha çox dağıntılar və istilaya məruz qalıb.

Qərbi Azərbaycan 1410-1468-ci illərdə Qaraqoyunlu, 1468-1501-ci illərdə Ağqoyunlu, 1501-1736-cı illərdə Səfəvilər dövlətinin tərkib hissəsi olduğu dövrdə inkişaf edib. Saraylar, məscidlər, karvansaralar, körpülər tikilib, yollar çəkilib. İrəvan və Zəngəzur ticarət mərkəzinə çevrilib. 1736-1747-ci illərdə Əfşarlar dövləti dövründə bölgə yeni böyük müharibə və mübarizələr meydanı olmuşdur. XVI əsrin sonları və XVIII yüzilin 20-ci illəri Osmanlı-Səfəvi müharibələrin şiddətlənməsi ilə İrəvan xanlığı iki dəfə Osmanlı imperiyasının tərkibinə keçmişdi. Osmanlı idarəçiliyində İrəvan xanlığı ərazisi daha sürətlə inkişaf edib, yeni idarəetmə strukturu formalaşdırılıb. Sərdar məscidi Osmanlı dövründə tikilib, saraylar, körpülər, karvansaralar, ticarət mərkəzləri inşa edilib. Qərbi Azərbaycan uzun yüz illər boyu azərbaycanlıların yaşadığı qədim yurd olub. Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas aborigen millət kimi yer tutub.

Lakin XIX əsrin sonu XX əsrin əvvəllərində regionda siyasi maraqları olan böyük dövlətlərin dəstəyi ilə Qarabağ xanlığı ilə Rusiya arasında imzalanan Kürəkçay (1805) müqaviləsi, Rusiya və İran dövlətləri arasında bağlanan Gülüstan (1813), Türkmənçay (1828) müqaviləsi, daha sonra isə Türkiyə və İran arasında bağlanan Ədirnə (1829) sülh müqavilələrindən sonra Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsi siyasəti həyata keçirilib. Bölgənin ermənləşdirilməsi siyasətini həyata keçirmək məqsədilə İrəvan, Göyçə, Zəngəzur və Zəngibasar bölgəsində yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasına və soyqırımına start verilib. İran və Türkiyədən isə ermənilərin bu ərazilərə köçürülməsi ilə əhalinin etnik tərkibi dəyişdi. 1918-ci il mayın 28-də daşnaklar tərəfindən qədim Azərbaycan ərazisi olan keçmiş İrəvan xanlığı ərazisində yaradılıb. 1923-cü il iyulun 7-də isə vaxtilə İrandan və Osmanlı imperiyası ərazisindən Qarabağ xanlığının ərazisinə köçürülən ermənilərə süni surətdə muxtariyyət hüququ verilməklə, Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Sovet hakimiyyətinin ilk illərində Zəngəzur qəzasının bir hissəsi Ermənistana verilməklə Naxçıvan torpağı Azərbaycandan, Türkiyə isə türk dünyasından ayrı salınıb. Böyük dövlətlərin dəstəyi ilə əcdadlarımızın Oğuz yurdu Qərbi Azərbaycanı qəsb edən gəlmə ermənilər azərbaycanlılara məxsus ərazilərdə məskunlaşdıqdan sonra onlara məxsus maddi-mədəniyyət nümunələrini məhv etməklə, izlərini silməyə çalışmış, bu mümkün olmadıqda isə həmin maddi-mədəniyyət nümunələrinin "qədim ermənilərə" aid olmaları barədə saxta tarix yazaraq dünya ictimaiyyətini aldatmağa başlamışlar.

Ermənilərin indiki Ermənistan ərazisinin avtoxton sakinləri olmadıqlarını erməni tarixçilərinin özləri də təsdiq edirlər. Vardan Parsamyan göstərir ki, 1828-1830-cu illərdə İran və Osmanlı imperiyasından təqribən 140 min erməni köçürülərək əsasən İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində məskunlaşdırılmışlar. Bütün bunlarla yanaşı, 1905-1907, 1918-1920, 1948-1953, 1959-1979, 1987-1991-ci illərdə "monoetnik Ermənistan" dövləti yaratmaq məqsədi ilə həmin ərazilərdən azərbaycanlıların etnik təmizlənməsi siyasəti həyata keçirilib.

1947-ci il dekabrın 27-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 №-li qərar qəbul etdi. Bu qərarla 1948–1953-cü illərdə 144 654 nəfər azərbaycanlı Ermənistandan Azərbaycan ərazilərinə zorla köçürüldü. "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərara 1989-cu ildə münasibət bildirən SSRİ hökuməti 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948–1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil etmədi.

1987-1991-ci illərdə baş verən son deportasiya zamanı 22 rayondan (172 sırf azərbaycanlı, 89 ermənilərlə qarışıq yaşayış məntəqələrindən 40.928 ailə) 300.000-dən çox azərbaycanlı ata-baba yurdlarından zorla çıxarılıb. 1987-1991-ci illərdə azərbaycanlıların Ermənistanda əsrlər boyu yaşadıqları 8 min kv.km əhatə edən yaşayış məntəqəsindən azərbaycanlının qovulduğu və 216 nəfər azərbaycanlının (o cümlədən 57 qadın və 23 uşaq) qətlə yetirildiyi göstərilir. İşgəncələrə məruz qalaraq öldürülmüş 203 nəfərin işi ilə

bağlı SSRİ prokurorluğuna və Azərbaycan istintaq orqanlarına göndərilmiş materiallardan məlum olur ki, onlardan 14 nəfəri odlu silahla, 45 nəfəri döyülərək, 13 nəfəri yandırılaraq, 131 nəfəri isə müxtəlif işgəncələrə məruz qalaraq öldürülüb.

Ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi nəticəsində bölgədə əhalinin etnik tərkibi dəyişib, Qafqaz regionu iğtişaş və münaqişə mənbəyinə çevrilib. Soyqırım, deportasiya, eyni zamanda soydaşlarımıza məxsus yaşayış məskənlərinin, tarix və mədəniyyət abidələrinin dağıdılması, azərbaycanlılara aid maddi-mədəniyyət nümunələrinin tarixi adlarının dəyişdirilməsi, ermənileşdirməyə məruz qoyaraq, bölgədəki azərbaycanlı izlərinin silinməsi cəhdləri, bu mümkün olmadıqda isə həmin maddi-mədəniyyət abidələrinin ya məhv edilməsi, ya da "qədim ermənilərə məxsusluğu" barədə saxta sənədlərin hazırlanması kimi hallar onların mənfur siyasətinin tərkib hissəsi idi.

Qərbi Azərbaycanda Azərbaycan xalqına məxsus maddi-mədəni irs

Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar orada yaşadığı dövrdə ərazinin qədim və əzəli sakini kimi tarixin bütün dövrlərini əhatə edən, onun orada fiziki varlığını göstərən zəngin milli maddi-mədəni və miras irs yaradıb. Azərbaycanlıların yaratdığı zəngin mədəniyyət əsrlərdən bəri qorunub saxlanmış müxtəlif mənşəli abidələrdə yaşayıb, xalqın, millətin milli mənəviyyatını özündə əks etdirir. Yüzilliklər ötdükcə, zaman keçdikcə xalqın yaratdığı və nəsillərə qoyduğu maddi-mədəni miras daha da əzəmətli, möhtəşəm görünür. Maddi-mədəni miras xalqın keçmiş qüdrətinin, əzəmətinin tarixi yaddaşı kimi bu mədəniyyətin varislərinin varlığını qürur hissi ilə doldurur. Maddi-mədəniyyət, memarlıq abidələri, toponimlər bir millətin müəyyən coğrafi məkanda formalaşmasını təsdiqləyən ən tutarlı və mühüm tarixi dəyəri olan sənədlərdir. Ona görə də zaman keçdikcə bu mədəni miras zəngin xəzinəyə çevrilir.

Qərbi Azərbaycanın qədim tarixinin arxeoloji baxımdan öyrənilməsi XIX əsrin 70-ci illərinə qədər sistemsiz şəkildə aparılmışdır. 70-ci illərdən etibarən Qafqazın, o cümlədən Qərbi Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsində mühüm addım atıldı. 1871-ci ilin oktyabrında Tiflis şəhərində Qafqaz Arxeoloji Komitəsi təsis edildi. 1872-ci ildə qurum Qafqaz Arxeologiya Həvəskarları Cəmiyyəti adlandırıldı.

XIX əsrin 90-cı illərindən başlayaraq Qərbi Azərbaycanın maddi-mədəni irsinə və mədəniyyət tarixinə arxeoloqların marağı daha da artdı. 1896-1899-cu illərdə Moskva Arxeoloji Cəmiyyətinin tapşırığı ilə cəmiyyətin üzvü A.A.İvanovski Göyçə gölü kənarındakı ərazilərdə arxeoloji qazıntı işləri aparıb, Oğuz qəbirləri aşkar etdilər. Oradan üzə çıxarılan çox qiymətli maddi-mədəniyyət abidələri Moskva Dövlət Tarix Muzeyinə göndərildi. Bu nümunələri ilk dəfə elmi cəhətdən tədqiq edən A.A.İvanovski əldə etdiyi nəticələri "Qafqaz arxeologiyasının materialları" toplusunda çap etdirdiyi "Zaqafqaziya haqqında" hesabatında ümumiləşdirdi. Lakin hesabatda tədqiq edilən abidələrin, aşkara çıxarılan qəbirlərin xəritələri haqqında məlumat verilməyib və xəritə məxfi saxlanılıb. Daha sonrakı dövrlərdə xəritəni əldə edən erməni arxeoloqlar o xəritə əsasında Göyçə gölü ətrafı ərazilərində və orada yerləşən qalalarda qazıntı işləri aparıb, oradan çıxardılan əşyaları İrəvan dövlət muzeyi və Moskva dövlət muzeyinə göndəriblər.

1987-1991-ci illərdəki sonuncu kütləvi deportasiyadan sonra azərbaycanlılara aid yaşayış məskənləri ilə birlikdə tarixi Azərbaycan torpaqlarındakı müqəddəs sakral inanış

məkanı Hacı Baba piri, Bəzirgan piri, Qaradaş ziyarətgahı, Qarabulaq ziyarətgahı, Qızıldağ ocağı, Məhbub ocağı, Ocaqlı piri, Seyid Məmiş piri, Süd daşı piri, Toparlı piri, Üç qardaş piri, Sərdar məscidi, Təpəbaşı məscidi, Ağadədə məscidi, Loru qala məscidi, Gümrü məscidi, Xoca Bazar kənd məscidi, Qaraçanta məscidi, Püsək kənd məscidi, Şirvanlı məscidi, Şeyx İsmayıl Siracəddin Şirvani məscidi, Masdərə kənd qəbirüstü abidələri, Çıkıvəng məbədi, Ataxan qalası, Aşağı Zağalı qalası, Buğdayitəpə qalası, Əliqırx qalası, Ərqüş qalası, Koroğlu qalası, Qalaça dağında qala, Qızıldağ qalası, Qız qalası, Səngər qalası, Çırpılı karvansarası, Qurduqulu karvansarası, Nüvədi kənd karvansarası, Mığrı karvansarası, Uşi kəndində karvansara, Mir Həmzə Nigari türbəsi, Göy Məmməd günbəzi, Qoşabulaq kəndində qəbirüstü arxeoloji-etnoqrafik abidələr, Qızıl Qoç kəndində qəbirüstü heykəl, Aşağı Zağalı kəndində kurqan qəbirlər, Salah kəndində daş körpü, Babacan kəndində daşüstü kitabələr, Basarkeçər rayonunda Müsəlman din məktəbi, Dilican şəhərində Tatar (azərbaycanlı) məhəlləsi, Çamırlı kəndində mədrəsə, Abdalağalı kənd qayaüstü təsvirləri, Adıyaman kəndində orta yüzilliyə aid evlər, Ağparax kəndində istehkam divarları, Bazarçay vadisində qədim mağaralar yüzlərlə alban-türk tarixi-memarlıq abidələri, saraylar, karvansaralar, imarətlər, məscidlər, məqbərələr, alban türk-oğuz qəbiristanlıqları, qəbirüstü abidələr, ziyarətgahlar erməni işğalı altına düşdü. Ermənilərin azərbaycanlılara qarşı apardıqları etnik təmizləmə və tarixi abidələrə qarşı həyata keçirilən vandallıq aktları nəticəsində azərbaycanlıların varlığını özündə əks etdirən tarixi-memarlıq abidələrinin çoxu yer üzündən silinib, qalanları isə erməni yazı və elementləri əlavə edilərək ermənileşdirilib.

XX yüzilliyin əvvəllərində İrəvan quberniyası ərazisində 310 məscid qeydə alınsa da, 1915-ci ildə İrəvan və Zəngəzur quberniyasının ərazisində məscidlərin sayı artaraq 391 olub. Bunlardan 382-si şiə, 9-u isə sünni məscidi kimi fəaliyyət göstərib. 1918-ci ildən başlayaraq bu məscidlərin hamısı ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

1918-1991-ci illərdən başlayaraq Qərbi Azərbaycanda azərbaycanlıların tərk etmək məcburiyyətində qaldıqları ərazilərdə 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi ermənilər tərəfindən zəbt edilib. 223 qəbiristanlıq, 600 alban məbədi, 400 məscid, 150 pir/ocaq/ziyarətgah, 1500 qəbirüstü abidə və minlərlə tarixi-memarlıq abidəsi tədricən vandalizmə məruz qalıb. Ümumilikdə, 5000-dən çox tarixi, dini və maddi-mədəniyyət abidəsi ermənilər tərəfindən şüurlu, planlı şəkildə məhv edilib, mənimsənilib. Hazırda Ermənistan ərazisində – İrəvanda yalnız Göy məscid, bölgələrdə isə bir neçə məscid qismən salamat qalıb ki, onlar da konstruktiv dəyişikliklərdən sonra fars (İran) məscidi kimi təqdim edilir. Həyata keçirilən bu dağıdıcı fəaliyyətin kökündə irqçilik və nifrət dayanır. Ermənilər tərəfindən dağıdılmış və mənimsənilmiş Qərbi Azərbaycanın maddi-mədəni irs nümunələrinin bir qismi aşağıdakı kimidir;

Məscidlər

Göy məscid – Hüseynəli xan məscidi (XVIII əsrə aid): **Tikintisinə 1760-cı ildə başlanmış, 1764-cü ildə İrəvan sərdarı Hüseynəli xan Qacar (1762-1783) tərəfindən tamamlanmış, onun adı ilə Hüseynəli xan məscidi adlanmışdır. Eni 66 m, uzunluğu 97,2 m olan Göy məscid İrəvan məscidləri içərisində ölçüsünə görə ən böyüyü idi. Məscidin**

4 minarəsi (3-ü dağıdılmış, yalnız 1-i qalmışdır), çarhovuzlu-fəvvarəli geniş həyəti, zəngin kitabxanası olmuşdur. Məscid XX yüzillikdə ermənilər tərəfindən iki dəfə yandırılmışdır: 1918-ci və 1955-ci ildə. Məscidin binası Ermənistan hakimiyyətinin qərarı ilə tarix muzeyinə çevrilib. Hazırda ermənilər bu məscidi "Fars məscidi" adı ilə dünyaya təqdim edirlər. Ermənistan hökumətinin 2015-ci il dekabrın 10-da keçirilən iclasında Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscidlə bağlı Mədəniyyət Nazirliyinin təqdim etdiyi layihə müzakirə edilib. Tarixi və mədəniyyət abidəsi kimi Göy məscidin yerləşdiyi ərazi Ermənistan Respublikasının dövlət mülkiyyəti olduğu üçün özgəninkiləşdirilə bilinməyən tarixi və mədəniyyət abidələrinin dövlət reyestrinə daxil edilib. Həmçinin qərara alınıb ki, Göy məscid və onun yerləşdiyi ərazi istifadə hüququ ilə təmənnasız olaraq 99 illiyinə İran İslam Respublikasının Ermənistandakı səfirliyinə mədəniyyət mərkəzi kimi təhvil verilsin.

İrəvan şəhərindəki Dəmirbulaq məscidi (XVII–XVIII əsrlərə aid): İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində yerləşən XVII–XVIII əsrlərə aid məscid, binasının üstündə düzəldilmiş günlüyə görə "Günlüklü", eyni zamanda "Çətirli məscid" adlanmışdır. Məscid İrəvan şəhərinin varlı şəxslərindən olan Hacı Müzəffər Ağa tərəfindən tikdirilmişdir. Üzərindəki kitabədə məscidin hicri təqvimi ilə 1327-ci ildə, yəni miladi təqvimi ilə 1909-cu ildə inşa edildiyi göstərilmişdir. Məscidin minarəsi yox idi. Əvəzində məscid binasının damında açıq havada 1,5-2 metr hündürlüyündə kvadrat şəkilli meydança inşa edilmişdi. 1988-ci ilə qədər fəaliyyət göstərən və şəhərin dindar müsəlmanlarına xidmət edən məscid həmin ilin fevral ayının 23-də radikal erməni millətçiləri tərəfindən hücuma məruz qalmış, talan edilmiş və yandırılmışdır. Dərmirbulaq məscidi 1990-cı ildə tamamilə dağıdılmışdır və onun yerində müasir yaşayıyış binası inşa edilmişdir.

İrəvan şəhərindəki Sərdar məscidi (XIX əsrə aid): Ayrı-ayrı adlar altında təqdim edilməsinə baxmayaraq, söhbət rəsmi sənədlərdə adı Sərdar məscidi kimi qeyd olunan dövrün nadir memarlıq abidəsindən gedir. Yəni bir məscid müxtəlif dövrlərdə müxtəlif cür adlandırılmışdır. İrəvan qalasının çar Rusiyası işğalı dövrünə aid bəzi sənədlərdə bu məscidin adı Abbas Mirzə məscidi kimi hallandırılır. Görünür, həmin məscid XIX əsrin əvvəlində vəliəhd Abbas Mirzə tərəfindən yenidən qurulduğu üçün məhz onun adı ilə adlandırılmışdır. Alman tədqiqatçısı Avqust Haksthauzen 1843-cü ilin avqust ayında İrəvan şəhərində olmuş və qalada olan iki məsciddən birinin (yəni Rəcəb paşa məscidinin) rus-yunan kilsəsinə, digərinin – Sərdar məscidinin isə silah anbarına çevrildiyini qeyd etmişdir. Tanınmış rus arxeoloqu qrafinya Praskofya Uvarova 1880-ci ildə İrəvan şəhərində olmuş, əsrlərboyu yaradılan tarixi-memarlıq abidələrinin dağıdılmasını təsvir etmişdir. Erməni müəllifi Yervand Şahəzizin 1931-ci ildə İrəvanda çap edilən "Qədim İrəvan" əsərində P.Uvarovadan sitat gətirərək, onun Xan sarayının yaxınlığında yerləşən Sərdar məscidini Vereşşaginin fırçasından çıxan tabloya bənzətdiyini yazır. P.Uvarovaya istinadən Y.Şahəziz yazır ki, Sərdar məscidinin əsas günbəzi, xarici divarları, sütunları, iç divarları, çoxsaylı digər günbəzləri rəngli kaşılarla və gözəl təsvirlərlə bəzədilmişdir. Azərbaycan arxeoloqu və epiqrafçısı İsa Əzimbəyov 1928-ci ildə İrəvanda ekspedisiyada olmuşdur. Onun ekspedisiyanın nəticələrinə dair yazdığı "Tiflisin, İrəvanın və Naxçıvan

MSSR-in müsəlman kitabələri" adlı məqaləsində göstərilir ki, qalanın içərisində, Sərdar sarayının yaxınlığında yerləşən şah Abbasın adına inşa edilən məscid yarıuçuq vəziyyətdədir və onun həyətində bir neçə erməni qaçqın ailəsi məskunlaşmışdır. Hazırda Sərdar məscid-kompleksindən yalnız onun bir divarının 2-3 metr enində, 3-4 metr hündürlüyündə kiçik bir parçası qalmışdır. Həmin ərazidə "Qlendale Hills" tikinti şirkəti 14 mərtəbəli 18 bloklu yaşayış kompleksi inşa etmişdir.

İrəvan şəhərindəki Təpəbaşı məscidi: Təpəbaşı yaşayış massivində yerləşən məscidin minarəsi 1960-cı illərdə uçmuşdur. Divarlarının qalınlığı 1,5 metr olan məscidin içərisindəki imamın otağında hazırda bir erməni ailəsi yaşayır. Məscidin ətrafında çayxana var idi. İndi həmin çayxana da yoxdur. Məscidin həyətində və ətrafında ermənilər müvəqqəti yaşayış tikililəri (favella tipli) inşa etmişlər. Bəzi məlumatlara görə, həmin məscidi İrəvan şəhər idarəsinin (upravasının) üzvü, xan nəslindən olan Abbasqulu xan İrəvanski tikdirmişdir. Onun evi də həmin məhəllədə olmuşdur. Tikili tamamilə dağıdılıb və bərpası mümkün deyildir. Ərazidə müasir yaşayış massivinin tikilməsi planlaşdırılır.

İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Talın rayonundakı Əkərək kənd məscidi (XVII əsrə aid): Əkərək kənd məscidi memarlıq və arxitektura baxımından digər məscidlərdən fərqlənirdi. Çay, qaya daşlarından və kərpicdən ağ əhənglə tikilən, böyük və eni 5 m, uzunluğu 20 m, 4 m civarında hündür tavanı olan məscidin çoxlu pəncərələri vardı. İki hissədən ibarət olan məscidə bitişik türbə də yerləşirdi. Məscid eyni zamanda vəfat edən insanların dəfn üçün hazırlanması, ailə həyatı qurmaq üçün kəbin kəsdirənlərin də müraciət məkanları rolunu oynayıb. Məsciddə Quran oxumağı və ibadət etməyi də öyrədirdilər. Məscid, həmçinin fərdlər arasındakı sosial statusu, uçurumu aradan qaldıran reabilitasiya mərkəzləridir. Məscidlər təkcə ibadət, dini mərasimlər keçirmək üçün inşa edilmirdi. Məscid çoxfunksiyalı ellik bina hesab edilir, orada keçirilən tədbirlər həm də müsəlmanlar arasında ünsiyyəti, birliyi gücləndirirdi. Əkərək kənd məscidinin dam hissəsi tamamilə uçurulub, dağıdılıb, ancaq kənar divarlarının xarabalıqları qalıb. İslam mədəniyyət abidəsi olduğu üçün ermənilər tərəfindən təmir və bərpa edilməyib. Əksinə tikinti üçün yararlı olan hissələr sökülərək daşınıb (Kənd əhalisi iri daşları sökərək həyətyanı divar tikintisində istifadə edib).

İrəvan quberniyasının Yeni Bayazıd qəzasının Axta rayonunda Bicni məscidi (XVII əsrə aid): Bicni məscidi XVII əsrdə inşa olunan qədim müsəlman ibadətgahıdır. Hündürlüyü 5 metrdən çox olan məscidin tikintisində böyük qaya və çay daşlarından istifadə olunub. Məscid adını "Beçenek / Peçenek" türk boyunun ərəbcə yazılışı olan "Bjni"dən alıb. Bicni məscidi hazırkı dövrdə ermənilər tərəfindən dağıdılıb, xarabalıqları qalıb.

Zəngibasar mahalının Uluxanlı rayonunun Qulucan kəndinin yaxınlığındakı Ağadədə məscidi (XIX əsrə aid): Ağadədə məscidi Uluxanlı, Həbilkənd, Seyidkənd və Sarvanlar kəndlərinin əhatəsində, Qulucan kəndinin yaxınlığında yerləşirdi. Qarasu çayının kənarında olduğu üçün tarixi Ağadədə qəbiristanlığındakı məscidin tikintisində çay və qaya daşlarından istifadə olunmuş, üzü isə ağ torpaqla suvanmışdı. Təxmini hesablamalara görə, məscidin eni 5 metr, uzunluğu 8 metr, hündürlüyü isə 3,5 metr idi.

Məscid dəfn mərasimləri və müsəlmanlara aid dini bayramlar zamanı daha qələbəlik olurdu. 1987-1991-ci illərdə baş verən deportasiya prosesində ermənilər azərbaycanlı əhaliyə qarşı zorakılıqlar törətməklə yanaşı, bir neçə yüzillik tarixi olan azərbaycanlılara aid maddi-mədəni abidələrin bir çoxunu da məhv etmişlər. Bu vandallizm aksiyaları zamanı Ağadədə məscidi də yandırılmışdır. Ağadədə qəbiristanlığındakı məscid İslam mədəni irsinin və dini kimliyin nümunəsi olmaqla yanaşı, xalqın mənəvi dünyasına xitab edən abidə olması baxımından əhəmiyyət kəsb edir. Bu yer sonuncu deportasiyaya (1987-1991-ci illər) qədər azərbaycanlıların inanc və ziyarət yerlərindən idi. Britaniyalı səyyah-fotoqraf Qurdip Mattu Zəngibasar mahalının Uluxanlı qəsəbəsi ərazisindəki Ağadədə məzarlığında olub, onun 2021-ci ilin avqust ayında çəkdiyi fotolardan məzarlığın, demək olar ki, tamamilə dağıdıldığı, məscidə gəlincə, arxa tərəfdə 1,5 metr, sağ və sol tərəfdə isə 1 metrə qədər divarlarının qaldığı müşahidə olunur.

Şörəyel mahalının Amasiya rayonunun Balıqlı kəndindəki Balıqlı məscidi (XVIII-XIX əsrlərə aid): Balıqlı kəndi XVIII yüzilliyin sonu, XIX yüzilliyin əvvəllərində salınıb. Qafqazın 5 verstlik xəritəsində qeyd edilib. Amasiya rayonunun Balıqlı kəndində yerləşən Balıqlı məscidi digər məscidlərdən fərqli arxitekturaya malikdir. Uzunluğu 8 metr, eni 4 metr (təxmini) olan məscidin divarlarının tikintisində dördkünc kəsilmiş ağ, boz, göy və qırmızı daşlardan istifadə edilib. Bu da məscidin içəridən və bayırdan görünüşünə ayrı bir gözəllik qatır. Ev memarlığı üslubunda və müasir qaydada tikilib. Arxa sağ və sol tərəfdə yuxarı hissədə oval iki pəncərəsi var. Qabaq tərəfdə isə bir pəncərə və geniş giriş qapısı qoyulub. Pəncərənin içərisində və bayırında alt hissədə tünd sarı mərmər daşlar qoyulub. 1987-1991-ci illərdə azərbaycanlıların kütləvi deportasiyasından sonra, müsəlman abidəsi olduğu üçün ermənilər tərəfindən dağıdılıb.

Loru mahalı Dağ Borçalı qəzasında Loru qala məscidi (XII əsrə aid): Loru mahalı Dağ Borçalı qəzasında Loru qala məscidi 1238-ci ildə inşa olunub. Cəlaloğlu şəhərindən 4 km Şərqdə Loru şəhərindəki qalanın içində yerləşir. Qərbi Azərbaycan torpaqlarında inşa edilib və indiyə qədər mövcud olduğu müəyyən edilən məscidlərdən biridir. Məscidin iç memarlığı Şuşadakı Gövhərağa məscidi ilə oxşarlıq təşkil edir. Geniş və hündür tavan quruluşuna sahibdir. Yerlərin zəmininə mərmər daşlar döşənib. Sağ tərəfdə pəncərə və kiçik yaşıl rəngdə masa görünür. Məscid qarşısındakı qəbirüstü abidəyə (xaç əlavə edilib) və içərisinə erməni elementləri əlavə edilərək, ermənilər tərəfindən kilsəyə çevrilib. Üstünü ot təbəqəsi basıb.

Məbədlər

Gərnibasar mahalının Qəmərli rayonunun Dvin kəndində saray və məbəd: Qədim saray və məbədin qalıqları Dvin kəndinin xarabalıqlarında aşkar edilmişdir. Bu yaşayış məskəni 350-ci ildə Arman çarı II Xosrov tərəfindən salınıb və Armaniyanın paytaxtına çevrilib. Dvin şəhərindəki həmin məbəd (22x43 m) 572-ci ildə farslar tərəfindən dağıdılıb, sonra türksoylu Sembat Baqrat (608–615) tərəfindən yenidən tikilməyə başlanıb və az sonra katolikos Qamata (612-621) tərəfindən tamamlanıb. 893-cü il zəlzələsi zamanı məbəd, 1236-cı ildə monqol-tatar hücumları zamanı isə Dvin şəhəri tamamilə yerləyeksan olub. Dvinlilər qədimdən atəşpərəst olmuş, IV yüzillikdə Armaniyada xristianlığı qəbul ediblər. 450-ci ildə Arman knyazları Dvinə yığışaraq xristianlıqdan imtina edib və təzədən

öz əvvəlki dinlərinə – atəşpərəstliyə qayıdıblar. Dvin saray və məbəd qalıqlarının aşkar edildiyi Dvin kəndində 1828-ci ilə qədər ancaq azərbaycanlılar yaşayıb. Qədim arman-türk abidəsi Dvin sarayı və məbədin qalıqları ciddi şəkildə dəyişdirlib və hazırda "erməni mədəni abidəsi" kimi təqdim olunur.

İrəvan quberniyasının Üçkilsə rayonunun Hacı Qara kəndində alban məbədi (VI-VII əsrlərə aid): Hacı Qara kəndindəki alban məbədi kənd ərazisində albanların yaşadığı dövrdə, dördkünc formada yonulmuş böyük daşlarla inşa edilib. Məbədin eni 3,5 metr, uzunluğu 4-4,5, hündürlüyü isə 5 metr civarında olub. Arxa hissədə eni 50 sm, uzunluğu isə 1 metr civarında oval pəncərəsi var. Kəndə yaxın olan məbədin üst tavan və qabaq qapı tərəfinin bir hissəsi uçub, dağılıb. Təbii aşınma ilə yanaşı, tikilinin əhəmiyyətli hissəsi son dövrlərdə qəsdən sökülərək dağıdılıb. Yarıuçuq vəziyyətdə olan məbədin daşları ətrafına səpələnib. 1590-cı ildə tərtib edilmiş, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Hacı Qaralı" kimi, Qafqazın 5 verstlik xəritəsində "Hacı Qara" formasında qeyd edilmişdir. Kənddə 1828-ci ilə qədər azərbaycanlılar yaşamışdır. Ermənilər bura Türkmənçay müqaviləsindən sonra, 1829-cu ildə İranın Xoy vilayətindən köçürülmüşdür. Burada ermənilərlə yanaşı, 1831-ci ildə 27 nəfər, 1897-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır. Azərbaycanlılar XX əsrin əvvəllərindən tarixi-etnik torpaqlarından deportasiya olunub. Hazırda tikili tamamilə məhv edilib.

Şərur-Dərələyəz qəzasının Qarqar kəndində Çıkıvəng məbədi (V-VI əsrlərə aid): Bir çox tarixi yaşayış məntəqələrində olduğu kimi, Qarqar kəndində və onun kənarında da tarixi abidələr, qədim məzarlıqlar mövcuddur. Qarqar kəndinə gedən yoldan bir qədər aralıda, dağın zirvəsində Çıkıvəng (ermənilər "Çikivank" adlandırır) adlı kiçik bir məbəd var. Ermənilər Çikivank adının yaranmasını ibadətgahın ətrafındakı torpağın dəri xəstəliklərini sağaltmaq qabiliyyətinə malik olması ilə əlaqələndirirlər. Bu sözün Azərbaycan dilindəki etimologiyasını nəzərdən keçirəndə aydın olur ki, Əyrivəng monastırında olduğu kimi Çıkıvəng məbədinin də adı tikilinin konstruksiyasına tamamilə uyğundur. Azərbaycan türkcəsinin bəzi dialektlərində çıkı, cıqı, çıqqılı, çıkkana, çıqqalanca və s. kimi cismin və ya kütlənin çox kiçik həcmini göstərən təyinedici terminlər mövcuddur. Sözügedən abidə ilə bağlı turistlərin təsvirinə görə və fotoşəkillərdən də göründüyü kimi, kilsə o qədər kiçikdir ki, fiziki məsafəyə riayət edilmədən içəriyə 5, maksimum 6 nəfər sığa bilər. Beləliklə, Çıkıvəng bu tikilinin quruluşuna tam uyğun gələn "kiçik kilsə" deməkdir. Bundan əlavə, Çıkıvəng məbədinin divarlarındakı yazılarda həkk olunan və indiki erməni xalqına heç bir əlaqəsi olmayan Bəhram, Göncə, Okan, Amat, Asan və s. kimi məbədin tikilməsinin səbəbkarları olan zadəganların və onların ailə üzvlərinin adlarını xüsusi qeyd etmək olar. Məbəd hazırda ermənilər tərəfindən tamamilə dağıdılıb.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talın rayonundakı Gözlü kəndində alban məbədi (V-VI əsrlərə aid): Alban məbədi Gözlü kəndindən bir az aralıda, çay kənarında yerləşir. Qırmızı tuf daşdan tikilən məbədin uzunluğu 10 metr, eni 5 metr, hündürlüyü isə 4 metr civarındadır. Məbədin ətrafı yaşıl otlarla əhatə olunub, 30–35 metr kənarından çayın kiçik qolu keçir. Məbədin divar, dam və qüllə hissəsi qismən yararlı vəziyyətdədir. Damın üstünü hündür otlar basıb. (Mənbə: 02.04.2011-ci ildə çəkilən fotoya istinadən). Məbəd hazırkı dövrdə ermənilər tərəfindən dağıdılıb. Gözlü kəndi

Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829-1832-ci illərdə Türkiyənin Muş, Əlaşkirt, Qars vilayətlərindən, İranın Qəzvin və Xoy vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmiş, azərbaycanlılar kənddən deportasiya olunmuşdur.

İrəvan quberniyasının Yeni Bəyazid qəzasında, Qaranlıq rayonundakı Aşağı Alçalı kəndində Vanevan məbədi (903-cü il): Vanevan monastırı Göyçə gölünün cənub-şərqində, Aşağı Alçalı kəndindən cənubda Alçalı çayının dərəsi boyunca yerləşən alban məbədi Müqəddəs Qriqorun 903-cü ildə Albaniyanın ilk hökmdar sülaləsi Arranşahiklər xanədanına mənsub olduğu bildirilən Kral I Smbatın (Səhl ibn Sunbatın) bacıları Şahzadə Şapuh Baqratuni və Məryəm tərəfindən tikilmişdir. Cənub ucunda yerləşən kilsə binası daha sonrakı dövrdə tikilmiş, ikisi arasında qavit əlavə edilmişdir. X əsrin sonlarında Baqratidlər sülaləsinin kralı albanların XXXXI katolikosu, albanların müstəqil məbədə sahib olması fikrinin dəstəkçisi I Qagik tərəfindən təmir və bərpa edilmişdir. Bu restavrasiya zamanı ətraf divar tikilmişdir. Kilsə tədricən genişlənən dörd mərkəzi tağdan ibarətdir. Arxa bantlar arasında bir künc kürsünün əlavə edilməsi bunun baş verməsinə imkan verir. Məbədin tikintisində xüsusi dördkünc formada kəsilmiş ağ və qırmızı tuf daşlardan istifadə olunub.Vanevan və Tatev buna ən erkən nümunələrdir. Məbəd mağarası içəridən və çöldən səkkizbucaqlıdır, üzərində kilsənin tarixinə aid yazı var. Hər iki məbədin mağaralarının eyni dekorativ qəliblənmiş bantı var ki, bu da onların bir-biri ilə çağdaş olduqlarına inanmağa səbəb olur. Məbədin arxasında dərənin başına çıxan bulaq və mağara var. Bir vaxtlar işğalçılardan qaçış yolu kimi istifadə edildiyi bildirilir. Türk-oğuz yurdu olan kənddə XIX əsrin 20-ci illərinə qədər azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829-30-cu illərdə Türkiyənin Əlaşkirt bölgəsindən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki dövrdə restavrasiya edilib erməni elementləri əlavə olunan məbəd mənimsənilərək, "erməni abidəsi" kimi təqdim olunur.

Karvansara rayonu, Tərsəçay sahilindəki Salah kəndində Ağavnavəng alban məbədi (XII-XIII əsrlərə aid): Kənd ərazisində XI-XII yüzilliklərə aid azərbaycanlıların soykökündən olan türk-alban mənşəli müxtəlif qədim tarixi abidələr mövcuddur. Ağavnavəng alban-türk məbədi XII-XIII yüzilliklərdə inşa edilib. Dilican milli parkının kənarındakı hündür meşəlik ərazidə yerləşir və dördkünc günbəzli formada inşa edilib. Məbədin divarları enli olduğu və tikintisində böyük qaya və çay daşlarından istifadə edildiyi üçün indiki dövrə qədər qala bilib. Məbədin dam və günbəz hissəsinin üstünü ot və kol-kos basıb. Alban məbədi qismən yararlı yarıuçuq vəziyyətdədir. Ermənilər tərəfindən təmir və restavrasiya edilməyib, fəqət mənimsənilib, "erməni abidəsi" kimi təqdim olunur.

Gəncə quberniyasının Qazax qəzasında, sonradan Çəmbərək rayonundakı Qoturbulaq kəndində alban məbədi (V-VII əsrlərə aid): Qoturbulaq kəndində yol kənarına yaxın təpəlik ərazidə qədim alban kilsəsi yerləşir. Azərbaycanlıların və tarixboyu türk tayfalarının yaşadığı kənddə müalicəvi əhəmiyyətli turşsu bulağının olması qədim dövrdən buraya geniş əhali kütləsinin axınına səbəb olub. Kilsə dəyirmi formada, çay daşı və ağ əhənglə tikilib, qalın divarlardan və bir neçə kiçik pəncərələrdən ibarətdir. Qəhvə

rəngli dam örtüyünün bir hissəsi uçub-dağılıb. Alban məbədi olduğu üçün ermənilər tərəfindən tarixi kilsənin təmirinə diqqət göstərilməyib. Qalın divarları sağlam vəziyyətdədir. Alban kilsəsi olduğu üçün dam örtüyünün bir hissəsi dağılan kilsə ermənilər tərəfindən təmir edilməyib. 1920-ci ilin sonuna qədər Gəncə quberniyasının Qazax qəzasının Çəmbərək nahiyəsi kimi Azərbaycanın tərkibində olan Çəmbərək rayonunun ərazisində o dövrdə cəmi iki erməni kəndi mövcud olub.

Qəbirüstü abidələr

Üçkilsə qəzasında, sonradan Talın rayonunun Masdərə kənd qəbiristanlığında qəbirüstü qoç abidələri (V-VII əsrlərə aid): Böyük bir ərazini əhatə edən kənd qəbiristanlığında V-VII yüzilliyə aid azərbaycanlılara məxsus tarixi abidələr var. Qəbiristanlıqda çox sayda (100-dən çox) sanduqə formalı qəbirüstü abidələr qısa ara məsafəsi ilə sıralanıb. Türk-oğuz, alban qəbirləri, sanduqələr, qoç heykəlləri və 2-3 metr hündürlüyündəki bir çox qəbir daşları üzərində olan yazı və təsvirlər ərazidə azərbaycanlıların qədim dövrlərdən yaşadığını sübut edir. Ermənilər tərəfindən bir çoxunun üzərinə erməni elementləri və erməni xaçı əlavə edilərək abidələrin mənşəyi dəyişdirilmək istənilib "Masdərə" toponimi isə "Masların dərəsi", "Mas dərəsi" anlamında "mas" və "dərə" sözlərindən yaranmışdır. Maslar qədim dövrlərdən (təxminən e.ə. VIII əsrdən) Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda məskunlaşmış Sak tayfalarının bir qoludur. Masların müasir Azərbaycan Respublikası və Qərbi Azərbaycan ərazisində Masallı, Masazır, Maştağa, Masis, Mesxet, Xaçmaz (Xaçmaz) toponimlərində də qalmışdır. Ermənilər tərəfindən qədim qəbirüstü abidələrin bir qismi dağıdılıb. Qalanları isə indiki dövrdə "erməni abidəsi" kimi təqdim olunur.

Göyçə mahalının Aşağı Qaranlıq rayonunun Zolaxaç kəndində qəbirüstü qoç heykəli (IV-V əsrlərə aid): Zolaxaç kəndində qədim məzarlıq kənd evlərinə yaxın məsafədə, hətta evlərin həndəvərində yerləşir. Məzarlıqda müxtəlif dövr Azərbaycan tarixinin nümunələri olan qəbirüstü abidə və sənduqələr çoxluq təşkil edib. Məzarlıqda olan qoç heykəllərinin bir çoxu digər bölgələrdəki qəbirüstü qoç heykəllərindən fərqlilik təşkil edir. Fərqli tərəfi sarı rəngdə qaya daşından yonulmuş daha böyük qoç heykəllərinin çox ustalıqla heyvana oxşar hazırlanması, boğazında naxışlı xalta və qabaq baldır hissələrində altıguşəli ulduz, arxa ayağında fırfıra (pərvanə) şəklində təsvir və Günəş əks olunmasıdır. Qədim alban-türk məzarlığı Azərbaycan tarixinin tarixi torpaqlardakı ən dəyərli maddi-mədəni irslərindən biridir. Qoç heykəllərinin ayağındakı fırfıra (pərvanə) formasında təsvir "Tanrıdan gəlmək və Tanrıya dönmək mənasını verir. Monqollar tərəfindən də istifadə olunub. Qabaq ayaq hissəsindəki altıguşə ulduzlu Günəş təsviri isə "Davud ulduzu", ya da "Süleyman möhürü" kimi qəbul edilsə də, damğanın ən qədim nümunələri türklərdə və türk coğrafiyalarındadır, günümüzə qədər də istifadə olunub. Mənası "var etmə, yaratma"dır. Qoç heykəlinin digər tərəfindəki kitabəni isə XIX yüzildə kəndə köçürülmüş ermənilər həmişəki xislətlərinə uyğun olaraq silmişlər və hazırkı dövrdə "erməni abidəsi" kimi təqdim edirlər. 1987-1991-ci illərin deportasiyasından sonra isə məqsədli qaydada ermənileşdirə bilmədikləri üçün qəbirüstü abidələr məhv edilib. Qalanları isə erməni elementləri əlavə olunub.

Qədim yaşayış məskənləri

İrəvan quberniyasının Üçkilsə qəzasındakı Başsız kəndində mağaralar: Dağın atında yerləşən mağaralar əhalinin qədim dövrdə yaşayış məskəni, sonrakı dövrlərdə isə müharibələr və erməni hücumlarından qorunması üçün istifadə olunub. Təbii yaranan mağara ətrafda yaşayan əhali tərəfindən genişləndirilib, yüzlərlə insanın sığınma məkanına çevrilib. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Karpi nahiyəsində kənd adı kimi qeyd olunur. Əsli Baş Sisdir. 1590-cı ilə aid mənbədə Başsız, 1727-ci ilə aid mənbədə isə kəndin adı Baş Sis kimidir. Sis-Kiçik Asiyanın cənubunda Kilikiya əyalətində şəhər və mahal adıdır. Sis və Masis orta əsrlərdə Türkiyənin cənubunda Qaraman əyalətində iki qalanın adı olmuşdur. Mənbələrdə ilk dəfə XVI əsrdən məlumdur. Kənd Sisdən gəlmiş türklərin məskunlaşması nəticəsində yaranmışdır. Daha sonra kənddə yalnız azərbaycanlılar yaşayıb. Kəndin kənarındakı dağların altındakı mağaralar indiki dövrdə də qalmaqdadır və "erməni abidəsi" kimi təqdim olunur.

Karvansaralar

Sərdarabad mahalının Qurduqulu rayonunda Qurduqulu karvansarası (XVII-XVIII əsrlərə aid): Qurduqulu rayonu ərazisinində yerləşən qədim və böyük karvansaranın hücrələri və ibadət otaqları var idi. Karvansarada karvanların dayanacaq yeri, mehmanxana tipli istirahət otaqları, minik və yük heyvanları üçün ayrıca yer (tövlə) və axurlar, ticarət mallarının saxlanması üçün anbar, müxtəlif əşya satan dükan və yeməkxana vardı. Çay və qaya daşlarından inşa edilən karvansaranın uzunluğu 35-40 metr, eni 12-15 metr, hündürlüyü isə 4,5-5 metr civarında idi. 3 tağlı karvansaranın sağ və sol tərəfində otaqlar, ortasında isə dəhliz yerləşirdi. Bütün otaqlar dəhlizə çıxırdı. Karavansarada 18-20 civarında otaq mövcud olub. Hazırda ermənilər tərəfindən dağıdılıb və izi itirilib.

İrəvan quberniyasının Üçkilsə qəzasında, sonradan Əştərək rayonunun Uşi kəndində karvansara (IX-XI əsrlərə aid): Karvansara Əştərək rayon mərkəzindən 4 km şərqdə Uşi kəndi kənarında yerləşib. Bişmiş kərpicdən, yonulmuş bazalt və mərmərdən inşa olunmuşdu və gözəl görünüşə sahib idi. Daha çox İrandan gətirilən malların satıldığı karvansara kimi məşhur idi. 38 mağazadan ibarət olan karvansara, eyni zamanda topdansatış anbarı kimi fəaliyyət göstərirdi. Yol kənarında yerləşib, oradan keçən insanlar, xüsusilə də səyyahlar üçün gecələmə, tacirlər üçün isə həm mehmanxana, həm də mallarını satmaq və mühafizə üçün anbar rolunu oynayıb. Karvansara haqqında məlumatların 1590-cı və 1728-ci illərdə tərtib olunan Osmanlı müfəssəl dəftərində, habelə çar Rusiyası mənbələrində yer alması və Azərbaycan irsinə aid abidə olması baxımından əhəmiyyət kəsb edir. Azərbaycanın qədim dövr maddi-mədəni irsinə aid olan karvansara ermənilər tərəfindən dağıdılıb, indiki dövrdə Əştərək rayonunun Uşi kəndində xarabalığı qalıb.

İrəvan quberniyasının Şörəyel mahalının Ağin rayonunun Çırpılı kəndindəki Çırpılı karvansarası (XVI-XVII əsrlərə aid): Yol kənarındakı kəndə yaxın yaşıllıq ərazidə yerləşən Çırpılı karvansarası Şərq memarlığı üslubunda tikilmişdi, böyük və çox sayda otaqlardan ibarət idi. I Şah Abbasın tikdirdiyi karvansarada, əsasən, Müsəlman Şərqinin, o cümlədən Azərbaycanın orta əsr memarlığında istifadə edilən nal formalı çatma tağlar tətbiq olunmuşdur. Təxmini olaraq eni 12 metr, uzunluğu 30-35 metr, giriş hissəsinin hün-

dürlüyü 5-6 metr, otaqlar yerləşən bölmənin hündürlüyü isə 3-3,5 metr civarındadır. Çırpılı karvansarası böyük çay və qaya daşları ilə tikilib. Karvansaranın 3 tağlı hündür girişi mövcuddur. Geniş giriş bölməsindən sonra başlayan uzun dəhlizin sağ və sol tərəfində otaqlar mövcud olub. Hər tağın bir otaq olduğu güman edilən karvansaranın təxmini olaraq 12 otaqdan ibarət olduğunu söyləmək mümkündür. "İrəvan əyalətinin icmal dəftəri"ndə Şörəyel sancağında (Pəmbək əyaləti ilə birlikdə) 172 kəndin mövcudluğu göstərilir. Nadir şahın dövründə verilən məlumata görə, İrəvan xanlığının tərkibinə daxil olan Şörəyel mahalında 109 kənd mövcud olmuşdur. 1804-cü ildə Şörəyel sultanlığının rus qoşunları tərəfindən işğalından sonra bir neçə kənd istisna olmaqla, qalan bütün kəndlərə Türkiyədən köçürülüb gətirilən ermənilər məskunlaşdırılmışdı. Memarlığı ilə Azərbaycan maddi-mədəni irsini təmsil edən Çırpılı karvansarası kənd və ətraf ərazilərdə azərbaycanlıların yaşadığını, ərazinin azərbaycanlıların məskunlaşdığı yurd yeri olduğunu göstərir. Hazırda karvansaranın hündür girişinin tavan hissəsi yarıdağınıq vəziyyətdədir. Qabaq hissəsindəki kiçik tikilinin üzərinə xaç elementi əlavə olunub. Hər iki abidə də ermənilər tərəfindən mənimsənilib, "erməni abidəsi" kimi təqdim olunur.

Türbələr

Zəngibasar mahalının Uluxanlı rayonunun Cəfərabad kəndi yaxınlığındakı Pir Hüseyn türbəsi: Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 14 km şimalda, İrəvan şəhəri yaxınlığında yerləşən Cəfərabad kəndində qırmızı tuf daşdan inşa edilmiş səkkiztilli türbə. Qaraqoyunlu əmirlərinin sərdabəsi üstündə ucaldılan türbənin hündürlüyü günbəzsiz 12 m olmuşdur. Türbəni yuxarıdan kəmərvari əhatə edən 22 m uzunluğunda ərəbdilli kitabədə Çuxursəd vilayətinin Saatlu (Sakadlı) tayfasından olan əmirləri Pir Hüseyn və atası Əmir Səədin (1411-ci ildə vəfat etmişdir) adları çəkilmişdir. Başqa sözlə, kitabədə yazılıb ki, bu günbəzli müqəddəs sərdabə böyük hökmdar Pir Budaq xanın və Noyon Yusifin padşahlığında Əmir Səədin oğlu Pir Hüseynin əmri ilə hicri tarixlə 816-cı il rəcəb ayının 15-də tikilmişdir. Türbə Pir Hüseyn türbəsi kimi də tanınırdı. Təmir olunub hal-hazırda "Türkmən abidəsi" kimi təqdim olunur.

Zəngəzur mahalı Mığrı rayonunun Lehvaz kəndində qədim türbə və sərdabə (XVII–XVIII əsrlərə aid): Mığrı rayonunda Lehvaz adlı iki kənd mövcud olub. Birinci Lehvaz, İkinci Lehvaz. Sonralar bu kəndlər birləşdirilərək, Lehvaz adlı kənd yaradılıb. Qədim tarixə malik olan kənddə çaydaşı, əhənglə tikilən, üzəri əhənglə suvanmış, türbə və sərdabədən ibarət şərq memarlığı üslubunda tarixi tikili olub. 1987–1991-ci illərdə azərbaycanlıların kütləvi deportasiyasından sonra, müsəlman abidəsi olduğu üçün ermənilər tərəfindən dağıdılan sərdabənin qalıqları günümüzdə qalmaqdadır.

İrəvan quberniyası Üçkilsəqəzasının, sonradan Əştərək rayonunun Təkiyə kəndində müsəlman türbəsi (XVI–XVII əsrlərə aid): Təkiyə kəndindəki müsəlman türbəsi dördkünc formada tikilib və divarı dördkünc mərmər daşlarla örtülüb. Eni 5 metr (təxmini) ölçüsündə olan türbənin hündürlüyü təxminən 4 metrdir. Türbənin 0,80 sm eni, 1,0–2 metr hündürlüyündə dəmir qapısı var. Qapının yuxarısında qırmızı lövhə üstündə, qırmızı hərflərlə ərəb əlifbası ilə yazılar həkk olunub. Türbənin qapısı sökülüb, üzərindəki ərəb yazılı lövhənin sağ tərəf kənarından, yuxarı hissədən 10, aşağı hissədən 20 sm (təx-

mini) bir parça sındırılaraq götürülüb (2012-ci ildə çəkilən fotoya instinadən). Hazırkı dövrdə ermənilər tərəfindən tamamilə dağıdılıb.

İrəvan quberniyasının Alagöz (Araqats) rayonundakı Camışlı kəndində türbə (XV–XVI əsr): Alagöz (Araqats) rayonundakı Camışlı kəndi Böyük Camışlı və Kiçik Camışlı kəndlərinin birləşdirilməsi əsasında yaradılıb. Alagöz (Araqats) rayonu təşkil edilənədək, yəni 15 mart 1972-ci ilə kimi Abaran rayonunun inzibati ərazi bölgüsünə daxil edilib. Camışlı kəndindəki köhnə qəbiristanlıq ərazisi qədim türk-oğuz qəbirləri və qəbirüstü abidələri ilə zəngin olub. 1987–1991-ci illərin deportasiyasından sonra ermənilər tərəfindən dağıdılan köhnə qəbiristanlıq ərazisindəki təpədə qədim türbə hazırkı dövrdə də mövcudluğunu qoruyur. Dairəvi formada olan türbənin 1,5 m (təxmini) genişliyində giriş qapısı və hündür şiş papaq formasında dam örtüyü var. Dam örtüyünün bir neçə yerində (4–5 yerində) örtüyün parçası düşüb, yeri açıq vəziyyətdədir. Camışlı kəndində dağıdılan köhnə qəbiristanlıq adlanan ərazidəki təpədə türbə indi də qalıb. Ezidi kürdlərin abidəsi kimi təqdim olunur.

İrəvan quberniyası Yeni Bəyazid qəzasının Basarkeçər rayonunun Qaraiman kəndində türbə-I (XX əsrə aid): Müsəlman türbəsi Qaraiman kəndi ərazisindəki qədim qəbiristanlıqdakı yüksəklikdə yerləşir. Özünəməxsus memarlıq üslubunda inşa edilən müsəlman türbəsi XX yüzilliyə aiddir. Türbə dəyirmi formada xüsusi kəsilmiş böyük daşlarla tikilib. Türbənin diametri 7,5–8 metr, hündürlüyü 2,5–3 metr, türbə damının hündürlüyü isə 2–2,5 metr civarındadır. Türbənin Qaragözlülər tayfasının tanınmış din xadimləri üçün tayfa nümayəndələri tərəfindən inşa edildiyi ehtimal olunur. Türbə bölgənin məşhur Subatan daşından tikilib. Qaraiman kəndindəki müsəlman türbəsinin arxa dam hissəsi qismən dağılıb. Hazırkı dövrdə yarıdağınıq vəziyyətdədir.

Mədrəsələr, dini məkjtəblər

İrəvanın Təpəbaşı məhəlləsində mədrəsə (XVII əsr): Mədrəsə İrəvan şəhərinin Təpəbaşı məhəlləsində yerləşirdi. Məhəllə yüksək təpəlik ərazidə yerləşdiyi üçün "Təpəbaşı" adlandırılıb. Təpəbaşı məhəlləsi 1930-cu ildə çar Rusiyası tərəfindən İrəvan xanlığının ləğvindən sonra şəhərdə xanlıq dövrünün mədəni mirasını yaşadan məhəllələrdən biri idi. Böyük elm məbədlərindən olan mədrəsə məhəllənin o dövrdə görkəmli tikililərindən hesab olunurdu. 1828-ci ildə 2537 nəfər azərbaycanlının yaşadığı məhəllədəki mədrəsədə dini təhsillə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. Mədrəsənin qabaq hissəsi Şərq memarlıq üslubunda qırmızı kərpiclə inşa edilib. Qərbi azərbaycanlıların 1987–1991-ci illərdəki sonuncu deportasiyasından sonra ətrafdakı qədimi evlər sökülüb və yerində hündür binalar inşa olunub. Sökülməyən və tağların arası ermənilər tərəfindən hörülən mədrəsə bir müddət bir neçə ailənin yaşadığı yaşayış yerinə çevrilib. Hazırkı dövrdə mədrəsənin bir qismi ermənilər tərəfindən dağıdılıb.

Göyçə mahalının Basarkeçər rayonunda müsəlman din məktəbi (XX əsrə aid): XX yüzilliyin əvvəllərində Basarkeçər rayonunda mollaxana adlanan dini məktəb fəaliyyət göstərirdiDini məktəb olan molla məktəbində ərəb əlifbası İslam dini və "Qurani-Kərim"i oxumaq öyrədilirdi. İslam dinini öyrədən molla məktəbi ikimərtəbəli idi. Aşağı mərtəbənin qabaq tərəfində dəmir barmaqlıqlı pəncərə və sağ tərəfində qapı qoyulmuşdu. İkinci mərtəbənin sağ tərəfindən ikinci mərtəbəyə çıxmaq üçün məhəccəri taxta olan daş pilləkən hö-

rülmüşdü. Pilləkən evin açıq eyvanına çıxırdı. Ərəb əlifbası İslam dini və onun müqəddəs kitabı "Qurani-Kərim"in öyrədilməsi insanların dini biliklərə yiyələnməsi, mənəvi dünyasının zənginləşməsi baxımından əhəmiyyətli idi. İslam dinini öyrədən məktəb 1987–1991-ci illərdə baş verən azərbaycanlıların deportasiyasından sonra ermənilər tərəfindən dağıdılıb.

Qalalar

İrəvan quberniyası Yeni Bəyazid qəzasının Kəvər rayonundakı Ağqala kəndindəki Ağqala qalası (3000–3500 il əvvələ aid): Ağqala kəndindəki qala albanlar tərəfindən inşa edilmişdir. Yüksək təpəlik ərazidə yerləşən qalanın tikintisində daha çox böyük ağ daşlardan istifadə olunub. Qala divarları eni 1 metr civarında və möhkəm olduğu üçün bu günə qədər gəlib çata bilib. Kəndin adı da ərazidəki albanlara məxsus ağ rəngli qaladan götürülmüşdür. Rayon mərkəzindən 12 km şimal-şərqdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Ağqala qalasının indiki dövrdə yerləşdiyi ərazidə divar hündürlüyü bəzi yerdə 3–3,5 metr, bəzi yerlərdə 1–2 metr olan xarabalığı qalıb. Ermənilər tərəfindən mənimsənilib, "erməni qalası" kimi təqdim olunur.

Şörəyel mahalının Amasiya rayonunun Gülsehran (Çivinli) kəndi yaxınlığındakı Qalaça dağındakı Qalaça qalası (IX–X əsrlərə aid): Amasiya rayonunun Gülsehran (Çivinli) kəndindəki Qalaça dağının zirvəsində yerləşir. Qala orta əsrin müdafiə istehkamı olub. Qalanın divarları dağılsa da, onun qalıqları, divardakı nəhəng daşlar, qalanın içərisindəki xarabalıqlar orta əsrlərdə onun alınmaz bir qala olduğunu göstərir. Nəhəng daşlarla tikilən qala xalqı düşmən hücumlarından qoruyan müdafiə istehkam xarakterli olub, Qərbi Azərbaycandakı tarixi mirasının Gülsehran (Çivinli) kəndində yerləşən qədim nümunələridir. Ermənistan dövləti tərəfindən azərbaycanlılara məxsus abidə olduğu üçün restavrasiya olunmayıb. Qala uçub dağılsa da, xarabalığı indi də qalıb.

İrəvan quberniyasının Üçkilsə rayonunun Qəmərli kəndində qala (E.ə. VIII – VII əsrlərə aid): Qalanın inşasında böyük qaya daşlarından istifadə edilib. Qəhvəyi, narıncı və sarı daşlar qalanın vizual görünüşünə xüsusi gözəllik qatıb. Qalanın qalan 1 və 1,5 metr yüksəkliyindəki xaraba divarları belə ətrafı yaşıl ot və güllü çiçəkli ərazidə möhtəşəm və əzəmətli görünür. Qalanın Kimmerlər dövründə tikildiyi ehtimal olunur. Qəmərli kəndi rayon mərkəzindən 8 km cənubda, Böyük Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. 1918-ci ildə kənd ermənilərin hücumuna məruz qalaraq sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmiş və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. Hazırda tikili yoxdur. Ermənistanın yerli hakimiyyətinin qərarı ilə tamamilə dağıdılıb.

Pir, ocaq və ziyarətgahlar

Zəngibasar mahalının Uluxanlı rayonunun Qulucan kəndinin yaxınlığındakı Ağadədə qəbiristanlığında ocaq-günbəz (XIX–XX əsrlərə aid): **Qarasu çayının kənarında Ağadədə qəbiristanlığındakı ocaq-günbəz XIX əsrin sonu XX əsrin əvvəllərində qırmızı tuf daşdan tikilib. Oval formalı memarlıq quruluşu olan günbəzin hündür tavanı və ətrafı qırmızı kirəmitlərlə örtülüb. Böyük qapılı günbəz 1987–1991-ci illərdə baş verən azərbaycanlıların kütləvi deportasiyasından sonra ermənilər tərəfindən yandırılıb. Günbəzin 07.08.2013-cü ildə çəkilən videogörüntüsündə üst hissəsinin daha çox zərər gördüyü və sağ yan tərəfin bir hissəsinin uçub, dağılmış vəziyyətdə olduğu görünür.**

Britaniyalı səyyah-fotoqraf Qurdip Mattu Zəngibasar mahalının Uluxanlı qəsəbəsinin ərazisindəki Ağadədə ziyarətgah-məzarlığında olub. Fotoqrafın 2021-ci ildə çəkdiyi fotolardan məzarlığın, demək olar ki, tamamilə dağıdıldığı müşahidə olunsa da, günbəzin görüntüsü fotolarda yer almayıb. Bu isə tamamən uçub dağıldığı yönündə fikir bildirməyə əsas verir.

Şörəyel mahalının Ağbaba nahiyəsinin, sonradan Amasiya rayonunun İbiş (Ayçınqılı) kəndi yaxınlığında Bəzirgan piri: Azərbaycan əhalisinin sakral irfan ocaqlarından olan Bəzirgan piri kənd və bölgə əhalisinin ən çox ziyarət etdiyi ocaqlardan idi. El adətinə görə Karvan yolunun Qımı təpəsinin yanından keçib Bəzirgan ziyarətinə çatanda dərhal karvanın sarbanı karvanı dayandırar, adamlar dəvələrin, atların, qatırların yüklərini alar, heyvanları suvarar, onların da dincəlməyinə imkan yaradardılar. Bu vaxt atların kişnərtisi, qatırların səsi, adamların hay-küyü bir-birinə qarışardı. El arasında Bəzirgan ziyarəti sınaqlı ziyarət sayılırdı. Onun yaxınlığında bir-birindən xeyli aralı Dəvə və Tağı bulaqları çağlayırdı. Ziyarətdə hərə bir niyyət eləyib gətirdiyi qurbanı kəsər, oraya nəzir qoyar, yoldan gəlib-keçəni də qurban ətinə qonaq edərdilər. Adətə görə, burda gecə yatar, səhər açılan kimi yollarına davam edərdilər. Görülən yuxu niyyətin çin olub-olmadığını müəyyənləşdirirdi. Azərbaycanlıların 1989-cu ilin yanvar ayında tarixi-etnik torpaqlarından deportasiyasından sonra Bəzirgan pirini ziyarət etmək mümkün olmayıb

Körpülər

Zəngəzur mahalının Qafan rayonunun Şıxovuz kəndində körpü (XIV əsrə aid): Şıxovuz çayı üzərində yerləşən Şıxovuz körpüsü Azərbaycan və Şərq memarlıq üslubunda tikilib. Təktağlı daş körpü memarlıq baxımından Azərbaycandakı körpülərlə də eynilik təşkil edir. Böyük yonulmuş çay daşından inşa edilən körpünün alt dəyirmi hissəsi mişar daşları ilə oval-dairəvi qaydada hörülmüşdür. Körpünün hündürlüyü 3,5–4 metr, uzunluğu 12–15 metr, eni isə 3–3,5 metr civarındadır. Üst hissəsi dam örtüyü formasındadır. Körpünün sağ tərəf kənarında qədim çinar ağacı ucalır və budaqları körpüyə kölgə salır.

Şıxovuz qoruğunda yerləşən Şıxovuz körpüsü ermənilər tərəfindən istifadə olunur və "erməni abidəsi" kimi təqdim edilir.

ƏDƏBİYYAT

1. Şərif Əziz. Keçmiş günlərdən. – Bakı: "Yazıçı", – 1983. – s.44-47.
2. Qiyasi C., Bozyel İ. Erməni kültür terrörü. – Ankara: – 1996. – s.8-9.
3. https://www.facebook.com/IrevandaTurkler/photos/s%C9%99rdar-xan-m%C9%99scidi-t%C9%99xmin%C9%99n-1950-ci-ill%C9%99rrayr%C4%B1-ayr%C4%B1-d%C3%B6vrl%C9%99rd%C9%99-s%C9%99yyahlar%C4%B1n-%C9%99s%C9%99rl%C9%99/3129585713784204/
4. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), – Bakı: Elm, – 1996. – s.162.
5. Пагиревь Д.Д. Алфавитный указатель кь пятиверстной картѣ Кавказскаго края, изданія Кавказскаго Военно-Топографическаго Отдѣла. Записки Кавказскаго отдѣла Императорскаго Русскаго Географическаго общества. Книжка XXX. Тифлись: Типографія К. П. Козловскаго, – 1913. – s.54.

6. https://www.facebook.com/sabit.oguz.9 (Mənbə: Sabit Djodjulu)
7. https://www.facebook.com/IrevandaTurkler/photos/a.103700753039397/756358961106903
8. Коркотян З. Население Советской Армении за последние сто лет (1831–1931). Ереван: Издательство «Мелконян фонд», – 1932. – с. 153.

BÖYÜK QAYIDIŞ MİSSİYASI: UNUTDURULMUŞ HƏQİQƏTLƏRDƏN REALLIĞA

Zülfiyyə İSMAYIL
AMEA Naxçıvan Bölməsi

Səndə mənim bağça bağım qalıbdır,
Keçmişim, tarixim, tacım qalıbdır,
Cənnət kimi bir məkanım qalıbdır,
Mütləq gələcəyəm bil, Dərələyəz!
Çox ötüb keçsə də il, Dərələyəz!
(Həsən Mirzə)

2022-ci il dekabr ayının 24-də dövlət başçımız İlham Əliyevin Qərbi Azərbaycan İcması ilə görüşündən sonra Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsi istiqamətində xeyli canlanma başlandı. Məlumdur ki, Qərbi Azərbaycan məsələsi milli siyasətimizin ən mühüm hədəfini təşkil edir. Yeni dövrün reallıqları bu ümummilli mənafedə ölkəmizin qarşıya qoyduğu yeni məqsədlərin həyata keçməsində hər bir azərbaycanlının öhdəsinə yeni-yeni vəzifələr qoyur. Havadarlarının dəstəyi ilə əzəli yurd yerlərimizdə - Azərbaycanın qərb torpaqlarında Ermənistan adlı qondarma dövlətin yaradılması ilə nəticələnib.

Açar sözlər: *Qərbi Azərbaycan, qayıdış konsepsiyası, ermənilər.*

2022-ci il dekabr ayının 24-də dövlət başçımız İlham Əliyevin Qərbi Azərbaycan İcması ilə görüşündən sonra Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsi istiqamətində xeyli canlanma başlandı. Məlumdur ki, Qərbi Azərbaycan məsələsi milli siyasətimizin ən mühüm hədəfini təşkil edir. Yeni dövrün reallıqları bu ümummilli mənafedə ölkəmizin qarşıya qoyduğu məqsədlərin həyata keçməsində hər bir azərbaycanlının öhdəsinə yeni-yeni vəzifələr qoyur. Havadarlarının dəstəyi ilə əzəli yurd yerlərimizdə – Azərbaycanın qərb torpaqlarında Ermənistan adlı qondarma dövlətin yaradılması ilə nəticələnib. Özlərinə dövlət quran və "Özümə yer edim, gör sənə nə edim!.." el deyimini həyat kredosuna çevirən mənfur qonşularımız "Yersiz gəldi, yerli qaç!" xislətindən tarixboyu əl çəkmədilər. "Azərbaycan xalqının, o cümlədən qədim türk-oğuz yurdu olan Ermənistanda yaşayan azərbaycanlıların həyatında baş verən dəhşətli günlərin, işgənclərin, deportasiyaların və s. tarixi kökləri çox qədimlərə gedib çıxır" [6, s.24]. Bu səbəbdən də ötən yüzillikdə dəfələrlə məruz qaldığımız etnik təmizləmə və deportasiya siyasətini ifşa etmək, bu siyasətlə bağlı tarixi faktları üzə çıxarmaq, Qərbi Azərbaycanda ermənilər tərəfindən dağıdılmış milli-mədəni sərvətlərimizə qarşı aparılan soyqırımı, bütövlükdə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə bəyan etmək, Zəngəzur, Göyçə və İrəvan mahallarında ermənilər tərəfindən məqsədyönlü şəkildə dağıdılmış tarixi-mədəni abidələrimizin bərpasını tələb etmək, adları dəyişdirilmiş yurd yerlərimizə verilən üzdəniraq adların əvəzinə qədimi, öz adlarının verilməsini təmin etmək, qərbi azərbaycanlıların dədə-baba ocaqlarına qayıtmasına el birliyi ilə dəstək olmaq, ermənilərin məkrli siyasətinin qarşısını almaq və s. bütünlükdə azərbaycanlıların vətəndaşlıq borcudur.

Vaxtilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev mənfur düşmənlərə və onların havadarlarına qətiyyətlə səslənmişdi: "Biz o torpaqlara mütləq qayıdacağıq!" Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və dürüst siyasəti sayəsində 2020-ci ilin noyabrında 44 günlük Vətən müharibəsində və 2023-cü ildə birgünlük müharibədə mənfur düşmən üzərində qətiyyətli qələbə qazandıqdan sonra azad olunmuş ərazilərə Böyük Qayıdış missiyası başlatmışdır. Müzəffər Azərbaycan Ordusu 2020-ci ildə Şuşanı, 2023-cü ildə isə Xankəndini mənfur düşmənlərdən təmizləmək missiyasını uğurla tamamladıqdan sonra artıq azərbaycanlılar böyük qürur və sevinc hisslərilə öz yurd-yuvalarına qayıdır, düşmənlərin yandırıb-yaxdıqları, darmadağın etdikləri doğma el-obalarında qurub-yaratmaqla məşğuldurlar. Əlbəttə, bu missiyanın növbəti istiqaməti də Azərbaycanın əzəli torpaqları olan Qərbi Azərbaycana doğrudur. Müzəffər Ali Baş Komandanımızın tarixi ədaləti bərpa etmək uğrunda mücadiləsi azərbaycanlıların vaxtilə mənfur düşmənlər tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış yerlərə qayıdışa nail olmasına imkan yaratmışdır. Fəaliyyətə başlamış Qərbi Azərbaycan İcması da bu sahədə müvəffəqiyyətlə çalışmaqdadır. Qərbi Azərbaycana qayıdış missiyasının aktuallıq qazanması ilə vətəndaşlarımızın da qarşısında yeni fəaliyyət istiqamətləri və vəzifələri müəyyənləşmiş, bu vəzifələr elm sahəsinə də daşınaraq Qərbi Azərbaycan məsələsi elmi tədqiqatların baş mövzusuna çevrilmişdir. Hazırda bu sahədə ciddi nailiyyətlər, aktuallığı ilə seçilən maraqlı əsərlər ortaya çıxmaqdadır. AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərovanın ərsəyə gətirdiyi "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" [3] adlı birinci kitabı da bu sahədəki əhəmiyyətli əsərlərdən biridir. Qeyd edək ki, kitab Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına xidmət baxımından Naxçıvan Muxtar Respublikasında ilk nəşrlərdəndir.

Əsərin ilk səhifələrindən Ümummilli Lider Heydər Əliyevin müdrik fikirlərindən gətirilən örnək Qərbi Azərbaycana qayıdış ümidlərini ümumiləşdirmişdir: "Əgər tarixi faktları araşdırmalı olsaq, onu da xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdə Ermənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır" [3, s. 4]. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrlərdə tarixi torpaqlarımızla bağlı apardığı uğurlu siyasətin layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevdən gətirilən fikirlər də bu məntiqi tamamlayaraq Azərbaycan xalqının ümummilli düşüncəsinin təsbiti kimi çıxış etmişdir: "Qərbi Azərbaycan bizim torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir... Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir..." [3, s. 6] – fikrini əsas tutaraq, Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasından irəli gələn vəzifələrin təbliğinə xidmət edən kitabın ön sözündə əsərin məzmunu və əhəmiyyəti haqqında bəhs edən Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli yazır: "Folklorşünas, dosent Aytən Cəfərovanın hazırlamış olduğu "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər,

xatirələr, faktlar" kitabı da ilk növbədə bugünkü gün üçün öz aktuallığına görə təqdirəlayiqdir. ... A.Cəfərova Qərbi Azərbaycandan qaçqın düşən, Naxçıvan Muxtar Respublikasının müxtəlif guşələrində məskunlaşmış qərbi azərbaycanlılarımızla görüşlərindən əldə etdiyi nəticə-təəssüratları ümumiləşdirərək təqdim edir. ... Mən bu kitabı, eyni zamanda, Qərbi Azərbaycana qayıdış uğrunda ümumxalq mübarizəsinin tərkib hissəsi hesab edirəm" [3, s. 10-11].

Məhsuldar tədqiqatçı – alim Aytən Cəfərovanın adıgedən əsəri Qərbi Azərbaycan mövzusuna həsr edilmiş qiymətli əsərlərdəndir. Əsəri məzmununa görə üç bölmədə qruplaşdırmaq olar: birinci bölmədə müəllif Qərbi Azərbaycan eli, xüsusilə Zəngəzur haqqında ümumnəzəri baxışları əks etdirmişdir. Folklorşünas-alim Zəngəzur folklorunun ideya və məzmun keyfiyyətləri üzərində Azərbaycan xalqının milli-etnik düşüncə və dəyərlərini, Vətən, el, oba məhəbbəti və bağlılıq duyğularını, onların taleyi və yaşantılarını nəzəri təhlillər fonunda təqdim etmişdir. "Zəngəzur bayatılarında milli-etnik tarixi yaddaş", "Baharlıdan başlayan söz yaddaşı", "Dərələyəz adlı ünvanım vətəndir...", "Atamın gorgahı, babamın yurdu, əlimin əməyi bəs kimə qaldı?!", "Baxmaqdan savayı gözə nə qaldi...", "Vətən nisgilli xatirələr", "Sazım, sözüm vətəndədir" kimi mövzu başlıqlarının hər birində Azərbaycan xalqının ata-baba torpaqlarında yaşadıqları və yaratdıqları mənəvi sərvət, dəyər və düşüncələr gen-geniş təhlil edilmişdir. Müəllif haqlı olaraq zəngin, tükənməz mənəvi xəzinəmizin hər cəhətdən oğru olan mənfur ermənilər tərəfindən necə mənimsənildiyinə dair nümunələr də təqdim etmişdir. O, konkret faktlar əsasında ermənilər tərəfindən sözbəsöz tərcümə edilərək mənimsənilən mənəvi sərvətimizdən bəhs etmişdir. Maraqlıdır ki, azərbaycanlılara xas ruhi-mənəvi əhəmiyyət kəsb edən ifadələri tərcümə edə bilməyən ermənilər oğru sırtıqlığı ilə olduğu kimi saxlayaraq istifadə etmişlər. Buna görə də müəllif vətənpərvər ziyalı mövqeyindən çıxış edərək və bu cür nümunələri təqdim edərək yazır: "Qeyd edək ki, "Can, gülüm", "Gülüm, hey" rədifli nəğmələr Azərbaycan türklərinin məişət və mövsüm mərasimi nəğmələrinə məxsusdur. Ermənilərin dəyişərək özününküləşdirmək istədikləri, lakin pərakəndə bir mətn yaratdıqları bu nümunədəki sözlərdən hansıların Azərbaycan dilinin lüğət tərkibinə aid olduğu aydındır: can, yar, şamama, Araz... Ermənilər tarixən torpaqlarımıza göz dikdikləri kimi, mədəniyyətimizə, dəyərlərimizə, dilimizə də göz dikiblər" [3, s. 41].

Müəllif, həmçinin Qərbi Azərbaycan İcmasının Ordubad rayon üzrə nümayəndəsi, həm də AMEA Naxçıvan Bölməsinin əməkdaşı kimi doğma el-obalarından zorla didərgin salınıb Naxçıvan Muxtar Respublikasının müxtəlif ərazilərində məskunlaşmış Qərbi Azərbaycandan olan əhali ilə görüşlərində onlardan topladıqları acılı-şirinli xatirələri, söz-söhbətləri, yaradıcılıq nümunələrini kitaba daxil etmişdir. Çünki Qərbi Azərbaycanla bağlı tarixçilərin, tədqiqatçı alimlərin araşdırmaları ilə yanaşı, deportasiyaya məruz qalmış şəxslərin həyat hekayəsini işıqlandırılması da əsərin məzmununu zənginləşdirməklə bərabər, inandırıcılıq gücünü artırır və nüfuzetmə dairəsini genişləndirir. Yaşayan canlı şahidlərlə hər bir görüşdə onların tarixi həqiqətləri kitabların, sənədlərin dili ilə deyil, öz gözyaşlarını mürəkkəbə, kirpiklərini qələmə çevirib üzlərindəki qırışlara yazdıqları o mənəvi "yazıları" oxumaq o qədər də çətin deyil... Unudulmayan həqiqətlər ədalətsiz dünyanın "mərhəmət" məngənəsində o qədər boğuldu ki, artıq qərbi azərbaycanlıların

səbri tükənmiş, yurd həsrəti, vətən sevgisi öz məcrasından çıxıb dünyaya hayqırırdı: "Biz də burdayıq"... Dünya da, erməni cəmiyyəti də bu reallığı görsün və qəbul etsin!

Qərbi Azərbaycandan olan informatorlardan toplanılmış materiallar əsasında hazırlanmış kitabın bu bölməsində müəllif Kəngərli rayonunun Çalxanqala kəndində məskunlaşmış Kamil Həsənovun ailəsinin düşmənlərin onlara çəkdirdikləri əziyyətdən, zillətdən bəhs etmiş, Kamil Teymuroğlunun sazlı-sözlü qələmindən tökülmüş yurd nisgilli nəğmələri [1], Vətən həsrəti qoxan şeirlərini sərgiləmişdir. Azərbaycanlıların milli sərvət və müxtəlif yaradıcılıq nümunələri, xalça və digər örnəkləri də əsərdə öz təsvirini tapmış, didərgin salınmış əhalinin yaşadıqları və yaşatdıqları dəyərlər haqqında bəhs edilmişdir.

Əsərin ikinci və üçüncü bölmələri toplanmış xalq yaradıcılığı nümunələrinə həsr edilmişdir. "Şifahi yaradıcılıqda tarixi yaddaş" başlıqlı bölmədə xalqın vətən torpağı haqqında məhəbbət, həsrət və nisgil duyğularını ifadə edən çoxjanrlı nümunələri təqdim edilmişdir. Bu bölmədə Qərbi Azərbaycan elinə aid "İnanclar, sınamalar, qarğışlar", "Ocaqlar və pirlərlə bağlı andlar", "Mərasimlər, adət-ənənələr", "Bayatılar" başlıqları altında nümunələr toplanmışdır. "Sazlı-sözlü Gomurdan seçilənlər" başlıqlı üçüncü bölmədə isə Qərbi Azərbaycandan olan didərgin el şairlərinin yaradıcılıq nümunələri kitaba daxil edilmişdir. Aşıq Kamil Teymuroğlunun, Şahlar Mərdanoğlunun və Bəylər Məmmədovun əsərlərindən daxil edilmiş seçmələr Vətənə, elə məhəbbət duyğuları ilə köklənmişdir.

Beləliklə, dosent Aytən Cəfərovanın böyük zəhmətkeşliklə ərsəyə gətirdiyi "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" kitabı "Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının" icrasına elm adamlarının da ictimai dəstəyinin nümunəsinə çevrilən bu əsər tarixi həqiqətlərin öyrənilməsi və təbliği istiqamətində müəyyənləşdirilmiş hədəflərə doğru atılan addım kimi təqdirəlayiqdir. Həmçinin son dövrlərin hadisələri fonunda elmimizdə və elimizdə məqsədyönlü şəkildə, nəticəyə hesablanmış əsərlərdən biri kimi də qiymətə sahibdir. Qərbi Azərbaycan elimizin mənəvi sərvəti və dəyərlərini yaşadan bir əsər olaraq bu kitab həm mütəxəssislər üçün, həm də kütləvi oxucular üçün nəşr edilmiş dəyərli bir əsərdir. Bayatılardan birində deyilən kimi:

Bu gün o gün olaydı,
Zülfüm düyün olaydı.
O kəndimizin yaxşısı,
atam, anam, el, gün –
hamısı bir yerdə olaydı,
O keçən günün biri bu gün olaydı [3, s. 127].

Böyük Qayıdış missiyası ilə Qərbi Azərbaycanımıza da dönməyə, qəribsəmiş elimizi, yurdumuzu qəriblikdən qurtarıb qurub-yaratmağa başlayacağıq. Biz mütləq qayıdacağıq!

Kəndin hoydu-hoyu üçün,
Dağlarının boyu üçün,
Çaylarının suyu üçün,
Susamışam, Dərələyəz,
Mən gəlmişəm, Dərələyəz! (Mahirə Nağıqızı)

ƏDƏBİYYAT

1. Aşıq Kamil Teymuroğlu. Vətənə baxıram həsrət gözüylə. – Bakı: Poliqraf AF, – 2015, – 128 s.
2. Bayramov, İ.M. Qərbi Azərbaycan şivələrinni leksikası. – Bakı: Elm və təhsil, – 2011, – 440 s.
3. Cəfərova, A.C. Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar. – Naxçıvan: Əcəmi, – 2023, – 176 s.
4. Ələkbərli, Ə.Y. Qədim türk-oğuz yurdu "Ermənistan". – Bakı: Sabah, – 1994, – 218 s.
5. Hüseynova, M.N. Aşıq və el şairlərinin poetikası (Dərələyəz mahalı üzrə). – Bakı: ADPU-nun nəşri, – 2017, – 171 s.
6. Mirzəyev, H.İ. Qərbi Azərbaycanın Dərələyəz mahalı. – Bakı: Elm, – 2004, – 855 s.

SUMMARY

Zulfiyya Ismayil

THE GREAT RETURN MISSION: FROM FORGOTTEN TRUTHS TO REALITY

On December 24, 2022, after the meeting of our head of state, Ilham Aliyev, with the West Azerbaijan Community, a significant revival began in the direction of the implementation of the Concept of Return to West Azerbaijan. It is known that the issue of Western Azerbaijan is the most important goal of our national policy. The realities of the new era impose new tasks on every Azerbaijani in the realization of the new goals set by our country in the national interest. With the support of the fans, it resulted in the establishment of a so-called state called Armenia in our ancestral homeland - in the western lands of Azerbaijan.

Key words: West Azerbaijan, concept of return, armenians.

QƏRBİ AZƏRBAYCANDA XALÇAÇILIĞIN İNKİŞAFI

İnci ADİLZADƏ
inci.azade95@gmail.com
Naxçıvan Dövlət Universiteti

Xalçaçılıq sənəti gözəl, maraqlı bir incəsənət, toxuculuq sahəsidir. Qərbi Azərbaycan xalçaları çox qədim bir tarixə malikdir. Bu xalçalar öz bənzərsizliyi, rəngarəng naxışları ilə gözləri, könülləri oxşayıb. Qərbi Azərbaycanda toxuculuq, o cümlədən xalça, palaz məmulatı istehsalı xüsusilə seçilirdi.

Qərbi Azərbaycanın Şəmşəddin, Loru, Pəmbək, Aparan, Talın, Əştərək, Ərzin, Axtı, Qırmızı kənd, Basarkeçər, Kəvər, Sərdarabad, Üçkilsə, Dərələyəz, Vedi, Qəmərli, Zəngibasar, Soylan, İrəvan xalçaları bir vaxtlar bütün Qafqaza ün salıb, dünyaya yayılmışdır. Uzun əsrlər bu bölgələrimizdə müxtəlif növlərdə və müxtəlif çeşnili xalçalar toxunmuşdur. Qərbi azərbaycanlılar öz yurdlarından didərgin düşənə qədər burada xalçaçılıqla məşğul olmuşlar. Hər evdə xana qurulardı və qızlar, gəlinlər uzun qış gecələrində xalça toxuyardılar.

Açar sözlər: *xalça, toxuculuq, ornament, Qərbi Azərbaycan*

Giriş

Qərbi Azərbaycan ərazisində toxunan xalçaları sənətkarlıq imkanlarına, toxunma texnologiyasına, rəng-naxış kompozisiya həllinə görə, şərti olaraq mahallar üzrə aşağıdakı qruplara ayrılıb:

I qrup: Ağbaba, Şörəyel mahalları
II qrup: Loru, Pəmbək mahalları
III qrup: Şəmşəddin mahalı
IV qrup: Göyçə mahalı
V qrup: Gərnibasar, Vedibasar mahalları
VI qrup: Zəngibasar, Sərdarabad mahalları
VII qrup: Qırxbulaq, Əştərək mahalları
VIII qrup: Aparan, Dərəçiçək, Talın mahalları
IX qrup: Zəngəzur mahalı
X qrup: Dərələyəz mahalı
XI qrup: İrəvan şəhəri

Qərbi Azərbaycanın zəngin təbiəti olmuşdur. Təbiətin zənginliyi bu bölgənin xalçalarına xüsusi çalarlar vermiş, onun rəng kompozisiyasına çoxçeşidli boyalar bəxş etmişdir. Bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətlərdən biri onların rəngarəng çalarlarıdır. Xalçaların naxışlarında yerli əhalinin təsəvvürü, inancları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapmışdır. Mifoloji quşlar, heyvanlar bu bölgənin xalçaları üçün spesifik idi.

İrəvan xanlığında fərdi sənətkarlıqda xalçaçılıq əsas yerlərdən birini tuturdu. Xalçaçılar həm özləri üçün, həm də satış üçün xalça-palaz hazırlayırdılar.İrəvan qrupu xalçalarının texniki və bədii təhlili tarixən bu bölgədə yaşayan azərbaycanlıların adət-

ənənələrinin, məişətinin, mədəniyyətinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. İrəvan qrupu xalçalarındakı ornamentlər müxtəlif qruplara ayrılır:

1. Həndəsi ornament. Bu tip ornamentlər çox sadə formaya malik olur. Lakin buna baxmayaraq öz estetik dəyərini hələ də saxlayır. Həndəsi elementlərin bir-birini dəqiq və verilmiş qaydada əvəz etməsi bu ornamentlərin əsasını təşkil edir. Bu cür ornamentlər əsasən digər ornament tipləri ilə birlikdə istifadə olunur. Ornamentlərdə istifadə olunan bir çox həndəsi formalar təbiətdən götürülmüş elementlərdir.
2. Nəbati ornament. Nəbati ornamenti həndəsi ornamentdən sonra ən geniş istifadə olunan ornament tipidir. Nəbati ornament element baxımından çox zəngin olması ilə yanaşı, müxtəlif variantlı kompleks motivlərə malikdir.
3. Kalliqrafik ornament. Kalliqrafik ornament naxışın ən vacib tiplərindən biri olub, əsasən Qurani Kərimdən ayələr və yaxud da hədislərdən sitatlar əsərə həkk edilən zaman istifadə olunur. Bu naxışlar həmçinin ayrı-ayrı hərflər, bütöv cümlələr, atalar sözləri formasında olur.
4. Fantastik ornament. Ornamentin əsas elementlərini mifik, fantastik varlıqlar təşkil edir. Məsələn təkbuynuz, uçan atlar, əjdahalar, müxtəlif fantastik quşlar, şirlər və s.
5. Heyvan motivli ornament. Nəbati ornamentində bitki təsviri olduğu kimi, heyvan motivli ornamentdə də təbiətdə olan heyvan və quşların sadə təsvirlərinə rast gəlmək olar. Heyvan motivli ornamentlə nəbati ornamentinin bir yerdə işlənməsindən zəngin effektə malik kompozisiyalar yaranır.
6. Peyzaj ornamenti. Bu ornamentin əsas obyekti müxtəlif təbiət təsvirli motivlərdir: dağlar, ağaclar, qayalar, şəlalələr və s.

İrəvan xalçaları xovlu (xalça, xalı, gəbə) və xovsuz (palaz, kilim, cecim, sumağı, zili) olmaqla naxışlarının incəliyi, rəng çalarları, ilmələrinin sıxlığı ilə seçilirdi. Xalçaların üzərindəki damğalar və müxtəlif atributlar, çox zaman onun toxunma ili və toxuyanın adı öz əksini tapırdı. İrəvan xalçalarının özləri də ornamentli süjetli xalçalar olaraq iki qrupa bölünürdü. Xüsusi kolorit zənginliyi və naxış rəngarəngliyi ornamentli xalçalara xas idi və onlar daha çox toxunurdu. Bütün qeyd olunanlar bir daha göstərir ki, İrəvan şəhəri Azərbaycanın sənətkarlıq və incəsənət mərkəzlərindən biri kimi də Azərbaycan tarixində mühüm yerlərdən birini tutur [Mustafa 2020, s. 254].

İrəvan xalçalarının ibtidai dövrünə aid olan və keçirtmə üsulu ilə toxunan palaz zolaqlarının 3 inkişaf forması vardır:

1) Sadə zolaqlar;
2) Sulu zolaqlar
3) Naxışlı zolaqlar [Muradov 2015, s.44]

Palazların üzərində "damğa" və "qoşa damğa" adlanan motivlər çoxluq təşkil edir. Digər bir xovsuz xalça nümunəsi kilimdir. Bu xalçaların üzərində İrəvan kilimləri üçün səciyyəvi olan "kilimgülü" adlanan elementlər təsvir edilir. Bu elementlər "qarmaqlı" elementlər adlanır. Bu elementlər əsasən sarı, mavi, zoğalı, yaşıl rəngli olurlar.

İrəvan xalçaları arasında xovlu xalçalar daha çoxdur. Bu xalçaların hər biri əvəzsiz sənətkarlıq nümunəsidir. Bu xalçaların naxış-kompozisiya seçimində dini təsəvvürlər,

inanclar öz əksini tapır. Göl xalçaçılıq sahəsində geniş yayılan naxış elementlərindəndir. Kiçik ölçülü gölə (medalyona) "gölçə" adı verilmişdir.

Bu xalçalarda əsasən 5-7 rəngdən istifadə edilirdi. Xalçalarda istifadə olunan rəngləri toxucular özləri hazırlayırdılar. Buna görə də burada boyaqçılığın inkişafına da diqqət yetirilirdi. Müxtəlif ev əşyalarının, xalça iplərinin boyanmasında təbii bitkilərdən istifadə olunurdu. Xalçalarda tünd qırmızı, narıncı, sarı rənglərə daha çox üstünlük verilirdi. Bu rənglər sürməyi göy, lalə və zoğalı qırmızı rənglər üstünlük təşkil edir. Rənglərin alınması üçün bataqlıqlardan qeyri-adi həşərat olan qırmızı böcək əldə edib, ondan tünd rənglər almaq olurdu. Yun ipliyi boyamaq üçün soğanın qabığından, üzüm tənəyinin qısa budaqlarından, narın qurudulmuş qabığı və təzə yetişən qozun yaşıl qabığından istifadə edirdilər. Bunların suyunu qaynatdıqdan sonra ipləri qazana atıb rəngləyir, sonra isə sərirdilər.



Bu naxış xüsusən Dərələyəz mahalına məxsusdur. Xalçanın əsas hissəsi ara sahədə yerləşmiş göldən ibarətdir. Gölün mərkəzində dördbucaqlı element yerləşmişdir. Bu elementin içərisində "çərxi fələk" motivi təsvir edilib. Dördbucağın ətrafındakı "S" şəkilli müxtəlif rəngli motivlər xalçanın məxsus olduğu bölgənin zəngin və rəngarəng təbiətini əks etdirir. Qərbi Azərbaycanda S" şəkilli bu 8 motiv xalçaçılar arasında bulud adlandırılırdı. Gölün içərisindəki boşluqlar müxtəlif nəbati, həndəsi və klassik elementlərlə toxunmuşdur. Bu xalçanı digərlərindən fərqləndirən əsas şey onun müxtəlif rəng çalarlarının və ornamentlərinin olmasıdır.

ƏDƏBİYYAT

1. Mustafa, N. İrəvan şəhəri", – Bakı: – 2020. – 292 s.
2. Muradov, V. – "Azərbaycanın İrəvan bölgəsi: tarixi və xalçaları", – Bakı: – 2015. – 224 s.

SUMMARY

Inci Adilzadeh

DEVELOPMENT OF CARPET WEAVING IN WESTERN AZERBAIJAN

Carpet weaving is a beautiful and interesting art and weaving field. West Azerbaijan carpets have a very ancient history. These carpets have charmed the eyes and hearts with their uniqueness and colorful patterns. In Western Azerbaijan, textile production, including carpets and palaz products, was particularly distinguished.

Shamsheddin, Loru, Pembak, Aparan, Talyn, Ashtarek, Erzin, Akhtyi, Qırmızıkêl, Basarkecher, Kavar, Sardarabad, Uchkilsa, Darelayaz, Vedi, Gamarli, Zangibasar, Soylan, Iravan carpets of Western Azerbaijan were once famous throughout the Caucasus and spread around the world. . For many centuries, carpets of different types and different flavors have been woven in these regions. Western Azerbaijanis were engaged in carpet weaving here until they were displaced from their homeland. a house was built in every house and girls and brides wove carpets during the long winter nights.

Key words: *carpet, weaving, ornament, West Azerbaijan*

III BÖLMƏ. QƏRBİ AZƏRBAYCAN DİL FAKTLARI VƏ TOPONOMİKASI

DƏRƏLƏYƏZİN KİMLİYİNİ TƏSDİQ EDƏN TOPONİMLƏR

Arif AĞALAROV
Naxçıvan Dövlət Universiteti

Məqalədə erməni vandallarının Qərbi Azərbaycan ərazisində kütləvi məskunlaşdırılması üçün aparılmış etnik təmizləmədən sonra qədim türk mənşəli toponimlərin dəyişdirilməsinə toxunulmuşdur. Qərbi Azərbaycanın İsveçi və folklorunun beşiyi sayılan Dərələyəz mahalının bəzi etnotoponimlərinin etimoloji, leksik-semantik cəhətdən mənbələrə istinad olunaraq izah olunması bu ərazilərin gerçək sahiblərinin kimliyini tam müəyyənləşdirir. Bu sahədəki araşdırmalar, tədqiqat və dissertasiya işləri Qərbi Azərbaycanın Dərələyəz mahalı ərazisindəki bütün toponimlərin hamısı türk mənşəli olmuş, yalnız ermənilər bura çar rusiyası tərəfindən köçürüldükdən sonra, xüsusən də keçmiş sovetlər birliyinin şovinist siyasəti nəticəsində buradakı Azərbaycan-türk məşəli adların böyük bir qisminin ermənileşdirməyə başlamışdılar.

Tarixi çox qədim olan Dərələyəz toponimlərinin araşdırılması dilimizin tarixi vəziyyətini üzə çıxarmaqla yanaşı, xalqımızın etnogenezi və milli təfəkkürünün aydınlaşması üçün imkanlar yaradır.

Qərbi Azərbaycan toponimlərinin araşdırılması və tarixi qaynaqlar sübut edir ki, Dərələyəz mahalının təkcə toponimləri deyil, bütün onomastik vahidləri əzəli yurd yerimizin sahibi olan türklərə aiddir.

Açar sözlər: *Qərbi Azərbaycan, Dərələyəz, toponim, onomastika, etnik təmizləmə*

Orta əsrlərdən mövcud olan Dərələyəz toponimi azərbaycanlıların məskunlaşdığı inzibati- ərazi bölgüsü kimi geniş bir ərazini əhatə etməklə XIX əsrdə Naxçıvan sancağının on dörd nahiyəsindən biri olmuşdur.

Göyçə, Qaraqoyunlu, Vedibasar, Sisiyan, İrəvan, Cəlaloğlu, Qarakilsə, Hamamlı, Qfan və başqa rayonlarımız kimi Dərələyəz mahalı da milli dəyərlərimiz və adət-ənənələrimizin beşiyi olmuşdur.

Dərələyəz toponimi Azərbaycan dilində iki dağ arasında çüxur ərazi mənasını daşıyır. İrəvan xanlığı zamanında (1827-1840) Dərələyəz Şərur mahalına aid olmuşdur. 1840-cı il inzibati ərazi bölgüsü zamanı vaxtı ilə Çar Rusiyasının Naxçıvan və İrəvanı işğal etdiyi zaman yaratdığı "Erməni vilayəti" ləğv edilmiş, İrəvan və Naxçıvan qəzaları təşkil olunmuşdur. 1870-ci ildə isə Şərur və Dərələyəz torpaqları əsasında yeni qəza, Şərur-Dərələyəz qəzası təşkil olunmuşdur.

1828-ci ildə İran və Rusiya arasında bağlanmış Türkmənçay müqaviləsindən sonra mənfur ermənilərin kütləvi şəkildə əzəli dədə-baba torpağımız olan Qərbi Azərbaycana, eləcə də Dərələyəz mahalına köçürülməsi başlanılmışdır. Əzəli yurd yerimiz olan Dərələyəz mahalı 2308 kv. km əraziyə malikdir. Bu, qədim oğuz yurdunun tarixi faklara əsaslanaraq daha çox basqınlara məruz qalan yurd yerlərimizdən olduğunu tarixi faktlar təsdiq edir.

Zaman-zaman Rusiya imperiyası dəstəyini əsirgəmədiyi ermənilərin vasitəsilə bu ərazilərdən əhalinin tədricən sıxışdırılıb çıxarılması, mərhələlərlə qovulması prosesini həyata keçirmişdir. Azərbaycanlı əhalinin dədə- baba torpaqlarından qovulması 1988-ci ildə yekunlaşdırılmışdır. Keçən əsrin 30-cu illərində erməni əsilli nüfuzun bu qədim türk yurduna köçürülməsindən sonra toponimlərin dəyişdirilməsinə başlanılmışdır.

Bu dəyişmə prosesi də mərhələli şəkildə- 1935, 1946, 1956, 1968, 1978, 1991- ci illərdə aparılmışdır. Keşişkənd-Mikoyan, Həsənkənd- Şatin, Paşalı- Əzizbəyov, Sultanbəy-Bartsruni, Arpa- Areni, Yengicə-Qandzak, Cul-Artavan, Keşişkənd- Mikoyan (1935), Exeqnadzor (1957), Gabut- Kapuyt, Daylaxlı-Arin, Qovuşuq-Yermon, Zeytə-Zedsa, Gomur-Komk, Gülüdüzü-Vardahovit, Kotanlı-Karmraşen və s. adlandırılmışdır.

Keçməkeçli tarixə nəzər saldıqda keçən əsrdə azərbaycanlılara qarşı məqsədli yürüdülən soyqırım siyasəti və əzəli yurd yerlərimizin adının dəyişdirilməsi mənfur ermənilərin apardığı etnik təmizləməyə xidmət etmişdir. Bu günədək Qərbi Azərbaycanın toponimlərinin tədqiqi və araşdırılması ilə bağlı sanballı tədqiqatlar aparılsa da, yenə hər daşında, hər qarış yerində qədim oğuzların izlərini qoruyub saxlayan yurd yerlərimizin toponimikasının tədqiqi aktuallığını saxlayır.

Digər bölgələrin toponimlərinin araşdırılmasında olduğu kimi, Dərələyəz mahalının toponimlərinin tədqiqi də tarixi, coğrafi və linqvistik faktların işığında tədqiq olunmalıdır. İndiyədək bu sahədə aparılan tədqiqatlar Dərələyəz mahalında yaşayanların, bu yurdun əsl sakinlərinin türklər oluğunu toponimlərin araşdırılması ilə dönə-dönə təsdiq etmişlər. Dərələyəz mahalındakı toponimlərin hamısı keçmiş SSRİ-nin Qərbi Azərbaycanda şovinist siyasətə başlamasına qədər türk mənşəli olmuşdur.

Bəzi nümunələrə diqqət yetirmək yerinə düşər: Türk mənşəli quşçu oykonimi öz işlənmə dairəsinin genişliyinə görə diqqəti cəlb edir.Türklərin yaşadığı ərazilərdə bu etnotoponimə çox rast gəlinir. Azərbaycanın Daşkəsən, Xanlar, Yevlax rayonlarında Quşçu, Qazax rayonunda Quşçu Ayrım. Xocalıda Quşçubaba, Goranboy, Cəbrayılda Quşçular, Şabranda Çöl Quşçu, Tovuzda Aşağı Quşçu, Şuşada Aşağı Quşçu, Gədəbəy rayonunda Quşçular çayı və s. Bu toponimə Qərbi Azərbaycanda da çox rast gəlinir. Türkiyə ərazisində İzmir yaxınlığında Kuşçuburnu, Kırklarelində Kuştəpə oroniminə rast gəlinir. Sadalanan nümunələrin tərkibində işlənmiş quş sözünün canlı quşla heç bir əlaqəsinin olmadığına aparılan tədqiqatlar aydınlıq gətirir. Quşçu toponiminin və quşçu türk tayfa adlarının geniş areala malik olması sübut edir ki, həm Qərbi, həm Cənubi, həm Şimali Azərbaycanda, həmçinin Türkiyə ərazisində quş kəlməsinin işləndiyi toponimlər, omonimlər və s türk dilli Quş tayfasının adı ilə bağlıdır.

Həqiqətən də, Quşçu toponiminin bu qədər geniş ərazidə işlənməsi onun etnonim olmasını sübut edir. Bu tayfa bir çox ərazilərdə, eləcə də Qərbi Azərbaycanın Dərələyəz mahalında tarixən yaşamış və adını bir sıra toponimlərdə, o cümlədən Dərələyəzdəki Quşçu oykonimində yaşatmışdır.

Dərələyəz mahalındakı Sallı kəndi hun tayfalarından olan sal etnonimi ilə bağlıdır. Bu etnonimlə düzələn Şimali Qafqazda Sal çayı, Sal çölü, Azərbaycan ərazisində Salyan rayonu, Şamaxıda Salar, "Kitabi-Dədə Qorqud" dastanlarındakı Salur Qazanın adı bu sözün türk mənşəli etnonim olmasının sübutudur. Q.Qeybullayev sal tayfasının hun

tayfalarından biri olduğunu, Salar, Salur etnotoponimlərinin də sal sözündən yarandığını göstərir. Bu nümunələr Dərələyəz mahalının qədim türk yurdu olduğunu bu sahədə aparılan sistemli tədqiqatların işığında təsdiq edir.

Ümumiyyətlə, Dərələyəz mahalının toponimlərinin leksik-semantik mənalar üzrə qruplaşdırılmasında qədim toponimlərin çoxunun tayfa, qəbilə və nəsil adları ilə bağlı olduğu üzə çıxır. Lakin etnotoponimlərlə yanaşı, antrotoponim, hidronim, oronim, zoonimlərdən yaranan xeyli sayda onomastik vahidlər var. Dərələyəz mahalının etnotoponimləri bu ərazilərin gerçək sahibinin kimliyini təsdiq edir.

Bu danılmaz tarixi faktdır ki, Qərbi Azərbaycanın əsl sahibləri və sakinləri Azərbaycan türkləri olmuşdur. Tarixi mənbələrdən məlum olur ki, Azərbaycan türkləri indiki Ermənistanın ərazisində e.ə II minillikdə yaşamağa başlamışlar. Qərbi Azərbaycanda yaşayan qədim türk tayfalarından biri də Kimmerlər olmuşdur. Bu faktı təsdiq edən əsas amillərdən biri isə toponimlərdir. Qəmərli və Eçmiədzin yer adlarında kimmer türk tayfası adlarının izlərinə rast gəlinir. Ümumiyyətlə, Ermənistan ərazisi qədim türk ərazilərdir.

Qərbi Azərbaycanın qədim türk mənşəli toponimlərindən biri də Çivə kəndidir. Çivə Şərur- Dərələyəz qəzasının yaşayış məskənlərindən olub. Bu kənd igid, cəsur, vətənpərvər oğulları, tanınmış ziyalıları, elm adamları ilə seçilən yanlız azərbaycanlılar yaşayan kəndlərdən olmuşdur. 1919-cu ildə erməni vandallarının kəndə hücumundan sonra əhali deportasiyaya məruz qalmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti bərqərar olduqdan sonra həmin kəndin sakinləri yenidən dədə- baba torpaqlarına geri dönmüş, 1988-ci ilin noyabr ayında aparılan etnik təmizlənmə Çivə kəndindən də yan keçməmişdir.

Çivə toponimi türk tayfa adlarından birinin fonetik əvəzlənməsi nəticəsində yaranıb. Maraqlıdır ki, Çivə toponimi erməni dilindəki rəsmi sənədlərdə "çiva" kimi qeyd olunub. Prof.M.Hüseynovanın Qərbi Azərbaycan toponimləri ilə bağlı apardığı tədqiqatlarda göstərir ki, mənfur ermənilər bir çox qədim türk mənşəli toponimləri dəyişdirməyə müəssər olmamışlar. Dəyişdirilməsi mümkün olmayan həmin toponimlər bu ərazilərin gerçək sahiblərinin kimliyi hesab olunur. Çivə kəndi qədim türk tayfalarından olan Yivə etnosunun adı ilə bağlıdır. Yivə 24 türk tayfasından biridir. Yivə etnoniminə M.Kaşğarlının "Divani-lüğət-it-türk" əsərində də rast gəlinir.

Qərbi Azərbaycan toponimləri ilə bağlı aparılmış tədqiqatlar və tarixi mənbələrdəki elmi faktlar sübut edir ki, etnonimlər, toponimlər, hidronimlər, zoonimlər və s əsasında yaranmış yer adlarının hamısı türk mənşəlidir. Əslən Qərbi Azərbaycandan olan elm adamlarının hər bir leksik vahidlə bağlı apardığı etimoloji və tarixi-coğrafi araşdırmalar tarixi həqiqətlərə işıq salır.

Təkcə, prof.M.Hüseynovanın qədim türk mənşəli palotoponimlərlə bağlı apardığı araşdırmalar dilin arxaik qatında tarixi semantik çalarlığını qoruyub saxlayan paleotoponimik leksikanın coğrafiyasını, bu ərazilərin gerçək sahiblərini təsdiq etməklə yanaşı, ermənilərin cəfəng və saxtakar xülyalarını alt-üst etmişdir.

ƏDƏBİYYAT

1. Budaqov, B. Türk uluslarının yer yaddaşı. – Bakı: – 1994.
2. Mirzəyev, H. Qərbi Azərbaycan Dərələyəz mahalı. – Bakı: – 1996.
3. Hüseynova, M. Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili. – Bakı: – 2023.
4. Sadıqova, S. Dərələyəz toponimlərinin linqvistik xüsusiyyətləri (Avtoreferat). – Bakı: – 2011.
5. Vəkilov, S. Qərbi Azərbaycandan deportasiya, İmirlidə məskunlaşma. – Bakı: – 2023.

SUMMARY

Arif Agalarov

TOPONYMS CONFIRMING THE IDENTITY OF THE GRADUATE

The article touched upon the changing of toponyms of ancient Turkic origin after the ethnic cleansing carried out for mass settlement of Armenian vandals in the territory of Western Azerbaijan. The etymological, lexical-semantic explanation of some ethnotoponyms of Darelayaz district, which is considered the cradle of Sweden and folklore of Western Azerbaijan, fully determines the identity of the real owners of these areas. Researches, researches and dissertations in this field, all the toponyms in Daraleyaz district of Western Azerbaijan were of Turkish origin, only after the Armenians were moved here by Tsarist Russia, especially as a result of the chauvinist policy of the former Soviet Union, a large part of the Azerbaijani-Turkish names began to be Armenianized.

The study of Deraleyaz toponyms, whose history is very ancient, not only reveals the historical situation of our language, but also creates opportunities for clarifying the ethnogenesis and national thinking of our people.

The study of the toponyms of Western Azerbaijan and historical sources prove that not only the toponyms of Darelayaz district, but all the onomastic units belong to the Turks, who are the owners of our ancient homeland.

Key words: *Western Azerbaijan, Deraleaz, toponym, onomastics, ethnic cleansing*

QƏRBİ AZƏRBAYCANDA TÜRK TAYFA VƏ MƏNTƏQƏ ADLARI -OYKONİMLƏRİN"ERMƏNİLƏŞDİRİLMƏSİ"

Firudin RZAYEV
firudinrzayev@gmail. com
AMEA Naxçıvan Bölməsi

Məqalədə m.ö. minilliklərə aid Qərbi Azərbaycan ərazisində yaşamış prototürk tayfa və məişətimiz, tarixi və dini adlarımızın, bu adlarla yaranmış etnooykonimlərin ermənilər tərəfindən bir yüz ilin tarixi proseslərində necə "ermənilşdirildiyi" tarixi və dil faktları ilə sübut olunur. Bu mövzu tədqiqatlarda tam olaraq yer almamış, dövrümüzə qədər faktlar əsasında tədqiq olunmamışdır. Məqalədə m.ö. minilliklərə aid etnooykonimlərdəki türk tayfa adlarının Arzakənd-Arzakan, Sarumlu-Sarapat, Busdoğan-Sarakap, Kəngan-Hatiskap, Qasaran-Kasaran, Dornı-Antaraşat kimi əvəzlənmələri və qədim dilimizə aid türk sözlərinin zaman-zaman "ermənilşdirilməsi" siyasi oyunu faktlar əsasında sübut olunur. Bu adlardakı sözlərin mənaları qədim türk dilinə aid sözlüklərə istinadən araşdırılmışdır. Burada tayfa, dini adlarımızın Asaryan, Kasparyan, Saakyan, məişətimiz, dinimizdə yer alan sözlərimizin Dəmirçiyan, Bağdasəryan, Xudayan, Allahverdiyan və s. kimi"ermənilşdirilməsi" dil və tarixi faktlarla sübut edilmişdir. Bununla bərabər qədim dastanlarımızda yer alan şəxs adları-antroponilərin Qorqudyan, Dadayan, Balayan kimi də "ermənilşdirilməsi" faktlarına sübutlar göstərilmişdir. Bu siyasi prosesdə söz köklərinin daşıdığı mənalarla adların ifadəsi müqayisəli təhlil olunmuş, göstərilən faktlar müqabilində gələcəkdə ermənilərin qədim tayfa adlarımızı da sahiblənmək siyasi oyunu da özünü təsdiq edir. Bu siyasi oyunda ermənilər özlərinə "qədim dil", "dini inanc", "qədim məişət mədəniyyəti" kimi xalqımıza məxsus hər şeyə sahiblənmək qəsdlərini ortaya qoyur ki, bunların bir siyasi oyun olduğu məqalədə faktlar əsasında təkzib edilmişdir. Bütün bu tarixi faktlar və sübutlar Qərbi Azərbaycan ərazisində ermənilərin olmadığını, onların rus siyasəti ilə bu ərazilərə yerləşdirildiyi özünü tam təsdiq edir.

Məqalədə Qərbi Azərbaycan ərazisində qədim türklərin yaşadığı, onlar tərəfindən dini inancların yarandığı tarix və dil faktları ilə əsaslandırılır. Müqayisəli təhlillərdə yeni elmi nəticələr əldə edilir.

Açar sözlər: *Qərbi Azərbaycan, etnooykonimlər, mifoloji inanclar, prototürk tayfa adları, erməni oğurluqları.*

Tarixi qaynaqlar, xeyli sayda müəlliflərin əsərləri və mənbələrdə istənilən bir tayfanın tayfa birliyindən xalqa çevrilmə tarixi prosesinin ən azı iki min illik bir dövrü əhatə etməsi faktlarını göstərir. Biz antik müəlliflər Herodot, K. Ptolomey, Şərq tarixi və dünya tarixində, L.Qumilyov, A.Şerbak, N.Yanovski kimi müılliflərin yazılarında bu prosesi izləyirik. Lakin xeyli sayda etnik qruplar mövcuddur ki, bu qruplar da hələ bu gün belə xalq kimi mövcud olmasalar da, özgə tarixinə sahib çıxmaqla özlərini "qədim tayfa" kimi dünya ictimaiyyətinə göstərməyə çalışırlar. Belə tayfalardan biri də günümüzdə hələ 3 milyona çatmayan **ermənilərdir** ki, onlar tarix boyu bu ərazilərdə olmamış, I Pyotrun "Qafqazı xristianlaşdırmaq" vəsiyyətinə istinadən Suriya, Livan və b. ərazilərdən 1820-ci

ildən başlayaraq, 1978-ci ilə qədər Azərbaycan ərazilərinə köçürülmüşlər.

Bu siyasət nəticəsində ərazilərimizə köçürülən ermənilər, ilk olaraq Göyçə mahalında 6 kəndə yerləşdirilmiş, 1849-cu il I Nikolayın sərəncamı ilə bu ərazi "Erməni əyaləti" statusunu almış, 1920-ci ildə isə "Respublika" statusu qazanmışdır. Burada İrəvan xanlığına aid Qırxbulaq, Zəngibasar, Göyçə, Ağsaqlı, Dərəçiçək kimi 15 mahal, 522 mənrtəqə ermənilərin əlinə keçməklə, bu ərazidəki Azərbaycana aid qədim qala, türbə və məqbərələlar dağıdılmış, 1936-cı ilə qədər Azərbaycan dilində olan minlərlə coğrafi adlar dəyişdirilmişdir [12, c. 132-146; 13, 4, тет. 2.].

O dövrdə İslam dinini qəbul etdiyimizdən Qıpçaq, Xaçmataq, Skif kimmerlərə məxsus olan Türk Tanrı məbədləri (onları "kilisə" adlandırmışlar), eləcə də qədim türk yazılı daşlarının qorunduğu vənglər-Bəngü taş-yazılı daş məbədləri boş qaldığından, bu məbədlər yenicə xristianlığı qəbul etmiş ermənilərə verilmişdir. "Qafqazı xristianlaşdırmaq və yerli əhalini deportasiya etmək" siyasi oyunundan bəhrələnən əslən **"friq, briq"** adlı bu etnik qrup Çar Rusiyasının nəzarəti altında qədim türk Ərmən tayfalarının tarixinə sahiblənməyə başlamışdır [3. s. 21-38].

Tarixi mənbələr İstər Qərbi Azərbaycan-İrəvan və Naxçıvan xanlığında, istərsə də Türkiyə torpaqlarında ermənilərin yerli sakinlər olmadığını göstərir. Bu ərazilər m.ö. minillikdən bu günə qədər prototürk tayfalarının ana yurdu olmuşdur. Sonralar onların bir qrupu m.ö. II minilliyin I yarısında As, Türükkü, Naxər, Subər, Su, Sak, Koman, Qıpçaq və s. türklərlə bərabər şimala doğru yayılmış, Çin mənbələri, eləcə də "Orxon-Yenisey" daş yazılarında öz tayfa adlarını əbədiləşdirmişlər [9, s. 93; 18, s. 447-448].

Bu yurdlardakı məntəqə adları oykonimlər qədim türklərin adını daşımış, ermənilər bu ərazilərdə məskunlaşdıqdan sonra, **birincisi bu ərazilərdə olmayan "tarixlərini" qədimləşdirmək, qədim türk tayfa adlarına sahib çıxmaq və yerli əhali olmağa çalışmışlar.** Bildiyimiz kimi, bəşəriyyətin müasir dövr inkişafı, onun keçmişi ilə sıx bağlılıq təşkil edir. Xüsusi olaraq qeyd edək ki, **friq ermənilər** hələ bu gün xalq kimi mövcud olmasalar da, özgə tarixinə sahib çıxmaqla özlərini "qədim tayfa" kimi dünya ictimaiyyətinə göstərməyə çalışırlar. Onlar tarix boyu bu ərazilərdə olmamış, Balkanlardan qovulduqdan sonra bəzi xristian dövlətlərinə arxalanmaqla, onların köməyi ilə türk ərazilərində yerləşib türklərdən torpaq iddiası etməyə başlamışlar. Onların Qərbi Azərbaycanda türk tayfa adlarını, dini inanc və türk sənəti ilə bağlı adları özlərinə ad və soyad, kimi götürməklə, bu ərazidə qədim dövrdən yaşadıqlarını göstərməyə çalışırlar. Mənbələr qədim Azərbaycan və onun bir parçası olan Qərb Azərbaycan ərazilərində m.ö. VI-I minilliklər arası **as, kas, kuti, hürrü, lullubi, doray, subər, koman, kaspi, sak, maq, gel, kimmer, qazan, şirak** və s. kimi yüzlərlə türk tayfalarının yaşadığını, özlərinə məxsus mədəniyyət nümunələri yaratdığını sübut edir [5, s. 70, 145, 242-244, 264, 285; 18, s. 299-301, 303, 316, 376-379, 515-516, 526-532].

Bu tarixlərə sahib çıxmaq istəyən ermənilər, bu tayfa adlarının sonuna **yan** şəkilçisi artırmaqla, **Asaturyan, Kasayan, Saakyan, Kasparyan, Manqaçuryan, Manandyan, Giləyan, Qaməryan**, **Qaziyan, Şirakyan** kimi özlərinə uydurma "adlar və soyadlar" götürmüşlər. Onlar Azərbaycan inanclarında yer alan **Xuda, Allah** adlarından **Xydayan, Allahverdiyan,** tük məişəti ilə bağlı adlardan özlərinə **Dəmirçiyan, Bağdasaryan,**

Qaziyan, Şahnəzəryan, Arzumanyan kimi minlərlə "soy adları" düzəltməklə öz məişətlərini də "zənginləşdirmişlər". Onlar Azərbacan dastan adımızı, ululərımzla bağlı qədim sözləri, adət-ənənələrimizlə bağlı adlarımızdan da özlərinə **Qorqudyan**, **Dədəyan**, **Balayan, Babayan,Köçəryan, Çaparyan** kimi soyadlar düzəltməklə, bir sözlə, Qərbi Azərbaycanla bərabər türk-Azərbaycan tarixi və dilini də "ermənileşdirmişlər".

Bununla kifayətlənməyən ermənilər məntəqə adlarımıza da qədim türk sözləri olan **berd-**"qala, qurdlar", **ban/van** -"uca, min", **bat/pat-**"bölgə, yurd, saray", **kap-**"ölkə", **aran/ərən**-"igid, at, ilxı yeri", **kan**-"məkan, yurd", **ked/qut/kerd**-"güclü, geniş", **şad-**"rütbə", **şen-**"şenlik, yaşayış yeri" (Kürşad, Elşad, Ulun şad), **zor/zur**-"işıq", və s. kimi qədim türk sözlərini (4, s. 51, 81, 118, 289, 292, 396) artırmaqla, guya "erməni dilinə" çevirirlər. Buna misal olaraq Ağsakı-**Bazmaberd**, Qanlıca-Vağrama**berd**, Gülüstan-Nor Azna**berd**, Çiydəmli-**Azatavan,** Ağkənd-Aşota**van**, Ağkilisə**-**Cermaka**van,** İlxiyabi-Ayqa**bats,** Bəryabad**-**Vare**bat,** Hacıqara-Lerna**pat**, **Sar**umlu**-Sarapat,** Bozdoğan-Sara**kap,** Boğazkənd-Dzora**kap**, **Bus**doğan-**Sarakap, Kəng**an**-**Hatis**kap**, Qasaran-Kas**aran,** Hacı Bayram**-**Baq**aran,** Baş Abaran**-**Ap**aran,** Arzakənd**-**Arza**kan**, Canəhməd-Kuta**kan**, Babakişi-Bija**kan**, Xalisa-Noya**kert,** Arpavar-Lusa**kert,** Balıxlı-Zora**ket**, Gölkənd-Ay**qut**, Xaçdur-Tsaxka**şat**, **Dor**nı-**An**tara**şat,** Xeyirbəyli-Yervanda**şat,** Kiçik **Keti**-Pokra**şen**, Cəfərabad-Kuta**şen**Avdavağalı**-**Vağa**şen**, Qarabağlar-Urtsad**zor**, Asta**zur**-Şvanid**zor**kimi adları göstərə bilərik. Burada Saybalı-**Sar**nakunq, **Dor**abas- **Dar**bas, **Saxmaq-Kamxut**, **Uz-**Uyts , **Moq**es-Kaxnut, **Samanqar-**Geğa**kert** kimi adları misal göstərə bilərik. Burada **As, Kuti, Dor, Bus, Şar, Maq, Kanq/Kəngər, Qas/Kas, Xaçmataq, Kuti** kimi tayfa adlarından yaranmış məntəqə adları və türklərə məxsus adlarımızı dəyişdirməklə onları "ermənileşdirmişlər". **Bu sənəddə göstərilən 668 məntəqə adları göstərilən sözlərə istinadən dəyişdirilmiş, 254 kəndi isə tamamilə dağıdılmışdır**(2, s. 264-265; 17, s. 13-14, 20-25, 35, 55, 56).

Eyni tayfa adlı məntəqələr Türkiyə, Orta Asiya, Altay, Krım, Sibir və s. türk ərazilərində Asbulaq, Azamxan, Asatabad, Askalan, Kasan, Kaskalan, Kaspi, Sakar, Saki, Sakuz, Saka, Manqışlak, Manqut Manqan kimi yüzlərlə coğrafi adlarda qalmaqdadır (11, s. 25-29, 49, 54-61, 74-75, 90-91 116, 121). **Bütün bunlar ermənilərin tarix, dil oğurluğunun danılmaz sübutlarıdır.** Göstərilən bu adlar ümumtürk arealında bütün türk inancı, məişəti və adlarında qədim daş yazılarda hazırda da işlənməkdədir və təbii ki, **2 milyona çatmayan ermənilər bütün türk dünyasının dilini, onların coğrafi adlarını yaratmamışlar.**

Biz bu cür coğrafi ad göstəricilərinə tarixi adlarımızda da rast gəlirik ki, bunlar bütövlükdə prototürk coğrafi adları **As, Bus, Şar/Şirak, Manq** və s. türk tayfa adları ilə Azərbaycan türklərinin qədim toponimyaradan **pat/bat** (Astabat, Batabat, Ordubad), **şen** (Buğdaşen, Hürmeşin, Xoşkeşin)kimi leksik vahidləri ilə onların toponimlərində də təkrarlanır. Əgər diqqət etsək, ermənilər bu nomen-ad göstəricili **Buğdaşen** məntəqə adını **Baqravan, Culoykan** məntəqə adını Beniamin kimi adlarla **şen**, **kan** sözlərini də dəyişdirməklə başqa ada çevirmişlər. Deməli, bu sözlər erməni dilində deyil, onlar sadəcə ilkin adları silmək qəsdində olmuşlar. Bu mənbədə bütün türk tayfa adı və coğrafi adlar ümumtürk adlar sistemində tam olaraq təkrarlanır. **Bu prosesin 1931-1991 son dövrlərdə həyata keçirilməsi ermənilərin Azərbaycan türklərindən dil və Tarix oğurluğunu tam**

sübut edir.

Bəs ermənilər ilk etnik qrup şəkilində harada olmuşlar və adları nə idi, hansı dildə və mədəniyyətə sahib idilər? Bu istiqamətdə biz heç bir türk mənbəsinə istinad etmədən, yalnız əcnəbi mənbələrinin tarixi faktlarını oxuculara təqdim etmək istərdik.

Miladdan öncə IV-III yüzilliklərdə Balkan yarımadasındakı Frakiya ərazisində kiçik etnik qrup olmuş **friq-briqlər**, oğurluq, quldurluqla məşğul olub, miladımızın ilk yüzilliyinə qədər nə hazırkı Kiçik Asiya-Türkiyə ərazilərində, nə də Qafqazlarda, Azərbaycan ərazilərində məskunlaşmamışlar. Herodot özünün "Tarix" əsərində qeyd edir ki, frakiyalılar-friqlər (briqlər) Balkan yarımadasında yaşayan etnik qruplardan biridir. Onlar Frakiya dilinə uyğun danışırlar. O, friq-briqlərin Kiçik Asiya-indiki Türkiyə ərazilərinə m.ö. II yüzillikdə Frakiyadan köçdüklərini, dillərinin Hind-Avropadilinə aid olmaqla, frakiyalılara qohum dil olduğunu göstərir. Burada Frakiya Şimal Yunanstanın kiçik bir əyaləti kimi Skif və Makedoniyanın sərhəddində göstərilir. Herodot qeyd edir ki, istər Lidiya çarı Aliatta, istərsə də fars çarı I Daranın oğlu Qistasb dövründə Frakiya onların əsarəti altında idi [10, I, 28, 72, 168; II, 2, 103, 134; III, 90, IV, 49, 74, 80, 99, 118; V, 49; VII, 73; IX, 32]. Diqqətlə izləsək, burada hadisələr m.ö. III əsrin sonu II əsrin əvvələridir ki, Frakiya və friq-briqlər əsarət altındadırlar.

Tərəfimizdən tərtib olunmuş bu xəritə onların türk ərazilərinə tarixi köçünü faktlar əsasında tam təsdiq edir. Bəs necə oldu ki, öz adətləri (atanın qızı ilə, qardaşın bacısı ilə evlilikləri və s.), davranışları və soyğunçuluqları nəticəsində skiflər tərəfindən m.ö. II-I əsrlərdə balkanlardan qovulmuş **friq-briqlər,** adlarını dəyişdirib **hayas, erməni** etdilər? "Ümumdünya tarixi" də friqlərin Qalis çayından qərbdə Sanqariya çayı ətrafında Frakiyada yerləşdiklərini qeyd edir. Burada kimmerlərin hücumu ilə friqlər-briqlər m.ö. III əsrin sonu II əsrin əvvəllərində Balkan yarımadasının cənubuna köçürlər. Makedoniyalı İskəndər öldükdən sonra, isə m.ö. II yüzilliyin sonlarında Frakiya Lisimaxın, Vaviloniyanın hakimiyyəti altına düşürlər [18., s. 509, 553; 19, s. 224]. Bu faktlar sübut edir ki, onlar hələ m.ö. III yüzilliyin sonu II yüzilliyin əvvəllərində balkanlarda yaşayırdılar.



Əgər bu tarixi sübutlarla onlar m.ö. II-I əsrlərdə oradan qovulublarsa, qədim türk

əraziləri İrəvan, Qarabağ, Zəngəzur, Diqor-Dügər, Qağızman b. ərazilərindəki m.ö. IV-III minilliyə aid arxeoloji mədəniyyət nümunələrini necə yaradıblar? Buradakı m.ö. V minilliyə aid qədim As, Bastul Turdetan əlifbası ilə yazılmış daş yazı və məzarlıq yazılarına utanmadan necə sahib çıxmağa səy edirlər?

Moskvada dərc olunmuş "Qafqaz xalqları" kitabı ermənləri Kiçik Asiya-Türkiyə ərazilərinə m.ö. I minilliyin sonlarında gəlmə kiçik tayfalar olaraq göstərir və onları yerli tayfa hesab etmir [14, s. 443]. Friqlərin ilk yurd yerlərini Frakiya sahillərində qeyd edən erməni tarixçisi B.İşxanyan, 1916-cı ildə yazdığı kitabda friqləri Kiçik Asiya-Türkiyə və Azərbaycan ərazilərində yerli xalq hesab etmir və onların bu ərazilərə Frakiyadan m.ö. I minilliyin sonlarında gəlmə tayfa olduqlarını və Qafqaza son yüzilliklərdə gəldiklərini yazır [7, s. 44]. Bu son yüzilliklər isə XVIII əsrin sonu, XIX əsrin əvvəllərinə söykənir.

Digər bir erməni tarixçisi Gekam Kerovpyan öz mənşəyi və tarixləri haqda yazır: **"XIX əsrdən başlayaraq bu günə qədər araşdırmalar təsdiq edir ki, Hindavropa mənşəli erməni köçərilər Türkiyə və Azərbaycan ərazilərinə gəlmə tayfalar olmaqla, yerli xalqlarla qaynayıb qarışdılar"** (8, s. 69-88). Bu istiqamətdə erməni tarixçisi Abekyan Manuk isə yazır: "**Ermənilərin əcdadları kimdir, necə, nə vaxt haradan, hansı yolla onlar bu ərazilərə gəliblər, onlarla necə əlaqə saxlayıblar, onların ulu babaları kimdir, onların dilinə kim, necə təsir edib? Təəssüf ki, bizim əlimizdə bunları təsdiq edən həqiqi və inandırıcı heç bir tarixi fakt yoxdur"** [1, s. 11].

Bütün bu uydurma və yalanlara Erməni tarixçisi R.G.Hovanesyan son nöqtəni qoyur. O, erməni tarixçilərinin uydurmalarını rədd edərək yazır: **"Qədim zamanlardan son dövr nəzərə alınmazsa, Klikiyadan Qafqaza qədər erməni torpağı olmayıb"** [15, s. 332].

Əgər tarixi qaynaqlara diqqət etsək, burada ermənilərin "Erməni tarixi"nin atası saydıqları M.Xorenlinin də bu tarix haqqında gərəkli fikri ilə qarşılaşırıq. O, öz kitablarının birində həqiqətləri olduğu kimi etiraf edir: "Biz haylar balaca, azsaylı, zəif xalq olmuşuq. Buna görə də həmişə güclü xalqların hakimiyyəti altında olmuşuq. İndi olduğu kimi, əvvəlcədən də haylar elmi və şifahi xalq ədəbiyyatına sahib olmamış və onu sevməmişlər" [6, s. 4].

Bu faktlardan da göründüyü kimi, ermənilər sığındıqlarıdövlətlərdə assimilyasiya olunmaqla, "hayasa", adlanmış, oradan qovulub Ərmən yaylasında ərmənlərə və hürrü türklərinə sığınmaqla, "hayasa"adını dəyişib "ərmən-erməni" adlanmış, bu adlarla da özlərinə "tarix" yaratmağa çalışıb, buna qismən nail olmuşlar.

Biz bir çox yazılarımızda ermənilərin tarixini tədqiq edən görkəmli Amerika alimi Samuel.A.Uimzin ermənilər haqqındakı yazısını göstərmişik ki, o "Son iki min il ərzində ermənilərin öz torpağı olmayıb. Onlar indi tarixin zibil qutusundan özlərinə tarix axtarırlar",- deyə qədi fikrini bildirmişdir [16, s. 246].

Bütün bu tarixi faktları ümumiləşdirərək yekunu olaraq, göstərilən tarixi faktlara əsasən aşağıdakı elmi nəticələri qeyd edə bilərik:

1.Türkiyə və Azərbaycan ərazilərinə ermənilər miladdan sonra gəlmə tayfalardır və onların hər hansı ərazi iddialarının heç bir elmi əsası yoxdur;

2. Ermənilər Osmanlı və Azərbaycan türklərinə sığınmış köçəri tayfalardır və bu ərazilərdəki mədəniyyət nümunələri də tam olaraq m.ö. VI-I minilliklərdən başlayaraq

günümüzə qədər türklərə məxsus qədim mədəniyyət nümunələridir.

ƏDƏBİYYAT

1. Абекян, М. История армянской литературы. – Ереван: АН Армянской ССР, – 1975. – 662 с
2. Армянская ССР. Административно-территориальное деление (Издание пятое) – Ереван: «Айастан», – 1975. – 330 с.
3. Cəlilov, F.A. Haylar Ərmənistanı necə oğurladılar, yaxud N.Gəncəvinin Şirini Erməni qızıdırmı. – Bakı: Kür, – 2000. – 28 s
4. Дрвнетюркский словрь. – Ленинград: Наука, – 1969. – 676 с
5. Дьяконов, И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. – Москва: Наука, – 1956. – 485 s.
6. История Армении Моисея Хоренского / Пер. с армянского и объяснение М.Эмина,
   – Москва: – 1893. – 363 с.
7. Ишханян Б. Народности Кавказа. Статическо-экономическое исследование. – Петроград, – 1916, – 427 с.
8. Kerovpyan, K. Mitolojik ermeni tarihi, – İstanbul: Aras, – 2000. – 109 s.
9. Кононов, А.Н. Родословное тюркмен. – Москва-Ленинград: АН СССР, – 1958. – 288 с.
10. Геродот. История. Перевод и примечания Г.А Стратановского. – Ленинград: Наука, – 1972. – 599 с.,
11. Малый атлас мира. – Москва: Картография ГУГК, – 1985. – 331 с.
12. Марков, Ф.Г. ЭкономичесРкий быт государственных крестьян Ереванского уезда Ереванской губернии // МИЭбГКЗК. Т. III, – Тифлис, – 1886. – с. 132-146
13. Народы Кавказа. Т. II, – Москва: Наука, – 1962. – 697 с
14. Нахичеванский край Нах. АССР (Отчет о поездке летом 1927 г) // Известия Азкомстариса, вып. 4, тет. 2..
15. Hovannissian, R. G. The republik of Armenia. Los Angeles and Lon- don: University of CaliforniaPress, – 1996. – 496 с
16. Самюел А.Уимз. Армения- секретность террористической «христианской» страны. Серии больших армянских авантюр / Пер. с английского языка. Т. I, – Баку: Наука, – 2004.
17. Tarixi adlara qarşı soyqırımı. – Bakı: Təhsil, – 2006. – 92 s.
18. Всемирная история. Т. I, Москва: Госиздат, – 1956. – 746 с.
19. Всемирная история. Т. II, Москва: Госиздат, – 1956. – 899 с.

SUMMARY

Firudin Rzayev

TURKISH TRIBAL AND REGIONAL NAMES IN WESTERN AZERBAIJAN - "ARMENIZATION" OF NAMES

In the article Our proto-Turkic tribe and household, which lived in the territory of Western Azerbaijan for thousands of years, is proved by the historical and linguistic facts of how our historical and religious names, the ethnonyms created with these names were "Armenianized" by the Armenians in the historical processes of a hundred years. The structural forms of the Azerbaijani language preserved in the ancient period are discussed. This topic has not been fully included in the researches, it has not been studied on the basis of facts until our time. In the article The replacement of Turkish tribal names in millennial ethno-onyms, such as Arazkend-Arzakan, Sarumlu-Sarapat, Busdogan-Sarakap, Kangan-Hatiskap, Gasaran-Kasaran, Dorny-Antarashat, and the occasional "Armenianization" of Turkish words belonging to our ancient language are proved on the basis of facts. The meanings of the words in these names have been investigated with reference to dictionaries of the ancient Turkish language. Here, our tribe, religious names are Asaryan, Kasparyan, Saakyan, our household and religious words are Demirchiyan, Baghdasaryan, Khudayan, Allahverdiyan, etc. as "Armenianization" is proved by language and historical facts. At the same time, the evidence of the "Armenianization" of personal names-anthroponyms such as Gorgudyan, Dadayan, and Balayan, which are included in our ancient epics, has been shown. In this political process, the meaning of the roots of the words and the expression of the names have been comparatively analyzed, and the political game of Armenians to take possession of our ancient tribal names in the future in exchange for the stated facts also confirms itself. In this political game, Armenians reveal their intention to own everything that belongs to our people, such as "ancient language", "religious belief", "ancient household culture", which was refuted based on the facts in the article. All these historical facts and evidence fully confirm that there are no Armenians in the territory of Western Azerbaijan, that they were placed in these territories by the Russian policy.

In the article, it is justified by historical and linguistic facts that the ancient Turks lived in the territory of Western Azerbaijan, and religious beliefs were created by them. New scientific results are obtained in comparative analyses.

Key words: *Western Azerbaijan, ethnonyms, mythological beliefs, proto-Turkic tribal names, Armenian abductions.*

FOLKLOR TOPLAYICILIĞI ZAMANI QEYDƏ ALINAN MƏNZUM MƏTNLƏRDƏ QƏRBİ AZƏRBAYCANLILARIN VƏTƏN HƏSRƏTİ

Elxan YURDOĞLU-MƏMMƏDOV
elxan.yurdoglu@yahoo.com
Orcid İD: 0000-0001-8239-2973
AMEA Naxçıvan Bölməsi

Tarixən Azərbaycan türklərinin yaşadığı Qərbi Azərbaycan torpaqlarında uzun illərdir mənfur qonşularımız özləri üçün "vətən" formalaşdırıblar. Lakin tarix və tarixin unudulmaz yaddaşı Qərbi Azərbaycan torpaqlarının əzəli azərbaycanlılar yaşayan ərazilər olduğunu yaxşı bilir. Təxminən bir il bundan əvvəl 22 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən ölkə başçısı, cənab Prezident İlham Əliyev də öz çıxışında bildirmişdi ki, "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. ...Gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi Azərbaycanlılar böyük coşğu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır".

Ölkə başçısını vurğuladığı "xalqımızın tarixi yaddaşı" Qərbi Azərbaycandan, öz doğma ev-eşiklərindən məcburi köçkün düşən soydaşlarımız tərəfindən bu gün də qorunur, şifahi ədəbi nümunələrə çevrilərək yaşadılır. Məhz həmin nümunələrdə də vətən həsrəti, doğma yurd intizarı bədii boyalarla təsvir olunur.

Qərbi Azərbaycandan məcburi köçkün düşənlər ölkəmizin bir çox bölgələrinə səpələndikləri kimi Naxçıvana da gələrək ayrı-ayrı kənd və şəhərlərdə məskunlaşmalı olublar. Naxçıvan Muxtar Respublikasının Qərbi Azərbaycanlılar yaşayan bölgələrinə folklor ekspedisiyaları zamanı həmsöhbət olduğumuz yaşlı və ortayaşlı insanların hər birin bir gün öz doğma ev-eiklərinə qayıdacaqlarına inanırlar. Xüsusilə 44 günlkük vətən müharibəsindən, eləcə də bu ilin sentyabr ayındakı 1 günlük antiterror əməliyyatlarından sonra soydaşlarımızda dğma torpaqlarına qayıdacaqları inancı həddindən artıq çoxalmışdır.

Folklor ekspedisiyaları zamanı Qərbi Azərbaycandan olan həmvətənlərimizin dilə gətirdikləri folklor nümunələrində, xüsusilə xalq şeirinin müxtəlif janrlarında söylədikləri mətnlərdə onların vətən həsrətini duymamaq mümkün deyil.

2023-cü ilin may-iyun ayları ərzində Qərbi Azərbaycandan məcburi köçürülən azərbaycanlıların daha kompakt şəkildə yaşadığı Kəngərli rayonunun Çalxanqala kəndinə folklor ekspedisiyaları zamanı həmsöhbət olduğumuz onlarla kənd sakinin dilindən süzülən bayatılarda, ağılarda, qoşma və gəraylılarda vətən həsrəti ən qabarıq görünən motiv kimi diqqət çəkirdi. Bu mənada araşdırmamızda da biz folklor toplayıcılığı zamanı qeydə aldığımız mənzum mətnlərdə Qərbi Azərbaycanlıların vətən həsrətini elmi araşdırma cəlb etdik. Bu zaman əsas məqsədimiz isə ölkə başçısının da üzərində həssaslıqla dayandığı əsas vəzifəmizin dünya ictimaiyyətini bu barədə məlumatlandırmaqdır ki, bu istiqamətdə aparılan işlərdən biri də Qərbi Azərbaycandan köçənlərin

yaddaşındakı folklor mətnlərindən yola çıxaraq onların vətən həsrətinin miqyasını dünyaya da göstərməkdir.

Açar sözlər: *Folklor, toplama, mənzum janrlar, Qərbi Azərbaycan, Vətən həsrəti.*

Tarixən Azərbaycan türklərinin yaşadığı Qərbi Azərbaycan torpaqlarında uzun illərdir mənfur qonşularımız özləri üçün "vətən" formalaşdırıblar. Lakin tarix və tarixin unudulmaz yaddaşı Qərbi Azərbaycan torpaqlarının əzəli azərbaycanlılar yaşayan ərazilər olduğunu yaxşı bilir. Təxminən bir il bundan əvvəl 22 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən ölkə başçısı, cənab Prezident İlham Əliyev də öz çıxışında bildirmişdi ki, "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. ...Gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi Azərbaycanlılar böyük coşğu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır" [5].

Ölkə başçısını vurğuladığı "xalqımızın tarixi yaddaşı" Qərbi Azərbaycandan, öz doğma ev-eşiklərindən məcburi köçkün düşən soydaşlarımız tərəfindən bu gün də qorunur, şifahi ədəbi nümunələrə çevrilərək yaşadılır. Məhz həmin nümunələrdə də vətən həsrəti, doğma yurd intizarı bədii boyalarla təsvir olunur.

Qərbi Azərbaycandan məcburi köçkün düşənlər ölkəmizin bir çox bölgələrinə səpələndikləri kimi Naxçıvana da gələrək ayrı-ayrı kənd və şəhərlərdə məskunlaşmalı olublar. Naxçıvan Muxtar Respublikasının Qərbi Azərbaycanlılar yaşayan bölgələrinə folklor ekspedisiyaları zamanı həmsöhbət olduğumuz yaşlı və ortayaşlı insanların hər biri bir gün öz doğma ev-eşiklərinə qayıdacaqlarına inanırlar. Xüsusilə 44 günlük vətən müharibəsindən, eləcə də bu ilin sentyabr ayındakı 1 günlük antiterror əməliyyatlarından sonra soydaşlarımızda doğma torpaqlarına qayıdacaqları inancı həddindən artıq çoxalmışdır.

Folklor ekspedisiyaları zamanı Qərbi Azərbaycandan olan həmvətənlərimizin dilə gətirdikləri folklor nümunələrində, xüsusilə xalq şeirinin müxtəlif janrlarında söylədikləri mətnlərdə onların vətən həsrətini duymamaq mümkün deyil.

2023-cü ilin may-iyun ayları ərzində Qərbi Azərbaycandan məcburi köçürülən azərbaycanlıların daha kompakt şəkildə yaşadığı Kəngərli rayonunun Çalxanqala kəndinə folklor ekspedisiyaları zamanı həmsöhbət olduğumuz onlarla kənd sakininin dilindən süzülən bayatılarda, ağılarda, qoşma və gəraylılarda vətən həsrəti ən qabarıq görünən motiv kimi diqqət çəkirdi. Bu mənada araşdırmamızda da biz folklor toplayıcılığı zamanı qeydə aldığımız mənzum mətnlərdə Qərbi Azərbaycanlıların vətən həsrətini elmi araşdırmaya cəlb etdik. Bu zaman əsas məqsədimiz ölkə başçısının da üzərində həssaslıqla dayandığı dünya ictimaiyyətini bu barədə məlumatlandırmaqdır ki, bu istiqamətdə aparılan işlərdən biri də Qərbi Azərbaycandan köçənlərin yaddaşındakı folklor mətnlərindən yola çıxaraq onların vətən həsrətinin miqyasını dünyaya da göstərməkdir.

Baxmayaraq ki, "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var" [5]. Bu tarixin, sənədlərin, xəritələrin siyahısına şifahi xalq ədəbiyyatımızı da əlavə etmək istərdik. Şifahi ədəbiyyatda toponimlər elə dərin kök salır ki, məhz həmin yer-yurd adları, dağ, çay, çöl, kəfşən adları bu gün ermənilərin saxtakarlıqla addəyişdirmə siyasətinə qurban gedən ərazilərin azərbaycanlılara məxsusluğunu açıq-aydın göstərir.

Çalxanqala kəndində yaşayan, əslən Qərbi Azərbaycanın Vedi rayonunun Şidli kəndindən olan Qaloyev Hüseyn Sədo oğlu toplama zamanı bir çox folklor nümunələri, adət-ənənələrdən bəhs etməklə yanaşı öz yurd yerlərinə həsr olunmuş bayatılardan da dilə gətirir:

Çıxaram yola mən,
Baxaram sağ-sola mən.
Vətənimi görməsəm,
Çəkərəm ah-nala mən.

Bu dağ o dağa baxar,
Altından bulaq axar.
Gözlərim qərib eldə
Həsrət vətənə baxar.

Çalxanqala kəndinin mərkəzində bir yerə toplaşdığımız ağsaqqallarda biri də Əsgərov Əmrah Müzəffər oğludur. 53 yaşlı Əmrah dayı Söylan rayonunun Gabud kəndində doğulub. Gənc yaşlarından kənd-kəsəyindən didərgin düşən bu adam yadında qalan aşıq qoşmasından bir bəndi xatırlayır. Əslində burada xatırlanan qoşmanın bir bəndindən daha çox Əmrah kişinin öz yer-yurdunun adı keçən yerlərdir:

Mən vurğunam Həsalının düzünə,
Təhnəlinin şəfa bulaq gözünə.
Yayın istisində su əvəzinə
Qatığı, avdığı yadıma düşdü.

Əmrah Əzgərovun həmkəndlisi olmuş, indi də Çalxanqala kəndində həmkəndli olan Abbasov Səfər Abbas oğlu da gözləri uzaqlara dikilmiş halda qeyri-ixtiyari dillənir:

Dağlar marala qaldı,
Endi, marala qaldı.
Yurd yoluna baxmaqdan
Gözüm sarala qaldı.

1950-ci ildə dünyaya gələn 73 yaşlı bu ağsaqqalın diqqətini yayındırmaq istəmirik. Fikrini dağıtmadan səssizcə ona qulaq kəsilirik. Söylan rayonunun Gabıd kəndini düşünürmüş kimi vətən həsrəti ilə yoğrulmuş bayatıları ard-arda sıralayır:

Mən aşıx kimə gedim,
Kimim var kimə gedim?
Həsrətim elə dərddi
Dərmana kimə gedim?

Əzizim yazı qandır.
Dər çiçək, yazı qandır.
Vətənsiz qalanların
Qışı qan, yazı qandır.

Vətən həsrəti bu insanların ürəyində bir yara kimi qaysaqlayıb. Deyəsən bizim sırf Qərbi Azərbaycan folkloru ilə bağlı gəlişimiz onların da qaysağını qoparır. Ağrılarını sızıldadır, dərdlərini yenidən qığılcımladır. Taroyev Rəhman Qurban oğlu öz kəndlərinin adət-ənənələrindən danışandan sonra dərindən bir nəfəs dərib bayatıya keçid edir:

Kəklik daşda nə gəzər,
Oxur, daşda nə gəzər.
Yurdundan ayrılanın
Ağlı başda nə gəzər.

Gün getdi sarı qaldı,
Getdikcən sarı qaldı.
Vətən sarı baxmaqdan
Gözümdə sarı qaldı.

Araya sükut çökür, bayatılardakı məna tutumundan da bu insanların vətən həsrətlərini, öz doğulduğu torpaqlara olan sevgilərini görürük və onları isə bir gün yenidən o yerləri görə biləcəyikmi suallarının naməlum cavabları düşündürür. Biz də, – "bir gün hər kəs o yurdlara qayıdacaq,–deyib cənab Prezidentin məlum fikirlərini təkrar xadırladırıq və Qarabağa geri döndüyümüz kimi Qərbi Azərbaycan torpaqlarına da qayıdacağımız günün gələcəyini ifadə edirik.

Toplama prosesinə davam etmək üçün kəndin ayrı-ayrı məhəllələrinə dağılışırıq. Bir qapının döyürük. Buyurun,–sözünü eşidəndən sonra içəri keçib məqsədimizi söyləyəndə əyləşməyə yer göstərirlər. Yazın gözəl vədəsidir və həyətdə taxta oturacaqlara yanaşıb həmsöhbətlərimizi dinləyirik. Dərələyəz mahalının Əmoğlu kəndindən olan Gözəlov Qadir Vəli oğlu 1956-cı ildə anadan olduğunu bildirir. Kəndlərinin təbiət gözəlliklərindən bəhs edir, həyət-bacalarının yaşıllığından, torpaqlarının bərəkətindən danışır. Oradakı yer-yurd adlarına diqqəti cəlb edir, aədət-ənənələrdən söz salır, bir neçə əhvalatı bizimlə bölüşür. Söz arası hərdən nəzm nümunələri ilə öz içindəki həsrəti də saxlaya bilmir:

Əmoğludan yel əsdi,
Ürəyim tel-tel əsdi.
Sağ gözüm vətən qurban,
Sol gözüm mənə bəsdi.

Yarpaqlar bir-bir düşər,
Atdanar bir-bir düşər.
Evimdə keçən günlər,
Yadıma bir-bir düşər.

Qadir dayı bu bayatı söyləyən zamanda bizim üçün çay gətirən həyat yoldaşı Gözəlova Nigar Bayraməli qızı da fincanları önümüzə qoya-qoya bayatı çağırır:

Anam, anam öz anam,
Qoynu dolu köz anam.
Yad ağlar yalan ağlar,
Qoy ağlasın öz anam.
Vətəndən irax düşdük
Gəl bu dərdə döz anam.

Bu yerlərdə yaşayışlarından narazı olub olmadıqlarını soruşuruq. Təbii ki, narazılıq etmirlər, amma Gözəl xanım,–oğul, insan alışdığı yerləri, doğulub, boya-başa çatdığı toraqları unuda bilmir. Həmişə o yerlərə qayıtmağın xəyalını qurur,–dedikdən sonra yenə bir bayatı söyləyir:

Əlim xına tutmasın,
Çevir günə tutmasın.
Vətəni tərk etmişəm
İşim binə tutmasın.

Çalxanqala kəndinin sakini çoxdandır tanıdığım, uzaq qohumluq əlaqərimizin də olduğu ailə ilə həmsöhbət olmaq üçün toplayıcı həmkarlarımı götürüb Məhərrəmov Həbib Məhərrəm oğlunun evinə yollanırıq. 1951-ci ildə Dərələyəz mahalının Keşikkənd rayonunun Amağu kəndində doğulan Həbib dayı, yoldaşı Məhəbbət xanım daha çox türkəçarələrdən danışırlar. Həbib dayının atası Məhərrəm kişi o yerlərin məşhur çobanlarından olub. Ona görə də çölün-bayırın, kəfşənlərin dilini yaxşı bilirmiş. Hansı ot-ələf nəyin dərmanıdır, hansı bitkidən necə yeməklər hazırlamaq olar, bunlara yaxşı bələddir. Bu biliklərini oğluna, gəlininə də öyrədirmiş. Ona görə də Məhərrəmovlar ailəsində topladığımız materiallar arasında xalq təbabətiylə bağlı xeyli maraqlı məlumatlar əldə etdik. Buna baxmayaraq hər iki ev sahibi o yerlər üçün burunlarının ucunun göynədiyini söylədikləri şeir nümunələri ilə də hiss etdirirdilər. Xüsusilə Həbib dayının sinəsi dolu idi. Yaddaşında da ordan köçən həmvətənlərinin vətən həsəritylə yoğrulmuş folklor nümunələri dərin kök salmışdı. O nümunələrdən bir neçəsinə nəzər salaq:

Əzizim qazan ağlar,
Od vurar, qazan ağlar.
Qürbətdəki ölənin
Qəbrini qazan ağlar.

Əzizim gülüm ağlar,
Vətənim, elim ağlar.
Tərk oldu vətənindən

Bağsız bülbülüm ağlar.

Həbib dayının söylədikləri hərdən Məhəbbət xanımın da yaddaşını təzələyirdi. O da gözlərini qarşıdan görünən dağlara zilləyərək həzin səslə bizə bir neçə bayatı, ağı nümunəsi söylədi:

Mən gedirəm qıraxnan,
Gülü bişdim oraxnan.
Vətənim əldən gedib,
Axtarıram soraxnan.

Qızılgül həşəm oldu,
Dərmədim, kəfşən oldu.
Vətəndən ayrılandan,
Ağlamaq peşəm oldu.

Son illər klassik folklor toplayıcılığında ciddi mənada informator tapmaq çətinliyi ortaya çıxıb. Artıq bugünün yaşlı nəsilləri öz nənə-babalarının yaddaşının, söz xəzinəsinin yarısına belə bələd deyillər. Buna görə də folklor toplayıcılarının işi də çətinləşib. Yeni nümunələr tapmaq olduqca problemli bir məsələ kimi özünü göstərir. Bu mənada "klassik folklor gözümüzün qarşısında yoxa çəkilir. Nəinki söyləyici və ya ifaçı (ravi, naqqal) məktəbləri sıradan çıxıb, hətta tək-tük professional söyləyicilərə də təsadüf etmək, demək olar ki, mümkün deyil" [1, s.13] deyən professor Əfzələddin Əsgərə haqq verməli olursan. Lakin Qərbi Azərbaycanlılarla söhbətlərimizdə onların yaddaşında xeyli sayda şifahi xalq ədəbiyyatı nümunələrinin qaldığını müşahidə etdik. Günün sonu yaxınlaşdığından hazırlaşıb geri qayıtmaq üçün nəzərdə tutulmuş toplanma yerinə döndük. Bu səfər zənbilimiz dolu qayıdırdıq. Xeyli sayda yeni nümunələr toplamışdıq. Sabah da yenidən bu kəndə gəlməyi qətiləşdirdik. Çünki toplayıcılar olaraq bir neçə qrupa bölünsək də kəndin heç yarısını gəzib qurtarmamışdıq. Yaddaşlarda gizlənən neçə-neçə nümunələri də eşitmək, toplamaq, yazıya alıb, xalqa qaytarmaq və elmi dövriyyəyə təqdim etmək imkanımız ola bilərdi.

Növbəti gün toplama qruplarımızın heyətində də dəyişikliklər edib yenidən kənd mərkəzinə yollandıq. Yenə gələcəyimizi dediyimiz üçün bu dəfə dünənkinə nisbətən daha çox yaşlı insan yolumuzu gözləyirdi. Dilçi, etnoqraf həmkarlarım suallarını verir, materiallar toplayırdı. Mən də folklor mətnləri üzərinə köklənmişdim. Keşikkənd rayonunun Gədikvəng kəndindən olan Məmmədov Əhməd Rəşid oğlu ömrünün altıncı onilliyinin sonunda idi. 1954-cü ildə anadan olan Əhməd kişi digər həmkəndlilərindən fərqli olaraq bir gün mütləq öz kəndinə, evinə qayıdacağına olan ümidini hələ də itirmədiyini deyir. Buna baxmayaraq yaddaşından süzülüb gələn bir nəzm nümunəsini də dilə gətirir:

Mən aşığam dam qaldı.
Damlar yeri nəm qaldı.
Qaçışdı elim, obam,
Bir quruca dam qaldı.

Söylan rayonunun Zeytə kəndindən olan 1958-ci il təvəlldlü Həsənov Bəxtiyar Tağı oğlu isə hansı əzab-əziyyətlərlə ev-eşik tikdiyini, bağ-bağat saldığını həzin bir notla bizlərə danışır. Bunu hətta bir bayatı ilə təsvir də edir:

Bı qaya qəlbi qaya,
Gölgəsi düşür çaya.
Zəhmət çəkdim bağ saldım,
Əməyim getdi zaya.

Doğulduğu torpaqlar üçün darıxdığını, Çalxanqala kəndinin dağlarının öz dağlarına bir az oxşadığını söyləyən Bəxtiyar dayı bəzən ürəyindən daş olub o torpaqlarda qalmaq keçdiyini, quş olub uçub gedib o yerlərdə yuva qurmaq istədiyini də bizimlə bölüşür. Hətta bunu bir aşıq gəraylısından gətirdiyi şeirlə də ifadə edir. Xəyalən o yerlərin dağlarına üz tutaraq deyir:

Sizdə ömür keçir çox xoş,
Sizi görən olur bihuş.
Kaş çevrilib olam bir quş
Uçub gələm sizə, dağlar.

Bütün bu nümunələrə diqqət edəndə görürük ki, xalq folklora həssaslıqla yanaşır. Eyni zamanda da Ləman Süleymanlının dediyi kimi "Folklor xalqın həyatına həssaslıqla yanaşır və orada baş verən bütün hadisələrə anında reaksiyasını verir" [3, s.209].

Qərbi Azərbaycanın Vedi rayonunun Şidli kəndində 1960-cı ildə doğulan Qaloyev Çərkəz Əhməd oğlu dünyadan gözüaçıq gedən anasının, atasının vətən üçün həddindən artıq çox darıxdıqlarını, vəfat edərkən bu yerlərdə dəfn olunsalar belə bir gün Şidlinin torpağından gətirilib məzarlarına tökülməsini arzuladıqlarını söyləyir.

Bu arzuların içində böyük bir vətən sevgisinin, vətən həsrətinin olduğunu görmək o qədər də çətin deyil. Çərkəz kişi anasının tez-tez bu yerlərdən görünən Araz çayına tərəf boylanıb bir bayatı çağırdığını, o bayatının bu evdə hamının artıq əzbər bildiyini bildirir və bizim üçün də səsləndirir:

Arazı keçən də var,
Suyundan içən də var.
Çəkməyin vətən adın,
Ürəyi keçən də var.

Kənd mərkəzindən ayrılıb kəndin müxtəlif istiqamətlərinə dağılışırıq. Bir neçə həmkarımla birlikdə üz tutduğumuz qapılardan birində bizi gülərüzlə qarşılayırlar. Bir neçə gündür buralarda folklor topladığımızı, Qərbi Azərbaycanlıların xalq yaddaşından süzülüb gələn materialları yığdığımızı, demək olar ki, kənddə hamı öyrənib. Kənd yerində bir xəbərin kəndin bu başından o başına çatması bir saatın işidir. Ona görə də bizi mehribanlıqla içəriyə dəvət edirlər. Ailə ilə tanış oluruq. Ev sahibi Həşimov Nəcəf Vəli oğlu və həyat yoldaşı Abbasova Şəfiqə Həbib qızı köçkün düşməmişdən əvvəlki güzəranlarından danışırlar. 1964-cü il təvəllüdlü olan bu ömür-gün yoldaşları bizi xalq yaradıcılığı baxımından əliboş qaytarmırlar. Keşikkənd rayonunun Ağkənd kəndində böyüyən ailə üzvləri xeyli sayda əfsanə danışırlar, rəvayət dilə gətirirlər. Atalar sözlərindən, məsəllərdən danışırlar. Öz vətənlərindəki xoşbəxt, rahat yaşayışlarından və

mənfur qonşuların ədalətsizliklərindən söz açırlar. Hiss olunur ki, oradakı ev-eşiklərindən, torpaqlarından, qurduqları həyat şəraitləri üçün darıxıblar. Nəcəf kişinin söylədiyi bir bayatını da qeydə almışıq ki, o belə dilə gəlir:

O tayda bir ev qaldı.
Tikmədim, bir ev qaldı.
Eldən dərbədər olduq,
Nə həyət, nə ev qaldı.

Bizim üçün çay süfrəsi açan Şəfiqə ana da həyat yoldaşının sözünə qüvvət olsun deyə yaddaşındakı bir bayatını söyləyir:

Bir ev tikdim dəyirmi,
Çubuxları iyirmi.
Qoyub hara qaçırsan,
Bu ev sənin deyilmi.

Bu zaman qapıdan kimsə ev sahibini çağırır. Şəfiqə xanım onu da çay süfrəsinə dəvət edir. Məlum olur ki, gələn qonşudur və o da Qərbi Azərbaycanın Gülüstan kəndindən olan Hacıyeva Bəsti Yunis qızıdır. Gəlişimizin məqsədindən əvvəlcədən xəbərdar olan Bəsti xanım da xeyli sayda laylalar, oxşamalar, tapmacalar söyləyir. Söhbəti vətən üçün darıxmaq üzərinə gətirəndə də baxışları bir nöqtədə donur və vətən üçün çox darıxdıqlarını, evdə-eşikdə, qonum-qonşu ilə küçə-bacada hər gün o yerlərdən söhbət etdiklərini bildirir. Söylədiyi bir bayatı ilə dediklərini təsdiq də edir:

Yük üstə kilim yandı,
Kilimdə gülüm yandı.
Elim, obam deməkdən
Ağzımda dilim yandı.

Akademik Muxtar Kazımoğlunun bir məqaləsində yazdığı "Xatirələrdə, eləcə də folklorun rəvayət, bayatı kimi işlək janrlarında toxunulan başlıca mövzulardan biri də qaçqınlıq və köçkünlükdür. ... Ev-eşiyini, qardaş-bacısını, ata-anasını, qohum -əqrabasını itirən adamların nisgili "nərmi-nazik" bayatılarda qabarıq ifadəsini tapdı (2, s. 6) fikirlərinə biz də şahid olduq.

Həmsöhbət olduğumuz hər bir Qərbi Azərbaycandan məcburi köçkün düşən soydaşlarımızın folklor yaddaşında öz vətənləriylə bağlı hadisələrin, rəvayətlərin, əfsanələrin, aşıqların yaradıcılığının olduğu kimi qaldığını görmək mümkün idi. Atakişiyev Məzəddin Rüstəm oğlu, Qasımova Gülənbər Allahverdi qızı, Qəmbərov Nəriman Fərman oğlu və digərləri ilə söhbətlərimizin məğzində toplanan materiallardan daha çox vətən həsrəti və onun poetik dillə ifadəsinin əksi başlıca yer tuturdu. Məzəddin dayının adını xatırlamadığı və öz yer-yurdlarından olan bir aşığın qoşmasından söylədiyi bir bənd də fikirlərimizi tamamilə təsdiqləyir:

Kəsiləydi namərdlərin gülüşü,
Dərdin-qəmin üstümüzə yürüşü.
Kaş olaydı bu gəlişin dönüşü,
Durnaları dönməz olub yurdumun.

Durnaları dönməz olan yurda bu insanların dönəcəklərinə olan inamları hələ də var. Və bu ümid varsa, dövlətimiz tərəfindən Qərbi Azərbaycana bir milyondan çox məcburi köçkünün geri qayıtması siyasəti əsas məsələlərdən biri kimi qarşıya qoyulubsa, demək ki, bu məsələ də öz müsbət həllini tapacaq.

Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı bölgələrində yaşayan Qərbi Azərbaycanlılarla bağlı toplama materiallarımız bundan sonra da davam edəcək. Lakin iki günlük Kəngərli rayonunun Çalxanqala kəndindəki Qərbi Azərebaycandan məcburi olaraq köçkün düşən soydaşlarımızla söhbətlərimizdə xeyli folklor materialları toplasaq da, onların dilə gətirdikləri nəzm nümunələrində vətən həsrətinin qabarıq mövzu kimi aktuallığına şahidlik etdik. Bunun bir əsas səbəbi də odur ki, bu insanların geri dönəcəklərinə olan ümidləri tükənməyib. Özlüyündə çox müsbət hal kimi qiymətləndirməli olan bu məqam, folklorun nəzm nümunələrində qorunub saxlandığı kimi, yeni nümunələrin yaranmasına da təkan verib. Biz isə ümid edirik ki, dövlətimizin və xalqımızın birlikdə həyata keçirdiyi Qərbi Azərbaycana qayıdış konsepsiyası əhəmiyyətli rol oynayacaq və geri qayıdış gerçəkləşəcək. Bundan sonra yaranacaq folklor nümunələrində artıq kədərli, həsrətli, dərdli, ağrılı notlar yox, vüsal, qovuşma, sevinc, xoşbəxtlik notları üzərində köklənən nümunələri toplayacağıq.

ƏDƏBİYYAT

1. Əfzələddin, Ə. Tərtibçidən // Azərbaycan folkloru antologiyası. – Bakı: Səda, – 2005. – c.XII, – 464 s.
2. Kazımoğlu, M. Ağrı-acısı və tarixi çarpışmaları ilə folklorlaşan Zəngəzur // Zəngəzur folkloru: elmi araşdırmalar və qənaətlər. – Bakı: Elm və təhsil, – 2021. – 300 s.
3. Vaqifqızı, L. Qarabağ və Zəngəzur hadisələri folklorda // Zəngəzur folkloru: elmi araşdırmalar və qənaətlər. – Bakı: Elm və təhsil, – 2021. – 300 s.
4. Zəngəzur folklor örnəkləri. I cild. – Bakı: Elm və təhsil, – 2021. – 356 s.
5. https://president.az/az/articles/view/58330

SUMMARY

Elkhan Yurdoglu-Mammadov

WEST AZERBAIJANS' LONGING FOR THE COUNTRY IN THE POETRY TEXTS RECORDED DURING THE FOLKLORE COLLECTION

For many years, our hated neighbors have formed a "homeland" for themselves in the lands of Western Azerbaijan, where Azerbaijani Turks have historically lived. However, history and the unforgettable memory of history know very well that the lands of West Azerbaijan are inhabited by ancient Azerbaijanis. About a year ago, on December

22, 2022, while getting acquainted with the conditions created in the administrative building of the West Azerbaijan Community, the head of the country, Mr. President Ilham Aliyev, said in his speech that "West Azerbaijan is the historical land of Azerbaijan, the names of cities and villages are of Azerbaijani origin, and we know it well that the Azerbaijani people have lived in the territory of present-day Armenia throughout history. The day will come when our compatriots from Western Azerbaijan, their relatives, children, and grandchildren will return to our historical land, Western Azerbaijan. I am sure that this day will come and I am sure that West Azerbaijanis will return to their native land with great enthusiasm and enthusiasm. There are many reasons for this. Probably the most important of them is the historical memory of our people."

The "historical memory of our people" emphasized by the head of state is preserved today by our compatriots who were forcibly displaced from their native homes in Western Azerbaijan, turned into oral literary examples. It is in those examples that the longing for the homeland, the longing for the native land are depicted with artistic paints.

IDPs from Western Azerbaijan were scattered in many regions of our country and had to come to Nakhchivan and settle in separate villages and towns. The Western Azerbaijanis of the Nakhchivan Autonomous Republic believe that each of the old and young people we talk to during folklore expeditions to their living regions will return to their native homes one day. Especially after the 44-day civil war, as well as the 1-day anti-terror operations in September of this year, the belief that our compatriots will return to their native lands has increased.

During the folklore expeditions, it is impossible not to hear the homesickness of our compatriots from Western Azerbaijan in the folklore examples, especially in the texts of various genres of folk poetry.

In May-June 2023, during folklore expeditions to Chalkhangala village of Kangarli district, where Azerbaijanis who were forcibly relocated from Western Azerbaijan live more compactly, longing for the homeland stood out as the most prominent motif in the old sayings, laments, poems and songs of the dozens of villagers we talked to. In this sense, in our research, we involved a scientific study of the longing for the homeland of West Azerbaijanis in the verse texts we recorded during the folklore collection. At this time, our main goal is to inform the world community about our main task, which the head of the country is sensitively focused on, and one of the works carried out in this direction is to show the world the extent of their longing for the homeland, based on the folklore texts in the memories of those who moved from Western Azerbaijan.

Key words: *Folklore, Collecting, Verse genres, Western Azerbaijan, Homeland longing.*

AŞIQ BƏHMƏN GÖYÇƏLİNİN DİL-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Sədaqət HƏSƏNOVA
Naxçıvan Müəllimlər İnstitutu

Əzəli yurd yerlərimizdən olan Göyçə mənəvi düşüncəmizi özünə çəkən, torpaq itkilərimizə, milli faciələrimizə şahidlik edən, saz-söz ustaları ilə tanınan mahalımızdır. "Kitabi-Dədə Qorqud" dastanında adı keçən, "ruhumuzda şırım açan" Göyçəmiz sazlı-sözlü dünyası ilə bəlkə də heç bir bölgə ilə müqayisəyə gəlməz. Təkcə Dədə Ələsgər, təkcə Aşıq Alı bəsdir ki, Göyçə mənəvi yaddaşımızdan silinməsin. Bu anlamda, böyük alimimiz Yaşar Qarayevin fikirləri nə qədər də böyük gerçəkliyə söykənir: "Azərbaycan folkloru" adlanan kosmosu zirvədə saxlayan təməl sütun Qafqazda – Göyçədir" [5, 3].

Göyçə aşıq mühitinin nümayəndələrindən biri də Aşıq Bəhmən Göyçəlidir (1901-1980). "Məlahətli səsi, gözəl natiqliyi və söz qoşmaq bacarığı onu aşıqlığa gətirmişdir… "Humay", "Ağ corab", "Əfqan-tufan" dastan-rəvayətləri onun yaradıcılığının məhsuludur. Aşıq şeirinin bütün şəkillərində nümunələr yaratmışdır. Saz havalarını özünəməxsus üslubu, əlavələri ilə zənginləşdirmişdir" [6, 387]. Aşıq Bəhmən Göyçəli aşıq ədəbiyyatına xidməti prosesində dilimiz üçün də maraqlı örnəklərin üzə çıxmasına səbəb olmuşdur:

Qəfil bir ox atdı bağrım başına,
Süzülüb baxanda ala gözlərin.
Baxcağın canımı üzüb apardı
Olubdu başıma bəla gözlərin [1, 274].

Danışıq dilimizdə -caq, - cək şəkilçisinin işlənmə məqamları ilə indi də qarşılaşırıq. Həmin morfoloji əlamətin –ın[4] şəkilçisi ilə bərabər işlənməsi Aşıq Bəhmənin dilinə xüsusi bir təbiilik qatır.

Pünhan yanqılıcı dönüb baxanda,
Yüz min nəzakətnən kirpik qaxanda,
Müjganların sinəm üstə çaxanda
Az qaldı canımı ala gözlərin [1, 274].

Bu örnəkdə "yanqılıcı" sözü diqqəti çəkir. "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə həmin leksik vahid Qarakilsə və Mehri dialekti kimi qeyd edilərək "yanakı" mənasında işlənmişdir (3, 540). Aşıq Bəhmən Göyçəlinin dilində də söz mənasını qoruyur və anlam baxımından "pünhan" sözü ilə tarazlaşır. Sözügedən örnəkdə "müjgan" adlı bənzətmənin subyekt kimi işlənməsi də maraqlıdır. Kirpiklərin (müjganların) oxa bənzədilməsi klassik təşbehlərdəndir və hərbi leksikanın bədii dildə məcazlaşması uzaq tarixlərə söykənir. Bu ənənə öz möhkəmliyini XX yüzilin ikinci yarısına qədər qorumuş, lakin çağdaş dövrümüzdə fəallığını azaltmışdır.

Bəhmənəm, olmuşam mən sənə mayil,
Gözlərin ağlımı eylədi zayil,
Hər nə ki buyursan, olaram qayil,
Saldı məni min xəyala gözlərin [1, 274].

Burada danışıq şəklində işlənmiş ərəb mənşəli "qail" sözünün dildə üç anlamı vardır: 1. Deyən, söyləyən; 2. İnanan. 3. Etiraf edən, iqrar edən [3, 102]. Lakin bunların heç biri aşığın dilindəki mənaya uyğun gəlmir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə sözün "inanan" mənasından başqa, "razı olan" mənası ilə qarşılaşdıq [4, 18]. Aşığın dilindəki "qayil" sözü bu məna ilə üst-üstə düşür. Hazırda Naxçıvanda el ağzında da həmin söz işləkliyini itirməyib. "Qayil" (qayıl) sözü çağdaş dilimiz üçün köhnəlsə də, aşıq poeziyasının dilində maraqlı üslub məqamlarında işlənir. Göyçənin aşıq mühiti üzərindəki araşdırmalar göstərir ki, saz-söz ustaları qədim sözləri ölməyə qoymur, onların yenidən dirilməsinə imkan yaradır. "Sazın, sözün əzəli və əbədi missiyası xalqın dilini, ruhunu yaşatmaq, arıdıb durultmaq, tarixi-mənəvi kimiliyini, etnoqrafik yaşam tərzini, folklor dəyərlərini, fikir-düşüncə özünəməxsusluğunu, könül gözəlliklərini sirli-sehrli bir ecazkarlıqda sabahlara daşımaqdır" [6, 5].

Aşıq Bəhmən Göyçəlinin "Yadıma düşdü" rədifli qoşması Azərbaycanın ilk xalq şairi Səməd Vurğunun eyniadlı əsərinin ruhu və dil gözəlliyi ilə bərabərdir:

Gəldi bahar, yenə aşıldı yazı,
Bizim elin dağı yadıma düşdü.
Çığıyır göllərdə sonası, qazı,
Səfalı yaylağı yadıma düşdü [1, 275].

"Danışan adlar", "insan tarixinin kodları" kimi dəyərləndirilən onomastik vahidlər də Aşıq Bəhmən Göyçəlinin dilində özünəxas mövqeyi ilə seçilir. Onun əsərlərində işlənən bu dil vahidləri onomastik vahidlərin təkcə ümumini xüsusidən ayırmaq vasitəsi olmadığını, onlarda bir tarix, bir xalqın taleyinin yaşadığını göstərir:

Bir yan dik pilləkən, bir yanı Qonur,
Başında Çalmalı, yanında Şonur,
Yay günü içəndə dişləri donur,
O Qumlu bulağı yadıma düşdü [7, 275].

Onomastik faktların bolluğu baxımından Aşıq Bəhmən Göyçəlinin dilindən alınmış aşağıdaki örnək də diqqəti çəkir. Və əsərin dilindəki yer-yurd adları ilə aşıq vətəninin coğrafiyasını tanıdır və bədiiləşdirir:

Kəpəzi, Murovu, Qıcyığı gəzdim,
Qoşqarı, Murğuzu, Buçuğu gəzdim,
Dolandım, yüksəyi, alçağı gəzdim,
Bəhmənəm, hər yanı gördüm, a dağlar! [7, 274].

Məlumdur ki, qanadlı sözlər bədii dilin bəzəyidir. Bəzən bu dildə yuxarıdakı örnəkdə olduğu kimi, qanadlı sözlərlə qarşılaşmırıq. Lakin burada hiss və duyğular qanadlıdır, onlar vətən həsrətinin tərənnümçüsü kimi ürəyə dolur, obrazlılıq sözlərin gözəl düzümünə, fikrin intonasiyasına köçür. Belə faktlar aşığın dil sənətkarlığını ortaya qoyur. Doğrudan da, dil mühümdür, hər hansı bir sənətkarı tanıtmaq meyarıdır. "...Dədə Ozanların əski çağlardan başladıqları mübarək yolu – dil və ruh mücadiləsini sonrakı dönəmlərdə ustad aşıqlarımızın yüksək poetik ovqatla davam etdirməsi, mənsub olduğu xalqın mənəvi gücünü qürurla daşıması, yeni nəsillərə təlqin edib mənimsətməsi milli varlığımızın, o cümlədən istiqlal və dövlətçilik düşüncəmizin qorunub möhkəmlənməsində mühüm rol oynamaqdadır" [6, 5].

Aşıq Bəhmən Göyçəlinin aşağıdakı əsərində obrazlılıq və qafiyə ilə yanaşı, müraciət gözəlliyi də diqqəti çəkir:

Mahalım, vətənim, elim, obamsan.
Çəmənli mənzilim, yurdum, a dağlar!
Həkimim, loğmanım, dərman-davamsan.
Xəstə idim, şəfa buldum, a dağlar! [7, 274].

Aşıq poeziyasının dilində dağlar artıq simvolik obraza çevrilib və bu məsələdə Dədə Ələsgər əbədi imzasını qoyub. Sonrakı aşıqlar, o cümlədən Aşıq Bəhmən Göyçəli dağların doğmalığını, dərd ortağı, vətənin ürək parçası olduğunu bu dilsiz-ağızsız, lakin poeziyada dil açan, dərdlərə şərik olan, saz-söz adamlarını dinləyən varlığa isti münasibətləri ilə təsdiq edib. Dağların tərənnümünün ən gözəl örnəklərini yaratmaq Göyçə mühitinə xas olan aşıqlarda daha güclüdür. Təsadüfi deyilməmişdir ki, "Tarixdə hər şey bizim üçün folklordan, folklor isə... Göyçədən başlayır. Rübabın (Füzuli qəlbinin telinin) vətəni – Dəclə və Fərat arası, liranınkı Egey dənizinin sahili, qopuzun vətəni isə Göyçənin bətninin, bağrının başı olub. Hər halda qopuzdan ilk ilahi, şifahi simvolik səda Qafqaza Göyçədən yayılıb" [5, 4]. Diqqətədəyər faktdır ki, dağların rəmzi obraza çevrilməsi də Dədə Ələsgər başda olmaqla Göyçə aşıqları ilə bağlıdır:

Üç ay yaydan keçib payız olanda
Zimistanda düşür qara bu dağlar.
Bu bahar çağında nazlı cananın
Dərdindən geyinib qara bu dağlar [7, 281].

Aşıq Bəhmən Göyçəlinin bu qoşmasında müxtəlif anlamlara malik olan "qara" sözü əsərin səslənmə keyfiyyətini artıran vasitələrdən biri kimi qabarıq görünür. İlk işlənən "qara" sözü ismin yönlük halına salınmış "qar" sözü olduğu halda, son misradakı "qara" leksik vahidi "kədər, qəm" anlayışı ifadə edir və tərz zərfliyi kimi məntiqi vurğunu özünə çəkərək intonasiyanı qüvvətləndirir.

Aşıq Bəhmən Göyçəlinin dilində hamıda olduğu kimi alınma sözlərin də özünəxas mövqeyi vardır. Lakin aşıq həmin sözləri elə bacarıqla milli sözlərin əhatəsinə salır ki, onların doğmalığına şübhə qalmır.

Ala gözlüm, şanə əyib zülfünü,
Qoy əsim telində yel əvəzində.
Gecə-gündüz mən çəkirəm ahu-zar,
Xəzan dəyib soldum gül əvəzində [7, 388].

Bu bir gerçəklikdir ki, bəzən alınma sözlər poetik ovqat yaratmaqda milli sözlərdən nəinki geridə qalmır, hətta irəliyə də keçir. Doğrudan da, aşıq poeziyasında elə alınmalar işlənir ki, onları milli qarşılığı ilə əvəz etsək, dilin bədii gözəlliyini poza bilərik. Məsələn, fikrimizcə, yuxarıdakı örnəkdə "şanə" əvəzinə "daraq", "zülf" əvəzinə "saç" işlətsək, şeir dilinin bədii təsiri bu qədər olmaz, azalar.

Aşıq Bəhmən Göyçəlinin elə əsərləri var ki, onlar Aşıq Ələsgərin deyim ruhunu davam etdirib yaşada bilir:

Bəhmən qoyub canın yolunda niyaz,
O gizlin dərdini sən də mənə yaz.
Ölsəm, məzarımı sən özün gəl qaz,
Ayaq bas sinəmə yol əvəzində [7, 388].

Aşıq Ələsgərin yaradıcılığından alınmış aşağıdaki örnək iki aşığın dilindəki oxşarlığı təsdiq edir:

Ələsgərəm, yandım eşq ataşında,
Gözüm qaldı kirpiyində, qaşında.
Qazdır məzarımı çeşmə başında,
Sal sinəm üstündən yol, incimərəm [2, 56].

Aşığın (və aşiqin) dilindən qopan arzu - hər gün çeşməyə su gətirməyə gedən gözəlin onun məzarından keçməsi, yəni sinəsi üstündən yol salması ifadəsi mümkün olmayan bədii təsəvvür yaradır, duyğuların sözlə ifadəsindəki gözəllik ölçüyəgəlməz olur. Aşıq Bəhmən Göyçəlidə isə aşiqin öz sevgilisindən onun məzarını qazmaq təmənnası var ki, yol əvəzinə sinəyə ayaq basılsın. Düşünürsən ki, məhəbbətin dərinliyinin bundan daha kəskin tərənnüm etmək mümkün deyil.

Xalqın içində böyüyüb saz-söz sahibi olanların dili də xalqın sadəlik və müdrikliyindən yararlanır. Bunun üçün savaddan çox, dil duyumuna ehtiyac vardır. Bu səbəbndəndir ki, universitet tanımayan, qrammatik qayda-qanunlardan xəbəri olmayan çox sayda sənətkar söz meydanının ərəni kimi tanınıb. Bu mənada, təcnis yaratmağın çətinliyi yada düşür. Ona görə ki, cinas qafiyələr düzəltmək hər adamın işi deyil və elə yazanlar vardır ki, onların yaradıcılığında bir ədəd də olsa, təcnislə qarşılaşmırıq. Lakin Aşıq Bəhmən Göyçəli təcnis yaradıcılığında ustadlardan geridə qalmır:

Bəhmənə açılar bağlı dər indi,
Kamil bağban, meyvə dəyib, dər indi.
Eşqin bəhri, mən gəzmişəm, dərindi,
Qəvvasıyam, indi bir üzüm, üzüm [7, 389].

Yazarların əsas qüdrəti onların dili ilə ölçülür. Çünki söz ustalarının sənətkarlığı onların dilindədir. Şeiri "Allahların dili" hesab edən dilçi alim Musa Adilov bu anlamda dəyərli fikirlər sahibidir. Xalq dilinə söykənən əsərlər təsir qüvvəsinin dərinliyi ilə yaddaşlarda qalır. Xalq dilinin bütün özəlliklərini ortaya qoyan ən önəmli qaynaq bədii üslubdur. Xalqın sənətkarları onun dili ilə tanınır, şöhrətlənir və bu dili də daha çox sənətkarlar yaşadır. Bu baxımdan, dil-üslub xüsusiyyətləri ilə bədii dilimizin zənginlik və estetik gözəlliyini bir daha təsdiq edən Aşıq Bəhmən Göyçəlinin dilində bol-bol faktlar aşkar etmək mümkündür.

ƏDƏBİYYAT

1. Aşıq Bəhmən Göyçəli. Azərbaycan aşıq şeirindən seçmələr. Bakı: Şərq-Qərb, 2005, s. 274-281.
2. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s.
4. Azərbaycan dilinin izahlı lüğəti, III c. Bakı: Şərq-Qərb, 2006, 672 s.
5. Qarayev Y. Göyçəyə qayıdan yol folklordan keçir. Azərbaycan folkloru antologiyası. III kitab. (Göyçə folkloru). Bakı: 1999, s. 3-14.
6. Qasımlı M. Dədə Qorquddan üzü bəri. Aşıq ədəbiyyatı antologiyası. Bakı: Xalq Bank, 2017, s. 5-12.
7. Şair Bəhmən. Aşıq ədəbiyyatı antologiyası. Bakı: Xalq Bank, 2017, s. 387-389.

MAHİRƏ NAĞIQIZININ POETİK İCAZINDA HEYRƏTİN DƏRƏLƏYƏZ YANĞILARI

Əbülfəz ƏZİMLİ
ezimliebulfez@yahoo.com.tr
ORCID: 0009-0001-1327-3425
Naxçıvan Dövlət Universiteti

Çağdaş poeziyamızın Ozan Ruhlu şairəsi Mahirə Nağıqızı və onun ifadə poetizmi və bu poetizmidə poetik icazlar və bu İcazlara xas olan aydın və sirayətedici xalq lirizmi və ifadə poetizmi... burada həm divan, həm də xalq poetizmi ruhu var. Çünki şairə ruhən, qəlbən söyləyir, yanğıyla dilə gətirir aşiq qəlbinin fəryadlarını. Bütün fəryadlar heyrət üstündədir. Muğam aləmində bir "Heyratı" da var: Bunda getdikcə fəryad artır- ən üst mənzilə çatır.

Mahirə Nağıqızının poetik icazında Dərələyəz- həsrət ellərdir. İndiki halda İztirab və fəryad, həsrət və heyrət ellərdir. İztirab və fəryaddandır ki, dərələyəzlilərin varlığında- ruhunda və iradələrində dərindən-dərin həsrətlər qaynayır: yurd-yuvaya can fədasında olan insanların sinələrinə dağ çəkilib--" Dirsə xan oğlu Buğac"ın boyında Buğacın öldüyünü zənn edən anasının dəhşətli yanğısı- fəryadı kimi- Fəryada Bürünüb-Dərələyəz yurdları.

Şairə Mahirə Nağıqızı Dərələyəz fəryadlarını bayatı rəngindən tərənnüm edir: çünki o, aşiq şairədir. Hər bir Vətən övladı və hər bir yurd-yuva həsrətində olan insan Aşiq deyilmi? Və o Aşiq də hər zaman Eşq halında deyilmi? Və bu halda, Dərələyəz elləri və mahalları da aşiqlərin doğma yurd-yuvaları, vətən ocaqları, həsrət yanğıları deyilmi? Çünki zorla yurd-yuvalarından çıxarılıblar, qovulublar- düşmən zülmü ilə! Bütün bu hallar Heyrət və "Heyratı" üsətindədir. Burada Heyrət heyrətə qarışıb. Və şairənin deyimləri, poetik fəryadları da Bayatı Heyrətindədir.

Açar sözlər: *Mahirə Nağıqızı, poetik icaz, Heyrətin Dərələyəz Yanğıları*

Giriş

Dünyada dünya: Yaxud:

Şairə Mahirə Nağıqızında poetik Həsrətin Dərələyəz dünyası.

Çağdaş poeziyamızın Ozan Ruhlu şairəsi Mahirə Nağıqızının şeirlərində məxsusi olaraq, aydın və sirayətedici xalq lirizmi və ifadə poetizmi vardır: Vəhdət halı olaraq, şairənin silsiləvi- sillabik heyrət bağlılığının icazı olan Poetik məna və ifadə sirləri-Dərələyəz yanğılarının inikasıdır. Bu poetizmdə:

1) insan-yurd-yuva, məkan və zaman dramatizmi var:

2) ifadə poetizmi və bu poetizmidə poetik icazlar və bu İcazlara xas olan aydın və sirayətedici Heyrət və Heyrətdə Heyrət motivləri var;

3) hər mötiv bir fəryaddır;

4) ifadə tərzinə görə həm divan, həm də xalq poetizmi ruhunda olan fəryaddır.

5) və bütün məzmun və mənalar təndir kimi aynayan Heyrət yanğılarıdır.

Heyrətiniz mübarək Mahirə xanım! Yerlərimizin həsrət Heyrətindən üstün heyrət varmı? Sizin poetik icazlarını qaynadan də bu Heyrətdir.

Məzmun içəriklərindən və ifadə tərzindən yanaşsaq, Dərələyəzə xas olan Heyrətin

məxsusi halları nədən ibarətdir? Bu: birincisi, Dərələyəzə olan xalq bağlıllğının- eşqinin Heyrətidir; ikincisi, xalqın elliklə öz yurd-yuvalarına olan Eşqin doğurduğu Vəcddən və yurd-yuvaların, insanların başlarına gətirilən faciələrdən gələn Heyrətdir; üçüncüsü, xalqda olan dözüm və iradə Heyrətidir; dördüncüsü, doğma yurda dönmək əzmindən doğan Heyrətdir.Beşincisi, yurd-yuvalarına dönmək şövqü ilə coşan insanların Vətətn Eşqindən gələn heyrətdir.

Dünyanın ən bütöv və dönməz Eşqi var Dərələyəzdə və dərələyəzlilərin yurd-yuva, el-oba həsrətlərində və bu həsrətlərin doğurduğu yanğılar var: bunlar içdən və ruhən gələn yanğılardır. Və bütün bu hallar şairə Mahirə Nağıqızının Poetik icazlarının məzmun və məna, fikir və ideya atributları- nişanlarıdır.

"…DONUXMUŞ SƏSSİZLİK RUHUMU ƏZDİ…"

Bir Epiqraf:

Dərələyəz! Ana yurdum, mahalım!

Nə ki dərdi-sərin vardır- mən alım!..

Mahirə Nağıqızı

1. Dərələyəz analarının yanğısında və fəryadında Buğacın anasının fəryadına bənzərlik

Mahirə Nağıqızının şeirlərində hər şey coşquda, vulkan kimi püskürtü halındadır. Bu şeirlərdə dağlar da danışır, çaylar da, meşələr də, həsrət yanğısından yanan və qübarı bütün varlığı bürüyən Həsrətlər, nisgillər dil açır. Çünki şairə ruhən, qəlbən söyləyir, yanğıyla dilə gətirir – aşiq qəlbinin fəryadlarını. Hər bir Vətən övladı və hər bir yurd-yuva həsrətində olan insan Aşiq deyilmi? Və o Aşiq də hər zaman Eşq halında deyilmi? Və bu halda, Dərələyəz elləri və mahalları da aşiqlərin doğma yurd-yuvaları, vətən ocaqları, həsrət yanğıları deyilmi? Çünki zorla yurd-yuvalarından çıxarılıblar, qovulublar- düşmən zülmü ilə!

Dərələyəz- həsrət ellərıdir. İztirab və fəryaddandır ki, dərələyəzlilərin varlığında-ruhunda və iradələrində dərindən-dərin həsrətlər qaynayır: yurd-yuvaya can fədasında olan insanların sinələrinə dağ çəkilib! "Kitabi-Dədə Qorqud" eposunda " Dirsə xan oğlu Buğac xan boyını bəyan edər, xanım, hey" dastanında Buğacın öldüyünü zənn edən anasının dəhşətli yanğısı- fəryadı kimi- *FƏRYADA BÜRÜNÜB.*

Ana, övladının bu halına dözə bilməyib, Qazılıq dağına qarğış yağdırır:

Aqar sənin suların, Qazılıq dağı!

Aqar ikən- aqmaz olsun!

Bitər sənin otların, Qazılıq dağı!

Bitər ikən- bitməz olsun!

Qaçar sənin keyiklərin, Qazılıq Dağı!

Qaçar ikən- qaçmaz olsun, daşa dönsün!.. [Kitabi-Dədə Qorqud, 2004, s.32]

Bu fəryad və hiddət halıdır. Və bu hal Ananın Ağrılarına min bir ovqat qatar. Hər şeydən əvvəl, bu fəryadda Buğacın anasının yanğısı var, ən sərt halda Ana sevgisinin və hiddətinin iradəsi var. Beləcə, bütün Heyrət və Eşq halları öz kökünə bənd olar*: Dərələyəz halları da Qazılıq dağının halına bəzəyir. Dərələyəz analarının fəryadı da Buğacın anasının Fəryadı kimi, yeri-göyü təirədir, dağı-daşı, meşəni fəryada bürüyür.* Bu halda heyrət atları çapar- yol

alar həsrət yurduna, həsrətin dağ yurduna, meşə, dərə-təpə, çay, bulaq məkanına-Dərələyəz, Göyçə gölü məkanlarına qovuşar.

Bu hal - min beş yüz ilin o zamanından, ta bu zamanınadək Bizim Millətin daxilində coşan Eşqin, Heyrət nişanlarıdır. Və bu nişanlar Dərələyəz ellərinin analarında, nənələrində olan iradənin də nişanlarıdır: və bu hallar Mahirə xanımın da, Mahirə xanımın anası Nazlı xanımın da, bütün anaların və nənələrin ruhunda coşan nisgillərin, həsrətlərin də hiddətinə xas olan üslubi haraylardır. Çünki şairə Mahirə xanım ruhən, qəlbən söyləyir, yanğıyla dilə gətirir aşiq qəlbinin fəryadlarını.

Bütün fəryadlar Heyrət üstündədir. Muğam aləmində bir "Heyratı" da var: Bunda getdikcə fəryad artır- ən üst mənzilə çatır. Mahirə Nağıqızının vəsfində dağın Dağ heyrəti var, Çayın Çay Heyrəti, Məkanın Məkan Heyrəti, Həsrətin Həsrət Heyrəti, Yurd-yuvanın kimsəsiz qalışının İztirab heyrəti Var. Və şairənin poeziyasında bütün Heyrətlər Lirik "Mən"in sevgisində, eşqində yurd tapıb-Mənzil tapıb. Onun poetik ilhamında ruhdan gələn sözlər, fikir və mənalar qanad açır. Xalq düşüncə və elminin qaynağından gəlir-şairə Mahirə xanımın ruhən və qəlbən və əqlən ilhamının heyrətindən gəlir. O, anasından gələn heyrətin yelkənindədir; Heyrət də onun poeziyasının yelkənidir. Şeirlərindəki bənzətmələri, vəsfləri, təsvir və tərənnümləri də tamam başqa bir haldan gəlir- bu, Dərələyəz halında olanların üslubu və poetik vüsətidir. Bədii icazın təqdim etdiyi heyrətin poetikasıdır. Burada yalqız qalan yurdların, məkanlı ikən məkansız hala salınan insanların həsrətinə olan Vətən və İnsan Yanğılarından gələn ifadə icazları qanad açır.

Mahirə xanım Nağıqızının ad gününə belə bir təbrik məktubu göndərdik:

"Səlam və ehtiramlar- çox hörmətli şairəmiz Mahirə xanım Nağıqızı. Ad gününüz və bütün ömür illəriniz-günləriniz mübarək! Sizə uzun ömür,cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Allah ömür-günlərinizin poetik nəğmələrinə yeni-yeni qanadlar versin və o qanadlarda el-obaların- Böyük Vətənimizin ən kövrək və həssas yurdları-- Dərələyəz və bütün Qərbi Azərbaycan həsrətləri bir-birinə qovuşsun-inşaAllah.

Davam olaraq- haqqınızda yazdığım düzümlərdən bir düzümlə: Səlam olsun ömür yollarınıza-illərinizə. Mübarək olsun. Hörmətlə: Əbülfəz ƏZİMLİ. Şərur-Dərələyəz mahalından Yurda qovuşmaq üçün Həsrət Məktubu".

Biz həm də İrəvanıq, Dərələyəz ruhundayıq. Ruh ruhda olar: və bu ruh bütün aləmlərin nuruna bələd olar. Şairə Mahirə Nağıqızı- Ana-baba yurdunun yurduna bağlıdır: ruhən və qəlbən və əqlən o ucalığın və duruluğun çeşməsi çağlayır onun poetik düzgülərində. Məna incələmələrindən və söz mizanlarından gələn bir bədiiyyat var onun şeirlərində. Bu bədiyyatda çox zərif, incə və səlis ifadə poetikası var. Və onun şeirləri kitablardan gələn sözlər deyil: bu şeirlər gündəlik sönük nəzmlərdən uzaqdır: onun şeirlərindəki məna və ifadələr Dərələyəz nişanlarından gələn bulaqlara bənzəyir. Qovuşuq kəndinin mərkəzində olan Otay bulağın uca, böyük dağın altından süzülüb gələn ayna duruluğundan, ruhi mənsubluğa bağlı olma eşqindən nişan alıb nişanlanıb.

Budur, üç bəndin üçü də layla deyir o dərdli-bəlalı yurdlara-ellərə:

Gəzək Şörəyili, Ocaqqayanı,
Qızılqoç unutmur haqqı sayanı.
Çıldıra boylanaq, Allah amanı,
Qalxaq Mesxetiyə, Öysüzdən keçib.

görün hansı dərdin aşiqidir- bu həsrətlər-istəklər! Şörəyil, Ocaqqaya, Qızılqoç, Çıldır, Məhseti, Öysüz… Elə ellərdir ki, dərdləri, haraylar bir bir dairə halındadır: bu yerlər-bir-birinin sirridir, dərdidir… Hər məkan öz laylasındadır, ancaq bütün bu məkanlar dərdlər, müsibətlər içərisindədir. Hər məkan öz faciələri içərisində can verir. Bu ellərin, yurd-yuvaların dərdləri də birdir, müsibətləri də: məkanlar öz sahiblərinin üzünə həsrət qalıb. Bu ellərə düşmən elə bir dağ çəkdi ki, torpaq da, dağ da, dərə də, sakinlər də o dərdlərin fəryadından can verir:

Dağ basdı yağılar dağının üstə,
Tökülən qan qalıb yağının üstə.
Oxşamam köklənir ağının üstə,
Hər nə söylədimsə ürəkdən keçib.

düşmənin əli qanlıdır: dağ üstünə dağ basıb: sakinlıri öldürüb. Hələ də qisası alınmır o məzlumların. Bütün oxşamalar-vəsflər-yadetmələr yağının-düşmənin üstündə köklənib. Və lirik "Mən" fəryad içindədir: bilmir neyləsin:

Haqqıxlı, Cıvıxlı yetişər haya,
Yolumun üstündə Alaçıqqaya,
Səni and verirəm o haqqı- saya,
Çıxaq Murteyilə, Gölkənddən keçib.

Haqqıxlı, Cıvıxlını haraya çağırır; yol üstündə olan Alaçıqqaynı anda verir ki, Çılkənddən keçib Murteliyə çıxaq… Bu məkan adları bütün Qərbi AZərbaycanın harayına çağırışdır.

Şairə Mahirə xanım nə söyləyirsə fəryaddan söyləyir, yanğıdan söyləyir. Lirik "Mən" içəridən yanır. Vətən torpaqlarının, ellərinin, yurdlarının, kəndlərinin halına hayay çalır: ellərin-obaların faciəlirinə sanki ağı söyləyir. Bu söylənişlər şairənin düşüncəsini sərtləşdirir: Vətən, doğma ellər həsrətindən gələn yanğının Eşqi də varıymış. Adətən, aşiqlər Eşqdən yanar. Eşqdən yanma özü də İcaz elminin bir sirridir. İcaz nədir? İcaza bir elmdir: ona " ilmul-icaz, yəni icaz elmi" deyilir. Və o elə bir ifadə tərzidir ki, heyrətdə qoyur insanı. Və İcaz - bir kəlimədir ki, məna tutumları yeddi dəryadan böyükdür.

2. "Qayada bitən çiçək" nağılında yurda dönmək çağırışı.

Və İcaz - möcüzə sözünün köküdür. İcaz məna siqlətinə gərə, bədiiliyin ən bitkin və incə ifadə halıdır. İcaz ən üstün bir bədiiyyat elmidir. Bir söz düzümündən nümunə: "Qayada bitən çiçək" şeiri belə bir nisgilə və iradəyə işarə edilir: hər yer öz sahibini gözləyir: ona görə də yola çıxıb bu ellər- sakinlər Çiçək qayaya bağlanan kimi bütün didərgin sakinlərdə, İnşallah bu dünyada qovuşacaq öz doğma yurd-yuvalarına. Buradakı

deyimlərlə şairə nisgili və həsrəti, gözləməni- intizarı dilə gətirir. Çiçəyin də, qayanın da halından – nisgilindən, həsrətindən ağır hal, nisgil, həsrət varmı? Burada Qaya da Şəxsləşdirilib, Qayaya sığınan Çiçək də. Min külək gələ, çovğun ola, onu qayadan qopara bilməz: yəni didərgin millət öz yurd-yuvasına bağlıdır- ona qovuşmağa getməlidir, çünki Dağ da, meşə də, o Qaya da qayalarda, dağlarda bitən güllər-çiçəklər də, yamyaşıl çəmənlərdə onları gözləyir:

Qayada bitən çiçək,
Qədrini kim biləcək?
Yüz baxanın olacaq,
Bəs səni kim dərəcək?..

O hansı haldır ki, səni belə zülmə salıb? Sənə yaxın gələ bilməyən halından nə xəbər biləcək?! Mahirə Nağıqızı doğma yerlərin- Dərələyəzin halını o çiçəyin halından təşbih edir. Ey çiçək kənardan baxacaqlar, qovuşa biləcəklərmi? Əlbəttə yox. Deməli, nə etməli yaxına getməli: qaya sərtliyində olmalı- qorxmaz və dönməz olmalı.

Buradaca Məmməd Arazın*"qayalıqda bitən çiçək"* bənzətməsi də yada düşür:

Qayalıqda bitən çiçək,
Çiçəklikdə bir qayatək.
Ulduzlara səs düşəcək-
Azərbaycan-yurdum mənim…
"Azərbaycan-yurdum mənim"

Bu Azərbaycana olan bir alqış bənzətməsidir: yəni Azərbaycan həm qayalıqda birtən çiçəkdir, həm də çiçəklikdə bir qaya"dır. Həm qüdrətinə, möhkəmliyinə, həm də zərifliyinə işarə var. Daha bir alqış bənzətmə:" ulduzlara səs düşəcək": yəni qüdrəti dünyada yayılacaq.

Mahirə xanımın "qaya-çiçək" oxşatmasında səsləniş var: ellərə-yurdlara dönməyə səsləniş, çağırış var: burada Vətən-doğma ellərin hasrətindən gələn yanğılar var: doğma yurd-yuvalarından qovulmuş insanların özünü anlatmağa çağırış var: bu öz iradəsini-qaya sərtliyini və iradəsini ifadə etmə çağırışıdır.

Yurdlar- bütün Qərbi Azəebaycan elləri, o cümlədən Dərələyəz məkanları öz kökündədir: *qaya üstündə bitən çiçək` halındadır.* Əsas hünər o çiçəyə yetməkdədir. Buradakı mətnaltı məzmun-ideya da bunu ifadə edir. Bu tərz ifadə şairənin *poetik icazlarının* ən təsirli şəkillərindəndir. "Qədrini kim biləcək?"- sualı nələrə işarə edir? Sözsüz ki, ellərin-sakinlərin hünəri və iradəsi altında= `sarı çiçək"- yəni yurdlar-məkanları hər an düşünən və yadedənlərin qayasıdır, dağıdır o dağlar-qayalar. Çünki o dağların, qayaların və o 2qaya üstündə bitən sarı çiçək" doğmadır o ellərə. Qovuşmaq üçün həsrət çəkir- "qaya üstündə bitən ağ çiçək". "Yüz baxanın olacaq"- bildirisi də o sakinlərlə məkanlar arasındaki bağa işarə edir. Yalnız doğmalar baxar o çiçəyə, onun heyrətli halına- onun nisgili, susuz halına. Qayaya o qədər bağlıdır ki,susuz olmağına da razıdır= təki gəlsinlər o

sahiblər- o həsrət çəkənlər. O həsrət- qovuşacaq: "səni kim dərəcək?" sualı da hökmlüdür. Yəni ey qaya üstündə bitən çiçək- sənin həsrətindən yananlar gələcək- sənə qovuşmağa gələcək!

Sonrakı iki bənd o çiçəyin halındakı dərdin ağırlığına işarə edir:

Qayada bitən çiçək,
Kaş ki, qaya döşündə
Görməyəydim səni mən.
Yerin deyilmi çəmən?

Başqa bir məna bucağından nisgilbildirməvar: "Qayada bitən çiçək,
Kaş ki, qaya döşündə səni görməyəydim"; axısənin yerin çəmənlikdir,yaşıllıqdır.

Qayada bitən çiçək,
Sən mələksən, ya çiçək?
Şehin gözün yaşımı,
Axıb nə bitirəcək?..

və daha bir məna gizlini: "Sən mələksən, ya çiçək?" şehin gözünün yaşıdır, o göz yaşı axacaq nə bitirəcək? Əlbəttə ki, çiçəklərin mehrindən çəmənlər də çiçəkləyəcək: ellər o çiçəklərə büsat quracaq: çiçək çiçəyə, çəmən çəmənə, dağ dağa, meşə meşəyə, qaya qayaya qovuşacaq: o zamançiçək də susuz omayacaq, çəmənlər də. Və sonda iki misra - həsrət halına qovuşmağa işarə edir. Yəni səni dərməyə el-oba gələcək, yerli sakinlərin harayı-şənliyilə çiçəklər dəriləcək- o həsrətlərin qolları açılacaq, çiçəklər əllərdə olacaq- qayalaran dəriləcək: evlərdə olacaq.

Qayada bitən çiçək...
Bəs səni kim dərəcək?

Çiçək və onun halı! Xəbəri yox elin-obanın. Ey çiçək o qayanın üstündə bitibsən— halına yanan olacaqmı? Halına yanmaq üçün gərək o qayaya çıxanın olsun. Yurd-yuvanın dərdi də qayada bitən çiçək misalındadır. Çiçək də, qaya da obrazlardır. Qaya ilə Çiçəyin-dastanıdır. Şairənin bütün təsvir və tərənnümlərində şəxslərşdirmələr - obrazlar var. Qaya da, Çiçək obrazları ilə Mahirə Nağıqızı didərgin salınan insanların halına işarə edir. Hal halın həsrətindədir. Çiçək qayaya o qədər sıx bağlanıb ki, onu heç kəs dərə bilməz, yalnız doğma olanlar ona yaxın düşə bilər. Qayanın da, çiçəyin də dilini onlar - didərginlər bilir.

Mahirə xanımın poetik işarələri, obrazları xalq poetikasına və yazılı ədəbiyyata məxsus ifadə nizamından vəsf edilir. Və başqa bir mənadan də deyək ki, bu bədiiyyatda az sözlə çox və dərin və geniş və hikmətli mənalar verilir. Az sözlə çox məna ifadə etmək tərzi də Dərya Yutumunda bir tutumdur. Mahirə xanım Nağıqızında olan bütün tərənnüm və vəsflər və oxşamalar həsrətin və onu doğuran eşqin və onu doğuran Vəcdin, İlahi heyranlığın poetik icazlarıdır. Və yeri-göyü, asimanı, dağları vədaşları-qayaları və çayları, meşələrilə Dərələyəz - şairə Mahirə xanımın tərənnümdə bir İcazdır.

3. "Yolumun üstündə dərələyəzdi".

Bu yol alıb doğma ellərə yollanmanın, qovuşmaq fəryadının iradəsidir. Mahirə Nağıqızının poeziyasında fəryad fəryad üstündədir, qanad açıb uçan durnalar kimidir və bütün fəryadlar naləli və yanğılıdır: hər yanğısından min qığılcım sıçrayar; bu yanğılar və qığılcımlar və alovlar aşiqlərin yurd-yuva, el-oba sakinlrinin bağrına dağ basar.

Bütün ifadə harayına görə Lirik qəhrəman atəş halındadır: bu atəşlərdən yanğılar artar, necə deyərlər, Yanğı yanğı gətirər.

Yuxarıdakı başlıq olaraq, verdiyimiz misranın bəndi belədir:

Yolumun üstündə Dərələyəzdi,
Donuxmuş səssizlik ruhumu əzdi.
Könlüm nələr duydu, haranı gəzdi.
Axtadan adlayıb, Zeytədən keçib.

bu hansı yoldur belə yol alıb gedir? Bu, Dərələyəzə gedən yoldur ki, bizlər də lap uşaq vaxtından o yolun yolu olmuşuq: Dərələyəzdən İrəvana, Şərura, Naxçıvana gələnlər də o yoldan gəlib, Dərələyəzə gedənlər də o yoldan gedib. Yolun qonduğu yerlərin mənzili başında üstün məkanlar var- Dərələyəz məkanı, Göyçə məkanı. Ayrılıq, Həsrət Heyrətindən lirik "Mən" *"donuxmuş səssizliyin"* ağuşunda fəryada düşüb: bu, ruhu əzən səssizlikdir. Səssizlikdə Fəryadlar də ucalara büləndolur.

Ruhun *donuxmuş* halında nə qədər iztirablar var: özünə qovuşa bilmir ruh - Dərələyəzə qovuşa bilmir onun qovulmuş, haqqı alınmış sakinləri. Könül öz mülkündədir: "Könlüm nələr duydu, haranı gəzdi"- yəni könlümün min qanadı var- onlarla bütün mahal məkanlarını, ellərini gəzdi - xəyalında Özünə qovuşdu. Bunlar elə-belə söyləmlər deyil: bu elə-belə həsrət deyil, bu elə-belə iztirab deyil. Bütün bunlar İztirabın və Fəryadın heyrətindən gəlir. Bunlar lirik "Mın"in Aşiqin qəlbinin və ruhunun göynərtilərinin ifadə İcazıdır.

Və bütün bu ifadələr aşiqin heyrətdən, vəcddən gələn haraylardır, ağrıdır. İlahi, necə dəhşətli bir ağrıdır? Bu, Böyük Dərdin ağırlığı altında əzilən Ruhun yanğısına işarədir.…

Mahirə Nağıqızında Həsrət çox mehribandır sözə mehribandır, sevgiyə mehribandır.

Həsrətdən ana yurdun başına dolanır ruhların o yurdları dolanması kimi…

Ruhən göynəmə var bu heyrətdə.

Dərələyəzə, düşmən caynağında olan və öz sahiblərini gözləyən Yurd-yuvaya, məzarlara və orada əbədiyyən yatan sakinlərin kimsəsizliyinə, məkan və məqamlara münasibətdə Mahirə Nağıqızının da sözlərində belə tələşlar, yanğılar, daxilən hiddətlər vardır. Və bu hiddətlər- onun poeziyasında heyrət və istəyin ən üstün notlarıdır.

Şairə Mahirə Nağıqızının Poetik İcazında Heyrətin Dərələyəz adlı ürək yaxan həsrətinə baxın:

Kəndin hoydu-hoyu üçün,
Dağlarının boyu üçün,
Çaylarının suyu üçün,

Susamışam,Dərələyəz,
Mən gəlmişəm, Dərələyəz!

Lirik "Mən" həsrətin köksünü yarıb çayları, suları üçün susamış bir halı ilə Dərələyəzə- doğma məkanlara qovuşmağa gəlib.

Bu ruhi vurğunluğun, Heyrətin həsrətidir: Lirik "Mən" özünü o həsrətə qovuşmaq vəsfindən ifadə edir: "kəndin hoydu-hoydusu"-yəni çal-çağırı- yaşamın ən üstün bir heyrətidir: canlı və azad bir ovqatın rəngidir."Dağlarının boyu"- dağa məxsus icazın ifadəsidir: o dağlar buluddan da ucadadır: məkanın özü də buludlara yaxındır: necə deyərlər, buludlar o dağlara aşiqdir, dağlar da o buludlara aşiq.

Və beləcə, məna icazından yanaşsaq, ilkini odur ki, Dərələyəz- bir dünyadır- Dünyada dünyadır. Məsələyə bu məna icazlarından yanaşmaqla deyək ki, şairə Mahirə Nağıqızının poetikası üçün ən xarakterik hallar da bu İcazdandır. Və bu icazda silsiləvi Dərələyəz motivləri vardır; habelə Şairənin poetik vəsflərində və məna incələmələrində Həsrətin məxsusi Bayatı Dünyası vardır. Hansı janr formasında söyləyir-söyləsin, onda çox yanğılı Bayatı harayı var. Budur, ölçüsü gəraylıdır, ancaq bayatı üstündədir. Ən yanğılı janr da Bayatı deyilmi?

4. Dağların fəryadında həsrət, yaxud həsrətin dağ ağırlığı.

Budur, daha bir icaz: Dağların halına yanma icazı:

Duman, oralara apar,
Qardı çarası dağların.
Bir qar dənəsində tapar-
Məlhəm, yarası dağların.

Budur, dağın dağından xəbəriniz varmı? Ey dağım, sinənə necə dağlar vurdular! Dərələyəzin hər yanı dağlardır göyündə də dağ var, yerində də, çaylarının axışında da, bulaqların nağılında da, meşələrin vüqarlı görünümündə də.

Duman bir gəmidir səmanın gəmisi, yerlərə-yurdlara qovuşmaq üçün yola çıxan gəmi.

Çünki dağların halı qarlıdır dağ qarı arzular: çünki dağlar yaralı haldadır: sakinlərinin yolunu gözləyir. Çarəsi qardadır: bir "qar dənəsi" məlhəmdir ona çünki ürəyi yanır dağların; çünki dağlar yaralı haldadır və o yaraya məlhəm də yağacaq qardadır. Aşıq Abbas Tufarqanlı da vaxtilə necə gözəl yanğılı və həsrətli söyləyib:

"Dağa qar düşdü, qar düşdü,
Yada yar düşdü, yar düşdü".

Yar yara məlhəmdir: ancaq qar yağdı o dağlardan aşıb yar gələ biləcəkmi? Yara qovuşmağa getmək istəyən o dağların qarındankeçib-aşıb gedə biləcəkmi?! Bu Aşıq Abbas Tufarqanlının lirik qəhrəmanının tələşlarına da işarədir. Mahirə xanım Dağın qar məlhəmini onun qar istəyində görür: bu yanğı yurduva, el-oba həsrətdən xiffət edən, xəstə hala düşən və ürəyi suzundan yanan dərələyəzlinin harayını daşıyır. Harayın və yanğının sonrakı axarlarına fikir verin: elə bil dağalara qar yağır:

Məntək qüssədən əzilib,
Yaşı gözündən süzülüb,
Qar xiffətindən üzülüb,
Qalıb harası dağların...

Vay Allah! dağlar da üzülərmiş: "mənimtək qüssədən üzülüb"- söyləmindən icazlı bir vəsfin göynərtisi gəlir. Qüssədən, həsrətdən dağın "göz yaşı gözündən süzülüb" gəlir: elə bil ki, sel gəlir: çünki dağların yağışı həmişə sel gətirər. Və dağlar "qar xiffətindən üzülüb" fəryad edir: halı-harayı dağları bürüyüb.Budur, bu dağların daha harası bir öz halındadır: "Qalıb harası dağların".

Bu bayatı - səsləniş, haray dünyasında Dağ bir obrazdır. Şairə Mahirə Nağıqızı Dağa öz məna və məzmun icazından vəsf verir: bəzən dağın halına yanır, bəzən dağın vüqarındakı icazı vəsfedir, bəzən dağa Dərələyəz icazından təsvir verir, bəzən dağa oxşama söyləyir - Dərələyəzin halına yandığı üçün. Və beləcə, şairə Dağa Dağ icazından min vəsf verir: hər vəsfdə də min həsrət yanğısı vardır. Bu vəsflərdə Həsərət həsrət gətirir, həsrət həsrətə qovuşmuş olur: məsələn, Dağ Dərələyəzə, Dərələyəz də Dağa sığınır. Şairə Dağın da, Məkanda məkan olan Dərələyəzin də dərdini acır, sirrini söyləyir:

Söylə sözünü, ey nakam ellərin dərdinə-sərinə, dərd-sər qoşqusundan haray salan, səsinə səs, nisgilinə nisgil nəğməsi oxuyan şairə:

Duman örpəyin açmadı,
Yar deyib üstə qaçmadı.
Möhnətdən, dərddən uçmadı,
Çıxdı qorası dağların.

Bu, bilavasitə həm də Dərələyəz motivlərindən gələn lirizmdir: Dərələyəz motivdə motivdir, ruhda ruhdur, qəlbdə qəlbdir, hikmətdə hikmət!

Duman üstündə örpək. Duman örpəyini niyə açmadı? Dağ o örpəklə özünün dərdli olduğunu bildirir və duman, "yar deyib" üstünə qaçmadı. Niyə qaçmadı? Qaça bilmədi, çünki dərddən, möhntən taqəti kəsilmişdir."qorası çıxdı"- yəni yandı-yandı və yandı dağlar. Bu, həsrət yanğısıdır, eşq yanğısıdır.

Ümumiyyətlə, Dərələyəz bayatı ruhundadır və Dərələyəz özü bayatıdır: çağırışı, həsrətli heyrəti vardır. Məzarlarında qalxan haraylar vardır! Həsrət çəkən ruhların ahı vardır! Yurd-yuvaların harayı, fəryadı vardır. Bu Həsrətin Ruhunda bir Heyrət vardır: Ruhda Ruh vardır. Mübarək Ruhdur. Bu ruhun hir "Heyratı" oxusu kimi - nəğməli səslənişləri vardır.

Dərd qarsıdıb, rəngi solub,
Himə bənddi, gözü dolub.
Hamımıza umud olub
Səfi, sırası dağların.

Dağlar - dağ üslubundadır görkəmi və iradəsilə… Mahirə Nağıqızı də o iradədən iradə bulub - hər halına min bir hal qatan dağların halını dilə gətirir.

Budur halını dərd qarsılayıb- yandırıb boğuq hala salıb. Bir himə bənddir ki, ağrılarına, həsrətinə göz yaşları axıtsın- haray salsın bütün yeri-güyü ağlatsın.

Ancaq, dağ həmişə dağ gücündədir, ona bağlanmaq da bir üslubdur: hamıya ümiddir o vüqar və əzəmətilə çünki ona qovuşacaqdır el-obasıyla. Çünki səfi, sırası həmişə yerindədir və o dağlar öz sakinlərini çox gözəl tanıyır. Bir ilahi hikmət var ki, Allahın yaratdığı bütün təbiət aləmi də danışır: dağ da danışır bütün gücü ilə Allahı təsbih edir, ondan gələn o gücə və səfə və düzünə Şükrlər edir. Və o şükürlər ilə zaman da gəlir:

Yaz gələr, yenə dillənər,
Coşar, fərəhnən sellənər,
Binələriynən şenlənər,
Yanı-yörəsi dağların.

Və bu güc ilə, qüdrətlə, fərəh və həvəslə yaz gələr. Yenə dillənər dağlar, coşar, fərəhlənər, sellənər seli bütün daşları sürüyüp aparar çuxurlara. Bütün binələr o çal-çağırına qovuşar, və dağların yan-yörəsi bayram halında olar.

Səmimiyyət və kövrək ifadələrinə görə, Mahirə Nağıqızının hər bir söyləmində bir Bayatı axışı vardır. Sözlərin və mənaların qəfil çaxışı kimidir; eyni zamanda o ellərin sısqa yağışına və o yağışın ruhları oxşayan nəğmə səsinə bənzər səsi vardır.

Dərələyəz motivi onun xilqətindən gələn halıdır: adamlarının da halında olan səmimiyyət və aydınlıq və məsumiyyət halıdır. Dərələyəz və adamlarında təbiətən aydınlıq və duruluq və zəriflik və etibar, fəfa və sədaqət vardır.

Və Dərələyəz poetizmi dağların həzin baxışına, meşələrin yamyaşıl rənginə canlı görünüşünə, çayların gur axışına, bulaqların həzin laylalı Gülümsər süzməsinə bənzəyir.

Xəbəri yox, könül verdim,
Ayağına xalı sərdim,
Mahirə, kim çəkər dərdin
Səndən sorası dağların? (Dağların)

Lirik "Mən"in halına da hal gəlir könül verdiyi dağların dərdini çəkib aparır öz İcazlar dünyasın.

"Xəbəri yox, könül verdim"- söyləyir, əksinə bu xıbəri var deməkdir. Dağ həsrətində olan elin-obanın halından xəbərsiz olarmı? Bu necə bənzətmədir: "Ayağına xalı sərdim"- söyləmi şahanə bir hikmət düyünüdür: dağa olan ehtiramınbir işarəsidir: nə gözəl bir eşq, sevgi! Nə gözəl bir sədaqət! Dərd çəkmət icazın ən üst laylarındandır. Dərdini çəkmək qayğısına qalmaq, halına yanmaq halıdır.

Aşiq öz dağının başına dolanar, onun ayaqları altına sərər xalıları. Buradakı "Mahirə, kim çəkər dərdin, Səndən sorası dağların?" çox nidalıbir kədərdir, ağırlıqdır. Ellər dönər, öz halına ağlayar dağlar dağ üstə dağ çəkilib: yurd-yuva öz Harayındadır necə yetsin o dağa? Atalar deyib: "Dağ dağa qovuşmasa da, insan insana qovuşar.Ancaq Mahirə xanımın istəyini belə bir tərzdə aydınladaq ki, Bu Eşq icazında elədir ki, dağ

insana, İnsan dağa qovuşar. Çünki İnsan İnstəyinə qovuşandır: Allah-Təala deyib ki, biz istəkləri qovuşdurarıq- təki istək olsun, təki o iradə atları yürüşə qalxsın!

Mahirə Nağıqızının özünə xas bir Bayatı dünyası var. Bu bayatı ilə o avazlı nəğmələr söyləyir: bu nəğmələrdə nisgillər var, həsrətlər var, ağrılar var ağırlığı ilə bir dağdan da betərdir; dağlar var dünyanın bağrını deşər həsrətləri, iradə var ki, bütün sədləri aşır, körpülər var ki, bütün çayların üstündən salınar. Dərələyəz ellərinin min-min dağları var hər dağ da bir mənzildir: Dağ Mənzili. Dağ mənzilləri uca olar dərinliyi də yerüstü ucalığından dərindir.

Bu poetizmin ilkin yazı və söyləm tərzi "Kitabi-Dədə Qorqud"da vardır. Yeri gəlmişkən, deyək ki, Dərələyəz mahallarının tələffüzündə Dədə Qorqud dilinə xas söyləmlər vardır: aydın və səlis danışığın, ifadənin ən yatımlı və yumşaq tərzi vardır. Və bu həm də Dərələyəz dağlarının səma baxışlarından xəbər verir: buludları çox yaxındadır ağappaq və işıqlı haldadır. Arpaçayının axışı da ayrı bir aləmdir: dağların ətəyindən yol alıb axan Arpaçayı sularının səsi evlərdən də eşidilirdi. Və bütün bunlar BİTKİN VƏ İCAZLI POEZİYA DEMƏKDİR. Bu icaz tərzi, təbiətən o ellərin qəlbindən, hiss və duyğusundan- insanların özünü ifadəetmə tərzindən, özünü vəsfdən, oxşamadan, təsvir və tərənnümün ifadəsindən gələn motivlərdir.

5. Buludlar kimi dolmağın fəryadı.

Şairə Mahirə Nağıqızı vətənin həsrət ellərinin dərdini-fərydını öz ruhi aləmində daşıyıb fəryad qoparıb və öz məqamını dahi bitkin bir heyrətdən ifadəetmə fövqündə qərar tutub. Buna görə bir gəraylı notundan böylə söyləyir:

Buluddar kimi dolmuşam,
Yağaram, dindirmə məni.
Gəzib yerimi bulmuşam.
Göylərdən endirmə məni.

Şairə Mahirə xanım niyə böylə söyləyir? Hər şeydən öncə, onun bu söyləmlər daxili fəryaddan gələn bir zəfəri ifadə edir: zəfərli halında olmanın işarəsi gəlir. Daha bir haldan yanaşsaq, bu hal bütün vətən yurdlarına və onların dərdli-nisgilli sakinlərinə aiddir. Bulud kimi dolmaq iki halı ifadə edir: birincisi, buludlar ağırlıq və əzəmət halıdır: hər buludun öz vəzifəsi var: hamısı yük daşıyar.

Oyüklərdə ən mehribanı yağış damçılarının səpələnməsidir**.** *"Yağaram- dindirmə məni"*- həm də onu ifadə edir ki, indiyədək tək, yalqız halda olub, halına- dadına yetənlər olmayıb: Vətən yurdlarının qəzb halıdır-çəkilən iztirabalrın rəmzi ifadəsidir Eyni zamanda bu,duruluq və aydınlıq rəmzidir.

Və: "Gəzib yerimi bulmuşam; Göylərdən endirmə məni"- deyimi də elə bir səslənişdir ki, bunda ucalıq var göyüzündən xəbər var: orada könül mülkünün Həsərət və vüqar mənzilləri var; orada güc var, iradə var: elə birməqam halı var ki, daha o ucalıqlara heç kəsin oxu çatmaz, düşmən oxları onun öz təpəsinə yağar.

"Göylərdən endirmə": çünki heç endirə də bilməzsən: çünki o göylər igidlər və zəfərlər məqamıdır. Zəfər zəfər gətirər və hər zəfərin min fəryadı olar.

Lirik "Mən"öz məqamını gözəl idrak edir

"Həsrətin yanğısından fəryad halında olan insanın halını ifadə edir. Bulud kimi dolan adamı dindirən kimi gözlərindən sellər-sular axacaq: dərdini söyləyəcək: bu söyləmlərdə dərdin və həsrətin ən harayıı bi fəryadı səs salacaq. Bu da qəhrəmanlıq nərəsi olan səsdir: Millət bunu Koroğlu nərəsindən tanıyır.

Burada ifadənin ən sadə və ən yanğılı bir boyası var bu, poetika aləmində İcaz üsuludur.

Bu poetizmin düzülüşü dəvə karvanının sırasına bənzəyir: karvan heç vaxt yorulmur, bezikmir. Burada məxsusi ifadə icazları, məna anlatımları vardır.sonda şairənin daha bir heyrətini də açıqlamaq yerində olardı:

Yuvan olam o kənd kimi,
Açılmayam kəmənd kimi.
Dəmir qapı Dərbənd kimi,
Önündə yola çevriləm.

Biz Dərbənd yoluyuq necə ki, Dərələyəz, İrəvan, Vedibasar, Zəngibasar, Kərkük yoluyuq. Yol ki başladı yolçu yolda gərək: bütün ellər o yolun sirdaşıdır.

Sular, süngər olaydım,
Torpaq, səngər olaydım.
Sən əmin uyuyaydın,
Vətən, əsgər olaydım!

Bu poetik ifadə icazında hansı sirr vardır? Süngər oəmaq, yəni o yerə-yurda, torpağa bağlı olaydım, elə bir bağlı halda olaydım ki, oradan qoprmaq mümkün olmayaydı məmişə axaydım o yerlərdən, torpaq üstdən. Üstəgəl, torpaq da səngər olaydım, səni, ey torpaq, qoruyaydım. Səngər və süngər olaydım ki, sən əminli, rahat halda uyuyaydın…və Ey Vətən səndə belə bir hünərə malik əsgər olaydım…

Başqabir bayatıdakı yatıma fikir verin: könlünə layla çalır kimi,səslənir:

Talenin yolu könlüm,
Sandığı dolu könlüm.
Yüz səsi eşitmədin.
Bir sözün qulu könlüm.

Taleyin yolu: könül öz yolunda olar, o yolun mehrindəə mehr alan insanın taleyi; ey "taleyimin yolu könlüm" sən öz ruhunda oldun- bağlandın özünə. Bu, aşiqin könlünün dönməzliyinə işarə edir. İnsanlar qəlbində və ruhunda, əqlində sevgisi, eşqi hər zaman hərəkətdə olan sakinlər - dərələyəzlilər də öz sözündə və ruhunda olduqlarına görə, dönməzlər öz iradələrindən yurd-yuva, doğma ellər, məzarlar, dağlar-dərələr, meşələr, çaylar, bulaqlar həsrətindən.

Və beləcə, məna icazından yanaşsaq ilkini odur ki, Dərələyəz bir dünyadır, Dünyada dünyadır. Məsələyə bu məna icazlarından yanaşmaqla deyək ki, şairə Mahirə Nağıqızının poetikası üçün ən xarakterik hallar da bu icazdandır. Və bu icazda silsiləvi Dərələyəz motivləri vardır; habelə şairənin poetik vəsflərində və məna incələmələrində Həsrətin məxsusi Bayatı Dünyası vardır.

Bir istək var ki, bütün həsrətlər onda birləşər. Məkanlar var orada qərib evlər, sahibini gözləyən mənzillər var; o məkanlarda məzarlar var: hər gün həsrəti yol çəkər-gözü yol çəkər ki, bəlkə, gələn oldu onların narahatlığına aram qatar:

orda bulaqlar var ki, hər an güzgü kimi həsrət çəkər; çaylar var ki, Arpa çayı kimi üç-dörd qolludur Şairənin Ana-Baba mənzili olan Qovuşuq kəndində qovuşub bir birinə, Araza doğru yol alıb. Hər halı ilə sözün gücü hərəkəti Vətən, doğma yurdlar oylağına qovuşmaq fəryadına bağlıdır. Burada Fəryadın başqa bir Heyrəti də var: gəlmək, doğma ellərə, yurdlara qovuşmaq:

Şairə Mahirə xanım bayatıüstü şeirlərilə janrın poetik tərənnümünü, üslub və məna icazlarını yeniləşdirən şairədir: bayatıya bayatı qoşur. Sözün bağrını deşir Fərhad külüngü ilə Bisütün dağını deşən kimi. Fərhad Bisütun sütunsuz dağı sütunlu elədi. Bu mənada Mahirə Nağıqızının da bayatıları sütunlu və axarlıdır...

6. "Mahirə, yığnağın olmaz,dağ olmasa anan sənin".

Şairə Mahirə Nağıqızının özünə xas bir bayatı dünyası var: bu hər şeydən öncə, Dərələyəz ruhundan gələn bayatıdır. Şairənin poetik icazında Bayatı Bayatı üstündədir. Burada həsrət bayatı çağırır: həsrət həsrətə qovuşur**…**

Bu bayatı ilə o avazlı nəğmələr söyləyir: bu nəğmələrdə nisgillər var, həsrətlər var, ağrılar var, ağırlığı ilə bir dağdan da betərdir; dağlar var dünyanın bağrını deşər, iradə var ki, bütün sədləri aşar, körpülər var ki, bütün çayların üstündən salınar. Dərələyəz ellərinin min-min dağları var hər dağ da bir mənzidir: Dağ Mənzili.

Şairə Mahirə Nağıqızı poeziyasında hər şey Heyrət karvanıyla hərəkət edir. Heyrət-heyrət gətirər demək ki, yanğını törədən də o heyrətin şiddətidir. Və bütün heyrətlər həsrətin yanğısını artırır. İstək və niyyət bu heyrətdə bir duadır…

O dərəcədə heyrət var ki, şairə dərdləri özünə bir təskinlik mənzili edib: həsrət mənzilində oturasan ağı deyəsən, qan ağlayasan yanğılarının şimşək kimi çaxışıyla özündə alışıb yanasan… bundan ağır bir dərd olarmı?

"Sənin" rədifli gəraylısındakı bayatının həzinliyinə, göynərtisinə, yalvarışına fikir verin:

Dağlar, xalıdan yamacın,
Qayaların xına sənin.
Ərk eliyəm, niyət deyəm,
Səbrin varmı buna sənin.

Şairə nazlama deyir: yamaçların xalındır, qayaların da xınadır rənglərin rəngində olan bəzəmədir vəsfin özündə bir həsrət var yada salır o həsrəti sənin bütün görkəmin və nişanların bizə aydındır, bizə məxsusdur. Lirik "Mən" Bir niyət etmək diləyilə vəsf verir. O niyyət nədirsə, həsrətin içindən coşub gələn, coğqudan qaynayan bir heyrətin ifadəsidir:

Yolum cığır, özüm açdım,
Xain müxənnətdən qaçdım.
Diləyim şahintək uçdu
Ki sinənə qona sənin.

bütün yolları və çığırları özüm açmışam; xain müxənnət məni didərgin saldı. Həsrətin ən ağırıdır yük kimi lirik qəhrəmanın çiynində, köksündədir. Dilək odur ki, şahin təkuçub sinənə qonam, orada bir həsrət nəğməsi oxuyam.

Gözüm qarında qalmadı,
Dövlət varında qalmadı.
Heç kim yadında qalmadı,
Deyəm, qəlbin yana sənin.

Yaddaşa ağır zərbə: heç kim yadında qalmadı- deyə sözlayan aşiqin içarəsi onadaır ki, hər şey yadındadır. Bu dünydan köç edənlərin dərdində getdin, qəmində getdin Yanğılı olan qəlblərn nisgilində getdin.

Və bir ağrının min ağrısını söylədi:

Həsən Mirzə müsafirin,
Sənə sevgi, eşqi dərin.
Dağ – deyib yumdu gözlərin,
Ünün yetdi, ona sənin?

Həsən Mirzə kimi oğullar da Vətən dağlarında bir dağdır. Müsafir oldu- köçdü bu dünyadan,o azad dünyada, sözsüz ki, qovuşub o dağlara həsrətin dəryasında üzən gəmi kimi qovuşub öz Dağ səmasına. "Dağ" nisgiliyə dünyadan köçdü: daha bu dünyanın belə dağlarınanə qədər dözmək olardı?!

Sözsüz ki, ünü, harayı, səslənişi, dağ harayında olan nisgiliylə səsini dağlarda eşitdi. Və yetişdi öz oylağına Dağ sakinləri.

Hər kəsə oylağın olmaz,
Namərdə yaylağın olmaz.
Mahirə, yığnağın olmaz,
Dağ olmasa anan sənin.

Daha dəhşətli bir yanğı: həsrətin bağrı çatlayır, Heyrətin ən üstünüdür: dağ heyrətindən gələn bir heyrətdi: Dağ yalnız ona bağlı olanların oylağıdır. İnsan o istəklərin həsrətinə daha dözə bilməz. Namərdlər də orada yaylaqlaya bilməz. Və "Mahirə, yığnağın olmaz dağ olmasa anan sənin" söyləmindən yanğılı daha nə ola bilər. Lirik "Mən"in anasıdır dağ. Nazlı Ananın halındadır Dağ. O elə bir haldır ki, nəfəsindən də, ahından və səsindən də, fəryad qoparıb dağları-dağları ağladar o fəryadlar. Bu, poetik icazın daha bir uca heyrətidir.

Heyrət heyrətə qovuşur Mahirə Nağıqızının poetik dünyasında. Sanki el-elə qovuşur, oba-obaya, yurd-yurda. Dağ dağa qovuşur, çay çaya, meşə meşəyə, bulaq bulağa və həsrət həsrətə qovuşur. Bütün bunlar icazda icazdır.

Yağılara bir qarğış var düşmənə. Buğacın anasının söylədiyi o qarğışlar də hiddətdən və qəzəbdən, habelə övlada olan sevgidən gələr kimi. Mahirə xanım da bir övlad kimi, ana kimi, nisgilli bi ozan kimi dağa sanki vəsf söyləyir: Dərdini dilə gətirir dağa olan bu söyləmlərilə dağların və Arpaçayının, bütün yurd-yuvaların harayını bir yük kimi çəkib aparır. Və Mahirə Nağıqızının poeziya aləmində:

həsrət yanğı halındadır;
heyrət yanğı halındadır;
vəsflər yanğı halındadır;
bütün yanğılar dağların halındadır;
dağların sinəsinə dağ çəkilib
kəndlərin sinəsi dağlıdır
məzarların həsrəti yanır
Həsrətin Dağı yanır, çayı yanır.

Dağ mənzilləri uca olar, dərinliyi də yerüstü ucalığından dərindir. Bir istək var ki, bütün həsrətlər onda birləşər. Məkanlar var orada qərib evlər, sahibini gözləyən mənzillər var; o məkanlarda məzarlar var: hər gün həsrəti yol çəkər, gözü yol çəkər ki, bəlkə, gələn oldu onların narahatlığına aram qatar:

orda bulaqlar var ki, hər an güzgü kimi həsrət çəkər;
çaylar var ki, Arpa çayı kimi üç-dörd qolludur

Şairənin Ana-Baba mənzili olan Qovuşuq kəndində qovuşub bir- birinə, Araza doğru yol alıb.

Hər halı ilə sözün gücü hərəkəti Vətən, doğma yurdlar oylağına qovuşmaq fəryadına bağlıdır. Burada Fəryadın başqa bir heyrəti də var: gəlmək, doğma ellərə, yurdlara qovuşmaq.

Bitməyən bir xülasə: mənzildə mənzil: Vəsfin sahil mənzili, yaxud- dağların həsrət mənzili.

Şairə Mahirə xanım bayatıüstü şeirlərilə janrın poetik təqtini, üslub və məna icazlarını yeniləşdirən şairədir: bayatıya bayatı qoşur. Sözün bağrını deşir Fərhad külüngü ilə Bisütün dağını deşən kimi Fərhad bisütun sütunsuz dağı sütunlu elədi. Bu mənada Mahirə Nağıqızının da bayatıları sütunlu və axarlıdır...

Və Həsrət vüsal gətirər bu yanğıların coşqusundan:

Bütün bunlar Mahirə Nağıqızının şeirlərindəki Həsrətin əlamətlərindən gələn əlamətlərdir: Bunlar Həsrətin Dərələyəz heyrəti və oxşama motivləridir axar çaya bənzər Arpaçayına, qaynayıb qalxan bulaqlara bənzəyir. Qızılı bulağa, Otay bulağa, Yastıbulağa… Və Dağlar dağ olub yerindən oynar, Həsrət övladlar Həsrət ellərə və yurdlar və dağlara qovuşmasa. Nə Ağır Heyrət! Nə yanğılı Həsrət. Bütün vücudu titrəyir insan dağ çəkilir didərgin sakinlərin köksünə. İnsanın həsrətdən dağı da əriyər bu fəryada. Dağlar su olub axar, əgər bu həsrətlər öz yurd-yuvaların, öz ellərinə, dağlarına, meşələrinə qovuşmasa.

Beləcə, Mahirə xanımın poetik icazlarında min həsrət var, min bir fəryad. Həsrətdə həsrət var Dağda dağ var, İnsanda Dağ vüqarı, Həsrət axarları var. Bütün bunlar Dərələyəz harayının Heyrətlərindən gələn ağrılardır. Və bu haraylar eli elə qovuşdurar, yurdu yurda, dağı dağa… İtkin düşən ellərin can sadağası Dərələyəz Eşqindədir. Eşqin mübarək, ey Vətən yurdu, el yurdu, oba yurdu, məkan yurdu, dağ yurdu!...

ƏDƏBİYYAT

3. "Dirsə xan oğlu Buğac xan boyını bəyan edər, xanım, hey". Kitabi-DədəQorqud. – Bakı: – 2004. – 376 s. ISBN 9952-416-08-2. s. 32. D-28.
4. Mahirə Nağıqızı. Onun daş nağılı. – Bakı, ADPU nəşriyyatı, – 2020, – 419 s., s. 72-73
5. Mahirə_Hüseynova https://az.wikipedia.org/wiki
6. Mahirə Nağıqızı https://www.facebook.com/profile.php?id=100013323278450
7. Şərur-Dərələyəz mahalı, Arazın sol sahili- Xələc kəndi. 17 noyabr 2023-cü il

SUMMARY

Ebulfez Ezimli

**IN THE POETIC PERMISSION OF MAHIRA NAGIQIZI
GRADUAL FIRES OF AWESOME**

Mahira Nagygizi, the Ozan Ruhlu poetess of our contemporary poetry, and her expressive poeticism and poetic expressions in this poeticism, and the clear and contagious folk lyricism and expressive poeticism characteristic of these expressions... there is both a divan and a spirit of folk poeticism here. Because the poet speaks spiritually, from the heart, expresses the cries of a lover's heart with fire. All the cries are of amazement. There is also a "Surprise" in the world of mugham: in this, the cry increases gradually - it reaches the top floor.

In Mahira Nagygyzi's poetic permission, Deraleaz is the hands of longing. In the present case, it is the hands of anguish and cry, longing and wonder. It is because of suffering and crying that longings are boiling deep in the existence, soul and will of those who are suffering: a mountain has been drawn on the chests of people who sacrifice their lives for their homeland! The terrible fire at the neck of "Dirsa khan oglu Bughac" who thought that Bughac was dead - like the cry of his mother - DERALAYAZ yurts.

Poet Mahira Nagygizi sings Deraleyaz's cries out of stale color: because she is in love with the poetess. Isn't every child of the Motherland and every person longing for home in love? And isn't that Lover always in Love? And in this case, aren't the Darelaez provinces and districts also the native homes of lovers, hearths of the homeland, fires of longing? Because they were forcibly taken out of their homes, driven out - by the oppression of the enemy! All these cases are in wonder. The staff was amazed. The sayings and poetic cries of the poet are astonishing.

Key words: *Mahira Nagygizi and poetic permission, Amazing Darelaez Fires*

AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA HUMANİZM

Xanəli KƏRİMLİ
xanelikerimli@gmail.com
Naxçıvan Dövlət Universiteti

Azərbaycanın qədim və zəngin tarixə,mədəniyyətə, ədəbiyyata malik olan Qərbi Azərbaycan öz tarixi keçmişi ilə qürur doğuracaq bir diyarımızdır. Yaxın yüz ildən artıq bir dövrdə tarixin bir sıra başıpozuq əsintiləri nəticəsində Azərbaycandan qoparılaraq kökü və soyu tarixin qaranlıqları içərisində itib-batan haylara ermənilərə vətən olaraq verilən Qərbi Azərbaycan erməni vandalları tərəfindən nə qədər "özününküləşdirilsə" də, torpaq tarixi keçmişinə sadiq qalaraq öz milli mənəvi simasını hələ də qoruyub saxlamaqdadır. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, xalqımızın qürur və ilham mənbəyi olan İlham Əliyevin dəmir və dönməz qətiyyəti ilə Qərbi Azərbaycan məsələsinin gündəmə gətirilməsi və bu məsələdə Qərbi Azərbaycan İcmasının ardıcıl və davamlı mübarizəsi yaxın zamanlarda Qərbi Azərbaycanın qaranlıq və müəmmalı tarixinə işıq salacağı inamındayıq.

Qərbi Azərbaycan böyük mədəniyyətə və ədəbiyyata malik olan bir mənəviyyat xəzinəsidir. Bu torpaq, xüsusiləAzərbaycan aşıq sənətinin inkişafında və günbəgün zənginləşməsində misilsiz rol oynamışdır. Yeni dövr aşıqlıq sənətinin ilkin nümayən-dələrindən olan və əsl adı Aşıq Allahverdi kimi tarixə düşən Ağ Aşıq (1754-1860), Aşıq Alı (1801-1911), Aşıq Vəli (1854-?), Aşıq Cəlil (1868- ?), Aşıq Əsəd (1875-1950), Aşıq Nəcəf Daş-kəndli (1876-1919), Aşıq Talıb (1877-1979), Aşıq Nəcəf Ağkilsəli (1900-1968), Növrəs İman (1903-1932), Aşıq Cahad (Hacıyev) (1917-1013), Aşıq İmran (1928-1999) və onlarla istedadlı aşıqlar Qərbi Azərbaycanın Göyçə, Zəngəzur və Dərələyəz mahallarından çıxmış ustad aşıqların hər biri ayrılıqda bir aşıqlıq məktəbi yaratmaq gücündə idilər.

Adlarını çəkdiyimiz və çəkmədiyimiz Qərbi Azərbaycan aşıqları içərisində Göyçə aşıq ədəbi mühitinin yetirməsi, XIX-XX əsrAzərbaycan aşıq mühi-tinin formalaşması və inkişafında müstəsna xidmətləri olan Aşıq Ələsgərdir. Aşıq Ələsgər haqqında Azərbaycan Türkiyə və digər dost və qardaş türkdilli ölkələrdə xeyli tədqiqat xarakterli elmi əsərlər və məqalələr dərc edilsə də, fikrimizcə, ən dəyərli fikirlərdən birini professor, AMEA-nın müxbir üzvü Yaşar Qarayev (1936-2002) demişdir:" peyğəmbərlərdən sonuncusu Məhəmməd peyğəmbərdir, Peyğəmbər aşıqların sonuncusu isə Aşıq Ələsgərdir" [2].

Aşıq Ələsgər (1821-1926) minillik tarixi keçmişimizin saxlanc yükünü çiyinlərində ləyaqətlə daşıyan Dədə Qorquddan sonra ədəbi və milli yaradıcı təfəkkürümüzün daşıyıcısı olan ikinci Dədədir ki, bu da xalqımızın sözə,saza vurğunluğundan irəli gəlmişdir. Aşıq Ələsgər-Dədə Ələsgər sənəti iki varlığın - İlahi hökm və hikmətin və xalqımızın tükənməz mənəvi sərvəti olan söz xəzinəsinin qovşağından meydana gəlmişdir. Tədqiqatçılar dönə-dönə qeyd edirlər ki, Aşıq Ələsgər məktəb-mədrəsə görməyən, yazı-pozu bilməyən bir adam olub. Xatırladaq ki, peyğəmbərimiz Məhəmməd Mustafa da məktəb-mədrəsə görməyən, yazı-pozu bilməyən Allahın elçilərindən biri olub. Peyğəmbərimizə 40 yaşında ilk vəhy gəlib, Aşıq Ələsgər də, təxminən, 40 yaşlarından

yaradıcılığa başlayıb. Professor Yaşar Qarayev bəlkə bu oxşar cəhətlərə görə də: "peyğəmbərlərdən sonuncusu Məhəmməd peyğəmbərdir, Peyğəmbər aşıqların sonuncusu isə Aşıq Ələsgərdir", deyib. Hər halda bu oxşar talelərdə bir ilahi hikmət də var.

Tədqiqata cəlb etdiyimiz humanizm ("humanizm" latın sözü olub "insanlıq", "insanpərvərlik" deməkdir) anlayışı bəşər mədəniyyətinin ilkin inkişaf mərhələlərindən başlayaraq antik dövrün Aristotel, Sokrat, Epikür, Demokrit, Platon kimi filosofların, eləcə də qədim və orta əsrlər dövrünün və çağdaş dövrümüzün ictimai, elmi şüurumuzun əsas araşdıma predmetinə çevrilmişdir. Və danılmaz bir faktı da unutmayaq ki, humanizm anlayışı təkcə filosofların,ictimai-sosial düşüncə adamlarının diqqət mərkəzində olmuşdur, humanizm anlayışı, məzmun və mahiyyəti eyni zamanda, bütün dövrlərin yaradıcı adamlarının diqqət mərkəzində olmuşdur. İnsan və insanlıqda tapınan bu ali duyğu və düşüncə isə müqəddəs "Qurani-Kərim"də təcəlla eyləyən Allahın, belə demək mümkünsə, bəşəri humanizmindən gəlir. Çünki Allah nə yaratmışdırsa, onu sevərək yaratmış və gözəl yaratmışdır. Ona görə də, Allahın yaratdığı varlıqlar içərisində İnsan yaranmışların əşrəfi sayılmış və bütün yaranışlar insana xatir yaranaraq ona xidmət üçün nəzərdə tutulmuşdur. Müqəddəs kitabımızın bir çox (100-ə yaxın) ayəsində, o cümlədən "Bəqərə" surəsinin 29-cu ayəsində deyilir: "O, (Allah) yerdə nə varsa, hamısını sizin (insanlar) üçün yaratdı" Bu ayədən çıxan nəticə budur ki, əgər Allahın yaratdığı bütün maddi və mənəvi dəyərlər insan üçündürsə, insanın da yaratdıqları insana və insanlığa xidmət üçündür..

Necə ki xalq şairi Məmməd Araz demişkən:

Bütün vəzifələr, bütün qanunlar,
İnsana, insana xidmət üçündür. [3.176]

Biz Dədə Ələsgərin 200 illik tədbirlərinin birində çıxış zamanı demişdik ki, Aşıq Ələsgər ulu Dədə Qorquddan başlayaraq Əhməd Yəsəvilərin, Həllac Mənsurların, İmadəddin Nəsimilərin, Mövlanə Füzulilərin nəsil şəcərələrinin davamçısı kimi Haqqdan gələn, haqqı deyən bir irfan şeyxidir. O, bir ustad kimi, ilahi nuru ilə dolu mövlanə kimi, adlarını hörmətlə xatırladıqlarımız kimi, Yer adamından çox Göy adamı idi. Ona görə də aşıq dillər əzbəri olan "Ayə məndədir" şeirində deyir:

Bir sazım var, yox pərdəsi, nə simi,
Onu çalıb kim tərpədər nə simi?
Firdovsi, Füzuli, Hafiz, Nəsimi-
Onlar da yazdığı, ayə, məndədi.
Yaxud:
Dərsi azlar Ələsgərdən dərs alsın,
Altı min altı yüz ayə məndədi..[1.90]

Elə buna görə də Aşıq Ələsgər dühası Azərbaycan aşıq sənətində bir məktəb yaratmışdır. Aşıq Ələsgər irsinin davamlı tədqiqatçısı olan aşığın nəvəsi, filologiya üzrə fəlsəfə doktoru İslam Ələsgər bu mətləbə işarə edərək yazır: "Bilavasitə Aşıq Ələsgərin himayəsində ərsəyə gələn aşıqlardan çoxlarının adı məlumdur. Bunlardan Göyçənin

Daşkənd kəndindən olan Aşıq Nəcəf, Qızılvəngdən Aşıq Mustafa və Aşıq Yusif, Qızılbulaqdan (Çaxırlıdan) Aşıq Hüseynalı, Hüseynqulağalıdan (Nərimanlıdan) Aşıq İsa və Aşıq Mikayıl, Zoddan Aşıq Qasım və Aşıq Ağayar, Kəsəməndən Aşıq Nağı, Böyük Məzrədən Aşıq Qiyas, Sarıyaqubdan Aşıq Məhəmmədəli və Aşıq Paşa, Böyük Qaraqoyunludan Aşıq Sadıq və Aşıq Əsəd, Zərzibildən Aşıq Nağı, Ağkilsədən Aşıq Qurban, Aşıq Talıb, Aşıq Nəcəf, Dərəçiçək mahalının Torpaqqala kəndindən Aşıq Alı və b.-nın adlarını çəkmək olar. Qısacası, Göyçədə adları bizə bəlli 170-dən artıq aşığın çoxu Aşıq Ələsgərin şəyirdləri və ya şəyirdlərinin şəyirdləridir" [1, 7-8].

Bu fakt Aşıq Ələsgərin təkcə bir ürfan əhli,ilahi düşüncənin daşıyıcısı olan söz adamı kimi yox, bir insan kimi insana və insanlığa dəlalət edən humanizmindən irəli gəldiyini göstərir. Aşıq Ələsgər istər təbiətdən, istər cəmiyyətdən, istərsə də aşiqanə duyğularından yazanda da başlıca amalı insana və insanlığa xidmətdir. O, insanı Allahın istədiyi səviyyədə kamil görmək istəyir. İnsanın kamilliyi təkbaşına formalaşan amil deyil. İnsan yaşadığı cəmiyyətdə, düşdüyü ictimai-siyasi şəraitdə formalaşıb inkişaf etdiyindən aşıq inşalarda qarşılıqlı hörmət, anlaşıqlı münasibət, bir-birinə diqqət kimi mənəvi dəyərlər axtarır və bir haqq elçisi kimi insanları səmimiyyətə dəvət edir "Eylər" qoşmasında olduğu kimi:

"Can" deməklə candan can əskik olmaz,
Məhəbbət artırar,mehriban eylər.
"Çor" deməyin nəfi nədir dünyada,
Abad könlü yıxar, pərişan eylər [1.47].

Aşıq Ələsgər insanı həm də təbiətin bir parçası kimi görür. O, təbiətlə bağlı dediyi qoşmalarda, gəraylılarda bir çox hallarda insana xas olan humanizm duyğularını dağın, otun, çiçəyin "ünvanına" köçürməklə yeni məzmun və mahiyyət yaradır. Bu cəhətdən onun "Dağlar" qoşması diqqətəlayiqdir. Aşıq bu qoşqusunda dağların əzəmət və vüqarından, səxavət və qüdrətindən danışır və bu mənəvi dəyərlərdə ilahi bir qüdrətin reallığını görürük:

Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar. [1.47]

Yeri gəlmişkən qeyd edək ki,dağ anlayışı istər şifahi,istərsə də yazılı poeziyamızda həmişə ədalətin, ucalığın, sarsılmazlığın rəmzi kimi təqdim olunub. Bunun da səbəbini, fikrimizcə, ustad M.Şəhriyar çox düzgün şərh etmişdir. Məmmədhüseyn Şəhriyar "Heydərbabaya salam" poemasını Heydərbaba dağına xitabən yazmasının səbəbini açıqlayarkən qeyd edir ki: "Dağ göylərə yaxındır. O, təbiətin şah əsərlərindən biridir... Heydərbaba dağ adıdır. O, əbədi olaraq tarixin açıq gözüdür, vətəndə baş verən hadisələri seyr edərək, öz sinə dəftərinə yazır. Şairin göylərə qalxan nalələrini əks etdirib bütün yer üzünə yayaraq hamının qulağına çatdırmağı təkcə o bacarır" [4.3].

Aşıq Ələsgər də dağların bu əzəmətini görərək onu özünün xitabət kürsüsünə çevirərək insan və insanlığa duyğu və düşüncələrini çatdırmaqla insanlara təbiətdə geniş vüsət alan "insanlıq duyğularını" aşılamağa çalışır. Onun düşüncəsinə görə, Haqqın dərgahında bütün insanlar yaradanın sevdiyi varlıq kimi dəyərləndirilirsə, cəmiyyətdə də

insanın insana qayğısı, insanın insana mərhəməti qanunauyğun bir hal olmalıdır. Bu sadaladığımız mənəvi insan duyğuları aşığın "Bəylərin" adlı qoşmasında görə bilərik:

Ələsgər ərz etsin sən mətləbi qan,
Olmaz bu təmkində nə sultan, nə xan.
Fağıra mərhəmətli, dosta mehriban,
Yaxşı keçər qiyamatı Bəylərin [1.31].

Humanizm geniş anlayışdır. Xalq şairi Səməd Vurğun humanizmin məzmun və mahiyyətindən danışarkən yazırdı: "Humanizm yalnız məhəbbət deyil. O, eyni zamanda məhəbbəti yaşatmaq üçün cəbhələrdə döyüşən müsəlləh bir əsgərdir" [6. 254]. Buna görə də insanda humanis hisslər yaratmaq və bu hissləri vaxtaşırı tərbiyə edib cəmiyyət, millət və vətən üçün məqamında səfərbər etmək hər bir sənətkarın, o cümlədən də Aşıq Ələsgər kimi ağlı, zəkası ilə yerlə əlləşən, göylə ünləşən bir sənətkar üçün ilahi bir sifariş idi. Ancaq cəmiyyətdə bəzən elə neqativ hallar olur ki, bu zaman insani problemlər arxa plana keçir, bəşəri dəyərlər itir, humanizm duyğuları təhlükə altına düşür. Belə hallarda cəmiyyətin və zamanın inkişaf barometrinə çevrilən sənətkarlar üzərinə böyük məsuliyyət və yük düşür. Aşıq Ələsgər də el dərdinə, ağrı və güzəranına dərindən bələd olan bir sənətkar kimi bu cür hallara biganə qala bimir, sözün ən sərt və amansız çalarlarından istifadə edərək öz etiraz səsini də ucaldır. "Çəkirsən" qoşmasında biz bu ədalətsiz həqiqətin təzahürünə qarşı kəskin etiraz görürük:

Bəhrəm olsun təqdir, pozulsun yazı,
Bu qurğuya heç kəs olmaz irazı.
Eşşəyə bürüyüb əbrü ətlazı,
Köhlən deyib şahlıq dama şəkirsə. [1.34]

Bu etirazın, bir az da dəqiq desək, üsyanın əks-sədasını biz aşığın məşhur "Görmədim" qoşmasında da görürük:

Bivəfanın, bimürvətin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim [1.51]

Aşıq Ələsgər insanda insanlıq axtaran insan sərrafıdır. O, bir sənətkar aşıq-şair kimi insanı həmişə ali məqamda görmək istəyir. Onun düşüncəsinə görə, Qurani-Kərimdə də deyildiyi kimi, insan Yer üzünün xəlifəsidir. Ona görə də Ələsgər istəyir ki, "insanda insanlıq,səxavət olsun". İnsanı da insanlıq taxtına əyləşdirən, onda humanizm duyğuları oyadan onun səxavəti və haqq sözə qiymət vermək bacarığıdır. Bu kimi mənəvi-əxlaqi dəyərləri önə çəkən ustad "Varıymış" qoşqusunda deyir:

Haqq sözə gərəkdir düz qiymət olsun,
Qiyməti verməyə mərifət olsun.
İnsanda insanlıq, səxavət olsun,
Neylərəm ki, cah-cəlalı varıymış.
Yaxud da:

Çox gəzmişəm, az görmüşəm danəndə,
Deməliyəm sözün yeri gələndə.
İnsan üzün görməyəsən dönəndə,
Açılanda xoş camalı varıymış. [1.80]

Nümunə gətirdiyimiz bu iki bənddə Ələsgərin insan və insanlıq haqqında təsəvvürünü aydın görmək olar.

Humanizm anlayışı azadlıq anlayışı ilə eyni mahiyyət daşıyır. Çünki insan mənən, ruhən azad olanda başqalarının da azadlığını istəyir. Necə ki, Mirzə Ələkbər Sabir "Fisincan" şeirində deyirdi:

Kim ki, insanı sevər,aşiqi hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur. [5.116]

Aşıq Ələsgər insanı azad ruhlu, azad düşüncəli görmək istəyib. Çünki o, yaxşı bilirdi ki, dünyanın xeyiri, şəri də insanla bağlıdır və hər şər iş də, bir çox hallarda, qorxu içində, basqı altında yaşayandan törənir. Ona görə də insanın insana sevgisi, mərhəməti, geniş mənada, humanizmi azad insanların həyat amalıdır. Sənətkardan bütövlükdə nümunə gətirəcəyimiz üç bəndlik "Yazıq" adlı qoşması bu cəhətdən səciyyəvidir:

O qəmli könlünü,müşkül halını,
Düşünən də yazıq,bilən də yazıq.
Ağlasan,ağlaram mən səndən betər,
Dağladın sinəmi güləndə,yazıq!

Bir mərdi sevəydin,sirdaş olaydın,
Könlün istəyənə peşkaş olaydın.
Ya da quruyaydın,bir daş olaydın,
Bəzənib bu evə gələndə,yazıq!

Ələsgər durarmı mətah satmasa,
İyid sarsılarmı baxtı yatmasa,
İki könül bir-birini tutmasa,
Alan da yazıqdı,gələn də yazıq! [1.84]

Təqdim etdiyimiz bu qoşmanın, bizcə, xüsusi təhlilə ehtiyacı yoxdur. Çünki oxucu Aşıq Ələsgər humanizminin əsl mahiyyətini bu qoşmanı təhlil etmədən belə özlüyündə daha aydın anlayır və dərk edir.

Nəticə olaraq deməliyik ki,humanizm anlayışı insana və insanlığa xas olan bəşəri bir anlayışdır. Dünya topla, tüfənglə deyil, insanlıq, humanizm, sevgi və məhəbbət qanunları ilə idarə olunur. Bu böyük missiyanı həyata keçirmək və yaşatmaq üçün Allahın Yer üzünə göndərdiyi elçilərin-şairlərin, aşıqların, yazıçı və rəssamların, alim və mütəfəkkirlərin üzərinə böyük bəşəri məsuliyyət düşür. Bu məsuliyyətin sorğusu isə Haqq dünyasında sorulur. İnanırıq ki,bu Haqq sorusundan, imtahanından Aşıq Ələsgər alnıaçıq, üzüağ çıxacaqdır.

ƏDƏBİYYAT

1. Aşıq Ələsgər. Əsərləri. – Bakı: Şərq-Qərb, – 2004.
2. De-de-alesker.com /az/haqqında/haqqında-deyilənlər
3. Məmməd Araz. Aylarım, illərim (şeirlər, poemalar). – Bakı: Yazıçı,– 1979.
4. M.Şəhriyar. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, – 1966.
5. Mizə Ələkbər Sabir. Seçilmiş əsərləri. – Bakı: – 2007.
6. Səməd Vurğun. Əsərləri. Altı cilddə, 5-ci cild. – Bakı: – 1972.

QƏRBİ AZƏRBAYCAN KONTEKSTİNDƏ TÜRK MƏNŞƏLİ TOPONİMLƏR

İradə KƏRİMOVA
irade.kerimova.81@mail.ru
Orcid İD:0000-0002-8057-8333
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Məqalədə qədim oğuz-türk yurdu, tarixi torpağımız Qərbi Azərbaycan ərazisində bir vaxtlar mövcud olmuş Qarabağlar, Tuğyurd, Baydar, Cul və Çərəkli toponimlərinin leksik-semantik, etimoloji təhlili verilmişdir. Qərbi Azərbaycan ərazisində mövcud olmuş Qarabağlar toponiminin paralellərinə və areallarına istər Azərbaycanda, istərsə də kənarda rast gəlmək mümkündür. Toponimin I komponenti qara sözü Qərbi Azərbaycanın toponimik sistemindəspesifik lay təşkil edərək daha geniş arealda yayılmışdır. ***Qara*** *sözü toponim yaradıcılığındavaxtilə "rəng", "ağır", "qərb", "böyük", "qoçaq", "sıx", "qalın", "çoxluq" və s. arxaik mənalarda işlənmişdir. Fikrimizcə, tərkibində "qarabağ" sözü olan toponimlər etnotoponimdir. Məlum olduğu kimi, qədim kəngər – peçeneqlərin* ***qarabağ*** *adlı tayfası olmuşdur. Qərbi Azərbaycanın Zəngəzur qəzasında qeydə alınmış Tuğyurd oroniminin etimologiyasını izah edərkən məlum olur ki,* ***tuğ*** *qədim türk mənşəli söz olub, mənbələrdə "bayraq", "müharibələrdə qoşun hissələrinin önündə aparılan bayraq", "ucuna at quyruğu və ya çöl öküzü quyruğu (saçağı) bənd olunan mizraq", "qədimdə padşahların, vəzirlərin və ya yüksək rütbəli şəxslərin baş geyimlərinə taxdıqları tük və ya saçaq şəklində bəzək" və s. kimi mənalarda işlənmişdir. İrəvan əyalətinin Xınzırək nahiyəsində qeydə alınmış Çərəkli toponimi orta əsrlərdə Anadoluda yaşamış* ***çərəkli*** *tayfasının adı çəkilən ərazilərdə məskunlaşması nəticəsində yaranmışdır. Qərbi Azərbaycanın Amasiya rayonunda Baydar kəndi və Baydaroğlu dərəsi oronimi mövcud olmuşdur. Baydarlı toponiminin yayılma arealını araşdırdıqda görürük ki,* ***baydarlı*** *etnonimi əsasında yaranmış etnotoponimdir. Qərbi Azərbaycanın Dərələyəz mahalının Paşalı nahiyəsində qeydə alınmış Cul oykonimi* ***cul*** *etnoniminin iştirakı ilə formalaşmış etnotoponimidir.*

Açar sözlər: *areal, toponim, oykonim, oronim, etnotoponim, arxaik*

Giriş

Qarabağlar. Qarabağ Azərbaycanda tarixi ərazinin adıdır. Qədim oğuz-türk yurdu, tarixi torpağımız olmuş Qərbi Azərbaycan ərazisində mövcud olmuş toponimlərdən biri də Qarabağlar olmuşdur. Azərbaycanın Göyçay, Daşkəsən, Şərur (NaxçıvanMR), Oğuz, Göygöl rayonlarında Qarabağlar oykonimi mövcuddur [3.124-125]. Əsasında "Qarabağ" sözüduran Qarabağ, Qarabağlı, Qarabağlılar toponimi Azərbaycan sərhədlərini aşaraq çox-çox geniş arealda yayılmışdır. Qarabağlı (Özbəkistan), Qarabağ (Türkmənistan), Qarabağ (Əfqanıstan), Qarabağ (Şimali Qafqaz), Qarabağlar (Türkiyə) və s. toponimlər qeydə alınmışdır. XIX əsrdə Cənubi Qafqazda 5 (beş) Qarabağlar kəndi mövcud olmuşdur.

Qarabağlar sözünü üç komponentə ayırmaq mümkündür: *Qara + bağ +lar.* Buradakı birinci iki komponent sadə leksik vahiddir. "*-lar*"cəm şəkilçisidir.

Qərbi Azərbaycanın toponimik sistemində "qara" komponentli toponimlər spesifik

lay təşkil edərək daha geniş arealda yayılmışdır. "Qara" sözünün mənaları haqqında türkologiyada, eləcədə Azərbaycan dilçiliyində müxtəlif fikirlər mövcuddur. Dilimizin tarixinə baxsaq "qara" sözü rəng anlamını bidirməklə yanaşı, digər məna çalarlarını da ifadə etmişdir.

M.Hüseynova "qara" sözünün müxtəlif məna çalarları haqqında yazarkən bu sözün "qaranlıq", "zülmət", "tutqun", "sərt", "qəmli", "kədərli", "mal-qara", "yığın", "bədbəxt", "dəstə", "camaat", "qoşun", "xalq", "quru", "torpaq", "təpə" və s. mənalarda işləndiyini bildirmişdir (8. 203).

Şübhəsiz ki, **qara** sözünün arxaik mənaları toponimik laydada ha çox saxlanmışdır. "Külli miqdarda toponim və mikrotoponimlərin əsasən birinci komponenti kimi işlənən qara sözünün konkret toponimlərin tərkibində onun mənbələrdə qeydə alınan "rəng", "sadə" "ibtidai", "sıravi", "torpaq", "təpəlik", "dağlıq", "yer", "kütlə", "camaat", "pisruh", "sıx, keçilməz", "qatı", "bədbəxt", "böyük, iri, nəhəng, əzəmətli", "qüvvətli, igid, cəsur" vəs. mənalarından hansının daşıdığını müəyyənləşdirmək çətindir" [4. 173].

Aydındır ki, Qarabağ toponimində də "qara" sözünün bəhs olunmuş mənalarından biri işlənir. R.Yüzbaşov, K.Əliyev və Ş.Sədiyev Qarabağ toponiminin leksik-semantik mənasını izah edərkən ***qara*** sözünün vaxtilə "rəng", "ağır", "qərb", "böyük", "qoçaq", "sıx", "qalın", "çoxluq" mənalarında işləndiyini, Qarabağın "sıx-qalın, çoxlu bağı olan şəhər" mənasını daşıdığını bildirmişlər [19. 63-64].

Fikrimizcə, tərkibində "qarabağ" sözü olan toponimlər etnotoponimdir. Məlum olduğu kimi, qədim kəngər – peçeneqlərin ***qarabağ*** adlı tayfası olmuşdur. Peçeneqlər hələ eramızın əvvəllərindən Azərbaycanda yaşamışlar.

Ümumiyyətlə, Qarabağ, o cümlədən də Qarabağ əsaslı etnotoponimlərdən həm tarixçilər, həm də toponimistlər çox yazmışlar. Son illərdə bu sahədə tədqiqatların sayı kifayət qədər çoxalmışdır.

Tuğyurd – Qərbi Azərbaycanın Zəngəzur qəzasında qeydə alınmış oronimdir. Azərbaycan onomastikasında "***tuğ***" komponentli onomastik vahidlərin paralellərinə Xocavənd rayonu ərazisində Tuğ kəndi, Tuğ dağı, Tuq dağı, Tuq yurd, Tuğ yalı; Tovuz rayonu ərazisində Tuğ güneyi oronimlərinə, Xızı rayonu ərazisində Tuğçay hidroniminə rast gəlmək mümkündür.

Tuğ onomastik vahidinin ölkəmizdən kənarda da arealları mövcuddur. Toğay, Toğanbulak, Toğandı, Toğanbay, Toqay (Qazaxıstan), Tuk, Tokay, (Türkmənistan), Tukay (Özbəkistan), Tuqur körfəzini (Oxot dənizi sahilində) göstərmək olar. Hətta XIX əsrdə Şimali Qafaqazda Tuk, Tuk dağı, Tok, Tukova, Aşağı Tuk, yuxarı Tuk şəklində yayılmışdır (13. s.88).

Dilçilik ədəbiyyatlarında ***tuğ*** onimi ilə bağlı müxtəlif mülahizələr mövcuddur. "Tuğ" sözünün etimologiyasını izah edərkən məlum olur ki, ***tuğ*** qədim türk mənşəli söz olub, mənbələrdə "bayraq", "müharibələrdə qoşun hissələrinin önündə aparılan bayraq", "ucuna at quyruğu və ya çöl öküzü quyruğu (saçağı) bənd olunan mizraq", "qədimdə padşahların, vəzirlərin və ya yüksək rütbəli şəxslərin baş geyimlərinə taxdıqları tük və ya saçaq şəklində bəzək" və s. kimi mənalarda işləndiyini görmək mümkündür. Qədim türk savaş nizamında "Tümən tuğu", doqquz tuğu tudun" terminlərinə də rast gəlmək

mümkündür. ***Tuğra*** sözü isə "gerb, döş nişanı", "şah fərmanı" mənalarında işlənmişdir [2].

Tuğ–türk və altay xalq mədəniyyətlərində, həmçinin dövlət ənənəsində hökmranlıq simvolu olub, ***tog*** və ya ***tuk*** variantında da işlənmişdir. Monqollar **Tug** deyərlər. Tuğdan qut işarəsi olaraq da istifadə edilmişdir. Bəzən müharibə istəyi və üsyan simvolu olaraq istifadə edilmişdir. Əvvəllər bayrağın üzərinə asılarkən, daha sonralar doqquz qollu bir dəyənək şəklində xüsusi olaraq hazırlanmış və uclarına doqquz müqəddəs heyvanın quyruğu asılmışdır. İrəliləyən zaman içində isə bu quyruqların yerinə rəngli püsküllər keçmişdir. Türklərdəki doqquz tuğ ənənəsi doqquz sayının kutluluğu səbəbiylə göydəki doqquz planeti təmsil edir. Göy doqquz qatdır və Türk dünya anlayışında yer üzü doqquz bölgəyə bölünmüşdür. Padşahların döyüş bayraqları, Oğuz ənənəsinə uyğun olaraq doqquz tuğdan oluşurdu. Bu tətbiq bir dünya imperatorluğu simvoludur. Çingiz xan, xaqanlığını elan edəndə doqquz qollu ağ bir tuğ diktirmiştir [22].

G.Vəliyeva ***tuğ*** sözünün leksik-semantik mənasını izah edərkən yazır ki, orta əsrlərdə tuğ hakimiyyət rəmzini də bildirmiş, bir tuğu olmaq sancaqbəyini, iki tuğ bəylərbəyini, üç tuğ paşanı göstərirdi. Daha sonra isə müəllif qədim türk abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında da *tuğ* sözünün "bayraq" anlamında işləndiyini lakin bizim anladığımız bayraq olmayıb, at quyruğundan düzəldilmiş dördkünc sayrılan taxtaya vurularaq üz və arxa tərəfi materialla örtülmüş, üzərinə güzgü və bürüncdən beşbarmaq taxılmış bir bayraq növüdür. Müəllif ***tuğun*** keçmişdə dini mərasimlərdə ələmlə yanaşı gəzdirildiyini də bildirmişdir [20. s.71-72].

Ə.Abdullayev Yessentuki toponiminin etimologiyasını izah edərkən sözün ikinci komponenti olan "tuq" sözünə toxunaraq onun türk xalqlarında *tuğ* fonetik variantında "bayraq" anlamında işləndiyini " toquz tuğlu xan", "xanın doqquz buncuğu vardır", "üç tuğlu türk bodun" verilmiş nümunələrində göstərməyə çalışmışdır. Müəllif Azərbaycan dilində indi də "bayraq" mənasında tuğ süzünün işləndiyini bildirmişdir [1. s.302].

İ.Cəfərsoylu Tuğ onomastik vahidindən bəhs edərkən *tuğ* sözunun semantikasını belə izahı etməyə çalışmışdır: "Türk dövlət ənənəsinə görə, tuğ əsas atributlardan biri olmuşdur. O, dövlətin baş bayrağı idi. Tuğun qalxması ilə döyüş başlanır, tuğun enməsi məğlubiyyəti bildirir. Hər dövlətin tuğu bir olurdu" [5. 275]. Daha sonra müəllif Ön Asiyanın qədim etnoslarından birinin tuğlar olduğunu bildirərək onların e.ə VIII əsrə aid Urartu mənbələrində adlarının qeyd olduğunu və keçən əsrin əvvəllərində Cənubi Qafqazda 19 Tuğ etnotoponiminin mövcud olmasından da bəhs etmişdir [5. s.276].

Tuğ onomastik vahidini qıpçaqlara məxsus etnik qrup kimi araşdıran tədqiqatçılarımız da olmuşdur. Coğrafi ədəbiyyatlarda bu etnonimə müxtəlif fonetik tuğ//tığ//toq//tıx variantlarında da rast gəlinir.

Tuğ onimini etnonim kimi araşdırmış Q.Qeybullayev erkən orta əsrlərdə Cənubi Rus çöllərində qıpçaqların başqa bir tayfasının *tukların* da adını çəkərək bu tayfanın adı ilə əlaqədar olaraq XIX əsrdə Quba qəzasında Tuq kəndi, Şuşa qəzasında Tuq dağı və Tuq kəndi, Zəngəzur qəzasında Tuqyurd dağı və b. toponimlərin də qeydə alındığını bildirmişdir. Müəllif Tuğ toponiminin areallarından bəhs edərkən yazır ki, Dağıstanda indi də Aşağı Tuq və Yuxarı Tuq kəndləri, Türkmənistanda Tuk toponimi vardır. Keçən

əsrə aid xəritələrdə Şimali Qafaqazda Tuk, Tukdaq, Tok, Tukova və b. toponimlər öz əksini tapmışdır. Müəllif Tuğ oykoniminin Qarabağda yaşamış türkdilli *tuq* elinin məskunlaşması nəticəsində yarandığını göstərərək, adı çəkilən kəndin ərazisində eyniadlı meşənin, dağın və çayın mövcud olduğundan bəhs etmişdir [11. s.84].

Əfqanıstan ərazisindəki Toxar-Tuğçi onomastik vahidləri ilə Tuğ//Tok toponimləri arasındakı yaxınlıq əlaqəsini araşdırmağa çalışmış R.Eyvazova, bu adın mənşəyini düyərli etnonimi ilə əlaqələndirərək bu adın Tukər//Tükər olduğunu, adın sonradan fonetik dəyişikliyə məruz qalaraq Tökər//Digər//Toxar// Dügər//Düyər formasında işləndiyini bildirmişdir. Müəllif Rusiyanın Xabarovsk diyarındakı Tuqur yarımadasını və Oxot dənizindəki Tuqur körfəzini Toxar adaları ilə eyni mənşəli olduğu qənaətinə gəlmişdir [6. s.165].

T.Nafasov Özbəkistan toponimikasında Tuğ//Toq onomastik vahidindən bəhs edərkən Tukboy oykonimini özbək nəsillərindən biri kimi araşdırmışdır. Müəllif yazır ki, onlar Qaşqadərya mangitlərinin ağmanğit bölümünün bir nəsli olan tukboy adı ilə adlanırlar [16. s.185].

Müəllif Tukmanğit toponiminin etimologiyasını izah edərkən *tukçi, dukçi,tuğçi* adlı tirələrdən və bu etnonimin ümumtürk xarakter daşımasından bəhs edərək Azərbaycan qıpçaqlarında da ***toq, tuğ, tük*** nəsillərinin olduğunu və bu etnonim əsasında Azərbaycan ərazisində bir neçə Tuğçay, Tuğ, Tuğyurd, Tuğdağ, Tukoba toponimlərinin yarandığını bildirmişdir [16. s.185].

Fikrimizcə, "tuğ" apelyativ leksik vahiddən, onomastik vahidə deformasiyaya uğrayaraq, toponim və hidronimlərimizin tərkibində mühafizə olunaraq ilkin semantikasını qoruyub saxlamışdır. Lakin Azərbaycan dilinin dialekt və şivələrində bu gün də, "bayraq" mənasında *tuğ* sözü öz işləkliyini saxlamaqdadır. Məsələn; "Qoşun gəldi qabağında tuğ" (İmişli), "Meydana hər dəstə öz tuğuyla gəlmişdi" (Şuşa) və s.

Çərəkli, Çərəktar – İrəvan əyalətinin Xınzırək nahiyəsində qeydə alınmış kənd adlarıdır. Azərbaycan toponimiyasında "çərək" əsaslı yaşayış məntəqələri kifayət qədər geniş yayılmışdır. Çərəkə – Qubar-u ərazisində dağ, Göyçay r-u ərazisində kənd; Çərəktar – Kəlbəcərr-dakənd; Çərəkən – Füzulir-da Arazın bir qolu olan çayın adı, Cəbrayılr-dakənd; Çərəli – Qubadlı, Bərdə r-davə Cənubi Azərbaycanda kənd; Çərmədil – İsmayıllır-dakəndin adı kimi qeydə alınmışdır.

Əsasında ***çərək*** sözü duran bu toponimlərin hamısının eyni kökdən olması şübhə doğurmur. Toponimlərdən bəziləri şəkilçi qəbul etmiş, bəzilərinin fonetik hadisələrin təsirindən dəyişməsi aydındır. Bu adlarda fonetik və qrammatik baxımdan fərqlər kifayət qədərdir, semantik cəhətdən isə fərq azdır. Bu adlar orta əsrlərdə Anadoluda yaşamış ***çərəkli*** tayfasının adı çəkilən ərazilərdə məskunlaşması nəticəsində yaranmışdır. Çərəkli Səlcuq oğuzlarının Avşar (Əfşar) tayfasının ***çerikli*** qolunun [18. 165] adının fonetik formasıdır.

Çərəkə sözünün bir mənası da, keçmişdə mollaxanalarda ərəb əlifbasını öyrənməküçün "dərslik, əlifba kitabı, şeir yaxud mərsiyə dəftərçəsi" deməkdir. Lakin bu mənaların toponimin adı ilə bağlılığı yoxdur.

Cul – Qərbi Azərbaycanın Dərələyəz mahalının Paşalı nahiyəsində qeydə alınmış

oykonimdir. Azərbaycan xalqının dili və mənşəyinin formalaşmasında *çullu* tayfasının böyük rolu olmuşdur. Çullular Çol, Çul da adlanırlar. Çul etnoniminin iştirakı ilə formalaşmış coğrafi adlara təkcə Azərbaycanda deyil, Qafqazda və türk xalqlarının yaşadığı digər ərazilərdə də rast gəlmək mümkündür. Tədqiqatçılar Çul toponimi haqqında müxtəlif fikirlər söyləmişlər. Q.Qeybullayev Çullu//Çul//Çol etnotoponimini türk mənşəli "çullu" etnoniminin əsasında yarandığını qeyd etmişdir. Müəllif bu haqda yazır: "Eranın ilk əsrlərində Albaniyanın şimal-şərqində Dərbənddən cənubda bir şəhər Çol//Çul adı ilə məlumdur. Bu toponimi Qafqazdilli hesab edirlər. Lakin biz bu adın Albaniyada yaşamış türk mənşəli Çul tayfasının adını əks etdirdiyini və etnonimin indiyədək Çullu kəndlərinin adlarında saxladığını demişik" [12. 202].

N.A.Baskakov qeyd edir ki, Çol, Cul Xəzər xaqanlığının adıdır [21. 20]. V.Qukasyan da Çol, Çul oniminin Xəzər xaqanlığının adı olduğunu və bu sözun çuvaş dilində "dərə", "qaya" mənalarında işləndiyini bildirmişdir [9. 20, 57].

Çol//Çul onimini etnonim kimi araşdıran H.Mirzəyev yazır ki, Çul Dərələyəzdə kənd adıdır. Tarixi mənbələrdən aydın olur ki, türk tayfasının adını daşıyan Cul da qədimdən Azərbaycanlı kəndi olmuşdur [15. 190].

Çul//Çol toponimi haqqında toponimik araşdırma aparmış Ç.Kazımov yazır ki, Çul//Çol eramızın V əsrində yazılı abidələrdə qeydə alınmışdır. V əsrin erməni tarixçiləri Egişe Fovstos Buzand və Aqofongel türk tayfalarının şimaldan Azərbaycana gəldiyini qeyd edərək, Çol//Çul mağarasının adını tez-tez çəkirlər. K.M.Treverə istinad edən müəllif yazır ki, maskutlar Xəzər dənizinin şimal-qərb sahilində, Samurun mənbəyindən cənubda V əsrdə Çor, Çul adlanan ərazidə məskən salmışlar. Müəllif daha sonra V.V.Bertolda istinad edərək bəzi ərəb mənbələrində rast gəlinən Sul oykonimini Çul kimi oxumağın düzgün olduğunu qeyd edir. Ç.Kazımov yazır ki, "sad" ərəb hərfi "ç" səsinin əvəzlənməsi kimidir.

Q.Məşədiyev V.Q.Yeqorova əsaslanaraq yazır ki, Çol-Çul türk mənşəli söz olub çuvaş dilində "daş", "qaya", "dərə" mənasında işlənir ki, bu da həmin oykonimin coğrafi landşaftına uyğundur. Bizcə, çul//çol sözü ilə əlaqədar olub, "çöllük" mənasını verir [14. 29-30].

R.Eyvazova Əfqanıstan ərazisində Çul//Çol toponiminin arealları haqqında məlumat verərkən yazır: "Çol- kənd- Pərvanda; Şor//Şur kənd – Qəndaharda. Biz Əfqanıstan ərazisindəki Çol, Çar, Sul, Sur coğrafi adlarını və "sal", "sar" tərlibli toponimləri eyni semantik mənalı, müxtəlif fonetik variantlı türk mənşəli adlar sayırıq" [6. 77].

N.Məmmədov tədqiqatlarında respublikamızın ərazisində Çullu dağ, Çullu dərə və Çullu təpə oronimləri haqqında məlumat verərkən yazır ki, adları çəkilən oronimlər çullu etnoniminin adını daşıyır. Respublikamızın ərazisində eramızın ilk illərindən etibarən bir sıra Azərbaycandilli tayfaların (kəngər, tərtər, qarqar, çiraq, gəncə) içərisində cul tayfası da olmuşdur. Keçən əsrdə Qafqazda çullu adlı beş toponim mövcud olmuşdur.

N.Əsgərov Çol-Çul-Sul oniminin "su", "çay" kimi izahının daha elmi olduğunu bildirmişdir [7. 311]. Çol//Çul//Çullu toponim və hidronimlərinin areallarına Gürcüstanda – Çullu k. Alının yeri, Çolman, Çolyan k., Sul dərə; Ermənistanda – Çulabad k., Çul k., Çullu k., Cul k.; Tatarıstanda – Çulım ideli, Çulman çayı, Çullu k.; Türkiyədə – Çullu k.,

Cənubi Azərbaycanda – Çölabad k.; Özbəkistanda – Çulobod k., Çulvotir dağı; Dağlıq Altayda – Çuluş çayı və Tuva ərazisində – Çulça çayı formalarında rast gəlinir.

Nəticə

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, bu ərazilərin aborigen sakinləri türkdilli etnoslar olmuşlar, ona görə də bu regionda mövcud olan yer-yurd adları, əsasən, türkmənşəli toponimlərdən ibarətdir.

ƏDƏBİYYAT

1. Abdullayev, Ə. Azərbaycan dili məsələləri. – Bakı: – 1992. – 331 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Azleks onlayn lüğət. İnternet portalı.
3. Aslanov, V. Azərbaycan dilinin tarixinə dair tədqiqlər. I c., – Bakı: Elm, – 2002. – 155 s.
4. Budaqov, B., Qeybullayev, Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. – Bakı: Nafta-Press, "Oğuz eli" nəşriyyatı, – 1998. – 452 s.
5. Cəfərsoylu, İ. Türk, Urartu, Alban etnolinqvistik uyğunluqları. – Bakı: – 2008. – 327 s.
6. Eyvazova R. Əfqanıstanda türk mənşəli toponimlər. – Bakı: – 1995. – 243 s.
7. Əsgərov, N. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. – Bakı: Elm, – 2005. – 485 s.
8. Hüseynova, M. Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili. – Bakı: – 2023. – 256 s.
9. Кавказский календарь на 1848. Тифлис, Вы типографии канцелярий наместника – Кавказа. – 1847. – 266 с
10. Кулиева, К.Ф. Древнетюркский лексический пласт Кубинского и Дербентского диалектов Азербайджанского языка. Автореферат диссертации кандидата филологических наук. – Баку: – 1989. – 26 с.
11. Qeybullayev, Q. Qarabağ. Etnik və siyasi tarixinə dair. – Bakı: – 1994. – 247 s.
12. Qeybullayev, Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1994. – 248 s.
13. Məhişoğlu, B. Doğma adım - Qarabağım. – Bakı: 2002. 148 s.
14. Məşədiyev, Q. Etnonimlərdən düzələn toponimlər. AOP, II, – 1998. – s.112-113
15. Mirzəyev, H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. I, – Bakı: Elm, – 2004. – 854 s.
16. Нафасов, Т. Узбекистон топонимлаининг изохли лугати. Тошкент «Укитувчи», 1988. 288 с.
17. Nəbiyev, N. Coğrafi adlar. – Bakı: Azərnəşr, – 1982. – 282 s.
18. Sümər, F. Oğuzlar. – Bakı: Yazıçı, – 1992. – 432 s
19. Tapdıqoğlu, N. Göyçay rayonu və onun toponimiyası. – Bakı: Təhsil NPM, – 2004. – 246 s.
20. Vəliyeva, G. Tuğ haqqında bəzi qeydlər. Azərbaycan onomastikası problemləri. Bakı: 1995. s.71-72.
21. Ворошил, Г., Асланов В. Исследования по истории азербайджанского языка дописьменного периода. Баку: Элм, 1986. 228 с.
22. https://az.wikiprdia.org>wiki> Tuğ (Bayraq

SUMMARY

Karimova Irada

TOPONYMS OF TURKISH ORIGIN IN THE CONTEXT OF WESTERN AZERBAIJAN

The article provides a lexical-semantic, etymological analysis of the toponyms Karabakhlar, Tugyurd, Baydar, Jul and Cherakli, which once existed in the territory of the ancient Oghuz-Turk homeland, our historical land, Western Azerbaijan. It is possible to find parallels and areas of the Karabakh toponym, which existed in the territory of Western Azerbaijan, both in Azerbaijan and abroad. In toponym creation, the word "black" used to mean "color", "heavy", "west", "big", "old", "dense", "thick", "many", etc. used in archaic meanings. In our opinion, toponyms containing the word "Karabakh" are ethnotoponyms. As it is known, there was a tribe of ancient Kangar - Pechenegs called Karabagh. When explaining the etymology of the oronym Tugyurd recorded in the Zangezur region of Western Azerbaijan, it is known that tug is a word of ancient Turkic origin, in the sources it means "flag", "flag carried in front of troops during wars", "with a horse's tail or wild ox's tail (fringe) attached to the end. mizraq", "an ornament in the form of feathers or fringes worn by kings, viziers or high-ranking persons on their headdresses" etc. used in such meanings. The Cherakli toponym recorded in Khinzirak district of Yerevan province was created as a result of the settlement of the Cherakli tribe that lived in Anatolia in the Middle Ages in the mentioned areas. In the Amasiya region of Western Azerbaijan, the Baydar village and the Baydaroglu valley have existed. When we examine the distribution area of the Baydarli toponym, we see that it is an ethnotoponym based on the Baydarli ethnonym. Jul oikonym registered in Pashali district of Daraleyaz district of Western Azerbaijan is an ethnotoponym formed with the participation of Jul ethnonym.

Key words: *areal, toponym, oikonym, oronym, ethnotoponym, archaic*

1590-1728-ci il İRƏVAN ƏYALƏTİNİN MÜFƏSSƏL VƏ İCMAL DƏFTƏRLƏRİNDƏ AZƏRBAYCANIN TARİXİ ONOMASTİK MƏNZƏRƏSİ

Qalibə HACIYEVA
oguz.haciyev@gmail.com
Orcid İD: 0000-0001-2345-6789
Naxçıvan Dövlət Universiteti

Arxivlərdə Osmanlı dövrünə aid saxlanılan qədim mənbələrdə Azərbaycanın ilk orta əsrlər tarixinə, xüsusilə onomastikasına aid çox zəngin və dəyərli faktlar daha çox qorunub saxlanıldığından, bu arxiv sənədlərinin hər biri müasir onomastik tədqiqatlar üçün misilsiz xəzinədir. Bütöv Azərbaycanın ilk orta əsrlər tarixi coğrafiyasına aid ən qiymətli faktları əks etdirən yunan, Suriya, erməni, gürcü, rus, fars və ərəb mənbələrində, xüsusilə Türkiyə Cümhuriyyətinin Osmanlı dövlətinin arxivlərində saxlanılan sənədlərdə Bütöv Azərbaycanın tarixi coğrafi mövqeyi haqqında daha dəqiq və tutarlı faktlar əks olunur.

Quzeyli, Güneyli bütöv Azərbaycanın tarixi ərazi bütövlüyünü təyin etmək imkanı yaradan qədim və orta əsrlərə aid Türk-Osmanlı qaynaqları və bu dövrlərə aid tarixi-coğrafi əsərlər bütövlükdə Azərbaycanın tarixi onomastik mənzərəsini əks etdirən ən tutarlı məxəzlər sırasında öndə yer alır.

XVI əsrdən başlayaraq, Azərbaycanın tarixi ərazilərini hissə-hissə fəth edən Osmanlı imperiyasının bu ərazilər üzrə tərtib etdiyi sənədlər içərisində Bütöv Azərbaycanın XVI-XVIII əsrlər tarixi onomastik mənzərəsini əks etdirən əsas mənbə müfəssəl və icmal dəftərləri hesab olunur. Müasir Azərbaycan dilçiliyi və tarixşünaslığı üçün mühüm əhəmiyyətə malik Osmanlı dövrünün arxiv sənədləri sırasında yer alan 1590-1728-ci il İrəvan əyalətinin müfəssəl və icmal dəftərləri Azərbaycan toponimiyası və etnonimiyası, onun tarixi coğrafiyası üçün qiymətli faktları əks etdirən rəsmi statistik sənədlər sırasında xüsusi əhəmiyyət kəsb edir. XVI-XVIII əsrlərdə Osmanlı idarəçiliyində olan sancaq və livaların "Müfəssəl dəftərləri"nin ən dəyərli cəhətlərindən biri də, bu dəftərlərin hər birinin Azərbaycanın tarixi coğrafi sərhdələri, milli etnik tərkibi, sosial-iqtisadi durumunu, eyni zamanda, bu ərazilərin tarixi toponimik mənzərəsini əks etdirməsidir.

Açar sözlər: *Azərbaycan, İrəvan, Türk, Osmanlı, onomastik, müfəssəl, icmal, onomastik, toponim.*

Giriş

Arazın Quzeyində və güneyində tapılan qədim yazılı daş kitabələr, aparılan arxeoloji qazıntılar, eləcə də dünya səyyahlarının yol qeydləri Bütöv Azərbaycanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edir. Müxtəlif dilli qədim mənbələrlə yanaşı, Azərbaycan ərazisində tapılan e.ə. aid qədim yazılı daş kitabələr, eyni zamanda müasir tarixi elmi tədqiqatlarda da Güneyli, Quzeyli Bütöv Azərbaycanın çoğrafi mövqeyi, dili, etnogenezi, əhalisi haqqında geniş məlumat əldə etmək olar.

Quzey Azərbaycanda Qarabağda Azıx mağarasında, Güney Azərbaycanda isə Həsənlu, Qaradağ və Ziviyədə aparılan arxoloji qazıntılar, Təbrizdə tarix muzeyində saxlanılan yazılı daş kitabələr, Bakı şəhərinin 55 km.-də yerləşən Qobustan və

Naxçıvandakı Gəmiqaya qayaüstü abidələri Azərbaycanın iklin insan məskəni olmasının inkarolunmaz maddi sübutudur. Lakin təəssüflə qeyd etmək lazımdır ki, XIX əsrdən sonrakı rus, erməni və digər dillərdə olan bir sıra tədqiqatlarda Azərbaycanın tarixi coğrafiyası haqqında həqiqətdən uzaq müxtəlif ziddiyyətli fikirlər mövcuddur. Bunun əsas səbəblərindən biri XIX əsrdən sonra Rusiya və İranda Azərbaycanla bağlı yazılmış əsərlərin bir qismində tarixi həqiqətlərin siyasi-ideoloji baxımdan məqsədyönlü şəkildə bilərəkdən saxtalaşdırılmasıdır.

Lakin buna baxmayaraq, XIX əsrdən əvvəlki dövrlərə, e.ə. aid qədim yunan, eləcə də eramızın VII əsrindən sonra ərəb istilası dövründə Azərbaycan və onun tarixi coğrafi hüdudları haqqında daha müfəssəl məlumat verən VII-XIII əsrlərə aid olan çoxsaylı ərəb, fars dilli tarixi mənbələr, həmçinin XIII-XVIII əsrlərdə dünyanın bir çox səyyahlarının qələmə aldığı yol qeydləri, o cümlədən XVI-XVIII əsr Osmanlı qaynaqları Bütöv Azərbaycanın tarixi ərazisi və coğrafi sərhədləri barədə dəqiq informasiya verən ilkin mənbə kimi çox qiymətlidir.

Bu sadalanan qaynaqlarla yanaşı, Bütöv Azərbaycanın ilk orta əsrlər tarixi coğrafiyasına aid ən qiymətli faktları əks etdirən yunan, Suriya, erməni, gürcü, rus, fars və ərəb mənbələrində, xüsusiləTürkiyə Cümhuriyyətinin arxivlərində saxlanılan Osmanlı dövlətinin sənədlərində Bütöv Azərbaycanın tarixi coğrafi mövqeyi haqqında daha dəqiq və tutarlı faktlar əks olunur.

Osmanlı dövlətinin 1590-1728-ci illərdə İrəvan və Naxçıvan əyalətləri üzrə tərtib olunmuş icmal və müfəssəl dəftərləri haqqında məlumat.

E.ə. dövrlərə aid qədim yunan mənbələri, VII-XIII əsr ərəb, XVI-XVIII əsr Osmanlı, eləcə də XVIII-XIX əsr Rusiya və Avropa ölkələrinin, hətta sovet Ermənistanın arxivlərindəki mövcud bütün tarixi sənədlərlə yanaşı, bu ərazilərdə tarixi eradan əvvəllərə gedib çıxan ən qədim dövrlərə aid Türk mənşəli toponimlərin verdiyi tarixi informasiyadan aydın olur ki, ermənilər kütləvi şəkildə Azərbaycanın tarixi ərazilərinə yerləşdirilənə qədər burada erməni tarixini əks etdirən heç bir nişanə olmamışdır, əksinə, ermənilər buraya köçürülənə qədər bu ərazilərin toponimlərinin hamısı dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan-Türk mənşəli coğrafi adlardan ibarət olmuşdur. Eyni zamanda, bu ərazilərdə 200-dən çox yaşayış məskənlərinin əhalisinin isə müsəlman türklərdən ibarət olması faktı ilə yanaşı, buranın yerli oboregen xalqı xristian-Qıpçaq türklərinin də adını əks etdirən etnotoponimlər bu faktı təsdiq edir.

XV əsrdən Osmanlıların hakim olduğu coğrafiyada, vaxtılə Türkiyə Cümhuriyyəti də daxil olmaqla 40-a yaxın müstəqil dövlət yer almışdır. Bu dövlətlərin Osmanlı dövründəki tarixini bu günədək mühafizə edib saxlayan Osmanlı arxivlərindəki mövcud tarixi sənədlərdir. Yaxın və Orta Şərq, Balkan və Ağdəniz bölgələrində ən qüdrətli dövlət olan Osmanlıların arxiv sənədləri yalnız öz dörünün deyil, həm də yazıldığı dövrdən daha öncəki tarixi dövrlər haqqında da informasiya əldə etmək imkanı yaradır.

Qeyd etmək lazımdır ki, bu sənədlərin bir çoxu hazırda Türkiyə Cümhuriyyətinin müxtəlif arxiv və kitabxanalarında saxlanırsa, daha böyük bir qismi isə Avropanın, eləcə də dünyanın müxtəlif ölkələrinin arxiv və kitabxanalarındadır. Son illər Türkiyə arxivlərindəki mövcud Osmanlı dövrünün sənədləri tədqiqatçıların diqqətini cəlb etsə də,

təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanda hələ də bu sahədə tədqiqatların aparılması və arxivlərə münasibət istənilən səviyyədə deyil.

Bu gün istər Türkiyə Cümhuriyyətinin, istərsə də dünyanın bir çox arxiv və kitabxanalarında saxlanan Osmanlı dövlətinin arxiv sənədləri sadəcə müasir Türkiyə tarixinin deyil, bütövlükdə dünya tarixinin öyrənilməsi üçün olduqca dəyərli mənbələrdir. Buna görə də tarixi tədqiqatlarda arxiv sənədlərinin çox böyük əhəmiyyətini vurğulayan Türkiyənin Baş Arxiv İdarəsi MüdiriYusuf Sarınayın bu arxiv sənədlərinə "Hazine-i Evrak" adını verməklə çox yüksək qiymətləndirməsi təsadüfi deyildir: "*Arşivin bir milletin tarih ve kültür hazinesi olduğunu idrak eden ecdadımız bunun içindir ki, kurduğu arşiv teşkilatına "Hazine-i Evrak" adını vermiştir* [Sarınay, 2010: s.III].

Yusuf Sarınayın söylədiyi kimi, bu arxivlərdə Osmanlı dövrünə aid qədim mənbələrdə Azərbaycanın ilk orta əsrlər tarixinə, xüsusilə onomastikasına aid çox zəngin və dəyərli faktlar daha çox qorunub saxlanıldığından, bu arxiv sənədlərinin hər biri müasir onomastik tədqiqatlar üçün misilsiz xəzinədir.

XV əsrdən Ağqoyunlu və Qaraqoyunluların hakimiyyəti dövründən başlayaraq, XVIII əsr xanlıqlar dövrünə qədər olan Osmanlı dövrünün arxiv sənədlərinə müraciət etmədən bu dövr Azərbaycan onomastik sisteminin dolğun şəkildə tədqiqi mümkün deyildir. Tədqiqatlardan aydın olur ki, bu gün arxivlərdə mühafizə olunan Osmanlı qaynaqları əsasən öz dövrünün sosial-iqtisadi durumunu əks etdirən sənədlər olsa da, bu sənədlərin hər biri müasir tarixi və linqvistik tədqiqatlar üçün əvəzolunmaz mənbələrdir.

Quzeyli, Güneyli Bütöv Azərbaycanın tarixi ərazi bütövlüyünü təyin etmək imkanı yaradan qədim və orta əsr Türk-Osmanlı qaynaqları və bu dövrlərə aid həsr olunmuş tarixi-coğrafi əsərlər bütövlükdə Azərbaycanın tarixi onomastik mənzərəsini əks etdirən ən tutarlı məxəzlər sırasında öndə yer alır. Bu sahədə aparılan tədqiqatlardan, eləcə də əldə olunmuş bir çox mənbələrdən aydın olur ki, XVI – XVIII əsrlərdə Osmanlıların hakimiyyəti dövründə Azərbaycanla bağlı çoxsaylı dövlət sənədləri mövcuddur.

Qeyd etmək lazımdır ki, bu dəftərlərin az bir hissəsi müasir tədqiqatçılar tərəfindən tədqiq edilib ortaya çıxarılsa da, hələ də bu sahədə çox böyük boşluqlar mövcuddur. Türkiyəli tədqiqatçı Mehmet Ali Çakmak Başbakanlık Osmanlı Arxivində Azərbaycanda xanlıqlar dövrünə aid sənədlərin ya bir dəftər və ya müəyyən bir kataloq əsasında tapılmasının mümkün olmadığını və dağınıq şəkildə səndələr toplusundan ibarət olduğunu göstərərək, Azərbaycanın tarixini əks etdirən bu sənədləri aşağıdaki kimi təsnif etmişdir:

1. *Mühimmə dəftərləri*
2. *Name-i Hümayun dəftərləri*
3. *Hatt-ı Hümayun təsnifi*
4. *Cevdət təsnifi*
5. *Ali Emiri təsnifi*
6. *İbnü'l-Emin təsnifi*
7. *Dosya usulu təsniflər*[Çakmak, 1996: s.V].

Azərbaycanda xanlıqların yarandığı dövrdən, XVIII əsrin ortalarından sonuna qədərki olan dövrlərə qədər olan sənədlərin əvvəlki və sonrakı dövrlərə nisbətən daha az

olduğunu qeyd edən Mehmet Ali Çakmak xanlıqların Rusiya və İran müdaxilələrinə məruz qaldığı əsrin sonunda və XIX əsrin əvvəllərində isə bu sənədlərin daha da çoxaldığını qeyd edir.

Mehmet Ali Çakmakın bu sənədlər üzərində apardığı tədqiqatdan aydın olur ki, xanlıqların Osmanlı dövləti ilə əlaqəsi əsasən sərhəd xidmətçiləri vasitəsi ilə təmin edilirdi. Bu sənədlərin çoxunun Türk dilində yazıldığını qeyd edən müəllif, bu əlifabanı bilən tədqiqatçı üçün araşdırmaların çox da çətin olmadığını söyləsə də, bununla bərabər, bu sənədlər arasında farsca yazılmış sənədlərin də olduğunu göstərir.

XVI əsrdən başlayaraq, Azərbaycanın tarixi ərazilərini hissə-hissə fəth edən Osmanlı imperiyasının bu ərazilər üzrə tərtib etdiyi sənədlər içərisində. Bütöv Azərbaycanın XVI-XVIII əsrlər tarixi onomastik mənzərəsini əks etdirən əsas mənbə müfəssəl və icmal dəftərləri hesab olunur. Müasir Azərbaycan dilçiliyi və tarixşünaslığı üçün mühüm əhəmiyyətə malik Osmanlı dövrünün arxiv sənədləri sırasında yer alan Azərbaycan toponimiyası və etnonimiyası, onun tarixi coğrafiyası üçün qiymətli faktlarla zəngin olan "Müfəssəl" və "İcmal" dəftərlərinin funksiyası haqqında daha dəqiq məlumat verən Şahin Mustafayev yazır: "*Osmanlı vergi praktikası əsasən iki növ vergi dəftərinin tərtibini nəzərdə tuturdu: "icmal dəftəri" və "müfəssəl dəftərlər*" [Mustafayev, 2001: s.3].

İcmallarda başlıca olaraq "dirliklərin" (yəni dövlətin hərbi xidmət əvəzində sipahilərə verdiyi torpaq sahələri və ya digər gəlir gətirən obyektlər) sipahilər arasında bölüşdürülməsi və paylanması qaydaları göstərilirdi. Müfəssəl dəftərlərdə isə müvafiq inzibati vahidin daxili bölgüsü və sərhədləri, o ərazidə olan yaşayış yerlərinin (şəhər, qəsəbə, kənd) adları, vergi ödəyən əhalinin adbad sayı, mülkiyyət statusu və dini tərkibi, vergilərin növ və miqdarı, digər önəmli bilgilər qeyd edilirdi.

Beləliklə, müfəssəl dəftər hər hansı bir inzibati vahid ərazisində vergi toplamaq üçün əsas sənəd hesab edilirdi. Yerlərdə vergi toplama praktikasına nəzarət etmək üçün bu dəftərlər iki nüsxədə tərtib olunub İstanbula baş dəftərxanaya göndərilirdi. Bu nüsxələr Sultanın tuğrası ilə təsdiqləndikdən sonra dövlətin rəsmi sənədinə çevrilirdi" [Mustafayev, 2001: s.3-4].

XVI əsrdən başlayaraq, Osmanlıların müxtəlif dövrlərdə Azərbaycana yürüşü nəticəsində fəth etdiyi Azərbaycan ərazilərində öz idarəçilik sistemini tətbiq edərkən, o dövrdə Azərbaycanda yaradılmış sancaqların sosial – iqtisadi vəziyyətini əks etdirən "Müfəssəl" və "İçmal dəftərləri"ndə verilən rəsmi statistik məlumatlar, orta əsrlər Bütöv Azərbaycanın tarixi coğrafiyası, etnoqrafiyası, onomastik sisteminin tədqiqi üçün ən etibarlı mənbə olaraq, həm də o dövrdə Azərbaycanın tarixi-coğrafi sərhədlərini müəyyənləşdirmək baxımından inkarolunmaz mühüm rəsmi tarixi faktları özündə əks etdirən tarixi sənədlər toplusudur.

XVI-XVIII əsrlərdə Osmanlı idarəçiliyində olan sancaq və livaların "Müfəssəl dəftərləri"nin ən dəyərli cəhətlərindən biri də, bu dəftərlərin hər birinin Azərbaycanın tarixi coğrafi sərhdələri, milli etnik tərkibi, sosial-iqtisadi durumunu, eyni zamanda, bu ərazilərin tarixi toponimik mənzərəsini əks etdirməsidir. "Müfəssəl və icmal dəftərlər"i üzərində aparılan onomastik tədqiqatlar bu dəftərlərdə qeyd olunan şəxs və yer adları əsasında müasir mərhələdə İran və Rusiya kimi müxtəlif dövlətlər tərəfindən

Azərbaycanın işğal olunmuş və itirilmiş tarixi ərazilərində, xüsusilə indiki Ermənistan, Gürcüstan və Güney Azərbaycanda siyasi–ideoloji məqsədlərlə təhrif olunmuş onomastik vahidlər və saxtalaşdırılmış tarixi səhifələrin yenidən bərpası ilə həmin ərazilərin hansı xalqa mənsub olduğunu təsbit etmək imkanı yaradır.

Onu da qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində saxlanılan Osmanlı dövrünə aid bu kimi rəsmi tarixi dövlət sənədlərinin uzun müddət Azərbaycana gətirilməsinə, tədqiqatçılara çatdırılmasına və geniş oxucu kütləsinə təqdim olunmasına lazımı diqqət yetirilməsə də, sevindirici haldır ki, son illər Azərbaycanda və Türkiyədə Osmanlı dövrünün arxiv sənədləri üzrə tədqiqatlar nəzərə çarpacaq dərəcədə genişlənməkdədir.

Bu baxımdan Akademik Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin (Qaramanlı) Məmmədovun şərhi və tərcüməsi ilə 1996-cı ildə Bakıda nəşr olunmuş "İrəvan əyalətinin icmal dəftəri", 2001-ci ildə nəşr olunmuş "Naxçıvan sancağının müfəssəl dəftəri"ləri Azərbaycanda bu sahədə atılan ilk uğurlu tədqiqatlardandır. Azərbaycanda bu dəftərlərin nəşrindən sonra Osmanlı mənbələri əsasında Azərbaycan bölgələrinin sosial–iqtisadi tarixi ilə bağlı tədqiqatların sayı artmağa başladı. Bu sahədə Hüsaməddin Qaramanlı (Məmmədov) və Şahin Mustafayevin xidmətlərini xüsusi olaraq qeyd etmək lazımdır.

Azərbaycanın tarixi ərazi bütövlüyünü təsdiq edən Osmanlı dövrünün rəsmi sənədləri sırasında yer alan mükəmməl onomastik mənbələrdən biri 1590-1728-ci il "İrəvan əyalətinin icmal dəftəri", digəri isə 1727-ci il "Naxçıvan sancağının müfəssəl dəftəri"dir. O.D.Barkanın araşdırmalarından məlum olur ki, Osmanlılar İrəvan əyaləti üçün iki müfəssəl, dörd icmal, iki sicil dəftəri tərtib etmişlər. Bunlardan bir sicil dəftəri 1603-cü il tarixli "Dəftəri-sicili-livayi-Rəvan" Sofiyada, Kril və Mefodi kitabxanasında, digərləri isə İstanbulda Başbakanlık Arxivində saxlanılır [Barkan, 1952: s.290-294]. Bu dəftərlərdən yalnız 1590-1728-ci il müfəssəl və icmal dəftərləri əlimizdə olduğundan Azərbaycanın onomastik mənzərəsini bu dəftərlər əsasında tədqiqata cəlb edə bildik.

1590-1728-ci il tarixli icmal və müfəssəl dəftərlərində qeydə alınmış onomastik vahidlər.

Tarixdən bəllidir ki, hələ eradan əvvəl dövrlərdən Oğuz və Qıpçaqların, eləcə də digər Türk boylarının ilkin məskəni olan Azərbaycanın ən qədim tarixi bölgələri Naxçıvan və XX əsrin əvvəllərində Rusiya tərəfindən yaradılmış indiki Ermənistana aid edilən Azərbaycanın tarixi torpaqları İrəvan xanlığının əraziləri XVI əsrin sonlarında (1588-1603) və XVIII əsrin başlanğıcında (1724-1735) dəfələrlə Osmanlı imperiyasının tərkibinə qatılmış və burada Osmanlı idarəçilik sistemi tətbiq edilmişdir [İƏİD, 1996: s.7].

Bu dəftərlərdə verilən rəsmi statistik məlumatlar əsasında XVI əsrin sonu və XVIII əsrin 20-30-cu illərindəki vəziyyət qarşılaşdırıldığında, son illərdə İrəvan əyalətinin inzibati bölgüsündə müəyyən dəyişikliklərin baş verdiyinin şahidi oluruq. Z.Bünyadovun verdiyi məlumatdan aydın olur ki, 1590-cı il tarixli müfəssəl dəftərə görə İrəvan əyalətinin 10 nahiyəsi (İrəvan, Karbi, Vedi, Aralıq, Talin, Ərmus, Abnik, Abaran, Çərabxana) və İrəvan livasının 16 nahiyəsi (Ağcaqala, Məvazeyi-Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad,

Şorlt, Dərənürgüt) və bir qəzası olan Naxçıvandan ibarət idisə, 1728-ci il tarixli İrəvan əyalətinin "Müfəssəl dəftəri"ndən aydın olur ki, osmanlılar sonrakı dövrdə Naxçıvan bölgəsi üçün ayrıca bir dəftər tərtib etmiş, Zar, Zəbil və Şərur nahiyələrini Naxçıvan sancağının tərkibindən çıxararaq İrəvan əyalətinə birləşdirmişlər [İƏİD, 1996: s.7].

"İrəvan şəhərinin Kameral təsviri" kitabının I cildinin tərcüməçisi, tərtib və giriş mətninin müəllifi Nazir Əhmədlinin araşdırmasında vurğulanır ki, "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə İrəvan əyaləti İrəvan, Karbi, Naxçıvan, Məvaziyi-Xatun, Mülki-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Ağcaqala, Gərni, Vedi, Abaran, Şərəbxana, Talin, Ərmus, Abnak, Aralıq, Azadcıran, Şorlut, Dərənürgüt, Zar, Zebil, Əlincə və Sisyan nahiyələrindən ibarət idi ["Xalq Cəbhəsi" qəzeti, 2020: s.13].

XVI-XVIII əsr Osmanlı qaynaqları üzrə aparılan tarixi onomastik araşdırmalar Azərbaycan xalqının min illər boyunca yaratdığı zəngin maddi və mənəvi mədəniyyət mərkəzi olan İrəvan Xanlığının (1920 – ci illərdə Rusiyanın dəstəyi ilə Azərbaycanın tarixi ərazilərində yaradılmış indiki Ermənistan dövlətinin) tarixən Quzey Azərbaycanın qərb bölgəsi olduğunu təsdiq edir. Osmanlıların İrəvan və Naxçıvan üzrə tərtib etdiyi müfəssəl və icmal dəftərlərində bu ərazidə qeydə alınan *Oğuzdaş, Bayandırlı, Biçənək, Çepni, Qaraqoyunlu, Qarxun, Qıpçaq, Avşar, Əfşaryeli, Təkə, Muğanlı, Xoraslı, Gənzək, Qazançı, Quşçu, Suvarbənd* kimi toponim və *Bayat, Quzugüdənli, Əfşar, Dünbüllü, Reyhanlı, Qaraçalılar* kimi etnonimlər bu ərazilərin hansı millətə məxsus olduğunu aydın şəkildə göstərən inkarolunmaz tarixi onomastik faktlardır.

XVI əsrin sonu və XVIII 20-30-cu illərində Osmanlı idarəçiliyində olan Rəvan (İrəvan) bəylərbəyiliyinin *Çuxursəd, İrəvan, Karbi, Vedi, Aralıq, Talin, Ərmus, Abnik, Abaran, Şərabxana* kimi livalarında *Ağcaqala, Məvaziyi-Xatun, Mülki Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad, Şorlut, Dərənürgüt* kimi Türk sözlərindən yaranmış coğrafi adlarla yanaşı, bu bölgələrdə yaşayan Türk xalqının milli pasportu olan şəxs adlarının qeydə alınması da, bu ərazilərin heç bir şübhə doğurmadan Azərbaycan türklərinə məxsus tarixi ərazilər olduğunu təsdiq edir.

1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ində 6 məhəlləli (Dərəköy, Kiçik Qayıq, Əyali, Börkçü, Ohan, Mardiros, Məzrə) İrəvan şəhərində olduğu kimi, 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə də Naxçıvanın *Ordubad, Culfa, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi Xatun, Qarabağ, Qışlağat, Dərələyəz* kimi şəhər və rayonları, eyni zamanda, *Mirzəbəy, Şahab, Günbəz, Gala* və başqa bu kimi Türk adlarını daşıyan məhəllələri, *Ağa məscidi, Hacı Xəlil məscidi, Sultan Mahmud məscidi, Bəsri məscidi, Molla Əhməd məhəlləsinin məscidi* və *Xətib bazarı, Şeytanbazar, Çanaq, Türəngi və Meydan* bazarlarının da adları bu coğrafiyanın Türk məmləkəti olduğunun bariz nümunəsidir [İƏİD, 1996: s.15-17].

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndəki coğrafi adlardan aydın olur ki, Osmanlı dövlətinin inzibati-ərazi bölgüsünə əsasən Naxçıvan üçün sonradan ayrıca "Müfəssəl dəftər" tərtib olunmuş, *Zar Zəbil və Şərur, Maku, Iğdır, Sürməli* nahiyələri Naxçıvan sancağından çıxarılaraq İrəvan əyalətinə birləşdirilmiş və bu əyalətin əhalisi %100 türklərdən ibarət olan *Göyçə, Məzrə, Xınzrək, Qırxbulaq, Dərəçiçək, Sədərək* adlı nahiyələrvə *Şürəkəl* livası yaradılmışdır [Kütükoğlu, 1993: s.180]. İndiki Güney Azərbaycanın Qərbi

Azərbaycan ostanına daxil olan Maku şəhəri XVII əsrdə Osmanlı dövründə Maku Sultanlığı kimi İrəvan əyalətinin tərkibində olması bu gün əlimizdə Quzey və Güney Azərbaycanın bütövlüyünü təsdiq edən tarixi fakt kimi diqqəti cəlb edir [Эвлия Челеби, 1983: s.107].

Osmanlı dövrünün mənbələri müxtəlif bölgələrdə ilkin məskunlaşan qədim tayfaların adlarını əks etdirən coğrafi adların tarixini öyrənmək üçün çox dəyərli rəsmi statistik məlumatlar verir. XIV-XVIII əsrlərə aid Osmanlı dövlətinin sənədlərində rast gəldiyimiz toponimlərin bir qrupu Azərbaycan türklərinin etnogenezində böyük rol oynamış etnonimlərin adlarını əks etdirir. Bu mənbələrdə Anadolu, Naxçıvan, İrəvan Xanlığı (indiki Ermənistan) və türk xalqlarının yaşadığı digər bölgələrdə mövcud qədim TÜRK etnonimlərinin adını əks etdirən ***As//Az, Afşar//Əfşar, Alpaut, Kimmer//Qəmərli, Uz, Tırkeş, Qaraqoyunlu, Mag, Çepni, Cəlayirli, Qıpçaq, Tatar, Bayat, Bayandur, Xalac//Xələc, Kınık, Cağatay, Oğuz, Türkman, Kəngərli, Sak, Çol//Çul//Sul, Qarapapaq*** kimi bir çox başqa türk mənşəli qədim etnotoponimlərin qeydə alınması və mənşəyinin araşdırılması Azərbaycan və Anadoluya qarşı ərazi iddiaları ilə çıxış edən erməni terroristlərinə verilən tutarlı tarixi cavabdır.

B.Budaqov və Q. Qeybullayev indiki Ermənistan ərazisində qeydə alınmış və bir çoxunun adı qədim Osmanlı qaynaqlarında keçən *Aban, Abar, Abdal, Avşar, Ağacəri, Ayrum, Alban, Alpaut, Aran, Bayan, Bayandur, bayat, Baydar, Balta, Barni, Basian, Basar, Boston, Qayı (Kayı), Qazax, Qanlı, Qarabağ, Qarabörk, Qaraqoyunlu, Qaraman, Qarapapaq, Qarqa, Qarqar, Qarxın, Qacar, Qerus, Qıpçaq, Quqar, Quşçu, Eymur, Əncə, Ələt, İvə, Iqdır, Yaycı, Yureqir, Kəmər, Kınık, Kol (Ku), Kotan, Kobak, Oğuz, Peçenek, Sal, Samur, Sod, tana, Tele, Tokuz, Tulus, Hun (Xun), Çağan, Candar, Çol (Çul), Şaka, Şatı* və başqa bu kimi qədim türk tayfa adlarının Şimali və Cənubi Azərbaycan ərazisinin toponimiyasında da geniş yer tutduğunu göstərir [Budaqov, Qeybullayev, 1998: s.84].

Osmanlı dövlətinin rəsmi sənədləri olan müfəssəl və icmal dəftərlərinə, eləcə də digər arxiv sənədləri əsasında aparılan onomastik araşdırmalar göstərir ki, XVIII əsrdən başlayaraq, Rusiyanın vasitəsi ilə Anadolu, Naxçıvan və İrəvan ərazisinə ermənilərin kütləvi şəkildə köçürülüb yerləşdirilməsi nəticəsində bu coğrafiyadakı qədim türk toponimləri tamamilə dəyişdirilərək sıradan çıxarılmışdır. Osmanlı dövrünün tarixi sənədləri, eyni zamanda Ermənistan ərazisindəki mövcud tarixi toponimlər əsasında aparılan araşdırmalar bu ərazidəki mövcud toponimlərin müxtəlif üsullarla dəyişdirildiyini təsdiq edir.

Bu haqda Ə.Ələkbərlinin "Qədim Türk – Oğuz yurdu Ermənistan", B.Budaqov və Q.Qeybullayevin birlikdə nəşr etdirdiyi "Ermənistanda Azərbaycan Mənşəli toponimlerin izahlı lüğəti", İ.Bayramovun "Qərbi Azərbaycanın türk mənşəli toponimləri", Q.Qeybullayevin "Qədim türklər və Ermənistan" və bu tipli bir çox digər tədqiqatlarda tarixi faktlar və rəsmi sənədlər əsasında zəngin informasiya verilməkdədir. Qeyd olunan əsərlərlə yanaşı, digər tarixi qaynaqlar üzərində aparılan araşdırmalar göstərir ki, istər Anadoluda, istərsə də indiki keçmiş Türk – Oğuz yurdunda, Ermənistanda çox sayda qədim türk mənşəli coğrafi adların bir çoxu (Büyük Qarakilsə – Gükark, Gorus – Göris, Karvansaray – İçevan, Zəngibasar – Masis, Düzkənd – Axuryan, Başarkeçer – Vardanes)

modifikasiya yolu ilə ermənileşdirildiyini sübut edir.

Vaxtilə sovet Ermənistanın qədim türk tarixinə və mədəniyyətinə qarşı dövlət səviyyəsində apardığı etnik təmizləmə siyasətinin bir qolunu təşkil edən tarixi toponimlərin ortadan qaldırılmasını təsdiq edən Ermənistanın dövlət sənədlərinə istinad edən Əziz Ələkbərlinin tədqiqatlarında küllü miqdarda rəsmi faktların əks olunması deyilənləri təsdiq edir. Ermənistan dövləti tərəfindən dəyişdirilmiş qədim türk toponimləri haqqında rəsmi statistik məlumat almaq üçün Əziz Ələkbərlinin sadəcə "Qədim Türk – Oğuz yurdu Ermənistan" adlı bir əsərinə müraciət etmək kifayət edər. Əsərdə Ermənistanın dövlət qərarları əsasında 1935, 1938, 1939, 1940, 1946, 1948, 1950, 1964, 1967, 1968, 1969, 1978, 1991-ci illərdə müxtəlif leksik vahidlərlə ifadə olunan küllü miqdarda türk mənşəli toponimlərlə yanaşı, Çaxırlı-Sovetakert, Qanlı-Qamışlı, Qıpçaq-Ariç, Əfşar-Avşar, Qəmərli//Kimmer-Artaşat, Qəmərli-Metsamor, Muğan-Hovtaşen, Muğan-Dzovazard, Aşağı Qanlıca-Vahramaberd, Bayandır, Təkə-Takarli, Şidli-Yexeqnavan, Maqauz-Kaxnut, Uluxanlı-Masis, Sfolar-Cermuk, Cul//Çul-Artavan, Quşçu-Keçid kimi yüzlərə qədim türk tayfalarının adını əks etdirən etnotoponimlərin də dəyişdirilməsi haqqında verilən rəsmi informasiya ermənilərin türk xalqına və mədəniyyətinə qarşı münasibətinin açıq ifadəsidir [Ələkbərli, 1994: s.41; 56; 67-68; 86; 112; 140; 165].

Ermənistan ərazisindəki tarixi toponimik faktlara istinad edən B.Budaqov göstərir ki,bu ərazidə yaşayan qədim Türk tayfa dillərindən bəzi sözlər erməni və gürcü dilinə daxil olmuş və bu sözlər bir çok yaşayış məntəqələrinin adlarını əks etdirmişdir [Budaqov, Qeybullayev, 1998: s.85].

XVI-XVIII əsrlər Osmanlı idarəçiliyində olan İrəvan sancağında adı keçən Türk kənd və qəsəbələrinin adları	Sovet dönəmində Ermənistan dövlətinin rəsmi qərarları ilə dəyişdirilmiş Azərbaycan-Türk toponimləri	Ermənistan dövlətinin rəsmi qərarları ilə dəyişdirilmiş Azərbaycan-Türk mənşəli adların dəyişdirilmə tarixi
Ağkilsə	Azad	3.01.1935
Ağcaqala	Tsaxgalanc	25.01.1978
Qarakilsə	Hartavan	19.04.1950
Qarabulaq	Yernicetap	15.07.1946
Quşçu	Keçid	12.11.1946
Qaragoyun	Ferik	25.01.1978
Qamışlı	Zartong	------
Qoturbulaq	Katnaxpyur	------
Qazançı	Meğraşen	31.05.1946.
Yuxarı Qarxun	Crarat	4.04.1946
Aşağı Qarxun	Araks	15.07.1946
Hacılar	Mrqastan	3.01.1935
Dərəçiçək	Tsaxkadzor	----
Dəlikdaş	Tsakkar	----

Tarixi toponimik tədqiqatlardan da göründüyü kimi, Azərbaycan türklərinin etnogenezində fəal rol oynamış əski türk boylarının adlarının indiki Ermənistanın toponimiyasında belə geniş əks olunması heç də təsadüfi deyil. Ümumiyyətlə, bu etnosların hər birinin Azərbaycanın, eləcə də ümumi türk tarixində qoyduğu izlər

haqqında dünyanın müxtəlif dillərində olan tarixi mənbələrdə kifayət qədər informasiya almaq mümkündür. Qədim mənbələrdə indiki Ermənistan ərazisindəki mövcud türk toponimləri haqqında verilən tarixi məlumatlar, indiki Ermənistanın ən qədim dövrlərdən Azərbaycan –Türk torpaqları olduğunu sübut edən inkarolunmaz tarixi faktlardır.

İndiki Ermənistanın tarixi türk torpaqları olduğunu sübut edən amillərdən biri də qədim türk tayfa dillərindən çox sayda sözlərin erməni dilinə keçməsidir. Bu faktı erməni müəlliflərinin özləri də təsdiq etməkdədir. Hələ XX əsrin əvvəllərində R.Açaryan türk dilindən ermənicəyə 4000 qədər sözün keçdiyini qeyd etmişdir [Nerimanoğlu, Öner., 2008: s.205]. Araşdırmalardan aydın olur ki, türk dilindən müasir erməni dilinə keçən sözlərlə ifadə olunan bir çox tarixi toponimlərin fonetik quruluşu və semantikası da məhz türk dilinə məxsusdur.

Ermənistanın dövlət qərarları əsasında dəyişdirilən bir çox toponimlərin erməni dilinə keçmiş Azərbaycan – türk mənşəli *daş, kənt, kan, ağ+kilsə, azad, gızıl+vəng, xan+cığaz (hancığaz), baş, taza, daş+tavan, saru+xan, alaçıx, çay+kənt, güney, çiçəkli, gözel+dərə* kimi sözlərlə ifadə olunduğu aydın şəkildə görünməsi də maraqlı cəhət kimi ortaya çıxmaqdadır: ***Daş+takar, Erze+kent, Arza+kan, Ağ+kilse, Azad, Gızıl+veng, Xan+cığaz, Taza+gyuğ, Baş+gyuğ, Daş+tavan, Saru+xan, Ala+çıx, Çay+kent, Güney, Çiçek+li, Deller, Gözel+dere.***

Osmanlı dövlətinin "Təhrir dəftərləri"ndə adları qeyd olunan bir çox qədim türk toponimlərinin sonradan erməni dilinə keçmiş bu kimi Azərbaycan-türk sözləri ilə əvəzlənməklə "ermənileşdirilməyə" cəhd edilməsi ümumilikdə türk dilinin erməni dili üzərindəki tarixi təsirinin, zənginliyinin göstərir və indiki Ermənistan ərazilərinin ilkin yerli sakinlərinin də türklər olduğunu sübut edir.

Sadəcə toponimlər deyil, ümumən müasir erməni dilinin onomastik sisteminin tədqiqi göstərir ki, erməni dilinin lüğət tərkibində, xüsusilə antroponimik sistemində də türk dilinin izləri daha qabarıq görünməkdədir. Azərbaycan-türk dilindəki mövcud *zor, bala, dəmir, köç, ar+sən, elçi, bəy, qədim, köç-ər* kimi bir çox apelyativ leksik vahidlərin hazırda ermənilərdə şəxs adı kimi işlənməsi faktı deyilənləri təsdiq edir: *Zori Balayan, Dəmirçiyan, Arsen, Köçəryan, Baxşı, Elçibekyan, Kadimyan* və s.

1590-1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri" və "Naxçıvan Sancağının müfəssəl dəftər"ində İrəvan xanlığı və Naxçıvanın inzibati ərazisinə aid bölgələri, yaşayış məskənlərinin tipləri və əhalinin milli etnik tərkibi və sayı barədə statistik məlumat verdiyindən tarixi onomastik tədqiqatlar üçün olduqca əlverişli mənbələrdir. 1728-ci il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə, eyniadlı əyalətin inzibati ərazi quruluşuna *İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, Iğdır, Aralıq, Şərur, Sədərək, Zarzəmin nahiyələri və Şürəkəl livası,* Naxçıvan sancağı isə *Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair – Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan* nahiyələri daxil olmuşdur [İƏİD, 1996: s.8].

1603-cü il tarixli "Dəftəri-sicili-livayi-Rəvan"da adı çəkilən Bərgüşad nahiyəsi Gəncə-Qarabağ əyalətinin tabeliyinə verilmişdir [Başbakanlık Arşivi, № 903]. Bu dəftərlərdən

aydın olur ki, XVIII əsrin 20-ci illərində Osmanlılar Naxçıvan sancağı ilə bərabər, Ordubad sancağını da yaratmışlar [NSMD, 2001: s.11].

Osmanlılar Naxçıvan sancağı üçün ayrıca bir "Müfəssəl dəftər" tərtib etdikləri zaman Zar, Zəbil və Şərur nahiyələri Naxçıvan sancağının tərkibindən çıxarılmış və İrəvan əyalətinə birləşdirilmişdir. Bunlarla bərabər, Ordubad, Bazarçayı və Ağcaqala nahiyələri ləğv edilmiş, Sair Mevazi, Qışlağat və Dərələyəz adlı yeni nahiyələr yaradılmışdır. Bununla da, Osmanlıların Naxçıvan sancağının ərazisi və inzibati bölgüsündə 14 nahiyə *Naxçıvan, Əlıncə, Sair–Məvazi, Məvaziyi–Xatun, Dərşahbuz, Mülki–Arslanlı, Qarabağ, Qışlağat, Dərələyəz* qalmıştır [İƏİD, 1996: s. 8].

Osmanlı qaynaqlarından göründüyü kimi, XVI-XVIII əsrlərdə Naxçıvan sancağının ərazisi çağdaş Naxçıvan Muxtar Respublikasının ərazisindən dəfələrcə böyük olmuş və indiki Ermənistanın indiki *Əzizbəyov* (əski adı: *Soylan*), *Yexeqnadzor* (əski adı: *Keşişkənd*), *Cermuk* (əski adı: *Səfolar*), *Sisyan* (əski adı: *Qarakilsə*), *Meğri* və başqa bu kimi bir çox rayonların da ərazilərini əhatə etmişdir. Bunlarla yanaşı, İstanbulda Başbakanlık Arxivində saxlanılan 1553-1869-cu illərin dövlət sənədlərinin məzmununu əks etdirən "Mühimmə dəftəri"ndə Osmanlıların Azərbaycanın Naxçıvan diyarı uğrunda XVI-XVIII əsrlərdə apardıqları mübarizə ilə bağlı da mühüm tarixi faktlar, sənədlər və məlumatlar vardır.

Naxçıvanın sosial-siyasi və iqtisadi tarixini əks etdirən bu "Mühimmə dəftərləri" XV-XVIII əsrə aid Naxçıvan və onun ətraf bölgələrinin onomastik mənzərəsini, eyni zamanda Quzey və Güney Azərbaycanın ərazi bütövlüyünü mükəmməl şəkildə əks etdirən tarixi qaynaq kimi də olduqca qiymətli faktlarla zəngindir: "*Sultan III Murad (1574-1595) Naxçıvan şəhərini ələ keçirməyə hazırlaşarkən Naxçıvan istiqamətinin komandanı Fərhad Paşaya bu tədbirlə əlaqədar ciddi hazırlıq görmək və yaxud Səfər xana yazılan məktuba görə oğlu Əhməd bəyin Naxçıvan sancaqbəyisi təyin ediləcəyi bildirilərək ona Naxçıvan qalasının yenidən inşa etdirilməsi buyurulurdu. Mərənd hakimi Şahqulu Sultana göndərilən hökmə əsasən Osmanlıların hücuma keçəcəyi təqdirdə Naxçıvan, Ordubad və Qafanın ələ keçirilməsində iştirak etməsi tapşırılır...*"

Göründüyü kimi, mənbədə qeyd olunan Murad Fərhad, Əhməd, Səfər, Naxçıvan, Mərənd, Ordubad, Qafan və s. kimi onomastik vahidlərlə Azərbaycanın antroponimik və toponimik mənzərəsi əsasında etnik tərkibi haqqında da müfəssəl məlumat əldə etmək olar. 1590 və 1728-ci il tarixli "İrəvan əyalətinin müfəssəl dəftərləri"ndən və bu dövrlərdə Gelibolulu Ali əfəndinin "Künhül-əxbar" və "Nəsihətnamə"si, əslən Urmiyalı olan Sultan II Muradın şahnaməçisi və sirr katibi olan Seyyid Loğmanın "Zübdət ət-təvarix"i, İbrahim Rəhimzadənin "Zəfərnaməyi-sultan Muradxan", Kəmani Mustafa ağanın "Rəvan fəthnaməsi" kimi Osmanlı tarixi xronikalarında əyalətin etnik tərkibi haqqında verilən məlumatlardan aydın olur ki, İrəvan əyalətinin əhalisi əsasən türk-müsəlmanlardan ibarət olmuşdur.

XVI-XVIII əsrlərdə İrəvan əyalətinin etnik tərkibi haqqında məlumatı Osmanlı dövlətinin bu əyalət üzrə tərtib etdiyi dəftərə adı qeyd olunmuş şəxslərin statistik göstəriciləri əsasında əldə etmək mümkündür. 1728-ci ildə İrəvan əyaləti üzrə tərtib olunmuş dəftərdə adı çəkilən 30 əşirətin 72 tayfası ayrı-ayrı yaşayış məskənlərinin sakinləri kimi, Karbi, Xınzirək, Aralıq, Sisyan, Sürməli nahiyələrində və Şürəkəl livası

ərazisində qeydə alınmışdır. Bu camaat və əşirətlərdən 17-si bir topluluqdan, yerdə qalanları isə bir neçə tayfadan ibarət olmuşlar [İƏİD, 1996: s.23].

"İrəvan əyalətinin icmal dəftəri"ndə bir topluluqdan ibarət olan camaat və əşirətlərdən *Zəngənə, Qəmərli (Xınzirək nahiyəsi), Türkmanlı, Yuva, Mesinli, Alabatanlı, Sər, (Karbi nahiyəsi), Hacılı (Vedi nahiyəsi), İrəmli, Hacumlu (Şürəkəl livası), Pirili (Sürməli nahiyəsi), Kürdlər, Qarahacılı (Iğdır nahiyəsi) Şamdangələn Quzuçu, Mürsəlli (Aralıq nahiyəsi) və Kəngərlilərin (Sisyan nahiyəsi)* adları ilə yanaşı, bir neçə tayfadan ibarət olan camaat və əşirətlərdən *Dünbüli, Quzugüdənli, Reyhanlı, Saqiabad, Muğanlı, Bayat, Şeyikli, Sinli, Nəcli, Qaraçalr, Əylənli, Daşanların* da adını qeyd etmək olar.

Dəftərdə verilən məlumata görə, Dünbülilərin Maku, Xınzirək, Nəcli, Maku və Şərur nahiyələrində, Quzugüdənlilərin Karbi və Aralıq nahiyələrində, Reyhanlıların Xınzirək, Iğdır və Aralıq nahiyələrində,Sadiqabadlıların Karni və Xınzirək nahiyələrində, Muğanlıların Şürəkəl livasında, Bayatların Karbi və Şərur nahiyələrində, Şeyiklilərin Aralıq nahiyəsində, Sinlilərin Karbi və Xınzirək nahiyələrində, Nəclilərin Qırxbulaq nahiyəsində, hərəsi iki tayfa olan Kürdvəlilər, Qaraçalar, Əylənlilərin Karbi nahiyəsində, Daşanlıların isə Aralıq nahiyəsində və Şürəkəl livasında yaşadığı göstərilir [İƏİD, 1996: s. 23].

Onu da qeyd etmək lazımdır ki, icmal dəftərində bəzi kəndlərin əhalisinin etnik tərkibi haqqında məlumata rast gəlinmir. Adı icmal dəftərində qeyd olunan *Bayandırlı, Biçənək, Bəydilli, Bozçalı, Qaraqoyunlu, Qarxın, Qıpçaq, Əfşar, Oğuzdaş, Təkə, Təkəciq, Tərəkəmələlər, Cəlayirli* kimi əksər yaşayış məntəqələrinin əhalisinin etnik tərkibi haqqında məlumat verilməsə də, qədim türk etnoslarının adından yaranmış bu toponimlər həmin yaşayış məntəqələrinin milli etnik mənsubiyyəti haqqında tam təsəvvür yaradır.

Nəticə

Osmanlı dövrünə aid mənbələrdən, eləcə də Ermənistanın dövlət arxiv sənədlərindən göründüyü kimi, XVII – XIX əsrlərdən başlayaraq, qədim türk torpaqlarını işğal etmək arzusunda olan və 1990-cı illərə qədər mərhələ-mərhələ rus sovet ordusunun köməyi ilə Azərbaycanın tarixi ərazilərini işğal etmək istəklərini tam reallaşdıran ermənilər yerşədirildikləri bu tarixi ərazilərdən türk tarixinin bütün izlərini tamamilə silmək üçün türk mənşəli qədim toponimləri də sistemli terrora məruz qoymuş, nəticədə başqa heç bir millətin yaşamadığı "Türksüz Ermənistan" kimi monodövlət yaratmağa nail oldu.

Lakin bütün bunlara baxmayaraq, Osmanlı dövrünün rəsmi statistik mlumatlarını əks etdirən müxtəlif arxiv sənədlərinə əsaslanan araşdırmalar, ermənilərin zaman-zaman türk tarixi və mədəniyyəti üzərində həyata keçirdikləri bu vandallığı unutmağa imkan verməyəcək ciddi və inkarolunmaz fakt olaraq, Azərbaycan ərazisində dəflərlə qanlı terror törətmiş ermənilərin ərazi iddasının tamamilə əsassız olduğunun göstərir. Bu dövrün arxiv sənədləri XX əsrin əvvəllərində Azərbaycan ərazisində Rusiya tərəfindən yeni Ermənistan dövləti yaradılana qədər bu coğrafiyada mövcud olmuş Azərbaycan xanlıqları və dövlətləri, eyni zamanda onların tarixi haqqında müfəssəl tarixi faktları əks etdirdiyindən erməni saxtakarlığına qarşı sipər rolunu oynayır. Ruslar və ermənilər işğal etdikləri tarixi türk torpaqlarında Azərbaycan türklərini kütləvi soyqırıma və məcburi deportasiyaya məruz qoymaqla, qədim türk mədəniyyətini kökündən məhv etməklə,

buradakı qədim türk toponimlərini terrora məruz qoymuş bu adları dəyişdirməklə tarixi unutdurmağa çalışmışlar. Hər zaman dünya miqyasında böyük dəstək alan erməni vandalizminin törətdiyi bu cinayətlər nəticəsində qədim İrəvan xanlığı, indiki Ermənistan ərazisində Azərbaycan-türk tarixinin bir çox maddi- mədəniyyət nümunələrinin məhv edilməsinə və küllü miqdarda qədim türk mənşəli toponimlərin dəyişdirilməsinə baxmayaraq, istər Osmanlı dövlətinin rəsmi sənədləri, istərsə də müxtəlif dillərdə olan tarixi mənbələrdə əks olunan tarixi toponimik faktlar qədim Azərbaycan torpağı olan indiki Ermənistan ərazisində qədim türk yurdu İrəvan Xanlığının tarixinin silinməsinə, unudulmasına imkan verməyəcək və bu ərazidə mövcud türk tarixinin izlərini minilliklər boyu yaşatmış olacaq.

ƏDƏBİYYAT

1. Barkan, O.D. Tahrir defterlerinin istatistik verimleri hakkında bir araştırma. "IV TTK, Ankara: 10-14 Kasım, 1948". – Ankara: – 1952. s.290-294.
2. Budagov, B., Qeybullayev, Q. Ermənistanda Azərbaycan mənşəli toponimlerin izahlı lüğəti. – Bakı: Oğuz eli, – 1998.
3. Эвлия Челеби. Книга путешествий. Перевод и комментария. – Москва: Наука, – 1983.
4. Ələkbərli Ə. Qədim Türk-Oğuz yurdu Ermənistan. – Bakı: "Sabah", – 1994.
5. "Xalq Cəbhəsi" qəzeti. – Bakı: – 2020. –13 fevral, –s.13.
6. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, şərh, və tərcümə Z.Bünyadov və H.Məmmədovundur. – Bakı: Elm, – 1996.
7. İstanbul Başbakanlık Arşivi. № 905.
8. Kütükoğlu, B. Osmanlı-İran Siyasi Münasibetleri (1578-1612). – İstanbul: – 1993.
9. Гурбанов А. Сказки армянских «мудрецов». – Баку: Елнур, – 11, – 2005.
10. Мархулиа, Г., Нуриева, Ш. «Многострадальная. Армения»: мифы и реальность. – Баку: – 2011.
11. Mehmet Ali Çakmak. Hanlıklar Devrinde Azerbaycan –Türkiye Münasebetleri (1723-1829) T.C. Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü Genel Türk Tarihi Anabilim Dalı Doktora Tezi. Tez danış. Prof.Dr. Reşat Genç. – Ankara: – 1996.
12. Mustafayev, Ş. Tiflis əyalətinin müfəssəl dəftəri (Borçalı və Qazax 1728-ci il). – Bakı: Pedaqogika, – 2001.
13. Naxçıvan Sancağının Müfəssəl Dəftəri. Tərcümə edənlər Ziya Bünyadov və Hüsaməddin Məmmədov. – Bakı: Elm, – 2001.
14. Kamil Veli Nerimanoğlu, Mustafa Öner., 1926 Bakü türkoloji Kurultayı: Tutanaklar. – Ankara: TDKY, – 2008.
15. Sarınay Yusuf. Başbakanlık Osmanlı Arşivi Rehberi. – İstanbul: – 2010.

İxtisarlar

İƏİD-İrəvan əyalətinin icmal dəftəri
NSMD-Naxçıvan sancağının müfəssəl dəftəri.

SUMMARY

Qaliba Hacıyeva

HISTORICAL ONOMASTIC LANDSCAPE OF AZERBAIJAN IN "DETAILED AND SUMMARY RECORDS" OF IREVAN PROVINCE 1590-1728

Very rich and valuable facts have been preserved in onomastic unitsin ancient sources, especially those stored in the archives of the Ottoman period to the early medieval history of Azerbaijan.Each of these archival documents represents an unprecedented treasure for modern onomastic research.

Greek, Syrian, Armenian, Georgian, Russian, Persian and Arabic sources, especially documents stored in the archives of the Ottoman state reflect the most valuable facts about the early medieval historical geography of all of Azerbaijan. Documents stored in the archives of the Ottoman state contain more accurate and consistent facts about the historical geographical location of ancient Azerbaijan. Turkish-Ottoman sources from the Middle Ages make it possible to determine the historical territorial integrity of Northern and Southern Azerbaijan.

Starting from the 16th century, the Ottoman Empire, which captured the historical territories of Azerbaijan in parts, compiled records and detailed and overview notebooks about these territories, which are considered the main source reflecting the historical onomastic picture of all of Azerbaijan in the 16th-18th centuries. Among the archival documents of the Ottoman period, which are important for modern Azerbaijani linguistics and historiography, detailed and overview notebooks of the Iravan province of 1590-1728 occupy a special place. These official statistical documents preserve very valuable facts for the toponymy and ethnonym of Azerbaijan, its historical geography. One of the most valuable features of the "Detailed notebooks" of the Sanjags and Livs under the Ottoman administration of the 16th-18th centuries is that each of these notebooks contains information about the historical and geographical borders of Azerbaijan, national ethnic composition, socio-economic situation, and at the same time historical and toponymic landscape of these territories.

Key words: *Azerbaijan, Irevan, Turks, Ottoman, onomastics, detailed, review, onomastics, toponym.*

QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALININ TOPONİMLƏRİ

Sevinc SADIQOVA
sevincsadigova@gmail.com
Orcid ID: 0000-0001-8720-3262
ADPU

Toponimlər xalqın tarixini öyrənmək işində xüsusi rol oynayır: biz toponimlər vasitəsilə xalqın ona məxsus qəbilə, tayfa, sülalə, yer-yurd, şəxs və s. adlarının ətraflı öyrənilməsinə nail ola bilir və bunları nəsildən nəslə ötürə bilirik. Qərbi Azərbaycan toponimləri yalnız toponimika və linqvistika üçün deyil, Azərbaycan tarixinin öyrənilməsi üçün də qiymətli mənbədir. Belə ki, bu ərazilərin etnotoponimlərinin linqvistik təhlili Qərbi Azərbaycanın aborigen əhalisi haqqında dəqiq məlumatları əldə etmək üçün qiymətli faktları və sübutları üzə çıxarır.

Qərbi Azərbaycanın Dərələyəz mahalının toponim və mikrotoponimlərinin böyük əksəriyyəti etnonim mənşəlidir. Bir məqalədə onların hamısını təhlilə cəlb etmək mümkün olmadığı üçün, biz onlardan bəzilərini – Axta, Çanaxçı, Kotanlı, Dəmirçilər toponimlərini nəzərdən keçirəcəyik. Dərələyəz mahalının bu oykonimlərinin təhlili bu nəticəyə gəlməyə imkan verir ki, bu adlar türk mənşəli etnonimlər əsasında yaranmışlar. Çünki Azərbaycan türkləri bu torpaqların ən qədim sakinləri olmuşlar. Bu tayfa adlarından törənən toponimlərin bir çox paralelləri türkdilli xalqların yaşadığı ərazilərə (Orta Asiya, Balkan ölkələri, Qafqaz, İran, Türkiyə, Volqaboyu, Çin, İraq) yayılmışdır.

Açar sözlər: *toponim, etnotoponim, Qərbi Azərbaycan, Dərələyəz, oykonim.*

Azərbaycanın tarixi torpaqlarının bir hissəsi olan Qərbi Azərbaycanda hal-hazırda Ermənistan dövləti mövcuddur. Qərbi Azərbaycan ərazisindəki ən qədim yaşayış məskənlərindən biri, qədim türk-oğuz yurdu olan Dərələyəz mahalı 1931-ci oktyabrın 15-də Ermənistan hökuməti tərəfindən iki rayona – Keşkənd (Yeğeqnadzor) və Əzizbəyov (Vayk) rayonlarına bölünmüşdür, ərazisi 2308 kv.km-i əhatə edir, bu sahədən 1134 kv.km Yeğeqnadzor (Keşkənd//Keşişkənd) rayonunun, 1174 kv.km isə Əzizbəyov (Paşalı, Vayk) rayonunun payına düşür. Uzun müddət Dərələyəz mahalı ilə Şərur bir inzibati bölgüyə aid edilmiş və bu gah Naxçıvan əyalətinin, gah da İrəvan quberniyasının Şərur-Dərələyəz qəzası adlandırılmışdır. Keşkənd rayonu 1931-ci ildən 1935-ci ilə qədər Keşişkənd, 1935-ci ildən 1956-cı ilə qədər Mikoyan, 1956-cı il oktyabrın 12-dən Əzizbəyov, 1957-ci ildən sonra isə Yeğeqnadzor (Qamışlı dərə) adlandırılmışdır. Əzizbəyov rayonu isə 1931-ci ildən Paşalı, 1956-cı ildən Əzizbəyov, 1988-ci ildən Vayk adlandırılmışdır. Dərələyəz mahalı 10 rayon – Vedi (Ararat), Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Qarakilsə (Sisyan), Kəlbəcər, Şahbuz, Babək, Sədərək, Kəngərli və Şərur rayonları ilə həmsərhəddir.

Dərələyəz mahalı ərazisində də bir sıra qədim türk soylu tayfaların yaşaması bu bölgənin toponimiyasında öz əksini tapmışdır. Bu tayfa adlarından törənən toponimlərin bir çox paralelləri türkdilli xalqların yaşadığı ərazilərə (Orta Asiya, Balkan ölkələri, Qafqaz, İran, Türkiyə, Volqaboyu, Çin, İraq) yayılmışdır. Dərələyəz mahalının toponimiyasında əks olunan toponimlərin – oykonimlərin bir çoxu qəbilə, tayfa, nəsil, etnik qrup, şəxs adlarından törənən etnooykonimlərdir. Bunlardan Quşçu, Gənzək, Cığatay, Cul,

Çivə, Herher, Hors, Hortun, Hosdun, Arpa, Ayısəsi, Dəmirçilər, Çanaxçı, Kotanlı, Şorca, Ələyəz, Ərgəz, Xaçın, Zirək və s. oykonimlər xüsusi maraq doğurur. Biz məqaləmizdə sənət, peşə, məşğuliyyətlə bağlı olan etnonimləri araşdıracağıq.

Dərələyəz ərazisində bir qrup etnotoponim vardır ki, bunlar sənət, peşə, məşğuliyyətlə bağlı olan etnonimləri əks etdirir. ***Axta, Çanaxçı, Kotanlı, Dəmirçilər*** oykonimləri məhz bu qəbildən olan etnotoponimlərdir.

Bu qrupa daxil olan ilk toponim *Axta* oykonimidir. Türk xalqları köçəri həyat sürdüyü və maldarlıqla məşğul olduqları üçün onlarda erkək mal, qoyun və atları axtalayanlar peşəsi geniş yayılmış və bu peşənin sahibləri *axtaçı* adlandırılmışlar. T.Əhmədov [1,s.28] və Q.Qeybullayev [2,s.57] *axtaçı* etnonimini maldarlıqla məşğul olub yarımköçəri həyat keçirən padarların bir qolu olduğunu qeyd ediblər. Q.Qeybullayev axtaçı etnoniminin I Axtaçı, II Axtaçı, Axtaçı-yekəqurşaqlı, Çöl-axtaçı, Axtaçı Soltanbəyli, Axtaçı-göyəli, Axtaçı-yolçubəyli və b. tirələrini göstərmişdir [2,s.57]. Axtaçı sözünün etimologiyasından bəhs edən H.Mirzəyev qeyd edir ki, "axta" sözü ilə "ağ – a:ğ" sözü bir məna yuvasından təşəkkül tapmışdır. Qədim türk dillərində *"ağ"* sözü iki budun, iki paçanın arası, iki paça arasındakı sahə, zolaq, tumanın, alt paltarın arası, ortası, çıxıntı, çiv, paza oxşar çıxıntı, çaladakı çıxıntı mənasında işlənmişdir. Müasir dilimizdə olan "ağ ət", "tumanın ağı", "şalvarın ağı" sözü də həmin *ağ* sözü ilə bağlıdır. "Axta" sözü isə toxumu, dənəsi, yumrusu (xayası) çıxarılmış, burulmuş, çevrilmiş at, adam, meyvə mənasında işlənmiş və işlənməkdədir" [3, s.104].

"Azərbaycan dilinin izahlı lüğəti"ndə də yuxarıdakı fikirlərə uyğun məna verilmişdir: 1. Erkəklik vəziləri kəsilib çıxardılmış, xayası burulmuş qoç, öküz; 2. Tumu, çəyirdəyi çıxarılmış gilas, gavalı; Tumu, çəyirdəyi çıxarılmış quru zoğal; 3. Yəhər qaltağının üstünə çəkilən gön [4, s.79]. *Axtaçı* sözünün sənət, peşə anlamında işlənməsi barədə isə tədqiqatçıların maraqlı fikirləri vardır: "Axtaçı etnonimi *axta* "at ilxısı" və *-çı* "peşə, sənət, məşğuliyyət" mənalı düzəltmə isimlər əmələ gətirən şəkilçi hissələrindən ibarət olub, "atabaxan mehtər" mənası daşıyır. Görünür, tayfa ilk əvvəllər atçılıqla məşğul olduğuna görə ona belə ad verilmişdir [1, s.28]. İ.Şahbazov "Coğrafi adların xəritəsi" adlı məqaləsində Axtaçı oykonimi haqqında yazır: "Çingiz xan hakimiyyət başına gələndən sonra bir sıra vəzifələr yaratmışdır. Məsələn, ev adamlarını idarə edənə - çerbi, atlara baxana və onları sıraya düzənə - axtaçı (monqollar ata akta deyiblər), ox və yay daşıyan dörd nəfərə - xorçı və s. deyiblər. Deməli, axtaçı Çingiz xan səltənətində böyük vəzifə hesab edilibdir. Bəlkə də Axtaçı adlı nəsil və kəndlər monqolların bu vəzifələrdə xidmət edən adamlarının adı ilə bağlıdır" [5,s.39].

Türklərin böyük bir əraziyə yayılması ilə əlaqədar türk mənşəli *axta//axtaçı* tayfası da öz izini geniş bir arealda qoymuşdur. Azərbaycan Respublikasında Axtaçı (Ağsu), Axtaçı (Kürdəmir), Axtaçı, Axtaçı Muğan, Axtaçı Şirvan (Sabirabad), Axtaxana (Cəlilabad), Birinci Axtaçı, İkinci Axtaçı, Çöl Axtaçı, Axtaçı Göyyal, Axtaçı Yolçubəyli (Sabirabad), XIX əsr mənbələrində Axtaçı Salyan, Axtaçı Sultanbəyli, Axtaçı Kəkəli adlı kəndlər [1, s.28], Qərbi Azərbaycanda Axta (Dərəçiçək), Axta, Axtacul (Dərələyəz), Axta (Sürməli), Axta çayı (Sürməli), Axtalı (Qafan) [6, s.133], Axtaxan (Gərnibasar), Axtaxana (Talin mahalı), Türkiyədə Axtaxana (İqdır) kəndlərini göstərmək olar. 1930-cu ildə Qərbi Azərbaycanın

Dərəçiçək mahalı ərazisində yaradılan rayonun da adı Axta olmuşdur. Bu etnotoponimə tarixi mənbələrdə də rast gəlirik: Şah I Təhmasibin 1598-ci ilə aid fərmanında Qərbi Azərbaycan ərazisində Axtabad şəhərinin adı çəkilmişdir. Gürcüstandakı Axtala kurort, Ukraynadakı Axtırka şəhər, Həştərxan vilayətindəki Axtubinsk şəhər, Volqa çayının sol qolu olan Axtuba çay adları da eyni kökdəndir [7, s.385]. Bundan başqa, Krım ərazisində "Küçük Axtaçı" və "Aktaçı" toponimləri və Çürük-su çayının yuxarı axınında Baxçasaray yaxınlığında Ak-taçı (Aktaçı) adlı oronim, Başqırdıstan respublikasında Axta və İran ərazisində Axtaçı adlı oykonimlər vardır [5, s.39].

Axtaçı//Axta adlı oykonimlərlə əlaqədar M.Nuriyeva yazır: "Keçmişdə axtaçılar Tyan-Şan dağlarının (Tanrı dağı) ətəklərində yaşayan qırğızlarda və hazırda Özbəkistanın Fərqanə vilayətindəki qıpçaqlarda bir tayfadır. Ermənistanda tarixi Axta adı Çarınsavan adı ilə, Axtaxana – Dzorastan, Aşağı Axta isə Hrazdan şəhər adı ilə, Krımda Kır Aktaçı (Darevka), Küçük Axtaçı (indi Kulikovka), Aktaçı Kaban (indi Volnoye), Aktaçı (Turmanovka), Buzav Aktaçı (Urajaynoye) əvəzlənmişdir" [5, s.40].

Dərələyəz ərazisində qeydə alınmış maraqlı etnotoponimlərdən biri də Axtacul kəndidir. Bu etnooykonim *axta* etnonimi və qədim türk tayfası olan *cul* (Dərələyəzdə eyniadlı oykonim də vardır) etnoniminin birləşməsindən yaranmışdır. *Axtaçı//Axta* toponiminin arealından göründüyü kimi, bu etnonim öz izlərini çox geniş bir ərazidə əbədiləşdirmişdir.

Bu qrupa daxil olan ikinci oykonim **Çanaxçıdır.** Bir sıra faktları nəzərdən keçirdikdən sonra belə bir nəticəyə gəlmək olar ki, Çanaxçı toponimi türk tayfalarından birinin adıdır. T.Əhmədov, V.Qukasyan, İ.Bayramov, V.Əliyev bu adın Çanaxçı türk etnonimi əsasında əmələ gələn etnotoponim olması fikrini irəli sürürlər. H.Mirzəyev yazır: "Çanaxçı toponimi doğrudan da tayfa, qəbilə adıdır. Ola bilsin ki, bu söz peşə ilə bağlı da əmələ gəlmişdir. Qədim dövrlərdə ağac kəsiyinin içini oyub ölçü vahidi kimi (taxıl ölçən qab) istifadə edər və buna çanaq deyərdilər. Bəzi rayonlarda indi də bu ölçü vahidindən istifadə olunur. Bu qabı (çanağı) düzəldən nəslə, tayfaya da çanaxçılar deyirmişlər [8, s.107].

Bu toponimi tədqiq edənlərdən biri də Ə.Ələkbərli olmuşdur: "XIX yüzildə Qafqazda Çanaxçı adlı 8 kənd olmuşdur (Əsgəranda, Qafanda, Calaloğluda, Gürcüstanda və s.). Bolqarıstanda isə hətta 11 kənd Çanaxçı adlanmışdır. Bundan başqa, Araz çayının Çanaxçı adlı qolu, Türkmənistanda Çanaxçı, Qazaxıstanda Çanak, Moldovada Çenak toponimləri qeydə alınmışdır. Türkiyədəki məşhur Çanaqqala şəhərinin adı da eyni kökdəndir. Toponimin ümumtürk səciyyəsi bu tayfa adının daha dərin qatlarına varmağa sövq edir və xatırladırıq ki, Ağ hun türklərinə mənsub olan türkmanlar öz adlarını Oğuz xanın oğlu Dağ xanın nəslindən olan Salur xandan almışdılar. Həmin Salur xandan ki, 962-ci ildə islam dinini qəbul edərək özünü Qara xan və ya Çanağ, qəbiləsini isə bütpərəst türklərdən ayırıb, "türkman", yəni "türk imanlı" adlandırmışdı. Çanaxçı tayfa adının məhz Çanağın qəbiləsi, tərəfdarları anlamında həmin vaxtdan yaranması və Avropadan Asiyaya qədər türklərin islamlaşmış təbəqəsinə şamil edərək geniş yayılması tamamilə mümkündür" [9, s.492]. Bizcə, əgər qəbilə türkman adlandırılmışdısa, onun çanağ adlanması fikri inandırıcı deyil. Çanaxçı oykonimi eyniadlı tayfanın sənət, peşə mənsubiyyəti ilə əlaqədar (çanaq düzəldənlər) adlandırılmışdır.

Çanaxçı etnotoponiminin arealı çox genişdir: Azərbaycanda Çanaxçı (Xankəndi // Əsgəran rayonu), Türkmənistanda Çanaxçı, Özbəkistanda Çanok, Qazaxıstanda Çanak, qədim oğuz yurdu olan Qafanda Çanaxçı, Gürcüstanda Çanaxçı, Qərbi Azərbaycanın Calaloğlu (Stepanavan) rayonunda Çanaxçı, Moldaviyada Çenak formasında işlənir.

Bu qrupa daxil olan üçüncü oykonim **Kotanlı** kəndidir. Bu oykonim Kotançı adı ilə də tanınır. "Tarixən əkinçilikdə kotan işlədən tayfaya Kotançı deyərmişlər. Türk dillərində "kotan" sözü *"saban"*, "kotançı" sözü isə *"sabançı"* formasında da işlənmişdir" [3, s.313]. Kotanlı // Kotançı (Sabanlı // Sabançı) oykoniminin arealı göstərir ki, bu ad etnonim mənşəlidir.

Bu qrupa daxil olan dördüncü toponim **Dəmirçilər** oykonimidir. Qeyd edək ki, bu adda toponim Qərbi Azərbaycanda yalnız Dərələyəzdə deyil, Zəngibasar mahalında Dəmirçi, Karbi nahiyəsində (Dəmirçi), Taşir rayonunda Dəmirçilər, İrəvan qəzasında Dəmirçili, Göyçə mahalında Dəmirçi poqos, Zəngibasar mahalında Dəmirçi şöllü adları da qeydə alınmışdır (6,s.233). Bundan başqa, Kalinino rayonunda Dəmirçilər, Ararat (Vedi) rayonunda Dəmirçi Cəfərli kəndləri mövcuddur (10,s.270,271). Şimali Azərbaycan ərazisində Bərdə rayonunun Alpout sovetliyinə daxil olan Qaradəmirçi, Qaradəmirçi sovetliyinə daxil olan Birinci Qaradəmirçi, İkinci Qaradəmirçi kəndlərini; Qazax rayonunun Birinci Şıxlı sovetliyinə daxil olan Dəmirçilər, Dəmirçilər sovetliyinə daxil olan Dəmirçilər kəndlərini; Qubadlı rayonunun Dondarlı sovetliyinə daxil olan Dəmirçilər kəndini; Kəlbəcər rayonunun Seyidlər sovetliyinə daxil olan Dəmirçidam kəndini; Tərtər rayonunun Dəmirçilər sovetliyinə daxil olan Dəmirçilər kəndini; Şamaxı rayonunun Dəmirçi sovetliyinə daxil olan Dəmirçi kəndini; Naxçıvan Muxtar Respublikası, Şərur rayonunun Dəmirçi sovetliyinə daxil olan Dəmirçi kəndini; Dağlıq Qarabağın Xankəndi şəhəri ərazisinə daxil olan Dəmirçilər kəndlərini misal göstərmək olar. Lakin bu toponimin arealı yalnız Şimali və Qərbi Azərbaycanla məhdudlaşmır. Gürcüstan, Türkiyə, İran, Türkmənistan, Özbəkistan, Başqırdıstan, Abxaziya, Krım ərazilərində də bu toponimə rast gəlirik. Belə ki, Gürcüstanın Bolnisi rayonunda Dəmirli kəndi, Dmanisi rayonunda Böyük Dəmirçihəsənli (indi Qızılkilsə), Kiçik Dəmirçihəsənli (indi Şindilər) kəndləri olmuşdur. Türk tədqiqatçısı Erk Yurtsever Türkiyə ərazisində Dəmir//Dəmirçi tərkibli 217 oykonimin olduğunu qeyd edir [5, s.42]. İran ərazisindəki dəmirçi tayfasının adını yaşadan yer-yurd adları barədə T.İbrahimov yazır ki, Meşginin köçəri şahsevənləri içərisində bir dəmirçili tayfası vardır. Oturaq yaşayış tərzi keçirənlərdən Şuşa və Zəngəzurda Dəmirçilər kəndi; Qazaxda Dəmirçilər kəndi və Dəmirbəyli; Cavanşirdə Qara Dəmirçi kəndləri, Ərdəbil vilayətində Dəmirçi, Dəmirçi xarabası, Aşağı və Yuxarı Dəmirçi dərəsi, Dəmirçili kəndləri, Qarabağda iki Dəmirçi kəndi; Miyandab və Nocadeh vilayətlərində Dəmirçi kəndləri; Qaşqay elinin şordərəli, şeşbluki tayfalarında ahəngər (dəmirçi) tirələrinin adı bu tayfanın adı ilə bağlıdır [5, s.43].

Dəmirçi etnoniminin türkmənlərdə əlili tayfasının bir tirəsi, yüzbaşı nəslinin bir hissəsi olduğunu yazan S.Ataniyazov bu adın "dəmir ustası" mənası daşıdığını və bu etnonimə Azərbaycanda da rast gəlindiyini qeyd edir. Q.İ.Karpovun əsaslandırdığına görə, XI əsrdə Amu Dəryadan Azərbaycana külli miqdarda türk tayfaları gəlmişdir ki, onların arasında dəmirçilər də var idi. Onlar tarixən yüksək vergi və rüsumdan dəmir ustası olduqlarına görə azad edilmişlər [11, s.63]. Özbək tədqiqatçıları Termiz rayonu ərazisindəki mikrotoponimlərin bir qismini etnotoponim kimi tədqiq etmiş və Temirçi quzlar haqqında məlumat vermişlər. Timercə Yılğahı – Zilair çayının sol, Nakaza çayının

sağ qolu, Başqırdıstan Respublikasının Kuqarçin rayonu. Ad timerse sözündən ibarət olub, "dəmirçi", yılğa – "çay", -hı şəkilçisidir, "dəmirçi çayı" mənasında işlənmişdir. A.V.Superanskaya Krım ərazisində Dəmirçi tayfasının adını qoruyub saxlayan toponimlər haqqında məlumat verərək yazır ki, bu ad əvvəllərdən tayfa adı kimi qəbul edilib. Onu da qeyd edək ki, belə bir tayfa XX əsrin əvvəllərinə kimi qaraqalpaqlarda da məşhur idi. Bu adı onlar "dəmirçi" peşəsi, sənəti ilə bağlı qazanmışlar. Ancaq onlar Krıma gələn zaman bu peşələrini unutmuşlar. Abxaziyanın Qaqra rayonunda da Dəmirçi kəndi olmuşdur.

Dəmirçi//Dəmirçilər toponiminin mənşəyinə gəldikdə isə, tədqiqatçılar yekdil olaraq bu sözü etnotoponim hesab edirlər: T.Əhmədov dəmirçi adını XIX əsrin əvvəllərində şahsevənlərin ən böyük tayfalarından birinin adı kimi qeyd edir [1, s.164]. Azərbaycan toponim və etnotoponimlərinin ilk tədqiqatçılarından olan M.Vəliyev Dəmirçi tayfasını Şahsevənlərin bir tirəsi hesab etmişdir. Müəllif yazır ki, hal-hazırda bu tayfalar başqa türk tayfaları ilə qarışaraq öz tayfa təşkilatlarını itirmişlər. Onlar yalnız özləri haqqında öz tayfalarının adları ilə bir sıra kəndlərin adında iz qoymuşlar. Cavanşir qəzasında Dəmirçi-Həsirçi, Qara Dəmirçi, Şuşa qəzasında Dəmirçilər; Zəngəzur qəzasında Dəmirçilər; Qazax qəzasında Dəmirçilər [12, s.42].

Dəmirçi//Dəmirçilər toponimlərini araşdıran A.Axundov qeyd edir ki: "İstər Dəmirçi, istərsə də Dəmirçilər toponimləri ehtimal ki, türkdilli dəmirçilər tayfasının adından yaranmışdır. XIII əsr tarixçisi Şəhabəddin Nəsəvi onların Çingiz xanın nəslindən olduğunu göstərmişdir. XIX əsrdə yaşamış M.M.Xəzaniyə görə, onlar Azərbaycana Qarabağ xanlığının ilk xanı olan Pənahəli xan Cavanşirin dövründə gəlmişlər (XVIII əsr)" (13.42). Sənət, peşə, məşğuliyyətlə bağlı adlardan danışarkən Q.Məşədiyev Qaradəmirçi etnotoponimini göstərir. Adından göründüyü kimi, burada sənət və peşə məzmununun ifadəsi daha qabarıq şəkildə özünü göstərir [5, s.44].

"Türk toponimikasında geniş yayılmış Dəmirçilər oykoniminin Səlcuq türklərinin Qədirli tayfasının Dəmirçilər tirəsinin və Qazaxlı tayfasının Dəmirçilər qolunun adlarından əmələ gəlməsi ehtimalı güclüdür. S.Şükürov Dəmirçilər oykoniminin Göytürklərlə bağlı olduğu fikrindədir. Bu məsələdə o, görkəmli tədqiqatçı Rafiq Özdəkin "Türkün qızıl kitabı"ndakı aşağıdakı sözlərinə istinad edir: "Göytürklər mədəni, ən yaxşı işləyən, ən yaxşı dəmir silahlar düzəldən türk boyudur. Onun üçün onlara "Dəmirçilər" də deyilirdi. Gerçəkdən də Hun imperatorluğunun dağılmasından sonra juan-juanlara (avarlara) sığınan göytürklər bir müddət onlara dəmirçilik edərək varlıqlarını qorumuşdular" [7,s.168]. İ.Bayramov Qərbi Azərbaycan ərazisində iki Dəmirçilər (Aleksandropol qəzası, Şərur-Dərələyəz qəzası) və bir Dəmirçi Cəfərli (İrəvan qəzası) kəndlərini göstərərək, bunların şahsevən türk tayfasının bir qolu olduğunu qeyd edir [10, s.270,271]. B.Budaqov və Q.Qeybullayev Dərələyəzdəki Dəmirçilər toponimini Dul Qədirli tayfasının Dəmirçilər qolunun adından, Taşir rayonundakı Dəmirçilər toponimini isə Qazaxlıların Dəmirçilər tayfasının adından yaranması fikrini irəli sürürlər [6, s.233].

Beləliklə, araşdırmalardan məlum olur ki, Dərələyəz ərazisindəki Axta, Çanaxçı, Kotanlı, Dəmirçilər oykonimləri türk etnoslarının adını əks etdirir və bu etnoslar yalnız Qərbi Azərbaycanda yox, Şimali və Cənubi Azərbaycanda, İran və Türkiyədə, Gürcüstanda, Özbəkistanda, Krımda və s. yerlərdə öz izlərini saxlamışlar.

ƏDƏBİYYAT

1. Əhmədov, T. El-obamızın adları. – Bakı: Gənclik, – 1984. – 125 s.
2. Гейбуллаев, Г.А. Топонимия Азербайджана (историко-этнографическое исследование), – Баку: – 1986.
3. Mirzəyev, H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. I, – Bakı: Elm, – 2004. – 854 s.
4. Azərbaycan dilinin izahlı lüğəti. – Bakı: Şıraq, – 1997.
5. Sadıqova S. Müasir Azərbaycan dilinin leksikologiyası: Dərələyəz toponimlərinin linqvistik-etimoloji təhlili əsasında. – Bakı: ADPU, – 2014. – 194 s.
6. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. – Bakı: – 1998.
7. Ələkbərli, Ə. Qərbi Azərbaycan. II cild. Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları. Bakı: 2002.
8. Mirzəyev, H. Qərbi Azərbaycanın Dərələyəz mahalının toponimləri və şivə sözləri. – Bakı: Qızıl Şərq, – 2003. – 359 s.
9. Ələkbərli, Ə. Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı. – Bakı: – 2000.
10. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. – Bakı: – 2002.
11. Атаниязов, С.А. Словарь туркменских этнонимов. – Ашхабад, «Ылым»,– 1988. – 180 с.
12. Vəliyev, M. (Baharlı). Azərbaycan. – Bakı: Azərnəşr, – 1993. – 192 s.
13. Axundov A. Torpağın köksündə tarixin izləri. – Bakı: Gənclik, – 1983. 136 s.

SUMMARY

Sevinj Sadigova

TOPONYMS OF DARELAYAZ DISTRICT OF WESTERN AZERBAIJAN

Toponyms play a special role in the study of the history of a people: we use toponyms to determine the clan, tribe, dynasty, place, personality, etc. of a people. we can learn their names in detail and pass them on from generation to generation. Western Azerbaijani toponyms are a valuable resource not only for toponymy and linguistics, but also for the study of Azerbaijani history. In particular, the linguistic analysis of the ethnotoponyms of these areas reveals valuable facts and invaluable evidence for obtaining accurate information about the aboriginal population of Western Azerbaijan.The vast majority of toponyms and microtoponyms in Daraleyaz district of Western Azerbaijan are related to ethnonyms. Since it is impossible to analyze all of them in one article, we will examine some of them – Achta, Chanahchi, Kotanli, Demirchiler ethnotoponyms.

From the analysis of these oikonyms in the Darelayaz area, we can draw a conclusion that these names were formed on the basis of ethnonyms of Turkish origin. Therefore, Azeri Turks have been living in these lands since ancient times. Many parallel toponyms, derived from the names of these tribes, spread to territories inhabited by Turkic-speaking peoples (Central Asia, the Balkan countries, the Caucasus, Iran, Turkey, the Volga region, China, Iraq).

Key words: *toponyms, ethnotoponyms, Western Azerbaijan, Daraleyaz, oyconyms.*

DƏRƏLƏYƏZ ELİNİN DİLİMİZİ, TARİXİMİZİ YAŞADAN OĞLU

Şöhrət MƏMMƏDOVA
sohret.nesirova@mail.ru
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Azərbaycan dilçiliyinin inkişafında, dilin hərtərəfli araşdırılması və tədrisi sahəsində böyük xidmətləri olan Həsən Mirzəyev 14 dən çox kitabın və 200 dən artıq elmi-metodik məqalələrin müəllifi olmuşdur. Onun Azərbaycan dilçiliyinin ayrı-ayrı sahələri,xüsusilə də qrammatika, dialektologiya və onomalogiya istiqamətlərində apardığı uzunmüddətli və davamlı tədqiqatlar dilçilik elmində yeni bir mərhələ açmışdır. Professor Həsən Mirzəyevin elmi fəaliyyətində azərbaycan dilində təsirli və təsirsiz feillərin tədqiqi mühüm yer tutur.Əslində, Həsən müəllim dilçiliyimizdə ən çox feilşünas alim kimi tanınır. Professorun 1979-cu ildə nəşr etdirdiyi "Müasir Azərbaycan dilində təsirli və təsirsiz feillər" kitabında zəngin və ziddiyətli cəhətlərə malik olan feilin təsirlik-təsirsizlik kimi çətin və əhəmiyyətli xüsusiyyətləri ilk dəfə olaraq geniş planda – komplekt şəkildə öyrənilmişdir.Alimin 20 ilə yaxın feilin müxtəlif qrammatik xüsusiyyətlərini öyrənməsi, xüsusilə təsirli feillərə aid zəngin material toplaması əsərin daha uğurlu alınmasına və müvəffəqiyyətlə yazılmasına səbəb olmuşdur.

Həsən Mirzəyev tərəfindən feili sifətin və eyni zamanda bu qrammatik vahidə daxil olan müəyyən məsələlərin hərtərəfli tədqiqini mütəxəsislər yüksək qiymətləndirmişdir. Araşdırmalar göstərir ki, alim feili sifət şəkilçiləri ilə bağlı ən incə məqamları diqqət mərkəzində saxlamış, türk dillərində feili sifət türk dillərində feili sifət şəkilçilərinin bəzisinin bir dildə feili sifət düzətdiyi halda , başqa bir dildə həmin funksiyanı itirdiyini və ayrı vəzifə kəsb etdiyini geniş şəkildə tədqiq etmişdir.

Həsən Mirzəyevin toponomika sahəsindəki axtarışları keçən əsrin 80-ci illərini sonlarından başlayır. O, 20 ildən çox Qərbi Azərbaycan Dərələyəz mahalının toponimlərinin tədqiqi ilə məşğul olmuşdur. Doğma yurdunun tarixi keçmişini yaşatmaq məqsədilə Həsən Mirzəyev "Seçilmiş əsərləri"nin 3 cü cildində Dərələyəz mahalının keçdiyi inkişaf yolundan bəhs etmişdir. Göstərmişdir ki, Dərələyəz mahalı ilə Şərur eyni inzibati bölgüyə aid edilmiş, gah Naxçıvan, gah da İrəvan quberniyasının "Şərur" dərələyəz" qəzası adlandırılmışdır.

Görkəmli pedaqoq, dilçi və türkoloq alim Həsən Mirzəyevin elmi fəaliyyətinin müəyyən bir istiqamətini də onun folklorşünaslıq axtarışları təşkil edir. Bu barədə, demək olar ki, indiyəcən araşdırma aparılmamışdır.

Məqalədə göstərilir ki, Həsən Mirzəyev folklorşünaslıq sahəsində iki istiqamətdə iş görmüşdür: həm toplayıcı, həm də tədqiqatçı kimi. O, Qərbi Azərbaycanın Dərələyəz nahalının çoxlu sayda folklor nümunələrini toplayıb nəşr etmişdir. Alimin "Dərələyəz folkloru" kitabında toplanan bu nümunələr janr etibarı ilə rəngarəngdir.

Açar sözlər: *Dilçi, alim, filoloq, şəkilçi, feil, tarix,folklor, soykök, milli, türkologiya, xalq*

Çox sahəli elmi yaradıcılığı ilə Azərbaycan dilçilik tarixində yer tutan, 14 cildlik monoqrafiyası ilə dilçiliyimiz, folklorumuz, coğrafiyamız üçün çox dəyərli və tükənməz xəzinə qoyub getmiş professor Həsən Mirzəyev ömrünü Azərbaycan elminə, Azərbaycan gəncliyinin təhsilinə həsr edən alimlərimizdəndir.

Həsən Mirzəyev Azərbaycan dilçilik tarixində özünün dəsti-xətti elmi nüfuzu olan filoloqların və dilçilərin rəğbətini qazanan görkəmli elm xadimi, aşıq sənətinin əlifbasını yazan əsl folklorşünas alimdir. Professor Azərbaycan dilçilik tarixində feili sifətin və feilin ilk araşdırmaçısı kimi birinciliyə imza atdı. O ilk dəfə zəngin və zidiyyətli cəhədlərə malik olan feili geniş planda tətbiq etdi. 503 səhifədən ibarət olan "Azərbaycan dilində feil" kitabında feilin tam olaraq əlamətlər cəhətləri geniş araşdırılmış, nitq hissələri arasında yeri və çəkisi müəyyənləşdirilmiş, feildə təsirlik və təsirsizlik kateqoriyası, təsirli və təsirsiz feillərin leksik-semotik, morfoloji, sintakrik, frozioloji üslübü, fonetik xüsusiyyətləri və.s məsələlər hər tərəfli formada araşdırılmışdır. Professor Q.Kazımovun sözləri ilə desək "Professor Həsən Mirzəyev elmi araşdırmalarında dilimizdəki ən qədim söz quruplarından biri kimi feilin nitq hissələri və dil sistemində yeri, feillərin quruluş məsələləri, adlardan və feillərdən feil düzəldən şəkilçilər, onların mənşəyi, omonimlik, antonimlik, sinonimlik xüsusiyyətləri, dilimizdəki feillərin türk dilləri ilə müqaisıli təhlili, müxtəlif feil kateqoriyasının yaranma və funksionallşma tarixi və digər məsələlər araşdırılmışdır." Professor H.Mirzəyev Azərbaycan dilçiliyində feillə bağlı özünəqədərki mübahisəli məsələləri həll etmək, hər bir feil kateqoriyasının, daxili mahiyyətini açmaq və inkişaf qanunauyğunluğunu müəyyən etmək baxımından da xüsusi tədqiqatlar aparmış, təsirli və təsirsiz feilləri zaman kateqoriyasının feildə təsriflənmə və təsriflənməmə anlayışının mahiyyətinin düzgün şəraitinə nail olmuşdur. Onun Azərbaycan dilində feil kitabı, "Azərbaycan dilində sadə feillər", "Müasir Azərbaycan dilində təsirli və təsirsiz feillər", "Müasir Azərbaycan dilinin mofologiyasından xüsusi seminar" və digər elmi əsərləri, eləcədə feillə bağlı çap etdirdiyi çoxsaylı elmi məqalələri sübut edir.

Professorun hələ öz sağlığında öz elmi araşdırmaları barədə deyir: "Doğrudur bu vaxta qədər feilin müxtəlif xüsusiyyətləri, çoxkateqoriyalı olması, dilin milli orijinallığının qorunmasında və.s məsələlər barəsində az danışılmasıdır. Lakin ilk dəfə bu əsərdə feilin nitq hissələri sistemində və ümumən dildə yeri, mövqeyi, əlamətdar cəhətləri sistem şəklində bütün təfərrüatı ilə tətqiq olunmuşdur. Feil düzəldən şəkilçilər və onların təsir kateqoriyasının yaranmasında ilk dəfə olaraq bu əsərdə tam əhatə olunmuşdur. Şəkilçiləri təsirli və təsirsiz feil yaratması imkan daxilində onların (şəkilçilərin) etimoloji kökü ilə bağlı izah olunmuşdur.

Professor Həsən Mirzəyevin Azərbaycan dilçiliyində apardığı elmi araşdırmaları təkçə feillə, feili sifətlə bitmir, əsl dilçi alim olaraq dilçilik elminin bir sahəsi üzrə deyil dil tarixinə, etmologiya, onomostika, diolektologiya, türkologiya ilə bağlı da bir çox elmi araşdırmaların və çox mükəmməl elmi əsərlərin müəllifidir.

Feilin mahir tədqiqatçısı kimi tanınan professor Həsən Mirzəyev həm də Azərbaycan filologiyasında dilin quruluş xüsusiyyətlərini araşdırmaqda, xalqın qədim tarixinin, dilini, milli orijinallığını daha yaxşı araşdıraraq mühafizə edib saxlayan 750-dən çox yazıların, o, cümlıdın iki yüzdən çox elmi əsərin müəllifi, 128 kitabın, 8 tədris proqramının müəllifidir.

Azərbaycan filologiyasının inkişafında Həsən Mirzəyevin xidmətləri danılmazdır və böyükdür. O mövzu seçərkən həmişə mübahisəli tədqiqat olunmamış, dilçilərin və türkoloqların toxunmadığı məsələləri tədqiqata cəlb etmişdir. Həsən Mİrzəyevin Azərbaycan onomastikasının müxtəlif problemlərinə həsr edilmiş 20 ildən çox elmi

araşdırmasının bəhrəsi olan, dilçilik elmində ensiklopedik səciyyə daşıyan. "Aşıq poeziyasında yaşayan adlarımız (1997)" "Dərələyəz mahalının toponimləri və şivə sözləri (2003)" "Qərbi Azərbaycanın Dərələyəz mahalı" (2004), "Dərələyəz folkloru" (2006) adlı elmi əsərləri çap olunmuşdur.

Bir faktı da qeyd etməyi özümə borc bilirəm ki, Azərbaycan dilinin Dərələyəz mahalının şivələrinin ilk dəfə H.Mirzəyev araşdırmış, dialektologiyamıza öz töhfəsini vermişdir. Bu əsərlərdə Dərələyəz mahalının şivə sözləri ən müxtəlif səviyyədə araşdırılır, onların mənası, mənşəyi, etimologiyası və digər linqvistik xüsusiyyətləri açıb göstərilir. Professor Həsən Mirzəyev orijinal bir tedqiqat yolu tutaraq qeydə aldığı sözləri müasir səviyyədə izah və təsvir etməklə kifayətlənməmiş daha derinə getməklə araşdırmalarını orjinal bir üslubda ozünə məxsus şəkildə nümayiş etdirmişdir. Həsən Mirzəyevin alim və vətənpərvər mövqeyi ilə tam uzlaşan,dərin elmi araşdırmaların bəhrəsi olan bu əsərlər dilçiliyimiz, folklorumuz, tariximiz və coğrafiyamız üçün dəyərli bir ensiklopediya, tükənməz bir xəzinədir.

Rus pedaqoqu K.D.Uşinski demişdir: "Bir millətin malını, dövlətini hətta vətənini əlindən alsan ölüb-itməz, amma dilini alsan bir insan belə qalmaz". Ana dili, bu dildə yaradılmış şifahi xalq yaradıcılığı insan toplumlarının ilk mənəvi vətənidir. İnsan hətta hansısa səbəblər üzündən doğma yurd-yuvasını itirsə də, hüdudsuz sərhədlərə malik bu mənəvi ərazi insanı sınmağa, kiçilməyə, öz kimliyini itirməyə qoymur. Professor Həsən Mirzəyev həm dərin folklor bilicisi, həm də, milli-mənəvi dəyərlərə yüksək qiymət verən el ağsaqqalı, tarixinə soy kökünə bağlı folklor bilicisidir. Professor Azərbaycan onomologiyası sahəsində də araşdırmalar aparmışdır. Folkloru da Azərbaycan dilçiliyi qədər dərindən bilən Həsən Mirzəyev çox gözəl bilirdi ki, folklorda xalqın həm keçmişi, həm bu günü həm də gələcəyi yaşayır. Elə buna görədir ki, professor folklor nümunələrinin toplanaraq qorunmasını, gələcək nəsillərə əmanət edilməsini başlıca vəzifələrdən saymışdır. Belə bir misiyanın bəhrəsi olan 766 səhifəlik "Dərələyəz folkloru" Qərbi Azərbaycanın Dərələyəz mahalının folklor materiallarını əhatə edir.

Azərbaycan folklor ədəbiyyatının ayrılmaz bir parçası olan "Dərələyəz folkloru"nda bir alimin filoloq fəhmini, xalqının maddi mənəvi dəyərlərini yüksəkdə tutan bir el oğlunu görürük.

"Dərələyəz" folkloru kitabı Dərələyəz mahalının danışan salnaməsi, dili, bəddi düşüncə toplusu, tarixi və yaddaş qaynağıdır. Kitab bölgənin onun insanlarının, müəyyən zaman hüdudlarındakı tarixini, həyat və məişətini, sevincini və qəmini, həyata baxışını, arzu və ideyalarını, qabaqcıl şəxsiyyətlərini və onların xarakterlərini dolğun şəkildə özündə əks etdirir. Həm də bunları bədii faktların, folklor örnəklərinin timsalında özündə cəmləşdirir. Əgər Həsən müəllimin gördüyü işi bütün bölgələr üzrə görmək mümkün olsaydı onda Azərbaycan folklorunun tarixləşmiş, daha böyük, bütöv və canlı bədii tarix salnaməsini yaratmaq mümkün olardı. Burada professor həm də peşəkar bir tarixçinin gördüyü işi yerinə yetirmişdir".

Aşıq sənətinin, folklorun dərin bilicisi olan Həsən Mirzəyev 1997-ci ildə çap etdirdiyi "Aşıq poeziyasında yaşayan adamlarımız və tariximiz" əsərində aşıq poeziyasında işlənən onomostik vahidləri toplayaraq sistemləşdirmişdir.

Dilçi türkoloq kimi tanınan Həsən Mirzəyev həm də şair idi. Həsən Mirzəyevin sinəsindən süzülüb gələn özünün yaratdığı poeziya nümunələri də folklor nümunələri qədər dərin və mənalıdır." Aşıq sənətini yaşatmaqla tariximizi yaşadırıq. Dini saxlamaq üçün, şəriətimizi saxlamaq üçün aşıq sənəti daimə yaşamalıdır " kəlamı şair ruhlu, vətən qeyrətli Həsən Mirzənin həyat amalına çevrilmişdir.

Öz poetik dünyası ilə bədii təfəkkür sferasında gündən günə püxtələşən Azərbaycan dilçiliyində öz elmi əsərləri ilə məktəb yaradan, təkrar olunmaz, insanın ruhuna hakim kəsilən şeirlər yaradan Həsən Mirzənin şair sinəsində folklorla zəngin hikmətlər, sözlər yatır:

Düşmən əlindəsən gələ bilmərəm,
Axan göz yaşını silə bilmərəm,
Dərd məni öldürür ölə bilmərəm.
Aylarım olubdur il, Dərələyəz !
Sənsiz lal olubdur dil Dərələyəz !

Ey ana torpağım, ey can diyarım,
Hanı o səndəki el, Dərələyəz ?!
Ey cənnət məkanım, ey dağ vüqarım,
Pərən – pərən olub el, Dərələyəz !
Yaram göz – göz olub bil, Dərələyəz !

Həsən Mirzəyev bütün varlığı, canı, qanı ilə sözün əsl mənasında vətənini, torpağını sevən bir insandır. Vətən məhəbbəti, yurd həsrəti onun bədii yaradıcılığında əsas ana xəttidir.

Qəlbimizi göynədir hicranın dağı,
Sinəm olub qəm dəryası, qəm dağı,
Həsən Mirzə çəkə bilmir bu dağı,
Sən necə çəkəsən bu dağı dağlar.

Həsən Mirzəyev təkçə öz elinin el- obasının yox, mənsub olduğu millətin çox dəyərli oğludur. Xalqımızın, dilimizin mənəviyyatımızı yad ünsürlərdən əsl alim kimi bunu dərin elmi araşdırmaları və əsərləri ilə yanaşı, həm də bir müəllim, bir el ağsaqqalı, millət vəkili kimi etmişdir.

Həsən Mirzəyev ilk müəllimlik fəaliyyətinə orta məktəbdən başlamış sonra isə ömrünün sonunadək ali məktəbdə bu müqəddəs peşəni davam etdirmişdir. 2002-ci ildə Ulu öndər Heydər Əliyevin Fərmanı ilə "Şöhrət Ordeni" 2007-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Əməkdar Elm Xadimi" kimi yüksək fəxri adlara layiq görülmüşdür.

Bir sözlə, Həsən Mirzəyev hardadırsa, orda dövlət var, alim cəfakeşliyi var, kitab var, əsər var.

SUMMARY

Shohrat Mammadova

A SCIENTIST WHO KEEPS OUR LANGUAGE, HISTORY AND ASHUGS IMPROVISE ALIVE

Hasan Mirzayev, who made great contributions to the development of Azerbaijani linguistics, comprehensive research and teaching of the language, was the author of 11 books and more than 200 scientific and methodological articles. His long-term and continuous research in various fields of Azerbaijani linguistics, especially in the areas of grammar, dialectology and onomology, has opened a new stage in linguistics.

The apploication of transitive and intransitive verbs in the the Azerbaijani language plys important role in Hasan Mirzayev"s scientific activity.In fact he is known as the most philological scholar in our linguistics.In his work on " Transitive and intransitive verbs in Modern Azerbaijan Language" published in 1979 the difficult and important features of the verb, which have rich and contradictory features,such as intransitiveness,were studied for the first time in a comprehensive way.The scholar"s study of vurious grammatical features of verbs for almost 20 years especially the collection of rich material on intransitive verbs,led to the successful of life work.

One of the directions of the scientific activity of the prominent linguist, turkologist Hasan Mirzayev is his folklore activity. There is a need to investigate this.

Hasan Mirzayev"s research in the field of toponymy began in the late 80s of the last century.He has been studying the toponyms of the Daralayaz district of Western Azerbaijan for more than 20 years.In order to revive the historical past of his native land,Hasan Mirzayev spoke about the development of Daralayaz district in the 3rd volume of "Selected Works".He pointed out that Daralayaz district and Sharuyr belonged to the same administrative division, sometimes called "Sharur-Daralayaz" district of Nakhchivan or Iravan province.

The article shows that Hasan Mirzayev worked in folklore in two directions:both as a collector and as a collector and researcher.He collected and published a large number of folklore samples from the Daralayaz district of Western Azerbasijan.These examples collected in the scholar's book 'Daralayaz folklore' are different in genre.

H.Mirzayev"s comprehensive study of the participle and the same time certain issues includes in this grammatical and was highly appreciated by the experts,has lost much of its function in another languge and has a separate function.This also importan in the study of the synonymy of morphological features.

***Key words**: Linguistic, scientist, philologist, suffix, verb, history, folklore, horseradish, national, turkology,nation*

HƏSƏN MİRZƏ ŞEİRLƏRİNDƏ FONETİK TARAZLIQ

Xuraman HACIZADƏ
xuraman_hacizade@mail.ru
"Naxçıvan" Universiteti

Azərbaycan dilində fonemlərin özünəməxsus tarazlığı (ardıcıllığı), ahəngdarlığı və ritmikliyi vardır. Bu tarazlıq ahəng qanunu adlandırılır. H.Mirzə şeirlərində Azərbaycan dilinin fonetik qaunauyğunluğu olan fonemlərin ardıcıllığından poetiklik yaratmaqdan ötrü xüsusi məharətlə istifadə edilmişdir. Şeirlərdəki fonetik tarazlıq (ardıcıllıq) ahəngdarlıq, axıcılıq yaratmışdır. Bədii fonetik tarazlıq hesab edilən alliterasiya və assonansların yerli-yerində işlədilməsi şeirlərin bədii gücünü daha da artırmışdır.

***Açar sözlər**: tarazlıq, ahəng qanunu, sait, samit, alliterasiya, assonans.*

Azərbaycan dilində fonemlərin özünəməxsus tarazlığı (ardıcıllığı), ahəngdarlığı və ritmikliyi vardır. Dilçilik ədəbiyyatlarında fonemlərin ardıcıllığı ahəng qanunu adı ilə də verilir. Qanun adı ona görə deyilir ki, bu ardıcıllıq bir sistem təşkil edir. Bu xüsusiyyət Azərbaycan dilinin musiqililik, ahəngdarlıq, axıcılıq və ritimlilik baxımından bənzərsizliyini təcəssüm etdirir. Ancaq sistemdaxili struktur elementlərin özləri nitqə görə sabit deyildir. Məsələn, dilarxası saitlərin arasında yaranma yerinə görə bir ardıcıllıq (sıra, tarazlıq) olsa da, sözdaxili ardıcıllıqda (saitlərin ahəngində) bu sistem bütün saitləri tam əhatə etmir.

Saitlərin ardıcıllığı dünya dilləri içərisində daha çox türk dilləri ailəsində özünü saxlamaqdadır. Bir çox tədqiqatçılar da etiraf edirlər ki, saitlərin ahəngdarlığı Azərbaycan dilində daha çox müşahidə edilir, qorunub saxlanılır. Azərbaycan dilində dilönü saitlərin dilönü saitləri, dilarxası saitlərin isə dilarxası saitləri izləməsi bu dilin daxili tarazlıq (ardıcıllıq) nümunəsidir. Müxtəlif tarixi mərhələlərdə Azərbaycan dilinə icbari yolla digər dillərdən bir çox sözlər daxil olsa da, bu sözlər dilimizin daxili sait nizamını, ardıcıllığını və ritmikliyini poza bilməmişdir. Tam əksinə olaraq, bir çox hallarda Azərbaycan dilinə keçən alınma sözlər bu dilin tələffüz qaydalarına tabe olmuşdur. Məsələn, hazırda başqa dildən alınan saət sözü saat, məaş sözü maaş, məğalib sözü məbləğ kimi ifadə olunmaqdadır.

Azərbaycan dilində bəzən eyni səslər heç də intensiv şəkildə bir-birini izləyə bilmir. Bəzi hallarda eyni sıradakı bəzi saitlər də bir-birini izləmir. Buna görə də, saitlərin ahəngi onların ardıcıllığı və sözdaxili fonetik tarazılıq kimi nəzərə alınmalıdır.

Samitlərin fonetik tarazılığını sözün kök və şəkilçi hissəsində həm eyni, həm də eynicinsli səslərin sistemdaxili yanaşması və ardıcıllığı kimi başa düşmək lazımdır. Sistemdaxili yanaşma odur ki, yanaşı gələn samit səslər eyni və eynicinsli olmaqla sözün daxilində ardıcıl işlənirlər. Yəni sözün kök-şəkilçi qovuşmasındakı samit səslər eyni və eynicinsli olmaqla özlərinin ardıcıl sıralarını saxlayrlar. Eyni səslər iki eyni samitin yanaşı (ardıcıl) işlənməsi, eynicinsli səslər isə keyfiyyət baxımından iki eynicinsli samitin yanaşı (ardıcıl) işlənməsidir (kar-kar; cingiltili-cingiltili, sonor-sonor, kipləşən-kipləşən, novlu-novlu). M.Yusifova görə, samitlərin fonetik tarazılığı assimliyasiyadan geminata, geminatdan assimliyasiyaya keçidi olan fonetik bir hadisədir [5, s. 191].

Bədii mətnlərdə alliterasiya və assonans da tarazlıq yaradır.

Alliterasiya türk dillərinin daxili quruluşuna məxsus qədim təkrarlıq sistemi olan üslubi fiqurdur. Onun vasitəsilə bədii mətndə emosionallıq, ritmiklik, ahəngdarlığın yaradılmasında kar, kipləşən, cingiltili, novlu və sonor samitlərin özünəməxsus rolu vardır. Məsələn, kar, kipləşən samitlərin ardıcıllığı qalınlıq bildirdiyi halda, cingiltili fonemlər yumşaqlığı canlandırır. Sonor səslər isə mətndə, xüsusən tembrin canlandırılmasına xidmət edir, poetik mətnlərdə davamlı tələffüz edilə bilirlər.

Alliterasiya kimi assonans da türk dillərinin qədim təkrarlıq sisteminin göstəricisidir. Assonans poetik mətnlərdə və şifahi nitqdə ritmilik, ahəngdarlıq əmələ gətirməyə xidmət edir. Mətn daxilində, cümlədə, sözlər arasında saitlərin assonanslıq təbiəti varsa, bunun səbəbi vardır. Belə ki, sait tarazlığı hansısa hadisəyə aid assosiativlik bildirmək xassəsinə malikdir. Əks halda, assonansın işlədilməsinə heç bir ehtiyac olmazdı. Samitlərin ardıcıllığı kimi, saitlərin ardıcıllığında da ritmikliklə yanaşı, assosiativlik güclüdür. Yəni ki, dilarxası saitlərin mətni ardıcıllığında böyük, geniş, əzəmətli hadisələrin canlandırılması üstünlüyü olduğu kimi, dilönü saitlərin ardıcıllığında nisbətən incə, zəif, zərif, yumşaq hadisələrin canlandırılması müşahidə edilir.

Fonemlərin müvafiq ardıcıllıqla bir-birini izləməsi şifahi xalq ədəbiyyatı nümunələrində, eləcə də klassik şeir üslubunda güclü bir poetizm yaratmışdır. H.Mirzə şeirləri fonemlərin tarazlığı baxımından, daxili ardıcıllığın saxlanması, izlənməsi baxımından dil materialı kimi qiymətli nümunələrdir. H.Mirzənin xalq yaradıcılığı çeşməsindən süzülüb gələn həmişəyaşar sənət nümunələri xəlqiliyi, dil sadəliyi, üslub gözəlliyi, forma əlvanlığı ilə diqqəti cəlb edir. Onun şeirləri sənət aləmində məna dərinliyi, səmimilik, təbiilik, həyatilik, forma bitkinliyi baxımından özünəməxsus yer tutur. B.Xəlilov H.Mirzə şeirlərindəki xəlqiliyin səbəbini bu cür izah edir: "Həsən Mirzə yaradıcılığının uğurlu cəhətlərindən biri də onun şifahi xalq ədəbiyyatını–aşıq ədəbiyyatını dərindən bilməsi, folklor nümunələrini, xalq dastanlarını ətraflı təhlil etmək bacarığına qadir olmasıdır. şübhəsiz ki, bu duyğuların mənəvi yükü şeirlərin, misraların, bəndlərin bələdçisinə çevrilir" [11, s. 17]. Fonemlərin ardıcıl düzülüşü ilə müşayiət olunan poetik ənənələrin izlərini Həsən Mirzənin şeirlərində görmək mümkündür.

"*Ey ana torpağım, ey can diyarım,*
Hanı o səndəki el, Dərələyəz?!
Ey cənnət məkanım, ey dağ vüqarım,
Pərən-pərən olub el, Dərələyəz!
Yaram göz-göz olub bil, Dərələyəz!" [11, s. 23]

Bu nümunələrdə dilarxası saitlərin dilarxası, dilönü saitlərin dilönü saitləri izləməsi xüsusi bir ahəngdarlıq və ritmlik yaratmışdır. Alınma sözlərdəki ahəngi pozan tarazlıq belə şeirin poetikliyinə xələl gətirə bilməmişdir. Çünki H.Mirzə şeirlərində mənanın rəngarəngliyi tükənməzdir. Şairin poetikasına nəzər saldıqda görürük ki, o, Azərbaycan dilindəki sözlərin səs tərkibindəki ritmikliyindən, ahəngindən maksimal dərəcədə məharətlə istifadə etmişdir.

Azərbaycan dilinin səslərinin tarazlığına diqqət etdikdə görmək olur ki, bəzi fonemlərin ardıcıllığı intensiv, bəzilərininki isə zəifdir. Məsələn, a-a, a-ı, ı-a ardıcıllığı

intensiv olduğu halda, a-o, a-u, ı-o, o-o səslərinin bir-birini izləməsi zəifdir. H.Mirzə şeirlərində ardıcıllığı həm intensiv, həm də zəif olan səslərə rast gəlmək mümnkündür. Şairin "Dağlar" adlı şeirində oxuyuruq:

"*Uşaqlığım-ən xoş çağım,*
Səndə keçib, səndə dağlar.
Ətəyində bağça, bağım,
Qalıb məndən gendə, dağlar" [11, s. 26].

Əgər şeir parçasına diqqət etsək, görərik ki, heç bir sözdə tarazlıq pozulmamışdır, hətta qafiyə yaradan sözlərdəki (çağım-bağım, səndə-gendə) səs ardıcıllığı belə doğma dilin fonetik qanununa uyğundur. Şairin şeir parçasında intensiv adıcıllıq yaradan (a-ı, ə-ə, e-ə, e-i) fonemlərin iştirak etdiyi sözlərdən istifadə etməsi xüsusi musiqilik, həmahənglik yaratmışdır.

H.Mirzə şeirlərində sözlərdən zərgər dəqiqliyi ilə istifadə etmiş, xüsusi sənətkarlıq nümayiş etdirmiş, nitqində ana dilinin fonem tarazlığını gözləmişdir. Eyni zamanda alliterasiya və assonansla da şeirdə bədii tarazlıq yaratmışdır.

"*Göyçə göldən duman enə,*
Göytəpədə çən sürünə,
Yağışdan sonra görünə,
Göy qurşağı səndə, dağlar" [11, s. 26].

Vətən həsrəti şairi üzən ən böyük kədərdir. Təbiət vurğunu olan H.Mirzə bu şeirində dağlarla insanı vəhdətdə görür, insanların vətənindən ayrı düşməsi onun kimi dağların da dərdidir. Şeirdə "g" fonemi alliterasiya, "ü" fonemi isə assonans yaratmışdır. Burada da müəllif fonemlərin tarazlığını məharətlə gözləmişdir, ardıcıllığı pozan heç bir fonemə rast gəlmirik.

"*Yurdunda elin görünmür,*
Ocaqların yanıb sönmür,
Yan tütəyin səsi gəlmir,
Döz bu dərdə sən də, dağlar" [11, s. 26].

Lirik qəhrəmanın ovqatına uyğun seçilmiş sözlər misra daxilində səslərin ardıcıllığı ilə ahəngləndirilmişdir. Birinci və ikinci misradakı həmqafiyə sözlərin tərkibində dodaqlanan dilönü sait fonemlərin tarazlıgı şeirə xüsusi bir ritm gətirmişdir.

Professor Mahirə Hüseynova da alim-şairin nitqindəki ritmi, ahəngdarlığı müşahidə etmişdir. O, H.Mirzənin "Dərdimi" şeirinin linqvo-poetik xüsusiyyətlərindən bəhs edərkən yazır:

"*Düşmən əlindədir müqəddəs yerim,*
Ləlim, cəvahirim, abidəm, pirim.
Qoy ayağa qalxsın igidim, ərim,
Bəlkə, bu şad xəbər silə dərdimi.

Bənddə "d" samitinin alliterasiyası və "i" səsinin assonansı işləklik intensivliyinə görə seçilir, xüsusi nəzərə çarpır və bunlar oxucuda müxtəlif psixoloji ovqatlar formalaşdırır, fonoloji təkrarlar kontekstual şəraitdə səs ahənginin sıralanma qanunauyğunluqlarının tənzimləyici funksiyasını yerinə yetirir" [12].

Vətən mövzusunda olan şeirlərindən fərqli olaraq, el qızlarının tərifinə həsr olunmuş

şeirlərində şən, şux, nikbin ruh hakimdir. Vəsf olunan gözəllərin xarici gözəlliyi ilə daxili aləmi vəhdət təşkil edir. H.Mirzə "Ceyran", "Olarmı?", "Nə olar?!", "Beləsinə", "Bu gözələ" və s. kimi şeirlərində Azərbaycan gözəllərinin sözlə bədii portretini çəkmiş, mənəvi-əxlaqi keyfiyyətlərini tərənnüm etmişdir. Şair "Tapın gətirin" adlı məşhur gözəlləməsində yazır:

"Kim qəlbinə dəydi o şux gözəlin?
Hara uçub getdi o şux nazənin?
Şair təbiətli Həsən Mirzənin,
İlham pərisini tapın gətirin!" [11, s. 50]

Verilmiş şeir parçasında *nazənin, şair, ilham* sözləri alınma olduğundan buradakı fonetik tarazlıq pozulsa da, hər misrada fonemlərin ardıcıllığı gözlənilmişdir. Saz havasına uyğun olan şeir uğurlu seçilmiş söz və qafiyələrə, buradakı fonemlərin ardıcıllığına görə axıcıdır.

H.Mirzə şeirləri onun zəngin həyat təcrübəsini, müdrikliyini təcəssüm etdirir. Bu şeirlərdəki fonetik tarazlıq isə əsərə xüsusi gözəllik, axıcılıq, ifadə əlvanlığı verir. Onun bədahətən dediyi (Bakı, 2001, şairə Səadət Butanın yubileyində,) "Yüzü də yaşa" şeirində oxuyuruq:

"Allah vergisidir, şeirin, hikmətin,
Əllini tez vurdun, tez vurdun başa.
Heç vaxt itməyəcək, qədrin, qiymətin,
Əlli yaş nədir ki, yüzü də yaşa" [11, s. 67].

İnsanlara qiymət verməyi bacaran müdrik şair işlətdiyi təkrirlərlə (tez vurdun) şeirin poetik gücünü artırmış, hər misrada fonemlərin tarazlığını yaratmışdır.

H.Mirzə dilində təkrirlər məharətlə işlədilmişdir. Şeirlərdəki alliterasiya və assonanslar da xüsusi bir bədiilik yaradır, tarazlığın yaranmasında rol oynayır. Şair "Nəvələrim" şeirində yazır:

"Biri dağlar lalasıdır,
Biri sular sonasıdır,
Biri çiçək topasıdır,
Nəvələrim, nəvələrim.
Mənim gözəl nəvələrim" [11, s. 57].

H.Mirzə nəvələrinin bədii portretini təsvir etdiyi bu şeir parçasında "b" samitinin alliterasiyasını, "ı" saitinin isə assonansını yaratmışdır. Qeyd edək ki, "b" foneminin alliterasiyası "Nəvələrim" şeirinin bütün bəndlərində vardır. Eyni zamanda şeirin bütün misralarında fonetik tarazlıq gözlənilmişdir. Burada da fonemlərin ardıcıllığı milli qanunun tələbinə tam cavab verir. Buna görə də şeir ahəngdar və axıcıdır.

Beləliklə, bu nəticəyə gəlirik ki, H.Mirzə şeirlərində Azərbaycan dilinin fonetik qaunauyğunluğu olan fonemlərin ardıcıllığından poetiklik yaratmaqdan ötrü xüsusi məharətlə istifadə edilmişdir. Şeirlərdəki fonetik tarazlıq (ardıcıllıq) ahəngdarlıq, axıcılıq yaratmışdır. Bədii fonetik tarazlıq hesab edilən alliterasiya və assonansların yerli-yerində işlədilməsi şeirlərin bədii gücünü daha da artırmışdır.

ƏDƏBİYYAT

1. Axundov, A.A. Azərbaycan dlinin fonetikası / A.A. Axundov. – Bakı: Maarif, –1984, –392 s.
2. Axundov, A.A. Azərbaycan dilinin fonemlər sistemi / A.A. Axundov. -Bakı: Maarif, -1973, -302 s.
3. Dəmirçizadə, Ə. Müasir Azərbaycan dili (Fonetika. Orfoqrafiya. Orfoepiya) / Ə. Dəmirçizadə. –Bakı: Şərq-Qərb, –2007, –256 s.
4. Müasir Azərbaycan dili (Fonetika və fonologiaya) I cild / Nağısoylu M.Z., Veysəlli F.Y., Kazımov İ. B. [və b.] –Bakı: Elm, –2019, –734 s.
5. Yusifov, M.İ. Azərbaycan dilinin fonetikasının əsasları / M.İ. Yusifov. –Bakı: Elm və təhsil, –2012, –320 s.
6. Sultanov, R. Dil vahidləri və onların xarakterik xüsusiyyətləri haqqında // –Bakı: Azərbaycan Dövlət Universitetinin elmi əsərləri, –1956, №1, –s. 128-136.
7. Şirəliyev, M. Ş. Azərbaycan dialektologiyasının əsasları / M.Ş. Şirəliyev. –Bakı: Şərq-Qərb, –2008, –416 s.
8. Veysəlli, F.Y. Azərbaycan dilinin funksional qrammatiksı: fonemika və morfemika. I cild. / F.Y. Veysəlli. –Bakı: "Prestige çap evi", –2014, –530 s.
9. Veysəlli, F.Y. Fonetika və fonologiya məsələləri / F.Y. Veysəlli. –Bakı: Maarif, –1993, –192 s.
10. Zülfüqarov, R.Ə. Naxçıvan MR Ordubad dialektində sait səslərin əvəzlənməsi // –Naxçıvan: AMEA Naxçıvan Bölməsinin xəbərləri, –№1, –2007, –s. 111-116
11. Həsən, M. Hanı o səndəki el, Dərələyəz // M.Həsən. –Bakı: Qismət, –2002, –192 s.
12. https://muallim.edu.az/news.php?id=17790

AŞIQ ƏLƏSGƏRİN DİLİ VƏ SÖZ-İFADƏ YARADICILIĞI

Röya ƏLİYEVA
ruya.alisoy69@gmail.com
Orcid İD: 0009-0005-0376-4043
Naxçıvan Dövlət Universiteti

Məqalədə Azərbaycan aşıq mədəniyyətinin tanınmış nümayəndələrindən biri olan Aşıq Ələsgərin dili və söz-ifadə yaradıcılığından bəhs edilir, poeziyasının linqvistik aspektləri təhlil edilərək onun dil mədəniyyətinə və söz ifadəsinə dair məlumatlar verilir. Aşıq Ələsgərin həm dilimizin inkişafına, həm də ədəbiyyat sahəsinə əhəmiyyətli töhfələr verdiyi qeyd olunur. Aşığın dili və yaradıcılığındakı söz-ifadə faktları aşkara çıxarılır, onlarla bağlı elmi-nəzəri fikirlər təqdim edilir. Sənətkarın yaradıcılığına xas olan orijinallığa və estetik keyfiyyətlərə diqqət yetirilir, işlətdiyi bədii sözlər və ifadələrdən nümunələr göstərilir və təhlil edilir.

Açar sözlər: *Aşıq Ələsgər, dil, söz-ifadə, poeziya, xalq dili*

Aşıq Ələsgər Azərbaycan aşıq sənətinin və dilinin möhkəmlənməsi və mədəniyyətə olan dərin bağlılığı ilə tanınır. Onun əsərləri Azərbaycan ədəbiyyatına böyük bir ənənə və dəyərlər birləşdirərək mövcud olan sənət dəyərlərini daha da zənginləşdirmişdir.

Aşığın ədəbi-bədii irsi müxtəlif dövrlərdə elmi tədqiqat tələb edən dil-üslub elementlərinin zənginliyi ilə xarakterizə olunur. Əminik ki, hər dəfə onun yaradıcılığında elmi faktlar ilə qarşılaşmaq olar. Bu səbəbdən də Aşıq Ələsgər poeziyasının dilçilik elmi baxımından öyrənilməsi aktual məsələlərdəndir.

Hər sənətkarın özünəməxsus istedadı olur, amma Aşıq Ələsgərin istedadı öz fərdiliyi və təbiiliyilə fərqlənir. Şeirlərindəki dilin sadəliyi aşığın yaradıcılığında ilkin şərtlərdən biridir. Bu sadəlik onun poeziyasında mükəmməlliyi azaltmır, əksinə, onda dərin bir sənətkarlığın göstəricisi kimi xidmət edir.

Aşıq Ələsgər uşaqlığından dağların, çayların, güllərin və ağacların əhatəsində yaşamış və bu təbiət gözəlliklərini ədəbi sənətdə kifayət qədər ifadə etmişdir. Onun əsərlərində təbiətin müstəsna rəngləri, şairin təsviri dilində ənənəvi Azərbaycan təbiətini yaşadan şəkildə öyrənmək mümkündür.

Aşıq Ələsgər təbiəti təsvir edərkən qeyri-adi təsvir və məzmunları ilə diqqət çəkir. Onun əsərlərində təbiətin hər elementinə olan məhəbbət çox maraqlı şəkildə əks olunur. Aşıq Ələsgərin "Dağlar" qoşmasında təbiət gözəlliyi və sözün gözəlliyi arasında bir sintez yaratması onun ədəbi bacarığının bir nümunəsidir. Bu şeirində təbiət əhvalatlarını təsvir edən Aşıq təbiətin qüdrətini və gözəlliyini vurğulayarkən eyni zamanda dil vasitəsi ilə də estetik keyfiyyətə çatmağa çalışır. Bu şeirdə təbiət gözəlliyi ilə dilin gözəlliyi arasında bərabərlik və uyğunluq qurulmuşdur. Aşıq təbiətin gözəlliyini təsvir edərkən onunla əlaqədə olan dil vasitəsi ilə də oxucuya müstəsna bir estetik təcrübə yaşatmağa çalışır. Sözün ritmi, rəngi və təsviri dili təbiət gözəlliyi ilə birləşərək oxucuda eyni anda estetik bir həzz mənbəyi yaradır. Bu sintez oxucunun təbiətin möhtəşəmliyini hiss etməsinə və həm də dilin zənginliyini, sözün gözəlliyini mənimsəməsinə imkan verir. Aşıq Ələsgər bu qoşmasında təbiət və dilin

birləşməsindən doğan estetik keyfiyyəti oxucuya təqdim etməklə ədəbi sənətin gücünü vurğulayır.

Həsənnənə, Həsənbaba qoşadı,
Xaçbulaq yaylağı bir tamaşadı.
Arsız aşıq elsiz necə yaşadı,
Ölsün Ələsgər tək qulların, dağlar! [1, s.38]

Aşıq Ələsgərin bu qoşmasında təbiətin qüdrətini və dağların müstəsna gözəlliyini təsvir etdiyi bacarığı onun bənzətmələr və təsvirlər üçün seçdiyi dilin nümunəsidir. Dağların fitri gözəlliyini əvvəlcə qoşa qoyduğu təsvir onun incəsənət və ifadə gücünü göstərir.

Aşıq Ələsgər qoşmasında müstəsna qoşa dağların lüzumsuz bənzətmələr və təsviratla əks etdirir. Bu, oxucuya təbiətin müstəsna və orijinal gözəlliyini daha yaxından hiss etməyə imkan verir. Şairin dilini təsvirə çevirmək, təbiətin bəzənməsi və təqdimatı ilə dağların özünü təsvir etməsi oxucunun zehniyyətində yaşanmış hisslər yaratmağa nail olur. Bu üslub Aşıq Ələsgərin təbiətə və ədəbi sənətə olan sevgisini əks etdirir. O, Xaçbulaq yaylağını təbiətin bir hissəsi kimi təsvir edərək onun füsunkar və gözəl xüsusiyyətlərini vurğulayır.

Aşıq Ələsgər qədim aşıq poeziyasının dilini müasirləşdirmək üçün milli deyimlərdən istifadə edərək onları xalq yaradıcılığının mahiyyətinə uyğunlaşdırıb. Fars dilində "qubar" termini əvvəlcə toz anlayışını ifadə edirdi. Qurbani "qubarlanmaq" sözünü həqiqi mənasında işlətdi. Sonralar bu söz kədər, qüssə mənasını ifadə etmişdir. Aşıq Abbas Tufarqanlı "Eyləsin" şeirində qeyd olunun həmin sözü "kədərlənmək" mənasında işlədib. Aşıq Ələsgər isə Qurbaninin işlətdiyi "qubarlanmaq" modelini saxlayıb, eyni zamanda da Abbas Tufarqanlının qurduğu semantik quruluşa sadiq qalıb.

"Ataş alıb çox da yanma,
Ələsgər, sənətindən heç usanma,
Ələsgər, öz-özünə qübarlanma,
Ələsgər, bu dünyanın Rüstəm-Zalı varıymış" [1, s.141]

Şairin zəngin yaradıcılıq mənbəyi saysız-hesabsız baxış nöqtələrini əhatə edən insanların düşüncələrini, mənəviyyatını əks etdirən bir mühit rolunu oynayan şeirlərinin dil ifadəsində əks olunur. O hamının başa düşəcəyi nitqdə xalqın zövqünə uyğun danışdığı üçün sənətin zirvəsinə yüksəlmiş, öz sahəsində ustad kimi tanınmışdır [2, s.53].

Aşıq Ələsgər poeziyasında Göyçə kimi tanınan ədəbi mühitin mədəni və mənəvi inkişafını nəzərəçarpacaq səviyyədə nümayiş etdirir. Poeziyasındakı bədiiliyin dil materialı Göyçə düşüncəsinin və ifadəsinin tərzinin yadigarı olaraq bədii emosionallığa xidmət göstərir.

Aşıq Ələsgərin dilində dialekt sözlərin semantik diapazonu sabit qalır, amma bədii ifadə səviyyəsində əhəmiyyətli fərqlər var. Bu proses sayəsində söz sənətkarının öz dilinin potensialından istifadəyə yanaşması aydın olur. Şeirlərində işlətdiyi dialekt sözlər emosionallığı artırır.

Tovuz kimi cilvələnib.
Qırımı tərlan kimidi. [1, s.222]

Şeirə məzmununa uyğun leksik elementlər daxildir. Lirik və emosional nüanslarla dolu universal bir dilin imkanlarını nümayiş etdirərək şeir aləminə nüfuz edən sözlər ortaya çıxır.

Aşıq Ələsgərin dili daha həssas və daha incə məcrada fəaliyyətdədir. Müəllifin üslubunda sözün yeni məna nüanslarını aşkar etmək, onu öz üslubi sərvətinə çevirmək səyi hakimdir [4, s.218].

Dilin poetik qaynaqlarından fərdi yaradıcılıq çalarları ilə obrazlılığa nail olmağı bacaran Aşıq Ələsgər sözün üslubi semantik təbiətini bütün incəlikləri ilə açmağa nail olur. Şairin dil ifadəsi və üslubu təsvir etdiyi məzmunun zənginliyini tam ölçülü şəkildə oxucuya çatdırmaqda çox bacarıqlıdır. Bu onun əsərlərini diqqətçəkici və özünəməxsus edir.

Aşıq Ələsgərin dili bəzi standart şeir formalarından fərqli olaraq xüsusi bir üsluba və ritmə malikdir. Həmin sadə və anlaşıqlı dil oxuculara əhəmiyyətli məsələləri və hissləri daha dəqiq şəkildə almağa imkan verir. Bu da onun şeirinə olan əhəmiyyətini və onun xalq arasında geniş yayılmış olmasını izah edir.

Gül olma dünya malına,
Qalacaqdı dünyada. [1, s.194]
Aldanma dünyanın bu fənasına,
Gül olma gövhərli xəzanəsına. [1, s.50]
Söynalı başını qoydu yolumda,
Hüseyn pəl vurdu, Həsən qoymadı. [1, s.110].
Ələsgərəm, mən yetiyəm hər işə, [1, s.21]
Ələsgərəm, hər elmdən halıyam. [1, s.72]

Bu şeir parçalarında müasir dilimiz üçün arxaik hesab edilən "gül olmaq" (meyl etmək, bağlanmaq), "pəl vurmaq" (işin düzəlməsini əngəlləmək, işi pozmaq), "halıyam" (məlumatlıyam, xəbərdaram), "yetiyəm" (məlumatlı olmaq, işin içində olmaq) sözlərin və ifadələrin Aşıq Ələsgərin öz dilində və sənət dilində bədii bir ifadə qabiliyyətinin olduğunu, onun dünyagörüşünü və hisslərini daha dərin, zəngin bir şəkildə təsvir etməsinə kömək edir, həm də onun əsərlərini oxuyanları daha güclü bir təsir altına salmağa və onların ürəklərində daha qalıcı iz qoymağa nail olur.

Ümumiyyətlə, Aşıq Ələsgərin dili sadəlik və gözəllik ilə diqqəti cəlb edir. Aşıq Ələsgər tərəfindən istifadə edilən dil onun düşüncə və hisslərini dinləyicinin şüuruna dərin bir təsir buraxmağa nail olur. O, Azərbaycan dilinin zənginliklərindən və ədəbi mənəviyyatından güc alaraq özünəməxsus ifadə üslubunu yaradır. Bu milli zəmin onun şeirlərində ədəbiyyat mədəniyyəti, xalq ədəbiyyatı və tarixi ənənələrinin birləşməsini təsvir edir.

Haqq meyi islama haram buyurmuş,
Qəm tüğyan eyləsə mey içmək olar.
Dostun məzəmməti adamı öldürür,
Düşmənlə söyüşüb dalaşmaq olar.
İlqarın dalınca bir baş getməsin,
Onu bir qarpıza dəyişmək olar.

Göz gözə baxanda halım soruşa,
Aləm düşman olsa, görüşmək olar. [1, s.121]

Bu şeirində də sənətkar söz və ifadələrdən məharətlə istifadə etmişdir. Belə ki, şeirdə "haqq meyi", "dostun məzəmməti", "göz- gözə baxanda" kimi ifadələr yaratmışdır.

Mehdi Hüseyn Aşıq Ələsgərin lirikasını dəyərləndirərkən yazır ki: "Az kəlmə ilə çox fikir söyləmək, canlı və təsirli, şairanə səhnələr təsvir etmək istedadlı Ələsgərin lirikasını daha da zənginləşdirir" [4, s.176].

Aşıq Ələsgərin dilindəki lakonik ifadələr onun yaradıcılığına xüsusi cəhətlərini əks etdirir. Onun əsərləri Azərbaycanın xalq musiqisi və folkloru ilə bütövlük təşkil edir. Bu da dilindəki ifadələrin folklor və musiqi ilə bənzərsiz birləşməsinin nəticəsidir.

Aşıq Ələsgər öz dilində və üslubunda yeni keyfiyyətlər əlavə edərək aşıq sənətinin gələcəyini formalaşdırmağa kömək edib. Onun sənəti gələcək nəsillər üçün bir nümunə olaraq qalır və Azərbaycan ədəbiyyatına dəyərli bir töhfədir.

ƏDƏBİYYAT

1. Aşıq Ələsgər. Əsərləri. – Bakı: Şərq-Qərb, – 2004. – 400 s.
2. Əfəndiyev, O. Aşıq sənətinin estetik problemləri. – Bakı: Azərnəşr, – 1983. – 115 s.
3. Hüseynov, M. A. Aşıq Ələsgərin söz ümmanı. – Bakı: Elm və təhsil, – 2017. – 312 s.
4. Mehdi Hüseyn. Böyük aşıq. Seçilmiş əsərləri. 10 cilddə, IX cild, – Bakı: Yazıçı, – 1978. – s.172-176
5. Xələfli Əli Rza. Aşıq Ələsgərli düşüncələr, yaxud "alalı" sözünün yaddaşımızdakı ağrısı. Kredo, – 28 oktyabr, – 2006- cı il.

QƏRBİ AZƏRBAYCAN ETNOTOPONİMLƏRİ: TARİXİ HƏQİQƏTLƏR, PERSPEKTİVLƏR

Günay MƏHƏRRƏMOVA
gunaymehva988@icloud.com
"Naxçıvan" Universiteti

Azərbaycanlıların Ermənistandan – Qərbi Azərbaycandan köçürülməsindən sonra türk mənşəli toponimləri ermənilşdirərək tarixi saxtalaşdırmağa çalışmışdırlar. Bu, məlum həqiqətdir ki, hər bir ərazinin toponimləri o arealda yaşamış xalqların izini saxlayan, onun bu yerlərdə tarixni təsdiq edən ən etibarlı mənbədir. 1935-ci ilədək Ermənistanda azərbaycanlı yaşayış məskənlərinin adı hökümətin müəyyən strukturları tərəfindən dəyişdirilmiş və əsasən, 29 rayonda 72 türkmənşəli toponim dəyişdirilərək mənəvi soyqırıma məruz qoyulmuşdur.

***Açar sözlər**: Etnotoponimlər, deportasiya, türk tayfaları, tarixi saxtalaşdırma*

Etnotoponimlər xalqların qədim yaşayış məskənini müəyyənləşdirmək, həmin ərazilərdə baş vermiş ictimai-siyasi hadisələri araşdırmaq, bu hadisələrin əsas qaynaqlarını aydınlaşdırıb həqiqəti üzə çıxarmaq üçün faktlar qədər dəyərlidir. Bu baxımdan Ermənilər Azərbaycan və türk mənşəli toponimlərə münasibətdə hər zaman qərəzli yanaşmış, Qərbi Azərbaycanda – indiki Ermənistanda türk mənşəli toponimlərin ermənilşdirilməsində, xüsusilə də azərbaycanlıların min illər boyu burda yaşamasını sübut edən faktları saxtalaşdırmaqla bunu sübut etmişlər.

Azərbaycan türklərinin dədə-baba torpaqlarındakı izlərini silmək məqsədiyə aparılan addəyişmə əməliyyatında aşağıdakı qaydalardan istifadə etmişdirlər.

1. Əvvəla işə etnonimlərin dəyişməsi ilə başlayaraq məsələn: Aşağı – Lusaq – Yuğ (Eçmiədzin), Qorçulu – Mrqaşaq, Sərdarabad – Hoktember, Bayandur – Vağadur (Gorus), Şirvancıq – Lernakert (Artik) və s. kimi yaşayış məskəninin adı.

2. Bir çox yaşayış məskənlərinin adı Erməni dilinə hərfi tərcümə edilmişdir. Məsələn, Armudlu – Tandzut, Daşqala – Karaberd Darəkənd – Dzoraqyuğ Dərəçiçək – Tsaxkadzor, Göl – Liçk, Güllübulaq – Vardaxpuyr

Ümumiyyətlə, ermənilər azərbaycanlılara məxsus olan toponimlərdəki "dağ" söz birləşməsini - "sar", "təpə" söz birləşməsini - "blur", "göl" söz birləşməsini - "lic", çay söz birləşməsini - "get", bulaq söz birləşməsini -"axbyur" ifadəsi ilə əvəz etməklə hərfi tərcümə yolu ilə toponimlərimizi ermənilşdirmişdir.

Qərbi Azərbaycan termini, əsasən, 1988-ci ildə ermənilər azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etdikdən sonra yaranmışdır. O, özündə İrəvan və Gümrü şəhərləri, Vedibasar, Zəngibasar, Göyçə, Dərələyəz, Dərəçiçək, Zəngəzurun Meğri, Gorus, Sisyan, Qafan bölgələri, Ağbaba ərazilərini birləşdirir.

Sovet hakimiyyəti dövründə azərbaycanlıların Ermənistandan SSRİ tərəfindən "dövlət səviyyəsində" deportasiyasına köçürmə adı verilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı, 1948-ci il

martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarlarına əsasən 150 min azərbaycanlı tarixi-etnik torpaqlarından - Ermənistandan deportasiya edilmişdir [1, s.7].

Müəyyən bir müddət ərzində bu faciələrə hüquqi-siyasi qiymət verilməmiş, yalnız bununla bağlı Heydər Əliyev bu tarixi ədalətsizliyi dəyərləndimiş, 1997-ci il dekabrın 18-də "1948- 1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır.

Ermənilərin İran və Türkiyədən Azərbaycana xüsusilə də Naxçıvan, İrəvan və Qarabağ xanlıqları ərazisinə köçürülməsinin əsas səbəbi XIX yüzilliyin əvvəllərində Çar Rusiyasının Cənubi Qafqazı işğalı olmuşdur. Tarixdə ilk qondarma dövlətlərini 1918-ci ildə Ararat Respublikası adı ilə yaradan ermənilərin nə paytaxtı nə də dövlətin ərazisi mövcud idi. Azərbaycan Cümhurriyəti Milli Şurasının 1918-ci il may ayının 29-u qərarı ilə Azərbaycanın əzəli şəhəri olan İrəvan onlara paytaxt və İrəvan xanlığının 9 min kv km sahəsi isə onlara ərazi olaraq verilmişdir.Və zaman keçdikcə qonşu dövlətlərdən köçürülüb gələn ermənilərin hesabına əhalisini daha da artırmışdır.

İndiki Ermənistan ərazisində Azərbaycan türklərinin yerləşməsi e.ə. II əsrdən başlamışdır. Həmin xalqın, tayfanın adını özündə yaşadan toponimlər bunu sübut edən əsaslı faktlardan biridir. Bu toponimlərə və IV-VII əsrlərdə Qafqaz xalqlarının tarixi ilə bağlı yazılmış əsərlərə əsasən demək olar ki, Azərbaycan türkləri Qərbi Azərbaycan ərazisinin yerli sakinləri olmuş, ermənilərsə buraya sonradan ilk yaşayış məskənləri olan İraqdan-Dəclə və Fərhat çayları sahillərindən gəlmişdi.

"IV əsrin ikinci yarısındakı hadisələri qeyd edən Favstos Buzand da Cənubi Qafqaz zonasında (təbii ki, indiki Ermənistan ərazisində -İ.B.) hunların və digər türklərin mövcud olduğunu bildirir: "O zaman Maskut padşahı Sanesen bərk qəzəblənərək, öz qohumu erməni padşahı Xosrova (əslində Xosrov farsdır - İ.B.) ədavət bəslədi və qoşunların hamısını - hunları, paxlan, tavasparlan, xeçmataklan, ijmaxlan, qotları, qluarlan, quqarları, şiçbləri, gilbləri, balasiçləri, yegersvanları və saysız-hesabsız digər müxtəlif köçəri tayfalan, itaətində olan külli miqdarda qoşunları topladı, öz sərhədi olan böyük Kür çayını keçərək erməni ölkəsinə sel kimi basqın etdi [6, s. 172]. Deməli, indiki Ermənistan ərazisində tarixən yaşayan qədim türk tayfalanndan biri elə məhz hunlar olmuşdur. Ermənidilli mənbələrdə hunlar - xaylantürklər adlandırılır [6, s.172].

Qeyd edə bilərik ki, Qərbi Azərbaycan ərazisinin müasir toponimiyasında 4600-dən çox olan coğrafi adın təxminən 70 faizini tayfa və ya tayfa başçılarının adı ilə meydana gəlmişdir. Aparılan tədqiqatlar göstərir ki Qərbi Azərbaycan ərazisinin qədim sakinlərinə oğuzları da aid etmək mümkündür.

Türklərin Qərbi Azərbaycanda məskunlaşması qədim zamanlara dayanır. Burada əsasən kimmer, sak,q arqarlar və peçenekler, şadıllı, şirak, quqar v.s tayfalar e.ə VII əsrdən başlayaraq məskunlaşmışdır.

Qərbi Azərbaycanda öz izini qoymuş tayfalardan biri də saklar idi. E.ə VII əsrdə sakların Qara Dənizin şimalından Qafqaza gəlməsini Assur mənbələri məlumat vermişdir. Heredot isə bu tayfanın adını skif kimi qələmə vermişdir. Saklar Gürcüstanın şərqini, bütünlüklə Şimali Azərbaycan ərazisini və indiki Ermənistanı tutdular və e.ə 680-cı ildə Araz sahillərinə çatdılar" [4, s.48] Və beləliklə, öz dövlətlərini yaratdılar. Bu tayfanın adı indiki Ermənistan ərazisində yerləşən Sisyan rayonunun adında [3, s.91-94] öz izini qoruyub saxlamışdır.

İndiki Ermənistan ərazisində yer adlarında öz əksini tapan kimmerlər İrəvan yaxınlığında Qəmərli rayonunun (04.09.1945 Artaşet), eləcədə Eçmiədzin rayonunun ərazisidəki Qəmərli kəndinin adını (15.07.1946-Medzamor) özündə birləşdirir. Əlavə olaraq qeyd etmək olar ki, indiki Ermənistan Gümrü (Şörəyel sultanlığının ərazisinə daxil olan Gümrü şəhərinin 1804-ci ildə Rusiya tərəfindən işğalından sonra 1837-ci ildə Nikolay Gümrüyə gəlir. Elə 1873-ci ildə şəhərin adı dəyişdirilib çarın arvadının şərəfinə Aleksandropol qoyulmuşdur [2, s.36-37]. V.İ.Leninin ölümündən sonra onun adını əbədiləşdirmək məqsədi ilə şəhərin adı Ermənistan SSR Ali Sovetinin 27.01.1924-cü il tarixli fərmanı ildə yenidən dəyişdirilib Leninakan adlandırılmışdır. SSRİ dağılandan sonra şəhərə Qumayri, sonra isə təkrar olaraq Qyumari, yəni Gümrü adı verilmişdir) şəhərinin adı da kimmer etnonimi əsasında formalaşmışdır.

Quqarlar da Qərbi Azərbaycan ərazisində məskunlaşmış tayfalardan idi. Onlar burada təxminən e.ə VII-VI əsrdə köç etmişdir. Və bu danılmaz faktdır ki, Qərbi Azərbaycanda olan Qoqarena vilayəti bu tayfaların adı ilə bağlıdır.Onlar əsasən Göyçə gölü ətrafında yaşamışırlar. Türk mənşəli quqar tayfasının adı Ermənistan ərazisindəki Quqark rayonunun adında özünü əks elətdirir. Görkəmli Türkiyə tədqiqatçısı M.Fahrettin Kırzıoğlu yazır: "Arsaklılar çağında Gölədən Tiflis altındakı Borçalıya kimi uzanan və XIII əyaləti təşkil edən bölgənin "Quqark" (Quqarlar) adı da əski "Qoqar-en"dən qalmadır" [3, s. 82].

İndiki Ermənistan ərazisində tarixən yaşayan, Göyçə gölü ətrafında, Arpaçayən sahilində məskunlaşan tayfalardan biri də şiraklar idi. Bunlar haqqında məlumatı verən I əsrdə Strabon olmuşdur. Bu tayfanın adı Şörayel toponimində özünü qoruyub saxlamışdır.

Kəngərlilər də indiki Ermənistan ərazisində məskunlaşmış türk tayfalarından olmuşdur. Onlar bu əraziyə IV əsrdən sonra gəlmişdir. Qədim türk tayfalarından olan kəngərlilər əsasən Ağrı vadisində, indiki Ermənistanın Gürcüstanla sərhəddində yaşamışdır. Bu tayfanın adı Ağbaba mahalındakı Kəngər dağının adında özünü qoruyub saxlamışdır. Eləcə də Kəngərli tayfasının qollarından olan pol, çor etnonimləri ilə bağlı indiki Ermənistan ərazisində xeyli yaşayış məntəqəsi mövcud olmuşdur [5, s.112-114].

Tək bu faktlarla yetinməyərək demək olar ki,1828-ci il Türkmənçay müqaviləsinə qədər indiki Ermənistan ərazisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Türkmənçay müqaviləsindən sonra Rusiyanın dəstəyi ilə azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuş və Azərbaycana, Cənubi Azərbaycana və Türkiyəyə sığınmışdır.

Tarixi Azərbaycan torpaqlarında zaman-zaman baş verən bu parçalanmalar müasir Azərbaycan sərhədləri daxilində müəyyən edilmişdir. Azərbaycan xalqının zəngin tarixi

keçmişini göstərən Zəngəzur torpağı da bu parçalanma nəticəsində Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılmış XX əsrin əvvəllərində Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsi nəticəsində isə Naxçıvanın Azərbaycandan ayrı düşməsi məsələsi baş vermişdir.

1921-ci il 12 yanvarda Zəngəzur mahalı şərq və qərb olmaqla iki yerə ayrıldı. Sahəsi 4505 kv.km. olan qərbi Zəngəzur (Qafan, Gorus, Qarakilsə, Sisian, Mehri və s.) Ermənistanın ərazisinə birləşdirilmiş Zəngəzurun Azərbaycana qalan şərq hissəsində isə Zəngilan, Qubadlı, Laçın rayonları salınmışdır.

"Zəngəzur" sözü təmiz türk mənşəli toponimdir. "Zəngi"- qədim türk tayfasının adıdır və bu gün, bu ərazidə yerləşən bir çox coğrafi adların – Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngi çayı, Zəngibasar, Zəngilər, Zəngan, Zəncan, Zəngilli və s. kimi kənd, çay, dağ adlarının qaynağıdır.

Aparılan tədqiqatlar sübut edir ki, bu ərazilərin heç biri Ermənistanın olmamış, tarixən burada türk milliyətli əhali yaşamışdır. Son illərdə cərəyan edən hadisələrdə bu torpaqlara yenidən qayıtma ehtimalımızın olması bariz nümunə sayılır.

ƏDƏBİYYAT

1. Bayramov, İ. Qərbi Azərbaycan : Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti, – Bakı: – 2012.
2. Mustafa, N. Cümrünün tarixindən səhifələr // Elturan, 1993, №1-2, s.36-37.
3. Kırzıoğlu Fahrettin M. Kars tarihi, I c., İstanbul: İşil matbaası, – 1953. – 560 s.
4. Qeybullayev, Q.Ə. Azərbaycanlıların etnik tarixinə dair. – Bakı: Elm, – 1994. – 102 s.
5. Qeybullayev, Q.Ə. Qədim türklər və Ermənistan. – Bakı: Azərnəşr, – 1992. – 140 s.
6. Bünyadov, Z. Azərbaycan VII-IX əsrlərdə. – Bakı: Azərnəşr, – 1989, – 336 s.

SUMMARY

Gunay Meharramova

ETHNOTOPONYMS OF WESTERN AZERBAIJAN: HISTORICAL REALITIES AND PERSPECTIVES

Following the forced migration of Azerbaijanis from Armenia and Western Azerbaijan, there has been an endeavor to distort historical facts by Armenianizing Turkic-origin toponyms. It is a well-established truth that the toponyms of a given area constitute the most reliable source, preserving the imprints of the peoples who once inhabited it and validating its historical significance. Up until 1935, the names of Azerbaijani residential areas in Armenia underwent alterations orchestrated by certain governmental structures, particularly in 29 districts, where 72 Turkic-origin toponyms were changed, resulting in an act of spiritual genocide.

***Key words**: Ethnotoponyms, deportation, Turkic ethnic groups, historical validation*

IV BÖLMƏ. QƏRBİ AZƏRBAYCANA QAYIDIŞIN HÜQUQİ ASPEKTLƏRİ

QƏRBİ AZƏRBAYCANDA MİLLİ-MƏNƏVİ MİRASIMIZIN MƏHV EDİLMƏSİ VƏ ONA SİYASİ-HÜQUQİ BAXIŞ

Qəhrəman BEHBUDOV
qehremanbehbudov@gamil.com

Rövşən İSMAYILXANLI
rousen9942@gmail.com
Naxçıvan Dövlət Universiteti

Bu məqalə tarixi Azərbaycan torpaqları olan Qərbi Azərbaycana İran və Osmanlı dövlətindən köçürülən erməni ailələrinin zaman-zaman yerləşdirilməsi və burada erməni dövlətinin qurulması, sonralar isə bu torpaqlarda ermənilərin etnik təmizləmə aparması və nəticədə Qərbi Azərbaycanda mövcud olan milli maddi-mənəvi mədəniyyətimizin dağıdılaraq məhv edilməsinə siyasi-hüquqi qiymət verilməsindən bəhs edir.

Açar sözlər: *Qərbi Azərbaycan, məscid, məhvetmə, hüquq, erməni, abidə, ermənileşdirmə, etnoqrafiya*

İrəvan və Naxçıvan xanlıqlarının ruslar tərəfindən işğalından və 1828-ci il 10 fevral tarixində imzalanan Türkmənçay müqaviləsindən sonra Azərbaycanda vəziyyət kökündən dəyişdi. Bu ərazilərdə Azərbaycan və Türkiyəyə qarşı erməni-xristian bufer dövləti yaratmaq məqsədilə Rusiya bu torpaqlara 1828-1829-cu illərdə İrandan, 1830-cu illərdə isə Osmanlı dövlətindən çoxlu erməni ailəsi köçürüb gətirdi. Həmin köçürmələr sonrakı onilliklərdə daha intensiv şəkil aldı. Ermənilərin bölgəyə köçürülməsi ilə bərabər yerli türk azərbaycanlı əhalidə sıxışdırılıb çıxarılır, çox vaxt da bu dövlət səviyyəsində həyata keçirilirdi.

Belə ki, Türkmənçay müqaviləsindən sonra Çar Rusiyası yeni inzibati ərazi bölgüsü apararaq, Ordubad dairə olmaqla 1827-1833-cü illərdə Naxçıvan qəzasının tərikibinə daxil edilir. Şərur 1833-cü ildən 1840-ci ilə kimi dairə halında idarə edilmişdir. 1840-cı ildə yenidən inzibati ərazi bölgüsü aparılaraq Şərur-Dərələyəz Naxçıvan qəzasının tərkibinə verilir, 1872-ciilədək nahiyyə kimi qalır. 1872-ci ildə Şərur-Dərələyəz qəzası Naxçıvan qəzasının tərkibindən alınıb müstəqil qəza adlandırılmışdır. Bir qayda olaraq qəzaların idarəçiliyi, həmçinin İrəvan quberniyası da Kəngərlilərdən olan naiblərə tapşırılır.

Naxçıvan vilayəti və İrəvan xanlığı Rusiyanın tərkibinə daxil olandan sonra Kəngərli tayfa başçıları rus ordusunda dahada yüksək vəzifələr tutmağa başladılar.

Ehsan xan öz xalqını İran şahlarının zülmündən azad etməyi qarşısına məqsəd qoymuşdu və buna da nail oldu. Ancaq onun Qriboyedov və onun erməni əlaltılarının hiylələrindən xəbəri yox idi. İndi Qriboyedovun şəxsi arxivi ilə tanış olanda artıq bu məkr və ikiüzlülük onun yazışmalarında görünür.

I Nikolayın 21 mart 1828-ci il fərmanına əsasən ləğv olunmuş Naxçıvan və İrəvan xanlıqlarının ərazisində süni şəkildə "ermənivilayəti" yaradıldı. Bu dövrdə ermənilərin xahişi və çar hökumətinin təşəbbüsü əsasında İrandan Naxçıvana və İrəvana köçürülmüş erməni ailələri hesabına şəhər, həmçinin qəza əhalisinin sayı xeyli artmışdır. Erməni ailələrinin Rusiya imperiyasının cənub rayonlarına köçürülməsi barədə onların ciddi səy və arzuları dövrün rəsmi sənədlərində də öz əksini tapmışdır.

«Сборник актов k обозрение истории armyanskoqo народа» [C.K. M. 1836] adlı rəsmisənədə ermənilərin İrandan köçürülməsinə rəhbərlik edən polkovnik Lazarev köçürmə üzrə İranın nümayəndəsi Əsgərxanın şahidliyilə erməni ailələrindən onların könüllü surətdə köçürülmələrinin tərəfdarı olub-olmadıqlarını soruşduqda ermənilər qəti olaraq demişdilər: "...Bəli, biz İran çörəyini yeməkdənsə, rus otunu daha üstün tuturuq".

Köçürülən ermənilərin əksəriyyəti İranın Xoy, Təbriz, Urmu, Deykar şəhərlərindən, Salmas və Mağara vilayətlərindən idi.

Belə ki, Naxçıvan şəhərində 416 ailə, Güznüt kəndində 72 ailə, Qızılça kəndində 23 ailə, Əbrəqunus kəndində 36 ailə, Kırna kəndində 44 ailə, Bənəniyar kəndində 49 ailə, Noraşen kəndində 23 ailə, Qazançı kəndində 22 ailə, Xəlilli kəndində 24 ailə, Didivar kəndində 31 ailə, Kültəpə kəndində 70 ailə, Badaşqan kəndində 26 ailə, Nehrəm kəndində 208 ailə, Təzəkənd kəndində 44 ailə, Tumbul kəndində 53 ailə, Qaraxanbəyli kəndində 81 ailə, Arınc kəndində 31 ailə, Məmmədrza-Dizəsi kəndində 20 ailə, Xal-xal kəndində 35 ailə, Ərəzin kəndində 60 ailə, Saltaq kəndində 23 ailə, Alagöz-Məzrə kəndində 42 ailə, Uzunoba kəndində 24 ailə, Külüs kəndində 13 ailə, Nurs kəndində 30 ailə, Şıxmahmud kəndində 63 ailə, Nəzərabad kəndində 49 ailə, Cəhri kəndində 151 ailə, Badamlı kəndində 23 ailə, Şahbuzda 20 ailə, Yarımca kəndində 78 ailə, Məzrə kəndində 22 ailə, Kərimbəyli-dizə kəndində 22 ailə, Əylis kəndində 37 ailə, Əndəmic kəndində 23 ailə, Aza-Derkəndlərində 182 ailə, Ələhli kəndində isə 18 ailə yerləşdirilmişdir.

Bununla yanaşı, Sürməli qəzasına 200 ailə, Vedibasara 91 ailə, İrəvan şəhərinə 410 ailə, Eçməzdində 191 ailə yerləşdirilmişdir. Bundan başqa, Şərur mahalının Ulya-Noraşen, Keçdaz, Vərməziyar, Xanlıqlar, Ələhli və s. kəndlərinə də ermənilər köçürülmüşdür. Erməni ailələrinin Rusiya imperiyasına daxil edilən ərazilərə, xüsusəndə Şimali və Qərbi Azərbaycan torpaqlarına köçürülməsi sonrakı illərdə də davam etmişdir. Erməni tarixçilərindən İ.P.Ağayanın «Роль России в исторических судьбах армянского народа» (M. 1978 г.), V.A.Parsamyanın «История армянского народа» (Ереван 1972 г.), M.A.Adonsun «Согласно экономической развитии Восточной Армении после присоединения к России», V.A.Diloyanın «Присоединения Восточной Армении к России и его историческое значение», «Сборник статей Ереван» (1978 г.) və s. əsərvə məqalələrində qeyd olunurki, XIX əsrin birinci yarısında Rusiya-İran və Rusiya-Türkiyə müharibələri nəticəsində İrandan 40 min, Türkiyədən isə 84 min (cəmi: 124 min) nəfər erməni əhalisi Zaqafqaziyaya köçürülmüşdür ki, bunlarında əksəriyyəti Naxçıvan mahalında, Qarabağ və Dərələyəz və Qərbi Azərbaycan əyalətlərində yerləşdirilmişdir.

Bu qısa məlumatdan sonra onu qeyd etmək istəyirik ki, ermənilərin Naxçıvan və Qərbi Azərbaycan mahalında yerləşdirilməsi ermənilərin nəinki çar Rusiyası dövründə, həmçinin Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonrada respublikanın bir çox

nazirliklərində, eləcə də polis orqanlarında rusların himayəsilə yüksək rütbələr tutmasına səbəb olmuşdur və azərbaycanlılara qarşı kütləvi deportasiya və soyqırım aparmışlar.

Araz çayının şimal hissəsinə 1828-ci ilin martından 1829-cu ilin axırınadək 8249 erməni ailəsi cəmi 40 min nəfər Naxçıvan ərazisinə, Qarabağa köçürüldü. 10.663 nəfər erməni təkcə Naxçıvan şəhərinə, bu qədərdə Qərbi Azərbaycana və iyirmiyə yaxın yaşayış məntəqəsinə köçürülmüşdü.

Ermənilərin Cənubi Qafqazda yerləşdirilməsini onilliklər üzrə qruplaşdıran N.Şavarov 1911-ci ildə nəşr etdirdiyi "Cənubi Qafqazda rus işinə yaranan təhlükə" əsərində öz hesablamalarına belə yekun vurur. XX əsrin başlanğıcında Qafqazda yaşayan 1.300.000 ermənin bir milyondan artığı bu rayonun yerli əhalisi deyildir, onlar buraya, bizim (rusların) tərəfimizdən köçürülmüşdür.

Qeyd etdiyimiz kimi, bu torpaqlar qədim Azərbaycan torpaqları olub. Belə ki, hər bir xalqın varlığını müəyyən ərazidə təsdiqləyən əlamətlərdən biri də onun milli mənəvi mirasıdır. Qərbi Azərbaycanda İslam dini VII əsrdən etibarən yayıldığı üçün həmin ərazidə yüzlərcə məscid və ibadət yerləri mövcud olmuşdur. Qərbi Azərbaycanda, o cümlədən İrəvan şəhərinin ərazisində mövcud olmuş məscidlərin hər biri bir memarlıq nümunəsi idi.

1673-cü ildə İrəvanda olmuş fransız səyyahı Jan Şarden İrəvanda olarkən və burada çoxlu məscidlərin olduğunu qeyd etmişdir.

İrəvanda olan məscidləri bu şəkildə sıralamaq olar:

1. Sərdar məscidi–Alman tədqiqatçısı Avqust Haksthauzen 1842-cü ildə İrəvanda olmuş və Qalada olan iki məsciddən birinin (Rəcəbpaşa məscidinin) Rus-yunan kilsəsinə, digərinin isə (Sərdar məscidinin) silah anbarına çevrildiyini qeyd edir.

Tanınmış rus arxeoloqu qrafiniya Praskofiya Uvarova 1880-ci ildə İrəvan şəhərində olmuş, əsrlər boyu yaradılan tarixi-memarlıq abidələrinin dağıdılmasını ürək ağrısı ilə qeyd etmişdir.

İrəvanda Azərbaycan türklərinə məxsus maddi-mədəniyyət abidələri kimi, Abbas Mirzə məscidi də erməni vandalları tərəfindən tədricən hissə-hissə dağıdılmışdır. Azərbaycan arxeoloqu və epiqrafı İsa Əzimbəyov 1928-ci ildə İrəvanda ekspedisiyada olmuşdur. Ekspedisiyanın nəticələrinə dair isə İsa Əzimbəyov yazdığı "Tiflisin, İrəvanın və Naxçıvan MSSR-nin müsəlman kitabələri" adlı məqaləsində göstərir ki, Qalanın içərisində Sərdar sarayının yaxınlığında yerləşən Şah Abbas adına inşa edilən məscid yarı uçuq vəziyyətdədir və onun həyətində bir neçə erməni ailəsi məskunlaşmışdır. İsa Əzimbəyov məsciddə ibadət edilmədiyini qeyd edir.

İ. Əzimbəyov həmin məqaləsində daha sonra yazır ki, həmin vaxt Məşədi Cabbar adlı şəxs ona yaxınlıqda Şah Abbas məscidindən daha qədim bir məscidin olduğunu və onun Şah Xudabəndə (Məhəmməd Şah Xudabəndə - 1552-1595) tərəfindən inşa edildiyini söyləmişdir.

Sovet Ermənistanı dövründə Sərdar məscidi hissə-hissə sökülərək onun yerində yaşayış binaları tikilmişdir.

Ermənilərin Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycan ərazisində kitarixi türk-xristian abidələrinə sahib çıxması da məhz XIX yüzillikdə geniş vüsət alır. Bununla

kifayətlənməyən ermənilər özlərininkiləşdirə bilmədikləri türk abidələrini yerləyeksan edir, izini itirməyə çalışırlar.

Buna görə də orta çağ tarixi mənbələrində "məscid və minarələr şəhəri kimi qeyd olunan İrəvan şəhərində bugün yalnız bir məscid qalmaqdadır ki, onuda ermənilər dünya ictimaiyyətinə fars məscidi kimi təqdim edirlər. Neçə-neçə rus generallarının başını aşağı endirən, rusların 25 illik fasiləsiz hücumlarına mətanətlə sinə gərən məşhur İrəvan qalasının bugün izi-tozu yoxdur, bütün avropa səyyahlarını heyrət içində qoyan möhtəşəm Sərdar sarayı, onun Güzgülü salonu artıq bir nağıldır.

1832-ci ildə İrəvan şəhərində 12 məscid qeydə alınmışdı:

1. Qala məscidi.
2. Şah Abbas məscidi.
3. Zal məscidi.
4. Novruzəli məscidi.
5. Sərtib məscidi.
6. Hüseynali xan məscidi.
7. Hacı İmamverdi məscidi.
8. Hacı Cəfər məscidi.
9. Dəmirbulaq məscidi.
10. Rəcəb paşa məscidi.
11. Şükürbəy məscidi.
12. Təbəbaşı məscidi.

İndi nə o məscidlər var, nə də İrəvan adlı o qədim Türk şəhəri, Qərbi Azərbaycan adlı o qədim türk diyarında bir nəfər yerli Türk əhali yoxdur. 1905-1907, 1918-1920, 1948-1953, 1988-ci illərdə Qərbi Azərbaycan türklərinə qarşı həyata keçirilən soyqırımları bu bölgəni bütünlüklə yadelli ermənilərin işğalı altına salmışdır.

Ermənilər bir çox tarixi abidələrimizi dağıdıb məhv etməklə yanaşı, bir sıra tarixi abidələrimizi də ermənileşdiriblər. Belə ki, Azərbaycan Qaraqoyunlu dövləti, Çuxur səd əmirlərinə aid İrəvanın 8 km-də Cəfərabad kəndində yerləşən möhtəşəm türbədir. Çox təəssüflər olsun ki, bu kəndində adını dəyişib Arqavanq qoyublar.

Qeyd olunan ərazidə bir neçə türbə və Azərbaycan türklərinə məxsus böyük qəbiristanlıq olmuşdur. İndi hamısı dağıdılıb. Zəngəzur dağlarında Baba Hacı türbəsi və onun ətrafında qəbiristanlıq olub, Zəngəzurun Ələyaz kəndində Əxi Təvəkkül türbəsini də misal göstərmək olar.

1915-ci ildə Zəngəzurda və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi, bunlarla yanaşı, Eçmiədzin qəzasında 36 prixod məscidi, Sürməli qəzasında 47 prixod məscidi, Şərur-Dərələyəz qəzasında 63 prixod məscidi, Novo Bayazid qəzasında 14 prixod məscidi, İrəvan qəzasında 54 prixod məscidi fəaliyyət göstərirdi. Qeyd etmək istəyirəm ki, prixod məscidləri VVAQ rolunu oynayırdı. Burada anadan olanların, ölənlərin, evlənənlərin, boşananların qeydiyyatı aparılırdı. Hər prixodun mollası var idi və o qubernator tərəfindən təyin olunurdu. Ümumiyyətlə, XIX əsrin sonunda İrəvan quberniyasında 233 şiə və 14 sünni məscid prixodları fəaliyyət göstərirdi.

Toponimlər konkret etnosun konkret coğrafiyada təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər əraziləri Azərbaycan türklərindən təmizlədikdə ilk növbədə yer adlarını dəyişdirirdilər. Demək olar ki, bu gün bütün toponimlər ermənileşdirilib.

İrəvan məscidlərinin İrəvan quberniyasının müxtəlif yerlərində vəqf əmlakları yerləşirdi. Bu, əsasən, torpaq sahələri, dükanlar idi. Arxiv sənədlərindən də göründüyü kimi, vəqf əmlaklarının sərhəd olduğu torpaqlar azərbaycan türklərinə məxsus idi. Bu da öz növbəsində bu regionda azərbaycan türklərinin çoxluq təşkil etdiyindən xəbər verir.

Mənbələrə əsasən, demək olar ki, 1919-cu ildə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycan türkləri əhalinin 72%-ni, Sürməli qəzasında 60,2%, Vedi-Basar mahalında 90% təşkil edirdi. Amma çox təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, bu abidələrin hamısı ermənilər tərəfindən dağıdılaraq məhv edilmişdir.

Bunlarla yanaşı, Pir Hüseyn türbəsi, Oxçu qalası, Səlim karvansarayı dağıdılmış, Urud abidələri kompleksi qoç heykəlləri dağıdılmış, digərlərini isə öz adlarına çıxmışlar.

Orta Şərqin mərkəz bölgəsi olan Azərbaycan tarix boyu bu coğrafiyada qoyulmuş mədəniyyətlərin və imperatorluqların mirasçısı və bu böyük mədəniyyətin tarixi daşıyıcısıdır. Lakin 100 ildir Erməni-Azərbaycam müharibəsi davam edir. Rusiya, həmçinin Anadolu-İran-Azərbaycan türklərini və coğrafiyasını bir-birinə bağlayan torpaqlarda tampon xristian dövləti qurdu. Məqsəd Türk-İslam coğrafiyasını bölmək, türk birliyinin qarşısını almaq, türkləri bu bölgədən yox etməkdir.

Bu gün Qərbi Azərbaycana yenidən sahiblənmək üçün mükəmməl siyasi-hərbi doktrinaya malik olmalıyıq və bu doktrinada hal hazırda mövcuddur. Bir çox tarixi-hüquqi sənədlərə istinad edərək Azərbaycan əzəli türk torpağı olan Qərbi Azərbaycanı yenidən geri qaytarmaq üçün iddia ilə çıxış etməlidir. 1919-cu ildə Azərbaycan Respublikasının əraziləri bütün Qafqaz ərazisinin 39%-ni təşkil edirdi.

Versal sülh konfransına (28.06.1919-ci ildə imzalanmış, 10.01.1920-ci ildə qüvvəyə minmişdir) təqdim olunan bu Azərbaycan torpaqları üzərində yüksəlmiş Azərbaycan Cümhuriyyətinin hüquqi ərazilərini indi biz iddia etməliyik. Bununla yanaşı, elmi-kütləvi təbliğat-təşviqat işləri həyata keçirilməlidir. Qərbi Azərbaycanın tarixən türk torpağı olması dünya ictimaiyyətinə sübut edilməlidir. Qərbi Azərbaycanda demoqrafik vəziyyət, mədəniyyət, arxeologiya, etnoqrafiya, toponim, hidronim və s. bağlı Beynəlxalq təşkilatlarda konfranslar təşkil edilməli, dünya araşdırmaçı alimləri bu işə cəlb edilməlidir.

Qərbi Azərbaycanın ermənileşdirilməsi və erməni dövlətinə çevrilməsi prosesi bütün təfərrüatı ilə izah olunmalıdır. Azərbaycanlılar öz torpaqlarına qayıdaraq bu dövlətin idarə olunmasında fəal iştirak etməlidirlər.

Ermənistan və Azərbaycan arasında gedən Qarabağ müharibəsi Azərbaycanın, başda cənab Ali Baş Komandan olmaqla qələbəsi ilə başa çatdı. Bu da Qərbi Azərbaycan məsələsinin tarixi-hüquqi aspektdə həll olunmasını sürətləndirdi.

Lakin heç bir şey işğal altında olan ərazilərin tarixi etnik mənsubiyyətini, o, ərazilərdə min illər boyu yaşamış etnosun izlərini tamamilə silib ata bilməz. Buna görə də, biz Cənubi Qafqazın yeni tarixi konsepsiyasını hazırlamalı və Azərbaycan tarixinin sovet

rus və erməni tarixçiləri tərəfindən saxtalaşdırılmasını dünya ictimaiyyətinə sübut etməliyik.

1988-ci ildən sonra kütləvi terrora məruz qalmış azərbaycanlılar Qərbi Azərbaycan ərazisini tərk etmək məcburiyyətində qaldılar. Bundan sonra bu ərazidə azərbaycanlılara məxsus olan maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıntılara, məhvə məhkum oldu.

Artıq orta əsr Azərbaycan hökmdarlarının fərmanları və arxiv sənədlərinə əsaslanaraq dünyaya sübut etməliyik ki, Cənubi Qafqazda xüsusilə də Qərbi Azərbaycanda heç bir erməni siyasi qurumu mövcud olmayıbdır. Ümumiyyətlə, son 200 ildə Azərbaycan xalqı və onun maddi-mədəniyyət abidələri ermənilər tərəfindən genosidə məruz qalmışdır.

Azərbaycan torpaqlarının işğalının ardınca kütləvi surətdə tarixi abidələr məhv olunur və yaxud ermənileşdirilir, yer adları dəyişdirilir. Nə qədər ki, Qərbi Azərbaycan işğal altındadır bu mənəvi genosid davam edəcəkdir.

ƏDƏBİYYAT

1. Ələkbərli, Ə. Qərbi Azərbaycan abidələri.
2. Mustafa, N. İrəvan məscidləri.
3. Nemətova, M. Ermənistanın yerləşdiyi ərazi Azərbaycanın tarixi ərazisidir.
4. Cəfərov, F. Naxçıvan qəza polisi (1828-1920-ci illər).

SUMMARY

Qahraman Behbudov
Rovshan Ismaılkhanlı

THE DESTRUCTION OF OUR NATIONAL-MORAL HERITAGE IN WESTERN AZERBAIJAN AND POLITICAL-LEGAL VIEW TO IT

In this article, from time to time the placement of Armenian families who were transferred from Iran and the Ottoman state to West Azerbaijan-the historical land of Azerbaijan, and the establishment of the Armenian state there, and later the ethnic cleansing of Armenians in these lands, and as a result, a political-legal view on the destruction of our national-material-spiritual culture existing in Western Azerbaijan was reflected.

Key words: *Western Azerbaijan, mosque, destruction, law, Armenian, monument, Armenianization, ethnography.*

SOYDAŞLARIMIZIN QƏRBİ AZƏRBAYCANA QAYIDIŞININ BEYNƏLXALQ-HÜQUQİ ƏSASLARI

İsmayıl QƏRİBLİ
ismayilgaribli@ndu.edu.az

Məryəm AZAD
Naxçıvan Dövlət Universiteti

2020-ci ilin 27 sentyabrında başlanmış İkinci Qarabağ Müharibəsinin yekunu olaraq Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. 19 sentyabr 2023-cü il tarixdə lokal xarakterli qısamüddətli antiterror əməliyyatları nəticəsində erməni silahlı qüvvələri tam təslim olmuş və separatçı rejimin dırnaqarası "təsisatları" özlərini buraxdıqlarını elan etmişlər. Bununla da cənab İlham Əliyevin rəhbərliyi ilə bütün ölkə üzrə Azərbaycan Respublikasının suverenliyi təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmiş və Proqram çərçivəsində 3 mindən çox məcburi köçkünün işğaldan azad edilmiş ərazilərdə yeni salınan və bərpa olunan yaşayış məntəqələrinə qayıdışı təmin olunmuşdur. Qeyd olunan məsələ Ermənistandan deportasiya olunmuş qaçqınların da öz tarixi torpaqlarına – Qərbi Azərbaycana qayıdışı məsələsini aktuallaşdırır.

Açar sözlər: *Qərbi Azərbaycan, ermənilərin köçürülməsi, Zəngəzur, deportasiya, qaçqın, qayıdış*

Giriş

Münaqişənin tarixi

Çar Rusiyasının himayəsi ilə erməni dövlətinin yaradılması, işğal edilmiş yeni torpaqlara ermənilərin İran və Türkiyədən köçürülməsi təsadüfi hadisə olmayıb, həyata keçirilən imperialist siyasətin qanunauyğun nəticəsi idi. Erməni-rus münasibətləri Rusiyanın Kazan (1552) və Həştərxanın (1556) işğalı, Türkiyə müharibələri ilə (1635-1639,1711,1768-1774, 1787-1791 və başqaları) genişlənmiş, onun Xəzər sahili torpaqları istila etmək cəhətləri ilə daha da möhkəmlənmişdir. Bu hadisələrin gedişi zamanı ermənilərin Rusiyaya köçürülməsi və burada erməni koloniyaları yaradılması başlanmışdır.

Bu işdə I Pyotrun erməni xalqına dövlət fərmanı (1724-cü il 10 oktyabr) böyük rol oynamışdır. Həmin fərmana görə Rusiyanın işğal etdiyi torpaqlara ermənilərin köçürülməsi və məskən salmaları üçün yerlər ayrılmasına razılıq verilmişdi. I Pyotrun bu siyasi xətti onun varisləri tərəfindən sonrakı bir əsr ərzində davam etdirilmişdir. 1804-1813-cü illər Rus-İran müharibəsində Rusiyanın qələbəsi və Azərbaycanı parçalayan "Gülüstan müqaviləsi" ermənilərin köçürülməsi və birləşdirilməsini bir daha qəti şəkildə irəli sürmüşdür. 1826-1828-ci illər Rus-İran müharibəsinin gedişində İrəvan tutulduqdan sonra bu plan həyata keçirilməyə başlanmışdır. Erməni katolikosu Nerses Aştaraketsi

köçürmə haqqında layihə hazırlamış, A.S.Qriboyedov da bu planın hazırlanması və həyata keçirilməsində böyük rol oynamışdır. 1828-ci il fevralın 10-da imzalanmış "Türkmənçay müqaviləsi"nin XV maddəsi ermənilərin köçürülməsini nəzərdə tuturdu [10].

Müəyyən hazırlıq tədbirləri həyata keçirildikdən sonra köçürmə başlamışdır. İrandan köçürülən ermənilərin sayı 40-50 min nəfər təşkil edirdi. 1828-1829-cu il rus-türk müharibəsinin gedişində və müharibədən sonra Türkiyədən də 90 min erməni köçürülmüşdü. İran, Türkiyə və digər Şərq ölkələrində ermənilərin Rusiyaya köçürülməsi bütün sonrakı dövr ərzində davam etdirilmişdi. Bu məqsədlə İran və Türkiyə ərazisində yaşayan 300 minə qədər erməni XIX əsrin birinci yarısında Azərbaycana köçürülmüş və İrəvan, Qarabağ, Naxçıvan, Zəngəzur, Dərələyəz, Ordubad, Vedibasar və digər ərazilərdə yerləşdirilmişdir.

Lakin ermənilərin Azərbaycan ərazilərinə köçürülmələrinə baxmayaraq, azərbaycanlılar bu ərazilərdə sayca ermənilərdən üstünlük təşkil edirdilər. Bunu tarixi mənbələrdə, hətta erməni və rus mənbələrində əks olunmuş statistik məlumatlar əyani şəkildə sübut edir.

12 mart 1828-ci il tarixdə İrəvan xanlığının yerinə Erməni vilayəti yaradılanda Qərbi Azərbaycanda 81749 müsəlman, 25131 erməni olmuşdur. V.A.Parsamyan yazır: "Rusiyaya birləşdirilənə qədər Şərqi Ermənistanın (indiki Ermənistan nəzərdə tutulur) 196155 nəfər əhalinin 57305 nəfərini və ya 33,8%-ni ermənilər, 84089 nəfərini və ya 49,7%-ni müsəlmanlar (azərbaycanlılar), 26911 nəfərini və ya 16%-ni kürdlər, 850 nəfərini və ya 0,5%-ni başqa millətlər təşkil edirdi. Birləşəndən sonra (1829-1831-ci illərin statistik məlumatı üzrə) 241112 nəfər olmuşdur. Rusiyanın tərkibinə birləşənə qədər İrəvan və Naxçıvan xanlıqları ərazisində 25000 erməni yaşayırdısa, Rusiyanın tərkibinə birləşəndən sonra onların sayı 825000 nəfərə çatmışdır" [6, s.88].

Z. Kirokodyanın 1932-ci ildə İrəvanda nəşr olunmuş "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında da qeyd edilir ki, İrəvan quberniyasının İrəvan, Eçmiəzdin, Yeni Bəyazid, Aleksandropol qəzalarında, Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur və Qazax-Dilican qəzalarında, Tiflis quberniyasının Lori-Pəmbək (Borçalı mahalı) qəzasında 2310 yaşayış məntəqəsindən 2000-i azərbaycanlılara məxsus olmuşdur [1, s.5].

"Kavkazski kalendar"ın salnamələrində verilən statistik məlumatlar sübut edir ki, Ermənistanın indiki ərazisində də əvvəllər azərbaycanlılar ermənilərdən xeyli çox olmuşdur. Məsələn, 1886-cı ildə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 154-ü azərbaycanlı kəndi (45,7 %), 91-i kürd kəndi (27,8%) və yalnız 81-i erməni kəndi (24,8%) olmuşdur [5, s.46].

1889-cu ildə Zəngəzur qəzasının azərbaycanlı əhalisi 1500 nəfər ermənilərdən çox olmuşdur. 1897-ci ildə isə Zəngəzurun əhalisi 142 min nəfər olmuşdur ki, onlardan 71,2 mini (50,1%) azərbaycanlı, 63,6 min nəfəri isə (44,8%) erməni olmuşdur (5, s.23). İrəvan quberniyasının 1920-ci ilədək Azərbaycanın tərkibində olan qəzalarında, xüsusilə İrəvan qəzasında azərbaycanlı əhalinin sayı xeyli çox olmuşdur. Məsələn, qəzada olan 99 min nəfərdən 62,6 mini azərbaycanlı (66%), 36,4 min nəfəri erməni (34%) olmuşdur. İrəvan quberniyasının Eçmiəzdin, Yeni Bəyazid, Sürməli qəzalarında isə azərbaycanlılar əhalinin üçdə birini təşkil etmişdir [4, s.22].

Ermənilərin İrandan, daha sonra isə Türkiyədən İrəvan xanlığının ərazisinə köçürülməsi, bu ərazidə demoqrafik vəziyyətə köklü dəyişikliklərə təsir etməsi və onun siyasi yönləri ilə bağlı N.Şavrovun fikirləri daha maraqlıdır. Bu üsulla Zaqafqaziyada, o cümlədən indiki Ermənistan ərazisində çarizmin yeritdiyi müstəmləkəçilik siyasətində Rusiyanın ermənilərdən məharətlə istifadə etdiyini N.Şavrov xarakterizə edərək yazır: "Biz müstəmləkəçilik fəaliyyətinə Zaqafqaziyada rus əhalisinin deyil, bizə yad olan xalqların (ermənilər nəzərdə tutulur) yerləşdirilməsindən başladıq... müharibədən (Rusiya-İran müharibəsi) sonrakı iki il ərzində 1828-ci ildən 1830-cu ilə kimi biz Zaqafqaziyaya İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan (azərbaycanlılardan) 2.000.000 manatlıq müsəlman (azərbaycanlı) sahibkarlarına məxsus torpaq satın alınmışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi) və Göyçə gölünün sahili həmin ermənilər tərəfindən məskunlaşdırıldı. Qeyri-rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200 mini ötüb keçdi". N.Şavrovun özü etiraf etdiyi kimi, "XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan 1 milyon 300 min nəfər ermənin 1 milyonundan çoxu ərazinin yerli sakinləri olmayıb, bizim tərəfimizdən (Rusiya dövləti tərəfindən) məskunlaşdırılmışdır" [3, s.39].

1916-cı ilin yanvarın 1-nə qədər indiki Ermənistan ərazisində azərbaycanlılar bölgədə yaşayan bütün əhalinin əsas hissəsini təşkil etmişdir. Belə ki, İrəvan qəzasında 74200 nəfər (48%), Zəngəzur qəzasında 119500 nəfər (53,3%), Eçmiədzin qəzasında 41300 nəfər (24,6%) və Yeni Bayazid qəzasında 507000 nəfər (29,2%) azərbaycanlı olmuşdur. Bu əyani surətdə sübut edir ki, XIX əsrdə və XX əsrin əvvəllərində indiki Ermənistan ərazisində azərbaycanlılar əksəriyyət təşkil etmişlər [2, s.27].

Buna görə də ermənilərin çoxluq təşkil etməsi məqsədilə azərbaycanlılara qarşı soyqırım siyasətinə əl atılmış, müxtəlif dövrlərdə Rusiyanın da dəstəyi ilə soydaşlarımızın deportasiyasına nail olunmuşdur. XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında qarşıya qoyduğu "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirməyə başlamışdılar.

Elmi ədəbiyyatda azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası 4 dövrə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərə aid edilir.

Belə ki, 1905-1907-ci illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır. Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqələrini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşlər. Ermənilər 200 mindən artıq azərbaycanlını uşaq, qadın, qoca fərq qoymadan qətlə yetirməklə, həmin ərazilərdə çar Rusiyasının onlara vəd etdiyi erməni dövlətini qurmaq üçün etnik təmizləmə aparmışlar.

1917-ci ildə Rusiyada baş verən fevral və oktyabr hadisələrindən sonra "Daşnaksütyun" partiyası və Erməni Milli Konqresi daha geniş fəaliyyətə başlamışdı. İlk addım kimi özlərini Qafqazda bolşevik hakimiyyətinin qanuni nümayəndələri hesab edən maskalanmış daşnaklar, əsasən Türkiyədən qaçıb gələn ermənilərı silahlandıraraq sovet hakimiyyəti qurmaq adı altında Bakıda hakimiyyəti ələ keçirmişdilər. Lenin tərəfindən 1917-ci ilin dekabrında Qafqaza fövqəladə komissar təyin edilən daşnak S. Şaumyan azərbaycanlıların kütləvi qırğınının təşkilatçısı və rəhbərinə çevrilmişdi. Erməni silahlı qüvvələri tərəfindən 1917-ci ilin əvvələrindən 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197 kənd, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılmış, digər bölgələrdə 60 yaşayış məskəni məhv edilmiş, yandırılmış və viran qoyulmuşdur. 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşamış yüz minlərlə azərbaycanlı doğma torpağından didərgin salınmış, işgəncələrə məruz qalmış, öldürülmüşlər. Bu rəqəmi Z. Kirokodyan özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında təsdiq edərək yazır ki, "1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur". Bu dövrdə Quba qəzasında 122, Şamaxı qəzasında 72, Zəngəzur qəzasında 115, Qarabağda 157, İrəvan quberniyasında 211, Qars vilayətində 92 yaşayış məntəqəsi yandırılmış, dağıdılmış və talan edilmişdir. 1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiəzdin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmişdir [1, s.5].

1943-cü il Tehran konfransı zamanı Sovet-İran münasibətləri müzakirə edilərkən, erməni diasporu SSRİ Xarici İşlər naziri V.Molotovdan İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etmişdir. Molotov Tehranda məsələni SSRİ KP MK-nın sədri İ.Stalinə çatdırmış və ermənilərin köçürülməsinə razılıq verilmişdir. Elə məhz bunun nəticəsi olaraq İ.Stalin iki fərman imzalamışdır. Sovet hökuməti dövründə azərbaycanlıların indiki Ermənistandan dövlət səviyyəsində, özü də SSRİ adlanan nəhəng imperiya tərəfindən deportasiyası köçürmə adı ilə həyata keçirilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı, 1948-ci il martın 10-da əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarlarına əsasən 150 min azərbaycanlı tarixi-etnik torpaqlarından - Ermənistandan deportasiya edilmişdir. Bu qərarın əsas mahiyyəti xaricdən köçürülən ermənilərı indiki Ermənistan ərazisində yerləşdirməkdən ibarət olmuşdur. 1948-ci il qərarının 11-ci maddəsində göstərilirdi: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdə və yaşayış evlərində xaricdən gələn ermənilərı yerləşdirmək üçün istifadə etsinlər". 1948-ci il qərarının nəticəsi olaraq İrəvan şəhərində fəaliyyət göstərən Ermənistan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi, İrəvan Pedaqoji Texnikumu bağlanmış, azərbaycanlılar yaşayan Qarabağlar rayonu ləğv edilmişdi. Azərbaycanlılar Ermənistanın bütün rayonlardan, xüsusilə Vedi

(Ararat), Zəngibasar (Masis), Ellər (Abovyan), Qafan, Paşalı (Əzizbəyov, Vayk), Keşişkənd (Yeğeqnadzor), Qəmərli (Artaşat), Əştərək, Üçkilsə (Eçmiəzdin), Basarkeçər (Vardenis), Axta (Razdan) rayonlarından, İrəvan şəhərindən, Dərəçiçəkdən köçürülməyə məruz qalmışdılar [3, s.172].

1988-ci ilin fevral ayından isə indiki Ermənistan dövləti azərbaycanlılara qarşı açıq mübarizəyə keçmiş və onların tarixi-etnik torpaqlarından deportasiya etməyə başlamışdı. Beləliklə, azərbaycanlıların qovulması prosesinin sonuncu mərhələsi həyata keçirilmişdi. İlk qırğınlar, talanlar 1988-ci ilin fevral ayında Zəngəzurun Qafan bölgəsində baş vermişdi. Noyabrın 27-dən demək olar ki, eyni vaxtda Ermənistanın bütün ərazisində mühasirə edilmiş kəndlərə basqın edilmişdir. "Türksüz Ermənistan" uğrunda mübarizə aparan Ermənistan dövləti, ideoloqları, eləcə də yaxın və uzaq xaricdəki havadarları etnik təmizləmə əməliyyatını 1991-ci il avqustun 8-də başa çatdırmışdılar. Həmin gün Meğri rayonunun ən böyük azərbaycanlı kəndlərindən biri - Nüvədi kəndi soyqırıma məruz qalaraq kəndin köklü sakinləri olan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdular. Beləliklə, indi Ermənistan adlanan Qərbi Azərbaycanda azərbaycanlılara qarşı etnik təmizləmə prosesi tamamlanmışdır[3, s.182].

Etnik təmizləmə nəticəsində Ermənistanın 185 yaşayış məntəqəsi boşaldılmış, 250 mindən artıq azərbaycanlı və 18 min kürd öz ev-eşiyindən zorla qovulmuş, 217 azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir.

Deportasiyaya məruz qalmış şəxslərin geri qaytarılmasının beynəlxalq-hüquqi tənzimlənməsi

Deportasiya məsələsi kifayət qədər önəmli məsələ olduğundan, dövlətlər bunu nəinki milli qanunvericilik aktları ilə, hətta beynəlxalq müstəvidə qəbul edilən aktlarla da tənzimləməyə çalışırlar. Qovulmuş şəxslərin öz doğma yurdlarına qayıtmaq hüququ müxtəlif mötəbər beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Beynəlxalq hüquq qaçqın və köçkünlərlə bağlı məsələlərin hüquqi əsaslarını çoxsaylı rəsmi sazişlər, konvensiyalar və digər təcrübələrlə müəyyən edir. Belə ki:

-İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 13-cü maddəsinin 2-ci bəndinə görə "hər bir insan öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir".

- BMT-nin Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli Qətnaməsi ilə qəbul edilmiş Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinin 4-cü bəndinə əsasən, "heç kim öz ölkəsinə gəlmək hüququndan özbaşınalıqla məhrum edilə bilməz".

-Dördüncü Cenevrə Konvensiyası çıxarılmış şəxslərin sözügedən ərazidə hərbi əməliyyatlar dayandırıldıqdan sonra öz evlərinə qaytarılmasını nəzərdə tutur.

Ümumilikdə könüllü qayıdış hüququ bəzi digər müqavilələrdə, məsələn, Panmuncom Sülh Müqaviləsi və Afrikada qaçqın problemlərini tənzimləyən Konvensiyada da tanınır.

Regional insan hüquqları müqavilələrində də oxşar müddəalar nəzərdə tutulur. Məsələn, Avropa insan hüquqları Konvensiyasına 4-cü Protokolun 3-cü maddəsində, İnsan hüquqları üzrə Amerika Konvensiyasının 22-ci maddəsinin 5-ci bəndində, İnsan və xalqların hüquqları üzrə Afrika Xartiyasının 12-ci maddəsinin 2-ci bəndində hər bir şəxsin öz ölkəsinə qayıtmaq hüququ nəzərdə tutulur.

Qaçqınların və köçkünlərin geri qayıtmaq hüququ, həmçinin Abxaziya (Gürcüstan), Bosniya və Herseqovina, Filippin və Tacikistan kimi beynəlxalq olmayan silahlı münaqişələrə aid olan çoxsaylı rəsmi bəyanatlarla dəstəklənir. Bu hüquq, məsələn, Abxaziya (Gürcüstan), Əfqanıstan, Bosniya və Herseqovina, Xorvatiya, Koreya, Liberiya, Sudan və Tacikistandakı münaqişələrlə əlaqədar qaçqın və köçkünlərlə bağlı bir sıra sülh sazişləri və razılaşmalarla da tanınır.

BMT-nin Təhlükəsizlik Şurası, BMT-nin Baş Məclisi və BMT-nin İnsan Hüquqları Şurası dəfələrlə qaçqın və köçkünlərin təhlükəsiz şəraitdə öz evlərinə sərbəst qayıtmaq hüququnu xatırladıb. Onların könüllü və təhlükəsiz qayıdışı və reinteqrasiyasını asanlaşdırmaq üçün tədbirlər görmək vəzifəsi Afrikada qaçqın problemlərini tənzimləyən Konvensiyada və Daxili köçkünlük üzrə Rəhbər Prinsiplərdə nəzərdə tutulmuşdur. Xüsusilə BMT-nin Təhlükəsizlik Şurası və BMT-nin Baş Məclisi çoxsaylı hallarda həm beynəlxalq, həm də beynəlxalq olmayan silahlı münaqişələrin tərəflərini məcburi köçkünlərin könüllü və təhlükəsiz qayıdışına və reinteqrasiyasına kömək etməyə çağırmışdır. BMT-nin Baş Katibi və onun Məcburi Köçkünlər üzrə Xüsusi Nümayəndəsi köçkünlərin könüllü və təhlükəsiz qayıdışına və reinteqrasiyasına kömək etmək öhdəliyinə əməl etmək üçün bir sıra münaqişələr kontekstində görülmüş və ya görüləcək tədbirlər haqqında məlumat vermişlər [9].

Geri qayıdanların könüllü və təhlükəsiz qayıtması və reinteqrasiyasını asanlaşdırmaq üçün tədbirlər həyata keçirilməlidir. Köçkünlərin geri qayıtması və ya köçürülməsi üçün fiziki yardım çoxlarının yalnız ilk addımıdır. Köçkünlərin qayıdış mühiti onların qalması və həyatlarını yenidən qurması üçün kifayət qədər rahat olmalıdır. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının reinteqrasiya siyasəti aşağıda təqdim olunan əsas prinsip və təcrübələrə əsaslanır:

A. Milli məsuliyyət və iştirak: BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının reinteqrasiya siyasəti geri qayıdanların, istər keçmiş qaçqınlar, istərsə də məcburi köçkünlərin, yaşadıqları dövlətin vətəndaşları olması və bu dövlətin milli və yerli hakimiyyət orqanlarının onların rifahı üçün əsas məsuliyyət daşıması prinsipinə əsaslanır. Vətəndaşlarının hüquq və mənafelərini qorumaq üçün milli potensialın bərpası reinteqrasiya prosesi üçün çox vacibdir. Eyni zamanda, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı reinteqrasiya prosesində digər milli və yerli aktorların, o cümlədən QHT-lər, icma əsaslı təşkilatlar və vətəndaş cəmiyyəti institutlarının oynaya biləcəyi mühüm rolu qəbul edir.

B. Hüquqlar, ədalət və barışıq. Məcburi köçkünlərin və qaçqınların qayıtması və reinteqrasiyası daha geniş sülh quruculuğu prosesi ilə mühüm əlaqələrə malikdir. Məcburi köçkünlük silahlı münaqişələrin və insan hüquqlarının pozulmasının ən bariz təzahürlərindən biridir. Sülh sazişləri reinteqrasiya üçün zəmin yaradır. Könüllülük əsasında və insan hüquqlarına tam hörmətlə öz evlərinə qayıdan qaçqınlar və məcburi köçkünlər çox güman ki, reinteqrasiya və sülh quruculuğu proseslərinə müsbət təsir göstərəcəklər.

C. Geniş iştirak və icma əsaslı yanaşmalar. Qaçqınlar, məcburi köçkünlər və yerli icmalar reinteqrasiya prosesinin əsas iştirakçılarıdır.Qayıdan qaçqınlara və məcburi köçkünlərə reinteqrasiya prosesini təşviq etmək səyləri çərçivəsində ədalətli münasibət təmin edilməlidir.

D. Vəziyyətin təhlili: Reinteqrasiya prosesinə "bir ölçü hamıya uyğundur" yanaşması mümkün deyil. Müəyyən bir kontekstdə bunu formalaşdıran müxtəlif amillər aşağıdakıları əhatə edə bilər:

- yerdəyişmənin müddəti və şərtləri;
- yerdəyişmə ilə nəticələnən münaqişənin xarakteri;
- qayıdış bölgəsində dağıntıların dərəcəsi;
- milli və yerli hakimiyyət orqanlarının potensialı;
- humanitar təşkilatların və ya inkişaf aktorlarının mövcudluğu və ya olmaması;
- sülhməramlı qüvvələrin mövcudluğu və ya olmaması.

Milli və yerli hökumətlər öz vətəndaşlarının reinteqrasiyası üçün əsas məsuliyyət daşıdıqlarına görə, belə məlumatların toplanması və təhlili və ondan planlaşdırma, proqramlaşdırma və resursların səfərbər edilməsi üçün əsas kimi istifadə edilməsini asanlaşdırmaq üçün səlahiyyətli orqanlara dəstək göstərilməlidir.

E. Erkən hazırlıq və planlaşdırma. Hökumətlər və digər tərəfdaşlarla birlikdə qayıdış və reinteqrasiya üçün erkən hazırlıq və planlaşdırma çox vacibdir. Qaçqınların köçürülməsinin fövqəladə mərhələsində belə, qeydiyyat vasitələri artıq icma mənbələri və mənşə yerləri haqqında həyati vacib məlumatları toplamaq üçün istifadə edilə bilər. Hər hansı bir reinteqrasiya ssenarisinin xüsusiyyətlərini nəzərə alaraq, istər milli, istərsə də yerli hakimiyyət orqanları, inkişaf agentlikləri, humanitar tərəfdaşlar və ya digər aktyorlar tərəfindən sürətli bərpa, inkişaf, insan hüquqlarının qorunması və barışıq üçün mövcud və ya planlaşdırılan təşəbbüsləri müəyyənləşdirmək üçün qayıdış bölgələrindəki mövcud vəziyyətin diqqətlə təhlili lazımdır.

F. Praqmatizm və çeviklik. İstənilən reinteqrasiya əməliyyatında BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı əvvəldən ən uyğun olduğu, əlavə dəyər gətirə biləcəyi və əsas məsuliyyəti üzərinə götürəcəyi müdaxilələri aydın şəkildə təsvir etməyə çalışacaq. Təsiri maksimuma çatdırmaqla yanaşı, bu yanaşma BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının fəaliyyətinin proqnozlaşdırılmasını artıracaq və fəaliyyətin vaxtında və məsuliyyətlə dayandırılması strategiyalarının həyata keçirilməsini asanlaşdıracaqdır. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının reinteqrasiyasının planlaşdırılması və proqramlaşdırılmasına müəyyən dərəcədə çeviklik daxil ediləcək ki, idarəetmə gözlənilməz hadisələrə və yerdəki dəyişən reallıqlara, o cümlədən başqalarının öhdəliklərini səmərəli və vaxtında yerinə yetirə bilməməsinə cavab verə bilsin.

G. Bərpa proqramları və maliyyələşdirmə. Geri dönənlərin yaşadıqları ərazilərin yerli və ərazi əsaslı bərpa proqramlarına, eləcə də milli inkişaf planlarına və proqramlarına daxil edilməsinin təmin edilməsi mühüm məqsəddir. Qayıdış, reinteqrasiya, erkən bərpa, inkişaf və sülhməramlı fəaliyyətlərin səmərəli şəkildə sinxronlaşdırılmasını təmin etmək üçün humanitar agentliklər və inkişaf tərəfdaşları, regional banklar, regional təşkilatlar, ikitərəfli donorlar və digər müvafiq aktorlar arasında uzunmüddətli strateji tərəfdaşlıq əlaqələrinin qurulması və möhkəmləndirilməsi zəruridir. Münaqişədən sonrakı keçid və bərpa problemlərini həll etmək üçün yaradılmış müxtəlif çoxtərəfli maliyyələşdirmə alətləri, o cümlədən birləşdirilmiş maliyyələşdirmə tədbirləri təşkilatlara maliyyə mənbələrini diversifikasiya etmək üçün yeni imkanlar təqdim edir. Bu cür vəsaitlər

donorlar və maliyyə institutları tərəfindən konkret reinteqrasiya vəziyyətində tələb olunan mühüm müdaxilələrin təmin edilməsi üçün yönəldilə bilər [7, s.8-12].

Deportasiya olunmuş şəxslərin öz torpaqlarına geri qaytarılmasının Xorvatiya təcrübəsi

Deportasiya insanların öz doğma torpaqlarından, ata-baba yurdlarından uzaq salmış, onları istər maddi, istərsə də mənəvi baxımdan sıxıntılara məruz qoymuşdur. Lakin müasir dövrdə ölkəmizdə baş verən proseslər bunu deməyə imkan verir ki, tarixi ədalət bərpa olunur. Uğurlu hərbi əməliyyatların nəticəsi olaraq xalqımız əbədi torpaqlarımıza qayıtmağı səbirsizliklə gözləyir. Tarixə nəzər yetirdikdə, deportasiyadan əziyyət çəkən Xorvatiya qaçqınları və köçkünlərinin 1999-cu ildə öz yerlərinə qayıtmasını görə bilərik. Belə ki, Xorvatiya hökuməti Yuqoslaviyadakı müharibələr zamanı Xorvatiyadakı evlərini tərk etmiş qaçqın və köçkünlərin azad şəkildə könüllü olaraq öz evlərinə qayıtmaq və onların mülklərinin bərpa hüququnu qeyd-şərtsiz tanımışdır. Təqribən 75 min nəfər geri dönmüşdür.

Keçmiş Yuqoslaviya bölgəsində uzunmüddətli həll axtaran qaçqınlar və köçkünlər haqqında BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının hesablamalarına görə, 1 iyul 1998-ci il tarixinə Yuqoslaviya Federativ Respublikasında Xorvatiyadan 330500 qaçqın, o cümlədən Xorvatiya Dunay bölgəsindən 50000 nəfər və Bosniya və Herseqovinada Xorvatiyadan olan 40000 qaçqın var idi. Xorvatiyanın özündə Bosniya və Herseqovinadan təxminən 34500, Yuqoslaviya Federativ Respublikasından 500 qaçqın və 81500 məcburi köçkün var idi.

Xorvatiya Parlamenti tərəfindən 26 iyun 1998-ci ildə qəbul edilmiş köçkünlərin, qaçqınların və köçürülmüş şəxslərin qaytarılması və yerləşdirilməsi Proqramını müşayiət edən hesabata əsasən, 4 aprel 1998-ci ildə Xorvatiyada 94 796 məcburi köçkün və xaricdəki 42000 Xorvatiya qaçqını 1998-ci ilin may ayına qədər sayılmışdı. Bundan əlavə, hesabatda həmin tarixdə Xorvatiyanı tərk edən 283 000 nəfər və 109 000 "azad edilmiş ərazilərə qayıdanlar" qeydə alınmışdı.

27 aprel 1998-ci ildə Xorvatiya Hökuməti "Xorvatiyanı tərk etmiş şəxslərin fərdi qaydada geri qaytarılması Prosedurunu" təqdim etdi. Bu, Xorvatiyanı "könüllü olaraq" tərk etmiş və qanunla müəyyən edilmiş prosedur vasitəsilə Xorvatiya vətəndaşlığına sahib olan şəxslərin fərdi qaydada Xorvatiyaya qayıtmaq hüququna malik olması prinsipini ortaya qoyur. 26 iyun 1998-ci ildə Xorvatiya Parlamenti çoxdan vəd edilmiş "Köçkünlərin, qaçqınların və köçürülmüş şəxslərin qayıtması və yerləşdirilməsi Proqramı"nı qəbul etdi. Gördüyümüz kimi, bu Proqram 1951-ci il Cenevrə Konvensiyasına və BMT-nin digər müvafiq sənədlərinə uyğun olaraq bütün Xorvatiya vətəndaşlarının və qaçqın hesab edilə bilən bütün kateqoriyalı şəxslərin qeyri qayıtmaq hüququnu müəyyən edir. Proqramda bildirilirdi ki, qayıdış hökumət tərəfindən həm mərkəzi, həm yerli səviyyədə fəal şəkildə dəstəklənəcək.

Avropa Şurasının Parlament Assambleyası keçmiş Yuqoslaviyadakı müharibələr zamanı Xorvatiyadaki evlərini tərk etmiş qaçqın və köçkünlərin könüllü olaraq sərbəst şəkildə öz evlərinə qayıtmasını və onların əmlaklarını geri almaq hüququnun Xorvatiya hökuməti tərəfindən tanınmasını təqdir etmişdi. BMT-nin Qaçqınlar üzrə Ali

Komissarlığının təsdiq etdiyi Xorvatiya Hökumətinin son statistikasına (5 mart 1999-cu il) əsasən, 30474 Xorvatiya serbi Yuqoslaviya Federativ Respublikasından və Bosniya və Herseqovinadan, 26039 Xorvatiya serbi isə Dunay Bölgəsindən Xorvatiyanın digər hissələrinə və 32 688 etnik xorvat məcburi köçkün isə həmin bölgəyə qayıtmışdır. Bundan başqa, müharibə başa çatdıqdan sonra keçmiş Yuqoslaviya regionundakı digər ölkələrdən 15000-ə yaxın qaçqın Xorvatiyaya geri dönmüşdür [8].

Nəticə

Göründüyü kimi, Cənubi Qafqazın Rusiyanın əsarətinə keçməsindən öz məqsədləri üçün istifadə edən ermənilər sonrakı dövrlərdə mütəmadi olaraq bu ərazilərdə tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini həyata keçirmişdilər. Ermənilər öz havadarlarının köməyi ilə XX əsrdə azərbaycanlıları 4 dəfə - 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və 1988-1991-ci illərdə soyqırımı və etnik təmizləmələrə məruz qoymuşdular. 1988-1991-ci illərdə isə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Bu hadisələrdən sonra indiki Ermənistanda Azərbaycan xalqının tarixi ilə sıx surətdə bağlı olan, azərbaycanlıların tarixən yaşadıqları kəndlərin adlarını dəyişdirməklə mənəvi soyqırım başa çatdırılmışdır. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır.

Bu tarixi faciələrə vaxtında siyasi-hüquqi qiymət verilməmişdir. Yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu tarixi ədalətsizliyə, faciələrə siyasi-hüquqi qiymət vermiş və bununla bağlı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır.

Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasət Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi vətənlərinə qayıdışı üçün əlverişli şərait yaratmışdır. Azərbaycan Respublikasının Ermənistanın hərbi hücumu və işğalına qarşı 2020-ci ildə apardığı özünümüdafiə əməliyyatının qələbə ilə başa çatması, 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatları tarixi ədalətin üzə çıxmasına səbəb olmuşdur. 44 günlük Vətən müharibəsinin ardından işğaldan azad olunmuş regionlarda həyata keçirilən tədbirlər, uzun illər boyu dağıntılara məruz qalmış torpaqlarımızın bərpasına, həmvətənlərimizin öz evlərinə qovuşmasına əhəmiyyətli təsir göstərmişdir. Bu isə Ermənistandan deportasiya olunmuş soydaşlarımızın tarixi vətənlərinə qayıdışı üçün böyük ümidlər yaratmışdır.

Bu məqsədlə 2022-ci il 3 avqustda "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin ümumi yığıncağında cəmiyyət öz adını dəyişərək "Qərbi Azərbaycan İcması" adlanmağa başlandı. İcma 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur. 1988-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan

hesablanıb və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər birinin ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanmasını davam etdirir. İcma tərəfindən **"İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyası" hazırlanıb.**

Repatriasiya etmiş azərbaycanlılar qayıtdıqdan sonra ilk dövrlər humanitar yardıma, sonra uzunmüddətli sosial və iqtisadi inkişaf üçün reinteqrasiya və reabilitasiya proqramına və yardımlara ehtiyac duyacaqlar. İcmanın əsas məqsədlərindən biri də məhz bunun təmin olunmasıdır. İcma geriyə qayıtma hüququnun beynəlxalq hüququn və insan hüquqlarının ali prinsipi olmasından çıxış etməklə bərabər bu prosesin asan olmayacağını da nəzərə alır. O, repatriasiya prosesinin bütün mərhələlərində mərkəzi rol alacaq və bu proses başa çatdıqdan sonra da öz fəaliyyətinə davam edəcəkdir. Lakin onun missiyası təkcə qayıdış məsələsi ilə məhdudlaşmır. İcma əhali öz vətəninə qayıtdıqdan sonra da təşkilat kimi öz fəaliyyətini, o cümlədən orada yaşayacaq azərbaycanlıların maraqları, hüquqları, inkişafı və təhlükəsizliyinin təmin edilməsi üzrə mütəşəkkil səylərini, bu məqsədlə, Azərbaycan Respublikası, xarici dövlətlər və beynəlxalq təşkilatlar, eləcə də Ermənistan hökuməti ilə və Ermənistan ictimaiyyəti ilə dialoq və qarşılıqlı fəaliyyətini davam etdirmək niyyətindədir.

Ümid edirik ki, deportasiya olunmuş soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı prosesinə tezliklə başlanılacaqdır. Bunu həm tarixi ədalət, həm də beynəlxalq hüququn hamılıqla qəbul edilən prinsipləri tələb edir.

ƏDƏBİYYAT

1. Əhmədov, E. Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. "Xalq qəzeti", – 2014. – 3 aprel. № 65, – s.5.
2. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. S.Əsədov. – Bakı: Gənclik, – 1995. – 464 s.
3. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. İbrahim Bayramov. – Bakı: – 2011. – 288 s.
4. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Arzumanlı V., Mustafa N. – Bakı: Qartal, – 1998. – 280 s.
5. Torpağın köksündə tarixin izləri. Axundov A.A. – Bakı: Gənclik, – 1983. – 183 s.
6. История армянского народа. Ереван: 1801-1900 гг. кн. I., Парсамян В.А. – Аястан, – 1972. – 398 стр.
7. UNHCR'S Role In Support Of The Return And Reintegration Of Displaced Populations. August 2008) 15 p.
8. https://assembly.coe.int/nw/xml/XRef/X2H-Xref-ViewHTML.asp?FileID=8686&lang=EN
9. https://ihl-databases.icrc.org/en/customary-ihl/v1/rule132
10. https://www.virtualkarabakh.az/az/new-item/16/112/ermenilerin-qarabaga-kocurulmesi.html

SUMMARY

Ismail Garibli, Maryam Azad

INTERNATIONAL LEGAL BASIS OF RETURN OF OUR COMPATRIOTS TO WEST AZERBAIJAN

Since the issue of deportation is quite important, the states are trying to regulate it not only by national legislative acts, but also by acts adopted internationally. The right of expelled persons to return to their native lands is reflected in various authoritative international documents. International law establishes the legal basis for issues related to refugees and displaced persons by numerous official agreements, conventions and other practices.

At present, the successful policy pursued by the president of the Republic of Azerbaijan Mr. Ilham Aliyev has created favorable conditions for the return of our compatriots from western Azerbaijan to their historical homeland. The victory of the self-defense operation of the Republic of Azerbaijan against the military attack and occupation of Armenia in 2020 and the anti-terrorist operations carried out in 2023 have led to the disclosure of historical justice. The measures implemented in the regions freed from occupation after the 44-day Patriotic War had a significant impact on the restoration of our lands, which were destroyed for many years, and on the return of our compatriots to their homes. This has created great hopes for the return of our compatriots deported from Armenia to their historical homeland.

Key words: *Western Azerbaijan, resettlement of Armenians, Zangezur, deportation, refugee, return*

KARS ANLAŞMASINDAN ŞUŞA BEYANNAMESİNE (HUKUKİ VE POLİTOLOJİ OLAYLAR VE ONLARIN BÖLGE İÇİN ÖNEMİ)

Atilla ÖZTÜRK
atillahakan593@gmail.com
Naxçıvan Dövlət Universiteti

Türkiyə ilə Ermenistan, Azərbaycan və Gürcüstan arasında Dostluq müqaviləsi kimi tanınan Qars müqaviləsi mövzusunda giriş, birinci, ikinci, üçüncü və nəticə hissədən ibarət olan məqalədə Qars müqaviləsinə gətirən zaman dilimi və hadisələr, Qars müqaviləsinin imzalanması zamanı yaşanan hadisələr, müqavilənin regiona təsirləri, Azərbaycan, Gürcüstan və Ermənistan mətbuatında müqavilənin əks-sədaları, müqavilədən sonrakı dövürdə hüquqi və siyasi hadisələr, müqavilə sonrası regionun inkişafı və sülhün bərqərar edilməsi üçün əhəmiyyət kəsb edən hadisələr nəzərdən keçirilmişdir. Eyni zamanda 10 noybr Azərbaycan, Ermənistan və Rusiya Federasiyası arasında imzalanmış üç tərəfli Bəyanat, 15 iyun Azərbaycan və Türkiyə Respulikaları arasında imzalanmış Şuşa Bəyannaməsi, Türkiyə və Azərbaycanın iqtisadiyyat, ticarət, müdafiyə və müdafiyə sənayesi sahəsində ortaq anlaşmalar, Pakistan, Əfqanıstan, İran və digər dövlətlərlə qurulmuş və qurulması nəzərdə tutulan platformlar ətraflı şəkildə araşdırılmışdır.

Regiondakı hadisələrin başlanğıc tarixinin böyük bir hissəsinin tarixi Qars müqaviləsinin təsirlərindən doğulduğu, Qars müqaviləsinin imzalanması nəticəsindəTürkiyə dövlətinin regionda böyük güc olması, Azərbaycanda və Güney Qafqazda Türkiyənin mövcud olmasının sözdə deyil, əməldə olması məsələləri əhatəli olaraq yerli və xarici mənbələrdən araşdırılmış, Qars müqaviləsinin doğurduğu hüquqi və siyasi hadisələrələ bağlı əhatəli araşdırma aparılmışdır.

Qars müqaviləsivə Şuşa Bəyannaməsinin ortaq xüsusiyyətləri və bəhs edilən müqavilənin regiona təsirləri və regiondan kənar ölkələrə təsirləri ilə bağlı tezislərə yer verilmişdir. Qars müqaviləsinin tarixi xüsusiyyətlərindən əlavə, onun hüquqi və siyasi əhəmiyyəti və 100 il boyunca səbəb olduğu hadisələr ələ alınmışdır.

Açar sözlər: *Qars, Şuşa, Beyanname, Anlaşma*

Giriş

Hukuki ismi "Türkiye ile Ermenistan, Azerbaycan ve Gürcistan Arasında Dostluk Antlaşması" olan ve halen kısaca, imzalandığı kente atfen, "Kars Antlaşması" olarak bilinen 13 Ekim 1921 tarihli Antlaşma yirmi madde ve üç ekten oluşmaktadır. Bunlar arasında bölge ve Azerbeycan için siyasi yönden özel önem arz eden başlıca hususlar kanımızca şunlardır: (5. S41-47)

1. Taraflarca tanınmayan antlaşmaların geçersiz sayılması
2. Türkiye için kapitülasyon usulünün geçersiz olduğunun belirtilmesi
3. Nahcivan'ın Azerbaycan'ın himayesinde bir özerk bölge olması
4. Boğazların tüm ulusların ticaretine açılması

Tarafların tanımadığı (veya reddettiği) anlaşmaların geçersiz sayılması konusunda 21-ci asrın hukuk literetüründe de hukuksal yönden bir sorun bulunmamaktadır. Ancak, gerek Ermenistan kamuoyunda gerekse de Ermenistan Diasporasında zaman zaman Sevr

Antlaşmasının geçerli olduğuna ilişkin iddiaların, Ermenistan-Türkiye sınırlarını da saptayan 4. madde ve Ek.1'in yanında ve Kars Antlaşmasının 1. ve özellikle 2. maddesi karşısında, hukuken bir değeri bulunmamaktadır.

Kars Antlaşmasını dolaylı olarak sorgulayan belgelerin başında, Ermenistan'ın bağımsızlığını ilân etmesinden yaklaşık bir yıl önce, 23 Ağustos 1990 tarihinde, kabul ettiği Bağımsızlık Bildirgesi gelmektedir. Bu Bildirgenin 11. maddesinin şöyledir. "Ermenistan Cumhuriyeti 1915 yılında Osmanlı Türkiye'sinde ve Batı Ermenistan'da vuku bulmuş olan Ermeni soykırımının uluslararasında tanınması görevini destekler". Ermenistan hariç, diğer ülkelerin coğrafya kitaplarında ve atlaslarda bulunmayan "Batı Ermenistan" deyimi Ermeni milliyetçileri için Doğu Anadolu'yu ifade etmektedir.

1995 yılında kabul edilen Ermenistan Anayasasının giriş bölümünde Bağımsızlık Bildirgesi'nde yer alan Ermenistan Devleti temel ilkelerinin ve milli emellerin Ermenistan Halkı tarafından esas olarak kabul edildiği kayıtlıdır. Böylece Bağımsızlık Bildirgesi'nde yer alan hususlar anayasal bir nitelik kazanmış, Doğu Anadolu Batı Ermenistan olduğu, dolaylı olarak, Ermenistan Anayasasında da teyit edilmiş ve böylelikle iki ülke arasındaki sınır ve dolayısıyla Kars Antlaşmasının en azından 4. maddesi geçersiz kılınmaya çalışılmıştır. Ancak bu husus açık seçik hiçbir Ermenistan devlet yetkilisi tarafından dile getirilmemiştir.

Ülkelerin toprak bütünlüğüne saygı Birleşmiş Milletler'in en önemli ilkelerinden biridir. Ayrıca, esas itibariyle toprak talepleri nedeniyle, iki dünya savaşı yapılmış olan zamanımızda bir ülkeden toprak istemek genelde kabul görmemekte ve talep eden ülkeler, başta Birleşmiş Milletler olmak üzere, uluslararası kuruluşlarda güç duruma düşmekte ve çok kere itibarları zedelenmektedir. Ayrıca toprak talebinde bulunulan ülkenin bunu "casus belli" (savaş nedeni) olarak kabul etmesi olanağı da mevcuttur. O nedenledir ki Ermenistan Hükümetleri, Karabağ'ı ele geçirmiş olmalarına rağmen, bu bölgenin Ermenistan'a ilhak edilmesini değil bağımsız bir devlet oluşturmasını savunmuş ve savunmaktadırlar. Yine, "Büyük Ermenistan" düşü hala canlı olmasına rağmen, Ermenistan Hükümet yetkilileri, Karabağ hariç, diğer toprak taleplerini kendiliklerinden dile getirmemekte ve fakat bazı siyasi partilerin ve basının bu yöndeki taleplerine de karşı çıkmamaktadırlar. Diğer yandan Ermenistan hükümet yetkililerinin toprak talepleri hakkındaki sorulara cevap verme zorunda kaldıkları hallerde bocaladıkları da görülmektedir. Biz bu konuda Ermenistan devlet başkanlarının sözlerinden bazı örnekler vereceğiz.

Ermenistan'ın birinci başkanı Levon Ter-Petrosyan (1991–1998), yukarıda değindiğimiz Ermenistan Bağımsızlık Bildirgesi altında imzası olmasına karşın, sonraları Türkiye'den toprak talepleri konusuna değinmemeye özen göstermiştir. Bunun iki nedeni olduğu düşünülmektedir: Karabağ savaşı sırasında Türkiye'nin Azerbaycan'a daha fazla yardım yapmasını önlemek, savaştan sonra ise Azerbaycan'la barış yapılması politikasını izlediğinden Türkiye'nin de bu politikayı desteklemesini sağlamak.

Ermenistan'ın ikinci Başkanı Robert Koçaryan (1998–2008) ise, işbirliği halinde bulunduğu ve Hükümete ortak yaptığı Taşnak Partisinin etkisi altında, soykırım iddialarının uluslararasında tanınması konusunu Hükümet programına koymuş ancak

Türkiye'den toprak talebi konusunda sessiz kalmayı tercih etmiştir. Bir Türk gazetecisinin ısrarlı soruları karşısında ise Türkiye soykırımı tanıdığı ve af dilediği takdirde bundan, Ermenistan için, Türkiye'den tazminat ve toprak talep etmek hakkı çıkmayacağını söylemiştir. Taşnaklar Devlet Başkanın bu sözlerine derhal itiraz etmişlerdir. Bu parti yetkililerinden Mario Nalbantyan Ermeni davasında (soykırım iddialarında) gelişme kaydedildiğinde Türk-Ermeni sınırının revizyonu sorunun ortaya atılması gerektiğini bildirmiştir. Başbakan Erdoğan'ın 2005 yılı başında Rusya'yı ziyareti sırasında yaptığı bir konuşmada Ermenistan'ın Kars Antlaşmasını tanımama konusundaki yaklaşımını eleştirmesi üzerine zamanının Dışişleri Bakanı Vartan Oskanyan bir Türk gazetesine verdiği bir mülakatta Başbakan'ın sözlerine cevap teşkil edercesine hiçbir Ermeni liderinin Kars Antlaşmasını tanınmadığını şeklinde bir açıklama yapmadığını, Sovyetler Birliğini oluşturan ülkeler için, bu Birliğinin imzaladıkları anlaşmaların yürürlükte olduğunu söylemiştir. Böylelikle Kars Antlaşmasının geçerliği konusu açıklık kazanmış ancak Ermenistan Dışişleri Bakanı Ermenistan Bağımsızlık bildirgesindeki "Batı Ermenistan" deyimine ve Ermenistan arması üzerinde yer alan Ağrı Dağı konularına değinmekten kaçınması kuşkuların sürmesine neden olmuştur. Oskanyan bir başka konuşmasında ise Kars Antlaşmasının 17. maddesinin iki tarafın kişi ve mallarının serbestçe sınırdan geçişini öngördüğüne temasla Türkiye'nin sınırı kapamakla Kars Antlaşmasına aykırı hareket ettiğini ileri sürmüştür. Bir diğer mülakatında da Sovyetler Birliği döneminde taraf olunan bütün uluslararası antlaşmaların mirasçısı olduklarını ifade etmiştir8 . Başkan Koçaryan 2005 yılı Nisan ayında yaptığı bir konuşmada hiçbir Ermenistan devlet kuruluşunun Türkiye'den toprak talebinde bulunmadığını tekrarlamış, Ermenistan dış politikasının soykırımın tanınmasını içerdiğini ve bu tanımanın yasal sonuçlarıyla gelecekteki Ermenistan başkanlarının ve politikacıların ilgileneceğini ifade etmiştir . Bu sözleri, Ermenistan'ın şu anda Türkiye'den toprak talebinde bulunmadığını veya bulunamadığı, ancak Türkiye soykırımı tanıdığı takdirde bunun yasal sonuçlarıyla, diğer bir deyimle Türkiye'nin tazminat ödemesi ve Ermenistan'a toprak vermesi konularıyla, gelecekteki Ermenistan başkan ve politikacılarının ilgileneceği şeklinde yorumlamak mümkündür.

Kars antlaşmasından sonrakı dönemde hukuksal ve siyasi oluşumlar

1922-ciyılTranskafkasiya Sovyetlər Kongresinde Nahçivanın özerek cumhuriyyet gibi Azerbeycan Sovyet Sosialist Cümhuriyyətine bağlanması karara alındı. Kararın ardından Rusya Federesiyonun Ermenistan Soyet Cumhuriyyetinin baskılarıyla kurduğu bağımsız Nahçivan Sovyet Sosyalist Cumhuriyyeti fiili olarak ortadan kalkmış oldu. Buna rağmen 1922-1923-cü yıllarda Nahçivanda özrek cumhuriyyet değil, Nahçivan Diyar Kurulu varlığını sürdürdü.

Nihayet, Azerbeycan Merkez Yürütme Kurulu 5 aralık 1923-cü yılda aldığı kararla Nahçivan Diyar Kurulu Nahçivan Sovyet Sosyalist Cumhuriyyetine çevrildi. Azerbeycan Merkez Yürütme Komitesinin 9 şubat 1924-cü yıl kararnamesi ile Nahçivanın Azerbeycanın protektorluğunda Nahçivan Özerk Sovyet Sosyalist Cumhuriyyeti statüsünde fiili ve hukuki varlığı resmileşti. Tüm Nahçivan Sovyetler Kurultayının 18 nisan 1926-cı yıl çağırılmış toplantısında Nahçivan Özerk Cumhuriyyetinin birinci Anayasının özel bir maddesi ile Nahçivan Özerk Sovyet Sosiyalist Cumhuriyyetinin

Azerbaycan Sovyet Sosiyalist Cumhuriyyetinin protektorluğunda kalmakla onun bir parçası olması hukuksal yönden de onaylandı. Böylece uzun süren mücadile ve azimin sonunda Azerbaycan Cumhuriyyetinin sınırları dahilinde Nahçivan Özerek Cumhuriyyetinin yaratılışı sona yetdi.

Nahçivan Özrek Cumhuriyyeti Azerbaycanın sınırları dahilinde coğrafi prensipler esasında yaratılmış özerk kurumdur. Nahçivanın Özerklik fikri Rusya Sovyet Sosyalist Federasiyonu tarfından Zengezurun Ermenistana verilmesinin ve bu toprakların Azerbaycan Sovyet Cumhuriyyetinin arazisinden ayrı salınmasından doğan zaruretden kaynaklanıyordu. Aynı zamanda Nahçivana özerk statü verilerken onun sınırlarının coğrafi olarak Türkiye, İran ve Ermenistanla komşu olması meselesi de dikkate alınmıştı. Uluslararası önem arz edən 1921-ci yıl Moskova ve Kars anlaşmaları ile Nahçivanın siyasi kurum gibi statüsü de teyyid edilmiş oldu.

Nahçivanın özerek statüsünun başlangıçı, Türk-Aras Cumhiriyyetine yönetmelik yapmış Emir bey Nerimanbeyov Nahçivanın müdafasını yatamış, böylece ermeni çetelerinin Nahçivana sokulmasının karşısı alnmış oldu.

Nahçivanın Azerbeycan Cumhuriyyetinin bir parçası olarak kalmasında Behbud ağa Şahtahtınskinin tebliği ile geçirilmiş 1921-ci yıl halk oylamasının önemi büyük olmuşdu. Nahçivanın Ermenistan Cumhuriyyetine bağlı olmsını savunan Azerbaycan Sovyet Cumhuriyyetinde makam tutmuş Anastas Mikoyan ve Levon Mirzoyan gibi daşnak-bolşevikler Rusya Federasiyonun desteyini alarak Nahçivanın Ermenistana bağlanması için "Nahçivansız Ermenistan var ola bilmez" tezisini savunuyorlardı. 1921 yılın ilk ayı Nahçivanda geçirilen halk oylaması zaman ahalinin yüzde doksanı Azerbeycana bağlı kalmayı tercih etdi. Behbud ağa Şahtahtınski 1920-1921-cı yıllarda Sovyetler Birliği Halk Komiserler Sovyetinin başkanı Vladimir Lenine gönderdiyi mektuplar da Kreml yönetminin çekingen adımlar atmasına neden oldu.

Nihayet, Behbut ağa Şahtahtınskinin yakinen iştirak etdiyi 16 mart 1921-ci yılda Rusya Federasyonu ile Turkiye Cumhuriyyeti arasında imzalanmış Moskova anlaşmasında Nahçivanın Azerbeycana bağlı özerk bölge gibi kalması ve 13 ekim 1921-ci yıl Rusya Federasiyonun katılımı ile Türkiye Cumhuriyyeti, Azerbaycan, gürcistan ve Ermenistan Sovyet Cumhuriyyetleri arasında bağlanmış Kars anlaşması Nahçivanın Azerbeycana bağlı özerk cumhuriyyet olarak kalması meselesini nihayi sonluğuna yetiştirdi.

Zaman-zaman Ermeni çetelerinin Nahçivana ve Azerbaycanın diğer bölgelerine karşı saldırı ve toprak iddaları devam etse de 1990-cı yıllarda bu iddalar pik noktaya ulaştı. 1990-cı yılın ilk günlerinde Nahçivan Özerk Cumhuriyyetinin Sovyetler birliğinden ayrılması için Nahçivan Ali Sovyeti Karar kabul etti. 17 kasım 1990-cı yılda Nahçivan Özerk Cumhuriyyetinin isminden "Sovyet Sosyalist" sözleri çıkarıldı. Aynı zamanda Azerbeycan Halk Cumhuriyyeinin bayrağı da Nahçivanın Ali Sovyetinde ilk kez alması gereken yerini aldı.

1992-ci yılda marhum Cumhurbaşkanı Haydar Aliyev Türkiye Cumhuriyyetine seferi zamanı Kars manlaşasını gündeme getirmesi ve Kars anlaşması ile ilgili protoköllerin imzalanması fevkalede önem arz ediyordu. (4)

Kars antlaşmasıının en önemli mddelerinden birisi Nahçivana herangi üçüncü devletin müdahilesini istisna eden hususdur. Maddenin gereğince Nahçivana herangi üçüncü devletin müdahilesi durumunda Türkiye Cumhuriyyeti devleti anında müdahile etmek hukukunu kendinde saklıyor olması Nahçivanın ve genel olarak Azerbeycanın tüm zamanlar da bağımsızlığı ve egemenliği için Türkiye devleti Kars anlaşması ile güvünli qaröntör rolü oynadı.

Kars anlaşması bir tek Azerbeycan için değil aynı zamnda geney Kafkasiyanın diğer devleti Gürcistan içinde hayati önem arz ediyordu.Bu yüzden de Kars anlaşması ile ilgili olarak Gürcistan basınında tartışmalar hiç dinmedi. Nitekim Kars Antlaşması kendi güncelliğini XX. asrın 90. yıllarında yine kazandı. Bildiğimiz kadarıyla 30 Temmuz 1992 yılında Gürcistan ve Türkiye Cumhuriyetleri arasında "Dostluk, İşbirlik ve İyi Komşuluk İlişkileri Antlaşması" imzalanmıştır. Bu antlaşmanın çok önemli olduğunu belirterek her iki ülke arasında iktisadi, ticari, enerji, kültür, siyası işbirliklerine temel atılmış ve o dönemin Gürcistan'ının çelişkili ve karmaşık siyası ortamı tarafından tamamen olumlu şeklinde değerlendirilmiştir bazen ise olumsuz tepkiler almıştır.

Uluslararası hukukun uzmanı olan Mikheil Saakaşvili'ye göre Gürcistan tarafından belli başlı uzlaşmalar yapılabilirdi, çünkü konu "yeni kazanılan dost" bir ülke ile alakalı idi. Fakat o an "çok ciddi olan" konular ele alınıyordu. Yazara göre bu konulardan birisi Kars Antlaşması'nın 1992 yılında imzalanan anlaşmaya bağlanmaktı. Mikheil Saakaşvili'ye göre bu iki antlaşmayı birbirine bağlayan husus yalnız sınırlar konusu değildi. Bunlardan en önemlisi Kars Anlaşması'nın hukuki gücü ve kanunen yürürlükte olup olmadığı konusu idi. Aynı yazara göre "Kars Antlaşması'nın Gürcistan'ın işgalından sonra imzalandığı bu antlaşmanın reddedilmesi için ciddi bir delil olabilirdi". Fiilen bu antlaşma Türk-Rus antlaşması olup Kafkas Sovyet Cumhuriyetleri'nin işgalcı rejimlerini ancak şeklen dahil etmişlerdi.

Örneğin tarihçi Vakhtang Guruli'ye göre "Kars Antlaşması 16 Mart Moskova Antlaşması'nın birinci, ikinci ve diğer maddelerini tekrarlamaktadır. (1. s 113)

Kars Konferansı Gürcü muhalefetin hayalini kırdı, ama antlaşmanın onaylamasına karşı mücadeler dahada sertleşti.

14 Ekim 1921 "Tribün" gazetesi:

Burada S.Khundadze'nin "Kars Konferansı'ndan dolayı" başlıklı makalesi ilgimizi çekmektedir: "Kars Konferansında Moskova Antlaşması yeniden gözden geçirilecek ve Artvin-Ardahan sahibine iade edilecektir. Kars Konferansı yerel güçlerin maneviyatları ile menfaatlerini göz önünde bulundurarak tarihten kalan yanlışlıkları meydandan kaldıracak ve Güney Kafkasya halkları ile Osmanlı Devleti arasında barışçı ilişkilerin kurulmasına imkan sağlayacaktır".

23 Ekim "Tribün" gazetesi:

S. Khundadze "Kars konferansı" başlıklı makalesinde alınan kararları tamamen eleştirmiştir: "Sovyet Rusya tarafından Gürcistan bağımsız bir ülke olarak tanınmıştır. Dış güç, ister Rusya olsun, Osmanlıya toprağımızın verme için haksızdır. Biz Kars Konferansı'ndan bu antlaşmanın (Moskova Antlaşması) yeniden gözden geçirilmesini, değiştirilmesini ve Osmanlı Devleti ile adilane ilişkileri kurabileceğimizi bekliyorduk".

Kars Antlaşması Bolşevik işgalinden dolayı yurtdışına kaçan Gürcü siyasetçiler arasında büyük bir ilgi uyandırdı. Kendileri antlaşma hakkında değişik fikirleri ileri sürmeye başladılar. Zurab Avalişvili: "Doğrusunu söylemek gerekirse, Kars Anlaşması gereğince Türkiye ile tespit edilen sınırlar 1918 yılında Ramişvili, Gvazava, Rtskhiladze ve Odişelidze tarafından imza ettikleri sınırlardan daha da uygundur" gibi ifadelerde bulundu. Zurab Avalişvili bunları anlatırken anlatırken Osmanlı Devleti ile Gürcistan Demokratik Cumhuriyeti arasında 4 Haziran 1918 yılında Batum'da imzalanan "Bariş ve Dostluk Antlaşmasından" bahsediyordu. Batum Antlaşmasını imzalayanlardan birisi Giorgi Gvazava idi. Dolaysıyla G. Gvazava anılan suçlandırmaları cevaplandırmaya karar verdı ve "4 Haziran 1918 yılında Osmanlı Devleti ile imzaladığımız antlaşma zaman kazanmak amaciyla yapıldı. Bu antlaşma onaylanmadı ve Osmanlı Devleti İslam Gürcistan bölgelerinden geri çekildi. Boylelikle Batum Antlaşması yalnız tarihte kaldı. O bize zarar vermiş değil de tam tersi fayda getirmiş oldu. 1918 yılında Batum'da karşımızda galip gelen Osmanlı Devleti duruyordu, 1921'de ise Karsta zayıflamış ve yenilmiş durumdaydi" gibi kelimeleri kullandı. Anı Gvazava'ya göre iktidarı zorla ele geçiren ve kanun dışı olan Sovyet Hükümeti Gürcistan adına görüşmeleri yapmak için haksızdı ve kendileri böylelikle Gürcistan Toprağını ikiye bölmüş oldular. G. Gvazava'dan farklı olarak Z. Avalişvili "Kars Antlaşması Gürcistan Topraklarını kesmiş ve hediye etmiş değil de tam tersi sınırları Gürcistan lehine çizmiştir " diye ifadeleri ileri sürmüştür. Kendisi şu ifadelerini 4 Aralık 1937 yılında Paris'te yapılan Gürcü siyasi sığınıklarının toplantısında dile getirmiştir. G. Gvazava ise ona yazılı cevap verdi (2. s 128).

Kars Antlaşmasını imzalayan Şalva Eliava 14 Nisan 1922 yılında opera binasında yapılan Sovyet Merkezi Yürütüm Komitesi'nin olağanüstü toplantısında yaptığı açıklamasında Kars Antlaşmasını Güney Kafkasya Cumhuriyetleri ile Türkiye arasında bir dayanışma temeli olarak değerlendirdi. Kendisine göre "Gürcistan'ın Sovyet Merkezi Yürütüm Komitesi bu konuda tamamen hemfikir olacak ve Türkiye ile birlikte emperiyalizme karşı savaşını devam edecektir (2. s 129).

Kars Antlaşması'nda çeviriye bağlı dikkatımızı çeken bir husus daha var. Fransızca ve Türkçe olan metinlerde Türkiye kelimesi kullanılmaktadır. Gürcüce'de ise Osmanlı kelimesi. Tabi ki, bu bir hatadır, çünkü Gürcistan Kars antlaşmasını Osmanlı ile değil de Türkiye ile imzalamıştır.

Kars Antlaşması sovyetleştirilmiş Gürcistan Hükümeti tarafından imzalanmıştır. Gürcistan'ın şuanki hükümeti kendisini Demokratik Gürcistan Cumhuriyeti'nin halefi olarak kabul etmektedir. Uluslararası hukuka göre ise sömürgecilikten kurtulan ve bağımsızlığını kazanan her ülkenin kendi milli menfaatlarına uygun olan bütün siyasal ve ekonomik antlaşmaları tanıma hakkı var[3 s.243].

Azerbeycan ve Ermenistan arasında 30 yıla yakın devam eden Karabağ sorununu bitiren 44 günlük savaş ve Şuşa beyannamesi

Azerbeycan ve Ermenistan arasında 30 yıla yakın devam eden Karabağ sorununu bitiren 44 günlük savaş sonrası 10 kasım 2020-ci yıl tarihte Azerbeycan Cumhuriyyeti, Rusya Federasyonu ve Ermesnistan Cumhuriyyeti arasında imzalanan üç taraflı beyanatla de-fakto savaşa son verildi. Beyannameninen dikkat çeken hususlarından birisi Kars

antlaşmasından 99 yıl sonra Gürcistan istisna olmakla aynı varis devletlerce imzlanmış oldu. Fiili olarak savaşı bitiren 10 kasım Beyannamenin bölgde komünikasiyon ve iletişim araçlarının açılmasını de-yure tespit etmiş oldu. Üçlü bildirinin dokuzuncu maddesine göre taraflar arasında iletişim ve ulaşım hatlarının açılması şöyle anlatılıyor:

"Bölgede tüm ekonomi ve ulaşım bağlantıları açılacak. Ermenistan Cumhuriyeti, vatandaşların, araçların ve malların her iki yönde engelsiz hareketini organize etmek için Azerbaycan Cumhuriyeti'nin batı bölgeleri ile Nahçıvan Özerk Cumhuriyeti arasında ulaşım bağlantıları/kanalları sağlayacaktır. Ulaşım kanalları üzerindeki kontrol, Rusya Federal güvenlik servisinin Sınır Servisi organları tarafından gerçekleştirilecektir. Tarafların mutabakatı ile Nahçıvan Özerk Cumhuriyeti'ni Azerbaycan'ın batı bölgelerine bağlayan yeni ulaşım hattının inşası sağlanacaktır."

Bunun için taraflar arasında ayrıca 10 Ocak tarihinde bir bildiri daha imzalandı ve Azerbaycan, Ermenistan ve Rusya başbakan yardımcıları düzeyinde bir komisyon kuruldu. Komisyon ilk toplantısını 1 Mart tarihinde yaptı ve edinilen son bilgilere göre toplamda 8 toplantı gerçekleştirdi. Komünikasyon ağlarının açılması bölgenin gelişimi için hayati önem arz ediyor.

Burada üç yönde ulaşım hatlarının açılması konuşuluyor. Birincisi Azerbaycan anakarası ile Nahçıvan Özerk Bölgesi arasındaki demir ve kara yollarının açılması; ikincisi Ermenistan ile Rusya arasındaki demiryolunun Azerbaycan üzerinden açılması; üçüncüsü ise Türkiye, İran ve Gürcistan'ın da katılacağı bölgesel bir ulaşım ağının oluşturulması.

Diğer önemli bir husus Kars anlaşması ile Nahçivanın qaröntörü olan Türkiye devleti bahs edilen Beyanname ile Azerbeycenda varlığını bu kez Kars anlaşmasından farklı olarak fiili olarak sürdürme hakkı kazandı. Beyannamenin 5-ci maddesi konuyu şöyle anlatıyor: " Anlaşmanın taraflarca uygulanması üzerindeki kontrolün etkinliğini artırmak için, ateşkesi kontrolü etmek üzere bir barış gücü merkezi oluşturulacak".

Kars anlaşması ile vuku bulan Azerbeycan Türkiye işbirliğinin hukuki temelleri ister Karabağ savaşına kadar süren dönemde, isterse de 10 kasım üç taraflı Beyanname ile Azerbeycan ve Türkiye devletlerinin tek sözde değil, aynı zamanda özde de kardeşiliğinin en güzel örneğidir. Türkiyenin ve Azerbeycanın tüm alanlarda iş birliği 10 kasım Beyannamesi ile sınırlı kalmayarak sonrakı zamanlar içinde yeni oluşumlar vaad ediyor.

Nihayet 15 haziran 2021-ci yılda hukuki ismi "Türkiye Cumhuriyyeti ile Azerbeycan Cumhuriyyeti arasında müttefiklik İlişkileri Hakkında Şuşa Beyannamesi" Azerbeycan Cumhurbaşkanı sayın İlham Aliyev ve Türkiye Cumhurbaşkanı sayın Recep Tayyip Erdoğan arsında imzalanarak yürürlüğe girdi.

Devletlerarası ilişkilerde müttefiklik ilişkileri hakkında beyannamelerin imzalanması önemli, fakat söz konusu beyannamenin iki kardeş devlet arasında imzalanmış olması metni iki ülkenin kamuoyu açısından daha da mühim kılıyor. Bu anlamda müttefiklik sadece devletler arasında değil, halklar arasında da tesis edilebilir. Nitekim iki devletin halklarının da büyük bir çoğunlukla bu müttefiklik ilişkisini kabul ettiği ve saygı duyduğu, hatta bunu talep ettiği ve onayladığı, bu sayede ittifak ilişkisinin kalıcı olduğu görülüyor.

Beyannamenin Kars Anlaşması'nın 100. yıldönümünde imzalanması ve Kars Anlaşması'na atıf yapılması da oldukça önemli. Şuşa Beyannamesi 1921 yılında imzalanan

ve Azerbaycan-Türkiye ilişkilerinin temel anlaşmalarından biri olan Kars Anlaşması ile kıyaslana biliyor.

Beyannameyi önemli kılan başka bir husus ise, Azerbaycan'ın yanı sıra Türkiye-Azerbaycan ilişkileri ve Türk dünyası için de önemli olan Şuşa kentinde imzalanmış olması. Şuşa stratejik açıdan kritik önem taşıyor ve burayı kontrol eden Karabağ'ı kontrol etme gücünü elde ediyor. Beyannamenin dibacesinde iki lider arasındaki görüşmenin "Azerbaycan'ın ve bir bütün olarak Türk dünyasının eski kültür beşiği Şuşa kentinde yapılmasının tarihi önemi"ne vurgu yapılması ve Türkiye'nin Şuşa'da konsolosluk açma kararını duyurması, bu bölgenin Ankara nezdinde taşıdığı önemi de açıkça ortaya koyuyor.

"Taraflardan herhangi birinin kanaatine göre onun bağımsızlığına, egemenliğine, toprak bütünlüğüne, uluslararası düzeyde tanınmış sınırlarının dokunulmazlığına veya güvenliğine karşı üçüncü bir devlet veya devletler tarafından tehdit ve saldırı gerçekleştirildiğinde taraflar ortak istişareler yapacak ve bu tehdit veya saldırının önlenmesi amacıyla BM Şartı'nın amaç ve ilkelerine uygun girişimlerde bulunacak, birbirine BM Şartı'na uygun şekilde gerekli yardımı yapacaklardır. Bu yardımın kapsam ve biçimi ivedi yapılan görüşmeler yoluyla belirlenerek ortak tedbirler alınması için savunma ihtiyaçlarının karşılanmasına karar verilecek ve Silahlı Kuvvetlerin güç ve yönetim birimlerinin koordineli faaliyeti sağlanacaktır."

Ulusal çıkarlarını ilgilendiren bölgesel ve küresel konuları görüşmek üzere taraflar, güvenlik konseyleri düzeyinde ortak toplantılar yapılmasını kararlaştırdılar; ki bu adım ilişkilerin bir üst düzeye çıkarılması anlamına geliyor. Şöyle ki; özellikle bölgesel ve küresel düzeyde çıkarları ilgilendiren konular 2007'den itibaren Yüksek Düzeyli Askeri Konsey'de konuşulmaktaydı ve bu konseylere savunma bakan yardımcıları başkanlık ediyordu. Şimdi ise bu, devlet başkanlarının yönettiği güvenlik konseyi ortak toplantıları düzeyine yükseltildi.

İki ülkenin bölgedeki işbirliği açısından gündemde tuttuğu önemli konulardan biri de taşımacılık koridoru. İkili işbirliği sonucu yapımı tamamlanan Bakü-Tiflis-Kars'ın tamamlanması bölgede yeni işbirliği imkanları ortaya çıkardı. Orta Asya-Azerbaycan-Türkiye arasında gerçekleştirilmekte olan ve Türk Konseyi tarafından desteklenen Orta Koridor da Şuşa Beyannamesi'nde yer aldı. Bunun dışında İkinci Karabağ Savaşı'nın ardından iki kardeş ülke arasında yeni bir koridor imkânı ortaya çıktı. Azerbaycan ve Türkiye'yi birleştirecek Zengezur Koridoru'nun önemine vurgu yapılarak aslında bu politikaların uzun dönemli olduğu gösterildi.

Azerbaycan ve Türkiye, İkinci Karabağ Savaşı'ndan sonra yeni bir jeopolitik gerçeklik oluşturmayı başarmıştı. Bu jeopolitik gerçekliği yeni işbirliği önerileri ile de destekleyerek geleceğe taşımak istemekteler. Her iki devletin bölgede gerçekleştirdiği enerji ve taşımacılık projeleri jeopolitik dengenin onların lehine değişmesine neden olduğu için bu alanda deneyime sahipler. Silahlanmadan ve bölgesel çatışmadan kaçınan her iki devlet, işbirliği ve proje odaklı çalışmaların bölgesel güç projeksiyonlarda öne çıktığını düşünüyor. Bölgesel işbirliği aynı zamanda bölgesel istikrar, ekonomik kalkınma ve refaha hizmet eder; bir nevi kazan-kazan durumu yaratır. Bu nedenle müttefiklik

beyannamesinde bölgesel işbirliği önerileri de yapıldı. Taraflar Azerbaycan'ın işgalden kurtarılan topraklarında Türkiye-Rusya Ortak Merkezi'nin faaliyetlerine Türkiye'nin katkılarının bölgedeki barış, istikrar ve refahın sağlanmasında önemli rol oynadığına vurgu yaparak bu konuda Rusya ile işbirliğinin önemini hatırlatmış oldular.

Müttefik devletler için bölgesel işbirliğinin önemini hem liderlerin açıklamalarında, hem de beyannamenin içeriğinde görmek mümkün. Cumhurbaşkanı Erdoğan bu anlamda Türkiye ve Azerbaycan'ın ortak önerisi olan bölgesel altılı işbirliği platformunu tekrar gündeme getirdi ve hatta Ermenistan'ın olumlu davranması halinde diplomatik ilişkilerin kurulması ve sınırların açılması konusunda geleceğe ilişkin olumlu mesajlar verdi. Beyannamede yer alan "Taraflar, Kafkasya bölgesinde istikrar ve güvenliğin pekiştirilmesi, ekonomi ve ulaştırma alanındaki tüm bağların yeniden sağlanması, ayrıca bölge devletleri arasındaki ilişkilerin normale dönüştürülmesi ve uzun vadeli barışın sağlanması yönündeki çabalarını sürdüreceklerdir" ifadeleri de tarafların bölgesel işbirliğine açık olduğunu vurgulamış oldu.

Sonuç

Kars anlaşması ile güney Kafkasyada yerini sabitleyen Türkiye Cumhuriyyeti Kars anlaşması ve sonraki devirlerde de bölgede varlığını sürdürmüş oldu. Azerbeycan ve Türkiye devletlerinin Kars anlaşmasından önceye ve bu güne kadar geçtiği olağınüstü işbirliği bölgenin barış ve istikrara kavuşmasında son derece hayati önem arz ediyor. Kars anlaşmasının gereği olarak Nahçivanın üçüncü devletlere güzeşte gidilmemesi hususuna atıf yapan Türkiye Cumhuriyyeti 10 kasım Beyannamesi ile bölge de fiili varlığına kavuşarken, aynı zamanda 15 haziran Şuşa Beyannamesi ile Kars anlaşmasından bulunmayan Azerbeycanın desteğini alama konusunda da tarihi bir ilke imza attı. Hatta işi daha öteye taşıyarak iki karddeş ülkenin Güvenlik Konseylerinin birlikde müzakerler yaparak ortak karara gelele bilecekleri husus son derece zaruri olayadır. Bölgede Türkiye Cumhuriyyeti devletinin olmadığı hiç bir anlaşmanın üzun süremeyeceği ve istikrar getiremeyeceği gerçeği bir daha altı çizilerek gözler önüne serilmiş oldu. Türkiye Cumhuriyyeti devleti Cumhurbaşkanı sayın Recep Tayyip Erdoğanın teklif etdiği beşli ve ya altılı platform bölge halklarının barış ve istikrarı için gelecek vaad ediyor. Türkiye, Azerbeycan, Gürcistan, Ermenistan Cumhuriyyetleri, Rusya Federasiyonu ve İran İslam Cumhuriyyeti devletlerinin yer ala bileceği platform Güney Kafkasya ve tüm bölge için huzura ve refa doğru atılmış ilk adım olacaktır.

Aynı zamanda bölgeden uzak olan Pakistan İslam Cumhuriyyeti ile Azerbeycan ve Türkiye devletlerinin ortak ticari, savunma, savunma sanayisi ve diğer alanlarda iş birliği 21-ci asırda dünya için yeni oluşumların kaçınılmaz olduğunu gözler önünü seriyor.

Pakistan İslam Cumhuriyyeti ile Türkiye ve Azerbeycan işbirliği Şuşa Beyannamesinden kısa süre sonra Talibanın Afganistanı ele geçirmesi zamanı vuku bulan Afganistan krizi zamanı Azerbeycan ve Türkiye Barış Güçlüerinin Hamid Karzayi adına Uluslararası Havaalanını birlikde yönetmeleri ve Pakistan vasıtasıla Afqanıstanın yeni yönetimi arasında ılımlı mutabaktlar işbirliğinin sözde değil amelde de muazzes şekilde yürürlükte olduğunu tartışmasız ortaya koymuş oldu.

Eylül 2021-ci yılda Laçinde Azerbeycan, Türkiye ve Pakistanın " Üç kardeş 2021"

tatbikatları Ermeni ve dünya basınında çok konuşulan konulardan oldu. 18 eylül 2021-ci yıl tarihinde İran devletinin Culfa- Aslandüz istikametindan tatbikata başlaması görünen o ki, bölgede Türk işbirliğinden endişe ediyor. İranın tatbiktına karşı Türkiye Bayraktarlarının İran sahasında gövde gösterisi Kars anlaşması ve Şuşa Beyannamesinin önemini bir daha ıspatlamış oluyor. 20 eylül 2021-ci yıl tarihde Nahçivanda Azerbeycan ve Türkiye Savunma Bakanlıkları arasında "Sarsılmaz kardeşlik-2021" tatbikatı Türkiye – Azerbeycan kardeşliğinin en güzel örneklerindendir.

ƏDƏBİYYAT

1. Vakhtang Guruli. Gürcistan Ve Dış Dünyası, – Tiflis, – 2011. s. 113.
2. Saralidze, L. Kars Antlaşması Ve Gürcü Mültecileri, Kitap Didaçaroba, Uluslararası Bilim Sempozyumu Bildirileri, Khulo-Didaçara, – 2010.
3. Mikheil SVANİDZE, Gürcistan Ve Kemal Türkiyesi Hükümetleri Arasında Diplomatik İlişkilerin Kurulması, Kitap Gürcü Diplomasisi (Yıllık), c.7, TDÜ Yayınları, – Tiflis, – 2000.
4. Hacıyev, İ. Milli Elmlər Akademiyası. – 29 mart 2021
5. Soysal İ. Tarihçeleri Ve Açıklamaları İle Birlikte Türkiye'min Siyasal Andlaşmaları. Cilt I (1920–1945) – Ss. 41–47

SUMMARY

Atilla Ozturk

FROM THE KARS AGREEMENT TO THE SHUSA DECLARATION (LEGAL AND POLITICAL EVENTS AND THEIR SIGNIFICANCE FOR THE EGION)

In the article, which consists of an introduction, first, second, third and conclusion about the Kars agreement, which is called "Treaty of Friendship between Turkey and Armenia, Azerbaijan and Georgia", the processes and events that led to the Kars agreement, the events that took place during the signing of the Kars agreement, the effects of the agreement on the region, Azerbaijan, The repercussions of the agreement in the Georgian and Armenian press, legal and political events in the period after the agreement, and developments that are important for the stability and peace of the region after the agreement were discussed. At the same time, the trilateral Declaration signed between the Federation of Azerbaijan, Armenia and Russia on 10 November, the Shusha Declaration signed between the Republics of Azerbaijan and Turkey on 15 June, the issues of cooperation between Turkey and Azerbaijan in the field of economy, trade, defense and defense industry, the issues of cooperation with Pakistan, Afghanistan, Iran and other states. and the platforms that need to be created have been extensively researched.

The legal issues arising from the Kars agreement have been extensively researched by domestic and foreign sources, such as the fact that a large part of the beginning of the developments in the region stemmed from the effects of the historical Kars agreement, that the Turkish state became a great power in the region thanks to the signing of the Kars agreement, and that Turkey's presence in Azerbaijan and the South Caucasus was not in words but in fact. Extensive research and comments have been made on political institutions.

Theses are included regarding the common points of the Kars Agreement and the

Shusha Declaration and the effects of the mentioned agreements on the region and their effects on non-regional countries. Beyond the historical features of the Kars Agreement, its legal and political importance and the developments it caused over 100 years are discussed.

Key words: *Kars, Shusha, Declaration, Agreement*

OĞUZ MİFOLOJİ TƏFƏKKÜRÜNDƏ ÖZ ƏKSİNİ TAPMIŞ RƏNG SİMVOLİKASININ ZƏNGƏZURUN GEYİM ANTROPOLOGİYASINDA TƏCƏSSÜMÜ

Fərəh CƏLİL
Mingəçevir Dövlət Universiteti

Azərbaycanın tarixi ərazilərindən biri olan Zəngəzurla bağlı aparılan arxeoloji araşdırmalar bu ərazinin zəngin türk etnomədəni dəyərlərinə malik olmasını sübut etmişdir. Belə ki, Azərbaycanın qədim ərazilərindən biri olan Zəngəzur tarix boyu müxtəlif türk imperiyalarının tərkibində öz varlığını sürdürmüşdür. Buna əsasən deyə bilərik ki, Zəngəzurun etnomədəni dəyərləri məhz türk oğuz mədəniyyətinin tərkib hissəsidir. Bunu təsdiqləyən tarixi faktlardan biri də Zəngəzurun Xürrəmilər hərəkatı zamanı hərbi mərkəz rolunu oynamasıdır. Daha sonra XI əsrdə Qafan Səlcuq hökmdarı Alp Arslanın hərbi mərkəz məntəqələrindən biri olmuşdur. Bu faktor150 il davam edən səlcuqlu hökmranlığı zamanı Zəngəzur ərazisində türk-islam nüfuzunu genişlənməsinə səbəb olmuşdur.

Zəngəzur 1236-cı ildə monqol-tatarlar, 1395-ci ildə isə Əmir Teymurun hərbi yürüşlərinin şahidi olmuşdur. Bu ərazi Qaraqoyunlu (1410–68), Ağqoyunluların (1468–1502), 1502-ci ildə isə Səfəvi qızılbaşlarının hakimiyyəti altına mövcudluğunu sürdürmüşdür [M. Quliyev, 2005, s.7]. Bu tarixi faktlar Zəngəzur ərazisinin tarix boyu türk tayfalarının məskunlaşdığı ərazilərdən biri olduğunun bariz göstəricisidir.

Göstərilən səbəblər Zəngəzur əhalisinin etnomədəni dəyərlərinin məhz türk oğuz elementlərinin daşıyıcıları olmasını sübut edir. Belə etnomədəni dəyərlərdən biri də geyim antropologiyası ilə bağlıdır. İstər dastanlarımızda, istər aşıq mədəniyyətimizdə Qərbi Zəngəzur bölgəsinin geyim mədəniyyətini özündə ifadə bir çox elementlərlə qarşılaşırıq.

Əvvəla qeyd etməliyik ki, istər coğrafi yerləşim, istərsə də tarixi faktorlar Qərbi Zəngəzurun etnomədəni dəyərlərinin Naxçıvan etnomədəni dəyərləri ilə ilə üst-üstə düməsinin sübutudur. Bu ərazilər demək olar ki, tarix boyu eyni türk sülalərinin tərkib hissələrindən biri olmuşdur. İstər XIII cü əsrdə yazıya alınan "Kitabi-Dədə Qorqud" dastanında öz əksini tapmış türk oğuz mədəniyyətinin geyim antropologiyası, istərsə də Şah İsmayıl Xətai dövründə öz əksini tapmış miniatürlərlə oğuz geyim mədəniyyətinin təsvirləri Azərbaycanın qərb bölgəsində əhalinin geyim antropologiyası ilə üst üstə düşür. Bu faktorda başlıca rol oynayan elementlərdən biri də xalqın mifoloji baxışlarında yer alan rəng simvolikasının təsiri hiss olunur.

Azərbaycanın Hülakülər dövründə yazıya alınmış "Kitabi-Dədə Qorqud" dastanında rast gəldiyimiz bir çox parça materialları, geyimlər üçün rəng çeşidləri və geyim adları, XX ci yüzilin ilk onilliyinə qədər öz aktuallığını qorumaqda idi. Öncə geyim rənglərinin semantikasına nəzər salaq: qara göy rəng oğuz türklərinin mədəniyyətində matəm rəngini ifadə etməkdə idi. Dastanın "İş oğuza Taş Oğuz asi olub Beyrək öldüki Boyı bəyan edər" boyundakı Beyrəyin vəsiyyətində Beyrək "ağ çıqarub, qara geyin" (KTQ, 1988, s.125) ifadəsini işlədir. Yaxud "Kitabi-Dədə Qorqud" dastanında "Dirsə xan

oğlı Buğac xan boyını bəyan edər, xanım hey..." boyunda Bayandır xan qurduğu məclisdə belə bir göstəriş verir: "Bir yerə ağ otağ, bir yerə qızıl otağ, bir yerə qara otağ qurdurmışdı. Kimün ki, oğlı-qızı yoq, qara otağa qundurın. Qara keçə altına döşən, qarra qoyun yəxnisindən ögnə gətirün. Yersə yesün, yeməzssə tursun getsün" Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa qondırın. Oğlı-qızı olmayanı Allahü təala qarğımışdır, biz dəxi qarğarız, bəlli bilsün" demiş idi" [2, s. 34].

Şərqi Zəngəzur mahalında yaşayıb yaratmış Sarı aşığın Yaxşı və Aşıq dastanında da kədəri ifadə edən rəng kimi qara rəngin simvolikasından istifadə olunmuşdur Sarı aşığın "Mən aşiqəm don qara, Kofta yaşıl, don qara" ifadəsində Aşığın nakam svgisini ifadə edən kədəri öz əksini tapmışdır [3, s. 11].

Bildiyimiz kimi, yalnız Qərbi Zəngəzur habelə Naxçıvan ərazisində deyil, Azərbaycanın bütün bölgələrində göy və qara rəng matəm rəngini ifadə edirdi. Bu düşüncənin əsasında duran əsas element məhz türk mifoloji görüşlərində xaosun rəngi ilə bağlıdır. Kosmik nizamin göstəricisi kimi qırmızı sarı rənglər əsas element kimi ortaya çıxdığı kimi qara rəng xaosu ifadə etməkdə idi. Bunun tam əksi olan qırmızı və sarı rənglər gəncliyin və toy düyünün rəngi hesab edilirdi. Məsələn, " Qambörənin oğlıBamsı Beyrək boyını bəyan edər, xanım hey!" boyunda Beyrəyin toyu günü qırmızı kaftan geyindiyini müşahidə etməkdəyik: "Adaxlısundan ərgənlik qırmızı bir qaftan gəldi" (2, s.57). Evlilik kosmik nizamı ifadə edən türk mifoloji düşüncəsindən qaynaqlanmaqda idi. Çünki qırmızı sarı rəng bolluğun, bərəkətin, əsas elementlərindən biri kimi ortaya çıxırdı. Evlilik özü də kosmik nizamı özlüyündə ehtiva etməkdə idi. Yaxud dastanda öz əksini tapmış sarı donlu Selcan xatunun məhz sarı rəngdə təsviri, Oğuz türklərində qadın simvolikası ilə bağlı idi. Qadın isə təbiətlə müqayisədə günəşin rəmzi ifadəsi idi. Dastandan da bəlli olur ki, bu dövr oğuz türklərinin geyim rəngi mifoloji təfəkkürü özündə ehtiva etməkdə idi. Oğuz qadınlarının geyimlərində qırmızı–al rəng ən çox istifadə olunan rəng idi. Bu barədə Dədə Qorqud dastanında oxuyuruq: "Hamı qizlar al geymişlərdi, kəndi sarı geymiş idi". Buna görə də ona Sarı tonlu Selcan xatun deyirdilər [4].

Yaxud "Yaxşı və Aşıq" dastanında Yaxının bacılarından birinin adı Günəşdir. Öncə də söylədiyimiz kimi özündə sarı rəngi ehtiva edən Günəş simvolikası "Kitabi-Dədə Qorqud" dastanında özünü göstərməkdədir. Oğuz türk mədəniyyətinin mifoloji görüşlərinin rəmzi ifadəsi olan rəng simvolikası

Azərbaycanın qərb bölgəsində Qadın geyim rəngində də öz əksini tapmaqda idi. Söylənənlərdən bir daha aydın olur ki, qadın rəngi rəngi daha çox qırmızı (al) və sarı rənglərlə ifadə olunmaqdadır. Bunu XVII əsrdən etibarən yazılı ədəbiyyat da yansıyan aşıq yaradıcılığında da müşahidə etməkdəyik. Aşıq Ələsgər yaradıcılığında da "xub yaraşır əndamına, geyinibdir sarı gözəl", yaxud da"geyinib əndamına, əbru ətlaz, alı gözəl" beytlərində aşıq sarı və al yəni qırmızı rənglərinin Azərbaycanın qərb bölgələrində qadınların geyim rənglərini ifadə etdiyini önə sürür. Qadın simvolikasını ifadə edən qırmızı sarı rəng Şərqi Zəngəzur və Qarabag bölgəsində də müşahidə olunmaqda idi.

"Vaqif "Hayıf ki, yoxdur" qoşmasında "Zər haşiyə al nimtənə üstündə" deyərək, nimtənənin həm də al rəngdə olmasını bildirir" [6]. Yaxud Aşıq "Sarı köynək" şeirində də

sarı rəngin Azərbaycanın qərb bölgəsində qadın geyiminin simvolik rəng çalarlarından olduğunu ifadə edirdi.

Gözəlsən, tərifin düşüb mahala,
Zər kəmər yaraşır qaməti-dala.
Ləb qönçə, diş inci, yanağın lala,
Çəkilib qaşların yay, sarı köynək!

Burada eyni zamanda zər kəmərdən bəhs olunur. Zər də sarı rəngin sinonimi kimi işlənir və qadın rəng semantikasını öündə ehtiva edirdi.

Aytəkin Qəhrəmanova Aşıq Ələsgər yaradıcılığında qadın geyim mədəniyyətinə xas elementləri belə ifadə edir: "Aşıq Ələsgər tərifləyiyi qız-gəlinin zahiri gözəlliklərini, milli geyim və bəzəklərini elə məharətlə təsvir edir ki, gözlərimiz önündə XIX-XX əsrin əvvəlləri Qərbi Azərbaycan qadınlarınınmilli geyimləri, həmçinin geyimlərin rəngləri və geyimlərə vurulan dekorativ bəzəklər, onların timsalında bütün Azərbaycan qadınlarının geyimləri haqqında mükəmməl, aydın təsəvvür yaranır" [5] .

Apardığımız təhlillərdən aydın olur ki, türk oğuz qövmünün bir parçası olan Qərbi Azərbaycan, o cümlədən Zəngəzur bölgəsində rəng simvolikası mifoloji inamlardan qaynaqlanır və uzun müddət rəng simvolikasının daşıyışı elementlərindən biri kimi ortaya çıxmışdır.

ƏDƏBİYYAT

1. Quliyev, M. Zəngəzur. (Elmi-publisistik nəşr). Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2005. – 504 s. ISBN — 9952–403–09 – 7.
2. Kitabi-Dədə Qorqud. – Bakı: Yazıçı, – 1988. – 263 s.
3. Paşayev, S. Poeziyamışda Sarı aşığın bayatı zirvəsi. – Bakı: Azərnəşir, – 2011, – 156 s.

İnternet resursları

4. Dünyamalıyeva, S. Azərbaycanın tarixi geyimlərində günəşlə bağlı simvolikalarhttp://www.azyb.az/index.php/culture/post/27
5. Qəhrəmanova, A. XIX-XX əsrin əvvəllərində Qərbi Azərbaycan qadın geyim mədəniyyəti Aşıq Ələsgər yaradıclığındahttps://serqqapisi.gov.az/xeberler/xix-xx-esrin-evvellerinde-qerbi-azerbaycan-qadin-geyim-medeniyyeti-asiq-elesger-yaradiciliginda
6. Vaqif heyif ki yoxdur https://az.wikisource.org/wiki/Hay%C4%B1f_ki,_yoxdur!

V BÖLMƏ. QƏRBİ AZƏRBAYCANDA ELM VƏ TƏHSİL

QƏRBİ AZƏRBAYCANIN YETİRMƏLƏRİ: ƏZİZ ƏLİYEV

Əbülfəz QULİYEV
ebulfez1950@mail.ru
AMEA Naxçıvan Bölməsi

Qərbi Azərbaycanımızın layiqli övladlarından biri olan görkəmli elm və dövlət xadimi Əziz Əliyev keşməkeşli,çətin və əzablı bir həyat yolu keçmişdir. İrəvan şəhrində erməni zülmündən çox əziyyət çəkən azərbaycanlı aiələrdən biri kimi Əziz Əliyevin ailəsi də öz doğma torpağından, isti yuvasından didərgin düşmüş,qaçqın həyatı yaşamağa məcbur olmuşdur. Naxçıvana sığınan qaçqın aillələrindən biri də Əziz Əliyevin ailəsi olmuşdur. 1923-cü ildə Bakıya təhsilini davam etdirməyə yollanan bu gənc bir həkim, səhiyyə təşkilatçısı kimi formalaşmış, səhiyyə naziri vəzifəsinə yüksəlmişdir. 1941-ci ildə Mərkəzi Komitənin III katibi təyin olunan Ə.Əliyev az sonra İrana, milli-azadlıq hərəkatına kömək etmək üçün göndərilmiş,1942-1948-ci illərdə Dağıstan Muxtar Respublikası Vilayət Partiya Komitəsinin I katibi vəzifəsində işləmişdir. Bir neçə il Moskvada çalışan Ə.Əliyev 1950-ci ildə Azərbaycan SSR Nazirər Soveti sədrinin müavini vəzifəsinə göndərilmiş, burada ölkənin rəhbəri M.Bağırov tərəfindən repressiyaya uğramış, təqib edilmişdir. Ulu öndər Heydər Əliyevlə qohumluq əlaqələrinə malik olan Əziz Əliyev bütün məhrumiyyətlərə, çətinliklərə sinə gərmiş, həmişə vətənə, dövlətə sədaqətlə xidmət göstərmişdir. Məruzədə bütün bu məsələlər haqqında ətraflı bəhs edilmişdir.

***Açar sözlər**: Əziz Əliyev, erməni vəhşiliyi, qaçqın həyatı, səhiyyə təşkilatçısı, dövlət xadimi*

"O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı".
Ümummilli lider Heydər Əliyev

Qərbi Azərbaycanımızın layiqli övladlarından biri olan görkəmli elm və dövlət xadimi Əziz Əliyev keşməkeşli, çətin və əzablı bir həyat yolu keçmişdir. Əziz Əliyev də müəyyən mənada Ulu öndər Heydər Əliyevin ömür yoluna bənzər oxşar tale yaşamışdır: ağır sınaqlar, həyatsevər, prinsipial, təşkilatçı, səmimi, qayğıkeş. O, bütün bu ağrılı-acılı günləri öz xalqı ilə birgə yaşamış, sevincini də, kədərini də onunla bölüşdürmüş, ona sədaqətlə xidmət etmişdir. Məhz buna görə Əziz Əliyevin bütün mənalı ömrü bizim tariximizin ayrılmaz nurlu səhifələrindən biridir.

Əziz Əliyevin tərcümeyi-halından səhifələr: O,1897-ci il yanvarın 1-də İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuşdur. Atası Məmmədkərim Kərbəlayi Qurbanəli oğlu kənd ağsaqqalı, anası Zəhra xanım isə İrəvan mahalının ən nüfuzlu insanlarından biri olan İbrahimbəy Süleymanbəyovun qızı idi. 1905-ci ildə ailə İrəvan şəhərinə köçür. Əziz Əliyev erkən yaşlarından elmə, təhsilə olan hədsiz həvəsi ilə öz

yaşıdlarından fərqlənirdi. Bu həvəsi nəzərə alaraq, valideynləri onu dövrün ən mütərəqqi təhsil ocaqlarından sayılan rus-tatar məktəbinə, sonra isə gimnaziyaya qoyurlar.

1917-ci ildə gimnaziyanı qızıl medalla bitirən Əziz Əliyev təhsilini davam etdirmək üçün tanınmış milyonçu, mesenat Hacı Zeynalabdin Tağıyevə məktubla müraciət etmiş və ondan 300 manat məbləğində yardım almışdır. Bu vəsaitin hesabına o, həmin il Peterburqa getmiş və müsabiqədən keçərək Rusiyanın ən mötəbər təhsil müəssisələrindən biri hesab olunan Hərbi Tibb Akademiyasına daxil olmuşdur.1918-ci ildə atası vəfat etmişdir. İrəvana gələn Əziz Əliyev burada dəhşətli hadisələrin şahidi olur. Ermənilər azərbaycanlı əhaliyə qarşı geniş miqyaslı soyqırım siyasətini həyata keçirməyə başlamışdılar. Antiazərbaycan xarakteri ilə səciyyələnən, bəzi böyük dövlətlərin də dəstəyini alan bu siyasət bəşəriyyətin şahidi olduğu ən qəddar, ən rəzil üsulların tətbiq edildiyi misli görünməmiş vəhşilik idi..

Bütün Qərbi Azərbaycanda olduğu kimi, İrəvan mahalında da təpədən dırnağa qədər silahlanmış erməni quldurları qocalara, qadınlara, uşaqlara belə rəhm etmədən, dinc azərbaycanlı əhalini kütləvi surətdə qılıncdan keçirir, onların əmlaklarını talan edir, evlərini yandırır, əsrlər boyu yaradılmış maddi-mədəniyyət abidələrini, hətta əcdadlarının qəbirlərini belə yerləyeksan edərək, qədim və zəngin keçmişə malik olan bir xalqı tarixin səhifələrindən silməyə çalışırdılar.Belə bir şəraitdə daşnakların qırğınından xilas olmaq üçün o, ailəsini İrəvan şəhərindən Naxçıvanın Şərur rayonuna, bir müddət sonra isə Şahtaxtı kəndinə köçürür. Yeri gəlmişkən qeyd edək ki, İrəvan quberniyasındakı cinayətlər 1918-ci ildə xüsusilə dəhşətli oldu,insanlığa sığmaz miqyas aldı. Bölgədə bolşevizmin bərqərar olması adı altında soydaşlarımıza qarşı soyqırım siyasəti 1919-1920-ci illərdə də davam etdirildi. Buna görə də İrəvan şəhəri və ətrafında statistik məlumatlara görə azərbaycanlıların sayı 1916-cı ildə (1905, 1914 soyqırımlarından sonra) 373582 nəfər olduğu halda, 1920-ci ilin noyabrında cəmi 12 min nəfər qalmışdı [4, s.68]. Lakin 1920-ci ildə İrəvanda məskən salmış daşnak qoşunları şimaldan gələn bolşevik havadarlarının birbaşa dəstəyi ilə hücuma keçərək Şərur rayonunu və Şahtaxtını yerləbir edərək amansız qırğınlar törətdilər. Naxçıvan diyarı da erməni silahlı dəstələrinin hücumlarına məruz qaldı. Qırğından salamat çıxan kənd sakinləri ilə birlikdə Əziz Əliyevin ailəsi də Cənubi Azərbaycanın Ərəblər kəndinə (indi Poldəşt rayonu adlanır) pənah gətirir. Burada ailə tamamilə müflisləşib var-yoxunu itirir, acı qaçqınlıq taleyini yaşamalı olur. Sonralar o, bu dövrü öz tərcümeyi-halında daim əks etdirərək qeyd edirdi ki, İranın Ərəblər kəndi ilə Şahtaxtı arasında cəmi üç kilometr məsafə var və ailə sadəcə olaraq, daşnakların əlindən xilas olmaq üçün Arazın o tayına keçmişdi [4 ,s.76].

Baş verən bütün bu faciəli hadisələr Əziz Əliyevi Peterburqa qayıtmaq və təhsilini davam etdirmək imkanından məhrum edir. Elə həmin ildə Əziz Əliyevin anası, dərdlərə,möhnətlərə dözə bilməyən bəy qızı Zəhra xanım 36-37 yaşında Ərəblər kəndində vəfat edir. 1921-ci ildə yenidən Şahtaxtı kəndinə qayıdan Əziz Əliyev 1923-cü ilin may ayınadək orada tibb işçisi, həkim köməkçisi kimi çalışmışdır. 1923-cü ildə Bakıya oxumağa göndərilən Əziz Əliyevin həyatında yeni mərhələ başlayır.

1927-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirən Əziz Əliyev öz qabiliyyəti, işgüzarlığı ilə diqqəti cəlb edərək irəli çəkilir və 1929-cu ildə Azərbaycan

Klinik İnstitutunun direktoru təyin olunur. Elə məhz həmin illərdəki fəaliyyəti onun böyük təşkilatçılıq qabiliyyətinə malik olduğunu göstərmişdir. 1939-cu ildə Əziz Əliyev xalq səhiyyə komissarı vəzifəsinə təyin olunur. 1941-ci il martın 5-də isə Əziz Əliyev Azərbaycan KP MK-nın üçüncü katibi seçilmişdir. Bu vəzifədə də Ə.Əliyev ümumittifaq miqyasında faşizmə qarşı müharibə şəraitində özünü bacarıqlı, təcrübəli, işgüzar bir partiya işçisi kimi tanıtmışdı. Sovet qoşunları İrana daxil olanda xalqla ünsiyyət qurmağı bacaran, əhali arsında böyük nüfuz qazanmış, səviyyəli, səriştəli, zəngin təcrübəsi olan siyasət adamına ehtiyac duyulurdu. Təbliğatı düzgün qurmaq,sovet qoşunlarının bu ölkənin ərazisinə yalnız SSRİ-nin təhlükəsizliyini təmin etmək məqsədilə daxil olmasını əhaliyə çatdırmaq, qarşıdurma meyillərini aradan qaldırmaq işini ancaq Ə.Əliyev kimi ictimai xadim yerinə yetirə bilərdi [4, s.90]. 1941-ci ilin oktyabrın 21-də Moskva ilə gedən uzun danışıqlardan sonra Azərbaycan KP MK qərara alır ki, sovet qoşunları arasında təbliğat işi aparmaq üçün Zaqafqaziya Cəbhəsinin Hərbi Şurasının sərəncamına bir qrup partiya işçisi ayrılsın. Zaqafqaziya Cəbhəsinin komandanı general-leytenant D.Kozlovun Hərbi Şuraya ünvanladığı tam məxfi məktubunda bildirilir ki, Azərbaycan KP MK-nın üçüncü katibi Əziz Əliyev 47-ci ordunun Hərbi Şurasının üzvü təyin olunur. Məktubda göstərilir ki, ordu hissələri içərisində təbliğat-izahat işi aparanlar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üçüncü katibi, ordunun Hərbi Şurasının üzvü olan Əziz Əliyevin göstərişlərinə tabe olsunlar. O dövrdə cənubdakı soydaşlarımızın özünüdərkində, milli şüurun oyanışında,cənub respublikası ideyasının yaranmasında müşahidə edilən inqilabi dəyişikliklərdə polkovnik Ə.Əliyevin siyasi rəhbər kimi xüsusi xidmətləri olmuşdur.Onun təşəbbüsü, səyləri ilə və sovetin vəsaitilə Təbrizdə dünyəvi məktəb, xəstəxana açılır,"Gülüstan" parkında teatr,musiqi dərnəkləri təşkil olunur, Azərbaycan filmləri("Səhər", "Kəndlilər") nümayiş etdirilir, Azərbaycan Opera və balet teatrının qastrolları keçirilir. Bu qrup Təbrizdə, Urmiyədə, Ərdəbildə, Mərənddə, Zəncanda fəaliyyət göstərirdi. Əziz Əliyevlə bərabər çalışan ziyalılarımız—Süleyman Rüstəm, Osman Sarıvəlli, Ənvər Məmmədxanlı, İsrafil Nəzərov, Qulam Məmmədli, Mehdixan Vəkilov və başqaları öz missiyalarını layiqincə yerinə yetirirlər. Onlar Təbrizdə "Vətən yolunda" qəzetini hazırlayıb çap edirdilər(4,s. 94). Həmin dövrdə Əziz Əliyevlə İranda xidmət etmiş, sonralar onun yaxın dostlarından birinə çevrilmiş general-polkovnik N.İ.Trufanov öz xatirələrində yazırdı: "Əziz Əliyev İranda işləyərkən özünü dərin siyasi savada malik bir təşkilatçı kimi göstərdi. İranda bir çox məsələnin həllini Əziz Əliyev öz üzərinə götürürdü"[2, s.65].

Bu dövrdə sovet hökumətinin yuxarı dairələrində etibarlı dayaqlara malik olan erməni daşnak ünsürləri İran, Türkiyə və Sovet İttifaqı arasında yaranmış böhranlı vəziyyətdən istifadə etmək istəyirdilər. Onlar Qarsdan Təbrizədək olan torpaqları Sovet Ermənistanına qatıb "böyük Ermənistan" dövləti yaratmaq xülyasını gerçəkləşdirməyi qarşılarına məqsəd qoymuşdular. "Onların ilkin planlarına görə, sovet qoşunlarının yerləşdiyi İran ərazisi Ermənistanın təsir dairəsinə keçməli və Təbriz Ermənistanın idarəetmə orqanlarına tabe edilməli idi. Əziz Əliyev gündəlik fəaliyyətində öz əsas vəzifələrinin icrası ilə yanaşı, müxtəlif səpkili mürəkkəb problemləri həll etməyə məcbur idi. Bir tərəfdən ermənilər cürbəcür təxribatlar törətməklə İranın yerli əhalisini Əziz

Əliyevin missiyasının əleyhinə qaldırmağa çalışırdılar. Məsələn, şəhərdə qənd ticarətinə nəzarət edən erməni tacirləri qəndin satışını qadağan edərək, onun gizli yolla İranın cənubuna göndərirdilər. Digər tərəfdən belə hadisələrin qarşısı tezliklə alındıqdan sonra müxtəlif qüvvələrlə əlaqəyə girən daşnak Budaqyan qardaşları Əziz Əliyevin əleyhinə Moskvaya təxribat xarakterli materiallar çatdırırdılar. O dövrün keşməkeşli mürəkkəb siyasi hadisələrini, İranda böyük dövlətlərin mövqelərinin qarşıdurmasını məşhur ingilis yazıçısı Ceyms Oldric özünün "Diplomat" romanında dolğun əks etdirmişdir" [1, s.196].

Müharibənin ən qanlı-qadalı günlərində alman faşistləri Qafqaza çatmış və Bakıya can atırdılar. Onlar neft Bakısını zəbt etməyi qarşıya məqsəd qoymuşdular,onların fikrincə, Bakı nefti Reyxin mənafeyinə xidmət etməli idi. Neft Bakısına yol Dağıstandan keçirdi. Alman komandanlığı Mahaçqalanı Xəzər dənizində baş hərbi dəniz bazasına çevirmək istəyirdi. Dağıstan sərt cəbhəyanı şəraitdə yaşayırdı. Ayrı-ayrı müəssisələr köçürülmüş, fərarilik halları geniş yayılmışdı. Düşmənin Dağıstanı işğal etmək təhlükəsi yaranmışdı.

Belə bir şəraitdə Əziz Əliyevi İrandan sonra daha çətin və daha ağır bir iş gözləyirdi. Ona görə də Müdafiə Şurasının xüsusi qərarı əsasında Sovet İttifaqı rəhbərləri Dağıstan hökumətini gücləndirmək məqsədi ilə Əziz Əliyevi İran cəbhəsindən Dağıstan cəbhəsinə göndərir. Məhz bu qərar əsasında o, 1942-ci il sentyabr ayının 18-də Dağıstan Vilayət Partiya Komitəsinə birinci katib seçilir və Mahaçqala Müdafiə Komitəsinə sədr təyin edilir [1, s.196].

Əziz Əliyevin Dağıstanın rəhbəri olduğu qısa bir müddətdə respublikanın müdafiə kompleksində işlər qaydasına salındı. Ağır müharibə illərinə baxmayaraq, xalqa ruh verən, onu qanadlandıran mənəviyyat sahəsində də ciddi irəliləyişlər görünürdü. Əziz Əliyevintəşəbbüsü ilə Dağıstan Dövlət Filarmoniyası yaradılmış, Kumık Teatrı, Avar Teatrı Mahaçqalaya köçürülmüşdü. İlk dəfə Dargin Teatrı işə başlamış, Lak Teatrı yenidən qurulmuş, Dövlət Tədris-Pedaqoji Nəşriyyatının bünövrəsi qoyulmuşdu. Elmi Tədqiqat İnstitutu, Qızlar Müəllimlər institutu, Qızlar Pedaqoji Məktəbi açılmış, Elmlər Akademiyasının yaradılması haqqında qərar qəbul edilmişdi. Bu partiya rəhbəri bir çox şairlərin kitabını nəşr etdirib xalq arasında tanıtdı. O zaman çox gənc olan Rəsul Həmzətovun ilk şeirlər kitabını gün üzünə çıxardı, təkidlə özünü Qorki adına Ədəbiyyat İnstitutuna oxumağa göndərdi. Onun şöhrət yolu buradan başladı və Ə.Əliyevin xidmətlərini unutmadı, "həyatımda böyük rol oynamış qeyri-adi insan" adlandırdı. Sonralar Dağıstanın Xalq şairi adını almış Rəsul Həmzətov onun sənət adamı kimi yetişməsində Əziz Əliyevin rolunu həmişə minnətdarlıq hissilə dilə gətirmişdir [1, s.102,117-120].

Ə.Əliyev 1946-cı ildə Dağıstan MSSR-dən SSRİ Ali Sovetinin deputatı seçilmişdir.O, 1948-ci ilin sonlarınadək Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışaraq özünü müdrik dövlət xadimi kimi göstərmişdir. Həqiqətən, məhz onun tələbkarlığı, təşkilatçılığı və fədakarlığı sayəsində Dağıstanda böyük uğurlar qazanılmışdı.

Əziz Əliyevin fəaliyyətinin Dağıstan dövrünə nəzər salarkən hər bir azərbaycanlı kimi, onun da Dağıstan xalqlarına bəslədiyi məhəbbətdən irəli gələn mühüm bir cəhət

diqqətdən yayınmır. Bu, başqa cür də ola bilməzdi. Çünki qardaş Dağıstan xalqları ilə Azərbaycan xalqının dostluq, qardaşlıq münasibətləri əsrlərin, qərinələrin sınağından çıxmış qırılmaz, əbədi tellərlə bağlıdır və min illər bundan öncə olduğu kimi, bu gün də xalqımızı bir-birindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Talelərimizin tarixən oxşarlığı, insan varlığının bütün əsas cəhətləri yüzilliklər ərzində minlərlə gözəgörünməz tellərlə xalqlarımızı birləşdirmişdir. Qafqaz xalqlarının qəlbində özünə abidə ucaltmış, ümumxalq məhəbbəti qazanmış Ə.Əliyevin Dağıstandakı quruculuq, dövlətçilik fəaliyyəti bu bölgənin elm adamları tərəfindən də unudulmamışdır. Belə ki, dağıstanlı elm adamı Şərafəddin Əhmədov "Əziz Əliyevin həyat və fəaliyyətinin Dağıstan dövrü (1942-48) "mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Az sonra bu doktorluq dissertasiyası Mahaçqalada kitab şəklində nəşr edilmşdir [1, s.118-120].

1949-1950-ci illərdə Əziz Əliyev Moskvada Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsində işləyirdi. O, 1950-ci ildə Bakıya dəvət olunur və Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsinə təyin edilir. 1951-ci il iyun ayının 12-də Azərbaycan KP MK bürosunun qərarı ilə Əziz Əliyevə şiddətli töhmət verilir, Nazirlər Soveti sədrinin müavini vəzifəsindən azad edilir. Azərbaycan KP MK-nın birinci katibi M.Bağırov ona öz rəqibi kimi baxır, gözümçıxdıya salırdı. Hər dövrdə olduğu kimi, bu dəfə də Əziz Əliyevi haqsızlıqlar ruhdan salmır.

Bundan sonra Əziz Əliyev Azərbaycan Elmi Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutuna direktor təyin olunur. Lakin qısa bir müddətdən sonra o, xüsusi göstəriş əsasında direktor vəzifəsindən azad olunur və Sabunçu xəstəxanasına həkim olaraqgöndərilir. 1953-cü ilin mart ayında Stalinin ölümündən sonra Azərbaycanın rəhbərliyi də dəyişildi. Bu zaman Əziz Əliyev həmin instituta direktor kimi yenidən qayıdır. 1959-cu ildən Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifəsində işləməyə başlayan Əziz Əliyev ömrünün axırına qədər öz fəaliyyətini bu elm ocağı ilə bağlayır. Bu gün institut Əziz Əliyevin adını şərəflə daşıyır. Əziz Əliyev 1962-ci il iyul ayının 27-də dünyasını dəyişir. Əziz Əliyevin mənalı həyatı və fəaliyyəti bu gün də xalqına xidmət edir. Görkəmli dövlət xadimi Əziz Əliyevin dövlət quruculuğu, xalqlar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, elmin təşkili, səhiyyənin inkişafı və başqa sahələrdəki çoxcəhətli fəaliyyəti, göstərdiyi xidmətlər tariximizi zənginləşdirən gələcək nəsillərə örnək ola bilən, mayası xalqa sədaqət, cəmiyyətə xidmət, insanlara diqqət və qayğı ruhunda yoğrulmuş qiymətli bir həyat salnaməsidir [1, s.197].

Qeyd edək ki, dünya şöhrətli dövlət xadimi, dahi mütəfəkkür Heydər Əliyev Əziz Əliyevin ailəsi ilə sıx tellərlə bağlı olmuş və bu ailədəki səmimiyyəti, insani, yaradıcı mühitin təsirini daim hiss etmişdir. Əziz Əliyevlə Heydər Əliyevin yaxın və səmimi münasibətləri qohumluq əlaqəsindən əvvəl də olmuşdur. Həm də yuxarıda qeyd etdiyimiz kimi, Əziz Əliyevlə Heydər Əliyevin taleyində, insani keyfiyyətlərində, həyatsevərliyində, prinsipiallığında, işgüzarlığında, təşkilatçılığında oxşar cəhətlər çoxdur.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra ölkə rəhbərliyi görkəmli elm və dövlət xadimi Əziz Əliyevin nəsillərə nümunə olan ömür yolunu yüksək qiymətləndirmiş, Ulu öndər bu müdrik insanın anadan olmasının 100 illiyinin qeyd olunması haqqında 6 sentybr 1996-cı il tarixində sərəncam imzalamışdı. 1997-ci il 27 aprel tarixində Mahaçqala

şəhərində Azərbaycan nümayəndə heyətinin də iştirakı ilə dövlət səviyyəsində Ə.Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmşdir. Bu sərəncama uyğun olaraq, Əziz Əlievin 100 illik yubileyi dövlət səvyyəsində Dağıstan nümayəndə heyəti ilə birlikdə 14 may 1997-ci il tarixdə Respublika sarayında yekun tədbiri olaraq təntənəli surətdə qeyd edilmişdir. Daha sonra yubiley gecəsinin açılışında Ümummilli lider səmimi və yad-daqalan nitq söyləmişdir. O, Ə.Əliyevin insani keyfiyyətlərini yüksək qiytmətləndirərək demişdir: "**Əziz Əliyev Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Mən Əziz Əliyevin həyat yolu haqqında daha çox, daha olğun danışa bilərəm, çünki onu şəxsən tanıyırdım. O, qeyri-adi insan idi. Həm də gözəl insan idi. Bir insan kimi, bir ata kimi olduqca gözəl adam idi. Sadə, məhrəm, ağıllı həmsöhbət olan bu insan tarixdən, ədəbiyyat və incəsənətdən çox şey bilirdi [1, s.13].**

Ulu öndər Ə.Əliyevin səbrli və iradəli bir insan olduğuna da toxunaraq göstərir ki, indi deyə bilərik ki, onun çox çətin,ancaq eyni zamanda xoşbəxt taleyi olubdur. O öz həyat yolunda bir çox çətinliklərlə, maeələrlə rastlaşmış, ancaq onları aradan qaldırmışdır. Ədalətsizliklə də qarşılaşmış,amma ruhdan düşməmişdir. 1938-ci il repressiyasından möcuzə nəticəsində xilas olmuşdur. Onu sonralar 50-ci illərin əvvəllərində yenə repressiya etdilər. Bu onun o vaxtkı rejimin bilavasitə Mir Cəfər Bağırovun tərəfindən həyata keçirdiyi repressiyalara məruz qaldığı dövr idi [1, s.13].

Ümummilli lider bu mərasimdə söylədiyi giriş nitqində daha sonra gənclik illərini xatırlayaraq demişdir: **"Bu gün geniş ictimaiyyətə bəlkə də ilk dəfə deyəcəyəm ki, mərhum həyat yoldaşım Zərifə xanımla 1948-ci ildə tanış olmuşdum. Az sonra mən Leninqrada oxumağa getdim. 50-ci ildə oradan Bakıya qayıdandan sonra, şübhəsiz ki, öz ailə həyatımı qurmaq, evlənmək fikrində idim. Xatirimdədir, 1951-ci ildə Ə.Əliyev işdən çıxarıldıqda Zərifə xanımla görüşdük və o, mənə dedi: "Deyəsən, biz daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irəli sürüblər. Sən isə dövlət təhlükəsizliyi orqanlarında işləyirsən və bu sənə zərər gətirə bilər. Odur ki, deyəsən, bizə birlikdə olmaq qismət deyilmiş... Mən, əlbəttə, etirazımı bildirdim və münasibətlərimiz davam etdi"** [1, s.12].

Ulu öndər, Əziz Əliyevə qarşı ədalətsizlik edərək repressiya törədənlərin taleyin hökmü ilə özlərinin ədalət divanına çəkildiyini,1956-cı ildə başda M.Bağırov olmaqla digər cinayətkarların da məhkəmə prosesində Əziz Əliyevin də iştirak etdiyini qeyd edərək demişdir: "**Müttəhimlər kürsüsündə M.Bağırovla birlikdə həmin general Stepan Yemelyanov da əyləşmişdi, o Yemelyanov ki, Əziz Əliyevlə əlaqə saxladığıma görə mənə 2 dəfə xəbərdarlıq etmiş və danlamışdı. Ona 25 il həbs cəzası kəsdilər. Görün, tale necə olur. Sonralar, 70-ci illərdə mən MK-nın I katibi işləyərkən Yemelyanov öz cəzasını çəkib Bakıya qayıtdı və mənə məktub yazaraq ona bəzi şəxsi işlərində kömək göstərməyi xahiş etdi. Həyat bax belədir"** [1, s.13].

Heydər Əliyev Ə.Əliyev və onun ailəsinin timsalında Azərbaycan xalqına qarşı törədilən repressiya və soyqırımları sadalayaraq xalqın nə qədər böyük məhrumiyyətlərə

məruz qaldığını vurğulamışdır: **"Xalqımız 1918-ci ildə soyqırıma məruz qalıbdır. Sonra Ermənistanda yaşamış azərbaycanlıları 1948-ci ildən etibarən Stalinin xüsusi qərarı ilə və yenə də M.Bağırovun iştirakı ilə zor gücünə Azərbaycana deportasiya etmişlər. 1918-ci ildə Ə.Əliyevin ailəsi soyqırıma məruz qalaraq deportasiya edilmişdir. Onun orada qalan nəsilləri 1948-1953-cü illərdə köçürülmüşlər. Ermənistanda qalanlar isə 1988-ci ildə gözümçıxdıya salınmış, məhv edilmiş, zorla oradan çıxarılmışdır. 20-ci, 30-cu, 40-cı, 50-ci illərin repressiyaları totalitar sovet rejiminin Azərbaycan xalqına qarşı törətdiyi ən ağır cinayətdir"** [1, s.14].

Heydər Əliyev daha sonra Dağıstan və Azərbaycan xalqlarının tarixi birliyindən, mehriban qonşuluq münasibətlərindən bəhs edərək bunları demişdir: **"Ə.Əliyev kimi görkəmli insanlar Dağıstan və Azərbaycan xalqları arasında dostluğun və qardaşlığın möhkəmlənməsinə çox böyük töhfə vermişlər. Bizim Dağıstanla olan münasibətlərimiz Rusiya ilə dostluq münasibətləri deməkdir. Biz Rusiya, rus xalqı ilə həmişə dostluq və mehriban münasibətlər şəraitində yaşamışıq. İndi də bu cür münasibətlər şəraitində yaşayırıq. Biz Azərbaycan ilə RF arasında dostluq və əməkdaşlığı gələcəkdə də möhkəmləndirəcəyik... Əminəm ki, Dağıstan və Azərbaycan xalqları arasında dostluq və qardaşlıq əbədi olacaqdır. Ə.Əliyev bu dostluğun simvoludur"** [1, s.15-16].

Görkəmli elm və dövlət xadimi Ə.Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətləri Ulu öndərin layiqli davamçısı ölkə prezidenti İlham Əliyev tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Belə ki, İlham Əliyevin müvafiq sərəncamları ilə Əziz Əliyevin anadan olmasının 110 və 120 illik yubiley tədbirləri keçirilmiş, bu böyük elm xadiminin nəsillərə nümunə olan elmi irsi,dövlətçilik fəaliyyəti dərindən öyrənilmiş və təbliğ olunmuşdur.

Son dərəcə çətin, eyni zamanda şərəfli bir ömür yaşayan,keşməkeşli yollardan keçib zirvələrə yüksələn Əziz Əliyev Azərbaycan səhiyyəsində, Azərbaycan dövlətçiliyində, tibb aləmində əbədiyaşarlıq qazanmış abidə şəxsiyyətdir. Onun parlaq ömür yolu gənclərimizə örnək, gələcəyimizə mayakdır.

ƏDƏBİYYAT

1. Azərbaycan və Dağıstanın böyük oğlu. – Bakı: Göytürk, – 1998. – 238 s.
2. Əliyev, Ə. Böyük ömrün anları (məqalə və xatirələr). – Bakı: Nurlan, – 2008. – 190 s.
3. Görkəmli dövlət və elm xadimi Ə. Əlyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi //Azərbaycan və Dağıstanın böyük oğlu, – Bakı: Göytürk, – 1998. – s. 5-16
4. Talıblı, T. Əziz Əliyev: dövrü, həyatı, şəxsiyyəti. – Bakı: Göytürk, – 1997. – 286 s.

SUMMARY

Abulfaz Guliyev

THE PROMINENT PERSONS OF WESTERN AZERBAIJAN: AZIZ ALIYEV

Aziz Aliyev, a prominent scientist and statesman, one of the worthy children of our Western Azerbaijan, has had a turbulent, difficult and painful life. As one of the Azerbaijani families who suffered greatly from Armenian oppression in the city of Iravan, Aziz Aliyev's family was displaced from his native land, his warm home, and was forced to live as a refugee. One of the families that took refuge in Nakhchivan was the family of Aziz Aliyev. This young man went to Baku to continue his education in 1923. A. Aliyev, who was appointed the III Secretary of the Central Committee in 1941, was sent to Iran to help the national liberation movement, and in 1942-1948 he worked as the First Secretary of the Provincial Party Committee of the Dagestan Autonomous Republic. A. Aliyev worked in Moscow for several years, and in 1950 he was sent to the position of Deputy Chairman of the Council of Ministers of the Azerbaijan SSR, where he was repressed and persecuted by its head M. Bagirov. Aziz Aliyev, who is related to the great leader Heydar Aliyev, braved all privations and difficulties and always served the country and the state with loyalty. All these issues are discussed in detail in the article.

Key words: *Aziz Aliyev, Armenian brutality, refugee life, health organizer, statesman*

QƏRBİ AZƏRBAYCANIN GÖRKƏMLİ İSLAM ALİMLƏRİ

Səbuhi İBRAHİMOV
s.ibrahimov71@mail.ru
AMEA Naxçıvan Bölməsi

Məqalədə Qərbi Azərbaycanın görkəmli islam alimlərinin həyatı və yaradıcılığı, nüfuz dairələri, onların islam elmlərinə yiyələnməsi zərurəti, Şərq aləmində onların yeri və rolu haqqında məlumatlar verilmişdir. Həmçinin Azərbaycanın digər mütəfəkkir islam alimləri ilə yanaşı, onların müxtəlif elmlərə sahib olmaları faktı əhəmiyyətli dərəcədə işıqlandırılmışdır. 30-dan artıq Qərbi Azərbaycanın görkəmli islam alimlərinin fəaliyyət dairəsi, onların doğma yurda olan sevgi və məhəbbəti "İrəvani" təxəllüsündə öz əksini tapmışdır.

Aparılan araşdırmalardan məlum olmuşdur ki, Qərbi Azərbaycanın islam alimləri ilə yanaşı, digər elm sahələrinin müxtəlif bilik və bacarıq tələb edən istiqamətlərində görkəmli mütəfəkkirləri də olmuşdur.

Açar sözlər: *Azərbaycan, qərbi, islam alimləri, İrəvani, görkəmli, elm.*

Giriş

XIX əsrin sonu XX əsrin əvvəllərində İslam dini uğrunda qətiyyətlə mübarizə aparan və yaşadıqları dövrün əvəzsiz zülmlərinə, işgəncələrinə məruz qalmış tanınmış görkəmli üləmalar sırasında Qərbi Azərbaycanın mütəfəkkir islam alimlərinin də yeri danılmazdır. Bu bölgədə yaşayan görkəmli müctəhid və ayətullahlar dövrün ən əzablı yollarını keçmişlər. Mənəvi saflıq yolunu, humanist prinsipləri rəhbər tutaraq əqidə azadlığını təbliğ edən Qərbi Azərbaycanın görkəmli islam alimləri get-gedə mənfur erməni hucumuna məruz qalmış və nəticədə öz doğma ata-baba yurdlarını tərk edərək Azərbaycanın digər ərazilərinə pənah gətirmişlər. Milləti saf əqidə amalları uğrunda və milli-mənəvi əsaslarla tərbiyələndirən görkəmli islam alimləri Vətənin, torpağın nə olduğunu dərindən dərk etmişlər. Təkcə 30-a yaxın müctəhid və ayətullah "İrəvani" ləqəbi ilə tanınmış Qərbi Azərbaycanın görkəmli islam alimləri Şərq aləmində böyük nüfuz sahibi olmuşlar. Bunlardan Ayətullahul-üzma Mirzə Əli İrəvani, Ayətullah Hacı Şeyx Yusif İrəvani, Ayətullah Şeyx Əbdül-Kərim İrəvani, Ayətullah Şeyx Mövla Həsən İrəvani, Ayətullah Həkim Şeyx Əbül-Qasim İrəvani, Ayətullah Mirzə Baqir İrəvani, Ayətullah Hacı Şeyx Əhməd İrəvani, Ayətullah Hacı Şeyx Əbdül Cabbar İrəvani, Ayətullah Hacı Şeyx Cavad İrəvani və başqaları Şərqin və Azərbaycanın tanınmış simaları olmuşlar.

Şərq aləmində tanınan Azərbaycan alimləri

Qərbi Azərbaycanın mütəfəkkir islam alimləri sırasında özünəməxsus yeri olan fiqh elminin bilicisi, mütəfəkkir ziyalısı və böyük din xadimi Ayətullah Hacı Şeyx Cavad İrəvani olmuşdur. Atası Ayətullahul-üzma, Şeyx Məhəmməd Fazil İrəvaninin vəfatından sonra islam elmlərini tədris edən ustadlardan biri olmuşdur. O, 1870-ci ildə Nəcəfi-Əşrəf şəhərində alim ailəsində anadan olmuşdur. Uşaqlığ illərindən elmə, biliyə marağı olduğu üçün təhsilini ilk öncə evdə atasından almışdır. Sonra islam elmlərini, fəlsəfə və irfan

elmlərini dərindən yiyələnmək üçün məşhur filosof və müctəhid Ayətullah Seyid Hüseyn Badkubeyi və Ayətullah Şeyx Əbdül Həkim Səbzivaridən dərs almaqla ağır və zəhmətlərdən sonra elmi və əməli cəhdlər məqamına nail olur. Görkəmli alim Ayətullah Hacı Şeyx Cavad İrəvani 1958-ci ildə Nəcəfi-Əşrəf şəhərində vəfat edir.

Ayətullah Mirzə Əlixan Ağa Mirzə oğlu İrəvani İslam dininin görkəmli alimlərindən olmuşdur. O, din xadimi olmaqla yanaşı, həmçinin də gözəl həkimlik istedadına malik olmuşdur. Ləla İrəvani adı kimi şöhrət qazanan alim 1837-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Cavanlığında islam elmlərinə və tibb elmlərinə həvəsi olan İrəvani dövrün məşhur müctəhidlərindən olmuşdur. O, tibb elmlərini dövrünün məşhur həkimlərindən olan Sadiq Mirzə Əbül Həsən Həkimbaşından almışdır. Elmini daha da mükəmməlləşdirmək üçün Türkiyənin İstanbul şəhərinə getməklə öz məqsədinə çatır. Ağır zəhmətlərdən sonra tibb elminin müxtəlif sahələrinə sahib olur və təbabət aləmində məharətli həkim kimi tanınır. Nəsrəddin Şahın zamanında ona Şəmsil-Hükəma ləqəbi verirlər. O, təbiblikdən əlavə İslam elmlərinin müqəddimatını, habelə ərəb ədəbiyyatını gözəl şəkildə bilmişdir. "Bundan əlavə, şeir yazmaq məharəti olan alim bu istedadından gözəl şəkildə istifadə edərək İslama xidmət etmişdir. Onun türk və fars dilində çoxlu şeirləri vardır" [1, s. 150].

Digər bir tanınmış islam alimlərindən olan Ayətullah Hacı Mehdi İrəvani olmuşdur. "Bu alimin şərəfli adının Nəcəfi-Əşrəf şəhərində olan islam alimləri arasında məxsus yeri var. ...Nəcəfdə dərs deyən alimlərdən biri olub. 1887-ci ildə Nəcəfi-Əşrəfdə 19 otaqdan ibarət mədrəsə tikdirib və "İrəvani" mədrəsəsi adı ilə tanınıb" [1, s. 151].

Ayətullah Hacı Seyid Əli Ağa İrəvani dövrün məşhur islam alimlərindən olmuşdur. 1802-ci ildə İrəvanda anadan olan Ayətullah Hacı Seyid Əli Ağa İrəvani körpə yaşlarından hafizəliyi və dərrakəsi ilə seçilmişdir. Atası onu Nəcəfi-Əşrəfdə Əllamə Şeyx Mürtəza və Ayətullah Seyid Hüseyn Kuhkəməridən təhsil almaq üçün Nəcəfə göndərmişdir. Elmini, təhsilini uğurla başa vuran alim müctehidlik dərəcəsinə çatmışdır. O, 1873-cü ildə öz doğma vətəni olan İrəvana qayıtmışdır. Bir müddət doğma vətənində müəllimlik etmiş, ərəb və fars dillərində dərs demişdir. Bir neçə kitabın müəllifi olmuş və öz əlyazma xətti ilə yazdığı Risaləsi indi də qorunub saxlanılmaqdadır. "Alimin böyük kitabxanası bu gün də Nəcəfdə qalmaqdadır. Deyirlər ki, onun yadigarı: kitabxanası və oğlu böyük alim Ayətullah Ağa Mir Hoccət İrəvanidir" [1, s. 153]. O, 1906-cı ildə vəfat etmiş və Nəcəfi-Əşrəf şəhərinin "vadeyi-islam" qəbristanlığında dəfn olunmuşdur.

Qərbi Azərbaycanın görkəmli islam alimlərindən biri də Fazil İrəvani olmuşdur. O, 1782-ci ildə İrəvan şəhərində dünyaya göz açmışdır. İlk təhsilini həmin şəhərdə almış və 20 yaşında ali təhsil almaq üçün isə Misirin Qahirə şəhərinin "Əl-Əzhər" Universitetinə getmişdir. Orada təhsil aldıqdan sonra elmi biliklərin mükəmməlləşdirmək üçün İraqın Nəcəfi-Əşrəf şəhərinə qayıtmış və bir müddət orada qalmalı olmuşdur. 45 yaşında Təbrizə, İsfəhana gəlmiş və orada axundluq etmişdir. Zaman keçdikcə Şərqin tarixi keçmişi haqqında dəyərli əsərlər yazmışdır. Vətən həsrəti, Azərbaycanın gözəl guşəsi olan İrəvanın abu-havası onu yenidən öz doğma yurduna qayıtmağa vadar edir. Bir müddət İrəvan şəhərinin tarixi mənzərəsi ilə gözəlləşdirən "Göy Cami" məscidinin baş axundu kimi fəaliyyət göstərir. Yaşadığı dövr Rusiya-İran müharibələrinin gərgin illərinə təsadüf edir.

1846-cı ildə Fazil İrəvani Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam vəzifəsinə seçilir. "Şeyxülislam Fazil İrəvaninin yaradıcılığı araşdırılarkən onun dövrünün ən görkəmli yaradıcı şəxsiyyətlərindən biri olduğu aydınlaşır. O, bir neçə ədibi, tarixi və dini səciyyəvi əsərlərin müəllifidir. Əsərləri bir çox dillərə tərcümə olunmuş və Təbrizdə, Peterburqda, Berlində, Parisdə, İrəvanda çap olunmuşdur" (1, s. 157).

Etibarlı mənbələrdən məlum olur ki, onun "Tarixi-İrəvan" adlı əsəri də olmuşdur. "Əsər İrəvan və Qərbi Azərbaycan əyalətlərinin tarixinə, Azərbaycan xanlıqlarının fəaliyyətinin tarixi tədqiqatına həsr edilmişdir. Təəssüf ki, bu əlyazmanın bu günə qədər hansı arxivlərdə saxlanılması bəlli deyildir" (1, s. 157).

Onun əsas məşhur əsərləri "Paklıq kitabı", "Tarixi-İrəvan", "Qızılgül və bülbül" (bu əsərin əlyazması İrəvanın M.Maştas adına Qədim Əlyazmalar İnstitutunda saxlanılır), institutun Şərq ədəbiyyatı şöbəsində "Şeirlər məcmuəsi" adlı azərbaycanca 222 saylı bir əlyazma da var ki, 28 səhifəlik bu əlyazmanın üzünü Fazil İrəvani köçürmüşdür. Burada Azərbaycan şairlərinin şeirləri və deyişmələri toplanmışdır.

Fazil İrəvani 1885-ci ildə 103 yaşında Qərbi Azərbaycanın gözəl guşəsi olan İrəvan şəhərində dünyasını dəyişmişdir.

Bundan əlavə, Qərbi Azərbaycanın görkəmli islam alimlərindən: Ayətüllah Hacı Mehdi İrəvani [3, s. 221], Ayətüllah Seyyid Əbdülməcid İrəvani [3, s. 470], Ayətüllah Hacı Şeyx Məhəmmədtəqi İrəvani [1, s. 146] olmuşdur.

Hətta Naxçıvan alimlərinin digər islam alimlərindən bəhrələnməsi, xüsusən Ayətüllah Seyyid Mustafa Naxçıvaninin kamil şəkildə yetişməsində M.M.İrəvaninin rolu danılmazdır. S.M.Naxçıvani "Dövrünün tanınmış alimləri Mirzə Hüseyn Xəlil Tehrani, Şeyx Həsən Mamaqani, Şeyx Molla Kazım Xorasani, Molla Məhəmməd İrəvani və digər görkəmli alimlərdən təhsil alaraq bəhrələnmişdir" (2, s. 202).

Şərqin nüfuzlu Naxçıvan alimlərindən biri də tanınmış elm xadimi Ayətüllah Seyyid Mustafa Naxçıvanidir. O, Şərqin qabaqcıl mütəfəkkirlərindən biri olmuş, öz elmi ixtiraları ilə bərabər dəyərli tələbələr yetişdirmişdir. 1859-cu ildə könül oxşayan qədim Naxçıvan şəhərində dünyaya göz açan S.M.Naxçıvani uşaqlıq illərindən elə və sənətə yiyələnmək arzusunda olmuşdur. Bu maraq onu Nəcəfi-Əşrəf şəhərində yerləşən elm mərkəzinə getməyə vadar etmişdir. Burada təqvalı və əxlaqlı əsl insani sifətlərə yiyələnən alim yüksək dərəcəyə çatmışdır. Dövrünün tanınmış alimləri Mirzə Hüseyn Xəlil Tehrani, Şeyx Həsən Mamaqani, Şeyx Molla Kazım Xorasani, Molla Məhəmməd İrəvani və digər görkəmli alimlərdən təhsil alaraq bəhrələnmişdir.

Hətta S.M.Naxçıvani Nəcəfi-Əşrəfdə ayətüllah Sərəbyaninin, Fazil İrəvaninin, Şeyx Məhəmmədhəsən Kaziminin və Hacı Mirzə Həbibullah Rəştinin davamlı olaraq dərslərin almış və mərhum İrəvaninin fiqh və üsul dərslərində mütəmadi iştirak etmişdir. O, Şərəbiyaninin vəfatından sonra onun əvəzindən şəri hökmlər vermişdir.

Bu bir həqiqətdir ki, Qərbi Azərbaycanın görkəmli islam alimləri nəinki bölgə üçün, həmçinin bütün Şərq aləmi üçün əvəzedilməz simalara çevrilmişdir. Doğma vətənimiz olan Azərbaycan milli mənsubiyyətindən asılı olmayaraq, hər bir xalqın, millətin nümayəndəsi üçün əziz və doğmadır. Çünki xalqımız öz milli mədəniyyəti ilə digərlərinə örnək ola bilən bir çox keyfiyyətlərə malikdir. O cümlədən islami və milli-mənəvi

dəyərləri olduğu kimi, həmçinin digər müsbət keyfiyyətli prinsiplərə malik olan qədimliyi ilə seçilən bir xalqdır. Tarixi mənbələrə əsaslanaraq aparılan araşdırmalarda məhz Qərbi Azərbaycanın görkəmli islam alimlərinin Şərq aləmində rolu və yeri təhlil edilmiş, onların həyat və yaradıcılığı haqqında müəyyən məlumatlar əldə edilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəlləri Qərbi Azərbaycanın görkəmli islam alimləri özlərinə əsasən **"İrəvani"** ləqəbi götürmüşlər. Bu da öz növbəsində Qədim Azərbaycan yurdu olan İrəvan şəhəri haqqında olan həqiqətləri bir daha ortaya qoyur. Əzəli və əbədi Azərbaycan torpaqları olan Qərbi Azərbaycan əraziləri həm tarixi gerçəklikləri ilə, həm də fəxredici alim və ziyalıları ilə yadda qalmışdır.

Nəticə

Güman etmək olar ki, Qərbi Azərbaycan mədəniyyət və ədəbiyyatı, o cümlədən islami dəyərləri canlandırıb yaşadan görkəmli islam alimləri bu gün ulu əcdadlarımızın bizə miras qoyduğu milli-mənəvi dəyərlərimizi qorumaq, yaşatmaq və gələcək nəsillərə çatdırmaq üçün bilik məbədimiz olacaqdır. Həmçinin məntiqi nəticə olaraq Qərbi Azərbaycanın görkəmli islam alimlərinin həyatı və elmi yaradıcılığı ilə bağlı aparılmış araşdırmalar, onların dəyərli əsərləri barədə məlumatlar əhəmiyyətli dərəcədə qiymətləndirilmiş və öz bəhrəsini vermişdir. Aparılmış araşdırmalar Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin tarixi köklərindən geniş və ətraflı məlumat verməklə müsəlman dünyasında tanınmış görkəmli şəxslərin Azərbaycan xalqının milli ideologiyasında yaratdığı mühüm və əvəzedilməz dəyərli sahələri ətraflı tərənnüm etdirmişdir.

ƏDƏBİYYAT

1. Abbasov, Y.B. İslam alimləri.Dünyada tanınmış Azərbaycanlı müctəhidlər, Ayətullahlar: XVI-XX əsrlər. – Bakı: Nurlar, – 2007. – 440 s.
2. İbrahimov, S.M. Naxçıvanın mənəvi-mədəni irsinə dair əlyazma mətnləri. – Bakı: Elm və təhsil, – 2017. – 336 s.
3. بخشایش دکتر عقیقی مفاخر آذربایجان .جلد اوّل،تبریز: نشر آذربایجان 1375ش، ص708

SUMMARY

Sabuhi Ibrahımov

PROMINENT ISLAMIC SCHOLARS OF WESTERN AZERBAIJAN

The article provides information about the life and creativity of prominent Islamic scholars of Western Azerbaijan, their spheres of influence, the need for them to master Islamic sciences, their place and role in the Eastern world. Also, along with other thinking Islamic scientists of Azerbaijan, the fact that they have different sciences has been highlighted to a significant extent. The sphere of activity of more than 30 prominent Islamic scholars of Western Azerbaijan, their love and affection for their native land is reflected in the pseudonym "Iravani".

It was found out from the conducted researches that in addition to the Islamic scientists of Western Azerbaijan, there were also prominent thinkers in other fields of science that required different knowledge and skills.

Key words: *Azerbaijan, Western, Islamic scholars, Yerevan, outstanding, science*

İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI MÜƏLLİM HAZIRLIĞINDA MÜHÜM TƏHSİL OCAĞI KİMİ

Mətanət QULİYEVA
Naxçıvan Dövlət Universiteti
m.quliyeva1963@gmail.com

Hər millət öz tarixi və mədəniyyəti ilə tanınır. Öz fəaliyyətini 140 il əvvəl qədim Azərbaycan torpağı İrəvanda başlayan İrəvan Müəllimlər Seminariyası millətimizin pedaqoj fəaliyyət və mədəniyyətindən xəbər verir. Cənab prezidentimizin sərəncamı ilə İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyi yaddaşları təzələdi və azərbaycanlı müəllim və alim heyyətini bu yolda yeni axtarışlara sövq etdi. Hər bir millət öz tarixini həyatı boyu çiyinlərində daşıyır. Yaddaşları yeniləmək və gələcək nəsillərə çatdırmaq adına bu ənənənin davam etdirilməsi təqdirəlayiqdir. Keçmişi bilmədən, analiz etmədən gələcəyə addım atmaq, inkişaf etmək və məqsədə nail olmaq mümkün deyil. Tariximizi öyrənib və təbliğ etmə nöqteyi nəzərindən keçmişimizə sahib olmalı, mənəvi dəyərlərimizə yönlənərək yiyələnməliyik. Bu baxımdan İrəvan Müəllimlər Seminariyasının fəaliyyətini yenidən nəzərdən keçirərək elmi – pedaqoji, siyasi – ideoloji, mədəni – mənəvi dəyərləri ilə zəngin olan bu seminariyanı tədqiq etməyə dəyər. Biz İrəvandakı nəslin tarixinin sahibi olmalıyıq ki, mənfur düşmənlər bizim mədəniyyətimizi sahiblənməsinlər.

Açar sözlər: *İrəvan, seminariya, müəllim, sinif*

Giriş

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.

İrəvanda yeni sistemli təhsilin inkişafı XIX əsrin 30-cu illərinə təsadüf edir. Həmin illərdə Zaqafqaziya məktəbinin yaranması haqqında sərəncamlar imzalanmışdır. Sərəncama əsasən Cənubi Qafqazda 20 məktəb açılmışdır. 1832-ci ildə İrəvanda ikiillik məktəb, 1839-cu ildə üçillik, 1869-cu ildə dördillik – gimnaziyayaqədərki, 1881-ci ildə isə gimnaziya yaradılmışdır. 600-a qədər azərbaycanlı bu gimnaziyadan məzun olmuşdur.

Firudin bəy Köçərli Azərbaycan xalqının təhsil və mədəniyyətində xüsusi xidməti olan elm xadimidir. Onun iştirakı ilə bu illərdə yeni dərs nümunələri yaradıldı ki, artıq dərslər Azərbaycan dilində keçirilməyə başlandı. 1882-ci ildə Məşədi molla İsmayıl Hacı Kazımov və Mirzə Kazım Əsgərzadə, 1883-cü ildə Mirzə Həsən Ruşdi ilə Təbrizdən İrəvana gələrək orada tədris müəssisəsi açdılar [Cəfərov, Allahverdiyev 2017, 63-65]. Bu müəssisənin açılması ilə əlaqədar olaraq güclü və tələbkeş pedaqoji heyət və müəllimlər bu tədris müəssisəsinə cəlb olundu. İrəvan Müəllimlər Seminariyasının verdiyi birinci qərara görə burada 16 yaşdan yuxarı xristian uşaqları oxumalı idi. 1875-ci ildə yeni qərarla İrəvan Müəllimlər Seminariyasında xristian uşaqları ilə yanaşı, müsəlman uşaqlarının da oxumasına icazə verildi. Seminariyada hazırlıq və ibtidai siniflər fəaliyyətə başladı. Seminariyada təhsil alacaq şagirdlər təcrübədən keçirdilər. Seminariyada şagirdlərin yaşaması üçün yataqxana da fəaliyyət göstərirdi. Burada Azərbaycan, gürcü, rus, erməni və başqa xalqların nümayəndələri təhsil alırdı. Bu seminariyanın qanun qaydaları Qori

Müəllimlər Seminariyası ilə demək olar ki, eyni idi. Seminariya öz fəaliyyətinə 2 qrupla başladı: hazırlıq və birinci sinif. İkinci dərs ilində artıq 2-ci sinif formalaşmış oldu. 1883-cü ildə isə 3-cü sinif yarandı. Başqa seminariyalarda olduğu kimi İrəvan Müəllimlər Seminariyasında da 4 sinif var idi. Hər il hazırlıq qrupları təzələnirdi. İkinci və üçüncü siniflərə qəbul yox idi. Birinci sinif şagirdləri məntiq, riyaziyyat, həndəsə, rus dili, coğrafiya, Azərbaycan dili, tarix və biologiya fənnlərini keçərək imtahan verirdilər. İldən–ilə şagirdlərin sayı çoxalmağa başladı. İbtidai siniflərdə 61 nəfərdən 13 nəfəri azərbaycanlı idi.

1889 – 1900-cu illərdə Məşədi Bağır Qasımzadə İrəvan Müəllimlər Seminariyasında dərs deməyə başlamışdı. Azərbaycan uşaqlarının beşyaşlı siniflərə qəbulu məcburi deyildi. Siniflərin təşkili uşaqların bilik səviyyəsindən asılı idi.

İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk müəllimlərdən biri də Məmmədbağır Qazızadə idi. İrəvan Müəllimlər Seminariyası təşkil olunduğu ilk gündən məntiq və Azərbaycan dili dərsləri keçirilirdi. 1897-1917-ci illərdə isə yalnız məntiq dərsləri keçirilirdi. 1892-ci ildə Mirzə Rəhim Xəlilov seminariyada Azərbaycan dili dərsləri deməyə başladı. O bu seminariyanın məzunu olaraq Qasımzadə tərəfindən tövsiyyə olunmuşdur. Müxtəlif zamanlarda Məmmədbağır Kərimzadə, Mirzə Məmmədəli Qəmərli, Rəşid bəy Şahtaxtinski, Məmmədbağır Qazızadə, Həmid bəy Şahtaxtinski, Zəfər bəy Zəfərbəyov, Məmməd Axundov, axund Məmmədbağır Tağızadə, Mirzə Cabbar Məmmədzadə və bu kimi bir sıra azərbaycanlı elm adamları şəriət və Azərbaycan dili dərslərini tədris edirdilər [Cəfərov, Allahverdiyev 2018, 81-83].

Başqa seminariyalarda olduğu kimi İrəvan Müəllimlər Seminariyasında da təhsil ödənişli əsaslarla fəaliyyət göstərirdi. Şagirdlərin bir hissəsi dövlət hesabına oxuyurdu. Qəbul olunan il 220 manat, sonuncu illər isə 180 manat ödəyirdilər. 70 şagirddən 20-si öz büdcəsi hesabına təhsil alırdı. "Qafqaz təqvimi"nə görə 128 seminaristdən 46-sı rus, 37-si erməni, 30-u azərbaycanlı, 6-sı gürcü, 9-u isə başqa millətlərdən idi.

1884-cü ildə İrəvan Müəllimlər Seminariyasının birinci buraxılışı oldu. Həmin il 5 azərbaycanlı məzun oldu. 1893-cü ildə 10, 1903-cü ildə 20, 1913-cü ildə isə 30 nəfərin buraxılışı oldu. İrəvan Müəllimlər Seminariyasının pedaqoji şurasının qərarı ilə 1895-ci ildə Cəlil Mirzəyev, Tağıbəy Səfiyev, Məmməd bəy Qazıyev, 1902-ci ildə isə İbadulla bəy Müqaliski, Cabbar Məmmədov, Şamdan Mahmudbəyov və başqalarına kənd müəllimləri vəzifəsində çalışmağa icazə verildi. Bu missiyanın ideyaverici və təşkilatçısı Məmmədbağır Qazızadə olmuşdur. Məzunlar təyinatla bölgələrə gedir və ya əks təqdirdə 650 manat məbləğində pul ödəyirdilər.

Müxtəlif illərdə məzun olmuş azərbaycanlı seminaristlər bunlar idi: Mirzəbağır Əliyev, Əhməd bəy Qazıyev, Əli Əşrəf Qazıyev, Həsənbəy axund molla Xəlil bəy oğlu Qazıyev, Fərəməz Mahmudbəyov, Yusif bəy Qazıyev, Məmməd bəy Əlibəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, Saleh Məşədi Teymur oğlu Güllüdünskiy, Ağabəy Rəhimbəy oğlu Firudinbəyov, Abbas Allahverdi oğlu Qədimov, Mirhəşim bəy Vəzirov, Əli Sultanov, Fərrux Ağakişibəyov, Şıxəli bəy Firudinbəyov, İbrahim bəy Şahtaxtinski, Rəşid bəy İsmayılov, Həbib bəy Səlimov, İsmayıl bəy Şəfibov, Nəcəf bəy Vəzirov, Həşim bəy Vəzirov, Mirzə Abbas Məmmədzadə, Cabbar

Məhəmmədzadə, İbadulla bəy Muqalinskiy, Vahid Musabəyov, Hüseynəli bəy Rüstəmbəyov, Tağı bəy Səfiyev, Həşim bəy Nərmanbəyov, Həmid bəy Şahtaxtinski, İbadulla bəy Muqalisnki və başqaları [Cəfərov, Allahverdiyev 2017, 103-105].

Soyqırımın nəticəsində 1918 – 1920-ci illərdə İrəvanda bütün Azərbaycan məktəbləri bağlandı. İrəvan cəmiyyəti erməni vəhşiliyinin qurbanı oldu. Azərbaycanlı ziyalılar şəhərdən çıxmaq məcburiyyətində qaldılar. Onların bir hissəsi İrana, digər hissəsi Türkiyəyə, qalan hissəsi isə Azərbaycana qaçdı. Öz doğma yerlərini atan azərbaycanlılar adət - ənənələrindən, mədəniyyətlərindən qoparaq müxtəlif yerlərdə, müxtəlif adət və ənənələrə uyğunlaşıb yaşamalı oldular. Yalnız azərbaycanlılardan ibarət kiçik bir hissə İrəvana qayıda bildi. Onlar öz doğma torpaqlarında azsaylı xalq şəklində yaşamağa başladılar.

1920 – ci il dekabrın 9-da Xalq Kommisarları Soveti məktəb, məscid və kilsələr haqqında qanun imzaladı. Eləcə də 17 dekabr 1920 – ci ildə Xalq Kommisarlığı məktəblərdə təhsilin ana dilində və pulsuz keçirilməsi haqqında qərar imzaladı. Qərara əsasən azərbaycanlılar öz doğma dillərində təhsil almaqla yanaşı erməni dilində və hər hansı bir xarici dildə də dərslər keçməli idilər. 1921 – ci ildə Mərkəzi Kommitənin azsaylı xalqlar haqqında çıxartdığı qərara görə Türk sektoru yaradıldı. Əvvəllər bu sektora irəvanlı Məmmədəli Nəsir, sonra isə Bala Əfəndiyev rəhbərlik etdi.

1932–ci ildə "azsaylı xalqların soveti" yaradıldı. "Azsaylı xalqlar soveti" Azərbaycan xalqının təhsil alması yolunda böyük rol oynadı və savadsızlığın aradan qaldırılmasına köməklik etdi. Az müddət ərzində azərbaycanlıların tələbi üzərinə məktəblərdə təkmilləşdirmə kursları yaradıldı. Bəzi müəllimlər Bakıya gedərək orada təkmilləşdirmə kurslarında öz təhsil və təcrübələrini artırırdılar.

1922-ci ildə Ermənistanda 32 Azərbaycan dilində ümumtəhsil məktəbi var idisə, 1923 – 1924-cu ildə isə bu rəqəm 104-ə qalxdı. Sovet İttifaqının ilk illərində Azərbaycan uşaqları rus – tatar qız məktəbində (İrəvanda), Məşədi Əzizbəyov adına məktəbdə, Həşim bəy Nərimanbəyov adına texnikumda (əvvəllər S.M.Kirov adını daşıyırdı), Mirzə Fətəli axundov adına məktəbdə və 2 ayrı beynəlxalq məktəbdə təhsil alırdılar. Bu illərdə İrəvanda savadsızlığa qarşı kurslar açılmağa başlandı. 1923-cü ildə savadsızlığa qarşı açılmış bu kurslarda əsasən evdar qadınların təhsili xüsusi yer tuturdu. 1925-ci il 30 mayda Əzizbəyov adına məktəbdə yeni əlifbanın tədrisi üzrə müəllimlərin iclası keçirilmişdir.

1930-1931-ci tədris illərində Ermənistanda 971 məktəb, 132300 şagird qeydə alınmışdır. Bunların cəmi 132-si Azərbaycan məktəbi, 9536 şagirdi isə azərbaycanlı olmuşdur. 1936-cı ildə Ermənistandakı Azərbaycan məktəblərində 541 pedaqoq fəaliyyət göstərmişdir ki, onlardan yalnız 5 nəfərin ali təhsili var idi. 1935-ci ildə Leninakanda (Qumru) tədrisi Azərbaycan dilində olan 2 pedaqoji institutut açıldı ki, orada yalnız qiyabi təhsil almaq mümkün oldu. Sonra bu institutut Dilicana köçürüldü, daha sonra isə bağlandı. İkillik pedaqoji institutda dərs deyən pedaqoqlar Bakıdan gəlirdi. Həmin illərdə çox qarışıq siyasi proses hökm sürürdü. Belə ki, 1928-ci ildə azərbaycanlılara məscidlərdə öz dini məclislərini və tədbirlərini keçirməyə icazə verilmirdi.

Həmin illərdə azərbaycanlıların bir çoxu İrəvanda repressiyaya məruz qaldılar. İbtidai təhsilini İrəvanda almış, sonra Bağdad və Nəcəfdə davam etdirmiş, ərəb və fars dillərini mükəmməl bilən savadlı xadim Mirzə Hüseyn ağa həmin illərdə repressiyanın qurbanı oldu. Mənfur ermənilər Mirzə Hüseyn ağa ilə kifayətlənməyib, onun ardınca gedənləri : Hüseyn Cavid, Bəkir Çobanzadəni də Sibirə sürgün etdirdilər. İrəvanda çıxan "Qızıl Şəfəq" qəzetində Mustafa Hüseynovun həbs edilib güllələnməsi haqqında yazılırdı. Qəzetin digər əməkdaşları İbrahim Əliyev, şair Abbas Azəri, İsmayıl Əliyev, Abdulla Mirzəyev də repressiyanın qurbanı oldu. 1930 – 1935-ci illərdə İrəvan – Türk pedaqoji texnikomunun 102 tələbə və müəllimi bəy, xan, mülkədar, hökmdar adı altında sürgün edildilər. İrəvan pedaqoji texnikomunun məzunıarı Ermənistanda Azərbaycan məktəbləri üçün yetişdirilirdi. Bunların içində onlarla akademik elmlər namizədi və yüzlərlə ali savadlı müəllimlər yetişdirilmişdir. Müxtəlif vaxtlardan bu təhsil ocaqlarına Mehdi Kazımov, Bəhlul Yusifov və Həmid Məmmədzadə rəhbərlik etmişlər.

Seminariyanın məzunlarından biri də görkəmli rəssam İbrahim Səfiyevdir. Müxtəlif illərdə seminariya Yakop Stepanoviç Suşevskiy, İvan Andreyviç Pasyuteviç, Mixayil Alekseyviç Miropiyev və Valentin Vaselyeviç Dubrovin İrəvan Müəllimlər Seminariyasına başçılıq etmişlər. İrəvan Müəllimlər Seminariyası təkcə tədris müəssisəsindən ibarət deyildi, o həm də elm və mədəniyyət mərkəzi idi. 1881-ci ildən 1914-cü ilə qədər İrəvan Müəllimlər Seminariyasını 63 azərbaycanlı bitirdi. 1915-ci ildə İrəvan Müəllimlər Seminariyası Sərdarabada (əvvəlki Armavir) köçmək məcburiyyətində qaldı. 1918-ci ildə etnik hissələrə ermənilərin törətdiyi vəhşiliklərə görə seminariya öz fəaliyətini dayandırdı. Müəllim və tələbə heyyəti ermənilər tərəfindən qəddarca öldürüldü. Qalanlar isə öz doğma torpaqlarını tərk edib Türkiyəyə və Azərbaycana qaçmaq məcburiyyətində qaldılar.

Rusiyanın dəstəyi ilə qədim Azərbaycan məkanı olan İrəvan zor gücünə dövləti (Ararat) olaraq elan edildi. Bu ərazidə yaşayan azərbaycanlılar öz doğma torpaqlarında az sayda qaldı. Tədricən bu ərazilərdə azərbaycanlıların sayı daha da azalmağa başladı və onlar doğma torpaqlarından didərgin düşdülər. Sonralar azsaylı xalqlar üzrə mərkəzi komitənin katibi Bala Əfəndiyevin səyi və tələbi nəticəsində İrəvanda Türk Pedaqoji texnikomu yaradıldı. Təhsil müəssisələrinin yenidən qurulmasında "Zəngi qəzeti"nin redaktoru Mustafa Hüseynov və azsaylı xalqlar üzrə kommisar Mehdi Kazımovun rolu böyük oldu. Xalqımızın mədəni elmi inkişafında mühim rol oynayan bu texnikom böyük çətinliklərlə üzləşdi. 1949-cu ildə Azərbaycan xalqının kütləvi departasiyası nəticəsində azərbaycanlılar Xanlar rayonuna köçürüldülər. Qərbi Azərbaycan ərazisindən indiki Ermənistana sürgün edildilər.

ƏDƏBİYYAT

1. Cəfərov, C., Allahverdiyev C. "İrəvanda milli maarifçilik mühiti". – Bakı: Şərq – Qərb, – 2017, – 440 s.
2. Cəfərov, C., Allahverdiyev C. "İrəvanda ictimai-siyasi və mədəni mühit". – Bakı: ADPU, – 2018, – 242 s.

SUMMARY

Matanat Guliyeva

YEREVAN TEACHERS' SEMINARY AS AN IMPORTANT EDUCATIONAL CENTER FOR TEACHER TRAINING

Every nation is known for its history and culture. The Yerevan Teachers' Seminary, which started its activity 140 years ago in the ancient land of Azerbaijan, informs about the pedagogical activity and culture of our nation. By the order of our president, the 140th anniversary of the Yerevan Teachers' Seminary refreshed memories and pushed the Azerbaijani teachers and scientists to new searches on this path. Every nation carries its history on its shoulders throughout its life. It is commendable to continue this tradition in order to refresh memories and pass it on to future generations. Without knowing and analyzing the past, it is impossible to step into the future, develop and achieve the goal. We should study our history and own our past from the point of view of preaching, and master our moral values. From this point of view, it is worth re-examining the activities of the Yerevan Teachers' Seminary and studying this seminary, which is rich in scientific-pedagogical, political-ideological, cultural-spiritual values. We must own the history of the generation in Yerevan, so that the hateful enemies do not take possession of our culture.

Key words: *Yerevan, seminary, teacher, class*

CƏFƏR CABBARLI ADINA İRƏVAN DÖVLƏT AZƏRBAYCAN DRAM TEATRI

Ələkbər QASIMOV
elekberqasımov@mail.ru
AMEA Naxçıvan Bölməsi

Məqalədə qədim Azərbaycan şəhəri olan İrəvanda milli teatrın yaranmasından, onun formalaşması və inkişafından bəhs olunur. Burada peşəkar teatrın meydana gəlməsinə qədər keçilən yola nəzər salınır, İrəvan xanlığı ərazisində Novruz bayramı münasibətilə müntəzəm təşkil edilən xalq oyunları, meydan tamaşaları, eləcə də dini mərasimlərdəki səhnəciklər və şəbihlər xatırlanır, bütün bunların İrəvanda teatr mühitinin formalaşmasına təsirindən söhbət açılır.

Həmçinin XIX əsrin 80-ci illərində səhnə fədailəri tərəfindən təməli qoyulan İrəvan Azərbaycan Teatrının XX əsrin 20-ci illərinə qədər keçdiyi şərəfli və məşəqqətli yaradıcılıq yolu tədqiq olunur. 1928-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrının açılması, onun inkişaf yolu, burada fəaliyyət göstərən görkəmli teatr xadimlərinin – rejissorların, aktyorların, rəssamların yaradıcılığı geniş təhlil olunur. Eyni zamanda Bakı və Naxçıvan teatrları sənətkarlarının da İrəvan DAD Teatrı ilə yaradıcılıq mübadilələri də işıqlandırılır.

Məqalə 1988-ci ildən məlum hadisələr ucbatından bu sənət ocağının hazırda Bakıda fəaliyyətini davam etdirməsi qeyd olunmaqla, onun yaxın gələcəkdə Qərbi Azərbaycana – doğma şəhəri İrəvana qayıdacağına ümidvarlıqla yekunlaşır.

Açar sözlər: *İrəvan Azərbaycan Teatrı, tamaşa, rejissor, rəssam, aktyor.*

Bugünkü milli peşəkar teatrımızın əsasını qədim xalq oyunlarının, meydan tamaşalarının təşkil etməsi danılmaz faktdır. Əsrlər, qərinələr bir-birini əvəz etdikcə Novruz bayramı da öz forma və məzmununa görə ciddi dəyişikliklərə uğramadan günümüzə qədər gəlib çatmışdır. Bu şənliklərin digər bir tərkib hissəsi də xalq oyunları, meydan tamaşaları olmuşdur.

Zaman ötdükcə meydan tamaşaları təkcə Novruzda deyil, başqa vaxtlarda da hazırlanıb nümayiş etdirilmişdir. İlbəil belə tamaşaların artıq öz personajları formalaşır və milli, peşəkar teatr sənətimizin ilkin rüşeymləri təşəkkül tapırdı.

"İslamın Azərbaycana gəlişilə meydan tamaşalarının digər bir növü – şəbihlər yarandı və sürətlə inkişaf etdi. Şəbihlər adətən əlamətdar dini günlərdə, mərasimlərdə ifa olunurdu. Azərbaycanda ən azı 500 il bunda əvvəl yaranmış şəbihlərin də milli teatrımızın yaranışına böyük təsiri olmuşdur. Şəbihlər ifa olunan səhnəcikləri teatr səhnəsinə uyğun olan bir məkan daxilinə salmışdır. Burada geyimdən, qrimdən, rekvizitdən və s. teatr elementlərindən geniş istifadə olunmuşdur" [4, s. 67].

Ümumiyyətlə, Azərbaycanda intibah dövrü sayılan XII əsrdən başlayaraq XIX əsrin ortalarınadək – milli dramaturgiya və peşəkar teatr yaranana qədər ədəbiyyat və incəsənətin digər növləri kimi teatr sənəti də enişli-yoxuşlu yollarla müəyyən inkişaf mərhələsi keçərək formalaşmışdır.

Bütün bu qeyd olunanlar – səhnələşdirilmiş meydan tamaşaları: el şənlikləri, xalq bayramları, dini mərasimlər və şəbihlər orta əsrlərin sonuna doğru artıq Azərbaycanın hər

bir bölgəsində formalaşmış xanlıqların hər birində olduğu kimi İrəvan xanlığı ərazisində də mövcud idi.

Artıq XIX əsrin 50-60-cı illərindən başlayaraq Azərbaycanda meydan tamaşaları tədricən öz yerini qapalı, yaxud açıq məkanlarda səhnə tamaşalarına verirdi. Bu dövrdə ləğv edilmiş xanlığın daha da genişləndirilmiş ərazisində yeni qurum kimi fəaliyyət göstərən İrəvan qəzasında da bu mədəni proseslər yeni vüsət almağa başladı. Bütün bu proseslər isə XIX əsrin ikinci yarısında, xüsusən də 70-ci illərin əvvəlində Bakıda və Tiflisdə, 80-ci illərin əvvəlində isə İrəvanda və Naxçıvanda peşəkar, milli dramaturgiyaya söykənən dünyəvi Azərbaycan teatrlarının yaranmasına rəvac vermişdir.

Belə bir mülahizə vardır ki, bu tipli teatrın ilk nümunəsi İrəvanda 1980-ci il mart ayının 10-da (müasir təqvimlə 23-də) özünü bürüzə vermişdir. Belə ki, həmin gün – Novruz bayramı şənlikləri zamanı şəhərdə komediya janrında teatr tamaşası göstərilmişdir. Lakin həmin tamaşanın müəllifi və adı, həmçinin yaradıcı heyəti barədə məlumat verəcək bir afişa və ya proqram yoxdur. Bir il sonra, yenə də Novruz bayramında hazırlanıb göstərilən teatr tamaşası haqqında isə cüzi də olsa bir məlumat var. Bu dəfə tamaşanın müəllifi və adı məlum olsa da, onu hazırlayanlar barədə bir məlumat yoxdur. Bu tamaşa haqqında o dövrün mətbuatında da bir xəbərə rast gəlinmir. Yalnız o məlumdur ki, İrəvanın tanınmış mömin ziyalılarından olan Məşhədi İsmayılın qələmə aldığı "İrəvan xanı və Novruz bayramı" məzxərəsi hazırlanıb və tamaşaçılara nümayiş etdirilib. Məhz bu tamaşanı da hazırlayanlar şübhəsiz ki, bir il əvvəlki teatr tamaşasını təşkil edib göstərən həvəskar truppanın üzvləri olmuşlar.

Artıq 1982-ci ildə Məşhədi İsmayılın rəhbərliyilə İrəvan Oğlan Gimnaziyasının müəllim və şagirdləri tərəfindən hazırlanıb göstərilən tamaşa barədə rəsmi məlumatın yayılması onu deməyə əsas verir ki, elə əvvəlki tamaşalar da məhz bu həvəskarlar tərəfindən ərsəyə gətirilmişdir. 1982-ci il fevralın 27-də, Novruzun ilk çərşənbəsində nümayiş etdirilən bu tamaşa Vasaq Mədətov – Nəzmi tərəfindən qələmə alınan "Tamahkarlıq düşmən qazanar" adlı vodevil əsasında hazırlanmışdır. Ümumiyyyətlə, qeyd etmək yerinə düşər ki, V.Mədətov – Nəzmi Azərbaycan dilində 4 pyes yazmış və onların hamısı tamaşaya qoyularaq İrəvan Azərbaycan Teatrının təşəkkülündə mühüm rol oynamışdır. Bu fakt da maraqlıdır ki, həmin pyeslər Məşhədi İsmayıl Kazımzadənin təşəbbüsü və təkidilə, onun özünün nəql etdiyi hekayətlər əsasında Nəzmi tərəfindən qələmə alınmışdır. Onların hər ikisi də həmin tamaşalarda müxtəlif rollarda iştirak etmişlər.

1885-ci ildə Azərbaycanın görkəmli maarifçisi, ilk filoloqu və tanınmış pedaqoqu Firudin bəy Köçərli Qori Müəllimlər Seminariyasında təhsilini başa vurub İrəvanda işləməyə göndərilir. İrəvan Oğlan Gimnaziyasında fəaliyyət göstərdiyi on il ərzində şəhərin ictimai-mədəni həyatında fəal rol oynamaqla burada teatr sənətinin formalaşmasına da dəyərli töhfələr vermişdir. "İrəvan Teatrının peşəkarlıq istiqamətində formalaşmasında böyük xidmətlər göstərmiş Yunis Nuru (Süleymanov) məhz Firudin bəyin qayğısı ilə səhnə sənətinə bağlanmışdır. Köçərlinin quruluş verdiyi "Müsyö Jordan və Dərviş Məstəlişah" tamaşasında Yunis Nuri Şəhrəbanunun maraqlı ifaçılarından biri sayılıb" [2, s. 253].

1898-1903-cü illərdə müəyyən fasilələrlə İrəvanda yaşayan və bu quberniyanın Uluxanlı kəndində müəllim işləyən Cəlil Məmmədquluzadə Naxçıvan Teatrında əldə etdiyi təcrübədən İrəvan Teatrının formalaşmasında səmərəli istifadə etmişdir.

1903-cü ildən Yunis Nurinin rəhbərliyilə fəaliyyət göstərən İrəvan Teatrının truppası

demək olar ki, on il ərzində "Canpoladov teatrı"nda, "Camaat klubu"nda, Pənah xan Makinskinin mülkündə tamaşalar göstərmişlər. Həmin müddətdə M.F.Axundovun, Ə.Haqverdiyevin, N.Vəzirovun, S.Qənizadənin, Nəzminin, Türkiyəli dramaturq Namiq Kamalın pyesləri burada səhnəyə qoyulmuşdur. Kollektiv həmçinin Ü.Hacıbəyovun və Z.Hacıbəyovun opera və operettalarına da müraciət etmişdir.

1918-ci ildə erməni daşnaklarından ibarət quldur dəstələri Bakıda, Şamaxıda, Qubada, Lənkəranda və Naxçıvanda olduğu kimi, İrəvan və onun ətrafında da kütləvi qırğınlar törətdilər. İrəvanın teatr truppası Yunis Nuri başda olmaqla Cənubi Azərbaycanın Xoy şəhərinə mühacirət etmək məcburiyyətində qaldı. Üç ildən sonra, Ermənistanda sovet hakimiyyətinin qurulması ilə yaranmış sabitlik və əmin-amanlıq nəticəsində Y.Nuri və teatrın truppası İrəvana qayıtmış və burada coşqun fəaliyyətə başlamışdır. Teatr həmin vaxt yenicə yaradılmış M.Əzizbəyov adına klubda fəaliyyətini bərpa etmişdir. 1923-1928-ci illər ərzində İrəvan aktyorları H.Cavidin, S.S.Axundovun, N.Nərimanovun, C.Cabbarlının, S.Rüstəmin, V.Şekspirin, F.Şillerin, N.Qoqolun, V.Mcedaşvilinin əsərlərini səhnəyə qoymuşlar.

Nəhayət, 1928-ci ildə İrəvanın azərbaycanlı teatr fədailərinin arzusu gerçəkləşdi və mart ayının 15-də Ermənistan hökuməti səyyar tipli İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaradılması barədə qərar verdi. Dövlət teatrının təntənəli acılı isə aprelin 14-də J.B.Molyerin "Zorən təbib" tamaşası ilə oldu.

1933-cü ildə Leninqradda (Sankt-Peterburq) ali rejissor təhsili almış iki mütəxəssisin – əslən Xankəndidən olan Baxşı Qələndərli və Bakıdan dəvət olunmuş Yusif Yulduzun İrəvan DAD Teatrında fəaliyyətə başlamaları kollektivdə böyük bir canlanma yaratdı. Təkcə 1934-cü il ərzində teatrda bir-birindən baxımlı 7 yeni tamaşa hazırlandı.

1935-ci ildən Cəfər Cabbarlının adını daşıyan İrəvan Teatrında təhsilli azərbaycanlı aktyorların sayını artırmaq məqsədilə Ermənistan SSR-in əlaqədar təşkilatları qarşısında qaldırılmış məsələ nəticəsində həmin ildə Ermənistan Teatr Texnikumunda Azərbaycan bölməsi açıldı və ilk olaraq bura 4 qız, 21 oğlan qəbul edildi. Məhz bunun nəticəsində İrəvan DAD Teatrı 1930-cu illərin sonunda mükəmməl truppaya malik bir sənət ocağına çevrilmişdi.

Böyük Vətən Müharibəsinin başlanması ilə teatrın truppasından da cəbhəyə yollananlar oldu. 1941-1945-ci illərdə teatrın repertuarını əsasən vətənpərvər məzmunlu pyeslər təşkil edtmişdir. Onların əsasında hazırlanmış tamaşalarda düşmənə nifrət, qələbəyə inam hissləri aşılanırdı.

Bu teatrın yaradıcılıq nailiyyətləri ümumən Azərbaycan milli teatrının salnaməsinə parlaq və silinməz səhifələr yazmışdır. 1930-40-cı illərdə M.Cananın və Yunis Nurinin rəhbərlikləri altında çalışan bu kollektivdə yalnız Ermənistanın deyil, həmçinin Azərbaycanın milli səhnəsinin ulduzları sayılan görkəmli və istedadlı aktyorlar yetişmişdir. Kazım Ziya, Əli Zeynalov, İsmayıl Dağıstanlı, Ətayə Əliyeva, Əli Şahsabahlı, N.Əlixanova, Məmmədbağır Qaraxanov, Cabbar Əliyev, Abbasqulu Tağıyev bu teatrın səhnəsində məşhurlaşmış və böyük yaradıcılıq nailiyyətləri qazanmışlar.

Müharibədən sonra, dinc quruculuq illərində zəngin repertuara malik olan teatr səmərəli və məhsuldar fəaliyyətini daha da genişləndirmiş, müntəzəm olaraq respublikanın azərbaycanlıların daha sıx yaşadıqları bölgələrində qastrol səfərlərində olmaqla kənd tamaşaçılarının da estetik zövqünün və dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır.

1940-cı illərin sonlarında SSRİ-də bir sıra teatrların bağlanılması qərarı İrəvan DAD Teatrından da yan keçmədi. "1949-cu ildə teatr İrəvanda bağlansa da, onun bir çox aktyorları Bakı və Gəncə teatrlarına getsələr də, teatr truppasının digər üzvləri Baxşı Qələndərlinin rəhbərliyi altında həmin ilin payızında Basarkeçərə gəlib əslində yararsız olan bir klub binasında məskunlaşdılar. 1950-ci ilin əvvəllərində burada pərdələrini tamaşaçıların üzünə açan teatr ikiillik fəaliyyətdən sonra, 1952-ci ilin yayında maliyyə çətinliyi ucbatından işini dayandırmalı oldu" [3, s. 340].

Təqribən 15 illik fasilədən sonra, 1967-ci ildə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı yenidən bərpa edildi. 28 aprel 1967-ci il. Bu tarix yenidən bərpa olunan C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının uzun fasilədən sonra "Sevil" tamaşasını təqdim etməklə ikinci həyatına qədəm qoyduğu gündür. Cabbarlı dramaturgiyasının incilərindən olan bu tamaşa böyük rəğbətlə qarşılandı və quruluşçu rejissor-pedaqoq Nəsir Sadıqzadə başda olmaqla, onun yetirmələri olan Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin) məzunları dəfələrlə alqışlandı.

Y.Nurinin oğlu Əziz Süleymanov teatrın direktoru, Leninqradda ali təhsilini yenicə bitirmiş Tofiq Ağayev isə baş rejissoru təyin edildilər. Onların hər ikisinin 1968-ci ildə Bakıda, Azərbaycan Dövlət Teatr İnstitutunun rektoru ilə görüşü aktyorluq fakültəsinin 11 məzununun İrəvan DAD Teatrına təyinat almaları ilə nəticələndi. Bununla yanaşı Azərbaycan DGT Teatrından, Naxçıvan DMD Teatrından və Gəncə Teatrından aktyorlar da İrəvan Teatrında işə götürüldülər.

Gənc kollektivə çox keçmədən vaxtilə bu teatrın aparıcı aktyorları sayılan veteranlar da qoşuldular.Teatrın istedadlı truppası bir sıra görkəmli rejissorların quruluşunda Azərbaycan klassik və müasir dramaturgiyasının parlaq nümunələrilə yanaş, erməni, gürcü, rus, Avropa dramaturgiyasından, həmçinin dünya klassiklərindən seçmələri öz səhnəsində sərgilədi.

Həmin vaxtdan demək olar ki, 20 il müddətində C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı zəngin, məzmunlu repertuarı ilə mükəmməl fəaliyyət göstərdi, istedadlı rejissor və aktyor nəslinin yetişməsində mühüm rol oynadı, bu müddət ərzində Bakıda, Tbilisidə, Naxçıvanda, Gəncədə və Azərbaycanın, həmçinin Gürcüstanın müxtəlif bölgələrində uğurlu qastrol səfərlərində oldu. Naxçıvan Dövlət Musiqi Dram Teatrının İrəvan DAD Teatrı ilə sıx yaradıcılıq əlaqələri olmuşdur.

1964-cü ildə İrəvan Teatrının qocaman rejissoru, əməkdar incəsənət xadimi Baxşı Qələndərli Naxçıvan Teatrına baş rejissor təyin olunmuş və 20 ildən artıq, ömrünün sonunadək bu qədim sənət məbədində çalışmışdır. Naxçıvan DMD Teatrının rejissoru, əməkdar artist Vəli Babayev, baş rəssamı, əməkdar incəsənət xadimi Məmməd Qasımov, aktyorlardan, xalq artistləri Əyyub Haqverdiyev, Aydın Şahsuvarov, əməkdar artist Xədicə Qazıyeva vaxtaşırı İrəvan Teatrına dəvət olunmuş bir sıra maraqlı quruluşları və oyunları ilə bu sənət ocağının səhnəsini rövnəqləndirmişlər.

Teatrın 50 illik yubileyi təkcə Ermənistanda deyil, Azərbaycanda da böyük təntənə ilə qeyd edilmiş, 1978-ci ilin noyabr ayında yubiley münasibətilə Bakıda qastrol səfərində olan İrəvan Dövlət Azərbaycan Dram Teatrı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuş, teatrın bir qrup əməkdaşı respublikanın fəxri adflarına və

Fəxri fərmanlara layiq görülmüşdür.

"İyun ayının 13-də Naxçıvan teatrının 100 illiyi münasibətilə keçirilən təntənəli yığıncağın rəyasət heyətində muxtar respublikanın rəhbərləri, əmək qəhrəmanları, adlı-sanlı teatr xadimləri, alimlər, yubileyə gəlmiş qonaqlar əyləşmişdilər... İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru Yunis Süleymanov çıxışında xüsusi vurğulamışdır ki, bizim teatrın yaradılmasında və inkişafında Naxçıvan Teatrı kollektivinin böyük əməyi olmuşdur. Onlar daim İrəvandakı Azərbaycan Teatrına mənəvi köməkliklər göstərir, tamaşalarımızın hazırlanmasında yaxından iştirak edirdilər" [1, s. 122].

1988-ci ildən, məlum səbəblər ucbatından qaçqınlıq həyatı yaşamağa məcbur olan teatr yaxın gələcəkdə Qərbi Azərbaycana – doğma şəhəri İrəvana qayıdacağına ümidvarlıqla bu gün Bakıda fasiləsiz olaraq öz fəaliyyətini uğurla davam etdirməkdədir.

ƏDƏBİYYAT

1. Qasımov, Ə. Naxçıvan Teatrında tərcümə əsərlərinin tamaşaları (1883-2013). – Bakı: "Avropa" nəşriyyatı, – 2016, – 176 s.
2. Rəhimli, İ. Azərbaycan teatr tarixi. Beş cilddə, I cild. – Bakı: Şərq-Qərb, – 2017. – 496 s.
3. Rəhimli, İ. Azərbaycan teatr tarixi. Beş cilddə, IV cild. – Bakı: Şərq-Qərb, – 2018. – 480 s.
4. Sultanlı, Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. – Bakı: Azərnəşr, – 1964. – 303 s.

SUMMARY

Alakbar Gasimov

ERIVAN STATE AZERBAIJAN DRAMA THEATER NAMED AFTER JAFAR JABBARLI

The article deals with the establishment of the national theater in Erivan, an ancient Azerbaijani city, its formation and development. Here, looked at the path to the emergence of professional theater, remembered the folk games, square performances, as well as shabihs and scenes in religious ceremonies regularly organized in the territory of the Erivan khanate on the occasion of Nowruz holiday, talked about the influence of all these on the formation of the theater environment in Erivan.

Also, the glorious and arduous creative path of the Erivan Azerbaijan Theater, which was founded by stage devotees in the 80s of the XIX century until the 20s of the XX century, is studied. The opening of the Erivan State Azerbaijan Drama Theater in 1928, its development path, creativity of outstanding theater figures – directors, actors and artists operating here are extensively analyzed. At the same time, creative exchanges of artists of Baku and Nakhchivan theaters with the Erivan SAD Theater are also highlighted.

The article concludes with the mention of the fact that due to known events since 1988, this art center continues to operate in Baku and hopes that it will return to West Azerbaijan- its hometown Erivan in the near future.

Key words: *Erivan Azerbaijan Theater, performance, director, artist, actor.*

TEZİSLƏR

I BÖLMƏ. QƏRBİ AZƏRBAYCAN: TARİX, HƏQİQƏTLƏR VƏ FAKTLAR

QƏRBİ AZƏRBAYCAN VƏ NAXÇIVAN: DEPORTASİYADAN QAYIDIŞA

Əlövsət QULİYEV
ETN-nin Torpaqşünaslıq və Aqrokimya İnstitutu

XÜLASƏ

Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun Qarabağı işğaldan azad etməsindən sonar qarşıya qoyulan ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycana qayıdışın təmin edilməsidir. Ölkə başçısının rəhbərliyi ilə bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Qərbi Azərbaycandan qaçqın düşmüş insanların tarixi torpaqlara qayıtması tarixi ədalətin bərpasının daha bir nümunəsi olacaq.

Möhtərəm Prezidentimizin ötən ilin dekabr ayında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə dediyi kimi: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var… Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb".

İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi üçün ölkəmizdə və onun hüdudlarından kənarda əhəmiyyətli tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri də bugün qədim Naxçıvan diyarında reallaşdırılır.

Bu festival və konqresin Naxçıvanda keçirilməsi təsadüfi deyil. Çünki Naxçıvan da Qərbi Azərbaycanın bir hissəsidir. "Qərbi Azərbaycan" anlayışı bir toponim (coğrafi ad) olaraq indiki Ermənistanın və Naxçıvan Muxtar Respublikasının ərazilərini əhatə edir. 1918-1920-ci illərdə erməni işğalına qarşı mübarizədə Naxçıvan Azərbaycanın ərazisi kimi qorunub saxlandığından, Qərbi Azərbaycan coğrafi baxımdan min illər boyu Azərbaycan torpaqları olmuş indi Ermənistan adlandırılan əraziyə şamil edilir.

Ermənilərin xalqımıza qarşı soyqırım və deportasiya siyasətinin hər mərhələsində İrəvan və Zəngəzur əhalisinin erməni zülmündən qaçıb ən çox sığındığı ərazilərimizdən biri də məhz

Naxçıvan bölgəsi olub. Bu gün Naxçıvan Muxtar Respublikasının ərazisində İrəvandan, Göyçədən, Dərələyəzdən, Vedibasardan və Qərbi Azərbaycanın digər yerlərindən zorla qovulmuş minlərlə soydaşımız yaşayır. Qərbi Azərbaycana tarixi qayıdış Zəngəzur dəhlizindən başlayacaq ki, bu da birbaşa Naxçıvanla əlaqəlidir. Bu mənada belə bir festival və konqresin məhz Naxçıvanda keçirilməsi mühüm əhəmiyyətə malikdir və bu, Qərbi Azərbaycanın digər şəhər və kəndlərinə qayıdışımızın ilkin ayaq səsləridir.

Naxçıvanın işğalı hər zaman ermənilərin məkrli planlarından biri olub. Bu bölgədə yaşayan əhalinin gələcəkdə buranı tərk etməsi üçün mənfur ermənilər sovet dövründə müxtəlif vasitələrə əl atıblar. Ancaq Ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasəti və qətiyyətli qərarları sayəsində onlar bu istəklərinə nail ola bilməyiblər.

Şərur rayonunun məhsuldar torpaqlarının suvarılmasında yeganə su mənbəyi Arpaçaydır. Ermənilər Naxçıvanın iqtisadiyyatına zərbə vurmaq üçün Arpaçayın Göyçə gölünə axıdılması adı altında məkrli layihəni həyata keçirməyə çalışırdılar. Bunu Stalin dövründə edə bilmədilər. Nəhayət, Xruşşovun İrəvana səfəri zamanı bu layihəni ona imzalatdırdılar. Beləliklə, Mərkəzi Komitənin və SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyinin vasitəsi ilə Arpaçaydan Göyçə gölünə ildə 250 milyon kubmetr su nəql etməli olan Arpa-Sevan (Göyçə) tunelinin tikintisi qərara alındı. 1963-cü ilin martında bu kompleksin tikintisinə başlanıldı. Yerli tunel tikintisi tarixində misli görünməmiş bu struktur (48,3 km) 1981-ci il martın 21-də istifadəyə verildi. Göyçə gölünün səviyyəsinin aşağı düşməsinin qarşısını almaq üçün bu layihə həyata keçirilmişdi. Əslində isə əsas məqsəd yay dövründə Naxçıvanın Şərur torpaqlarını suya həsrət qoymaqla bölgədən əhalinin köçürülməsinə şərait yaratmaq idi.

Maraqlısı bu idi ki, Arpa-Göyçə tuneli çəkilərkən mürəkkəb geoloji quruluşa malik Kiçik Qafaz dağları altında gedən orogenez (dağ əmələ gəlmə) prosesi nəzərə alınmadığı üçün Arpaçaydan Göyçə gölünə axan sular bir neçə ilə göldə balıqların kütləvi qırılmasına səbəb oldu. Beləliklə, ermənilərin Arpa-Göyçə şousu başa çatdı. Arpaçay yenidən öz axarı ilə axmağa başladı.

Ulu öndərimiz Heydər Əliyevin 1969-cu ildə Azərbaycanın rəhbəri seçilməsindən sonra ermənilərin bu məkrli planlarının qarşısının alınması üçün 1971-ci ildə Arpaçay üzərində 150 milyon kubmetr tutumu olan "Dəvə ölən" su anbarının tikintisinə başlanıldı və 1974-cü ildə istifadəyə verildi.

Hörmətli tədbir iştirakçıları!

Vaxtilə qədim Azərbaycan torpaqlarında məskunlaşdırılan ermənilər zamanla azərbaycanlıları öz dədə-baba torpaqlarından qovmaqla kifayətlənməmiş, Qarabağla yanaşı, Naxçıvanı da ələ keçirmək üçün məkrli planlar qurmuşlar. Böyük Öndərimiz Heydər Əliyevin müdrik siyasəti sayəsində qarşısı alınan bu proses Ümummilli liderimizin layiqli davamçısı, Müzəfər Ali Baş Komandan İlham Əliyev apardığı siyasət nəticəsində tarixi torpaqlarımıza qayıdışı təmin etmişdir. Qarabağı və Şərqi Zəngəzuru erməni işğalından azad edən möhtərəm Prezidentimizin bizi Qərbi Azərbaycana – öz dədə-baba yurdlarımıza qaytaracağına tam əminik.

Mən inanıram ki, hələ 1927-ci il icrasına başlanılan və yarımçıq qalan layihə bir gün mütləq reallaşdırılacaqdır. Həmin dövrdə Qarakilsə rayonu ərazisindən axan Bazarçay suyunun Sağ Sahil kanalını (7verst) çəkmək və təxminən 11 km (12 verst) uzunluğunda tunel qazmaqla Naxçıvançay axınına qoşmaq, 16 min ha (10 min desyatin) torpağı suvarma suyu ilə təmin etmək məqsədi ilə layihə işlənərək qərar qəbul edilmişdi. Bu layihə təsdiq olunsa da (dəyəri 5.milyon rubl), 1933- cü ilə qədər həyata keçirilmədi. Bizim Qərbi Azərbaycana qayıdışımızdan sonra belə yarımçıq qalan çox layihələr tamamlanacaqdır.

Çıxışımı möhtərəm Prezidentimizin Qərbi Azərbaycandan olan ziyalılarla görüşündə səsləndirdiyi bu fikirlərlə tamamlamaq istəyirəm: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Mən bir daha demək istəyirəm ki, biz də, Qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməliyik. İnanmalıyıq və eyni zamanda, addımlar atmalıyıq, fəal olmalıyıq, işləməliyik. Gün gələcək, biz Qərbi Azərbaycanda da belə gözəl məclis keçirəcəyik və bu günü xatırlayacağıq".

Açar sözlər: *Qarakilsə, Göyçə, Arpa, Bazarçay, tunel, suvarma.*

QƏRBİ ZƏNGƏZUR AZƏRBAYCAN MİLLİ DOKTRİNASI VƏ TÜRK DÜNYASI KONTEKSTİNDƏ

Esmira CƏFƏROVA
esmira.ceferova@mail.ru
Orcid İD: 0000-0003-1549-6770
Mingəçevir Dövlət Universiteti

XÜLASƏ

Bu gün təlatümlərlə dolu müasir dünyanın siyasi xəritəsində tarixi ədalətsizliyin nəticəsi olan bir çox coğrafi-siyasi təzadlar var. İlk baxışdan təsadüfün və ya taleyin ironiyasının nəticəsi kimi görünən bu təzadların arxasında isə ustalıqla düşünülmüş strateji bir layihənin, bəsit və saxta ictimai ideyalarla ört-basdır edilən çirkin niyyətlərin, qlobal geosiyasi məqsədlər güdən və uzaq perspektivlər üçün nəzərdə tutulan dəhşətli bir təxribatın aşkar əlamətləri görünür. Belə təzadlardan biri də bizim milli tariximizlə bağlıdır və bu təzadın adı "Qərbi Zəngəzurdur". Təqdim olunan tezisdə XX əsrin 20-ci illərində xalqımızın siyasi iradəsinin əksinə olaraq Azərbaycandan qoparılıb yurdsuz hayklara verilən bu məkanın tarixindən, onun həm Azərbaycan, həm də türk-müsəlman dünyası üçün müstəsna əhəmiyyətindən bəhs olunur. Müasir dünya tarixində süni şəkildə təşkil edilmiş və türk dünyasının iqtisadi-mədəni inteqrasiyası və siyasi birliyi qarşısında coğrafi sədd çəkmiş bu ədalətsiz geosiyasi aktın dünyanın siyasi xəritəsində ən absurd cografiyalardan biri olması və bu coğrafiyada müvafiq düzəlişlərin edilməsi zərurəti tezisdə əsas ideya kimi ortaya qoyulur. Burada müasir dünya tarixində baş verən təbii ictimai-siyasi proseslərin süni şəkildə yaradılmış coğrafiyaları necə israrla dəyişdirməsi və siyasi ədalətsizliyin nəticəsi olan sədləri necə uçurması məsələsi də ön plana çəkilir və bu baxımdan Naxçıvanı Azərbaycandan ayıran, azərbaycanlıların tarixi vətəni olan Qərbi Zəngəzurun mənsubiyyət məsələsinin də ədalətlə həll ediləcəyinə ümid ifadə olunur. Azərbaycanın doğma Naxçıvan, qardaş Türkiyə və bütün Türk dünyası ilə qovuşması uğrunda aparılan müqəddəs tarixi mücadilədə bütün ideoloji, diplomatik, coğrafi və hərbi-siyasi sədlərin bütün mövcud üsul və vasitələrlə aradan qaldırılması ideyası tezisin əsas motivləri kimi çıxış edir. Tezisdə, həmçinin son dövrlərdə Azərbaycanda və Türk dünyasında baş verən və davamlı sosial-iqtisadi, ictimai-mədəni və hərbi-siyasi yüksəlişlə müşayiət olunan pozitiv tendensiyaların mütərəqqi məzmunu və xarakteri açıqlanır, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman Azərbaycan xalqının və şanlı Azərbaycan ordusunun qazandığı uğurların, yaratdığı xariqələrin tarixi əhəmiyyəti qiymətləndirilir. Azərbaycanlıların əsrlər ərzində min fitnə-fəsadla didərgin salınmış doğma ellərinə qayıdışı isə tarixin ən möhtəşəm repatriasiyalarından biri kimi tezisdə yüksək emosional cizgilərlə tərənnüm olunur.

Açar sözlər: *Qərbi Zəngəzur, geosiyasət, siyasi coğrafiya, milli doktrina, Türk dünyası*

SUMMARY

Esmira Jafarova

WESTERN ZANGEZUR IN THE CONTEXT OF AZERBAIJAN NATIONAL DOCTRINE AND THE TURKIC WORLD

Today, on the political map of the world, full of social unrest, there are many geopolitical contradictions that are the result of historical injustices. Behind these contradictions, which at first glance seemed to be the result of pure chance or the irony of fate, hide clear signs of a masterfully conceived strategic project, dirty intentions covered by simple and false ideas of a social nature, and a terrible provocation intended for distant prospects and pursuing global geopolitical goals. One of these absurd contradictions is connected with our national history, and its name is "Western Zangezur". The presented thesis tells the story of how the powers, against the political will of our people, took away this historical region and gave it to the nomadic hayks, as well as the significance of this land for Azerbaijan and the entire Turkic and Muslim world. This geopolitical act, which created an artificial barrier in modern world history to the economic, cultural and political integration of the Turkic world, is assessed as one of the absurd geographies on the political map of the world, and the need to make appropriate adjustments in it is presented as the main idea of the article. The article also brings to the fore the problem of how natural socio-political processes occurring in the modern world destroy all boundaries, which are the bitter result of historical injustice, and persistently change artificially created geographies. In this regard, the article expresses hope for a fair resolution of the issue of Western Zangezur, which separates Nakhichevan from Greater Azerbaijan, which from time immemorial has been the historical homeland of the Turkic Azerbaijanis. The idea of eliminating all ideological, military-political, diplomatic and geographical obstacles in the sacred struggle for the sake of the merger of Greater Azerbaijan with Nakhichevan, also with brotherly Turkiye and with the entire Turkic world, is the main motive of the article. The article also reveals the nature and content of progressive trends occurring recently in Azerbaijan and in the Turkic world, accompanied by sustainable socio-economic, military-political and socio-cultural development. The role and significance of the greatest successes and achievements of the heroic and glorious Azerbaijani people, the Azerbaijan Army under the leadership of the President of the Azerbaijan Republic, the Glorious, Victorious Supreme Commander-in-Chief of the Armed Forces of the Azerbaijan Republic is consistently and methodically assessed. The return of Azerbaijanis to their homes, expelled as a result of centuries-old political intrigues, is presented in the article as one of the greatest acts of repatriation and is described in very high emotional words and expressions.

Key words: *Western Zangezur, geopolitics, political geography, national doctrine, Turkic world.*

QƏRBİ AZƏRBAYCANLILARA QARŞI ERMƏNİLƏRİN HƏYATA KEÇİRDİYİ ETNİK TƏMİZLƏMƏ VƏ SOYQIRIM SİYASƏTİ

Nadir HÜSEYİNBƏYLİ
nadirhuseyinbeyli@gmail.com
Nuray MƏMMƏDLİ
nuray.memmedli31@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımından bəhs olunur. Bu məsələlər hələ də Azərbaycan tarixinin öyrənilməmiş səhifələrindən biri kimi hal-hazırda ciddi maraq doğurur. Araşdırılan sənədlərdən məlum olur ki, XX əsrin əvvəllərindən başlayaraq 90-cı ilin əvvəllərinə kimi ermənilərin Azərbaycanın bir çox bölgələri ilə yanaşı, İrəvan quberniyasında, Zəngəzur, Naxçıvan və Şərur-Dərələyəz qəzalarında törətdikləri etnik təmizləmə, soyqırım və təcavüzlərin şahidi oluruq. Xüsusilə 1918-1920-ci illərdə ermənilərin Qərbi Azərbaycanda, Zəngəzur, Şərur-Dərələyəz bölgələrində törətdikləri ağır cinayətlər daha dəhşətli olmuşdur. Müsəlmanların qılıncdan keçirilməsi, evlərə doldurularaq yandırılması, kəndlərin talan edilməsi, öz yurdlarından didərgin düşmələri barədə çoxlu faktlar var. Çoxsaylı tarixi sənədlər şahidlik edir ki, 1905-1907, 1918-1920-ci illər Qafqazda öz tarixi etnik ərazilərində etnik təmizləmə və soyqırım siyasətinə məruz qalan milyonlarla azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş, dədə-baba torpaqlarından deportasiya olunmuşdur. Bütün bu məsələlər arxiv materialları əsasında araşdırılmış və təhlil süzgəcindən keçirilmişdir.

Açar sözlər: *Qərbi Azərbaycan, etnik təmizləmə, soyqırım, deportasiya*

SUMMARY

Nuray Mammadli

LIFE OF ARMENIANS AGAINST WEST AZERBAIJANS ITS POLICY OF ETHNIC CLEANSING AND GENOCIDE

The article talks about deportation and genocide of Armenians against Azerbaijanis. These issues are still of great interest as one of the unstudied pages of Azerbaijan's history. From the researched documents, it is known that from the beginning of the 20th century to the beginning of the 90s, we are witnessing ethnic cleansing, genocide and aggression committed by Armenians in Iravan governorate, Zangezur, Nakhchivan and Sharur-Daraleyaz districts, along with many regions of Azerbaijan. Especially in 1918-1920, the grave crimes committed by Armenians in Western Azerbaijan, Zangezur, Sharur-Daraleyaz regions were more terrible. There are many facts about Muslims being put to the sword, burning houses, looting villages, and being displaced from their homes. Numerous historical documents testify that in the years 1905-1907, 1918-1920, millions of Azerbaijanis who were subjected to the policy of ethnic cleansing and genocide in their historical ethnic territories in the Caucasus were mass-murdered and deported from their ancestral lands. All these issues were investigated and analyzed on the basis of archival materials.

Key words: *Western Azerbaijan, ethnic cleansing, genocide, deportation*

QƏRBİ AZƏRBAYCANIN ARXEOLOJİ İRSİ: ƏNƏNƏLƏR VƏ VARİSLİK

Hicran MAHMUDOVA
hicranmahmudova@mail.ru
hicranmahmudova@bsu.edu.az
Orcid İD: 0000-0003-0959-8419
Bakı Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycanın arxeoloji abidələri uzun müddət milli kadrların tədqiqat obyekti olaraq, araşdırma aparmaq imkanından məhrum edildiyi bir sahə olmuşdur. Buna baxmayaraq, aparılan qazıntılardan əldə olunan maddi-mədəniyyət nümunələri öz xüsusiyyətinə görə Azərbaycanın digər bölgələri ilə bağlılığını bariz şəkildə göstərmişdir. Hətta bu bağlılığı itirmək məqsədilə Göyçə ətrafı arxeoloji tapıntılarda izlənilən varisliyi təsdiq etməmək üçün faktiki materialların əsas xüsusiyyətlərinin təsnifatı verilərkən, "Sevan-Üzərliktəpə məədəniyyəti" adı altında gizlədilmişdir. Son tunc erkən dəmir dövrü mədəniyyəti üçün "Şərqi və Mərkəzi Cənubi Qafqaz mədəniyyəti" kimi qarışıq bir ifadəni də elmə gətirməkdən çəkinməmişdilər. Buna baxmayaraq, istər yaşayış yerlərindən, istər qəbir abidələrindən, istərsə də, qayaüstü təsvirlərdən əldə olunan nümunələr, tarixi ərazilərimizdə yaşamış avtoxton sakinlərin yaradıcılığının məhsulu olduğunu təsdiq edir. Artefaktların dekorativ, morfoloji bənzərliyi ilə yanaşı, istehsal texnologiyasının eyniliyi də yerli əhalinin arxaik irsini ənənəvi şəkildə özündən sonrakı nəslə ötürməsini, başqa sözlə, varisliyi izləməyə imkan verir. Məlumdur ki, bir toplum daxilində istehsal texnologiyasında belə varislik olduğundan, istehsalda müəyyən stabillik yaranır, ənənəvi mədəniyyət formalaşır və bununla da, uzunmüddətli bir dövrdə həmin etnomədəni birliyin mövcudluğunu, fəaliyyətini görmək olur.

Qərbi Azərbaycanın tunc və dəmir dövrü mədəniyyətlərinin yerli zəmin əsasında meydana çıxıb, inkişaf etdiyini, bu dövrün arxeoloji abidələri, onlardan aşkar olunan zəngin məmulatlar (o cümlədən metal və keramika nümunələri) təsdiq edir. Boyalı keramika nümunələri ilə təmsil olunan abidələr orta tunc dövrünün daxilində fərqləndirilən mərhələləri bir sıra özünəməxsus xüsusiyyətlərlə və ya əvvəlki dövrlərdə müşahidə olunan maddi istehsal sahələrinin davamlı inkişafı, dulusçuluq işinin və metalişləmənin daha fərqli inkişafı ilə xarakterizə olunur. Eyni zamanda, antropoloji tapıntılar zamanı tapılan kranoloji materiallar da erməni (hay) tayfalarına qəti aid olmayan, dolixokefallığı ilə seçilən nümunələr olmuşdur. Bu dövrün xarakterik abidələri Göyçə gölünün ətrafında və Mil-Qarabağ düzündə qeydə alınmışdır. Son tunc - erkən dəmir dövrünə aid Lçaşen (Ördəkli), Nor-Bəyazidin (Kəvər), Quqark (Böyük Qarakilsə), Qara-qala dağı (Şeytan-dağ). Araqats (Alagöz) dağının ətəklərindən Təkyə adlanan (indiki Bazmaxbyur) ərazidən qədim qəbristanlıqdan və s. kimi abidələrdən əldə olunan artefaktlar da bu irsin mənşəyini araşdırmağa imkan verir.

Açar sözlər: *Qərbi Azərbaycan, arxeoloji abidələr, arxeoloji mədəniyyət, Göyçə, ənənə*

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ PROSESİNDƏ TARİXİ ŞƏXSİYYƏTLƏR AMİLİNDƏN İSTİFADƏ

Əhməd MƏMMƏDOV
Azərbaycan Milli Elmlər Akademiyası

XÜLASƏ

Qərbi Azərbaycana qayıdış prosesinin uğurla həyata keçməsi üçün beynəlxalq aləmdən daha çox dəstək almağa kömək edə biləcək məsələlərdən biri də orada yaşamış tarixi şəxsiyyətlərimizin nüfuzundan istifadə etməyimiz ola bilər. Xeyli sayda belə tarixi şəxsiyyətlərimiz yaxın keçmişdə yaşamış, böyük şöhrət qazanmış insanlardır. Onların əksəriyyətin həmin ərazidə geniş fəaliyyəti barədə yazılı mənbələrdə də bir çox məlumatlar var. Məzarları həmin torpaqlarda uyuyur. Belə insanlar barədə daha əhatəli məlumatlar tez bir zamanda kitab halında toplanıb, müxtəlif dillərə tərcümə oluna bilər. Beynəlxalq səviyyədə fəaliyyət göstərən saytlar vasitəsi ilə bütün dünyaya yayıla bilər. Bütün dünya görər ki, biz bədnam qonşular kimi mifik sərsəmləmələr uydurmur, konkret tarixi şəxslərimizdən danışırıq. Bizim orta əsrlərdə, daha qədimdə bu ərazilərdə yaşamış yüzlərcə nəhəng tarixi şəxslərimiz olduğu halda, bu torpaqlara iddia edənlərin heç bir tarixi şəxsiyyətinin adını çəkmək mümkün deyil. Hər kəsə aydındır ki, hər bir ərazidə böyük tarixi şəxsiyyətlər daha çox həmin ərazidə yaşayan yerli əhalinin nümayəndələri olur. Qərbi Azərbaycanın bütün bölgələrinin hər birində onlarca tarixi şəxsiyyətlərimiz olduğu halda, orada həmin insanlara tay ola biləcək başqalarının heç bir nümayəndəsi yoxdur.

Misal üçün, Göycə rayonunda Ağ aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Nəcəf, Növrəs İman, Aşıq Hacı və s. kimi onlarca aşığın olması Göyçəni aşıq sənətimizin ən mühüm məskənlərdən biri kimi tanıdır. Belə bir məskən yalnız doğma mühitdə yarana bilər.

Biz, elə təkcə Aşıq Ələsgər amilindən istifadə edərək Qərbi Azərbaycana qayıdışla bağlı xeyli işlər görə bilərik. Misal üçün, Aşıq Ələsgərin məzarını ziyarət etməklə bağlı bir hərəkat yaratmaq olar. Bakı şəhərində "Beynəlxalq Aşıq Ələsgər poeziya günləri" təşkil edə bilərik. Bu poeziya günləri Göyçəni, Aşıq Ələsgərin yaşadığı məskənləri, onun dağıdılmış məzarını əks etdirən böyük həcmli şəkilllər fonunda keçirilə bilər. Bu poeziya günlərində dünya ictimaiyyətinə müraciətlər səsləndirilə bilər və s. Yaxud bütün dünyanın tanıdığı böyük dövlət xadimi olan Heydər Əliyevin babasının Zəngəzurda olan yurdunu ziyarət etmək üçün məsələ qaldırmaq olar. Buna bənzər onlarca tətdbirlərin təşkili Qərbi Azərbaycanın bizim öz doğma yurdumuz olması barədə bütün dünyada böyük əks-səda verə, fikir aydınlığı yarada bilər.

Açar sözlər: *Qərbi Azərbaycan, Qərbi Azərbaycana qayıdış, Qərbi Azərbaycanın tarixi şəxsləri, qayıdış mexanizmi*

II BÖLMƏ . QƏRBİ AZƏRBAYCANIN MƏDƏNİ SƏRVƏTLƏRİ QƏRBİ AZƏRBAYCANDA MƏİŞƏT MƏDƏNİYYƏTİ VƏ NAXÇIVANLA QARŞILIQLI ƏLAQƏLƏRİ

Asəf ORUCOV
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Qərbi Azərbaycan (indiki "Ermənistan") ərazisi qədimdən türk-oğuz tayfaları yaşamış, e.ə. II minillikdən üzübəri bu ərazilər qarqar, subar, qamər, sak və s. türk tayfalarının vətəni olmuşdur. 1988-ci ilə qədər bu respublikanın ərazisində azərbaycanlılar özlərinin dədə-baba yurdunda yaşayırdılar. Daha dəqiq ifadə etsək, 1918-1920-ci illərə qədər, ümumiyyətlə, belə bir coğrafi anlayış, yəni Ermənistan yox idi. Orta əsr mənbələrinə baxsaq, indiki Ermənistan ərazisi Azərbaycanın qərb bölgəsi kimi göstərilir. Heç çox uzaqlara getmək lazım deyil, Cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi, 1805-ci ildə imzalanmış Kürəkçay müqaviləsinə baxmaq lazımdır ki, bu torpaqlarda (Qarabağda) erməni varmı? 1828-ci ildən bu torpaqlara, bu obalara köç başladı, erməni köçü. Onu da qeyd edək ki, Cənubi Qafqaz ərazisində Haylar - ermənilər yalnız yerli azərbaycanlıların, xidmət sahəsində çalışanlardan ibarət idilər.

Qərbi Azərbaycan əhalisinin demək olar ki, hamısının əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Maldarlıqla məşğul olan insanlar yaylaq-qışlaq həyatı yaşayardı, yəni əhali yayda üç ay yaylağa qalxardı. Bu yaylaqlar, əsasən, İrəvan əyalətinin Ağdağ, Əyricə, Arxaşan, Qızılziyarət, Oyuxlu, Üçtəpə, Ağmanqan dağlarının ətəklərində, yamaclarında yerləşirdi. Qərbi Azərbaycanda digər bölgələrin yaylaqları İsti su, Yazı yurdu, Haşarlı, Matəm ağacı, Sultan yurdu, Taxta körpü, Murad təpəsi və s. qeyd edə bilərik. Bu yaylaqlardan bəzilərindən Naxçıvan əhalisi də istifadə edirdi. Yaylaq zamanı insanlar köç mərasimi təşkil edirdi. Məqsəd yaylaqda işlərinin uğurlu olması idi. Oxşar ənənə demək olar ki, Naxçıvan əhalisi arasında da geniş yayılmışdır.

Bayram və mərasimlərdən söz açmışkən Xıdır Nəbi mərasimini xüsusilə qeyd edə bilərik. Qərbi Azərbaycandan olan soydaşlarımız ilə apardığımız sorğu nəticəsində məlum olmuşdur ki, Xıdır Nəbi mərasiminin qeyd edilməsində adətlər, inamlar sistemi eyni olsa da, vaxt olaraq fərqli günlərdə qeyd edilir. Xıdır Nəbini bəzi kəndlərdə 5 fevral, bəzilərində 9 fevral, bəzilərində isə 14-15 fevral qeyd edərlər. Onu da qeyd edək ki, bu adət-ənənələrini bu gün də özləri ilə yaşatmaqdadırlar. Aparılan araşdırmalardan məlum olmuşdur ki, qeyd edilən günlər Naxçıvanla oxşarlıq təşkil edir.

Bundan əlavə, Axır çərşənbə adlı mərasimi Naxçıvanda olduğu kimi, Qərbi Azərbaycanda da Novruz bayramından üstün tutur, yüksək səviyyədə keçirirdilər.

Dini bayramlara gəldik də isə **Orucluq, Qurban** bayramları insanlar arasında sovet hakimiyyətinin dövründə belə qorunub saxlanılır, gizli də olsa, qeyd edilirdi. Hətta məlumatçılarımız qeyd edir ki, Qurban bayramında kəsilən heyvanın ətindən ermənilərə göndərməzdik. Evə gəlsələr belə, qurban ətindən bişirilən yeməkdən onlara verməzdik. Qurban bayramına Qərbi Azərbaycanın bir çox kəndlərində "İsmayıl Qurbanı" deyirdilər. Naxçıvan bölgəsində də oxşar adət izlənilməkdədir.

ETNOQRAFİK TƏDQİQATLARDA AŞIQ YARADICILIĞI VƏ GÖYÇƏ AŞIQ MƏKTƏBİ

Fəxriyyə HƏVİLOVA
fexriyyehavilova@mail.ru
ORCID ID: 0000-0003-1774-7461
Bakı Dövlət Universiteti

XÜLASƏ

Azərbaycan mədəniyyəti tarixində xüsusi əhəmiyyətə malik olan aşıq sənəti xalqımızın çoxəsrlik tarixinin və mənəvi mədəniyyətinin tərkib hissəsidir. Bu hikmətli sənətin yaradıcısı xalqdır. Minilliklərdən üzübəri gələn, əsrləri əsrlərə qovuşduran bu mənəvi zənginlik xalqımızın həyatının yol yoldaşı, sirr sirdaşıdır. Xalqın istək və arzularının tərcümanı olan aşıq, el arasında "xalq aşığı", "haqq aşığı", "ustad" kimi qiymətləndirilir, "aşığın səsi haqqın səsidir", "aşıq elin anasıdır", "aşıq el yaraşığıdır", "aşıq elin həm təbibi, həm məlhəmidir" deyə tərifl ənir. Bu təkrarsız sənəti yaradan, yaşadan və yayan aşıqlar Qafqazda böyük hörmət və şöhrətə malik olmuşlar.

Etnoqrafik tədqiqatlarda və xalqımızın mənəvi mədəniyyətinin öyrənilməsində aşıq yaradıcılığının özünəməxsus yeri var. Erkən orta əsrlərdən təşəkkül tapan aşıq sənəti əslində qədim ozan sənətinin davamı və varisidir. Azərbaycan mədəniyyəti tarixində müstəsna əhəmiyyətə malik olan bu sənətin qədim keçmişi və çoxşaxəli ənənələrinin olmasına baxmayaraq, XVIII əsrdən sonra yazıya alınmış, XIX əsrdən etibarən dərc edilməyə başlamışdır.

Dünyəvi mövzular-bəşəri məhəbbət, gözəllik, mənəvi-əxlaqi dəyərlər, insanın daxili aləmi, arzu və istəkləri, ustadların müdrik kəlamları, öyüd-nəsihətləri, ulların xatırlanması, böyüklərə hörmət və ehtiram, analara və qızlara dərin bir məhəbbət, xalq qəhrəmanlarının tərənümü, vətənin dağına, daşına bağlılıq, təbiətə vurğunluq, dağlarımızın vəsfi bu aşıq yaradıcılığın əsasını təşkil edirdi.

Azərbaycan aşıq yaradıcılığında Göyçə aşıq məktəbi xüsusilə fərqlənir. Göyçə aşıq məktəbi İrəvan, Dərələyəz, Zəngəzur və Gəncəbasar tarixi coğrafi rayonlarını əhatə edib, qərbi Azərbaycan ərazisində meydana gəlmişdir. Göyçə mühitində, məişət və həyat tərzində qədim oğuz ənənələri qorunub saxlanılmışdır. Bölgənin təbiəti, təsərrüfatı, maldarlığı, əməksevərliyi, xalq təbabəti, təbiətə sevgi və qayğısı, nəhayət qonaqpərvərliyi burada formalaşan aşıqların ifasında xüsusi yer tuturdu. Geniş və zəngin yaradıcılıq imkanları, islami dəyərləri, ozan tarixi ənənələri, təbiət və insan gözəlliklərinin real mənzərəsini əks etdirmə qabiliyyəti, müxtəlif dünyəvi görüşləri ustalıqla ifa məharəti ilə seçilən aşıq mühitləri XVIII əsrin sonlarından şərti olaraq Göyçə aşıq məktəbi adı altında birləşmiş oldu. Göyçə aşıq məktəbinin qüdrətli nümayəndələrindən olmuş Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Əsəd və başqaları aşıq sənətini çox mükəmməl bilən və təbliğ edən sənətkarlar olmuşlar. Göyçə aşıq məktəbi bir-birinin ardınca qüdrətli söz ustaları, el sənətkarları, yetişdirmiş, onların hər biri isə öz növbəsində Göyçə məktəbinin formalaşmasına mühüm töhfələr vermişlər.

Müasir dövrümüzdə dünya miqyasında baş verən qloballaşma və inteqrasiya prosesində milli

dəyərlərimizin mühafizə edilməsində aşıq yaradıcılığının müstəsna rolu danılmazdır. Məhz bu səbəbdən aşıq yaradıcılığının milli-mənəvi dəyərlər, xüsusilə azərbaycançılıq ənənələri ilə güclü bağlılıq əsasında araşdırılıb öyrədilməsi, dünya miqyasında tanıdılması olduqca zəruridir.

Bu gün Azərbaycanda saz-söz sənətinə yüksək səviyyədə dəyər, qiymət verilir. Qədim mədəni irsə malik olan aşıq sənətinin son dövrdə dünya miqyasında inkişaf etdirilməsi Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Azərbaycan aşıq sənətinin beynəlxalq aləmdə təbliği və tanıdılması bu sənətin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədinə birbaşa xidmət edir.

Açar sözlər: *mənəvi mədəniyyət, ənənə, aşıq Ələsgər, ağız ədəbiyyatı, aşıq yaradıcılığı*

NAXÇIVAN VƏ İRƏVAN ÇUXURU FOLKLORU KONTEKSTİNDƏ TOY MƏRASİMLƏRİ

Məleykə MƏMMƏDOVA
melikememmed@gmail.com
ORCİD: 0000-0001-7714-4668
AMEA Folklor İnstitutu

XÜLASƏ

İnsan həyatının üç əsas keçid mərhələsi vardır: doğum, evlənmə, ölüm. Sözügedən bu üç mərhələnin hər biri insan həyatında önəmli dəyişiklikləri, sevinc və kədəri ilə yaddaşlarda iz buraxır. Həmçinin bu mərhələlər insan qədərinə, alnına yazılmış, eyni zamanda öncədən təyin olunması və dəyişdirilməsi mümkün olmayan üç önəmli dönüm nöqtəsi – keçid mərhələsidir. Bu üç mərhələdən ikincisi olan evlənmə ilə bağlı toy mərasimləri özünəməxsus inancları, adət-ənənləri, ritualları ilə folklorumuzda hər zaman diqqət mərkəzindədir. Bəşər tarixi qədər qədim olan mərasimlərimiz folklorumuzun, mədəniyyətimizin, milli kimliyimizin əsas göstəricilərindən olub yaşantımızın, həyat tərzimizin vazkeçilməz adətlərindəndir.

Hər bir gəncin, eyni zamanda ana-atasının, qohum-əqrəbalarının arzusu olan toy, folklorumuzda mərasim şəklində icra edilir. Toy mərasiminin özü də pillə şəklində bir neçə mərasimin kompleksindən ibarətdir. Bildiyimiz kimi, toy mərasimləri "qız bəyənmə"dən başlayıb "qız istəmə", "elçilik", "bəlgə", "nişan", "nişanbazdıq", "kəsəmət", "cehiz", "ev bəzəyi", "toy çörəyi", "toy", "xına", "hakuşqa", "qapıkəsdi", "xaş və muğam saatı", "gəlinoturma", "duvaq", "qazandibi", "gəlingörməsi", "əlöpmə və ayaqaşdı"ya qədər davam edən adət və mərasimləri əhatə edir. Hər bir adətin bölgələrimizə görə fərqlilikləri və bənzər xüsusiyyətləri vardır.

Məqalədə toy mərasim və adətləri Naxçıvan və İrəvan Çuxuru folklor mətinləri konteksində araşdırılmış, qarşılıqlı şəkildə müqayisə olunaraq bənzər və fərqli cəhətləri vurğulanmışdır.

Açar sözlər: *Naxçıvan, İrəvan Çuxuru, folklor, toy, mərasim, adət.*

"İTİRİLMİŞ TORPAQLARIMIZ" PROFESSOR S.Y.BABAYEVİN TƏDQİQATLARINDA QƏRBİ AZƏRBAYCAN MÖVZUSU

Elnarə SEYİDOVA
Naxçıvan Dövlət Universiteti

Məqalədə "S.Y.Babayevin Qərbi Azərbaycan mövzusuna dair tədqiqatları təhlil olunmaqla, hələ uzun illər öncə bir coğrafiyaçı kimi onun bu mövzuya aktual bir məsələ kimi toxunması xarakterixə olunur. Müəllifin"Ermənilərin Zaqafqaziyaya gəlişi və demoqrafik proseslər", "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri", "Naxçıvanın itirilmiş torpaqları", "Harada nə qədər erməni olmuşdur?" Qərbi Azərbaycan toponimləri, və s. mövzularda yazdığı əsərləri Qərbi Azərbaycanın tarixi-coğrafi xüsusiyyətlərini, toponimlərini öyrənmək baxımından qiymətlidir.

Coğrafiya elmi tarixində bir sıra mövzular tədqiq edilib ictimaiyyətə çatdırılsa da, onların içərisində elə məsələlər var ki, tədqiqata ehtiyacı var. Qərbi Azərbaycan mövzusu da məhz belə məsələlərdəndir. Ərazinin tarixi-coğrafi xüsusiyyətləri, coğrafi adları indiyə qədər öz elmi izahını tapmamış və elmi baxımdan düzgün təhlil və tədqiq edilməmişdir. Bu baxımdan, S.Y.Babayevin əsərlərinin regionun coğrafi xüsusiyyətlərinin öyrənilməsində əhəmiyyəti əvəzsizdir. Professor S.Y.Babayevin bu il 100 illik yubileyi qeyd edilir. Onun tədqiqatları hər dövr üçün aktuallıq kəsb edir və edəcəkdir.

Açar sözlər: *Qərbi Azərbaycan, tarixi-coğrafi xüsusiyyət, coğrafi tədqiqat, toponim, itirilmiş torpaqlarımız*

QƏRBİ AZƏRBAYCAN XALÇALARINDA RƏNG SEMANTİKASI

Almaz ŞABANOVA
almaz.yaver@gmail.com
Orcid İD:0000-0002-5671-1966
Bakı Dövlət Universiteti

XÜLASƏ

Hər xalqın mədəniyyət tarixində elə sənət sahəsi vardır ki, orada onun zəngin mənəvi aləmi əks olunmuş, xarakteri, intellekti, dünyagörüşü, estetikası və həyat fəlsəfəsinə xas olan köklü xüsusiyyətlər öz təcəssümünü tapmışdır. Azərbaycan xalqı üçün belə sənət növü xalçaçılıqdır. Azərbaycan dünyanın ən qədim xalçaçılıq mərkəzidir. Təsadüfi deyil ki, lap uzaq keçmişlərdən Azərbaycan xalçaları təkcə valehedici bir əşya olaraq qalmamış, eyni zamanda hərtərəfli tədqiq edilib öyrənilmişdir. Xalçaçılığın Azərbaycanda çox qədim tarixi var. Azərbaycanda toxunan xalçalar müxtəlif zonalara görə biri-birindən fərqlənirlər. Qarabağ və Qazax bölgələrində toxunan xalça malları forma zənginliyinə və rəng əlvanlığına görə daha çox fərqlənir. Qərbi Azərbaycan xalçaları ta qədimdən öz bənzərsizliyi ilə gözləri, könülləri oxşayıb. Qərbi Azərbaycanın Loru, Pəmbək, Şəmşəddin, Aparan, Talın, Vedi, Axtı, Basarkeçər, Kəvər, Sərdarabad, Üçkilsə, Dərələyəz, Qəmərli, Zəngibasar, Soylan, İrəvan xalçaları bir vaxtlar bütün Qafqaza ün salıb, dünyaya yayılıb.

Azərbaycan xalçaçılıq məktəbinin İrəvan qrupuna aid olan xalçaçılıq qolları tarixən çox geniş şəkildə yayılıb. Uzun əsrlər bu bölgəmizdə müxtəlif çeşnili xalçalar toxunub. Qeyd edilənə görə, Azərbaycan xalçalarının İrəvan qupu Azərbaycanın mədəniyyətinin tərkib hissəsi olub, onun əsas sənətkarlıq xüsusiyyətləri əks etdirir. Azərbaycanın müxtəlif xalçaçılıq məktəbləri ilə sıx əlaqəsi duyulan İrəvan xalçalarının bu ərazidə yaşayan insanların əsas düşüncə və hisslərinin müstəvisi kimi çıxış etdiyini söyləmək olar. Qərbi Azərbaycan xalçaları ta qədimdən öz bənzərsizliyi ilə gözləri, könülləri oxşayıb. Qərbi azərbaycanlılar öz yurdlarında didərgin düşənə qədər burada xalçaçılıqla məşğul olublar. Göyçəlilər, vedililər, zəngəzurlular, gərnilər və başqaları hər zaman danışırdılar ki, hər evdə xana qurulardı və qızlar, gəlinlər uzun qış gecələrində xalça toxuyardılar. Qərbi Azərbaycanda müxtəlif ölçülü xalçalarla, kilimlərlə bərabər, namazlıqlar, çullar və digər toxunma məmulatları da var idi. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir. Xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapmışdır. Qərbi Azərbaycanda müxtəlif ölçül xalçalarla, kilimlərlə bərabər nazmalıqlar, çullar və digər toxunma məmulatları da var idi. Zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar verib, onun rəng kompozisiyasının həllinə çoxçeşidli boyalar bəxş edib. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir Qərbi Azərbaycanda müxtəlif ölçül xalçalarla, kilimlərlə bərabər nazmalıqlar, çullar və digər toxunma məmulatları da var idi. Qərbi Azərbaycan xalçaları qədim oğuz türklərinin həyat tərzində, məşğuliyyətində xüsusi yer tutub.

Qərbi Azərbaycanın Ağbaba bölgəsinin xalçalarında təbii üsulla alınmış qırmızı, sumağı, sürməyi, sarı, qəhvəyi, yaşıl, şəkəri, mavi rənglərdən ibarət kolorit həlli öz uyarlığı ilə göz oxşayır. Buranın xalçalarının rəngi, şuxluğu, oynaqlığı ilə nəzərə çarpır. Ağbaba mahalında, əsasən, kilim, palaz texnikası ilə toxunan xalçalar üstünlük təşkil edirdi. Bu mahalın xalçaları üçün "damğa", "qoşa damğa", "dilikli damğa" və "qarmaqlı" motivləri səciyyəvi idi. Buranın xalçalarının rəngi, şuxluğu, oynaqlığı ilə nəzərə çarpır. Tarixi kökləri qədimlərə gedib çıxan rayonun xalçaları bir vaxtlar bütün dünyada məşhur olub.

Açar sözlər: *xalça, rəng, naxış, mədəniyyət, incəsənət*

MƏMMƏD SƏİD ORDUBADİ 1905-Cİ İL NAXÇIVAN VƏ EÇMİƏDZİN HADİSƏLƏRİ HAQQINDA

Şəhla MƏCİDOVA
shahla.majidova@mail.ru
AMEA Əlyazmalar İnstitutu

XÜLASƏ

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr ölkənin ədəbi mühitinə çox böyük təsir göstərərək bu dövrün ədəbiyyatına mühüm dəyişiklik gətirir. Belə bir tarixi mürəkkəb vaxtda–ziddiyyətlərlə dolu inqilabi şəraitdə bir tərəfdən də Qafqaza köçürülmüş ermənilərin bu bölgədə yaratdığı gərginliklər xalqımızın tarixinə qanlı hərflərlə yazıldı. Hələ o zamandan başlayan qanlı hadisələr yaxın tariximizədək davam etdi, bir əsr ərzində müxtəlif dövrlərdə yüz minlərlə günahsız insanın kütləvi qırğınlarına səbəb oldu. Təbii ki, dövrün ictimai-siyasi mənzərəsi ədəbiyyatımıza siraət etdi, onu həm sənətkarlıq, həm də mövzu baxımından əvvəlki dövrün ədəbiyyatından kəskin surətdə fərqləndirməklə azadlıq, istiqlaliyyət uğrunda mubarizələri, başlanmış hərəkatı dəstəkləyən, demokratik ideyaları yayan bir salnamə ədəbiyyatı formalaşdırdı və bu tarixi hadisələri əks etdirən mötəbər mənbələrə çevirdi. Bu mücadiləyə qoşulan yazıçıların yaradıcılığını dövrün ideologiyasını əks etdirən manifest də adlandırmaq olar. XX əsr əvvəllərində bu tarixi prosesləri qələmə alan Azərbaycan publisistikasının və onun nümayəndələrinin misilsiz rolu vardır. Bu hadisələrin bilavasitə şahidi və yazarı görkəmli ədib Məmməd Səid Ordubadidir.

Məmməd Səid Ordubadinin erməni qırğınları haqqında silsilə yazıları mətbuatda nəşr edilmişdir. Bu yazılar içəriisində 1905-ci il Naxçıvan və Eçmiədzin hadisələrinin əks olunduğu yazıları həyəcansız oxumaq mümkün deyil. Naxçıvan hadisələrindən bəhs edən Ordubadi yazır: "O vəziyyətdə bazar yanar dağ və vulkanlara bənzəyirdi. Bir saatdan sonra məlum oldu ki, hərif kazaklar və ermənilər əlbir olub müsəlman bazarını tamam qarət edəndən sonra od vurmuşlar". Erməni xislətinin hələ o zaman törətdiyi qətllərdə məlunluğunu Ordubadi digər yazısında–Eçmiədzin hadisələrini təsvir edərkən vurğulayır: "Bu müharibələrdə ermənilərin şan-şöhrətinə ziyan vuran bir iş vardısa, o da müharibə vaxtında südəmər körpələri, qoca qarıları öldürmək idi".

Ordubadinin hər iki məqaləsini oxuyarkən sanki hadisələrin əsrin əvvəllərində deyil, 90-cı illərin əvvəllərində Qarabağda baş verdiyini düşünürsən. Çünki hadisələrin tamamilə eyni olduğu görünür. Tarixdən də göründüyü kimi, ermənilər heç zaman öz mənfur xislətindən əl çəkməmiş, eyni ssenarini 80 il sonra da təkrar edərək qətllər törətmiş və getdikləri ərraziləri viranəyə çevirmişlər. Məqalələr dövrün hadisələrini dəqiqliklə və faktlarla əks etdirən tarixi mənbədir.

Açar sözlər: *müsəlman, Üçkilsə, iyun, atışma, qarət, qubernator*

QƏRBİ AZƏRBAYCANIN TARİXİ-MEMARLIQ ABİDƏLƏRİNDƏ ERMƏNİ VANDALİZMİNİN İZLƏRİ

Aysel İSMAYILOVA
aysel_ismayi@mail.ru
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu

Qədim yurd yerimiz olan indiki Ermənistan ərazisində çoxlu sayda məscidlər, imarətlər, məqbərələr, qəbiristanlıqlar, qalalar, körpülər mövcuddur. Bir xalqın milli kimliyi, mənəvi-əxlaqi dəyərləri eyni zamanda onun abidələrində təcəssüm olunur. Bu səbəbdəndir ki, ermənilər Azərbaycan xalqının mədəniyyət abidələrini dağıdır, yer üzündən silir və özününküləşdirməyə çalışırlar. Ermənilərin istər Qərbi Azərbaycan-yəni indiki Ermənistan ərazisindəki, istərsə də ikinci Qarabağ müharibəsindən sonra Azərbaycanın işğaldan azad olunmuş qərb bölgələrindəki abidələrimizə qarşı vandalizmi hələdə davam etməkdədir. Biz bu siyahıya yüzlərlə abidəmizi daxil edə bilərik. Erməni vandalları tərəfindən dağıdılan tarixi-memarlıq abidələrindən Aşıq Ələsgərin qəbirütsü abidəsi, Dəmirbulaq məscidi, Hacı Novruzəli bəy məscidi, Sərdar məscidi (Abbas Mirzə məscidi), Rəcəb Paşa məscidi, Sərdar sarayı, Mirəli ağa türbəsi, Came məscidi (Şah Abbas məscidi), Göy məscid, Zalxan məscidi, Təpəbaşı məscidi və saysız–hesabsız qəbiristanlıqlar, şəhərlər, kəndlər və.s. Ermənilər tarixi abidələrimizi məhv etməklə yanaşı, qədim dövrdən qalma qəbir daşlarını, qoç başdaşılarını sındırır, oğurlayır və özününküləşdirirdilər. Şəhər və kəndlərimizin adları dəyişdirilmiş, tarixi abidələrimizin üzərindəki yazı dəyişdirilərək erməni tarixi abidələri kimi qələmə verilmişdir. Erməni vandalizminə qurban gedən abidələrimizi saymaqla bitməz. Bu məqalədə erməni vandalları tərəfindən dağıdılan tarixi-memarlıq abidələrimizdən sadəcə bir neçəsi haqqında məlumat verilir.

Açar sözlər: *Qərbi Azərbaycan, tarixi-memarlıq abidələri, vandalizm*

AZƏRBAYCAN DÜŞÜNCƏ TARİXİNDƏ QƏRBİ AZƏRBAYCAN FENOMENİ

Könül BÜNYADZADƏ
Orcid İD: 0000-0001-6862-5144
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Azərbaycan dünya düşüncə tarixində, xüsusilə İslam mədəni bölgəsində əhəmiyyətli yer tutan bir bölgədir. Buna səbəb istər görkəmli şəxsiyyətləri, istərsə də bu bölgədə təşəkkül tapan fəlsəfi, dini cərəyanlardır. Burada söhbət həm mövcud fəlsəfi məktəblərin inkişafından, həm də yeni fəlsəfi məktəblərin yaranmasından gedə bilər.

Qərbi Azərbaycan bütöv mənzərənin əhəmiyyətli bir hissəsidir, yəni yalnız coğrafi baxımdan fərqləndirilə bilən bu ərazi yox, həm də mental baxımdan bütövün ayrılmaz hissəsidir. Burada bir neçə əhəmiyyətli məqam üzərində xüsusilə dayanmaq lazımdır.

Əvvəla, Qərbi Azərbaycan böyük İpək Yolunun üzərində yerləşəm mühüm bir coğrafi mövqeyə sahibdir. Onun ayrılması ilə Azərbaycandan keçən iqtisadi və mədəni xətt qırılmış olur. Bu baxımdan, Qərbi Azərbaycanın öyrənilməsi həm də İpək yolunun öyrənilməsinə yeni diqqətəlayiq məqamlar qata bilər.

İkincisi, Qərbi Azərbaycanda fəaliyyət göstərmiş mütəfəkkirlər bütöv düşüncə mənzərəsinin ayrılmaz hissələridir. Onların təhlili, tədqiqi dünya fəlsəfə tarixində Azərbaycan adlı səhifənin həm zənginləşməsinə, həm də tamamlanmasına səbəb ola bilər.

Nəhayət, üçüncüsü, Qərbi Azərbaycanın mədəni irsi Azərbaycanın düşüncəsinin inikasıdır. Buraya həm Qərbi Azərbaycan xalılarını, həm daş abidələrini, həm də Aşıq musiqisini, folklorunu göstərmək olar. Məlum olduğu kimi, bunların hər biri müəyyən mənada düşüncənin simvolik ifadələridir və özünəməxsus metodologiya tələb edir.

Beləliklə, Qərbi Azərbaycanın yalnız coğrafi deyil, həm də mental bir fenomen olaraq əhəmiyyətinin qəbul edilməsi düşüncə tarixi üçün vacib bir addımdır və ciddi tədqiqatları zəruri edir.

Açar sözlər: *Qərbi Azərbaycan, düşüncə tarixi, İpək yolu, Qərbi Azərbaycanda fəlsəfə, Qərbi Azərbaycanın mədəni irsi.*

AŞIQ ƏLƏSGƏR ŞEİRLƏRİNDƏ QƏRBİ AZƏRBAYCANIN TƏRƏNNÜMÜ

Piralı ƏLİYEV
Orcid İD: 0000-0003-2420-1125
piralibexbud56@mail.ru
Bakı Slavyan Universiteti

XÜLASƏ

Məqalədə qarşıya qoyulan əsas məqsəd türkdilli xalqların aşıq şeirinin əsas məktəblərindən biri olan Qərbi Azərbaycan adlanan qədim yurdumuzun Göyçə mahalında dünyaya göz açmış, ustadlarından dərs almış və öz istedadı ilə aşıq şeirini zənginləşdirmiş, inkişafına misilsiz töhfələr vermiş sənətkarlardan biri olan Aşıq Ələsgər yaradıcılığını təhlilə cəlb etməkdir. Aşıq Ələsgər zəngin ənənəsi olan bir məktəbdən- Göyçə aşıqlarından dərs almış, janr və sənətkarlıq baxımından gözəl irs yaratmışdır. Aşığın şeirləri mövzusuna görə bir neçə yerə bölünür: 1. İctimai-siyasi motivli şeirlər; 2. Məhəbbəti tərənnüm edən şeirlər; 3. Təbiətin əsrarəngiz gözəlliyini təsvir edən şeirlər; 4. Didaktik məzmunlu şeirlər.

Birinci, ikinci və dördüncü bölgülər üzrə aşığın yaddaqalan, zövqoxşayan şeirləri var. Bu bölgüyə daxil ilan şeir nümunələri haqqında məqlədə geniş təhlil aparılır. Üçüncü bölümdə daha çox Qərbi Azərbaycanın əzəmətli dağlarını, düzlərini, buz bulaqlarını, rəngarəng çiçəklərini, güllərini poetik şəkildə canlandırdığı qeyd olunur. Aşığın "Yaylaq" adlı həm qoşması, həm də gəraylısı vardır ki, bu nümunələrdə fəsillərə uyğun olaraq dağların "libası"nı dəyişməsi əks etdirilir. Yaz, yay, payız və qış fəsillərində əzəmətli dağlar fərqli libasa bürüdüyü verilir. Yazda el-obanın yaylağa üz tutduğu, el gözəllərinin, igidlərin daha çox olduğu, aşıqların çal-çağırı eşidilən səfalı yaylaqlar, seyrangahları tərənnüm edilir. Təbiətə həsr edilmiş digər şeirlərində aşığın Göyçə mahalına bağlılığı, vətənpərvərliyi qabarıq şəkildə ifadə olunmuşdur. Aşığın "Yaylaq", "Görmədim", " Dağlar" rədifli qoşmaları aşıq şeiri içərisində ən gözəl nümunələrdən hesab olunur və burada Azərbaycanın Sarı Nər, Qısır Murğuz, Şahdağ, Kəpəz, Murov, Qonur, Qoşqar dağlarının adı çəkilir.

Ermənilər tərəfindən öz yurdundan köçkün düşən, sonralar yenidən Göyçəyə qayıdan aşığın həyatına və yaradıcılığına müxtəlif aspektdən işıq salınır.

***Açar sözlər**: Qərbi Azərbaycan, Göyçə, Aşıq Ələsgər, şeir, təbiətin tərənnümü, rədif*

DƏRƏLƏYƏZİN BÖYÜK EL SƏNƏTKARI: AŞIQ CƏLİL

Afaq MUSTAFAYEVA
afanimrahman@gmail.com
Orcid İD: 0009-0000-4704-5570
Azərbaycan Milli Elmlər Akademiyası

XÜLASƏ

Qərbi Azərbaycanın Dərələyəz mahalı da Göyçə mahalı kimi sazın-sözün məskənidir. Dərələyəz aşıq mühitinin formalaşması və inkişafı təbii ki, Göyçə aşıq mühiti ilə qarşılıqlı təmas, eləcə də mədəni münasibətlərlə bağlıdır. Burada Aşıq Cəlil, Şair Təhməz, Dəllək Xələf, Aşıq Əsəd, Şair Alhüseyn, Şair Ağamurad, Şair Rzaqulu, Aşıq Qulu, Aşıq Bəhman, Aşıq Mirzalı, Şair Rəhman kimi sənətkarlar yetişmişdir.

Dərələyəzli Aşıq Cəlil Dərələyəz aşıq mühitinin ustad aşığıdır, bu mahalın Sallı kəndindəndir. Aşıq Cəlil eyni zamanda bəstəçi aşıq kimi də tanınmışdır. Onun on iki aşıq havası məlumdur. Bu el sənətkarının on beş şəyirdi olmuş, onların arasında aşığın oğlu Bəhmən də vardır. Göyçə aşıq mühitində Aşıq Ələsgər hansı məqama sahibdirsə, Aşıq Cəlil də Dərələyəz aşıq mühitində o məqama sahibdir.

Aşıq Cəlil haqqında ilk tədqiqatların müəllifi AMEA Folklor İnstitutunun əməkdaşı, tədqiqatçı alim Əli Şamildir. Ə.Şamil 1985-ci ildə "Sovet Naxçıvanı" qəzetində dərc etdirdiyi "Aşıq Cəlil" adlı məqaləsində ilk dəfə onun həyat və yaradıcılığı haqqında məlumat vermiş, aşığın nəvəsi Aşıq Mirzalının xatirələrinə əsaslanaraq Aşıq Cəlilin 12 saz havasının müəllifi olduğunu, aşıqlıq sənətini Abbas Dəhridən öyrəndiyini də qeyd etmişdir. Məqalədə müəllifliyi Aşıq Cəlilə aid edilən 5 saz havasının ("Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili", "Qaytarma", "Sallama gəraylı" (çox vaxt ona "Dərələyəz gəraylısı" da deyirlər) adı çəkilir. Müəllif həmin yazısında aşığın doğum tarixinə toxunmasa da, şahidlərin söhbətindən Aşıq Cəlilin 1924-1928-ci illərdə vəfat etdiyini və Naxçıvanın Dizə kəndinin "Qəriblər" qəbiristanlığında dəfn edildiyini bildirir.

Tədqiqatçı jurnalist Qulu Kazımov (Kəngərli) da Aşıq Cəlilin on iki saz havası yaratmasını nəzərə çatdırır. Aşıq Cəlilin həmkəndlisi olan Q.Kazımov (Kəngərli) onun təxminən 1850-ci ildə doğulduğunu yazmış və sonrakı tədqiqatçılar da bu tarixə əsaslanmışlar.

Aşıq Cəlilin ustadı Aşıq Abbas olub. Professor H.Mirzəyev bu aşığın Cənubi Azərbaycandan olduğunu yazır. O göstərir ki, bu böyük ustad Aşıq Alı və Aşıq Ələsgərlə təmasda sənətin sirlərinə bələd olmuşdur. Məlumat üçün deyim ki, mən (A.M.) Aşıq Cəlilin on beş şəyirdindən birinin – Aşıq Bəhmanın nəvəsiyəm. Aşıq Bəhman mənim ata babamdır. Eyni zamanda mənim mənsub olduğum Mustafayevlər soy-kök şəcərəsi də Sallı kəndindəndir.

Tədqiqatçı alim, Atatürk Mərkəzinin əməkdaşı Nazim Əhmədlinin son dövrlərdə Aşıq Cəlillə bağlı apardığı tədqiqatlar, onun soy-kökünü araşdırması, aşığın və qohumlarının doğum tarixlərini müəyyənləşdirməsi ciddi elmi hadisə kimi çox qiymətlidir. N.Əhmədli bu məlumatları elmi dövriyyəyə cəlb etdiyi kameral təsvirlər əsasında müəyyən etmişdir. Tədqiqatçı alim Aşıq Cəlilin bərgüşüd tayfasına, bu tayfanın isə kəngərli türklərinə mənsub olduğunu qeyd edir. Nazim müəllim aşığın doğum tarixi ilə bağlı indiyə qədər mövcud olan fikir müxtəlifliyinə son qoyaraq onun 1868-ci ildə doğulduğunu sübut etmişdir.

Aşıq Cəlilin dövrümüzə cəmi beş şeiri gəlib çatıb. Bunlardan üçü qoşma, ikisi təcnisdir. Onları ilk dəfə tədqiqatçı K.Dərələyəzli toplayaraq "Dərələyəz od içində" kitabında vermişdir. Bu şeirlərdən diqqəti ən çox çəkən "Hardasan" qoşmasıdır. Bu şeir erməni daşnaklarının Aşıq Cəlilin də şahidi olduğu 1918-ci ildə törətdikləri vəhşilikləri, Dərələyəzdə və başqa türk torpaqlarında həyata keçirdiyi qırğınları təsvir etmək baxımından olduqca mühüm əhəmiyyət daşıyır.

Aşıq Cəlillə, Cəlil ocağı ilə bağlı tədqiqatların bundan sonra da aparılacağına, mühitə məxsus regional saz havalarının musiqi yönümündən də araşdırılmasına inanırıq.

Açar sözlər: *Aşıq Cəlil, Dərələyəz, saz havası, Göyçə, tədqiqatçı.*

SUMMARY

Afag Mustafayeva

THE GREAT ARTIST OF DERALEAZIN: ASHIQ JALIL

Deraleyaz district of Western Azerbaijan is also the home of music like Goycha district. The formation and development of the Dare-Layaz love environment is of course related to mutual contact with the Goyche love environment, as well as cultural relations. Artists such as Ashiq Jalil, Poet Tahmez, Dallek Khalaf, Ashiq Asad, Poet Alhuseyn, Poet Aghamurad, Poet Rzagulu, Ashiq Gulu, Ashiq Bahman, Ashiq Mirzali, Poet Rahman grew up here.

Darelayaz Ashik Jalil is a master lover of Darelayaz ashik environment, he is from Salli village of this district. Ashiq Jalil is also known as the composer Ashiq. His twelve loves are known. This artist had fifteen poems, among them there is Bahman, the son of Ashish. Ashiq Alasgar has the same position in Goyche's love environment, Ashiq Jalil also has the same position in Darelaez's love environment.

The author of the first studies about Ashiq Jalil is Ali Shamil, an employee of the Folklore Institute of ANAS. In 1985, A.Shamil published in the newspaper "Sovet Nakhchivani" in the article "Aşıq Jalil" for the first time, he gave information about his life and creativity, based on the memories of Ashıg Mirzali, Ashıg's grandson. He also mentioned that Jalil is the author of 12 saz airs and that he learned the art of lovemaking from Abbas Dahri. The article mentions the name of 5 saz airs ("Baş Jalili", "Orta Jalili", "Ayak Jalili", "Gaytarma", "Sallama gerayli" (often called "Daralayaz gerayli"), whose authorship is attributed to Ashiq Jalil. Author although he did not mention Ashiq's date of birth in that article, he says from the conversations of witnesses that Ashiq Jalil died in 1924-1928 and was buried in the "Garibler" cemetery of Diza village, Nakhchivan.

Research journalist Gulu Kazimov (Kangarli) also mentions the creation of twelve saz airs by Ashiq Jalil. Ashiq Jalil's fellow villager G.Kazimov (Kangarli) wrote that he was born around 1850, and later researchers also based this date.

Ashiq Abbas was Ashiq Jalil's master. Professor H.Mirzayev writes that this lover is from South Azerbaijan. It shows that this great master got acquainted with the secrets of art in contact with Ashıg Ali and Ashıg Alasgar.

For information, I am (A.M.) Ashiq Bahma's grandson, one of the fifteen sons of Ashiq Jalil. Ashiq Bahman is my grandfather. At the same time, the family tree of the Mustafayevs, to which I belong, is also from the village of Salli.

Research scientist, Atatürk Center employee Nazim Ahmadli's recent research on Ashıg Jalil, his genealogy research, determination of birth dates of Ashıg and his relatives are very valuable as a serious scientific event. N.Ahmadli determined this information on the basis of camera images that he brought into the scientific circulation. The research scientist notes that Ashiq Jalil belongs to the Barghushid tribe, and this tribe belongs to the Kangarli Turks. Nazim teacher proved that Ashish was born in 1868 by putting an end to the diversity of opinions that existed until now.

Only five poems of Ashiq Jalil have come down to our time. Three of them are couplets

and two are formal. For the first time, the researcher K.Darelaez collected them and gave them in the book "Darelaez in the fire". Among these poems, the couplet "Hardasan" attracts the most attention. This poem is very important in terms of describing the atrocities committed by the Armenian Dashnaks in 1918, witnessed by Ashiq Jalil, and the massacres carried out in Daraleyaz and other Turkish lands.

We believe that studies related to Ashiq Jalil and Jalil hearth will be conducted in the future, and regional saz airs specific to the environment will also be investigated from a musical perspective.

Key words: *Ashiq Jalil, Deraleaz, saz air, Goyche, researcher.*

QƏRBI AZƏRBAYCANIN TORPAQ ÖRTÜYÜ VƏ ONUN COĞRAFIYASI

Akif AĞBABALI
https://orcid.org/0000-0001-5793-9252
akbabali@bsu.edu.az

Qismət YUNUSOĞLU
https://orcid.org/0009-0005-8117-6255
xanbabayev53@mail.ru

Qoşqar MƏMMƏDOV
https://orcid.org/0009-0005-3512-5174
goshgarmm@day.az
Bakı Dövlət Universiteti

XÜLASƏ

Kiçik Qafqaz dağlıq silsiləsini və Qarabağ yaylasının qərb hissəsini, Araz, Zəngi, Oxçuçay və Bazarçay hövzələrini əhatə edən relyef-landşaft strukturunun mürəkkəbliyi, Alp-Himalay geosinklinal geoloji quruluşunun fəal dağəmələgəlmə proseslərinin intensivliyi, vulkanogen və maqmatik suxurların geniş yayılması nəticəsində Qərbi Azərbaycanın torpaq örtüyü tip və yarımtip təsnifatına görə elmi-nəzəri baxımdan qruplaşdırılması indiki dövrdə xüsusilə vacibdir. Hipsometrik relyef quruluşuna görə əsasən okean səviyyəsindən orta hesabla 500-3900 m yüksəklik hüdudlarında formalaşan Ağrıdağ vadisinin açıq qəhvəyi, Zəngiçay vadisinin qonur-qəhvəyi, Göyçə gölü ətrafının qonur dağ-meşə, Zəngəzur bölgəsinin şabalıdı dağ-meşə və qonur qəhvəyi...torpaq tiplərinin yayıldığı dağətəyi, alçaq və orta dağlığın torpaq örtüyünün təbii münbitlik xüsusiyyətlərinin kənd təsərrüfatı əhəmiyyəti tarixən iqtisadi-təsərrüfat sisteminin əsasını təşkil etmişdir.

Müxtəlif kənd təsərrüfatı bitkiləri (dənli və texniki bitkilər, çoxillik əkinlər, bostan-tərəvəz və s.) altında, təbii yem bazaları məqsədi ilə (örüş-otlaq sahələri kimi) istifadə olunan torpaq ehtiyatlarının aqroekoloji qiymətləndirilməsi relyef-iqlim şəraiti baxımdan aparılmaqla torpaq coğrafiyasının əsas sahəsi kimi ayrıca tədqiq edilmişdir.

Nəticədə uzun illər ərzində suvarma və dəmyə əkinçiliyi şəraitində istifadə edilən torpaq örtüyünün elmi-nəzəri baxımdan geniş və hərtərəfli tədqiqi XX əsrin 50-ci illərindən sonra başlanılmış, Qərbi Azərbaycanda torpaq coğrafiyasının inkişafına səbəb olmuşdur.

Bu baxımdan məqalədə Qərbi Azərbaycanın zonallıq üzrə torpaq örtüyünün morfogenetik yayılma qanunauyğunluğunun elmi-nəzəri təhlili aparılmaqla təsərrüfat istifadəçiliyinin əhəmiyyəti barədə bilgilərə yer verilmişdir.

Məqalədə həmçinin Qərbi Azərbaycanın torpaq coğrafiyasının digər elmlərlə (ekologiya, torpaqşünaslıq, iqlimşünaslıq, iqtisadi coğrafiya, aqroekologiya...) qarşılıqlı əlaqəsi nəticəsində əldə edilən məlumatlar əsasında torpaq örtüyünün və ehtiyatlarının səmərəli istifadə olunmasının təsərrüfat əhəmiyyəti də qeyd edilmişdir.

Açar sözlər: *landşaft strukturu, açıq qəhvəyi, dağ-meşə qonur, torpaq coğrafiyası, aqroekoloji.*

QƏRBİ AZƏRBAYCAN XARİCİ ÖLKƏ RƏSSAMLARININ YARADICILIĞINDA

Həbibə ALLAHVERDİYEVA
habiba.allahverdiyeva@mail.ru
Orcid İD: 0000-0003-4056-9173
Naxçıvan Müəllimlər İnstitutu

XÜLASƏ

Azərbaycan elə tarixi-coğrafi mövqedə yerləşib ki, tarixin bütün dövrlərində düşmən nəzərini cəlb edib, xarici qəsbkarların hücumuna məruz qalıb. Lakin buna baxmayaraq, Azərbaycan tarixin hər dövründə öz ərazisini, milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilmişdir. XIX əsrin birinci yarısında işğal olunmuş Azərbaycan torpaqları dağıdılmış, soydaşlarımız ata-baba yurd yerlərindən didərgin salınmış, onların yerinə ermənilər köçürülmüş, mədəniyyət abidələrimiz isə ermənilər tərəfindən zaman-zaman məhv edilmişdir.

Yaradılan hər bir tarixi-memarlıq nümunəsi tarixi özündə əks etdirsə də, məhz onun rəssamlar tərəfindən realist üslubla təsvir olunması da tarixi sənəd rolunu oynayır. Belə bir qəsbkarlığa məruz qalan Qərbi Azərbaycan torpaqlarının nə qədər zəngin mədəniyyətə malik olduğunu yerli və xarici ölkə rəssamlarının yaradıcılığında da izləmək mümkündür. Müxtəlif dövrlərdə xarici ölkə rəssamları tərəfindən çəkilmiş əsərlərə nəzər saldıqda Azərbaycanın qədim torpaqlarından olan bu ərazilərin ermənilər tərəfindən nə qədər dağıntıya, barbarlığa məruz qaldığını görmək mümkündür. Digər tərəfdən isə bu ərazilərdə mövcud olmuş tarixi-memarlıq abidələri, məscid və mədrəsələr, onların memarlıq quruluşu, üzərində həkk olmuş naxışlar, xəttatlıq nümunələri və s. kimi faktlar özlüyündə bu torpaqların, qədim tarixi köklərə malik bir ölkəyə – Azərbaycana məxsus olduğunu göstərir. Belə əsərlər xaricdə yaşamış və müxtəlif vaxtlarda, xüsusilə XVII-XIX əsrdə Qərbi Azərbaycana səyahət etmiş tarixçi, səyyah, diplomat rəssamların əl işləridir. Rəssamlar daha çox qrafika janrında realist üslubda çəkilmişdir. İstifadə olunmuş janr və üslublar təsvir olunmuş obyektin, hadisənin, məkanın daha dəqiq, incə detallarla real təsvirini vermək imkanı qazandırmışdır. Düyuba de Monpere, Ferdinand, K. Beqqrov. V.Moşkov, Qriqori Qaqarin, Paul Franken, J.Tavernye, Frans Rubo, Henri Meyer,G. Sergeyeviç, Vanderbux və başqa rəssamların müxtəlif texnikalarla çəkdiyi əsərlər Qərbi Azərbaycan ərazisində yerləşən şəhərlərin, xüsusilə İrəvan təsvirlərini, tarixi-memarlıq abidələrini, tarixi hadisələri realist üslubla əks etdirmişlər. Tarixi hadisələrdən ən maraqlısı isə ermənilərin Azərbaycan torpağında yerləşdirilməsi siyasətinin realist təcəssümü olan köçürülən erməni ailəsini təsviridir. Rus batalist rəssamı V.Moşkovun "Ermənilərin İrandan köçürülüb gətirilməsi" əsəri bunun bariz nümunəsidir.

Bundan əlavə,Rus rəssamı, knyaz Qaqarin Qriqori Qriqoryeviçin(1810-1893) yaradıcılığında Azərbaycanın gözəl güşələrindən olan İrəvanda yerləşən memarlıq nümunələrinin təsviri yaddaqalandır. Onun "İrəvan sərdarının sarayında güzgülü zal", "İrəvanda karvansara" əsərləri

rəssamlıq texnikası, rəng, kompozisiya quruluşu, perspektiv məsələlərin estetik həlli baxımından maraqlı və diqqətçəkim olması ilə yanaşı, tarixilik baxımından da böyük əhəmiyyət daşıyan əsərlərdəndir. Bir müddət Azərbaycanda və İranda yaşamış varlı zadəgan ailəsindən çıxmış fransız səyyahı, Jan Şardenin (1643–1711) 1673-cü ildə çəkdiyi İrəvan şəhərinin ümumi görünüşü, Q.Serqeviçin 1796-cı ildə çəkdiyi "İrəvan şəhərinin görünüşü", Ferdinandın "İrəvan şəhərinin görünüşü", Vanderbuxun "İrəvan məqbərəsi", 1861-ci ildə Paul Franken tərəfindən çəkilmiş "Böyük Məscid və Ağrı dağı ilə İrəvan bazarı", fransız səyyahı, geoloq və rəssamı Düyuba de Monperenin çəkdiyi "Xan sarayının hərəmxanasının həyəti", "Göy məscid", 1843-cü ildə çəkdiyi "İrəvan qalasındakı Sərdar (Abbas Mirzə) məscidi", və s. əsərlərində təsvir olunmuşdur. Lakin bu mövzuda çəkilmiş əsərlərin bir hissəsi tarixi janr, batalya janrında əks olunsa da, İrəvanda yerləşən tarixi abidələr, memarlıq nümunələri, xüsusilə məscid təsvirləri peşəkarlıqla təsvir olunmuşdur. Belə əsərlərdən isə Frans Rubonun 1827-cü ildə yaratdığı "İrəvan qalasının Çar Rusiyası tərəfindən işğal edilməsi", Qaqarin Qriqori Qriqoryeviçin "Sərdarabad qalası önündə İrəvan xanının döyüşçülərinin məşqi", V.Moşkovun "İrəvan qalasına hücum" və başqa əsərləri nümunə göstərmək olar.

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan, memarlıq abidələri qədim Azərbaycan ərazisi, rəsm əsərləri, qrafika janrı*

SUMMARY

Həbibə Allahverdiyeva

QƏRBİ AZƏRBAYCAN XARİCİ ÖLKƏ RƏSSAMLARININ YARADICILIĞINDA

Azerbaijan is located in such a historical and geographical position that it attracted the attention of the enemy and was attacked by foreign usurpers in all periods of history. However, despite this, Azerbaijan has been able to preserve its territory and national and moral values in every period of history. In the first half of the 19th century, occupied Azerbaijani lands were destroyed, our compatriots were displaced from their ancestral homelands, Armenians were moved in their place, and our cultural monuments were destroyed by Armenians from time to time.

Although each created historical-architectural example reflects history, its depiction by artists in a realistic style also serves as a historical document. It is possible to see how rich the culture of the lands of West Azerbaijan, which has been subjected to such an usurpation, is in the works of local and foreign artists. Looking at the works painted by foreign artists in different periods, it is possible to see how much destruction and barbarism these territories from the ancient lands of Azerbaijan were subjected to by Armenians. On the other hand, historical-architectural monuments, mosques and madrassas, their architectural structure, engraved patterns, examples of calligraphy, etc. existed in these areas. Such facts show that these lands belong to a country with ancient historical roots - Azerbaijan. Such works are the handiwork of historians, travelers, diplomat artists who lived abroad and traveled to Western Azerbaijan at different times, especially in the 17th-19th centuries. The artists mostly painted in a realistic style in the

graphic genre. The used genres and styles made it possible to give a realistic description of the depicted object, event, place with more accurate, fine details.Duyuba de Montpere, Ferdinand, K. Beggrove. The works of V. Moshkov, Grigory Gagarin, Paul Franken, J. Tavernye, Frans Roubaud, Henri Meyer, G. Sergeevich, Vanderbuch and other artists painted with various techniques realistically depict the cities located in the territory of Western Azerbaijan, especially Yerevan, historical-architectural monuments, historical events. reflected with style. The most interesting of the historical events is the description of the resettled Armenian family, which is a realistic embodiment of the policy of settling Armenians on the land of Azerbaijan. This historical work, which reflects the real situation, is proof that these territories belong to Azerbaijanis today. Russian batalist artist V. Moshkov's work "Relocation of Armenians from Iran" is a clear example of this.

In addition, the description of the architectural examples located in Iravan, one of the beautiful corners of Azerbaijan, in the creation of the Russian artist Prince Gagarin Grigory Grigoryevich (1810-1893) is memorable. His works "Mirrored Hall in the Palace of the Iravan Sardar" and "Iravan Caravanserai" are interesting and remarkable in terms of painting technique, color, compositional structure, aesthetic solution of perspective issues, and are also of great importance in terms of history.

A general view of the city of Yerevan drawn by Jean Chardin (1643-1711), a French traveler from a wealthy noble family who lived in Azerbaijan and Iran for some time, "View of the city of Yerevan" by G. Sergeevich in 1796, "View of the city of Yerevan" by Ferdinand , Vanderbuch's "Iravan Mausoleum", "Iravan Bazaar with the Great Mosque and Mount Ararat" painted by Paul Franken in 1861, "Courtyard of the Harem of the Khan's Palace", "Blue Mosque", 1843- "Sardar (Abbas Mirza) Mosque in Irevan Castle", etc. described in his works. However, although some of the works drawn on this topic are reflected in the historical genre, the battle genre, historical monuments, architectural examples, especially mosques, located in Yerevan, are professionally described. Examples of such works include "The Occupation of Yerevan Castle by Tsarist Russia" by Franz Roubaud in 1827, "Training of the Warriors of the Khan of Yerevan in Front of Sardarabad Castle" by Grigory Grigoryevich Gagarin, "Attack on Yerevan Fortress" by V. Moshkov and others.

Key words: *Western Azerbaijan, Iravan, architectural monuments of the ancient territory of Azerbaijan, works of art, graphic genre*

AZƏRBAYCAN AŞIQ SƏNƏTİNİN İNKİŞAFINDA AŞIQ ƏLƏSGƏRİN ROLU

Xumar MƏMMƏDOVA
Naxçıvan Dövlət Universiteti

Aşıq ədəbiyyatı Azərbaycan xalqının milli-mənəvi sərvətidir. Azərbaycan aşıq poeziyasının tarixi əslində Dədə Qorquddan başlayır və qədim, eyni zamanda sağlam köklər üzərində bərqərar olmuşdur. Qərbi Azərbaycan ərazisində aşıq sənətinin inkişafında Aşıq Ələsgərin misilsiz xidmətləri olmuşdur. O, özündən sonra bu sahədə böyük bir məktəbin əsasını qoymuşdur. Ümumiyyətlə, bölgədə Aşıq Ələsgərin yaradıcılığından təsirlənən və onun tutduğu yolu davam etdirən aşıqlar formalaşmışdır. Aşıq sənətinin tarixində Aşıq Ələsgərin mövqeyi, əlbəttə, müstəsnadır. Aşıq Ələsgər qədim Göyçə mahalının Ağkilsə kəndində 1821-ci ildə Novruz bayramı günü dünyaya göz açmışdır. Onun atası Alməmməd işgüzar və halal zəhməti ilə dolanan, həlim təbiətli bir kişi idi. O, həm də xalq arasında bir şair kimi tanınırdı. Yaradıcılığından əldə olan nümunələr mükəmməl sənətkar qələminin məhsulu kimi diqqəti cəlb edir. Onun "İnsan", "Görmədim", "Eylər-eylər" rədifli şeirlərini aşıqlarımız indi də ustadnamə kimi oxuyurlar.

Dövrünün bütün elmlərinə dərindən bələd olmasına baxmayaraq, Aşıq Ələsgər müasiri olduğu ictimai-siyasi məsələlərə müdaxilə etmək baxımından kamalının azlığından şikayət etmiş, məsələlərə daha mükəmməl münasibət bildirməyi qarşısına məqsəd qoymuşdur. "Dərs aldım, öyrəndim, oldu öz malım" ifadəsi ilə insana həyatı boyu yalnız öyrəndiklərinin, elm, mərifət və ədəbin qalacağını qabarıq şəkildə göstərməyə çalışmışdır. Aşıq Ələsgərin işlətdiyi bu ifadələrdə doğrudan da, cəmiyyətin hər bir dövrünə şamil ediləcək nəsihət və hikmətin şahidi oluruq.

Aşıq Ələsgər eyni zamanda, klassik ənənəvi mövzuların tərənnümçüsü kimi şöhrət qazanmışdır. Aşığı yaradıcılığında habelə islam dininə olan hörmət və ehtiramın da şahidi oluruq. Onun "Meracnamə"si həqiqətən, Aşıq Ələsgərin haqq aşığı olduğuna, islam maarifinə dərindən yiyələnməsinə əyani sübutdur.

Aşıq Ələsgərin bədahətən şeirlər söyləməsi onun yüksək səviyyədə təşəkkül tapmış poetik istedadından xəbər verir.

Dastanlarımızın bir çoxunda olduğu kimi, Aşıq Ələsgərə də yuxuda vergi verilməsini söyləyən aşıqlar onun "Qabaqda" rədifli qoşmasının deyilməsini bununla əlaqələndirirlər. Özünün əxlaqi keyfiyyətləri, xarakteri, davranışı ilə hamıya nümunə olan, yaratdığı şeirlərdə onu dinləyənlərə düzgün yol göstərən, ədalətli olmağı, haqqın tərəfini saxlamağı təbliğ edən aşıq bütün bunlara görə "Haqq aşığı" adlandırılmış, həmişə yaradıcılığı və şəxsiyyətinə pərəstiş edilmişdir.

Qərbi Azərbaycanda dünyaya gələn, aşıq sənətimizin inkişafında misilsiz xidmətləri olan Aşıq Ələsgərin müəllifi olduğu hər misra tariximizin, cəmiyyətimizin, soy-kökümüzün mənəvi güzgüsüdür.

Açar sözlər: *Qərbi Azərbaycan, Aşıq Ələsgər, folklor, aşıq şeiri, poeziya*

QƏRBİ AZƏRBAYCAN BÖLGƏLƏRİNDƏ TARİXİ VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİMİZ

Sevda OCAQQULİYEVA
sevdaocagguliyeva@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qərbi Azərbaycan, Azərbaycanın tarixi və mədəniyyət mənbəyi üçün əhəmiyyətli bir bölgədir. Bu torpaqlar, tarix boyu müxtəlif imperiyaların və dövlətlərin əhatə etdiyi və bu imperiyaların izlərini burada qoyduğu yerlərdən biridir. Qərbi Azərbaycan bölgəsində yerləşən mədəniyyət abidələri, Azərbaycanın tarixini, mədəniyyətini və mədəni iradəsini təmsil edir. Qərbi Azərbaycan müxtəlif dövrlərdə imperiyaların hakimiyyəti altında olmuş bir bölgədir. Bu imperiyaların tarixi bölgədə abidələrin, tarixi və mədəni mənbəyin qorunmasına kömək etmiş və Azərbaycanın tarixini zənginləşdirmişdir. Qərbi Azərbaycan bölgəsində yerləşən mədəniyyət abidələri, Azərbaycanın mədəni iradəsini dünya ilə paylaşmağa və tanıtmağa yardım edir. Bu abidələr, turistləri və tədqiqatçıları bölgəyə cəlb edir və bölgənin mədəniyyətini dünya ilə birləşdirmək üçün əhəmiyyətli rol oynayır.

Açar sözlər: *Qərbi Azərbaycan, mədəniyyət, abidələr, bölgə*

SUMMARY

Sevda Ocagguliyeva

OUR HISTORICAL AND CULTURAL MONUMENTS IN WESTERN AZERBAIJAN REGIONS

Western Azerbaijan is an important region for Azerbaijan's historical and cultural heritage. These lands have been influenced by various empires and states throughout history, leaving their traces in the region. The cultural monuments in Western Azerbaijan represent Azerbaijan's history, culture, and cultural heritage. Western Azerbaijan has been a region under the rule of various empires throughout history. The historical monuments of these empires have contributed to the preservation of historical and cultural sources in the region, enriching Azerbaijan's history. The cultural monuments in Western Azerbaijan help share Azerbaijan's cultural heritage with the world and attract tourists and researchers to the region, playing a crucial role in connecting the region's culture with the rest of the world.

Key words: *Western Azerbaijan, culture, monuments, region*

QƏRBİ AZƏRBAYCANDA MƏDƏNİYYƏT ABİDƏLƏRİ

Şəbnəm MƏMMƏDOVA
memmedovasebnem35@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən-min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının prezidenti,
Bakı şəhəri, 18 dekabr 1997-ci il

Qərbi Azərbaycan (indiki "Ermənistan") ərazisi Bütöv Azərbaycanın tarixinə görə ən qədim, coğrafi-siyasi mövqeyinə görə ən strateji, təbiətinə görə ən zəngin bölgələrindən biridir. Keçmişdə Azərbaycanın Şimalı ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üstündə yerləşən, hazırda isə şimaldan Gürcüstan, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, qərbdən Türkiyə, cənubdan İranla həmsərhəd olmaqla 29.8 min km^2 sahəni əhatə edən bu diyar çağdaş dünyada "Ermənistan Respublikası" adı ilə erməni-hay dövləti kimi tanınsa da, onun ərazisi son qarışına qədər qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır.

Çoxsaylı maddi-mədəniyyət nümunələrinin bir hissəsi tarix boyu arasıkəsilməz hərbi yürüşlər, nıüharibələr nəticəsində, xüsusilə zaman-zaman bu yerlərə köçürülüb gətirilən, tarixi torpaqlarımızda isti yuva tapan ermənilər tərəfindən məhv edilsə də, digər hissəsi isə ermənileşdirilərək mənimsənilsə də, dağlara yazılmış yaddaşı pozmaq və ya dəyişmək yadellilərə heç də həmişə nəsib olmamışdır.

Qərbi Azərbaycan ərazisinin qədim Türk tarixi ilə bağlı bilgilərə qədim Asur və Urartu mixi yazılarında da tez-tez rast gəlirik.

Məqalə Qərbi Azərbaycanda olan mədəniyyət abidələri haqqında qısa məlumatları əks etdirir. Qərbi Azərbaycanda yerləşən 3500 tarixi və mədəniyyət abidələrimiz ermənilər tərəfindən tamamilə yox edilmişdir. Məqalədə sadəcə bir neçə mədəniyyət abidəsinin haqqında qeyd edilib.

Qərbi Azərbaycanda olan mədəniyyət abidələrinin qalıqları Azərbaycan xalqının qədimdən bəri bu torpaqlarda məskunlaşdığının sübutudur. Təəssüf ki, ermənilər bu abidələrin bir qismini məhv etmiş, bir qismini isə erməni adidələri kimi qələmə vermişdirlər. Lakin daşlar üzərində olan izlər bu yerlərin və bu abidələrin Azərbaycan xalqına məxsus olduğunun bir daha sübutudur.

ƏDƏBİYYAT

1. Əziz Ələkbərli. Qərbi Azərbaycan abidələri. Bakı: 2007

EPİK TƏHKİYƏDƏ VƏ SÖRƏYEL-AĞBABA OYUN-MƏRASİMLƏRİNDƏ TARİXİ-MİFOLOJİ QATLARIN TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

Tahir NƏSİB
tahirnesibli@yahoo. com
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Qədim xalq oyunları bölgələrə görə, nisbi də olsa, fərqli xüsusiyyətlər daşıyır. Bu cəhət Sörəyel-Ağbaba mahalına xas olan türk xalq oyun və tamaşalarının yerli xüsusiyyətlərində də özünü göstərir.

Ümumiyyətlə, qədim dövrdə mifoloji görüşlər, inanclar monqol, türk xalqlarının ictimai-siyasi həyatının bütün sahələrində güclü nüfuza malik olduğundan epik ənənədə olduğu kimi arxaik-epik folklor janrlarında, oyun-tamaşalarda da öz əksini tapır və qorunub saxlanırdı.

Ural-altay xalqlarının epik yaradıcılığına xas olan köklü xüsusiyyətlər sırasına onların ortaq şamançılıq mifologiyasından gələn və qəhrəmanların özləri, eləcə də düşmənləri ilə qarşı-qarşıya gəldikdə bir-birlərinə müraciətlə söylədikləri alqış, qarğış, "hərbə-zorba" elementləri də daxildir. Bu xüsusiyyətdən təhkiyənin dramatikləşməsində, həm də mübarizənin gərgin anlarında xalq oyun və tamaşalarında geniş istifadə olunur.

Məruzədə epik təhkiyədə və mərasimlərdə dramatizmin güclənməsi üçün istifadə edilən bu qarşıdurma motivləri ural-altay xalqlarının qədim ortaq qəhrəmanlıq dastanı "Qeser" və xalq oyun-tamaşalarının Şörəyel-Ağbaba mahalına xas olan yerli xüsusiyyətlərinin müqayisəsi yönündən araşdırılmışdır.

Misal üçün, dastanın tibet Steyn, türk (soyon, tuva), Şmidtin yazıya aldığı monqol variantlarında qəhrəman Qeser adını alanadək uşaq vaxtı Juri-Joru, Curu, Joro, Çuru çağrılır. Bu ləqəb qanunsuz (nigahsız) doğulmuş əcayib görkəmə, sehirli gücə malik olan uşaqlara verilirdi. Yəqin ki, Şörəyel-Ağbabada xalq arasında bəxti gətirən, başqalarının hesabına asan yoldan varlanan, oğlu, nəvəsi yaşında uşaqlarla yoldaşlıq edən, nənəsinin eşq məcarələri haqda məzəli hadisələr danışılanda əhəmiyyət verməyən, çağrılmayan yerə utanıb-çəkinmədən gələn şəxsə Jora, yaxud "yenə başımıza curum oldu" deyilməsi yaddaşda qalmış həmin genetik koddan təsirlənib.

Yaxud buddaçılıqda Qrol–ma (Tara) mifoloji surətinin xalq oyununda formul-deyimin tərkib hissəsinə çevrilməsi və s.

Yuxarıdakı müqayisələrin aparılmasında məqsəd Qərbi Azərbaycan türklərinin qədim kökə və mədəniyyətə malikliyini göstərməklə bərabər, eyni zamanda hazırda deportasiya edilib uzaqlaşdırıldıqları yurdun əsil sahibləri olmasına aid dəlilləri elmi dövriyyəyə, ictimai fikrə daxil etməkdir.

Açar sözlər: *xalq oyunları, Sörəyel-Ağbaba, "Qeser", monqol, türk, alqış, qarğış, "hərbə-zorba"*

İRƏVAN ŞƏHƏRİNİN TƏBİİ ŞƏRAİTİ VƏ TƏBİİ EKOSİSTEMLƏRİ

Leyla İBRAHİMOVA
leyla_meherremli91@hotmail.com
Orcid İD: Org/0009-0004-7606-9298
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Ümumi sahəsi 232 km² olan İrəvan şəhərinin relyefində plato və düzənliklərin üstünlük təşkil etməsi və iqliminin mülayimliyi burada əhalinin ta qədim zamanlardan məsunlakşmasına səbəb olmuşdur. Şəhər şimal-qərbdən Ağrıdağ, şimaldan Qarnıyarıq, Boztəpə və Dərəbaşı, şərqdən isə Qızıl dağları ilə əhatə olunmuşdur. İrəvanın relyefi orta Araz düzənliyinə doğru getdikcə alçalır. Şəhərin orta hündürlüyü dəniz səviyyəsindən 860 m, ən yüksək hissəsi isə 1510 m-dir. Geoloji quruluşuna görə şəhər Orta Araz çökəkliyinin tektonik əyilmə-qırılma zonasında yerləşir. Çökəklik iki sinklinoriuma ayrılır ki, onlardan biri Naxçıvan düzənliyidir ki, müasir Azərbaycan Respublikasının ərazisində yerləşir. Digər sinklinorium isə Ağrı düzənliyidir ki, bu düzənliyin şimal-şərq hissəsini İrəvan çökəkliyi tutur. Qeyd olunan çökəklikdə əsasən devon-perm dövrlərinin süxurları yayılmışdır. Bu süxurların qalınlığı 1500 m-ə çatır. Həmçinin bölgədə Trias dövrünün çöküntüləri qeydə alınmışdır ki, onlarında qalınlığı 1000 m-ə qədərdir. Vulkanik lava çöküntülərinin isə qalınlığı 300 m təşkil edir ki, buda maqmatik və metomarfik süxurların üstünlüyünə səbəb olmuşdur. Yuxarıda adları çəkilən süxurlarla yanaşı Paleogenin tufagen və Oliqasenin balıqqulağılardan (5000 m), Pliosen-Dördüncü dövr yaşlı vulkanik süxurlara (500 m) rast gəlinir. Tektonik qırılmalarda yerləşən şəhərdə seysmik aktiv proseslərin tez-tez müşahidə olunmasına səbəb olmuşdur. İrəvan şəhərinin asimmetrik relyef quruluşu, buranın iqliminə də təsir etmişdir. Belə ki, şəhər subtropik iqlim qurşağının kontinentallığı ilə seçilir. Əsasən kontinental yarımsəhra iqlim tipi burada hakimlik edir. Buna görə də, yay fəsli burada isti keçir. İyul ayının orta temperaturu 25-27⁰, yanvar ayının orta temperuturu isə 3-5⁰ arasında tərəddüd edir. Yağıntıların illik miqdarı 200-300 mm-dir ki, əsasən yay aylarında düşür. Kontinental iqlim şəhərdə mümkün buxarlanmanın kəmiyyətinin 1200 mm olmasına, günəşli günlərin isə 326 günə çatmasına səbəb olmuşdur. Rütubətlilik göstəricisi yayda 50%, qışda isə 75% təşkil edir.

Kontinental yarımsəhra iqlim tipinin hakimlik etdiyi şəhərdə küləyin sürəti 1,1-2 m/san-dir ki, onlardan ən yüksək sürətə malik olanı şimal və şimal-şərq istiqamətli olanıdır. İrəvanın dağarası çökəklikdə yerləşməsi çirkli havanın şəhər üzərində formalaşmasına səbəb olmuşdur ki, buda smoq hadisələrinin tez-tez müşahidə edilməsi ilə nəticələnmişdir.

İrəvan şəhərinin hidroqrafik şəbəkəsi qeyri-bərabər paylanmışdır. Şəhərin mərkəzindən onu iki hissəyə ayıran Zəngi çayı, Getar və Crvec çayları keçir. Çayın üzərində suyu tənzimləmək üçün göl yaradılmışdır. Gölün ağır metallarla çirklənməsi onun ekoloji şəraitinin gərginləşməsinə səbəb olmuşdur.

Şəhərdə ən çox yayılmış torpaq növü isə qəhvəyi torpaqlardır. Burada qəhvəyi torpaqların şəhər daxilində müxtəlif yarımtipləri (açıq qəhvəyi, boz-qəhvəyi və adi qəhvəyi) yayılmışdır. Ancaq İrəvanın ərazisində suvarılan qəhvəyi-çəmən, tünd şabalıdı torpaqlarda mövcuddur. Çəmən-qəhvəyi torpaqlar şəhərin cənub hissəsində dəniz səviyyəsindən 800-950 m hündürlükdə yayılmışdır ki, intensiv sürətdə istifadə edilir. Əsasən karbonatlığı ilə seçilən bu torpaqların mexaniki tərkibcə gilli və qumlu fraksiyalıdır.

Qərbi Azərbaycanın florası iki şaquli mərtəbəyə ayrılır ki, onlardan biri 850-1000 m hündürlükdə yerləşən Ağrıdağ düzənliyinə daxildir ki, yağıntıların azlığı səbəbindən yovşan və şoran bitkilər, 1000-1200 m hündürlükdə isə yağıntıların 300 mm düşdüyü hissələrdə isə kserofit kolluqlar yayılmışdır.

Təbiətinin əlverişliyi burada təbii ekosistemlərin (26%-i təbii, 74%-i isə antropogen kompekslər) tamamilə dəyişilməsinə məruz qalmışdır. Dəyişilmələrə məruz qalmış təbii landşaftları məhz allüvial düzənliklərdir. Cənub-qərb hissə əkinçilik sahələri isə meyvə bağları və üzüm plantasiyaları əvəz olunmuşdur.

Açar sözlər: *torpaq örtüyü, ekosistemlər, iqlim göstəriciləri, relyef, geoloji quruluş.*

III BÖLMƏ. QƏRBİ AZƏRBAYCAN DİL FAKTLARI VƏ TOPONİMİKASI

GÖYÇƏLİ ŞAİR MƏHƏMMƏDİN YARADICILIĞININ LİNQVİSTİK CƏHƏTLƏRİ

Qənirə ƏSGƏROVA
asgerovaganira@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə Göyçə aşıq məktəbinin nümayəndəsi, Göyçənin söz adamlarından biri olan Şair Məhəmmədin yaradıcılığının linqvistik xüsusiyyətləri tədqiqata cəlb edilmişdir.

Şair Məhəmməd (1870-1937) özündən əvvəlki sözə sığal çəkən aşıqlarımızın ənənələrinə, sadiq qalan, dilimizin rəvanlığını ortaya qoyan aşıqlardandır. Onun irsindən çox əsər qalmasa da, əlimizdə olanlar aşıq haqqında müəyyən təsəvvür oyada bilir. Şair Məhəmmədin yaradıcılığının linqvistik xüsusiyyətlərinin əsas cəhətlərini belə xarakterizə etmək olar:

1. Şair Məhəmmədin dilində "nədən?" sual əvəzliyi "niyə?" sözünün sinonim variantında işlənməsinə təsadüf edirik. Araşdırmalar təsdiq edir ki, Azərbaycan dilində "nədən?" sözü ilə müqayisədə "niyə?" sual əvəzliyi daha fəaldır. Çağdaş Türkiyə türkcəsində isə əksinə olaraq "nədən?" leksik-qramamtik vahidi aktivliyi ilə diqqəti cəlb edir. Şair Məhəmmədin dilində də bu söz şirinliyi və yerinə düşməsi dilə maraq oyadır. Adi bir dil faktı olan "nədən?" sözü aşığın sual cümlələrinə fərqlilik gətirir. Dədə Ələsgər "Üzün məndən niyə döndü?" deyirdi, lakin Şair Məhəmməd "Məni gözdən nədən saldın?" deyir və ritorik sualı ilə təəssüfünü, dərdini, həyəcanını ifadə edir.

2. Çağdaş dilçilik ədəbiyyatlarında "mətndüzəltmə faktoru" kimi dəyərləndirilən əvəzliklərin dildə rolu böyükdür. İşarə və sual əvəzlikləri isə ekspressivlik baxımından daha yüksəkdə dayanır.Bu baxımdan da Şair Məhəmədin yaradıcılığı diqqətəlayiqdir. Şair Məhəmmədin yaradıcılığında feillərdə səsdüşümü hadisəsi,xüsusilə şəxs-xəbərlik şəkilçisinin danışıq variantı (sonda samitin düşməsi) dilin sadəliyinə imkan yaratmışdır.

3. Şair Məhəmmədin dilində xalq təfəkküründən, el ifadələrindən gələn söz və fikirlər çoxdur və bu istifadədə ölçü-biçi özünü göstərir. Bundan başqa, aşığın el deyimlərindən yaradıcı istifadəsi də diqqəti cəlb edir. Belə ki, onun dilində çox sayda nəsihətli fikirlərə rast gəlmək mümkündür. Şair Məhəmmədin "İnsan" rədifli qoşması isə başdan-ayağa belə fikirlərlə zəngindir.

4.Göyçə aşıq məktəbindən dərs alan Şair Məhəmmədin yaradıcılığında Göyçə dialektinə xas olan nümunələr onun dilinin təbiiliyini xeyli dərəcədə sadələşdirir. Bədii dilin bütün tarixi zamanlarındasöz sənətkarları dialekt və şivələrə maraq göstərmiş, yeri gəldikcə onlardan faydalanmışlar. Bu mənada, Şair Məhəmmədin yaradıcılığı xalqın gündəlik həyatı, məişəti, adət-ənənələri ilə bağlı sözlərlə zəngindir.

5.Dilimizdə, xüsusilə də bədii üslubda müxtəlif məqsədlər daşıyan sual cümlələri mətn

daxilində üslubi çalarlarla müşayiət olunur. Yüksələn intonasiyaya malik olan bu sintaktik vahidlər vurğusu ilə də seçilir. Bu baxımdan, şair Məhəmmədin yaradıcılığında maraqlı faktlarla qarşılaşırıq.

Aşıq yaradıcılığının linqvistik xüsusiyyətləri üzərində aparılan araşdırmalar göstərir ki, "ozan-aşıq mədəniyyətinin ortaya qoyduğu poetik sərvət, sözün həqiqi mənasında, milli-mənəvi varlığımızın baş ucalığıdır" Bu poetik sərvətdə Şair Məhəmmədin özünəxas rolu vardır.

Açar sözlər: *Göyçə aşıqları, Şair Məhəmməd, "Dağlar" şeiri, aşıq yaradıcılığı, ozan-aşiq mədəniyyəti*

QƏRBİ AZƏRBAYCANIN FOLKLOR ALƏMİNƏ ÜMUMNƏZƏRİ BAXIŞ

Aytən CƏFƏROVA
ceferli_ayten@mail.ru
AMEA Naxçıvan Bölməsi

XÜLASƏ

Azərbaycanın əzəli və əbədi torpaqları olan Qərbi Azərbaycan ərazilərinin istər köklü tarixi faktları, istərsə də onunla bağlı olan, mənəvi yaddaşlarda qorunan qədim etnik düşüncələri hər zaman sübut edir və daim də etməkdədir ki, bu ərazilər öz qədim sakinlərini – qədim türklərin ulu babaları olan as türklərini, həm də dördüncü as türklərini gözləyir. Bəli, Ermənistan – dördüncü as türklərinin evi, vətənidir! İndiki ermənilərin babaları frik və frak tayfalarıdır. Frik və frak tayfaları bu ermənilərin Qafqaza soxulmuş babalarıdır. Bu tayfalar indiyədək "Ərmən" (Armen) adı altında gizlənmişdir. Və öz bəsit tarixlərini – talelərini ört-basdır etmək xülyasında olan indiki ermənilər hər zamanda Azərbaycan türklərinə qarşı təkcə torpaq iddiasında olmamış, həm də tarix, mədəni sərvət, qədim tarixi abidələrin saxtalaşdırılması və mənimsənilməsi iddiasında olublar.

Ermənilərin son 200 ildə bölgədə yeritdikləri etnik təmizləmə, deportasiya və soyqırımı siyasətini diqqətlə nəzərdən keçirəndə aydın olur ki, ermənilər təkcə insanlarımızı yox, mənəvi yaddaşımızı da məhv etmək məsələsinə xüsusi diqqət veriblər. Soyqırım zamanı yaşlı insanların məhvinə daha çox diqqət yetirilməsi bu barbarların ikrah doğuran əməllərinin əsas məqsədini ortaya qoyur: yaşlı insanların tamamilə məhv edilməsi milli yaddaşın itməsidir. Lakin həmişə "azərbaycanlının sonrakı ağlı"nın həsrətində olan ermənilər bu dəfə də yaddan çıxarırdılar ki, Azərbaycan xalqı öz qədim tarixinə, mədəniyyətinə, maddi və mənəvi abidələrinin varlığına uşağından qocasınadək, hər yaşda böyük sevgi, diqqət və qayğı göstərən, mənəvi və maddi abidələrinə sonsuz sevgi bəsləyən xalqdır. Azərbaycan xalqı öz milli dəyərlərinin qorunması üçün canından keçməyə hər an hazır olan xalqdır. Tarix bu xalqın yaddaşında, qədimlik, ululuq isə bu xalqın damarlarından axan qandadır. Ata-babasının yaşadığı yer-yurdu görməsələr belə, yeni nəsillər genetik kodların ötürdüyü siqnallar vasitəsilə milli kökə bağlı böyüyürlər. Təbii ki, burada valideyn və nənə-babaların qəlblərinin milli ruhla vurması da az rol oynamır. Məhz bu insanlar sayəsində yaddaşda, düşüncədə, xatirələrdə hifz olunanların vaxtaşırı dövriyyəyə gətirilməsi ailələrdə milli ruhun hökm sürməsini qaçılmaz etmişdir.

Məqalədə xalqın yaddaşında qorunan sözlü yaradıcılıq sənəti – folklor örnəklərinin sözügedən qədim yurdun tarixinə işıq salmasını bir daha aşkara cıxarmağa çalışacağıq.

***Açar sözlər**: folklor, şifahi yaddaş, Qərbi Azərbaycan, frik və fraklar, milli yaddaş.*

SUMMARY

OVERVIEW OF THE FOLKLORE WORLD OF WESTERN AZERBAIJAN

Ayten Jafarova

The deep-rooted historical facts of the West Azerbaijan territories, which are the ancient and eternal lands of Azerbaijan, as well as the ancient ethnic thoughts related to it, preserved in spiritual memories, always prove and continue to prove that these territories have their ancient inhabitants – the great-grandfathers of the ancient Turks for the As Turks, but also the fourth As Turks. Yes, Armenia is the home and homeland of the fourth As Turks! The grandfathers of today's Armenians are Fric and Frak tribes. The Fric and Frac tribes are the grandfathers of these Armenians who entered the Caucasus. These tribes have been hidden under the name "Armen" until now. And today's Armenians, who are trying to cover up their simple history and destiny, have always claimed against Azerbaijani Turks not only land, but also falsification and appropriation of history, cultural wealth, and ancient historical monuments.

When we carefully consider the policy of ethnic cleansing, deportation and genocide carried out by the Armenians in the region in the last 200 years, it is clear that the Armenians paid special attention to the issue of destroying not only our people, but also our spiritual memory. The greater focus on the extermination of the elderly during the genocide reveals the main purpose of these barbarians' abhorrent acts: the complete extermination of the elderly is the loss of national memory. However, the Armenians, who were always longing for the "future mind of Azerbaijanis", forgot that the people of Azerbaijan, from children to old people, have great love, attention and care for their ancient history, culture, and the existence of their material and spiritual monuments. It is a nation that has infinite love for its spiritual and material monuments. The people of Azerbaijan are ready to die for the protection of their national values. History is in the memory of this nation, and antiquity and greatness are in the blood flowing through the veins of this nation. Even if they do not see the place where their grandfathers lived, the new generations grow up connected to the national roots through the signals transmitted by genetic codes. Of course, the beating of the hearts of parents and grandparents with the national spirit does not play a small role here. İt is thanks to these people that the things preserved in memory, thoughts, and memories are brought to the periodic table, which made it inevitable for the national spirit to rule in families.

In the article, we will try to reveal once again how the folklore examples of verbal creative art preserved in the memory of the people shed light on the history of the mentioned ancient country.

Key words: *folklore, verbal memory, West Azerbaijan, friks and fracs, national memory.*

"ZƏNGƏZUR"ROMANINDAKI HADİSƏLƏRİN BU GÜNÜMÜZLƏ PARALELLİYİ

Nəzakət İSMAYILOVA
nezaket.ismayılova@yahoo.com
Naxçıvan Müəllimlər İnstitutu

XÜLASƏ

"Zəngəzur" romanı Qərbi Azərbaycan torpağının tarixini əks etdirən sovetlər dönəminin ən qaynar dövründə qələmə almışdır. Belə bir dövrdə, belə bir mövzuda əsər yazmaq o dövr üçün heç də asan deyildir. Bu əsərin araya ərsəyə gəlməsindən sonra yazıçı, şair Əyyub Abbasova həyat tərs üzünü göstərməyə başlamış, bir sıra çətinliklərlə üzləşmişdir. O, əməlli başlı təzyiqlər, təhdidlər, tərs baxışlarla qarşılaşmış, və hətta demək olar ki, romanda bəzi məqamları çıxmağa məcbur olmuşdur. Çünki kitabın çap olunması əks halda mümkün olmazdı. Ümumi belə bir fikir yaranmışdı ki, bu əsər "Qafqaz xalqlarının dostluğuna xələl gətirər, və nifaq yaradar". Demək olar ki, müəllif bu kitabda heç bir qərəzli fikir irəli sürməmiş, tarixi nöqteyi nəzərdən yazılmış Qafqaz xalqlarının tarixini və mədəniyyətini əks etdirməyə çalışmışdır.

Əyyub Abbasovun yeganə böyük həcmli əsəri olan "Zəngəzur" romanı yazıçının yaradıcılıq manerasının ən yüksək nailiyyətidir. Zəngəzur rayonunu ələ keçirmək üçün mənfur erməni millətinin qurduqları müxtəlif planları və taktikaları müəllif geniş şəkildə göstərməyə çalışılmışdır. Bu əsərdə baş vermiş hadisələr, tarixi gerçəkliklər ciddi şəkildə araşdırılmış, mövzu ideya baxımından da bu gün aktualdır. Bu əsəri təhlil etməklə tariximizi bir daha nəzərdən keçirir, sərvi-nəzər etmiş oluruq. Bu baxımdan "Zəngəzur" romanı tariximizi əks etdirən çox qiymətli bir tarixi əsərdir. Bu əsər 1953 -1957-ci illərdə çap olunmuş iki cilddən ibarətdir. Son dövrlərdə bu əsərin latın qrafikasına çevrilməsi bizi cox sevindirdi.

"Zəngəzur" romanı sovet ideoloji sisteminə uyğunlaşdırılmış şəkildə yazılsa da müəllifin milli təəsübkeşliyindən irəli gəlmişdir. Bu əsərdə əsasən yurd-yuvalarından qovulan insanların acı fəryadlarını ən xırda detallarınadək ürək yanğısı ilə bədii və obrazlı vasitələrlə oxucu qarşısında canlandırmışdır. İstər sadə kəndlinin, istərsə də qəddar ağaların obrazında xarakterik vərdişlər xüsusi sənətkarlıq ustalığı ilə qələmə alınmışdır. Təbiət gözəllikləri hadisələrin təfsilatı ilə nəql olunması insanların milli mənsubiyyətindən asılı olmayaraq, geyimləri, adət ənənələri, toy mərasimləri, mənəvi-əxlaqi keyfiyyətlərlə birgə verilmişdir. Əsərdə bu gün üçün çox işlənilməyən arxaiqləşmiş sözlərdən istifadə edilmişdir. Bunu da qeyd etməklə əsərin əsas ideyasına yaxınlaşmış oluruq. "Zəngəzur" romanında maraqlı bir məqam var. Yəni əsərin əsas məğzində Alagöllər deyilən ərazi dayanır.

Əyyub Abbasov əsər başlayandan qurtaranadək bu məsələni həm bitməmiş saxlayır, həm də dönə-dönə bu torpaqların əzəldən Azərbaycana məxsus olduğunu tarixi faktlarla göstərilir. Bu məsələ Hacı Atakişi bəylə erməni Baqrad arasında gedən mübahisə sonu olmayan bir məsələ ilə nəticələnir. Atakişi bəyə məxsus olan Alagöllər adlı yaylaq əsərdə belə təsvir olunur.

"Naxçıvanla Qarabağ arasında yerləşən Zəngəzur, uca dağlar, geniş çəmənlər, coşqun çağlar, şəlalələr ölkəsi kimi tanınır. Bu kiçik ölkənin hər bir qarşı gözəl bir lövhədir. Alagöllər isə bu

yerin ən cazibədar ruhu oxşar bir yaylaqdır. Bu yaylaq ermənilərin diqqətində olduğundan əsərdə Əngələvitli erməni Baqrad ağa ciddi cəhdlə Alagölləri ələ keçirmək üçün yollar fikirləşir. Pristava yaltaqlanaraq onun ətrafında fırlanır. Alagöllərin ona nə vaxt verilməsinə soruşaraq əldən-ayaqdan gedir. Sözlərinə cavab almayınca isə yalvarışlı baxışlarla onu süzür.

Əsərdə bu səhnə belə təsvir olunur. "Baqrad ağa boynunu uzadıb Pristavın dik üzünə baxdı –axı o yerləri ələ keçirmək üçün mən bu Qriqorla birlikdə ətək-ətək pul tökmüşük" "Bu millət demək olar ki, həmişə əsərdə də təsvir olunduğu kimi saxta, yalancı, riyakar, yaltaq düşüncəyə xas olmuşdur"

Zəngəzur romanında əsas ideya Azərbaycan kəndinin inqilabdan əvvəl və inqilabdan sonrakı dövrdəki ictimai-siyasi vəziyyəti, eyni zamanda törədilən milli qırğının dəhşətləri göstərilmiş eləcədə xalq kütlələrində milli azadlıq ruhunun oyanması prosesi canlandırılmışdır.

Əyyub Abbasov əsərdə xüsusilə Andronik, Necde və Dro kimi zalımların, cəladdların bədii obrazlarını yaratmaqla gələcək nəsillərə bir daha onların iç üzlərini göstərməyə çalışmışdır. Tarixi hadisələri həqiqətə uyğun təsvir etməklə bu qayəni daha dolğun verməyə müvəffəq olmuşdur.Müəllif romanın əvvəlində hadisələrin nə vaxt başladığını dürüst göstərməklə bəzi təfərrüatlara əsaslanmış, məlum olmuşdur ki, bu hadisələr artıq 1916-cı illəri əhatə edir. Əsərdə verilmiş belə məqamlar oxucunu düzgün qənaətə gətirə bilər.

Onu da qeyd etmək lazımdır ki, romanda hadisələr 1921-ci ilin ikinci yarısına qədər olan dövrün mənzərəsini nəzərə alaraq canlandırmışdır. Sovetlər İttifaqının qaynar bir dövründə belə bir əsərin yazılması ermənilərin iyrənc xislətlərini qələmə almaq əsl hünər idi. Əyyub Abbasov yaşadığı mühitin qəlbindən kənara çıxa bilməmiş beş illik dövrün ictimai-siyasi hadisələri geniş epik planda qələmə almışdır. Əsərdə müsbət və mənfi surətlərin tipik xarakterini yaratmışdır. Burada saf məhəbbət dostluq, yoldaşlıq, vətənpərvərlik, torpağı uğrunda canından keçməyə hazır olan mübariz insan sürətləri vardır.

QƏDİM TÜRK YURDU-DƏRƏLƏYƏZ MAHALININ TOPONİMLƏRİ

Ülviyyə İSGƏNDƏROVA
isgenderova.86@mail.ru
Orcid İD:0000-0001-9875-1176

Nailə ƏLİYEVA
naileeliyeva280@gmail.com
Orcid İD: 0009-0006-5219-8727
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə qədim türk yurdu olan Qərbi Azərbaycanın Dərələyəz mahalının toponimləri araşdırılmış, eyni zamanda hidronim, oronim və oykonimlərinin təhlili verilmişdir. Toponimlər xalqın qədim yaşayış məskənlərini müəyyənləşdirmək, bu ərazilərdə baş vermiş hadisələri qiymətləndirmək üçün tarixin ən qiymətli yadigarıdır. Belə ki mənfur ermənilər soydaşlarımızı soyqırıma məruz qoyduqları kimi indiki Ermənistan ərazisində yerləşən oğuz mənşəli toponimləri də erməni mənşəli adlarla əvəz etməklə saxtalaşdıraraq mənəvi soyqırımı davam etdirmiş, Azərbaycan türklərinin izlərini silməyə çalışmışlar. Azərbaycanın tarixi torpaqlarında yer, yurd adlarının araşdırılması, təhlil olunması çox mühüm əhəmiyyət kəsb edir. Dərələyəzdə hər bir ərazinin - kənd, dağ, çay, yaylaq, qala və s. adları xalqın çoxəsirlik tarixindən xəbər verir. Buradakı toponimlərin formalaşmasında sözlər və coğrafi nomenlər mühüm mənbə rolunu oynayır. Buna görə də, Zəngəzur bölgəsinin yer-yurd adlarının leksik-semantik xüsusiyyətləri təhlil edilmiş və nəticəyə gəlinmişdir ki, Dərələyəz mahalının toponimlərinin 90 faizdən çoxu türk mənşəlidir.

Açar sözlər: *Qərbi Azərbaycan, Dərələyəz mahalı, toponim, hidronim, oykonim*

SUMMARY

Ulviyya Isgandarova, Naila Aliyeva

ANCIENT TURKIC LAND-TOPONYMS OF DARALAYAZ DISTRICT

The article examines the toponyms of Daralayaz District of western Azerbaijan, which is an ancient Turkic land, as well as analyzes of hydronyms, oronyms and oikonyms. Toponyms are the most valuable relic of history for identifying ancient settlements of the people, assessing the events that took place in these territories. Thus, as the hated Armenians subjected our compatriots to genocide, they continued the moral genocide by falsifying the toponyms of Oguz origin located in the territory of present-day Armenia with names of Armenian origin, and tried to erase the traces of the Azerbaijani Turks. The study and analysis of the names of places and lands in the historical lands of Azerbaijan is of great importance. In daralayaz every territory - village, Mountain, River, Plateau, fortress, etc. their names tell about the centuries-old history of the people. In the formation of toponyms here, words and geographical nomens play an important source role. Therefore, the lexical-semantic features of the yer-yur names of Zangazur region were analyzed and it was concluded that more than 90 percent of the toponyms of Daralayaz district are of Turkic origin.

Key words: *West Azerbaijan, Daralayaz district, toponym, hydronym, oikonym*

QƏRBİ AZƏRBAYCAN TOPONİMLƏRİNİN DƏYİŞDİRİLMƏSİ SİYASƏTİ

Süsənbər AĞAMALIYEVA
Naxçıvan Dövlət Universiteti

Ermənilərin Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisindəki ermənləşdirmə siyasəti, qədim oğuz yurdunda minlərlə toponimlərin adının dəyişdirilməsi faktlarının öyrənilməsi mühüm aktuallıq kəsb edir.

Qərbi Azərbaycanda, Azərbaycan mənşəli, xalqın soy-kökünü yaşadan toponimlərin öyrənilməsi, tədqiq edilərək statistik şəkildə gələcək nəsillərə çatdırılması qarşımızda duran əsas vəzifələrdən biri hesab olunur.

Tarixi faktlar sübut edir ki, ermənilər toponimlərimizin adını dəyişərək Amasiyanın adını Axuryan, Allahverdi rayonun adını Tumanyan, Basarkeçərin adını Vardenis, Vedinin adını Ararat, Qəmərlinin adını isə Artaşat və s. adlandırmışlar.

Tarixi yaddaşımızın bərpasına və qorunaraq gələcək nəsillərə çatdırılmasına hər zaman böyük önəm verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci ilin dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən deyib:

"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb".

Nəticə etibarı ilə Qərbi Azərbaycan ərazisində mövcud olmuş, lakin adı silinən toponimlərin, saysız-hesabsız yeraltı və yerüstü maddi-mədəniyyət nümunələrinin üzə çıxarılması, həmin ərazilərin oğuz-türk məskənləri olduğunu təsdiq edən faktların dünya ictimaiyyətinə çatdırılması vacib məsələdir.

ŞƏKİDƏ MƏSKUNLAŞMIŞ QƏRBİ AZƏRBAYCANLILAR VƏ ONLARIN FOLKLORU

Ləman SÜLEYMANOVA
leman.suleymanova.2018@mail.ru
Orcid İD: 0000-0003-1224-0039
AMEA

XÜLASƏ

Şəki rayonu Qərbi azərbaycanlıların kütləvi şəkildə məskunlaşdıqları bölgələrimizdən biridir. Onların bir qismi buraya XX əsrin əvvələrindən 1905, 1918-1920-ci illərdən gələnlər olsa da, sonralar da 1946-1948-ci illər, 1950-ci illərdə, 1985, 1986-cı illlərdə də əraziyə qərbi azərbaycanlıların köçü dayanmadı. Bunun səbəbi ermənilərin həmin ərazilərdə Azərbaycan türklərini hərtərəfli sıxışdırmaları olub. İşsizlik, ana dilində məktəblərin az olması, yaxud azsinifli məktəblərin olması, ermənilər tərəfindən müxtəlif təhqir və aşağılanmalara məruz qalmaq, ən başlıcası isə ata-baba yurdlarında özlərini təhlükəsiz şəraitdə hiss edə bilməmələri, gec-tez bu ərazilərdən məcburu qovulmaqdan qorxmaq onlara Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmağa məcbur etmişdir. Azərbaycanın müxtəlif ərazilərində məskunlaşan əhalinin hamısı burada qalmamış, onların bir hissəsi yenidən öz ata-baba yurdlarına geri qayıtmışdılar. Ancaq 1988-ci ildə ermənilər istədiklərinə tam nail oldular, Qərbi Azərbaycanda türk qalmadı.

Qərbi Azərbaycan folklorundan danışarkən ilk növbədə onu qeyd etməliyik ki, bunlar ümumazərbaycan folklorunun bölgə variantlarıdır. Onların analoji variantları ilə digər bölgələrimizdə də üzləşmək mümkündür. Bununla belə, təbii ki, Qərbi azərbaycanlılardan qeydə aldığımız folklor mətnlərinin, həmçinin etnoqrafik materialların özünəməxsus xüsusiyyətləri də vardır.

Aşıq şeirləri, eləcə də müxtəlif aşıqlarla, aşıq məclislərinin keçirilməsi ilə bağlı xatirələr, inanclar, uşaq oyunlarını və s. onlar arasında ən aktiv olan folklor nümunələrindən hesab etmək olar.

Açar sözlər: *Qərbi Azərbaycan, Şəki, folklor, etnoqrafiya, inanc*

ZƏNGƏZUR QƏZASININ (MAHALININ) TOPONİMLƏRİ

Akif AĞBABALI
Orcid İD: Org/0000-0001-5793-9252
akbabali@bsu.edu.az

Tahir İBRAHİMOV
tahir.cog2022@gmail.com
Orcid İD: Org/0000-0002-1696-0044

XÜLASƏ

Azərbaycanın qədim dədə-baba mahallarından olan Zəngəzur qəzasının yer-yurd adları (toponimləri) uzun müddətdir ki, ermənilərin əsarətində olmuş və zaman keçdikcə toponimlər təhrif olunmuş, ermənilşdirilmişdir. Azərbaycanın hər yerində olduğu kimi burada da toponimlərin əmələ gəlməsinə görə bir neçə qrupa bölünür. Burada dağ silsilələrinə və zirvələrə görə formalaşan adlar oronimlər, çay, göl və bulaqlarla bağlı adlar hidronimlər, heyvan adları ilə formaşalan adlar zoonimlər, bitkilərlə əlaqədar yaranan adlar fitonimlər, şəxs adları ilə bağlı yaranan adlar isə antronimlər adlanır. Yuxarıda qeyd etdiyimiz toponim qruplarına Zəngəzur mahalında da rast gəlinir. Məqalədə qeyd olunan istiqamətlər üzrə geniş şərh verilmişdir.

Açar sözlər: *oronimlər, hidronimlər, zoonimlər, antrotoponimlər, fitonimlər.*

AŞIQ ƏLƏSGƏR HAQQINDA YARANMIŞ RƏVAYƏTLƏR

Nüşabə MƏMMƏDOVA
n.memmedova@nu.edu.az
"Naxçıvan" Universiteti

XÜLASƏ

Aşıq Ələsgər Azərbaycan ədəbiyyatında böyük el nəğməkarı kimi özünə şöhrət qazandırmışdır. Xalqın yaddaşında, xatirələrində Aşıq Ələsgərin həyatı, yaradıcılığı, fəaliyyəti ilə bağlı çoxlu müxtəlif səpkidə rəvayətlər, bəzən də tarixdə həqiqətən də olmuş epizodlara rast gəlmək mümkündür. Tarixən, istər aşığın öz dövründə və istərsə də sonrakı dövrdə yaşamış aşıqlar Aşıq Ələsgərin həyatı ilə bağlı yarı gerçək, yarı əfsanəvi əhvalatları bir az da bəzəyərək toy şənliklərində, el bayramlarında, məclislərdə danışarmışlar. Bunlara çox zaman ya əhvalat, ya da hekayət adı verirdilər. Bu bədii parçalar Aşıq Ələsgərin, bu el nəğməkarının həyatı və yaradıcılığı haqqında olduqca maraqlı faktları üzə çıxarmışdır. Çox maraqlıdır ki, bu el sənətkarı dastan yaradıcılığı ilə məşğul olmamışdır. 2008-ci ildə məşhur el sənətkarı Aşıq Ələsgərə həsr olunmuş "Ələsgər ocağı ilə bağlı yaradılmış dastan-rəvayətlər haqqında" kitab çap olunmuşdur. Aşıq Ələsgərin nəvəsi, Ələsgərşünas alim, filologiya elmləri namizədi İslam Ələsgərin bu mövzuya müraciət etməsi heç də təsadüfi deyildir. Aşığın həyatı və yaradıcılığı barədə yazılmış bir çox yanlış məlumatların yaranması bu kitabın nəşr edilməsini zəruri etmişdir: "Aşıq Ələsgərin həyat və yaradıcılığı ilə bağlı xalq arasında müxtəlif məzmunlu söz-söhbətlər mövcuddur. Bunların bir qismi Aşıq Ələsgərin həyatında baş vermiş hadisələr və bu hadisələr səbəbilə deyilmiş şerlərdən ibarətdir. Dastan söyləyən aşığın biraz bəzək-düzəyi olsada, bunlar sənətkarın həyat və yaradıcılığını öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. Bu əhvalatlar Aşıq Ələsgərin gənclik illərindən başlayaraq xronoloji ardıcıllıqla ömrünün son illərinə qədər onun həyatının müəyyən məqamlarını əks etdirir.

Aşıq Ələsgərin həyatı ilə bağlı dastan-rəvayətlərdən "Aşıq Ələsgər Qarabağlıların yaylağında", "Aşıq Ələsgərlə Şair Nağı", "Aşıq Ələsgərlə Dəli Alı", "Aşıq Ələsgərlə Həcər xanım" və s. göstərmək olar. Ümumiyyətlə, Azərbaycanın bir çox şəhər və kəndlərində aşıqlıq sənəti, saz çalmaq, söz demək ənənəsi geniş yayılmışdır. Bəlkə də bu sənətin Azərbaycanda dərindən kök atıb geniş yayılmasının səbəbi uzaq keçişimizdən gəlir və burada vaxtilə yaşamış qədim əcdadlarımızın, qəbilələrimizin, tayfalarımızın yaradıcılıq ənənələri ilə bağlıdır. Bu qədər qədim tayfa və qəbilələrin inamları ilə bağlı əlamətlərin, keyfiyyətlərin olması bu yerlərdə saz-söz sənətinin lap uzaq keçmişdən gəldiyini göstərən dəlillərdir. Aşıq Ələsgərin əsərlərinin hamısında nəsihətamiz fikirlərə, həyat, sənət, dostluq, igidlik, gözəllik, lovğalıq, insanla rəftar və s. haqqında mülahizələrə rast gəlmək mümkündür. Çünki onun dili olduqca zəngin, səlis, təmiz və canlı xalq dilidir. Bunu da qeyd etmək lazımdır ki, bir müddət ustad yanında şəyirdlik edən Aşıq Ələsgər aşıqlıq sənətinin sirləri ilə bərabər, ədəb və mərifət qaydalarını da dərindən bilirdi. Aşıq Ələsgər həm də gözəllik nəğməkarı, gözəllik aşiqidir. Deyilənə görə, Ağdabanda "Qurban bulağı" adlı bir yaradıcılıq məclisi də var imiş. Ətraf yerlərdən, kəndlərdən buraya tez-tez el sənətkarları gələr və burada məclislər təşkil edərmişlər. Aşıq Ələsgər də bu məclislərin ən fəallarından biri imiş. Aşıq Ələsgərdə elə keyfiyyətlər var imiş ki, bunu ancaq müqəddəs insanlarda görmək mümkün idi. Aşıq Ələsgər üz-

üzə söhbət elədiyi adamın ürəyindən keçənləri, yaşadığı ərazidən kənarda baş verəcək hadisələri əvvəlcədən duyurmuş. Hətta şair özünün öləcəvi vaxtı da hiss etmişdir. Şeirlərini həmişə bədahətən deyərmiş. Aşıq Ələsgərin həyatı haqqındakı dastan-rəvayətlərdə də aşığın bədahətən söylədiyi çoxlu şeirləri diqqəti cəlb edir. Bu keyfiyyətlər onu Azərbaycanın hər yerində şöhrətləndirmiş, ustad bir sənətkar kimi məşhurlaşmışdır. Beləliklə, demək olar ki, Aşıq Ələsgər aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Azərbaycan ədəbiyyatında boyük iz buraxmış sənətkarlardan biri olmuşdur.

Açar sözlər: *el nəğməkarı, Aşıq Ələsgər, rəvayətlər, xatirə, dastanlar, aşıq və s.*

ƏDƏBİYYAT

1. Aşıq Ələsgər. Biblioqrafiya. Bakı: 2011
2. Aşıq Ələsgər. Əsərləri. 2 cilddə Bakı: Elm, 1972
3. Ələsgər İ. Haqq aşığı Ələsgər. Monoqrafiya. Bakı: 1999
4. Ələsgər İ. Ələsgər ocağı ilə bağlı yaradılmış dastan-rəvayətlər haqqında. Bakı: 2007

QƏRBİ AZƏRBAYCAN FOLKLORU (DƏRƏLƏYƏZ MAHALI)

Günel HÜMMƏTOVA (PƏNİYEVA)
gunelpeniyeva@mail.ru
Orcid ID:0000-0002-8916-3484
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Azərbaycan şifahi xalq ədəbiyyatının zənginliyi onun istər Qərbi, istər Şərqi, istərsə də Cənubi zonalaradına dağil olan folklor nümunələrinin bolluğundan ibarətdir. Hər bir bölgə folklor nümunələrinin hər bir janrına daxil olan formasın öz bölgəsinə və ləhcəsinə uyğun şəkildə qoruyub inkişaf etdirmişdir.Qərbi Azərbaycan folklorunun mahal-mahal yığılıb bir araya gətirilməsi və onun tədqiqi ədəbiyyatşünasların diqqət mərkəzində olmuşdur. Arxaikləşən və arxaikləşməkdə olan sözləri, Dərələyəzlə bağlı bəzi əhvalat və hadisələr, təmsillər, gülməcələr, oyun nəğmələri, sanamalar, yanıtmaclar da Azərbaycan folklor nümunələrində öz əksini tapmışdı. Bu janr nümunələrinin bir-bir yığılıb kitab halına salınması professor Həsən Mirzəyev trəfindən reallaşmışdır. Professor hər bir nümunəni janrın özünəməxsusluğuna uyğun şəkildə başlıqlar altında toplamışdır.

"Muğam xalq mahınısı və aşıq havalarında oxuyanlar" başlığı altında xanəndə Nəbiyev İdris, Şahmalı Kürdoğlu, Ağayarov Səlim haqqında məlumat verilmişdir.Hər iki ifaçının əsli, kökü Dərələyəzli olsa da ya babaları, ya da ataları erməni quldarları tərəfindən xalq düşməni adı alıb öz yerlərindən sürgün edilmiş, didərgin düşmüşlər. Bu kimi kökü əsli Dərələyəzdən olub digər rayon və şəhərlərdə yaşamış tanınmışların taleyi haqqında məlumat verildikcə tarixi hadisələr üzə çıxır və böyük bir Dərələyəz mahalının ümumiləşmiş tarixi və çoğrafi faktları müəyyənləşir.

Bu hissədən sonra alim öz qeydlərini "Qeydlərim " başlığı altında vermişdir.

Tədqiq edə bilmədiyi aşıqların adlarını yığıb gələcək nəsillərin tədqiqatını məsləhət görməsi görkəmli elm xadiminin elmə, folklora, Dərələyəz mahalına verdiyi dəyər və soy kökün, keçmişin unudulmamasına vəsilə olmasıdır.

"Qaçaq Nəbinin Dərələyəzdə Goburantla döyüşü" əhvalatının, şifahi xalq ədəbi nümunələrinin Dərələyəz variantının şərhindən sonra folklor nümunələrinin içində öz sinkretikliyi ilə seçilən, müəllifi bəlli olsa da dildən-dilə keçərək dəyişikliyə uğrayan şifahi xalq ədəbiyyatının bir növü olan aşıq yaradıcılığına keçmiş və məhz burda Dərələyəz mahalının aşıqları, onların əsərləri haqqında yazılmış məlumatlar toplanmışdır. Bildiyimiz kimi, aşıq yaradıcılığının tarixi keçmişi, kökü orta əsrlərə gedib çıxır ki, bu da boy atıb çiçəklənən folklor nümunəsinin vətəninin Azərbaycan ərazisinə aidliliyinin bariz sübutudur.

***Açar sözlər**: Folklor, aşıq, janr, Qərbi Azərbaycan*

SUMMARY

Gunel Hummatova (Paniyeva)

FOLKLORE OF WEST AZERBAIJAN (DERELAYAZ DISTRICT)

The richness of Azerbaijan's oral folk literature consists of the abundance of folklore examples that are scattered across its Western, Eastern, and Southern zones. Each region has preserved and developed the form included in each genre of folklore samples in accordance with its region and dialect. The collection and study of Western Azerbaijan folklore from region to region has been the focus of literary scholars. The archaic and becoming archaic words, some stories and events related to Daraleyaz, tales, jokes, game songs, numbers, and jindimajs were also reflected in the samples of Azerbaijani folklore. The examples of this genre were collected one by one and made into a book by professor Hasan Mirzayev. The professor collected each example under headings according to the uniqueness of the genre.

Under the title "Mugham folk song and those who sing in the air of love", information is provided about the singers Nabiyev Idris, Shahmali Kurdoglu, and Salim Agayarov. Although both singers are originally from Daraleyazli, either their grandfathers or fathers were exiled from their places by being called enemies of the people by Armenian slavers. , displaced. When information is given about the fate of well-known people who originally came from Darelaez and lived in other regions and cities, historical events are revealed and the generalized historical and geographical facts of a large Darelaez district are determined.

After this part, the scientist gave his notes under the title "My notes".

Collecting the names of lovers he could not research and recommending the research of future generations is the value given by a prominent scientist to science, folklore, Darelayaz district and the reason for not forgetting the family roots and the past.

After the interpretation of the Daraleyaz variant of the story "The Fugitive Nabi's Battle with Goburant in Deraleyaz", he fell in love with the creation of ashik, a type of oral folk literature that is distinguished by its syncreticity among folklore examples, and whose author is known, and changes from language to language. , written information about their works has been collected. As we know, the historical past and roots of Ashiq creativity go back to the Middle Ages, which is a clear proof of the fact that the flourishing folklore example belongs to the territory of its homeland, Azerbaijan.

Key words: *Folklore, ashiq, genre, West Azerbaijan*

IV BÖLMƏ. BEYNƏLXALQ HÜQUQ ÇƏRÇİVƏSİNDƏ QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASI

BEYNƏLXALQ HÜQUQ ÇƏRÇİVƏSİNDƏ QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASI

Bənövşə CƏLALZADƏ
Sumqayıt Dövlət Universiteti

XÜLASƏ

2023-cü il yanvarın 26-da Qərbi Azərbaycan İcmasının Nəzarət Şurası tərəfindən bugünkü Ermənistan ərazisindən sürgün edilmiş azərbaycanlıların təhlükəsiz və ləyaqətlə geri qayıtmasını təmin etmək üçün konsepsiya layihəsi hazırlanmışdır.

Konsepsiyanın əsas vəzifəsi qayıdış hüququnun beynəlxalq hüququn və insan hüquqlarının ali prinsipi olduğunu əsas götürərək azərbaycanlıların öz ata-baba yurdlarından qovulması məsələsini görünməmiş ədalətsizlik kimi beynəlxalq ictimaiyyətin gündəminə gətirməkdən ibarətdir. Bu vəziyyətin davam etməsinin beynəlxalq sülh və təhlükəsizliyə, davamlı sülhə təhdid kimi qiymətləndirilməsi və ədalətin bərqərar olması üçün azərbaycanlıların geri qayıtma hüququnu təmin edən hüquqi qüvvəyə malik qərar və sazişlərin və müvafiq yoxlama və təminat mexanizmlərinin təmin edilməsini özündə ehtiva etməkdir. Qərbi Azərbaycan İcması bu konsepsiyaya əsaslanaraq, Azərbaycan Respublikası hökuməti, Ermənistan Respublikası hökuməti, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlər, region ölkələri və digər ölkələrlə təmaslara başlamaq, müvafiq dövlətlər və təşkilatlarla qayıdışın beynəlxalq hüquqi bazasının yaradılmasını qarşıya əsas vəzifə kimi qoymuşdur.

Məqalədə Qayıdış konsepsiyasından irəli gələn müddəalara əsasən Qərbi Azərbaycan İcmasının beynəlxalq müstəvidə fəaliyyəti yönündə araşdırma aparılmışdır.

I BÖLMƏ. QƏRBİ AZƏRBAYCANDA ELM VƏ TƏHSİL

ULUXANLI MƏKTƏBİNİN QƏRBİ AZƏRBAYCAN MAARİFÇİLİK HƏRƏKATINDA ROLU

Əfşan ŞƏFİYEVA
afshanshafiyeva@yahoo.com
Orcid İD: 0000-0002-1763-1023
AMEA ak. Z.M.Bünyadov ad. Şərqşünaslıq İnstitutu

XÜLASƏ

Məqalədə XIX əsrin 50-ci illərindən etibarən Qərbi Azərbaycanda geniş yayılmış və mədəni-siyasi hadisəyə çevrilən, cəmiyyətin inkişafı üçün əlverişli zəmin yaratmış maarifçilik hərəkatının yeni tipli teatrın, mətbuatın, eləcə də ənənəvi tədris ocaqları ilə yanaşı, müasir dünyəvi məktəblərin yaranmasına böyük təsir göstərməsindən bəhs olunur. Tədqiqat əsasən 1881-ci ildə əsası qoyulan Uluxanlı məktəbinə və onun əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edən İrəvan mahalında maarifçilik hərəkatının yaranmasındakı roluna həsr olunmuşdur. Mövzuda İrəvan gimnaziyası və İrəvan Müəllimlər Seminariyası ilə eyni vaxtda fəaliyyətə başlayan Uluxanlı məktəbinin keçdiyi ağır yoldan və bu şəraitdə öz işini davam etdirməsindən, eləcə də sonrakı acı aqibətindən söz açılır.

İrəvan quberniyasında Uluxanlı məktəbinin dövrünün ən nüfuzlu və yeni tipli tədris ocağı olması və fəaliyyəti haqqında geniş məlumata zəmanəsinin ən mötəbər mətbuat orqanlarından biri olan "Qafqaz təqvimi" (rus. "Кавказский календар") məcmuəsinin 1892-ci il tarixli sayında rast gəlinir. Məktəbin Allahverdi Hacı Hüseyn oğlunun evində yerləşdiyi və ilk müdirinin isə o zamanın tanınmış maarifçisi Muxin olduğu qeyd olunur.

XIX əsrin sonlarında Azərbaycanın görkəmli maarifçiləri Uluxanlı məktəbinin zəngin ənənələr zəminində xalqın tərəqqisi üçün mühüm addımlar atmışdılar. Onlardan biri də sonralar - XX əsrin əvvəllərində nəşr olunan "Molla Nəsrəddin" (1906) satirik jurnalının həmmüəlliflərindən olan Cəlil Məmmədquluzadə idi. Uluxanlı məktəbində ilk müəllimlik fəaliyyətinə başlayan böyük ədibin təşəbbüsü sayəsində bu məktəb qabaqcıl maarif və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir.

Uluxanlı məktəbinin ilk fənn müəllimləri Xanlar bəy Həsənbəyov, şəriət müəllimi Hacı Məşədi Hüseyn oğlu idi. Sonradan Məmməd bəy Lütvəli bəy oğlu Qazıyev, Əbdüləli Bağır oğlu Muxtarov, Hacı Molla Kərim Rzaquliyev və başqaları burada işləmişlər.

XX əsrin əvvəllərində regionda baş verən mürəkkəb geosiyasi proseslər nəticəsində İrəvan şəhərinin və digər tarixi Qərbi Azərbaycan torpaqlarının Ermənistan dövləti tərkibinə verilməsinə baxmayaraq, Uluxanlı məktəbi Azərbaycan dili və mədəniyyətinin, milli-mənəvi dəyərlərin qorunub saxlanması istiqamətində öz fəaliyyətini davam etdirmişdir.

Uluxanlı məktəbinin məzunları bu gün ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında yaxından iştirak edirlər. Azərbaycan dövlətinin tərəqqisinə töhfələr verən Uluxanlı məktəbinin istər təhsil, istərsə də mədəniyyət tariximizdə öz imzası vardır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı azərbaycanlılara qarşı erməni daşnaqları tərəfindən aparılan etnik təmizləmə siyasəti nəticəsində Qərbi Azərbaycanda olan digər tədris ocaqları kimi Uluxanlı məktəbinin də fəaliyyətinə son qoyulmuşdur.

Açar sözlər: *İrəvan, Qərbi Azərbaycan, Uluxanlı, Zəngibasar, Cəlil Məmmədquluzadə*

RUSYA İMPARATORLUĞU KAFKAS EĞİTİM İDARESİ YAYINLARINDA BATI AZERBAYCAN

Hacali NECEFOĞLU
alinecef@hotmail.com
Orcid İD: 0000-0003-2901-3748
Kafkas Üniversitesi

ÖZET

1881-1915 yılları arasında Güney Kafkas'ın idari ve kültür merkezi olan Tiflis'te Rusya İmparatorluğu Kafkas Eğitim İdaresi tarafından basılan "Kafkas Arazileri ve Halklarının Tasvirine Dair Materyaller Toplusu"(Сборник материалов для описания местностей и племён Кавказа – СМОМПК)'nda Kafkas tarihi, arkeolojisi, lengüistiği ve etnografyası ile ilgili makaleler yayınlanıyordu. Gülistan (1813) ve Türkmençay (1828) antlaşmaları ile Azerbaycan topraklarının Rusya İmparatorluğuna katılan kısmının tarihi, coğrafyası, iklimi hakkında, bu arazilerde, o cümleden şimdi Ermenistan Cumhuriyeti sınırları içinde kalan Batı Azerbaycan topraklarında o dönemde yaşayan halkların kültürü, edebiyatı, gelenekleri ile ilgili makalelere adı geçen toplunun çeşitli ciltlerinde yer verilmiştir: "İrevan Şehri" (S. P. Zelinskiy, 1881), "Dereçiçek" (S. P. Zelinskiy, 1881), "Tatar [Azerbaycan – H. N.] Atasözleri, Bilmeceleri ve Kadın İsimleri" (S. Zelin, 1881) "İrevan Vilayetinin Nahçıvan İlçesinde Yaşayan İran'dan Gelen Ermeni Göçmenlerin Hayatından Etnografik Notlar" (S. P. Zelinskiy, 1882), "İrevan'ın Ele Geçirilmesi" (K. Şulgin, 1884), "İrevan Guberniyası ve Kars Vilayetine Tatil Gezisi" (Девицкий, 1896), "İrevan Şehrtinde Bahçeçilik" (V. İ. Devitskiy, 1897), "Ağrı Ovası'nda Bahçeciliğin Kısa Açıklaması" (V. İ. Devitskiy, 1898), "Dereleyez'de Bahçecilik Hakkında Birkaç Söz" (V. İ. Devitskiy, 1898), "Gökçe Gölü Çevresinin Florasına Bir Bakış" (İ. Khotsyakovskiy, 1890), "Gökçe Gölü" (P. Paul, 1890), "İrevan Guberniyası ve Kars Vilayeti'nin Mineral Kaynakları" (V. İ. Devitskiy, 1901) ve "Yelisavetpol Guberniyasının Zəngəzur Kazası (N. Şirakuni, 1904).

Bildiride Batı Azerbaycan ile ilgili anılan makaleler hakkında genel bilgiler sunulacak.

***Anahtar sözler**: Batı Azerbaycan, Zengezur, İrevan, Dereleyez, Gökçe Gölü.*

SUMMARY

WEST AZERBAIJAN IN THE PUBLICATIONS OF THE MANAGEMENT OF THE CAUCASIAN EDUCATIONAL DISTRICT OF THE RUSSIAN EMPIRE

In the "Collection of materials for describing the localities and tribes of the Caucasus - CMOMПК", published by the Office of the Caucasian Educational District of the Russian Empire in Tiflis, the administrative and cultural center of the South Caucasus, in the period from 1881 to 1915, articles on history, archeology and linguistics and ethnography Caucasus were published. Articles about the history, geography and climate of part of the Azerbaijani lands annexed to the Russian Empire under the Gulistan (1813) and

Turkmenchay (1828) treaties, as well as about the culture, literature and traditions of the peoples inhabiting these lands at that time, including the land of Western Azerbaijan, now located within the borders of the Republic of Armenia, are included in various volumes of the mentioned Collection: "City of Erevan" (S.P. Zelinsky, 1881), "Darachichek (S.P. Zelinsky, 1881), "Tatar proverbs, sayings, riddles and women's names" (S. Zelin, 1881). "Ethnographic sketches from the life of Armenian migrants from Persia living in the Nakhichevan district of the Erivan province." (S.P. Zelinsky, 1882), "The Capture of the City of Erivan" (K. Shulgin, 1884), "Holiday trip to the Erivan province and Kars region" (Devitsky, 1896); "Gardening in the city of Erivan" (Devitsky, 1897), "Brief description of gardening on the Ararat plain" (Devitsky, 1898), "A few words about gardening in Daralagez" (Devitsky, 1898), "Review of the flora of the surrounding area of Lake Gokchi" (I. Khotsyakovsky, 1890), "Lake Gokcha" (P. Paul, 1890), "Mineral springs of the Erivan province and Kars region" (V.I. Devitsky, 1901) and "Zangezur district of the Elisavetpol province" (N. Shirakuni, 1904)" .

The report will provide general information about the mentioned articles relating to West Azerbaijan.

Key words: *West Azerbaijan, Zangezur, Iravan, Dereleez, Gokche Lake*

"BÖYÜK DİDAKTİKA VƏ AZƏRBAYCAN DİDAKTİKASINI YARATMAQ HAQQINDA" TEZİSLƏR

Vaqif QURBANOV
Azərbaycan Dövlət Pedoqoji Universiteti

XÜLASƏ

Pedaqogika tarixindən Yan Amas Komenskinin "Böyük didaktikası" məlumdur. V əsrdən bir qədər çoxdur ki, Çex-Slavyan pedaqoqunun qəbri və məqbərəsi ziyarət edilir. Azərbaycanın müqtədir pedaqoqları akademik Mehdi Mehdizadə, əməkdar elm xadimləri, professorlar Nurəddin Kazımov, Zahid Qaralov, prof.Əziz Əfəndizadə, prof.Bəşir Əhmədov, prof.Yəhya Kərimov, prof.Həsən Balıyev və başqalarının monoqsopiyalarından, habelə onların yetirmələrinin əsərlərində "Böyük didaktika"ya istinadlar edilmiş, şərhlər verilmişdir.

Müasirimiz professor Fərahim Sadiqov vaxtilə "Böyük didaktika" müəllifinin-Yan Amas Komenskinin qəbri üzərinə Azərbaycan pedaqoqlarının adından əkillər düzmüş, xeyli şəkillər çəkdirib gətirmişdir. Bu da onu göstərir ki, Azərbaycan pedaqoqları klasik irsə nə qədər bağlıdırlar və həm də sədaqətli olaraq qalırlar.

"Böyük didaktika" təbir nəzəriyyəsidir. Həmin nəzəriyyə bizim dildə belə anlaşılır: O şey ki, nələrlə əlaqə və vəhdətdədir, onu həmin şeylərlə də əlaqə və vəhdətdə də öyrətmək lazımdır. "XX əsrin rus pedaqoqları da nəzəriyyəni çox sadələşdirmiş və hətta öz adlarına çıxmışlar demişlər:" hər şeyi əlaqə və vəhdətdə öyrətmək lazımdır.

Bizim qənaətimizə görə,həmin nəzəriyyəni daha təkminləşdirmək,geniş,əhatəli şəklə salmaq da mümkün idi,sadələşdimək üslubi-məqamına görə ola bilər, lakin əlbəttə,hesab edirik ki,bu nəzəriyyə təkcə təlimə görə əhəmiyyətli deyil, əvvəlcə daha çox tədqiqə görə əhəmiyyətlidir.Məsələn fonetika – fono-leksika,fono-morfologiya,fono-sintaksis,fono-tekst,o cümlədən orfoqrafiya, orfoepiya, səs-söz,morfologiya,leksika,morfologiya-sintaksis…əlaqə və vəhdədlə tədqiq olunursa, deməli, bu cür müqayisəli əsasda da əlaqə və vəhdətdə də öyrədilməlidir.

Bu mülahizələrimizi bir qədər də yığcamlaşdırsaq, aşağıdakı tezisləri irəli sürə bilərik.

1. Azərbaycan dili fənnin məzmun metodunun dərk etmək metodistin də, didaktik dərs edə biləcəyindən qabaq dilçinin biləcəyi dildə məsələ deməlidir. O öz yaxasını düzəldib boynunu dik tutmamalı və deməlidir ki, mən dilçiyəm, metodika elə də vacib deyil.Belə demək elmi etikaya sığmır.

2. Linqvodidaktika əslində dil qaydalarını necə öyrətməyə görə olan alimlərə yox,yalnız dil qaydalarını öyrədənlərə deyilməlidir.Bu terminin çəkisi 2008-ci ildən yazılan proqramlarda və dərsliklərdə xeyli daralmışdır.Çünki Azərbaycan dili təliminin tərkibində dil qaydalarına əməl dinləyib –anlama və danışma ,oxu və yazı məzmun xətləri də vardır.Deməli, dil təlimi ilə məşğul olan alim nə linqvodidakt, nə də linqovometodistdir.Onlara dil-danışıq təliminin metodları ilə məşğul olursa- metodist,dərslərin qurulması, strukturu, tipləri vəs. ilə məşğul olursa, didaktik demək daha düzgündür.

3. Azərbaycan dilinin məzmun xətləri dinləyib-anlamadan və danışmadan başlayırsa, bu didaktikanın məntiqi sayılır. Çünki dinləməyən anlamaz,anlamayan danışa bilməz.

4. Oxu məzmun xətti hazırda ənənəvidən fərqli olaraq, IX sinifdə qurtarmır, IX sinifdə də davam edir. Bu rabitəli nitqdə hesabatların didaktikasıdır.

5. Oxu materialı xüsusi mətnlər ifadəli materiallıdır. Oxu obyekt deyil, yeni didaktikamız da belədir ifadə inşaya çevrilmişdir(şifahidə ola bilər, yazılı da).

6. Məzmun xətlərində tək birinə dair konkret məsələlərdə digər standartlar da reallaşdırılır. Bu da yeni didaktikadır.

7. Linteraktiv metodların mövzuya,dərsə uyğun seçilib tətbiq edilməsi yeni metodik təfəkkürdür, həmçinin də elə böyük didaktikadır.

8. İrinüsxəli inşalardan esselərə getmək, istənilən mətnin məzmununa uyğun bədii hekayələr qurmaq inkişafetdirici təlimdir.

Bunlar Elkomn Davider nəzəriyyəsinin Azərbaycan dili təliminə tətbiqdir.

9. Azərbaycan dili təliminə düz monoqrafiyalardır. 1) nitq mədəniyyəti 20 nitq inkişafı 3) ədəbi tərbiyyə didaktikası göndərilib A.Abdullayev, Əziz Əfəndizadə, Bəşir Əhmədov, Yəhya Kazımov, Həsən Babayev möhkəm sütünlardır. Bu metodistlər prof. Ağasəlim Rəhimov, Nəbat Cəfərova Ənvər Abbasov keçmişlə belə qiymət verməyi məsləhət görürük.

Açar sözlər: *böyük didaktika, çex-slavyan pedaqoqu, Azərbaycan pedaqoqları, metodları haqqında elm-metodoloq, dilçiliyin fəlsəfəsi, yeni didaktik-metodik qənatlərimiz.*

İBTİDAİ TƏHSİLİN AZƏRBAYCAN DİLİ KURSUNDA FOLKLOR MATERİALLARININ ÜMUMİLƏŞDİRİCİ DƏRSLƏRDƏ EKSPERİMENTAL TƏHLİLİNƏ DAİR TEZİSLƏR

Sahilə ABBASOVA
sahileli.uni@gmail.com
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məktəb öz sifarişini həyatdan alır. Həyat üçün insanlar yetişdirilir. "Təhsil millətin gələcəyidir. Müstəqil dövlətin möhkəmləndirilməsi məqsədinə xidmət edir" (H.Əliyev).

Qərbi Azərbaycanşünaslıq folkloru da təhsilin məzmununa xidmət edir və bu mənada deyirlər ki, folklor tarixi cəmiyyətin, millətin tarixidir. Onu Azərbaycanşünaslıqdan kənarda təsəvvür etmək mümkün deyil. Biz burada Azərbaycan dili dərsliklərində folklor materiallarını ümumiləşdirici çalışmalarla, eksperimental yolla necə yoxladığımızdan danışacağıq. Hələlik bu barədə tezisləri təqdim edirəm:

1. Azərbaycan dilindən ibtidai kursda folklor materialları nəzəri cəhətdən öyrədilir, praktik cəhətdən qiymətləndirilir; təlim məqsədləri, təlim nəticələri və standartlarına dair didaktik materiallardan istifadə olunur.

2. Dərsliklərdən və metodik vəsaitlərdən, əlavə resurslardan, öyrədici vasitələrdən bu məqsədlə müxtəlif cür istifadə olunur və bu barədə müəllimin nəzərinə çatdırılan tövsiyələr də var.

3. Ümumiləşdirici təkrar və ya ümumiləşdirici dərslər çalışmalar vasitəsilə keçirilir. Lakin həmin çalışmalar çox ümumi xarakter daşıyır, çünki 4 məzmun xəttinə daxil olan (dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları) hər bir məzmun xəttinin standartlarını əhatə edə bilmir və bunu müəllim üçün metodik vəsaitlərdə vermək də çətindir. Bu işi, yəni folkloru müəllim bir-iki çalışma ilə ümumiləşdirici təkrar sisteminə daxil edə bilər.

4. Biz Azərbaycan dilində IV siniflərdə yeni bir ümumiləşdirici çalışmalardan istifadə etməyi eksperimental sınaqdan keçirmişik:

a) folklora dair materiallardan sonrakı ümumiləşdirici dərslərdə;

b) ilk siniflər üzrə illik yekun ümumiləşdirici dərslərdə;

c) IV sinfin sonundakı ümumiləşdirici dərslərdə və s.

5. Folklora dair ümumiləşdirici çalışmalara bütün sinif qoşulur, lakin fəallaşdırıcı güc, istiqamətverici hərəkət yenə də lider şagirdlərin üzərinə düşməlidir.

6. Ümumiləşdirici folklor dərslərdə laylalar, bayatılar, oxşamalar, atalar sözləri, məsəllər, müdrik kəlamlar, tapmacalar, sanamalar, alliterasiyalar, assonanslar, nağıllardan, dastanlardan və s. parçaların üzərində iş aparılması ilə qiymətləndirilmə nəzərdə tutulmalıdır.

7. Bilmək lazımdır ki, I-IV siniflərdə öyrənilən heç bir folklor materiallarına biganə qalmaq olmaz. Atalar sözləri ən ümumiləşdirici kəlam sayıldığı kimi, məsəllər də, rəvayətlər də (Məsələn: Molla Nəsirəddin rəvayətləri, Bəhlul Danəndə rəvayətləri və s.) ünsiyyət üçün çox dəyərli və əhəmiyyətlidir.

8. Folklora dair ümumiləşdirici çalışmalarla bir öyrədici eksperimentdə istifadə etmiş və

nəticələrini təkliflərlə birlikdə elmi müddəalar şəklinə salıb müdafiəyə təqdim etmək fikrindəyik.

9. Konfransın gedişində həmin materialı hörmətli həmkarlarımla bölmək və onların da qeyd, təklif və məsləhətləri ilə tədqiqat işimi təkmilləşdirmək istəyirəm.

10. Tədqiqat işinə Qərbi Azərbaycan folklorundan nümunələri də ümumiləşdirici təkrara daxil etmişik.

Açar sözlər: *Qərbi Azərbaycan problemləri, folklorşünaslıqda, folklor materialları, ümumiləşdirici deyimlər, eksperimental təhlil, lider şagirdlər, nəticələr, çalışmalar, gözlənilən nəticələr, son nəticələr*

ƏDƏBİYYAT

1. I-IV siniflər üzrə "Azərbaycan dili" dərslikləri və müəllim üçün metodik vəsaitlər (MMV) 2018-2022-ci il nəşrləri.
2. Qərbi Azərbaycan folklor ədəbiyyatına dair şifahi nəzəriyyələr. 2018-ci il (seçmə yolla, bayatılar fəslindən).

QƏDİM YURD QƏRBİ AZƏRBAYCANIN MAARİFPƏRVƏR MÜƏLLİMİ MİRZƏ MƏMMƏDVƏLİ QƏMƏRLİNSKİNİN PEDAQOJİ FƏALİYYƏTİ

Hüzürə HACIZADƏ
hacizadehuzure@ndu.edu.az
Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Qədim Yurdumuz, doğma torpağımız Qərbi Azərbaycan ən qədim dövrlərdən xalqımızın sadəcə yaşayış məskəni olmamışdır, həm də elm, təhsil, mədəniyyət mərkəzlərindən olmuşdur. Bu qədim Türk torpağı Mirzə Qədim İrəvani, Fazil İrəvani, Axund Molla Məhəmməd İrəvani, Əbülqasım İrəvani Mirzə Ələkbər Elxanov və s. kimi şəxsiyyətləri bizə bəxş etmişdir. XIX əsr kimi çətin və qarışıq bir dövrdə belə bu ərazilərdə elm, təhsil, olmuş və bir sıra görkəmli maarifçilər fəaliyyət göstərmişdir. qeyd edək ki, sonlarında İrəvan şəhərində, Uluxanlı, Vedibasar, Göyçə və Zəngəzur mahallarında məktəblər mövcud idi. İrəvan Şəhəri isə o vaxtlar Qafqazın ən inkişaf etmiş mədəni mərkəzlərindən biri kimi sayılırdı. Azərbaycanın bir parçası olan bu torpaqlarda sayılıb-seçilən ziyalılar nəsli yetişmişdi. Mirbabayevlər, Qazıyevlər, Mirbağırovlar, Topçubaşovlar, Məmmədzadələr və s. kimi adlı-sanlı nəsillərin nümayəndələri yetişmişlər. Belə ailələrdən biri də Qəmərlinski ailəsi olmuşdur. Məqalədə Qəmərlinski ailəsində dünyaya göz açmış Mirzə Məmmədvəli Qəmərlinskinin pedaqoji fəaliyyətinə yer verilmişdir. Mirzə Məmmədvəli Qəmərlinskinin İrəvan Ədəbi mühitindəki fəaliyyəti, hazırladığı dərsliklər, təhsil tariximizdə göstərdiyi xidmətlər qeyd edilmişdir. Mirzə Məmmədvəli haqqında araşdırma aparılmışdır, xatirələri, təhsil sahəsində gördüyü işlər haqqında dərc olunan məlumatlar toplanaraq ümumiləşdirilmişdir. Mirzə Məmmədvəli Qəmərlinskinin təhsil tariximizdəki rolu əvəzsizdir, xalqımız belə Dəyərlərimizi daha yaxından tanımalı, onları oxuyub öyrənməlidir.

Açar söz: *Qərbi Azərbaycan, təhsil, İrəvan şəhəri, pedaqoji fəaliyyət, dərslik, elm.*

SUMMARY

Hajizade Huzura

THE PEDAGOGICAL ACTIVITY OF MIRZA MAMMADVALI GHAMARLINSKY, THE EDUCATIONAL TEACHER OF THE ANCIENT LAND OF WESTERN AZERBAIJAN

Our ancient homeland, our native land, West Azerbaijan, has not only been a place of residence of our people since ancient times, but also a center of science, education, and culture. This ancient Turkish land was owned by Mirza Gadim Iravani, Fazil Iravani, Akhund Molla Muhammad Iravani, Abulgasim Iravani Mirza Alakbar Elkhanov, etc. has given us such personalities. Even in a difficult and turbulent period like the 19th century,

science, education, and a number of outstanding educators were active in these areas. Let's note that at the end there were schools in Yerevan city, Ulukhanli, Vedibasar, Goycha and Zangezur districts. The city of Iravan was considered one of the most developed cultural centers of the Caucasus at that time. A generation of distinguished intellectuals grew up in these lands, which are a part of Azerbaijan. Mirbabayevs, Gaziyevs, Mirbagirovs, Topchubashovs, Mammadzades, etc. representatives of generations with names and numbers have grown up. One of such families was the Gamarlinski family. In the article, the pedagogical activity of Mirza Mammadvali Gamarlinski, who opened his eyes to the world in the Gamarlinski family, is given. The activities of Mirza Mammadvali Gamarlinski in Yerevan Literary environment, the textbooks he prepared, the services he rendered in our educational history are mentioned. A study was conducted about Mirza Mammadvali, the published information about his memories and work in the field of education was collected and summarized. The role of Mirza Mammadvali Gamarlinski in our educational history is irreplaceable, our people should get to know our Values more closely, read and learn them.

***Key words**: Western Azerbaijan, education, Iravan city, pedagogical activity, textbook, science*

FOTOQALEREYA








MUZEY















Fuad NƏCƏFLİ
Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi



Emin ƏMRULLAYEV
Azərbaycan Respublikasının Elm və Təhsil naziri



Elbrus İSAYEV
Naxçıvan Dövlət Universitetinin rektoru



Əziz ƏLƏKBƏRLİ
Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri,
Milli Məclisin deputatı



Mahirə Hüseynova

Qərbi Azərbaycan İcmasının üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxaq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor



Səbinə Əliyeva

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)


Freeze
NƏSİL AĞACI
SƏNƏDLİ FİLMİ






NDU


QƏRBİ AZƏRBAYCAN-TARİXİ TORPAQLARIMIZ


İRƏVAN
QRUPU












"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞA GEDƏN YOL"
KONQRES














ÇALXANQALA
BƏLƏDİYYƏSİ


Naxçıvan və İrəvan xan ailəsinin 117 il əvvəl çəkilmiş birgə şəkli


















Qərbi Azərbaycanda soydaşlarımızın
çəkdirdiyi fotoşəkillər


QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALI
G Ö Y Ç Ə
KƏLBƏCƏR
VEDİ
DƏRƏLƏYƏZ
SİSYAN
BABƏK
Ş A H B U Z
BU XƏRİTƏ TARİXİ MƏNBƏ VƏ XƏRİTƏLƏRİN ƏSASINDA TƏRTİB EDİLMİŞDİR.
PROF. H.İ.MİRZƏYEV





MEDİA DƏSTƏYİ

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

“QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ”
Beynəlxalq festival-konqresin
M A T E R İ A L L A R I

Çapa imzalanmış 12.06.2024.
Formatı 50X70 1/8. “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 77.5 ç.v.
Sifariş № 168. Tiraj 200 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14.